ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF
AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
CONFERENCE PROCEEDINGS

2022 № 1

SUMQAYIT - 2022

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2022 № 1

SUMQAYIT – 2022
СУМГАИТ – 2022
SUMGAYIT – 2022

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV	*prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV	*prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV	*prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA	*prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ	*проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ	*проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ	*проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА	*проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV	*prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV	*prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV	*prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA	*prof., (executive secretary of the department of social and humanitarian sciences)*

QARABAĞIN TARİXİ:
SİYASİ, İQTİSADİ, MƏDƏNİ ASPEKTLƏR

BEYNƏLXAQ ELMİ KONFRANS
(17-18 mart 2022)

ИСТОРИЯ КАРАБАХА: ПОЛИТИЧЕСКИЕ, ЭКОНОМИЧЕСКИЕ, КУЛЬТУРНЫЕ АСПЕКТЫ

МЕЖДУНАРОДНАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ
(17-18 марта 2022)

HISTORY OF KARABAKH: POLITICAL, ECONOMIC, CULTURAL ASPECTS

INTERNATIONAL SCIENTIFIC CONFERENCE
(*March 17-18, 2022*)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

“QARABAĞIN TARİXİ: SİYASİ, İQTİSADİ, MƏDƏNİ ASPEKTLƏR”

BEYNƏLXALQ ELMİ KONFRANS
17-18 mart 2022

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

«ИСТОРИЯ КАРАБАХА: ПОЛИТИЧЕСКИЕ, ЭКОНОМИЧЕСКИЕ, КУЛЬТУРНЫЕ АСПЕКТЫ»

МЕЖДУНАРОДНАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ
17-18 марта ***2022***

MINISTRY OF EDUCATION OF AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

“HISTORY OF KARABAKH: POLITICAL, ECONOMIC, CULTURAL ASPECTS"

INTERNATIONAL SCIENTIFIC CONFERENCE
March 17-18, 2022

Sumqayıt - 2022

TƏŞKİLAT KOMİTƏSİ
ОРГАНИЗАЦИОННЫЙ КОМИТЕТ
ORGANIZING COMMITTEE

SƏDR

Hüseynov E.B.	SDU-nun rektoru, professor

SƏDR MÜAVİNİ

Məmmədov R.S.	SDU-nun Elm və innovasiyalar üzrə prorektoru, professor

ÜZVLƏR

Talıbov N.H.	SDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent
Atayev Q.N.	SDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent
Hüseynov R.A.	SDU-nun Humanitar məsələlər üzrə prorektoru, dosent
Hacıyev N.İ.	SDU-nun İqtisadi məsələlər üzrə prorektoru
Məmmədov Ə.A.	SDU-nun Ümumi işlər üzrə prorektoru
Baxşəliyev A.B.	SDU-nun Tarix və coğrafiya fakültəsinin dekanı, professor
Səlimov Ş.D. ***(məsul katib)***	SDU-nun Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri, professor
Ağayev T.D.	SDU-nun Coğrafiya və onun tədrisi metodikası kafedrasının müdiri, professor
Məhərrəmova S.S.	SDU-nun Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, dosent
Rzaquliyeva S.D.	SDU-nun Fəlsəfə, sosiologiya və politologiya kafedrasının müdiri, dosent
Orucov S.K.	SDU-nun Elmi hissəsinin müdiri, dosent
Fətullayeva S.A.	SDU-nun Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsinin müdiri
Abdullayev A.N.	SDU-nun Linqvistik mərkəzin rəhbəri

PROQRAM KOMİTƏSİ
ПРОГРАММНЫЙ КОМИТЕТ
PROGRAM COMMITTEE

Yaqub Mahmudov	akademik, Azərbaycan
Musa Qasımlı	AMEA-nın müxbir üzvü, Azərbaycan
Adil Baxşəliyev	professor, Azərbaycan
Anar İsgəndərov	professor, Azərbaycan
Elçin Əhmədov	professor, Azərbaycan
Hikmət Məmmədov	professor, Azərbaycan
İbrahim Kazımbəyli	professor, Azərbaycan
İbrahim Zeynalov	professor, Azərbaycan
Şikar Qasımov	professor, Azərbaycan
Şirxan Səlimov	professor, Azərbaycan
Vəkil Həsənov	professor, Azərbaycan
Dr.Ahmet Yüksel	professor, Türkiyə
Dr. Gürsoy Şahin	professor, Türkiyə
Dr. Hayri Çarpaz	professor, Türkiyə
Dr. Mehmet Ali Karaman	dosent, Türkiyə
Quram Marxuliya	professor, Gürcüstan
Daniyal Kidirniyazov	professor, Rusiya
Ruslan Vildanov	dosent, Rusiya

PLENAR İCLAS
ПЛЕНАРНОЕ ЗАСЕДАНИЕ
PLENARY SESSION

GENERAL ANALYSIS OF TURKEY-AZERBAIJAN RELATIONS FROM THE CAUCASIAN ISLAMIC ARMY TO THE KARABAKH VICTORY

Ibrahim E.A.
Turkish National Defense University, Ankara, Türkiyə

The pleasure of Azerbaijan is our pleasure, its sorrow is our sorrow
Mustafa Kemal Atatürk

Keywords: *Turkey, Azerbaijan, Caucasian Islamic Army, Karabakh Victory, International Relations*

After February and October of 1917, the socio-political situation also changed in the Caucasus. Declaring its independence on May 28, 1918, the Azerbaijan Democratic Republic governed first in Tbilisi, later in Ganja. Because Baku was under the occupation of Armenian Dashnak gangs and their allies Soviet-British forces. In the occupied area, Armenian Dashnak gangs were committing brutal massacres against Azerbaijani Turks. The Azerbaijan Democratic Republic first signed a Peace and Friendship Agreement with the Ottoman state on June 4, 1918. After that, the Ottoman state came to the aid of the establishment of the young Azerbaijani state with a sense of fraternity in every circumstance, and assigned the Caucasian Islamic Army with the mission of independence, especially in order to stop the genocide policy of the Armenian-Bolshevik armed gangs in Azerbaijan. On September 15, 1918, the Caucasian Islamic Army liberated Baku and the Republic Government was moved to the Baku solemnly, and the capital of the ADR was replaced from Ganja to Baku.

Turkey has always stood by Azerbaijan within its 23 month duration supportively. Even though the occupation of Azerbaijan by the Bolsheviks left its independence halfway, Turkey did not leave its brother Azerbaijan. Leader Mustafa Kemal Atatürk signed the Moskva and Kars Agreement with Bolshevik Russia in order to protect the territorial integrity of Azerbaijan.

Turkey was the first state to recognize our sovereignty when Azerbaijan declared its independence in 1991. In the words of the Great Leader Haydar Aliyev, the Republic of Turkey stood by Azerbaijan in all matters, expressing "one nation, two states" principle. The occupation of Azerbaijani lands by Armenia for more than 30 years was also the bleeding wound of the Turkish Republic. Victory in the ‘44 days Homeland War’ in 2020, was the perpetuation of the incomplited independence mission of the Caucasian Islamic Army in 1918 and proof of brotherhood.

Turkey-Azerbaijan relations are not like classical interstate relations. There are the vital realities of the two countries in these relations undoubtedly. However, it should not be forgotten that the real dimension is brotherhood. Baku Muslim Community Charity, Caucasian Islamic Army and Karabakh Victory are the turning points of the relationship between them.

AZƏRBAYCANIN İKİNCİ QARABAĞ MÜHARIBƏSİNDƏ TARİXİ QƏLƏBƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR VƏ DİPLOMATİK UĞURLARI

Əhmədov E.İ.
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, Azərbaycan
elchin_ahmedov@yahoo.com

Açar sozlər: *Azərbaycan Respublikası, Qarabağ, hərbi-diplomatik uğurlar, informasiya müharibəsi, Şuşa, mədəniyyət paytaxtı, Şuşa Bəyannaməsi.*

Azərbaycanın Vətən müharibəsindəki hərbi-diplomatik uğurları. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə dövlətimizin başçısının ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli Ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğalı altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığ ırt, ,Su kü rataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu (16).

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirirdi. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi (19).

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi (21).

Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi (4). Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir (19).

Azərbaycanın İkinci Qarabağ müharibəsində Qələbəsində beynəlxalq təşkilatların sənədləri əsas hüquqi baza oldu. Son illər ərzində aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər. Bu, münaqişənin həlli üçün əsas amillərdən biri oldu. İlk növbədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 4 qətnamə (822, 853, 874, 884) icra edilməli idi. 2021-ci il iyunun 26-da Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə bildirdi ki, biz beynəlxalq hüququn bizim tərəfimizdə olmasını, eləcə də Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut etməli idik: "Nə üçün sübut etməli idik? Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular. Əfsuslar olsun ki, ermənipərəst qüvvələr, Ermənistanın xaricdəki havadarları bu saxta reallığı gerçəyə çevirməyə çalışırdılar. Bizim isə imkanlarımız çox məhdud idi. Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi" (9).

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni

dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır (13). BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi qəbul edilməlidir.

Bu illərdə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənib. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olundu. Həmçinin 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün Yekun Bəyannaməsində də Alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörməti öz əksini tapıb (20). Onlar regiondakı mövcud münaqişələrin məhz bu prinsiplər əsasında həll olunmasının zəruriliyini bildirdilər.

Bununla yanaşı, 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı (15). Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər (22). Zirvə görüşü iki gün ərzində beynəlxalq münasibətlər sistemində ən mühüm hadisə oldu. Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğurudur. Bununla yanaşı, son iki ildə ölkəmizin ev sahibliyi etdiyi, eləcə də dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər son 17 ildə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltdi.

Ermənistanı tərəfindən Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətininin beynəlxalq aləmdə ifşası. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında (1) və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında (2), oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi (14). 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələr (17) zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində (6) Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Mühüm beynəlxalq toplantılarda "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanır və heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində diqqətə çatdırıldı ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları əsassızdır, tarixi faktların və beynəlxalq hüquq prinsiplərinin ermənisayaq təfsirindən başqa bir şey deyil. Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycanın işğal altında olan ərazilərində hərbi gücdən istifadə nəticəsində formalaşdırılmış oyuncaq, qeyri-qanuni və heç bir dövlət tərəfindən tanınmayan qondarma qurumun rejimini tanıtmaq üçün göstərdiyi cəhdlər beynəlxalq hüquqa ziddir və heç bir əsası yoxdur. Çünki Dağlıq Qarabağ bölgəsinin erməniləri digər ölkələrdə yaşayan ermənilər kimi, Azərbaycanda yaşayan milli azlıqlardan biridirlər.

Eyni zamanda, xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bununla yanaşı, əgər bütün xarici ölkələrdə yaşayan erməni icmaları yaşadıqları həmin ölkələrin ərazilərində "öz müqəddəratını təyin etmək" adı ilə yeni süni dövlətlər yaratsalar, bu halda dünyada, o cümlədən Fransada, ABŞ-da, Rusiyada, Gürcüstanda, Azərbaycanda, Livanda, Argentinada və erməni icmaları yaşayan digər ölkələrdə yüzlərlə yeni qondarma erməni "dövlətləri" yaradıla bilər?! Bu baxımdan, ermənilərin öz müqəddəratını təyinetmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə dövlətlərin ərazi bütövlüyü, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Bu baxımdan Prezident İlham Əliyev Ermənistanın baş nazirinin diqqətinə çatdırdı ki, erməni xalqı öz müqəddəratını artıq təyin edib, onların erməni dövləti var: "Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!" (17)

Dövlət başçısı İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca, bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, Azərbaycanın öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirib. Eyni zamanda, bu mübarizədə ədalətin Azərbaycanın tərəfində olduğunu söyləyən Prezident İlham Əliyev dünyaya bəyan edib ki, Azərbaycan bundan sonra da öz prinsipial mövqeyindən dönməyəcək.

Azərbaycan Prezidenti bildirmişdir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər" (3).

Dövlət başçısı hər zaman mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan edib. Xüsusilə son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı.

Nəticədə, Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 günün ərzində reallığa çevrildi.

Azərbaycan Prezidentinin prinsipial mövqeyi informasiya məkanında da uğurlarımızı təmin etdi. Qeyd etmək vacibdir ki, 2016-cı ilin Aprel döyüşləri – Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasına son qoydu. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü 30 ildən artıqdır ki, yürütdüyü işğalçılıq siyasəti, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Azərbaycan Prezidentinin Vətən müharibəsi ərəfəsində və gedişində günlər ərzində 30-a qədər xarici KİV təmsilçilərinin, xüsusilə "Əl-Cəzirə", "Əl-Ərəbiyə" "TRT Haber", "Pervıy Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK", "Haber Global", "Haber Türk", "NTV", "France 24", televiziya kanallarına, Rusiyanın TASS, Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir" (10).

Hər zaman, xüsusilə, Münxen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Azərbaycanın hərb meydanında tarixi Qələbəsini yüksək dəyərləndirən dünyanın bir sıra hərbi-siyasi ekspertlərinin fikirlərini Ukraynanın "İnter" telekanalının müxbiri də təsdiq etdi: "Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat mənim fikrimcə, həm hərbi texnologiyaların tətbiqi baxımından, ən başlıcası, dinc əhali və hərbçilər arasında tələfatın minimuma endirilməsi, həm də yeni hərbi texnologiyaların tətbiqi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu, bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcək" (10).

Bu baxımdan, bir sıra aparıcı beynəlxalq KİV-lərə müsahibələrində Prezident İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu xadimlərin, beynəlxalq ekspert və siyasətçilərin sayını daha da artırıb, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək informasiya müharibəsində də tarixi ədalətin Zəfər çaldığını göstərdi. Prezident İlham Əliyevin həm Vətən müharibəsinin gedişi dövründə, həm də fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-lərinin gündəmində, əsas xəbər başlıqlarında yayılaraq Azərbaycan həqiqətləri bütün dünyaya çatdırıldı.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirmişdir ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik.

Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsası qoyuldu. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi biz döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də Qələbə qazandıq.

Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası. Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində bildirmişdir ki, bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq!"(8).

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı Sərəncama əsasən noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin Sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı (12).

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik" (5).

Şuşaya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev diqqətə çatdırdı ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilmişdir. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Bu baxımdan, strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayan dövlət başçısı bildirmişdir ki, bu, bizim qədim, tarixi şəhərimizdir və əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıblar: "Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik...O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır" (5).

Prezident İlham Əliyev bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz". Dövlət başçısı bildirmişdir ki, mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycan memarlıq üslubunu əks etdirməli, çox zəngin mədəni həyat olmalı və Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar.

2021-ci il martın 16-da işğaldan azad ediləndən sonra Şuşaya ikinci dəfə səfər edən Prezident İlham Əliyev M.P.Vaqifin məqbərəsinin bərpa işləri ilə tanış oldu (7). Bərpa işlərini Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu icra edir. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar. Bu baxımdan, layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcəkdir. Bununla yanaşı, Şuşada Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacadır. Səfər zamanı Prezident İlham Əliyev diqqətə çatdırdı ki, artıq bərpa, quruculuq işlərinə başlanılmış, infrastruktur layihələrinə start verilmişdir.

Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarıbülbül Qarabağın azadlıq rəmzi oldu. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim etmək üçün 28 il ərzində çalışmış lakin buna nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, ermənileşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi.

Strateji əhəmiyyətli Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək demişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır".

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı Sərəncamında vurğulanır ki, şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri etdi (18).

Şuşa - Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir.

Bununla yanaşı, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarıbülbül Qarabağın azadlıq rəmzidir. 2021-ci il mayın 12-13-də hər bir azərbaycanlı üçün müqəddəs məkanda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalı keçirildi. Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" musiqi festivalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həm də cavab oldu.

Şuşa Bəyannaməsinin tarixi və siyasi əhəmiyyəti. 2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad edilən, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisədir (11).

Müttəfiqlik münasibətləri haqqında Bəyannamənin əvvəlində Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində iki qardaş dövlətin prezidentlərinin görüşünün mühüm əhəmiyyəti vurğulanır, 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilir.

Həmçinin, bu tarixi sənəddə 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"nin və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"un, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin rəhbər tutulduğu bildirilir.

Bununla yanaşı, işğaldan azad edilmiş Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında birgə Bəyannamədə iki qardaş və dost dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri göstərilir. Bu tarixi sənəddə bir çox mühüm məsələlər, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, xüsusilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edərəkə bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğuladılar.

Sənəddə göstərilir ki, Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər. Bununla yanaşı, sənəddə xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyi qeyd edilir və bu istiqamətdə iki dövlət arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyəti vurğulanır.

Bununla yanaşı, bildirilir ki, hər iki dövlət müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər. Eyni zamanda, göstərilir ki, tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Sənəddə Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğu vurğulanaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səyləri qətiyyətlə dəstəklənir.

Həmçinin, Şuşa Bəyannaməsində siyasi, iqtisadi-ticarət, mədəniyyət və digər bütün sahələri əhatə edən birgə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Sənəddə həm tarixi, həm siyasi, həm də hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş şəkildə birgə fəaliyyətin əks olunması hər iki dövlətin milli maraqları baxımından müstəsna əhəmiyyət kəsb edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxışlarında bildirdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaqdır.

Azərbaycan Prezidenti diqqətə çatdırmışdır ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Ermənistanda revanş haqqında düşünənlər Azərbaycanın dünyaya nümayiş etdirdiyi XXI əsrin müharibə nümunəsini unutmasınlar. Dövlət başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

ƏDƏBİYYAT

1. Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı. – 03.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1338718
2. Azərbaycan Prezidenti İlham Əliyevin Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı. – 11.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1341121
3. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti. – 24.10.2020. - https://azertag.az/xeber/1622977
4. Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi. – 26.11.2020. - https://azertag.az/xeber/ -1651629
5. Azərbaycan Prezidenti İlham Əliyevin Füzuli rayonuna və Şuşa şəhərinə səfəri. – 15.01.2021. - https://azertag.az/xeber/ VIDEO-1688523
6. Azərbaycan Prezidenti İlham Əliyevin Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammitində çıxışı. – 19.06.2020. - https://azertag.az/xeber/ VIDEO-1516471
7. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə səfəri. – 16.03.2021 - https://azertag.az/xeber/ VIDEO-1735497
8. Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti. – 08.11.2020. - https://azertag.az/xeber/ VIDEO-1636809
9. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşü. – 26.06.2021. - https://azertag.az/xeber/ VIDEO-1817501
10. Azərbaycan Prezidenti, İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı – 26.02.2021. - https://azertag.az/xeber/ VIDEO -1722043
11. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. – 15.06.2021. - https://azertag.az/xeber/1808083
12. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 03.12.2020. - https://azertag.az/xeber/ -1657265
13. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə Bəyanatı. - "Azərbaycan" qəz., 25 oktyabr 2011.

14. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü. – 25.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1347207
15. Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü. – 15.10.2019. - https://azertag.az/xeber/ VIDEO-1342635
16. İşğaldan azad edilmiş şəhər və kəndlərimiz. - 01.12.2020. - https://azertag.az/xeber/ -1622227.
17. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr. – 16.02.2020. - https://azertag.az/xeber/ VIDEO-1415483
18. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - 07.05.2021. - https://azertag.az/xeber - 1775545
19. 2020-ci il sentyabrın 27-dən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan əks-hücum əməliyyatları ilə bağlı mühüm hadisələrin xronikası. - https://files.preslib.az/site/qarabag/xronika_az.pdf.
20. BRUSSELS SUMMIT DECLARATION Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Brussels 11-12 July 2018. - https://www.mfa.gov.az/files/documents-of-international-organizations-on-the-armenia-azerbaijan-conflict.pdf
21. Statement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation. – 10 november 2020.- https://en.president.az/articles/45923
22. 18th Summit of Heads of State and Government of the Non-Aligned Movement. Baku, the Republic of Azerbaijan 25 - 26 October 2019. FİNAL DOCUMENT. Baku, Azerbaijan, 25-26 October 2019; bax: DOCUMENTS OF INTERNATIONAL ORGANIZATIONS ON THE ARMENIA-AZERBAIJAN CONFLICT. - https://www.namazerbaijan.org/pdf/BFOD.pdf

SUMMARY

FACTORS AND DIPLOMATIC SUCCESS, DETERMINING HISTORICAL VICTORY OF AZERBAIJAN IN THE SECOND KARABAKH WAR

Ahmadov E.

The article analyzes the historical victory of Azerbaijan in the Second Karabakh War. At the beginning of the article, Armenian's ethnic cleansing, genocide, state terrorism and international exposure of the policy of aggression against Azerbaijan are widely investigated.

At the same time, the large-scale and successful counter-offensive operations launched by the brave Azerbaijani Army in Karabakh to liberate the Azerbaijani lands occupied by Armenia under the leadership of President, Supreme Commander-in-Chief Ilham Aliyev are analyzed. It is noted in the article that the decisive and principled position of President Ilham Aliyev conditioned Azerbaijan's success in the field of diplomacy, as well as in the military field. Also, along with Azerbaijan's military and diplomatic victories, important achievements in the information space are also analyzed separately.

In particular, the article assesses the liberation of Shusha as a result of the military-diplomatic success of Azerbaijan, which had a decisive influence on the subsequent outcome and fate of the war. In addition, the historical and military-strategic significance of Shusha, the cultural capital of Azerbaijan are explained. On November 8, 2020 after the liberation of Shusha from occupation, the work carried out to restore the true historical image, traditions and ancient cultural monuments of the city were investigated widely. At the same time, the historical and political significance of the Shusha Declaration on Allied Relations signed between the Republic of Azerbaijan and the Republic of Turkey are analyzed.

Key words: *The Republic of Azerbaijan, Karabakh, military-diplomatic success,* ***Shusha, cultural capital, Shusha*** *Declaration*

РЕЗЮМЕ

ФАКТОРЫ И ДИПЛОМАТИЧЕСКИЙ УСПЕХ, ОПРЕДЕЛЯЮЩИЕ ИСТОРИЧЕСКУЮ ПОБЕДУ ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ АЗЕРБАЙДЖАНА

Ахмедов Э.

В статье широко анализируется историческая Победа Азербайджана во Второй Карабахской войне. В начале статьи подробно исследуется разоблачение армянской политики этнической чистки, геноцида, государственного терроризма и захвата против Азербайджана.

В то же время анализируются широкомасштабные и успешные контрнаступательные операции, начатые под руководством Президента, Верховного главнокомандующего Ильхама Алиева доблестной Азербайджанской армией в Карабахе по освобождению оккупированных Арменией азербайджанских земель. В статье отмечается, что решительная и принципиальная позиция Президента Ильхама Алиева обусловила успехи Азербайджана как в военной сфере, так и на дипломатической площадке. Наряду с военной и дипломатической победами Азербайджана, также отдельно анализируются важные достижения в информационном пространстве.

В частности, освобождение города Шуша расценивается как результат военно-дипломатического успеха Азербайджана, оказав решающее влияние на дальнейший ход и судьбу войны. Кроме того, раскрывается историческое и военно-стратегическое значение Шуши – культурной столицы Азербайджана. В статье широко исследуется работа, проделанная по восстановлению истинного исторического облика, традиций и древних памятников культуры города после освобождения Шуши от оккупации 8 ноября 2020 года. В то же время раскрывается историческое и политическое значение Шушинской декларации о союзнических отношениях, подписанной между Азербайджанской Республикой и Турецкой Республикой.

Ключевые слова: *Азербайджанская Республика, Карабах, военно-дипломатический успех, Шуша, культурная столица, Шушинская декларация*

ОСВОБОДИТЕЛЬНАЯ ВОЙНА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА И СИНТЕТИЧЕСКИЙ ХАРАКТЕР РОССИЙСКОЙ ГЕОПОЛИТИКИ В РЕГИОНЕ

Мархулия Г.Р.
Сухумский государственный университет, Грузия

Карабахский конфликт как в историческом, так и нынешнем проявлении является продолжением древнеармянской идеи расширения армянского этнического пространства. Вторжение армян в Азербайджан и оккупация с помощью российских вооруженных сил этой исторической азербайджанской области повлекло за собой значительное геоэтническое изменение в регионе. Этот мегаэтнический субстрат продолжает заселяться в сопредельных странах, имея целью расширение своего геополитического ареала.

Вопрос о политической границе между двумя закавказскими государствами—Армянским царством и Албанией можно было бы и не поднимать, если бы он решался в историографии.

Так называемая “проблема Нагорного Карабаха” является фактически реанимацией экспансионистских планов реакционной националистической армянской партии дашнакцутюн, провозглашенных в свое время.

Еще в досоветскую эпоху Кавказ был территорией, где Османская, Персидская и Российская империи сталкивались в борьбе за террниторию и влияние. Каждая из империй в какой-то период господствовала в этом регионе, создавая главную площадку для встречи культур на важнейшем транзитном пути. Большую часть XX века Советский Союз контролировал Кавказ и пытался распространить свое влияние и дальше, на Иран и Турцию. Распад СССР ослабил позиции Москвы в регионе, однако новая Россия всячески стремлась оставит южнокавказское геополитическое пространство в своих пределах.

В геополитическом отношении Южный Кавказ сразу после распада СССР перестала быть глухой окраиной Советского Союза, Южный Кавказ превратился в новый центр геополитической борьбы между Державами. Результатом этой борьбы было и создание искуственных конфликтов как в Нагорном Карабахе так и конфликтов в между Россией и Грузией в Абахзии и в Сев. Картли (т.н. Южная Осетия).

Известно, что Карабах и являющийся его органической частью Нагорный Карабах, выделенный в автономную область 7 июля 1923 года, никогда не входил в состав Армении. Безответственные заявления армянских националистов о том, что НКАО была якобы “в двадцатые годы неправильно передана в состав Азербайджана” является откровенной ложью, не имеющей под собой никаких исторических, экономических и географических оснований. После присоединения Азербайджана к России в первой трети XIX века и ликвидации в этой связи Карабахского ханства не существовало никакой административной единицы ни под названием “Карабах”, ни тем более “Нагорный Карабах”.

Фальсификация истории и искаженное толкование международного права используются армянской стороной для обоснования своих территориальных притязаний и введения в заблуждение международной общественности.

Окупировав Нагорный Карабах и прилегающие азербайджанские области руководители армянского государства наивно думали, что эти земли окончательно останутся за ними пологая, что Россия не изменит своего геополитического курса.

Тем временем Азербайджан продолжал наращивать свою военную мощь. Опыт мировой истории свидетельствует, что проблемы подготовки, накопления и мобилизации ресурсов находятся в тесном единстве с укреплением военной безопасности государства. Широкомасштабные изменения в средствах и способах ведения вооруженной борьбы, произошедшие на рубеже XX - XXI вв., не снизили значимости военно-обученного резерва в достижении победы.

Фундаментальные положения международного права и нормы политической морали требует восстановления территориальной целостности государств, однако если геополитические центры не дают такую возможность, то вопрос может затянутся на дольгие десятилетия, но если последовательно следовать поставленной цели то и «центры» могут выразит свою геополитическую этику позволяющей справедливого решения созданного ими же конфликта.

Руководство азербайджанского государства вместе с миллионной армией беженцев ждала от мирового сообщества мирного разрешения конфликта. ООН еще во время разгара военных действии 1993 году приняло резолюцию осуждающую армянскую агрессию и оккупацию азербайджанских территрии и требовала вывода армянских войск. Следует согласится, что в современной международной жизни резолюции Совета Безопасности ООН относится к числу определяющих документов, однако почему- то для Армении оно не имело никакого значения, к великому сожалению и мировое сообщество не проследило выполнение резолюции ООН. В течение почти трех последующих десятилетии руководство Азербайджана просило мировое сообщество о мирном урегулировании Карабахского вопроса. Однако «мировое сообщество» оставалось глухим к этому призыву.

Азербайджан готовился к войне долго, планомерно и терпеливо. Была проведена мощная идеологическая, информационная и морально-психологическая работа с населением, которая сделала общество готовым и к масштабным боевым действиям. Президент Азербайджана ждал удобного геополитического расклада сил.

Азербайджанская армия приступило к польномасштабной войне во всех направлениях и всего за 44 дня боевых действий азербайджанская армия под руководством Верховного Главнокомандующего Вооруженными силами, Президента Ильхама Алиева развеяло миф о непобедимой армянской армии. Противник был разгромлен и обращен в бегство.

ИСТОРИЯ КАРАБАХА В ПЕРИОД СРЕДНЕВЕКОВЬЯ И РАННЕГО НОВОГО ВРЕМЕНИ

Вильданов Р.Р.
Уфимский государственный нефтяной технический университет,Уфа
Hist-ufa@yandex.ru

Ключевые слова: *Карабах, Азербайджан, Кавказская Албания, Сефевиды, Каджары;*

Сам термин Карабах, название исторического региона в составе Азербайджана, происходит от тюркских слов «кара» (черный) и «бах» (сад). Современные азербайджанские ученые писали что Зангезур и Карабах являлись частями Кавказской Албании.

Вопросы исторической принадлежности территории Карабаха особенно актуализировались в 1980 гг. В азербайджанской исторической науке развернулась дискуссия: ряд исследователей поддерживали тюркское происхождение населения Карабаха. Ту же идею активно транслировали в периодической печати. Именно это население является исконным в Нагорном Карабахе, в то время как армянское мигрировало сюда в ходе русско-иранских и русско-турецких войн XVIII–XIX в. К христианизации и арменизации населения Карабаха и Нахичевана привела политика царизма XIX в. и советской власти XX в. [5,6,7,8]

На сегодняшний день мы можем констатировать, что во второй половине XI века турки-сельджуки установили контроль над Азербайджаном, Карабах также был завоеван сельджуками. В

первой четверти XII века Карабах входил в состав азербайджанского Ильдегизидского государства атабегов, иначе Атабеков Азербайджана[1]. В 1136 году сельджукский султан Масуд пожаловал атабека Шамс ад-Дин Ильдегиз Арраном, в качестве икта, т.е. феодального владения. Постепенно он установил контроль над всем Азербайджаном Известны монеты, отчеканенные в Карабахе от его имени, что подтверждает значение данного региона в жизни Ближнего Востока.

Серьезным испытанием для населения Карабаха стало нашествие монголов. Последствия их похода начале 13 в. В Закавказье было катастрофическим, множество городов было разрушено, а население убито или уведено в рабство. Даже после ухода монголов спокойствие и мир не наступили. В 1225 году хорезмшах Джелал ад-Дин Мангуберди вторгся в Закавказье и захватил Азербайджан, включая Карабах. В 1231 году вновь напали монголы, они захватили Азербайджан, а с 1239 года данный регион и весь Южный Кавказ оказались под властью монгольских ханов. В 1259 году по приказу Хулагу-хана монгольское войско во главе с Аргуном заняло Карабах. После этого данный регион как и другие регионы Азербайджана превратились в поле бесконечных битв между Золотой Ордой и Хулагидским государством. Население страдало от набегов завоевательных походов.

Несмотря на все это, Карабах, вошедший в состав хулагидских владений, переживал развитие ремесел, торговли и культуры. В 14 веке, особенно при султане Абу-Саиде, в регионе чеканились хулагидские монеты. По сути, многие исторические памятники Карабаха относятся к этому периоду. В XV в. Карабах вновь пострадал от завоевательных походов, через территорию региона прошел с огнем и мечом завоеватель Тимур. Этот поход нанес серьезный ущерб Карабаху.

В начале 15 века регион стал местом столкновений между государством тимуридов и государством Кара-Коюнлу. В принципе в 15 веке на территории Азербайджана было три крупных государства.– Ширван, Кара-Коюнлу и Ак Коюнлу. Территории Кара-Коюнлу и Ак-Коюнлу охватывали юг Азербайджана и Карабах, простираясь до Куры на севере, включая Гянджу и Шамкир. Но к концу 15 века осталось только два крупных азербайджанских государства, Ак-Коюнлу и Ширван.

Можно отметить тот факт, что убив султана Джаханшаха Кара Коюнлу, Узун Гасан Ак Коюнлу отправил своего старшего сына Халила в Тебриз и захватил престол в Азербайджане. Однако смерть последнего султана Ак-Коюнлу Ягуба привела к междоусобицам, которые в конечном итоге сильно ослабили государство. Эмир Ярахмед Караман, потомок огузских кочевников, ранее владевших Карабахом, захватил власть в Азербайджане в 1496 году. В этот период в Карабахе от его имени чеканились монеты,что являлось важным признаком самостоятельности и суверенности правителя.

В 1501 году шахом Исмаилом I было основано Сефевидское Азербайджанское государство. Карабах и остальная часть Азербайджана оказались под властью династии Сефевидов. Карабахом правил род Зиядоглу, представители рода Каджаров. На истории этого рода стоит остановиться более подробно. Каджары были одним из тюркских (конкретнее огузских) племен. В соответствии с историчекой традицией считается пришедшим на Ближний Восток в период монгольских завоеваний XIII века. Согласно историческим данным в начале XV века эмир Тимур в ход своих завоеваний переселил каджаров из Северной Сирии на Южный Кавказ, где они были расселены в регионе Эривани и Гянджи. В XVI веке каджары стали одним из семи кызылбашских племен, являвшихся военной опорой новой династии Сефевидов. Впоследствии представители каджарской аристократии в XVII—XIX веках возглавляли несколько государственных образований на территории Южного Кавказа — были правителями Чухурсаадского беглярбекства, Ереванского, Нахичеванского, Карабахского ханств. [17]

Когда после смерти в 1524 г. первого сефевидского шаха Исмаила I к власти пришел его старший сын Тахмасип I, новый шах решил переселить племена каджаров. Молодой правитель, ему было всего 10 лет, тем не менее принял решение переселить каджаров в северные области, а именно Южный Кавказ. Правителем — беглербеком в новый административный регион Сефевидской державы был направлен представитель каджарского аймака зийадлу эмир Камал-уд-дин Шахверди султан Зийадоглу Каджар. Также именно он был объявлен главой всех каджарских аймаков Карабаха. Беглербекство были важной частью государства Сефевидов, на протяжении более двух столетий. В данном случае Карабахское беглербегство с центром в Гяндже охватывала территорию между реками Кура и Аракс, включая Барду, Баргушат, Ахстабад, Арасабар, Джаваншир и некоторые территории Грузии.

Позже правитель Шахверди султан административно объединил окрестности Гянджи и низменную часть Карабаха, а также султанства Шамшадил и султанство Казах. То есть области расположенные на стыке границ современных Азербайджана и Грузии. Сюда же была добавлена горная часть Карабаха, в результате чего была образована обширная провинция в Закавказье. Этот

регион во многом лишь номинально подчинялся центральной шахской власти. Впрочем это не было исключением, и смежная Чухурсаадская область, где правили эмиры из аймака саадлу, чисто номинально подчинялась династии Сефевидов,воспринимая себя скорее как вассалов шаха. [18]

Можно заметить, что история племени каджаров как этнической группы стала предметом пристального научного интереса. Есть много научных публикаций на эту тему. Следует особо отметить азербайджанского историка Энвера Чингисоглу, который подробно изучал род Каджары Зияд оглу в нескольких монографических исследованиях [2,3]. О роде Каджаров подробно писал один из его потомков, потомок шахин-шаха Чингиз Каджар[10]. В своей книге этот исследователь указывал, что еще в начале XVI века каджары разделились на три главные ветви. Старшей из них были ханы Астрабада, один из которых взошел на персидский престол. Данная ветвь династии пришла к власти в 1796 году и правила Персией вплоть до 1925 года. Средней ветвью стали Каджары Зийад оглу, правившие Карабахом и Гянджинским ханством. Самая младшая ветвь Каджаров заняла трон Иреванских ханов. Средняя и младшая ветви утратили владельческие права после присоединения данных ханств к Российской империи в 1828 году[10].

В конце 16 века турецкий полководец Мустафа-паша завоевал Азербайджан, приведя его под властью османского султана Мурада III. В это время другой османский полководец Фархад-паша прошел через Грузию и вошел в Карабах, где были размещены османские войска. В результате османско-персидской войны часть шиитского населения Карабаха стала покидать регион. Также в начале 17 века была сделана попвтка сменить династию Каджаров в Карабахском регионе, но в конечном счете представителям данной династии удалось закрепить за собой данный регион.

Можно констатировать что на протяжении всего описываемого в статье периода Карабах оставался неотъемлемой частью Азербайджана. Вначале «Карабах» как историко-географическое понятие обозначало конкретное пространство, впоследствии же было отнесено к обширной географической территории Азербайджана

ЛИТЕРАТУРА

1. C.E. Bosworth, «Ildenizids or Eldiguzids», Encyclopaedia of Islam, Edited by P.J. Bearman, Th. Bianquis, C.E. Bosworth, E. van Donzel and W.P. Heinrichs et al., Encyclopædia of Islam, 2nd Edition., 12 vols. with indexes and etc., Leiden: E. J. Brill, 1960—2005. Vol 3. pp 1110—111. Excerpt 2
2. Çingisoğlu Ə. Qacarlar və Qacar kəndi / Ə. Çingisoğlu. — Bakı : Şuşa, 2008. —336 s.
3. Çingisoğlu Ə. Ziyadoğlu Qacarlar (Ziyadhanovlar) / Ə. Çingisoğlu. — Bakı :Mütərcim, 2017. — 256 s. ISBN 978-9952-28-337-2.
4. Агаев Р., Али-Заде З. Азербайджан. Конец второй республики (1988–1993). М., 2006.
5. Алиев И. О проникновении на территорию Азербайджана ираноязычных племен в конце II – начале I тысячелетия до н. э. // Известия Академии наук Азербайджанской ССР (серия истории, философии и права). 1987. № 2. С. 57–68.
6. Алиев И. По страницам одной работы, или О дилетантизме в науке // Известия Академии наук Азербайджанской ССР (серия истории, философии и права). 1990. № 4. С. 157–159
7. Алиев И. Располагает ли наука доказательствами в пользу ираноязычности мидян и антропатенцев? Можно ли считать мидян одними из предков азербайджанского народа? // Известия Академии наук Азербайджанской ССР (серия истории, философии и права). 1990. № 3.С. 50–59.
8. Алиев И. Располагает ли наука доказательствами в пользу ираноязычности мидян и антропатенцев? Можно ли считать мидян одними из предков азербайджанского народа? (ст. 2) // Известия Академии наук Азербайджанской ССР (серия истории, философии и права). 1990.№ 4. С. 80–88.
9. Ибрагимов А. Г. Нагорно-карабахский конфликт: предыстория, развитие, последствия // Постсоветские исследования. 2018. №2.
10. Исмаилов Э. Э. Персидские принцы из дома Каджаров в Российской империи / Э. Э. Исмаилов. — Москва : Старая Басманная, 2009. — 594 с.
11. Исмаилов Э. Э. Ханы Карабахские: поколенное описание старшей линии рода // Кавказ и глобализация. 2014. №3-4.
12. Исмаилов Э. Э. Ханы карабахские: происхождение рода, подчинение ханства Российской империей и упразднение ханской власти // Кавказ и глобализация. 2014. №1-2.
13. Каджар Ч. Каджары / Ч. Каджар. — Баку : XXI YNE, 2001. - 160 с.
14. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании. Баку, 1986.

15. Мехтиев Р. Шах Исмаил Сефеви : портрет правителя и воина / Р. Мехтиев. — Баку : Şərq-Qərb, — 2014. — Ч. 1. — 256 с.
16. Нестеров А. Г. Дипломатия Каджарского Ирана / А. Г. Нестеров // Научный диалог. — 2016. — № 3 (51). — С. 366—369.
17. Нестеров А. Г. Каджары Зийадоглу и создание Карабахского беглярбекства в XVI веке / Нестеров А. Г., Каджар М. И. // Научный диалог. — 2019. — № 6. — С. 351—361. — DOI:10.24224/2227-1295-2019-6-351-361.
18. Нестеров А. Г. Чухурсаадское беглярбекство в 1604—1635 гг. / А. Г. Нестеров // Azərbaycanşünaslığın aktual problemleri. VI Beynəlxalq elmi konfransın materialları. II hissə. Bakı, 5—7 may 2015-ci il. — Bakı : [б. и.], 2015. — S. 324—328.
19. Сумер Ф. Огузы / Ф. Сумер. — Баку : Языджи, 1994. — 432 с.
20. Юматов К. В. Дискуссии по проблеме Нагорного Карабаха в научной и периодической печати Армении и Азербайджана в 1987-1991 гг // Вестн. Том. гос. ун-та. 2010. №330.

XÜLASƏ

QARABAĞIN ORTA ƏSRLƏR VƏ ERKƏN MÜASIR DÖVRLƏR TARİXİ

Vildanov R.R.

Məqalədə Qarabağın tarixindən Qarabağın orta əsrlər və erkən müasir dövrlər tarixindən bəhs edilir. Müəllif regionun tarixi ilə bağlı müasir alimlərin fikirlərini araşdırır. Ayrı-ayrı Qarabağ xanlığının yaranmasının çətin dövrü qeyd olunur, ayrıca inzibati vahid yaradan Səfəvilər sülaləsi önə çıxır. Qarabağın idarə olunmasında Qacar tayfasının xüsusi rolu qeyd olunur. Bu dövrdə Qarabağ xanlığının sərhədləri müəyyən edilir. Bölgənin inzibati bölgüsünün xarakterik xüsusiyyətləri, yerli feodal və tayfa quruluşunun xüsusiyyətləri verilmişdir.

***Açar sözlər**: Qarabağ, Azərbaycan, Qafqaz Albaniyası, Səfəvilər, Qacarlar;*

SUMMARY

HISTORY OF KARABAKH DURING THE MIDDLE AGES AND EARLY MODERN TIMES

Vildanov R.R.

The article tells about the history of Karabakh in the history of Karabakh in the Middle Ages and early modern times. The author explores the views of modern scientists on the history of the region. The difficult period of the formation of a separate Karabakh khanate is noted, the Safavid dynasty, which created a separate administrative unit, stands out. The special role of the Qajar tribe in the management of Karabakh is noted. The boundaries of the Karabakh Khanate in this period are determined. The characteristic of the administrative division of the region, the features of the local feudal and tribal structure are given.

***Keywords:** Karabakh, Azerbaijan, Caucasian Albania, Safavids, Qajars;*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ XALQ-İQTİDAR BİRLİYİ

Baxşəliyev A.B.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
sdu.adil@gmail.com

***Açar sözlər:** Zəfər, qələbə, Qarabağ, Milli Ordu, ərazi, xalq*

Müharibə üçün zəmin. Birinci Qarabağ müharibəsi nəticəsində ərazilərinin 20%-ni itirmiş Azərbaycan Respublikası, əsasən, 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra Ermənistan Respublikası ilə işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq üçün müxtəlif beynəlxalq strukturlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar aparmışdır. Lakin 2018-ci ildə rəngli inqilab nəticəsində Ermənistanda hakimiyyətə gələn Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərləri, “Qarabağ

Ermənistandır, vəssalam", kimi populist bəyanatları, eləcə də onun ardıcıl olaraq həyata keçirdiyi təxribat xarakterli hərəkətləri sülh danışıqları prosesinə ağır zərbə vuraraq onların davamını mümkünsüz etmişdir.

Ermənistanın müdafiə naziri David Tonoyan təxribatçı hərəkətlərin davamı olaraq 2019-cu ilin martında ABŞ-da rəsmi səfərdə olarkən "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırışlar səsləndirdi. D.Tonoyanın bəyanatı dərhal təmas xətti boyunca bir sıra hərbi təxribatlarla müşayiət olundu. Lakin Ermənistan silahlı qüvvələrinin bölmələrinin 2020-ci ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində əlverişli mövqeləri ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə etməklə hücuma keçmək cəhdləri nəticəsiz qaldı. Ermənistanın keçmiş müdafiə naziri, hansı ki, Azərbaycanı yeni müharibə ilə hədələyirdi, acı məğlubiyyətdən sonra vəzifəsindən çıxarıldı [4, s.262].

Ermənistan silahlı qüvvələrinin bölmələri bir neçə dəfə Rusiya ilə birgə hava hücumundan müdafiə təlimlərinə başlanıldığı haqdaməlumat yayılmışdır. Bunun ardınca Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin iştirakı ilə Azərbaycan ərazisində sentyabrın əvvəllərinə qədər davam edən bir sıra hərbi təlimlər keçirildiyi də məlumdur. Ermənistan silahlı qüvvələrinin təxribat-kəşfiyyat qruplarıdəfələrlə qoşunların təmas xəttində təxribat törətməyə cəhd göstərsələr də, görülən tədbirlər nəticəsində hər dəfə ciddi itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olmuşdular.

Erməni tərəfi birbaşa hərbi təxribatlarla yanaşı, beynəlxalq hüquq prinsiplərini pozaraq xeyli sayda YPG və PKK terrorçularını, o cümlədən minlərlə Livan ermənisini Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində yerləşdirmişdi. Vəziyyətin gərginliyi 2020-ci il avqustun sonunda Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanın Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz təşkil olunmuş hərbi təlimlərdə iştirakını ictimaiyyətə açıqlaması ilə pik həddə çatdı. Erməni tərəfinin bu cür destruktiv və təxribat xarakterli bəyanatları və hərəkətləri bir sıra siyasətçilər və politoloqlar tərəfindən tam haqlı olaraq danışıqlar prosesindən tamamilə imtina kimi qiymətləndirilmişdi.

25 sentyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrində video nitqində Azərbaycan hərbçisinin və 76 yaşlı mülki şəxsin həlak olması Ermənistanın təxribatlarının nəticəsi, mülki infrastruktura ciddi ziyan dəydiyi xüsusi olaraq qeyd edilmişdi. Azərbaycan Respublikasının Prezidenti onu da bildirmişdi ki, iyulun 17-dən sentyabra kimi Ermənistana hərbi yük təyyarələri ilə min tondan çox hərbi texnika daşınmışdır [3, s.24].

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev 2020-ci ilin sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə bağlı açıqlama vermişdi. Həmin gün Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısının alınması məqsədi ilə antiterror əməliyyatına başlanıldı, respublika ərazisində hərbi vəziyyət elan edildi[1, s.6].

Azərbaycanın hərbi üstünlüyü. Müharibənin 44 günü ərzində Azərbaycan ordusu ən müasir pilotsuz uçuş aparatlarından, o cümlədən İsraillə birgə Azərbaycanda istehsal olunan pilotsuz uçuş aparatlarından və digər PUA-lardan, həmçinin "Bayraktar TB2" pilotsuz hücum uçuş aparatlarından geniş istifadə etdi. Azərbaycan tərəfi yalnız Bayraktar TB2 pilotsuz təyyarələrinin köməyi ilə Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişdi. Dronlardan həm düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələr endirmək, həm də artilleriya atəşini nizamlamaq və kəşfiyyat aparmaq üçün istifadə edilmişdi. Beynəlxalq ərbi ekspert bu məsələdən bəhs edərkən qeyd edirlər ki, silahlı qüvvələrin təxminən bərabər sayına baxmayaraq, Azərbaycan ordusu texniki üstünlüyə malik idi.

İkinci Qarabağ müharibəsində itkilər. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2907 hərbi qulluqçusu şəhid olmuşdur. DNT analizi ilə bir sıra hərbi qulluqçuların şəxsiyyəti müəyyən edildikdən və itkin düşmüş 100-dən çox hərbi qulluqçu aşkar edildikdən sonra şəhidlərin sayı bir qədər artmışdır. Azərbaycanın hərbi texnika baxımından itkiləri qarşı tərəflə müqayisədə çox az olmuşdur.

Erməni tərəfi müharibə zamanı 2425 hərbçisini itirdiyini təsdiqləsə də, bu rəqəmlərin, əslində, düzgün qiymətləndirilmədiyi hamıya məlumdur. 44 günlük müharibə nəticəsində Ermənistan 10 ədəd S-300 və onun döyüş texnikasını, 366 tankı, 352 müxtəlif çaplı topunu, 22 pilotsuz uçuş aparatını, 5 Su-25 təyyarəsini, 50 Tor və Osa zenit-raketini itirmişdi. Bundan başqa, eyni zamanda, döyüş əməliyyatları çərçivəsində düşmənin "Kub", "Dairə" təyyarə raket sistemləri, xüsusi əhəmiyyət kəsb edən 97 "Qrad" bölməsi, 4 "Smerç" bölməsi, 1 "TOS" alov qurğusu, 1 "Yars", 1 "Toçka-U", ballistik raketlər və "Elbrus" raket kompleksləri məhv edilmişdi". Azərbaycan ordusunun məhv etdiyi və ya qənimət kimi ələ keçirdiyi hərbi texnikanın dəyəri, ən minimal hesablamalara görə, təxminən 3,8 milyard ABŞ dollarıdır. 2021-ci il 12 apreldə Bakıda açılmış Hərbi qənimətlər parkında nümayiş etdirilən hərbi texnika bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir [4, s.108-109].

Əcnəbilərin, muzdluların və terrorçu qrupların müharibəsində iştirakı haqqında. Münaqişə başlamazdan əvvəl Türkiyə mənbələri İraq və Suriyadan çoxlu YPG və PKK-çıların Dağlıq Qarabağa erməni

döyüşçülərə təlim keçmək üçün göndərildiyini bildirirdi. Sentyabrın 30-da Türkiyə mənbələri 300-ə yaxın PKK-çının İran vasitəsilə Dağlıq Qarabağa aparıldığı barədə informasiya yaymışdı. Sentyabrın 28-də Azərbaycan Silahlı Qüvvələri Baş Qərargahı təmsilçisinin verdiyi məlumata görə, qarşı tərəfin döyüş zamanı məhv edilən döyüşçüləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən olan erməni əsilli muzdlular da tapılmışdı [5].

Hikmət Hacıyev sentyabrın 30-da bəyan etmişdi ki, "beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı terrorçu qüvvələrdən istifadə etməsinə adekvat cavab verməlidir". Bundan bir qədər sonra sonra PKK və YRG-nin bir sıra üzvləri müxtəlif nəşrlərə müsahibələrində həyasızcasına bu terror təşkilatlarının silahlılarının Qarabağda ermənilərin tərəfində döyüşdüyünü etiraf etmişdilər.

Bundan başqa, məlum olub ki, beynəlxalq hüquq prinsiplərinə zidd olaraq Livan, Suriya, Fransa və bir sıra Latın Amerikası ölkələrində yaşayan erməni əsilli vətəndaşlar da erməni diasporunun çağırışları ilə hərbi əməliyyatlarda iştirak etmişlər. Oktyabrın 1-də Suriya İnsan Haqları Monitorinq Mərkəzi də erməni əsilli suriyalı döyüşçülərin Suriyadan Ermənistana aparıldığını təsdiqləmişdi.

İkinci Qarabağ müharibəsi illərində Azərbaycanın daxili vəziyyəti, xalq-iqtidar birliyi. İkinci Qarabağ müharibəsi illərində Azərbaycanda siyasi və iqtisadi sabitlik hökm sürdüyünü, xalq-iqtidar birliyi ən yüksək səviyyədəolduğunu nümayiş etdirdi. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən verilən məlumata görə, sentyabrın 27-də səhər saatlarında Ermənistanın mümkün təxribatlarının qarşısını almaq məqsədilə bütün ölkə ərazisində internetə bir sıra məhdudiyyətlər qoyuldu. Bundan əlavə, Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan azərbaycanlılara müraciət edərək sosial şəbəkələrdə, elektron KİV-lərdə və digər kütləvi informasiya vasitələrində qeyri-rəsmi, etibarsız və qərəzli məlumatlar yerləşdirməməyə çağırdı.

Milli Məclisin iclasında hərbi vəziyyətlə əlaqədar sentyabrın 27-də saat 00:00-dan etibarən Bakı, Gəncə, Göygöl, Yevlax və bir sıra rayonlarda komendant saatı elan edilməsi qərara alındı. Sərəncama əsasən, Azərbaycan Respublikasının Daxili İşlər Naziri Vilayət Eyvazov hərbi vəziyyət dövründə komendant saatı tətbiq edilən ərazilərin komendantı təyin edilmişdi. "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən bildirilmiş ki, sentyabrın 30-dək Azərbaycan Respublikasının bütün hava limanları müntəzəm sərnişin reysləri üçün bağlanacaq [5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında qismən səfərbərliyin elan edilməsi haqqında" fərman imzaladı və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təsdiq edilmiş planlar əsasında və müəyyən edilmiş qaydada hərbi xidmətə çağrılmış şəxslərin hərbi xidmətə çağırılmasını,hərbi vəziyyətdən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etməyi tapşırıldı [1, s.6].

Azərbaycan xalqı Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alan, düşmənə sarsıdıcı zərbələr endirən Azərbaycan ordusunun qələbələrini böyük sevinc və ruh yüksəkliyi ilə qarşıladı. Azərbaycan vətəndaşları, xaricdə yaşayan azərbaycanlılar, eləcə də Türkiyə vətəndaşları Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və təşəkkür məktubları göndərirdilər. Minlərlə Türkiyə vətəndaşı Ali Baş Komandan İlham Əliyevə çoxsaylı məktublar göndərərək, qardaş ölkənin torpaqlarının işğalçılardan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etməyə hazır olduqlarını bildirmişlər. Sentyabrın 27-dən Bakının küçələrində, yaşayış binalarının eyvanlarında, mağazaların fasadlarında və digər obyektlərdə minlərlə Azərbaycan bayrağı dalğalanırdı. Cəbhədə qazanılan uğurlar və bir sıra ərazilərin işğaldan azad edilməsi şərəfinə əhali evlərini və maşınlarını bayraqlarla bəzəmişdi. İlham Əliyev çox haqlı olaraq bəyan etmişdi ki, "bu gün Azərbaycan Ordusu öz torpaqlarında azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpaqda nə işi var? Ermənistan ordusunun bizim torpaqda nə işi var?" [2, s.51].

Ermənistanda daxili vəziyyət. Ermənistan hökumətinin 27 sentyabr 2020-ci il tarixli qərarına əsasən, yaşı 55-dən aşağı olan şəxslər üçün çağırış elan edilmişdi. Bu çağırışla bağlı Ermənistanda 18-55 yaş arası kişilər yalnız ərazi hərbi komissarlıqlarının yazılı icazəsi ilə ölkəni tərk edə bilərdilər. Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın cəbhə xəttinə getməsi, habelə Ermənistanın sabiq prezidenti Robert Köçəryanın və 2008-ci il seçkilərindən sonra iğtişaşlarda ittiham olunan digər sabiq məmurların cinayət işi üzrə sentyabrın 29-da keçiriləcək məhkəmə prosesi təxirə salınmışdı. Oktyabrın 1-də Ermənistanda Tik-Tok proqramına giriş qadağan edilmişdi. Həmin gün Ermənistan Milli Təhlükəsizlik Xidməti keçmiş yüksək rütbəli erməni hərbçinin Azərbaycan kəşfiyyat orqanlarına casusluqda şübhəli bilinərək həbs olunduğu və dövlətə xəyanətdə ittiham olunduğunu bildirilmişdi. Oktyabrın 2-də Ermənistan Dağlıq Qarabağa gedən bütün yolları bağlamışdı. Yollar yalnız hərbi hərəkət üçün istifadə olunurdu. Ermənistan silahlı qüvvələrinin bir sıra qabaqcıl hissələrinin şəxsi heyətinin ruhdan düşməsi, eləcə də çoxsaylı hərbi qulluqçuların döyüş əməliyyatlarında iştirakdan imtina etməsi ilə əlaqədar Ermənistan Müdafiə Nazirliyi ölkə qadınlarına müraciətdə etmişdi. Oktyabrın 2-də Ermənistan Müdafiə Nazirliyi qadın batalyonunu yaradıb və heyətlə

təmin etməyə başlamışdı [5]. Ermənistan qadınlara arxalanmalı oldu. Lakin bunların heç birinin nəticəsi olmamışdı.

Azərbaycan siyasi rəhbərliyinin güclü iradəsi. Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. İlham Əliyev çıxışında demişdi ki, "Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində həm mülki əhali, həm də hərbçilər arasında itkilərimiz var. Mən Ermənistana xəbərdarlıq etmişəm. Tovuz hadisələrindən sonra bir neçə dəfə onlara xəbərdarlıq etmişəm ki, mənfur əməllərindən əl çəkməsələr, peşman olacaqlar. Əməliyyat uğurlu keçib. Eyni zamanda, ordumuzda könüllü kimi qeydiyyatdan keçənlərin sayı on minlərlə qiymətləndirilir. Bu, xalqımızın öz dövlətinə sədaqətindən xəbər verir" [3, s.53-54].

Dövlət başçısı İlham Əliyev sabiq Almaniya kansleri Angela Merkel ilə telefon danışığında Ermənistanın baş nazirinin "Qarabağ Ermənistandır, vəssalam" deməsinin danışıqlar prosesini mənasız etdiyini, Ermənistan rəhbərliyinin Azərbaycandan danışıqlar tələb etməsini qeyd etsə də,bütün bunların, əslində, qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqların formatını dəyişdirmək cəhdi kimi qiymətləndirmişdi. Bir daha bəyan edilmişdi ki, Azərbaycan ordusu öz torpağında döyüşür, Ermənistan ordusu Azərbaycan torpağında olmamalıdır [3, s.77].

Sentyabrın 29-da "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə" verilişində Azərbaycan Prezidenti İlham Əliyev aparıcıların suallarını cavablandırmışdı. O, açıqlamalarında müharibədə guya Türkiyənin hərbi iştirakı ilə bağlı polemikalardan da danışaraq bildirmişdi ki, "İnanıram ki, Türkiyənin bölgədəki rolu sabitləşdirici xarakter daşıyır. Türkiyə bizim üçün qardaş ölkədir, müttəfiqimizdir. Türkiyə bizə mənəvi dəstək verir və Türkiyə rəhbərliyinə, Türkiyə prezidentinə və türk xalqına bizimlə həmrəylik və dəstəyə görə təşəkkür edirik. Erməni tərəfinin Türkiyənin guya münaqişədə iştirakı ilə bağlı yaydığı bütün şayiələr təxribat xarakterlidir. Azərbaycan ordusu öz xalqının və ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır". Aparıcının Suriya Milli Ordusunun Qarabağdakı döyüşlərdə iştirakı ilə bağlı sualına o, belə cavab vermişdi: "Bu, növbəti saxta xəbərdir. Bunun heç bir faktı, sübutu yoxdur və bu yalan erməni təbliğatı ilə yayılır" [3, s.86].

İlham Əliyev və Mehriban Əliyeva sentyabrın 30-da Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə alan hərbçilərlə görüşündə bildirmişdilər: "Ermənistan baş naziri bizim qarşımıza şərtlər qoyur. Bir müddət əvvəl dedim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var: onlar qeyd-şərtsiz, tamamilə və dərhal torpağımızdan çıxmalıdırlar. Dedim ki, Azərbaycan xalqı heç vaxt bu işğalla barışmayacaq" [3, s.96].

İlham Əliyev 2020-ci il oktyabrın 4-də xalqa müraciəti zamanı ermənilərin Qarabağda qanunsuz məskunlaşdırılmasından danışaraq bildirmişdi ki, "Uydurma "Dağlıq Qarabağ Respublikası"nın parlamentinin Şuşaya köçməsi nə deməkdir? Azərbaycan xalqını incitmək üçün növbəti cəhd. Ermənistandan Cəbrayıla yeni yolun çəkilməsi nə deməkdir? Bu o deməkdir ki, qeyri-qanuni köçürmə olacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirməyə, qədim şəhərimizə, Şuşaya yerləşdirməyə, televiziyada göstərməyə, bununla da beynəlxalq konvensiyaları pozmağa, Cenevrə konvensiyasını pozmağa başlayıblar. Niyə heç kim onlara demir? Mən bütün xarici diplomatik qurumlarımıza tapşırıq verdim: BMT-də, ATƏT-də, Avropa İttifaqında və digər təşkilatlarda bu məsələni qaldırın, bu hərəkətlərin qanunsuzluğu barədə məlumat verin! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldumu? Minsk Qrupu bununla bağlı hər hansı açıqlama veribmi? etmədi! Avropa Birliyi etdi? etmədi! Maraqlanmadığımızı dedilər. Əgər maraqlanmırsansa, bu halda, indi maraqlanmasın! İndi niyə əsəbisən? Dağlıq Qarabağ bizimdir, bu bizim torpağımızdır, biz ora qayıtmalıyıq və bunu edəcəyik!" [3, s.139-140].

Noyabrın 8-də Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə Şəhidlər Xiyabanında Azərbaycan xalqına müraciətində demişdir: "Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 8 noyabr 2020-ci il Azərbaycanın tarixində əbədi olaraq qalacaq. Bu, bizim şanlı qələbəmizin günüdür! Biz bu qələbəni danışıqlar masası arxasında yox, döyüş meydanında qazandıq. Mən dəfələrlə demişəm ki, bütün bəyanatlara baxmayaraq, bu münaqişənin - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin hərbi yolları da var və bu gün biz bunu döyüş meydanında sübut edirik. 28 ildən sonra Şuşada yenidən azan oxunacaq. Bu birlik, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əsl Azərbaycan torpağıdır. Biz sübut etdik ki, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda məskunlaşıb. Biz sübut etdik ki, erməni əhalisi 200 il bundan əvvəl bu torpaqlara köçürülüb, necə köçürülüb, hansı məqsədlə köçürülüb, bütün bunları sübutlarla, faktlarla dünya ictimaiyyətinə təqdim etdik. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, ilkin Azərbaycan torpağıdır. Bu gün mən də ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdim, xatirəsini ehtiramla yad etdim. Atamın vəsiyyətini yerinə yetirdiyim üçün xoşbəxt bir insan olduğumu düşünürdüm. Şuşanı azad etdik! Bu böyük qələbədir! Bu gün şəhidlərimizin, ümummilli liderimizin ruhu şad oldu!

Təbriklər, Azərbaycan! Təbriklər, dünya azərbaycanlıları! Bu, bəlkə də, həyatımın ən xoşbəxt günlərindən biridir, çünki bu tarixi gündə bu sevincli xəbəri Azərbaycan xalqına çatdırmaq mənə qismət olub!" [3, s.6-7].

ƏDƏBİYYAT

1. Bayramov, V. 2020-ci il - Azərbaycan tarixinin Zəfər ili / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 8 yanvar. - s.6.
2. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. - 106-cı kitab. sentyabr 2020 - oktyabr 2020. Bakı: Azərnəşr, 2021. - 392 s.
3. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. - 108-ci kitab. noyabr 2020 - dekabr 2020. Bakı: Azərnəşr, 2021. - 392 s .
4. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. - 111-ci kitab. mart 2021 - may 2021. Bakı: Azərnəşr, - 2021. - 392 s .
5. Отечественная война, или операция «Железный кулак». https://www.virtualkarabakh.az/ru/post-item/52/2871/vtoraya-karabahskaya-vojna.html

SUMMARY

PEOPLE-POWER UNITY IN THE SECOND KARABAKH WAR

BakshaliyevA.B.

On September 27, 2020, the Azerbaijani Armed Forces launched an anti-terrorist operation to prevent Armenian provocations after the Armenian armed forces grossly violated the ceasefire. Martial law has been declared in the country. Azerbaijan's losses in military equipment were very small compared to the opposite side. Although the Armenian side has confirmed that it lost 2,425 troops during the war, it is common knowledge that these figures are in fact miscalculated. The war showed that political and economic stability reigns in Azerbaijan, that the unity of the people and government is at the highest level.

Keywords: *Triumph, victory, Karabakh, National Army, territory, people*

РЕЗЮМЕ

ЕДИНСТВО НАРОДА-ВЛАСТИ ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

БахшалиевА.Б.

27 сентября 2020 года ВС Азербайджана начали антитеррористическую операцию по предотвращению армянских провокаций после того, как вооруженные силы Армении грубо нарушили режим прекращения огня. В стране объявлено военное положение. Потери Азербайджана в боевой технике были очень малы по сравнению с противоположной стороной. Хотя армянская сторона подтвердила, что потеряла в ходе войны 2425 военнослужащих, общеизвестно, что эти цифры на самом деле неверно исчислены. Война показала, что в Азербайджане царит политическая и экономическая стабильность, что единство народа и власти находится на самом высоком уровне.

Ключевые слова: *Триумф, победа, Карабах, Национальная Армия, территория, народ*

I BÖLMƏ
QARABAĞIN SİYASİ TARİXİ

I СЕКЦИЯ
ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ КАРАБАХА

I SECTION
POLITICAL HISTORY OF KARABAKH

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNDƏ DAĞLIQ QARABAĞ PROBLEMİ (2003-2017-ci illər)

Abbaszadə N.M.
Sumqayıt Dövlət Universiteti, Bakı
abbaszade1988@gmail.com

Açar sözlər: *xarici siyasət, Dağlıq Qarabağ, İlham Əliyev, dövlətçilik, müstəqillik*

Sovetlər dövründə Azərbaycanın yüksəliş dövrü XX əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu dahi şəxsiyyətin "*Azərbaycanda birinci hakimiyyəti dövrünü (1969-1982) milli oyanış hərəkatının yeni mərhələsi kimi qiymətləndirmək lazımdır*" [1,s.5].

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə, xüsusilə 15 iyun 1993-cü ildən sonra Ulu Öndərin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı XX əsrin 70-80-ci illərində onun apardığı siyasətin müasir, müstəqil, yeni məzmunda yenidən davamı idi. Ölkəmizin ərazisinin 20 % itirilməsi və bir milyon insanın məcburi köçkün vəziyyətinə düşməsi Heydər Əliyevin dövlətçilik fəaliyyətində çətinliklər törətsə də, ancaq Ulu Öndər bu işin öhdəsindən gələrək Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkəmizdə bu sahə üzrə çətinliklərdən çıxmağa nail oldu və Azərbaycanın müstəqil bir dövlət kimi daxili və xarici siyasət xəttini çox böyük uzaqgörənliklə müəyyənləşdirdi. Müstəqilliyimizin ilk 10 ilində Ulu Öndər bu siyasəti uğurla apardı və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması konsepsiyasını qoydu.

2003-cü ildə ölkə prezidenti seçilən İlham Əliyev Azərbaycanın dövlətçilik tarixinin bu yeni mərhələsində Ulu Öndərin siyasətini davam etdirərək bütün fəaliyyətini Azərbaycanın inkişafına, xüsusilə, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində yönəltdi. Ulu Öndər H.Əliyev hələ 1993-cü ilin 10 oktyabrında andiçmə mərasimindəki çıxışında "*Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəlməlidir*" [3,s.177] deyərək apardığı daxili və xarici siyasətinin bütün mahiyyətinin bu işə xidmət etdiyini bildirdi.

Tədqiqatımız Azərbaycan Respublikasının xarici siyasətində Dağlıq Qarabağ problemi olduğundan Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının bəzi xüsusiyyətlərini ön planda vermək istərdik.

2003-2017-ci illərdə Azərbaycan Respublikasının xarici siyasətində özünü sivil qayda və prinsiplərə əsaslanan belə xarici siyasət fəaliyyətinin bəzi xüsusiyyətlərini xüsusi olaraq vurğulamaq istərdik:

- Heç bir halda və şərtlə Azərbaycan Respublikasının daxil olduğu beynəlxalq təşkilatların, imzaladığı müxtəlif xarakterli sazişlərin nəticələrinin milli maraqlara zidd olmasına yol verməmək;
- Qafqazın xüsusi olaraq mürəkkəb və tarixən mühüm strateji əhəmiyyətli region olmasının nəzərə alaraq regionda aparıcı dövlət statusumuzu qoruyub saxlamaq və daha da möhkəmləndirmək;
- Bütün dövlətlərlə, xüsusi ilə də qonşu dövlətlərlə bərabər hüquqlu münasibətləri möhkəmləndirmək və daha da genişləndirmək;
- Regionda ənənəvi olaraq xüsusi maraqları olan böyük dövlətlərlə münasibətlərdə hərtərəfli düşünülmüş və balanslaşdırılmış siyasət aparmaq;
- Bütün dövlətlərlə tərəfdaşlıq əlaqələrini genişləndirmək;
- Dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə müxtəlif miqyaslı və növlü qlobal layihələrin həyata keçirilməsində əməkdaşlığı gücləndirmək;

- Qarabağ münaqişəsinin əsl mahiyyəti və məsələyə dünya ictimaiyyətinin qeyri-qanuni yanaşma tərzi də daxil olmaqla, Azərbaycandakı mövcud sosial-siyasi və iqtisadi durum, insanların həyat tərzi, bir sözlə Azərbaycanla bağlı bütün həqiqətlərin dünyaya məlum olması üçün bütün zəruri təşkilatı və təbliğat tədbirlərinin gücləndirilməsi.

Dünya siyasətini istiqamətləndirən böyük dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, respublikamızda həyata keçirilən mütərəqqi iqtisadi, siyasi, hüquqi islahatlar barədə dolğun təsəvvür yaratmaq, xaricdə güclü diaspor və lobbi formalaşdırmaq dövlətimizin xarici siyasətinin prioritet məqsədləri sırasında xüsusi vurğulana bilər.

İ.Əliyevin prezidentliyi dövründə xarici siyasət fəaliyyətinin ən əsas nəticəsi milli dövlətçiliyimizin, müstəqilliyimizin qorunub saxlanması və daha da möhkəmləndirilməsi ilə xarakterizə edilir. Bu qənaətimizin dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları tərəfindən təsdiq olunması isə xüsusi razılıq doğurur.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan uğurlu xarici siyasətin nəticələrindən biri kimi "NATO-nun 2018-ci il iyulun 11-də keçirilmiş Brussel zirvə toplantısının Yekun Bəyannnaməsində Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmətin öz təsdiqini tapması" [4] İlham Əliyevin xarici siyasətinin böyük uğuru sayıla bilər.

Qeyd edildi ki, dövlətçiliyin qorunması və möhkəmləndirilməsində ən vacib cəhətlərdən biri olan ardıcıl xarici siyasət fəaliyyəti ən müxtəlif istiqamətlər üzrə ölkə hüdudlarında təminatlı daxili siyasət, dövlət sərhədlərinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması və bu kimi digər mühüm istiqamətləri də özündə birləşdirir.

2020-ci ilin 27 sentyabrınadək ərazi bütövlüyü Azərbaycan Respublikası xarici siyasətinin illərdən bəri ən ağrılı, ən çox işlərin görüldüyü vacib sahə olaraq ölkə rəhbərliyini və əhalinin bütün təbəqələrini daim düşündürən, xarici siyasətin bir nömrəli vəzifəsi olaraq qalmışdır. Beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazi bütövlüyünün təsdiq edilməsinə nail olunması tədqiqat dövründə bu sahədə görülmüş işlərin əsas nəticəsi olmuşdur.

Müstəqilliyin bərpasından sonra, xüsusilə İlham Əliyevin prezidentliyi dövründə aparılmış xarici siyasət fəaliyyətində Ermənistan-Azərbaycan arasında Dağlıq Qarabağ məsələsi ilə başlanan münaqişə və müharibənin ağır nəticələrini tezliklə aradan qaldırmaq məqsədinin gündəlik diqqət mərkəzində olduğunu xüsusilə qeyd etməliyik.

Azərbaycan Respublikası Prezidenti İ.Əliyev dəfələrlə bəyan etmişdir ki, biz güclü, ən müasir silah və texnika ilə təmin edilmiş orduya malikik. *"Azərbaycanın 2016-cı ilin aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərdi"* [2, s.320]. Nəticədə Milli Ordumuz işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi, əhəmiyyətli dərəcədə digər hissəsinə nəzarət etməyin təmin olunması ilə nəticələnən strateji məntəqələri geri qaytardı. Bütün bunlar dövlət başçısının öz mövqeyində nə qədər qətiyyətli, Azərbaycan silahlı qüvvələrinin öz torpaqlarını öz gücləri ilə azad etməyə həm israrlı, həm də qadir olduqlarını bir daha sübut etmiş oldu.

Yəqin ki, məhz aprel günlərində beynəlxalq kütləvi informasiya vasitələrini ardıcıl izləyənlər Ermənistan paytaxtında və digər iri şəhərlərdə ermənilərə ona artıq 3 əsrə yaxın havadarlıq edən ölkənin dövlət bayrağının yandırıldığını, dövlət rəhbərinin ünvanına isə təhqirlərin səsləndiyinin əyani şahidi olmuşdur.

Bəlkə də həmin günlərdə Azərbaycan silahlı qüvvələri üçüncü bir ölkənin köməyi olmadan öz gücü ilə işğal altında olan ərazilərimizi tamamilə azad edə bilərdi və əvvəlcədən də qarşıya qoyulmuş vəzifə, Ali Baş Komandan İ.Əliyevin döyüş əmri də belə idi. Lakin həmişə olduğu kimi, münaqişənin nizamlanmasında öhdəlikləri olan Minsk qrupunun həmsədr ölkələri, əvvəl etdikləri kimi Ermənistanın bu cür gülünc və fəlakətli vəziyyətində onun köməyinə tələsərək hücum əməliyyatlarının dərhal dayandırılması üçün İ.Əliyevə diplomatik təzyiqlər göstərdilər. Bu təzyiqlərin içərisində bu dövlətlərin xüsusi "həmrəylik göstərərək" Azərbaycan silahlı qüvvələrinin hücum əməliyyatlarını davam etdirəcəyi təqdirdə illərlə qeyri-qanuni seperatçı rejim adlandırdıqları oyuncaq, qondarma "Dağlıq Qarabağ Respublikasını" tanıyacaqları təhdidlərini israrla təkrar etmələri nəinki məhəlli münaqişlərin, ümumiyyətlə, diplomatiya tarixində görünməmiş nadir hal idi. Silahlı münaqişənin həlli üçün diplomatik fəaliyyəti gücləndirmək haqqında öhdəlik qəbul etmiş nizamlayıcı dövlətlər münaqişənin əsas səbəbkarının cinayətkar mövqeyinin müdafiəsinə keçməklə beynəlxaq və siyasi dairələrdə özlərini gülünc vəziyyətə salmış oldular.

Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu xətti ilə nizamlanması prosesinin artıq 28 illik tarixi var. Bu müddətdə qrupun fəaliyyətində ara-sıra nisbi sakitlik hökm sürsə də, xüsusi ilə Ermənistanda hər dəfə prezident seçkiləri kampaniyalarının gedişində namizədlərin Qarabağ kartından seçkilərdə məharətlə istifadə etmələri məsələ ətrafında gərginliyin artmasına paralel olaraq həmsədrlərin əsasən bölgəyə çoxsaylı səfərlərinin ardınca danışıqlarda fasilələr daha çox davamlı olmuşdur.

Ermənistan hər dəfə növbəti seçkilərin yekunlaşmasından sonra beynəlxalq təşkilatların, ilk növbədə Minsk qrupunun tələbi ilə yenidən danışıqlar masası arxasına qayıtsa da, lakin hər dəfə mövcud vəziyyətdəki status-kvonun saxlanması üçün əvvəllər qəbul etdiyi bütün öhdəliklərdən imtina edərək danışıqlar prosesini dolaşığa salmışdır.

Qeyd etməliyik ki, tədqiqatın əhatə etdiyi illərdə İ.Əliyevin uğurlu xarici siyasət kursunun nəticələri tezliklə öz bəhrəsini verdi. Vətən müharibəsinin44 günlük ikinci mərhələsində Minsk qrupunun həmsədr ölkələri, təcavüzkarın bütün havadarları Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinin qarşısını ala, torpaqlarımızın işğaldan azad edilməsinə mane ola bilmədilər.

Bu, eyni zamanda milli dövlətçiliyimizin ağır sınağa çəkdiyi 30 ildən çox davam edən çətin və gərgin günlərin arxada qalması idi.

Son vaxtlar xarici siyasət və ümumiyyətlə diplomatiya məsələlərindən bəhs edən ədəbiyyatlardatez-tez işlədilən ifadələrə rast gəlirik və hətta belə ifadələrin yüz illərlə, ölçülən ömürləri olmuş, bəziləri bu gün də qalmaqda davam etməkdədir. Məsələn, dünyanın güc mərkəzləri, bloklara qoşulmama, "üçüncü dünya" və s. Bizim üçün xüsusi ilə fərəhlidir ki, Azərbaycandan söz açılanda çox vaxt "Neft Bakısı" ifadəsi də işlənmişdir.

Bu, demək olar, Azərbaycanın bəlkə də ilk tarixi ünvanlarından biridir. Bu gün artıq Azərbaycan multikultural dəyərlərin ən çox yer aldığı ölkə imicini, Qafqazın ən güclü dövləti, Qafqazda lider dövlət və digər diqqət çəkən adları da daşımaqdadır.

Bu gün Azərbaycanın xarici siyasət fəaliyyəti sahəsindəki görülmüş işlər, beynəlxalq təşkilatlardakı nüfuzu onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının diplomatik imici "Neft Bakısı" və digər qeyri-rəsmi titullardan heç də aşağı deyil. Hətta indiki şəraitdə yeri və əhəmiyyəti baxımından daha önəmlidir.

ƏDƏBİYYAT

1. Abbaszadə N.M. Azərbaycanın milli dövlətçilik tarixindən. Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının materialları.11 Bakı Dövlət Universiteti 24-25 oktyabr Bakı 2017; 284 səh.
2. Əliyev, İlham. İnkişaf - məqsədimizdir: [108 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - 87-ci kitab. - 2019. - 391 səh.
3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005. 631 səh.
4. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın milli maraqlarına söykənir.http://ikisahil.az/post/prezident-lham-eliyevin-ugurlu-xarici-siyaseti-azerbaycanin-milli-maraqlarina-soykenir.

SUMMARY

NAGORNO-KARABAKH PROBLEM IN THE FOREIGN POLICY OF THE REPUBLIC OF AZERBAIJAN (2003-2017)

Abbasade N.M.

Ilham Aliyev, elected president in 2003, at this new stage in the history of Azerbaijani statehood, continued the policy of national leader Heydar Aliyev and focused all his efforts on the development of Azerbaijan, especially on the settlement of the Nagorno-Karabakh conflict within the limits of territorial honesty. The main result of Ilham Aliyev's foreign policy was characterized by the further strengthening of our national statehood. The results of Ilham Aliyev's successful foreign policy soon bore fruit. During the second stage of the 44-day war, the co-chairs of the Minsk Group and the supporters of the aggressor could not prevent the liberation of our lands

Keywords: *foreign policy, Nagorno-Karabakh, Ilham Aliyev, statehood, independence.*

РЕЗЮМЕ

НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (2003-2017 ГГ.)

Аббасзаде Н.М.

Ильхам Алиев, избранный президентом в 2003 году, на этом новом этапе истории азербайджанской государственности, продолжил политику общенационального лидера Гейдара Алиева и сосредоточил все свои усилия на развитии Азербайджана, особенно на урегулировании нагорно-карабахского конфликта в пределах территориальной честность. Главный результат внешней политики Ильхама Алиева характеризовался дальнейшим укреплением нашей национальной государственности. Результаты успешного внешнеполитического курса Ильхама Алиева вскоре принесли свои плоды. В ходе второго этапа 44-дневной войны сопредседатели Минской группы и сторонники агрессора не смогли помешать освобождению наших земель.

Ключевые слова: *внешняя политика, Нагорный Карабах, Ильхам Алиев, государственность, независимость*

KÜRƏKÇAY MÜQAVİLƏSİ VƏ ONUN NƏTİCƏLƏRİ

Abdullayev İ.H.
Məktəb lisey kompleksi, Nərimanov rayonu, Bakı, Azərbaycan
ilqar.heyderoglu@mail.ru

Açar sözlər: *Qarabağ, Gəncə, Rusiya, İbrahimxəlil xan, Sisianov, Kürəkçay*

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində həm Fransa, həm də İngiltərə İranı özünün təcavüzkar xarici siyasətində alətə çevirmək istəyirdilər. Napoleon Fransası o dövrlərdə İrandan keçməklə Hindistana hücum etmək, buradan İngiltərəni sıxışdırmağı planlaşdırırdı. Buna görə də həm Fransanın bu niyyətlərini aradan qaldırmaq, həm də İngilis mallarının sərbəst şəkildə İrana ixracını təmin etmək üçün 1800-ci ilin yanvarında İngiltərə hökuməti buraya Hindistandan kapitan Malkolmun rəhbərliyi altında nümayəndə heyətini göndərmişdi.[3,səh.1015].

Müxtəlif ələ alma və rüşvət vasitəsilə Malkolm İran hakim dairələri ilə 1801 -ci il yanvarın 4-də İngiltərə - İran siyasi və ticarət müqaviləsi imzalamağa müvəffəq oldu. Bu müqavilənin şərtlərinə görə şah əfqan hökuməti Hindistanda İngilislərin nəzarəti altında olan ərazilərə hücum edərdisə oraya qoşun göndərib, ingilisləri müdafiə edəcəkdi. Üstəlik, Əfqanlar ingilislərin üzərinə olacaq hücum planından əl çəkməyincə İran şahı onlarla sülh müqaviləsi bağlamayacaqdı. Bu müqavilənin şərtləri həm də Rusiyaya qarşı yönəlmişdi. Belə ki, gələcəkdə İngiltərənin bu müqavilənin şərtlərindən istifadə edərək əvvəlcə Cənubi, sonra isə Şimali Azərbaycana hücum etməsi üçün əlverişli imkan yaranırdı [6, səh.275]. Buna görə də 1801 -ci ildə Şərqi Gürcüstanla bərabər Borçalı, Qazax və Şəmşəddil kimi tarixi Azərbaycan torpaqlarının Rusiyaya birləşdirilməsi ilə Rusiyanın Azərbaycana qarşı aqressiv siyasətinin yeni mərhələsi başlandı [5,səh.112] Belə vəziyyətdə Qacarlar hökuməti Rusiyanın Azərbaycanı işğal etməsinin təhlükəsini dərk etdi və Gəncə xanı Cavad xanın Qacarlar nəslindən olmasını əsas tutaraq aktiv fəaliyyətə keçdi. Tezliklə Qacarlar dövləti Sisiyanova rus ordusunu Azərbaycandan çıxarması haqqında ultimatum verdi. Lakin Rusiya Qacarlar dövlətinin bu ultimatumunu qəbul etmədi və nəticədə Rusiya – Qacarlar müharibəsi başlandı. Gəncə tutulduqdan sonra (1804-cü il) rus ordusunun Azərbaycanın daxilindəki xanlıqlara hücumu başlandı. Sisianov bu zaman ilk zərbəni strteji cəhətdən çox mühüm əhəmiyyət kəsb edən İrəvana endirib, buranı tutmaq qərarına gəldi. Lakin irəvanlıların əzmkar inadına rast gələn Sisianov məğlub olaraq geri çəkilməyə məcbur oldu. Gözlədiyinin əksini görən Sisianov siyasi manevrdən istifadə etməyi qərara aldı. O, manevr etmək üçün əvvəcə İbrahimxəlil xanın mövqeyini müəyyənləşdirmək istədi. Bu zaman həm onun, həm də vəziri Molla Pənah Vaqifin Rusiyaya tam loyal münasibətdə olduqlarını müəyyən etdi.

Sisianov Azərbaycana hücumunun hələ əvvəlki dövründə ayrı – ayrı xanlıqlar arasında çəkişmələrin olduğunu bilirdi və bu haldan çox məhatətlə istifadə etmişdi. Bu taktika Şəmşəddil hökmdarı və digərləri ilə münasibətdə özünü daha qabarıq şəkildə göstərmişdi. Əlbəttə, İbrahimxəlil xan kimi təcrübəli dövlət xadimi yaranmış vəziyyəti kifayət qədər obyektiv qiymətləndirdi. Belə ki, o, çox yaxşı bilirdi ki, Qarabağdakı erməni məlikləri Rusiya tərəfinə keçib, ona qarşı çıxış etməyə hazırdırlar. Çünki bu erməni məlikləri Qarabağda müstəqil xristian dövləti yaratmağa coxdan can atırdılar. Digər tərəfdən isə həmin dövrlərdə ayrı – ayrı xanlıqlar arasında birliyin olmaması, əsasən şəxsi maraqların və mənəm – mənəmliyin üstün rol oynaması, **VƏTƏN, XALQ** mənafeyinin arxa plana keçməsi həmin dövrlərdə Azərbaycanı böyük bəlalara düçar etdi. Belə ki, Gəncə xanlığına divan tutuldu, Qarabağ xanlığı itaət etməyə məcbur edildi.

1805-ci il mayın 14-də Qarabağ xanı ilə Rus imperatoru arasında sonradan Kürəkçay adlanan müqavilə imzalandı. Müqaviləni Rusiyanın Qafqaz qoşunlarının baş komandanı Sisianov imzalamışdır. Müqavilə adlandırılmasına baxmayayraq, mahiyyətcə təslimçilik aktı olan Kürəkçay müqaviləsi Qarabağın faciəli taleyinin başlanğıcını qoydu. Belə ki, bu və buna bənzər digər müqavilələrdən sonra iki yüz il ərzidə müstəqil Azərbaycan dövlətinin qurulmasına imkan verilmədi [1,səh. 32].11 maddədən ibarət bu müqavilə ilə Qarabağ xanlığı Rusiya himayəsinə qəbul edildi. "Bundan sonra isə, Çar Rusiyası XIX əsrin əvvəllərindən 1873-cü ilə qədər Şimali Azərbaycana 334242 erməni köçürmüşdü".[4, səh.78]

Bu müqavilə təkcə Qarabağın deyil, bütünlükdə Azərbaycanın taleyində mühüm rol oynadı. Bu müqavilənin şərtlərinə görə Qarabağ xanlığı Rus imperiyasının vassalı olur, digər xarici dövlətlərlə münasibət saxlamaq hüququndan məhrum olur, çar xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürürdü. Habelə, Şuşa qalasında və xanlığın ərazisində Rusiya qoşununun yerləşdirilməsi barədə də razılıq verilirdi. Çar qoşunları general-leytenant rütbəsi verilmiş İbrahimxəlil xan birbaşa çar baş komandanına tabe edilirdi. Eyni zamanda Rusiya hökuməti də xanın və onun varislərinin daxili idarəetmə hüquqlarına toxunmayacağını öhdəsinə götürdü.

Göstərilməlidir ki, Kürəkçay müqaviləsi tarixşünaslıqda hələ də tam obyektiv tarixi həllini tapmamışdır. Hətta bu problemin lazımi şəkildə tədqiq edilməməsi saxta erməni uydurmalarının yaranmasına səbəb olmuşdur. Erməni tarixçiləri Kürəkçay müqaviləsinin imzalanmasında erməni məliklərinin rolunu hər vasitə ilə şişirdir, bu işdə onların rolunu həledici amil kimi qiymətləndirirlər.[1.səh.71] "Halbuki bu məliklər alban məlikləri idi və onların haqqında söz gedən müqavilənin bağlanmasında iştirak etmələri heç bir rəsmi sənəd və faktla təsdiq edilmir. İkincisi, haqqında söz gedən müqavilənin əvvəlki şərhlərində isə Qarabağ xanının könüllü rəyinin Rusiya hökuməti tərəfindən nəzərə alınaraq könüllülük əsasında rəsmləşdirilməsi kimi qeyd edilirdi"[2,səh.91]. Xanın yaranmış hərbi-siyasi şərait nəticəsində belə bir müqaviləyə qol çəkmək məcburiyyətində qalması şübhəsizdir.

Düşünürəm ki, Kürəkçay müqaviləsinin imzalanması faktına daha doğru - dürüst, obyektiv qiymət vermək üçün ilk öncə bu hadisə ərəfəsində Qarabağ xanlığındakı daxili vəziyyəti ciddi şəkildə nəzərdən keçirməliyik. Məsələn, elə buradaca qeyd etmək yerinə düşərdi ki, ruslar Gəncə üzərinə hücum edərkən Qarabağ xanı İbrahimxəlil xan müdafiəçilər üçün o zamanlar çox yüksək qiymətləndirilən iki top göndərmişdi. Təbii ki, bu fakt özü - özlüyündə İbrahimxəlil xanın imkanı daxilində Gəncəlilərə köməyiinin təzahürü idi.

Bundan başqa ayrıca qeyd etmək lazımdır ki, Kürəkçay müqaviləsinin imzalanması ərəfəsində Qarabağ xanlığında vəziyyət xeyli dərəcədə mürəkkəb idi. Belə ki, hələ 1763 -cü ildə İbrahimxəlil ağa Qarabağa qayıtdıqdan sonra Mehrəli bəylə hakimiyyət ugrunda vuruşmalı olur. İbrahimxəlil ağa qalib gəldikdən sonra Mehrəli bəy Qubalı Fətəli xanın yanına qaçır. Sonradan isə Qarabağ xanlığına qarşı hücumlarda iştirak edir. Bəli, şübhəsiz ki, bu daxili çəkişmə idi. Lakin bu faktı Sisianovla əlaqələndirmək nə dərəcədə doğrudur?

İbrahimxəlil xan ölkənin birləşdirilməsi sahəsində müəyyən işlər görməyə başlamış və özünə müttəfiqlər tapmışdı. Avar xanı ilə qohumluğu sonralar güclənən basqınların, mərkəzdənqaçma qüvvələrinin qarşısını almaqda ona kömək etmişdi. Pənahəli xanın dövründə olduğu kimi, məliklərlə mübarizə davam edirdi. Qarabağın Dizaq, Çiləbörd və Gülüstan məlikləri İbrahimxəlil xana tabe olmaqdan imtina etmişdilər. Lakin Vərəndə məliyi Şahnəzər və Xaçın məliyi Mirzə xan İbrahimxəlil xanla ittifaqda idilər.

1781-ci ildə İbrahimxəlil xan müttəfiqləri ilə birlikdə Dizaq məlikliyini özünə tabe etdi və hakimiyyətə yaxın adamını qoydu. Lakin bir qədər sonra o da xana dönük çıxdı. 1783 - cü ildə Rusiya ilə Gürcüstan arasında Georgiyevsk müqaviləsi imzalanmasından etibarən İbrahimxəlil xanla onun hakimiyyətindən boyun qaçıran məliklər arasında Rusiyanın təhriki ilə mübarizə daha da kəskinəşdi. Məsələ aydın idi. Belə ki, 1783 - cü ildə Gürcüstanla Rusiya arasında müqavilə imzalandıqdan sonra Rusiyanın Qafqazda mövqeləri xeyli dərəcədə güclənmişdi. Əlbəttə, din amili də burada çox böyük rol oynayırdı. Qarabağdakı erməni məlikləri də öz növbələrində Rusiyanın Qafqazdakı mövqelərinin belə güclənməsindən istifadə edərək burada xristian dövləti qurmaq üçün müvafiq addımlar atırdılar. Rusiya da bu işdə erməni məliklərinə lazımi dəstək verir, onları Qarabağ xanlığına qarşı daha qətiyyətlə çıxmağa təhrik edirdi. Bununla Rusiya özünün müəyyən planlarına nail olmaq üçün məliklərin köməyindən istifadə etmək istəyirdi. İbrahimxəlil xan yüksək diplomatik bacarığı ilə məlikləri Şuşaya toplaya bildi və onların Qarabağ xanlığına xəyanətini sübuta yetirib həbsə aldı. Məliklərdən ikisi Şuşa həbsxanasına salındı. Digəri isə siyasi məhbus kimi Ərdəbil xanına verildi. Sonra isə xəyanətkar məliklərin müttəfiqi Qanzasar monastrının katolikosu beş qardaşı ilə birlikdə ələ keçirildi və layiqli cəzalarını aldı.

Lakin Şuşa həbsxanasındakı məliklər həbsdən qaça bildilər. Onlar Tiflisə gələrək burada II İrakli və polkovnik Burnaşovun köməyi ilə Qarabağ xanlığına qarşı təşkil olunmuş qəsdi yerinə yetirmək üçün hazırlığa başladılar. Birləşmiş qüvvələr 1787-ci ildə Gəncəyə yaxınlaşdılar. Lakin 1787-1791 -ci illərin Rusiya- Osmanlı müharibəsinin başlanması bu hücumun dayandırılmasına səbəb oldu. Beləliklə, İbrahimxəlil xan Qarabağ xanlığının bütövlüyünü qoruyub saxlamağa müvəffəq oldu.

Göründüyü kimi Kürəkçay müqaviləsinin imzalanması ərəfəsində Qarabağ xanlığında daxili vəziyyət xeyli dərəcədə mürəkkəb idi. Əlbəttə, bütün bu detalları nəzərə alan kifayət qədər təcrübəli siyasətçi İbrahimxəlil xan çox gözəl başa düşürdü ki, Qarabağdakı erməni məlikləri istənilən vaxt rusların tərəfinə keçib ona qarşı çıxmağa hazırdırlar. Buna görə də İbrahimxəlil xan məkrli erməni məliklərinin ona qarşı birləşmələrinin qarşısını almaq üçün əgər Rusiya tərəfindən təklif gələrdisə onu müsbət cavablandırmağa hazır idi.

Lakin hadisələrin sonrakı inkişafı göstərdi ki, heç bir müqavilə, heç bir andlı öhdəlik İbrahimxəlil xanı ailəsi ilə birlikdə faciəli ölümün pəncəsindən xilas edə bilməyəcəkdi. Belə ki, İbrahimxəlil xan ailəsi ilə birlikdə 1805-ci il iyul ayının 2-də rus zabiti Lisaneviç tərəfindən qətlə yetirildi. İbrahimxəlil xanın öldürülmüsinin səbəbi Qarabağ salnamələrində bəzən bu ölümün Peterburqda cızılmış plan əsasında, bəzən isə xanın ermənilər tərəfindən uydurulan xəyanətə görə baş verdiyi göstərilir. M.C.Qarabaği yazır ki, «1806-cı ilin yazında Qızılbaş qoşunu (çar mirzəsi Cavanşir Qarabaği qızılbaş deyərkən Qacarlar qoşununu nəzərdə tutur) Qarabağ torpağına yenidən hücuma keçməyə başladı. Onların qarşısını almaq üçün Qarabağda mayor Lisaneviçin yeger dəstəsindən başqa qoşun olmadığından və məhsul vaxtı gəlib çatdığından İbrahimxəlil xan Qarabağ elləri ayaq altında qalmasın deyə qızılbaşlarla xoşluqla

rəftar etməyə başladı. Ermənilər bunu mayor Lisanoviçə xəyanət kimi başa saldılar. Buna görə də İbrahimxəlil xan öldürüldü»[1,səh.112]. "İbrahimxəlil xanı öldürdükdən sonra mayor Lisanoviçin hərbi rütbəsinin artırılması göstərir ki, burada hər iki amil əsas götürülə bilər."[1,səh.113]

Qarabağ xanının bəxtsizliyi özünü onda göstərirdi ki, bir tərəfdən Qacarlara satqınlıqda günahlandırır, digər tərəf - rusiya isə onu bu işlərinə görə qətlə yetirirdi. Buradan İran və Rusiyanın müstəmləkəçilik siyasətinin iç üzü görünür. 10 sentyabr 1806-cı ildə I Aleksandrın fərmanı ilə isə Mehdiqulu ağa Qarabağın yeni hakimi təyin edildi. İmperatorun fərmanında bunula əlaqədar qeyd edilirdi: «Biz, imperator I Aleksandr bəyan edirik: bütün yüksək üləmalar, hörmətli başçılar, əyyanlar, bəylər, sərkərdələr, kənd ağsaqqalları, kəndxudalar və bütün Qarabağ vilayətinin sakinləri bilirlər ki, keçən il rəhmətlik İbrahimxəlil xanı bizim çar nümayəndəsi general knyaz Sisiyanovla birlikdə sarayına gətirdi.

1822-ci ildə isə Qarabağ xanlığı ləğv olundu. Onun yerinə eyni adlı əyalət yarandı.

Kürəkçay müqaviləsindən sonra Qarabağda müstəmləkəçilik siyasəti gücləndi. İran və Türkiyədən köçürülmüş erməni əhalisinin Qarabağın boşalmış kəndlərində yerləşdirilməsi və sonralar tədricən yerli azərbaycanlı əhalisinin sıxışdırılması nəticəsində etnik tarazlığın pozulması hesabına Qarabağın azərbaycansızlaşdırma siyasəti yeridildi. Bu barədə yazılı mənbələrdə kifayət qədər məlumatlar verilir. Alban xristian kilsəsinin ləğv edilib erməni qriqorian kilsəsinə tabe edilməsi isə bu məsələdə həlledici amil oldu.

XX əsrin əvvəllərində Rusiya imperiyasının dağılması nəticəsində müstəqillik qazanan Azərbaycan Cənubi Qafqazda ilk cümhuriyyət qurdu. Lakin onun uzun müddət yaşamasına imkan verilmədi. «Qırmızı ordu» adı altında rus bolşevik ordusu Türkiyə ilə əlaqələrin yaranmasına imkan verməmək üçün onların arasında necə olursa olsun, erməni dövləti yaratmağa cəhd göstərdi və buna nail odu. Əzəli türk-oğuz torpaqları, əhalisinin dörddə üçü türk əhalisi olan İravanda Ermənistan dövləti yarandı, Zəngəzur və Göyçə ona verildi. Yuxarı Qarabağda isə DQMV yaradıldı.

1991-ci ilin sonlarında isə SSRİ -nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Ermənistan Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. "Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozub, Qarabağa daxil oldular və Dağlıq Qarabağın erməni separatçı terrorçuları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladılar."[2,səh.91].

"Sovet hakimiyyəti dövründə hər cür köməyə arxalanan ermənilər Dağlıq Qarabağı Azərbəycandan ayırmaq planı üzrə fəaliyyətlərini gizli şəkildə davam etdirirdilər. Sovet hakimiyyəti süquta uğrayan kimi qriqoryan kilsəsinin, xarici təşkilatların və diaspora qüvvələrinin maddi və mənəvi dəstəyi hesabına Azərbaycanın Qarabağ bölgəsini və onun ətrafındakı 7 rayonu işğal etdi."[1,səh.113]

Lakin 2021 -ci il sentyabrın 27 -də başlanan ikinci Qarabağ savaşında Müzəffər Azərbaycan ordusunun Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin başçılığı altında işğalçı erməni ordusu üzərində qazanmış olduğu möhtəşəm qələbə nəticəsində torpaqlarımız yenidən düşmənlərdən təmizlənmiş, öz əsl sahibinə - Azərbaycan xalqına qaytarılmışdır. Şübhə yoxdur ki, erməni vandalları tərəfindən viran edilmiş bu torpaqlarda yaxın gələcəkdə aparılacaq dinc quruculuq işlərindən sonra buraların əsl sahibləri - Qarabağlılar öz doğma yurd - yuvalarına qayıdacaq və **DÜNYANIN ƏN DİLBƏR GUŞƏLƏRİNDƏN OLAN QARABAĞIMIZ YENƏ DƏ GÜNDƏN GÜNƏ İNKİŞAF EDƏN, ÇİÇƏKLƏNƏN, GÖZƏLLƏŞƏN BİR DİYARA ÇEVRİLƏCƏKDİR**!

ƏDƏBİYYAT

1. Qarabağ Azadlıq Təşkilatı. Qarabağ dünən, bu gün və sabah. 4-cü Ümum respublika elmi - əməli konfransının materialları. (Kürəkçay müqaviləsinin 200 illiyinə həsr olunur). Bakı: 2005. 375 səh.
2. Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. "Təhsil", Bakı: 2005, 482 səh.
3. Mustafazadə T. Ümumi tarix. I cild. (Ən qədim zamanlardan XVIII əsrin sonlarınadək). Bakı: İqtisad Universitetinin nəşriyyatı 2009, 1152 səh.
4. Исторические факты о деяниях армян на азербайджанской земле. Баку: "Təhsil" 2009, 432 с.
5. Гарабаг: Кюрекчайский договор - 200. Баку: Тахсил. 2005, 176 с.
6. История Ирана. М., Издательство МГУ, 1977, .488 с.

SUMMARY

KURAKCHAY CONTRACT AND ITS CONSEQUENCES

Abdullayev I.H.

This article deals with the clash of interests of England, France and Russia in the Southern Caucasus, and tense internal siluation created because of the dispurtive activities of Armenian maliks (kings) in the Garabagh

khanate on the eve of the signing of the Kurekchay Treaty Besides it, the consolidation of the positions of Armenians in the aftermath of the signed treaty is also the subject matter of this article.

Untrue and non-objective evaluation of the Kurekchay Treaty in many countries, as well as in Russia and in Armenia and also the falsification of facts have found their reflections in this treatu too.

In the article in question the great historical victory won by our victorious army in the 44 day Garabagh War has found its reflactiion too.

Keywords: *Karabakh, Ganja, Russia, Ibrahimkhalil khan, Sisianov, Kurekchay Lisanevich,*

РЕЗЮМЕ

КУРАКЧАЙСКИЙ ДОГОВОР И ЕГО ПОСЛЕДСТВИЯ

Абдуллаев И. Г.

В этой статье говориться об интересах Англии, Франции и Россия на Южном Кавказе в предверии Кюрекчайского договора, о подрывной деятельности армянских меликств в Карабахском ханстве и создании ими напряженной ситуации, а также об укреплении их позиций после заключения договора. Здесь были отражена неправильная односторонняя позиция России поддерживающая Армению при помощи необьективных фактов и фальсификаций

Также в этой статье нашли свой отзвук исторической победы нашей героической армии в 44-х дневной войне.

Ключевые слова: *Карабах, Гянджа, Россия, Ибрагимхалил хан, Сисианов, Кюрекчай, Лисаневиц*

BUDAPEŞT SAMMİTİNDƏ DAĞLIQ QARABAĞ MƏSƏLƏSİ

Abdullayev N.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nofalabdullayev61@gmail.com

Açar sözlər: *Budapeşt sammiti, ATƏM, Azərbaycan, Ermənistan, münaqişə, həll yolları*

ATƏM-ə üzv ölkələrin dövlət və hökumət başçılarının 1994-cü il dekabrın 5-6-da Budapeştdə keçirilən zirvə toplantısı [4, s. 398] ATƏM-in tarixində yeni bir mərhələnin başlanğıcını qoydu.

Zirvə toplantısında qərara alındı ki, Budapeşt görüşünə qədər Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirə (ATƏM) adı ilə fəaliyyət göstərən bu təşkilat 1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırılsın [5, s. 208].

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin başçılığı ilə xarici siyasət məsələləri üzrə dövlət müşaviri Vəfa Quluzadə, xarici işlər naziri Həsən Həsənov və digər rəsmi şəxslərin təmsil olunduğu bu toplantıda ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salınmışdı.

Prezident Heydər Əliyev sammitin işinin ilk mərhələsində Dağlıq Qarabağda sülhyaratma prosesinin intensivləşdirilməsi üzrə qətnamənin qəbul edilməsində konsensusa nail olmaqla bağlı iştirakçı ölkələrin dövlət və hökumət başçıları ilə görüşündə Qarabağ probleminin həllinə dair Azərbaycanın prinsipial mövqeyini bildirərək qeyd etmişdir ki, Azərbaycan Qarabağ ermənilərinin iddialarına uyğun onlara dövlət müstəqilliyi verə bilməz. Söhbət yalnız muxtariyyatdan və onun geniş formalarından gedə bilər.

Dağlıq Qarabağ problemi ətrafında müzakirələrdə çıxış edən dövlət və hökumət başçılarının böyük əksəriyyəti problemin həlli yolları haqqında öz fikirlərini və mülahizələrini bildirərək, münaqişə zonasında atəşkəsin daimi olmasının, münaqişə aparan tərəflərinin hər ikisinin təhlükəsizliyinin təmin edilməsinin, sülhməramlı qüvvələrin münaqişənin aradan qaldırılmasında rolunun sınaqdan keçirilməsinin vacibliyini qeyd etdilər. Qarabağ məsələsinin həllində ATƏM-in daha çox səy göstərməli olduğunu, onun bu cəhdlərinin BMT tərəfindən müdafiə edildiyinin dəfələrlə bildirildiyini diqqətə çatdıran BMT-nin baş katibi Butros Qali qeyd edirdi ki, sülh və təhlükəsizlik perspektivlərinin genişlənməsinin başlıca şərtlərindən biri kimi beynəlxalq və regional təşkilatların əməkdaşlığı daim diqqətdə saxlanılmalıdır. Türkiyənin baş naziri Tansu Çillər problemlə bağlı çıxışında daha tutarlı dəlilləri əsaslandıraraq bildirirdi ki, Azərbaycan torpaqlarının böyük hissəsi Ermənistan tərəfindən işğal olunmuşdur və bir milyondan çox qaçqın var. Biz Bosniya münaqişəsinə son qoyulmasında gecikdik. Əgər beynəlxalq birlik,

ATƏM Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında da gecikərsə, o zaman bu təşkilatların heç birinin əhəmiyyəti və rolu olmayacaqdır [1, s. 1].

Ermənistan prezidenti L.Ter-Petrosyan isə həmişə olduğu kimi yenə də Azərbaycana qarşı iftira və böhtanla dolu nitqində əsassız olaraq xalqların öz müqəddəratını təmin etmək prinsipini Qarabağ münaqişəsinə tətbiq etməyə, Dağlıq Qarabağın erməni icmasını münaqişədə iştirak edən tərəflərdən biri kimi qələmə verməyə cəhd göstərmiş və Ermənistanın bu münaqişədə yalnız erməni icmasının müdafiəçisi kimi çıxış etdiyini sübut etməyə çalışmışdır.

52 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən səhər iclasında Prezident Heydər Əliyev Ermənistan prezidentindən fərqli olaraq çıxışında ATƏM-in Avropadakı rolundan, BMT və ATƏM arasında münasibətlərin düzgün qurulmasının əhəmiyyətindən, Azərbaycanın inkişafında ciddi maneələr yaratmış altı illik müharibənin nəticələrindən bəhs edərək sammit iştirakçılarını əmin etmişdi ki, Azərbaycan Respublikası bu prosesdə yalnız sülhsevər və konstruktiv mövqe tutsada Ermənistan tərəfi BMT TŞ-nın qərar və qətnamələrini yerinə yetirməkdən və işğal etdiyi Azərbaycan ərazilərindən qoşunlarını çıxarmağa razılıq verməkdən imtina edir. Bu da siyasi sazişin əldə edilməsinə imkan vermir [3, s. 573-576].

Beləliklə, Budapeşt Zirvə toplantısının dekabrın 6-da keçirilən yekun iclasında qəbul olunmuş "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı siyasi bəyannamənin "Regional məsələlər" bölməsində Dağlıq Qarabağ münaqişəsi də müzakirə olundu. Müzakirədə Ermənistan prezidenti qətnamənin qəbul olunmasını pozmağa cəhd etsədə Azərbaycan nümayəndələrinin səyləri nəticəsində bunun qarşısını almaq mümkün oldu [2, s. 3].

ƏDƏBİYYAT

1. Azərbaycan qəzeti, 7 dekabr 1994, № 237. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşü. s.1
2. Azərbaycan qəzeti, 9 dekabr 1994, № 238. Azərbaycan diplomatiyasının taleyüklü böyük uğuru
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. May, 1994-dekabr, 1994, Bakı: Azərnəşr, 1997, 604 s.
4. Qasımlı Musa. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), 2 hissədə, II hissə. Bakı: Mütərcim, 2015, 640 s.
5. Məmmədov Novruz. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, 264 s.

SUMMARY

NAGORNY KARABAKH AT THE SUMMIT IN BUDAPEST

Abdullayev N.M.

As a result of the Budapest Summit held on December 5-6, 1994, the CSCE became a pan-European organization with self-governing mechanisms - the OSCE - on January 1, 1995.

At the Budapest summit, for the first time, it was decided to establish a peacekeeping force within the OSCE and send it to the conflict zones. The participating States agreed to send the first OSCE-led multinational peacekeeping force to the Nagorno-Karabakh region, established the co-chairmanship of the Minsk Process, and adopted a resolution entitled "Intensifying the OSCE's activities in connection with the Nagorno-Karabakh conflict."

Keywords: *Budapest summit, CSCE, Azerbaijan, Armenia,* conflict, solutions

РЕЗЮМЕ

НАГОРНЫЙ КАРАБАХ НА САММИТЕ В БУДАПЕШТЕ

Абдуллаев Н.М.

В результате Будапештского саммита, состоявшегося 5-6 декабря 1994 г., СБСЕ с 1 января 1995 г. стало общеевропейской организацией с механизмами самоуправления - ОБСЕ.

На Будапештском саммите впервые было принято решение о создании миротворческих сил в рамках ОБСЕ и направлении их в зоны конфликтов. Государства-участники договорились направить в Нагорно-Карабахский регион первые многонациональные миротворческие силы под руководством ОБСЕ, установили сопредседательство Минского процесса и приняли резолюцию «Активизация деятельности ОБСЕ в связи с нагорно-карабахским конфликтом».

Ключевые слова: *Будапештский саммит, СБСЕ, Азербайджан, Армения, конфликт, решения*

II. KARABAĞ SAVAŞI'NIN ALMAN BASINI'NA YANSIMALARI

Ayten CAN
Aydın Adnan Menderes Üniversitesi, Efeler/Aydın, Türkiye
aytancan@gmail.com, atunali@adu.edu.tr

Anahtar Kelimeler: *Alman Basını, II. Karabağ Savaşı, Azerbaycan, Ermenistan, Türkiye-Rusya*

GİRİŞ.1994 yılında 725.000 Azerbaycan Türkü'nün doğdukları vatan topraklarını terk etmesi ile sonuçlanan I. Dağlık Karabağ Savaşı sonrasında imzalanan Bişkek Protokolü üzerine Ermenistan Ağdam, Cebrayil, Fuzuli, Kelbecer, Kubadlı, Laçın ve Zengilan'ı işgal etmiş, Ermenistan destekli Dağlık Karabağ Cumhuriyeti kurulmuştur. Ermenistan'ın bölgedeki sivil Azerbaycan Türklerine yönelik saldırıları üzerine çok sayıda Azerbaycan Türkü vatan topraklarını terk etmek zorunda kalmıştır.

1994'ten 20 Temmuz 2020'ye kadar geçen sürede Ermenistan ve Azerbaycan arasında ateşkes birçok kez ihlal edilmiş Ermenistan'ın sivil halka yönelik saldırıları sürmüştür. 20 Temmuz 2020'de Azerbaycan Cumhuriyeti ile Ermenistan sınırında başlayan çatışmalar, 22 Eylül 2020'de sıcak çatışmalara dönüşmüş, 27 Eylül 2020 'de ise fiili olarak Azerbaycan Cumhuriyeti Silahlı Kuvvetleri ile Ermeniler arasında savaş başlamıştır.

04 Ekim 2020'de kurarılan Cebrail'den sonra Fuzuli, Kubadlı ve Zengilan'dan sonar 09 Ekim 2020'de ilan edilen geçici ateşkesin bozulması üzerine Azerbaycan Ordusu ilerleyerek Ermeni işgali altındaki köyler ve 08 Kasım 2020'de Şuşa Ermeni işgalinden kurtarılmış, bunun üzerine 10 Kasım 2020'de Azerbaycan ile Ermenistan arasında imzalanan ateşkesle Ermenistan yenilgiyi kabul etmiştir. 10 Kasım 2020'de imzalanan Ateşkes Antlaşmasına göre de Ermenistan Ağdam, Kelbecer, Laçın'i Azerbaycan'a bırakmıştır.

27 Eylül 2020-10 Kasım 2020 tarihleri arasında Azerbaycan ve Ermenistan arasında süren savaş dünya kamuoyunda da yer almış, özellikle Türkiye ve Rusya siyasetinin önemli konularından biri olmuştur. Yakın gelecekte de Kafkasya'daki gücünü korumayı hedefleyen Rusya iki ülke arasında imzalanan ateşkes konusunda etkili olmuş ve bölgede Azerbaycan ordusunun daha fazla ilerlemesini önlemeye yönelik olarak ateşkes koşullarına göre beş yıl boyunca Dağlık Karabağ'da ve Laçin Koridoru'nda 2000 civarında barışgücü askerini konuşlandırılmasını garanti altına almıştır.

Türk Siyaseti ve Türkiye Kamuoyu Azerbaycan –Ermenistan Savaşı'nı yakından takip etmiş, Azerbaycanlı kardeşlerine destek vermiştir. Azerbaycan Cumhurbaşkanı İlham ALİYEV barış gücünde Türkiye'nin de olmasını şart koşmuştur. Türk Barış gücü askerleri 30 Ocak 2021'den itibaren Ağdam kentinin Merzili köyü yakınlarında oluşturulan Türk-Rus Ortak Gözlem Merkez'inde göreve başlamıştır.

Azerbaycan-Ermenistan savaşı başladığı andan itibaren dünya kamuoyunun gündeminde yer almış, savaş ve savaş sonrasında ilan edilen ateşkes ve sonrasında ateşkes kurallarına uyulmasını sağlamaya yönelik Türk-Rus Silahlı Kuvvetleri tarafından oluşturulan barış gücü askerleri ve bu iki ülkenin izlediği siyaset diğer ülkelerde olduğu gibi Almanya'da da yakından takip edilmiştir.

Biz bu çalışmamızda Eylül 2020- Şubat 2021 tarihleri arasında yayınlanan Alman ulusal gazete ve dergilerini tarayarak Azerbaycan ve Ermenistan arasındaki II. Karabağ Savaşı ve ateşkes antlaşmasının bir değerlendirmesini yapmaya çalışacağız.

KARABAĞ ÜZERİNDEKİ HÂKİMİYET MÜCADELELERİ. Karabağ, Dağlık Karabağ, Nagorna Karabakh, Berg Karabakh, mountainous garabagh ya da Qarabağ , hangi dilde söylenirse söylensin Karabağ adı binyıllardır bu coğrafyada yaşayan Türkler tarafından verilmiştir. Karabağ dağlık anlamına gelen –Kara- ve birçok ürünün yetiştirildiği verimli arazileri ifade eden –Bağ- kelimelerinin birleşmesiyle oluşmuş Türkçe bir kelimedir. Karabağ ile ilgili yapılan araştırmalara göre en eski kayıtlar M.Ö. IV. Binyıla ait olup, bu dönemde bölgede Hurriler yaşamaktadır. M.Ö. I Binyılın başlarında Urartuların daha sonra da Sakaların Karabağ bölgesine yerleştiği bilinmektedir. M.S. I. Yüzyılda Kafkasya Türk Albanları,(13,s.12) daha sonra Romalılar ve Sasaniler, Hun Türkleri ve VII. Yüzyılda da Hazar Türkleri Karabağ Bölgesinde hüküm sürmüşlerdir. (28,s.5-6)

Bölge VII. Yüzyıldan itibaren Müslümanların hâkimiyetine geçmiştir. Toğrul Aliyev bu dönem hakkında Karabağ bölgesinde çok kısa bir süre sonra Müslüman Oğuzların hakim unsur haline geldiğini, VIII. Yüzyılda Türk Kökenli Babek'in önderliğinde isyanlar olduğunu, IX. Yüzyılın sonlarında da Saç Oğulları isimli Müslüman Türk Beyliği'nin hakim olduğunu ifade etmektedir.(1,s.6-7).Yine Toğrul Aliyev'e göre Karabağ, XI. Yüzyıldan itibaren Selçuklu akınlarına uğramış, 1256 yılından sonra da İlhanlıların eline geçmiştir. 1396 yılından sonra Timur'un orduları tarafından işgal edilen bölgede XV. Yüzyılda Akkoyunlular hâkim olmuşlar (13,s.25), XVI. Yüzyılın sonlarında Osmanlılar tarafından ele geçirilinceye kadar da Safevilerin yönetiminde kalmıştır (13,s.27).Yusuf Sarınay da Güney Kafkasya'nın en eski yerleşim alanlarından biri olan Karabağ bölgesine ilk olarak Türklerin yerleştiğini, fakat bölgenin tamamen Türk hâkimiyetine girmesinin XI-XIII. Yüzyıllarda gerçekleştiğini belirtmektedir (27, s.18).Yavuz Sultan Selim döneminde 1514 yılından itibaren Azerbaycan'a seferler

düzenlenmiştir. Bölgenin tümüyle Osmanlı hâkimiyetine geçmesi ise III.Murat döneminde olmuştur. İran ve Osmanlı Devleti arasında hâkimiyet ve güç savaşına neden olan bölgede 21 Mart 1590'de imzalanan İstanbul antlaşması sonrası Tebriz, Gence, Revan, Tiflis ve Karabağ Osmanlı hâkimiyeti altına girmiş, Revan Eyaleti ile Gence - Karabağ Eyaleti kurulmuştur. 1603'de Şah Abbas tarafından yeniden İran hâkimiyetine alınan bölgenin yeniden Osmanlı Devletinin hâkimiyetine geçmesi 1610'de olmuş, 1635'te de IV. Murat Dönemi'nde yapılan İran seferi sonrasında 1639 yılında imzalanan Kasr-ı Şirin antlaşması ile Revan İran'a bırakılmıştır. III. Ahmet'in padişahlığı döneminde 1714'te Şirvan ve Dağıstan üzerine düzenlenen sefer sonrasında Revan ve Karabağ yeniden alınmıştır (13,s.29).

Rus Çarı I. Petro döneminde Ruslar Hazar kıyılarına doğru genişlemek isteyince Osmanlı Devleti Rusya'ya karşı harekete geçmiş,Tebriz, Erdebil ve Karabağ'ı yeniden Osmanlı topraklarına katmıştır.1724'te Ruslarla yapılan antlaşma sonrası ise Gence, Tebriz, Tiflis, Revan ve Karabağ Osmanlı hâkimiyetine geçmiş, Hazar kıyıları da Ruslara bırakılmıştır. 1734'te Nadir Şah'ın bölgeyi tekrar eline geçirmesi üzerine 1735'te İran- Rusya arasında yapılan antlaşmayla Revan, Nahçıvan, Gence ve Karabağ İran'da kalmış fakat 1747'de Nadir Şah'ın ölümünden sonra otorite boşluğu olması nedeniyle Türkmen Beyleri tarafından Şirvan, Gence, Şeki ve Karabağ Hanlıkları kurulmuştur (8,s.41). Karabağ Hanı Türkü Penah Ali Han 1750'de Şuşa'da Penahabad (13,s.32;) kalesini yaptırmış, Şuşa Karabağ Hanlığının başkenti durumuna gelmiştir (13, s.42-43; 22, s.71-72). 22 Kazaya bölünen Karabağ Hanlığı naipler tarafından şer'i kurallara göre yönetilmekteydi (13,s.36;11, s.15).Ayrıca Bakü, Nahçıvan, Erdebil, Tebriz ve Derbent Hanlıkları da kurulmuştur (14,s.41). Bağımsız olan bu hanlıklar kimi zaman Osmanlı Devleti, kimi zaman İran etkisi altında kalmışlar, Osmanlı Devleti'nin güç kaybetmeye başlamasıyla da Rusya bölgede etkili olmaya başlamıştır (9,s.212;33).

Ruslar 1804'te Gence Hanlığını işgal etmişler, daha sonra da 1805'de Rusya ile imzalanan Kürekçey Antlaşması, 1813'de İran ile imzalanan Gülistan Antlaşması, 1828'de imzalanan Türkmençay Antlaşması ve 1829'da Osmanlı Devleti ile İmzalanan Edirne Antlaşması ile Karabağ dâhil olmak üzere Azerbaycan'ın kuzeyi Rusya'nın hâkimiyetine girmiştir(27,s.19). Bu tarihten itibaren Rusya bölgenin demografik yapısını değiştirmek amacıyla Ermenilerin Nahçıvan, Revan ve Karabağ bölgesine göç etmelerini sağlamıştır (24,s.47).Yüzyıllardır Osmanlı Devleti ve Rusya arasında bir güç mücadelesine sahne olan Karabağ sorununun temelinde Rusların bölgeye hâkim olmak ve kendisine sadık devletler kurmak istemesi olarak düşünülmelidir. 1828'de Çar I. Nikola tarafından Revan ve Karabağ Hanlıkları birleştirilerek Çarlığa bağlı bir Ermeni vilayeti kurulmuş (3,s.1-17), XIX. Yüzyılın sonlarına kadar bölgeye yönelik Ermeni göçleri artarak devam etmiştir (15,s.85;13, s.43; 31,s.27). Karabağ'da Ermeniler ve Müslüman Türkler arasında körüklenen düşmanlığın ve çatışmaların temelinde Rusya'nın Kafkasya'da (31, s.26; 20, s. 1-2) izlediği yayılmacı politika vardır (4,s.15-16;31,s.26). Rusynın izlediği pokitika Güney Kafkasya Bölgesi'nde önemli demografik ve politik değişimlere neden olmuş, bölgede Ermeni nüfusu artmıştır (22,s.72). I. Dünya Savaşı'nın ardından Transkafkasya Federasyonu parçalanmış Azerbaycan, Ermenistan ve Gürcistan bağımsız birer devlet kurma girişiminde bulunmuşlardır. Rusların bölgeyi tekrar kontrol altına almaları üzerine 1923'te Dağlık Karabağ Özerk Bölgesi kurulmuştur. Karabağ'a göç ettirilen Ermeniler bu bölgenin Ermenistan ile birleşmesini talep etmişlerdir (31, s.26). Ermeniler açısından "Büyük Ermenistan" hayalini gerçekleştirmek için Karabağ'ın Ermeni topraklarına katılması çok önemlidir. Sovyet Rusya'nın çöküşü döneminde bölgede etnik çatışmalar artmıştır(12,s.1113). Jeopolitik ve Jeostratejik açıdan büyük öneme sahip olan Dağlık Karabağ Sorunu sadece bölgesel bir sorun olmayıp küresel bir sorun haline gelmiştir. Bu sorun uluslararası hukuka uygun olarak çözüme kavuşturulamadığından bölgede Azerbaycan ve Ermenistan arasında sık sık çatışmalar meydana gelmiştir.

I.VE II. DAĞLIK KARABAĞ SAVAŞLARI. Sovyetler Birliği'nin dağılmasından sonra bölgede 15 Bağımsız devlet kurulmuştur. Bunlardan biri olan Ermenistan batılı güçlerin de desteğini alarak Karabağ'ı işgal etmiştir. 1 Aralık 1989 yılında Ermenistan Yüksek Sovyeti Dağlık Karabağ'ın Ermnenistan ile birleştirildiğini ilan etmiş, Sovyet Azerbaycan yönetiminde olan Vezirov- Muttalibov- Kafarova Azerbaycan'ın savunması yerine Kızıl Ordu birliklerini Bakü'ye davet etmişler ve tarihe "Kanlı Ocak" olarak geçen 20 Ocak 1990 olaylarının olmasına zemin hazırlamışlardır. Batılı devletler Rusya ve Ermenistan'ın saldırgan bir politika izlemesine sessiz kalmışlar, Rusya Ermenistan'ın Karabağ'ı işgal etmesine engel olmamıştır (7,s.83). Ermeniler sadece Karabağ topraklarını işgal etmekle kalmamışlar 1992 yılı başlarından itibaren Azerbaycan topraklarına saldırmışlar, Şuşa –Hocalı yolunun alt bölgesindeki yerleşim yerlerini ele geçirmiş, 25 Şubat 1992'de Hocalı 'ya saldırarak kadın, çocuk, yaşlı, hasta demeden bölge halkını katletmişlerdir. Ayrıca Hocalı Kalederesi bölgesinde yaşayan Ahıska Türklerini de yakarak öldürmüşler, sağ kalanları Askeran- Ketik arasında kurşuna dizmişlerdir (21,s.52; 25, s.83). Tarihe "Hocalı Soykırımı" olarak geçen bu kanlı geceden sonra Karabağ toprakları Ermeniler tarafından sistemli bir şekilde işgal edilmiştir. Azerbaycan ve Ermenistan arasındaki sorunu çözmek amacıyla oluşturulan AGİK ve Minsk Grubu'nun yürüttükleri çalışmalar bir sonuç vermemiştir (29,s.168-169). 1994'e kadar süren çatışmalar 12 Mayıs 1994'te ilan edilen ateşkes sonrasında da devam etmiş, çok sayıda Azerbaycan Türk'ü Karabağ'ı terk etmek zorunda kalmış, binlerce kişi yaralanmış ya da ölmüştür (34, s.160-161).

1988-1994 yılları arasında süren Dağlık Karabağ Savaşı'nda Türkiye Azerbaycan'a siyasi ve askeri alanda destek vermiştir. I. Dağlık Karabağ Savaşı'nda Ermeni güçleri Dağlık Karabağ'ın yanı sıra yoğun olarak Azerilerin yaşadığı Fuzuli, Laçin, Kelbecer, Kubatlı ,Zengilan ve Ağdam'ı da işgal etmiştir. Bu topraklarda yaşayan 1 Milyondan fazla Azerbaycan Türkü yurtlarından ayrılmak zorunda kalmışlar kaçkın- göçkün durumuna düşmüştür (10, s.77).

Minsk Grubu tarafından yürütülen Dağlık Karabağ sorununun çözümünde bir sonuca varılamamıştır. 2007'de görüşmeler Madrid İlkeleri çerçevesinde sürmüştür. Azerbaycan açısından değerlendirildiğinde çok önemli olan Madrid İlkeleri Ermenistan'ın Dağlık Karabağ çevresindeki işgal edilmiş bölgeleri boşaltılması, Karabağ'a ulaşımın sağlanması için Laçin koridorunun açılması, Ermeni işgali sonrası yerlerini yurtlarını terk etmek zorunda kalan mecburi göçmenleri topraklarına geri dönmesi, Karabağ bölgesine uluslararası barış gücünün yerleştirilmesi, bölgedeki Ermenilere kendilerini yönetme hakkı tanınması ve Dağlık Karabağ'ın hukukî statüsünün belirlenmesi konularını içermektedir. Madrid İlkeleri kapsamında sürdürülen görüşmelere rağmen 2020'ye kadar Dağlık Karabağ sorunu çözülememiştir.

Ermenistan'ın Dağlık Karabağ'ı 30 yıldır süren işgali sırasında defalarca ateşkes antlaşmasını ihlal etmiş ve Azerbaycan topraklarına saldırmıştır. Nisan Dövüşleri- Dört Gün Savaşları olarak da tanımlanan 1-5 Nisan 2016 yılında Ermenistan'ın Azerbaycan'a saldırısı sonrası sivil halk zarar görmüştür (18,s.53). Bu savaşta Azerbaycan Silahlı kuvvetleri 24 yıldır Ermeni işgalinde olan altı noktayı yeniden Azerbaycan topraklarına katmıştır. Azerbaycan Ordusu'nun başarısı ile sonuçlanan savaş Azerbaycan halkının dayanışmasını da güçlendirmiştir. II. Karabağ Savaşı'nın başlamasının en önemli nedeni 12 Temmuz 2020'de Ermenilerin Tovuz'a saldırmasıdır. Azerbaycan – Ermenistan sınırında olan Tovuz Türkiye- Azerbaycan ve Gürcistan açısından önemli bir stratejik konumdadır ve Dağlık Karabağ'a da 200 km uzaklıktadır. 30 yıldır Ermeni işgali altında bulunan Dağlık Karabağ 27 Eylül 2020'de başlayan sıcak çatışmalar sonrasında 10 Kasım 2020'de yeniden Azerbaycan vatan topraklarına katılmıştır. 44 gün süren savaşta Azerbaycan Silahlı Kuvvetleri Ermenistan Ordusunu büyük bir bozguna uğratmış, 10 Kasım 2020'de "Üçlü Bildiri'nin" imzalanması sonrasında da Rus Barış Güçleri Azerbaycan topraklarına girmiştir. Azerbaycan Devlet Başkanı İlham Aliyev'in barış sürecinde Türkiye'nin de aktif olarak rol alacağının belirtmesi üzerine 12 Kasım 2020'de Türkiye ve Rusya Savunma Bakanlıkları arasında Ankara'da ortak gözlem için işbirliği memorandumu imzalanmıştır. II. Karabağ savaşı Azerbaycan'ın mutlak zaferi ile sonuçlanmıştır.

II. **KARABAĞ SAVAŞI SIRASINDA ERMENİSTAN'IN YÜRÜTTÜĞÜ KARA PROPAGANDANIN ALMAN BASININDA YANSIMALARI. 27 Eylül 2020'de fiili olarak başlayan II.** Karabağ Savaşı ya da 44 Gün Savaşı- Vatan Savaşı 1994'ten itibaren Ermeniler tarafından işgal edilen toprakların geri alınmasıyla sonuçlanmıştır. Son olarak 8 Kasım 2020'de Şuşa'nın geri alınması Devleti, milleti ve kahraman ordusuyla Azerbaycan adını tarihe altın harflerle yazdırmıştır.

II. Karabağ Savaşı sadece iki ordunun cephede sürdürdüğü savaş değildir. Bu savaşta Cesur Azerbaycan askerleri cephede destan yazdılarsa da aynı zamanda cephe gerisinde güçlü enfermasyon savaşları da yürütülmüştür. Ermenistan uluslararası kamuoyuna gerçek dışı bilgiler aktarırken Azerbaycan devleti çok hızlı hareket ederek dünya kamuoyuna doğru bilgileri aktarmıştır. Ayrıca Azerbaycan Ermenilerin siber saldırılarını önlemekte de büyük bir başarı göstermiştir. Azerbaycan Cumhurbaşkanı İlham ALİYEV dünya kamuoyunda Ermenilerin karalama kampanyalarına hızla yanıt vermiş, Azerbaycan'nın Ordusunda Türk Silahlı Kuvvetleri mensupları olduğu, Suriye ve Libya'dan paralı asker getirildiği, Azerbaycan Ordusu tarafından F-35'lerin kullanıldığı, Azerbaycan tarafından ateşkesin ihlal edildiği gibi Ermeni iddialarının yalan olduğunu kanıtlarıyla bildirmiştir. İlham ALİYEV Almanya ARD kanalında bir röportajda Karabağ'ın yeniden Azerbaycan topraklarına katılmasının önemi ile ilgili "*…Karabağ'ın Ermeni işgalinden kurtarılmasının adalet meselesi, milli onur meselesi, uluslararası hukuk meselesi*" olduğunu ifade etmiştir. Azerbaycan bilişim sektörü de Karabağ konusunda çok önemli çalışmalar yapmıştır. Özellikle Azerbaycan hackerleri Ermenistan kaynaklı internet sitelerini ele geçirmiş, ayrıca " Karabağ Azerbaycan'dır " tamlamasını bütün dünyada yaymışlardır. Siber savaş ve enformasyon savaşı askeri hareketle aynı gün başlamıştır.

II. Karabağ Savaşı'nda askeri, siyasi, diplomatik alanda ve basım yayın ve sosyal medya alanında güçlü ve yoğun bir mücadele sergilenmiştir. Ermenistan Azerbaycan ve Türkiye aleyhine kara propaganda yürütürken Azerbaycan bu propagandanın gerçek dışılığını kanıtlamaya yönelik çalışmalar yapmış, savaş sırasında Ermenistan'ın yaptığı ihlalleri de dünya kamuoyu ile paylaşmıştır. II. Karabağ Savaşı aynı zamanda güçlü bir Azerbaycan Diasporasının oluşmasında etkili olmuştur.

Bu savaşı Dünya kamuoyuyla beraber Türk kamuoyu da yakından takip etmiş, Can Kardeşleri Azerbaycan halkıyla birlikte üzülmüşler birlikte sevinmişler, Azerbaycan Ordusuna özellikle moral desteği vermek için çaba göstermişlerdir. Bakü Ali Neft Mektebi Neft - Gaz Mühendisliği 4. Kurs talebesi olan oğlum Şükrü Can TUNALI da bir grup arkadaşıyla şehit ailelerine destek olmak amacıyla " Şehit Ailelerine Mektup" projesini başlatmıştır.

Bildiri konumuz olan "II. Karabağ Savaşı'nın Alman Basına Yansımaları " ile ilgili de Alman Ana akım medyasında taradığımız Die Welt,, Stern, Die Zeit ve Der Spiegel Gazetelerinde de Ermenistan'ın kara propagandasını görmek mümkündür.

Die Zeit Gazetesi'nde 27 Eylül 2020 tarihli bir haberde Azerbaycan ve Ermenistan arasında Dağlık Karabağ'da başlayan savaştan söz edilmekte, bu haberde özellikle Ermeni yanlısı bir taraf alındığı açıkça görülmektedir. Haberde Erenlilerin Hristiyan, Azerilerin ise Müslüman olmalarına vurgu yapılmaktadır. Ayrıca Hristiyan Avrupa'nın desteğini almak amacıyla Azerbaycan ordusunun kiliselere yönelik saldırıları olduğuna dair gerçek dışı haberlere de yer verilmektedir(1;6) Aynı tarihli Stern'de yer alan haberde Nikol Paşinyan'ın savaşın başlamasında suçlu olanın Azerbaycan Ordusu olduğuna dair açıklamalarına yer verilmektedir (8).Bu yayın organında yer alan başka bir haberde ise Yine Nikol Paşinyan'ın savaşın başlamasına Azerbaycan Devlet Başkanı İlham Aliyev'in karar verdiğini, kendilerinin de savaşa hazır olduklarını belirten açıklamalara yer verilmektedir (11). Die Welt Gazetesinde yayınlanan bir haberde II. Karabağ Savaşı'nın başlaması nedeninin Ermenistan'ın Ateşkes'i ihlal etmesi ve sınır ihlali yapmasına rağmen sınır ihlali yapanın Azerbaycan Ordusu gibi gösterilmek istenmektedir (7).

Die Zeit Gazetesinde yer alan haberde ise Karabağ'da sığınaklarda saklandığı iddia edilen kadın ve çocukların fotoğraflarına yer verilmiş, Azerbaycan ordusunun sivil halka saldırdığı ve Ermenistan'ın ise halkını ve topraklarını savunduğu iddia edilmiştir (9;14;5) Taradığımız yayın organlarının hepsinde Türkiye'nin Azerbaycan'a askeri desteğinden söz edilmekte, ayrıca Suriyeli teröristlerin savaş bölgesine gönderildiğine dair batı kamuoyunu yanıltmaya yönelik Ermenistan tarafından paylaşılan yalan ve yanlış bilgiler yer almaktadır. Özellikle savaşta Türkiye tarafından gönderildiği iddia edilen Suriyeli teröristlerin sayıları ile ilgili farklı bilgiler aktarılmaktadır. Suriye'den getirildiği iddia edilen teröristlerin Ermeni köylerine girerek " şeriat isteriz" diye bağırdıkları gibi yalan haberleri de görmek mümkündür (12;13). Bu sayı kimi yayın organlarında 2000, kimilerinde ise 4000 olarak verilmektedir (2). Bu haberlerin yansıra özellikle 1915 olaylarına vurgu yapılmakta Türkiye'nin II. Karabağ Savaşında dost ve Kardeş ülke Azerbaycan'a destek vermesinin öncelikle Türkiye Ermenileri başta olmak üzere Ermeni halkının kendilerine yönelik yürüteceği varsayılan soykırımdan korktuklarına dair yanıltıcı bilgilere de yer verilmektedir (3;4;15).

Taradığımız gazetelerde genel olarak Ermeni yanlısı haberler yer almakta olup bu haberlerin Ermenistan tarafından dünya basınına servis edildiği çok açık bir şekilde görülmektedir. Çünkü benzer haber başlıklarını diğer ülkelerin basım-yayın organlarında da görmemiz mümkündür.

II. Karabağ Savaşı sırasında Türkiye ve Azerbaycan halkı da sosyal medya başta olmak üzere her platformda çok önemli bir dayanışma örneği sergilemişlerdir.

44 günlük Vatan Savaşı'na asıl damga vuran ve Azerbaycan'a karşı olanların kendilerine gelmelerini sağlayacak olan İlham ALIYEV'in *"Cebrail'e yol yapıyordun, Paşinyan. Ne oldu? Hani o yol? Şuşa'da Parlamento binası inşa ediyordun? Ne oldu? Cehenneme gitti."* sözleri olmuş ve tüm dünyada insanlar arasında söylenir olmuştur.

Son söz olarak da şunu ifade etmek isteriz. Karabağ dün Azerbaycan'ındı, Bu gün de, yarın da Azerbaycan'ın ve Türkiye Cumhuriyeti Devleti ve Türk Milleti de dün olduğu gibi bugün, yarın, her zaman Azerbaycanlı kardeşlerinin yanında olacaktır.

KAYNAKÇA

1. Aliyev, Toğrul. '' Dağlık Karabağ Sorunu ve Uluslararası Örgütler'', Yayımlanmamış Yüksek Lisans Tezi, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2006.
2. Aslanlı, Araz. '' Tarihten Günümüze Karabağ Sorunu'', *Avrasya Dosyası: ASAM Yayınları,* 7/7 (2001): 399-415.
3. Aslan, Betül. *I. Dünya Savaşı Esnasında "Azerbaycan Türklerinin "Anadolu Türklerine "Kardeş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyet-i Hayriye'si,* Ankara: Atatürk Kültür Merkezi Yayınları, 2000.
4. Attar, Aygün. *Karabağ Sorunu Kapsamında Ermeniler ve Ermeni Siyaseti*, Ankara: Atatürk Araştırma Merkezi, 2005.
5. Bozkuş Deveci, Yıldız. '' Küresel ve Bölgesel Gelişmeler Işığında Dağlık Karabağ Sorunu'', *TYB Akademi Dil, Edebiyat ve Sosyal Bilimler Dergisi,* 17(2011): 1-21.
6. Bozkuş Deveci, Yıldız. ''Tarihten Günümüze Karabağ ve Güney Kafkasya'da Değişen Küresel Dengeler'' *Karabağ Dünü, Bugünü, Yarını Uluslararası Sempozyumu,* İstanbul: 2021.
7. Bozkuş Deveci, Yıldız "Tarihten Günümüze Karabağ Ve Güney Kafkasya'da Değişen Küresel Dengeler" *Karabağ; Dünü, Bugünü, Yarını,* Selenge Yayınları, İstanbul 2021.
8. Cavanşir Bey, Ahmet. *Karabağ Hanlığı Tarihi,* çev. Enver B. Şükrüzade- Yusuf Gedikli, İstanbul: Post Yayıncılık, 2019.

9. Cavanşir Karabağî, Mirza Cemal. “Karabağ Tarihi”, Çev. Muhammed Kemaloğlu, *Hikmet Yurdu*, 7/14 (2014)

10. Cerrah, Ufuk. ‘‘Bölgedeki Ermenistan Kaynaklı Sorunların Analizi’’, *2. Hocalı Soykırımı ve Bölgesel Güvenlik Sempozyumu*, Giresun: 2018.

11. Çapraz, Hayri. Rusya İmparatorluğunun Güney Kafkasya İdari Düzenlemelerinde Karabağ (XIX. Yüzyıl), *,Karabağ- Dünü, Bugünü, Yarını*-Selenge Yay.İstanbul,2021,

12. Gökçe, Mustafa. ‘‘Yukarı Karabağ Sorunu ve Türkiye-Ermenistan İlişkileri Üzerine Bir Değerlendirme”,*Turkish Studies*, 6/1 (2011): 1139-1154.

13. Hacıyev, Kasım ve Eyyub Ebdülezimov, *Karabağ Tarihi*, İstanbul: Nobel Bilimsel Yayınevi, 2021.

14. Hüseynov, Yunis. *Qarabağ Tarixi Menbelerde*, Bakı: Suşa Neşriyat, 2012.

15. İzzetgil, Elşan. *Kanayan Yara Karabağ,* Ankara: Astana Yayınları, 2016.

16. Kuduban, Ata, Mevlüt Kaya. ‘‘Karabağ Sorununa Uluslararası Güçlerin Yaklaşımları Üzerine Tarihsel Bir Değerlendirme’’, *21. Yüzyılda Eğitim ve Toplum Eğitim Bilimleri* ve *Sosyal Araştırmalar Dergisi,* 7/21(2018): 923-949

17. Mustafayev, Beşir. ‘‘ Karabağ’ın İşgal Süreci ve Bölgede Yaşanan Olaylar Çerçevesinde Çözüm Arayışları’’, *Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi*, 0/49 (2013): 281-294.

18. Özdaşlı, Esma. ‘‘İkinci Karabağ Savaşı’nda Ermenilerin Sivillere Yönelik Saldırılarının Uluslararası İnsancıl Hukuk Açısından Değerlendirilmesi’’, *Giresun Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi*, 7/1 (2021): 51-83.

19. Öztürk, Oğuz Mete. *Geçmişten Günümüze Türk Devletleri*, İstanbul: Nokta Kitap, 2007.

20. Öztürk, Mustafa. “Kafkasya’nın Tarihi Coğrafyası ve Stratejik Önemi”, *Sekizinci Askerî Tarih Semineri Bildirileri I, XIX ve XX. Yüzyıllarda Türkiye ve Kafkaslar*, Ankara, Genelkurmay Basımevi, 2003

21. Özyılmaz, Emine Vildan. ‘‘ Geçmişten Günümüze Dağlık Karabağ’’, *Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi* 15 /2 (2013) : 191-208.

22. Paşayeva, Dr. Gulçen; Bağirova Dr. Irada; Makili- Aliyev; Dr. Kamal; Mehdiyev Dr. Ferhad., “SSCB'de Yarı-Özerkliğin Hukuki Durumu: Dağlık Karabağ Özerk Bölgesi Örneği”, *Uluslararası Suçlar ve Tarih*, Sayı 14 (2013): 69-103.

23. Sarıahmetoğlu, Nesrin, ‘‘ Karabağ Sorununun Çözüm Sürecinde Türkiye ve Rusya’’, *Marmara Türkiyat Araştırmaları Dergisi*, 3/2 (2016): 93-119.

24. Sarıahmetoğlu, Nesrin, ‘‘Ermeni Milliyetçiliğinin Güney Kafkasya’ya Etkileri’’, *MUTAD* 8/2 (2021): 467-496.

25. Sarıahmetoğlu, Nesrin, ‘‘Ermeni Milliyetçiliğinin Güney Kafkasya’ya Etkileri’’, *Karabağ- Dünü, Bugünü, Yarını*-Selenge Yay. İstanbul,2021,

26. Sarıkaya, Yalçın. ‘‘44 Gün Savaşı: Azerbaycan’ın Karabağ Zaferi’’, *TASAV*, 2020.

27. Sarınay, Yusuf. ‘‘Osmanlı Arşivlerinde Karabağ’’, Ermenistan-Azerbaycan Dağlık Karabağ İhtilafı: Bölgesel Barış ve Güvenliğe ve Komşuluk İlişkilerine Bir Tehdit, Ankara: AVİM Yayınları, 2014.

28. Taşkıran, Cemalettin. *‘‘Geçmişten Günümüze Karabağ Meselesi’’,* Ankara: Genel Kurmay Basımevi, 1995.

29. Terzioğlu, Süleyman Sırrı. ‘‘Loizidou-Türkiye Davası ve Dağlık Karabağ Sorunu’’, *MHB*, Yıl 25-26 (2005-2006).

30. Tuncel, Turgut Kerem.‘‘ Güney Kafkasya’da 2-5 Nisan 2016’da Yaşanan 4 Gün Savaşı’’, *Ermeni Araştırmaları,* 53 (2016) 302-338.

31. Ünalp, F. Rezzan. ‘‘Hocalı Soykırımına Uzanan Süreçte Karabağ Olaylarının Tarihi Geçmişi ve Birinci Dünya Savaşında Türk Ordusunun Azerbaycan Harekâtı’’, 2. Uluslararası Hocalı Soykırımı ve Bölgesel Güvenlik Sempozyumu

32. Vezir, Mihriban. ‘‘Karabağ “, *Azerbaycan Birinci Uluslararası Sempozyumu Bildirileri, Ankara* (2002).

33. Valiyev, Elvin. ‘‘XVIII. Yüzyılın İlk Yarısında Güney Kafkasya: Osmanlı, Safevi ve Rusya Kıskacında’’, Yayımlanmamış Yüksek Lisans Tezi, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2014.

34. Yavuzaslan, Güngör. "Karabağ Sorunu Çerçevesinde İnsan Hakları İhlalleri (1990-1994) Üzerine Bir Değerlendirme" *Kanayan Yara Karabağ,* 160-161.

35. Yazıcı, Nuri. ‘‘ *Tarihte Türkler ve Türk Devletleri’’,* İstanbul: İlgi Kültür Sanat Yayıncılık, 2011.

36. Yeşilot, Okan. ‘‘,*Karabağ- Dünü, Bugünü, Yarını’’,* İstanbul: Selenge Yayınevi, 2021.

37. Yeşilot, Okan. ‘‘ *Ateş Çemberinde Azerbaycan’’,* İstanbul: Yeditepe Yayınevi, 2010.

ALMAN BASINI

1. "Armeniens Regierungschef warnt vor "umfassendem Krieg, Aserbaidschan und Armenien werfen sich gegenseitig vor, mit den Kämpfen in der Region Bergkarabach begonnen zu haben.", Die Zeit 27. September 2020, https://www.zeit.de/politik/ausland/2020-09/berg-karabach-armenien-aserbaidschan-nikol-paschinjan-warnung-militaer

2. Ehrich, Issio, "Türkei in Bergkarabach:Russischer Berg, türkischer Garten", Die Zeit, 29 September 2020,https://www.zeit.de/politik/ausland/2020-09/tuerkei-bergkarabach-kaukasus-konflikt-russland-stellvertreterkrieg-tayyib-erdogan-armenien-aserbaidschan

3. Hackensberger, Alfred, "Die Türkei will uns ausrotten", Die Welt, 11.10.2020, https://www.welt.de/politik/ausland/plus217582712/Bergkarabach-Die-Tuerkei-will-uns ausrotten.html

4. Hackensberger, Alfred, "Für Armenien ist die Intervention der Türkei ein Albtraum", Die Welt, 17.10.2020, https://www.welt.de/politik/ausland/article217985084/Bergkarabach-Konflikt-Fuer-Armenien-ist-die-Intervention-der-Tuerkei-ein-Albtraum.html

5. Hackensberger, Alfred, "President Erdoğan Türkei setzt im Krieg auf militarische Drohnen", Die Welt 05.02.2021, https://www.welt.de/politik/ausland/plus225754371/Praesident-Erdogan-Tuerkei-setzt-im-Krieg-auf-militaerische-Drohnen.html

6. Hackensberger, Alfred, "Wir erhalten ihre Moscheen und sie zerstören unsere Kirche", Die Welt, 08.10.2020, https://www.welt.de/politik/ausland/plus217478184/Bergkarabach-Wir-erhalten-ihre-Moscheen-und-sie-zerstoeren-unsere-Kirche.html

7. Leubecher, Marcel, "Armenian fordet russisce Truppen an Grenze zu Aserbaidchan", Die Welt, 29.07.2022, https://www.welt.de/politik/ausland/article232805923/Armenien-fordert-russische-Truppen-an-Grenze-zu-Aserbaidschan.html

8. "Konflıkt regıon Berg-Karabachnach kämpfen mit Aserbaidschan–Ermenien ruft Rriegszustand aus", Die Stern,27.09.2020, https://www.stern.de/politik/ausland/konfliktregion-berg-karabach--armenien-ruft-kriegszustand-aus-9430860.html

9. "Konflikt mit Armenien:Aserbaidschan startet neue Offensive in Bergkarabach Kurz vor der Dringlichkeitssitzung des UN-Sicherheitsrats zum eskalierten Konflikt im Südkaukasus setzen sich die Kämpfe dort fort. 95 Menschen wurden bislang getötet", Die Zeit, 29. September 2020,https://www.zeit.de/politik/ausland/2020-09/konflikt-armenien-bergkarabach-aserbaidschan-offensive-gefechte-armee

10. "Konflikt mit AserbaidschanArmenien wirft Türkei Entsendung von 4000 Kämpfern aus Syrien vor", Spiegel, 28.09.2020, https://www.spiegel.de/ausland/bergkarabach-armenien-wirft-tuerkei-entsendung-von-4000-kaempfern-aus-syrien-vor-a-8479927a-27b2-46e2-b872-8b52a7c261b6

11. "Krıegserklärung gegen Berg-Karabach Eskalation zwischen Armenien und Aserbaidschan –viele Tote in Konfliktgebiet",Die Stern, 27.09.2020, https://www.stern.de/politik/ausland/eskalation-zwischen-armenien-und-aserbaidschan---tote-in-konfliktgebiet-9431156.html

12. Portes, Thierry, "Die Söldner gehen in Dörfer und verlangen die Einhaltung der Scharia", Die Welt, 04.10.2020, https://www.welt.de/politik/ausland/plus217126124/Konflikt-um-Bergkarabach-Die-Soeldner-gehen-in-Doerfer-und-verlangen-die-Einhaltung-der-Scharia.html

13. Seewald, Berthold, "Die Armee des Islam beging unter Armeniern unerhörteste Grausamkeiten",DieWelt,08.10.2020,https://www.welt.de/geschichte/article217366078/Bergkarabach-Armee-des-Islam-beging-unerhoerteste-Grausamkeiten.html

14. Thumann, Michael, Topçu, Özlem, "Bergkarabach:Der unsichtbare Krieg", Die Zeit, 12. Oktober 2020, https://www.zeit.de/2020/42/bergkarabach-armenien-aserbaidschan-krieg-konflikt-tuerkei-russland

15. Yücel, Deniz, "Jetzt kehrt die Angst der Armenier in der Türkei zurück", Die Welt, 05.10.2020, https://www.welt.de/politik/ausland/plus216995594/Bergkarabach-Die-Angst-der-Armenier-vor-den-Tuerken.html

SUMMARY

REFLECTIONS OF THE SECOND KARABAKH WAR ON THE GERMAN PRESS

Aytan Can

Following the Bishkek Protocol signed after the First Nagorno-Karabakh War, which resulted in 725,000 Azerbaijani Turks leaving their homeland in 1994, Armenia occupied Agdam, Jabrayil, Fuzuli, Kalbajar, Qubadli, Lachin and Zangilan, and established the Nagorno-Karabakh Republic. Between 1994 and 20 July 2020, the ceasefire between the two countries was violated many times. And Armenian attacks against the civilian population continued. Conflicts that started on the border between the Republic of Azerbaijan and Armenia turned into close

combat on 22 September 2020. On 27 September, a de facto war began between Azerbaijani Armed Forces and the Armenians. There was also much news in the German press about the war, which was followed closely by the world.

In this study, we scanned the German national newspapers and magazines published between September 2020 and February 2021 and tried to make an evaluation of the Second Karabakh War and the ceasefire agreement between Azerbaijan and Armenia.

Keywords: *German Press, Second Karabakh War, Azerbaijan, Armenia, Turkey-Russia*

ÖMƏR FAİQ NEMANZADƏ ERMƏNİ DÜŞMƏNÇİLİYİ HAQQINDA

Babayev B.H.
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
baqirbabayev59@mail.ru

Açar sözlər: *Ömər Faiq Nemanzadə, Rusiya imperiyası, müsəlman türklər, milli şüur, Qafqaz müsəlmanları, birlik, parçalanma, ermənilər*

Azərbaycan türklərinin milli kimliyinin təşəkkülündə mühüm xidmətlər göstərən, şərəfli, mənalı həyatını, ədəbi-bədii və ictimai-siyasi fəaliyyətini Rusiya imperiyasının əsarətindəki türk xalqlarının azadlığına, istiqlaliyyətinə yönəldən Ömər Faiq Nemanzadənin xalqımızın, millətimizin, vətənimizin tarixi taleyindəki rolu təqdirəlayiqdir. O, məzlum Şərqin bütün müsəlman xalqlarının, Azərbaycan türklərinin və Rusiyanın imperiya əsarətindəki türk-müsəlmanların əsarətinə qarşı mübarizə əzmini ortaya qoymuşdur. Ömər Faiqin XX əsrin əvvəllərində ictimai-fəlsəfi fikir tariximizdə xalqımızın, vətənimizin istiqlalı, dirçəlişi və xoşbəxt gələcəyi uğrunda mübarizədə əqidə, məslək yoldaşları ilə birlikdə ön cərgələrdə getdiyinin şahidi oluruq. "Onlar milli ruhun, milli dirçəlişin genişlənməsinə xidmət edirdilər" [1, s.147-148]. "XX əsrin əvvəlləri Ö.F.Nemanzadənin fəaliyyətinin daha məhsuldar dövrüdür" [10, s.568]. O, bildirirdi ki, belə bir zamanda xalqımız öz ehtiyaclarından xəbərsiz saxlanılmışdı, dostu ilə düşmənini tanımaqda çətinlik çəkirdi. Hətta bəzən xalq ümumxalq işi uğrunda millətin xeyrinə çalışanlara inamsızlıq göstərir, "öz millət bağına axan su yollarını öz əli ilə kəsmək istər" [8, s.216]. Axı, imperiya siyasəti bütün türklər kimi, Azərbaycan türklərini də cəhalətin, nadanlığın, fanatizmin qaranlıqlarında daha çox boğulmasına çalışır, bundan geri çəkilmək istəmirdi. Ömər Faiqə görə, bu kimi milli məsələlərdə cəhalət, fanatizm güclü bir düşmən kimi elə qüvvətli idi.

Lakin əsr, zaman dəyişirdi, Qafqazdakı müsəlman xalqları, o cümlədən Azərbaycan türkləri məhz ideoloqlara, millət fədailərinə böyük ehtiyac duyurdu. "XIX əsrin sonu və XX əsrin əvvəllərində dünyada və Azərbaycanda güclənən yeni maarifçilik dalğası güclənirdi" [11, s.562]. "XIX əsrin sonu- XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində milli-demokratik məfkurənin formaşalması başlayırdı" [4, s.137]. İstedadlı ziyalılar "cəmiyyətin mənəvi geriliyinin, despotizmin aradan qaldırılmasının əsas yolunu maarifçilikdə, mütərəqqi ideyaların və təcrübənin geniş təbliğində görürdülər" [1, s.146].

Rusiya işğalında qalan türklərin hamısı XX əsrin əvvəllərinə qədərki dövrdə "ögey övlad yerində" idilər. XIXəsrin sonu- XX əsrin əvvəllərində "Azərbaycanda milli ideyanın oyanışının və inkişafının mühüm amillərindən biri Çar Rusiyasının bu coğrafiyada apardığı demoqrafik siyasət və bu siyasətin nəticələri, burada Rusiyanın yeritdiyi işğalçı siyasət idi" [6, s.26]. Çünki **"**Azərbaycan çoxmillətli Qafqaz regionunda Şərqlə Qərb arasında körpü olduğu üçün tarix boyu mədəniyyətlərin və münaqişələrin toqquşduğu yer olmuşdur" [7, s.205]. Rusiya hökuməti imperiyanın digər vətəndaşları- təbəələri ilə müqayisədə bütün türklərə qarşı "din və millət seçkiliyi" həyata keçirirdi. Türklərin başına gələn bütün müsibətlərin başlıca səbəblərinin məhz ilk növbədə Rusiya hökumətinin onları hüquqsuz vəziyyətdə saxlaması olmuşdu. "XX əsr Azərbaycanda xalqımızın dirçəlişi və xoşbəxt gələcəyi uğrunda mübarizədə" [10, s.568] Ömər Faiq haqlı olaraq bildirirdi ki, türk millətinin öz qeydinə qalmaq üçün "ən əvvəl o yalançı və zərərli politikanı buraxalım" [8, s.214].

Yəni, "XX əsrin əvvəllərində milli oyanış zəminində milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkül tapması Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin ideoloji əsası anlamında çox mühüm bir nailiyyəti idi" [4, s.136]. Bu mənada Ömər Faiq acı təəssüf hissilə, vətəndaşlıq məsuliyyəti ilə Rusiyanın imperiya siyasətini, onun "bizim kimi böyük bir millətin müqəddəratı" üçün düşmənçilik etdiyini çox qınayırdı. O, imperiyanın haqsızlıq, ədalətsizlik yuvası olduğuna, daim türklərə-müsəlmanlara qarşı amansız düşmənçilik siyasətinə diqqət çəkirdi. Bunun nümunəsi olaraq, Azərbaycan türklərinə Qafqazda olan ayrı-seçkilik, düşmənçilik siyasətini açıqcasına bəyan edirdi.

İmperiyanın iyrənc siyasətinə yaxından bələd olan Azərbaycan demokratik fikri xalqın imperiya siyasətinə qurban getməsinə razı ola bilməzdi. Elə buna görə də onlar bildirirdilər ki, imperiyanın birinci məqsədi türklərin-

müsəlmanların birliyini parçalamaq, onları müxtəlif adlarla-bəhanələrlə bir-birinin üzərinə saldırmaqdan, bir-birindən ayırmaqdır. Rusiya hökuməti "millətlər arasında ziddiyyət salıb", onları bütünlüklə hüquq və azadlıqlardan məhrum etmişdi. "Rusiya imperiyası Azərbaycanı işğal etdikdən sonra əhalinin etnik və xüsusilə dini tərkibi nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Rusiyanın köçürmə siyasəti nəticəsində qeyri-müsəlman əhali, ilk növbədə, xristian əhali kəskin şəkildə artıb" [12, s.61]. "Çar Rusiyası təhlükəsizliyini təmin etmək məqsədilə "ruslaşdırma və xristianlaşdırma" siyasətini həyata keçirməyə başlayırdı" [9, s.384]. "Ruslaşdırma və xristianlaşdırma siyasətinin milli və mənəvi cəhətdən Azərbaycan ziyalıları üçün xoşagəlməz olmuşdur" [7, s.189].

Rusiya hökuməti milli ayrı-seçkilik edərək, bir torpaq üstündə qonşu yaşayan iki millətin birini hüquqca üstün tuturdu. Azərbaycan türkləri yaşadığı məmləkətdə-Qafqazda da digər qonşu millətlərlə müqayisədə "müsavatsızlığın bəlasını çəkdirdi" [8, s.216]. Halbuki hökumət türklərin-müsəlmanların sahib ola bilmədikləri bir çox şeyləri "bir əsrə yaxın qonşularımıza", yəni Qafqazdakı digər dinlərə və dillərə məxsus olan millətlərin xeyrinə həyata keçirirdi. Milli aydınlarımız haqlı olaraq göstərirdilər ki, hökumətin imperiya siyasəti müsəlmanlara-türklərə nisbətdə xristianlara müqayisəyəgəlməz dərəcədə üstünlüklər vermişdi və onların müxtəlif sahələrdə gələcək inkişafına-tərəqqisinə şərait hazırlamışdı. Ömər Faiq yazırdı ki, "qonşularımızın Eçmiədzindəki "Akademiyalar", Tiflisdəki darülmüəlliminləri, geniş ixtiyarı, bol-bol milli məktəbləri qarşısında bizim nəyimiz var?" [8, s.216].

Halbuki çar Rusiyası türklərin ictimai-siyasi problemləri ilə maraqlanmaq istəyində deyildi. Bunların hamısı Rusiyanın imperiya maraqlarının açıq təzahürü olub, onun türklərə münasibətinin xarakterini, məqsədlərini açıq-aydın ortaya qoyurdu. Milli aydınlar belə şovinist-millətçi ayrıseçkilik siyasətini açıb göstərir, çoxmilyonlu türklərin də digər az və ya çoxsaylı xalqlarla bərabər tutulmasını arzulayırdılar. Çünki XX əsrin əvvəllərində demokratik fikrə görə, "Rusiyada 25-30 milyon türkün ictimai-siyasi idealları olması da təbiidir. Burasını danmaq deyil, sükutla keçmək belə həm milləti, həm də hökuməti aldatmaqdır" [8, s.213-214].

XX əsrin əvvəllərində "Cənubi Qafqazda çar Rusiyasının birbaşa dəstəyi ilə etnik təmizləmə siyasəti həyata keçirilirdi [2]. "Ö.F.Nemanzadə Qafqazda yürüdülən milli ayrıseçkilik və münaqişə siyasətinə qarşı çıxırdı " [5, s.218]. "Bu işdə ermənilər də çar Rusiyası ilə birlikdə hərəkət edir, araya nifaq, düşmənçilik toxumunu ustalıqla səpir və bunu ön plana çəkilirdilər" [9, s.384]. Həm çar Rusiyasını, həm də erməniləri "alçaq düşmənlərimiz" adlandıran Ömər Faiq xalqımızın cəhalətdə, qəflətdə olduğuna görə bunlara diqqət çəkərək yazırdı ki, "aramıza guya sünni-şiə nifaqı salıb, bizi yenə bizim qəflət, cəhalət əlimizlə kəsmək istəyirlər?" [8, s.79]. Yəni, imperiya məzhəbçiliyi ortaya atıb, onu daha da qızışdırır, bunu anlamaqda çətinlik çəkənləri də öz mənfur siyasətinin alətinə çevirirdi. "1905-1907-ci illərin ilk rus inqilabı Azərbaycan ziyalılarının siyasi fəallığının kəskin artmasına gətirib çıxardı. Azərbaycan müsəlmanlarının düşüncə tərzinə ermənilərlə etnik münaqişə və kütləvi toqquşmalar, bu illərdə bütün Cənubi Qafqazda qırğınlar daha da böyük təsir göstərmişdir" [13, s.68].

"Biz şiə, sünni bilmirik, müsəlmanların Qafqazdan kökünü qazacayıq" [8, s.79],- ideyası ilə ermənilərin çar Rusiyasındakı məqsədyönlü fəaliyyətləri onların hansı siyasət yürütdüklərindən bizləri xəbərdar etməkdədir. Azərbaycan türklərinin-müsəlmanların düşmənlərin "köhnə yırtıcı qurdların, hiyləgər tülkülərin" hiylələrinə aldanmalarını dözülməz hesab edən Ömər Faiq milli qeyrət nümayiş etdirməyin çoxdan vaxtının çatdığını bildirir. Ona görə türklərin-müsəlmanların birliyinin pozulmasında maraqlı olan düşmənlər-"qonşumuzun məlunları", "iki müsəlman qardaşın arasında nifaq salmaq üçün bizim cəhalətimizdən, qəflətimizdən" [8, s.78] faydalanmaq istəyirlər.

Deməli, yalnız Qafqazda deyil, eləcə də nəhəng Rusiya imperiyasının türklər-müsəlmanlar yaşayan hər tərəfində, o cümlədən də "Dağıstandan, Tatarıstandan, Türküstandan gələn"- eşidilən xəbərlər bir daha təsdiqləyirdi ki, imperiya siyasəti məzhəb ayrımçılığı salmaqla onların milli birliyinə qəsdən maneçilik törədirdi. Bununla da, onların imperiyanın əsarətindən xilas ola biləcəklərinin qarşısını kəsirdi. Burada Rusiya imperiyasından ən çox yararlanan, faydalanan ermənilər hiylələr işlədərək cahil müsəlmanları sünni-şiə adları ilə guya özlərinə "dost" tuturdular. "Şəki, Şamaxı, Dağıstan və qeyri yerlərdəki hiyləgər ermənilər", "bizim sünnilər ilə işimiz yoxdur" [8, s.79],- deməklə müsəlmanları neytrallaşdırmışdılar. Amma onların bu hiyləgər siyasəti çox davam etməmişdir. Çünki "Zəngəzur, Qazax mahalında viran etdikləri kəndlərin, şəhid etdikləri canların çoxu sünnilər idi" [8, s.79].

Ona görə də Ömər Faiq belə geniş ərazidə yaşayan türklərin-müsəlmanların amansız düşmənlər qarşısında ittihad-birlik yaratmalarının nə qədər vacib olduğunu aydın şəkildə ortaya qoyurdu. Çar Rusiyasının imperiya siyasətindən tamamilə yararlanan ermənilər müsəlmanlar arasında sünni-şiə ayrımçılığından məharətlə istifadə edə bilmişdilər. Halbuki ermənilər özlərinin gücləri çatmadıqları, az olduqları yerlərdə canlarının salamatlığı üçün deyirdilər: "bizim sünnilər ilə işimiz yoxdur" [8, s.80].

Bununla da imperiyada yaşayan, hələlik türk milli kimliyindən xəbərsiz saxlanılan türklərə-müsəlmanlara onların birliyi-ittifaqı xatırladılırdı. Bu birliyi parçalamaq istəyənlərə, aradakı nifaq, fitnə-fəsad salanlara dərin nifrət və qəzəblə Ömər Faiq müsəlmanlara müqəddəs olan hər şeyi xatırladaraq, onların qardaş olduqlarını bildirmək istəyirdi. O, üzünü onlara tutub, deyirdi ki, "adını gerçəkdən müsəlman qoyan, Allahın birliyinə, Quranın haqlığına, Məhəmmədin (s.ə.s.) peyğəmbərliyinə ürəkdən inanan şiyə və sünni müsəlman qardaşlarım" [8, s.80]. O, əmin

olduğunu bildirir, ümid edirdi ki, müsəlmanlar gərək "nanəcib, haramzada, bidin bir məlunun fitnə-fəsadına qulaq" asmasınlar.

Ömər Faiq sünni-şiə məzhəbçiliyi ilə biri o birisini özünə amansız düşmən bilən müsəlmanları hiyləgər olduğu qədər də amansız olan düşmənlərə aldanmamağa çağırırdı. "Kimdir deyən ki, ermənilərin sünnilərlə işi yoxdur?" [8, s.79] sualı ilə müsəlmanlara üz tutan Nemanzadə onların düşmən xislətini açıb ortaya qoyurdu ki, "Tiflisdə şəhid edilən qalayçı ləzgilər sünni deyilmidilər? Tiflisdə talan edilən və yanan dükanların, evlərin bir xeylisi dağıstanlı, şəkili sünnilərin deyilmi?" [8, s.79].

Ömər Faiq düşmənlərin hiylələrinə aldanan müsəlmanları "bihəmiyyət, biqeyrət" adlandırıb, onları "anasız, çörəksiz, yurdsuz qalan yüzlərcə balalarımızın göz yaşlarını dayandırmaq üçün" birliyə, qardaşlığa, yardımlaşmağa çağırırdı. O, yazırdı ki, belə ağır və çətin bir zamanda "hər cür şəkil və surətə girməkdən həya etməyən bəzi ermənilərin hiylələrinə inanıb aldanan müsəlmanlar" [8, s.79] onların yalan və fitnələrindən xəbərsiz qalmaqdadır. Ömər Faiq müsəlmanların günahının parçalanmaqda olduğunu bildirirdi. Ona görə də, o, gələcək "rifah və səadətimiz" olan ittihadı-birliyi vacib bilərək, müsəlman qardaşlarını düşmənlərə baxmaqla ibrət almağa səsləyirdi ki, "qonşumuz ermənilər Amerika kimi ən iraq məmləkətlərdəki din qardaşlarından hər cür müavinət və ürək təsəllisi"alırdılar [8, s.79].

Ömər Faiq müsəlman qardaşlarının yaşadıqları yerlərdən "Bakıdan, Şəkidən, Şamaxıdan, Dağıstandan, Tatarıstandan, Türküstandan" danışır, oradakı müsəlmanların bir-birinə yardım etmələrinin nə qədər vacibliyini göstərirdi. Qafqazdakı ermənilər dünyanın ən uzaq yeri olan Amerikadakı ermənilərdən yardım aldıqları halda Qafqazın bir-birinə yaxın şəhərlərindən, o cümlədən qonşu Dağıstan, Tatarıstan, Türküstan müsəlmanlarının bir-birinə yardım, kömək göstərmədikləri də duyulmaqdadır. Çünki məzhəb ayrılığı-sünnü-şiə ayrımçılığı arada iki qardaşı sanki bir-birinə amansız düşmənə çevirmişdir. Halbuki bütün "şiə və sünnü müsəlman qardaşlar Allahın birliyinə, Quranın haqlığına, Məhəmmədin (s.ə.s.) peyğəmbərliyinə ürəkdən" [8, s.80] inanırdılar. Getdikcə qızışdırılan və sonda qanlı düşmənçiliyə çevrilən sünnü-şiə ayrımçılığının, məzhəb qovğalarının yolverilməz olduğunu, düşmən hiyləsinə xidmət etdiyini anladan Ömər Faiq müsəlman-türk dünyasının birliyinin, həmrəyliyinin vacibliyini göstərib, "Şəki, Şamaxı, Bərdə, Dağıstan və qeyri yerlərdəki həmiyyət və ittihadpərvər" [8, s.80] müsəlman xadimlərinə üz tutaraq, bu birliyin yarana bilməsi üçün onların hər cür köməklik göstərəcəklərinə inandığını bildirirdi. Çünki "varlığını qoruyub saxlamaq istəyən hər bir millətin keçmişini qoruyub gələcəyə getməsi üçün özünü dərk etməsi, həmçinin mənəvi dəyərlərini qoruyub saxlaması əsas şərtdir" [3, s.270].

Azərbaycanın milli aydınları XX əsrin əvvəllərində zamanın çağırışlarına cavab olaraq, çar Rusiyasının müstəmləkə əsarətindən qurtuluş yollarını axtarıb tapmağa çalışırdılar. Onlar Azərbaycan türkləri, bütövlükdə Rusiya əsarətindəki türklərin-müsəlmanların xilası uğrunda apardıqları mücadiləni qurtuluş yolunda başlıca məqsəd və vəzifələri bilirdilər. Çar Rusiyasının irticaçı siyasətinə qarşı bu dövrün ən səciyyəvi cəhəti müsəlmanlar arasındakı əlaqələrin yavaş-yavaş olsa da, yaranmağa başlaması idi. Ömər Faiqin belə mövqeyi təqdirəlayiqdir. Çar Rusiyasının müsəlmanlara-türklərə qarşı yaratdığı problemlər imperiyanın siyasi maraqlarına tabe edilmişdi. İmperiya müsəlmanlara cəhaləti "hədiyyə" etmişdi. Getdikcə Rusiya imperiyasındakı türk-müsəlmanlar arasında irəli çıxan Azərbaycan türkləri cəmiyyətin yeniləşməsi və müasirləşməsi uğrunda geniş hərəkata başladılar. Bütövlükdə Qafqazın, eləcə də Azərbaycanın müsəlmanlarının dünyəvi təhsilə yiyələnməsi uğrunda başlanan geniş maarifçilik hərəkatı imperiya hökumətinin ədalətsiz, zorakı sosial-siyasi qaydalarına, özbaşınalıqlarına qarşı bir protest- etiraz kimi də qiymətləndirilirdi.

ƏDƏBİYYAT

1. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı, "Elm və təhsil", 2019, 456 səh.
2. Cəfərov Taleh. 1905-1906-cı il Tiflis hadisələri Ömər Faiq Nemanzadənin gözü ilə. "Xalq qəzeti". 2010. 14 mart. N 58.-S.4.
3. Əhmədlı Rafaıl. Azərbaycan mıllı-dem okratık dövlətçılık məfkurəsı: türkçülük, müasırlık, ıslamçılıq. «elm» nəşrıyyatı, Bakı, 2007. 280 səh.
4. Əhmədlı Rafaıl. Azərbaycan dövlətçilik fəlsəfəsinə dair. Bakı.Təknur», 2009. 380 səh.
5. Məmmədova R.Ə. Ömər Faiq Nemanzadə "Açıq söz"qəzeti redaksiyasında. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, №3, 2015, səh.214-220.
6. Mövsümlü Cavid. 19.yüzyılın sonu ve 20. yüzyılın başlarında Azerbaycan'da milli fikriyatın gelişimi. Hacettepe Üniversitesi. Doktora Tezi Ankara, 2021. 274 sah.
7. Murselov Cengız, Koç Bekır. Rusya ve Azerbaycan'da dın-devlet ilışkıleri Bingöl Üniversitesi İlahiyat Fakültesi Dergisi Cilt: IV Sayı: 8 Yıl: 2016/2 SS.182-209.
8. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Bakı, "Şərq- Qərb", 2006, 352 səh.
9. Tağıyev Kövser. Siyasi tarihi bağlamında Azerbaycan'da din eğitiminin gelişimi. Uluslararası Sosyal Araştırmalar Dergisi.Cilt: 6 Sayı: 28. Güz 2013. Ss.380 -389

10. Səfərov Rafiq. “Dünyəvi əqidələrin birincisi millətpərvərlik əqidəsidir”. “Kaspi”-maarifçilik meydanı”. Bakı, “Zərdabi LTD” MMC, 2016, 652 səh. (s. 568-574).
11. Vəliyev Şamil. Ömər Faiq Nemanzadənin fikir dünyası. “Kaspi”-maarifçilik meydanı”. Bakı, “Zərdabi LTD” MMC, 2016, 652 səh. (s.557-564).
12. Юнусов Ариф. Ислам в Азербайджане. Баку: «Заман», 2004. 388 с.

SUMMARY

OMAR FAIG NEMANZADEH ON THE ENMITY OF ARMENIANS

Babayev B.H.

Omar Faig Nemanzadeh has invaluable services in awakening, developing the national consciousness of our people and the historical fate of our Motherland. The Russian Empire wanted to break the union of Muslim Turks, to separate them from each other. In this case, the Armenians acted together with tsarist Russia, skillfully sowed the seeds of enmity, saying“ "we will dig up the roots of Muslims from the Caucasus." Calling the Armenians "our most cruel enemies", "old predatory wolves, cunning foxes”, Omar Faig talked about the policy they pursued in tsarist Russia and the Caucasus. He pointed out the need to create unity in the face of the cruel enemies of the Muslim Turks.

Keywords: *Omar Faig Nemanzade, Russian Empire, Muslim Turks, national consciousness, Muslims of the Caucasus, unity, split, Armenians*

РЕЗЮМЕ

ОМАР ФАИГ НЕМАНЗАДЕ О ВРАЖДЕ АРМЯН

Бабаев Б.Г.

В пробуждении, развитии национального сознания нашего народа и исторической судьбе нашей Родины Омар Фаиг Неманзаде имеет неоценимые заслуги. Российская империя хотела разорвать союз турок-мусульман, отделить их друг от друга. В этом деле армяне действовали совместно с царской Россией, умело сеяли семена вражды, говорили: “мы выкопаем корни мусульман с Кавказа”. Называя армян "нашими самыми жестокими врагами", "старыми хищными волками, хитрыми лисами”, Омар Фаиг рассказывал о том, какую политику они проводили в царской России и на Кавказе. Он указывал на необходимость создания единства перед лицом жестоких врагов турок-мусульман.

Ключевые слова: *Омар Фаиг Неманзаде, Российская империя, турки-мусульмане, национальное сознание, мусульмане Кавказа, единство, раскол, армяне*

HEYDƏR ƏLİYEV VƏ 1970-80-CI İLLƏRDƏ DAĞLIQ QARABAĞDA MƏDƏNİ SİYASƏTƏ DAİR

Babayeva G.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Açar sözlər: *Dağlıq Qarabağ Muxtar vilayəti, Heydər Əliyev, iqtisadiyyat, mədəniyyət, incəsənət, Şuşa şəhəri, Tarixi-Memarlıq qoruğu, Molla Pənah Vaqif, təhsil, maarif, kitabxana, klublar, kino, rəssamlıq, muzeylər.*

1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması o dönəmdə ermənı-azərbaycanlı antaqonizminin aradan qaldırılması məqsədinə xidmət etsə də, sonrakı on illiklərdə cərəyan edən proseslərin göstərdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünün altına qoyulmuş saatlı bomba idi. Zaman keçdikcə DQMV-nin erməni rəhbərliyi Kremldəki bəzi havadarlarının dəstəyi ilə bu əzəli Azərbaycan torpaqlarının Ermənistan SSR-ə birləşdirmək istiqamətində fəallaşırdı.

1969-cu il iyulun 14-də Azərbaycan KP Mərkəzi Komitəsinin plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçildi [5, 300]. Heydər Əliyevin hakimiyyətə gəlişi xalqımızın

taleyində dönüş nöqtəsi, Azərbaycan və onun tərkib hissəsi olan Dağlıq Qarabağ bölgəsinin iqtisadi, siyasi və mədəni həyatının inkişafında yeni eranın başlanğıcı oldu. Heydər Əliyevin respublikaya başçılıq etdiyi birinci dönəm sadəcə xalqımızın ictimai-siyasi, iqtisadi və sosial-mədəni tərəqqisi illəri deyildi, o həmçinin müstəqil Azərbaycan dövlətçiliyinin təməlinin atıldığı, faktiki olaraq istiqlalımızın maddi və mənəvi əsaslarının yaradıldığı zaman kəsiyi idi. Məhz Heydər Əliyev Azərbaycan xalq təsərrüfatının inkişaf etdirilməsi üçün ittifaq fondundan külli miqdarda vəsait ayrılmasına nail olmaqla, respublikada əvvəlkilərlə müqayisədə miqyas və səciyyə etibarı ilə daha önəmli sənaye və mədəni inqilabı gerçəkləşdirdi [5, 301].

Hakimiyyətinin ilk illərindən Heydər Əliyev özünün də şahidi olduğu erməni separatizmi ilə mübarizə aparmalı olmuşdu. Heydər Əliyevin rəhbərliyi dövründə "Qarabağ məsələsi" bir neçə dəfə qaldırılsa da, Ulu öndərin nüfuzu və mərkəzdə sözünün kəsəri sayəsində sözügedən məsələ Azərbaycanın xeyrinə həll edilmişdi [2, 23].

Heydər Əliyev DQMV partiya rəhbərləri içərisində millətçi əhval-ruhiyyənin güclənməsi təhlükəsini hamıdan yaxşı başa düşürdü. Ona görə muxtar vilayətin rəhbərliyini sınanmış kadrlarla möhkəmləndirirdi. Həmin dövrdə muxtar vilayətdə yürüdülən uğurlu kadr siyasəti bölgə üzərində Azərbaycanıpn suveren hüquqlarının möhkəmlənməsinə gətirib çıxarmışdı.

Sözügedən illərdə Dağlıq Qarabağın mədəni tərəqqisinə yönəlmiş tədbirlərin dövlət səviyyəsində sistem halını aldığının şahidi oluruq. Təsadüfi deyildir ki, 1970-80-ci illərin əvvəllərində Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-sı tərəfindən Şuşa şəhərinin inkişafına dair bir sıra qərarlar qəbul edilmişdi. İlk növbədə böyük abadlıq işlərinə start verilmişdi: 1970-ci ilin əvvəllərindən başlayaraq Şuşa şəhərinin tarixi abidələrinin bərpası və yeni binaların tikintisinə başlanılmışdı. Bəlli olduğu kimi, əsası 1752-ci ildə Qarabağ xanı Pənahəli xan Sarıcalı Cavanşir tərəfindən qoyulan, tezliklə Azərbaycanın mədəniyyət paytaxtına çevrilən Şuşa qədim abidələrlə zəngindir. Şuşada qəsrlər, məscidlər, bulaqlar, hamamlar və digər mühüm tarixi abidələrimiz yerləşir. Şəhərin tarixi əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il tarixli 280 nömrəli qərarı ilə Şuşa Tarix-Memarlıq qoruğu yaradılmışdı [4, 67]. Yeri düşmüşkən, qeyd etməliyik ki, sovet dönəmində xanlara və bəylərə məxsus abidələrin, yadigarların abadılaşdırılması olduqca cəsarətli bir addım idi və təsadüfi deyildi ki, məhz Heydər Əliyev bəlli qadağaları aşmağa, yasaqları aradan qaldırmağa müvəffəq oldu. Məsələn, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifi korifey şair, siyasi və ictimai şair kimi fəaliyyətini yüksək dəyərləndirən Heydər Əliyevin təşəbbüsü və sərəncamı ilə ədibin məzarı üstündə məqbərə bərpa olundu, yenidənqurma və abadılıq işləri aparıldı. Sovet dönəmində Xanın vəziri olmuş bir siyasi xadimin adının əbədiləşdirilməsi də əlbəttə böyük cəsarət tələb edirdi. Məqbərə AMEA-nın həqiqi üzvü sənətşünaslıq doktoru Ə.V.Salamzadə və əməktar memar, memarlıq namizədi E.İ.Kanukovun layihəsi əsasında inşa olundu [4, 71] Heykəltaraş A.Mustafayev Molla Pənah Vaqifin abidəsinin yaradılmasında iştirak etmişdi.

14 yanvar 1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Şuşada Molla Pənah Vaqifin məqbərəsi və poeziya evi açıldı. Heydər Əliyev şəxsən Şuşaya gələrək, Süleyman Rüstəm və Mirzə İbrahimovla birlikdə lenti kəsməklə, bu abidələrin açılışında iştirak etmişdi [3, 133].

Abidə xaricdən qırmızı Qarabağ mərməri, daxildən isə ağ mərmər üzlük çəkilmiş dördguşəli qüllədən ibarət idi. Mərkəzində qara mərmərdən yonulub hazırlanmış sarkofaq yerləşirdi və sərdabəyə şəbəkəli məhəccərlərdən işıq süzülürdü. Zalın dərinliyində Vaqifin ağ mərmərdən yonulmuş büstü yerləşirdi [1, 558].

Təəssüflə qeyd etmək lazımdır ki, bu abidə 1992-ci ildə Şuşa şəhərimiz erməni vandalları tərəfindən işğal edildikdən sonra yandırılmış və dağıdılmışdı. Vətən müharibəsinin gedişində doğma Şuşamız işğaldan azad olundu və İlham Əliyevin təşəbbüsü ilə Molla Pənah Vaqifin abidəsi yenidən bərpa olunaraq, öz əvvəlki rövnəqini qaytardı.

Yuxarıda qeyd etdiyimiz kimi, 1982-ci il yanvarın 14-də Şuşada poeziya evinin açılışında çıxışı edən Heydər Əliyev vurğulamışdı ki, bu mədəniyyət ocağı ədəbiyyatı təbliğ etməklə yanaşı, şuşalıların, ilk növbədə gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi və onlarda gözəllik hissinin aşılanmasında mühüm rol oynamalıdır. Üçmərtəbəli binanın salonunda həmçinin Heydər Əliyevin təşəbbüsü ilə rəsm qalereyası açılmışdı. Heydər Əliyev qalereyanın fondlarının yerli rəssamların əsərləri ilə zənginləşdirməyin əhəmiyyətini öz çıxışında qeyd edir.

Bu dövrdə Heydər Əliyev Dağlıq Qarabağda təhsil və maarifin inkişafına da xüsusi diqqət ayırırdı. 1970-1985-ci illərdə məktəb tikintisi xüsusi sürətlə gedirdi.

1979-cu ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun filalı kimi Xankəndi Pedoqoji İnstitutu yaradıldı. XPİ yaradılması bölgənin və ətraf rayonların pedaqoji kadrlara olan tələbatının ödənilməsində mühüm rol oynadı [5, 366]

1970-1975-ci illərdə Dağlıq Qarabağda kitabxana işi də inkişaf edir. 9 yeni tipli kitabxana binası tikilib istifadəyə verilir. Kütləvi kitabxanaların sayı 188 çatdırılır (bunların 162-si kənddə idi). Kitab fondunun sayı isə 1 milyon 340 minə çatdırılmışdı [5, 368].

1970-1985-ci illərdə Azərbaycan hökümətinin ayırdığı xüsusi vəsait hesabına Dağlıq Qarabağda klub tikintisi xeyli artdı. Əgər 1970-ci ildə Dağlıq Qarabağda 198 (bundan 185-i kənddə) klub fəaliyyət göstərirdisə, 1975-ci ildə onların sayı 222-yə (206-sı kənddə), 1980-ci ildə 236-ya, 1985-ci ildə 262-yə çatdırıldı. Aparılan tədqiqatlardan məlum olur ki, adamların sayına görə klubların sayı Dağlıq Qarabağda ümumrespublika səviyyəsindən 3 dəfə, Ermənistanla müqayisədə 4,5 dəfə çox olmuşdur.

Əhalinin siyasi-ideoloji tərbiyəsində kinonun mühüm rol oynadığını nəzərə alan Azərbaycan hökuməti 1970-1985-ci illərdə Dağlıq Qarabağda kinoteatr şəbəksinin inkişafını daha da yaxşılaşdırdı. Dağlıq Qarabağ kinoya baxış sayına görə respublikada birinci yeri tuturdu [5, 370].

1970-1985-ci illərdə Dağlıq Qarabağda əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylər çox böyük rol oynamışdır. Dövlətimizin xüsusi qayğısı və ayırdığı vəsait hesabına Dağlıq Qarabağda 6 yeni muzey açıldı. Vilayətdə muzeylərin sayı 3-dən 9-a çatdırıldı. Dağlıq Qarabağda 2 şəkil qalereyası, Bakı muzeylərinin 2 filialı açıldı. Muzeylərə gələnlərin sayı 1970-ci ildə 35 min nəfər, 1975-ci ildə bu rəqəm 103 min, 1985-ci ildə isə artaraq 130 min olmuşdu[5, 371].

1970-ci illərdə Şuşa şəhərinin inkişafı üçün bir neçə mühüm qərar qəbul edildi. 1976-cı il noyabrın 4-də Azərbaycan KP MK-si və Azərbaycan Nazirlər Soveti "Şuşa şəhərində kurort kompleksinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərar qəbul edildi. Heydər Əliyev çıxışlarının birində Şuşanın abidələr şəhəri olmasını qeyd etmişdi. Diyarın zəngin tarixi ilə bağlı hər şeyi qayğı ilə qoruyaraq qədim tikililərin bərpa edilməsini zəruri olduğunu vurğulamışdı. O, Şuşada olan bir çox abidələrin adını qeyd edərək- "Gəncə qapısı", "Gövhər ağa" məscidi, "Xan qızı bulağı", İbrahim xanın divanı və s., onların qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasının ən başlıca, ümdə vəzifə olduğunu vurğulamışdı [5, 372].

Təəssüflə qeyd etmək istərdim ki, 1992-ci il may ayının 8-də erməni vandalları Şuşanı işğal edərkən 248 tarix-mədəniyyət abidəsi, 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 8 uşaq musiqi məktəbi, 1 Dövlət Rəsm qalereyası onların əlinə keçərək dağıdıldı və viran edildi [4, 67].

Yuxarıda qeyd olunan fakları nəzərə alsaq qeyd edə bilərik ki, 1970-1985-ci illər Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin mədəniyyətinin və incəsənətinin inkişafında mühüm bir dövr olmuşdu. Azərbaycana o dövrdə rəhbərlik edən Heydər Əliyevin uzaqgörən siyasəti və qayğısı nəticəsində Dağlıq Qarabağ bölgəsində ermənilərin iddialarının əksinə olaraq təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin inkişafı üçün geniş imkanlar yaradılmış, bu sahələr dinamik inkişaf nümayiş etdirmişdi. Vilayətin mənəvi sərvətləri və kadr potensialı daha da artmışdı. Ən əsası, məhz sözügedən illərdə Dağlıq Qarabağın türk-islam mədəni irsinin bərpası və tanıdılması sayəsində nəhəng işlər görülmüşdü.

ƏDƏBİYYAT

1. Elmira Axundova, Heydər Əliyev. Şəxsiyyət və Zaman. II hissə: Bakı, "Ozan",2007,784 səh.
2. Hidayət, İrəvana 7 məktub. (Azərbaycan və rus dillərində). Bakı: Əbilov, Zeynlalov və oğulları, 2004.
3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Heydər Əliyev və mədəniyyət: 3 cilddə (I cild), Bakı -2008, 472 səh. Foto-şəkilli
4. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Heydər Əliyev və mədəni irs. Bakı-2014, 210 səh.
5. Məmmədov Nazim. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf: Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı-2008, 567 səh.

SUMMARY

HEYDAR ALIYEV AND CULTURAL POLITICS IN NAGORNO KARABAKH IN 1970-80

Babayeva G.F.

The present article discusses the activities carried out by the National Leader Heydar Aliyev in the field of cultural construction in the Nagorno-Karabakh Autonomous Region (NKAR) when he was the leader of the Azerbaijan SSR in 1969-1982. It is noted that it was precisely the coming to power of such a figure with strategic thinking as Heydar Aliyev that made it possible to curb to a large extent the Armenian separatism in the autonomous region, which had gained serious proportions in previous decades. The purposeful political course of Heydar Aliyev was aimed at establishing the Azerbaijani national life in the NKAR. According to the facts given in the article, it was during these years that significant work was

launched to protect and transfer to future generations of historical monuments and the cultural heritage of Shushi. Among them, a special place is occupied by the creation in 1977 of the Historical-Memorial Reserve in Shusha and the opening of the memorial complex of Molla Panah Vagif in 1982. In the article, Heydar Aliyev's successful development policy, along with the economy, culture, science, education and art of the NKAR, is revealed on the basis of solid facts.

Key words: *Nagorno-Karabakh Autonomous Region, Heydar Aliyev, economy, culture, Shusha city, Historical and Architectural Reserve, Molla Panah Vagif , education, enlightenment, libraries, clubs, cinema, painting, museums.*

РЕЗЮМЕ

ГЕЙДАР АЛИЕВ И КУЛЬТУРНАЯ ПОЛИТИКА В НАГОРНОМ КАРАБАХЕ В 1970-80-Х ГГ.

Бабаева Г.Ф.

В представленной статье рассматриваются осуществляемые Общенациональным лидером Гейдаром Алиевым мероприятия в области культурного строительства в Нагорно-Карабахской Автономной Области (НКАО) в бытность его руководителем Азербайджанской ССР в 1969-1982 годах. Отмечается, что именно приход к власти такого деятеля со стратегическим мышлением, как Гейдар Алиев, позволил в значительной мере обуздать армянский сепаратизм в автономной области, приобретший серьезный размах в предыдущие десятилетия. Целенаправленный политический курс Гейдара Алиева был направлен на утверждение азербайджанского национального бытия в НКАО. Согласно приведенным в статье фактам, именно за указанные годы была развернута значительная работа по охране и передаче будущим поколениям исторических памятников и культурного наследия Шуши. Среди них особое место занимают создание в 1977 году Историко-Мемориального заповедника в Шуше и открытие мемориального комплекса Молла Панаха Вагифа в 1982 году. В статье успешная политика Гейдара Алиева по развитию, наряду с экономикой, культуры, науки, образования и искусства НКАО раскрывается на основе веских фактов.

Ключевые слова: *Нагорно Карабахская Автономная Область, Гейдар Алиев, экономика, культура, город Шуша, Историко-Архитектурный заповедник, Молла Панах Вагиф, образование, просвещение, библиотеки, клубы, кино, живопись, музеи*

ZƏFƏR MÜHARİBƏSİ: SOSİAL, İQTİSADİ, SİYASİ YEKUNLAR VƏ PERSPEKTİVLƏR

Baxşəliyev E.F.
AMEA İnsan Haqları və Hüquq İnstitutu, Bakı, Azərbaycan
bfazil4444@mail.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, müharibə, sülh, ərazi, bəyanat, zəfər müharibəsi*

2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan orduları, eləcə də tanınmamış Dağlıq Qarabağ Respublikasının qoşunları arasında başlayan hərbi əməliyyatlar qısa zamanda ikinci Qarabağ müharibəsi adlanan genişmiqyaslı hərbi qarşıdurmaya çevrildi. 44 gün davam edən müharibə noyabrın 9-da Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə atəşkəs sazişinin imzalanması ilə başa çatdı [1, s.1].

Bakının rəsmi məlumatına görə, hərbi əməliyyatlar nəticəsində 2907 Azərbaycan hərbçisi və 101 mülki şəxs həlak olmuş, 7 nəfər itkin düşmüşdür. İrəvan 3788 hərbçi və 60 mülki şəxsin öldüyünü təsdiqləmişdir. 11 min insan isə yaralanmışdır [6].

2020-ci il 10 noyabr üçtərəfli Bəyanata əsasən əvvəllər Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ətrafındakı yeddi rayon, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olmuş ərazisinin bir hissəsi, o cümlədən Azərbaycan xalq üçün rəmzi olan Şuşa şəhəri Azərbaycan Milli Ordusunun nəzarətinə keçmişdir [1, s.1].

Ermənistanda çoxları imzalanmış sazişi hakimiyyətin təslim olması və xəyanəti kimi qəbul edirdi. Azərbaycanda müharibənin nəticələri qələbə kimi qiymətləndirilir. Ermənistanın baş nazirininmüharibədə məğlub olmasına baxmayaraq, növbədənkənar parlament seçkilərində səslərin mütləq əksəriyyətini toplayaraq öz postunu qoruyub saxlaya bilməsi işğalçı dövlətin əvvəlki iki liderinin öz ölkə və xalqını dərin

uçruma yuvarladıqlarının sübutu kimi dəyərləndirilir. Azərbaycanın hərbi uğurları isə Prezident İlham Əliyevin ölkə daxilində və beynəlxalq aləmdə nüfuzunu xeyli gücləndirdi.

1994-cü ildən sonra 2020-ci ilədək problemin dinc yolla həlli üçün keçirilən müzakirələr heç nəyi dəyişmədi. Lakin 2000-ci illərin əvvəllərindən, xüsusi ilə də 2003-cü ildən yeni müharibənin qaçılmazlığı, müharibənin zəruriliyi açıq şəkildə və çox israrla müzakirə olunurdu[5, s.7].

Müharibə, şübhəsiz ki, gözlənilməz deyildi. Başlanmasına sözün əsl mənasında iki-üç ay qalmış Azərbaycanda cəmiyyətin müxtəlif səviyyələrində - sadə insanlar, ziyalılar və hər kəs tərəfindən geniş şəkildə müzakirə olunurdu. Ən azı 2020-ci il avqust-sentyabrın əvvəllərində hamı müharibə gözləyirdi. Hamı bilirdi ki, bir-iki-üç gün - və müharibə başlayacaq. Bu, hamıya məlum idi, sirr deyildi. Əslində, cəmiyyət əsasən hökuməti müharibəyə sövq edirdi.

İyulun 15-nə keçən gecə Bakıda onlarla, hətta yüz minlərlə gənc müharibə tələbi ilə küçələrə axışıb mitinqkeçirildi. Azərbaycan hakimiyyətinin bu tələbləri cəbhəyə yönəltməsi tamamilə məntiqli idi. Deməli, müharibə sürpriz deyildi, hamı bunu gözləyirdi, hamı bilirdi ki, bu, olacaq. Müxtəlif hesablamalara görə, artıq yazda müharibəyə hazırlıq gedirdi. Və cəmiyyət buna hazır idi. Cəmiyyətdə,hətta prinsipcə müharibəyə qarşı olanlar arasında roblemin həllininmüharibə variantına çox geniş dəstək, hətta son dərəcə geniş mövcud idi.

Azərbaycanda sosial bazası tam məhdud olan müxalifətin 2016-cı ilin aprelindən sonra iqtidara ünvanladığı əsas tənqid isə məhz bu idi ki, Milli Ordumuzcəbhədə böyük fədakarlıqlar göstərib qələbəyə yaxın olduqları bir vaxtda, sona qədər gedə bilmədilər. Qeyd edək ki, bu müharibədəki itkilərlə bağlı ümumi konsensus var.

Erməni cəmiyyəti və bütövlükdə erməni tərəfi anlayırdı ki, status-kvonu dəyişmək lazımdır və 1994-cü ilin mayındakı atəşkəsdən sonra formalaşan status-kvo əbədi deyil. Sadəcə olaraq, erməni cəmiyyətinin keçməyə hazır olmadığı bəzi qırmızı xətlər var idi. Bu, ilk növbədə, Dağlıq Qarabağın statusu ilə bağlı idi.

2006-2007-ci illər əsas dönüş nöqtəsi oldu, bu neft-qaz kəmərləri işə salındıqdan sonra Azərbaycan milyardlar, hətta on milyardlardollarlahesablanan vəsait əldə etməsi ona imkan veriridi ki, hərbi balansı öz xeyrinə dəyişə bilsin. Aydın idi ki, əgər Azərbaycan üçün geosiyasi vəziyyət yaranarsa, o zaman o, hərbi güclə status-kvonu poza bilər. Ermənistan isə ATƏT-in Minsk qrupunun təkliflərini qəbul etsəydi, nail omaq istədiyindən çoxunu əldə edə bilər.

Aydın idi ki, 2020-ci il Azərbaycan üçün ən əlverişli anı yaratdı. Dünya güclərininPandemiyaya görə Qarabağa o qədər də vaxtları yox idi. Sonra da 2020-ci ilin noyabrında ABŞ-dakı prezident seçkiləri, bir sözlə, 2020-ci ilin Azərbaycan üçün hərbi əməliyyatların başlaması üçün ən yaxşı vaxtlardan biri olduğu artıq aydın idi.

Amma Ermənistan siyasi siyasi dairələrində, hakimiyyətdə hələ də Rusiyaya müəyyən ümidlər var idi ki, Moskva status-kvonun ciddi dəyişməsinə imkan verməyəcək. Çünki əks halda yaranacaq hər hansı bir dəyişiklik Türkiyənin Cənubi Qafqazda rolunun güclənməsi ilə nəticələnə bilərdi. Yaxud bəlkə də 2018-ci ilin aprelindəki "məxməri inqilab"dan sonra QərbinAzərbaycan və Türkiyənin demokratik Ermənistana təcavüzünə imkan verməyəcəyinə ümidlər var idi. Hökumət ümid edirdi ki, irimiqyaslı döyüşlər olsa belə, ya Rusiya, ya Qərb, ya da onlar birlikdə müharibəni tez dayandırmaq üçün hər şeyi edəcəklər. Məsələn, 2016-cı ilin aprelində baş vermiş "Dördgünlük Müharibə" vaxtı olduğu kimi.

2018-ci ilin dekabrında Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərində indiki hakimpartiya seçici səslərinin əksəriyyətini səs toplamışdı. Deməli, cəmiyyətdə də ümid var idi ki, müharibə olmayacaq, ya da qısamüddətli, maksimum bir neçə gün, bir həftə müharibə olacaq. Ancaq yenə də hər şey belə bir strateji status-kvoya deyil, taktiki dəyişikliklərə gətirdi. Amma insanlara 45 gün ərzində oyuncaq DQR-in 80%-ə yaxın ərazisini itirəcəyini, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin 30%-nin Azərbaycanın nəzarətinə keçəcəyini, Azərbaycanın və Türkiyənin bayraqlarının bu ölkədə,Şuşa şəhərindədalğalanacağını söyləmək cəmiyyətdə fantastikadan kənar bir şey kimi qəbul edilərdi.

İtkilər haqqında."İtkisiz müharibə yoxdur" qənaəti əsaslıdır və çətin ki, kimsə bununla razılaşmasın. Azərbaycan üçün itkilər qəhrəmanlıq faciəsidir. Bəli, bu faciədir, amma şəhidlərimiz millətin yaddaşında əbədi olaraq qalacaqlar.

Ermənistanda insanlar indi iki məsələni etiraf edirlər.İyul ayında Ermənistan–Azərbaycan dövlət sərhədində hərbi təxribat törədildi və Ermənistan bizim torpaqlarımızı işğal etmək istədi[2, s.247].2020-ci ilin noyabrını götürsək, aydın olur ki, demək olar ki, bütün müharibə dövründə ictimaiyyətə çatan məlumatlar döyüş meydanındakı vəziyyətdən çox fərqli olub. Erməni tərəfi ərazi itkiləri ilə ilk xəritələri yalnız oktyabrın 20-dən sonra dərc etməyə başlamışdı. Sonra nəşr olunan xəritələr real vəziyyəti əks etdirmirdi. Belə ki, noyabrın 9-u axşam saatlarında insanlar bu bəyanatın mətninə baxanda təkcə Azərbaycanın artıq azad etdiyi ərazilər deyil, Şuşa şəhərini də orada olduğunu gördülər [3, s.72]. Baxmayaraq ki, son anda rəsmi orqanlar Şuşada döyüşlərin davam etdiyini, şəhərin Azərbaycanın nəzarətində olmadığını söyləməkdə davam edirdilər.

10 noyabr Bəyannaməsindən sonra isə məlum oldu ki, Ermənistan hərbi əməliyyatlar aparmadan daha çox ərazini geri verməlidir. Çünki reallıqda hərbi əməliyyatlar nəticəsində Azərbaycanın azad etdiyi ərazilərənoyabrın 9-dan sonra daha 3,8 min kvadrat kilometr ərazi əlavə edildi. Noyabrın 9-na kimi Ermənistan cəmiyyətinə həqiqəti əks etdirən məlumat verilmədiyi üçün bu, şok idi. Onda sual olunur du ki, əgər son aylarda vəziyyət kritik idisə, niyə son günə qədər hər şeyin qaydasında olduğunu söyləyirdilər?
İndi insanların dediklərinə baxsanız, deyirlər ki, Azərbaycan Milli Ordusunun sarsıdıcı zərbələrindən sonra hətta Xankəndinin azad ediləyi və on minlərlə erməni əsgərinin əsir alınacağı yəqin olduqda noyabrın 9-u axşam hökumətin yəqin ki, başqa yolu yox idi[4, s.36].

Siyasi nəticələr haqqında.Bəlkə də bu, izahı çətin olan bir hadisədir ki, belə bir məğlubiyyətdən və 1991-ci ildən "erməni xalqının kimliyi üçünvacib hesab edilən" belə ərazilərin itirilməsindən sonra Paşinyan yenidən seçkilərdə qalib gəldi, hətta səslərin yarıdan çoxunu aldı və o, yenidən parlamentdə mütləq çoxluğa sahib oldu. Görünür, bunun bir neçə səbəbi var. Erməni əhalisi hesab edirdi ki, Dağlıq Qarabağ Ermənistan cəmiyyətinin əhəmiyyətli hissəsi üçün reallıqda göründüyündən daha mühüm rol oynayır. Lakin məğlubiyyətdən sonra məlum oldu ki, bir çoxları üçün Dağlıq Qarabağın itirilməsi deyildiyi qədər də faciəli addım deyil. Bu birinci səbəbdir.

İkinci səbəb haqqında. Paşinyanın əsas rəqibi R.Köçəryan idi və indi aydın oldu ki, bir çoxları üçün R.Köçəryanın hakimiyyətə qayıdışındansa, Ermənistanı fəlakətə gətirən Paşinyanın hakimiyyətdə qalması daha məqbul idi. Niyə belə oldu? Bunu izah etmək çətindir. Amma fikrimizcə, burada iki əsas amil həlledici oldu: bir çoxları üçün Qarabağın itirilməsi qırmızı xətt deyildi. İkincisi, insanlar belə qərara gəldilər ki, R.Köçəryanın və komandasının qayıtmasındansa, Ermənistanı məhvə aparan şəxsin Ermənistana rəhbərlik etməyə davam etməsi daha yaxşıdır.

Müharibədə və daha çox İlham Əliyevin dövründə yaradılan Milli Ordunun qələbəsi onun həm dilomatik, həm də döyüş cəbhələrindəki əldə etdiyi uğurlara söykənmişdir.

Qarabağın gələcəyi haqqında. Müharibə, prinsipcə, münaqişənin tam həlli üsulu ola bilməz. Müharibə uzun illərdir davam edən münaqişənin növbəti mərhələsidir. Sülh müqaviləsi münaqişəni həll etməlidir. Bunun üçün hər iki tərəf buna hazır olmalıdır. Bu gün (müharibədən əvvəl olduğu kimi) Ermənistan tərəfi həqiqətən yekun sülh sazişi imzalamağa hazır deyil.Ola bilsin ki, bu münaqişə hakimiyyəti legitimləşdirmək üçün uzun müddətdir, lazım idi. Bu sadəcə tanış vəziyyətdir, ondan imtina etmək çox çətindir. Qələbə və Azərbaycanın demək olar ki, bütün ərazilərin onun nəzarətinə qayıtması Ermənistan cəmiyyətində revanşist çağırışların azalmasına səbəb oldumu? Yox. Revanşizm daha da güclənmişdir.

Bir məsələ üzərində dayanmaq yerinə düşərdi. Bu bir tarixi həqiqətdir ki, İrəvan qədim Azərbaycan şəhəridir və Ermənistanın bütün ərazisi əslində Ermənistan deyil, Qərbi Azərbaycandır. Bu ərazi uzun müddət Azərbaycanın bir növ tarixi itirilmiş hissəsi deməkdir. Müharibədən sonra isə bu mövzu yeni təkan aldı, inkişaf edir və intensivləşir. Toponimlərin erməni dilindən Azərbaycan dilinə dəyişdirilməsi proqramı yenidən gündəmdədir.

Münaqişə probleminin özü də aradan qalxmayıb, çünki nə sülh müqaviləsi var, nə də yaxın gələcəkdə onun bağlanması ehtimalı. Sülh müqaviləsi mühüm komponent kimi sərhədlərin delimitasiyasını ehtiva etməlidir. Ermənistan tərəfinin ucbatından bu gün bu mümkün deyil. Yaxın gələcəkdə hər hansı sazişin bağlanması üçün heç bir perspektiv yoxdur.

İndi Dağlıq Qarabağın taleyi də tam aydın deyil. Çox güman ki, Qarabağ məsələsi yaxın illərdə öz həllini tapacaq. Bu, çox ziddiyyətli şəkildə baş verəcək. Təbii ki, orada hazırda yaşayan, qalan ermənilərdən kimsə Azərbaycanın hakimiyyəti altında qalmaq istəməsə, çıxıb getmək yolunu özü qəbul etməlidir.

Bəyanatdan sonra bölgədə yerləşdirilmiş Rusiya sülhməramlıları haqqında demək istərdim ki, Rusiyadan oradan getməsini tələb etmək çox asandır. Rusiyanın burada ermənilərin istədiyi kimi, "uzunmüddətli qalmaq" üçün heç bir şansı yoxdur. Çətin ki, kimsə Qarabağ uğrunda bir də vuruşsun və ümumilikdə Rusiyanın belə niyyətləri olsun.

Bu barədə Ermənistan cəmiyyətində müxtəlif fikirlər var. Amma eskalasiyadan danışsaq, o zaman hamı başa düşür ki, Ermənistan Azərbaycanın 44 günlük müharibədən sonra azad etdiyi torpaqların heç olmasa, bir hissəsini almaq üçün fiziki olaraq hansısa ciddi hərbi kampaniyaya başlaya bilməz. Amma yenə də cəmiyyətdə müxtəlif qruplar var. Ancaq kifayət qədər böyük bir qrup insan hesab edir ki, bəli, dəhşətli bir şey baş verdi, ən azı dörd min əsgər öldü, bəlkə də daha çox, 8,5 min kvadrat kilometr itirdik... Amma yenə də, indi münasibətləri normallaşdırmaq şansı var. Azərbaycan və Türkiyə ilə sərhədləri açın, bu, Ermənistan iqtisadiyyatına yeni Azərbaycan, Türkiyə sərmayələri deməkdir. Bu, nəzəri cəhətdən, maddi cəhətdən daha yaxşı yaşayacağımız anlamına gələcək. Və biz bu yolla getməliyik, baxmayaraq ki, bu, de-fakto "Arsaxdan" -Dağlıq Qarabağdan imtina etmək deməkdir [7]. Belə insanlar var və yəqin ki, saylarıget - gedə daha da artacaq.

Amma cəmiyyətin böyük bir hissəsi deyir ki, yox, indiki vəziyyət qəbuledilməzdir, çünki "Arsax" indiki sərhədləri daxilində hələ də yaşaya biləcək dövlət deyil. Əgər biz Dağlıq Qarabağı erməni ərazisi kimi saxlamaq istəyiriksə, o zaman bu, heç olmasa, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi olmalıdır, üstəlik Ermənistanla indi Ermənistan tərəfindən qorunub saxlanılan bu beş kilometrlik Laçın dəhlizindən daha ciddi, etibarlı

dəhliz olmalıdır. Erməni cəmiyyətinin bu hissəsi düşünür ki, Rusiya ermənilərin“Arsaxı” tərk etməməsi üçün hər şeyi etməlidir. Ancaq başa düşmək lazımdır ki, bu, indiki reallıqda mümkün olmayan arzu, xəyal deməkdir.

Cəmiyyətin bu hissəsi də anlayır ki, ən azı 10 il ərzində Ermənistan mövcud status-kvonu dəyişə bilməyəcək. Amma cəmiyyətin digər bir hissəsi başa düşür ki, danışıqlar yolu ilə Azərbaycanı keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindən çıxmağa məcbur etmək mümkün deyil. Çünki Azərbaycan keçmiş vilayətin, təxminən, 1,4 min kvadratkilometrlik ərazisinə tam sahib çıxmışdır: Şuşa şəhəri, Hadrut rayonu, həmçinin Əsgəran, Ağdərə rayonunun bəzi kəndləri və Xocavənd rayonunun bir hissəsi.

Erməni cəmiyyətinin bu hissəsi hesab edir ki, hər şeyi etmək lazımdır ki, “Arsaxı”,oradakı erməni əhalisini qorumaq üçün xarici hərbi mövcudluq hələlik qalsın.

Lakin reallıq isə tam başqadır. Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq.

Sonda fikrimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin belə bir ifadəsi ilə başa çatdırmaq istəyirəm ki, «Qarabağ Azərbaycandır və nida!» ifadəsi artıq bizim qələbəmizin rəmzidir, rəmzinə çevrilibdir. Bir il bundan əvvəl mən bunu demişəm. Fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrilibdir” [2, s.247].

ƏDƏBİYYAT

1. Bayramov,V. Azərbaycan tarixi qələbə ilə beynəlxalq hüququ bərpa etdi// Xalq. - 2021. 2 oktyabr. - s.1.
2. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 108-ci kitab. noyabr 2020 - dekabr 2021. Bakı: Azərnəşr, 2021. - 392 s.
3. Hüseynova, İradə. Zəfər tariximizin şanlı səhifələri. Bakı: Füyuzat, - 2021. - 224 s
4. Zəfər salnaməsi.Bakı: Şərq-Qərb, - 2021. - 536 s.
5. 44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr. Bakı: Şərq-Qərb, - 2021. - 32 s.
6. 44 gün sürən Vətən Müharibəsi (II Qarabağ müharibəsi). https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi
7. Дмитриев, Сергей. Уроки второй карабахской войны: как в Азербайджане и Армении смотрят на последствия и перспективы конфликта. https://www.rfi.fr/ru/%D0%BA%D0%B0%D0%B2%D0%BA%D0%B0%D0%B7/2021118-уроки-второй-карабахской-войны-азербайджан-армения-последствия-конфликта

SUMMARY

TRIUMPHAL WAR: SOCIAL, ECONOMIC, POLITICAL RESULTS AND PROSPECTS

Bakshaliyev E.F.

2020 has created the most favorable conditions for Azerbaijan to return the occupied territories in Karabakh. However, in Armenian political circles and the government, there were still certain hopes for Russia that Moscow would not allow a serious change in the status quo. Otherwise, any change may lead to an increase in Turkey's role in the South Caucasus. The victory of the National Army, created during the war and under Ilham Aliyev, was based on his achievements both on the diplomatic and military fronts.

Keywords: *Azerbaijan, Karabakh, war, peace, territory, declaration, victorious war*

РЕЗЮМЕ

ТРИУМФАЛЬНАЯ ВОЙНА: СОЦИАЛЬНЫЕ, ЭКОНОМИЧЕСКИЕ, ПОЛИТИЧЕСКИЕ ИТОГИ И ПЕРСПЕКТИВЫ

Бахшалиев Э.Ф.

2020 год создал для Азербайджана самые благоприятные условия для возвращения оккупированных территорий в Карабахе. Однако в армянских политических кругах и правительстве все еще были определенные надежды на Россию, что Москва не допустит серьезного изменения статус-кво. В противном случае любое изменение может привести к усилению роли Турции на Южном Кавказе. Победа Национальной армии, созданной во время войны и при Ильхаме Алиеве, основывалась на его достижениях как на дипломатическом, так и на военном фронтах.

Ключевые слова: *Азербайджан, Карабах, война, мир, территория, декларация, победоносная война.*

44 GÜNLÜK ZƏFƏR MÜHARİBƏSİNİN ƏSAS NƏTİCƏLƏRİ HAQQINDA

Baxşəliyev F.E.
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
bfazil4444@mail.ru

Açar sözlər: *müharibə, zəfər, bəyanat, Qarabağ, dəhliz, atəşkəs, sülhməramlı*

İkinci Qarabağ müharibəsinin başa çatmasından bir ildən çox müddət keçir. XX əsrdən miras qalmış ən qanlı münaqişələrdən birinin miqyasında həlli demək olar ki, otuz il ləngimiş müharibə vəziyyəti, xalqımız üçün ciddi sınaq olan problem arxada qalmış, tarixə qovuşmuşdur [3, s.2]. Ola bilsin ki, bu hadisələr dünyanın qlobal problemləri ilə müqayisədə kimlər üçünsə elə bir güclü siyasi əhəmiyyət kəsb etmir. Lakin bu ilk baxışda belə təsir bağışlayır.

İlk olaraq demək istərdim ki, 30 illik qanlı münaqişələrdən birinin həlli demək olan Rusiya, Azərbaycan və Ermənistan dövlət və hökumət başçıları tərəfindən nəinki Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsini nəzərdə tutan, həm də regionda yeni geoiqtisadi reallıq yaradan ciddi saziş imzalanması bütün müsbət əhəmiyyəti ilə yanaşı müharibədən sonrakı dövr üçün reionun indisi və gələcəyi ilə bağlı bəzi mülahizə və qənaətlərimizi söyləməyi zəruri edir.

44 günlük Vətən müharibəsinin ikinci zəfər mərhələsi bütün siyasi, hərbi və beynəlxalq əhəmiyyətli uğurları ilə yanaşı bəzi perspektiv məsələlər ətrafında düşünməyi tələb edir.

Bunlardan ilk və ən əsası 10 noyabr bəyənatının əməl edilib edilməməsidir. Belə ki, 2020-ci il noyabrın 9-da Rusiya prezidenti Vladimir Putin, Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan prezidenti İlham Əliyev konkret ərazi dəyişiklikləri ilə bağlı memorandum imzalayıblar [6, s.5]. 44 günlük müharibədə Azərbaycan ordusunun işğal etdiyi bütün o rayonlar (Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Şuşa) Azərbaycanın nəzarəti altındadır. Fasiləsiz döyüşlər zamanı Qarabağ ətrafında işğal altında qalan üç rayon - Ağdam, Kəlbəcər və Laçın bir ay ərzində Azərbaycana qaytarıldı. Bu ərazi dəyişiklikləri üç liderin yeddi rayonla bağlı memorandumunun 100 faiz işlədiyini göstərir.

Bəyanatın 6 və 9-cu bəndlərində iki dəhlizin - Laçın və Zəngəzurun açılması nəzərdə tutulurdu. Birinci dəhlizin açılması uğurla başa çatıb. Ermənistanla Qarabağ arasında əlaqə maneəsizdir. Bunun sayəsində, Rusiya sülhməramlılarının komandanlığının məlumatına görə, 50 mindən çox erməni Dağlıq Qarabağa qayıtmışdır, nəinki dinc əhali, hətta Azərbaycanın suverenliyini pozaraq, erməni nazirlər davamlı olaraq bölgəyə səfər edir, hərbi texnika və hərbi personal daşınır.

Digər tərəfdən, Azərbaycanın qərb rayonları ilə 9-cu bənd üzrə Ermənistanın zəmanət verdiyi və Rusiya Federasiyası FTB-nin mühafizəsi altında olan Naxçıvan Muxtar Respublikası arasında "təhlükəsiz nəqliyyat əlaqələri" hələ də təmin edilməmişdir [1, s.4]. İrəvan müxtəlif bəhanələrlə nəqliyyat əlaqələrinin açılmasına mane olur və Moskva öz müttəfiqini razılaşmalara əməl etməyə məcbur edə bilməz.

Azərbaycan tərəfi isə bu günə qədər götürdüyü öhdəliklərin hamısına əməl etmişdir və ya onlardan geriçəkilmə halları baş verməmişdir. Zəngəzur dəhlizinin reallaşdırılması üçün ilkin tikinti işləri başlanmış, dəmiryol və şosse yollarının öz ərazimizdən keçəcək müəyyən hissələrinnin hazır olması barədə rəsmi məlumatlar da verilmişdir. 2021-ci il oktyabrında Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində dövlət başçımız İlham Əliyev Zəngəzur dəhlizinin başlanğıcı olacaq Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyub [2, s.2]. İ.Əliyevin Ərdoğanla eyni gündə açdığı Füzuli hava limanını Bakının rekord müddətdə necə tikdiyini nəzərə alsaq, aydın olur ki, magistral tezliklə Ermənistan sərhədinə çatacaq.

Qeyd edək ki, İ.Əliyev əvvəlcə Zəngəzurdan keçən dəhlizin açılması ilə Paşinyanı çox da tələsdirməmişdi. Doğrudan da, Qarabağ müharibəsindəki məğlubiyyətə görə o, xalqın etimadının ən çətin sınağından - 2021-ci il iyunun 20-də keçiriləcək parlament seçkilərindən keçməli oldu [7]. Amma artıq Ermənistan baş nazirinin partiyası seçkilərdə inamlı səs çoxluğu əldə etdiyi üçün erməni rəhbərliyinin nəqliyyat marşrutlarının icrasını gecikdirmək üçün heç bir bəhanəsi olmamalıdır.

Paşinyanın yenidən prezident seçilməsinin müəyyən mənada Bakının maraqlarına uyğun gəldiyini inkar etmək olmaz. Axı ermənilər Robert Köçəryanı və ya Serj Sarkisyanı, yəni Birinci Qarabağ müharibəsinin başlanmasının səbəbkarlarını, əslində isə beynəlxalq hüquq normalarına əsasən müharibə caniləri olan revanşist və seçsəydilər, bu, onların 10 noyabr memorandumundan hansısa bir formada geri çəkilmələrinə gətirib çıxacaqdı. Bu halda Köçəryan və ya Sarkisyan sövdələşməni icra etməkdən imtina edə və ya onun müddəalarına yenidən baxmağa cəhd edə bilərdilər.

Hadisələrin bu axarda cərəyan edəcəyi variantını istisna etməyən İ.Əliyev Ermənistanın bütün siyasətçilərinə xəbərdarlıq edərək 2021-ci il aprelin 21-də Azərbaycan Televizyasına (AzTV) müsahibəsində bildirmişdi ki, "biz

Zəngəzur dəhlizini Ermənistan istəsə də, istəməsə də həyata keçiririk. O, istəsə, daha asan qərar verərik, istəməsə, zorla qərar verərik" [4, s.258].

2020-ci il 10 noyabr Bəyannaməsinin Ermənistan və Azərbaycan üçün konkret nəticələri və perspektivləri haqqında da bəzi mülahizələrimizi bildirmək istərdik. Üçtərəfli memorandumun əsas müddəalarına diqqət yetirsək, deməliyik ki, hazırda onun icrası daha çox Ermənistan tərəfinin maraqlarına uyğundur. Birincisi, erməni əhalisinin təhlükəsizliyi təmin edilir. İkincisi, ermənilər Qarabağdan Ermənistana və geriyə sərbəst və təhlükəsiz gedə bilirlər. Üçüncüsü, 9-cu bəndə əsasən, məcburi köçkünlər geri qaytarıldı - yəni ermənilər Qarabağa qayıtdılar. Dördüncüsü, Ermənistan üçün son dərəcə vacib, lazım olan atəşkəs əldə olundu [6, s.5]. Əgər belə olmasaydı, Azərbaycan Silahlı Qüvvələri 2020-ci ilin noyabrında cəmi bir neçə gün ərzində Xankəndini (Stepanakert) azad edərək, nəhayət, bütün Qarabağı Azərbaycana qaytıtmasını təmin ediləcəkdi.

Amma indi Ermənistan tərəfi xüsusi statusa, hətta Dağlıq Qarabağın müstəqilliyinə də illüziya ümidlərini gizlətmir. Burada belə bir suala aydınlıq gətirmək istərdik ki, Bəyannamə nəticəsində Ermənistanın əldə etdiyi dörd müsbət cəhətin müqabilində Azərbaycan nə əldə etdi? Bu nəticə Bakı üçün də çox əlverişlidir. Qarabağ ətrafında rayonlardan üçü - Ağdam, Kəlbəcər və Laçın qan itkisi olmadan geri qaytarılmışdır.

Bununla belə, bəyanatda keçən müddətdə Bakının sülhməramlılardan cavablandırılmasının tələb olunduğu bir sıra ciddi sualları və iddiaları var. Birincisi - Zəngəzur (Ermənistanın Sünik rayonu) vasitəsilə maneəsiz nəqliyyat rabitəsinin həyata keçirilməsi haradadır? İkincisi, 9-cu bənd yalnız ermənilərə aiddir? Niyə on minlərlə azərbaycanlı Dağlıq Qarabağa, Xocalıya qayıda bilmir? Üçüncüsü, Ermənistan Silahlı Qüvvələri hələ də 4-cü bəndə uyğun olaraq Qarabağdan çıxarılmamışdır.

Atəşkəsdən bir il sonra Ermənistanla Azərbaycan arasında qalan ziddiyyətlərin kulminasiya nöqtəsi təbii ki, Qarabağın siyasi statusu məsələsidir. İlham Əliyev indiyədək bir neçə dəfə rəsmi olaraq bəyan etmişdir ki, status məsələsi bağlanıb və artıq "Dağlıq Qarabağ"deyilən bir anlayış yoxdur [5]. Bununla bərabər regionun erməni əhalisinin azərbaycanlılarla eyni hüquq və imtiyazlardan istifadə edəcəyinə təminat verilir.

İrəvan hakimiyyəti əbəs yerə hesab edir ki, "Dağlıq Qarabağ" müstəqillik əldə etməlidir. Ermənistanın rəsmiləri dəfələrlə bəyan etmişdir ki, İrəvan Azərbaycanla danışıqlarda məhz belə bir mövqeni müdafiə edəcək.

Həqiqət isə budur ki, Rusiya sülhməramlıları 2025-ci ilə qədər Qarabağda qalır və deməli, böyük ehtimalla onların səlahiyyət müddətinin başa çatmasına qədər məsələnin həlli dondurulacaq. Rusiya sülhməramlıları regionda qalma müddəti yalnız Bakı və İrəvanın birgə razılığı ilə uzadıla bilər. Bakının 2025-ci ildə bu niyyətdə olacağı real görünmür. Lakin hətta rəsmi olaraq "Dağlıq Qarabağ"ı de-yure Azərbaycan ərazisi kimi tanıyan Kreml, yəqin ki, KTMT və MDB-də müttəfiqini itirməkdən və Aİ, ABŞ və NATO-nun xeyrinə güzəştə getməkdən ehtiyat edərək "Ermənistanı öz orbitində saxlamaq" üçün regiondan sülhməramlıların getməsi əvəzində erməni tərəfin müəyyən "istəklərini" şərt kimi irəli sürə bilər. Hər bir halda bu məqam üzərində düşünməyə dəyərvə ehtimalın reallaşmaması üçün bütün diplomatil qabaqlayıcı, profilaktiki tədbirlər görülməlidir.

Üçtərəfli memorandumun icrası ilə bağlı bir sıra sualların qalmasına baxmayaraq, bəzi müsbət dəyişikliklərin artıq olduğunu da qeyd etmək lazımdır. Ermənistan minalanmış ərazilərin xəritəsini Azərbaycana verməyə başlamışdır. Hər iki tərəfdən hərbi əsirlərin mübadiləsi aparılır, sərhədlərin delimitasiyası başlanılmışdır.

Bakı və İrəvanın rəsmiləri səviyyəsində onların sülh danışıqlarına, münasibətlərin qurulmasına hazır olduqları barədə bəyanatlar eşidilir. Azərbaycan Xarici İşlər Nazirliyi artıq bu barədə İrəvandan gələn xəbərləri müsbət dəyərləndirmişdir.

2021-ci ilin oktyabrın 15-də İ.Əliyev "ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədin delimitasiyasına dair" və "Ermənistanla sülh sazişi" razılaşma üçün erməni tərəfi ilə danışıqlara başlamağa hazır olduğunu növbəti dəfə bəyan etmişdir [7].

Qarşı tərəfin də artıq bu istiqamətdə ilk bəyanatları səslənməkdədir. 2021-ci ilin avqustun 12-də Nikol Paşinyan öz ölkəsinin "Azərbaycanla sülh sazişinin imzalanması üzrə danışıqları yeniləməyə" hazır olduğunu təsdiqləmiş və əlavə etmişdir ki, İrəvan "Bakıdan konkret təkliflər gözləyir" [7].

Qeyd etmək lazımdır ki, üçtərəfli memorandum təkcə münaqişəli respublikalar deyil, həm də onların qonşuları arasında münasibətlərin yeni formatını müəyyənləşdirdi. Beləliklə, nizamlanma Ermənistan üçün Türkiyə ilə əzəli ziddiyyətləri həll etmək imkanı açır. Məlumdur ki, Paşinyan Ərdoğanla görüşə hazırdır. Türkiyə prezidenti bu ehtimala müsbət baxır.

Qeyd etmək lazımdır ki, üçtərəfli memorandum təkcə münaqişəli respublikalar deyil, həm də onların qonşuları arasında münasibətlərin yeni formatını müəyyənləşdirdi. Beləliklə, nizamlanma Ermənistan üçün Türkiyə ilə əzəli ziddiyyətləri həll etmək imkanı açır. Məlumdur ki, Paşinyan Ərdoğanla görüşə hazırdır. Türkiyə prezidenti bu ehtimala müsbət baxır.

Üçtərəfli memorandumda (9-cu bənd) nəzərdə tutulan bütün nəqliyyat kommunikasiyalarının açılması Türkiyə-Ermənistan sərhədinin açılmasını nəzərdə tutur. Türkiyə tərəfi iqtisadi əlaqələrin bərpasına böyük ümidlər bəsləyir. Ərdoğan artıq Rusiya, Türkiyə, İran, Azərbaycan, Ermənistan və Gürcüstanın iştirakı ilə "altılıq" və ya "3+3" formatının yaradılmasını təklif etmişdir [2, s.2].

Daha bir vacib üzərində ayrıca dayanmaq istərdik. Zəfər müharibəsi ərəfəsində, xüsusi ilə də gedişində və ondan sonra da Rusiya-Türkiyə münasibətlərinin yeni keyfiyyət mərhələsinə daxil olduğunu ayrıca qeyd etmək yerinə düşər. Qarabağ müharibəsi, bəzi ekspertlər tərəfindən formalaşan mifin əksinə olaraq, ikitərəfli münasibətləri və ya ziddiyyətləri kəskinləşdirmədi, əksinə, Ankara ilə Bakı arasında başqa bir əlaqə oldu.

Ağdamda Türkiyə-Rusiya monitorinq mərkəzinin yaradılması Cənubi Qafqazda ikitərəfli tərəfdaşlığın və regionda qarşılıqlı tarixi və geosiyasi maraqlara hörmətin simvoludur. Bir sözlə, İkinci Qarabağ müharibəsi regional münaqişələrin həlli formatı kimi Rusiya-Türkiyə tandemini daha da gücləndirdi.

V. Putinin Türkiyənin müharibədəki mövqeyinin beynəlxalq hüquq normalarına uyğun olması ilə bağlı sözləri müsbət dəyərləndirilməlidir. Türkiyənin münaqişənin həllində fəal iştirakı ATƏT-in Minsk Qrupu ölkələrini (Fransa və ABŞ) işsiz qoydu.

İmzalanan memorandum İranın Cənubi Qafqazdakı rolunu və təsirini azaltdı, çünki Tehran M-2 magistral yolu ilə Qarabağa sərbəst çıxışını itirdi və müharibədən sonra Ermənistanın simasında daha da zəifləmiş müttəfiqi aldı. İranın şimalda keçirdiyi son hərbi təlimlər onun mövqelərinin zəifləməsindən narazılığın sübutudur.

Başqa bir vacib cəhəti də qeyd etmək istərdim. İkinci Qarabağ müharibəsi illərində Azərbaycanda siyasi və iqtisadi sabitlik hökm sürmüşdü, xalq-iqtidar birliyi ən yüksək səviyyədə nümayiş etdirilmişdi. Bu isə sonda qələbənin qazanılması üçün mühüm şərtlərdən biri idi.

Sonda bəzi qənaətlərimizi bildirmək istərdik. Nəticə etibarı ilə, İkinci Qarabağ müharibəsindən bir il sonra Azərbaycan bir neçə istisna olmaqla, öz ərazi bütövlüyünü bərpa etmiş oldu. Ermənistan Qarabağla nəqliyyat əlaqələrini saxladı və Türkiyə ilə sərhədlərini açmaq şansı qazandı. Rusiya və Türkiyə Aİ, ABŞ və İranı kənara çəkərək Cənubi Qafqazda aparıcı təsirlərini gücləndirib və ikitərəfli əlaqələri gücləndirdilər. Əgər bütövlükdə regiondan danışırıqsa, o zaman Qarabağ münaqişəsinin yekun həllini sürətləndirən üçtərəfli memorandum altı ölkə üçün qarşılıqlı faydalı ticarət, investisiya və iqtisadi əlaqələr qurmaq üçün unikal şanslar yaradır.

ƏDƏBİYYAT

1. Bayramov, V. Azərbaycan Ordusu 44 günlük müharibədə tarixi Qələbə əldə etdi // Xalq.- 2020. 11 noyabr. - s.4
2. Bayramov, V. Tarixi ədalətin bərpası qürur doğurur // Xalq. - 2021. 22 oktyabr. - s.2.
3. Əliyev, Adil. 30 illik mifi dağıdan 44 günlük savaş // Səs. 2020. 16 noyabr - s.2.
4. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 111-ci kitab. mart 2021 - may 2021. Bakı: Azərnəşr, 2021. - 392 s.
5. Məcidov, Səyyad. 44 günlük müharibənin beynəlxalq hüquqi nəticələri // http://aggression.az/?p=1046
6. Muğanlı, Nurəddin. 44 günlük müharibə və tarixi qələbə // İki sahil. 2021. 8 yanvar. - s.5.
7. Армения и Азербайджан спустя год после Второй Карабахской войны https://www.trtrussian.com/mnenie/armeniya-i-azerbajdzhan-spustya-god-posle-vtoroj-karabahskoj-vojny-7078289рой Карабахской войны

SUMMARY

ON THE MAIN RESULTS OF THE 44 DAY PATRIOTIC WAR

Bakshaliyev F.E.

During the 44-day war, the Azerbaijan National Army liberated all the occupied territories. A year after the ceasefire, the conflict between Armenia and Azerbaijan culminates, of course, in the political status of Karabakh. Ilham Aliyev has repeatedly stated officially that the status issue is closed. However, the Armenian population of the region is guaranteed the same rights and privileges as the Azerbaijanis.

On the eve of the war, during and after the war, Russian-Turkish relations entered a new qualitative stage.

Keywords: *war, victory, statement, Karabakh, corridor, ceasefire, peacekeepers*

РЕЗЮМЕ

ОБ ОСНОВНЫХ ИТОГАХ 44 ДНЕВНОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ

Бахшалиев Ф.Э.

В ходе 44-дневной войны Азербайджанская национальная армия освободила все оккупированные территории. Через год после прекращения огня кульминацией конфликта между Арменией и Азербайджаном является, конечно же, политический статус Карабаха. Ильхам Алиев неоднократно официально заявлял, что вопрос о статусе закрыт. Однако армянскому населению региона гарантируются те же права и привилегии, что и азербайджанцам.

Накануне войны, во время и после войны российско-турецкие отношения вступили в новый качественный этап.

Ключевые слова: *война, победа, заявление, Карабах, коридор, прекращение огня, миротворец*

CƏNUBİ QAFQAZ ZƏFƏR MÜHARİBƏSİNDƏN SONRA

Baxşəliyev S.F.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
baxshaliev81@mail.ru

Açar sözlər: *Qarabağ, müharibə, Türkiyə, Rusiya, sülh, danışıqlar, status-kvo*

2020-ci ilin payızında Dağlıq Qarabağda 44 günlük müharibənin başlamasından bir il sonra Ermənistan və Azərbaycan anım tədbirləri keçirir və bununla bağlı hesabatlar verilir. Rəsmi məlumatlara görə, Bakının 2900-dən çox, İrəvanın isə 3700-dən çox döyüş itkisi olmuşdur [6, s.26]. Bununla belə, nəticələr çoxsaylı qurbanlarla məhdudlaşmır. Belə ki, münaqişə Cənubi Qafqazda güclərin geosiyasi balansını nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Bölgənin il ərzində necə dəyişdiyi və bundan sonra hansı hadisələrin gözlənilə biləcəyi bu gün çoxlarını düşündürür.

Beləliklə, 2020-ci il sentyabrın 27-də Dağlıq Qarabağda Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında intensiv döyüşlər başladı [1, s.4]. İlk günlərin nəticələrinə görə, bu qarşıdurma 1994-cü ilin mayında əldə edilmiş atəşkəs rejiminin birinci dəfə ən böyük pozulması demək idi. Ay yarım davam edən döyüşlər iyirmi altı il mövcud olan hərbi-siyasi status-kvonu alt-üst etdi.

Azərbaycanda 2020-ci ilin payız hadisələri haqlı olaraq "Vətən Müharibəsinin 44 günlük ikinci mərhələsi" adlandırılmağa başladı. Ermənistanda isə tam anlaşılmaz olan "İkinci Arsax müharibəsi" ifadəsi işlədilirdi. Bununla belə, Qarabağda keçən ilkin hərbi əməliyyatlara istinad etmək üçün hansı təriflərdən istifadə olunmasından asılı olmayaraq, bir şey aydındır: Cənubi Qafqazda vəziyyət indiki halda xeyli dəyişmişdir. Eyni zamanda, əvvəlki gündəmin bəzi elementləri tam aradan qalxmamışdır. Bu gün Ermənistan - Azərbaycan hərbi qarşıdurmasının növbəti mərhələsindən bir il sonra iki qonşu ölkənin sülhə yaxınlaşıb-yaxınmadığını, yoxsa söhbətin yalnız yeni barışıqdan getdiyini adekvat şəkildə anlamaq vacibdir.

Sentyabr toqquşması: səbəbləri və ilkin şərtləri. "Qaynar sentyabr 2020" əslində, gözlənilən hadisə idi, yoxsa köhnə etno-siyasi münaqişənin həllində iştirak edən və onun dinamikasını izləyən siyasətçiləri və ekspertləri təəccübləndirdi? Yəqin ki, növbəti Ermənistan-Azərbaycan eskalasiyasını geosiyasi sürpriz adlandırmaq düzgün olmazdı. Sentyabr hadisələrindən əvvəl Qarabağda Ermənistan-Azərbaycan sərhədində ("təmas xəttindən" təqribən 200 km aralıda) vəziyyət gərginləşdi. Qafqaz üzrə britaniyalı mütəxəssis Lourens Broersin haqlı fikrinə görə, "2020-ci ilin iyul ayında Ermənistan-Azərbaycan beynəlxalq sərhədi ərazisində baş vermiş toqquşmalar nəticəsində bir neçə nəfər mülki şəxs də daxil olmaqla on səkkiz nəfər həlak olub [5, s.12].

Məhz bu döyüşlər 2017-ci ilin sonundan qüvvədə olan və bir il sonra Düşənbədə prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan tərəfindən təsdiq edilmiş de-fakto atəşkəsə son qoydu" [7].

2016-cı ilin aprelində baş vermiş "dördgünlük müharibə"dən fərqli olaraq, vəziyyətin gərginləşməsinin beşinci günündə aktiv şəkildə diplomatik sahəyə qayıtmağa başlanıldığı halda, keçən yay bu, baş vermədi. Bundan başqa, Azərbaycanın uzunmüddət xarici işlər naziri olmuş, Bakının Qarabağ üzrə əsas danışıqlar aparanlarından biri olan Elmar Məmmədyarov da istefa verdi. Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişi ilə o, yəqin ki, sülh prosesinin perspektivlərinə optimist yanaşmanın simvolu oldu.

Mənşəyi və karyerası baxımından Dağlıq Qarabağla bağlı olmayan, üstəlik, Robert Köçəryan və Serj Sarkisyanın ardıcıl rəqibi olan Paşinyanın Bakı ilə dialoqda İrəvanın mövqeyini yumşaldacağına ümidlər var idi. Amma praktikada bunun tam əksi baş verdi. Qarabağ məsələsi ilə bağlı kifayət qədər diplomatik təcrübəyə və praktiki biliyə malik olmayan, eləcə də Ermənistan vətəndaşlarına yeni baş nazirin vətənpərvərliyi baxımından sələflərindən geri qalmadığını sübut etməyə çalışan N.Paşinyan məsələni kəskin şəkildə qaldırdı. Onun tanınmamış Dağlıq Qarabağ Respublikasının nümayəndələrini danışıqlar prosesinə cəlb edilsin tələbləri və ya "Arsax Ermənistandır, nöqtə" bəyanatı? Bu cür demarşlar yalnız Bakıdakının mövqelərini gücləndirirdi.

Bu yerdə ötən ilin "payız müharibəsi"nin ilkin şərtlərinin təhlilini təkcə iyul hadisələri ilə məhdudlaşdırmaq düzgün olmazdı. İyirmi altı ildir mövcud olan status-kvo Azərbaycanı qane etmirdi. Danışıqlar çıxılmaz vəziyyətə düşərsə, münaqişənin hərbi yolla həlli imkanları ilə bağlı bu ölkənin birinci şəxslərinin saysız-hesabsız bəyanatları var. 2019-2020-ci illərdə onlar, əslində, yarı dondurulmuş vəziyyətdə idilər.

Buna Türkiyənin həm hərbi, həm də diplomatik sahədə kəskin fəallaşmasını əlavə etsək yerinə düşər. Bir çox ekspertlərin fikrincə, "Türkiyənin Suriya, Liviya, Şərqi Aralıq dənizi regionu və Kipr ətrafında aktivləşməsi, Aİ-dən uzaqlaşması, NATO ilə fikir ayrılıqlarının artması, Dağlıq Qarabağ münaqişəsinə cəlb olunması onun "ümumi xarici siyasət xəttidir" kontekstində məntiqi davam deməkdir. "Payız müharibəsi"ndən cəmi beş gün əvvəl Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxış edərkən açıq şəkildə Ermənistanı "Cənubi Qafqazda uzunmüddətli sülhün qarşısında duran əsas maneə" adlandırması heç də adi bəyanat demək deyildi [7].

2020-ci ilin payızında sülh prosesində iştirak edən bütün aparıcı xarici oyunçular (Minsk qrupunun həmsədrləri) diqqəti başqa sahələrə yönəldirdilər. Rusiya üçün Belarusdakı daxili siyasi böhran təhlükəli çağırışa çevrilmişdi. Pandemiyanın fonunda və transatlantik münasibətlərdə qeyri-müəyyənliklərlə eyni vaxtda ABŞ üçün bir nömrəli problem Ağ Evin sahibi kreslosu uğrunda mübarizə, Fransa üçün isə Avropa İttifaqında liderlik məsələsi idi. Nəticədə "Qarabağ cəbhəsi" lazımi nəzarətsiz qalmışdı. Beləliklə, "hərbi toqquşma" həm gözlənilən idi və həm də gözlənilmirdi. Bununla belə, hərbi əməliyyatlar başa çatdıqdan sonra baş verən dəyişikliklərin miqyası bir çoxları, o cümlədən münaqişə tərəflərinin özləri üçün də gözlənilməz oldu.

Müharibədən sonra: yeni status-kvo. "Payız müharibəsi" hadisələrini təkrarlamaq praktiki məna kəsb etmir, lakin müharibənin ən mühüm nəticələri qeyd olunmalıdır. 2020-ci ilin "qaynar payızı" keçmiş "qazanan-uduzan" müxalifəti alt-üst etdi. Ən əsası isə Azərbaycan revansa nail oldu.

2020-ci ilin noyabrına qədər Bakı öz ərazisinin təxminən 13%-nə nəzarət etmirdi. Lakin bəhs etdiyimiz hərbi kampaniyasının sonunda keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə bitişik yeddi rayon (Ermənistanda onları "təhlükəsizlik kəməri" adlandırırdılar) onun nəzarətinə keçdi. Azərbaycan Milli Ordusu, həmçinin oyuncaq DQR-in bəzi ərazilərini (regionun ikinci böyük şəhəri Şuşanın, həmçinin Hadrut, Ağdərə və Xocavənd rayonlarının bir hissəsi) ələ keçirdi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, işğalçıları əzəli torpaqlarından qovdu və beləliklə, tarixi ədaləti bərpa etdi [2, s.247]. Üstəlik, bundan sonra Azərbaycan tərəfi müntəzəm olaraq Ermənistan ərazisinə (Cənub Sünik və Qeqarkunik rayonları) nəzarət etməyə, vaxtaşırı nəqliyyat və iqtisadi kommunikasiyalara tamamilə yaxınlaşmağa nail dular, Ermənistan hakimiyyətinin mövqlərinə hərbi-siyasi təzyiqlər göstərmək imkanı qazandılar.

Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası və delimitasiyası məsələsi gündəmə gəlməsi isə indi vəziyyətinn tam dəyişdiyindən xəbər verirdi.

İndiki vəziyyətdə Qarabağ münaqişənin episentri olmaqdan çıxsa da, lakin iki Cənubi Qafqaz dövləti arasında qarşıdurma heç yerə getməmiş, sadəcə onun formatları dəyişmişdir.

2020-ci ilin payızına qədər özünü Qafqaz regionunun hərbi cəhətdən ən güclü dövləti kimi göstərən Ermənistan bu müharibədə məğlub oldu və onun imicinə ağır zərbə dəydi. İndi onun xarici oyunçulardan (o cümlədən Azərbaycan və Türkiyə) asılılığı ölçüyəgəlməz dərəcədə artmışdır desk, bu çətin ki, mübahisə doğurar.

Azərbaycan müharibənin gedişində öz hərbi vəzifələrini həll etdikdən sonra geri qaytarılan ərazilərin sosial-iqtisadi bərpasına başlamışdır. 2021-ci il 6 sentyabr tarixində Bakıdan ilk sınaq uçuşları Füzulidə yeni inşa edilən beynəlxalq hava limanı tərəfindən qəbul edilməsi olduqca əlamətdar hadisə idi. Bu obyekt rekord müddətdə, bir ildən az müddətdə tikilmişdir. Zəngəlan və Laçın rayonlarında daha iki hava limanının tikintisi nəzərdə tutulur. 2021-ci il iyunun 15-də Şuşada, Qarabağ ərazisində Azərbaycan və Türkiyə prezidentlərinin müttəfiqlik münasibətləri haqqında ikitərəfli bəyannamə imzalaması, iki ölkənin strateji əməkdaşlığını yeni səviyyəyə qaldırması simvolik xarakter daşıyır [3, s.295].

Eyni zamanda, Azərbaycanın tam öz məqsədlərinə çatdığını demək də tezdir. Əvvəla, ermənilərin qondarma "DQR" ilə bağlı söz-söhbətlər tam aradan qalxmamışdır. Ərazi baxımından kəsilmiş formada tanınmamış respublikanın infrastrukturu hələ də mövcuddur. Rusiya sülhməramlılarının nəzarət zonasında olan ərazilərdə Azərbaycan ordusu, polisi, inzibati strukturları yoxdur, vergi gəlirləri xəzinəyə daxil olmur, təhsil proqramları

Ermənistanın dərslikləri və təhsil standartları əsasında həyata keçirilir. Orada Ermənistanın ödəniş sistemi və hətta hərbi birləşmələri fəaliyyət göstərir. Azərbaycanın rəsmi açıqlamalarına görə, erməni silahlı quldur dəstələrinin tam silahsızlaşdırılması baş tutmamışdır.

2020-ci ilin noyabrından Rusiya sülhməramlıları Azərbaycan ərazisinə yerləşdirilmişdir. Əvvəllər onlar, eləcə də digər sülhməramlı kontingentlər orada yox idi. Bundan əlavə, 2020-ci il müharibəsi Azərbaycanla Türkiyənin yaxınlaşmasını daha da artırdı. Məhz Türkiyə ilə durmadan artan həmrəylik və dostluq Azərbaycanın erməni qüvvələrini darmadağın etməyə kömək etdi. Hazırda Ankara Bakının Şimali Kipr Türk Cümhuriyyətinin tanınmasına nail olmağa, ümumilikdə Pakistanla Yaxın Şərqdə, xüsusi ilə də Əfqanıstan istiqamətlərində əməkdaşlığın genişləndirməsinə çalışır.

Ermənistan bu gün faktiki olaraq maksimalist istəklərindən əl çəkməli olmuşdur. İndiki şəraitdə İrəvan "təhlükəsizlik kəməri"nin qaytarılması üçün təkbaşına mübarizə apara bilməz və bunun üçün nə strateji müttəfiqi olan Rusiyadan, nə də Qərbdən kənar dəstək ala bilməyəcək. Eyni zamanda, Ermənistan iki fundamental vəzifəni həll etməyə çalışır: Dağlıq Qarabağın statusu məsələsini danışıqların gündəliyində saxlamaq və Azərbaycanla dövlət sərhədinin tam demarkasiyasına nail olmaq. Əslində, ATƏT-in Minsk Qrupunun həmsədrləri (Rusiya, ABŞ və Fransa) da bunun tərəfdarıdır, baxmayaraq ki, Paris status məsələsini ən aydın şəkildə ifadə edir. Moskva üçün sərhədin delimitasiyası və demarkasiyası probleminin həlli, nəqliyyat kommunikasiyalarının bərpası daha vacibdir.

Rusiyanın xüsusi rolu. Bəs 2020-ci ilə qədər faktiki olaraq Bakı ilə İrəvan arasında əsas vasitəçi olan ölkə olan Rusiyanın mövqeyi necədir? Moskvanın bu funksiyası həm münaqişə tərəflərinin özləri, həm də ATƏT-in Minsk qrupunun həmsədrliyindəki tərəfdaşları tərəfindən qəbul edilmişdir.

Əgər biz birtərəfli qiymətləndirmələrdən və yanaşmalardan uzaqlaşsaq deyə bilərik ki, o zaman Rusiya üçün sentyabr müharibəsi onun Qafqaz regional gündəminin əhəmiyyətli dərəcədə mürəkkəbləşməsi ilə yadda qaldı. 2020-ci ilə qədər o, Qafqaz regionunda əsas amil idi, halbuki Qərb üçün Rusiyanın Qarabağ istiqamətində siyasəti heç bir şəkildə "revizionizm"lə (Moskva Abxaziya, Cənubi Osetiya və Krımdakı hərəkətlərinə görə qınanırdı) bağlı deyildi. Ancaq 2020-ci ilin noyabrında hər şey dəyişdi.

Birincisi, Türkiyə bölgədə mövqelərini gücləndirdi. O özünü müstəqil aktyor kimi göstərdi, hərəkətlərini heç kimlə nizamlamağa meylli deyildi. NATO-nun üzvü olan Türkiyə Qafqazda daxil olduğu bəzi blokla bağlı məqsəd və vəzifələrini deyil, özünün milli maraqlarını dərk edərək, özünü təmin edən oyunçu kimi davranırdı. İkincisi, Azərbaycan Rusiyanın razılığı olmadan status-kvonu təkbaşına pozdu. Üçüncüsü, Moskvanın strateji müttəfiqi olan Ermənistan əzildi və alçaldıcı güzəştlərə getməyə məcbur oldu. Qərbin tanınmış beynəlxalq politoloqlarının fikrincə, 2020-ci il müharibəsi müəyyən dərəcədə Rusiyanın regiondakı "nüfuzuna zərbə" oldu.

Eyni zamanda, münaqişə zonasında müstəsna olaraq öz sülhməramlılarını yerləşdirən və həm də Türkiyənin birgə əməliyyatda iştirakına imkan verməyən də Moskva idi. 2020-ci il münaqişəsi də Qərblə əlavə qarşıdurmalara səbəb olmadı. Üstəlik, ATƏT-in Minsk qrupunun iki həmsədri (ABŞ və Fransa) faktiki olaraq həm Rusiyanın Qarabağdakı missiyası, həm də Moskvanın müharibədən sonrakı sülh nizamlanmasında xüsusi rolu ilə razılaşdılar. Əks halda Minsk Qrupunun özünün legitimliyi sual altında olardı.

Beləliklə, Moskva müəyyən dərəcədə Qafqazda geosiyasi liderlik inhisarını itirmiş oldu. İndiki vəziyyətdə daha çox Türkiyənin maraqları və fikri nəzərə alınmaqdadır.

Eyni zamanda, Qarabağ ətrafında vəziyyət Suriya ilə də bağlı ola bilər. Burada Moskva və Ankara tam eyni mövqelərə malik olmasa da, bir-biri ilə qarşılıqlı əlaqədə olmaq məcburiyyətində qalmışlar. Rusiyanın isə Ankaranın Qafqazdakı mövqelərinə təzyiq etmək üçün Suriya resurslarından istifadə etmək imkanı var. Bununla belə, oxşar alqoritmin yalnız Türkiyə tərəfindən Rusiyaya tətbiqi imkanı var.

Buna baxmayaraq, hər iki münaqişə tərəfi - Ermənistan və Azərbaycan bu gün də Moskvanın qarşıdurmanın nizamlanmasında xüsusi rolunu qəbul edir. Bu günə qədər yalnız iki sənəd (Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli birgə bəyanatları) müharibədən sonrakı status-kvonun konturlarını müəyyən edir və hər iki halda Moskva eksklüziv olaraq münaqişənin həllində iştirak edir. Digər tərəfdən, onların həyata keçirilməsi prosesində nə Qərbin, nə də Türkiyənin geniş imkanı yoxdur.

Görünən odur ki, bu gün Azərbaycan Ermənistanın siyasi gündəliyini müəyyən dərəcədə, formalaşdırır və bu həqiqətdir [4, s.165].

Bu gün Moskva Bakı və İrəvanı sülh prosesinə cəlb etmək üçün qeyri-siyasi (praqmatik) bir yol kimi nəqliyyat kommunikasiyalarının açılmasına dəvət edir. Rusiya Qarabağın statusu ilə bağlı sualları pedal çevirmir, eyni zamanda Kreml onu göstərir ki, onun güclü və sürətləndirilmiş həllində maraqlı deyil. Rusiyanın yüksək səviyyəli rəsmilərinin bəyanatlarına görə, status problemi gələcəkdə qarşılıqlı faydalı və kompromis əsasında həll oluna bilər.

ƏDƏBİYYAT

1. Bayramov, V. Azərbaycan Ordusu 44 günlük müharibədə tarixi Qələbə əldə etdi // Xalq. - 2020. 11 noyabr. - s.4.
2. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. - 110-cu kitab. fevral 2021 - mart 2021. Bakı: Azərnəşr, 2021. - 392 s.
3. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 112-ci kitab. may 2021 - iyun 2021. Bakı: Azərnəşr, 2021. - 392 s.
4. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. - 113-cü kitab. iyun 2021 - avqust 2021. Bakı: Azərnəşr, 2021.- 392 s.
5. Qarabağ Azərbaycandır! / hazırl. K.Əliyev; baş red. H.Məmmədov. - Bakı: Azərbaycan Respublikasının Baş Prokurorluğu, 2021.- 591 s.
6. *Zəfər salnaməsinin 44 günü - Bakı*: *Maarif, 2021*.- *318* s.
7. Маркедонов, Сергей. Нагорный Карабах год спустя: как изменилась геополитика Закавказья. https://eurasia.expert/nagornyy-karabakh-god-spustya/

SUMMARY

SOUTHERN CAUCASUS AFTER THE VICTORY

Bakshaliyev S.F.

Armenia, which until the fall of 2020 turned out to be the most militarily strong state in the Caucasus region, was defeated in this war, and its image was severely undermined. For Russia, the September war was marked by the complication of its Caucasian regional agenda. Armenia, a strategic ally of Moscow, was crushed and forced to make humiliating concessions. According to well-known Western international political scientists, the 2020 war dealt a blow to Russia's "reputation" in the region. According to high-ranking Russian officials, the status issue can be resolved in the future on the basis of mutual benefit and compromise.

Keywords: *Karabakh, war, Turkey, Russia, peace, negotiations, status kvo*

РЕЗЮМЕ

ЮЖНЫЙ КАВКАЗ ПОСЛЕ ПОБЕДЫ

Бахшалиев С.Ф.

Армения, которая до осени 2020 года оказалась самым сильным в военном отношении государством Кавказского региона, потерпела поражение в этой войне, и ее имидж был сильно подорван. Для России сентябрьская война ознаменовалась усложнением ее кавказской региональной повестки. Армения, стратегический союзник Москвы, была раздавлена и вынуждена пойти на унизительные уступки. По мнению известных западных международных политологов, война 2020 года нанесла удар по «репутации» России в регионе. По мнению высокопоставленных российских чиновников, вопрос о статусе может быть решен в будущем на основе взаимной выгоды и компромисса.

Ключевые слова: *Карабах, война, Турция, Россия, мир, переговоры, статусквo*

HEYDƏR ƏLIYEVİN DAĞLIQ QARABAĞ KONSEPSİYASI

Balayev A.

Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan

ali.balayev.66@mail.ru

Açar sözlər: *H.Əliyev, Dağlıq Qarabağ, konsepsiya, münaqişə, diplomatiya, ərazi bütövlüyü, suverenlik*

1993-cü ildən başlayaraq Ulu öndər Heydər Əliyevin siyasətində Qarabağ məsələsi daima ilk sıralarda olmuşdur. Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən siyasət Qarabağ məsələsində uğurlar gətirməyə

başladı. Bunun nəticələrindən biri kimi, real vəziyyətlə tanış olan ATƏM-in təmsilçisi işğalçılıq fəaliyyətinin genişlənməsinə qarşı çıxaraq Ermənistana bəyanat verdi. Bəyanata məhəl qoyulmasa da, sonra yaradılmış Minsk qrupuna daxil olan ölkələrdə, o cümlədən Almaniya, ABŞ, Belarus, Fransa, İtaliya, Rusiya, İsveç, Çexiya, Türkiyə dövlətlərində mövcud məsələyə dair obyektiv fikir formalaşdı, münaqişə haqqında əsl həqiqətin öz yerini tutmasında irəliləyiş hiss olundu.

Budapeşt sammitində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dünyanın bir çox bölgələrində "baş vermiş münaqişələrin həllində ayrı-ayrı dövlətlərin inhisarçılıq siyasətini tənqid edərək ATƏT-in səlahiyyətlərinin güclənməsinə nail olmuşdur" [1].

1993-ci ilin iyulunda Heydər Əliyev bütün rəsmi görüşlərdə, habelə ATƏT-in həmsədrləri ilə keçirdiyi görüşlərdə özünün Dağlıq Qarabağ konsepsiyasını prioritet məsələ kimi ortaya qoyurdu. Lakin ATƏM -in fəaliyyətsizliyinin problemin həllinə ciddi zərbə vurduğunu qeyd edən, ABŞ, Rusiya, Türkiyənin üzərlərinə götürdükləri missiyanı yerinə yetirmələrinin zəruriliyini diqqətə çatdıran, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasına müraciət edən Ulu Öndər demişdir:"Şəxsən mən bilavasitə Ermənistan Respublikasının rəhbərləri ilə, Rusiyanın xüsusi tapşırıqlar üzrə səfiri V. Kazimirovla, ABŞ və Türkiyənin Azərbaycandakı səfirləri ilə telefon danışıqları aparmışam, təcavüzün dərhal dayandırılmasını xahiş etmişəm, məsələnin asudə, sülh yolu ilə həllinə dəvət etmişəm. Təəssüf ki, bunlar nəticə verməyibdir"[4,19]

Lissabon Zirvə görüşündə Heydər Əliyevin qətiyyətli mövqeyi və dərin siyasi təcrübəsi sayəsində ATƏT-in üzvü olan 54 ölkədən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həllinə dair qəbul edilmiş Bəyanatında Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədi.

Lissabon sammitindən sonra Minsk qrupunun işini gücləndirmək üçün ona üç nüfuzlu dövlət – ABŞ, Rusiya və Fransa həmsədrlik etməyə başladı. "Beləliklə, Heydər Əliyev ərazilərində millətlərarası qarşıdurma yaranan heç bir dövlət başçısının bacarmadığını bacardı - danışıqlar prosesinə dünyanın aparıcı siyasi gücə malik olan dövlətlərin liderlərinin cəlb olunmasına nail oldu. Azərbaycan xalqının sədaqətli oğlu Heydər Əliyevin siyasi mübarizəsinəticəsində Lissabon sammitinin sənədlərində ilk dəfə yazıldı ki, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyütanınsın, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilsin və DağlıqQarabağın əhalisinin - həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyi təmin edilsin. Bu, öncəErmənistanla Azərbaycan arasında gedən informasiya müharibəsində kəskin dönüş, daha sonra, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi reallığının dünya ictimaiyyəti tərəfindən yekdilliklə qəbul edilməsi kimi qiymətləndirilməlidir."[12]

Heydər Əliyvin xarici siyasət konsepsiyasında əsas yeri Ermənistan-Azərbaycan münaqişəsi məsələsi tuturdu: "Ermənistan-Azərbaycan münaqişəsi,мясяеляси tuturdu. Ulu Öndər xarici dövlətlərlə apardığı bütün данышыгларда "Ermənistan-Azərbaycan münaqişəsi, Ermənistanın Azərbaycana təcavüz etməsi, torpaqlarımızın işğal edilməsi, bir milyondan artıq qaçqının olması və bizə qarşı ədalətsiz qərarların qəbul olunması haqqında məlumatlar"(5,12) verirdi. "Danışıqlarda həmişə bu məsələni diqqət mərkəzinə gətirmişəm. Ona görə ki, hər bir dövlətdə ölkəmizin vəziyyəti haqqında doğru-düzgün təsəvvür yaratmalıyıq və bunlar da öz nəticəsini verir. Çünki bir çox hallarda görürsən ki, danışılan bu şeylərin hamısını bilmirlər, xəbərləri yoxdur. Bilsələr də, tərsinə, yəni ermənilərin təbliğatı əsasında bilirlər. Ona görə də bu məsələ bizim xarici siyasətimizdə əsas yer tutur."(5,12) H.Əliyev 1994-cü ildə Budapeştdə ATƏT-in zirvə görüşündə uğur əldə edildiyini qeyd etməklə demişdir:"1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsi baş verəndən indiyə qədər ilk dəfə belə bir uğurlu nailiyyət əldə edə bildik ki, münaqişənin sülh yolu ilə həll olunması üçün prinsiplər müəyyən edildi və indi o prinsiplər aparılan bütün danışıqların əsasını təşkil edir.1993-94-cü illərdəki vəziyyətdən 1996-cı ilin dekabrına, Lissabon zirvə görüşünə qədər gələn yol çox ağır və çətin olmuşdur. Amma görürsünüz ki, biz bu müddətdə hansı səviyyədən hansı səviyyəyə gəlib çata bilmişik. Bir Lissabon zirvə görüşü deyil, bütün beynəlxalq təşkilatlarda öz mövqelərimizi açıq, aydın, cəsarətli, çox arqumentli, əsaslı olaraq bildiririk. Hesab edirəm ki, bütün bunlar özünün müsbət təsirini göstərir".(5,12)

Azərbaycanın mənafeyinə uyğun gəlməyən bəzi müddəaların mövcud olmasına baxmayaraq Azərbaycan tərəfi 1997-ci il oktyabrın 1-də Dağlıq Qarabağ münaqişəsinin "mərhələli həlli" təklifinin danışıqlara başlamaq üçün ilkin addım olduğunu qəbul edərək razılığını bildirdi.

1997-ci ilin iyun ayından başlayaraq ATƏT-in Minsk Qrupunun həmsədrləri məhz Lissabon prinsiplərinəəsaslanaraq iki hissədən ibarət təklif irəli sürdülər. Birinci təklif münaqişənin "paket" həllini nəzərdə tuturdu, yəni Dağlıq Qarabağın statusunun müəyyən edilməsini,ikinci təklif isə münaqişənin "mərhələli həll" təklifi idi. O zamanlar Azərbaycan Prezidenti olan Heydər Əliyev həmin planlarla tam razı olmasa da hər iki təklifini qəbul etmişdi. Ermənistan Prezidenti Levon Ter-Petrosyan isə ikinci təkliflə razılaşdı. Sonralar Heydər Əliyev bu barədə demişdir: "Biz bunu qəbul etdik. Ədalətnaminə deməliyəm ki, Ermənistanın o zamankı Prezidenti Levon Ter-Petrosyan buna müsbət reaksiya göstərdi.Oktyabr ayında Strasburqda olduğumuz zaman da rəsmi olaraq bu təklifi prinsipcə qəbul etdiyimizə dair ortaqbir bəyanat

verdik". (13)Lakin Ermənistanda Levon Ter-Petrosyan 1998-ci ilin fevral ayında istefa verməli oldu. 1998-ci il noyabrın 9-da həmsədrlər Azərbaycanın milli maraqlarına zidd olan "ümumi dövlət" təklifini irəli sürdülər. Heydər Əliyev çıxışlarının birində bu barədə demişdir: "Onların nümayəndəsi buraya bir neçədəfə gəldi, amma dedim ki, bunu qəbul edə bilmərik. Sonra Amerika Konqresində danışmağa başladılar ki, niyə Azərbaycan Minsk Qrupunun təkliflərini qəbul etmir, Ermənistan qəbul edir? Ermənistan Minsk Qrupunun təklifiniqəbul etmədikdə nədənsə bir nəfər də qalxıb demədi: Ermənistan niyə bunu etmir? Azərbaycan yalnız bir dəfətəklifi qəbul etmədikdə, bizim başımıza nələr gəlmədi". (13).Lakin Ulu Öndər bütün təzyiqlərə əzmkarlıqla sinə gərməyi bacardı.

1999-cu il ərzində Azərbaycan və Ermənistan prezidentləri bir neçə dəfə görüşüb məsələnin nizamlanması istiqamətində xeyli işlər gördülər və bəzi məsələlərdə razılığa gəldilər. Lakin H.Əliyevin və ABŞ hökumətinin nümayəndələrinin də səylərinə baxmayaraq məsələnin həlli mümkün olmadı. H.Əliyevin keçirdiyi çoxsaylı görüşlər, ABŞ-ın dövlət katibi xanım Olbraytla görüşü çox əhəmiyyətlidir və demək olar ki, Dağlıq Qarabağ məsələsinin həll olunmasına ciddi təsir etdi. H.Əliyev bu prosesə Amerika Birləşmiş Ştatlarının hökuməti və Dövlət Departamentinin qoşulmasını danışıqlar prosesinin daha da uğurlu keçməsinə kömək edə bilən bir vasitə hesab edirdi. Lakin Ulu Öndər həmsədrlərin problemin həllinə lazımi təsir göstərmədiklərindən narazı idi. "Rusiyanın, ABŞ-ın, Fransanın simasında ATƏT-in Minsk qrupunun rəhbərlərinə bəslədiyimiz ümidlər hələlik gözlənilən nəticələri vermir. 1999-cu ilin aprelindən Vaşinqtonda ABŞ hökumətinin təşəbbüsü ilə Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa görüşlər başlanıbdır. Ötən dövr ərzində biz prezident Köçəryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, habelə respublikalarımızın sərhədində çoxsaylı görüşlər keçirmişik. Ermənistan prezidenti ilə dialoqumuz zamanı biz əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı sürətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşuq. Qeyd etmək istəyirəm ki, 1999-cu ilin axırlarında biz kompromis əldə edilməsinə yaxın idik. Lakin tezliklə Ermənistan əldə olunmuş razılaşmalardan geri çəkildi. Çətin danışıqlar gedişində Ermənistan tərəfi həmişə sərt qeyri-konstruktiv mövqe tutmuşdur və bu gün də bu mövqedə qalır."(6,137) H.Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərin passiv gözləmə mövqeyini kəskin tənqid edir:"Biz isə hesab edirik ki, prezidentlərin görüşü ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini əvəz etmir. Əksinə, bunlar bir-birini qarşılıqlı surətdə tamamlayaraq, münaqişənin qəti həlli üçün danışıqlar prosesinin irəliləyişini təmin etməlidir".[6,137]

Onu da qeyd edək ki, H.Əliyev Azərbaycanla-Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələsini dəfələrlə nüfuzlu beynəlxalq təşkilatların müzakirəsinə çıxarmışdı. Bu baxımdan H.Əliyevin BMT-nin 2000-ci ilin sentyabrında keçirilən Zirvə toplantısındakı çıxışı çox böyük maraq doğurmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev həmin çıxışında göstərmişdir ki: "BMT TŞ-nın qəbul etdiyi dörd qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxarılması tələb edilmişdir. Ancaq TŞ-nın qərarları 1993-cü ildən bu günə qədər kağız üzərində qalmaqdadır. Təcavüzlərdən, ərazi işğallarından və etnik təmizləmələrdən, qatı separatizmdən və terrorizmdən əzab çəkən dövlətlər ümidlə gözləyirlər ki, BMT ədalətli sülhün və təhlükəsizliyin bərqərar edilməsi və BMT nizamnaməsinin prinsiplərinin müdafiəsi üçün maksimum səmərəli addımlar atacaqdır" [11].

Ermənistan-Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli H.Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində mühüm mövzulardan birincisi olmuşdur. "H.Əliyev 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi məsələsini ABŞ rəhbərliyi ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə əsaslı müzakirə etmiş, müzakirələrdə problemin həll olunması üçün mümkün variantlar axtarılmışdır" [3].

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində ATƏT-in Minsk qrupu 2001-ci ilin fevralında yeni "üç variantlı layihə" hazırlayıb Azərbaycan və Ermənistan tərəflərinə təqdim etdi. "Layihənin mətni 2001-ci il fevralın 21-də ölkə mətbuatında dərc olunaraq ictimaiyyətin nəzərinə çatdırıldı" [10,]. Layihə Azərbaycan parlamentində də müzakirə olundu. Azərbaycan Respublikası Milli Məclisinin fevralın 23-də keçirilən layihənin müzakirəsinə həsr olunmuş iclasında H.Əliyev də iştirak etdi. İclasda çıxış edən Heydər Əliyev bir daha bildirdi ki, "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" adlı bu problem azərbaycanlıların öz tarixi vətənlərindən – indiki Ermənistan Respublikası ərazisindən deportasiya olunması və Ermənistan Respublikasının zor tətbiq etməklə yeni ərazilərə sahib olmaq siyasətini həyata keçirmək məqsədi Azərbaycan Respublikasına qarşı silahlı təcavüzü ilə başlanmışdır" [10]. İclasda qərara alındı ki, "Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın yalnız ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır" [9, 191].

2001-ci il aprel ayının 9-da H.Əliyevin ABŞ Prezidenti Corc Buşla görüşündə Prezidentlər Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi ətrafında geniş fikir mübadiləsi apardılar. "Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa ərazi iddiaları irəli sürən Ermənistanın 1988-ci ildən başladığı hərbi təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğu, bir milyondan çox vətəndaşımızın uzun müddət çadırlarda dözülməz şəraitdə yaşadığını xüsusi vurğulayan prezident Heydər Əliyev Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmuş torpaqlarda artıq hər şeyin dağıdıldığını, talan edildiyini, yerlə-yeksan olunduğunu söylədi. Prezident Heydər Əliyev həmsədrlərin fəaliyyətindən, son dövrlərdə Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa görüşlərindən söhbət açaraq, Ermənistanın qeyri-konstruktiv mövqe tutduğuna görə münaqişənin sülh yolu ilə həllinin hələlik mümkün olmadığını vurğuladı. Dövlətimizin başçısı Ki-Uest görüşlərinin münaqişənin sülh yolu ilə həllində mühüm addım olduğunu qeyd etdi və bu görüşlərin yeni formatda keçirilməsinin danışıqlara xüsusi xarakter verdiyini nəzərə çatdırdı". [6,142-143]

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il iyun ayının 6-7-də iştirak etdiyi Yaltaya (Ukrayna) görüşündə ATƏT-in Minsk qrupu həmsədrləri problemin həllini Azərbaycan və Ermənistan tərəflərinin öhdəsinə buraxdılar. "Görüşdən qayıdandan sonra Prezident Heydər Əliyev jurnalistlərə müsahibəsində bildirdi ki, Ermənistan-Azərbaycan Dağlıq Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün danışıqlar prosesinin gedişi haqqında ətraflı fikir mübadiləsi aparıldı. "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda, ağır vəziyyətdə yaşadığını bir daha xatırladan prezident Heydər Əliyev dedi ki, bu münaqişənin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin öz səylərini artırması çox vacibdir. Söhbət zamanı Minsk qrupu çərçivəsində aparılan danışıqların, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin davam etdirilməsinin zəruriliyi vurğulandı və bildirildi ki, münaqişənin tezliklə sülh yolu ilə həll olunması üçün bütün səylər səfərbər edilməlidir."[7,174]

2002-ci il noyabrın 4-də ATƏT-in fransalı həmsədrilə görüşündə H.Əliyev Dağlıq Qarabağ problemini Azərbaycanın birinci məsələsi hesab edirdi. "Ermənistan bizim torpaqlarımızı işğal etdiyinə görə Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəyir. Biz isə öz qədim torpaqlarımızı itirə bilmərik. Onlar işğal etdikləri torpaqları azad etmirlər. Dünyada bir ölkə yoxdur, bir beynəlxalq təşkilat yoxdur ki, bu məsələni ədalətlə müzakirə etsin, desin ki, sən günahkarsan, sənin başqa ölkənin torpağını işğal etməyə haqqın yoxdur, sən buradan çıxmalısan. Prezident kimi mənə deyirlər ki, gedin Ermənistanın prezidenti ilə danışın, razılaşın. Bunu Amerika da deyir, Rusiya da deyir, Fransa da deyir, ATƏT də deyir, Türkiyə də deyir, Avropa Birliyi də deyir. Hamısı deyir ki, onlarla razılaşın, hansı razılığı əldə etsəniz, biz də ona razı olacağıq, bu işdə sizə kömək edəcəyik. Mən razılaşa bilmirəm.Artıq bizim xalqımızda müharibə əhval-ruhiyyəsi qalxır.[8,107]

Beləliklə, 1993-cü ildən başlayaraq Qarabağ məsələsinin həlli yolunda danışıqların yeni mərhələsi başlandı. Bu istiqamətdə müdrik siyasətçi Heydər Əliyev müxtəlif istiqamətlərdə yorulmaz fəaliyyət göstərdi.Əvvəla atəşkəs rejimi həyata keçirildi .Bundan istifadə olunaraq milli ordu quruculuğuna başlandı.İqtisadiyyatı inkişaf etdirmək üçün neft müqavilələri imzalandı.Bundan sonra Qarabağ danışıqlarında Azərbaycan bir sıra üstünlüklər qazandı. Dünyanın aparıcı dövlətləri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədilər.Ölkənin müdafiə sistemi daha da gücləndi. Bu da Qarabağ danışıqlarında Azərbaycana əlavə güc verir, bütün danışıqlarda Azərbaycana özünün sərt mövqeyini ortaya qoymağa imkan yaradırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan diplomatiyasının taleyüklü böyük uğuru // "Azərbaycan" qəzeti, №238 (1002), 9 dekabr 1994, s. 1-4.
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiyaya səfəri // "Azərbaycan" qəzeti, №190(1459), 2 oktyabr 1996.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qərbi Avropa ölkələrinə səfəri. "Azərbaycan" qəzeti, №76 (1345), 23 fevral 1998
4. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Birinci kitab: iyun, 1993 – may, 1994 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1997. – 612 s.
5. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.On beşinci kitab: mart, 1998 – iyun, 1998 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 2005. – 528 s.
6. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Otuz üçüncü kitab: mart, 2001 – aprel, 1994 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 2011,– 480 s.
7. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Otuz

yeddinci kitab: noyabr, 2001 – mart, 2002 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 2011. – 525 s.
8. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Qırx ikinci kitab: oktyabr, 2002 – noyabr, 2002 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 2012. – 472 s.
9. Hüseynova İradə. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, 672 s.
10. Məsimli Ə. Qarabağın işğalının iqtisadi nəticələri // http://www.anl.az/el/q/qarabag_6/q-12.htm
11. Nyu-Yorkda minilliyin zirvə görüşündə Azərbaycan Respublikasının Prezidentin çıxışı. 2000-ci il 7 sentyabr. // https://lib.aliyevheritage.org › showmap
12.03.03.2022. Şərifova S.Qarabağ zəfəri heydər əliyev irsinin təntənəsidir //www. Geostrategiya.az/news.php?id=132
13.Из беседы Президента Азербайджанской Республики Гейдара Алиева с группой писателей ипоэтов Азербайджана. Президентский дворец, 10 ноября 1999 года. https://lib.aliyev-heritage.org/ru/4106418.html(10)

SUMMARY

HEYDAR ALIYEV'S CONCEPT OF NAGORNO-KARABAKH

Balaev A.

The article presents the concept of Nagorno-Karabakh of the national leader Heydar Aliyev, the elimination of the consequences of Armenia's military aggression against our country, and the decisive struggle to ensure our territorial integrity and sovereignty is investigated. Here, the destructive leadership of Armenia in resolving the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, Heydar Aliyev's numerous negotiations with relevant international organizations, the national leader's excessive efforts to expose the inaction of the OSCE Minsk Group Co-Chairs, and their dishonest and unfair approaches became the object of study. The author described the decisions of international organizations to resolve the conflict as a success of Heydar Aliyev's diplomacy.

Keywords: *H.Aliyev, Nagorno-Karabakh, concept, conflict, diplomacy, territorial integrity, sovereignty*

РЕЗЮМЕ

КОНЦЕПЦИЯ НАГОРНОГО КАРАБАХА ГЕЙДАРА АЛИЕВА

Балаев А.

В статье представлена концепция Нагорного Карабаха общенационального лидера Гейдара Алиева, ликвидация последствий военной агрессии Армении против нашей страны, исследована решительная борьба за обеспечение нашей территориальной целостности и суверенитета. Здесь объектом исследования стали деструктивное руководство Армении по урегулированию армяно-азербайджанского нагорно-карабахского конфликта, многочисленные переговоры Гейдара Алиева с соответствующими международными организациями, чрезмерные усилия общенационального лидера по разоблачению бездействия сопредседателей Минской группы ОБСЕ, и их нечестные и несправедливые подходы. Решения международных организаций по урегулированию конфликта автор охарактеризовал как успех дипломатии Гейдара Алиева.

Ключевые слова: *Г.Алиев, Нагорный Карабах, концепция, конфликт, дипломатия, территориальная целостность, суверенитет*

XIX ƏSRİN I YARISINDA ŞİMALİ AZƏRBAYCANDA İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ

Behbudova T.G.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
teranebehbudova@mail.ru

Açar sözlər: *Azərbaycan, Ermənistan, müharibə, kənd, əhali, mübarizə.*

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərə parçalanmış,qonşu xalqların ərazilərini ələ keçirmək uğrunda

xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla ölkə ərazisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında sinfi ziddiyətlərin güclənməsi, iqtisadi tənəzzül,Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, İran işğalçılarının viraneidici yürüşləri Azərbaycanın daxili vəziyyətini daha da gərginləşdirirdi.Rusiya imperiyası beynəlxalq münasibətlərdə yaranan imkanlardan istifadə edərək Cənubi Qafqazda fəallığını artırdı.Çar I Aleksandr 1801-ci il sentyabrın 12-də ikinci Manifest verməsi ilə şərqi Gürcüstanın Rusiyaya daxil edilməsi nəticəsində Kartli-Kaxet çarlığından asılı vəziyyətdə olan Qazax, Şəmşədil və Borçalı sultanlıqları kimi Azərbaycan torpaqları da Rusiya imperiyasına qatıldı. Beləliklə, Rusiya imperiyası tərəfindən Azərbaycan torpaqlarının işğalı başladı. Bu proses 1828-ci il Türkmənçay müqaviləsinədək davam etdi.1801 -1828-ci illər ərzində Rusiyadan asılı olan Azərbaycan torpaqları şərti olaraq Şimali Azərbaycan adlandırılır. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq rus elminə məlum idi və qızılboya, yun, ipək, pambıq, tütün, yanacaq və s. Rusiya sənayesinin xammal və yanacaqla təmin edə bilərdi. Rusiya imperiyası şərqdə, o cümlədən Azərbaycanda işğalçılıq planlarının həyata keçirilməsində və burada möhkəmlənməsində ermənilərə böyük rol ayırmışdı.Ermənilər də Rusiyadan istifadə etməklə müəyyən siyasi məqsədlərə nail olmaq istəyirdilər. Bütün bunlar ermənilərin Rusiyaya köçürülməsi və burada erməni koloniyalarının yaradılması başlanır. Bu işdə I Pyotrun (1682-1725) erməni xalqına fərmanı (1724, 10 noyabr) böyük rol oynadı. Həmin fərmana görə Rusiyanın işğal etdiyi torpaqlara ermənilərin köçürülməsi və məskun olması üçün yerlər ayrıldı. I Pyotrun siyasi xətti onun varisləri, xüsusilə II Yekaterina (1762-1796) tərəfindən davam etdirildi. 1801-ci il manifestlərində də Rusiyanın planında ermənilərin rolu əksini tapırdı.Sovet dövlətinin xalqlar arasında münaqişə ocaqlarını saxlamaq siyasəti çar Rusiyasının uzun illər yeritdiyi müstəmləkə siyasətinin davamı idi.Münaqişə ocaqlarından ən ziddiyyətlisi Şimali Azərbaycanın Dağlıq Qarabağ bölgəsində idi. XIX əsrdə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının nəticələrindən biridə ermənilərin kütləvi şəkildə Şimali və Qərbi Azərbaycanın İrəvan,Naxçıvan, Qarabağ və.b. bölgələrinə köçürülməsi oldu.Bununlada Şimali Azərbaycanın bu günkü bəlalarının bünövrəsi çar Rusiyasının əli ilə qoyuldu. Çar Rusiyası tərəfindan ermənilərin XIX əsrin əvvəlində şimali Azərbaycan torpaqlarına köçürülməsində iki mərhələ ayrımaq olar: 1801-1828-ci il Türkmənçay müqaviləsinədək olan dövr və Türkmənçay müqaviləsindən sonrakı ilk illər. Türkmənçay müqaviləsinin bağlanmasından sonra Rusiya tərəfindən ermənilərin şimali Azərbaycan torpaqlarına köçürülməsinin yeni mərhələsi başlandı. Ermənilərin köçürülməsini təşkil etmək üçün İrəvan və Naxçıvanda köçürmə komitələri yaradıldı. Köçkünlərə mühüm imtiyazlar verildi: onlar 6 il müddətində vergi və imtiyazlardan azad edildi, ermənilərə İrandan ayrılan təzminat hesabına vəsait verildi.həmin dövrdə ermənilərlə bərabər çar hökumət dairələri rusları və almanları Şimali Azərbaycanda məskunlaşdırmağa başladı. Keçmiş xanlıqlar və sultanlıqlar əsrin əvvəllərində əyalətlərə və dairələrə çevrildilər: 6 əyalət Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Talış, 2 dairə-Yelizavetpol və Car-Balakən və 2 distansiya-Qazax,Şəmsəddil təşkil olundu. Əyalətlər və dairələr çar zabitləri tərəfindən,mahallar isə naiblər tərəfindən idarə olunurdu.XIX əsrin 40-cı illərindən başlayaraq komendant idarə üsulu ləğv edilərək quberniyalara və mahalların əvəzinə qəzalar yaradıldı.1841-ci ildə ölkədə 7 qəza yaradılmışdı. Şamaxı, Nuxa, Lənkəran, Bakı, Dərbənd və Quba qəzaları, eləcədə 32 nahiyə yaradilmişdi.XIX-XX əsrlərdə Azərbaycanın inzibati ərazi bölgüsünə dairə statusuna malik ərazi mövcud olmuşdur və dairə hec bir quberniyanın tərkibinə daxil olmayıb hərbi rəislər yərəfindən idarə olunurdu.1860-1929-cu illərdə Azərbaycanda Zaqatala dairəsi fəaliyyət göstərmişdi.

Ümumiyyətlə tarixçilərə görə Azərbaycanın inzibati ərazi bölgüsü 4 mərhələyə bölünür:

1.Azərbaycanın XIX əsrin əvvəllərinədək ərazi bölgüsü

2.Azərbaycanın 1840-cı ilədək inzibati ərazi bölgüsü

3.Azərbaycanın 1846-1860-ci illərədək inzibati ərazi bölgüsü

4.Azərbaycanın 1868-1917-ci illərədək inzibati ərazi bölgüsü

Çarizm hər vasitə ilə ucqarlarda, o cümlədən Azərbaycanda feodal münasibətlərini, geriliyi qoruyub saxlamağa, rus kapitalı tərəfindən ölkənin müstəmləkə qaydası ilə qarət olunmasına, kapitalizmə qədərki münasibətlərin saxlanılmasına çalışırdı. Ucqarların xalq kütlələri ikiqat zülmə çarizmin və yerli istismarçıların zülmünə məruz qalırdılar. Yerli mülkədarların və burjuaziyanın bəzilərinin simasında özünə müttəfiq tapan və onlara arxalanan çarizm Azərbaycanda müstəmləkə siyasəti yeridirdi. Çar hökuməti aqrar müstəmləkəçi qanunlarını da həyata keçirməklə Şimali Azərbaycanda torpaq mülkiyyətçiliyi məsələsinə münasibətdə mütəmadi olaraq öz mənafeyinə müvafiq "düzəlişlər" edirdi ki,bu aqrar qanunlarda edilən dəyişikliklər ucqarlardan daha çox qazanc əldə etmək və buranı daha çox istismar etmək maraqlarından irəli gəlirdi. Verilən müstəmləkəçi aqrar qanunlar yerlərdə əhalinin xeyli hissəsini təşkil edən kəndlilər arasında nifaq salaraq, yerli sahibkarlarla kəndlilər arasındakı münasibətlərdə sonu bilinməyən çəkişmələrə gətirib çıxarırdı. Yerli və kənd idarəçilik orqanlarında da qanunsuzluqlar az deyildi. Xanlıqlar dövründə olduğu

kimi, Rusiya işğalından sonra da mirablar yerli adət-ənənələrə söykənilərək yığıncaqlarda, bir nəfər yerli polis idarəsindən olan nümayəndənin iştirakı ilə gizli səsvermə yoluyla əhali tərəfindən "seçilirdi". Lakin XIX əsrin 40-cı illərinin əvvəllərindən başlayaraq belə qayda ləğv olunmuş və mirablar dövlət idarələrində yüksək vəzifələrdə işləyən məmurlar tərəfindən təyin olunmağa başlamışdı. Lakin heç bir qanun rüşvətin və məmurların vəzifələrindən sui-istifadə hallarının qarşısını ala bilmirdi.XIX əsrin 40-cı illərin əvvəllərində Şimali Azərbaycanda sosial-iqtisadi vəziyyət mürəkkəb xarakter almağa başlamışdı. Belə, vəziyyətdən yerlərdə etibarlı ictiami dayaq yaratmaq yolu ilə çıxmaq mümkün idi. Əvvəllər hökumət etibar etmədiyi müsəlmanlardan «müsəlman zadəganlığını» yaratmaq niyyətində olmasada, çar məmurlarının özbaşına fəaliyyəti nəticəsində yaranmış mürəkkəb vəziyyət hökuməti yerli feodallarla münasibətlərini dəyişməyə vadar edirdi. 1841-ci il yanvarın 1-dən islahat hər yerdə tətbiq olundu. Yeni inzibati və məhkəmə idarələrinin açılışı yerli əyanların iştirakı ilə təntənəli şəraitdə keçirdi. İslahat Zaqafqaziyanın inzibati quruluşunu dəyişərək, onu Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırdı. Zaqafqaziya diyarı mərkəzi Tiflis olanGürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinəbölünürdü. Quberniya ve vilayət qəzalara (dairələrə),onlar isə öz növbəsində nahiyələrə bölünürdü. Azərbaycan torpaqlarının əksəriyyəti 7 qəzanı - Şamaxı (keçmiş Şirvan əyaləti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzalarını özündə birləşdirən Xəzər vilayətinin tərkibinə daxil oldu. Xalqları çar müstəmləkəçiləri ilə silahlı mübarizəyə qalxmış Dağıstanla həmsərhəd olan sonuncu iki qəza xüsusi Dərbənd hərbi dairəsinə daxil edildi.Çar hökuməti "parçala və hökm sür" prinsipini rəhbər tutaraq Azərbaycan torpaqlarının bəzi hissələrini - Qazax və Şəmşəddil distansiyaları ilə birlikdə Yelizavetpol qəzasını, Car-Balakən vilavəti və İlisu sultanlığından yaradılmış Balakən qəzasını, İrəvan qəzasını və Ordubad dairəsi ilə birlikdə, Naxçıvan qəzasını Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil etdi. Qəzaların tərkibində nahiyələr yaradıldı, onlardan çoxu keçmiş mahalların ərazilərinə müvafiq gəlirdi. Azərbaycan ərazisində cəmisi 32 nahiyə yaradılmışdı. Zaqafqaziyanın ali idarəsi buradakı qoşunların baş rəisinin əlində saxlanılırdı. O bilavasitə imperator tərəfindən təyin edilir və vəzifəsindənçıxarılırdı. Baş rəis general-qubernatora nisbətən daha geniş səlahiyyətlərə malik idi. O, quberniya idarə orqanlarının qərarlarını ləğv etmək, məmurlarıvəzifələrindən uzaqlaşdırmaq və s. hüquqlara malik idi. Baş rəisin hakimiyyətitəkcə quberniya idarələri üzərinə yayılmırdı. Daxili quberniyalarda müvafiqnazirlik və idarələrin mərkəzləşdirilmiş tabeliyində olan gömrük, tədris, poçt və s.idarə orqanları da burada baş rəisə tabe idi.Baş rəisin sədrliyi altında Baş İdarə Şurası fəaliyyət göstərirdi. Quberniya və vilayət orqanları sisteminə qubeniya (vilayət) idarəsi, xəzinə və dövlət əmlakı palatalan, zemstvo mükəlləfiyyətləri komitəsi və s. daxil idi. Çarizmin sosial dayağı ancaq yerli feodallar ola bilərdi. Dağlıların xalqazadlıq mübarizəsini boğmaq siyasəti də, Türkiyə ilə hərbi toqquşma təhlükəsi ilə bağlı olaraq öz arxasını möhkəmləndirmək istəyi də çar hökumətini yerli feodallarla ittifaq bağlamağa sövq edirdi.Beləliklə, yaranmış şərait çarizmi yerli feodallara qarşı siyasətinidəyişməyə vadar edirdi. 1842-ci ildə Tiflisdə ağaların şəxsi hüquqları və onlarınhəyata keçirilməsi yolları barədə məsələlərin işlənib hazırlanması ilə məşğul olan komitə işə başladı. 1843-cü ildə bu komitəni iki yeni komitə əvəz etdi: bunlardan biri "ali müsəlman silkini" - rəsmi sənədlərdə Azərbaycan bəyləri belə adlandırılırdı.

1846-cı il dekabrın 6-da on iki maddədən ibarət olan çar tərəfindən təsdiq olunmuş fərman layihəsinə əsasənxüsusi xidmət və rəşadətlərinə görə xanlara, bəylərə, xəmsə məliklərinə və bəzi şəxslərə çarın bəxşiş etdiyi torpaq sahələri ilə yanaşı müsəlman əyalətlərinin işğal dövründə onların nəsillərinin sahib olduqları və hal-hazırda istifadəsində olan torpaq sahələri onların «irsi mülkiyyəti» kimi təsdiq olunurdu. Bir sıra sahibkarlardan 1840-cı ildən sonra cinayətlərinə görə və ya məhkəmə yolu ilə deyil, inzibati qaydada müsadirə olunmuş kəndlilərin sakin olduğu və olmadığı torpaq sahələri, onlara və ya varislərinə qaytarılırdı. Borçalı, Qazax və Şəmşəddil distansiyaları ağalarına və onların varislərinə əvvəllər istifadələrində olan və 1841-ci ildə müsadirə olunmuş kəndlilərin sakin olduğu və olmadığı torpaq sahələri çar tərəfindən xüsusi iltifat kimi geri qaytarılırdı. Ayrı-ayrı şəxslərə mülkiyyət hüququnda bağışlanan və ya onların torpaq sahələri kimi təsdiq olunmuş ərazilərdə sakin olan kəndlilər hazırkı yerlərində saxlanılır və onlar «xəzinə kəndliləri» zümrəsinə aid edilirdi. Rəiyyət, rəncbər, xalisə, nökər və digər adların yerinə kəndlilərə mülkədar tabesi adı verilirdi. 1846-cı il 14 dekabr fərmanına əsasən Cənubi Qafqazda inzibati ərazi dəyişikliyinin edilməsi əsasnamələrin verilməsi üçün lazımi şərait yaratmış oldu. Bütün diyar Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Tiflis quberniyasının tərkibinə Yelizavetpol, İrəvan, Naxçıvan qəzaları, habelə Qazax, Şəmşəddil və Borçalı distansiyaları, Şamaxı quberniyasına Bakı, Nuxa, Lənkəran, Şuşa və Şamaxı qəzaları, Dərbənd quberniyasına isə Dərbənd və Quba qəzaları daxil edildi. 1849-cu ildə isə beş qəzadan ibarət olan İrəvan quberniyası və Car-Balakən torpaqları və İlisu sultanlığı əsasında ayrıca Car-Balakən hərbi dairəsi təşkil edildi. Şimali Azərbaycanda həyata keçirilən bir sıra inzibati ərazi dəyişiklikləri və yerlərdə verilən aqrar qanunlar kəndli üsyanlarının baş verməməsi üçün tez-tez dəyişdirilirdi. Lakin onu da qeyd etmək yerinə düşərdi ki, hər dəfə verilən qanunlar yerli əhali tərəfindən narazılıqla qarşılanırdı və belə dəyişiklikləri kəndlilər qəbul etmək istəmirdi. 1847-ci il 20 aprel və 28 dekabr aylarında verilmiş «Kəndli əsasnamə»lərinin birincisi Şamaxı, Şuşa, Lənkəran, Bakı və Quba qəzalarının xan və bəy, ikincisi isə Borçalı, Qazax və Şəmşəddil distansiyaları ağaları və Yelizavetpol xan və bəy ailələrinə şamil edilirdi. Tiflis və Şamaxı qubernatorlarının Qafqaz canişininə 1847-ci il 20

aprel əsasnaməsində keçmiş xan ailəsi üzvlərinə məxsus ya yaxud ağaların torpaqlarında kətxudalar imtiyazlı sahibkarlar tərəfindən təyin olunması qaydasının ləğv edilməsi haqqında müraciətindən sonra 1859-cu ildə sahibkarlara məxsus kəndlərdə kəndxudaların təyin edilməsi qaydası ləğv edilərək, təyinat quberniya rəisliyinə həvalə edilir.Ağalar və sakinlərin qarşılıqlı münasibətləri haqqında 1847-ci ilin 28 dekabr tarixli kəndli əsasnaməsinin 26-ci maddəsində ağalara kəndlilər üzərində polis nəzarəti və məhkəmə hakimiyyəti verilsədə kəndli üsyanları nəticəsində çar hökumətini kəndlilər üzərində polis nəzarətçisi və məhkəmə hakimiyyətinin ağaların əllərindən alınmağa məcbur olmuşdu. 1848-ci ildə quberniyalar üzrə suvarma təsərrüfatına rəhbərlik üçün yeni bir inzibati orqan yaradıldı. Bu quberniya idarələri nəzdində təşkil olunmuş, bilavasitə suvarma təsərrüfatına rəhbərlik və nəzarət edən su mühəndisinin başçılıq etdiyi idarə orqanı idi. Quberniyalar üzrə suvarma təsərrüfatına su mühəndisinin rəhbərliyi 1890-cı il 3 dekabr qanunu elan olunanadək davam etmişdi. 1853-cü ildə kəndlilərin özbaşına bir kənddən başqa kəndə getmə hallarının canişin tərəfindən təsdiq olunması ilə qanuniləşdirilməsi dövlət kəndlərinə şamil edildi və onlara nəzarət qəza rəislərinə tapşırıldı. 1861-ci il dekabrın 29-da Cənubi Qafqazda Sahə Mühafizə dəstələrinin təşkil edilməsi haqqında əsasnamə Qafqaz canişini tərəfindən təsdiq olunur. 1862-ci ildən etibarən 1899-cu ilə qədər fəaliyyət göstərmiş çapar adlandırılan mühafizə dəstələri yaradılmışdı ki, bununla da kazak alaylarında polis xidməti ləğv edilmiş oldu. Mühafizə dəstələrinə əvvəlki maaflar və digər yuxarı zümrənin nümayəndələri götürülürdü. XIX əsrin 40-cı illərinin inzibati-ərazi bölgüsünə görə yerlərdə polis nəzarətini sahə müvəkkili tərəfindən həyata keçirilirdi. Sonralar qəzaların sahələrə bölünməsi qənaətbəxş hesab olunmadığından 1865-ci ilin 8 iyun qanuna əsasən sahə müvəkkili vəzifəsi və qəzaların sahələrə bölünməsi ləğv edilmişdi. Bunun əvəzinə polis işlərini icra edən qəza rəisi köməkçisi vəzifəsi təsis olundu. Üsyanların daha çox baş qaldıracağına istinad edilən və polis nəzarətinə daha çox ehtiyac bilinən qəzaların ayrı-ayrı həyəcanlı hissələrində polis pristavlıqların təşkil edilməsinə başlanıldı. Yelizavetpol quberniyasında belə pristavlıq Samux və Ərəş qəzalarında, Bakı quberniyasında Salyanda, İrəvan quberniyasında isə Ordubad qəzasında sınaq aparılması məqsədilə həyata keçirilmişdi. Ümumiyyətlə 18671873-cü illərdə Azərbaycanda quberniyaların tərkibində Göycay, Qazax, Şərur-Dərələyəz, Zəngəzur, Ərəş, Cəbrayıl, Cavanşir qəzaları yaradılmışdı. 1865-ci ildə bəylərin məhkəmə və polis hüququ ləğv edildi. Həmin ilin yanvarın 28-də bəylərin məhkəmə və polis hakimiyyəti hüququndan məhrum edən və seçkili əsaslar üzərində qurulan Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında əsasnamənin nəşrindən sonra bəylər kənd hakimiyyət orqanlarına müəyyən təsir göstərsələr də, onların kəndlilər üzərindəki əvvəlki məhkəmə və polis hakimiyyəti artıq yox idi. Əsasnaməyə görə kənd idəçiliyi başqa şəklə salınmışdı. Yəni özündə iqtisadi və inzibati vəzifələrini birləşdirən kənd cəmiyyəti süni şəkildə yaradılmışdı.Çar hökümətinin həyata keçirdiyi qanunlarda edilən Tiflis quberniyasının keçmiş azərbaycanlı distansiyaları ağalarının, Yelizavetpol və Bakı quberniyası bəy kəndlilərinin idarə olunmasından kənarlaşdırılması və kəndlilir üzərində polis nəzarəti səlahiyyətlərindən məhrum edilməsi kimi dəyişikliklər heç də kəndlilərin şikayətləri əsasında deyil, müstəmləkə siyasətini uğurla həyata keçirməsindən irəli gəlirdi. Kəndli şikayətləri baxılmaz qalırdı. Ölkədə mərzləmə işi aparılmadığından hətta ayrı-ayrı kənd icmalarının istifadəsində olan torpaqların sərhədləri belə məlum deyildi. Bu kəndlilər, kəndlər və bütöv kənd icmaları arasında münaqişələrə gətirib çıxarırdı. Belə münaqişələrin və hətta qanlı toqquşmaların siyasi hadisələrə çevrilməsindən çəkinən çarizm tərəfindən 1861-ci il iyunun 29-da Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında əsasnamə təsdiq edildi. Əsasnamədə mərz idarələrinin yaradılması, mərz işinin aparılması, mərz işi üzrə məhkəmə icrası, mərz ölçmələri və nişanların qoyulması, mərz sənədlərinin tərtib edilməsi, mərz xərclərinin ödənilməsi, mərz idarələri məmurlarının vəzifələri və vəzifələrindən öz xeyrinə istifadə hallarının qarşısının alınması nəzərdə tutulurdu. Torpaq sahələri ayrıca olaraq sahibkar və yaxud xüsusi idarə adından mərzlənirdi. Qonşuluqda olan bir sıra kəndlərin torpaq sahələri sahibkara məxsus olardısa, onda bu sahələr sahibkarın razılığı ilə mərzlənirdi. Dövlət və kilsə idarələrinə məxsus torpaq sahələri və təsərrüfat yerləri bir-birinə qonşu olan icmaların torpaq sahələrində yerləşirsə, onda mərzləmə ayrı-ayrılıqda aparılırdı. Qafqaz cinişinliyi tabeliyində 1862-ci il yanvarın 1-dən torpaqların bilavasitə mərzləşdirilməsi işinə başlayan, tərkibi sədr və 4 üzvdən ibarət olan xüsusi Cənubi Qafqaz Mərz Palatası təsis edildi. Əsasnamə təsdiq olunduğu gündən Cənubi Qafqaz diyarında fəaliyyət göstərmiş bütün mərzləmə idarələri və torpaqölçmə vəzifələri Mərz Palatasının tebeliyinə keçirdi. 1867-ci il dekabrın 9-da Cənubi Qafqaz diyarında mərzləmə ştatları təsdiq olundu. Tiflis məhkəmə palatası üzrə 60 işçi ştatı, dairə məhkəmələri yanında isə 8 işçi ştatı təsis oldunmuşdu. Şimali Azərbaycanda kənd idarəsi dövlət kəndlilərinin tabeliyini daha da möhkəmləndirməli, onu polis-mütləqiyyət dövlətindən hərtərəfli asılı vəziyyətdə saxlamalı idi.Bunun üçün 1864-cü il oktyabrın 13-də qəbul edlmiş Tiflis quberniyasında kənd cəmiyyətlərinin təsis edilməsi, onların ictimai idarəsi, dövlət və ictimai mükəlləfiyyətləri haqqında qaydalara əsasən 1865-ci ildə aprelin 11-də canişin tərəfindən təsdiq edilmiş Tiflis və Kutaisi quberniyalarında kənd cəmiyyətləri haqqında əsasnaməsi və 1866-cı il sentyabrın 28-də təsdiq edilmiş Bakı quberniyasında kənd cəmiyyətləri, onların ictimai idarəsi, dövlət və ictimai mükəlləfiyyətləri haqqında əsasnaməsi təsdiq edildi.Bu əsasnamə 1870-ci ildə Yelizavetpol quberniyasına da şamil edilməyə başlandı.

ƏDƏBİYAT

1. Azərbaycan tarixi,7cilddə,IV cild,Bakı,2007.
2. Azərbaycanlıların soyqırımı haqqında.Bakı,1998
3. Abdullayev Ə.Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyev sülh strategiyası.Bakı,1999
4. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali
5. Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər).Bakı, 2005
6. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək).Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı,Azərbaycan Dövlət Nəşriyyatı, 1994
7. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof.S.S.Əlyarlı. Bakı, «Azərbaycan» nəşriyyatı, 1996
8. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1997
9. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1996
10. Hüseynov Yunis Rza oğlu "Qarabağnamələr" Bakı, Elm, 2007
11. Hüseynzadə Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı.Bakı,1967.

SUMMARY

ADMINISTRATIVE TERRITORIAL DIVISION IN NORTHERN AZERBAIJAN IN THE FIRST HALF OF THE XIX CENTURY

Behbudova T.G.

Thus, a number of laws implemented by the tsarist regime in Northern Azerbaijan were one of the main directions of its colonial policy, aimed at plundering the local population and transporting more wealth to the center. These laws intensified relations between entrepreneurs and peasants, made rich peasants and peasants working on their lands hostile to each other, created favorable conditions for the spread of bribery, and significantly expanded the sources of income of Russian government officials. Ordinary human rights of the peasants were taken away from them, and their labor was used to produce material goods for the colonial government. Such harsh measures taken by the tsarism provoked the dissatisfaction of the peasants, and from time to time such grievances were collected as complaints to the tsarist authorities, and in such circumstances the most common excuses were enough to start armed protests.

The nineteenth century was a period of colonial slavery in the history of our people, on the one hand, and a period of preparation for the rise of deep socio-economic and political-cultural processes in the life of our society, on the other hand

Key words: *Azerbaijan, Armenian,war, peasant, population, struggle*

РЕЗЮМЕ

АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕ ДЕЛЕНИЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В ПЕРВОЙ ПОЛОВИНЕ XIX ВЕКА

Бехбудова Т.Г.

Таким образом, ряд законов, осуществленных царским режимом в Северном Азербайджане, были одним из основных направлений его колониальной политики, направленной на ограбление местного населения и вывоз большего количества богатств в центр. Эти законы обострили отношения между предпринимателями и крестьянами, сделали богатых крестьян и крестьян, работающих на своих землях, враждебными друг другу, создали благоприятные условия для распространения взяточничества и значительно расширили источники доходов российских государственных чиновников. У крестьян отняли обычные человеческие права, а их труд использовали для производства материальных благ для колониального правительства. Такие суровые меры царизма вызывали недовольство крестьян, и время от времени такие недовольства собирались в виде жалоб на царские власти, и в таких условиях достаточно было самых обычных предлогов, чтобы начать вооруженные протесты.

XIX век был периодом колониального рабства в истории нашего народа, с одной стороны, и периодом подготовки к зарождению глубоких социально-экономических и политико-культурных процессов в жизни нашего общества, с другой стороны.

Ключевые слова: *Азербайджан, Армения ,война, село, население, борьба.*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIĞI

Bəşirova G.İ.
H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Bakı, Azərbaycan
sofiagulshen@gmail.com

Açar sözlər: *İkinci Qarabağ müharibəsi, Azərbaycan, Türkiyə, türk qardaşlığı, milli birlik*

Giriş. Ermənistanın Azərbaycana qarşı separatçı, terrorçu hərəkətləri Qarabağ probleminin sülh yolu ilə həllini heçə endirdi və müharibəni qaçılmaz etdi. Növbəti hərbi təxribata qarşılıq olaraq Azərbaycanın özünümüdafiə etmək cəhdləri onun müharibəyə girməsi üçün hüquqi baza yaratdı. Hazırkı vəziyyətdə kifayət qdər güclü orduya və iqtisadi-siyasi potensiala malik olması Azərbaycanda bir cəsarət formalaşdırdı. Bu cəsarətin formalaşmasında Türkiyənin ölkəmizin yanında yer alması, onu siyasi-mənəvi cəhətdən dəstəkləməsi, açıq bəyənatlar verməsi və beynəlxalq güclərin təsirlərini neytrallaşdırması aparılmış döyüşlərin müsbət nəticələr verməsinə geniş imkanlar açdı. O cümlədən, vacib məqam kimi, Türkiyə ilə illərlə həyata keçirilmiş birgə hərbi təlimlər, təcrübə mübadiləsi, Türkiyə istehsalı olan hərbi texnika və silahlarla ordunun təchizatı qələbənin qazanılmasında üstünlük yaratdı. Pilotsuz uçuş aparatlarından – Bayrakdarlardan müharibə zamanı səmərəli istifadə Azərbaycanın zəfər qazanmasında çox təsir göstərdi.

Birinci Qarabağ müharibəsindən fərqli olaraq ikinci Qarabağ müharibəsində Türkiyənin artan geosiyasi nüfuzu, beynəlxalq təsir imkanları Azərbaycana siyasi, diplomatik, texniki və hərbi dəstək verməsinə tam şərait yaratdı. Belə bir vəziyyətdən düzgün istifadə edən Azərbaycan dövləti doğru qərar verməklə Ermənistan ordusu üzərində qəlbəsini təmin etmiş oldu. Müharibə dövründə Azərbaycanda, o cümlədən Türkiyədə əhalinin böyük çoşqu ilə hər iki dövlətin bayrağını qaldırması, sosial şəbəkələrdə fikir və düşüncələrini ifadə etmələri münasibətlərin səmiyyətini ifadə edirdi. Postmüharibə dövründə qardaşlıq münasibətləri daha da dərinləşməkdədir. Xüsusilə də Şuşada müttəfiqlik bəyənnaməsinin imzalanması və ratifikasiya edilməsi olduqca mühüm əhəmiyyətə malikdir.

1. Türkiyə-Azərbaycan qardaşlığının tarixi-siyasi-mədəni əsasları."Bir millət, iki dövlət"' prinsipinə uyğun olaraq, bu gün Azərbaycan-Türkiyə əməkdaşlığı uğurla inkişaf edir. Ortaq maraqların və dəyərlərin birləşdirdiyi bu iki ölkə dünya miqyasında ən yaxın strateji müttəfiqlər kimi daim bir-birinin yanındadır. II Qarabağ müharibəsi müddətində Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstəyi buna nümunə gətirmək olar. Vaxtaşırı Türkiyə prezidentinin və xarici işlər və müdafiə nazirlərinin açıqlamalar, bəyənatlar səsləndirməklə *"Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadı"* ifadələri böyük əhəmiyyət kəsb etdi [2].

Türkiyə ilə Azərbaycan arasında möhkəm iqtisadi-siyasi-mədəni əlaqələr dünyada bənzəri olmayan strateji tərəfdaşlıq və qardaşlıq qanununun təzahürüdür. Türkiyənin Azərbaycana dəstəyi təkcə qardaşlıq əlaqələri və ya regional səviyyədə ortaq maraqlar perspektivi ilə bağlı deyil, həm də Azərbaycanın şəksiz doğruluğu ilə bağlıdır. Türkiyənin bu dəstəyi həm beynəlxalq hüququn tətbiqi, həm də qardaşlıq hüququna və regional sülhə töhfə verməsi lazım olan məsuliyyətin mühüm nümunəsidir [7]. Bu kontekstdə İkinci Qarabağ müharibəsi zamanı bir tərəfdən prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, bütün müvafiq yüksək səviyyəli rəsmilər Azərbaycana dəstək bəyanatlarını səsləndirmiş, digər tərəfdən Türkiyə də varlığında Azərbaycana iqtisadi-siyasi-mədəni dəstəyini davam etdirmişdir. Bundan əlavə, Türkiyənin xaricdəki nümayəndəlikləri vasitəsilə Azərbaycan diplomatları ilə koordinasiyalı şəkildə həmsöhbətlərinə Azərbaycanın haqlı tezislərini izah etmişdir. Hələ əsrlər əvvələ dayanan bu dostluq-qardaşlıq əlaqələri zaman-zaman özünü biruzə vermiş və daha da möhkəmlənmişdir. Münasibətlərdəki bu bağlılıq təkcə dövlətlər arası deyil, sadə xalqlar arasında da daha qabarıq hiss olunmuşdur.

2. İkinci Qarabağ müharibəsində Türkiyənin dəstəyi. Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin 12 iyul 2020-ci il tarixində Tovuzda hücumlar başlandığı zaman verdiyi açıqlamasında hücumu qəti şəkildə pisləyərək Ermənistanın özünün hədəflərini aşan məqsədlər üçün avantürist olmağa çalışdığı bildirilib və Türkiyənin bundan sonra da bütün imkanları ilə Azərbaycanın yanında olacağı vurğulanıb. Habelə, Prezident Rəcəb Tayyib Ərdoğan 2020-ci il iyulun 14-də Azərbaycan Prezidenti İlham Əliyevlə telefonla danışaraq mövcud vəziyyəti bir daha müzakirə etmiş və 14 və 17 iyul 2020-ci il tarixlərində verdiyi bəyanatlarda Ermənistanın hücumlarını pisləmişdir.

Buna baxmayaraq Ermənistan 27 sentyabr 2020-ci il tarixində Ermənistanın növbəti təxribatını həyata keçirməklə iki ölkə arasında müharibənin yenidən başlamasına zəmin hazırladı. Qarşılıqlı olaraq Azərbaycan tərəfi özünümüdafiə hüququndan istifadə etməklə hücüm əmri verməsi İkinci Qarabağ müharibəsinin başlanmasına şərait yaratdı. Amma etiraf etmək lazımdır ki, bu dəfəki vəziyyətdə Türkiyənin dəstəyi siyasi və psixoloji baxımdan rəsmi Bakıda böyük üstünlük yaratdı. Bütün bu amillər Azərbaycanın 30 ilə kimi davam edən Qarabağ probleminin müharibə yolu ilə həllinə razı saldı. Çünki danışıqların uzun müddət davam etməsi məsələnin həllində hər hansı bir nəticənin əldə edilməsinə imkan vermirdi [7].

Onu da vurğulamaq lazımdır ki, danışıqlar prosesində Türkiyənin birbaşa iştirak etməməsi, hər üçünün xristian dövləti olması (Rusiya, ABŞ və Fransa), həmçinin erməni təəssübkeşliyi münaqişənin həllinin uzanmasına gətirib çıxarırdı. Əgər Türkiyə birbaşa iştirak etmək, proseslərə müdaxilə etmək imkanı olsaydı bəlkədə problemin sülh yolu ilə həllinə nail olmaq olardı. Təsadüfi deyil ki, müharibə dövründə Türkiyənin Azərbaycanın mövqelərini müdafiə edəcək bəyənatları ölkəmizin qələbə qazanmasında öz təsirini göstərmiş oldu.

Əsasən də Türkiyə ilə hərbi əməkdaşlıq, müdafiə sənayesində böyük uğurlara imza atan Azərbaycan üçün çox faydalıdır. Döyüşdə Türkiyə istehsalı olan Pilotsuz uçan aparatların (Bayraktarların) istifadəsi Azərbaycanın böyük üstünlüyünü təmin etdi [3]. Bu texnikalar təkcə hərbi deyil, həm də psixoloji töhfə verdi. Ermənistan cəmiyyətində əhval rühiyənin, sosial-psixoloji durumun pisləşməsinə səbəb olmaqla, erməni əsgərlərinin müqavimətini qırmaqda çox təsirli oldu.

Müharibə boyu Türkiyənin göstərdiyi siyasi, diplomatik və hərbi dəstəyə əlavə olaraq, bütün türk cəmiyyətinin sosial-humanitar dəstəyi xalqlar arası milli birliyinin daha da möhkəmlənməsinə mühüm töhfə oldu [5].

Dağlıq Qarabağ torpaqlarının azad edilməsi üçün Azərbaycanın başlatdığı əməliyyat türk ictimaiyyəti tərəfindən böyük coşqu ilə qarşılanıb. Türkiyə xalqı dünən Fərat Qalxanı, Zeytun Budağı və Sülh Pınarı əməliyyatlarını izlədiyi kimi Yuxarı Qarabağın azad edilməsini də eyni gözlənti və həssaslıqla izlədi. Türk milləti istər keçmişdə, istərsə də bu gün hər fürsətdə xeyirxahlığını nümayiş etdirərək əməliyyatın tələb etdiyi şərtlərdən təsirlənən azərbaycanlı qardaşlarının yanında olub. Sosial dəstək əlaməti olaraq Türkiyədə küçələrdə və ictimai qurumlarda Türkiyə və Azərbaycan bayraqları asılıb. Ermənistanın törətdiyi hərbi cinayətlərə diqqəti cəlb etmək, Dağlıq Qarabağ problemi ilə bağlı maarifləndirmək və Azərbaycana dəstək göstərmək məqsədilə vətəndaşların "Dəstək yürüşü və mitinqi" və ya "Ermənistanı qınama proqramı" kimi müxtəlif tədbirləri keçirilmişdir. 14 oktyabr 2020-ci il tarixində Türkiyə Qızıl Aypara Cəmiyyəti tərəfindən 4 yük maşınından ibarət humanitar yardım materialı Bakıya gətirilmişdir. İlk göndəriş 250 çadır, 500 çarpayı, 3000 adyal və 288 mətbəx dəstindən ibarət olub. Bundan əlavə, Türkiyə Qızıl Aypara Cəmiyyəti tərəfindən 2020-ci il oktyabrın 22-də Bakıya 100 adyal, 690 çarpayı, 690 mətbəx dəsti, 192 gigiyena dəsti, 13 min dezinfeksiyaedici vasitə, 6940 üzlük və 17 466 ədəd geyimdən ibarət ikinci partiya çatdırıldı. 11 yük maşını və 870 çarpayı, 520 mətbəx dəsti, müxtəlif ərzaq, qeyri-ərzaq və sağlamlıq materiallarından ibarət üçüncü yük 2020-ci il noyabrın 3-də Azərbaycana çatdırıldı.

Türkiyə İkinci Qarabağ müharibəsində olduğu kimi, savaş bitəndən indiyədək daim Azərbaycanın yanında olub, hər zaman ölkəmizə siyasi, diplomatik və mənəvi dəstək göstərib. Bakıda keçirilən möhtəşəm Zəfər paradında da sevincini, fərəhini xalqımızla bölüşüb. Ümumiyyətlə, Prezident Rəcəb Tayyib Ərdoğanın həmin paradda iştirakı Azərbaycan xalqını qələbə müjdəli gələcəyə ruhlandırıb [2].

Vətən müharibəsində Türkiyənin müdafiə və xarici işlər nazirləri, digər yüksək vəzifəli rəsmiləri tərəfindən də Azərbaycana birmənalı olaraq siyasi, diplomatik və mənəvi dəstək göstərildi. Bu, xalqımıza çox böyük siyasi və mənəvi güc vermək demək idi.

Xüsusilə iki dövləti birləşdirən müttəfiqlik münasibətləri Şuşa bəyənnamasi ilə daha da möhkəmləndirildi. 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə Prezidentləri 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzaladılar. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafını təmin edəcəkdir [1].

Məsələn, New York Times qəzetinin müxbiri Anton Troyanovski hesab edir ki, Qarabağ müharibəsi Türkiyənin böyüyən regional gücünü göstərmiş oldu. Müəllifə görə, "müharibənin sona çatması Türkiyə, Rusiya və İran arasında sıxışmış dəyişkən bir bölgə olan Cənubi Qafqazın təhlükəsizlik xəritəsinin əhatəli bir şəkildə yenidən cızıldığını göstərir... və bu xəritədə Türkiyə çox önəmli bir rola sahibdir" [4]. İsveçrədə dərc olunan "Le Temps" qəzeti isə 10 noyabr bəyanatını "Türkiyə və Rusiya gələcəyin dünyasını formalaşdırır" başlığı ilə təqdim etmişdir [6].

Nəticə. Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi-siyasi-mədəni münasibətlər tarixi-etnik köklərə və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli münasibətlərdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu münasibətlər çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi-siyasi-hərbi əməkdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə liderləri mövcud əlaqələrin inkişafı üçün böyük səy göstərirlər. Müstəqillikdən keçən müddət ərzində Türkiyənin Azərbaycana dəstək verməsi, ölkəmizin haqq səsini müdafiə əhəmiyyətli amil kimi dəyərləndirlir.

Dövlətlərarası münasibətlərin zirvə nöqtəsi şübhəsiz ki, İkinci Qarabağ müharibəsini hesab etmək olar. Türkiyənin konkret dəstəyi sayəsində Azərbaycan işğal etdiyi torpaqlarının böyük hissəsini azad etməsi Azərbaycan və Türkiyə üçün istifadə olunan "Bir millət, iki dövlət" deyimi ilk dəfə olaraq konkret məhsula çevirdi və iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdi. Türkiyə beynəlxalq aləmdə Azərbaycanın əsl müttəfiqi olduğunu bir daha sübut etdi. İkinci Qarabağ müharibəsinin həm regional, həm də qlobal təsirləri

oldu.

Türkiyə Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirib və regionda sülhün qurulmasında mühüm aktor olduğunu sübut etdi. Müharibəyə son qoyan memorandumun maddələrinin həyata keçirilməsi üçün Türkiyənin bölgədə təsirinin artırılması çox vacibdir. Bu zəfər hər şeydən əvvəl torpaqları qeyri-qanuni işğal altında olan dövlətlərə, xüsusilə türk və İslam dünyasına bu vəziyyətin sonsuza qədər davam etməyəcəyi mesajını verdi. Bu zəfər Türk Dünyası üçün daha əhatəli əməkdaşlığa zəmin açılmasına töhfə verəcək. Şübhəsiz ki, bu qələbə iki ölkə arasında iqtisadi, siyasi və hərbi inteqrasiya prosesini sürətləndirəcək. Ermənistanın işğal etdiyi torpaqların azad edilməsi bu rayonların Azərbaycan iqtisadiyyatına inteqrasiyasına gətirib çıxaracaq və yeni investisiya sahələri yaranacaq.

ƏDƏBİYYAT

1. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır [Elektron resurs] URL: https://azertag.az/xeber/Azerbaycan_Turkiye_dostlugu_ve_qardasligi_sarsilmazdir-1911854 (27.02.2022)
2. Bayramov, Vaqif Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından mühüm önəm daşıyır // [Elektron resurs] URL: http://newtimes.az/az/politics/7432/ (27.02.2022)
3. Erarslan, Fatih Özdemir, Fatma Nur Azerbaycan-Türkiye ilişkilerinde önemli bir kavşak: ikinci karabağ savaşı // Türk Dünyası Araştırmaları, Kasım - Aralık 2021, Cilt: 129 Sayı: 255 Sayfa: 315-334
4. In Bitter Nagorno-Karabakh War, a Reordering of Regional Powers //[Elektron resurs] URL:https://www.nytimes.com/2020/11/10/world/europe/armenia-azerbaijan-nagorno-karabakh.htm (27.02.2022)
5. Stefan Meister, "Dağlık Karabağ'da Savaş ve Ateşkes-Güney Kafkasya ve AB İçin On Olası Sonuç", Heinrich Böll Stiftung, 18.11.2020, https://tr.boell.org/tr/2020/11/18/daglik-karabagda-savas-ve-ateskes-guney-kafkasya-ve-ab-icin-olasi-sonuc, (26.02.2022).
6. Turquie et Russie dessinent le monde de demain // [Elektron resurs] URL: https://www.letemps.ch/opinions/turquie-russie-dessinent-monde-demain (27.02.2022)
7. Yukarı Karabağ'da 44 günde gelen zafer: Türkiye - Azerbaycan kardeşlığının nışanesı, Cumhurbaşkanlığı İletişim Başkanlığı yayınları, 2021, - 290 s.

SUMMARY

TURKİSH-AZERBAİJANİ BROTHERHOOD İN THE SECOND KARABAKH WAR

Bashirova G.İ.

The article analyzes the Second Karabakh War and its consequences, the victory of Azerbaijan in this war and the role of Turkey's moral and political support in achieving this victory. The foundations of fraternal relations between Turkey and Azerbaijan, the essence of national and ethnic values uniting the two peoples were explained. One of the important reasons for this victory was the joint Turkish-Azerbaijani military exercises, equipping the Azerbaijani Army with modern equipment and weapons made in Turkey, Turkey's support for Azerbaijan after the war, and the signing of an alliance declaration. The article also provides a theoretical explanation and analysis of the issues mentioned.

Keywords: *Second Karabakh war, Azerbaijan, Turkey, Turkish brotherhood, national unity*

РЕЗЮМЕ

ТУРЕЦКО-АЗЕРБАЙДЖАНСКОЕ БРАТСТВО ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Баширова Г.И.

В статье анализируются Вторая карабахская война и ее последствия, победа Азербайджана в этой войне и роль морально-политической поддержки Турции в достижении этой победы. Были разъяснены основы братских отношений между Турцией и Азербайджаном, сущность национальных и этнических ценностей, объединяющих два народа. Одной из важных причин этой победы стали совместные турецко-азербайджанские военные учения, оснащение Азербайджанской Армии современной техникой и вооружением турецкого производства, поддержка Турцией Азербайджана после войны, подписание декларации о союзе. В статье также дается теоретическое объяснение и анализ упомянутых вопросов.

Ключевые слова: *Вторая карабахская война, Азербайджан, Турция, турецкое братство, национальное единство.*

VƏTƏN MÜHARİBƏSİNİN TARİXİ-SİYASİ ƏHƏMİYYƏTİ

Bünyadov Z.V.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
bunyadov82@mail.ru

Açar sözlər: *vətən, müharibə, tarix, siyasət, hakimiyyət, terror*

Azərbaycan XIX əsrdə itirdiyi dövlətçilik ənənələrini 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə yenidən bərpa etdi. Cəmi 23 ay mövcud olan Cümhuriyyət dövründə Azərbaycan Respublikasının ərazisi 114 min km^2 idi. Bu ərazinin 97,4 min km^2-i mübahisəsiz ərazi idi. 1920-ci il aprelin 28-də Sovet Rusiyası Azərbaycan Demokratik Respublikasını işğal etdi. İşğaldan sonra tarixi torpaqlarımızın çox hissəsi qonşu respublikalara Rusiyaya, Ermənistana və Gürcüstana verildi. Belə ki, Dəmirqapı Dərbənd Rusiyaya, Tarixi Borçalı ərazisi Gürcüstana, Yuxarı Zəngəzur, Şərur-Dərələyəz və Göyçə mahalı isə qeyd-şərtsiz Ermənistana əta edildi. Sovet milli siyasəti bununla kifayətlənməyərək Qarabağın dağlıq hissəsində yaşayan bir qrup erməni əhalisi üçün 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti adlı qurum da yaradıldı. Bu həmin dövrdə Azərbaycan SSR-nin rəhbərliyinin qətiyyətsiz mövqeyi idi. Lakin o zaman Göyçədə, Zəngəzurda və digər ərazilərdə yaşayan yüz minlərlə türk-müsəlman əhaliyə belə bir muxtariyyət verilməsi nədənsə heç kimin yadına belə düşmədi. Bununla da 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili xalqımız üçün baş bəlasına çevrildi. Bu da gələcək Dağlıq Qarabağ münaqişəsinin təməlini qoymuş oldu.

1988-ci ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən hazırlanan, "Paşa" ləqəbli Eduard Qriqoryan tərəfindən icra olunan Sumqayıt hadisələri ilə ermənilər dünyada yeni təbliğat-təşviqat kompaniyasına başladılar. Sumqayıt hadisələri zamanı qətlə yetirilən ermənilərin ölümündə Azərbaycanlıları günahkar elan edərək, bizimlə birgəyaşayışın onlar üçün böyük təhlükə olduğunu elan etdilər. Bununla da ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı Azərbaycana qarşı ərazi iddiaları başladı. Xankəndində geniş miqyaslı mitinqlər və etiraz aksiyalarına başladılar. SSRİ rəhbərliyi, xüsusilə Mixail Sergeyiviç Qorbaçovun bu məsələdə qətiyyətsiz addımları və ermənipərəst mövqeyi nəticəsində Dağlıq Qarabağ ərazisi Azərbaycan-Ermənistan arasında silahlı münaqişəyə çevrildi.

Dağlıq Qarabağ münaqişəsinin birinci mərhələsi 1988-1994-cü illəri əhatə edirdi. Bu dövrdə öncə Ermənistan SSR-də əzəli tarixi torpaqlarında yaşayan 300 minə yaxın soydaşımız zorla doğma yurd-yuvalarından deportasiya edildi. Deportasiya zamanı 215 nəfər dinc azərbaycanlı soydaşımız qəddarlıqla öldürüldü: onların içərisində qadınlar, qocalar, uşaqlar da var idi. Nəzərə almaq lazımdır ki, bu azərbaycanlılara qarşı törədilən ilk deportasiya deyildi. Belə ki, xalqımız 1948-1953-cü illərdə də Qərbi Azərbaycandan Mərkəzi Aran bölgəsinə deportasiya edilmişdi. Nəticədə 150 mindən artıq soydaşımız bu tarixi faciənin iştirakçısına çevrilmişdi.

Çox təəssüflər olsun ki, bütün bunlar qətiyyətsiz və ermənipərəst mövqe sərgiləyən SSRİ rəhbərliyinin gözü qarşısında baş verirdi. Lakin bu əməlləri törədən cinayətkarlar nədənsə cəzasız qaldı. 1991-ci ilin sonlarında isə SSRİ-nin dağılması ilə münaqişə Ermənistan-Azərbaycan Respublikaları arasında açıq müharibəyə çevrildi. Ermənistan bu müharibəyə illərdir gizli yollarla silahlandığı üçün müharibənin ilkin mərhələsində üstünlüyü əldə aldılar. Xarici ölkələrdəki erməni lobbisinin maddi-mənəvi yardımları, yaratdıqları çoxsaylı terror təşkilatlarının Dasnaksütyunun, Asalanın ekstremist-terrorçu üzvlərinin müharibədə bilavasitə iştirakı düşmənə geniş imkanlar yaratdı. Azərbaycan torpaqlarının 20%-ə qədəri işğal olundu. Xocavənd, Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Ağdərə, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları düşmən tərəfindən işğal olundu. 1 milyona yaxın qaçqın və məcburi köçkün vəziyyətinə düşən əhalinin sosial-iqtisadi vəziyyəti dözülməz həddə çatdı. Nəhayət, 1994-cü il mayın 12-də Bişkək şəhərində Rusiya Federasiyasının vasitəçiliyi ilə tərəflər arasında atəşkəs imzalansa da bu sadəcə nisbi xarakter daşıyırdı. Qeyd etmək istərdim ki, atəşkəs dövründə düşmənin cəbhəyanı bölgələrdə xidmət edən əsgərlərimizə və həmin ərazilərdə yaşayan soydaşlarımıza qarşı açdıqları atəş və törətdikləri təxribatlar nəticəsində mindən çox azərbaycanlı həlak oldu.

2018-ci ilin baharında Ermənistan Respublikasında baş verən hakimiyyət dəyişikliyi ilə Serj Sarkisyan istefa verdi. Nikol Paşinyan yeni hökümətə baş nazir təyin edildi. Hakimiyyətinin ilk vaxtlarında Nikol Paşinyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəhayət ki, sülh yolu ilə həll olunacağına müəyyən ümidlər yaranmışdı. Buna səbəb sanki, Paşinyanın qərbpərəst mövqe tutması və münaqişənin tezliklə sülh müqaviləsi ilə yekunlaşacağı ritorikası meydana gəldi. Lakin təcavüzkar, işğalçı dövlətin yeni rəhbərliyi sülhə dəstək verəcək danışıqlar prosesinə zərbə vuran addımlar atmağa başladı. Dağlıq Qarabağdakı qondarma rejimin rəhbərinin Azərbaycanın incisi olan Şuşada "andiçmə" mərasimi keçirməsi, burada parlament binasının tikəcəyi ilə bağlı bəyanatlar verməsi, Nikol Paşinyanın Cıdır düzündə

qol qaldırıb oynaması xalqımızın səbir kasasını doldurdu. Bundan əlavə, Ermənistanın yeni rəhbərliyi beynəlxalq qanunlara zidd olaraq Azərbaycanın işğal edilmiş 7 rayonunda xaricdən gətirilən ermənilərin yerləşdirilməsinə başladı. Bu rayonların tarixi adları dəyişdirildi, onlara ermənicə qondarma adlar verildi. Ermənistan açıq şəkildə bəyan edirdi ki, nəinki Dağlıq Qarabağ, hətta bu 7 rayon belə onlara məxsusdur. Artıq Nikol Paşinyan çıxışında qeyd edirdi ki, "Qarabağ Ermənistandır". Bu isə tərəfləri danışıqlardan uzaqlaşdırır, müharibə abu-havasını daha da yaxınlaşdırırdı.

Ermənistanın müdafiə naziri Seyran Ohanyanın ABŞ-a səfər edərkən erməni lobbisi qarşısında çıxış edərək Azərbaycanla münasibətlərdə strategiyalarını dəyişdiklərini bəyan etdi: "Yeni müharibə, yeni ərazilər". Ermənistanın yeni rəhbərliyi Azərbaycan Respublikasına qarşı fəal şəkildə müharibəyə hazırlaşdığını bəyan etdi və bu çirkin fəaliyyətlərinə lobbi qruplarından dəstək istədilər. Dağlı Qarabağdan və ümumilikdə münaqişə zonasından kənarda yerləşən Tovuz rayonunda 2020-ci ilin iyulunda baş verən təxribat da elan edilən "yeni strategiya"nın tərkib hissəsi idi. Düşmənin divversiya-təxribat qrupları Tovuz ətrafında yerləşən strateji yüksəklikləri ələ keçirməyə cəhd etdi. Bu yüksəkliklər Tovuz rayonu ərazisindən keçən beynəlxalq əhəmiyyətli neft və qaz kəmərlərinə nəzarət etmək imkanı verirdi. Azərbaycan ordusunun zabit və əsgərləri düşmən təxribatının qarşısını alsa da, general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, həmçinin bir neçə əsgər və zabitimiz döyüşdə qəhrəmanlıqla şəhid oldu. 2020-ci ilin avqust ayında isə düşmənin Tərtər istiqamətində təxribatçı-kəşfiyyat qrupu zərərsizləşdirildi. Diversiya qrupuna rəhbərlik edən erməni zabiti isə əsir götürüldü. Bütün bunlar Ermənistanın Azərbaycana qarşı növbəti dəfə müharibəyə hazırlaşdığının əyani sübutu idi.

General Polad Həşimovun namərdcəsinə şəhid edilməsi Azərbaycanda xalqın böyük etirazları ilə qarşılandı və səbir kasasını daşdıran son damla oldu. Ölkəmizdə pandemiya şəraiti olmasına baxmayaraq Bakıda, eləcə də digər şəhər və rayonlarda minlərlə insan etiraz yürüşü keçirdi. Bakıda böyük izdiham Milli Məclisin qarşısına toplaşaraq "Qarabağa azadlıq" şüarları ilə etiraz səslərini ucaltdılar.

Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini iriçaplı silahlardan, minaatanlardan atəşə tutdu. Azərbaycan Respublikasının Ali Baş Komandanı, cənab prezident İlham Əliyevin əmri ilə ordumuz əks hücuma başladı. Döyüşün ilk günlərində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı və Aşağı Əbdürrəhmanlı, həmçinin Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri erməni işğalından azad edildi. Ağdərənin Talış kəndi ətrafındakı yüksəkliklər və Suqovuşan qəsəbəsi, həmçinin Kəlbəcərin strateji əhəmiyyətli Murovdağ zirvəsi ələ keçirildi.

Azərbaycan ordusunun uğurlu əməliyyatları nəticəsində 2020-ci ilin 4 oktyabrında Cəbrayıl, 17 oktyabrında Füzuli, 20 oktyabrında Zəngilan, 25 oktyabrında isə Qubadlı düşməndən azad edildi. Bu əməliyyatlara Azərbaycan Ordusunun generalları Mais Bərxudarov və Hikmət Mirzəyev başçılıq edirdi. Noyabrın 8-də Azərbaycanın şanlı ordusu Şuşanı azad etdi. Artıq düşmən təslim olmaq ərəfəsində idi.

2020-ci il 10 noyabr tarixində Rusiya-Azərbaycan-Ermənistan rəhbərliyi tərəfindən üçtərəfli bəyənat imzalandı. Bu bəyənat Azərbaycanın zəfər qazanmasını, Ermənistanın isə kapitulyasiyasını rəsmiləşdirən sənəd idi. Bəyənatda işğalçı ölkə qoşunlarını Azərbaycan ərazilərindən çıxaracağını, Ağdam, Kəlbəcər və Laçından çəkiləcəyini, Mehridən Naxçıvana dəhliz açacağını öz öhdəsinə götürürdü. Münaqişə zonasına isə Rusiyanın sülhməramlıları yerləşdirilirdi.

Beləliklə, 44 günlük müharibədə Ali Baş Komandan-Xalq-Ordu birliyi dəmir yumruğa çevrilərək düşmənin məhv edilməsində başlıca rol oynadı. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin fərmanı ilə hər il 27 sentyabr ölkəmizdə şəhidlərin "Anım günü", 8 noyabr isə "Zəfər günü" kimi qeyd ediləcək. 2020-ci ilin dekabrın 10-da Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə "Zəfər Paradı" keçirildi.

Azərbaycan Prezidenti İlham Əliyev müharibə dövründə dünyanın bir sıra Kütləvi İnformasiya Vasitələrinə müsahibə verdi. Prezidentin hər çıxışı yalan və saxta bəyənatlarla dolu erməni təbliğatını darmadağın etdi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 2020-ci il oktyabrın 19-da və noyabrın 6-da ermənipərəst qüvvələrin təzyiqi ilə Azərbaycan əleyhinə qətnamə qəbul etməli idi. Lakin Azərbaycanın strateji müttəfiqi Böyük Britaniya veto hüququndan istifadə edərək qətnamənin qəbul edilməsinə imkan vermədi.

Müharibənin ilk günlərindən bir sıra ölkələr Türkiyə, Pakistan, Ukrayna, Gürcüstan, İsrail və digər dövlətlər Azərbaycanın Vətən müharibəsində haqq işini müdafiə etdi və siyasi dəstəklərini əsirgəmədi. Beləliklə, Vətən müharibəsi dövründə Azərbaycanın diplomatik manevrləri nəticəsində işğalçı ölkə olan Ermənistan region ölkələri arasında təklənmiş vəziyyətə düşdü, siyasi, diplomatik və informasiya sahələrində tamamilə məğlub edildi.

ƏDƏBİYYAT

1. Abbasbəyli A.N., Darabadi P.Q., İbrahimov Ə.G. Konfliktologiya. Bakı, BDU nəşriyyatı, 2006
2. Elşad Mirbəşiroğlu. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. Bakı, Elm, 2009
3. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, Zərdabi LTD, 2016
4. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı, Çinar-çap, 2010

SUMMARY

HISTORICAL AND POLITICAL SIGNIFICANCE OF THE PATRIOTIC WAR

Bunyadov Z.V.

The Republic of Azerbaijan was subjected to Armenian aggression after gaining independence. Armenian military units threatening the territorial integrity of Azerbaijan have occupied 20% of our lands. Our territories, which have been under occupation for about 30 years, were liberated from Armenian occupation in 44 days in 2020 under the leadership of the Supreme Commander-in-Chief, Mr. President Ilham Aliyev. The unity of the people-army-government played a special role in our victory. The Republic of Azerbaijan is already carrying out large-scale construction and restoration work to implement the Great Return Plan.

***Keywords**: homeland, war, history, politics, government, terror*

РЕЗЮМЕ

ИСТОРИЧЕСКОЕ И ПОЛИТИЧЕСКОЕ ЗНАЧЕНИЕ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ

Буньядов З.В.

После обретения независимости Азербайджанская Республика подверглась армянской агрессии. Армянские воинские формирования, угрожающие территориальной целостности Азербайджана, оккупировали 20% наших земель. Наши территории, находящиеся под оккупацией около 30 лет, были освобождены от армянской оккупации за 44 дня в 2020 году под руководством Верховного Главнокомандующего, господина Президента Ильхама Алиева. Особую роль в нашей победе сыграло единство народа, армии и правительства. В Азербайджанской Республике уже ведутся масштабные строительно-восстановительные работы по реализации Плана Великого Возвращения.

***Ключевые слова:** родина, война, история, политика, власть, террор*

SUMQAYIT - 1988: "ERMƏNİ QƏTLİAMI", YA "BÖYÜK ERMƏNİSTAN" NAMİNƏ MƏKRLİ TƏXRİBAT?

Cəbrayilova F.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
cebrayilova_fira@mail.ru

***Açar sözlər:** Dağlıq Qarabag problemi, Sumqayıt hadisələri, "erməni soyqırımı", ermənilərin ərazi iddiaları, təxribat, kütləvi iğtişaş.*

Görkəmli ictimai xadim Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində yazırdı: "Nəyin bahasına olursa-olsun, ermənilər özlərinin "böyük Ermənistan" yaratmaq niyyətlərini həyata keçirməyə çalışacaq və məqsədlərinə çatmaq üçün bizi İrəvandan, Qarabağdan cıxarmağa cəhd edəcəklər"[1.] 1988-ci ilin fevralında baş vermiş müdhiş Sumqayıt hadisələri bir əsrdən çox əvvəl deyilmiş bu fikirlərlərin nə qədər uzaqgörən olduğunu və məkrli erməni siyasətinin əsl mahiyyətini aydın şərh edir.

Sumqayıt hadisələri SSRİ xüsusi xidmət orqanlarının, şəxsən M.Qorbaçovun və xarici erməni lobbisinin dəstəyı ilə erməni cinayətkar ünsürlərinin Ermənistan dövlətinin ənənəvi ərazi iddialarına doğru yönəlmiş təxribat xarakterli cinayət hadisəsidir. Hadisədən keçən illər ərzində təxribatla bağlı müxtəlif

ictimai, mənəvi, elmi və hüquqi zəmində tədqiqatlar aparılmış, bu səpgidə həm xarici, həm yerli mətbuatda yetərincə bədii, püblisistik, psixoloji yazılar dərc olunmuş, sənədli və bədii filmlər çəkilmiş, həm dövlət, həm siravi vətəndaş səviyyəsində müxtəlif fikirlər səslənmişdir. Bütün bunlar və təxribatla bağlı jurnalist və hüquqşünas araşdırmaları bir daha əminliklə onu vurğulamağa əsas verir ki, 1988-ci ilin 27-29 fevral tarixində baş vermiş kütləvi iğtişaşlar nəticəsində 32 nəfərin, o cümlədən 26 erməni millətindən olan vətəndaşın və 6 azərbaycanlının qətlə yetirilməsi, 400 nəfərə yaxın insanın müxtəlif xəsarətlər alması ilə nəticələnən Sumqayıt hadisələri SSRİ-nin süqutunun tezləşdirilməsinə, Dağlıq Qarabag probleminə və Ermənistan dövlətinin işğalçılıq siyasətinə zəmin hazırlamaq məqsədi daşıyırdı.

Tarixi faktlar göstərir ki, məkrli erməni siyasətinin, erməni şovinizminin əsl mahiyyəti Sumqayıt hadisələrinin timsalında dəfələrlə təkrarlanıb. Türkmənçay sülh müqaviləsindən sonra kütləvi şəkildə Azərbaycan ərazilərinə yerləşdirilən ermənilər həmişə təxribatlar, igtişaşlar, qırgınlar törətmişlər, "böyük Ermənistan" xülyası naminə Sumqayıtda olduğu kimi, hətta öz millətinin vətəndaşlarını belə qurban verməkdən çəkinməmişlər.

Gürcü yazıçısı Qaribi müəllifi olduğu "Qızıl kitab"ında yazır ki, daşnaklar meydana çıxanadək Zaqafqaziyada əmin-amanlıq mövcud idi. Qafqaz xalqları birgə, dinc yaşayırdılar. Daşnakların gəlişi ilə vəziyyət dəyişdi, onlar yerli əhalini qıraraq müstəqil ermənistan yaratmaq istəyirdilər" [2.]

XIX əsrin II yarısından etibarən yaradılmiş "Armenakan", Hnçaq", Daşnaksütyun", XX əsrin 80-ci illərində yaranmış "Asala", 2000-ci illərdə yaradılmış "Geqaron", "Apostol" terror təşkilatlları, "Urartu", "Dro", "Van Avanesyan+31" və s. terrorçu dəstələri məhz "böyük Ermənistan" utopiyasına xidmət edirdi. 1988-ci il Sumqayıt hadisələrində də belə terrorçu dəstələrdən olan "Qarabağ" və "Krunk" millətçi cəmiyyətlərinin fəalları ənənəvi erməni terror təşkilatlarının missiyalarına uygun olaraq təxribat və kütləvi iğtişaşlarla məşgul olmuşlar.

Daglıq Qarabagın Ermənistana birləşdirilməsi "böyük Ermənistan" ideyasının bir hissəsi idi və bu ideyanın reallaşdırılması üçün Ermənistan tərəfindən dəfələrlə istər dinc, istərsə də igtişaş və provakasiya vasitəsilə çoxlu sayda cəhdlər olub. Müxtəlif adlarla yaranmış terror təşkilatlarının və millətçi dəstələrin fəaliyyəti əksər hallarda bu missiyanın yerinə yetirilməsinə hesablanıb. Sumqayıt hadisələri də bu siyasətdən kənar deyil. Uzun illərdən bəri müxtəlif millətlərin və etnik qrupların birgə dinc və əmin-amanlıq şəraitində yaşadığı bu şəhərdə 1988-ci ilin fevralında törədilmiş qanlı aksiya sonrakı illərdə Daglıq Qarabag problemi kontekstində Ermənistan-Azərbaycan münaqişələrinə zəmin hazırladı. Hadisələrin fəal iştirakçısı olan erməni Qriqoryanın öldürdüyü və təcavüzə uğratdığı ermənilərin adlarının "Qarabag" və "Krunk" təşkilatlarına üzvlük haqqı verməkdən imtina edənlərin siyahısında olması Sumqayıt hadisələrinin "böyük Ermənistan" utopiyasına xidmət edən planlaşdırılmış təxribat olduğunu sübut edir.

Sumqayıtın 70 illik yubileyi ilə baglı keçirilən tədbirdə çıxış edən hörmətli Prezident İlham Əliyev 1988-ci il Sumqayıt hadisələri ilə bağlı bunları söyləmişdi:" 1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırmışlar. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar. Onlar belə cəhdlər edirdilər, amma Heydər Əliyev bunun qarşısını layiqincə alırdı. Yəni, plan onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi [3.]

1988-ci ilin əvvəllərində artıq Daglıq Qarabağda yaşayan azərbaycanlıların öz törpaqlarından çıxarılması prosesi başlamışdı və Sumqayıt hadisələri bu prosesi daha da sürətləndirdi. Azərbaycanlıların onlara necə "divan tutduğunu", zorakılıq tətbiq etdiyini, Sumqayıtda ermənilərə qarşı əsil genosidin baş verdiyini bəyan edən ermənilər artıq bir yerdə yaşamağın mümkünsüzlüyü barədə haray çəkərək Dağlıq Qarabağın Ermənistana verilməsi barəsində iddialar irəlü sürməyə başladılar və 1989-cu dekabrında erməni parlamenti Daglıq Qarabagın Ermənistana birləşdirilməsi haqqında heç bir hüquqi əsası olmayan qərar qəbul etdi. Məhz bu qərardan sonra Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi prosesi başladı.

1988-1993-cü illərdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinin sədri vəzifəsində çalışan polkovnik Vladimir Lebedev Sumqayıt hadisələri ilə bağlı bunları vurgulamışdır: "Xaricdəki ermənilər 1980-ci illərin əvvəllərində Ermənistan rəhbərliyindən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldirmağı tələb edirdilər. Ermənilər Qorbaçov hakimiyyətə gələndən sonra Dağlıq Qarabağ məsələsini qaldırdılar. Məqsəd həm SSRİ-ni dağıtmaqla Qorbaçova kömək etmək, həm də Dağlıq Qarabağı Azərbaycanın tərkibindən alıb, Ermənistana qatmaq idi. Erməni oliqarxları Qarabağı özlərinin biznes mərkəzinə çevirmək istəyirdilər. Onların bu işə ayırdığı vəsait sovetlər birliyində olan hər hansı bir respublikanın illik büdcəsindən çox idi." [4.]

Keçən əsrin 90-cı illərində xalqımızın həyatında bir-birinin ardınca baş verən taleyüklü hadisələr – sovet qoşunları tərəfindən 150 nəfər ölkə vətəndaşının qətli ilə nəticələnən 1990-cı ilin 20 yanvar faciəsi, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə rus və erməni hərbçiləri tərəfindən 613 nəfər dinc sakinin ağlagəlməz işgəncələrlə qətlə yetirildiyi, əsrin ən böyük faciəsi sayıla bilən Xocalı soyqırımı, həmçinin 1994-cü il may ayının 12-ədək - ümummilli lider H.Əliyev tərəfindəm atəşkəs əldə olunana qədər Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun 1 kəndi olmaqla, ümumilikdə Azərbaycan ərazisinin 20 faizinin Ermənistan ordusu tərəfindən işğal olunması 1988- ci il Sumqayıt hadisələrinin ermənilərin ənənəvi ərazi iddilalarına, "böyük Ermənistan" planını həyata keçirmək niyyətlərinə təkan vermək məqsədi daşıyırdı. Əgər belə olmasaydı, erməni şovinizminin əsl mahiyyətini sərgiləyən Sumqayıt hadisələri çoxlu sayda millətin və xalqın, o cümlədən həmin dövrdə 14 min erməninin yaşadıgı paytaxt Bakıya yaxın olan Sumqayıt şəhərində deyil, daha ucqar, monoetnik əhalisi olan əyalətlərin birində baş verərdi. Ermənilərnin törətdikləri erməni qətlləri Azərbaycan xalqını dünyaya qaniçən, barbar kimi tanıtmaq niyyəti daşıyırdı və bu məkrli siyasət kifayət qədər reallaşa bildi. Qətllərin icraçısı erməni Qriqoryanın həbsi və sonradan müəmmalı şəkildə azad edilməsi, əksinə, azərbaycanlı Əhməd Əhmədovun güllələnmə ilə məhkum olunması hadisələrin çox öncədən Ermənistan və SSRİ təhlükəsizlik orqanları tərəfindən planlaşdırılmış təxribat oldugunu bir daha vurğulayır.

Bu gün Sumqayıt hadisələrinin üstündən artıq 34 il vaxt keçir. Zaman və hadisələr çox dəyişib, dəyişməyənsə məkrli erməni siyasəti və həmin müdhiş Sumqayıt hadisələrində ermənini öz ermənisindən canı bahasına qoruyan müdrik və mərd Azərbaycan xalqıdır. Ermənistan dövləti və erməni millətçiləri, onların xaricdəki havadarları Sumqayıt hadisələrinə öz siyasətləri naminə nə qədər müxtəlif don geyindirməyə çalışsalar da, həqiqət həqiqətliyində qalır: müdrik Azərbaycan xalqı, qəhrəman Azərbaycan ordusu və onun dəmir iradəli Ali Baş Komandanı öz haqq səsini, qəhrəmanlıgını bütün dünyaya sübut etdi. 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi 44 günlük Vətən müharibəsi ilə sona yetdi: 27 sentyabr 2020-ci ildə Azərbaycan ordusunun möhtəşəm hərbi əməiyyatları noyabrın 10-da Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi. Bununla da, Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyularaq Qarabağın tacı olan Şuşa şəhəri və işğal altında olan digər ərazilərimiz düşmən əsarətindən azad edildi. 1988-ci Sumqayıt hadisələrindən başlanan Dağlıq Qarabag problemi bu gün artıq tarixdə qalıb. Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, liderlik bacarığı, Azərbaycan xalqının birliyi, güclü Azərbaycan ordusunun dünyaya örnək olan rəşadəti, xatirələri daima əziz tutulan müqəddəs şəhidlərin və qazilərin qəhrəmanlığı sayəsində dövlətimiz öz ərazi bütövlüyünü təmin edərək Qafqazın lider ölkəsinə çevrilib. Ermənilərin illərdən bəri yalan, terror və təxribata xidmət edən "böyük Ermənistan" röyası elə röya olaraq qaldı: Azərbaycanın 44 günlük zəfər savaşı 1988-ci il Sumqayıt hadisələrinin meydan açdığı Daglıq Qarabag münaqişəsini tarix səhnəsindən birdəfəlik yox etməklə bərabər, Azərbaycanı dünyaya siyasi, iqtisadi, mənəvi cəhətdən güclü dövlət kimi yenidən tanıtdı.

ƏDƏBİYYAT

1. Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, 252 səh. s.80
2. Qaribi. Qızıl kitab. Tiflis, 1921. QA Azerb. resp. F.1061, op.l c. l.86, l. 74
3. https://president.az/az/articles/view/34868
4. https://xalqqazeti.com/mobile/az/news/18160

SUMMARY

SUMGAYIT - 1988: "ARMENIAN GENOCIDE", OR "AN EVIL PROVOCATION IN THE NAME OF "GREAT ARMENIA"?

Jabrayilova F.S.

The article deals with the riots committed by the Armenians in Sumgayit in February 1988 in the context of the Nagorno-Karabakh conflict. The author points out that this insidious and planned provocation is based on regular and traditional territorial claims of the Armenians. The article clearly and concisely outlines the insidious policy of the Armenian state, which is trying to present its unrest as an "Armenian genocide".

***Key words**: Nagorno-Karabakh problem, Sumgayit events, "Armenian genocide", territorial claims of Armenians, provocation, riots*

РЕЗЮМЕ

СУМГАИТ - 1988: "ГЕНОЦИД АРМЯН", ИЛИ "КОВАРНАЯ ПРОВОКАЦИЯ ВО ИМЯ "ВЕЛИКОЙ АРМЕНИИ"?

Джабраилова Ф. С

В статье рассматриваются массовые беспорядки, совершенные армянами в Сумгайыте в феврале 1988 года в контексте нагорно-карабахского конфликта. Автор указывает, что в основе этой коварной и спланированной провокации лежат очередные и традиционные территориальные претензии армян. В статье четко и лаконично излагается коварная политика армянского государства, пытающегося представить свои беспорядки как «армянский геноцид».

Ключевые слова: *Нагорно-карабахская проблема, сумгаитские события, «армянский геноцид», территориальные претензии армян, провокация, массовые беспорядки*

ŞUŞA VƏ ONA YAXIN BÖLGƏDƏ APARILMIŞ İLKİN ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA

Cəfərov H.
Azrbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
hidayet-jafar@mail.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, Şuşa, Xocalı, Ağdam*

Azərbaycanın əzəli və ayrılmaz tərkib hissəsi olan Qarabağın zəngin təbii sərvəti, əlverişli iqlim şəraiti buranın ən qədim dövrlərdən məskunlaşmasına şərait yaratmışdır. Zaman keçdikcə burada insan məskənləri də çoxalmış, əhali artmış, ictimai-iqtisadi həyat qaynamış və bunun nəticəsidir ki, Qarabağda hər addımbaşı tarixi keçmişin bu və ya digər mərhələsi ilə bağlı abidə və ya abidələr qrupuna təsadüf olunur.

Heç kəs üçün sirr deyil ki, bütövlükdə Qarabağın tacı, döyünən ürəyi Şuşadır. Qarabağın başqa bölgələri ilə yanaşı Şuşa və onun ətrafında qədim insanların hələ Paleolit dövründən məskən salması təkzibedilməz faktlarla sübut oılunmuşdur. Azərbaycanda paleolit dövrünün (ən qədim daş dövrü) əsasını qoymuş professor Məmmədəli Hüseynov bütün dünyada məşhur olan Azıx, Tağlar, Zar və başqa mağara düşərgələrilə yanaşı Şuşa paleolit mağarasınıda aşkar etmiş, tədqiqatlar apararaq elmi ictimaiyyətə çatdırmışdır[5].

Bununla yanaşı, Şuşa və onun ətrafında, habelə Şuşakənd, Daşaltı, Mehtikənd və s. yaşayış məntəqələrində xüsusilə son tunc və ilk dəmir dövrünə aid çoxsaylı daş qutu qəbirləri, kurqanlar mövcuddur. Bütün bunlar Şuşa və onun ətrafında ən qədim dövrlərdən Azərbaycanın qədim sakinləri tərəfindən məskunlaşmasını göstərir.

Xatırladaq ki, Qarabağ, o sıradan Şuşa şəhəri və onun tarixi abıdələri haqqında ilkin məlumatlar əcnəbi səyyah və tədqiqatçılar tərəfindən verilmişdir.

1834-cü ildə İsveçrə səyyah Diyuba de Monpero [9, s. 61-63, 66 və s.] Qafqazı gəzərkən Naxçıvandan keçib Şuşaya gəlmiş, bir neçə gün burada qalmış, Şuşanın təbii-coğrafi şəraiti ilə yanaşı şəhərin özü ilə, habelə tarixi abidələri ilə tanış olmuşdur .

Şuşa və onun ətrafındakı arxeoloji abidələr haqqında nisbətən dolğun məlumatları Şuşadakı Real məktəbdə alman dili müəllimi işləmiş alman əsilli Emil Reslər vermişdir.

Öz arxeoloji tədqiqatlarına Şuşa və onun ətrafında başlayan, Emil Aleksandroviç Resler(onun soy adı bəzi yazılarda –Rosler,Restler-kimi də getmişdir), XIX əsrin 90-cı illərində Azərbaycanın Şuşa, Xocalı, Dovşanlı, Axmaxı, Ballıqaya, Sırxavənd, Xaçınçay, Kətti təpə, Lısaqorsk, Abdal-Gülablı və s. abidələrində qazıntılar aparmış, Qalatəpə, Qaraköpəktəpə abidəlırinə baxış keçirmiş, e.ə. III-I minilliklərə aid çoxsaylı kurqan, daş qutu qəbri və s. abidələri aşkar etmişdir.

Şuşada yaşayan və işləyən E.Reslər, təbii ki, ilkin axtarışlarını Şuşada və onun ətrafında aparmışdır. O, 1891-ci ildə Şuşanın yaxınlığındakı Şuşakənddəki nekropolda üç daş qutu qəbri (N 1,2,3) açmışdı[8, Vərəqlər 10-26; 12,səh 566-568; 10, səh 6, 72]. Daş qutu qəbirlərdən tuncdan əsa başlığı, düymə, bıçaq, kündəvari umbon-falar, habelə dəvəgözündən hazırlanmış oraq dişləri və qəlpələr tapılmışdır. Şuşa ətrafında qazıntıları 1893-cü ildə davam etdirən E.Resler burada bir neçə kurqan da qazmışdır. Kurqanaltı qəbirlər hər kurqanda bir qəbir olmaqla daş qutulardan ibarət olmuşdur.

Bütövlükdə aşkar edilmiş səkkiz daş qutu qəbirləri içərisində 5 saylıda daha çox artefakta təsadüf olunmuşdur. Buraya büründcdən hazılanmış müxtəlif quruluşlu(ucları aralı yaxud bitişik, cəthi saya və naxışlı qolbaqlardan, orijinal quruluşlu, ağac taxılması üçün borulu, yarpaqvari tiyəli tunc nizə ucundan, habelə büründcdən hazırlanmış artefaktlar - üzük, müxtəlif ölçülü düymələr, maqqaş, zəncir, qaban dişindən olan amulet, yastı daş balta, dəvəgözü daşından hazırlanmış badamvari quruluşu, arxası oyuq və ya tıxaclı ox ucluqları daxil olmuşdur. Bunlardan başqa qəbir avadanlığı içərisində səthi qabarıq, paralel, çərtmə naxışlı, tək qulp saxsı qab nümunələrinə də tasadüf edilmişdir[13, səh – 214-217, şəkil 2,3,4; şəkil 5, a,b,c,e,d; 10, səh. 72].

Axtarışlarını davam etdirən E.Resler, növbəti, 1893-cü ildə başqa qəbir abidələrində də arxeoloji qazıntılar aparmışdır (4,6,7,8,9,10,11 saylı daş qutu-sənduqələr). Kurqanlarda başqa materiallarla yanaşı dəvəgözü(obsidian) daşından arxası oymalı, badamvari quruluşu, kənarı gəzli (ustalıqla dişəklənmiş) ox ucluqları əldə olunmuşdur [13, səh. 218-219; 10, səh. 72].

Şuşa nekropolunda tədqiq olunmuş daş qutu qəbirlərdən və kurqanaltı qəbirlərdən tapılan arxeoloji materiallar Azərbaycanda geniş yayılmış və əsaslı tədqiq edilmiş, ən yani dəqiqləşdirilmələrlə e.ə. XIV-VIII əsrlər çərçivəsyndə dövrləşdirilən Xocalı-Gədəbəy mədəniyyətinin ikinci inkişaf mərhələsi üçün xarakterik əlamətləri özündə əks etdirir və e.ə. XII-XI əsrlərə aid olunur.

E.Reslerin 1895 [1, vərəq 48; 6, səh. 5], 1896 [2, vərəq 44-45; 7, səh. 109] və 1897[13, vərəq 41-47, 57-58; 8, səh.99,180] araşdırmaları elə də uğurlu olmasa da, hər halda o, Qarabağın Xocalı, Dovşanlı, Axmaxı, Sırxavənd, Gülablı və s. abidələri ilə yanaşı Şuşaətrafı ərazidə axtarışlarını davam etdirmişdir.

E.Resler əldə olan materialları S.Peterburq şəhərinə, İmperator Arxeoloji Komissiyasına göndərmişdir. O, qazıntılar haqqında ətraflı hesabat yazmış, bu hesabatlar indiki Rusiya EA S.Peterburq Maddi-Mədəniyyət İnstitutunun arxivində (köhnə adda ЛОИА) saxlanılır. Qazıntılar haqqında məlumatlar həmçinin Berlində alman dilində nəşr olunan ZEVGAEU məcmuəsində, habelə İmperator Arxeoloji Komissiyasının Xəbərlərində nəşr olunmuşdur. Bu materiallar Azərbaycan arxeoloqlarının müxtəlif nəsil nümayəndələri tərəfindən (İ.Nərimanov – Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, 1958, 142 s.; H.Cəfərov[11], D.Cəfərova - Оружия племен Карабаха в эпоху поздней бронзы и раннего железа. Баку, 2008, 255 с.və b.) diqqətlə öyrənilmiş və elmi dövriyyəyə daxil edilmişdir). E.Resler peşəkar arxeoloq olmamışdır. Onun qazıntıları son dərəcə bəsitliyi, elmi dayaqlara söykənmədən aparılmışdır. Lakin onun əlyazmaları, cizgilər, çəkdiyi planlar, apardığı qeydlər, hesabatlar göstərir ki, bu insan öz işinə dövrünə görə məsuliyyətlə yanaşmaış, materialları şəxsi əmlakına çevirməmiş, lazımi elmi ünvanlara çatdırmış və imkanı daxilində şərh etmişdir. Azərbaycan arxeoloqları onun işini bu baxımdan qiymətləndirmişlər.

Yüksək dağlıq zonada, tarixi Azərbaycan torpağı olan Zəngəzurda, Dığ kəndi ətrafında, Kətti təpədə, Şuşa və onun ətrafind, Mehtikənddə,Çanaxçıda, Zertidə, yuxarıda sadaladağımız və E.Reslerin, necə deyərlər, əsas qazıntı obyektləri olan Xocalı, Axmaxı, Ballıqaya, Sırxavənd, Dovşanlı, Xaçınçay abidələrində aparılan arxeoloji qazıntılardan[bax, ədəbiyyat: 1;2;6;7;8;13] əldə olunmuş artefaktlar, sonrakı vaxtlarda qədim tariximizin bir sıra aktual problemlərinin araşdırılmasında böyük rol oynamışdır. Biz fikrimizi təsdiq edən çoxsaylı faktları misal gətirə bilərik. Bunların sırasında indi Azərbaycan tədqiqatçılarının səyi və məqsədyönlü elmi fəaliyyəti sayəsində dünya elmində layiqincə işıqlandırılan Xocalı abidələri kompleksi xüsusi vurğulanmalıdır. Ədalət naminə göstərməliyik ki, Xocalı abidələri kompleksində ümumi oxşarlığa baxmayaraq xarici görnüşündə müşahidə olunan bir sıra detallarla yanaşı, daha başlıca olan xronolji sıralamada əsaslı fərqlərə malik beş kurqan tipinin varlığı, mən də daxil olmaqla hamımızın, arxeologiyada diletant adlandirdığımız E.Resler tərəfindən müəyyən edılmişdir. Bu bölgüyə 1926-cı ilin yoxlama və qazıntıları əsasında И.И. Мещанинов(Мещанинов И.И. краткие сведения о работах археологической экспедиции в Нагорный Карабах и Нахичеванский край. Снаряженной в 1926 г. Обществом изучения Азербайджана. Сообщ.ГАИМК. Ленинград, 1926, с.217-240); 1984-cü ılin araşdırmalarına əsasən H.F.Cəfərov(Cəfərov H. F. Qədim Qarabağ. Bakı, 2020, s. 180-186) müəyyən, kosmetiq xarakterli korreksiyalar versələr də, E.Reslerin baza xarakterli bölgüsü əsas götürülmüşdür.

E.Reslerin Xocalı, Ballıqaya, Axmaxı, habelə, Gəncəçay hövzəsindəki arxeoloji gazıntılarının nəticələrinə istinad edən alimlərimiz, tunc dövrünün son mərhələsində Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni dini-ideoloji ınkişafı, yaxın qonşular və qədim Şərqin məsafəcə uzaq mədəniyyət mərkəzləri arasında hərtərəfli əlaqələrin varlığını sübut edən çoxsaylı faktları üzə çıxarmış, dünya sivilizasiyasının formalaşmasında azərbaycanlıların layiqli töhfələr vermələrini sübut etmişlər.

44 günlük zəfər müharibəsi nəticəsində, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə ərazilərimizin erməni faşistlərindən azad olunması ilə tarixi abidələrimizin öyrəniməsində keyfiyyətcə yeni mərhələ başlanmışdır. İndi Şuşanın və onun ətrafındakı ən qədim arxeoloji abidələri fərdi qaydada deyil, ümumi Qarabağ və bütövlükdə Azərbaycan konteksində, kompleks halında öyrənmək lazımdır. Azərbaycan arxeoloqları işlərini bu istiqamətdə yerinə yetirirlər.

Şuşanın ən qədim dövrlərdən bütöv Qarabağla birlikdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olması arxeoloq alimlərimiz tərəfindən mütəmadi olaraq dünya ictimaiyyətinə çatdırılır.

ƏDƏBİYYAT

1. ДАК, ЛОИА arxivi, N 60/1895.
2. ДАК, ЛОИА arxivi, N 36/1896.
3. ДАК, ЛОИА arxivi, N 48/1897.
4. Дело Археологической Комиссии. SSRİ EA Arxeologiya institutunun Leninqrad Filialının (keçmiş ЛОИА,indiki Rusiya EA Sankt-Peterburq Maddi-Mədəniyyət İnstitutu) arxivi,fond 2,N 130/1891.
5. Джафаров А.К. Разведочные работы в Шушинской пещере. ИПАЭИА за 1972 г., Баку, 1973.
6. ОАК за 1895 г., S.Pb., 1897.
7. ОАК за 1896 г. SPb., 1898.
8. ОАК за 1897г., S Pb., 1900.
9. Путешественники об Азербайджане. Том II, 1961, AMEA Tarix institutunun elmi arxivi, iş 4570/2.
10. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – e.ə. I minilliyin əvvəllərində. Bakı, Elm, 2000.
11. Cəfərov H.F. Qədim Qarabağ. Bakı, Elm, 2020.
12. ZEVBGAEU, Berlin, 1892.
13. ZEVBGAEU, Berlin, 1894.

SUMMARY

THE FIRST ARCHEOLOGICAL RESEARCHES IN SHUSHA AND ADJACENT TERRITORY

Jafarov H.

If we do not take into account the fragmentary reports of Dubois de Monpero (1834), who casually mentioned the monuments located in the Shakhbulag region and along the postal route near the settlement of Terter, as well as N. O. Tsilosani, who carried out partial excavations on behalf of the Preparatory Committee of the Fifth Archaeological Congress in the vicinity Barda and who noted the presence of burial mounds in this area, the first and most reliable information about the monuments of the studied region belongs to S. Veissenhof, an employee of the Russian Geographical Society.

However, the first direct archaeological excavations of the archaeological monuments of Karabakh are associated with the name of Emil Resler, who worked at the end of the 19th century as a teacher at the Shusha Real School. In the period from 1891 to 1898, he studied and excavated numerous archaeological sites, mainly stone boxes and burial mounds, in different corners of Karabakh, including Shusha and its environs. The first excavations started around the city of Shushakend and Shusha, and then continued near the villages. Dashalti, Chenakhchi and Mehtikenda., Further to Ketty Tepe, Lysagorsk, etc.

Interesting results were obtained by him in various types of cemeteries near the villages. Abdal-Gulabli (stone boxes, mounds "Nabi-tapa" and "Brick tapa", "Gypsy graves", etc.).

His excavations in the burial mounds concentrated in the middle of the Khachinchay River were fruitful. These mounds are Dovshanlı (1893-1894), Ballukaya-Sirhovend (1894), (1897), Damgolu (1894), Akhmakhi (1897), Hachınchay (1897).

However, none of the monuments studied by him can be compared with the Khojali burial ground, located at the confluence of three rivers - Gargarchay, Khojalichay and Ilisuchay. For four years (1894, 1895, 1897) he excavated more than twenty mounds and several stone boxes here. According to external signs, he determined the existence of five types of burial mounds in Khojaly. This typology is still valid today, with minor corrections.

Keywords: *Azerbaijan, Karabakh, Shusha, Khojaly, Aqdam*

РЕЗЮМЕ

ПЕРВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ШУШЕ И ПРИЛЕГАЮЩЕЙ ТЕРРИТОРИИ

Джафаров Г.

Если не учитывать отрывочные сообщения Дюбуа де Монперо (1834 г), вскользь упомянувшего о памятниках, находящихся в районе Шахбулага и вдоль почтового тракта у населенного пункта Тертер, а также Н О. Цилосани, проводившего частичные раскопки по поручению Подготовительного Комитета Пятого Археологического съезда в окрестностях Берда и отметившего наличие курганов в этом районе, то

первые и наиболее достоверные сведения о памятниках исследуемого региона принадлежит сотруднику Русского Географического общества С.Вейссенгофу.

Однако первые непосредственные археологические раскопки археологических памятников Карабаха связаны с именем Эмиля Реслера, работавшего в конце XIX века преподавателем Шушинского реального училища. В период с 1891 по 1898 годы он обследовал и раскопал многочисленные археологические памятники, главным образом каменные ящики и курганы, в разных угольках Карабаха, в том числе, Шуше и окрестности. Начав первые раскопки в окрестностях Шушакенда и города Шуша затем продолжил их у сел. Дашалты , Ченахчи и Мехтикенда., дальше в Кетти тепе, Лысагорске и т.д.

Интересные результаты были получены им в разнотипных могильниках у сел. Абдал-Гюлябли (каменные ящики, курганы «Наби-тапа» и «Кирпич тапа», «Цыганские могилы» и т. д.).

Плодотворны были его раскопки в курганных памятниках, сосредоточенных в районе среднего течения реки Хачинчай. Эти курганы Довшанлы (1893г. 1894г.), Баллукая-Сирховенд (1894г.), (1897г.), Дамголу (1894г.), Ахмахи (1897г.), Хачинчая (1897г.).

Тем не менее, ни один из исследованных им памятников не может быть сопоставим с Ходжалинским могильником, расположенном в слиянии трех рек - Гаргарчая, Ходжалычая и Илисучая. В течение четырех лет (1894г., 1895г., 1897г.) здесь им было раскопано свыше двадцати курганов и несколько каменных ящиков. По внешним признаком он установил наличие в Ходжалах пяти типов курганов. Эта типология с незначительной коррекцией верна и сегодня.

Ключевые слова: *Азербайджан, Карабах, Шуша, Ходжалы, Агдам*

QARABAĞ ZƏFƏRİNƏ GEDƏN YOL HEYDƏR ƏLİYEV İRSİNİN TƏNTƏNƏSİDİR

Cəlalzadə B.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
celalzade.92@mail.ru

Açar sözlər: *Qarabağ, Azərbaycan, Ermənistan, siyasət, beynəlxalq təşkilatlar, münaqişə*

1993-cü ildə Azərbaycanda qeyri-sabitlik höküm sürürdü. Dağlıq Qarabağda davam edən müharibə, ölkənin iqtisadi vəziyyətinin ağırlaşması, Cəbhə hökumətinin yeritdiyi siyasəti bəyənməyən Surət Hüseynovun Rusiyanın yardımı və dəstəyi ilə dövlətə qarşı dövlət çevrilişinə cəhdi ölkəni çıxılmaz vəziyyətə salmışdı. Belə bir qarışıq siyasi-iqtisadi vəziyyətdə xalq çıxış yolunu və ümidini Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasında görürdü. Bunu təkcə xalq deyil, həmin dövrdə idarəçilik postunda olan şəxslərdə istəyirdi. Respublikanın belə çətin vəziyyətində Əbülfəz Elçibəy istefa verib dövlət başçısı postunu tərk etdikdən sonra Heydər Əliyev Bakıya dəvət olunmuşdu. Cəbhə hökumətinin rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev həm siyasəti, həm də dövlət idarəçiliyini yaxşı bilən təcrübəli bir şəxsiyyət idi [3, s. 81-82]. Heydər Əliyev uzun müddət rəhbər vəzifələrdə çalışmışdır. Belə ki, o, 1988-ci ilə qədər Moskvada SSRİ Baş nazirinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü vəzifələrinə qədər yüksəlmişdi [3, s. 81-82]. Azərbaycan Respublikasında 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri nəticəsində Heydər Əliyev xalqın 99%-nin səsini toplayaraq 1-ci müddətə prezident seçildi. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın xarici siyasət strategiyası dəyişməyə başladı. Çünki ölkənin beynəlxalq aləmdə uğur qazanması üçün cəmiyyətdə sabitliyin təmin edilməsi, dövlət institutlarının yenidən qurulması, ictimai-dövlət münasibətlərinin gücləndirilməsi, qarşılıqlı etimadın təmin edilməsi zəruri idi. Bu səbəbdən də Heydər Əliyev Azərbaycanın və dünya düzəninin tələblərini nəzərə alan yeni və real xarici siyasətə, praqmatik yenidənqurmaya üz tutdu. Bu siyasət əsasında Azərbaycanda, daha sonra isə regionda sülh və əmin-amanlığı təmin edəcək münasibətlərin qurulması və inkişaf etdirilməsi nəzərdə tutulurdu.

Hakimiyyətə gələn Heydər Əliyev əvvəlki idarəçilərdən fərqli olaraq xarici siyasətdə balans siyasətini seçdi. Heydər Əliyev dövlət idarəçiliyindəki təcrübəsinə görə yaxşı bilirdi ki, yeni müstəqil dövlət üçün Qərb və ya Rusiyayönümlü siyasət tətbiq etmək yanlış seçim olardı. Bu siyasətin həyata keçirilməsində əsas məqsəd Azərbaycanda və regionda sülh və əmin-amanlığı təmin edəcək münasibətlərin qurulması və inkişafı olmuşdur. Bu çərçivədə Heydər Əliyev Azərbaycanın xarici siyasətini aşağıda sadalanan bir neçə mühüm istiqamətlər üzərində formalaşdırmışdır:

1. Azərbaycanın ərazi bütövlüyünün qorunması;
2. İqtisadi və siyasi suverenliyin təmin edilməsi və saxlanılması;

3. Milli maraqların müəyyən edilməsi və qorunması;
4. Vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;
5. Azərbaycanın maraqlarının müdafiəsi üçün lazım olan ölkələrin müəyyən edilməsi və sıx əlaqələrin qurulması;
6. Digər ölkələrlə balanslaşdırılmış və qarşılıqlı xarici siyasətin həyata keçirilməsi [3, s. 82].

Bu dövrdə xarici siyasətə rəhbərlik edən Heydər Əliyev dövlətin əsas maraq və məqsədlərini müəyyən edərək, onların qısa müddətdə həyata keçirilməsi üçün tədbirlər gördü. Bu prosesə keçməzdən əvvəl bu məqsəd və maraqlara qısaca toxunmaq faydalı olardı. Heydər Əliyev Azərbaycan və azərbaycanlılar üçün əsas məqsəd və maraqları aşağıdakı kimi müəyyən etmişdir:

1. Demokratiyanın, sosial-hüquqi dövlətin qurulması və inkişafı;
2. Müstəqilliyin və ərazi bütövlüyünün qorunması;
3. Dağlıq Qarabağ probleminin həlli;
4. Bazar iqtisadiyyatına keçidin təmin edilməsi;
5. Hərbi hissələrin müasirləşdirilməsi və gücləndirilməsi;
6. Xarici siyasətdə demokratik və çoxqütblü fəaliyyətin dəstəklənməsi [2, s. 44].

Azərbaycanın xarici siyasətinin əsas istiqamətini Qarabağda gedən müharibə və məğlubiyyətlər təşkil edirdi. 1980-ci illərin sonlarından davam edən Dağlıq Qarabağ məsələsi A.Mütəllibovdan Ə.Elçibəy dövrünə qədər həll olunmadan davam etmişdi. Azərbaycanın xarici siyasətinin əsasını Qarabağ və ətraf rayonlarda erməni işğalının dayandırılması təşkil edirdi. Daha əvvəl də qeyd edildiyi kimi, bu problemin həlli üçün ölkə daxilində sabitliyin təmin edilməsi və onun ərazi bütövlüyünün qorunub saxlanılması əsas götürülürdü. Ona görə də Heydər Əliyevin əsas məqsədi Dağlıq Qarabağ məsələsini həll etmək idi. Bu məqsədə xidmət etmək üçün xarici siyasət elementlərindən səmərəli şəkildə istifadə edilmişdir. Bu məqsədlə regionda əhəmiyyətli təsirə malik olan Rusiya ilə ikitərəfli münasibətlər yaxşılaşdırılmağa başlandı. İki ölkə arasında münasibətlərin normallaşması üçün bütün yollar axtarıldı, iqtisadi və siyasi əlaqələrin hər iki tərəfin maraqlarına uyğun inkişafı üçün mühüm addımlar atıldı. Belə ki, Heydər Əliyev 1993-cü il sentyabrın 6-da Moskvada Rusiya Prezidenti Boris Yeltsinlə görüşdü. Bu görüş hər iki ölkə arasında münasibətlərin dostluq və yaxın qonşuluq səviyyəsində yaxşılaşdırılması üçün mühüm addım idi və bu addımın davamı olaraq sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil edildi [5, s. 229-230]. Azərbaycan istiqlal mübarizəsi dövründə A.Mütəllibovun Rusiyayönlü siyasət həyata keçirməyinin, Elçibəy rəhbərliyinin isə anti-Rusiya siyasətinə əməl etməsinin bədəlini ağır ödəmişdi. Ona görə də Heydər Əliyev həm Rusiya, həm İran, həm də Qərb dövlətləri ilə ahəngdar münasibətlər saxlamağa çalışırdı. Xarici siyasətdə atılan qətiyyətli və praqmatik addımların nəticəsi idi ki, ölkənin daxilində sabitlik əldə olunmuşdu. Çünki Heydər Əliyevin hakimiyyətə gəlişi dövründə ölkədə daxili qarışıqlıq davam edirdi və ölkə parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Heydər Əliyev ilk növbədə daxili sabitliyin təmin olunmasına diqqət yetirirdi. Buna nail olmaq üçün cəbhədə atəşkəs əldə edilməli idi. 1994-cü il mayın 12-də atəşkəsə nail olan Heydər Əliyev daha sonra daxili siyasətdə sabitliyi təmin edərək Qarabağ probleminin həllinə üz tutdu. İlk öncə müharibədən yenicə çıxan bir dövlətin iqtisadiyyatını bərpa etmək və xarici investitorları buraya cəlb etmək lazım idi. Heydər Əliyev çox düzgün təhlil edirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Məhz Azərbaycanın xarici siyasətinin ən mühüm elementlərindən biri də təbii sərvətlərdən istifadə və dünya bazarlarına çıxarılması təşkil edirdi. Çünki Elçibəy dönəmində daxili qeyri-sabitlik ucbatından sərmayə qoymaqdan vaz keçən transmilli şirkətlər Heydər Əliyev dövründə həyata keçirilən uğurlu daxili siyasətin və lobbiçiliyin verdiyi inamla yenidən bölgəyə üz tutdular. Bu inamın nəticəsi olaraq 1994-cü il sentyabrın 24-də imzalanan "Əsrin müqaviləsi" ilə enerji sektorunun 6 böyük ölkəsi birbaşa Qarabağ problemi ilə məşğul oldu. Çünki regiona sərmayə qoyan transmilli şirkətlər regionda sabitlik istəyir və bu, yalnız regionun böyük problemi olan Dağlıq Qarabağ həll edildikdən sonra mümkün görünürdü. Bu səbəbdən də müvafiq neft şirkətlərinin himayədarı olan altı ölkə Dağlıq Qarabağ problemi ilə daha yaxından məşğul olmağa başladı. Bu, yeni və gənc dövlət olan Azərbaycanın xarici və daxili siyasətinin uğuru kimi qəbul edilməlidir [9].

Heydər Əliyev xarici siyasətdə əsas problem kimi qələmə verdiyi Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mübarizəsini beynəlxalq təşkilatların üzv ölkəsi kimi bütün tribunalardan dünya birliyinə izah etmək istiqamətində böyük addımlar atmışdır. Ermənistanın Azərbaycana qarşı əsasız ərazi iddiaları hələ də davam edirdi. Baxmayaraq ki, münaqişənin həlli istiqamətində dünyanın ən böyük təşkilatı olan BMT-nın Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdi. Bu qərarlarda erməni silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan torpaqlarını tərk etmələri tələb olunsa da, bu tələblər heç vaxt yerinə yetirilməmişdir [6, s. 44-46]. Regionda sülhün və sabitliyin bərpası üçün ilk növbədə erməni işğalçıları Azərbaycan torpaqlarından çıxarılmalı idi. Bunu Ermənistan hökuməti də yaxşı başa düşürdü. Lakin bununla heç bir zaman razılaşmaq istəmirdi. Və bu siyasətin də nəticəsi olaraq Ermənistan bütün beynəlxalq və regional layihələrdən kənarda qalmağa, xalqı isə işğal siyasətinin qurbanı olaraq səfalət içində yaşamağa məhkum idi.

Heydər Əliyevin idarəçiliyi dövründə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edildi və problemin həlli üçün ATƏT vasitəsilə yeni sənəd hazırlandı. 1996-cı

ildə ATƏT-in Lissabonda keçirilən zirvə toplantısında Azərbaycan Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırlanmış sənəddə: Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması, Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyi və regiona "özünüidarəetmə" hüququ ilə bağlı məsələlər yer almışdı. Nəzərə alsaq ki, problemin münaqişəli başlanğıcı 1988-ci ildə olub, 1996-cı ildə bu sənədin hazırlanmasında Heydər Əliyevin apardığı sabit daxili və xarici siyasətin təsiri böyük əhəmiyyət kəsb edirdi. Bu sənəd Heydər Əliyevin uğurlu lobbiçilik fəaliyyəti ilə əlli üç dövlət tərəfindən qəbul edilsə də, Ermənistan öz ekspansionist siyasətinə uyğun olmadığı üçün bu planı qəbul etməkdən yayındı. Eyni zamanda, problemlərin həllində səmərəsiz olan Qərb ölkələrinin qrup üzvlüyündə transformasiya prosesi baş verdi. Dövri həmsədrlik statusu ləğv edilərək, əvəzinə üç ölkənin təmsil olunduğu daimi həmsədrlik vəzifəsi təsis edildi. Rusiya, ABŞ və Fransanın həmsədrliyi sayəsində bütün təşəbbüslərin Rusiyanın əlində olmasının qarşısı alınaraq bir növ tarazlıq yarandı.

1997-ci ildə Minsk qrupu həmsədrlərin regiona səfərləri, bütün tərəflərlə görüşləri və hazırladıqları bəyannamələr nəticəsində üç həll təklifi təqdim olundu. Bunlar: paket, mərhələli, ümumi dövlət təklifi idi [9].

1997-ci il iyulun 17-də təqdim edilmiş "paket" layihəsində tərəflər arasında bağlanacaq sülh sazişi və Dağlıq Qarabağın yeni statusu öz əksini tapmışdı. Əlavə olaraq Laçın, Şuşa və digər işğal olunmuş ərazilərin yeni statusu da bu layihə ilə müəyyən edilmişdi. 2 dekabr 1997-ci ildə "mütərəqqi həll" layihəsi təqdim olundu. Müvafiq olaraq, Dağlıq Qarabağın və digər işğal olunmuş rayonların vəziyyətinin ayrıca həll edilməsi və məcburi köçkünlərin son vəziyyətinin necə olacağı qərara alındı. 7 noyabr 1998-ci ildə yekun həll layihəsi olan "ümumi dövlət" təqdim olundu [9]. Ümumi dövlət layihəsində regionda Dağlıq Qarabağ Respublikasının yaradılması, rəsmi dilin erməni dili olması və Laçın dəhlizinin vəziyyəti ilə bağlı maddələr var idi. Bu maddələrin ilk ikisini Ermənistan, sonuncunu isə Azərbaycan qəbul etmədi və bu cəhd nəticəsiz qaldı. Azərbaycanın yanaşmaları ilk növbədə Ermənistanın işğal etdiyi rayonlardan çıxarılması, Dağlıq Qarabağa yeni status vermək, azərbaycanlı məcburi köçkünləri öz vətənlərinə qaytarmaq və bu bölgədə erməni təsirini azaltmaqdır. Lakin bütün danışıqlardan göründüyü kimi, işin nəticəsi həmişə Ermənistanın dominant mövqedə olacağı olub.

Əsrin sonuncu zirvəsi adlandırılan ATƏT-in İstanbul Zirvə toplantısında müzakirə edilən ən mühüm məsələlərdən biri də Dağlıq Qarabağ məsələsi oldu. Problemin həlli ilə bağlı Azərbaycan və Ermənistan liderlərinin təşəbbüslərinin yüksək qiymətləndirildiyi sammitdə Minsk Qrupunun sülhə gedən yolda daha təsirli addımlar atacağına ümidlər yarandı. Tərəflər 21-ci əsrdə Praqa Prosesi ilə problemin həlli üçün danışıqlara başladılar. 2001-ci il yanvarın 26-da əvvəlcə Parisin Marini sarayında, martın 5-də isə Yelisey sarayında keçirilən danışıqlar aprelin 4-6-da ABŞ-ın Florida ştatının Key West şəhərində Minsk qrupunun iştirakı ilə davam etdirildi [9]. Sonradan "Paris prinsipləri" kimi tanınan bu variantda əvvəllər irəli sürülən üç həll təklifinin qənaətbəxş məqamlarının qiymətləndirilməsi nəzərdə tutulurdu. Daha sonra Minsk Qrupunun həmsədrləri problemin həlli üçün yeni təklif üzərində işlədiklərini və iyulda Cenevrədə keçiriləcək görüşdə bunu prezidentlərə təqdim edəcəklərini bildirdilər. Lakin Ermənistanın barışmaz mövqeyi səbəbindən bu fikir də baş tutmadı. Məhz Ermənistan tərəfinin bu cür qətiyyətsiz addımları münaqişənin hələ də həllini tapmaması və işğalın uzadılması ilə nəticələnirdi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin hakimiyyətinin əsas istiqamətlərindən biri də durğunluq dövrünə qədəm qoyan Qarabağ danışıqlarına yenidən başlamaq idi. Bu addım onun Qarabağ məsələsində Ulu Öndərin xarici siyasət elementlərini inkişaf etdirib həyata keçirməyə davam edəcəyinin göstəricisi idi. İlham Əliyev Heydər Əliyevin gəldiyi nöqtəyə əsaslanaraq, sadədən çətinə doğru irəliləmək, bütün tərəflərin maraqlarını nəzərə alaraq addım-addım həllə nail olmaq üsulunu seçmişdir. İlham Əliyev beynəlxalq tribunalardakı çıxışlarında dəfələrlə Ermənistan dövlətinin beynəlxalq hüquq normalara əməl edərək təcavüzə son qoymasını, öz işğalçı qoşunlarını zəbt edilmiş ərazilərdən çıxarılmasını tələb edirdi. Münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu, ancaq bununla belə digər variantın – müharibənin də qaçılmaz olduğunu, Azərbaycanın öz ərazilərinin itirilməsi ilə heç zaman razılaşmayacağını, itirilmiş torpaqların nəyin bahasına olursa-olsun geri qaytarılacağını vurğulayırdı.

Sülh danışıqları prosesi 2018-ci ildə hakimiyyətə gələn N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyənatları və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə ciddi ölçüdə sarsıldı. Təxribatçı əməllərin davamı qismində, 2019-cu ilin martında Ermənistanın müdafiə naziri D.Tonoyanın ABŞ-da rəsmi səfərdə olarkən, "yeni torpaqlar üçün yeni müharibə" çağırışı və bu bəyənatından sonra təmas xəttində bir sıra hərbi təxribatları qarşı tərəfin əsas məqsədinin sülhə deyil müharibəyə xidmət etdiyinin açıq göstəricisi oldu [8]. Ancaq Ermənistan hökuməti bu müharibədə məğlub olacağını hesaba qatmamışdı. Beynəlxalq vasitəçilər və dünya birliyi də artıq anlamışdı ki, Dağlıq Qarabağ Azərbaycanın milli məsələsidir. Azərbaycan torpaqlarında ikinci "Ermənistan" dövlətinin yaradılmasına imkan verilməyəcəkdir. Ulu Öndər idarəçilik məktəbi keçən Prezidentimiz Cənab İlham Əliyev Azərbaycan xalqını 30 ildir həsrətində olduğu əzəli və əbədi yurdu Qarabağa qovuşdurdu. Ulu öndərimizin vəsiyyəti olan Dağlıq Qarabağ münaqişəsi məsələsi müzəffər ordumuzla bərabər, qızıl hərflərlə yeni tarix yazan Prezidentimiz tərəfindən uğurla, qələbə ilə tamamlanmışdır. Məqaləmin sonunu Cənab Prezidentimizin tarixə həkk olunan sözləri ilə bitirmək istərdim: "Dağlıq

Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!". Qarabağ Azərbaycandır! [8].

ƏDƏBİYYAT

1. Aslanlı A. Qarabağ Problemi: tarixi, mahiyyəti, həll prosesi. Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Araz Tədqiqatlar Mərkəzi, Bakı, 2009, 120 s.
2. Bedelova A. "Ermenistan – Azerbaycan çatışması ve uluslararası örgütler". Bakü 2016, 142 s.
3. Cabbarlı H., Abdullayeva V. "Azerbaycan dış politikasının temel özellikleri (1991-2009)", 21. Yüzyıl Dergisi, Ocak-Haziran 2009. s. 77-92.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun, 1995 - noyabr, 1995, Cild:4, Bakı, Azərnəşr, 1998, 488 s.
5. Həsənov Ə. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti. "Azərbaycan" nəşriyyatı, Bakı-2005, 631 s.
6. Mahmudov Y., Şükürov K. Qarabağ Real Tarix Faktlar-Sənədlər. Bakı, 2005, 249 s.
7. http://sabail-ih.gov.az/news/889.html
8. https://science.gov.az/az/news/open/15054
9. https://www.acarindex.com/dosyalar/makale/acarindex-1423872157.pdf

SUMMARY

THE ROAD TO KARABAKH VICTORY IS A CELEBRATION OF HEYDAR ALIYEV'S HERITAGE

Jalalzadeh B.M.

The article highlights certain areas of the unparalleled activity of National Leader Heydar Aliyev in the process of resolving the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. The diplomatic talent, courage, wisdom demonstrated by the National Leader of the Azerbaijani people Heydar Aliyev to all countries of the world for the future of Azerbaijan, creates a feeling of sympathy and pride in the hearts of everyone about this brilliant personality. Yes, one truth is undeniable - we achieved the victory of Karabakh thanks to the hard work of the National Leader Heydar Aliyev, his political struggle and the wisdom of Ilham Aliyev, a worthy successor of his political path today.

Keywords: *Karabakh, Azerbaijan, Armenia, politics, international organizations, conflict*

РЕЗЮМЕ

ПУТЬ К ПОБЕДЕ КАРАБАХА – ЭТО ПРАЗДНИК НАСЛЕДИЯ ГЕЙДАРА АЛИЕВА.

Джалалзаде Б.М.

В статье освещаются отдельные направления беспрецедентной деятельности общенационального лидера Гейдара Алиева в процессе урегулирования армяно-азербайджанского нагорно-карабахского конфликта. Дипломатический талант, мужество, мудрость, продемонстрированные общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым всем странам мира во имя будущего Азербайджана, вызывают в сердцах каждого чувство симпатии и гордости за эту блестящую личность. Да, одна истина неоспорима – мы добились победы Карабаха в результате упорного труда общенационального лидера Гейдара Алиева, его политической борьбы и мудрости Ильхама Алиева, достойного продолжателя его политического пути сегодня.

Ключевые слова: *Карабах, Азербайджан, Армения, политика, международные организации, конфликт*

XAÇIN KNYAZLIĞI VƏ MƏLİKLİYİ

Əhmədov R.V.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
adigozelli.87@mail.ru

Açar sözlər *:Qarabağ, Xaçın, Albaniya,Gəncəsər,katalikos, Nerses, monqollar*

Şimali Azərbaycan ərazisində mövcud olmuş Alban türk dövlətinin tərkibində olmuş Xaçın-Arsax knyazlığı XII-XIII əsərdə Xaçınçayı və Tərtər çayının ətrafındakı torpaqlarda formalaşaraq meydana gəlmişdir. Məlum məsələdir ki,Albaniya dövlətinin ilk yaradıcısı Aran (Ərən) olmuş və sonrakı dövrlərdə də Aranın varisləri həm Albaniyanı idarə etmiş ,həm də onun vilayətlərində hakimlik etmişdilər.

Əhalisi əsasən qarqarlar,utilər,hunlar,xəzərlər,basillər,peçeneklər,qıpçaxlardan ibarət olan Arsax vilayəti də Ablaniyanın Qarabağın dağlıq hissəsini və Mil düzünün bir hissəsini əhatə edirdi.....Məhz bu vilayəti idarə edənlər də Aran yolları nəsilləri idilər.Xaçın knyazlığı da Aran oğulları nəslinin nümayəndəsi olan Həsən Cəlal (1215-1261) tərəfindən idarə olunurdu.Gürcülərin daimi basqınları qarşısında Həsən Cəlal Xaçın knyazlığının müstəqilliyini qoruyub saxlamışdı.Həsən Cəlal Xaçın ərazisi ilə bərabər Arran vilayətini də idarə edirdi.Bir növ XII-XIII əsrlərdə Albaniyanı Həsən Cəlal idarə edirdi.Bunu həmin dövrün gürcü ,fars mənbələrində ,eləcə də epiqrafik yazılarda Həsən Cəlalı "knyazlar knyazı", "Xaçının və Arsax ölkələrinin əzəmətli knyazı", "Albaniya çarı" adlandırırdılar.Həsən Cəlal özünü həm Arsaxın ,həm də Ardanın mütləq hökmdarı adlandırırdı.Gəncəsər məbədinin divar yarılarında Həsən Cəlal haqqında belə yazılmışdı: "Arsax ölkəsinin və Xaçın hüdudlarının təbii mütləq hökmdarı". Daha sonra isə onun hökmdarlıq titulunu daha geniş mənada təsdiq edən 1240-cı ildə Gəncəsər monastrındakı yazı da göstərirdi: "Mən Allahın müti qulu,Vaxtanqın oğlu ,əzəmətli Həsənin nəvəsi,geniş əraziləri olan yüksək və böyük Arsax ölkəsinin təbii mütləq hökmdarı Həsən-Cəlal."

Görünür ki,həmin dövrdə Səlcuq imperiyasının parçalanmasından sonra yaranmış Azərbaycan Atabəyləri dövləti ilə Həsən Cəlalın hakimiyyəti dövründə nəinki Xaçında ,eyni zamanda bütöv Albaniya ərazisində siyasi,iqtisadi və mədəniyyət sahəsində yüksəliş işlənilmişdi.Belə ki,yeni tarixi,ədəbi əsərlər yazılmış,dini memarlıq abidələri tikilmişdir.[2-150].Alban mənşəli Gəncəli Kirakos XIII əsrin bütün dəhşətli tarixini (Monqol yürüşlərinin dağıntılarını) özündə əks etdirən "Tarix" əsərini bu dövrdə yazmışdır.Həsən Cəlal eyni zamanda Albaniyanın idarə edilməsində böyük iz qoymuş Mehranilər sülaləsi ilə varislik əlaqəsi olduğunu Musa Kalankatlının "Albanların tarixi" əsərinəəlavə qeyd etdirdi.Bundan savayı "Albanların tarixi" əsərinə dörd fəsil əlavə etdirdi.Əlavə olunmuş fəsillərdə Həsən Cəlalın idaraçilik tarixi və Gəncəsər monastrının qurulması haqqında məlumat verilir.

Yerli alban mədəniyyətinin digər xristian xalqlarının mədəniyyətindən fərqləndirən özünəməxsus elementləri var.Bunlara misal olaraq IX-XIV əsrlərə aid olan alban qəbir daşlarının üstündə dünyəvi anlamları özündə birləşdirən xaç nişanları məbədlərinin divarlarını rəngləyərək divarüstü qədim alban memarlığına aid süjetləri,kompozisiyaları itirməyə çalışmışlar.Gəncəsər monastrı Həsən Cəlaldan əvvəl inşa olunmuş,əsasən də Xaçın hakimlərinin məzarlıq yeri olmuşdu.1261-ci ildə vəfat edən Həsən Cəlal da burada dəfn olunmuşdu.Alban kilsəsinin katalikosu Nersesin Xaçın hakimi Həsən Cəlalla danışıqlarından sonra Gəncəsər monastrının yenidən inşa olunub qurulması qərarı alınır.Həsən Cəlalın Maddi vəsaiti hesabına (1216-1238-ci illərdə) monastır inşa olunmuşdu.O inşa etdirdiyi bu monastrı "Albaniyanın taxt-tac kilsəsi" adlandırmışdı.Yəqin ki,əgər Həsən Cəlal erməni hakimi olsa idi,Gəncəsər monastrını Ermənistanın taxt-tac kilsəsi [7-38] adlandırırdı.Deməli mənbələr özü şahidlik edir ki,Həsən Cəlalın ermənilərlə heç bir qohumluq əlaqəsi yoxdur,Xaçın knyazlığı isə Alban knyazlığıdır.[1-36].Gəncəsər monastr kompleksi Dağlıq Qarabağın Ağdərə bölgəsinin Vəngli kəndi ərazisində yerləşir.Gəncəsər kilsəsində 84 daşüstu yazının olması məlumdur.Monastr kompleksi alban memarları tərəfindən inşa olunmuşdu və Alban memarlığının ən yüksək inkişaf səviyyəsini özündə əks etdirir.

XIII əsrin mürəkkəb siyasi hadisələri Qafqazdan da yan keçməmişdi.Azərbaycan Atabəylər dövlətinin sonuncu hökmdarı Özbəyin hakimiyyəti dövründə Azərbaycana monqolların və Xarəzmşah Cəlaləddinin yürüşləri başlanmışdı.1220-1222-ci illərdə Monqollar Azərbaycana yürüş etsələr də,lakin burada onlar çox qala bilmədilər və xərac alaraq çəkilib getdilər.Xarəzmşah Cəlaləddin 1125-ci ildə Azərbaycanı ələ keçirdi,Atabəylər dövlətini süquta uğratdı.Xarəzmşah Cəlaləddin Azərbaycanın idarəçiliyini baş vəziri Şərəf əl-Mülkə tapşırdı.1227-ci ildə Şərəf əl-Mülk Azərbaycanın vilayətlərindən vergiləri yığaraq Xaçın hakimliyinə yaxınlaşdı.Xaçın qalasında müdafiə olunan Həsən Cəlal son anda əhalinin təhlükəsizliyini nəzərə alaraq,Şərəf əl-Mülkə 20 min Dinar və çoxlu mal-mülk verərək təhlükədən yayına bildi.Bu hadisə Həsən Cəlalın siyasi görüşlü bir dövlət adamı olduğunu göstərirdi.1231-ci ildə monqollar yenidən Azərbaycana yürüş edib onun torpaqlarını zəbt etdilər.1246-cı ildə Həsən Cəlal yenə də əhalinin məhvinə qarşısını almaq,ölkəsini dağıntılardan qorumaq üçün Monqol xanlarına itaət etdiyini bildirdi.Çünki,Monqollar itaət edən hakimlərin ərazilərinə toxunmurdular,ancaq xərac almaqla

kifayətlənirdilər.Lakin Monqol xanlarının tez-tez hakimiyyət dəyişmələri hadisələrin sabit qalmasına imkan vermirdi.Ona görə Xaçın knyazlığı üzərinə tezliklə monqolların dağıdıcı yürüşləri başlandı.[4-90].Xaçının yaşayış məntəqələri dağıdıldı,dağlarda yerləşən qalaları alındı,əhali kütləvi qırğınlara məruz qaldı.Vəziyyətin ağırlığını və qüvvələr nisbətinin qeyri-bərabər olmasını nəzərə alan Həsən Cəlal alınmaz Koxanaberd qalasını mühasirəyə alsalar da,lakin çox əsgəri qüvvə itirəcəklərindən ehtiyat edərək Həsən Cəlalla danışıqlara başladılar.Həsən Cəlal da monqollara qarşı mühasirə vəziyyətində uzun müddət müqavimət göstərə bilməyəcəyini başa düşərək danışıqlara razılıq verdi.Həsən Cəlal monqollara lazım olandan da çox xərac verdi.Eyni zamanda öz qızı Ruzukanı Çormoğon noyonun oğlu Bora-Nainə verərək Monqol xanı ilə qohumluq əlaqəsi yaratdı.Onun Ali baş komandan monqol xanı ilə münasibət yaratması, digər monqol noyonlarının ona qarşı düşmənçiliyinə səbəb oldu.

Vəziyyətin gərgin olduğunu görən Həsən Cəlal Qızıl Orda xanı Batının xristian oğlu Sartakla münasibət yaratdı.Məhz Sartakın sayəsində Həsən Cəlal Cəraberd,Akana,Qarqar kimi qalalarını və mülklərini geri qaytara bildi.Lakin Arqun xan Həsən Cəlala qarşı məkrli niyyətindən əl çəkmək istəmirdi.1255-ci ildə Qızıl Orda xanı Batı xan öldü.Sartak Ali Monqol xanı Munke ilə görüşmək üçün onun sarayına getməyə məcbur oldu.Həmin vaxt Qızıl Orda sarayında qonaq olan Həsən Cəlal da Sartakla birliktə Ali Monqol xanı ilə görüşə getdi.[6-90].Münke xanla görüş uğurlu alındı.Xan Həsən Cəlalın knyazlıq etməsi və mülklərinin geri qaytarılması haqqında fərman verdi.Arqun ağa isə Qafqazdan geri çağırılaraq etdiyi cinayətlərə görə məhkəməyə verildi.Vaxtilə Arqunla münasibəti yaxşı olan Smbat Orbelian Münke xanla görüşü zamanı Arqunun günahsız olduğunu xanın nəzərinə çatdıra bildi.Nəticədə Arqun azad olunaraq yenə də Qafqaza qayıdaraq öz əvvəlki vəzifəsini tutdu.Həsən Cəlal isə beş ildən sonra vətəni Xaçına dönsə də,Arqun ağa tərəfindən ələ keçirilib zindana salındı.Həsən Cəlalın qızı Ruzukanatasını xilas etmək üçün Hülakü xanın xristian arvadı Doqquz xatunla görüşmək istədi.Bundan xəbər tutan Arqun Həsən Cəlalı hissə-hissə doğradaraq ,əzabla öldürdü.Həsən Cəlalın oğlu Atabəy digər münasibətdə olduğu monqol xanları ilə əlaqə saxlayaraq, onların köməyi nəticəsində atasının parça-parca edilmiş cəsədini alıb Gəncəsərdəki nəsli məzarlıqda dəfn etdirdi.Onu da qeyd etmək lazımdır ki,Alban katolik din xadimlərinin və Həsən Cəlalın nəslinin sonrakı nümayəndələrinin də məzarları Gəncəsər monastrındadır,burada dəfn olunmuşdur.Gəncəsər monastrının divarlarındakı yazılardan məlum olur ki,onlar burada dəfn olunmuşlar. XV əsrdə Qaraqoyunlu padşahı Cahanşah Həsən Cəlalın ondan sonrakı varislərinə Məlik titulu verdi.

Sonrakı əsrlərdə Xaçın-Arsax knyazlığı 5 yerə-məlikliyə (Gülüstan,Cəraberd,Xaçın,Vərəndə,Dizaq) bölündü.Sonradan yaranmış məliklərin rəhbərlərinin soyadlarının əvvəlinə "məlik" titulu əlavə olunurdu.(Məlik Yeqanov,Məlik Şahnəzərov,Məlik Allahqulu və s.).Maraqlı odur ki,məlikliklər xristian olsalar da,onların rəhbərləri müsəlman adları daşıyırdılar.İlkin Məliklik siyasi qurumu Qarabağda yaranmış və XVII-XIX əsrlərin siyasi hadisələrinin təsiri ilə digər Azərbaycan ərazilərinə miqrasiya etmişlər və bunun nəticəsində İrəvanda,Sünikdə və Şəkidə də belə kiçik məliklər yaranmışdır.Tədqiqatlar göstərir ki,məlik və məliklik anlayışlarının ermənilərlə heç bir əlaqəsi yoxdur. "Məlik" mülk sözündən götürülmüş bir istilahdır.Qarabağdakı xristian məliklərindən ermənilər öz siyasi məqsədləri üçün tarixi bir fürsət düşən kimi istifadə etməyə çalışırlar.XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı işğalı ərəfəsində ermənilər Qarabağ məliklərindən bəzilərini Qarabağ xanlığına qarşı qaldırmağa müvəffəq olmuşdular.Lakin Qarabağ xanı Pənahəli xan onları sakitləşdirə bilmişdi.Nəticə olaraq onu qeyd etmək olar ki,Arsax-Xaçın knyazlığında XV əsrə qədər Həsən Cəlalın varisləri hakimlik etmiş və bu knyazlıq parçalandıqdan sonra isə,Gəncəsərdə yerləşən Alban avtokefal(müstəqil) apostol kilsəsinin patriarx-katalikosları öz dini işlərini 1836-cı ilə qədər,yəni Alban kilsəsinin ləğv olunmasına qədər davam etdirmişlər.[7-39].

XVIII əsrdə digər məlikliklər kimi Xaçın məliyi də Qarabağ xanlığına aid olan ərazidə fəaliyyət göstərirdi.Xındırıstanlı Məlik Mirzə xan Ulubab Qarabağ xanı Pənahəli xanla münasibətindən istifadə edib Xaçın məliyini gücləndirə bildi.Ondan sonra oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman növbə ilə Xaçın məliyini idarə etdilər.Vərəndə məliyi Məlik Şahnəzərin nəvəsi Məlik Ulubab Xaçın məliyinin əhalisini Pənahəli xana qarşı üsyana qaldırıb Ballıqayaya çəkildi.Pənahəli xan Ballıqaya döyüşündə Məlik Ulubabı məğlub etdi.Xaçın əhalisi Qarabağ xanlığına itaətini bildirdi.İbrahimxəlil xanın hakimiyyəti dövründə də Verəndə və Xaçın məlikləri onun mütəffiq idilər.Dizaq,Çiləbörd və Gülüstan məlikləri isə Qarabağ xanlığına xəyanət edərək Rusiya, Gürcüstanla ittifaq yaratmaq istəyirdilər.Rusiya Qarabağ məliklərindən ibarət "oyuncaq" xristian dövləti yaratmaq istəyirdi.Əlbəttə ki,bu Rusiyanın Azərbaycanı işğal etmək planının bir hissəsi idi.Lakin İbrahimxəlil xan bu xəyanətin qarşısını vaxtında ala bildi.[8-59].

Xaçın knyazlığının əsas dini abidələri Xudavəng məbədi,Müqəddəs Yelisey monastrı,Amaras monastrı və Qandzasar məbədi olmuşdur.XIII əsrdə Xaçın knyazlığında hakimiyyətdə olan Həsən Cəlal,onun babası Böyük Həsən,atası knyaz Vaxtanq,oğlu Vaxtanq,gəlini Arzu xatun,anası Xorisə xatunun bir çox tikintilərlə bərabər məbəd və monastrların da inşa olunmasında böyük xidmətləri olmuşdur.Məhz bu abidələrin sayəsində tariximizi saxtalaşdırmağa çalışan erməni yazarlarına əsaslı cavab vermək olar.Sizin Alban xristian məbədləri ilə heç bir qohumluq əlaqəniz yoxdur və bunlar sizin ancaq xəyalınızda ola bilər.

ƏDƏBİYYAT

1.Qarabağnamələr.I kitab.Bakı,Yazıçı,1989,190səh.
2.Mousey Kalankatuklu.Albaniya tarixi,Mxitar Qoş.Alban salnaməsi,Bakı, Elm,1993,269səh.
3.Nailə Vəlixanlı.Ərəb xilafəti və Azərbaycan, Azərbaycan Dövlət nəşriyyatı,Bakı,1993,157 səh.
4.Bakıxanov A. "Gülüstani-İrəm",Möminin intişaratı,2001,287 səh.
5.Sumbatzadə A.A. Azerbaydjantsı-etnoqenez informirovanie NATO-da,Bakı,Elm,1990,303 səh.
6.Qeybullayev Q., Azərbaycan türklərinin təşəkkülü tarixindən,Bakı,Azərnəşr,1994,248 səh.
7.Azərbaycan tarixi.XIII-XVIII əsrlər yeddi cilddə(III cild),Bakı,Elm,2007,592 səh.
8.Petruşevskiy İ.P.,Ocerki po istorii feodalınıx otnoşeniy v Azerbaydjana i Armenii v XVI-naçalı XIX v.v.,1949,559 səh.

SUMMARY

PRINCIPALITY AND KINGDOM OF THE CROSS

Ahmadov R.V.

Armenians try to give the Christian kings in Karabakh as Armenian kings. However, historical research shows that the Karabakh kings are political institutions created by the Albanian Turkic people. From the first days of its establishment, the Khachin principality, one of the Karabakh kings, was subjected to the policy of Armenian appropriation. In the Soviet era, in history books and textbooks, Khachin and other kingdoms were given as Armenian kingdoms. Taking all this into account, looking at the history of the Khachin principality is relevant today.

Keywords: *Karabakh, Khachin, Albania, Ganjasar, Catholicos, Nerses, Mongols*

РЕЗЮМЕ

КНЯЖЕСТВО И ЦАРСТВО КРЕСТА

Ахмедов Р.В.

Армяне пытаются выдать христианских царей в Карабахе за армянских царей, однако исторические исследования показывают, что карабахские цари являются политическими институтами, созданными албанским тюркским народом. Хачинское княжество, один из карабахских царей, с первых дней своего образования подверглось политике армянского присвоения. В советское время в книгах и учебниках по истории Хачинское и другие царства давали как Армянские царства.Принимая все это во внимание, рассмотрение истории Хачинского княжества актуально и сегодня.

Ключевые слова: *Карабах, Хачин, Албания, Гянджасар, Католикос, Нерсес, монголы*

AZƏRBAYCANIN MÜSTƏQİLLİK DÖVRÜ TARİXŞÜNASLIĞINDA ERMƏNİ-AZƏRBAYCANLI MÜNASİBƏTLƏRİ MƏSƏLƏSİ

Əhmədova N.Ə.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
naiba.ahmedova@mail.ru

Açar sözlər: *tarixşünaslıq, erməni - azərbaycanlı münasibətləri, işğal, köçürülmə, soyqırım*

Çağdaş dünyada bəzi proqnozlara baxmayaraq, qloballaşma prosesləri millətlərarası və konfessional münasibətlərin əhəmiyyətini azaltmadı, əksinə bir sıra sahələrdə bu problemlər daha da kəskinləşdi. Artıq onilliklərlə davam edən bir sıra milli münaqişələrin açıq müharibəyə çevrilməsi tədqiqtçıları baş verən hadisələrin əsil mahiyyəti və köklərinə diqqətlə yanaşmağa sövq edir. Bu mənada 1905-1906-cı illərin erməni- müsəlman münaqişəsinin elmi, tarixi, həm də müasir mərhələdə münaqişənin tənzimlənməsinin konkret prisiplərinin işlənilib hazırlanması nöqteyi-nəzərindən daha diqqətlə və dərindən öyrənilməsinə ehtiyac var.

XIX əsrin birinci yarısında Quzey Azərbaycanın Rusiya tərəfindən işğalı və bu ərazilərə ermənilərin köçürülməsi, müstəmləkə siyasətinin tərkib hissəsi olaraq Azərbaycan xalqına qarşı ermənilərdən istifadə XX əsr milli tariximizə qanlı səhifələr yazmışdır. Bu qanlı səhifələrin tədqiqi milli tarixşünaslıq qarşısında duran ən aktual problemlərdəndir. Müasir Azərbaycan dövlətinin getdikcə güclənməsi işğal edilmiş ərazilərimizin azad edilməsi üçün xarici siyasətdə hücum diplomatiyasının genişləndirilməsi fonunda bu problemlərin tədqiqi xüsusi elmi-nəzəri və siyasi əhəmiyyət kəsb edir.

Yusif Qarayev "Erməni məsələsi:yalanlar və gerçəklər" əsərində ermənilərin mənşəyi, erməni kilsəsi, "erməni məsələsi"nin əsl mahiyyəti barədə fikirlərə, habelə qeyri-müsəlman tədqiqatçıların araşdırmalarına, o cümlədən erməni terrorunun vəhşətini yaşamış şahid ifadələrinə geniş yer vermiş, ermənilərin həyata keçirdikləri kütləvi türk soyqırımlarını, erməni terrorunun dağıdıcı fəaliyyətini əhatə edən məqamları müxtəlif mənbələr və faktlar əsasında izah etmişdir [8].H.Sadıqov "Erməni məsələsi: xəyanəti, depotrasiyanı, soyqırımını və işğalı pərdələyən yalan" əsərində ermənilərin mənşəyindən, yaşamış olduqları coğrafi bölgələrdən, ötən əsrin sonlarına kimi tarixinə ekskurs etmişdir [11]. Kitabda ermənilərin Azərbaycan ərazisinə köçürülməsi, Rusiya və Qərbin siyasətində erməni amili, Osmanlıda, Rusiyada, Qafqazda ermənilərin törətdiyi qırğınlar, erməni cəmiyyətləri, komitələri, terror təşkilatları, erməni kilsəsinin qiyam və terrora rəvac verməsi və s. məsələlərə müəllif diqqət yetirmişdir.

M. Qasımlı "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gercək tarix axtarışında (1724-1920)" adlı monoqrafiyasında Rusiya, Gürcüstan, Azərbaycan, ABŞ, Böyük Britaniya və Türkiyədə nəşr olunmuş arxiv materialları, sənədli mənbələr və müxtəlif ədəbiyyatlar əsasında uydurma "erməni məsələsi" və onun həlli üçün atılan addımlar, nəticələr, hadisələrə böyük dövlətlərin münasibəti məsələlərini araşdırmışdır [7]. Mənbələrin əksəriyyəti müəllif tərəfindən elmi dövriyyəyə ilk dəfə olaraq gətirilmişdir. Əsərdə XIX əsrin ilk onilliklərində Rusiya-Qacarlar və Rusiya-Osmanlı, Krım müharibəsi (1853-1856) və 1877-1878-ci il müharibəsinin Cənubi Qafqaza, o cümlədən Azərbaycanın sosial-siyasi həyatına təsiri, ermənilərin Azərbaycana köçürülməsi, erməni siyasi təşkilatlarının yaranması və onların təşkil etdiyi terror və qiyamlar araşdırılmışdır.

F.Cabbarovun "Cənubi Qafqazda erməni ekstremizmi: XIX əsrin ikinci yarısı –XX əsrin başlanğıcı" adlı iri həcmli əsərində həm Azərbaycan, həm Rusiya arxivlərinin zəngin sənədləri və müxtəlif xalqların nümayəndələrinin yazdığı tarixi ədəbiyyatdan istifadə edilmişdir [2]. Kitabda Cənubi Qafqazda rus imperiyasının milli siyasəti və millətlərarası münasibətlər, erməni-Azərbaycan konfliktinin birinci mərhələsi (fevral-iyul 1905), erməni-Azərbaycan konfliktinin ikinci mərhələsi (avqust 1905-1906) kimi məsələlər araşdırılmışdır. Tədqiqatçı kitabın son fəslində 1905-1906-cı illərdə erməni qırğınlarının yekun və dərslərindən bəhs edir. Müəllif millətlərarası konfliktin Cənubi Qafqazda çar hökumətinin siyasətinə təsiri, konfliktin iqtisadi nəticələri və onun millətin ictimai-siyasi təşkilatlanmasına təsiri kimi məsələləri təhlil etmişdir. Müəllifin belə fikri ilə razılaşmaq lazım gəlir ki, kitabda tədqiq olunan problemlər səthi öyrənilmişdir. Xüsusən sovet dövründə yazılan əsərlərdə 1905-1906-cı illər erməni-Azərbaycan konfliktində əsas günahkar çar Rusiyası hesab olunurdu. Müasir dövrdə isə 1905-1906-cı illərdə qanlı hadisələrdə erməni siyasi dairələrinin təxribatçı hərəkətləri təkzibolunmaz faktlarla verilmişdir. Lakin bu əsərlərdə də qırğınlarda Rusiyanın əsas rol oynaması fikri dəyişməmiş qalmışdır. Müəllif çar Rusiyasının rolunun qabardılması, erməni təşkilatlarının fəaliyyətinin ciddiyə alınmaması fikri ilə razılaşmır, əksinə gətirdiyi faktlarla, bu qırğınlarda erməni təşkilatlarının əsas günahkar olduğunu sübut edir. Q.Çaxmaqlı "Erməni məsələsi" tarixin izi ilə" əsərində XIX əsrin ikinci yarısında Şərqi Anadolu və Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və "erməni məsələsi"nin ortaya atılmasında Qərb dövlətlərinin rolunun dövrü mətbuatda əksi məsələsini öyrənmişdir [3]. Kitabda müəllif "erməni məsələsi"nin ortaya atılmasında xristian missionerlərinin rolu və mətbuatın bu məsələlərə münasibətini, erməni millətçi cəmiyyətləri, komitə və siyasi təşkilatların Şərqi Anadoluda erməni dövləti yaratmaq ideyasını mətbuat vasitəsilə təbliğ etməsini, "erməni məsələsi"nin Cənubi Qafqaza, o cümlədən Azərbaycana keçirilməsində erməni və ermənipərəst mətbuatın fəaliyyətini təhlil etmişdir.

Azərbaycan tarixşünaslığında XIX əsr - XX əsrin əvvəllərində erməni-azərbaycanlı münasibətlərinə və 1905-1906-cı il konfliktinə dair əhəmiyyətli əsərlər sırasına E.Əzizovun, A.Paşayevin, S.Y.Süleymanovun, T.Atayevin, İ.Bağırovanın, C.Həsənlinin, B.Nəcəfovun, F.Səfiyevin və başqalarının əsərləri daxildir [6-13]. Sadalanan işlərdən İ.R.Bağırovanın "Azərbaycanın siyasi partiyaları və təşkilatları (XX əsrin əvvəllərində) adlı monoqrfiyası fərqlənir [15]. İlk Azərbaycan milli siyasi təşkilatlar məhz erməni-azərbaycan münaqişəsinə reaksiya olaraq yaradıldıqları üçün müəllif öz monoqrafiyasında onların yaradılması məsələsini geniş işıqlandırır. Həmçinin işdə Cənubi Qafqazda fəaliyyət göstərən erməni partiyalarının fəaliyyəti də ayrıca fəsil olaraq verilib.

Türkiyə ilə yanaşı erməni təşkilatları Azərbaycana da qarşı terror fəaliyyəti ilə məşğul olmuşlar. M.Əliyeva "XX əsrdə Azərbaycana qarşı erməni terrorizmi" adlı doktorluq dissertasiyasında bu məsələyə diqqət yetirmişdir. Tədqiqatçı qeyd edir ki, elmi tədqiqatlar göstərir ki, erməni terrorizmi beynəlxalq terrorizmin bir hissəsi olub, 100 ildən artıqdır fəaliyyət göstərir [13,s.6].

Tarixi ədəbiyyatların təhlili nəticəsində tədqiqatçı belə qərara gəlir ki, ermənilərin Cənubi Qafqaza köçürülüb yerləşdirilməsi prosesi bir neçə yüzilliklər çəkmiş, XIX əsrin əvvəllərində iki həlledici gücün – Rusiya imperiyası və erməni-qriqoryan kilsəsinin teokratik hakimiyyətinin fəallığı ilə daha da güclənmişdir.

Müəllif belə bir maraqlı fakt gətirir ki, general Paskeviç 28 mart 1827-ci ildə belə qərara gəlir: Qacar dövləti ilə Rusiya imperiyası arasında etibarlı müdafiə xətti yaratmaq üçün 80.000 kazak yerləşdirsin. Lakin bu planı daha ucuz və əlverişli variantla əvəz etmək üçün azərbaycanlılardan qopardılmış torpaqlarda ermənləri yerləşdrmək qərara alınır [13]. Müəllif qeyd edir ki, siyasi cəhətdən təşkilatlanmış ermənilər XIX əsrin ikinci yarısı –XX əsrin əvvəlində Osmanlı dövlətinin şərqində Cənubi Qafqazda, xüsusən Azərbaycan torpaqlarında Böyük Ermənistan yaratmaq üçün müsəlmanlara qarşı terror tətbiq etmiş, qırğınlar törətmiş, etnik təmizləmə aparmışlar. Qərb dövlətləri, Rusiya imperiyası bu zaman onların himayədarı rolunda çıxış etmişdir.

N Rusiya imperiyası XIX əsrin başlanğıcında Cənubi Qafqazın işğalına başlayarkən ermənilərə böyük ümid bəsləyirdi.

Y.Mustafayevin "1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törtərdikləri kütləvi qırğınlar" adlı tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyası [9] ermənilərin azərbaycanlılara qarşı dəfələrlə həyata keçirdikləri qırğınların baş verdiyi tarixi şəraitin təhlil edilməsi və nəticələr çıxarılması baxımından aktual tədqiqat işidir.

Məlumdur ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımların ilk mərhələsi 1905-1906-cı illəri əhatə edir. Tarixi ədəbiyyata ilk olaraq "erməni-müsəlman davası", "erməni-müsəlman qırğınları" və yaxud "erməni-tatar qırğınları" kimi düşən bu qanlı aksiyalar erməni silahlı dəstələri tərəfindən planlı şəkildə azərbaycanlıların milli və dini mənsubiyyətlərinə görə etnik təmizləmə məqsədilə həyata keçirilmişdir.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 26 mart 1998-ci il tarixdə imzaladığı fərmanda qeyd edildiyi kimi, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbayacanlıılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Azərbaycan xalqına qarşı törədilmiş bütün erməni soyqırımlarını yad eymək məqsədilə 31 Mart "Azərbaycanlıların soyqırımı günü" elan edilmişdir [6]. Ermənilərin azərbayacanlıılara qarşı həyata keçirdikləri soyqırımlar və deportasiyalar beynəlmiləlçilik pərdəsi altında ört-basdır ediılmiş, sovet tarixşünaslığında bu səpkidə mövzuların tədqiqinə yasaq qoyulmuşdur. Yalnız XX əsrin sonunda ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın başına gətirilən faciələrin obyektiv öyrənilməsi mümkün olmuşdur.

1905-1906-cı illər erməni-müsəlman qırğınlarının tarixşünaslığı ilə bağlı yazılmış əsərləri üç dövrə bölmək olar; 1-ci dövr – çar Rusiyası, 2-ci dövr – sovet və nəhayət 3-cü – müstəqillik dövründə yazılan əsərlər. Tədqiqatda geniş mənbə bazasından, xüsusən Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin fondlarında saxlanılan sənədlərdən, XIX əsrin sonları XX əsrin əvvəllərində keçirilən siyahıyaalma materiallarından, "Qafqaz təqvimi", "İrəvan quberniyasının yaddaş kitabçası" nəşrlərindən istifadə edilmişdir.

Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə (1990) toplusuna, İrəvanda çap edilən "Şərqi Ermənistanın Risiyaya birləşdirilməsindən sonra Yerevanın inkişafi" (1978) adlı sənədlər toplusundakı 1905-1906-cı il toqquşmaları ilə bağlı daxil edilmiş sənədlərdən də istifadə edilmişdir. Lakin ilk mənbə və tarixi ədəbiyyatların təhlili göstərir ki, 1905-1906-cı illər erməni-müsəlman qırğınları kifayət qədər tədqiq edilməmiş, dissertasiya və monoqrafiyalarda bütün mənbələr və dövrü mətbuat materialları tədqiqata cəlb olunmamış, bu mövzuda yazan erməni və xarici müəlliflərin tədqiqatlarına demək olar ki, müraciət edilməmişdir. Elə bu nöqteyi-nəzərdən mövzunun kompleks şəkildə tədqiqi ciddi elmi aktuallıq kəsb edir. Dissertasiyada konkret faktlar və ilk mənbələr əsasında 1905-1906-cı illərdə ermənilərin törətdikləri kütləvi qırğınların, "Erməni dövləti" yaratmaq xülyasının gerçəkləşdirilməsi naminə həyata keçirilən etnik təmizləmə siyasətinin tərkib hissəsi və ilk mərhələsi olduğu əsaslandırılmışdır. Müəllif "XIX əsrin sonu – XX əsrin əvvəllərində İrəvan quberniyası və Zəngəzur qəzasında sosial- demoqrafik və ictimai-siyasi vəziyyət" adlı birinci fəsildə göstərir ki, tarixən Azərbaycan torpaqları olan bu bölgələrin əhalisi oğuz və qıpçaq türklərindən təşkil edilmişdir. Çar hökümətinin müstəmləkə mahiyyətli müntəzəm köçürmə siyasəti nəticəsində bu bölgələrdə ermənilərin sayı artmışdı.Tədqiqatçı İrəvan və Naxçıvan xanlıqlarına İran və Türkiyədən 57.266 nəfər köçürüldüyünü, köçürmə nəticəsində 1873-cü ildən 1897-ci ilədək İrəvan quberniyasının erməni əhalisinin 292 mindən 441 min nəfərə çatdığını göstərmişdir. XIX əsrin 90-cı illərində 400 min nəfər ermənininin köçürüldüyünü bildirmişdir [9,s.17]. N.Şavrovun da XX əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan 1.300.000 ermənininin ruslar tərəfindən buraya köçürüldüyünü yazır.

1897-ci il Birinci Ümumrusiya siyahıyaalmanın nəticələrinə görə İrəvan qiberniyasının ərazisində (XX əsrin əvvəllərində 25,43 min kv.km.) yerli və gəlmə ermənilərin sayı 441 min nəfərə çatmış, azərbaycanlılar isə 313.176 nəfər olmuşdur. Həmin siyahıyaalınmaya görə, ümumən quberniyada 350.099 nəfər müsəlman qeydə alınmışdır [18,s.2].

1897-ci ildə Zəngəzur qəzasında 137.871 nəfər yaşamışdır ki, onlardan da 71.206 nəfərini azərbaycanlılar, 63.622 nəfərini ermənilər (əksəriyyəti bura köçürülən), 1807 nəfərini kürdlər, 1006 nəfərini ruslar təşkil edirdi [19,s.75]. Tədqiqatçının gəldiyi qənaət bundan ibarətdir ki, İrəvan və Yelizavetpol quberniyalarında torpaqların böyük hissəsi azərbaycanlılara məxsus idi və həmin torpaq sahələrini ələ keçirmək məqsədilə ermənilər 1905-1906-cı illərdə kütləvi qırğınlar törətmişlər. Çar hökümət dairələri isə onları himayə etmişdir. Dissertasiyanın "1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin törətdikləri kütləvi qırğınlar" adlı ikinci fəslində müəllif qeyd edir ki, həmin illərdə Cənubi Qafqazın 14 qəzası və 8 şəhərində müsəlmanlara qarşı qırğınlar törədilmiş, İrəvan quberniyasında və Yelizavetpol quberniyasının Zəngəzur qəzasında 200-dən artıq azərbaycanlının yaşayış məntəqəsi viran edilmiş, əhalisi soyqırıma məruz qalmışdır [9,s.25].

A.K.Eyyubovun "Millətlərarası münasibətlər Cənibi Qafqaz xalqlarının milli özünüdərk səviyyəsinə təsir amili kimi (XX əsrin əvvəllərində)" adlı tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyası [4] da məhz bu məsələnin araşdırılmasına yönəldilmişdir.Tədqiqatın xronoloji çərçivəsi XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərini, bilavasitə münaqişə dövrünü və ümumən XX əsrin ilk onilliyini əhatə edir. İşin mənbə bazası qismində ilk növbədə Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin sənədləri, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin fondlarında saxlanılan sənədlər, ölkəmizdə və xaricdə nəşr olunan sənəd və toplular təşkil edir. Obyektivlik prinsipinə sadiq qalaraq, ermənilərlə bağlı məsələlərdə erməni müəlliflərinin əsərlərinə, erməni tərəfin mövqeyini, fikirlərini açıqlayan mənbələrə də geniş yer ayrılmışdır. Müəllif müxtəlif dövrlərdə çap olunmuş tarixi ədəbiyyatları da nəzərdən keçirmişdir. Tədqiqatçı diqqətini yalnız faktların sadalanmasına deyil, münaqişənin etnososial, tarixi məqamlarına yönəltmişdir. İşdə Avropadan gələn millətçilik, kapitalizm ideyalarının avtoxton Qafqaz millətlərin statusu, məişəti, dünyagörüşünə necə təsir etdiyini, yerli xalqların cəmiyyətin kapitallaşma və milliləşməsi proseslərinə sürətli, zorakı, yarımçıq cəlb edilməsinin Qafqazın polietnik harmoniyasını necə dağıtdığını göstərməyə çalışmışdır. Dissertasiyada hərbi qarşırmaya gəlib çatmış münaqişənin ideoloji, etnomədəni səviyyədə yaranmasının və kəskinləşməsinin ümumi mənzərəsi verilmişdir [4,s.11]. Bütün bu məsələlər "Erməni-Azərbaycan münaqişəsinin etnotarixi şərtləri", "Münaqişənin tərəflərin milli obrazlarına təsiri", "Hərbi qarşıdurmanın münaqişənin özü bitmədən tamamlanması" fəsillərində ətraflı şərh edilmişdir.Ə.İ.Abdullayevin "XIX əsrin axırı – XX əsr Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti" əsəri də tarixşünaslıqda mühüm əhəmiyyət kəsb edir [1].

ƏDƏBİYYAT

1. Abdullayev Ə.İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti:XIX əsrin axırı – XX əsr. Bakı, Elm 1998. 150 s.
2. Cabbarov F. Cənubi Qafqazda erməni ekstremizmi: XIX əsrin ikinci yarısı –XX əsrin başlanğıcı. Bakı, 2012.
3. Çaxmaqlı Q. "Erməni məsələsi" tarixin izi ilə. Bakı, 2008.
4. Eyyubov A.K. Millətlərarası münasibətlər Cənibi Qafqaz xalqlarının milli özünüdərk səviyyəsinə təsir amili kimi (XX əsrin əvvəllərində). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyanın avtoreferatı. Naxçıvan,2011, 25 səh.
5. Əzizov E.Difai:XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin şərtləri və səbəbləri. Bakı, 2009
6. Xalq" qəzeti, 27 mart 1998-ci il, №98
7. Qasımlı M. "Erməni məsələsi"ndən erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı, Mütərcim 2014. 462 s.
8. Qazıyev Y. Erməni məsələsi: yalanlar və gerçəklər. Bakı, Nurzar 2009. 343s.
9. Mustafayev N.Y. 1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında ermənilərin azərbaycanlılara qarşı törtərdikləri kütləvi qırğınlar. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı,2014, 30 səh.
10. Paşayev A.Ə.XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı,2011
11. Sadıqov H. Erməni məsələsi: xəyanəti, deportasiyanı, soyqırımını və işğalı pərdələyən yalan. Bakı, Adiloğlu 2012. 576 s.
12. Süleymanova S.Y. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri). Bakı,1999
13. Алиева М.Ф.Армянский терроризм против Азербайджана в XX веке. Диссертация на соискание ученой степени доктора философии по истории. Баку,2009.
14. Атаев Т. Год 1905-й. Пожары на Бакинских промыслах // http^e- minbar/com (дата обрашения: 27.03.2016).

15. Багирова И.С.Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Баку, 1997
16. Гасанлы Дж. Али МарданбекТопчибашев: жизнь зат идею. М.,2014
17. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – началеXX вв.: в 2-х чч., ч.1. ку, 1992
18. Первая всеобщая перепись населения Российской империи 1897 года . Том,LXXI, Эриванская губерния, СПб.,1905
19. Первая всеобщая перепись населения Российской империи 1897 года . Том,LXIII, Елисаветпольская губерния, СПб.,1904
20. Шафиев Ф. Истоки армяно-азербайджанского конфликта: события 1905-1906 гг. // Ирс – Наследие, №4(34)2008

SUMMARY

THE ISSUE OF ARMENIAN-AZERBAIJANI RELATIONS IN AZERBAIJANI INDEPENDENCE HISTORY

Ahmadova N.A.

Scientific works on the history of Azerbaijan, both under tsarism and in Soviet times, were one-sided, and the true history of the people was distorted in favor of the tsarist government and Soviet ideology. From this point of view, a new look at the history of the early 19th and early 20th centuries is extremely important in the historiography of the period of independence. The article examines the works of national historiography on Armenian-Azerbaijani relations at the beginning of the 19th-20th centuries, and clarifies the sources that were first introduced into scientific circulation.

Key words: *historiography, Armenian-Azerbaijani relations, occupation, resettlement, deportation, genocide*

РЕЗЮМЕ

ВОПРОС АРМЯНО-АЗЕРБАЙДЖАНСКИХ ОТНОШЕНИЙ В ИСТОРИИ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

Ахмедова Н.А.

Научные работы по истории Азербайджана как при царизме, так и в советское время носили односторонний характер, а подлинная история народа искажалась в угоду царской власти и советской идеологии. С этой точки зрения новый взгляд на историю начала XIX и начала XX веков чрезвычайно важен в историографии периода независимости. В статье рассматриваются работы отечественной историографии по армяно-азербайджанским отношениям в начале XIX-XX веков, уточняются источники, впервые введенные в научный оборот.

Ключевые слова: *историография, армяно-азербайджанские отношения, оккупация, переселение, депортация, геноцид*

QARABAĞIN SİYASİ TARİXİ QARABAĞNAMƏLƏRDƏ

Əhmədova Ş.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayı, Azərbaycan
muzefferomer71@gmail.com

Açar sözlər: *Qarabağ, "Qarabağnamə", XVIIIəsr, Şuşa qalası, xanlıqlar*

Azərbaycan tarixində "Qarabağnamə"lərin xüsusi rolu vardır. Belə ki, müəyyən zamanlarda.müəyyən müəlliflər tərəfindən yazılmış bu tarixi səlnamələrdə bir coğrafi məkan olaraq Qarabağla yanaşı,Azərbaycan tarixinin də bəzi məqamları qeydə alınmışdır.

“Qarabağnamələr” XIX əsrin əvvəllərindən başlayaraq müxtəlif dövrlərdə, müxtəlif müəlliflər tərəfindən,müxtəlif dillərdə,o cümlədən Azərbaycan türkcəsində,rus və fars dillərində qələmə alınmışdır. “Qarabağnamələr”də müəlliflər öz səlnamələrində Qarabağın etnik tərkibi,tarixi coğrafiyası,əhalinin dil üslubu,ucaldılan milli adidələr nəhayət,Qarabağ və onun ətrafında baş vermiş siyasi hadisələr barəsində geniş məlumat vermişlər.

Mirzə Adıgözəl bəyin,Mirzə Camal Cavanşirin,Mirzə Yusif Qarabağinin,Mir Mehdi Xəzaninin, Əhməd bəy Cavanşirin, Rzaqulu bəy Mirzə Camal oğlunun, Baharlının, Mirzə Rəhim Faninin. Həsən İxfa Əlizadənin,Həsənəli Qaradağinin Qarabağ haqqında yazmış olduqları səlnamə və toplularda Qarabağın ictimai və siyasi tarixi haqqında yetərincə tarixi faktlara rast gəlmək olur.

Çar Rusiyası,Sultan Türkiyəsi və İran şahlığı XVIII əsrin əvvəllərində Azərbaycanı ələ keçirmək uğrunda biri biri ilə mübarizə aparırdılar.Xəzərsahili Azərbaycan ərazisi I Pyotrun dövründə zəbt edilsə də,Cənubi Qafqaz, o cümlədən Azərbaycan ərazisi hüquqi baxımdan İran şahlığına tabe idi.Nadir şah Əfşarın meydana çıxması regionda və Azərbaycanda vəziyyəti dəyişdirdi. Zaqafqaziya xalqları Nadirin hakimiyyəti altına düşdülər.Ağır cəza tədbirləri xalqların narazılığına səbəb olur, Nadir şah əlehine narazılıq və üsyanlar ara vermir, Azərbaycanı aclıq, səfalət bürüyür.

İki əsrdən artıq mövcud olmuş Qarabağ bəylərbəyliyinə də Nadir şah divan tutur.

Qarabağlıların bir qismi Əfqanıstan sərhədlərinə köçürülür.

XIX əsrdə yaşamış Mirzə Adıgözəl bəy yazır:” Beləliklə Gəncə xanları tamamilə öz hüquq və səlahiyyətlərindən məhrum oldular. Hakimiyyətin cilovu onların əlindən düşdü və onlar qanadı sınmış quş vəziyyətində qaldılar” [2.səh,197.]

Nadir şahın bu hərəkətlətinə səbəb erməni Xəmsə məliklərinin təşəbbüsü və 1736-cı il Suqovuşanda baş tutmuş Muğan qurultayında Qarabağ bəylərbəyliyinin Nadirin şah olmasına etirazını bildirmələri olmuşdur. Məlum 1747-ci il hadisəsindən, yəni Nadir şahın öldürülməsindən sonra Azərbaycan ərazisi kiçik feodal dövlətləri olan xanlıqlara bölündü.

Artıq Qarabağ xanlığının yaranması bir tarixi zərurət idi.“Qarabağnamələrdə” bu xanlığın təşəkkül tapmasını şərtlərdən ictimai-siyasi amillər ön plana çəkilir. Mirzə Camal Cavanşir Qarabağinin “Qarabağ tarixi” əsəri xanlığın təşəkkül tarixini öyrənmək üçün ən etibarlı mənbə hesab edilə bilər. Onun oğlu Rzaqulu bəyin müəllifi olduğu “Qarabağnamə”də isə Qarabağın siyasi-tarixi məsələlərinə və ərazinin iqtisadi amillərəinə xüsusi diqqət yetirilmişdir. Rzaqulu bəy yazır ki,:

“ Pənahəli xanın Qarabağın bütün elatını və kəndlərini , həmçinin mallarını ələ kecirib , hökmranlıq etdiyi dövrdə , onun vəfatından sonra isə İbrahim xanın müstəqil hakimiyyəti dövründə Qarabağ vilayətindən heç bir padişaha istər külli, istərsə də cüzi olaraq xərac və vergi verilməmişdir. [4.III kitab.səh,199.]

Digər bir “Qarabağnamə” müəllifi Əhməd bəy Cavanşir Pənahəli xanın diplomatik əlaqələri haqqında yazır:”Pənahəli xan xanlığın təhlükəsizliyini qorumaq üçün Azərbaycan valisi Sərdar Əmiraslanın yanına elçi göndərib öz itaətini bildirdi. Pənahəli xanın hökümətə göstərdiyi sədaqət müqabilində Sərdarın xahişi ilə Adil şah tərəfindən verilmiş fərmana əsasən Qarabağ xanlığı xüsusi bir malikanə kimi ona verildi.[3.II kitab.səh.202.]

Pənahəli xanın İran feodal hakimləri ilə ehtiyyatlı rəftar etməsi onun diplomatik manevri idi. Hətta bəzi mənbələrdə, məsələn, P.Butkovun “Qafqazın yeni tarixi üçün materiallar” əsərində Əmiraslan xanın Pənahəli xanla ögey qardaş olması haqqında məlumat verilir. [4.III kitab.səh. 200]

Pənahəli xanın diplomatik manevrləri Xəmsə erməni məliklərini narahat edirdi.

Onlar Şəki xanı Hacı Çələbini qızışdırırdılar. Nəticədə, Şirvan və Şəki hakimləri böyük qoşunla Bayat qalasın mühasirəyə aldılar. Bir aydan çox davam etmiş muharibədə Pənahəli xanın qüvvələri qələbə caldı. Bu döyüş haqqında Mirzə Camal yazır :“Şirvan və Şəki xanları heç bir iş görə bilmədilər. Şəki vilayətininin hakimi H.Çələbi qayıdan zaman bu sözləri dedi: “ Pənah xan bir xan idi. Biz gəldik onunla dava elədik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq. [2.I kitab, səh.127] Məlumdur ki, bu döyüşdə Pənahəli xanın qələbəsi, Xəmsə məliklərinin itaət altına alınması onun nüfuzunu xeyli artırmışdır.

Əhməd bəy Cavanşirin “Qarabağnamə” əsərində Xəmsə məlikləri ilə Pənah xanın münasibətləri geniş təhlil edilmişdir. Qeyd edilir ki,məhşur Şuşa şəhəri Xəmsə məlikləri itaətə alındıqdan sonra, yəni 1750-1751-ci illərdə tikilmişdir..

1751-ci ildə Qarabağa Məhəmməd Həsən xan Qacar, 1758-ci ildə Fətəli xan Əfşar hücum etmişlər. Pənahəli xan onlarla müharibədən də qələbə ilə çıxmışdı.

“Qarabağnamə” müəllifləri Pənahəli xanın varisi İbrahimxəlil ağanın xanlığı dövrü haqqında da maraqlı məlumatlar vermişlər.

Onalr İbrahimxəlil xanın hakimiyyətə gəldiyi ili fərqli olaraq göstərirlər. Məsələn, Mirzə Camal 1760-cı il , Mirzə Adigözəl bəy isə 1759-cu il göstərir. Kərim xan Zənd tərəfindən İbrahim xana 1759-cu ildə xanlıq fərmanı verilmiş olduğunu nəzərə alsaq Mirzə Adıgözəl bəyin göstərdiyi il (1759) həqiqətə daha

uyğundur. İbrahim ağa 47 il Qarabağ xanı olmuş,daxili və xarici siyasət sahəsində mühüm tədbirlər görmüş, işlər həyata keçirmişdir. Təsadüfi deyil ki, Mirzə Camalın "Qarabağ tarixinin" birinci fəsli " Mərhum İbrahim xanın hakimiyyəti və o zamanın qaydaları və hadisələri" adlanır. Mirzə camal yazırdı ki, hakimiyyətinin ilk illərində İbrahim ağa qonşu padşahlara itaət etməzdi, müstəqil siyasət yeridərdi. Onun hökm və fərmanları Gəncə, Şəki, Şirvan , Təbriz , Ərdəbil vilayətlətində hətta Azərbaycan sərhəddi olan Qaplanguhda belə işlərdi. [4, səh 211.]

Daha sonra müəllif İbrahim xanın xanlar və başqa hakimlərlə qphumluq əlaqələrindən bəhs edərdi. İbrahimxəlil xanın ən etibarlı müttəfiqi Car-Baləkənli Ümmə xan idi. İbrahim ağa Ümmə xanın hörmətli bacısı Bikə xanımla evlənmişdi. Bu da iki tərəf arasında hərbi-siyasi birliyin yaranmasına səbəb olmuşdu. Mirzə Adıgözəl bəy yazır ki, qızı Tuti Bikə xanımı Şəki xanı Səlim xana ərə vermişdi.

İbrahimxəlil xan Qarabağda xəyanət və özbaşınalıqla məşğul olan erməni Xəmsə məliklərinin əməlinə son qoymuş, xanlığın daxilində və xaricində sabitlik yarada bilmişdi. Bu işdə ona onun müdrik və uzaqgörən vəziri şair Vaqifin böyük köməyi olmuşdur. İbrahim xanın dövründə Şuşa Yaxın Şərqin məşhur şəhərlərindən birinə çevrilmişdi. Şəhərə üç ad deyilirdi,Pənah xanın adı ilə Pənahabad,gözəlliyinə və sıldırım şiş qayalar üzərində yerləşdiyinə görə Şişə,xanq arasında isə Qala adı verilmişdir. Hər iki Əsgəran qalası da İbrahim ağanın dövründə (1787-ci ildə) tikilmişdir. Deyilənı görə İbrahim ağa hər iki Əsgəran qalasını Panah xanın vəsiyyəti ilə tikdirmişdir. Məqsəd isə o olmuşdur ki, əgər Şuşaya düşmən hücum edərsə piyada qoşunları bu qalalarda olsunlar.

Daxili işləri nizama saldıqdan sonra İbrahimxəlil xan ona itaət etməyən xanlıqlara qarşı hərbi yürüşlər təşkil etdi. Mirzə Yusif Nersesov Qarabağinin "Tarixi-Safi" əsərində İbrahim xanın Dağıstan hakimi Ümmə xanla birlikdə Naxçıvan xanlığına qarşı yürüşü haqqında məlumat verilmişdir. Naxçıvana yürüşdən sonra Xoy vilayətini özünə tabe etmək fikrinə düşdü. Yürüşlər nəticəsində İbrahim xan Naxçıvan xanlığı üzərində qələbə çaldı, Xoy xanlığı ilə isə dostluq əlaqələri qurdu.

XVIII illərin 90-cı illərində İranda yaranmış mərkəzi dövlətə Qacar sülaləsindən olan Ağa Məhəmməd xan hakim gəldi. Bu haqda A.Bakıxanov yazır ki, "O, (Məhəmmədhəsən xan-B.A) Nadir şah öldükdən sonra gəlib Təbəristan, İraq və Azərbaycanı aldı, sərdarlıq ləqəbilə sikkə və xütbə sahibi oldu".[1,səh 168.]

Mirzə Camal Cavanşirin "Qarabağnamə"əsərində Ağa Məhəmməd şah Qacarın Qarabağa həm birinci,həm də ikinci yürüşləri müvəssəl şəkildə öz əksini tapmışdır.Mirzə Camal Cavanşir öz "Qarabağnamə"sini 1847 ci ildə,yəni atası Mirzə Adıgözəl bəydən iki il sonra yazmasına baxmayaraq bu əsər daha müvəssəl tarixi faktlarla zəngindir.

Qarabağın rus işğalı dövrü də "Qarabağnamə"lərdə bu və digər şəkildə verilmişdir.Lakin,müxtəlif baöış və mövqelər mövcuddur.Məsələn,Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində və A.A.Bakıxanovun "Gülüstani İrəm" əsərlərində müəlliflərin hər ikisi rusların xidmətində olduğundan bu məsələyə bir qədər yumşaq yanaşılmışdır.Lakin,Mirzə Camal Cavanşirin"Qarabağnamə" və Mirzə Yusif Qarabağinin "Tarixi safi" əsərində rus işğalı,Qarabağ xanlığının ləğvi,İbrahim ağanın ailəsinin faciəsi aşıq və düzgün olaraq göstərilmiş,tarixi faktlar təhrif edilməmişdir.Nəticə olaraq onu deyə bilərik ki,"Qarabağnamə"lər Qarabağın,eləcə də müəyyən dövr baxımından Azərbaycanın siyasi,iqtisadi tarixinin öyrənilməsi baxımından çox gərəkli qaynaqlard

ƏDƏBİYYAT

1.Bakıxanov.A.A. "Gülüstani İrəm" Minarə nəşriyyatı.Bakı 2000.

2."Qarabağnamələr" Şərq-Qərb nəşiriyyatı.Bakı 2006. I kitab.

3. "Qarabağnamələr" Şərq-Qərb nəşiriyyatı.Bakı 2006. II kitab.

4. "Qarabağnamələr" Şərq-Qərb nəşiriyyatı.Bakı 2006. III kitab.

SUMMARY

POLITICAL HISTORY OF KARABAKH IN KARABAKH LETTERS

Ahmadova Sh.M.

The article discusses how the political history of Karabakh is mentioned in the works of "Karabakhname" the history of the formation of the

Karabakh khanate, its political relations with other khanates. In order to achieve this goal, during the first khan and founder of the Karabakh khanate Panahali khan and his successor Ibrahimkhalil khan, issues of war and pease with neighboring khanates and states were analyzed in the language of the authors of "Karabakhname"

Key words: *Karabakh, "Karabakhname", XVIII century, Tower Shusha, khanates*

РЕЗЮМЕ

ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ КАРАБАХА В КАРАБАХСКИХ ПИСЬМАХ

Ахмадова Ш.М.

В статье рассматривается, как политическая история Карабаха упоминается в произведениях авторов «Карабахнаме». история образования Карабахского ханства, его политические отношения с другими ханствами. Для достижения поставленной цели был проведен политические событий, происходивших в период правления как основателя и первого хана Панахали хана, так и его приеемника Ибрагимхалил хана, войны и мир с соседними ханствами и государствами были сопоставлены с языком авторов «Карабахнаме».

Ключевые слова; *Карабах, «Карабахнаме», XVIII века, Башня Шуша,* ханствами,

QARABAĞ BƏYLƏRBƏYLİYİNİN AZƏRBAYCAN TARİXİNDƏ ROLU

Ələsgərov B.İ., Səmədov Y.A.
ADPU-nun Ağcabədi filialı, Ağcabədi, Azərbaycan
elesgerov1963@mail.ru: yaqub.semedov63@mail.ru

Açar sözlər: *"Qarabağ" adının mənşəyi, əhali, etnik tərkib, bəylərbəylik, bəylərbəyilər, mahal*

Qarabağ coğrafi-tarixi baxımdan azərbaycanlıların yaşadığı bölgədir. 1820-ci ildən başlayaraq ermənilər kütləvi şəkildə Azərbaycanın müxtəlif ərazilərinə köçürülmüşdür ki, Qarabağ bölgəsi də həmin ərazilərdən biri olmuşdir. Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. Azərbaycan dilində, diğər türk dillərində "Qara" sözü rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və başqa mənalarını da vermişdir. Həmçinin, təbii-coğrafi relyefə uyğun olaraq "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ", "səfalı bağ" və s. mənalarında da işlədilmişdir. "Qara" və "bağ" söz birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir və konkret coğrafi əraziyə şamil edilir. Arran "Qarabağı" adını isə ilk dəfə Rəşid əd-Dinin "Came ət-təvarix" əsərində 1284-cü il hadisələrinin şərhi ilə əlaqədar qeyd etmişdir. XIV sonu – XV əsrin əvvəllərində "Arran" termini ilə yanaşı bəzən onu əvəz edən "Qarabağ" sözü də işlədilmişdir ki, bu da inzibati ərazi baxımından Azərbaycanın mərkəzi hissəsini əhatə etmişdir. Qarabağ coğrafi ərazi baxımından dağlıq və dağətəyi yerləri özündə birləşdirən vahid ərazidən ibarət olmuşdur.

Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünyanın ən qədim tarixə malik olan diyarlarındandır. Bu ərazidəki Azıx mağarasında ən qədim insanların yaşayış məskəni aşkar edilmişdir. Mezolit, Neolit, Eneolit (e.ə. VI-IV minilliklər), tunc və ilk dəmir dövrlərində (e.ə.IV minilliyin sonu – I minilliyin əvvəli) də Qarabağın sosial-iqtisadi həyatında böyük dəyişikliklər baş vermişdi. Hətta, Qarabağda arxeoloji qazıntılar zamanı Son tunc və ilk dəmir dövrünə (e.ə.XIII-VII əsrlər) aid çoxsaylı maddi-mədəniyyət nümunələri aşkar olunmuş və bu abidələr Xocalı-Gədəbəy mədəniyyəti adı altında tariximizə daxil edilmişdir [2]. Azərbaycanın cənubunda qüdrətli Manna dövlətinin (e.ə. IX-VI əsrlər) meydana gəldiyi dövrdə nəinki Qarabağda, ümumiyyətlə, Cənubi Qafqazda (Zaqafqaziyada) demək olar ki, erməni etnosu olmamışdı[2]. Yeri gəlmişkən bir zəruri cəhəti də xüsusi vurğulamaq lazımdır ki, ki, Qarabağ əhalisi və onun etnik tərkibi haqqında ən səlis məlumatlar 1593-cü ildə Osmanlı maliyyə məmuru İmamzadə Mehmed tərəfindən tərtib olunan "Gəncə-Qarabağ icmal dəftərin"də öz əksini tapmışdır. Həmin sənəddə Osmanlı işğalı zamanı (1588-1606) Qarabağ ərazisinin tərk etməyən və burada yaşayan əhali və onun etnik tərkibi haqqında məlumatlar verilmiş, Qacar tayfasından 8 oymağın, Gəncə vilayətinin Qaraağac bölgəsinin Hacılu (Hacılar) tayfasından isə 31 oymağın adı xüsusi olaraq qeyd edilmişdir[8]. Hesablamalara görə 1727-ci ildə Gəncə-Qarabağ əyalətinin əhalisi 122 min nəfər idi. Onun 80,3 min nəfərini (66%) azərbaycanlılar, 37,8 min nəfərini (31%) ermənilər (daha doğrusu qriqorianlaşmış və ermənileşmiş albanlar), 3,7 min nəfərini (3,1%) kürdlər təşkil etmişdir [3].

Antik dövrdə Qarabağ ərazisi Albaniyanın Uti və Paytakaran vilayətlərini əhatə etmişdir. [1. səh.178-179]. III-VII əsrlərdə Albaniya Sasani, Bizans imperiyaları və Xəzər Xaqanlığı arasında ən qanlı müharibə meydanına çevrildi. Albaniya, o cümlədən onun mərkəzi hissəsini əhatə edən Qarabağ ərazisi (Uti, Arsak, Paytakaran, Sisakan) Sasani imperiyasının şimal canişinliyinin tərkibinə daxil edildi. 313-cü ildə xristianlıq dövlət dini kimi qəbul olunsa da, lakin bununla belə Albaniyada xristianlıq geniş yayılmadı.

Ərəb xilafəti, IX-XI əsr feodal dövlətləri və Atabəylər dövründə də, Qarabağ Arranın tərkib hissəsi olaraq qalmış və həmin dövlətlərin siyasi, ictimai-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. XIII-XIV əsrlərdə Azərbaycanın mühüm tərkib hissəsi olan Qarabağ bu dövrdə baş verən ictimai-siyasi hadisələrin əhəmiyyətli mərkəzinə çevrildi.

V.F. Minorski belə hesab edirdi ki, Qarabağ adına ilk dəfə Həmdullah Qəzvininin "Nüzhət əl-qulub" əsərində rast gəlinir (bax: Təzkirət əl-muluk. Persian text in facimile. Translated and explained by V. Minorski. London 1943, səh.166). Lakin sonrakı araşdırmalar göstərdi ki, Qarabağ adına ilk dəfə Fəzlullah Rəşidəddinin "Cəmi ət-təvarix" əsərində h.682-ci ilin şəvval ayından (18.I.1284) - 683-cü ilin məhərrəm ayınadək (7.IV.1284) Hülakülər dövlətinin hökmdarı Əhməd xanla (1282-1284) bağlı hadisələrdən bəhs edilərkən rast gəlinir. Buradan məlum olur ki, Əhməd xana sui-qəsd təşkil etmək istəyənlərə qarşı "Arran Qarabağında altı gün davam edən məhkəmə prosesi qurulmuşdur" (bax: Рашид ад-Дин Сборик летописей. Том. 3. Перевод персидского А.К. Арендса. Москва-Ленинград: Изд-во АН ССР, 1946. səh. 104). V. Piriyev qeyd edir ki, Sonralar Cəlalilər nəslinin mülkü 5 alban feodal knyazlıqlarına- məlikliklərinə (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq) parçalandı [4]. 1441-ci ildə isə erməni kotalikosluğunun mərkəzi Kilikyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə–Üçkilsəyə köçürülməsinə baxmayaraq, Qarabağda və digər Azərbaycan torpaqlarında ermənilərə aid demək olar ki, mənbələrdə yaşayış məntəqəsinin və ya torpaq sahəsinin olması barədə yenə də heç bir məlumatlar verilmir. 1501-ci ildə Ağqoyunlular dövləti süqut etdi və I Şah İsmayıl tərəfindən Azərbaycan Səfəvilər dövləti (1501-1736) yarandı. Səfəvilər dövründə inzibati-ərazi bölgüsü baxımından Azərbaycan vilayəti bəylərbəyliklərə bölündü. Bu dövrdə Azərbaycanda dörd bəylərbəylik var idi: Azərbaycan (və ya Təbriz) bəylərbəyliyi, Şirvan bəylərbəyliyi, Qarabağ (və ya Gəncə) bəylərbəyliyi və Çuxur-Səəd (və ya İrəvan) bəylərbəyliyi.

Bizim əsas tədqiqat mövzumuz olan Qarabağ və ya Gəncə bəylərbəyliyi 1551-ci ildə yaranmışdı. Paytaxtı Gəncə şəhəri olan ilk Qarabağ bəylərbəyi Kəmaləddin Şahverdi sultan Ziyadoğlu Qacar olmuşdur (1551-ci il). Bəylərbəyilər Şahın fərmanı ilə qızılbaşlardan təyin olunurdu, onlara "Xan" titulu verilirdi, bayraq və təbil təqdim olunurdu, sonra isə tapşırılan ərazi onlar tərəfindən irsən idarə edirdilirdi. Bəylərbəylərə tiyul formasında çoxlu torpaqlar verilirdi və onun maliyyə işləri ilə də bilavasitə bəylərbəyi şəxsən özü məşğul olurdu. Bəylərbəyi vəzifədən azad edildikdə tiyul torpaqları onların əllərindən alınırdı. Buna görə də əhali onları "Ərbab" adlandırırdı. Bəylərbəyilər arasından sərhəd əyalətlərinə təyin olunan bəylərbəyilər "əmr əl-ümərə" hərbi rütbəsini daşıyırdı. Şah I Təhmasib hakimiyyətinin ilk illərinə qədər "bəylərbəyiliyi" termini əvəzinə daha çox "əmir- ul-umərə" termini işlədilmişdi. XVI-XVII əsr müəllifləri isə "Bəylərbəyi" və "əmir-ul-umərə" terminlərinə fərq qoiymadan birgə işlətmişdilər.

Qarabağ bəylərbəyiləri olmuş Ziyadoğlularından Şahverdi **Ziyadoğlu-Qacarın (1551-1568),** İbrahim xanın, Yusif xəlifənin, Peykər sultanın, İmamqulu xanın, Məhəmməd xanın, Mürşüdqulu xanın, Məhəmmədqulu xanın, Mürtəzaqulu xanın və başqalarının adları xüsusi şəkildə qeyd olunmuşdur [5]. 1675-1676-cı illərdə (hicri 1086-cı il) naməlum azərbaycanlı müəllif tərəfindən farsca yazılmış "Tarix-i aləmara-yi Şah İsmayıl" ("Şah İsmayılın dünyanı bəzəyən tarixi") adlı əsərdən məlum olur ki, Şah İsmayıl "Qarabağın və o sərhədin bəylərbəyiliyini Qara Pirinin oğlu Rüstəm bəyə inayət etmişdi". Qarabağ Ziyadoğlu-Qacarların irsi bəylərbəyliyi kimi Qarabağ xanlığının yaranmasına kimi, kiçik fasilə ilə 300 ilə qədər onların nəzarətində qalmış və axırıncı Qarabağ bəylərbəyi **Hacı xan Camışgəzəki (1738-1747) olmuşdur.**

Minorskiyə görə bəylərbəyi adı ilk dəfə I Şah Abbasın dövründə işlədilmişdir. Müasir dövrdə də həm yerli, həm də xarici tarixşünaslıqda Azərbaycan Səfəvilər dövlətinin tarixi araşdırılarkən onun ən mühün inzibati -ərazi bölgüsünə daxil olan Qarabağ bəylərbəyliyi ilə bağlı dəyərli məlumatlar verilir. Bu dövr tədqiaqtçılarından Z. Bayramlının ("Səfəvilər dövlətinin inzibati quruluşu və idarə sistemi". Bakı, 2006-cı il), Ş. Səlimovun ("Albaniyanın xarici siyasəti və Azərbaycan dövlətçilik tarixində yeri", Konfrans materialları, 2021 №5, Sumqayıt - 2021, s.124-127), A. Baxşəliyevin ("Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri", Bakı, 2009), Z. Həsənəliyevin ("XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri". Bakı, 2007-ci il), O. Əfəndiyevin ("Azərbaycan Səfəvilər dövləti". Bakı, 2007), N. Cəfərlinin ("Səfəvilər dövləti: hakimiyyət və idarəçilik orqanları". Bakı, 2000) və b-nın xidmətlərini xüsusi qeyd etmək lazımdır.

Qarabağın sərhədləri haqqında "Qarabağnamə"lər əsərinin müəlliflərindən biri olan Mirzə Camal Cavanşir Qarabaği (1847-ci ildə yazdığı "Qarabağ tarixi" əsərində) yazır: Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhəddi Kür çayına qədər Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdı"[6].

Qarabağ bəylərbəyliyi ərazicə Səfəvilər dövlətinin böyük əyalətlərindən biri idi. Bəylərbəylik doqquz mahal və iki ölkəyə bölünürdü.

Zəyəm mahalı — Hazırkı Şəmkir rayonunun Zəyəm (Şəmkir) ərazisində yerləşib.

Bərgüşad mahalı — Hazırkı Qubadlı rayonunun ərazisində yerləşib.

Pəmbək mahalı

Loru mahalı — Hazırkı Barana rayonu, Allahverdi rayonu, Cəlaloğlu rayonu

və Vorontsovka rayonunun ərazisində yerləşib.

Qaraağac mahalı — Hazırkı Ağdam və Ağcabədi ərazisində yerləşib.

Axıstabad mahalı — Hazırkı Ağstafa rayonu ərazisində yerləşib [7].

Beləliklə, Araz və Kür çayları arası ərazini əhatə edən Qarabağ bəylərbəyiliyinin ərazisi demək olar ki, Sınıq körpüyə qədər uzanırdı. Qazax, Şəmsəddili, Zəyən, Şərur, Zəngəzur , Dərələyəz də Qarabağ bəylərbəyliyinin ərazisinə daxil edilmişdi.

Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, 16-cı yüzilliyin sonlarında Osmanlı sultanı III Muradın (1574-1594) zamanında Fərhad paşa Gürcüstandan keçərək Qarabağa daxil olmuş, və Osmanlı hərbi hissələrini burada yerləşdirmişdi.

XVI əsrdən başlayaraq Osmanlı-Səfəvi qarşıdurması nəticəsində Qarabağın türk əhalisinin (onlar əksəriyyət təşkil etmişlər) xeyli hissəsi bu əyaləti tərk etmiş və bu səbəbdən də Qarabağda türk əhalisinin sayı, müvəqqəti də olsa, nəzərə çarpacaq dərəcədə aşağı düşmüşdür. Bu zaman hakimiyyət dəyişikliyindən istifadə edən alban-xristian məlikləri boşalmış türk kəndlərini və torpaqlarını rüşvət və hədiyyələrlə ələ keçirmişlər. Qarabağın əhalisi, sakinlərin etnik tərkibi haqqında 1593-cü ildə Osmanlıların tərtib etdiyi Gəncə-Qarabağ əyalətinin vergi kitabından aydın görmək mümkündür.

Beləliklə, yuxarıda verilən məlumatlardan aydın olur ki, Qarabağ Bəylərbəyliyi xalqımızın həyatında olduqca əhəmiyyətli rol oynamış və bu dövr tarixinin daha dərindən araşdırılmasına və tədqiq olunmasına böyük ehtiyac vardı.

ƏDƏBİYYAT

1. Mamedov T.M. Kavkazskaya Albaniya v IV-VII vv., Baku, 1993, s.178-179

2.http://sabunchu.cls.az › text· Bu sayfanın çevirisini yap Dağlıq Qarabağ münaqişəsi –Vahid mərkəzləşdirilmiş...Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də *Qarabağ* və ya Gəncə *bəylərbəyliyi* idi. Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan ...

3. https://aqreqator.az › cemiyyet Bu sayfanın çevirisini yap Qarabağın ermənilərdirilməsi tarixi faktlar- Aqreqator.az Ərəb işğallarınadək *Qarabağın* tarixi əhalisi etnik baxımdan eyni kökdən, ... onlardan biri də *Qarabağ* və ya Gəncə *bəylərbəyliyi* idi.

4. https://sia.az › news › social Bu sayfanın çevirisini yap Qarabağın ermənilərdirilməsi tarixi –faktlar- Sia.az Ərəb işğallarınadək *Qarabağın* tarixi əhalisi etnik baxımdan eyni kökdən, ... onlardan biri də *Qarabağ* və ya Gəncə *bəylərbəyliyi* idi.

5. https://atamdergi.gov.tr › tam-metin-pdf › tur Şimali Azərbaycanın Qarabağ Regionunun Tarixi... yazan: B.Hasanov· Alıntılanma sayısı: 1 — Açar Sözlər: Azərbaycan Qarabağ regionu, etimologiya, tarixi coğrafiya, ərazi, ... etimologiya, tarixi coğrafiya, ərazi, ... yaratdığı inzibati ərazilərdən biri olan *Qarabağ*

6. https://azkurs.org › qarabag-b... Bu sayfanın çevirisini yap Qarabağ bəylərbəyliyinin siyasi həyatı. III fəsil - azkurs.org 3 Şub 2017 — I fəsil:Qarabağ bəylərbəyliyi,bəylərbəyliklərin yaranması və idarə sistemi. ... III fəsil: Qarabağ bəylərbəyliyinin iqtisadi həyatı

7. https://www.ens.az › qarabag-... Bu sayfanın çevirisini yap Qarabağ bəylərbəyliyi: Etimologiyası, ərazisi və sərhədləri 18 Ara 2018 — *Qarabağ bəylərbəyliyi* və ya Gəncə bəylərbəyliyi-Səfəvilər dövründə ölkə inzibati cəhətdən bəylərbəyliklərə (əyalətlərə) bölünmüşdü.

8. https://bextiyartuncay.wordpress.com › ... Bu sayfanın çevirisini yap. Qarabağ bəylərbəyliyi: tarixə qısa ekskurs – bextiyartuncay Oca 2013- Bundan öncə, daha dəqiq desək, XV əsrdə Qarabağ ərazisi Azərbaycanda iqtidarda ... *Qarabağ bəylərbəyliyinin* idarəçiliyi də Qacar tayfasının ..

SUMMARY

THE ROLE OF THE KARABAKH PRINCIPALITY IN THE HISTORY OF AZERBAIJAN

Alasgarov B.I., Samedov Y.A.

The article gives brief information about the origin of the name "Karabakh", its population and ethnic composition, and then studied in detail on the basis of historical sources before the existence of the Karabakh Beylerbeyi. In accordance with the nature of the topic, the article gave more space to the Karabakh Beylerbeyi, which appeared in the Karabakh territory of the Safavid state of Azerbaijan and had its capital in Ganja. Thus, on the basis of the sources included in the circulation, an attempt was made to study the subject objectively from the point of view of the modern period.

Keywords: *origin of the name "Karabakh", population, ethnic composition, nobility, nobility, district*

РЕЗЮМЕ

РОЛЬ КАРАБАХСКОГО КНЯЖЕСТВА В ИСТОРИИ АЗЕРБАЙДЖАНА

Алескеров Б.И., Самедов Ю.А.

В статье даны краткие сведения о происхождении названия «Карабах», его населении и этническом составе, а затем подробно изучены на основе исторических источников до существования Карабахского бейлербейства. В соответствии с характером темы в статье больше места отводилось Карабахскому Бейлербейи, возникшему на карабахской территории Сефевидского государства Азербайджана и имевшему столицу в Гяндже. Таким образом, на основе включенных в обращение источников сделана попытка объективного изучения предмета с точки зрения современного периода.

Ключевые слова: *происхождение названия «Карабах», население, национальный состав, дворянство, дворянство, округ.*

MÜNAQİŞƏLƏRİN TƏNZİMLƏNMƏSİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN İŞTİRAKININ TARİXİ VƏ HÜQUQİ-SİYASİ ƏSASLARI

Əlişanova A.
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, Azərbaycan
aynuralishanova7@gmail.com

Açar sözlər: *siyasi münaqişələr, Qarabağ, beynəlxalq təşkilatlar, BMT, NATO, GUAM*

Dünyada sülhün qorunmasının və beynəlxalq münasibətlərin inkişafının mühüm şərtlərindən biri ədalətə əsaslanan dayanıqlı beynəlxalq təhlükəsizlik sisteminin mövcud olması, "beynəlxalq-hüquqi normalara riayət edilməsi və onların pozulmasına görə cavabdehliyin təmin edilməsidir" [1, s. 42].

Beynəlxalq hüquq hər birinin müxtəlif hüquq normaları kompleksi ilə idarə olunması nəzərdə tutulan dörd münaqişə tipinin olduğunu təsbit etmişdir: gərginliyin və ixtisasların olduğu vəziyyət; beynəlxalq hərbi münaqişələr; milli azadlıq uğrunda və müstəmləkə zülmünə qarşı aparılan müharibələr; daxili hərbi münaqişələr.

Qeyd edək ki, müasir beynəlxalq hüquqda beynəlxalq münaqişələrin tənzimlənməsi sahəsində olduqca böyük bir potensial toplanmışdır. Hər iki tərəfin müvafiq siyasi iradəsi olduğu hallarda humanitar hüququn təmini sahəsində əldə edilən sazişlər beynəlxalq-hüquq prosedurları hesabına nəzarət tədbirləri kompleksinin genişləndirilməsi üçün böyük imkanlar açır. Burada söhbət Cenevrə Konvensiyalarında və Protokollarında nəzərdə tutulmuş nəzarət institutları və prosedurlar sistemindən gedir. Bu sənədlərin başlıca məqsədi qaydaların pozulması hallarının qarşısının alınmasından, qabaqlayıcı tədbirlərin görülməsindən, baş verən pozuntu hallarının araşdırılmasından və barışıq prosedurlarının tətbiq edilməsindən ibarətdir.

I Dünya müharibəsi sona çatdıqdan sonra 1919-cu ildə Millətlər Liqası təsis edildi. Bu təşkilat sülhün və təhlükəsizliyin təmin edilməsi üçün xalqlar arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədini güdürdü. Lakin Millətlər Liqası İkinci Dünya müharibəsinin baş verməsinin qarşısını ala bilmədi. Bu təşkilatın fəaliyyəti formal olaraq 1946-cı ildə dayanmış oldu və onun əvəzinə yeni beynəlxalq hökumətlər arası təşkilat təsis edildi – Birləşmiş Millətlər Təşkilatı. 1945-ci il iyunun 26-da ABŞ-ın San-Fransisko şəhərində BMT-nin Nizamnaməsi qəbul edildi və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi.

Beynəlxalq hüquqda beynəlxalq təşkilatların daxili münaqişələrdə göstərdiyi fəaliyyətlərinin siyasi-hüquqi əsaslarını reqlamentləşdirən və tənzimləyən bir sıra sənədlər mövcuddur. Belə ki, 1968-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş BMT-nin 2444 saylı qətnaməsində bütün silahlı münaqişələrə aid olan üç prinsip formallaşdırılmışdır. Bu prinsiplər Beynəlxalq humanitar hüququn təməlini təşkil edirlər:

1. Müharibənin aparılmasında vasitə və metodların seçilməsi hüququ qeyri-məhdud deyildir;
2. Mülki əhaliyə hücum etmək qadağan olunur;
3. Bütün hallarda silahlı münaqişə iştirakçıları ilə mülki şəxslər arasında fərqləndirmə aparılmalıdır [2].

Münaqişələrin tənzimlənməsində beynəlxalq təşkilatlardan danışarkən Amerika Dövlətləri Təşkilatı (ADT) (OAS – Organization of American States), Afrika İttifaqı (Aİ), Ərəb Dövlətləri Liqası (ƏDL), Avropa Birliyi (və ya Avropa İttifaqı), Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO), GUAM və s. qeyd etmək lazımdır.

Yuxarıda adı çəkilən müqavilə və qərarların araşdırılması əsasında belə nəticəyə gəlmək olur ki, bu sənədlər AB üçün münaqişələrin tənzimlənməsi istiqamətində yeni fəaliyyət sferası açır. Böhranların tənzimlənməsinə dair tələbatla bağlı olaraq AB-nin bu fəaliyyəti də genişlənməkdədir. Böhran və münaqişələrin tənzimlənməsi Avropanın təhlükəsizlik və müdafiə siyasətinin mərkəzi elementinə çevrilmişdir və AB dünya miqyasında fəaliyyətinin coğrafiyasını genişləndirməkdədir. Daxili silahlı münaqişələrin tənzimlənməsi üçün AB-nin NATO-nun hərbi qüvvələrindən istifadə etmək hüququ vardır (1999-cu il Köln qərarı). Avropanın təhlükəsizlik və hərbi müdafiə siyasətinin həyata keçirildiyi coğrafi zona – bu təşkilata üzv olan dövlətlərin ərazisini, eləcə də AB ilə həmsərhəd olan bölgələri və Köln qərarına müvafiq olaraq bütün beynəlxalq və regional böhranları əhatə edir.

Beynəlxalq məsələlər üzrə hüquqşünasların bəziləri BMT-nin Nizamnaməsinin 2-ci (7) maddəsinə söykənərək sübut etməyə çalışırlar ki, dövlətin razılığı olmadan daxili münaqişənin tənzimlənməsi üçün beynəlxalq hüquq normalarının tətbiq edilməsi imkanları mövcuddur. Halbuki həmin 2-ci maddədə "hər hansı bir dövlətin daxili səlahiyyətlərinə daxil olan" işlərə müdaxilə qadağan edilir [3].

Fikrimizcə, münaqişələrin, xüsusilə də daxili münaqişələrin tənzimlənməsi üzrə regional təşkilatların müvafiq tədbirlər görə bilməsi üçün hazırlıqlı olmaları birinci növbədə ona əsaslanır ki, belə təşkilatların əsas məqsədi kimi üzv dövlətlərin iqtisadi əməkdaşlığının və sabitliyinin təmin edilməsi yalnız münaqişələrin olmadığı sülh şəraitində mümkündür.

Qeyd edək ki, 2020-ci ilə qədər mövcud olan Qarabağ problemi ilə bağlı beynəlxalq təşkilatların cəhdlərini və mövqeyini dəyərləndirdikdə başda BMT və ATƏT olmaqla digər beynəlxalq təşkilatların Qarabağ probleminin həlli istiqamətində müxtəlif cəhdləri olduğu aydın olur. Beynəlxalq təşkilatlar Azərbaycan torpaqlarının işğal edilməsi, bir milyondan çox azərbaycanlının öz torpaqlarından məcburi olaraq çıxarılmasını qınayan, işğalçı qüvvələrin dərhal işğal edilmiş ərazilərdən çəkilməsini, qarşıdurmaların təcili olaraq dayandırılmasını istəyən və Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərilməsinin zəruriliyini bildirən qərarlar qəbul etmiş, bəyanatlar yaymışlar.

Münaqişə tərəfi olan Azərbaycan və Ermənistana eyni münasibətlə yanaşılmaması, ikili standartların mövcud olması, işğlaçı dövlətlə təcavüzə məruz qalan dövlət arasında siyasi və hüquqi baxımdan lazımi fərqin qoyulmaması münaqişənin həllində əsas maneə idi. Lakin ali baş komandan, cənab prezident İlham Əliyevin başçılığı ilə ordumuz haqq savaşında düşmənə qalib gəldi. Öz torpaqlarını işğaldan azad etdi. Və həmin günü zəfər günü kimi tarixə yazdı.

ƏDƏBİYYAT

1. Хохлышева О.О. Действующее международное право и современный миротворческий процесс. Н.Новгород, 2000.
2. https://undocs.org/ru/A/RES/2444(XXIII) [Elektron resurs] - Генеральная Ассамблея ООН, Двадцать третья сессия. Уважение прав человека в период вооруженных конфликтов.
3. http://www.un.org/ru/sections/un-charter/chapter-i/index.html [Elektron resurs] - Устав ООН, Глава I, Цели и принципы.

SUMMARY

HISTORY AND LEGAL-POLITICAL BASIS OF THE PARTICIPATION OF INTERNATIONAL ORGANIZATIONS IN CONFLICT REGULATION

Alishanova A.

The study provides us information about the history and legal and political basis of the development of international organizations in the regulation of conflicts. In this regard, some theses were briefly put forward from the comprehensive research work, and ideas were exchanged. Thus, it is possible only in peacetime, when there are no conflicts, so that regional conflict resolution organizations can take appropriate measures. It is also noted in the study that the Organization of American States (OAS), the Organization of American States (EU), the African Union (EU), the League of Arab States (LAS), the European Union, the North Atlantic Treaty Organization (NATO), GUAM and other. International organizations have opened a new sphere of activity in the settlement of conflicts.

Key words: *political conflicts, Karabakh, international organizations, UN, NATO, GUAM*

РЕЗЮМЕ

ИСТОРИЯ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ОСНОВЫ УЧАСТИЯ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ В УРЕГУЛИРОВАНИИ КОНФЛИКТОВ

Алышанова А.

В работе даются сведения об общественно-политической основе и истории развития международных организаций в деле урегулирования конфликтов. Из всестороннего исследования в кратком изложении были выдвинуты некоторые тезисы по данному аспекту, приводится обмен мнениями.

Так, осуществление определенных мероприятий в урегулировании конфликтов со стороны региональных международных организаций возможно лишь в условиях мирной обстановки, в момент отсутствия конфликта.

Также указывается, что в плане урегулирования конфликтов появилась новая сфера деятельности таких международных организаций как Организация американских государств (ОАГ) (OAS -Organization of American States), Африканский Союз (АС), Лига арабских государств(ЛАГ), Евросоюз(ЕС), Североатлантический Альянс(NATO), ГУАМ и др.

Ключевые слова: *Политические конфликты, Карабах, международные организации, ООН, НАТО, ГУАМ*

QƏDİM DÖVRLƏRDƏN XIX ƏSRƏ QƏDƏR ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

Əliyev M.C.
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,
ADPU-nun Quba filialı, Quba, Azərbaycan
murvet.eliyev@quba.adpu.edu.az

Açar sözlər: *Şuşa, Qarabağ, Pənahəli xan, M.P.Vaqif, qala*

Şuşa... Azərbaycan tarixinin ön keşməkeşli, maraqlı, möhtəşəm hadisələri ilə zəngin bir şəhəri. Bu şəhər haqqında danışarkən insan nədən başlayacağını, harada bitirəcəyini, nələri qeyd edəcəyini, nələri ixtisar edəcəyini fikirləşir. Çünki şəhərin çox qədim və vacib məlumatlarla zəngin tarixi var. "Bu şəhərin uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan keçmək şərəfli bir haldır" deyirdi Həsən İxfa [9, 77].

Şuşanın bir şəhər kimi yaranması XVIII əsrin 50-ci illərinə təsadüf edir. Belə ki,Qarabağ xanı Pənahəli xan daha qorunaqlı və düşmənlərdən müdafiə üçün daha etibarlı bir qala - şəhər kimi məhz buranı seçmişdir. İlk əvəllər Pənahabad adlandırılan bu şəhər – zamanla "Şuşakənd","Qala", "Qala Şuşa" və "Şəhri Şüşə" kimi də çağırılmışdır [10, 150]. Amma yaşayış məskəni kimi Şuşada yaşayış insanlığın yaranması ilə başlanmışdır desək heç də səhv etmiş olmarıq. Belə ki, Şuşanın iqlimi mülayim və yaşamaq üçün əlverişli olduğu üçün,təbii mağaraları su ehtiyatları bol olduğu üçün burada ibtidai insanların yaşaması üçün münbit şərait olmuşdur. "Do tələb təpəsi","Ağzı yastı kaha","Xəzinə qayası","Üç mıx mağara-kahaları, Şuşa mağarası burada qədim insana aid izlər saxlayır [1, 37].

Doğrudur hələ 1950-ci illərə qədər Azərbaycanın bu gözəl guşəsində qədim dövrdə insan yaşayışı haqqında demək olar ki,heç bir məlumat yoxdur. Amma 1971-ci ildən başlayaraq AMEA-nın əməkdaşları Məmmədəli Hüseynovun rəhbərliyi ilə Şuşa ərazisindəki yuxarıda adları qeyd etdiyimiz mağaralarda tədqiqat işləri başlamışdır. Buradan Paleolit dövrünə aid 4 ədəd daş məmulatı tapılmışdır. Bu tapıntıların 2-si Şuşa müzeyində 2-si AMEA-nın "Daş əsri"şöbəsində saxlanılır. Bu tapıntılar Şuşa mağarasında yaşayan insanların Azərbaycanın ən qədim insan məskəni düşərgəsi olan Quruçay vadisi insanın davamçısı olduğunu göstərir [11, 42-43].

Şuşa yaşayış məskənindəki insanlar dövr keçdikcə daha mükəmməl alətlərdən istifadə etmişdilər.Ətraf ərazilərdə olan mis yataqlarından istifadə edərək alətlər düzəldən bu qədim insan həmdə saxsı qablar da istehsal etməyi öyrənmişdilər. Şuşa insanı insanlığın keçirdiyi bütün dəyişikliyi keçərək həm mis, həm tunc, həm də dəmir dövrünü yaşamışdır. Bu tapılan abidələr açıq aydın görünür [1, 40].

Şuşa yaşayış məskəninin nə vaxtı qalaya çevrilməsi haqqında çoxlu sayda mülahizələr mövcuddur. Bütün mülahizələrə baxmayaraq yazılı mənbə qıtlığı bu tarixin tam dəqiq deyilməsini çətinləşdirir. Akademik Z.Bünyadov qalanın ilk adının Novruz olduğunu və monqollar tərəfindən dağıldıldığını qeyd edir. Bu barədə qeydlərində həm də bu qalanın 1428-ci ildə türk tayfaları tərəfindən əsasının qoyulduğu qeyd edilir [9, 149].

Naməlum Venetsiyalı tacir və Səfərnamə əsərində Qarabağda səfərdə olarkən gördüklərini,müşahidələrini yazarkən Şuşa şəhərinə də xüsusi bir yer ayırmış və sıldırım qayalarla əhatə olnmuş bir yerdə kənar adlanan qala-şəhər vardır yazırdı. Əhalisinin türk dilli, əsas məşğuliyyətlərinin ipəkçilik olduğunu xüsusi vurğulayırdı. Buradan xaricə çıxarılan ipəyin bu ölkələrdə qalanın adıyla "Kənar"adlandığınıda qeyd edirdi.Onun dediklərinə inansaq Ş.İ.Xətai bir neçə gün bu şəhərdə qonaq kimi qalmışdır [9, 150].

XVIII əsrin əvvəllərində Səfəvilər dövləti zəifləməyə başlamışdı. Düzgün idarəetmə sisteminin olmaması, hakimiyyət uğrunda mübarizə, tayfalar arası ziddiyətlər, dünya ticarət yollarının dəyişməsi, feodal qaydalarının hakimi olması, Osmanlılar dövləti ilə aparılan uzunmüddətli müharibələr və bunun nəticəsində baş verən dağıntılar zəifləmənin əsas səbəblərindən bir neçəsidir. Baş verən özbaşnalıqlar vergilərin artırılması da bu səbəblərdəndir. Qeyd edilən səbəblərdən zəif düşən Səfəvi dövləti 1736-cı ildə tarixin arxivlərərinə köçdü.Məhz bu dövrdə parlayan Əfşarlar tayfasının imperiyasının rəhbəri oldu. Azərbaycanda, Mərkəzi Asiyada və İran yaylasında müxtəlif ərazilərində yaşayan əfşar tayfaları Nadir xanla bir daha yenidən Səfəvilər dövlətində yüksək vəzifələrə gəldilər həm bu dövlətin yenidən bərpa olunmasında, həm də 1736-cı ildə süqut etməsində xüsusi rol aldılar[8, 173].

Səfəvilər dövlətin mövcud olduğu dövrdə 4 bəylərbəylikdən biri də Qarabağ bəylərbəyləri idilər. Əhalisinin əsası da türkən tayfalarından olan otuz-ikilər, kəbirlilər, ziyadoğlular, cavanşirlər ,otuzikilər, kolanılar və digərləri idi [4, 532].

XVIII əsrin 40-cı illərində Nadir Şah Cənubi Qafqazı ələ keçirib burada möhkəmləndikdən sonra bu ərazinin hakim tayfalarına və rəhbərlərinə xüsusi diqqət ayırdı. Bunun bir neçə səbəbi olsa da əsas səbəblərdən biri də 1736-cı ildə keçirilən Muğan qurultayında yuxarıda adlarını çəkdiyimiz tayfaların ona qarşı əks mövqedə olması idi. Bundan çox narazı olan Nadir Şah Borçalı və Qazax mahallarının idarəsini Ziyadoğlulardan alaraq Gürcü hakimlərinə vermişdi [7, 36].

Cavanşir tayfasını isə ordusunda xidmət adı ilə Xorasan istiqamətində köç etməyə məcbur etmişdi.Cavanşir tayfalarının rəhbərlərindən Fəzləli bəy şahın eşik ağası, Pənahəli bəy isə ordularından birinin rəhbəri olmuşdur. Qarabağnamələrə istinadən deyə bilərik ki, şahın sarayında baş verən intiriqalar nəticəsində Fəzləli bəy edam olunmuş və bundan sonra öz həyatından narahat olan Pənahəli bəy isə onun yanındakı xidmətdən uzaqlaşaraq gizli şəkildə Qarabağa gəlmişdir. Nadir şah uzun müddət 200 nəfərlik dəstəylə Qarabağda qaçaqçılıq edən Pənahəli bəyi təqib etsə də məğbul edə bilməmişdir [7, 38].

1747-ci ildə isə Nadir şahın öz yaxın qohumları tərəfindən sui-qəsd nəticəsində öldürməsindən sonra Pənahəli bəy 1748-ci ildə yeni Qarabağ xanlığının əsasını qoymuşdur. Xanlığın yenə də əhalisinin əsasını Cavanşırlər,İyirmi dördlər,Otuz ikilər, Kəbirlilər, Baharlılar,n tayfaları təşkil edirdi [7, 39].

Nadir şahın ölümündən sonra yaranan hakimiyyət boşluğundan yaralanan feodal hakimlər Azərbaycanda bir sıra xanlıqlar yaratdılar. Bu xanlıqlar həm daxili həm də xarici çəkişmələr içində idilər. Xüsusən Azərbaycan xanlarının əsas diqqət mərkəzi öz təbiəti,zənginliyi,coğrafi mövqeyi ilə seçilən Qarabağa yönəlmişdi. Bunu nəzərə alan Pənahəli xan 1748-ci ildə Kəbirli mahalında Bayat qalasını tikdiri. Sonrakı hadisələrə baxdıqda Pənah xanın haqlı olduğunu görürük. Belə ki, Şəki xanı Hacı Çələbi həmin il öz müttəfiqləri ilə birgə Qarabağa hücum edir. Lakin məğlub olaraq geri qayıdır. Qayıdarkən məhşur bir ifadə işlədir: Pənah xan bu vaxta qədər bir sikkə vurulmamış gümüş idi. Biz isə ona sikkə vurduq və geri qayıtdıq [8, 18]. Qalibiyyətə baxmayaraq Pənah xan daha qorunaqlı bir qala haqqında fikirləşirdi.Həmin qala isə indi "Şahbulağı"adlanan Tərnəgül qalası idi.1751-ci ildə xanlığın mərkəzi Bayat qalasından bu qalaya köçürülür [5, 284].

Mirzə Yusif Qarabağı özünün Tarixi safi əsərində qeyd edir ki,"Qacar Məhəmmədhəsən xanın istiqlaliyyət xəbəri İran,Azərbaycan və Mazandaran vilayətlərinə çatan kimi, Pənah xan təşvişə düşdü... Daxildə olan çəkişmələr çox idi. Əgər o başqalarının təhriki ilə Qarabağa hücum etsə idi, bunun nəticəsində ancaq onun eli və adamları düşmən ayağı altında əziləcəkdi O, vəzir, vəkilləri ilə məsləhətləşdikdən sonra qərara gəldi ki, gözəl, səfalı və xətasız bir yerdə qala tikdirsin. Soraqlaşdıqdan sonra indiki yaşayış yeri olan Şuşa qalasının yeri müəyyən edildi" [8, 20].

Mənbələrdə verilən məlumatlardan görünür ki, Pənah xan Şahbulağı qalasının da xanlığı tam qorumayacağına inanırdı və buna görə də məhz yeni qalanın axtarışı, yerinin müəyyən edilməsi üçün tapşırıq vermişdi [9, 82]. Beləcə Şuşanın bir qala şəhər kimi ikinci dəfə yüksəlişi başladı. Bu yüksəliş əvvəlki dövrdən daha yüksək idi və hadisələrin sonrakı inkişafı qalanın Azərbaycan tarixində nə qədər böyük bir iz buraxdığını göstərir.

Mirzə Adıgözəl bəy öz Qarabağnamə əsərində qeyd edir ki, Şuşanın uca dağlar başında yerləşməsi onun su problemlərinin olmasına şərait yarada bilərdi. Bundan narahat olan xan bir neçə quyu qazdırdı və quyulardan su çıxandan sonra hicri 1170 – ci (1754) ildə Şuşa qalasının əsasını qoydu [7, 47]. Amma bu tarix digər Qarabağnamələrdə daha tez – 1166 – ci il göstərilir [8, 21].

Qalanın ilk sınağı 1752 – ci ildə Məhəmməd Həsən xan Qacarın Qarabağa hücumu zamanı oldu. Qala uğurla müdafiə olundu hətta Xatın arxı adlanan döyüşdə Qacar məğlub oldu. Bu döyüşdə ələ keçirilən toplar 1826 – cı ilə qədər qalada qalmışdı [11, 49].

Şuşa sonrakı illərdə də düşmən hücumlarına məruz qalmışdı. 1762-cı ildə Fətəli xan Əfşar, 1795 və 1797 – ci illərdə Ağa Məhəmməd şah Qacar, 1826 – cı ildə Abbas Mirzə Şuşaya hücum etsə də qala və onun müdafiəçiləri igidliklə bu sınaqlardan çıxdılar.

Yuxarıda qeyd edilən hücumlar arasında xüsusilə 1795-7197-ci illərdə Ağa Məhəmməd şah Qacarı qeyd etmək istərdim. Belə ki, Ağa Məhəmməd xan İran və Cənubi Azərbaycanda öz hakimiyyətini bərqərar edəndən sonra 1794-cü ildə qoşunlarını Qarabağa göndərdi lakin Əsgəran qalası yaxınlığında həmin qoşunlar məğlubiyyətə uğradı[7, 58]. Bu məğlubiyyətdən qəzəblənən Qacar 1795-ci ildə 85 minlik qoşunla özü şəxsən Qarabağa gəldi, Şuşanı mühasirəyə alaraq xana və müdafiəçilərə psixoloji təzyiq göstərmək üçün şair Seyid Məhəmməd Şirazidən bir şerin beytlərini dəyişərək onlara göndərdi:

Fələyin macanağından fitnə daşı yağır
Sən axmaqcasına Şişə içərisində oturmusan

Amma bundan heç də narahat olmayan xan, Vəziri Molla Pənah Vaqifin yazdığı cavabı ona göndərir.

Əyər məni saxlayan mənim bildiyimdirsə
Şişənin daşın qoltuğunda müdafiə edər [7, 59].

Lakin Tarixi – Safidə deyildiyi kimi " Qarabağ əhli dəniz kimi dal,ğalanan qoşunun qabağında mərd – mərdanə dayandı [8, 33].

Şah Şuşa şəhərini işğal etməkdə aciz qalıb Tiflisə hücum etdi və daha sonra Azərbaycandan çəkildi. Qacarın geri çəkilçəsindən sonra rahat nəfəs alan Qarabağ xanlığı Rusiyaya meyl etməyə başladı və əlaqələr yaratmaq üçün İbrahim xan oğlu Əbülfət ağanı Rusiyaya II Yekatrinanın qəbuluna göndərdi. İmperatriçə hörmət əlaməti olaraq xan və onun məsləhətçisi Molla Pənah Vaqifə dəyərli hədiyyələr göndərdi [11, 52].

Xanlıqların, xüsusən Qarabağ xanlığının Rusiyaya meyli Qacarı çox narahat edirdi və mümkün olan kimi şah yenidən Şuşaya hücum etdi. Çox çətin vəziyyətdə qalan İbrahim xan Şuşanı müdafiə edə bilməyəcəyini görüb 1797-ci ildə şəhəri tərk etdi. Müdafiəsiz qalan şəhər tezliklə Qacar tərəfindən ələ keçirilərək şəhərdə əsil terror və qırğın həyata keçirildi. Şah xüsusən xanın yaxın adamlarını, o cümlədən Molla Pənah Vaqifi həbs etdirərək onları edam etdirmək qərarına gəldi. Tezliklə şah kef məclisləri təşkil edərək şəhərin işğalını qeyd etməyə başladı. Bu uzun müddət davam etmədi çünki, şahın adamları sui-qəsd təşkil edərək onu öldürdülər. Qacarın ölümü ilə bağlı çox sayda versiyalar olsa da ümumi bir fikrə görə qulluqçular öz ölümlərindən qorxduqları üçün onu öldürmüşdülər. Qarabağnamələrə inansaq bu qulluqçular Abbas bəy və Səfərəli bəy adında iki nəfər eşikağalarıdır [7, 138].

Qacarın ölümündən sonra XIX əsrin əvvəllərində hələ I Pyotr dövründən Cənubi Qafqazı, xüsusən Azərbaycanı işğal etmək istəyən Rusiyanın əlinə yaxşı fürsət keçmişdi. Xanlıqları öz aralarında və və xarici qüvvələrə qarşı apardıqları mübarizə nəticəsində çox zəifləmiş hətta özlərini müdafiə edəcək qüvvədə belə deyildilər.

Qarabağ xanı İbrahim xan bu dövrdə balanslaşdırılmış siyasət yeridərək Həm Qacarlar həm də Rusiya ilə münasibətləri qaydasında saxlamağa çalışırdı. Qacarlara öz oğlu Əbülfət ağanı və qızı Ağabəyimi girov vermişdi. Rusiya ilə də səfirlər vasitəsiilə əlaqə saxlayırdı. Lakin ruslar Cənubi qafqazda hakimiyyət boşluğundan istifadə edərək buranı işğal planlarını həyata keçirməyə başladılar [11, 202]. Hələ 1801 - ci ildə Çar Aleksandrın fərmanı ilə Gürcüstan və Azərbaycanın Qazax, Borçalı və Şəmşəddil bölgələri Rusiyanın tabeçiliyinə keçmişdi. Gəncə xanı Cavad xan 1801 – 1803 - cü illər ərzində məhz bu ərazilər uğrunda Rusiya və Gürcüstan blokuna qarşı mübarizə aparmışdı. Qüvvələrin qeyri – bərabərliyi bu planın baş tutmasına imkan vermədiyi kimi, Gəncə xanlığının da işğalına gətirib çıxardı. Car - Balakən camaatlığının (1803) və Gəncə xanlığının (1804) işğalı digər xanlıqlar kimi Qarabağ xanı İbrahim xanı da narahat edir və qorxudurdu. Qısa müddətli təmaslardan sonra 1805 - ci ilin may ayında Rusiya və xanlıq arasında Kürəkçay müqaviləsi imzalanır. Beləliklə yarandığı gündən müstəqil xarici siyasət yeridən Qarabağ Rusiya imperiyasında asılı vəziyyətə düşür. Müqavilədə xanlığa bir sıra imtiyazlar, xüsusən daxili idarəetmə sözü verilsə də tezliklə bu imtiyazlar ləğv edilərək 1806 – cı ildə heç bir səbəb olmadan general Lisaneviçin İbrahim xanı öldürməsi ilə demək olar ki, varlığına da son qoyuldu [2, 247-257, 12, 28].

I Qacar-Rus və II Qacar-Rus müharibələri zamanı Qacarların Şuşaya olunan hücumlarını qarşısı alınaraq geri oturduldular. Bu müharibələr nəticəsində Azərbaycanın Şimal hissəsi, o cümlədən Şuşa Rusiya hakimiyyəti altında qaldı. 1828-ci il Türkmənçay müqaviləsindən sonra Azərbaycanın əbədi və əzəli torpaqlarına Osmanlı dövlətindən və İrandan çoxlu sayda erməni köçürülməyə başlanıldı. Bu köçürmə həm əhalinin etnik tərkibini süni şəkildə dəyişir həm də yerli xristian albanların sıxışdırılmasına və sonda onların qriqoryanlaşdırılmasına səbəb olurdu [11, 54, 12, 34].

Rusiya hakimiyyəti ilk vaxtlarda bu ərazini komendantlar vasitəsi ilə idarə etsə də bu sistemin narazılıq yaratdığını görərək, əhalinin üsyanından ehtiyat edərək 1840-cı ildə idarəetmə sistemində dəyişikliyə getdi. Yeni idarəetmədə qəzalar yaradıldı və bu qəzalardan biri də Şuşa qəzası idi. Şuşa qəzası təxminən Qarabağ xanlığının ərazisinə uyğun gəlirdi. Bu idarəetmə sistemi də uzun müddət çəkmədi və 1846 - ci ildə quberniyalar yaradıldı. 1868 - ci ilə qədər Şuşa şəhəri Şamaxı quberniyasının hakimiyyətində, daha sonra isə Yelzavetpol quberniyasının tərkibinə keçdi [10, 343-357].

XIX əsrin sonlarında Şuşada şəhər duması fəaliyyətə başladı ki, bu dumada 50 % deputatı Azərbaycanlı olmalı idi. Bu hal köçürmə siyasətinə baxmayaraq Azərbaycanlıların əksəriyyət təşkil etdiyini göstərir. Rus mənbələrinə görə 1830 – cu illərdə Şuşada 56 bəy, 64 müsəlman ruhani, 21 xristian din xadimi, 200 tacir yaşayırdı. 1900 – cü il Şuşa qəzasındakı yer adları haqqındakı məlumata nəzər salsaq görərik ki, şəhərdəki 121 kənd adından yalnız bir neçəsi azərbaycan – türk mənşəli deyil. Bütün bunlar məhz Şuşanın qədim Azərbaycan torpağı olduğunu sübut edən faktlardandır [11, 85].

Tarixi hadisələrin ardıcıllığını izlədikcə Şuşanın nə qədər qədim, əsrarəngiz, geniş tarixə malik olduğunu görə bilərik. Bir yaşayış məskəni kimi insanlıq tarixinin ən qədim dövründən mövcud olan Şuşa qalası tariximizdə çoxböyük izlər qoymuşdu.. Məhz bu izlər bizə 2020 - ci ildə buraya,heyrətamiz şəhərimizə yenidən gedməyə yol göstərdi.

ƏDƏBİYYAT

1. Azərbaycan Arxeologiyası: [6 cilddə]. - Bakı: Azərbaycan Arxeologiyası, - I cild. - 2008. - 448 s.
2. Azərbaycan Milli Ensiklopediyası / Red. hey. sədri İ.H.Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, - c. Azərbaycan: - 2007. - 883 s.
3. Bakıxanov, A. Gülüstani İrəm / A. Bakıxanov.- Bakı: Xatın plyus, - 2008.- 302 s.
4. Bünyadov, Z. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). / Z. Bünyadov, Y. Yusifov - Bakı: Azərnəşr, - 1994. - 668 s.
5. Əliyarlı, S. Azərbaycan tarixi üzrə qaynaqlar / S.Əliyarlı.-Bakı: Çıraq, - 2007. - 395 s.
6. Xəlilzadə, F. Ruhumuzun ünvanı Şuşa / F.Xəlilzadə. – Bak: Zərdabi LTD, - 2013. - 368 s
7. Qarabağnamələr: (I kitab) / tərt.ed. A. Fərzəliyev – Bakı: Şərq -Qərb, - 2006. – 216 s.
8. Qarabağnamələr: (II kitab) / tərt.ed. N. Axundov – Bakı: Şərq -Qərb, - 2006. – 288 s.
9. Qarabağnamələr: (III kitab) / tərt.ed. N. Axundov – Bakı: Şərq -Qərb, - 2006. – 248 s.
10. Qarabağlı, A. Qarabağ, onun qədim tayfaları və toponimləri / Bakı: Mütərcim, - 2008. - 480 s
11. Məmmədov, N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi / N.Məmmədov.- Bakı: Avropa, - 2016. - 960 s
12. Mahmudov, Y. Qarabağ, real tarix,faktlar,sənədlər. / Y.Mahmudov, K. Şükürov - Bakı: Təhsil, - 2005. - 250 s.

SUMMARY

HISTORY OF SHUSHA CITY FROM ANCIENT TIMES TO XIX CENTURY

Aliyev M.C.

Human life in the ancient city of Shusha is a continuation of the Guruchay culture, the oldest culture in Azerbaijan. Traces of this culture have been found in a number of human settlements and caves. At all stages of the Stone, Bronze and Iron Ages, people lived here and had their own primary culture. In later times, especially in the Middle Ages, there is very little information about this settlement in the sources due to lack of information. But with the establishment of the Karabakh khanate and the capitalization of this ancient settlement by Panahali khan, Shusha again rose to a historic height and became the cradle of our culture. The struggle of the population of Shusha against foreign invaders is of great importance in the history of Azerbaijan.

***Keywords**: Shusha, Karabakh, Panahali khan, M.P. Vagif, fortress*

РЕЗЮМЕ

ИСТОРИЯ ГОРОДА ШУШИ С ДРЕВНИХ ВРЕМЁН ДО XIX ВЕКА

Алиев М.Ч.

Человеческое поселение в древнем городе Шуша считается продолжением Гуручайской культуры, которая является самой древней культурой Азербайджана. Следы этой культуры были обнаружены в ряде населённых пунктах и пещерах. На всех этапах каменного, бронзового и железного веков здесь жили люди и имели свою культуру. Позднее, особенно в средние века об этом поселении в источниках было очень мало сведений. Но с созданием Карабахского ханства и после провозглашения Панахали ханом этого древнего поселения столицей, Шуша вновь поднялась на историческую высоту и стала колыбелью нашей культуры. Борьба населения города Шуши против иноземных захватчиков имеет очень большое значение в истории Азербайджана.

***Ключевые слова:** Шуша, Карабах, Панахали хан, М.П.Вагиф, крепость.*

KÜRƏKÇAY MÜQAVİLƏSİ VƏ ONUN NƏTİCƏLƏRİ

Əliyeva L.E.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
leyla_848484@list.ru

Açar sözlər: *xanlıqlar, müharibə, müqavilə, strategiya, işğalçılıq planları*

Beynəlxalq sistem tarix boyu dövlətlərin yaranmasının, yüksəlişinin və süqutunun şahidi olmuşdur. Regional siyasətləri istiqamətləndirən dövlətlərin gücü; iqtisadi vəziyyət, hərbi potensial, texnoloji üstünlük, rəhbərlərin ixtisası və s. elementləri ilə qidalanır. Dövlətin regional mövqelərini möhkəmləndirməsi və davamlılığını təmin etməsi üçün müəyyənedici şərtlərdən biri onun hansı geosiyasi və geostrateji mövqeyə malik olmasıdır. Bu kontekstdə Azərbaycan tarix boyu mühüm ölkə kimi böyük dövlətlərin cazibə mərkəzinə çevrilmiş və bu güclərin münaqişə və münaqişələrinə səhnə olmuşdur. XIX əsrdə Rusiyanın cənuba doğru genişlənməsi regionda effektivlik uğrunda mübarizə aparan aktyorların qarşıdurmasına səbəb oldu. Rusiya imperiyasının bölgəyə qarşı işğalçılıq siyasətindən bəhs edilərkən ilk növbədə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri vurğulanır. Lakin qeyd etmək lazımdır ki, Azərbaycana qarşı işğal planları çox əvvəllər həyata keçirilib.

Rusiyanın işğalına şərait yaradan mühüm amillərdən biri də Azərbaycanın xanlıqlara parçalanması idi. 1747-ci ildə Nadir şahın ölümündən sonra mərkəzi hakimiyyətdən qopma prosesinin sürətlənməsi işğalçılıq planlarını həyata keçirməyə çalışan Rusiyaya böyük rahatlıq yaratdı. Azərbaycanın xanlıqlara bölünməsi və mərkəzi hakimiyyətdən ayrılması Rusiyanın əlini gücləndirərək işğalçılıq siyasətinin həyata keçirilməsini sürətləndirmiş, xanlıqlar müttəfiqlik, ilhaq, işğal kimi müxtəlif üsullarla tədricən Rusiyanın müstəmləkə ərazisinə daxil edilmişdir.

Qacarlar sülaləsindən qopma prosesində xaricdən dəstək axtaran xanlıqlar arasında Qarabağ xanlığı xüsusilə diqqəti çəkir. Eləcə də ilhaq zamanı və ondan sonra baş verən bir çox hadisələr bu gün gündəmdə olan bəzi iddia və şayiələrlə birbaşa bağlıdır. Bunlar arasında ən çox rast gəlinən məsələ erməni yazıçılarının heç bir sənəd və məlumata əsaslanmadan Qarabağın qədim erməni torpağı olduğunu iddia etməsidir. Şübhəsiz ki, bu əsassız, qeyri-elmi və əxlaqsız iddianın arxasında məqsəd Azərbaycan torpaqlarının Ermənistan tərəfindən ilhaqına zəmin hazırlamaqdır. İlk növbədə onu vurğulamaq lazımdır ki, "Dağlıq Qarabağ" kimi tanınan inzibati vahid və ya ərazi süni formasiyadır. Eləcə də Qarabağın aran və dağlıq ərazilərə bölünməsi tarixi faktlara uyğun gəlməyən və gələcəkdə bu bölgənin Azərbaycandan ayrılmasına yönəlmiş strateji plandır. "Erməni sahibliyi" ilə bağlı tez-tez səslənən iddialar da erməni "tədqiqatçılarının" tarixi faktlara məhəl qoymamasının nümunəsidir.

Eynilə, Qarabağ xanlığının mütləq əksəriyyəti türklərdən ibarət olan beş xristian məliki də yalnız olduqları bölgənin erməni icması üzərində səlahiyyətli idilər və bu birləşmələrlə bağlı müstəqillikdən söhbət gedə bilməzdi. Bu səbəbdən Rusiya ilə Qarabağ xanlığı arasında bağlanmış Kürəkçay müqaviləsində yuxarıda adları çəkilən idarələrin adı çəkilməmişdir. Qarabağ xanı İbrahimxəlil xanın öldürülməsindən sonra çar I İsgəndərin oğlu Mehdiqulu ağanın Qarabağ hakimi vəzifəsinə təyin edilməsi ilə bağlı 10 sentyabr 1806-cı il tarixli fərmanında erməni hökmdarlığı ilə bağlı heç bir müddəa yox idi. Bundan əlavə, tarixi qeydlərdə beş məlikdən yalnız birinin Qarabağın yerli xalqı olması, digər dördünün isə müxtəlif bölgələrdən Qarabağa köçməsi barədə məlumatlar vardır. Ona görə də tam əminliklə deyə bilərik ki, erməni yazıçılarının qətiyyətlə vurğuladıqları "Ermənistan dövləti" iddiası yalandır. [1, s.32]

Qarabağ tarixi ilə bağlı araşdırmalarda diqqəti cəlb edən başqa bir məqam da Rusiyanın ilhaq prosesinin ənənəvi ekspansionist siyasətə uyğun olaraq baş verməsi: xanlıqla münasibət qurmaq, xanlığı qorumaq və lazımi şərait yarandıqda onu işğal etməkdir. Kürəkçay müqaviləsinin imzalanmasından sonra regionda baş verən proseslər Rusiyanın ənənəvi işğal strategiyasının bariz nümunəsidir: iki tərəf arasında imzalanmış bu müqavilə Rusiyanın Qarabağ xanlığını ləğv etməsi nəticəsində on yeddi il sonra öz qüvvəsini itirdi.

14 may 1805-ci il tarixli Kürəkçay müqaviləsi qısa bir giriş və on bir maddədən ibarət idi. Giriş hissəsində qərara alınıb ki, İbrahimxəlil xan Şuşa və Qarabağ xanı kimi Rusiya imperiyasının himayədarlığını qəbul edib, bütün Rusiya taxtına sədaqətlə və ürəkdən xidmət etsin. Müqaviləyə əsasən, İbrahimxəlil xan və onun varisləri xanlıq taxtının yeganə sahibi kimi qəbul edilir, xanlığın ərazi bütövlüyünün qorunması təmin edilirdi.

Bu müqavilə ilə Rusiya imperiyası Qarabağda nüfuz yaratmaq fürsətindən istifadə etdi: birinci maddədə İbrahimxəlil xan and içir ki, o, nə İrana, nə də başqa dövlətə tabe olmayacaq, çarın və onun canişinlərinin suverenliyini qəbul edəcək.

Müqavilənin dördüncü maddəsinə görə, İbrahim xan bölgədəki çar hakimiyyəti olaraq Gürcüstanın Ali Hakimi ilə qarşılıqlı razılaşma olmadan qonşu hakimlərlə əlaqə yaratmaq, onlardan elçi və ya məktublar göndərmək, Ali Hakimə ardıcıl məzmun və ondan icazə istəmək və əhəmiyyətsiz olanlar barədə Gürcüstanın Ali Hakiminə məlumat vermək və Gürcüstan Ali Hakimi tərəfindən mehmanxanaya təyin edilmiş şəxsə məlumat vermək və onunla məsləhətləşmək idi.

Müqavilənin beşinci maddəsinə uyğun olaraq Rusiya idarəsi qərargah və kiçik zabitlərlə birlikdə 500 nəfərlik qarnizonu Şuşa qalasında yerləşdirdi və bununla da hərbi baza əldə etməklə onun nəzarət imkanlarını artırdı. Geniş miqyaslı müdafiə tələb olunan hallarda Gürcüstanın Ali Hakimi vəziyyətə və ehtiyaca uyğun olaraq bu ittifaqı gücləndirəcək və "Zati-aliləri ölkəsini Ümumrusiya İmperiyasına daxil olan ölkə kimi hərbi güclə müdafiə edəcək." [3, s.58]

Kürəkçay müqaviləsini vacib edən məsələlərdən biri də mətndə nə erməni və bəylik, nə də xristianlıqla bağlı heç bir müddəanın olmamasıdır. Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığının Rusiyanın tabeliyinə keçməsi çarın işğalçılıq siyasətinə yeni təkan verdi. Rusiyanın hərbi təzyiqləri nəticəsində imzalanan bu müqavilələrin məqsədi işğala hüquqi kimlik vermək və tərəflərin azad iradə bəyannaməsi verdiyi təəssüratı yaratmaq idi. Necə ki, Mustafa xan bu tələbi rədd etmək istəyəndə Şirvan xanlığına qarşı müharibə elan olundu və məğlubiyyətin qaçılmaz olduğunu görən Mustafa xan müqaviləni imzalamalı oldu. Bu müqavilələr bir-birinə bənzəyirdi və müstəsna hallarda və vəziyyətə uyğun olaraq müxtəlif müddəaları ehtiva edirdi.

Bu müqavilələr sayəsində Rusiya bir tərəfdən xanlıqları bir-bir özünə bağlamış, digər tərəfdən xanlıqların mümkün müharibədə Rusiyaya qarşı üsyana qalxacağı narahatlığı ilə hərbi-siyasi gücünü daha da hiss etdirməyə çalışmışdır. 1806-cı ildə Qarabağa qarşı ikinci dəfə hərbi əməliyyat təşkil edən Qacar idarəsi İbrahimxəlil xana gizli nümayəndə göndərərək onu öz tərəfinə çəkməyə çalışır. O zaman Qarabağdakı rus hərbi bazasında Lisaneviçin komandanlığı altında olan yeger dəstəsindən başqa heç bir silahlı qüvvə yox idi. İbrahimxəlil xan Qarabağ torpaqlarının, kəndlərinin əzilməməsi üçün Qacarlara qarşı mehriban və mülayim olmağı üstün tuturdu. İbrahimxəlil xanın bu davranışları mayor Lisaneviçin şübhələrini artırıb. O zaman ermənilər də İbrahimxəlil xanın Qacarların tərəfini tutması haqda şayiələr yayırdılar. Belə bir vəziyyətdə İbrahim xan və ailəsi mayor Lisaneviç tərəfindən vəhşicəsinə öldürüldü.

İbrahimxəlil xanın öldürülməsindən sonra Rusiya imperatorunun 10 sentyabr 1806-cı il tarixli fərmanı ilə onun oğlu Mehdiqulu xan Qarabağa hakim təyin edildi.

Sonrakı dövrdə Azərbaycanın şimal xanlıqlarının İranın hökmranlığına keçməsi planı həmişəlik tarixin gözündən düşdü. Məhz, çar Rusiyasının Qafqaz bölgəsində genişlənmə və zülm siyasətinin qarşısını almaq üçün 1805-ci ildə Şimali Azərbaycana əməliyyat təşkil etdi. Bu şəkildə başlayan birinci Rus-İran müharibəsi İranın məğlubiyyəti və 1813-cü ildə Gülüstan müqaviləsinin imzalanması ilə nəticələndi. 1816-cı ildə Qafqaza təyin edilmiş general A.P. Yermolov Azərbaycan xalqını çar Rusiyasının potensial düşməni kimi görür və xanlıqları ləğv etməyə çalışırdı. Bu prosesdə erməni əsilli V.G. Mədətov da fəal rol oynayıb. 1819-cu ildə Şəki xanlığı ləğv edilsə də, rus zülmünə qarşı güclü idi.

1826-cı ildə başlayan ikinci Rus-İran müharibəsi buna baxmayaraq, İranın məğlubiyyəti və 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin imzalanması ilə nəticələndi. Müqaviləyə əsasən, İran Araz çayının şimalındakı torpaqlar üzərində Rusiyanın suverenliyini qəbul etməli idi. Bu müqavilə Rusiyanın Azərbaycana qarşı işğalçılıq siyasətinin sonuncu və mühüm həlqəsi idi. Müharibədən sonra Azərbaycanın şimalındakı bütün xanlıqlar ləğv edildi və keçmiş xanlıq torpaqlarında yeni inzibati struktur quruldu. [4, s.27]

Qarabağ Azərbaycan tarixində özünəməxsus siyasi, sosial və mədəni əhəmiyyəti olan bir bölgə kimi tanınır. Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Qarabağ azərbaycanlı xristianların mühüm dini mərkəzlərindən biri olub.

Qarabağ Səfəvilər dövrünün ən böyük inzibati vahidlərindən biri olan bəylərbəylik statusuna malik idi. Nadir şahın ölümündən sonra siyasi proseslərin mərkəzində olan Qarabağ müstəqil xanlıq kimi tarix səhnəsinə çıxdı.

Rusiya imperiyasının ekspansionist siyasətinin sürətlənməsi Azərbaycanın şimalındakı digər xanlıqlar kimi Qarabağ xanlığını da bu siyasətlərin hədəfinə çevirdi. Qacarlar sülaləsi İran taxtına iddialı olduqdan sonra yenidən Azərbaycan xanlıqlarına soxularaq onları İran hüdudlarına daxil etməyə çalışırdı. Onun səyləri Rusiyanın maraqları ilə ziddiyyət təşkil etdiyindən regionda uzunmüddətli qanlı müharibələrə səbəb oldu.

Osmanlı, İran və Rusiya üçbucağında inkişaf edən siyasi və hərbi rəqabətin Rusiyanın xeyrinə inkişafı Qarabağ xanlığını çıxılmaz vəziyyətə saldı: ya yenidən İranın hökmranlığı altına düşmək, ya da Rusiyanın himayəsinə girərək taxt-tacını qorumaq. Qarabağ xanı İbrahimxəlil xan ikinci yola üstünlük verdi və Rusiyanın himayəsinə keçdi. Bu prosesin qanunauyğunluğunun əsasını təşkil edən 1805-ci il Kürəkçay müqaviləsi məzmunca həmin dövrdə Rusiya ilə regionun digər xanlıqları və siyasi birləşmələri ilə bağlanmış

müqavilələrə bənzəyir. Bu oxşarlıq bir daha təsdiq edir ki, sözügedən sənədlər Rusiyanın işğal siyasətini qanuniləşdirmək üçün işlənib hazırlanmış kağız parçalarıdır. Eləcə də, işğal üçün münbit şərait yaranan kimi rus idarəsi bu birləşmələri dərhal ləğv edib öz tərkibinə daxil etdi.

Qarabağla bağlı diqqət çəkən məqamlardan biri də mülkiyyət məsələsidir. Bu məsələni tez-tez gündəmə gətirən erməni tədqiqatçılarının fikrincə, bu hökmdarlar qədim erməni dövlətinin davamı olublar. Lakin məliklər istər xanlıqlar dövründə, istərsə də ondan əvvəlki dövrlərdə Qarabağın həyatında həlledici rol oynamamışlar.

Rusiya regiona qarşı işğalçılıq planlarını həyata keçirərkən erməni faktorundan məharətlə istifadə etdi. XIX əsrin əvvəllərindən bu günə qədər gedən tarixi prosesdə erməni faktorundan siyasi, ideoloji və hüquqi mahiyyətindən asılı olmayaraq Rusiya həmişə türklərə qarşı istifadə edib.

ƏDƏBİYYAT

1. Ateş, A. (2014). "Ağa Muhammed Han'ın Kafkasya Seferleri ve Osmanlı-İran İlişkileri (1795-1797)", Karadeniz İncelemeleri Dergisi, 16(16), 39-56.
2. Hacıyeva, Z. (2007). Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu, Bakı: Təhsil Nəşriyyatı.
3. Hüseynov, Y. (2018). Qarabağ, Bakı: Afpoliqraf Nəşriyyatı.
4. İsmailov, M. (2014). İlk Çağlardan XX. Yüzyıl Başlarına Kadar Azerbaycan Tarihi, (Çev. Vefa Kurban) İstanbul: IQ Kültür Sanat Yayıncılık.
5. Mahmudov, Y. ve Mustafayev, C. (2012). Şuşa. Pənahabad, Bakı: Təhsil Nəşriyyatı.
6. Mehmetov, İ. (2009). Türk Kafkası'nda Siyasi ve Etnik Yapı Eski Çağlardan Günümüze Azerbaycan Tarihi, İstanbul: Ötüken Yayınları.
7. Mustafazadə, T. (2010). Qarabağ xanlığı, Bakı: Sabah Nəşriyyatı.
8. Nevvab, M.M. (2020). Ermeni-Müslüman Çatışması. 1905-1906, (Yayına hazırlayanlar: Ali Asker-Serap Bozpolat Ayan), Ankara: Türk Tarih Kurumu Yayınları.

SUMMARY

KURAKCHAY CONTRACT AND ITS CONSEQUENCES

Aliyeva L.E.

Due to its geopolitical and geostrategic position, Karabakh has been recognized as one of the most important regions of the South Caucasus in recent history. Karabakh, which is an integral part of Azerbaijan, has historically hosted many civilizations and gained a reputation as one of the centers of science, culture and art of Azerbaijani Turkism.

At the beginning of the 19th century, as the Russian Empire moved south, the Azerbaijani khanates began to break away from central Iranian rule. Depending on the circumstances, the occupation processes of the Azerbaijani khanates were threatened, persuasive, war, etc. by the Russian Empire. continued in ways such as.

Keywords: *khanates, war, treaty, strategy, occupation plans*

РЕЗЮМЕ

КУРАКЧАЙСКИЙ ДОГОВОР И ЕГО ПОСЛЕДСТВИЯ

Алиева Л.Э.

Благодаря своему геополитическому и геостратегическому положению Карабах был признан одним из важнейших регионов Южного Кавказа в новейшей истории. Карабах, являющийся неотъемлемой частью Азербайджана, исторически являлся домом для многих цивилизаций и приобрел репутацию одного из центров науки, культуры и искусства азербайджанского тюркизма.

В начале 19 века, когда Российская империя двинулась на юг, азербайджанские ханства начали отделяться от центрального иранского господства. В зависимости от обстоятельств оккупационные процессы азербайджанских ханств носили угрожающий, навязчивый, военный и т.д. характер со стороны Российской империи. продолжались такими способами, как.

Ключевые слова: *ханства, война, договор, стратегия, оккупационные планы*

MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏ VƏ 20 YANVAR HADİSƏLƏRİ ROMANDA

Əliyeva P.İ.
ADPU-nun Şəki filialı, Şəki, Azərbaycan
aliyeva.pakize.filolog@mail.ru

Açar sözlər: *Arif Abdullazadə, roman, milli mücadilə, 20 Yanvar, müstəqillik uğrunda mübarizə*

XX əsr Azərbaycan xalqının taleyində bir əsrdə iki dəfə müstəqil cümhuriyyət qurmaq, əsrin yarısından çoxunu əsarət altında yaşamaq, bir neçə soyqırıma məruz qalmaq, əzəli torpaqlarının böyük bir qismini itirmək, öz yurdunda qaçqınlıq həyatı yaşamaq kimi çoxsaylı mürəkkəb hadisələrlə yadda qalır. Bu qədər mürəkkəb hadisələr, heç şübhəsiz, ədəbiyyatda yeni mövzulara müraciət etmək üçün şərait yaradırdı. 60-80-ci illər Azərbaycan ədəbiyyatında milli oyanışın bünövrəsi qoyulur. 90-cı illərin əvvəllərində Qarabağ hadisələri və mənfur qonşuların torpaq iddiaları, eləcə də azadlıq hərəkatı baş qaldırdıqda əksər ədiblərin əsərlərində artıq açıq şəkildə vətənpərvərlik çağırışları ön plana keçir. Belə müəlliflərdən biri də 60-cı illərdə ədəbiyyata gələn şair, yazıçı, dramaturq, ədəbiyyatşünas alim Arif Abdullazadədir (1940-2002).

A.Abdullazadənin yradıcılığında sözügedən məsələlərə münasibətlə bağlı apardığımız tədqiqat zamanı belə bir qənaətə gəldik ki, onun yaradıcılığında vətənpərvərlik məsələlərini üç dövr əsasında öyrənmək daha məqsədəuyğundur:

- 60-80-ci illər ərzində yazılmış nümunələr;
- 80-ci illərin sonundan sonra milli azadlıq hərəkatı ilə bağlı olan nümunələr;
- Azərbaycan müstəqillik əldə etdikdən sonra qələmə alınan nümunələr.

Həmin nümunələr janr və tematika baxımından da bir-birindən fərqlənir. Onlarda vətən təbiətinin vəsfi, milli-mənəvi dəyərlərin təbliği, bütöv Azərbaycan ideologiyası, vətənin taleyi, Qarabağ hadisələri və s. məsələlər ön plana çəkilir. Şairin müxtəlif illərdə qələmə aldığı "Layla", "Son kişilər", "Dilsiz nə Vətən?!", "Sevin Azərbaycanı", "Ömrüm mənim – Vətənim!", "Odla su arasında", "Bənzərsiz bir hekayət", "Adım, soyum", "Şəhidlik andımız", "Daş yağışı", "Zamanın boyu", "Hələ ki...", "Çeçen olmaq istəyirəm", "Sevgilər" və başqa şeirləri, "Narahat ürəklər", "Ulu Qorqud" poemaları, "Bir ovuc torpaq", "Qanlı yaddaş" romanları tamamilə vətənpərvər ruhu ilə diqqəti çəkir. Ümumiyyətlə, nümunələrin poetik tutumu, onlarda ifadə olunan problemlərin dərinliyi belə bir fikri söyləməyimizə əsas verir ki, bu nümunələr yüksək vətənpərvər ruha malikdir. Həmin əsərlərdə şüarçılıqdan qaçmaq, pafoslu danışmaq tənqid olunur, Vətənə sevginin sığallı, ütülü sözlərdə yox, vətəndaş qəlbinin döyüntüsündə olmağın vacibliyi dönə-dönə dilə gətirilir.

Yuxarıda da qeyd etdiyimiz kimi, vətənpərvərlik Arif Abdullazadənin yaradıcılığının ilk nümunələrindən başlayaraq əsas mövzunu təşkil edir. Bir çox qələm yoldaşları kimi A.Abdullazadənin də 60-80-ci illərdə yazdığı şeirlərinin bir qismində müstəqilliyə çağırış, azadlıq mübarizəsi başqa xalqların taleyi ilə bağlı yazılmış nümunələrdə son dərəcədə cəsarətlə dilə gətirilir. Əsası haradasa əsrin əvvəllərində, əsərlərinin mövzusunu Azərbaycandan uzaqlardan götürən dahi Hüseyn Cavid tərəfindən qoyulan bu tendensiyaya XX əsr Azərbaycan şairlərindən S.Vurğun, R.Rza, B.Vahabzadə, Ə.Kərim, V.Səmədoğlu və başqalarının yaradıcılığı üçün aktual olmuşdur. A.Abdullazadənin "Baham adaları", "Qaraçılar", "Azadlıq (Havanaya)", "Havanalı bir ana", "Bir qitə balladası (Amerika)" və s. kimi şeirləri bu qəbildən olan poetik nümunələrdir. Eləcə də, ilk dəfə şairin "Səninlə sənsiz" (1983) kitabına daxil edilən "Ulu Qorqud" poemasında səslənən fikirlər olduqca cəsarətli səslənir:

Ən sondasa

Çağımın əvvəlində yurd salan,
Imzalar içində
imzasını arayan,
Hadilərin, Sabirlərin
zamanların arxasından, önündən
ucalan gur səsləri,
nəhayət,
bu günümün
ili əsrə bərabər,
inadlı inamı,
yorulmaz həvəsləri. [9, s. 128]

İstiqlal aşiqi Məhəmməd Hadini (1879-1920) ümumtürk düşüncəsinin ifadəsi olan "Dədə Qorqud kitabı"nın adı ilə bağlı bir poemada xatırlamaq, onun ən təəssübkeş misralarına müraciət etmək hələ

Azərbaycanın SSRİ-nin tərkibində olduğu vaxtda "günümüzün yorulmaz həvəsləri" ilə bağlamaq istiqlal arzusunun ifadəsi idi.

A.Abdullazadənin 1988-ci ildə işıq üzü görən eyniadlı kiatabına daxil olan "Duyum" romanında da bu mövzuya qayıdılır. Müəllif yazır: "Yurdun böyüyü-kiçiyi yoxdur. Yurd bir alaçıqdan da ibarət ola bilər". [5, s. 17] Və hər nə boyda olsa da, onun sadəcə bir adı var – Vətən. Vətənsə qorunmalıdır. Bu fikir 1989-cu ildə həmvətənlərimiz əzəli torpaqlarında ermənilər tərəfindən qovulmağa başlayarkən qələmə alınmış "Yurd" adlı şeirində belə ifadə olunmuşdur:

...Yurdun böyüyü, kiçiyi,
yaxşısı, pisi olmur,
Yurddur – demək doğmadır,
doğmadır demək Yurddur,
Yurdun Vətən ətirli çiçəyisənsə,
kürrəmizin harasına atılıb qalsan,
onu döyüş bayrağıtək
son anacan əllərindən buraxma,
zaman-zaman öz içindən keçirib
bir dünyaya tanıtdır,
öz içindən, damarından keçir sən,
Yurd nə ələ gələndir,
Yurd nə əldən gedəndir, -
zamanların sellərinin ağzında
dərələşən, dağlaşan,
gündüz olub yaxınlaşan,
gecə olub uzaqlaşan
Yurdun
bircə qarışı da Vətəndir! [10, s. 34]

Belə poetik nümunələrin sayını yetərincə artırmaq olar, lakin tədqiqatın əsəs hissəsi müəllifin roman yaradıcılığı ilə bağlıdır.

Arif Abdullazadənin roman yaradıcılılğı 1980-2000-ci illərdə çap olunmuş beş romanı əhatə edir: "Bir ovuc torpaq", "Duyum", "İşıq zolağı", "Sınaq kürəsi", "Qanlı yaddaş". "Bir ovuc torpaq" 70-80-ci illərdə qələmə alınmış, əvvəlcə "Azərbaycan" jurnalında hissələrlə [1, 2, 3], 1982-ci ildə "Gənclik" nəşriyyatında kitab şəklində işıq üzü görmüşdür. [4] Prof. Vaqif Yusiflinin dediyi kimi "bir qürbətkeşin həyatını əks etdirən" [11, s. 6] romanda İkinci Dünya Müharibəsində sovet ordusu tərkibində vuruşan, yaralanaraq almanlara əsir düşən və o zamanın yazılmayan qanunlarına əsasən vətənə qayıdarkən təqib olunacağını bildiyinə görə Türkiyəyə pənah gətirən İsmət Kərimov obrazı yaradılmışdır. Bütün yaradıcılığı boyunca kommunizmə, qırmızı bayraqlar və kommunist liderlərinə heç bir şeir həsr etməyən, prof. B.Əhmədovun dediyi kimi "bütün qəlbi ilə mayısçı olan" müəllifin qayəsi isə bu deyildi. Romanda Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi və digər hadisələrdən sonra Vətəndən getməyə məcbur olan bir neçə mühacir nəslinin təsviri Sovet ideologiyasına qarşı bir çıxış idi. Heç şübhəsiz, Arif Abdullazadə romanda İbrahim bəy, Valeh, İsmət bəy kimi azərbaycanlılarla yanaşı, repressiyanın soyuq əlindən qaçan tatar Cəlal bəyin obrazını yaratmaqla faciənin miqyasının böyüklüyünü göstərməyə çalışmışdır.

A. Abdullazadənin 1990-92-ci illərdə yazdığı son romanı "Qanlı yaddaş" ilk variantda "Azərbaycan" jurnalında hissələrlə çap olunmuş [6,7], müəllifin vəfatından sonra ayrıca kitab halında yenidən oxucuların ixtiyarına verilmişdir. [8] Romanın yazıldığı vaxtda faciə hələ yeni idi və Azərbaycanın müstəqillik mübarizəsi hələ tam olaraq tamamlanmamışdı. Ümumiyyətlə, bu mövzulara Azərbaycan nəsrində ilk müraciət olunmuş əsərlərdən biridir.

Roman özlüyündə müəllifin əvvəlki romanlarında ötəri, epizodik halda müraciət etdiyi bütün mövzuların küll halında əks olunduğu əsərdir. Əsərdə Qarbağ hadisələri, həmvətənlərimizin dədə-baba yurdları olan Qərbi Azərbaycan torpaqlarından qovulması, Meydan hərəkatı, müstəqillik uğrunda mübarizə, qanlı 20 Yanvar hadisəsilərinə yer verilmişdir. Məlumdur ki, ədəbiyyatımızda sonuncu hadisələrin əks olunduğu xeyli sayda bədii əsər yazılmışdır, A.Abdullazadənin romanını həmin əsərlərdən fərqləndirən burada hadisələrin birbaşa təsvirindən daha çox, həmin qanlı hadisələr üçün zəmin olan tarixi hadisələr, tarixin saxtalaşdırılması və s. məsələlərə önəm verilməsidir. Romanın qəhərəmanı Adilə (və təbii ki, yazıçıya da) elə gəlir ki, baş verən hər bir bəla və müsibətin kökündə illərlə düşünülmüş şəkildə tarixin saxtalaşdırılması durur, milli kimliyin təsdiqi meydanlara çıxmaqla bərabər, gerçək tarixin yazılması ilə mümkün ola bilər. Çünki əsərdəki Adil obrazı əsil ziyalı kimi faciəni çox-çox əvvəlcədən duya bilən, lakin ətrafdakıların nadanlığı ucbatından səsini kimsələrə çatdıran bilməyən tənha qəhrəmandır.

Romanda Adilin xatirələri içərisində ona heç cür dinclik verməyən bir məqam var. Hardasa Qarabağ hadisələri başlamamışdan bir az öncə Şuşada ezamiyyədə olarkən o, güclü müşahidəsi ilə doğma torpaqlarda ayrı küləklərin əsdiyini, kimlərinsə artıq qədərindən artıq oralara sahiblənmə hallarını hiss edir: "...sən bir işə bax ki, heç Cıdır düzünə də qalxmadım, İsa bulağına da getmədim. Bəlkə şəhərə girər-girməz birbaşa üz tutduğum turbazada qarşımı kəsən ilk qadağan, ordenli qapıçının üzümə bağladığı qapı? Bəlkə də Adillə Rüstəmin turbazada (bəlkə də elə bütün Şuşada – Dağlıq Qarabağda) müdirdən də böyük sayılan sestra-xozyayka adı ilə əsil xozeyinlik eləyən Asyanın murdar sifəti, mənə öz doğma yurdumda bir-iki gecəlik yer verməyən acı dili, mənə qapını göstərən dəmir əlləri!" [7, s. 21] Romanın müxtəlif yerlərində qəhrəman uşaqlıqdan bu yana yaşadıqlarını xatırlayarkən dəfələrlə yurdun qədim tarixinə aid çoxsaylı nişanələri gördüyünü söyləyir. Bütün ömrü boyu həmin tarixin yazılması üçün can atır.

Adil (hardasa müəllifin özü) vətənini, millətini, onun tarixini sözün həqiqi mənasında sevən bir alimdir. Hamıya öz rəftarı ilə qəribə görünən bu "əhlikef" adam çiyinlərində bir millətin dərdini gəzdirən bir ziyalıdır. Onun ətrafında olan Səfər, Dəmir, Qorxmaz, Əsgər və başqaları isə böyük bir elmi müəssisədə çalışsalar da, əsil ziyalı keyfiyyətlərindən məhrumdurlar. Onlar nə millət dərdi, nə xalq dərdi çəkirlər, əksinə Adilin tariximizlə bağlı üzə çıxarmaq istədiyi faktlara nəinki inanmır, hətta ona "başını salamat saxlamaq üçün dərinə getməməyi" məsləhət bilirlər. Buna Adilin cavabı belə olur: "Bəs kim getsin dərinə? Mən getməyim, sən getmə, o getməsin, kim getsin, kim? Kənardan gəlib yazacaqlar sənin tarixini? Odeyy, yazırlar da. Ağızlarına gələni deyirlər haqqımızda, vururlar, söyürlər, üzümüzə tüpürürlər. Sənsə susursan. Buna görə də gündən-günə qudururlar, həyasızlaşırlar. Fikirləşirlər ki, balam, bunlar susursa, bizə cavab vermirsə, deməli, sözləri yoxdur da, deməli, biz düz deyirik..." [7, s. 14] Özünə həmfikir tapmayan Adil tənhalıqdan əziyyət çəkir. Onu dünyanın ən qayğısız adamı hesab edənlərdən fərqli olaraq, Adilin dilindən verilmiş hissələrdə necə tənha olduğu göstərilir, şəxsi planda olan uğursuzluqlar isə əsla onu yolundan döndərmir, amalı, əqidəsi yolunda inamı və əzmini sarsıtmır.

Qeyd etdiyimiz kimi, Adil əsər boyunca kitabın çap olunması üçün qarşısına çıxan maneələri yıxmağa çalışır. Lakin vətənpərvərlikdən uzaq vəzifəpərəstlər öz havadarlarına sədaqətlərini göstərmək üçün kitabın çapına imkan vermir. Gerçək tarixin əks olunduğu həmin kitab çap olunana qədər düşmən tərəf öz saxta tarixini yazmağa imkan tapır və orada Azərbaycan torpaqlarına olan iddialarını səsləndirir. Və gerçək tarix qanlı tarixə - qanlı yaddaşa çevrilir. Müəllif müxtəlif məqamlarda qanlı faciənin qalan vaxtı qeyd etməklə oxucuya sanki xəbərdarlıq edir, millətin ziyalısının faciəni əvvəlcədən necə duyduğunu göstərməyə çalışır. Adil üçün düşmən anlayışı bir deyil. Təbii ki, həmin anlayış daxilində sadəcə torpaqlarımıza soxulan, meydandakı əliyalın insanlara atəş açan, onları tanklar altında əzən sovet əsgəri və onun komandanı ilə bərabər öz içimizdən olan xain və ruhunu satmış, mənəviyyatını itirmiş kəslər də var. Başının salamat olmasından, qarnının tox, əyninin qalın olmasından başqa dərdi olmayan bu "ziyalılar" Adilin (yəqin elə müəllifin də) gözündə düşmənin ən pisidir.

Arif Abdullazadənin "Qanlı yaddaş" romanı bütövlükdə meydan hərəkatı və 20 Yanvar hadisələrinin təsvirindən ibarət deyil, lakin əsər boyunca hadisələrə qədər qalan zaman azalan ardıcıllıqla vaxtaşırı xatırlanır. Bu çox uğurlu seçilmiş bir ədəbi priyomdur. Belə ki, həmin qanlı tarixin yaşanmasına qədər çox hadisələr baş verirdi, lakin çoxluq onların nəticələrinin nə ola biləcəyini ya anlamır, ya anlamazdan gəlirdi, tək-tək anlayanlar isə susdurulurdu. Meydan hərəkatının təsviri zamanı Azərbaycanın dövlət müstəqilliyi uğrunda günlərlə soyuq havada meydanda gecələyən, yoldaşlarını qoyub getməyən insanlar, onlara evlərdən isti çay və ərzaq aparan digər vətəndaşlar və basqın gecəsi qorxmayaraq küçələrə çıxan əhalinin fədakarlığının təsviri zamanı müəllifin bir qürur hiss etdiyi duyulur. Bununla bərabər, yaşına, silahsız olmasına, nə istəməsinə məhəl qoymadan hamıya atəş açan sovet ordusuna qarşı yönələn kin və nifrətdə də özünü göstərir. Təbii ki, müəllif hadisələrin iştirakçısı olmasa da, şahidi olmuşdu və təsvirlərin canlılığına bu da təsir etməyə bilməzdi. (20 Yanvar hadisələrinə aid müəllifin bir neçə şeiri də vardır ki, onlardan ən məşhuru "Şəhidlik andımız" hesab olunur). Ümumiyyətlə, roman həm təhkiyə üsulu, həm obrazlılığı, həm də ayrı-ayrı məqamlarda tarixi həqiqətlərə sədaqət duyğusunun gücü ilə 90-cı illərdə yazılmış ən yaxşı romanlardandır.

Beləliklə, Arif Abdullazadə yaradıcılığında müstəqillik uğrunda mübarizə və 20 Yanvar hadisələri ilə bağlı nümunələri araşdırarkən belə qənaətə gəldik ki, milli mücadilə və müstəqillik onun yaradıcılığının əsas xətlərindən birini təşkil edir. Ədəbi istedadını daha əvvəl poeziyada ifadə edən müəllif bir çox mövzular kimi, vətənpərvərlik duyğularını da sonradan nəsrə - romanlarına daşımışdır. Düşünürük ki, bu mövzuların küll halında birləşdiyi "Qanlı yaddaş" romanının istər mövzu və janr xüsusiyyətləri, istərsə də obrazlılığı və tarixi keçmişimizə sədaqət və vətənpərvərlik ruhu ilə tədris prosesində istifadə olunması məqsədəuyğundur. Hələ də ədəbi tənqid tərəfindən yetərincə təhlil olunmayan romanın hərtərəfli tədqiqinə ehtiyac duyulur.

ƏDƏBİYYAT

1. Abdullazadə A. Bir ovuc torpaq: roman. “Azərbaycan” jurnalı, 1982, № 2, səh.124-159
2. Abdullazadə A. Bir ovuc torpaq: roman. “Azərbaycan” jurnalı, 1982, № 3, səh.75-136
3. Abdullazadə A. Bir ovuc torpaq: roman. “Azərbaycan” jurnalı, 1982, № 4, səh. 38-62
4. Abdullazadə A. Bir ovuc torpaq: roman. Bakı, Gənclik, 1982, 286 səh.
5. Abdullazadə A. Duyum. Red. V.Quliyev, Bakı, Gənclik,1986, 365 səh.
6. Abdullazadə A. Qanlı yaddaş: roman. “Azərbaycan” jurnalı, 1992, № 5-6, səh.6-67
7. Abdullazadə A. Qanlı yaddaş: roman. “Azərbaycan” jurnalı, 1992, № 7-8, səh.3-71
8. Abdullazadə A. Qanlı yaddaş: roman. Bakı, “Elm və təhsil” nəş. 2010. 398 səh.
9. Abdullazadə A. Sənlə sənsiz: şeirlər və poema. Bakı, Yazıçı, 1983, 134 səh.
10. Abdullazadə A. Tövbə duaları: şeirlər. Bakı, Çaşıoğlu, 2003, 357 səh.
11. Yusifli V. Arif Abdullazadə: Ədəbiyyatımızın cəfakeşləri silsiləsindən. “Ədalət” qəzeti, 2014, 26 noyabr, 2014, səh.6

SUMMARY

THE STRUGGLE FOR INDEPENDENCE AND THE EVENTS OF JANUARY 20 IN THE NOVEL

Aliyeva P.İ.

Consistent events in the history of Azerbaijan since the late 80s of the twentieth century, the expulsion of our compatriots from their historical lands, the beginning of riots in Karabakh, the territorial claims of Armenians, the struggle for independence, the January 20 incident and so on. established conditions for the emergence of new topics in fiction. In the works of Arif Abdullazadeh, who wrote and created in those years, enough space was given to these topics. One of his works on these topics is the novel ‘’Qanlı yaddaş’’. In the article, the issue of the place given to historical truths in fiction is analyzed in detail in this novel.

Keywords: *Arif Abdullazade,novel, national struggle, January 20, struggle for independence*

РЕЗЮМЕ

БОРЬБА ЗА НЕЗАВИСИМОСТЬ И СОБЫТИЯ 20 ЯНВАРЯ В РОМАНЕ

Алийева П.И.

Разные события истории Азербайджана конца 80-х годов XX века, изгнание наших соотечественников из их исторических земель, начало беспорядков в Карабахе, территориальные претензии армян, борьба за государственную независимость, кровавые события 20 Января и множество других событий народили условия для появления новых тем в художественной литературе. В произведениях Арифа Абдуллазаде, творившего в те годы, уделялось достаточно места. Одним из таких произведений является роман «Кровавая память». В статье рассматривается место исторических событий в прозе в упомянутом романе.

Ключевые слова: *Ариф Абдуллазаде, роман, национальная борьба, 20 января, борьба за независимость*

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM SİYASƏTİ VƏ QARABAĞA ERMƏNİ İDDİALARI

Əlizadə S.Q.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
sebine.elizade.1985@mail.ru

Açar sözlər: *milli zülm, əsarət, erməni məsələsi, deportasiya, soyqırım*

İki yüz ildən artıq bir müddət ərzində Azərbaycan və Türkiyə torpaqlarında qanlı terror əməlləri, soyqırımları həyata keçirmiş ermənilərin əsas məqsədi özlərinə olmayan vətən məhfumunu formalaşdırmaq idi. Bunu gerçəkləşdirmək üçün onlar bütün iyrənc əməllərə əl atmış, heç nədən çəkinməyərək insanlığa

sığmayan hadisələr törətmişlər. Özgə torpaqlarını işğal etmək üçün terroru ,soyqırımları özlərinə peşə seçmiş erməni millətçiləri bu bəd niyyətlərini guya, vaxtilə Aralıq dənizindən başlayaraq Xəzərə qədər uzanan geniş torpaqları əhatə etmiş uydurma "Böyük Ermənistan" dövlətini dirçəltmək pərdəsi altında həyata keçirmişlər. Bu yolda onlara himayədarlıq edən qüvvələr tarixin bir çox zamanlarında aram-aram ortaya çıxaraq millətçi və şovinist ermənilərə yetəri dəstək vermişlər. Azərbaycana qarşı daha amansız mövqe tutanlardan biri və öncülləri məhz Çar Rusiyası idi. Bu məqsədlə imperiya Azərbaycan xalqına qarşı ermənilərin əli ilə soyqırıma başladılar. Bu məqsədlə İran və Osmanlıya qarşı müharibəyə başlayan Çar Rusiyası çox keçmir ki, ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürməyə başladılar. Köçürülmüş ermənilər hesabına bir çox ərazilər xristianlaşdırıldı, həmçinin həmin bölgələrdə demoqrafik vəziyyət kəskin sürətdə dəyişikliyə məruz qaldı. Tezliklə, köçürülən ərazilərdə «erməni vilayəti» yaradıldı. Məqsəd, Rusiyanın birbaşa yardımı və dəstəyi ilə xristian bufer ölkəsi yaratmaq idi. Ən böyük nəticə isə İrəvan, Naxçıvan və xüsusən çox mühüm strateji bölgə olan Qarabağ xanlığının ərazisi də xristianlaşdırma - ermənileşdirmə siyasətinin qurbanına çevrildi. Çarizm Cənubi Qafqazda «parçala və hökmranlıq et!» siyasətinin ən qanlı və ən çirkin variantlarını tətbiq etdi. İmperiya cəlladları bu qanlı siyasəti ermənilərin birbaşa iştirakı ilə xüsusi amansızlıqlıqla həyata keçirirdilər. Xüsusilə qeyd etmək vacibdir ki, 1905-1907-ci illər qırğınlarının, 1918-ci il soyqırımlarının, sovet dövründəki bütün qanlı repressiyaların, 20 Yanvar qırğınının, Xocalı soyqırımının, Qarabağ münaqişəsinin də məhz kökündə bu mənfur siyasət durur. Daha bir gerçəkliyi də bilmək lazımdır ki, Rusiya imperiyası üçün Hindistan və Yaxın Şərqi işğal etmək əsas priorotet məsələlərdən biri idi. Və bu məqsədlə ona etibarlı məkan lazım idi. Əlverişli strateji bölgə isə sözsüz ki, Azərbaycan idi. Bu ərazidən tramplin kimi istifadə etmək mənfur planın tərkib hissəsi idi. Ən uyğun məqam sözsüz ki, 1828-ci ildə Rusiya ilə Qacarlar arasında Türkmənçay müqaviləsi imzalanan zaman yetişmiş olur. Belə ki, Şimali Azərbaycanın Naxçıvan, İrəvan və Qarabağ xanlıqları ərazisində "erməni vilayəti" təşkil edilərək, oraya ermənilər köçürülür. Bu köçürülmə təkcə Türkmənçay müqaviləsi ilə bitmir, eyni zamanda 1828-1829 Rus Osmanlı müharibəsi zamanı imzalanan Ədirnə müqaviləsi ilə Osmanlı ərazisindən də, həmçinin ermənilərin kütləvi şəkildə köçürülmələri həyata keçirilmişdir.

Ermənilərin öz müstəqil dövlətlərini yaratmaq arzusuna ilkin təkan verən ən başlıca amil XVI-XVII əsrlərdə Səfəvilər dövləti ilə Osmanlı arasında uzun sürən müharibələr olmuşdur. Səfəvi hökmdarları Osmanlılara qarşı mübarizədə bir sıra Avropa ölkələrinin köməyinə arxalanmaq üçün erməni tacirləri və din xadimlərindən istifadə etmişdilər. Tezliklə ermənilər bir sıra Avropa ölkələri ilə, ilk növbədə İtaliya, Fransa,.Prussiya ilə ticarət əlaqələri yaratmışdılar.[11] Erməni tacirləri varlandıqca erməni kilsələrinin var-dövləti aşıb-daşır, nəticədə onların dövlət yaratmaq üçün iştahları daha da artırdı. Erməni kilsəsi gizli olaraq Avropa ölkələrində özünə himayəçi axtarır, şah sarayındakı nüfuzlarından istifadə edərək, sarayın xarici diplomatiyasına da ram atmışlar. Xüsusilə qeyd etmək lazımdır ki, Şah Abbas hətta, Səfəvilər dövlətinin xarici siyasət məsələləri ilə məşğul olmaq və Avropa ölkələri ilə diplomatik danışıqlar aparmaq səlahiyyətini özünün müşaviri Xoca Səfər adlı bir ermənyə etibar etmişdi.[8] 1608-ci ildə I Şah Abbas Xoca Səfərin başçılığı ilə Avropaya gedən nümayəndə heyəti vasitəsilə Roma papasına, İspaniya kralına, Toskano hersoquna və Venetsiyaya məktublar göndərmişdi. Xoca Səfər şahın məktubundan əlavə ermənilərin Roma papası və digər Avropa ölkələrinin başçılarına məktubları olduğunu bildirmişdi.[4] Həmin məktublarda xristian Avropa ölkələrindən Şərqdə-müsəlman ölkələrində yaşayan xristian ermənilər öz himayələrinə götürmələri haqqında xahişlər edilmişdi. Avropanın real köməklik göstərməyəcəyinə əmin olan ermənilər bu işdə yalnız Rusiyaya arxalanmaq qənaətinə gəlirlər. Himayəçiliyin başlanğıcı I Pyotrun və onun sələlərinin dövründə ardıcıl həyata keçirilmişdir.[12]

Qərbi Azərbaycandan - indiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin qaçqınlıq dövrü 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı ilhaq etməsi və bunun nəticəsində Şəmşədil və Loru-Pəmbək bölgələrinin rusların əlinə keçməsi anından başlamışdır.[5] 1804-cü ilin yazında İrəvan xanlığının, ərazisindən 2 min erməni qaçaraq rusların himayəsinə keçmiş və onlar Loru-Pəmbək bölgəsində məskunlaşdırılmışdılar. 1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlığı istisna olmaqla, bütün Azərbaycan və Dağıstan həmişəlik Rusiyanın tərkibinə qatılır.Türkmənçay müqaviləsinə əsasən İrəvan və Naxçıvan xanlığı Rusiyanın tərkibinə daxil olur.[5] İzalanan ardıcıl bədnam müqavilələr ermənilərin bölgədə özbaşınalıqlarını daha da artırdı. Bu isə gələcək bəlaların birbaşa bünövrəsi idi.

XX-ci əsrin əvvələrində Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX-cu əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan əsas məsələ “erməni məsələsi” oldu. Həmin illərdə İngiltərə və Fransanın yardımı ilə Türkiyədə erməni üsyanı təbliğatı kampaniyasına start verildi. Bu işə rəhbərliyi “Daşnaksutyun” və “Hıncak” siyasi təşkilatları öz üzərlərinə götürmüşdülər. Ermənilər kütləvi iğtişaşlar törətmək məqsədilə türklərə və kürdlərə hücumlar edirdilər ki, qırğınlar baş versin. Məsələnin kökündə isə bir məsələ dururdu. Əsl mahiyyət sonradan Avropanın kütləvi informasiya vasitələri ilə türklərin ermənileri soyqırıma məruz qoyduqlarını dünyaya car çəkmək idi.[9] XIX-cu

əsrin sonunda "Daşnaksutyun" partiyasının antitürk təbliğat maşınının əhatə dairəsi təkcə İrəvan və Tiflisdə deyil, hətta Bakıda belə, var gücü ilə işə salınmışdı.

Çox keçmir ki, erməni dəstələri 1905-ci ildə Bakıda, İrəvanda, Naxçıvanda, Qarabağda günlərlə davam edən qanlı terrorları həyata keçirməyə başladılar.[10] Çar məmurları İnqilab zamanı Qafqazda güclənən narazılıqları hökumət əleyhinə yönəlməsindən qorxduqlarından, ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınlara biganə qalmış, bir çox hallarda isə onların tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə, müstəqillik meyillərindən uzaqlaşdırılmasına nail olmuşdular. Təəssüflə bildirmək lazımdır ki, azərbaycanlılar əslində bu ikili siyasəti tam anlamayaraq əslində çar hökümətinin onları müdafiə edəcəklərinə inanırdılar. Çar hökümməti isə bu etibarı öz növbəsində umursamır əksinə baş verənlərə göz yumurdular və bu özbaşınalıqlara ciddi cəhdlə şərait yaradırdılar.[10]

1905-1907 ci illər qırğınlarının əsas mərkəz istiqamətlərindən biri də sözsüz ki, Qarabağ ərazisi idi. Qarabağda baş verən ən dəhşətli hadisələrdən biri Şuşada baş verir. Tarixə Şuşa faciəsi adı ilə düşmüş bu hadisə avqustun 8-də baş verir. Belə ki, Şuşada yerləşən və rus qarnizonuna arxalanan daşnak dəstələri Cənubi Azərbaycandan iş dalınca gələn 17 fəhləni öldürərək bu faciənin başlanğıcını qoydular. Bu ağır günlərdə xalqımız birlik nümayiş etdirərək köməyini əsirgəməmiş və ermənilərin niyyətlərini puça çıxarmışlar.Onlar Şuşa ətrafında məğlubiyyətlərini dərk edib pul müqabilində rus kazak qarnizonunun əsgərləri ilə nə qədər birləşsələrdə, bu birlik sonda məsələnin onların xeyrinə həll olunmasına imkan vermədi. Xalqımızın bu çətin günlərində xüsusi rəşadət göstərmiş Sultan bəy Sultanov şəhərə daxil olan rus daşnak qüvvələrini məğlub edərək yerlə yeksan edir.[3] Əslində həmin dövrün ziyalıları yaxşı dərk edirdilər ki, milli qırğın dövlət siyasətidir. Ona görə də ziyalılarımız milli partiyalar o cümlədən xüsisi təşkilatlar formalaşdırırdılar ki, bir tərəfdən xalqı siyasi cəhətdən təşkilatlandırsınlar digər tərəfdən daşnak və onların havadarlarının məkrli siyasətlərindən qorusunlar.

İndiki Ermənistan ərazisində ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlardan bəhs etməkdən öncə Qars vilayətində rus ordularının və erməni quldur dəstələrinin törətdikləri vəhşiliklərdən bəhs etmək lazımdır. Qars bölgəsində vəhşiliklərin daha kütləvi xarakter alması heç də təsadüfdən irəli gəlmirdi. Qars vilayətinin əhalisi etnik mənsubiyyət baxımdan İrəvan xanlığının əhalisi ilə demək olar ki, eyniyyət təşkil edirdi. Təsadüfi deyil ki, 1919-cu ildə Paris sülh konfransında Azərbaycan Demokratik Cümhuriyyətinin memorandumunda qeyd edilirdi ki, Qars ətrafının sakinləri azərbaycanlılarla eyni etnik qrupa daxildirlər, onların dini adət-ənənələri, vərdişləri, yaşayış tərzləri və məişətləri ilə eyniyyət təşkil edir.[1] Cümhuriyyət dövründə dəfələrlə Qars əhalisi Azərbaycan hökumətinin tərkibinə daxil olması haqqında müraciət etmişdilər . Lakin bildiyimiz kimi Qars Aleksandropol qəzasına daxil edilmişdir və Cümhuriyyət Rusiya ilə münasibətləri pisləşdirməmək üçün müraciəti qəbul etməmişdir. [6]

Özləri üçün mübahisəli ərazilər formalaşdıran ermənilərin əsas hücum hədəfləri hər zamankı kimi Qarabağ bölgəsi idi. Öz havadarlarının köməkliyi ilə XIX əsr boyunca davam etdirilmiş köçürülmə prosesi nəticəsində Qarabağın dağlıq hissəsində süni şəkildə çoxalan ermənilər çox keçmir ki, Azərbaycana qarşı ərazi iddialarına qalxdılar. Bu məqsədlə torpaqlarımız hesabına yaradılan Ermənistan hökuməti həmin ərazilərə ərazi iddialarına qalxdılar. Nəticədə, Qarabağ bölgəsində yüzlərcə yaşayış məntəqəsi dağıdıldı, minlərcə dinc azərbaycanlı qəddarcasına məhv edildi. 1919 -cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar ərazi iddialarını irəli sürdü.Bu əslində ermənilərin Qarabağın dağlıq hissəsinə ilk rəsmi cəhd idi. Problemi dinc yolla həll etməyə çalışanAzərbaycan hökuməti nə qədər çalışsalar da ermənilər isə təkliflərin həyata keçirməsinə mane olurdular. Belə bir vəziyyəti görən Azərbaycan Xalq Cumhuriyyəti Ermənistan hökumətinin separatçı mövqeyini rədd edərək əməli addımlara keçdi. Bu məqsədlə, mərkəzi Şuşa şəhəri olan Qarabağ general qubernatorluğunu yaratdı və Xosrov bəy Sultanovu general-qubernator təyin etdi. General qubernatorluğa həvalə olunan əsas məsələ orada qayda qanunların yaradılması və erməni özbaşınalığının ciddi cəhdlə qarşısının alınması idi. Azərbaycan hökumətinin gördüyü əməli tədbirlər nəticəsində, Azərbaycan və Ermənistan respublikaları arasında müqavilə imzalandı. Müqaviləyə əsasən toqquşmalar dayandırılmalı, mübahisəli məsələr dinc yolla həll edilməli idi. Eyni zamanda xüsusilə vurğulamaq lazımdır ki, Qarabağda yaşayan ermənilər Azərbaycan hökümətini tanıyaraq Cumhuriyyət üsul idarəsini tamlıqla qəbul etdilər.[2] Sözsüz ki onların separatçı mövqeyinin zəifləməsi və dayandırılması müvəqqəti xarakter daşıyırdı. Belə ki, Azərbaycan Xalq Cumhuriyyətinin süqutundan sonra daşnakların ərazi iddiaları Azərbaycan sovetləşəndən sonra da yenidən ortaya atıldı. Cənubi Qafqaz sovetləşəndən sonra 1920-ci ildə Zəngəzuru və bir sıra torpaqlarımızı öz ərazilərinə qatmağa nail oldular. Buda azmış kimi ələ keçirilən ərazilərdə etnik təmizləmə siyasəti aparan ermənilər, minlərlə soydaşlarımızı doğma yurd yuvalarından qovdular. Bunun davamı olaraq Sovet hökümətinin birbaşa dəstəyi ilə vaxtilə Qarabağın dağlıq hissəsinə köçürülən ermənilərə 1923-cü il iyulun 7-də muxtar vilayət statusu verdi. Statistikaya nəzər salsaq Sovetə daxil olan digər respublikalarda ermənilərin Qarabağdakı sayının nisbətidən qat-qat çox olan respublikalar və vilayətlərin olmasına baxmayaraq, ərazi iddiaları məhz Qarabağ ərazisinə idi. Bu sözsüz ki əsrlərlə davam edən erməni məsələsinin bir növ davamı idi. Çox keçmir ki yaradılan DQMV -nin tərkibinə bir çox vilayətlər daxil edilərək, süni şəkildə Qarabağı iki hissəyə aran və dağlıq hissə adlandırılan yeni bölgü formalaşdırdılar. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə mərkəz Xankəndi göstərilsə də, az sonra adı dəyişdirilərək türklərin bir nömrəli

qaniçəni, daşnak Stepan Şaumyanın adı ilə Stepanaket adlandırıldı. Əslində DQMV yaradılması xalqımızın gələcək bəlalarının və faciələrinin başlanğıcı idi.

Bir xalqın həyatında baş verən ən acı, ən qanlı və ən nəhayət unudulmaz səhifə soyqırım tarixidi. Xalqımız daima erməni cəlladları və onların havadarlarının yardımı ilə daimi soyqırıma və terrora məruz qalmışdır. Bu errorların və milli zülmlərin mərkəzində sözsüz çoxları tərəfindən qəbul edilməyən şərəfli qədim tariximiz, zəngin torpağımız və etnik mənsubiyyətimizdir. Biz bir millət və xalq olaraq unutmamalıyıq ki, unudulmayaq. Çünki unudulan nə zamansa bir də təkrar olunur!

ƏDƏBİYYAT

1. Cəmil Həsənov. Azərbaycan beynalxalq münasibətlər sistemində, 1918-1920-ci illər, Bakı, 1993, səh.64- 203-204

2.Qafqaz Azərbaycanı Respublikası, Paris, 1919, səh. 21.

3. Ordubadi M.S., "Qanlı illər", Bakı, 1991, səh.7.(9)

4.Yenə orada,səh 37, 87,313

5 Şopen İ., göstərilən əsəri, səh. 510

6.Gokdemir Ahmet, Cenubi Garli Kafkaz Hukumeyi, Ankara, 1989, səh.15.

7. "Армянский геносид" Миф и реальность. Справочник фактов и документов, В.1992,səh.204

8.Байбуртян В А., Армянская колония Новой Джульфы в ХУП веке, İrəvan, 1969, səh. 21 Байбуртян ВА., göstərilən əsəri, səh.34

9.Величко В.Л., Русское дело и междуплеменные вопросы, С.Петербург, 1904, səh.96.

10.Дашнаки (из материалов департамента полиции), В.1990, səh.8.

11. Петрушевский И.П., Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX в., Ленинград, 1949, səh. 181.

12 Собрание актов..., I hissə, səh. 11-12; Езов Q.A., göstərilən əsəri, səh.43,səh. 392.

SUMMARY

GENOCIDE POLICY AGAINST AZERBAIJANS IN THE EARLY XX CENTURY AND ARMENIAN CLAIMS IN KARABAKH

Alizade S.G.

Within the Russian Empire, various peoples in slavery and national oppression, including the people of Azerbaijan, were forced to face great and difficult historical events. The Armenians, who were the sworn enemies of the Turks, began to implement the idea of creating an Armenian state on Turkish lands by force of arms, using the full protection of Western countries, especially Russia. The Armenians wanted to carry out this insidious plan at the expense of the Ottoman Empire (Turkey) and Azerbaijan. The main purpose of preparing the article is to reveal the insidious plans of the Armenians against our people in Azerbaijan. At the same time, the horrendous massacres committed by Armenians against Azerbaijanis in order to fulfill the unfulfilled dream of "Great Armenia", the mass expulsion of Azerbaijanis from their native lands, the massive plunder of the property of the expelled people. The article also reflects in detail the Armenian claims to Karabakh and the struggle of our people against the enemy.

Keywords: *national oppression, slavery,armenian issue, deportation, genocide.*

РЕЗЮМЕ

ПОЛИТИКА ГЕНОЦИДА В ОТНОШЕНИИ АЗЕРБАЙДЖАНЦЕВ В НАЧАЛЕ XX ВЕКА И ПРИТЯЗАНИЯ АРМЯН В КАРАБАХЕ

Ализаде С.Г.

В пределах Российской империи различные народы, находящиеся в рабстве и национальном угнетении, в том числе народ Азербайджана, были вынуждены столкнуться с великими и тяжелыми историческими событиями. Армяне, бывшие заклятыми врагами турок, стали воплощать в жизнь идею создания армянского государства на турецких землях силой оружия, пользуясь полной защитой западных стран, особенно России. Армяне хотели осуществить этот коварный план за счет Османской империи (Турции) и Азербайджана. Основной целью подготовки статьи является раскрытие коварных планов армян против нашего народа в Азербайджане. В то же время ужасающие расправы, совершенные армянами против азербайджанцев с целью осуществления несбывшейся мечты о «Великой Армении», массовое

изгнание азербайджанцев с родных земель, массовое разграбление имущества изгнанных людей. В статье также подробно отражены армянские претензии на Карабах и борьба нашего народа против врага.

Ключевые слова: *национальный гнет,рабства, армнский вопрос ,депортация, геноцид*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN TÜRKİYƏ QARDAŞLIĞI

Əmirova Y.F.
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
emirova.yaqut@gmail.com

Açar sözlər: *İkinci Qarabağ müharibəsi, Qardaşlıq köməyi, Qələbə, tarixi dostluq, bir millət*

30 ilə yaxın bir dövrdə Azərbaycan torpaqlarının 20 faizi erməni təcavüzkarlarının işğalına məruz qalmışdır. Bütün dünyaya məlum olduğu kimi, 2020-ci il sentyabrın 7-də düşmənin hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan əməliyyatlar yad ayaqlar tapdağı olan ərazilərimizin mübarizəsinə çevrilir.

Bu müharibənin qazanılmasında xalqın və ordunun birliyi və bizi müharibənin başlandığı ilk vaxtdan meydanda tək qoymayan Türkiyənin mənəvi dəstəyi oldu.

Türkiyə rəsmiləri – Prezident Rəcəb Tayyib Ərdoğan, Xarici İşlər Naziri Mövlud Çavuşoğlu, Müdafiə naziri Hulusi Akar müxtəlif tribunalardan Azərbaycana dəstəklərin ifadə etdilər [1, səh. 275].

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev bu müharibədə Türkiyənin hər zaman onun yanında olduğunu, açıq mövqeyini müttəfiq deyil, qardaşlıq mövqeyindən çıxış etdiyini və bütün azərbaycanlılar adından ona öz təşəkkürünü bildirmişdir.

"Türkiyə Azərbaycanın yanındadır, Azərbaycanın haqq işini dəstəkləyən daim qardaş və dostu olan, canı, qanı, ruhu bir olan Türkiyəmizdir" [2].

Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlunun NATO-nun baş katibi Jens Stoltenberqlə görüşündə Türkiyənin Azərbaycanı dəstəklədiyini bir daha sübut etdi.

Mövlud Çavuşoğlunun "Azərbaycanın öz torpaqlarında Ermənistanın silahlı təcavüzünə qarşı apardığı mübarizədə Türkiyənin qardaş Azərbaycan xalqına dəstəyini göstərmək üçün Azərbaycandayam" deməsi əbədi dostluğun ifadəsidir [3].

"Qarabağ ölkənin istər siyasi arenadakı dəstəyi, istərsə də hərbi sahədə əməkdaşlığı Azərbaycan Respublikası rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir" [4].

Azərbaycan – Türkiyə əlaqələri müttəfiqlik müharibələri səviyyəsində deyil, qarşılıqlı etimad və səmimi münasibətlər əsasında olduğu üçün bu ölkələri daha yaxın münasibətdə olmağa sövq edib.

Ulu öndər H.Əliyevin də bəyan etdiyi kimi Azərbaycan-Türkiyə əlaqələri "Bir millət iki dövlət" olaraq inkişaf etməkdədir [5].

Həqiqi mənada Türkiyə II Qarabağ müharibəsində müttəfiq bir dövlət kimi deyil, dost və qardaş ölkə kimi Azərbaycana həm diplomatik, həm də mənəvi dəstəyini göstərməklə, Azərbaycanın hər zaman yanında olduğunu bütün dünyaya sübut etdi.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev II Qarabağ müharibəsi dövründə dünyanın bir sıra tanınan kanallarına verdiyi müsahibələrdə də Türkiyənin bizə göstərdiyi diplomatik dəstəyi dəfələrlə qeyd edir [6, səh. 77].

44 günlük Zəfər tariximizin ən yadda qalan, qəhrəmanlıq salnaməsi ilə dolu olan – Şuşanın alınması idi. Tarixdə qızıl hərflərlə qeyd ediləcək bu hadisəni Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlunun və Milli Müdafiə Naziri Hülusi Akarın 8 noyabr Şuşanın azad edilməsi günün bizimlə birgə keçirdikləri üçün İ.Əliyev onlara öz minnətdarlığını belə edir.

Bu müddət ərzində bütün dünya bizi istəyənlər və istəməyənlər birliyimizin sarsılmaz və əbədi olduğunu gördülər [7, səh. 125].

Zəfər tariximizin qürur dolu günləri bizimlə birgə qeyd etdiyi üçün Zəfər Paradına Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğanın dəvət olunması da əbəs deyil. 44 günlük zaman bizimlə birgə sevincli və kədərli anımızda, bizi bir an belə tək qoymayan bir qardaşın buna tam haqqı vardı və biz bunu Ərdoğanın Zəfər Paradındakı o təsirli, qürurlu çıxışından da gördük.

"Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavadın ruhunun şad olduğu gündür. Nuru paşa, Ənvər paşa Qara Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bütün türk dünyasının zəfər və qürur günüdür" [8, 784].

Doğrudan da bu Zəfəri bizim kimi yaşayan damarlarında türk qanı axan biri ola bilərdi.

Zəfər tarixinin bu anlarını yaşayarkən gözlərim önündə Azərbaycanın Ankarada Böyük Elçilik binasının açılışında Mustafa Kamal paşa Azərbaycan bayrağını çəkərək söylədiyi nitq canlandı; "Bu bayramın mənim üçün xüsusi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan hökumətinin bayrağını çəkmək mənə nəsib olmuşdur. Qardaş millətin bayrağını çəkməkdən bəxtiyar sayılırıq. Azərbaycanın bayrağını çəkərkən əllərimdəki hissiyyat, bütün türk xalqının həqiqi qardaşlıq hissləridir".

Bu gün Qalib ölkənin vətəndaşı kimi, bizim də Vətən qarşısında borcumuz tariximizi olduğu kimi, təhrif edilmədən işıqlandırmaqdır. Ümid edirəm ki, hər birimiz bu işi layiqincə yerinə yetirəcəyik.

ƏDƏBİYYAT

1. Vətən müharibəsi dövründə Bakı Dövlət Universitetinin professor müəllim heyəti və tələbələrinin ölkə mediyasında çıxışları. Bakı, BDU, 2021
2. Qələbə, zəfər Azərbaycanladır. Səs qəzeti. az., 05 oktyabr 2020-ci il
3. Bizim işimiz haqq işidir. BSU. edu.az.
4. Qələbə və ədalətin təntənəsi, Qarabağ Azərbaycandır. İki sahil.com. 9 oktyabr 2020-ci il
5. Bizdə müsəlləh əsgərik. Azad.az.com.21 oktyabr 2020-ci il
6. Düşmənin başını yaran yumruğumuz bizim birliyimizdir. BSU.edu.az 2020-ci il 23 0ktyabr.].
7. Zəfər salnaməsi İrs 2021
8. Zəfər yolu; Qarabağ savaşından Şuşa bəyannaməsinədək Bakı;"Elm".2021

SUMMARY

AZERBAIJAN-TURKEY BROTHERHOOD IN THE SECOND KARABAKH WAR

Amirova Y.F.

The article is dealt with Turkey's political, diplomatic and moral support to Azerbaijan in the Second Karabakh War. The speeches of the President of the Republic of Azerbaijan, Commander-in-Chief of the Armed Forces Ilham Aliyev at the meeting with the leaders of the Republic of Turkey, including the brotherly country's support for Azerbaijan in our war from the beginning till the end of the war had been reflected here.

The meetings of the President of the Republic of Turkey Recep Tayyip Erdoghan, the Minister of Foreign Affairs of Turkey Mevlut Chavushoghlu, as well as the Minister of Defense of Turkey Hulusi Akar with the President of the Republic of Azerbaijan Ilham Aliyev and their open, i.e. harsh messages to the world countries were clearly mentioned in the article.

The victory which was gained in the Second Karabakh War had been resulted in the joint participation of the two brotherly countries in the Victory Parade and their sharing these happy moments together.

Key words: *The Second Karabakh War, brotherhood help, victory, historical friendship and one nation*

РЕЗЮМЕ

АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОЕ БРАТСТВО ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Амирова Я.Ф.

В статье рассматривается политическая, дипломатическая и моральная поддержка Турецкой Республики Азербайджана во Второй Карабахской войне. Здесь нашли свое отражение вопросы поддержки братской страной Азербайджана в его войне за справедливость, отражавшиеся в выступлениях Президента Азербайджанской Республики, Верховного главнокомандующего Вооруженными силами Ильхама Алиева на встрече с руководителями Турецкой Республики, которые с начала до конца войны были рядом с Азербайджаном.

В статье речь идет о встречах Президента Турецкой Республики Реджепа Тайипа Эрдогана, министра иностранных дел Турции Мевлюта Чавушоглу, министра обороны Турции Хулуси Акара с Президентом Азербайджанской Республики Ильхамом Алиевым и об их открытых и резких посланиях странам мира, излагаются их позиции.

Победа во Второй Карабахской войне завершилась совместным участием двух братских стран в Параде Победы и разделением этих счастливых моментов.

Ключевые слова: *Вторая Карабахская война, Братская помощь, Победа, историческая дружба, единый народ.*

QARABAĞ XANLIĞININ LƏĞV EDİLMƏSİ

Əsgərova X.İ.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
xayala.askerova@mail

Açar sözlər: *Azərbaycan, Qarabağ, xanlıq, işğal, müqavilə*

Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri olan Qarabağ xanlığı 1747-ci ildə Nadir şah Əfşarın qurduğu nəhəng imperiyanın dağılmasından sonra yaranmışdı.[3] Qarabağ xanlığının (1747-1822) ərazisi bütün tarixi Qarabağı əhatə edirdi: şimal-şərqdə Kür çayından cənub-şərqdə Araz çayınadək və şimal-qərbdə Murov dağınadək cənub-şərqdə isə Zəngəzuradək əhatə edirdi; başqa sözlə burada Kürlə Araz arasındakı ərazi, şərqdə bu çayların qovuşduğu yerdən qərbdə Zəngəzuradək ərazilər daxil idi. Xanlığ Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlığları ilə həmsərhədd idi.[7,167] XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəlində Azərbaycanın siyasi, hərbi və şimal iqtisadi həyatında mühüm rol oynamış Qarabağ xanlığının tarixinin tədqiqi bütövlükdə ölkənin inkişafını qanunauyğunluğunu və xüsusiyyətlərini izləməyə imkan vermişdir. Bu xanlıq digər xanlıqlar içərisində öz əhəmiyyətilə, tarixi, ərazisilə, öz hakimlərinin daxili və xarici fəaliyyətilə seçilmişdir. Onun hakimləri öz dövrünün görkəmli siyasi, diplomatik, hərbi xadimləri nəslinə mənsub olmuşlar. Qarabağ xanlığı özünün fəal movcüdluğunun bütün dövrü ərzində müstəqil daxili və xarici siyasət yeritmişdir. Belə siyasət xanlığın yaradıcısı və ilk hakimi Pənahəli xan (1747-1763), onun oğlu və davamçısı İbrahim Xəlil xan (1763-1806) vaxtında həyata keçirilmişdir. Onlar Qarabağ dövlətçiliyinin əsasını qoymuş və inkişaf etdirmiş, öz vassallarının - xırda sahibkar maliklərin mərkəzdən ayrılmaq cəhdlərinə son qoymuşlar. Onların zamanında Qarabağ xanlığı monolit siyasi sistem, rəvan dövlət mexanizmi kimi müstəqil dövlətin əsas atributlarına malik olmuşdur. Pənahəli xan və İbrahimxəlil xanın dövlətçilik istedadı və diplomatiyası sayəsində öz aralarında Qafqaz üstündə rəqabət aparan Rusiya, Osmanlı və İran dövlətləri Qarabağ xanlığı ilə hesablaşırdılar.[2,170]

1748-ci ildə Pənahəli xanın Kəbirli mahalında ilk iqamətgahı - Bayat qalası yarandı. Qısa müddət ərzində burada qala divarları, bazar, hamam tikildi. Təbriz və Ərdəbildən sənətkarlar dəvət edildilər. Bayat qalasının tikilməsi və Qarabağ xanlığının qüdrətinin artması tezliklə Şəki, Şirvan və Qarabağın bəzi feodal məliklərini narahat etdi. Mərhum Pənah xan, hər iki-üç gündə bir dəfə qohumlarının və ellərin adlı-sanlı atlıları və bacarıqlı nökərlərilə birlikdə qaladan bayıra çıxaraq, qala ilə düşmən qoşunu arasında olan böyük meydanda müharibəyə girişir, qəhrəmanlıqlar göstərir, Şirvan və Şəki qoşununa qalib gələrək qalaya qayıdırdı.[4,125] Onlar Pənahəli xana qarşı birgə çıxış etmək haqqında razılığa gəldilər. Məliklər Şəki xanı Hacı Çələbiyə məlumat verərək bildirdilər ki, "...Pənahəli xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfndə bir qədər təxir edilsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır". Pənahəli xan, hər şeydən əvvəl, məliklərlə haqq-hesabı çürütmək qərarına gəldi. Şirvan və Şəki xanları heç bir iş görə bilmədilər. Mühasirə bir aydan artıq çəkdi. Hər gün qoşunlarının qırılmasını, at və eşşəklərinin qarət olunmasını görən xanlar peşman və pərişan halda köçüb getdilər və hər kəs öz vilayətinə qayıtdı. Zəmanəsinin kamil adamlarından olan Şəki vilayətinin hakimi Hacı Çələbi qayıdan zaman bu sözləri dedi: "Pənah xan bir xan idi. Biz gəldik onunla dava elədik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq". Beş il Bayat qalasında yaşadıqdan sonra, ətrafı düşmən bürüdüyünə görə burada əbədi şəhər və qala tikmək ehtiyatsızlıq hesab edilərək (məsləhət görülmədi), Qarabağ ellərinin mal-qarasını dava zamanında düşmənin ziyanından möhkəm, keçilməz dağlarda qoruya bilmələri üçün qalanın Qarabağ dağlarına bitişən bir yerdə tikilməsi lazım bilindi.[4,126] Qarabağ xanlığı Pənahəli xanın varisi İbrahim xanın (1763-1806) dövründə daha da gücləndi. Qarabağ xanlığında əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Pənahəli xan və İbrahim xanın dövründə Mil düzünün keçmiş əsrlərdə dağıdılmış suvarma kanallarını bərpa etmək üçün cəhd göstərilmişdi. Gavurarx, Luvararx, Sanarx, Xanarxı və s. qaydaya salınmışdı ki, xanlar onların istismarından xeyli gəlir əldə edirdilər.[1,374] Qarabağ xanlığının çox zəngin təbii-coğrafi şəraiti əhalinin təsərrüfat fəaliyyətinin çoxsahəliyinə geniş şərait yaradırdı. Lakin məhsuldar qüvvələrin və istehsal vasitələrinin istənilən səviyyədə inkişaf etməməsi təsərrüfat sahələrinin yüksələn xəttə artımını ləngidirdi. Bu isə orta əsrlər üçün təbii idi. Bütün bunlara baxmayaraq xanlıqda məhsuldar qüvvələr, ləng də olsa, inkişaf edirdi.[7,103]

XVIII-XIX əsrin hüdudlarında Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərə parçalanmışdı. Qonşu xalqların ərazilərini ələ keçirmək uğrunda xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla ölkə ərazisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında sinfi ziddiyətlərin güclənməsi, iqtisadi tənəzzül Azərbaycanın daxili vəziyyəti üçün səciyəvi hal idi. XVIII əsrin 80-ci illərinin sonunda bütün hakimiyyəti (Xorasan istisna olmaqla) ələ alan

Qacar sülaləsinin banisi Ağa Məhəmməd xan sabiq Səfəvi dövlətinin sərhədlərini bərpa etdikdən sonra tac qoymağı qərarlaşdırdı. Məlum olduğu kimi, Səfəvi dövlətinin süqutunadək bütün Cənubi Qafqaz, Azərbaycan və Şərqi Gürcüstan bu dövlətin tərkibində idi. Məhz buna görə də Ağa Məhəmməd xan həmin ölkələri özünə tabe etmək fikrinə düşdü. Ağa Məhəmməd xan hərbi yürüşə başlamazdan əvvəl Cənubi və Şimali Azərbaycan xanlıqlarına, habelə Kartli-Kaxeti çarlığına fərmanlar göndərdi və onlardan tabelik rəmzi kimi ən yaxın qohumlarından onun sarayına girov göndərməyi tələb etdi. İran sərhədlərindən uzaqda yerləşən Azərbaycan xanlıqları, habelə Kartli-Kaxeti çarlığı Ağa Məhəmməd xanın hədə-qorxu ilə dolu fərmanını rədd etdilər. İran sərhədləri yaxınlığında yerləşən xanlıqların bir çoxu Ağa Məhəmməd xandan ehtiyat edərək, zahirən də olsa, ona itaətə hazır olduqlarını bildirdilər.[1,390]Qarabağ xanlığı daxilində düşmənə müqavimət məqsədilə qızğın hazırlıq işlərində Azərbaycan xalqının görkəmli şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqif böyük fədakarlıq göstərdi. Ağa Məhəmməd xan Qacarın 1795-1797-ci illər yürüşləri, V.Zubovun başçılığı ilə rus ordusunun 1796-cı il yürüşü tezliklə İran-Qacar dövlətinin və Rusiyanın Cənubi Qafqaza münasibətdə daha qətiyyətli addım atacaqlarından xəbər verirdi. Təəssüf ki, hətta belə təhlükəli bir şəraitdə Azərbaycan xanları öz qüvvələrini birləşdirmək əvəzinə vəziyyətdən yalnız öz qüvvələri ilə təkbaşına çıxmağa cəhd göstərirdilər. Bu baxımdan İbrahimxəlil xan da istisna deyildi. İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacarın 1797-ci ildə Şuşada qətlə yetirilməsindən sonra İran-Qacar dövləti ilə yaranmış gərginliyi sovuşdura bilsədə, öz xanlığının müstəqilliyi və təhlükəsizliyi üçüç təminat ala bilmədi.Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, İran işğalçılarının viran eidici yürüşləri vəziyyəti daha da gərginləşdirirdi. Göstərilən dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasından ibarət idi. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq rus elminə məlum idi və təsadüfi deyildir ki, II Yekaterina hökuməti bu ölkənin sərvətlərinin mənimsənilməsini onun istilası ilə bağlayırdı. Qızılboya, yun, ipək, pambıq, tütün, yanacaq və s. Rusiya sənayesinin xammal və yanacaqla təmin edə bilərdi.

Ağa Məhəmməd şah Qacarın ölümündən sonra İran-Qacar dövlətində hakimiyyət uğrunda yeni qüvvə ilə qızışan mübarizədən qalib çıxan Fətəli şah 1797-ci ildə İrəvan qalasını ələ keçirdi və Azərbaycan xanlarından, o cümlədən İbrahimxəlil xandan itaət etməyi tələb etdi. XIX əsrin əvvəli üçün Rusiya dövləti onun digər dövlətlərlə rəqabət aparmaq imkanı verən böyük hərbi potensiala malik idi. Ona görə də Peterburqun xarici siyasətində geostrateji vəzifələr daha dəqiq müəyyənləşməyə başlayır. XIX əsrin əvvəllərində Qarabağ xanlığı daha güclü bir düşmənin Rusiya imperiyasının hücum hədəfinə çevrildi.1801-ci ildə Şərqi Gürcüstanı ələ keşirən bu dövlət az sonra azərbaycanın Car-balakən camaatlığını, İlisu sultanlığını və Gəncə xanlığını işğal etdi. 1804-cü ildə başlamış Rusiya-İran mühribəsinin ilk günlərindən bəri hər iki dövlət Qarabağ xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi.İran-Qacar dövlətini Qarabağ üçün daha böyük təhlükə hesab edən İbrahimxəlil xan Rusiyanın himayəsi altına keçməklə öz hakimiyyətini saxlayacağına ümid edirdi. Elə bu səbədən o, Qafqazdakı rus qoşunlarının komandanı general P.Sisianovun Rusiyanın himayəsi altına keçmək təklifini qəbul etdi və danışıqlara başladı.

Nəticədə, 1805-ci il mayın 14-də Kürəkçayın sahilində, Gəncənin yaxınlığında Kürəkçay traktatı kimi məşhur olan və Qarabağ xanlığının Rusiya tabeliyinə keçməsini təsdiq edən sazişin imzalanması mərasimi keçirilmişdir. Mirzə Adıgözəl bəy isə Kürəkçay müqaviləsinin bağlanmasını belə təsvir bəhs edir: «Knyaz Gəncəyə daxil oldu və şəhərin ətrafında zəfər nişanəli çadırlarını qurdu. Qarabağ xanı İbrahim xanın və onun damadı (kürəkəni - Y.H.) Səlim xanın yanına vəkillər göndərdi və onlara məktublar yazdı... Knyaz Sisianov bu vasitə ilə onlara uca Rusiya dövlətinə itaət etməyi təklif etdi... Aralarında bir çox danışıqlar oldu, şərtlər qoyuldu və müahidələr bağlandı. Hər iki tərəf əhd və peymanla sülhün binasını möhkəmləndirdilər. Sonra traktatlar (müqavilənamələr) bağlandı. Ondan sonra, uca mərtəbəli sərdar, mayor Lisaneviçi 500 əsgərlə Qarabağa, bir o qədərini də Şəkiyə göndərdi» (4, s.71) Ruslar 1806-cı ildə İbrahimxəlil xanı ailə üzvləri ilə birlikdə çox böyük amansızlıqla qətlə yetirdilər. [3]

Bu sənədin tarixi əhəmiyyəti böyükdür, baxmayaraq ki, birmənalı deyil. Birincisi, o, Azərbaycanın müstəqil şimal xanlıqlarının «dinc yolla» ləğv olunmasının əsasını qoydu. İkincisi, Rusiyaya xanlıqların ərazilərini və hakimlərini özünə «az qurban verməklə» tabe etdirilməsinə kömək etmiş oldu. Üçüncüsü, Rusiyanın XIX əsrin üçüncü rübündə İran və Osmanlı dövlətlərilə apardığı müharibələrdə uğur qazanmağa az kömək etmədi. Qarabağ xanlığı Azərbaycanda yeganə xanlıq idi ki, Craberd, Gülüstan, Xaçın, Varand və Dizak məliklərindən ibarət beş vassalı var idi. XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəlində Azərbaycanın siyasi, hərbi və şimal iqtisadi həyatında mühüm rol oynamış Qarabağ xanlığının tarixinin tədqiqi bütövlükdə ölkənin inkişafını qanunauyğunluğunu və xüsusiyyətlərini izləməyə imkan vermişdir.[7,11] 1806-cı ilin qışında yeni baş komandan təyin olunmuş general Qudoviç Qarabağın idarə olunması haqqındakı fərmanı Mehdiqulu xana təqdim etdi. Yeni baş komandan Tormosov İranla münasibətləri danışıqlarla nizama

salmağa ümid bəsləyirdi. Lakin 1809-cu ilin iyununda şahın özü Qarabağ və İrəvanla kifayətlənməmək və qüvvələrini Türkiyə ilə birləşdirmək üçün Qərbdə hərbi əməliyyatlar cəbhəsini genişləndirmək niyyəti ilə Cənubi Azərbaycana gəldi. Şah Zaqafqaziya hakimləri və sakinlərinə fərmanlar göndərərək, onları Rusiyaya qarşı çıxış etməyə çağırdı. Beləliklə, Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan iki hissəyə bölündü. Qarabağ ərazisi də Şimali Azərbaycanın tərkibində qaldı.1828-ci il fevralın 10-da (22-də) Türkmənçay sülh müqaviləsi imzalandı. Türkmənçay sülh müqaviləsinə görə, İran Şimali Azərbaycana olan öz iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyırdı. Cənubi Azərbaycan isə İranın himayəsində qaldı. Azərbaycan iki yerə bölündü. Türkmənçay müqaviləsinə əsasən, əhalinin Cənubi Azərbaycandan Cənubi Qafqaz və əksinə hərəkət etməsinə icazə verilirdi. Bunun nəticəsində bir çox erməni ailələri Cənubi Qafqaz, Qarabağ və İrəvan xanlıqlarına köçdülər. Həm 1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin gedişində, həm də sonralar ermənilərin böyük kütlələrinin İran, Türkiyə və Cənubi Azərbaycandan Zaqafqaziyaya, o cümlədən də Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artırdı. Müharibədən bir qədər sonra rus hökuməti xanlıqları ləğv edib rus zabitləri tərəfindən idarə olunan əyalətlərə çevirməyə başladı. 1822- ci ildə Mehdiqulu xan İrana qaçmağa vadar edildi və Qarabağ xanlığı ləğv olundu. [7,210] Bundan sonra İran və Türkiyədən ermənilərin Qarabağ ərazisinə köçürülməsi prosesi gücləndi. Bununla belə, 1992-1994-cü illər I Qarabağ müharibəsində Qarabağ erməni quldurlaı tərəfindən işğal olunana qədər vilayətdə əhalinin əksəriyyətini azərbaycanlılar təşkil etmiş, Qarabağ həmişə Azərbaycan torpağı kimi qalmış və müvəqqəti erməni işğalina baxmayaraq bu gün də dünya ictimaiyyəti Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır. [6,210] Azərbaycanın bu öz ayrılmaz tərkib hissəsi üzərində suverenliyini bərpa edəcəyi gün şükür gəlib çatdı. Müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. İkinci Qarabağ müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə "Dəmir yumruq" kimi birləşdiyini nümayiş etdirdi. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi.Yeddi ciliddə. IV cild. Bakı-2007
2. Abbasov Fəxri Mitət oğlu. Карабахское ханство Bakı -2007
3. Camal Mustafayev tarix üzrə elmlər doktoru,professor. Azərbaycan-2015. 17 fevral.- S.6.
4. Mirzə Adıgözəl bəy. Mirzə Camal Cavanşir Qarabaği. Əhməd Bəy Cavanşir. Qarabağnamələr.Birinci kitab .Bakı-2006
5. Мирза Джамал Джеваншир Карабагский История карабаха .Баку -1959
6. Tofiq Mustfazadə. Qarabağ xanlığı. Bakı - 2010
7. Yunis Hüseynov. Qarabağ tarixi mənbələrdə Bakı – 2012

SUMMARY

LIQUIDATION OF KARABAKH KHANATE

Asgarova Kh.I.

At the turn of the XVIII and XIX centuries, the domestic and international situation in Azerbaijan was very complicated. The territory of Azerbaijan was divided into small feudal states. The uninterrupted civil wars between the khans for the conquest of the territories of neighboring peoples, the intensification of class conflicts between the feudal lords and the peasants, who made up the vast majority of the country's territory, and the economic decline were typical of Azerbaijan's internal situation. With the treaties of Gulustan (1813) and Turkmenchay (1828), Azerbaijan was divided into two parts. The territory of Karabakh also remained part of Northern Azerbaijan.

Key words: *Azerbaijan, Karabakh, khanate, occupation, agreement*

РЕЗЮМ

ЛИКВИДАЦИЯ КАРАБАХСКОГО ХАНСВТО

Аскерова Х.И.

На рубеже XVIII и XIX веков внутренняя и международная обстановка в Азербайджане была очень сложной. Территория Азербайджана была разделена на мелкие феодальные государства. Непрерывные гражданские войны между ханами за завоевание территорий соседних народов, обострение классовых противоречий между феодалами и крестьянами, составлявшими подавляющее большинство территории страны, экономический упадок были характерны для внутренней жизни Азербайджана. По Гюлистанскому (1813 г.) и Туркменчайскому (1828 г.) договорам Азербайджан был разделен на две части. Территория Карабаха также оставалась частью Северного Азербайджана.

Ключевые слова: *Азербайджан, Карабах, ханство, оккупация, соглашение*

QARABAĞ ZƏFƏRİ: AZƏRBAYCAN-TÜRK DİASPOR TƏŞKİLATLARININ BİRGƏ FƏALİYYƏTİ KONTEKSTİNDƏ

Əsgərova Z.M.
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,t.ü.f.d., Bakı, Azərbaycan
zaminamamed@gmail.com

Açar sözlər: *Vətən tarixi, Qarabağ zəfəri, Azərbaycan-Türk diaspor təşkilatları*

Bu gün dünya ölkələrində fəaliyyət göstərən azərbaycanlılardan ibarət diaspor kontingentinin tarixən əsas pənah apardıqları ölkələrdən biri Türkiyə Cümhuriyyətidir. Azərbaycanla Türkiyə arasında tarixən etnik mənsubiyyət tarixi bağlılıq baxımından sosial, mədəni, siyasi-iqtisadi əməkdaşlıq olmuşdur. Bu münasibətlər azərbaycanlıların tarixən qardaş Türkiyədə sığınacaq tapmaları üçün başlıca səbəblərdir.

Ümummilli lider Heydər Əliyev türk xalqları arasında münasibətlərin inkişafının vacibliyini xüsusilə qeyd etmişdir. Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etdiyi dövrdə ümummilli liderin, xüsusilə də Türkiyə Cümhuriyyəti ilə ən müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində əldə etdiyi nəticələr bunu bir daha təsdiq edir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında münasibətlər daha sürətlə inkişaf etməyə başlamışdır. Etnik mənsubiyyət, din və dil birliyinə söykənən əlaqələr, həm də müasir siyasi və iqtisadi reallıqlar fonunda inkişaf etməkdədir. Əlbəttə ki, bu əlaqələr birdən-birə yaranmamışdır. Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü səviyyəsi hər iki ölkənin xalqlarının tarixi mənafelərini və siyasi iradəsini ifadə edir. 1992-ci ildə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını blokadadan qurtarmaq məqsədi ilə oktyabr ayının 29-da Araz çayı üzərində "Ümid" körpüsü açılmışdır [5, s.13]. Bu isə Türkiyə ilə Azərbaycanı sosial-siyasi, iqtisadi-mədəni və hərbi cəhətdən birləşdirən qardaşlıq körpüsünə çevrilmişdir.

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi oldu. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə ikinci dəfə qayıtmasından sonra ölkəmizin diasporla bağlı vahid dövlət strategiyası müəyyənləşdi, diaspor quruculuğu Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi.

Ümummilli lider xarici ölkələrdə yaşayan azərbaycanlılarla ilk görüşü 1994-cü il fevralın 10-da Türkiyə Cümhuriyyətinə rəsmi səfəri zamanı olmuşdur. Həmin görüşdə Heydər Əliyev Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsini xüsusi olaraq vurğulamışdır. Türkiyə və Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinin inkişafı Türkiyədə Aərbaycan diasporunun inkişafına şərait yaradır.

Türkiyədə Azərbaycan diaspor təşkilatları digər xarici ölkələrlə müqayisədə sayca daha çox, yaranma tarixləri etibarı ilə daha təcrübəlidirlər.

XX əsrin əvvəllərində azərbaycanlıların Türkiyədə bir mərkəzdə birləşməsi üçün təşkilatlar və onların mətbuat orqanları yaranmışdır. Həmyerlilərimizin bir mərkəzdə birləşməsinə xalqımızın görkəmli ziyalısı M.Ə.Rəsulzadə başçılıq etmişdir. Məsələn, 1924-cü ildə yaradılmış "Azərbaycan Milli Mərkəzi", "Azərbaycan Kültür Dərnəyi" (1949) Türkiyədə 20-50-ci illərdə Azərbaycan diaspor nümayəndələrinin fəaliyyətini istiqamətləndirməkdə mühüm rol oynamışdır. Dərnək və onun nəşri olan "Azərbaycan" jurnalı nəinki Türkiyədə,

bütün dünya ölkələrində Azərbaycanın tarixi həqiqətləri, milli adət-ənənələri, problemlərinin təbliği ilə məşğul olmuşdur və indi də olur [7, s.117].

XX əsrin 90-cı illərindən sonra Türkiyədə Azərbaycan cəmiyyətlərinin, milli-mədəni mərkəzlərinin sayı xeyli artmış, fəaliyyət dairəsi genişlənmişdir. Hazırda Türkiyə Cümhuriyyətində soydaşlarımızı bir mərkəzdə birləşdirən, milli mədəniyyətimizi təbliğ edən Azərbaycanın müasir ictimai-siyasi vəziyyətini izləyən, öyrənən 50-dən çox Azərbaycan diaspor təşkilatı və dərnəkləri fəaliyyət göstərir [6].

Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı bir sıra sosial-iqtisadi, habelə hərbi və siyasi problemlər Türkiyə Cümhuriyyətində yaşayan azərbaycanlılar arasında birliyinin yaranmasına səbəb oldu. Bu birliyin yaranmasına ideoloji dəstək isə Azərbaycan dövləti tərəfindən verilməli idi. Azərbaycanlıları Vahid təşkilatda birləşdirməyə sövq edən bu işin davamı olaraq, 2004-cü il may ayının 28-də Türkiyə Respublikasının İskəndərun şəhərində 18 icma və birlikləri özündə birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının yaranması oldu.

Beləliklə, soydaşlarımız Türkiyədə daha aktiv və siyasi gücə malik olan etnik diaspor olmaqla yanaşı, türk diaspor təşkilatları ilə birlikdə bütün dünyada Azərbaycanın haqq səsi və ədalətli mövqeyini müdafiə etməklə Dağlıq Qarabağ münaqişəsinin əsil səbəbləri, Xocalı soyqırımı, ermənilərin Türkiyəyə və Azərbaycana qarşı əsassız torpaq iddiaları, erməni terroru kimi məsələlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlər həyata keçirdilər. Bu məqsədlə həmyerlilərimiz Avropa ölkələrində "Qarabağ" təşəbbüs qrupu, "Qarabağ" komitəsi, "Qarabağa yardım təşkilatı" kimi qurumlar yaratmışlar. Ayrı-ayrı ölkələrdə Azərbaycanı və Türk diaspor təşkilatlarının birgə fəaliyyətinin nəticəsi olaraq "Türkiyə-Azərbaycan əlaqələri XXI əsrdə" (2003, Ankara) forumu, "Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq" (2006, Antalya) qurultayı, Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin (2007) I forumu keçirilmişdir [2, s. 322].

Prezident İlham Əliyev Türkiyədə səfərdə olarkən Azərbaycan diaspor təşkilatlarının nümayəndələrini əmin etmişdir ki, dövlətimiz Azərbaycan həqiqətlərinin dünya ölkələrinə çatdırılması işində onlara lazım olan dəstəyi verəcəkdir. Bu baxımdan Türkiyə və Azərbaycan diaspor təşkilatlarının müxtəlif ölkələrdə birgə layihələr, tədbirlər keçirilməsi əsas şərtdir.

Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2007-ci il mart ayının 9-da Bakı şəhərində Dünya Azərbaycan və Türk Diaspor təşkilatları rəhbərlərinin I Forumu bu istiqamətdə atılan ən vacib addımlardan oldu. Forumda qəbul edilmiş "Azərbaycan və Türk Diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası", Bakı Bəyannaməsi və digər sənədlər Azərbaycan və Türk icmalarının qarşılıqlı əməkdaşlığının əsas prinsip və meyarlarını, onun ideyası, siyasi məzmununu müəyyən etdi [2, s. 323]. Strategiya təbliğat sahəsində Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyətinin informasiya məkanında Azərbaycan və Türkiyənin milli maraqlarının qorunmasına, türk xalqlarının məruz qaldıqları haqsızlıqların dünya ictimaiyyətinə çatdırılmasına xidmət etməkdir. Strategiyada həmçinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri özündə əks etdirən təbliğat materiallarının – filmlərin, kitabların, audiovizual materialların yayılması, Ermənistanın Azərbaycana təcavüzünün faciəli nəticələrindən bəhs edən rəsm, film və foto sərgilərinin təşkil edilməsi, Beynəlxalq təşkilatların mərkəz qərargahları və xarici ölkələrdəki nümayəndəliklər qarşısında Ermənistanın işğalçılıq siyasətinə qarşı birgə etiraz aksiyalarının təşkili və s. vəzifələr öz əksini tapmışdır. Bu vəzifələrlə bağlı Azərbaycan və Türk diaspor təşkilatları birlikdə dünya ölkələrində etiraz aksiyaları, konfranslar, anım mərasimləri və s. tədbirlər təşkil etmişlər.

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabr ayının 27-də başlayan hərbi təcavüzünə qarşı II Qarabağ Vətən müharibəsinin gedişində Azərbaycan və Türk diaspor təşkilatları əlaqələrini gücləndirərək bütün imkanları ilə dövlətimizə və ordumuza dəstək göstərdi. Bu baxımdan Azərbaycan-Türkiyə diaspor birliyi erməni təxribatçılarının Azərbaycan ərazisində törətdiyi hərbi təxribatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində dünya informasiya məkanına, operativ və obyektiv məlumatların çatdırılmasında zəruri tədbirlər həyata keçirdilər.

2021-ci il iyunun 15-də qəbul edilmiş Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində həyati əhəmiyyətə malik bir çox sahələri, o cümlədən diaspor fəaliyyətinə dair məsələlər də öz əksini tapmışdır. Şuşa Bəyannaməsi Diasporla İş Üzrə Dövlət Komitəsinin vəzifələrini Azərbaycan və Türk diasporlarının birgə fəaliyyəti sahəsindəki məsuliyyət və öhdəliklərini daha da artırmaqla yanaşı iki ölkənin diasporunun birgə fəaliyyəti üçün ciddi hüquqi əsaslar yaradıb [8].

Yuxarıda qeyd etdiyimiz faktlar bir daha təsdiq edir ki, Qarabağ zəfəri Azərbaycan-Türk diaspor təşkilatlarının Ermənistanın işğalçılıq siyasətinə qarşı apardığı 30 illik fəaliyyətinin nəticəsidir, desək yanılmarıq. Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyəti və inkişafı, güclü potensiala malik olması Qarabağ zəfərinin qazanılmasında mühüm rol oynadı. Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası münasibətlərində Azərbaycan diasporu təkcə tarixi etnik, sosial mədəni birliklərin mövcudluq forması deyil həm də dövlətlərarası münasibətlərin inkişafında mühüm iqtisadi-siyasi vasitədir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin cari arxivi. Komitənin müxtəlif illərə dair hesabatları (2004-2011-ci illər)
2. Azərbaycan diasporu, Ensiklopedik məlumatlar toplusu. Bakı: "Səs MMC", 2012, 654 s.
3. Azərbaycan diasporu: böyük yolun başlanğıcı. Bakı: Çaşıoğlu, 2006, 208 s.
4. Azərbaycan-Türkiyə: Bir millət, iki dövlət, vahid diaspor. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin nəşri. Bakı: "Çaşıoğlu" 2007, 120 s.
5. Abdullayev M. Azərbaycan-Türkiyə əlaqələri. Bakı: Mütərcim, 1997, 110 s.
6. Diaspor təşkilatları (ölkələr üzrə). Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi. http//diaspor.gov.az.//
7. Əsgərova Z. Türkiyədə Azərbaycan diasporunun formalaşması – XX əsr. Bakı; 2021, 164 s.
8. Muradov F. "Şuşa Bəyannaməsi" iki ölkə diasporunun birgə fəaliyyəti üçün ciddi hüquqi əsaslar yaradıb. /https// oxu az interview.

SUMMARY

KARABAKH VICTORY: IN THE CONTEXT OF THE JOINT ACTIVITIES OF THE AZERBAIJANI-TURKISH DIASPORA ORGANIZATIONS

Askerova Z.M.

After the restoration of the state independence of Azerbaijan, relations between the Republic of Azerbaijan and the Republic of Turkey began to acquire a new meaning. The economic, political, social and cultural steps taken over the past period towards the development and expansion of relations between Azerbaijan and Turkey laid the foundation for strengthening relations between the Azerbaijani and Turkish diasporas. The article deals with the place and role of the activities of the Azerbaijani and Turkish diasporas in the Azerbaijani-Turkish relations.

Key words: *Fatherland history, Karabakh victory, Azerbaijani-Turkish diaspora organizations*

РЕЗЮМЕ

КАРАБАХСКАЯ ПОБЕДА: В КОНТЕКСТЕ СОВМЕСТНОЙ ДЕЯТЕЛЬНОСТИ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ДИАСПОРСКИХ ОРГАНИЗАЦИЙ

Аскерова З.М.

После восстановления государственной независимости Азербайджана, отношения между Азербайджанской Республикой и Турецкой Республикой стали приобретать новый смысл. Экономические, политические, социальные и культурные шаги, предпринятые за истекший период в направлении развития и расширения отношений между Азербайджаном и Турцией, заложили основу для укрепления отношений между азербайджанской и турецкой диаспорами. В статье рассматривается место и роль деятельности азербайджанской и турецкой диаспор в азербайджано-турецких отношениях.

Ключевые слова: *история Отечества, карабахская победа, азербайджано-турецкие диаспорские организации*

DAĞLIQ QARABAĞ KONFLİKTİ VƏ XALQ HƏRƏKATININ BAŞLANMASI

Əzizova R.Y.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ezizova-r@mail.ru

Açar sözlər: *Dağlıq Qarabağ, konflikt, separatçılıq, xalq, hərəkat*

Sovet rejiminin 1918-ci ildən başlayaraq tarixi torpaqlarımızın ermənilərə "hədiyyə edilməsi" kimi iyrənc kampaniyasının ən faciəli səhifələrindən biri olan *"1923-cü il 7 iyulda Azərbaycan SSR-in tərkibində DQMV-nin təşkili"* [6, s.95] N.Nərimanovun və onunla həmfikir olan milli əhval - ruhiyyəli bolşeviklərin

çox ciddi mübarizəsindən sonra bir növ ərazi bütövlüyümüzün qorunması probleminin həllinin "ən pis", yaxud "nisbətən pis" variantlarından sonuncusu demək idi.

Bu, o vaxtdan 1988-ci ildəki məlum Dağlıq Qarabağ konflikti başlayanadək Azərbaycan üçün Moskvanın əli ilə qəsdən və ya süni şəkildə yaradılmış "tədricən işə düşən" bomba demək idi.

Dağlıq Qarabağ münaqişəsi başlayandan 2020-ci ilin 27 sentyabr - 10 noyabrında 44 günlük zəfərlə bitən Vətən müharibəsinə qədər bu problem haqqında yüzlərlə kitab, monoqrafiya, digər tədqiqat əsərləri yazılmışdır. Ona görə də, məsələnin tarixi kökləri, münaqişənin gedişi və mərhələləri, nəticələri haqqında danışmaq mövqeyindən kənar duraraq, yalnız bir məsələyə diqqət yetirməyi qərara almışıq. İttifaq rəhbərliyində himayə olunan erməni millətçilərinin 1988-ci ilin fevral günlərindən başlamış, lakin kökləri ən azı Bolşevik partiyasının Zaqafqaziya Bürosunun 1921-ci il iyulun 4-5-da qəbul etdiyi, bir - birinə zidd olan 2 qərarına [6, s.58,59] gedib çıxan Dağlıq Qarabağın Ermənistan SSR-yə birləşdirilməsi uğrunda çirkin oyunların, əsassız ərazi iddiaları kampaniyasının son mərhələsi Azərbaycan SSR-də cəmiyyətdə bütün sahələrə təsir göstərdi.

Tarixçi alimlər, siyasətçilər, politoloqlar, xüsusi ilə də respublika daxilində, Dağlıq Qarabağ hadisələrinin Azərbaycanın ictimai - siyasi həyatına təsirinin nəticələri haqqında müxtəlif fərqli fikirlər səsləndirmişlər. Bu müəlliflərin böyük əksəriyyəti hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin başlanması, xüsusi ilə də bölgədə, onun ətrafındakı ərazilərdə erməni quldur silahlı dəstələrinin törətdikləri cinayətlər bütövlükdə respublika daxilində ictimai - siyasi vəziyyəti kritik həddə çatdırmış, bununla da dövlət müstəqilliyinin bərpası ilə nəticələnən istiqlal mübarizəsinin sürətlənməsinə təsir göstərmişdir. Başqa sözlə desək, Qarabağ müharibəsi baş vermiş siyasi proseslərin sürətlənməsində, az sonra istiqlala qovuşmağımızda bir növ xüsusi rolu oynamışdır.

Qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ münaqişəsinin kökləri əvvəlki onuilliklərə gedib çıxsa da, siyasi böhrana, sonda müharibəyə, 33 ildən çox davam edən üzüntülərə, bədbəxtliklərə gətirən son mərhələ M.Qorbaçovun yaxın ətrafındakı erməni əlaltılarının təsiri ilə H.Əliyevin ittifaq rəhbərliyindən uzaqlaşdırılması ilə başladı.

Respublikadakı ictimai-siyasi proseslərə ciddi təsir göstərən, eyni vaxtda milli azadlıq hərəkatına əhəmiyyətli dərəcədə təkan verən Dağlıq Qarabağ hadisələri bəlkə də bir neçə il əvvəl də başlaya bilərdi. Lakin H.Əliyevin ittifaq rəhbərliyinin xüsusi nüfuzlu nümayəndəsi kimi güclü imici və tutduğu yüksək ali idarəçilik mövqeyi buna imkan vermirdi. Bu məsələdən bəhs edən İ.Əliyev demişdir ki, *"Heydər Əliyev amili qoymurdu ki, ermənilər Qarabağda baş qaldırsınlar... Baxın, bir erməni millətçisi məqalə ilə çıxış elədi ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir"* [1, s.177].

Beləliklə, Dağlıq Qarabağdakı separatçılıq çıxışlarının qarşısının alınması üçün son fürsət və imkanlar əldən verilirdi. 80-ci illərdə baş vermiş hadisələr arasında respublikadakı ictimai - siyasi vəziyyətə təsirinin fəlakətli nəticələri baxımından ən ciddisi və ağırı olan Dağlıq Qarabağ konflikti, onun ətrafında baş verən hadisələr başlamış oldu.

Respublika rəhbərliyindən fərqli olaraq, yüz minlərlə insanların həmin günlərdə küçələrə, meydanlara çıxması, baş verənlərin səbəblərinin müəyyən etmək, bunlara tezliklə son qoymaq tələblərini irəli sürmələri həmin günlərdə daha çox səslənən etirazlar idi.

Bəhs edilən regionda məhz bu cür həmrəylik, xalq və rəhbərliyin ən vacib mürəkkəb məqamlarda milli vəhdət, birlik yarada bilməsi hərəkat qarşısında duran vacib vəzifələrinin həll edilməsinə kömək etmişdi. Xüsusi ilə də 80-ci illərin son illərində hələ İkinci dünya müharibəsinin ilk iki ilində baş vermiş sovet işğalına son qoyulmasına xeyli dərəcədə yardım etmişdi. Üç Baltikyanı respublikada, yalnız bir dəfə siyasi rejimlə qanlı silahlı toqquşma istisna olmaqla, itirilmiş dövlət müstəqilliyinin, demək olar ki, ciddi sarsıntılar baş vermədən, qan tökülmədən bərpa edilməsi ictimai - siyasi hərəkatın gedişində formalaşmış milli vəhdətin, birliyin nəticəsi idi.

Təəssüf ki, Azərbaycan SSR-də bu baş vermədi. Xalqımız üçün çox ağır, mürəkkəb vəziyyətdə kütlə və rəhbərlik arasında birliyə, heç olmazsa, yaxınlaşmağa nail olunmaması faciəli nəticələri baxımından özünü çox da gözlətmədi.

Beləliklə, Dağlıq Qarabağdakı arzuolunmaz mürəkkəb vəziyyətin profilaktikası, cari zəruri siyasi, inzibati tədbirlər yolu ilə nizamlanması üçün real imkanların əldən verilməsinin ardınca, baş verəcək hadisələrin qarşısını almaq, ən azı zərərli nəticələrini qabaqlamaq üçün kifayət qədər səmərəli forma olan kütlə ilə rəhərlik arasında əməkdaşlığa nail olunması fürsəti reallaşmadı.

Bir tərəfdən ittifaq rəhbərliyinin Azərbaycana münasibətdə birtərəfli, qərəzli mövqeyi, digər tərəfdən Dağlıq Qarabağda baş verənlərin qanunvericiliyin tətbiqi ilə qarşısının alınması əvəzində daha da şirniklendirilməsi, ən sonda bu hadisələrin muxtar vilayətin hüdudlarından çıxaraq regiona yayılması, bununla da respublikada daxili siyasi sabitliyi pozması ciddi narahatlıq doğururdu.

Bu, o demək idi ki, Azərbaycan ictimaiyyəti son dərəcə çətin və gərgin siyasi durum qarşısında tək qalmış oldu. Belə ağır vəziyyətdə kütlələrin yeganə ümid yeri olan ziyalılar və onların əhali arasında apardığı müxtəlif formalı izahedici və təbliğat xarakterli çıxışları idi.

Tezliklə ziyalılarımızın çoxsaylı xəbərdarlıqlarının əbəs olmadığı aydın oldu. 1988-ci ilin fevralın 20-də vilayət sovetinin sessiyasında erməni deputatların əksəriyyəti vilayətin Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilməsi leyhinə səs verdi. *"Müvafiq müraciətlər Bakı, Yerevan və Moskvadakı Ali Sovetlərə göndərildi"* [9, s.27].

Vilayət Sovetinin sessiyasının rəsmi qərarı separatçılığın Xankəndi şəhərində faktiki olaraq əvvəlcədən təşkil olunmuş anti - konstitusiyon mitinqlərdən indi yerli idarəçilik strukturlarına keçməsini göstərirdi.

1988-ci ilin fevral günlərindən vilayətin idarəçilik strukturları xətti ilə başlayan özbaşınalıq, qanun pozuntularının günbəgün şiddətlənməsi, təbii olaraq Azərbaycan cəmiyyətinin bütün təbəqələrində respublika hakimiyyət orqanları və ittifaq rəhbərliyinin fəaliyyətsizliyindən narazılıqları mitinq və izdihamlarda baş verənlərə cavab axtarmaq cəhdlərini durmadan artırırdı.

Həmin vaxt respublika rəhbərliyinin tabeliyindəki hüquqi mühafizə təşkilatlarının qüvvələrinin, daxili qoşunların və digər strukturların gücü ilə də vəziyyətin nəzarətindən çıxmasının qarşısını almaq olardı. Çünki 1988-ci ilin fevral - mart aylarında vilayətdə baş verən hadisələrdə yerli erməni vətəndaşlarının heç də hamısı iştirak etmirdi. Onların arasında vəziyyətin əvvəlki axarına qayıdacağını gözləyənlər, bu çıxışların sonda heç bir nəticə verməyəcəyini başa düşənlər, nəhayət hələlik gözləmə mövqeyi tutub tərəddüd edənlər də az deyildi. Bu mövqenin yalnız 34 il keçəndən sonra anlaşılması isə acı həqiqət idi.

Respublika rəhbərliyinin vilayət soveti sessiyasının "birləşmə" qərarının SSRİ və Azərbaycan SSR konstitusiyalarının müvafiq maddələrini əsas götürərək qəbuledilməz elan etməsinin vəziyyətə təsir göstərə biləcək dərəcədə əhəmiyyəti olmadı. *"Azərbaycan Respublikasmın suveren hüquqlarmın tapdalanmasına Moskvanın, Azərbaycan rəhbərliyinin qəti tədbirlərlə cavab vermədiyini görən xalq böyük həyacan içərisində idi"* [4, s.418].

Əbəs deyil ki, istər postsovet məkanında, istərsə də ondan kənarda bir çox analitiklər, politoloqlar SSRİ-nin süqutu səbəblərindən bəhs edərkən, ən əsas səbəb olmasa da, prosesin ilk addımı kimi məhz Dağlıq Qarabağda milli münaqişə zəminində başlanmış qanun pozuntularının, qanlı toqquşmaların qarşısının vaxtında alınmadığını göstərirlər. *"Qarabağ Sovet İttifaqı ərazisində mərkəzi hakimiyyətin gücsüzlüyünü nümayiş etdirmiş ilk "qaynar nöqtə" oldu"* [3].

Azərbaycan SSR-i zəiflətmək, respublika rəhbərliyini əhali arasında gözdən salmaq kimi planlar həddən artıq çox idi və bunlar vahid tədbirlər planının ayrı - ayrı bəndləri idi. Mərkəzin respublika ictimaiyyətinin, xalqın diqqətini Dağlıq Qarabağda baş verən proseslərdən yayındırmaq məqsədi ilə atdığı ilk addımı Ermənistan SSR-də yaşayan azərbaycanlıların tarixi torpaqlarımızdan qovulması ilə başlayan deportasiyasının son mərhələsinin başlanğıcına "xeyir - dua" verilməsi oldu. Nəticədə hadisələrin ilk aylarında *"Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrlə əlaqədar respublikada Ermənistan SSR-dən qovulmuş 33942 ailə, 160875 azərbaycanlı qeydə alınmış və onlar respublikanın 50 şəhər və rayonunda müvəqqəti məskunlaşdırılmışdılar"* [8, v.241].

İttifaq rəhbərliyinin Azərbaycanın diqqətini Qarabağdakı vəziyyətdən uzaqlaşdırmağa yönələn tədbirlər sırasında növbəti addım kimi *"1988-ci ilin fevralında Sumqayıt hadisələrinin baş verməsi"* [2, s.11] ittifaqın xüsusi xidmət orqanları tərəfindən əvvəlcədən düşünülüb gizli şəkildə hazırlanmış hadisələrin senarisində növbəti gediş idi.

Dağlıq Qarabağdakı özbaşınalıqlara münasibətdə ittifaq rəhbərliyinin xalqı qəzəbləndirən bu mövqeyini də qeyd etmək lazımdır ki, M.Qorbaçovun baş verənlərin mahiyyətini yaxşı dərk etdiyi halda, elan edilmiş "aşkarlıq" və "yenidənqurma" kampaniyalarının gedişində guya sovet rejimi dövründə on illərlə mövcud olmuş ictimai, siyasi, milli problemlərə yeni nöqteyi - nəzərdən yanaşılmasının mümkünlüyü barədə danışması cəfəngiyyat idi. Sovet liderinin *"yenidənqurma sıxışdırılmış xalqların milli - azadlıq hərəkatı üçün əlverişli şərait yaratmışdır"* ifadəsi [5, s.38] vilayətdəki cinayətkar separatçıların özbaşınalıqlarına haqq qazandırmağa, respublika rəhbərliyinin hadisələrə münasibətini, mövqeyini neytrallaşdırmağa xidmət edirdi. Bütün bunlar bir daha açıqca göstərirdi ki, Qarabağ problemindən Azərbaycanı əldə saxlamaq üçün istifadə olunur.

Bu deyilənlərlə bərabər, Dağlıq Qarabağdakı hadisələrin xalqın milli düşüncə tərzinə, ictimai hərəkatın gedişində milli - azadlıq mübarizəsi xarakterli yeni xüsusiyyətlərin formalaşmasına göstərdiyi təsir də nəzərə alınmalıdır. Məhz vilayətdə baş verənlər, bunlara ittifaq rəhbərliyi səviyyəsində düzgün qiymət verilməməsi və digər amillər həmin vaxta qədər əsasən sosial xarakter daşıyan xalq hərəkatının indi siyasiləşməsinə, milli - azadlıq hərəkatının yeni mərhələsinin başlanılmasına gətirib çıxardı.

Moskva tərəfindən 1985-ci ildən sonra "aşkarlıq" adı altında bəzi sosial, tarixi problemlərə münasibət bildirilməsi ilə yenicə yaranan ictimai təşkilatların fəaliyyətinin Azərbaycan əleyhinə olan qüvvələrin əli ilə respublika rəhbərliyinin, ayrı - ayrı tanınmış ziyalılarımızın millətçilikdə təqsirləndirilməsini də qeyd etməliyik.

Ola bilsin ki, ittifaq rəhbərliyi Dağlıq Qarabağ problemini yaratmaqla Azərbaycanda oyanmaqda olan xalq hərəkatının qarşısını almaq, yaxud onun istiqamətlərini özü üçün əlverişli səmtə yönəltmək niyyətində idi. Lakin hadisələr mərkəzin gözləntilərinin əksini ortaya qoydu. Mərkəzin Dağlıq Qarabağ problemini yaratmaqla milli - azadlıq hərəkatının perspektivlərinə onun başlanğıcında son qoymaq niyyətinə, buna xidmət edən bütün cəhdlərə qarşı çıxan xalq kütlələri üçün ən əsas vəzifə Azərbaycanın ərazi bütövlüyünün pozulmasının qarşısını almaq idi.

Qeyd etməliyik ki, ittifaq rəhbərliyinin saxta bəyanatlarının əksinə olaraq, həmin günlərdə kütlələrin çıxışlarında heç bir halda millətçilik, digər xalqlara nifrət, digər dinlərdən olanlara qarşı dözümsüzlük və s. milli dəyərlərimizə zidd olan xüsusiyyətlər tapmaq mümkün deyildi.

Xalq hərəkatının liderləri hələlik hərəkatın sonda milli - azadlıq hərəkatına çevriləcəyini planlaşdırılmasalar da, lakin hadisələrin sonrakı axarında bu mərhələyə gedib çatacağı ehtimalı respublikadan kənarda, anti - Azərbaycan dairələrdə daha çox ehtiyat olunan məsələlər idi.

1989-cu ilin iyuluna qədər ictimai hərəkatın gedişində və xalq çıxışlarında respublika rəhbərliyi ilə xalq arasındakı münasibətlərdə bir növ kövrək tarazlıq, müvazinət yaranmışdı. Bir tərəfdən, vilayətdə erməni separatçılarının vilayəti bidəfəlik azərbaycanlılardan təmizləməyə yönəlmiş çıxışları durmadan artır, digər tərəfdən respublika rəhbərliyi mərkəzin planlarına zidd olaraq arzu olunan, "xalqı sakitləşdirməyə", hərəkatın miqyasının, genişlənməsinin qarşısını almağa artıq o qədər ciddi cəhdlər göstərmirdi.

Respublika rəhbərliyi həmin ana qədər guya vilayətdə sabitlik yaratmaq üçün əvvəlki illərdən qalan sosial - iqtisadi problemləri həll etməklə, ilk növbədə hər iki tərəfi razı salacaq qərarlar qəbul etməklə kifayətlənilirdi.

Respublika rəhbərliyi etiraz çıxışlarının genişlənməsi fonunda konkret səmərəli addımlar atmaq əvəzinə Bakıda, bəzi nazirliklər isə rayonlarda xırda kosmetik kadr dəyişiklikləri ilə kifayətlənirdi. Tezliklə kadr dəyişikliyi taktiki gedişlərində növbə respublika rəhbərliyinə də çatdı.

Moskvanın fikrincə, bu vəziyyətdə, Azərbaycan və Ermənistanda rəhbərliyin dəyişilməsi ən azı bir müddət bu respublikalarda siyasi sabitliyə nail olmağa kömək edər, əhalinin diqqətini müzakirə edilən, həlli təcili tələb olunan problemlərdən uzaqlaşdıra bilərdi.

Bəzi müəlliflər həmin günlərdə K.Bağırovun vəzifədən getməsi haqqında Moskvaya ərizə ilə müraciət etməsini bildirsələr də, fikrimizcə, bu həqiqət kimi qəbul oluna bilməz. Moskvanın eyni vaxtda hər iki respublikada birinciləri dəyişməsi, həm də mərkəzin Dağlıq Qarabağ məsələsinin həllində, SSRİ-nin dağılmasına qədər kimin günahkar olmasından asılı olmayaraq, balanslı siyasət yürütməsini göstərən inkaredilməz faktlardan biri idi.

Beləliklə, vəziyyətin sabitləşməsində maraqlı olmayan mərkəz həmişə olduğu kimi yalnız kadr dəyişikliklərinə üstünlük verdi. Azərbaycan hakimiyyəti isə təşəbbüsü ələ almaq, respublikanın hüquqlarını müdafiə etmək və xalqı böhrandan çıxarmaq üçün heç bir iş görə bilmədi. Vəziyyətin nəzarətdən çıxacağından qorxuya düşən Moskva respublika rəhbərliyini dəyişməklə xalqın qəzəbinin qarşısını almaq niyyətində idi. Bu niyyətin icrası özünü çox da gözlətmədi.

Azərbaycan KP MK-nın 21 may 1988-ci ildə keçirilən plenumunda Moskva daha bir məkrli məqsədinə nail ola bildi. Plenumda iştirak edən Sov.İKP MK Siyasi Bürosunun üzvü Y.Liqaçov bildirdi ki, *"bu günlərdə K.Bağırov yoldaş Sov.İKP Siyasi Bürosuna səhhəti ilə əlaqədar tutduğu vəzifədən azad edilməsi xahişi ilə müraciət etmişdir. Xahiş təmin edilmişdir və yoldaş K.Bağırov səhhəti ilə bağlı təqaüdə göndərilmişdir... Siyasi Büro Azərbaycan KP MK-nın I katibi vəzifəsinə namizəd məsələsini müzakirə edərək bu vəzifəyə Ə.Vəzirovun seçilməsini tövsiyə etmişdir"* [7, v.3-4]. Beləliklə, 1988-ci ilin mayın sonunda uzun illər Azərbaycandan kənarda yaşamış Ə.Vəzirov Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində K.Bağırovu əvəz etdi.

Qeyd edildiyi kimi, bununla eyni vaxtda Ermənistan SSR rəhbərliyinin dəyişdirilməsi vilayətin Azərbaycandan ayrılması planını daha da tezləşdirəcək siyasi mülahizələrlə bağlı idi.

Yeni respublika rəhbərinin elə ilk adddımları göstərdi ki, onun fəaliyyətinin əsasında Dağlıq Qarabağ problemini həll etməkdən daha çox, diqqəti ikinci dərəcəli məsələlərə yönəltmək dururdu. Ə.Vəzirov ona tapşırılmış missiyanı hələlik uğurla icra edirdi. Bu, o demək idi ki, əhalinin diqqətini Dağlıq Qarabağ probleminin həlli tələbindən bir qədər uzaqlaşdırmaq baş tutmuşdu.

Beləliklə, apardığımız tədqiqat Dağlıq Qarabağ konfliktinin resbulikada xalq hərəkatına təsiri ilə bağlı bəzi fikirlər söyləməyə imkan verir.

Əvvəla, Dağlıq Qarabağda baş verənlər rəsmilərin tez-tez təkrar etdiyi kimi,illərlə yığılan sosial-iqtisadi problemlərin nəticəsi deyil, ittifaqı dağıtmaqda maraqlı olan, bunun icrası üçün əvvəlki illərdə senarisi ciddi cəhdlə hazırlanmış böyük siyasi oyunun ilk addımı idi.

Lakin bu, məsələnin bir tərəfidir. Bu məsələdə respublika rəhbərliyinin passiv, gözləmə mövqeyi sonradan bir sıra ağır nəticələr törətdi.

Həmin vaxt olduqca vacib olan respublika rəhbərliyi ilə xalq kütlələri arasında vəhdətə, həmrəyliyə nail olunmaması da öz sözünü dedi.

Hadisələrin axarında vəziyyətə real təsir imkanlarına malik respublika hakimiyyət strukturlarının passiv, laqeyd mövqeyi, bundan fərqli olaraq, heç bir inzibati səlahiyyəti olmayan qabaqcıl ziyalıların, elm xadimlərinin təkliflərinin səmərəsiz qalması baş verənlərlə edilməsi mümkün olanlar arasında dərin uçrum yaranması demək idi.

Dağlıq Qarabağ konflikti, onun ətrafında baş verənlər xalq hərəkatının başlamasına, sonradan daha yüksək mərhələyə keçməsinə əhəmiyyətli dərəcədə təsir etmişdi.

ƏDƏBİYYAT

1. Əliyev İlham. İnkişaf - məqsədimizdir: [105 cilddə] / İ.Əliyev. - Bakı: Azərnəşr, - Yüz üçüncü kitab. may 2020 - iyun 2020. - 2020, - 392 s.
2. İsmayılov, A. Sumqayıt - SSRİ-nin süqutunun başlanğıcı prosesi / A. İsmayılov. Bakı: Çaşıogıu, - 2010. - 204 s.
3. Kreçetnikov, Artyom. "Qara bağ": SSRİ dağılmağa nədən başladı: [Elektron resurs] https://www.bbc.com/azeri/azerbaijan/2013/02/130212_karabakh_history
4. Məmmədov, N. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat iqtisadi və mədəni inkişaf (1923-1991) / N.Məmmədov. - Bakı: NPM, - 2008. - 568 s.
5. Nəcəfov, E. Azərbaycan milli azadlıq hərəkatının xüsusiyyətləri // - Bakı: Azərbaycan bu gün və sabah. - 2007. № 5, - s.29-38.
6. К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925 гг. Документы и материалы / Под ред. Д.Гулиева. - Баку: Азернешр, - 1989. - 334 s.
7. Материалы 11-го пленума ЦК КП Азербайджана от 21 мая 1988 г. // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond № 1, siyahı №83, iş № 7, vərəq -1-186.
8. О работе проводимой по обустройству беженцев из Армянской ССР и возмещению причиненного им материального ущерба // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 411, siyahı №56, iş № 27, vərəq - 241-256.
9. .Помпеев, Ю. Кровавый омут Карабаха / Ю.Помпеев. - Баку: Азербайджан, - 1992. - 208 с.

SUMMARY

NAGORNO-KARABAKH CONFLİCT AND THE BEGİNNİNG OF A POPULAR MOVEMENT

Azizova R.Y.

What happened in Nagorno-Karabakh, as officials have repeatedly stated, was not the result of years of accumulation of socio-economic problems, but the first step in a major political game aimed at dismantling the union. The passive and expectant position of the leadership of the republic in this matter had a number of serious consequences.

The lack of unity and cohesion between the leadership of the republic and the masses also had an effect, which was very important at that time. The Nagorno-Karabakh conflict had a significant impact on the beginning of the popular movement and its subsequent transition to a higher level.

Keywords: *Nagorno-Karabakh, conflict, separatism, people, movement*

РЕЗЮМЕ

НАГОРНО-КАРАБАХСКИЙ КОНФЛИКТ И НАЧАЛО НАРОДНОГО ДВИЖЕНИЯ

Азизова Р.Я.

То, что произошло в Нагорном Карабахе, как неоднократно заявляли официальные лица, было не результатом многолетнего накопления социально-экономических проблем, а первым шагом в

крупной политической игре, направленной на демонтаж союза. Пассивно-выжидательная позиция руководства республики в этом вопросе имела ряд серьезных последствий.

Сказывалось и отсутствие единства и сплоченности между руководством республики и массами, что было очень важно в то время. Нагорно-карабахский конфликт оказал значительное влияние на начало народного движения и его последующий переход на более высокую ступень.

Ключевые слова: *Нагорный Карабах, конфликт, сепаратизм, народ, движение*

DAĞLIQ QARABAĞ PROBLEMİNİN TARİXİ KÖKLƏRİ

Hacıyev O.Y.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
osmanhaciyev@mail.ru

Açar sözlər: *Azərbaycan, erməni, köçürülmə, Qarabağ, ərzai, münaqişə*

Bildiyimiz kimi Türkmənçay müqaviləsindən sonra ermənilər kütləvi şəkildə Azərbaycan ərazisinə köçürülməyə başlanıldı. Bu müqavilənin 15-ci maddəsində sırf ermənilərdən bəhs edilmirdi. Amma maddə Azərbaycan adlanan vilayətin bütün əhalisinə şamil edilirdi. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya davranışına, eləcə də dini əqidəsinə görə təhqirə və təqibə məruz qalmamalı idi [2,s. 624]. Əlbəttə ki, Cənubi Azərbaycanın əhalisinin əsas hissəsini şiələr təşkil edirdi. Burada onların dini əqidələrinə görə hər hansı təqibə məruz qalmalarından söz gedə bilməzdi. Müqavilənin bəzi şərtləri üstüörtülü bir şəkildə diplomatiya dilində yazılmışdı. Bu cür kütləvi köçürülmə 1829-cu ildə Osmanlı-Rusiya arasında bağlanmış Ədirnə sülh müqaviləsindən sonra da baş verdi. Bununla da ermənilərin sayı Cənubi Qafqazda yetərincə çoxaldı.

Rusiyada başlanan inqilabın nəticəsi olaraq Romanovlar sülaləsi devrildi. Bununla da xalqımızın müstəmləkə şəraitindən çıxıb müstəqil olması üçün şərait yarandı. Amma Çar Rusiyasının əvvəldən qurulmuş planı o çökdükdən sonra da işə yaradı. Cənubi Qafqazda köçürmələrin hesabına sayı artan ermənilər üçün də dövlət yaratmağa fürsət yarandı. Amma bu dövlət harada qurulacaqdı? F.X.Xoyski xarici işlər naziri M.H.Hacinskiyə bildirirdi ki, ermənilərlə olan mübahisələr sona çatıb. Onlar ultimatumu qəbul edirlər və müharibəyə son qoyurlar. Biz İrəvanı güzəştə getdik [1,s. 77]. Bəli xalqımızın ata – baba yurdunda qurulacaqdı Ermənistan dövləti. Beləliklə, "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razılıq verilir, bu şərtlə ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə (Qarabağ) olan iddialarından imtina edirlər [1,s.79]. Lakin ermənilər yenidən Azərbaycan torpaqlarına böyük iddialar irəli sürür, ərazidə yaşayan türklərə qarşı kütləvi terrorlar həyata keçirir, körpə, uşaq, qadın, qoca demədən qırğınlar törədirdi. Qarabağ məsələsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə də, cümhuriyyət süqut etdikdən sonra da mübahisəli ərazi olaraq qaldı. Ermənilər SSRİ qurulduqdan sonra yenə də ərazi iddiaları ilə çıxış edir, Sovet Rusiyasının da bu sahədə dəstəyini alırdılar. Zəngəzur ərazisi də Sovet Rusiyası tərəfindən ermənilərə bağışlanıldı. Lakin, ermənilərin Dağlıq Qarabağa olan iddiaları heç cür sakitləşmək bilmirdi. Nəhayət 1923- cü ilin iyulunda Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail ola bildilər [4].

Ona aid olmayan torpaqlarda özünə dövlət quran ermənilər, ərazilərini daha da genişləndirməyə çalışır, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR–yə birləşdirilməsini istəyirdilər. Mir Cəfər Bağırovun dövründə bunu bacara bilməyən üzdəniraq qonşularımız Heydər Əliyevin dövründə buna yenidən həvəslənirlər. Lakin, uzaqgörən siyasətçi bunun öhdəsindən gəlir. Bir zərrə də olsa Azərbaycandan torpaq ala bilməyən ermənilər Heydər Əliyevin 1987 – ci ildə tutduğu vəzifədən istefa verməsini böyük sevinclə qarşılamışdılar. Çünki qarşılarındakı xalqını, vətənini, torpağını sevən o insana qarşı erməni kitablarında, mətbuatında hücumlar edilir və əks təbliğat aparılırdı. Akademik Ambarsunyan bir qrup öz həmfikirləri ilə Ermənistanda şəhər-şəhər, rayon –rayon, kənd- kənd, qapı-qapı gəzərək bildirirdi ki, düz 18 il erməni xalqının düşməni Heydər Əliyev Dağlıq Qarabağın ana vətənə Ermənistan SSR-ə birləşdirilməsinə imkan vermirdi. İndi o, partiya və dövlət işindən uzaqlaşdırılıb. Biz bu tarixi məqamı əldən verməməliyik. Bu, Heydər Əliyev hakimiyyətdən getdikdən sonra ermənilərin əl-qolunun necə açılmasını göstərən onlarla faktdan sadəcə biri idi. [3,s. 130]

SSRİ dövründə xalqımıza qarşı nifrət hislərini məharətlə saxlayan ermənilər SSRİ – nin dağılma ərəfəsində bu hisləri açıq biruzə verməyə başladılar. SSRİ dağılar–dağılmaz Azərbaycana qarşı iddialarını ərazilərimizi işğal edərək təmin etməyə başladılar. Azərbaycanın can parçası Dağlıq Qarabağ ərazisi və ətraf rayonlar işğal edildi. Azərbaycan ərazisində yenidən erməni dövləti yaradılmağa cəhd olundu. Azərbaycan

bu münaqişəni daim sülh yolu ilə həll etməyə çalışsa da təəssüflər olsun ki , Ermənistan sülh danışıqlarına qeyri konstruktiv yanaşır, öz işğalçı siyasətindən əl çəkmirdi. Eyni zamanda işğal etdiyi Qarabağ ərazisinə qeyri qanuni köçürmələr həyata keçirib, terroristləri yerləşdirirdi. Bununla da kifayətlənməyib yenidən işğalçı siyasət yeridərək Azərbaycanın torpaqları hesabına öz ərazilərini genişləndirməyə çalışırdı. Lakin bu işğalçı siyasətə dur demək lazım idi. 30 ilə yaxın aparılan danışıqlar heç bir nəticə vermədiyindən ermənilər öz terrorçu əməllərindən əl çəkmədiklərinə görə Azərbaycan ordusu antiterror əməliyyatları apararaq öz torpaqlarımızı azad etdi. Artıq siyasi masalarda Dağlıq Qarabağ deyə müzakirə ediləcək bir məsələ yoxdur. Çünki ordumuz bu məsələni döyüş meydanında kökündən həll edib.

ƏDƏBİYYAT

1. Cəmil Həsənli Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920) Bakı 2009 GARISMA MMC səh 576, s 79
2. Süleyman Əliyarlı Azərbaycan tarixi Bakı, Çıraq ,2009,səh 872 ,səh 624).
3. Zakir Sərdarov Heydər Əliyev və milli mübarizə tariximiz Bakı, ÇİNAR ÇAP nəşriyyatı, 2008, 166 s ,s 130).
4. https:|\\files.preslib.az>projekts).

SUMMARY

HISTORICAL ROOTS OF THE NAGORNO-KARABAKH PROBLEM

Gadzhiev O.Y.

The thesis discusses the migration of armenians to the territory of Azerbaijan during the reign of Tsarist Russia, establishment of their state in the territory of the ancestral land of Azerbaijanis-in the Iravan khanate, and not satisfying with that, but making new claims to Karabakh. The thesis deals with the plans of the Armenians to seize the territory of Nagorno-Karabakh. The thesis also states that the Armenians, who could not capture Nagorno-Karabakh with using policy, occupied our lands by pursuing an aggressive and expansionary policy as soon as the USSR collapsed. However, the liberation of our territories, which have been occupied for 30 years, by the Azerbaijani army and the prevention Armenian separatist units' attempts to re-establish the state are also reflected in the thesis.

Keywords: *Azerbaijan, Armenian, resettlement, Karabakh, supply, conflict*

РЕЗЮМЕ

ИСТОРИЧЕСКИЕ КОРНИ НАГОРНО-КАРАБАХСКОЙ ПРОБЛЕМЫ

Гаджиев О.Ю.

В тезисе рассказывается о переселении армян на территорию Азербайджана в период правления царской России, создании ими государства на территории Иреванского ханства, исконных землях азербайджанцев, и не довольствуясь этим, а предъявляя новые претензии на Карабах. В тезисе рассказывается о планах армян по захвату территории Нагорного Карабаха. В тезисе также утверждается, что армяне, которые своей политикой не смогли захватить Нагорный Карабах, оккупировали наши земли, проводя агрессивную политику, как только распался СССР. Однако в тезисе нашли отражение и освобождение азербайджанской армией наших территорий, которые были оккупированы в течение 30 лет, и предотвращение попыток армянских сепаратистских формирований восстановить государство.

Ключевые слова: *Азербайджан, армянин, переселение, Карабах, снабжение, конфликт*

QARABAG MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNDƏ TÜRKİYƏNİN ROLU

Hacıyeva H.T.
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
Agazade_hokuma@mail.ru

Açar sözlər: *Qarabağ Münaqişəsi, işğal, qaçqın, Türkiyə, Şuşa bəyannaməsi*

Önəmli strateji mövqeyə, geosiyasi əhəmiyyətə malik , təbii sərvətlərlə zəngin Azərbaycan torpağı daima region dövlətlərinin diqqət mərkəzində olmuşdur. Ermənistanın çirkin və qəsbkar siyasətinin nəticəsi olaraq Birinci Qarabağ Müharəsində Azərbaycan ərazisinin 20 faizi işğala məruz qalmışdır. Bu müharibədə iyirmi min Azərbaycanlı vətəndaşı şəhid olmuş, yüz min insan yaralanmış, əlli min nəfər əlil olmuşdur. Bir milyondan çox insan öz doğma yurdlarından didərgin düşərək qaçqın və ya köçkün həyatı yaşamağa məruz qalmışdır. Rəsmi məlumata əsaslanaraq qeyd edə bilərik ki, 323-ü qadın, 54-ü uşaq və 410-u qoca olmaqla, ümumilikdə 4.852 nəfər azərbaycanlı erməni işğalçıları tərəfindən əsir və girov götürülmüşdü [6]. Tərəflər arasında atəşkəsə dair razılıq 1994-cü il 12 may tarixində əldə olunmuşdur. Ermənistanın yürütdüyü işğalçı və təcavüzkar siyasət nəticəsində Azərbaycan Respublikasının ərazisinin bir hissəsi (Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd, Kəlbəcər, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi) işğala məruz qalmış, 30 il ərzində dağıdılmış, milli sərvətləri talanmış, tarixi abidələri məhv edilmişdir. [4].

Ermənistanın işğalçı siyasətinin nəticəsi olaraq meydana gəlmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid yaradaraq Beynəxalq təşkilatların diqqət mərkəzinə çevrilmişdi. BMT Təhlükəsizlik Şurası nəzdində münaqişənin dayandırılmasına dair bir çox müzakirələr keçirilmiş və onların nəticəsi olaraq mühim sənədlər qəbul olunmuşdu. Sənədlərdə Ermənistanın Azərbaycana qarşı ədalətsiz müharibə apardığı, ərazi bütövlüyü və suverenliyinə hədə yaratdığı və işğalçı tərəf olduğu bir daha sübuta yetirildi. Azərbaycan Respublikasının ərazilərindən Ermənistanın silahlı qüvvələrinin çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etmişdir. Qətnamələrdə işğala məruz qalmış Azərbaycan ərazilərindən erməni qüvvələrinin tam və qeyri-şərtsiz çıxarılması tələb olunurdu [1,2].

Münaqişənin həll edilməsi istiqamətində yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti də tamamilə nəticəsiz qalmışdır. Qrupun formalaşdırılması zamanı Azərbaycanın maraqları nəzərə alınmamış və Türkiyə həmsədrlər qrupuna daxil edilməmişdir. Eyni zamanda bir faktın vurğulanması vacibdir ki, həmsədrlər qrupuna daxil olan dövlətlərdən (Rusiya, ABŞ, Fransa) heç biri Ermənistanla sərhəddə, yəni ona coğrafi olaraq birbaşa əlaqəyə malik deyil. Öz növbəssində bu dövlətlərin hər biri siyasi və ya iqtisadi cəhətdən Ermənistana dəstək göstərməkdə davam edirdilər.

27 sentyabr 2020-ci il tarixində Ermənistanın atəşkəsi pozması iki ölkə arasında münasibətlərin gərginləşməsinə və genişmiqyaslı müharibə forması almasına səbəb olmuşdur. Tarixə 44 günlük müharibə adıyla həkk olunmuş İkinci Qarabaş müharibəsi Azərbaycanın şanlı qələbəsi ilə başa çatmışdır.

Türkiyə dövləti isə istər Birinci Qarabağ müharibəsi dövründə, istərsə otuz ilə yaxın bir müddətdə davam edən danışıqlar prosesi ərzində, istərsə də İkinici Qarabağ münaqişəsi zamanı daima Azərbaycana dost və qardaş münasbəti nümayiş etdirərək öz dəstəyini əksik etməmişdir. Azərbaycana qarşı işğalçılıq siyasətinə cavab olaraq Türkiyə 1993-cü ildə Ermənistanla sərhədlərini bağlamışdır. Münasibətlərin normallaşması və sərhədlərin açılması üçün işğal olunmuş ərazilərin erməni qoşunları tərəfindən qeyri-şərtsiz çıxarılması tələbi irəli sürülmüşdür. Münaqişənin ilk dövrlərində Türkiyənin irəli sürdüyü bu mövqe illər keçsə də dəyişməmişdir. 2018-ci ildə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda Türkiyə Prezidenti öz çıxışında bir daha qeyd etmişdir : "Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qururumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir" [5].

90-cı illərdən Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlıq başlamış və Azərbaycan hərbçiləri Türkiyədə təlimlər keçmişlər. Öz növbəsində Türkiyə tərəfindən verilən hərbi təlimlər Azərbaycan hüquq-mühafizə orqanlarının inkişafına da önəmli töhfələr vermişdir. Hərbi sahədə təhsil və təlimlərlə

başlayan əməkdaşlıq, 2010-cu ildə Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə ölçüsünə çatdı. Müqavilədə qonşu və qardaş dövlətlər olan Türkiyə və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, müstəqilliyinə təhdid yarandığı təqdirdə, eyni zamanda sərhədlərin qorunmasında və toxunulmazlığının təmin olunması sahəsində əməkdaşlıq edilçəsi haqqında razılıq əldə olunmuşdur. Türkiyə və ya Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təhdid edildikdə və ya təhlükə altında olduğu qənaətində olduqda, tərəflər həmin təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə məsləhətləşmələr aparacaqlar [7] . Eyni zamanda müqavilənin ikinci maddəsində qeyd edilir ki, üçüncü dövlət və ya bir qrup dövlət Tərəflərdən birinə silahlı basqın və ya hərbi təcavüz edərsə Tərəflər BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünü müdafiə hüququnun həyata keçirilməsi üçün hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədi ilə bir-birinə qarşılıqlı yardım göstərəcəklər. Bu yardımın forması və həcmi təxirəsalınmadan Tərəflər arasında razılaşdırılacaqdır [7].

İki ölkənin hərbi qüvvələri arasında koordinasiyanı təmin etmək məqsədilə təlimlərin təşkil edilməsi sıx əməkdaşlığın bariz nümunəsi hesab edilə bilər. Son illərdə Türkiyə Azərbaycan ordusu birgə "TURAZ Şahini" və "TURAZ Qartalı" təlimlərini həyata keçirib. Bu təlimlərin həyata keçirilməsində əsas məqsəd iki ölkə arasında hərbi-strateji sahədə əməkdaşlığı gücləndirmək, birlik və həmrəylik mesajı verməkdir. 2021-ci ilin fevral ayında Türkiyədə keçirilən "Qış 2021 Təlimi" bunun əyani göstəricisidir. İki ölkənin müdafiə nazirlərinin, komandirlər və yüksək rütbəli hərbi qulluqçuların iştirakı ilə keçirilən təlim hərbi hissələr arasında koordinasiyanın gücləndirilməsi baxımından çox əhəmiyyətlidir [3].

Hər platformada Azərbaycana ən yüksək səviyyədə dəstəyini vurğulayan Türkiyə bu dəstəyi həm müdafiə sənayesi, hərbi əməkdaşlıq sahəsindəki yardımlarla təcəssüm etdirir. Bu kontekstdə Türkiyə II Dağlıq Qarabağ münaqişəsində Türkiyə istehsalı olan Bayraktar TB2-ləri və PUA-larda istifadə edilən ağıllı sursat MAM-L və MAM-C raketlərinin xüsusi əhəmiyyəti olmuşdur. Eyni zamanda Türkiyə tərəfindən Azərbaycana verilən T-122 Sakarya və T-300 Kasırga çoxlüləli reaktiv yaylım atəşi sistemləri (MLRA) Azərbaycan ordusu tərəfindən münaqişənin gedişində istifadə edilib [3].

II Dağlıq Qarabağ münaqişəsi zamanı Türkiyə Azərbaycanla imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı əlaqələr haqqında Yardım Sazişinə uyğun olaraq Azərbaycana dəstəyini davam etdirdi. Bu istiqamətdə Azərbaycanın Türkiyədən aldığı siyasi dəstək ona mübarizə meydanında həm strateji, həm də taktiki üstünlük qazandırmışdır. Türkiyənin Azərbaycana dəstəyinin və qardaş münasibətinin önəmini Prezident İlham Əliyevin nitqlərində və jurnalistlərə verdiyi müsahibələrdə də aydın şəkildə müşahidə edə bilərik. 12 oktyabr 2020-ci il tarixində Türkiyənin Haber Qlobal televiziya kanalına verdiyi müsahibədə İlam Əliyev bildirmişdir : "Əlbəttə ki, ilk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək, mənim qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğandan səslənən dəqiq açıqlamalar, eyni zamanda, digər yüksəksəviyyəli şəxslərin açıqlamaları həm Azərbaycana mənəvi dəstək verdi, eyni zamanda, bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır. Əgər belə olmasaydı, ola bilərdi ki, artıq Ermənistan-Azərbaycan arasında olan bu münaqişə daha da geniş coğrafiyaya sıza bilərdi" [5].

Ermənistan isə keçmişdə olduğu kimi bu münaqişədə də aciz və asılı mövqeyini bir daha nümayiş etdirdi, lakin Rusiyadan gözlədiyi dəstəyi əldə edə bilmədi. Səbəb isə beynəlxalq hüququn Azərbaycanın mövqeyində olması və Ermənistanın aqressor kimi çıxış etməsi idi. Ermənistan ehtiyac duyduğu dəstəyi Fransada axtarıraraq buradakı erməni lobbilərinin və Fransa prezidenti Emanuel Makronun tərəfkeşliyinə ümid bəsləyirdi . Lakin Türkiyənin bölgədəki təsiri, Azərbaycanın haqlı mövqedən çıxış etməsi, Prezident İlham Əliyevin uğurlu siyasəti və xalq hökümət birliyi bütün balansları Azərbaycanın xeyrinə dəyişdi.

2021-ci ilin 15 iyun tarixində Azərbaycanın əzəli və əbədi torpağı olan Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında Şuşa bəyannaməsi imzalanmışdır. 15 iyun tarixinin seçilməsi təsadüfi deyil. Bu tarix Azərbaycanın Qurtuluş günü və Qars Müqaviləsin imzalanmasının 100 illiyinə təsadüf edir. Bu müqavilənin imzalanması ilə iki dövlət arasındakı iqtisadi və hərbi-siyasi əməkdaşlıq rəsmi şəkildə təstiqlənmiş oldu. Müqavilədə diqqəti cəlb edən ən vacib məqamlardan biri iki dövlət arasında hərbi sahədə əməkdaşlığın və müttəfiqliyin rəsmi şəkildə qeyd edilməsidir. İki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birlərini qorumaq haqqında öhdəlik götürürlər. Bəyannamədə deyilir:"Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının

ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır" [8].

Bu müddəanın əhəmiyyəti Azərbaycan üçün olduqca mühimdir və Ermənistandan gələ biləcək revanşist təhdidlərə, region və qeyri-region dövlətlərinə verilən önəmli ismarıcdır. Şuşa Bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, Türkiyə ordusunun ölkəmizin yanında yer alacağın beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılır. Əsrlər boyu erməni məsələsi adı altında öz dövlət maraqlarını reallaşdıran regional və beynəlxalq aktorlar bu reallığı qəbul etməli və ölkəmizin ərazi bütövlüyü və suverenliyinə təhlükənin yaranacağı təqdirdə hərbi-siyasi blokla qarşılaşacaqları gerçəkliyini nəzərə almalıdırlar.

Şuşa bəyannaməsində həmçinin iki qardaş dövlət olan-Azərbaycan və Türkiyənin silahlı qüvvələrinin modernləşdirilməsi və müasir tələblərə uyğun şəkildə yenidən qurulması istiqamətində birgə fəaliyyət göstərilməsi haqqında razılıq əldə olunmuşdur. Eyni zamanda bəyannamə iki dövlətin silahlı qüvvələrinin birgə fəaliyyət qabiliyyətinin artırılmasını, hərbi təhlükəsizlik və müdafiə imkanlarının möhkəmləndirilməsinə yönələn tədbirlərin təşkilini, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığ, səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini də ehtiva edir. Azərbaycan və Türkiyə arasında möhkəm, sarsılmaz və prinsipial münasibətlərin göstəricisi olaraq hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda ölkələrin maraqlarına və milli mənafeyinə toxunan istər regional , istərsə də beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsinə dair razılıq əldə olunmuşdur. Bu səbəbdən, Azərbaycan və Türkiyənin Təhlükəsizlik Şuraları arasında müntəzəm şəkildə birgə iclaslar təşkil ediləcəklər və təhdidlərə qarşı birgə fəaliyyət göstərəcəklər.

Son olaraq qeyd etmək istərdim ki, qədim ortaq tarixi köklərə, ümumi mənəvi dəyərlər sisteminə, mədəniyyətə, dilə malik Azərbaycan və Türkiyə xalqları arasındakı dostluq və qardaşlıq münasibətləri tarixin bir çox sınaqlarından keçərək müasir mərhələyə yüksəlmişdir. Möhkəm və sarsılmaz dayaqlar üzərində qurulmuş bu münasibətlər hər iki dövlətin iqtisadi, hərbi, siyasi və digər sferalarda gələcək inkişafı üçün əhəmiyyətli rola malikdir. Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin ən mühüm nailiyyətlərindən biri də 30 ildir işğal altında olan Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsidir ki, bu həm diplomatik, həm də hərbi uğurdur. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi region üçün sabitlik və əməkdaşlıq planları quran Azərbaycan və Türkiyənin regional siyasətləri üçün yeni imkanlar yaratdı. Regional platformanın reallaşması, Azərbaycan-Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması və regionun bütün dövlətlərinin iştirak etdiyi əməkdaşlıq platformasının yaradılması iki ölkənin regional siyasətinlərinin mühim hissəsini təşkil edir.

ƏDƏBİYYAT

1. Süleymanov E., Süleymanov V., Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri/ CBS Polygraphic, 2012
2. İbayev Vəfaddin Ələm oğlu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində /V.Ə. İbayev; Elmi red.: L.H. Hüseynov.- B.: Elm, 2006.- 696 səh.: 21 sm.
3. https://dergipark.org.tr/en/download/article-file/1997020
4. https://justice.gov.az/categories/22
5. https://president.az/az/articles/view/42723
6. http://supremecourt.gov.az/static/view/168
7. http://www.e-qanun.az/framework/21158
8. https://president.az/az/articles/view/52115

SUMMARY

THE ROLE OF TURKEY IN THE SETTLEMENT OF THE KARABAKH CONFLICT

Hajiyeva H.T.

The article observes Armenian aggressive policy against Azerbaijan and Karabakh conflict that arose as a result of the Armenian occupation. It is widely analyzed the friendly and fraternal position demonstrated by Turkey during the First and Second Karabakh wars, as well as in the post-war period.

***Keywords**: Karabakh conflict, occupation, refugee, Turkey, Shusha declaration*

РЕЗЮМЕ

РОЛЬ ТУРЦИИ В УРЕГУЛИРОВАНИИ КАРАБАХСКОГО КОНФЛИКТА

Гаджиева Х.Т.

В статье рассматривается агрессивная политика Армении против Азербайджана и Карабахский конфликт, возникший в результате армянской оккупации. Широко анализируется дружеская и братская позиция продемонстрированная Турцией в ходе Первой и Второй Карабахской войне, а также в послевоенный период.

***Ключевые слова**: Карабахский конфликт, оккупация, беженец, Турция, Шушинская декларация*

ERMƏNİLƏRİN AZƏRBAYCAN ƏRAZİSİNƏ KÖÇÜRÜLMƏLƏRİ VƏ NƏTİCƏLƏRİ

Hacıyeva M.C.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
osmanhaciyev@mail.ru

***Açar sözlər:** Azərbaycan, erməni, köç, ərazi, Türkmənçay.*

Qarabağ Azərbaycanın qədim tarixi ərazisidir. Bu ərazidə yerləşən Tağlar, Azıx mağaraları bu ərazidə ibtidai icma quruluşundan bəri insanların yaşamasının əyani sübutudur. Qarabağ ərazisi Albaniya dövlətinin ərazisinə daxil olub. Vilayət Albaniyanın Kürdən cənubda yerləşən 4 vilayətindən biri olan Arsak adlandırılırdı. Ermənilər bu gün Qarabağ ərazisinin Artsax adlandırmaqla buranı erməni ərazisi olduğunu sübut etməyə çalışırlar. İlk əvvəl qeyd etmək lazımdır ki, ermənilər bu əraziyə köçmədir. Abbasqulu ağa Bakıxanov hələ 1841 – ci də ildə qələmə aldığı Gülüstani İrəm əsərində bunu çox aydın şəkildə yazırdı. Bu zaman ermənilər ərəb qoşununun zülmündən qaçıb, Qarabağın çətilən gedilən yerlərinə sığınmışdılar [1, s 23].Artsax sözünə gəldikdə isə İran tarixçisi Pərviz Zare Şahmərəsinin "Qarabağnamə qədim zamanlardan müasir dövrə qədər adlanan " monoqrafiyasında elə bəzi İran tarixçiləri ilə də mübahisəyə girərək tutarlı cavab verir. Artsax sözünün ilk variantlarına hələ Urartu mənbələrində rast gəlindiyini yazaraq bu coğrafi adın ermənicə ola biləcəyinə güman etmir. Onun fikrincə Artsaxsözü ya qədim İran dillərində "qərbə tərəf" mənasındadır, ya da türk tayfaları olan sakların adı ilə bağlıdır[5.52 s]. Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycan ərazisin də erməni toponimlərinə rast gəlinməyib. Sadəcə\ zamanla kütləvi şəkildə torpaqlarımıza köçürüldükcə, özlərinə burada dövlət qurduqdan sonra yer türkcə olan yer adlarını dəyişib ermənileşdirməyə başlayıblar. Əslində ərəblərin Azərbaycan ərazisinə yürüş etmələri əhalinin dini mənsubiyyətinə görə 2 hissəyə müsəlman və xristian dinlərinəı bölünmələri, Albaniya dövlətinin ləğv edilməsi, alban xristian kilsəsinin erməni kilsəsinə tabe edilməsi \əslıində xalqımızüçün böyük fəlakətin başlanğıcı demək idi. Ermənilərin Azərbaycan ərazisinə gəlmələrinin növbəti mərhələsi isə Qaraqoyunlu Cahanşahın dövrünə təsadüf edir. Erməni patriarxı Zakariya şahdan Üçmüədzin ərazisində yerləşməyə icazə aldı. Qaraqoyunlu hökmdarı Cahanşah Qriqorian kilsəsi üçün müasir İrəvanın yaxınlığında –Eçmiədzində torpaq sahəsi ayırır[6. 16 s]. Bu köçürmələr daha sonrakı dövrdə də davam edəcəkdi. Həm də kütləvi şəkil də. Beləki, II Rus – Qacar müharibəsi bildiyimiz kimi Rusiya imperiyasının qələbəsi ilə başa çatdı. Nəticə isə Azərbaycan üçün faha faciəli olacaqdı. İki dövlər arasında bağlanan Türkmənçay müqaviləsinə əsasən Azərbaycan torpaqları iki hissəyə parçalandı. Azərbaycan ərazisin də "Erməni vilayəti" yaradıldı. Azərbaycan ərazisinə erməni ailələri köçürülməyə başlanıldı. Qriboyedov yazırdı ki, müqavilə onlara bunun üçün tam hüquq verirdi[3, 66 s].

Ermənilərin Azərbaycan ərazisinə köçürülməsinin növbəti mərhələsi özünü çox gözlətmədi. 1828-1829 –cu illəri əhatə edən Rusiya -Osmanlı müharibəsi Ədirnə müqaviləsi ilə yekunlaşdı. Müqavilənin şərtinə görə ermənilər yenidən ruslar tərəfindən işğal edilmiş Şimali Azərbaycan torpaqlarına köçürüldülər. Ədirnə müqaviləsi Rusiya və Osmanlı imperiyası arasında bağlandığı üçün İstanbul şəhərində yerləşən Başbakanlıq Osmanlı Arxivi (BOA) müxtəlif fondlarında 1828-1829- cu illərdə ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi ilə bağlı sənədlər qorunub saxlanılır[2, 3s].

Tezisimizdə Alban kilsəsinin Erməni kilsəsinə ərəb işğalından sonra tabe edilməsi haqqında bəhs etmişdik. Çar Rusiyasının işğalından sonra isə 1836- cı ildə Alban katalikosluğu ləğv edildi. Beləcə xristian albanlar Qarabağa köçürülmüş ermənilər ilə qaynayıb – qarışmağa məcbur oldu. Çünki onların hər ikisini

birləşdirən xristian dini amilidir. Albanlar zamanla ermənileşməyə başladılar. Q.Ə.Qeybullayevin də dediyi kimi [4 ,22 s].

Beləliklə hər zaman "Böyük Ermənistan " xülyası ilə yaşayan bütün qonşularına ərazi iddiaları olan ermənilərin ən yaxşı və dəqiq cavabını tarix verir. Tarix sussa da , yaddaşından saxlayır. Bir az əziyyət çəkib araşdırma aparıb tarixi danışdırmaq lazımdır.

SSRİ dağılma ərəfəsində yenidən işğalçılıq siyasətinə əlatan ermənilər Azərbaycan ərazisində ikinci erməni dövləti qurmaq niyyətində idi. Bu dəfə isə hədəf daim işğal etməyə çalışdıqları Qarabağ idi. Otuz illik bir dövrdə özlərinə yenidən Azərbaycan torpaqları hesabına qondarma dövlət quran ermənilərin bu arzusu yerlə yeksan oldu. Lakin nə xalqımız , nə də ali baş komandan İlham Əliyevin başçılıq etdiyi Azərbaycan ordusu buna imkan vermədi. Birliyimiz sayəsində dilbər guşəsimiz Qarabağımıza qovuşduq.

ƏDƏBİYYAT

1. Abbasqulu ağa Bakıxanov, Gülüstani –İrəm, Bakı 2000, Minarə, 224 s

2. Azərbaycan Respublikasının Prezidenti Yanında Elmin İnkişaf Fondu, 2014 – cü ildə keçirilmiş 7-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF –Mob-7-2014-8(23) qalibi olmuş layihə üzrə Elmi –Texniki Hesabat 5 s

3.Kərim Şükürov Türkmənçay -1828 Tarixi xronika (ixtisarla)Bakı, 2006, 188 s

4. Qiyasəddin Əsgər oğlu Qeybullayev .Qarabağ Etnik və siyasi tarixə dair Bakı, Elm, 1990. 248 s. Bakı, Elm, 1990. 248 s

5.Namiq Musalı Pərviz Zare Şahmərəsinin "Qarabağnamə" əsəri haqqında Xəzər Xəbər №326 Fevral 2014 77s

6.Ramiz Mehdiyev , Qriqorian kilsəsi Səfıvilər dövlətinə qarşı casusluq aləti kimi XVII əsr və XVIII əsrin I rübü " Azərbaycan Dövlət Tərcümə Mərkəzi" Bakı ,2019, 160 s

SUMMARY

RESETTLEMENT OF ARMENIANS TO THE TERRITORY OF AZERBAIJAN AND ITS CONSEQUENCES

Hajiyeva M.J.

The thesis deals with the migration of armenians to Karabakh, who feared from the oppression of the Arab-Islamic army within the Arab conquest, the settlement of them in Uchkilsa during the reign of Garagoyunlu ruler Jahan Shah, as well as the resettlement of Armenians in Azerbaijan according to the Russian-Gajar Turkmenchay and Russian-Ottoman Edirne agreements. The thesis discusses the intentions of the armenians to establish a second Armenian state in the territory of Karabakh, the charming corner of Azerbaijan, and the destruction of this dream by the Azerbaijani army.

Keywords: *Azerbaijan, Armenian, migration, territory, Turkmenchay.*

РЕЗЮМЕ

ПЕРЕСЕЛЕНИЕ АРМЯН НА ТЕРРИТОРИЮ АЗЕРБАЙДЖАНА И ЕГО ПОСЛЕДСТВИЯ

Гаджиева М.Д.

В тезисе рассказывается о переселении армян опасавшихся притеснений арабской армии в Карабах во время арабского похода, их переселении на территорию Учкилсе в период правления правителя Гарагоюнлу Джахан-шаха, а также о переселении армян на территорию Азербайджана в соответствии с Туркменчайским договором между Россией и Гаджарами и Эдирнским договором между Россией и Османами. В тезисе рассказывается о намерениях армян создать второе армянское государство на территории Карабаха, очаровательного уголка Азербайджана, и разрушении этой мечты к азербайджанской армией.

Ключевые слова: *Азербайджан, Армения, миграция, территория, Туркменчай.*

XIX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ QARABAĞ ALBAN KİLSƏSİNİN TARİXİNDƏN

Həsənov H.N., Niftəliyev R.Y.
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
hacihasanov@mail.ru; ramilniftali@rambler.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, kilsə, katolikos, yeparxiya, Rusiya işğalı, erməni mərki*

Əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrin əvvəllərində də Gəncəsər kilsəsi öz müstəqilliyini qorumaq uğrunda mübarizəni davam etdirirdi. XVIII əsrin ikinci yarısında Gəncəsər kilsəsinin nüfuzu güclənməyə başladı. Gəncəsar patriarxının fəaliyyətinin nəticəsi idi ki, hətta Həştərxan yeparxiyası Üçkilsə yurisdiksiyasından çıxmışdı. Həştərxan yeparxiyasının Gəncəsər katolikosunun tabeliyini qəbul etməsi Üçkilsənin narazılığı ilə qarşılandı. Təşviş keçirən katolikos Simeon (1763-1780-cu illərdə taxtda olmuşdur) yepiskopların iclasını çağırmaqla bu məsələni müzakirə etmiş və arximandrit Davidi Peterburq sarayına göndərməyi qərara almışdı. Məhz, həmin vaxtdan Üçkilsənin Rusiya ilə ilk əlaqələri daha da güclənməyə başlamışdı: II Yekaterina Həstərxan yeparxiyasının Simeonun xahişi ilə Gəncəsər katolikosluğuna deyil, Üçkilsəyə birləşdirdi [4, s. 104].

XVIII əsrin sonlarında Üçkilsə ermənilərinə nisbətən Qarabağ qriqorian albanların Rusiyaya münasibətdə təsirli üstünlüyü hiss olunacaq dərəcədə yuxarı olması, hətta Üçkilsə patriarxlığına alban əsilli arxiyepiskopun keçməsi reallığı da yaratmışdı. G.A. Ezovun "Üçkilsənin rus hökuməti ilə münasibətləri" adlı broşurasına istinad edən V.L. Velişko yazırdı: "XVIII əsrin sonlarında Üçkilsə katolikosunun ümumxalq seçkisi prinsipinin əksinə olaraq, bu kafedraya yalnız Üçkilsə ruhaniləri tərəfindən seçilmiş arxiyepiskop Qukas (Lukas) oturdu. Konstantinopol erməni patriarxı Zaxariya buna etiraz etdi. Qukas ona mehriban məktub yazdı, bu zaman isə Konstantinopol erməni icması türk hökumətindən Zaxariyanın vəzifəsindən götürülməsini xahiş etdi. Cənab Ezovun göylərədək mədh etdiyi Qukasın tələskənliyi onunla izah edilir ki, Üçkilsə taxtına Aqvan (Şuşa şəhəri yaxılığında Qanzasar monastırı) patriarxı İsraelin seçilməsindən yaxa qurtarmaq lazım gəlmişdi. Söhbət müstəqilləşən Aqvan patriarxlığına zərbə vurmaq və teokratik mütləqiyyət yaratmaqdan gedirdi." [3, s.79].

XVIII əsrin 80-ci illərində Rusiyanın şərq siyasətinin tərkib hissəsi olaraq, 1787-ci ildə Cənubi Qafqazda Albaniya dövlətinin yaradılması ilə bağlı xüsusi layihə hazırlanmışdı. G.A. Potyomkinin hazırladığı həmin layihədə İrandakı qarışıqlıqdan istifadə edərək Bakı, Dərbənd, digər torpaqları tutmaqla, Gilanı birləşdirməklə ələ keçirilmiş torpaqları Albaniya adlandırmaq nəzərdə tutulurdu [6, s. 46].

II Yekaterinanın ölümündən sonra imperator taxta çıxan Rusiya imperatoru I Pavelin rus qoşunlarını Cənubi Qafqazdan geri çağırması, habelə onun 1799-cu ildə Qarabağ məliklərinin adına imzaladığı fərman [5, s. 457] onlar üçün gözlənilməz oldu. Fərmanda imperator Qarabağ məlikləri üçün ayrıca dövlətin yaradılması deyil, "Rusiyanın tabeliyindəki Kartli-Kaxetiyanın Qazax torpaqlarına köçməsini" tövsiyə edirdi.

Rusiya Cənubi Qafqazda albanlardan və gürcülərdən yararlanaraq "xristianları müsəlmanların zülmündən xilas etmək" şüarından çıxış etməklə buraya soxulmaq üçün bəhanə əldə etmək istədiyi kimi, İstanbulu öz imperiyasının paytaxtı görmək istəyən Rusiya çarları Osmanlı imperiyasına da soxulmaq üçün burada yaşayan ermənilərdən istifadə etməyə başladılar. Bununla da imperiyanın bu yönümdəki fəaliyyəti bəhrəsini verməyə başlamışdı. Belə ki, Rusiyanın İstanbuldakı elçisi Tomar 1801-ci ildə mərhəmət hissilə Üçkilsəsinin başçısı Qukas Rusiyanın köməyi ilə öz millətini bərpa etməyə çalışdığını qeyd edirdi [3, s.80].

Cənubi Qafqazda baş verən siyasi hadisələr Gəncənin işğal edilməsi, Qarabağ, Şəki və Şamaxı xanları ilə "ilhaq" müqavilələrinin bağlanması nəticəsində Alban kilsəsinin və məliklərin müstəqil siyasi qüvvə rolunu faktiki olaraq heçə endirmişdi. İrəvan xanlığına Rusiya yürüşləri isə Üçkilsəyə diqqəti yenidən artırdı. İlk üç yürüşü uğursuz olması gələcəkdə İrəvan ermənilərindən daha geniş istifadə edilməsini zəruri etməyə başladı. Rusiyanı Cənubi Qafqazın qriqorian alban əhalisini deyil, ermənilər maraqlandırırdı. Belə vəziyyət Qarabağ albanları üzərində ermənilərin təsirinin daha da artmasına şərait yaradırdı. XIX əsrin əvvəllərinədək Üçkilsə katolikosu ilə rəqabət aparan və əksər hallarda isə tamamilə ondan asılı olmayan, ayrıca mövcud olan Aqvan patriarxlığı xarici katolikosun nəfinə əvvəlcə sıxışdırıldı, sonra isə faktiki olaraq xəlvəti, üstüörtülü şəkildə ləğv edildi, eskomasiya (məharətlə mənimsəmək və ya xəlvəti dəyişmək) olundu [3, s.79].

Xristian alban liderləri yeni yaranmış bu situasiyanı kifayət qədər qiymətləndirə bilmədilər və əvvəlki kimi hərəkət etməkdə davam edirdilər. Cənubi Qafqazda Gürcüstan dövlətini yaratmağa çalışan P.D. Sisianov tərəfindən Yelizavetpol xristian icmasına rəhbərliyinin Tiflis apxiyepiskopuğuna verilməsi [29, s. 672] patriarx İsrailin narazılığına səbəb olmuşdu. Həm də erməni katolikoslarının xeyrinə sıxışdırılan Alban patriarxı İsrail 1806-cı il 19 avqust tarixli məktubunda Qudoviçə yazırdı: "Ağvan vilayəti (Qarabağ, Yelizavetpol, Şəki və Şirvan) onun

eparxiyasına daxildir və həmişə tamamilə onun xüsusi səlahiyyətində olmuşdur. Amar ("Amaras" nəzərdə tutulurdu – müəl.) patriarxlığından asılı olan keçmiş Ararat patriarxlığının ona heç bir aidiyyəti yoxdur. Qaydalara görə Yelizavetpol (xristian) icmasının xahişi ilə indi də onların yanındayam və 40 ildən çoxdur ki, onların monasrları və eparxiyalarına layiqincə patriarxlıq etmişəm. Lakin indi rəhbərliyin əmrinə əsasən guya onlar (Yelizavetpol xristian icması nəzərdə tutulur) Sisianov tərəfindən Tiflis apxiyepiskopu İoanın idarəçiliyinə verilmişdir. Ona görə də xahiş edirəm ki, həmin əraziyə rəhbərliyi mənə qaytarasınız" [16, s. 79-80].

Qarabağ patriarxı İsrail onun xahişi yerə salındığı üçün [23, dok. 323] ruslara qarşı sərt mövqeyə keçərək, Yelizavetpol albanlarını vergi yığanlara qarşı çıxmağa çağırmışdı. Belə ki, onun çağırışına əsasən 500 yüzə yaxın yerli alban vergi yığmağa göndərilmiş yepiskop Minası daşa tutmuşdu. Buna görə də İsrail Yelizavetpoldan qovulmuş və ona geri qayıtmağa icazə verilməmişdi [19, c. 80-81].

Patriarx İsrailin ölümündən sonra Gəncəsərin Üçkilsəyə birləşdirmək xahişi ilə Üçkilsə apxiyepiskopu İoannes Qudoviçə müraciət etmişdi. Onun təqdim etdiyi məktubunda yazılırdı: " ... Ağvan patriarxı İsrailin ölümündən sonra, bizim dünyasını dəyişmiş Danilin arzusu nəzərə alınaraq, diyarda yaşayan bütün ermənilər mənim tabeliyimdə birləşdirməyi imperatordan rica etməyinizi xahiş edirəm" [7, c. 81].

İsrailin ölümünün xəbərini alan Sərkis qardaşı vardapet Bağdasarı Gəncəsərə yola salmışdır. Bağdasar qısa müddətdə Gəncəsər monastırını qaydaya salmışdı. İbrahimxəlil xanın hədələrindən ehtiyat edərək ruslar tərəfindən işğal olunmuş ərazidəki Ağpad monastırında yeparxiya yepiskonu olan Sərkis Həsəncalalyan burada alçaldılmışdı. O, bununla bağlı Qudoviçə yazdığı məktubunda məlumat verirdi **[**24, Док. 343**]. Qudoviçdən mənfi cavab alan arxiyepiskop Sərkis ruslara qarşı itaətsizlik göstərməyə başlamışdı** [**25, Док. 375**]**. Həm də Yelizavetpol "ermənilər" alçaldılırdı. Belə ki, Yelizavetpolun "erməni əhalisi"nin kovxa Bədəl Apriyumovun vəzifəsinin əlindən alınması haqqındakı şikayətinə [**26, Док. 392**] cavab olaraq Qudoviç onu çalışqan xidmətinə görə gümüş qılıncla təltif etmişdi [**27, Док. № 393**].**

Ağpad monastırında 12 il qalan katolikos Sərkis Həsəncalalyan 1812-ci ildə Gəncəsərə qayıdaraq Alban katolikos taxtını ələ keçirə bildi. Qarabağa qayıdandan sonra Sərkis dərhal özünü Alban katolikosu adlandlrdı və katolikosluq huquqlarından istifadə etməyə başladı. Katolikos Sərkis Gəncəsərə qayıdandan sonra onunla Üçkilsə arasında yeni bir mübahisə başladı. Bunun səbəblərindən biri o idi ki, katolikos Sərkis Gürcüstanda ikən Üçkilsəyə gedərək, kömək istədiyi bildirəndə katolikos möhüründən əl çəkəcəyi təqdirdə ona köməyin göstəriləcəyi barədə cavab almışdı. Məcburi şəkildə buna gedən Sərkis Üçkilsənin şərti ilə razılaşmalı olmuşdu. Bundan sonra o, Ağpad monastırına apxiyepiskop təyin edilmişdi [21]. Sərkis həmçinin P.D. Sisianova da müraciət edərək onun Ağpad monastırının arxiyepiskopu kimi təsdiq etməyini xahiş etmişdi **[**22, Док. 204**].** Üçkilsənin şərtləri ilə razılaşmasına baxmayaraq arxiyepiskop Sərkisin Tiflisdəli Üçkilsə nümayəndəsi ilə ziddiyətləri tamamilə aradan qaldırılmamışdı.

Alban katolikosluğunun müstəqilliyini hər şeydən yüksək tutan Sərkis Üçkilsəyə verdiyi vədi pozmalı oldu. "Üçkilsədən asılı olmadan yaşamağa öyrəşmiş bu xalqın özünün əsrlər boyu xüsusi dini idarəsi olan Alban katolikosluğu olmuşdur" fikrinin müəllifi olan Raffi Sərkisin bu katolikosluğun nümayəndələrindən biri olduğunu yazırdı [21, c.20].

Sərkis Qarabağa qayıdan kimi bir çox xanlara məktublar yazaraq, hətta onların yanına gedərək, onların razılığı ilə özünə Qarabağ patriarxı rütbəsini almışdı. Mehdiqulu xan hətta Üçkilsənin Qaradağda təsirini zəiflətmək üçün özünün hicri təqvimi üzrə 1227-ci ilin şəvval ayında (1812-ci il noyabr-oktyabr) imzaladığı xüsusi fərmanı ilə onun Gəncəsər katolikosu hüququnu təsdiq etmişdi [9, s. 74-90].

Gülüstan müqaviləsinin bağlanması erməni katolikoslarının fəallığını daha da gücləndirmiş oldu. Mehdiqulu xan tərəfindən Sərkisin Gəncəsər patriarxı kimi tanınılması Yefremi hiddətləndirmişdi. O, hətta Rtişşevi katolikos Sərkisə qarşı tədbirlərin görülməsinə təhrik edə bilmişdi. Üçkilsə patriarxı Yefremdən şikayət alan Rtişşev özünün Orbelianiyə ünvanladığı məktubunda bu hadisəyə münasibətini bildirərək yazırdı: "Əlahəzrət imperatorun qanununa [**Burada 1809-cu il 30 oktyabr qanunu nəzərdə tutulur (bax: 13, s. 1178-1179**)] məhəl qoyulmadan patriarx adını almaq həvəsinə düşən arxiyepiskop Sarkis özbaşına Qarabağda ona həvalə edilən yeparxiyada arxiyepiskop adına layiq olmayan hiyləyə əl ataraq, cidd-cəhd və xahiş dolu məktublarla həm də bir sıra xanları öz tərəfinə çəkməklə özünə Qarabağ patriarxı rütbəsini təsdiqləmişdir. Beləki, əlahəzrət imperator Rusiya imperiyası hüdudlarında yaşayan bütün erməni xalqının vahid patriarxı kimi Üçkilsə monastırında taxtı olan müqəddəs Yefremi layiq görmüş və təsdiq etmişdir. Bunun haqqında çarın fərmanı ... sizə də təqdim edilmişdir. Sizə tezliklə, apxiyepiskop Sərkisi yanına çağıraraq, ona həmin fərmanın gücünü təlqin etməyi və özünü özbaşına Qarabağ patriarxı adlandırmağı ağlına gətirməyi belə qadağan etməyi, bundan sonra ona həvalə edilən dindarlar evini sakit və vicdanla idarə edəcəyi və əks təqdirdə Rusiya qanunları ilə ciddi cəzalandırılacağını bildirməyi tapşırıram." [18, Док.518. – **s.** 437].

Üçkilsə patriarxı Yefrem özünün "Qarabağ erməni ruhanilərinə və xalqına müraciəti"ndə yazırdı:" ... arxiyepiskop Sərkis göstəriş olmadan özbaşına yerli diyara getmiş, Ümumrusiya İmperatorunun Şahanə hökmünün və mənim yüksək patriarx hakimiyyətimin əksinə olaraq, patriarx kimi qırmızı möhürdən istifadə etmişdir. Lakin nə zaman ki, alihəzrət, qalib baş komandan general Nikolay Fyodoroviç Rtişşev Tiflisə gəldi, Əlahəzrətin Şahanə

hökmünə uyğun olaraq, ona bilmərrə patriarx adlanmağı qadağan etdi və qərara aldı ki, o, Gəncəsər monastırının yeparxial arxiyepiskopu adlanmalıdır, knyaz Dmitri Orbeliani tərəfindən ondan bu barədə iltizam alındı. Lakin o, Əlahəzrətin belə şahanə hökmünə qarşı və müqəddəs Eçmiədzin taxtına və bizim patriarx hakimiyyətimizə qarşı çıxmağa, yeparxiya üzrə özbaşına gəzib və müqəddəs Miro paylamağa və kilsə ... gəlirlərini toplamağa cəsarət etmişdir. Bu səbəblər üzündən arxiyepiskop Sərkis öz iradəsi ilə lənətlənmə altına düşüb ki, bu işdə sizin də iştirakınızı arzu etmir, bununla elan edirəm ki, o, bundan sonra öz dərəcəsindən uzaqlaşdırılır." [15, s. 443].

Beləliklə, Üçkilsə patriarxı Yefrem və arxiyepiskop Nersesin birgə fəaliyyəti nəticəsində 1815-ci ilin dekabrın 18-də Gəncəsər katolikosluğu rəsmi şəkildə ləğv edildi. Sərkis isə Gəncəsər arxiyepiskopu və ya mitropoliti təyin edildi.

1822-ci ildə Qarabağ xanlığının, bununla eyni zamanda məlikliklərin ləğv edilməsi ilə bu məsələnin tamamilə aradan qaldırılması ilə nəticələndi. Alban katolikoslarının hüquqları onların Qafqaza gətirdikləri Rusiya hakim dairələrinin əli ilə erməni katolikosu və arxiyepiskop tərəfindən ləğv edildi. Bununla da Üçkilsə patriarxlığının xristian albanlarının ermənilşdirilməsi prosesini daha da gücləndirmiş oldu.

1823-cü ildə Şuşa şəhərində Bazel Yevangeliya cəmiyyəti fəaliyyətinə başladı. Cəmiyyət hökumətin icazəsi ilə Şuşada özünün məktəbini açdı. Cəmiyyətin fəaliyyətinin məqsədlərinə müsəlmanların protestantlığı qəbul etmələri də daxil idi. Lakin yerli "ermənilər" protestantlığı qəbul etməklə böyük həvəslə Bazel məktəbinə gəlməyə üstünlük verirdilər. Bu baxımdan qriqoryanlıq etiqadına görə onun erməni hesab edildiyi üçün lüteranlığı qəbul etmək icazəsini istəyən alban-xristianın dinini dəyişməyə israr etməsi ilə bağlı rus Sinodunun sənədi maraq doğurur [11]. Qarabağ yeparxiyasının arxiyepiskopu Bağdasar Şuşa "ermənilərinin" mütəmadi olaraq lüteranlığı qəbul etdiyi haqqında məlumat verirdi [20, c. 291-293]. Bazel cəmiyyətinin fəaliyyətinin gələcəkdə gözlənilməz nəticələr verəcəyindən ehtiyat edən hökumət 1835-ci ildə Şuşadakı Bazel missionerləri cəmiyyətinə "erməni" uşaqlarının onların məktəblərinə qəbuluna qadağa qoydu [14, s. 767-769].

Gəncəsər arxiyepiskopu Sərkis nəhayət, 1823-cü ildə Rusiyaya sədaqətli olacağı haqqında A.P. Yermolova məktub yazmalı oldu [28, Док. № 89]. İkinci Rusiya-Qacar müharibəsi başa çatan kimi arxiyepiskop Sərkis satqınlıqda ittiham olunaraq Tiflis həbsxanasına salındı. Onu Abbas Mirzə tərəfindən əsir götürülən "ermənilərin" bir hissəsinin azad etdiyinə görə səkkiz aydan sonra həbsdən azad etdilər [17, s. 251-252]. Lakin həbsdə olan zaman ona verilən işgəncələr onun sağlamlığını əlindən almışdı. Tiflisdən qayıdandan bir müddət sonra o, dünyasını dəyişmişdir.

Arxiyepiskop Sərkisin ölümündən iki il sonra 1830-cu ildə Qarabağ məliklərinin xahişi nəzərə alınaraq Üçkilsə tərəfindən yepiskop Sərkisin qardaşı oğlu yepiskop Bağdasar onun yerinə təyin edilmişdi [21, c. 110].

1836-cı il martın 11-də çar tərəfindən 10 fəsil və 141 maddədən ibarət "Rusiyada erməni-qriqoryan kilsəsinin işinin idarə olunması haqqında əsasnamə" təsdiq edildi [12,. 194-209]. Qanunun 1830-cu ilin martında tərtib edilmiş layihəsi dəfələrlə müzakirə olunduqdan sonra nəhayət Üçkilsə patriarxının bəzi qeydləri nəzərə alınmaqla çar tərəfindən təsdiq edilmişdi.

Alban kilsəsinin ləğvi və onun əsasında həyata keçirilən dəyişiklik bu Əsasnamənin IV fəslində əksini tapmışdır. "Erməni-qriqorian kilsəsinin yeparxiya rəisləri haqqında" adlandırılan bu fəsildə erməni-qriqorian kilsəsi həmin etiqadın arxiyepiskopları tərəfindən idarə olunan yeparxiyalara bölündüyü göstərilir (55). Rusiya hüdudlarında erməni-qriqorian kilsəsinin altı yeparxiyasının yerləşdiyi bildirilirdi. Bunlardan dördü – İrəvan, Qarabağ, Şirvan və Gürcüstan yeparxiyaları Cənubi Qafqazın payına düşürdü.

Əsasnaməyə görə, Qarabağ yeparxiyası Qarabağın özündəki, habelə Şəki və Lənkəran əyalətlərindəki "erməni-qriqorian" kilsələrini əhatə edirdi. Tatev mitropoliyası isə Qarabağ yeparxiyasından ayıraraq Üçmüəzzin patriarxının özünün rəisi olduğu İrəvan yeparxiyasına verilmişdi. Beləkillə, elan olunan Azərbaycan ərazisindəki bütün Alban kilsələri erməni-qriqorian kilsəsinin yeparxiyalarına daxil edildi. Tarixi Gəncəsər Alban kilsəsi tam inkar edildi ki, bu da faktiki olaraq Alban kilsəsinin hüquqi baxımdan ləğv edilməsinə bərabər idi.

Üçkilsədə toqqaşdırılan erməni kilsə tarixi ədəbiyyatından fərqli olaraq, keçmiş İstanbul patriarxı Malaxiya Ormanian fransız dilindən rus dilinə tərcümə edilmiş kitabında Alban kilsəsi haqqında yazırdı ki, "Xəzər Albaniyasının taxtı" XIX əsrin əvvəllərində ləğv olunmuşdur, yəni o, Alban kilsəsinin ləğvini etiraf edir [2].

1836-cı ildə Şuşada Qarabağ yeparxiyası təsis edildi. Bağdasar Üçkilsəyə çağırılaraq sədaqət andı içdirdikdən sonra Qarabağ yeparxiyası konsisteriya mitropoliti təyin edildi. Bir müddət sonra Qarabağ yeparxiyası rəisi təyin olunan Bağdasar 1852-cü ilədək həmin işi icra etmişdir [8, s. 544].

Qarabağ yerarxiyası ruhani idarəsi Şuşa şəhərində yerləşdirildiyinə görə Qarabağ katolikosluq dini-mədəni mərkəzləri fəaliyyətlərini dayandırmış oldu. Belə vəziyyət Gəncəsər monastırının baxımsızlığına gətirib çıxardı. XIX əsrin sonlarında artıq Qarabağın digər monastırlarında olduğu kimi, Gəncəsər monastırında da monastır arxivi və kitabxanası müəmmalı şəkildə yoxa çıxmışdı. " ... Bu ecazkar monastır mənəvi və maddi cəhətdən məhv edilmişdir, daşlar tədricən tökülmüş və dağılmışdır, dam örtüyü zədələnmişdir, hasar ayrı-ayrı yerlərdə çökmüşdür və layiqli qapıları qalmamışdır, çoxlu sayda qiymətli əlyazmalar talan edilmişdir, gördüyümüz kimi qalan əlyazmalar nəm və

laqeydliyin qurbanı olmuşdur, savadlı insanların, məktəblərin, rahibələrin və hətta sadə oxucuların yoxluğu ucbatından monastırda aylardır ki, heç bir xidmət göstərilmir" [10, s. 600].

XIX əsrin ikinci yarısında Qarabağda tikilən kilsələrin erməni Qriqorian kilsələri kimi qotik üslubda deyil, qədim alban kilsələri memarlığı üslubunda tikilməsi [1, s. 245] yerli qriqorian albanların itaətsizliyinin nəticəsi kimi qiymətləndirmək olar.

ƏDƏBİYYAT

1. Qarabağnamələr. III kitab. – Bakı: Şərq-Qərb, – 2006. – 248 s.
2. Şükürov K. Azərbaycanda Alban kilsəsinin ləğvindən 180 il ötür // https://apa.az/az/xeber/sosial-xeberler/xeber_azerbaycanda_alban_kilsesinin_legvinden -417927
3. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку, Элм, 1990, 224 с.
4. Верт П. Глава церкви, подданный императора: Армянский католикос на перекрестке внутренней и внешней политики империи, 1828-1914 // Ab İmperio, №3, 2006. – С. 99-138.
5. Грамота императора Павла владетельным Карабахским меликам // Русский архив, 1903 г., № 9-12, с. 498(457).
6. Дневник А.В. Храповицского 1792-1797. – Санкт-Петербург: Издание А.Ф. Базунова, 1874. – 610 с.
7. Записка Армянского архиепископа Иоанесса, поданная гр. Гудовичу // Акты, собранные Кавказской Археографической комиссией. Т. 3. Тифлис: 1869. 766 с.
8. Карабахская епархия // Кавказский календарь на 1853 год. – Тифлис: Печатано в типографии канцелярии наместника Кавказского, 1852. – 678 с.
9. Магалян А.В. Армянский княжеский род Асан-Джалалянов в XVII–XIX веках // Кавказский сборник. - Москва: Аспект Пресс, 2017. – С. 74-90.
10. Мамедова Ф. Кавказская Албания и албаны. Баку: 2005. 798 с.
11. Мамедова Ф. Об исторической географии Кавказской Албании, Армении и албанском этносе // https://udi.az/articles/0052.html
12. Марта 11. Высочайше утвержденное положение о управлении делами Армяно-Грегорианской Церкви в Росии // Полное собрание законов Российской Империи. Собрание Второе. Том XI. Отделение 1. 1836 г. – Санкт-Петербург: в типографии II отделения собственной е.и.в. канцелярии, 1837. № 8970. – С. 194-209
13. О имении сему патриарху в своем ведомстве по духовным и церковным делам армян, в Российской империи находящихся, и об избрании для управлении оными архиепископа // Полное собрание законов Российской империи с 1649 года. Т. XXX. 1808-1809. – Санкт-Петербург: печатано в типографии II отделения собственной его императорского величества канцелярии, 1830. Ст. 23873, с. 1178-1179.
14. О мерах к устройству шотландский колоний у Кавказских гор // Полное собрание законов Российской империи. Собрание второе, т. X. Отделение первое. 1835. – Санкт-Петербург: в типографии II отделения собственной е.и.в. канцелярии, 1836. № 8 271. – с. 767-769
15. Обвещение патриарха Ефрема всему Карабагскому армянскому духовенству и народу, от 18-го декабря 1815 года. - Эчмиадзин // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. V. – Тифлис: Типография главного управления наместника кавказского. – 1873. – 1170 с. Док.552. – С. 443
16. Письмо Агванского патриарха Израиля к гр. Гудовичу, от 19-го августа 1805 года // Акты собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 149. с. 79-80. Т. 3. Тифлис: 1869. 766 с.
17. Письмо архиеп. Нерсеса к ген. Паскевичу, от 14-го июня 1827 года, №89 // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. VII. – Тифлис: Типография Главного Управления Наместника Кавказского. – 1878. – 1011 с. Док. 204. – С. 251-252
18. Предложение ген. Ртищева ген.-л. кн. Орбелиани, от 19-го ноября 1813 года, № 680 // Акты, собранные Кавказской археографической комиссией. В 12-ти томах. Т. V. – Тифлис: Типография главного управления наместника кавказского. – 1873. – 1170 с. Док.518. – С. 437
19. Предписание гр. Гудовича ген.-м. Небольсему, от 11-го ноября 1807 года, №603 // Акты, собранные Кавказской Археографической комиссией. Т. 3. Док. 151. с. 80-81
20. Рапорт ген.-адъют. Стрекалова, от 4-го сентября 1830 года, №490 // Акты, собранные Кавказской Археографической комиссией. Т. 7. Док. 237. с. 291-293
21. Раффи. Меликства Хамсы. Издательство: ЮниПресс СК. 2009.
22. 1805 г. январь, — Прошение Ахпатского архиепископа Саркиса П. Д. Цицианову об утверждении его в правах // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 204

23.1806 г. ноября 16. — Письмо И. В. Гудовича архиепископу Исраелу о невозможности восстановить его епархиальным начальником в Елисаветполе // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 323

24.1807 г. марта 11. — Отношение И. В. Гудовича ахпатскому архиепископу Саркису о беспрекословном подчинении его архиепископу Грузии — Иоаннесу // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 343

25.1807 г. ноября 9. — Отношение И. В. Гудовича архиепископу Саркису о даче отчета об употреблении церковных сборов // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 375

26.1808 г. февраля 10. — Жалоба елисаветпольских жителей армян И. В. Гудовичу на кевха Бадала с просьбой упразднить его должность // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. 392

27.1808 г. февраля 11. — Отношение И. В. Гудовича елисаветпольскому жителю Бадал кевхе Апрюмову о награждении его серебряной саблей за услуги, оказанные русским // Присоединение восточной Армении к России. Сборник документов. Т. I. (1801-1813). Док. № 393

28.1823 г. мая 8 — Письмо митрополита Саркиса Хасан-Джалаляна А.П. Ермолову о приверженности к России // Присоединение восточной Армении к России. Сборник документов. Т. II. (1814-1830). Ереван: АН Армянской ССР.ССР. 1978. Док. № 89

29.Шопен И. Исторический памятник состояния Армянской области в эпохи его присоединения к Российской империи. Санкт-Петербург: 1852, с. 672

SUMMARY

ON THE HISTORY OF THE GARABAKH ALBANIAN CHURCH AT THE BEGINNING OF THE 19TH CENTURY

Hasanov H.N., Niftaliyev R.Y.

In this report, based on information from various reliable sources, as well as materials from historical literature, various interesting moments in the history of the Albanian church structures that existed in the Garabagh region of Northern Azerbaijan have been considered.

The presented interesting and versatile materials convincingly prove that during the period under review, especially before the beginning of the Russian occupation in this region and during periods of foreign domination, the Albanian Church retained its autocephaly. And only the reactionary occupation policy of the Russian authorities and the multilateral insidiousness of the Armenian Gregorian Church led to the fact that in the mid-30s of the 19th century, the independence of the Albanian church authorities was destroyed.

Keywords: *Azerbaijan, Garabagh, church, catholicos, diocese, Russian occupation, Armenian insidiousness*

РЕЗЮМЕ

ИЗ ИСТОРИИ КАРАБАХСКОЙ АЛБАНСКОЙ ЦЕРКВИ В НАЧАЛЕ XIX СТОЛЕТИЯ

Гасанов Г.Н., Нифталиев Р.Ю.

В данном докладе на основе сведений различных достоверных источников, а также материалов исторической литературы, рассмотрены различные интересные моменты истории албанских церковных структур, существовавших в Гарабахском регионе Северного Азербайджана.

Приведенные интересные и многосторонние материалы убедительно доказывают, что в рассматриваемый период, особенно до начала российской оккупации в этом регионе и в периоды иноземного господства албанская церковь сохраняла свою автокефальность. И только реакционная оккупационная политика российских властей и многосторонняя коварность армянской григорианской церкви, привели к тому, что в середине 30-х годов XIX века, самостоятельность албанских церковных властей была уничтожена**.**

Ключевые слова: *Азербайджан, Гарабаг, церковь, католикос, епархия, российская оккупация, армянская коварность*

ERMƏNİLƏRİN 30 İLLİK QARABAĞ TƏCAVÜZÜ
(XX ƏSRİN 80-Cİ İLLƏRİNİN SONU XXI ƏSRİN ƏVVƏLLƏRİ)

Həsənov M.H.
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
meherremaltay@gmail.com

Açar sözlər: *işğal, terror, ekstrimist, soyqırım, genosid, faciə, qətnamə*

Ölkəmizin işğal altında olan ərazilərində erməni tərəfinin qeyri-qanuni fəaliyyətinin təməli 1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin yetərsayın olmadığı və Azərbaycanlı deputatların iştirak etmədiyi iclasda DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərarı ilə qoyuldu.” 1989-ci il dekabrın 1-də Ermənistan SSR-in Ali SovetiAzərbaycanın suverenliyini kobud surətdə pozaraqDQMV-nin Ermənistan SSR-əbirləş.dirilməsi haqqında Konistitusiaya zidd qərar qəbul etdi” [2, s.21]. 1988-ci ilin yanvar ayından etibarən azərbaycanlıların indiki Ermənistan Respublikasının ərazisindən, öz tarixi torpaqlarından kütləvi deportasiyasına başlayayaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ daxil olmaqla 20 faiz ərazisini işğal edib orada “etnik təmizləmə”**,** “yandırılmış ərazilər” prinsipini həyata keçirən erməni tərəfi həmvətənlərimizə qarşı kütləvi qətllər və soyqırım törətmiş, 1milyondan artıq vətəndaşımızı öz yurd-yuvasından didərgin salmışdır.

Ermənistan Respublikası və separatçıların işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyəti əsasən aşağıdakı istiqamətlərdə təzahür etmişdir: Dağlıq Qarabağdakı separatçı-terrorçu qurum atəşkəş rejimindən istifadə edərək beynəlxalq aləmdə müstəqil dövlət kimi tanınmaq məqsədi ilə son illər ərzində zəruri “dövlət institutları” (“parlament”, ”nazirliklər”, ”ordu”, ”komitə” və “idarələr”) təsis etmiş, bir neçə ölkədə öz “nümayəndəlik”lərini açmışdır. 2001-ci ilin mart ayından bu ərazilərdə yaşayan vətəndaşlara onların qondarma qurumun və Ermənistan Respublikasının vətəndaşı olduqlarını təsdiq edən yeni “pasportlar”ın verilməsinə başlamışdır. 1992 ciil fevral ayının 25dən26 na kecın gecə erməni separatcılarıRusiyaya məxsus366 cı motaatıcı divizyanın köməyilə Xocalı şəhərinə hücüm etdilər Günahsız azərbaycan əhalisinə divan tutuldu”. Bu hadisəAzərbaycanda və qardaş Turkiyədə ”Xocalı soyqrımı” Xocalı faciəsi kimi anılır [3, s.155]. ”Xocalı soyqrımının izlériniitirmək ücün ruslara məxsus olan 366-cı alay Gürcüstanın Viziani şəhərinə köcürülür. 10 mart tarixində isə marşal Şapişnikovun əmri ilə həmin alay ləvğ edilir, tərkibi isə başqa alaylara paylanılır” [1, s.145].

1989-1994-cü illərdə erməni separatçıları və terrorçuları tərəfindən Azərbaycan ərazisində 373 terror aktı törədilmiş, nəticədə 1568 nəfər ölmüş, 1808 nəfər yaralanmışdır. Azərbaycan Respublikası, eləcə də xarici ölkələrin məhkəmələri tərəfindən prosessual qaydada sübuta yetirilmişdir ki, 32 terror aktının Ermənistan Respublikasının xüsusi xidmət orqanlarının bilavasitə iştirakı ilə Azərbaycanın işğal olunmuş ərazilərindən istifadə edilməklə, cəbhə xəttindən yüz kilometrlərlə aralıda yerləşən yaşayış məntəqələrində həyata keçirilmişdir.

Azərbaycanda mülki əhaliyə qarşı terrorçu fəaliyyətin bilavasitə Ermənistan Respublikasının dövlət orqanları və separatçı qurum tərəfindən üçüncü ölkə vətəndaşları, Azərbaycan Respublikasının azsaylı xalqların nümayəndələri, hərbi əsir və girovlardan istifadə ilə təşkili, maliyyələşdirilməsi və reallaşdırılmasına cəhdlər göstərilmişdir.

Azərbaycan Respublikası MTN ilə Rusiya Təhlükəsizlik Xidmətinin əməkdaşlığı nəticəsində Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi polkovnik Can Ohanesyanın, onun müavini mayor Aşot Qaloyanın, Rusiya Federal əks-kəşfiyyat xidmətinin terrorizmlə mübarizə İdarəsinin baş əməliyyat müvəkkili mayor Boris Simonyanın başçılığı ilə Rusiya ərazisində fəaliyyət göstərən erməni separatçılarından ibarət terrorçu qrup məsuliyyətə cəlb olunmuşdur.

Moskvada Valeri Petrosyanın rəhbərlik etdiyi Assosiasiya tərəfindən maliyyələşdirilən həmin qrup Rusiya və Azərbaycan ərazisində dəmiryolu qatarlarında bir neçə partlayış törətmişdir. Bütün bu şəxslər Rusiya Federasiyası və Azərbaycan Respublikası məhkəmələri tərəfindən müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşlar.

Belə ki, 2000-ci ilin əvvəlindən etibarən Azərbaycanın şimal rayonlarında yaşayan avar xalqının adından separatçılıq hərəkatını başlamaq məqsədini güdən bir qrup fəallaşmışdı. 2001-ci ilin iyun ayından Dövlət Yol Polisinin postlarına, rayon polis şöbəsinə və hərbi liseyə bir neçə basqınlar, Şeyx Şamilin abidəsinin partladılması kimi cinayətlərin törədilməsi Zaqatala və Balakən rayonlarında vəziyyəti kəskinləşdirilmişdi. Həmin cinayətlərin istintaqı zamanı göstərilən qrupun rəhbəri Hacı Maqomedovun və sonradan onun həbs edilmiş silahdaşı Şaban Buşdiyevin erməni xüsusi xidmətlərinin nümayəndələri ilə əlaqələri olması faktı aşkarlanmışdır. 1997-ci ildə onların hər ikisi 1 milyon ABŞ dolları və 1000 ədəd

avtomat silahın alınması məsələsinin müzakirəsi məqsədi ilə Yerevan və Xankəndiyə səfər etmişlər. Sonradan onlar bu danışıqları Mahaçqalada davam etdirmiş və nəticədə 1000 ədəd avtomat silahın və 300 min ABŞ dollarının verilməsi barədə razılığa gəlmişlər. Bundan sonra avar separatçılarının "dövlət" yaratmaq ideyası və bu istiqamətdə fəaliyyətlərinə dəstək almaq üçün H.Maqomedov 2001-ci ilin dekabr ayında yenidən Yerevana getmişdir. Bu səfərin əsas məqsədi yaz-yay mövsümündə yerli icra hakimiyyətinin binasının zəbt edilməsi, həbs olunmuş silahdaşlarının azadlığa buraxılması şərti ilə vəzifəli şəxslərin girov götürülməsi və dövlətə qarşı digər cinayət əməlləri üçün müxtəlif növ silah, o cümlədən istilik raketlərinin alınması idi.

İstintaq və məhkəmə prosesində sübuta yetirilmişdir ki, A.Aslanovun terrorçu kimi hazırlanmasının "ideoloji təminatında" Zori Balayanın və Dağlıq Qarabağ erməni separatçılarının lideri olmuş, sabiq Ermənistan Respublikasının prezidenti Robert Koçaryanın iştirakı olmuşdur. 90-ci illərin əvvəllərindən etibarən beynəlxalq terrorçu qrupların liderlərinin reabilitasiyasına çalışan Ermənistan rəhbərliyi xarici diasporanın radikal təşkilatlarının və digər terror təşkilatları fəallarının Ermənistan ərazisində toplanması məqsədi ilə geniş miqyaslı kampaniyaya başlamış, onların fəaliyyətlərinə siyasi- hüquqi şərait yaradaraq sığınacaq vermiş, pul, silah, saxta sənəd və nəqliyyatla təchiz etmişdir. Həmçinin Azərbaycanda ermənilərin sıx yaşadıqları əraziyə yardım adı altında bir sıra xarici dövlətlərdən terrorçular, silah və maliyyə vəsaitləri göndərilir, Türkiyə nümayəndəliklərinə qarşı terror aktları törətmiş ermənilərin azad olunması və dəstəklənməsi Ermənistanda dövlət səviyyəsində təşkil olunurdu. Belə ki, Suriyada doğulmuş, 1983-cü ilin iyun ayında Fransanın Orli aeroportunda partlayış törətdiyinə görə həbs edilmiş Varujan Karapetyanın Ermənistan xüsusi xidmət orqanları tərəfindən Eçmiəzdin kilsəsinin imkanları vasitəsilə azad olunması üçün imza toplama kompaniyası keçirilmişdir.

Fransada terror aktları törətdiyinə görə həbs edilmiş ABŞ vətəndaşı, tanınmış beynəlxalq terrorçu Monte Melkonyan azad olunduqdan sonra 1990-cı ildə Ermənistandan Dağlıq Qarabağa göndərilərək azərbaycanlıları öz torpaqlarından məcburi köçkün vəziyyətinə salmış terrorçu qruplara rəhbərlik etmişdir. 1993-cü ilin yayında Azərbaycan qoşun hissələri tərəfindən məhv edilmiş M.Melkonyanın Yerevanda dəfn mərasimində prezident daxil olmaqla Ermənistnın dövlət rəsmiləri iştirak etmiş, sonra bu beynəlxalq terrorçu Ermənistanın milli qəhrəmanı elan olunmuş, adı Ermənistan Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir.

1992-ci ildə Xankəndinə göndərilmiş Vazgen Sislyan, yaxın şərq terrorçuları Abu Əli, Qilbert Minasanyan və digər terrorçularla birlikdə zorakılıq siyasətini dünya ictimaiyyətinin diqqətini erməni məsələsinə yönəltmək üçün vasitə kimi istifadə edirdilər.

R.Koçaryan hakimiyyətə gəldikdən sonra Ermənistanda terrorçu qrupların rəhbərlərinin reabilitasiyası halları daha da artmışdır. Tanınmış terrorçu, İran vətəndaşı və "Daşnaksutyun" partiyasının üzvü Qrant Markaryan həbsdən azad edilərək, Azərbaycana qarşı terror aktlarının keçirilməsində fəal iştirakına görə 1981-ci ildə Parisdə türk səfirliyinin zəbtinin təşkilatçılarından biri Vazgen Sislyanla birgə R.Koçaryan tərəfindən Qarabağ müharəbəsinin qəhrəmanı adına layiq görülmüşlər.

2003-cü ilin yanvar ayından Dağlıq Qarabağ ərazisini tərk edənlərin qarşısının alınması məqsədilə müəyyən olunmuş qaydalara görə, daimi yaşamaq üçün gedən ailələr təxminən 15, hərbi çağrışçılar üçün 10 min ABŞ dolları məbləğində rüsum ödəməlidirlər. Ermənistanın bütün şəhər və rayonlarında 2002-ci ildən rəsmən fəaliyyət göstərən miqrasiya xidmətləri ölkə əhalisinin işğal olunmuş ərazilərə köçürülməsi istiqamətində iş aparır. 1994-cü ildən etibarən dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin qeyri-qanuni olaraq Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərinə köçürülməsi halları mövcuddur. Qondarma qurumun "parlamenti" nin "DQR"-ə köçürülən rus ailələrinin övladlarının 2005-ci ildən Qarabağ məktəblərində erməni və rus dillərində təhsil almasının nəzərdə tutan qərarı da mövcuddur.

Beynəlxalq "Qırmızı Xaç Komitəsi"nin Cənubi Qafqaz üzrə Miqrasiya Nümayəndəliyinin 2004-cü il oktyabr ayının 25-də keçirdiyi hesablamalara görə, hər ay orta hesabla Dağlıq Qarabağ ərazisinə 15-ə yaxın ailə köçürülür və 2004-cü ildə belə ailələrin sayı 200-ə çatmışdır. Rəsmi Yerevan köçürülmə layihələrində özünün birbaşa iştirakını gizlətməyə çalışsa da, 2000-ci ildən etibarən "Artsaxa qayıdış" adlı irimiqyaslı proqramın həyata keçirilməsi ilə Ermənistan Respublikası hökuməti yanında (Andranik Marqaryanın rəhbərliyi altında) müşavir Benik Baxşiyan, "DQR"- in "Statistika İdarəsinin Maliyyə, Büdcə Məsələləri üzrə Komissiyasının sədri" mayor Danelyan, Ermanistanın Miqrasiya və qaçqınlar idarəsinin müdiri Qaqik Eqanyan və digər vəzifəli şəxslər, həmçinin "Yerkir" ictimai təşkilatı aktiv şəkildə məşğuldurlar. Həmin vaxtdan etibarən qaçqınlar və emiqrasiya idarəsi yuxarıda adı çəkilən proqramın realizə olunmasına bilavasitə qoşulmuşdur. 2003-cü ilin dekabrında Ermənistanın baş naziri A.Marqaryan erməni əhalisinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə köçürülməsi məsələsinin Ermənistan hökuməti üçün prioritet təşkil etdiyini rəsmən bildirmişdir.

İşğal olunmuş ərazilərdə qeyri- qanuni məskunlaşdırma faktları müxtəlif KİV-də də geniş işıqlandırılmışdır. Açıq qaynaqlara istinadən, 2004-cü ilin ilk altı ayı ərzində işğal olunmuş ərazilərə 120 erməni ailəsi köçürülmüşdür. Bu ərazilərdə qeyri- qanuni "köçürülmə əməliyyatı" və tikinti işlərinin əsas sponsorları "Amerikanın Erməni Təhsil Fondu", "Hayastan Fondu" təşkilatları və Tehranın Erməni Yeparxiya Şurasıdır. 2004-cü ildə xarici fondlar tərəfindən "Artsaxa qayıdış" proqramının realizəsi üçün 400 min ABŞ dollarının ayrıldığı və Azərbaycanın işğal olunmuş sərhədyanı ərazilərində 90-a yaxın evin tikintisinin başa çatdırılması məlumdur. İşğal olunmuş ərazilərdən qarət edilmiş milli sərvətlərimizin- qədim tarixi əsərlərin, xalçaların, mineralların Avropa ölkələrində "erməni milli sərvəti" adı altında nümayiş etdirilməsi barədə məlumatlar mövcuddur. Ermənilər Kəlbəcərdə yerləşən mineral yataqların və 3600-ə qədər qaya təsvirinin fotoşəkillərini 2000-ci ildə Finlandiyada öz əraziləri kimi nümayiş etdirmişlər.

Son zamanlar ermənilərin qədim Azərbaycan musiqi alətlərini və adətlərini öz adlarına çıxaraq Avropa, MDB və Şimali Amerika ölkələrində satılması halları çoxalmış, Qarabağ xalçalarının erməni və ya fars xalçaları adı altında müxtəlif sərgilərə və hərraca çıxarılması faktları qeydə alınmışdır. Son illər ərzində Azərbaycanın işğal edilmiş ərazilərində külli miqdarda çıxarılmış tarixi, mədəni və dini abidələr xarici ölkələrə satılmışdır. İşğal olunmuş ərazilərdəki muzeylərdə mövcud olan unikal eksponatlar məhv edilmiş və ya həmin eksponantlar əsasında onların guya ermənilərə məxsusluğunu göstərən yeni muzeylər yaradılmışdır. Bu mənada, ermənilərin qədim Qafqaz Albaniyası abidələrini özününküləşdirilməsi məsələsinə xüsusi önəm verdiyi bildirilməlidir. Onların üzərində mövcud olan qədim alban yazıları, divar naxışları və xaçlar məhv edilib erməni atributikası ilə əvəzlənir. Bir sıra məscidlər isə anbarlar kimi istifadə olunur.

Bu kampaniya məqsədyönlü xarakter daşımaqla işğal edilmiş rayonların tarixi- mədəni nöqteyi-nəzərindən Azərbaycana aid olmaması və bununla ermənilərin həmin ərazilərdə məşkunlaşmasına bəraət qazandırılmasına yönəldilmişdir. Bu müstəvidə Azərbaycana məxsus yer adlarının dəyişdirilərək erməni adları ilə əvəz olunması xüsusilə kütləvi hal aldığı bildirilməlidir. Başlıca məqsəd gələcəkdə həmin ərazilərin ilhaqının həyata keçirilməsinə "əsas yaratmaq"dır. Xalqımıza məxsus maddi sərvətlərin daha geniş miqyasda talan edilməsi məqsədilə Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz iqtisadi fəaliyyətə xarici ölkələrin bir sıra firma və şirkətlərini də cəlb etmişdir. Erməni tərəfinin təşkilatçılığı ilə 2004-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının razılığı olmadan ölkəmizin Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərinə 1610 nəfər əcnəbi vətəndaş səfər etmişdir.

BMT-nin Təhlükəzlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd- şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası işğalçılıq siyasətini davam etdirmişdir. Ermənı separatcılarının təcavükar siyasətı sonda 44 günlük müharibədə Azərbaycanın qələbəsı ılə sona catdı. Haqq və ədalət öz yerını tapdı. "Azərbaycan öz torpaqlarını işğaldan azad etmək ücün apardığı 44 günlük Vətən müharıbəsi və bu nüqəddəs savaşda qazandığı möhtəşəm qələbə ölkəmizin tarixinə şübhəsiz ki, qızıl hərıflərlə yazıldı. Onları canları ilə şanlı tarix yazan müqəddəs şəhidlərimizin, igid qazilərimizin dillərə dastan oldu; xalqimizin yenilməzliyi, sarsılmaz iradəsi, möhkəm birliyi dünyanı mat qoydu; rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı hərbi dərsliklərə düşdü" [5, s.11].

ƏDƏBİYYAT

1. Hacıyev N. Dağlıq Qarabağ tarixindən sənədlər.Bakı, "Gənclik" 2005. 192 səh
2. Həsənov Ə. Azərbaycana qarşı etnik təmizləmə və soyqrım siyasətinin mərhələləri. Bakı, "Zərdabi" 2017 400 səh
3. Mirzəzadə A. Qarabağ düyünü. Bakı, "Azərbaycan". 2012. 608 səh
4. Cəfərli E. Naxcıvanda erməni Azərbaycan münaqişəsiş.Bakı 2008 Nurlan 280 səh
5. 44 gün anbaan.Tərtibci R.Cəfərli. Bakı 2021, TEAS Pres, 648 səh
6. Erməni terroru www humangov az. Azərbaycan Respublika Baş Prokurorluğunun materialları
7. Karaköşe N. Azərbaycana qarşı etniktəmizləmə və soyqrım. Türkiyə İzmir, 2020.

SUMMARY

ILLEGAL ACTIVITY OF ARMENIA IN THE OCCUPIED TERRITORIES OF AZERBAIJAN

Hasanov M.H.

Armenians, who are not natives of our territories, started territorial claims against Azerbaijan after settling in our lands. After the establishment of the nationalist parties in the late 19th century, the Armenians

systematically expelled our compatriots from our lands.This process was carried out in various forms: genocide, deportation, terrorism, separatism, occupation, genocide and so on. After Mikhail Gorbachev was elected Secretary General of the Central Committee of the USSR Communist Party in 1985, the next stage of the Armenian aggression against Azerbaijanis began. Thus, gradually Nagorno-Karabakh was completely occupied by Armenian separatists.
Keywords: *occupation, terror, extremist, genocide, genocide, tragedy, resolution*

РЕЗЮМЕ

НЕЗАКОННАЯ ДЕЯТЕЛЬНОСТЬ АРМЕНИИ НА ОККУПИРОВАННЫХ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА

Гасанов М.Г.

Армяне, не являющиеся уроженцами наших территорий, после заселения на наших землях начали территориальные претензии к Азербайджану. После создания в конце XIX века националистических партий армяне систематически изгоняли наших соотечественников с наших земель.Этот процесс осуществлялся в различных формах: геноцид, депортация, терроризм, сепаратизм, оккупация, и так далее. После избрания Михаила Горбачева Генеральным секретарем ЦК КПСС в 1985 году начался очередной этап армянской агрессии против азербайджанцев.Таким образом, постепенно Нагорный Карабах был полностью оккупирован армянскими сепаратистами.
Ключевые слова: *оккупация, террор, экстремист, геноцид, трагедия, резолюция*.

QƏRB DÖVLƏTLƏRİNİN II QARABAĞ SAVAŞINA MÜNASİBƏTİ

Həsənov Y.L.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ali200808@rambler.ru

Açar sözlər*: Qərb dövlətləri, II Qarabağ savaşı, İngiltərə, Fransa, Almaniya, İtaliya*

SSRİ-nin süqutundan sonra Azərbaycan və Ermənistan arasındakı münaqişənin həlli ölkəmizə görə BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və münaqişəni dinc yolla həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsində həll edilməli idi.

Minsk qrupunun həmsədrlərinin sülhə nail ola bilməmələrinə diqqət çəkən prezident H.Əliyev 2001-ci ilin dekabrında onlarla görüşdə "müharibə təhlükəsinin artdığını" söylədikdə bu qrupun həmsədrləri "münaqişənin hərbi yolla həll ediləcəyi təqdirdə, onsuz da çox ciddi və güclü şəkildə zərər çəkmiş insanların daha böyük müsibətlərə məruz qalacaqlarını" bildirməklə faktiki olaraq münaqişəni süni yolla uzatmaq istəyən işğalçı Ermənistanın mənafeyini müdafiə etmiş oldular. [1]

Azərbaycan-Ermənistan danışıqlarında Dağlıq Qarabağın ayrı bir tərəf kimi iştirak etməsini təkid edən işğalçı Ermənistan Dağlıq Qarabağ probleminin dinc yolla həll edilməsi mümkünsüzlüyünü dünyaya göstərmiş oldu.

İyulun 17-dən başlayaraq müharibəyə qədər havadarları tərəfindən təyyarələrlə Ermənistana tonlarla hərbi avadanlıq daşınmağa başlandı. Bu işğalçını yeni hərbi təxribatlara əl atmağa həvəsləndirdi və nəticədə mövqelərimizə senyabrın 27-si səhər saat 6 radələrindən hücum başladı. Nəinki cəbhəyanı yaşayış məntəqələri, həmçinin ölkənin cəbhədən uzaq, həm də mülki əhalinin sıx yaşadığı şəhərlərimizə, strateji obyektlərə qarşı ballestik raketlərlə, fosforlu və kasetli bombalarla və s. mülki əhali hədəfə alındı. Azərbaycan Respublikası prezidentinin fərmanı ilə 28 sentyabrdan başlayaraq ölkəmizin bütün ərazisində hərbi vəziyyət elan edildi. Azərbaycan ordusu uğurlu "Dəmir Yumruq" əməliyyatına başladı. Düşmənin işğal olunmuş ərazilərimizdən çıxarılmağa başlanması N.Paşinyanı ABŞ-a üz tutmağa vadar etdi. Oktyabrın 24-də ABŞ Dövlət katibi müavininin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birgə görüşündən sonra münaqişə tərəfləri arasında oktyabrın 10-da Moskva bəyanatına uyğun olaraq humanitar atəşkəs haqqında razılıq əldə olundu. Lakin ertəsi gün düşmən mövqelərimizə yenidən hücuma başladı.

İşğalçı Ermənistana qarşı ölkəmiz təkcə cəbhədə deyil, diplomatik sahədə də mübarizə aparır və dünya ictimaiyyətini məlumatlandırırdı. Məsələn, prezident İlham Əliyev alman müxbirin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına "Elzas və

Lotaringiya sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya?... Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürür məsələsidir...” demişdir. [1]

Azərbaycan növbəti dəfə hücuma məruz qaldı. Müxtəlif ölkələr və təşkilatlar münaqişəni kəskin şəkildə qınadı. Ancaq bəzi ölkələr dinc əhalini hədəfə alan Ermənistana sərt reaksiya vermək, işğala son qoymaq çağrışı etmək əvəzinə hər iki tərəfi gərginliyi azaltmağa və danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır. Türkiyə, İsrail, Pakistan, Ukrayna, Əfqanıstan, Şimali Kipr Türk Respublikası və bir neçə başqa ölkə isə ölkəmizin bu müharibədə haqlı tərəf olduğunu, onun ərazi bütövlüyünü tanıdıqlarını bildirmişdilər. Xüsusilə qardaş Türkiyə Cümhuriyyətinin mənəvi, siyasi və informasiya dəstəyi, həmçinin yüksək dövlət məmurlarının müharibə dövründə ölkəmizə müntəzəm səfərləri haqlı diplomatik mübarizəmizdə əvəzedilməz rola malik olmuşdur. Türkiyənin mövqeyini müharibə dövründə prezident R.T.Ərdoğan belə ifadə etmişdi: ”Erməni xalqını, özlərini fəlakətə sürükləyən hökumətlərini və onlarla bir oyuncaq kimi oynayanlara etiraz etməyə, gələcəklərinə sahib olmağa dəvət edirəm. İşğala və zülmə qarşı verdikləri mübarizədə bütün dünyaı Azərbaycanın yanında olmağa dəvət edirəm. 30 ilə yaxındır ki, məsələyə etinasızlıq nümayiş etdirən ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr məsələni həll etməkdən çox uzaqdırlar. Ermənistan bölgədə sülh və əminamanlığın qarşısında ən böyük əngəl olduğunu bir daha nümayiş etdirmişdir. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə Azərbaycanlı qardaşlarımızın yanındadır”. [1]

Bizim üçün əsas məsələlərdən biri İkinci Qarabağ müharibəsi dövründə Avropa dövlətlərinin mövqeyi necə olmuşdur sualına cavab axtarmaq olmalıdır. Bu baxımdan Dünya siyasətinə yön verən ölkələrdən olan Böyük Britaniyanın mövqeyi maraqlıdır. Qeyd etmək lazımdır ki, Britaniya ikinci Qarabağ müharibəsində ölkəmizin haqlı mövqeyini və ərazi bütövlüyünü müdafiə etmişdir. Belə ki, BMT-nin Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan probleminə dair Təhlükəsizlik Şurası sədri adından hazırlanan və Azərbaycanın əleyhinə olan bəyanat mətni BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü olan Britaniyanın vetosu ilə rədd edilmişdir. [2]

Müasir dünyada münaqişələrin həllində ABŞ-ın mövqeyi əsas faktorlardan biridir. Ona görə də Vətən müharibəsi dövründə ABŞ-ın yürütdüyü siyasət təkcə bu gün bizim üçün deyil, regionun gələcəyi üçün də böyük əhəmiyyət kəsb edir. Müharibə dövründə ABŞ-ın xarici işlər nazirinin köməkçisi S.Biegun hər iki tərəfi hərbi əməliyyatları dərhal dayandırmağa, gərginliyi daha da artırmamaq üçün problemi həll etmək məqsədi ilə birbaşa əlaqə yaratmağa, bölgədəki gərginliyi artıran açıqlama və hərəkətlərdən çəkinməyə dəvət etmişdir. ATƏT-in Minsk qrupunun əvvəlki ABŞ-lı həmsədri R.Hoagland isə belə demişdir: “Beynəlxalq hüquq baxımından Ermənistan başqa bir müstəqil dövlət olan Azərbaycanın sərhədləri daxilindəki torpaqlara girmiş və buranı işğal etmişdir”. Hoagland ABŞ-ın əsas siyasi xəttinin bütün millətlərin müstəqilliyini, təhlükəsizliyini və torpaq bütünlüyünü dəstəkləmək və müdafiə etməkdən ibarət olduğunu vurğulamışdır. Bu yanaşma əlbətdə ki, işğal edilmiş torpaqlarımızın azad olunmasında ölkəmizin ərazi bütövlüyünün təmini üçün xarici siyasətimizə uyğun olmuşdur. [6]

Digər bir Avropa ölkəsi İtaliya müharibədə Azərbaycanın haqlı mövqeyini müdafiə etmiş, ölkəmizin ərazi bütövlüyünü dəstəkləmişdir. Məsələn, İtaliyanın Campobasso vilayəti Sepino və San Guiliano del Sannio əyalətləri, Milan vilayətinin Corbetta şəhər bələdiyyəsi məclisi Ermənistanın Azərbaycana qarşı hücumu, etnik təmizləmə, soyqırım siyasətini qınayan və azərbaycan milləti ilə həmrəy olduğunu elan edən rəsmi açıqlamalar yayınlamışdır.

Yuxarıda qeyd etdiyimiz dövlətlərdən fərqli olaraq problemin həlli üçün yaradılan Minsk qrupunun həmsədrlərindən olmasına baxmayaraq Vətən müharibəsində Fransa açıq-aydın ermənipərəst mövqe nümayiş etdirmişdir. Belə ki, Fransa bir tərəfdən İrəvan və Bakıdan hərbi əməliyyatları dərhal dayandırmağı və müzakirələrə qayıtmağı tələb etmiş, digər tərəfdən isə Fransa Xarici İşlər Nazirliyi “Fransa əməliyyatlardan son dərəcə narahatdır” ifadəsini işlətmişdir. Yəni, bu müharibədə Fransa Ermənistanı aşkar şəkildə dəstəkləmişdir. Bunun bariz nümunəsi kimi Fransa prezidenti E.Makronun 30 sentyabrdakı açıqlaması da vasitəçilik missiyasına uyğun gəlməmişdir. Daha sonra Fransa senatının 25 noyabr 2020-ci il tarixli təsdiq etdiyi “Dağlıq Qarabağ Respublikası”nın tanınmasına dair qərar mətni Azərbaycan Respublikasının haqlı etirazına səbəb olmuşdur [2].

44 günlük müharibədə Avropa Birliyinin lider dövlətlərindən olan Almaniyanın mövqeyi isə aşağıdakı kimi olmuşdur. Bu ölkənin xarici işlər naziri P.Maas Ermənistan və Azərbaycanın müzakirələr üçün gücdən istifadə etməyi dərhal buraxmalı olduğunu söyləmiş və müharibə edən tərəfləri hərbi əməliyyatları dərhal və tamamilə dayandırmağa dəvət etmişdir. Digər tərəfdən, kənd və qəsəbələrə atəş açılmasından son dərəcə narahat olduğunu da etiraf etmişdir. Təəbii ki, bu cür mövqe ölkəmizin maraqlarına uyğun olmamışdır.

Ərazi bütövlüyümüzün bərpa olunması uğrunda mübarizədə ədalətli mövqe ortya qoyan dövlətlərdən olan Macarıstanın xarici işlər və ticarət nazirliyinin yaydığı açıqlamada Dağlıq Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində yerləşdiyi ifadə edilmişdir.

İkinci Qarabağ müharibəsində Balkan dövlətlərinin də mövqeyi maraqlı olmuşdur. Belə ki, Serbiyanın 44 günlük müharibədən əvvəl və müharibə dövründə Ermənistana silah satdığına dair inkar edilməyəcək faktlar mövcud idi. Təcavüzkarın Serbiya tərəfindən silahlandırılması ilə bağlı faktlara əsasən Azərbaycan bu ölkəyə etirazını bildirmişdir. Başqa bir Balkan dövləti Yunanıstan da müharibə və ondan sonrakı dövrdə Ermənistanı dolayı olaraq dəstəkləmişdir. Lakin Serbiya və Yunanıstandan fərqli olaraq Bosniya –Herseqovina Dövlət Başçıları

Şurasının Bosniyadan olan üzvü Ş.Ceferoviç və Demokratik Hərəkət Partiyası sədri B.İzetbekoviç Azərbaycanı dəstəklədiklərini, Ermənistanı qınadıqlarını və vəziyyəti 1992-1995-ci illərdə davam edən Bosniya müharibəsi ilə eyniləşdirdiklərini ifadə etmişdilər. [2]

Təssüflər olsun ki, bəzi Qərb dövlətlərinin informasiya agentlikləri və jurnalistləri müharibə dövründə məsələyə tamamilə qərəzli yanaşmış, tarixlə, tədqiqatla bir araya sığmayan əsassız təhriflərə yol vermişdilər. Bununla yanaşı, Türkiyə və Pakistan başda olmaqla bir sıra ölkələrinin informasiya kanalları baş verən hadisəni real təqdim etdi [3, 4].

Qeyd olunduğu kimi müstəqilliyin ilk günlərindən işğal, soyqırım və qaçqınlar problemi ilə üzləşən Azərbaycan Respublikası ədalət axtarışında olmuş, bunun üçün beynəlxalq hüququn aliliyinə, dövlətlərin ərazi bütövlüyünün qorunması, dinc qonşuluq prinsipinə əsaslanmışdır. Bunun üçün diplomatiyadan istifadə edərək işğal olunmuş Azərbaycan torpaqlarından işğalçı Ermənistan qoşunlarının çıxarılması üçün beynəlxalq hüququn imkanlarından istifadə etmiş, lakin bu mümkün olmamışdır. Azərbaycan Respublikası işğalla barışa bilməzdi və bu belə də oldu. İşğalçı Ermənistanın ordusunun növbəti işğal siyasətinin qarşısının alınması zamanı hərbi əməliyyatlar yenidən başladı. Başlanan ikinci Qarabağ müharibəsi işğal olunmuş torpaqların işğaldan azad olunması üçün Vətən müharibəsinə çevrildi. Məhz bu müharibə dövründə dünyanın aparıcı Qərb dövlətlərinin bəziləri haqqın, ədalətin yanında deyil, işğalçının yanında yer almağa üstünlük verdilər. Fikrimizcə bu ölkəmizin gələcək xarici siyasətində daim diqqətdə saxlanılmalı olan məsələlərdəndir.

ƏDƏBİYYAT

1. https://dim.gov.az/upload/iblock/7e3/7e301bee04e71e6c5b79a7f2db719f2f.pdf
2. https://www.virtualkarabakh.az/tr/post-item/52/2871/ikinci-karabag-savasi.html
3. https://apa.az/az/xeber/siyasi/Ikinci-Qarabag-muharibsi-Qrb-v-Rusiya-mediasinin-yanasmasi-colorredTHLILcolor-619554
4. https://www.eureporter.co/general/2020/11/10/war-in-karabakh-how-fake-news-appears-on-western-media/
5. https://www.bbc.com/news/av/world-europe-54333089
6. https://www.nytimes.com/2020/09/28/world/asia/azerbaijan-armenia-nagorno-karabakh.html?searchResultPosition=19;https://www.nytimes.com/article/armenian-azerbaijan-conflict.html?action=click&module=RelatedLinks&pgtype=Article; https://www.nytimes.com/2020/10/10/world/europe/armenia-azerbaijan-nagorno-karabakh.html?searchResultPosition=13;https://www.nytimes.com/2020/10/28/world/europe/azerbaijan-barda-armenia-rockets-karabakh.html

SUMMARY

WESTERN STATES 'ATTITUDE TO THE SECOND KARABAKH WAR

Yusifali L.H.

In the last years of the collapse of the USSR, with the consent of Moscow, Armenia's open territorial claims to the historical lands of Azerbaijan ended with the final deportation of Azerbaijanis from Western Azerbaijan. Despite the fact that it was established in the late 1980s and early 1990s in the historical lands of Western Azerbaijan, the so-called Nagorno-Karabakh conflict, which began with Armenia's ethnic provocations against our country and tragic acts of terrorism, resulted in military aggression against Azerbaijan. As a result of the war, the Republic of Azerbaijan lost one-fifth of its lands, and more than one million Azerbaijanis were expelled from their homeland. In 1992, the Minsk Group was established to resolve this conflict peacefully on the basis of CSCE principles. In 1993, the UN adopted four resolutions demanding the complete, immediate and unconditional withdrawal of the occupiers from the occupied territories of the Republic of Azerbaijan. The first Karabakh war started by Armenia ended in 1994 with a Russian-brokered ceasefire in Bishkek. The 30-year-long diplomatic struggle for the restoration of the territorial integrity of the independent Republic of Azerbaijan did not yield results. The Patriotic War (Second Karabakh War), which started on September 27, 2020 as a result of Armenian provocations, ended with the victory of our country. Unfortunately, neither during the occupation, nor during the post-occupation ceasefire, nor during the war, nor in the post-war period, the attitude of some Western countries to this conflict did not comply with international law and the principles of respect for the territorial integrity of states.

Keywords: *Western countries, the Second Karabakh War, England, France, Germany, Italy*

РЕЗЮМЕ

ОТНОШЕНИЕ ЗАПАДНЫХ ГОСУДАРСТВ КО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Юсифали Л.Г.

В последние годы распада СССР с согласия Москвы открытые территориальные претензии Армении на исторические земли Азербайджана завершились недавней депортацией азербайджанцев из Западного Азербайджана. Несмотря на то, что он был создан в конце 1980-х - начале 1990-х годов на исторических землях Западного Азербайджана, так называемый нагорно-карабахский конфликт, начавшийся с этнических провокаций Армении против нашей страны и трагических террористических актов, вылился в военную агрессию. против Азербайджана. В результате войны Азербайджанская Республика потеряла пятую часть своих земель, более миллиона азербайджанцев были изгнаны со своей родины. В 1992 году была создана Минская группа для мирного урегулирования этого конфликта на основе принципов СБСЕ. В 1993 году ООН приняла четыре резолюции, требующие полного, немедленного и безоговорочного вывода оккупантов с оккупированных территорий Азербайджанской Республики. Первая Карабахская Война, начатая Арменией, закончилась в 1994 году прекращением огня в Бишкеке при посредничестве России. 30-летняя дипломатическая борьба за восстановление территориальной целостности независимой Азербайджанской Республики не дала результатов. Отечественная Война (Вторая Карабахская Война), начавшаяся 27 сентября 2020 года в результате армянских провокаций, завершилась победой нашей страны. К сожалению, ни во время оккупации, ни во время постоккупационного перемирия, ни во время войны, ни в послевоенный период отношение некоторых стран Запада к этому конфликту не соответствовало международному праву и принципам уважения территориальной целостностиь государств.

***Ключевые слова**: Западные страны, Вторая карабахская война, Англия, Франция, Германия, Италия*

GÜLÜSTAN VƏ TÜRKMƏNÇAY SÜLHÜ:ERMƏNİ KÖÇÜRMƏLƏRİ VƏ ONUN NƏTİCƏLƏRİ

Həsənova D.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
dunya.hasanova@inbox.ru

***Açar sözlər:** köçürmə siyasəti, münaqişə, "Erməni vilayəti", Türkmənçay müqaviləsi, Gülüstan müqaviləsi, ərazi iddiaları*

Məlum olduğu üzrə Azərbaycan xalqını son dərəcə etibarsız, saxtakar bir qonşu ilə yaşamağa məcbur olmuşdur. Mənfur düşmənlərimiz ermənilər tarix boyu regionda bütün dövlətlərə qarşı iddialarda olmuşlar. Müxtəlif dövrlərdə Azərbaycan ərazisinə sonradan köçürülən mənfur düşmənlərimiz rahat durmamış və Azərbaycana qarşı ərazi iddiaları qaldırmışlar. Bu köçürmə siyasəti ilə əlaqədar Erməni iddiaları, vandalizmi Azərbaycan və Türkiyə xalqlarına qarşı törədilən soyqırım və terror faktlarını, erməni saxtakarlığını açıq-aydın sübut etmişdir. "Erməni məsələsi" Azərbaycan , həm də Türkiyəyə qarşı törədilən işğalçı bir siyasətdir.

Ermənilərin hələ I Pyotrun dövründə verdiyi 1724 cü il fərmanı ilə Azərbaycanın Xəzər dənizi sahillərində məskunlaşması prosesi başlamışdır. Bunun kütləvi şəkildə aparılması Türkmənçay müqaviləsindən sonrakı dövrə təsadüf edir. Xanlıqlar dövrünə təsadüf edən birinci və ikinci Rus-İran meharibəsi nəticə etibarilə Azərbaycanın ənənəvi dövlətçilik ünsürlərinin sonunu gətirdi. Və yeni bir işğalçılıq dövrünün əsasını qoydu.

Azərbaycan ərazisinə ermənilərin köçürülmə siyasətinin əsası rəsmi şəkildə Türkmənçay müqaviləsi ilə qoyulmuşdur. Birinci və ikinci Rus-İran müharibələrinin nəticəsi olaraq bağlanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanın ərazi bütövlüyünü darmadağın etdi. Gülüstan müqaviləsi Dağıstanın, Gürcüstanın, bu günki Azərbaycan Respublikasının əksər hissəsinin və hal-hazırki Ermənistan Respublikasının şimal torpaqlarının Rusiya imperiyasına keçməsini rəsmiləşdirirdi. Bu müqavilənin nəticəsi olaraq Cənubi Qafqazın əksər hissəsi Rusiya imperiyasının hakimiyyəti altına keçdi. İkinci Rusiya-İran müharibəsindən sonra Rusiya Cənubi Qafqazı bütünlüklə tutdu və bunu Türkmənçay müqaviləsində Qacar dövləti tərəfindən təsdiq edilməsinə nail oldu. Ermənilərin Türkmənçay müqaviləsi ilə köçürülməsi Paskeviç və A. S. Qriboyedov tərəfindən hazırlanmışdır. Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən ermənilər Azırbaycan ərazisinə köçürulməsi kütləviləşdi, bu ciddi demoqrafik dəyişikliklərə səbəb oldu.Türkmənçay müqaviləsinin XV maddəsi aşağıdakı kimi idi:

XV maddə — Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir (məhz bu maddəyə əsaslanaraq 10 minlərlə erməni ailəsi İran ərazisindən Şimali Azərbaycan ərazisinə köçürülmüşdür. Bunun hesabına da Şimali Azərbaycanda xeyli demoqrafik dəyişikliklər olmuş və gələcək hadisələrin əsası qoyulmuşdur).

XV maddədə də qeyd edildiyi kimi İran ərazisindən köçürülən ermənilə güzəştlər şamil olunurdu. Onların əşyalarına və malına heç bir gömrük qoyulmudu. Onlar Azərbaycanın münbit torpaqlarında yerləşdirilirdi. Naxçıvan, İrəvan, Qarabağ kimi bölgələdə ermənilərin sayı köçürmə siyasəti ilə artırıldı. Bununla da Naxçıvan və İrəvan ərazilərində "Erməni vilayəti" yaradıldı. İnzibati-idarəetmə vahid kimi "Erməni vilayəti" ayrıca bir dövlət olmasa da tarixi Azərbaycan torpaqlarında Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış bir qurum idi. Azərbaycan kütləvi şəkildə köçürülən ermənilər təkcə İran ərazisindən yox həmçinin Türkiyədən və Suriyadan da bu nərazilərə gətirilirdilər. Hansı ki, 1828-1829 cu illədə olan Rus-Türk müharibəsi nəticəsində köçürülmə aparılmışdır. Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi barədə yazırdı. "İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli əhalisi olmayıb, 1828-1829-cu illər müharibəsindən sonra Türkiyənin ərazisindən bura köçürülmüşdülər".

Bu baş tutan köçürmə siyasətin sonrakı dövrlərdə Azərbaycan üçün çox ağır nəticələri oldu. Hansıki bunun dəhşətli və geridönülməz nətəcələri ozünü sonrakı vaxtlarda daha aydın göstərdi. Xristian ünsürünü Cənubi Qafqazda artırmaq istəyən Rusiyanın siyasi məramlarında biri kimi baş tutan ermənilərin bi coğrafiyadan digərinə kütləvi yerdəyişməsi prosesi gələcək geosiyası münaqişələrin bünövrəsini qoydu. Prosesdən əvvəl sayları 300 min olan ermənilər köçürmədən sonra sayları 1 milyon 300 minə çatdı. Bu sonrakı Azərbaycana qarşə olan ərazi iddialarının təməli möhkəmləndirdi. Onlar Qarabağa və digər tarixi Azərbaycan torpaqlarına haqq iddia etməyə başladılar.

SUMMARY

GULISTAN AND THE TURKMANCHAY PEACE: ARMENIAN RESETTLEMENT AND ITS CONSEQUENCES

Hasanova D.

Armenians resettled in Azerbaijan after the Gulustan and Turkmenchay agreements, which were the result of the 1st and 2nd Russian-Iranian wars, prepared the ground for national conflicts. Armenians who later came to the historical lands of Azerbaijan made territorial claims.

***Key words**: resettlement policy, conflict, "Armenian province", Turkmenchay agreement, Gulustan agreement, territorial claims*

РЕЗЮМЕ

ГУЛУСТАН И ТУРКМЕНЧАЙСКИЙ МИР: ПЕРЕСЕЛЕНИЕ АРМЯН И ЕГО ПОСЛЕДСТВИЯ

Гасанова Д.

Армяне, переселившиеся в Азербайджан после Гюлистанского и Туркменчайского соглашений, явившихся результатом 1-й и 2-й русско-иранских войн, подготовили почву для национальных конфликтов. Армяне, позже пришедшие на исторические земли Азербайджана, предъявляли

***Ключевые слова**: переселенческая политика, конфликт, «армянская провинция», Туркменчайский договор, Гюлистанский договор, территориальные претензии*

RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİ: POSTMÜHARİBƏ DÖVRÜNDƏ HƏRBİ-SİYASİ DAVRANIŞLARI

Hüseynov R.S., Salmanov E.İ.
H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Bakı, Azərbaycan
ramidhuseynov82@gmail.com

Açar sözlər. *Cənubi Qafqaz, Azərbaycan, Ermənistan, Rusiya, Qarabağ, postmüharibə dövrü*

Giriş. İkinci Qarabağ müharibəsi sonrası regionda yeni geosiyasi konfiqurasının, reallıqların meydana gəlməsi region dövlətlərinin xarici və daxili siyasətlərinə yenidən baxmağı zəruri edir. Dövlətlərin bir-birlərinə olan münasibətdə özlərinin yaratdıqları beynəlxalq hüquq prinsiplərinə riayət etməsi tələb olunur. Son dövrlərin prosesləri bunun bir daha göstərdi ki, hər bir dövlətin beynəlxalq müstəvidə davranışları bu hüquq normalarından kənara çıxması yolverilməzdir. Təkcə beynəlxaq müstəvidə deyil, regional məsələlərdə də geosiyasi güclərin hərbi və siyasi qüdrətindən istifadə edərək fərqli davranması düzgün hesab edilmir. Nəzərə alsaq ki, dünyada siyasi rejimlərin demokratikləşməsi istiqamətində davamlı addımların atılması, bununla bağlı dövlətlərə təzyiqlərin artırılması region ölkələrindən özlərinin daxili siyasətlərini bu istiqamətdə yenidən qurmağı, daha praqmatik addımlar atmağı tələb edir. İmperalist, ekspansionist maraqların davam etdirilməsinin, münaqişələr və hərbi güc yolu ilə dövlətlərin idarə edilməsinin, onlara edilən yardımların qeyri-qanuni yollarla həyata keçirilməsinin, qeyri-demokratik prinsiplərə istinad olunmasının səmərəsiz olduğu müşahidə olunur. Bu həm də həmin dövlətlərin özləri üçün ciddi problemə çevrildiyi aydın görünür.

Regionda Rusiyanın illərdir ki, alət olaraq istifadə etmək üçün himayə etdiyi erməni separatçılarının, terrorçu dəstələrinin qeyri-qanuni olaraq qalmaqda davam etməsi heçdə təsadüfi deyil. Bu Rusiyanın regiondakı geosiyasi maraqlarının təmini və mövcudluğunu qoruyub saxlamaq üçün başlıca vasitələrdən biri hesab edilə bilər. Məhz postmüharibə dövründəki "hərbi vəziyyətinin tənzimlənməsi"adı altında rus hərbçilərinin Azərbaycanın suveren ərazilərinə yerləşdirilməsi də bu məqsədə xidmət etdiyi açıq-aşkardır. Halbüki Rusiya özünün geosiyasi maraqlarını təmin etmək üçün tərəflərə təsir riçakı kimi mövcud vəziyyəti qoruyub saxlaması əslində dövlətlərarası gərginliyə zəmin yaradır. Məhz sülh sazişinin yubadılması da bu gərginliyi daha da artırır. Belə görünür ki, problemin birdəfəlik həlli, regional sülhün, təhlükəsizliyin bərqərar olması istər regiona, istərsə də konkret ölkələrə olan münasibətdə Rusiyanın geostrateji məqsədlərinə ziddiyyət təşkil etdiyi başa düşülür [1].

1. **Zəngəzur dəhlizinin siyasi mahiyyəti: Rusiyanın geostrateji maraqları.** Postmüharibə dövründə dövlətlərarası müzakirə predmeti kimi əsas diqqət mərkəzində dayanan məsələlərdən biri kimi kommunikasiya xətlərinin bərpası, dövlətlərarası əlaqələrin yenidən həyata keçirilməsi idi. Məhz 10 noyabr 2020-ci il üçtərəfli bəyənatın müddəalarından biri olaraq bu amilin qeyd edilməsi təsadüfi deyildi. Kommunikasiya xətlərinin bərpası Azərbaycanı Naxçıvanla və o cümlədən Türkiyə ilə birbaşa birləşdirən quru sərhədlərinin açılması məqsədini daşıyırdı. Amma bu təkcə Azərbaycan və Türkiyə üçün deyil, regionun digər dövlətləri, əsasən də Ermənistan üçün mühüm əhəmiyyətə malik idi. İllərdir ki, blokada vəziyyətində qalması ölkə iqtisadiyyatı üçün ciddi problemlərə çevrilmişdir. Yaranmış fürsətdən istifadə etməsi Ermənistan üçün geniş imkanlar açır.

Dəhlizin açılmasına Rusiyanın maraqları kontekstində yanaşdıqda isə məsələ bir qədər fərqli görünür. Çünki, bu dəhlizin açılması təkcə Türkiyənin Azərbaycanla iqtisadi-siyasi-hərbi əməkdaşlığını daha da dərinləşdirməsi anlamına gəlmir. Bu həm də Türkiyənin Azərbaycan vasitəsilə digər türk dövlətlərini birləşdirəcək vahid əməkdaşlığının, qarşılıqlı əlaqələrinin möhkəmlənməsinə şərait yaradacağı düşüncəsini formalaşdırır. Deməli, bu kommunikasiya xətlərinin açılması sadəcə iqtisadi xarakter daşıyır, onun daha çox hərbi-siyasi-strateji məqsəd daşıdığı hər kəsə məlumdur.

Özünün geosiyasi maraqlarını nəzərə alan Rusiyanın 10 noyabr bəyənatında Azərbaycan üçün əhəmiyyətli olan bu dəhlizin açılmasına razı olmuş olsa da, ona nəzarətin Rusiya tərəfindən həyata keçirilməsinin qeyd olunması təsadüfi hesab oluna bilməzdi. Nəzərə alsaq ki, kommunikasiya xətlərinin açılması Rusiyanın iqtisadi maraqları baxımından da əhəmiyyətlidir. Ermənistana hərbi yüklərin təhlükəsiz, heç bir maneə olmadan daşınması daha asan həyata keçirilmiş olur. 2008-ci il hadisələrindən sonra Gürcüstanla olan gərginlikdən sonra bu yüklərin quru sahəsi vasitəsilə daşınmasında mühüm problemlər yaranırdı.

Ukrayna ilə başlanan müharibə Rusiyanın Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda geosiyasi mövqelərinin qismən də zəifləməsinə təsirsiz ötüşmədi. Müharibədə istənilən nəticənin əldə edilməməsi, beynəlxalq müstəvidə imicinin, hərbi-siyasi gücünün itirilməsinə səbəb olur. Buna paralel olaraq regionda Türkiyənim geosiyasi üstünlüyünün artması hiss olunur.

Nəzərə alsaq ki, illərdir ki, region dövlətlərini güc və hədə yolu ilə, münaqişələrin həllinin uzadılması ilə idarə etməyə çalışan Rusiyanın apardığı siyasən onsuzda cəmiyyət tərəfindən ciddi narazılıqla qarşılanır. Onsuzda yaxşı

olmayan imicinin Ukrayna müharibəsindən sonra daha da pisləşməsi Rusiyanın ümumilikdə geosiyasi maraqlarını əvvəlki qaydalarla həyata keçirmək istəkləri düşünürəm bir qədər çətin olacaq.

2. **Brüssel və Soci göruşu: məqsəd və səbəblər.** 15 dekabr 2021-ci il tarixdə iki Cənubi Qafqaz dövlətlərinin: Azərbaycan və Ermənistanın siyasi rəhbərlərinin Belçikanın paytaxtı Brüsseldə əvvəlcədən nəzərə tutulmuş görüşündən Rusiyanın narahatlıq keçirməsi heç kəs üçün təəccüblü deyildi. Qərbin postmüharibə dövründə iki Cənubi Qafqaz dövlətlərini bir araya gətirərək, onlar arasında sülhün və təhlükəsizliyin bərpa edilməsinə çalışması və bununla da regionda özünün geosiyasi üstünlüyü əldə etmək istəkləri Rusiya üçün arzuolunan deyildi. Rusiya başa düşür ki, dövlətlərin və ümumilikdə cəmiyyətin qərbə olan münasibəti onunla müqayisədə daha yaxşıdır. Artıq 30 ilə yaxındır ki, regionda münaqişə vəziyyətinin qalması, demokratik idarəetmə yolunda inkişafın ləngiməsinin müəyyən səbəbkarı kimi Rusiyanın günahlandırılması ona olan mənfi münasibətin formalaşmasına və qərbə meyilin artmasına gətirib çıxarır. Habelə, qərbin maliyyə yardımı, iqtisadi inkişafa göstərdiyi dəstək və müsbət imici bir çox halarda onun mövqelərinin möhkəmləndirir. Bu da dövlətlərin idarə edilməsində münaqişələr və hərbi güc yolundan istifadə imkanlarını tədricən məhdudlaşdırır. Habelə cəmiyyətin daha inkişaf edən, sivil dəyərlərin, hüququn mövcud olduğu qərbə inteqrasiya istəkləri də prosesə ciddi təsir göstərir [2]. Belə olan təqdirdə, regiondakı proseslərə qərbin təsirlərinin artacağını düşünən Rusiya hər iki dövlət başçısının Brüssel görüşünə qısqanclıqla yanaşırdı. Görüşün onun iştirakı olmadan və onun nəzarətindən kənar keçəcəyini, Azərbaycan və Ermənistan rəhbərlərinin öz aralarında müəyyən razılığa gələ biləcəyini nəzərə alaraq 26 noyabrda onların Soçidə birgə görüşünü planlaşdırdı.

Əvvəldə də məlum olduğu kimi, Soçi görüşündə ümumi məsələlərin edilməsi, onun heç də ciddi əhəmiyyət daşımadığını bir daha göstərdi. Görüşün sonunda yenidən üçtərəfli bəyənat imzalanmasına baxmayaraq, bəyənatda əvvəlki eyni tipli sənədin müddəalarının bir çoxunun yenidən qeyd edilməsi onun formal xarakter kəsb etməsini göstərirdi. Daha çox Rusiyanın maraqlarına xidmət etməsi imzalanmış bəyənatın bəzi müddəalarından da açıq-aydın görünürdü. Rus hərbçilərinin Azərbaycanın suveren ərazilərində mövcudluğunun regionda təhlükəsizliyin qorunub saxlanmasında mühüm rol oynadığının sənəddə əks edilməsi Rusiyanın geosiyasi-geostrateji maraqlarını müdafiə etmək məqsədini daşıdığı hiss olunurdu [3]. Başqa sözlə, delimitasya və demarkasiya məsələlərinin Rusiyanın məsləhətli yardımı ilə həyata keçirilməsinin və regionda vəziyyətin sabitləşməsinə və təhlükəsizliyin təmin edilməsində rus hərbçilərinin töhfə vermələrinin əks edilməsi buna bariz nümunədir. Bununla Rusiya Soçi görüşü ilə region dövlətlərinə və Qərbə bir daha bəyan etmiş oldu ki, regionda söz sahibi odur və özünün mövqelərini Avropa Birliyi ilə bölüşmək niyyətində deyil. Bu baxımdan Rusiyanın və sülhməramlıların regiondakı mövcudluğunu qoruyub saxlamaq üçün Ermənistan ordusu tərəfindən vaxtaşırı hərbi toqquşmaların, təxribatların həyata keçirməsi bu məqsədə xidmət etdiyi heç kimdə şübhə doğurmur. Belə görünür ki, sülh sazişinin imzalanmasının region dövlətləri üçün böyük imkanlar açacağı narahatçılığı onun yubadılmasına səbəb olur [4].

3. **Azərbaycanın Qərbə inteqrasiya siyasəti: Rusiya faktoru.** Azərbaycanın regionda geosiyasi üstünlüyə malik olan Rusiya ilə əlaqələrini, iqtisadi-siyasi münasibətləri qoruyub saxlamaqla bərabər onun artan təsirini neytrallaşdırmaq, asılılığı azaltmaq məqsədilə qərbə inteqrasiya yolunu seçməsini, NATO ilə hərbi-siyasi əməkdaşlıq etməsini, onun müəyyən etdiyi bəzi prinsipləri rəhbər tutması düzgün addım kimi dəyərləndirilə bilər. *Təhlükəsizlik maraqları* çərçivəsindən yanaşdıqda, birmənalı şəkildə təsdiq etmək olar ki, Azərbaycanın milli mənafeləri Rusiya ilə rəqiblik deyil, əksinə, bərabərhüquqlu, qarşılıqlı faydalı və strateji tərəfdaşlıq münasibətlərinin inkişafını vacib edir [5].

Cənubi Qafqazda Rusiyanın Ermənistana güclü iqtisadi və hərbi yardım göstərməsi, onun işğalçı ordusunu təmənnasız silahlandırması, bir tərəfdən Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin uzanmasına səbəb olurdu, danışıqlarda qeyri-konstruktivliyə təşviq edirdi, digər tərəfdən isə Azərbaycanın beynəlxalq təhlükəsizlik siyasətinə, regional hərbi-geostrateji seçiminə fərqli təsir göstərirdi. Belə olan təqdirdə, Rusiyanın Cənubi Qafqaz siyasətində tutduğu mövqeyi, Ermənistana olan fərqli münasibəti Azərbaycanın qərbə doğru inteqrasiya etməsinə, NATO-ya daha çox yaxınlaşmasına təsir göstərir. Lakin bu yaxınlaşmaq heç də Azərbaycanın Rusiya ilə əlaqələrinin tamamilə pozulmasına gətirib çıxarmaq məqsədi daşımır. Çünki Azərbaycan yaxşı başa düşür ki, Rusiya kimi böyük qonşusu ilə münasibətlərini daim qorunub saxlanılması ölkənin milli maraqları çərçivəsindədir. Bu regional sülhün və təhlükəsizliyin təmin olunması, həm də Rusiya ilə iqtisadi-siyasi-mədəni əlaqələrin gələcək perspektivləri baxımından əhəmiyyətlidir [6].

4. **Cənubi Qafqazda mövqe savaşı: Rusiya və Türkiyə münasibətləri.** Müharibə dövründə olduğu ki, postmüharibə dövründə də Azərbaycan daha çox region dövlətləri arasında münasibətlərin bərpasına və kommunikasiya əlaqələrinin yaxşılaşdırılmasına təşəbbüs göstərir. Habelə sülhün və təhlükəsizliyin təmin olunmasında ən çox maraqlı tərəf kimi çıxış edir. İllərdir ki, münaqişənin sülh yolu ilə həllinə sadiq olan Azərbaycanın Ermənistanın separatçılıq siyasətinə daha təmkinlə cavab verməyə çalışmışdır. Şübhəsiz ki, Azərbaycanın bu fəaliyyətində Türkiyənin də onun yanında yer alması və dəstək verməsi xüsusi qeyd olunmalıdır. Əgər müharibədən əvvəl bu dolayısı ilə həyata keçirilirdisə də, müharibə və postmüharibə dövrünə Türkiyənin regiondakı sülhyaratma rolu ən yüksək səviyyədə özünü birüzə verdi. Amma nə qədər də Türkiyə ilə normal

münasibətləri qoruyub saxlamağa çalışan Rusiya üçün bu heç də arzuolunan deyil. Rusiya hər vəcdlə özünün geosiyasi mövqelərini qoruyub saxlamğa və Türkiyənin regiondakı təsirlərini sıxışdırıb çıxarmağa çalışır.

Amma Rusiya da anlayır ki, İkinci Qarabağ və Ukrayna müharibəsi sonrası Türkiyənin regional və beynəlxalq imicinin və hərbi-siyasi gücünün yüksəlməsi reallığı ilə barışmaq məcburiyyətindədir. Hər iki müharibədə faktiki olaraq hərbi silahların mübarizəsində güc nisbəti Türkiyənin xeyrinə dəyişdi. İllərlə formalaşmış düşüncələr tədricən qüvvəsini itirməyə başladı. Bütün olanlara baxmayaraq Türkiyənin Rusiya ilə münasibətləri qoruyub saxlamaqda israrlı olması, iqtisadi-siyasi-hərbi əməkdaşlığını dərinləşdirməyə çalışması da Türkiyənin geosiyasi güc olaraq mövqelərinin möhkəmləndirir. Bununla Türkiyə həm də Rusiyanın yeni geosiyasi güc kimi onunla razılaşmalı olduğunu dolayısı ilə ona çatdırır. İstər regionda, istərsə də beynəlxalq səviyyədə vəziyyətin gərginləşdirilməsinin və "köhnə qaydalarla" dövlətlərin idarə edilməsinin yolverilməz olduğunu ona izah etməyə çalışır [7].

Nəticə. Postmüharibə dövründə regiondakı geosiyasi proseslər region dövlətləri arasında münasibətlərin heçdə tamamilə həllinə gətirib çıxarmadı. Rusiyanın hələdə vəziyyəti özünün maraqlarına uyğun həyata keçirmək cəhdləri gərginliyin davam etməsinə şərait yaradır. Rus hərbçilərinin Azərbaycanda yerləşdirilməsi, Qarabağda separatçıların hələdə qalması, ermənilərin regiona məqsədli köçürülməsi, Rusiyanın hərbi-siyasi rəhbərliyinin ikili münasibəti və Azərbaycanın suverenliyinə təhdid yaradan bəyənatları regionda sülhün və təhlükəsizliyin tam təmin olunmasına mane olur. İki ölkə arasında sülh müqaviləsinin bağlanmasını, kommunikasiya əlaqələrinin açılmasını yubadır. Bununla Rusiya regional geosiyasi maraqlarını həll etmək üçün status-kvonu qoruyub saxlamağa çalışır.

ƏDƏBİYYAT

1. Hüseynov, R. Rusiya və İranın Zəngəzur dəhlizinin açılması ilə bağlı narahatlığı səbəbsiz deyil // [Elektron resurs] URL: https://www.aznews.az/news/surveillance_point/284690.html (25.02.2022)

2. Hüseynov, R. Brüsseldə Azərbaycanı hansı sürprizlər gözləyir: "Onlar da ermənipərəstdirlər // [Elektron resurs] URL: https://www.bakupost.az/brusselde-azerbaycani-hansi-surprizler-gozleyir-onlar-da-ermeniperestdirler-serh?fbclid=IwAR1ZTr65J7FupCFpADBEhrONQ7573CCYkZfdNR0E6JpGtGTYLGR1psuUbq4 (25.02.2022)

3. Hüseynov, R. Üçtərəfli bəyanat əvvəlki bəyanatlara sadiqliyin ifadəsi xarakteri daşıyır// [Elektron resurs] URL: https://demokrat.az/az/news/95748/ucterefli-beyanat-evvelki-beyanatlara-sadiqliyin-ifadesi-xarakteri-dasiyir?fbclid=IwAR2tU56UQNiAXsUmsUSVuk1h4ufElbkI_DzcIe0DjPEMld7cthUTVhO2_6k (25.02.2022)

4. Hüseynov, R. Sülh sazişinin yubadılmasına səbəb olan faktor // [Elektron resurs] URL: https://sherg.az/siyaset/179964 (25.02.2022)

5. Salahov, F., Hüseynov, R. Azərbaycanın regional hərbi-strateji mövqeyi və təhlükəsizlik siyasəti // "Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün konstitusiya əsasları" respublika elmi-praktik konfransı, 15 noyabr 2021-ci il, Bakı, 2021, s. 509- 518

6. Hüseynov, R. Kənar müdaxilələr sülhün yubadılmasına səbəb olur //[Elektron resurs] URL: https://demokrat.az/az/news/103108/kenar-mudaxileler-sulhun-yubadilmasina-sebeb-olur-aciqlama?fbclid=IwAR3g48nDrCeL9tSaFGCxuKPwEQiMuhN_fH0OMZHKHwB-x8WXX-rJmmPWGcg (25.02.2022)

7. Hüseynov, R. Rusiyanın geosiyasi reallıqla barışması qaçılmazdır // [Elektron resurs] URL: https://editor.az/rusiyanin-yeni-geosiyasi-realliqla-barismasi-qacilmazdir (25.02.2022)

SUMMARY

RUSSİA'S POLİCY İN THE SOUTH CAUCASUS: MİLİTARY-POLİTİCAL BEHAVİOR İN THE POSTWAR PERİOD

Huseynov R.S., Salmanov E. İ.

The article analyzes the geopolitical situation in the South Caucasus, Russia's geostrategic interests and attitude to the countries of the region, as well as the geopolitical realities of the Karabakh war and the post-war period. Russia's position in the Karabakh war, patronage of Armenia, military-political support, influence on the prolongation of the war were shown. The political and legal aspects of the deployment and behavior of Russian peacekeepers in the territory of Azerbaijan, as well as the possibility of using it as a factor of Russia's influence on the parties were analyzed. The reasons for the delay in the peace agreement, as well as some aspects of Turkey's concern in the South Caucasus, are reflected in Russia.

Keywords: *South Caucasus, Azerbaijan, Armenia, Russia, Karabakh, post-war period*

РЕЗЮМЕ

ПОЛИТИКА РОССИИ НА ЮЖНОМ КАВКАЗЕ: ВОЕННО-ПОЛИТИЧЕСКОЕ ПОВЕДЕНИЕ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД

Гусейнов Р.С., Салманов Э.И.

В статье анализируется геополитическая ситуация на Южном Кавказе, геостратегические интересы и отношение России к странам региона, а также геополитические реалии карабахской войны и послевоенного периода. Показана позиция России в карабахской войне, покровительство Армении, военно-политическая поддержка, влияние на затягивание войны. Проанализированы политико-правовые аспекты размещения и поведения российских миротворцев на территории Азербайджана, а также возможность использования этого как фактора влияния России на стороны. Причины затягивания мирного соглашения, а также некоторые аспекты беспокойства Турции на Южном Кавказе находят свое отражение и в России.

Ключевые слова: *Южный Кавказ, Азербайджан, Армения, Россия, Карабах, послевоенный период*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ VƏ BEYNƏLXALQ REAKSİYALAR

Hüseynova S.B.
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
shuseynova54@mail.ru

Açar sözlər: *müharibə, beynəlxalq, reaksiya, həmrəylik, yürüş, mitinq, sülh*

İkinci Qarabağ müharibəsi 30 ildən çox davam edən tarixi ədalətsizliyə son qoydu və Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Həmin günlərdə dünya ölkələrinin baş verənlərə münasibəti birmənalı, sonadək ədalətli olmasa da, əksər ölkələr və təşkilatlar Azərbaycanın haqq işini və mövqeyini müdafiə etmişdilər. Sözsüz ki, bir yazıda bu fikir və mövqelərin hamısından bəhs etmək mümkün deyil. Ona görə də onların ən əsasları üzərində dayanırıq. Etiraf edilməlidir ki, məsələyə ədalətsiz, haqsız yanaşmalar beynəlxalq hüquqa zidd olmaqla yanaşı, eyni zamanda mənəvi cinayət, sülhsevər, tolerant xalqımızın haqqının inkarı deməkdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında vurğulamışdı ki, mən erməni xalqını onları fəlakətə sürükləyən hakimiyyətə müqavimət göstərməyə çağırıram və onları kukla kimi idarə edənləri öz gələcəkləri haqqında düşünməyə çağırıram. Mən bütün dünyanı işğala qarşı mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. Təxminən 30 ilə yaxındır ki, bu məsələnin həllinə laqeyd yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri təəssüf ki, onun həlli üçün heç bir addım atmaq fikrindən uzaqdırlar. Ermənistan bir daha göstərdi ki, regionda sülh və sabitliyə ən böyük təhlükə odur. Türk xalqı hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir ki, müharibənin ilk saatlarından başlayaraq, Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək verdi. Bu mənəvi və siyasi dəstək müharibənin son gününя qədər göstərildi [2, s.320].

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu müharibənin əvvəlində Azərbaycanın Ankaradakı səfirliyinə gəlmiş və Azərbaycanın Türkiyədəki səfiri ilə görüşərək xalqımızla hər an birgə olduqlarını bidirmişdilər. Mövlud Çavuşoğlu səfirlikdəki çıxışında demişdi ki, bu problemin həlli çox sadədir. Bunun üçün Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməlidir.

Türkiyənin müdafiə naziri Hulusi Akarın mövqeyi isə bizim olduqca böyük əhəmiyyət kəsb edirdi. O, ölkəsinin hər zaman Azərbaycanın tərəfində olduğunu bildirmiş və Ermənistanın mövqeyinin Qafqazda sülh və sabitliyə ən böyük maneə olduğunu xüsusi olaraq vurğulamışdı [1, s.124].

Ümumiyyətlə, qardaş Türkiyə Cümhuriyyəti 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olduğunu birmənalı şəkildə həm sözdə, həm də əməldə nümayiş etdirdi.

Böyük Britaniya İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyini müdafiə edərək onun ərazi bütövlüyünü dəstəklədi [3]. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurası sədrinin adından hazırlanmış və Azərbaycana qarşı yönəlmiş BMT Təhlükəsizlik Şurasının bəyanatının layihəsi BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Böyük Britaniyanın veto qoyduğuna görə qəbul olunmamışdı.

ABŞ. ABŞ dövlət katibinin birinci müavini Stiven Biqun Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanla təmasda olaraq hər iki tərəfi hərbi əməliyyatları dərhal dayandırmağa, gərginliyin daha da artmasının qarşısını almaq üçün mövcud birbaşa rabitə xətlərindən istifadə etməyə və bölgədəki gərginliyi gücləndirən söz və hərəkətlərdən çəkinməyə çağırmışdı [3].

Rusiya Prezidenti Vladimir Putin çıxışlarında dəfələrlə vurğulamışdı ki, "Ermənistan KTMT çərçivəsində müttəfiqdir, lakin Dağlıq Qarabağ Ermənistana aid deyil, ona görə də Rusiya, vasitəçilik istisna olmaqla, Qarabağ, ərazisində hərbi əməliyyatlarla bağlı heç bir öhdəlik daşımır. Rusiya Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ münaqişəsi tərəflərini dərhal atəşkəsə çağırmışdı [4].

Lakin 44 günlük müharibə zamanı Rusiyadan Ermənistana daşınan sursat və hərbi texnikanın həcminin artması ilə bağlı məlumat yayılırdı və Azərbaycan tərəfdə ciddi narazılıqlar yaradırdı. Rusiyanın Gürcüstanın öz ərazisindən hərbi yüklərin daşınmasına qoyduğu qadağa ilə əlaqədar Qazaxıstan-Türkmənistan-İran hava yolu ilə Ermənistana döyüş sursatı və hərbi texnika daşıması heç kim üçün sirr deyildi. Lakin Rusiya tərəfi dəfələrlə bəyan etmişdi ki, daşınan mallar sursat və hərbi texnika deyil, Ermənistandakı Rusiya hərbi bazasının ehtiyacları üçün tikinti materialıdır.

Fransanın mövqeyi isə məsələyə ədalətli yanaşmadan çox uzaq idi. Fransa İrəvan və Bakını dərhal hərbi əməliyyatları dayandırmağa və danışıqları bərpa etməyə çağırırdı. Fransa Xarici İşlər Nazirliyinin sözçüsü açıqlamasında bildirirdi ki, "Fransa münaqişənin gərginləşməsindən son dərəcə narahatdır [1, s.151].

Həqiqətdə isə Fransa Azərbaycanla Ermənistan arasındakı münaqişədə işğalçı Ermənistanı dəstəkləmişdi. Fransa prezidenti Emmanuel Makronun sentyabrın 30-da Ermənistanla Azərbaycan arasında münaqişə ilə bağlı bəyanatı bu münaqişənin həlli üçün yaradılmış Minsk qrupunun həmsədri kimi ölkənin vasitəçilik missiyasına zidd olaraq, bu missiyanı şübhə altına alır. Fransa Respublikası Senatının 2020-ci il noyabrın 25-də qəbul etdiyi "Dağlıq Qarabağ Respublikasının" tanınması haqqında qətnamə layihəsi Azərbaycan tərəfinin ədalətli etirazına səbəb olmuşdu [1, s.165].

Gürcüstan Prezidenti Salome Zurabişvili tərəfləri sülhə çağırıb, regionda sülh və əmin-amanlığın qorunması səylərini dəstəklədiyini bildirmişdi. Gürcüstanın 3-cü prezidenti Mixail Saakaşvili öz Facebook səhifəsində qeyd edirdi ki, mənim mövqeyim ərazi bütövlüyü prinsipinə əsaslanır, yəni Dağlıq Qarabağ Azərbaycan Respublikasının suveren ərazisidir və bunu heç nə dəyişməyəcək. Gürcüstan 44 günlük müharibə zamanı ərazisindən və hava məkanından istifadə edərək Ermənistana hərbi yüklərin daşınmasına qadağa qoyması bizim üçün olduqca əhəmiyyətli idi.

44 günlük müharibədən əvvəl və 44 günlük müharibə zamanı Serbiyanın Ermənistana silah satması ilə bağlı təkzibedilməz məlumatlar açıqlanmışdı və bununla bağlı Azərbaycan Serbiya tərəfinə etirazını bildirmişdi.

Yunanıstan 44 günlük müharibədə dolayısı ilə Ermənistana dəstək verməsi olduqca ədalətsiz və təəssüfedici idi.

Almaniyanın xarici işlər nazirliyi rəsmilərinin bəyanatlarının məzmunu bundan ibarət idi ki, Ermənistan və Azərbaycan substantiv danışıqların xeyrinə güc tətbiqindən dərhal imtina etməlidir. Almaniya münaqişənin hər iki tərəfini bütün hərbi əməliyyatları dərhal dayandırmağa çağırmış, həmçinin kənd və qəsəbələrin atəşə tutulmasından narahatlığını ifadə etmişdi.

İran xarici işlər nazirinin sözçüsü bildirmişdi ki, İran hərbi toqquşmaları diqqətlə izləyir və Azərbaycanla Ermənistan arasında atəşkəs danışıqlarında vasitəçilik etməyə hazırdır. İran rəsmiləri müharibə zamanı İrandan Ermənistana hərbi yüklərin daşınması ilə bağlı məlumatları təkzib edilməsi yalnız təəssüf doğururdu. Ancaq sadə vətəndaşlar tərəfindən İran ərazisindən Ermənistana silah verilməsinin qarşısını almaq üçün hava və quru yollarını bağlamaq üçün İranın müxtəlif şəhərlərində Azərbaycanın qələbələrinə dəstək aksiyaları keçirilmişdi. Şuşanın azad edilməsi və İranla sərhədin Azərbaycanın nəzarətinə keçməsi Təbriz, Ərdəbil və digər şəhərlərdə xüsusi sevinclə qarşılanmışdı.

Pakistan Xarici İşlər Nazirliyi bildirmişdi ki, Ermənistan vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq üçün hərbi əməliyyatları dayandırmalıdır. Biz Dağlıq Qarabağla bağlı Azərbaycanın mövqeyini dəstəkləyirik və bu, BMT Təhlükəsizlik Şurasının yekdilliklə qəbul edilmiş qərarlarına uyğundur. Qardaş Pakistan 44 günlük müharibədə Azərbaycanın yanında olduğunu açıq şəkildə nümayiş etdirmişdi.

Qazaxıstan Xarici İşlər Nazirliyi vəziyyəti sabitləşdirmək, güc tətbiqindən imtina etmək və danışıqlara başlamaq üçün bütün tədbirləri görməyə çağıraraq, beynəlxalq təşkilatlar platformasında münaqişənin sülh yolu ilə həllinə öz yardımını təklif etdiyini bəyan etmişdi.

Bosniya və Herseqovina. Şefik Jaferoviç və Demokratik Fəaliyyət Partiyasının lideri Bakir İzetbeqoviç Azərbaycanı dəstəklədiklərini, Ermənistanı pislədiklərini və vəziyyəti 1992-1995-ci illər Bosniya müharibəsi ilə müqayisə etdiklərini bildirmişdilər.

İsrail rəsmiləri müharibə gedişində öz bəyanat və müsahibələrində Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu xatırladaraq bildirmişdi ki, Ermənistanın özü də daxil olmaqla, BMT-yə üzv olan bir dövlət də yoxdur ki, Dağlıq Qarabağı suveren bir qurum kimi tanısın. Tarixi ədalət, beynəlxalq hüquq və İsrail dövlətinin maraqları baxımından bizim mövqeyimiz tamamilə birmənalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik, hesab edirik ki, bu ərazi bütövlüyü bərpa olunmadan regionda nizamlanmadan söhbət gedə bilməz. Tarixi faktlar, beynəlxalq hüquq və İsrailin maraqları baxımından Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmək İsrailin rəsmi mövqeyidir.

Macarıstan. Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin bəyanatında qeyd olunurdu ki, Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində yerləşir.

Beynəlxalq təşkilatların münasibəti. Avropa Birliyi. Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin tərəflərini hərbi əməliyyatları dayandırmağa, gərginliyi azaltmağa və atəşkəs rejiminə əməl etməyə çağırmışdı. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrelin bəyanatında da ATƏT-in Minsk Qrupunun himayəsi altında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlara dərhal və qeyd-şərtsiz qayıtmağın zəruriliyi vurğulanırdı. Bütövlükdə Avropa strukturları həmişə olduğu kimi, ikili standartlar nümayiş etdirirdilər, faktiki olaraq Azərbaycanın beynəlxalq hüquqda təsbit olunmuş ərazi bütövlüyünü bərpa etmək hüququnu dəstəkləməmişdilər [5, s.112-113].

BMT. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterres demişdi ki, biz tərəfləri dərhal hərbi əməliyyatları dayandırmağa, gərginliyi azaltmağa və substantiv danışıqlara qayıtmağa çağırırıq.

İkinci Qarabağ müharibəsi və Azərbaycan diasporu. Oktyabrın 6-da Türkiyənin İstanbul və Konya şəhərlərində Azərbaycana dəstək aksiyası keçirilmiş, oktyabrın 6-da Kanadanın Kalqari şəhərində Azərbaycana dəstək məqsədilə həmrəylik yürüşü keçirilmişdi.

Oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəyə növbəti raket hücumundan sonra Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə Berlində 10 mindən çox azərbaycanlının iştirakı ilə dinc əhalinin, qadın və uşaqların həlak olmasına, bunun nəticəsində mülki obyektlərə ciddi ziyan dəyməsinə etiraz olaraq aksiya təşkil edilmişdi.

Oktyabrın 18-də ABŞ-da Azərbaycanın Müstəqillik Günü münasibətilə Azərbaycan himninin sədaları altında İllinoys ştatının Çikaqo şəhər meriyası qarşısında Azərbaycan bayrağı qaldırılmışdı. Oktyabrın 18-də Kanadanın Toronto şəhərində Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək uğrunda apardığı mübarizəyə dəstək məqsədilə həmrəylik yürüşü keçirilmişdi.

Ümumiyyətlə, oktyabr günlərində Avropanın iri şəhərlərində yaşayan və təhsil alan azərbaycanlılar, o cümlədən türk icmasının nümayəndələri dünya ictimaiyyətinin diqqətini Ermənistan ordusunun Gəncə və Bərdədə törətdiyi terror aktlarına, eləcə də azərbaycanlıların, mülki şəxslər, o cümlədən qadınlar və uşaqlar, qətlə yetirilməsinə yönəltmək məqsədilə çoxsaylı mitinqlər keçirmişdilər.

Bu qeyd etdiklərimiz müharibə günlərində beynəlxalq reaksiyanın yalnız kiçik bir qismi idi.

ƏDƏBİYYAT

1. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 106-cı kitab. sentyabr 2021 - oktyabr 2020. Bakı: Azərnəşr, 2021. - 392 s.
2. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 111-ci kitab. mart 2021 - may 2021. Bakı: Azərnəşr, 2021. - 392 s.
2. İlham Əliyev. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 111-ci kitab. mart 2021 - may 2021. Bakı: Azərnəşr, 2021. - 392 s.
3. Məcidov, Səyyad. 44 günlük müharibənin beynəlxalq hüquqi nəticələri // http://aggression.az/?p=1046
4. Как после второй карабахской войны изменился политический ландшафт. https://vestikavkaza.ru/analytics/kak-posle-vtoroj-karabahskoj-vojny-izmenilsa-politiceskij-landsaft.html
5. Эскалация в Карабахе: война или принуждение к миру? https://www.bbc.com/russian/features-54327311

SUMMARY

SECOND KARABAKH WAR AND INTERNATIONAL REACTIONS

Huseynova S.B.

The second Karabakh war put an end to more than 30 years of historical injustice and restored the territorial integrity of Azerbaijan. Although the attitude of the countries of the world to what happened in those days was not completely unambiguous and fair, most countries and organizations defended the just cause and position of Azerbaijan. Of course, it is impossible to cover all these points of view in one article. It must be recognized that unfair and illegal approaches to the issue not only contradict international law, but are also a moral crime, a violation of the rights of our peace-loving, tolerant people.
Keywords: *war, international, reaction, solidarity, march, rally, peace*

РЕЗЮМЕ

ВТОРАЯ КАРАБАХСКАЯ ВОЙНА И МЕЖДУНАРОДНЫЕ РЕАКЦИИ

Гусейнова С.Б.

Вторая карабахская война положила конец более чем 30-летней исторической несправедливости и восстановила территориальную целостность Азербайджана. Хотя отношение стран мира к тому, что произошло в те дни, не было до конца однозначным и справедливым, большинство стран и организаций отстаивали правое дело и позицию Азербайджана. Конечно, охватить все эти точки зрения в одной статье невозможно. Необходимо признать, что несправедливые и незаконные подходы к вопросу не только противоречат международному праву, но и являются моральным преступлением, попранием прав нашего миролюбивого, толерантного народа.
Ключевые слова: *война, интернационал, реакция, солидарность, марш, митинг, мир*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ ŞANLI TARİXİMİZDİR

Xəlilov E.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Atiahi-sdu-hik@mail.ru

Açar sözlər: *Qarabağ müharibəsi, düşmən, Azərbaycan ordusu, güc, vətən, qalibiyyət*

Uzun illər ərzində mənfur qonşumuz Ermənistanın böyük havadarlarının dayağı və dəstəyi nəticəsində Azərbaycan torpaqlarına daima iddia etməsi, Azərbaycan torpaqları hesabına Böyük Ermənistan yaratmaq xülyasına düşməsi iki dövlət arasında müharibə ocağının yaranmasına səbəb olmuşdur. 1990-ci illərin başlanğıcından etibarən Azərbaycanın adxilində baş verən siyasi proseslər, hakimiyyət uğrunda mübarizə ermənilərin mənfur siyasətlərini həyata keçirməsinə zəmin yaratdı. Azərbaycan torpaqları işğala məruz qaldı. Lakin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gələn ulu öndər Heydər Əliyev işğal prosesinin qarşısını almağa və atəşkəsin imzalanmasına nail oldu. Ulu öndərin hakimiyyətdə olduğu 10 il müddətində qarşıya qoyduğu əsas məqsəd sülh yolu ilə, heç bir müharibə olmadan Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən ibarət olmuşdur. Bu istiqamətdə bütün zəruri addımlar atılmışdır. Lakin ulu öndərin vaxtsız vəfatı qarşıya qoyduğu məqsədləri həyata keçirməyə imkan etmədi. 2003-cü ildə xalqın böyük dəstəyi ilə İlham Əliyev hakimiyyətə gəldi. Xarici siyasətdə qarşıya qoyulmuş əsas məqsəd Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması idi. lakin o dövrdə hakimiyyətdə olan Ermənistan prezidentləri heç bir vəchlə məsələnin sülh yolu ilə həll olunması istiqamətində heç bir iş görmürdülər. Paşinyan ölkə rəhbərliyinə gəldikdən sonra hər kəs bütün bu məsələlərin sülh yolu ilə həll olacağına inanırdı. Lakin Paşinyanın Qarabağ Ermənistanındır ifadəsini işlətməsi, eləcə də Ermənistan müdafiə nazirinin yalnız işğal olunmuş ərazilərlə kifayətlənməyəcəklərini, yeni torpaqlar uğrunda mübarizə aparacaqlarını dilə gətirməsi iki ölkə arasında onsuz da pis olan vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxardı. 2020-ci ilin iyul ayında Ermənistan tərəfinin atəşkəsi pozması, eləcə də avqust ayında diversant dəstələri ilə qəfil hücuma keçməsi vəziyyətin daha da kəskinləşməsinə gətiri çıxardı. 2020-ci ilin sentyabr ayının 27-də Ermənistan

qoşunlarının geniş miqyaslı hüuma başlaması Azərbaycan tərəfinin əks həmlə əməliyyatını həyata keçirməsinə səbəbə oldu.

Müharibənin ilk günündə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa televiziya ilə müraciətində Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutduğunu bildirdi. Bu zaman mülki əhali arasında yaralı və itkilər haqqında da məlumat verildi. Dövlət başçısı əks həmlə əməliyyatı nəticəsində Azərbaycan Ordusunun düşmənin hərbi mövqelərinə zərbələr endirdiyini və bunun nəticəsində Ermənistan silahlı qüvvələrinin xeyli sayda hərbi texnikasının və canlı qüvvəsinin məhv edildiyini bildirdi. [1]

Vətən torpaqlarının bir-bir azad edilməsini Ali baş komandanın televiziyada sevinc hissi ilə xlqa çatdırması insanlarımızda ruh yüksəkliyinin daha da artmasına xalq, ordu birliyinin cənab prezidentin ətrafında daha sıx cəmləşməsinə gətirib çıxarırdı. Oktyabrın 3-də "Dəmir yumruq" əməliyyatını uğurla davam etdirən Azərbaycan ordusu şimal cəbhəsində strateji əhəmiyyətli Madagiz kəndini azad etdi. Xalqımıza sevindirici xəbərlər çatdıran Ali Baş Komandan kəndin tarixi adını bərpa edərək Suqovuşan adlandırdı. Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da Hadrut qəsəbəsini düşməndən azad etdi. Ermənistan silahlı qüvvələrində "məğlubedilməzlik" mifi formalaşmışdı. Lakin əməliyyatın ilk günündən etibarənbu mifi darmadağın edən rəşadətli Azərbaycan ordusu oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabr ayının 18-də Azərbaycan Respublikasının üçrəngli bayrağı qədim Xudafərin körpüsünün üzərində dalğalanmağa başladı. Oktyabrın 20-də Zəngilan şəhəri azad edildi. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi azad edildikdən sonra Azərbaycanın İranla dövlət sərhədi tam nəzarətə götürüldü. Azərbaycan ordusu noyabr ayının 7-dək işğalda olan coxlu sayda Azərbaycan kəndlərini düşmən tapdağından azad etdi. Qəhrəman Azərbaycan ordusunun yerinə yetirəcəyi ən çətin tapşırıqlardan biri sıldırım qayalar üzərində yerləşən Şuşa şəhərinin düşməndən azad edilməsi idi. Bu tapşırığı yerinə yetirmək üçün iki əsas plan yerinə yetirilməli idi. Birincisi Şuşa şəhəri havadan güclü zərbələr endirilərək, ikincisi isə əlbəyaxa döyüş ilə. Birinci planın həyata keçirilməsi şəhərin tamamilə dağılmasına və öz tarixi əhəmiyyətini itirməsinə səbəb ola bilərdi. Şanlı ordumuz hələ də dünya hərb tarixində mümkünsüz görünən bir taktika həyata keçirdi. Sıldırım qayalardan qalxaraq düşmənlə üz-üzə döyüş zamanı düşmənin böyük itki verməsinə və geri çəkilməsinə səbəb oldu. Şuşanın azad olunması xəbəri xalqımıza Şəhidlər xiyabanında cənab Ali baş komandan tərəfindən böyük sevinc hissi ilə çatdırıldı. Azərbaycan ordusunun inamlı qalibiyyəti düşmənin kapitulyasiya aktına imza çəkməsinə səbəb oldu. Düşmənin məğlubiyyətindən sonra Ağdam, Kəlbəcər və Laçın torpaqları da düşmən tapdağından azad edildi. Ordumuzun düşmən üzərində layiqli qalibiyyət əldə etməsi, düşmən qüvvələrinin tarixi Azərbaycan torpaqlarından qovulması haqqında geniş məlumatlar Yeni fikir qəzetinin 2021-ci il buraxılışının 7-ci nömrəsində də geniş formada öz əksini tapmışdır. [3]

Dövlət başçısı bildirdi ki, Qarşıya qoyduğumuz əsas missiya düşmən qoşunlarını doğma torpaqlarımızdan qovmaq idi. Düşmənin illərlə qurduğu istehkamları, müdafiə mövqelərini 44 gün ərzində Azərbaycan ordusunun inamlı mübarizəsi nəticəsində məhv etdik və bununla da Azərbaycan düşmən üzərində tarixi Zəfər çaldı. Bu şanlı və qüdrətli bayramı xalqımıza siz və sizlərlə bərabər on minlərlə hərbçimiz bəxş edib. İkinci Qarabağ müharibəsi şanlı tariximizin ən parlaq səhifələrindən biridir. Azərbaycan xalqı bütün qüvvələrini səfərbər etdi və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdi. İşğal zamanı da dəfələrlə demişəm ki, hər bir Azərbaycan vətəndaşı öz işi, əməli ilə bu müqəddəs günü yaxınlaşdırmalıdır. [4]

Prezident İlham Əliyev iyul ayının 14-də Xocahəsən qəsəbəsində Şəhid ailələri və müharibə veteranları ilə görüşü zamanı bildirmişdi ki, hazırda Qarabağda geniş miqyasda bərpa-quruculuq işləri aparılır. Böyük Qayıdış Proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin həyata keçirilməsi prioritet məsələlərdən biridir. Həm Qarabağda, həm də Şərqi Zəngəzurda yeni elektrik xətləri, eləcə də ötürücü xətlər, transformator və yarımstansiyalar tikilir. Bizim qarşıya qoyduğumuz əsas plan qısa zaman kəsiyində torpaqlarından didərgin düşmüş soydaşlarımızı qısa müddət ərzində öz ata-baba torpaqlarına qaytarmaqdan ibarətdir. [2]

ƏDƏBİYYAT

1. https://azertac.az/xeber/ Bakı, 27 sentyabr, 2021-ci il
2. Xalq qəzeti.-2021.-29 iyul.-S.1
3. Yeni fikir. 26 oktyabr 2021-ci il. №7 (41)
4. https://report.az/ /,8 Noyabr, 2021-ci il

SUMMARY

THE SECOND KARABAKH WAR IS OUR GLORIOUS HISTORY

Khalilov E.Sh.

The start of a large-scale offensive by the Armenian troops on September 27, 2020 prompted the Azerbaijani side to launch a counteroffensive. The main goal of the Azerbaijani side was to end the occupation by enemy troops and liberate the historical lands of Azerbaijan. During the 44-day war, the decisive position of our army in relation to the enemy led to the liberation of our lands. The key role in this was played by the unity of the people, the army and the government.

Key words: *Karabakh war, enemy, Azerbaijani army, strength, homeland, victory*

РЕЗЮМЕ

ВТОРАЯ КАРАБАХСКАЯ ВОЙНА – НАША СЛАВНАЯ ИСТОРИЯ

Халилов Э.Ш.

Начало широкомасштабного наступления армянских войск 27 сентября 2020 года побудило азербайджанскую сторону перейти в контрнаступление. Главной целью азербайджанской стороны было прекращение оккупации вражескими войсками и освобождение исторических земель Азербайджана. В ходе 44-дневной войны решительная позиция нашей армии по отношению к противнику привела к освобождению наших земель. Ключевую роль в этом сыграло единство народа, армии и правительства.

Ключевые слова: *карабахская война, враг, азербайджанская армия, сила, родина, победа.*

DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI VƏ ONUN TARİXİ NƏTİCƏLƏRİ

Xəlilova F.Z.
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, Azərbaycan
fidan.dia@gmail.com

Açar sözlər: *Dağlıq Qarabağ, Azərbaycan, Ermənistan, tarix, münaqişə.*

XX əsrdə Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ermənilərin Azərbaycan torpaqlarına dair bir qədər də əvvəlki tarixdən başlayan ərazi iddialarının nəticəsi idi. 1923-cü il, 7 iyul tarixində bu vilayətin yaradılması müəyyən nəticələr doğurmuşdur ki, həmin amillərin təsiri tarixin sonrakı mərhələlərində öz təsirini göstərmişdir. Həmin nəticələri belə qruplaşdırmaq olar:

- Tarixi Azərbaycan torpaqlarının inzibati ərazi bölgüsündə və adlandırılmasında süni dəyişikliklər;
- Dağlıq Qarabağda əhalinin tərkibinin süni şəkildə dəyişdirilməsi;
- Ermənilərin Dağlıq Qarabağ və ətraf ərazilərə dair ərazi iddialarına təkan verməsi.

İlk öncə vilayətin yaradılmasının Qarabağın inzibati və tarixi statusunda səbəb olduğu dəyişikliklərə nəzər yetirək. Bu baxımdan, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılan Azərbaycan ərazilərinin bu vaxta qədərki statusu və ermənilərin bu torpaqlarda yerləşdirilməsi ilə bağlı tarixi faktlara nəzər yetirmək vacibdir. Əvvəla, qeyd olunmalıdır ki, "Dağlıq Qarabağ" ifadəsi məhz həmin dövrdə ortaya atılan qondarma toponimdir və bu addım ermənilər tərəfindən sonrakı dövrlərdə məharətlə istifadə olunmuşdur. Hazırda "Dağlıq Qarabağ" adı ilə ifadə etdiyimiz ərazinin tarixən sahib olduğu statusuna nəzər salaq.

- 1748-1822-ci illərdə Qarabağ xanlığının tərkibində olmuş, 14 may 1805-ci ildə "Kürəkçay müqaviləsi" nəticəsində Rusiya imperiyasının himayəsinə keçmişdir [7,səh. 323-327];
- 1822-ci ildə Qarabağ xanlığının ləğv edilməsindən sonra ərazi rus komendantının rəhbərlik etdiyi əyalətə çevrilmişdir;
- 1840-cı ildə Rusiya imperiyasında komendant sisteminin ləğv edilməsi ilə Qarabağ əyalətinin ərazisi Şuşa qəzasına (Kaspi (Xəzər) vilayətinin tərkibində) daxil edilmişdir;
- 1846-cı ildə Şamaxı quberniyasının tərkibinə verilmişdir;

• 1859-cu ildə Bakı quberniyasının tərkibinə aid edilmişdir;

• 1861-ci ildə Zəngəzur qəzası Şuşa qəzasının tərkibindən ayrılaraq, müstəqil qəza olmuşdur;

• 1867-ci ildə Şuşa və Zəngəzur qəzaları Yelizavetpol quberniyasına daxil edilmişdir;

• 1883-cü ildə Şuşa qəzasının tərkibindən Cəbrayıl və Cavanşir qəzaları ayrılmışdır [7,səh. 323-327];

• Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan - Azərbaycan müstəqil olduqdan sonra dörd qəzaya bölünmüş Qarabağ ərazisi 1919-cu ilin yanvarında yaradılmış Qarabağ general-qubernatorluğu adı altında birləşdirilmişdir. Qeyd edilməlidir ki, Qarabağ general-qubernatorluğunun yaradılması ermənilərin həmin dövrdə Qarabağ ərazisinə dair başlayan iddialarının qarşısını almaq və ərazisinin Azərbaycanın tərkibində qorumaq üçün ciddi uğurlu addım idi. Bunun ardınca Dağlıq Qarabağın erməni əhalisi ilə Azərbaycan Respublikası hökuməti 22 avqust 1919-cu il tarixində bir Saziş imzaladı. Bu Sazişə əsasən, Dağlıq Qarabağ Azərbaycan Respublikasının ərazisinin bir hissəsi kimi tanınır və ilk dəfə olaraq "Dağlıq Qarabağ" termini siyasi mənada istifadə olunurdu. Həmçinin sənəddə daha bir mühüm məqam ondan ibarət idi ki, konkret olaraq Dağlıq Qarabağda ermənilərin məskunlaşdığı ərazilər (Dizaq, Xaçın, Vərəndə və Cəraberdin bir hissəsi) dəqiq olaraq göstərilirdi [7,səh. 323-327];

• 1920-ci ilin aprel ayında Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun ardınca Azərbaycan SSR İnqilab Komitəsinin 18 may 1920-ci il tarixində imzaladığı Dekret nəticəsində Qarabağ qubernatorluğunun ərazisində mərkəzi Şuşa olan Qarabağ İnqilab Komitəsi yaradılmışdır [11,səh. 61-62];

• Ermənilərin Qarabağ ərazisinə dair iddialarının yenidən yüksəlməsi nəticəsində və Sovet hökumətindən aldıqları dəstəklə 1923-cü il iyul ayının 7-də Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına nail oldular. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağın Muxtar Vilayətinin (DQMV) yaradılması haqqında Dekret qəbul edildi. Qarabağın düzənlik hissəsində isə üç qəza - Kürdüstan, Cəbrayıl və Ağdam qəzaları yaradıldı [6,səh. 156];

• 1924-cü il 26 noyabrda qəbul olunmuş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) haqqında əsasnaməyə görə Muxtar Vilayətin tərkibinə Cavanşir, Şuşa və Qubadlı qəzalarının həm erməni, həm də azərbaycanlı kəndləri daxil olmaqla, bütövlükdə 169 kəndi daxil edildi [6,səh. 164-165]. Lakin bu qərar Azərbaycan SSR MİK-in 7 iyul 1923-cü il tarixində qəbul etdiyi Dekretə tamamilə zidd idi. Belə ki, həmin sənəd muxtariyyətin yalnız Qarabağın dağlıq əzazisinin erməni hissəsinə verilməsini nəzərdə tuturdu. Bundan başqa, bir erməni kəndinin ətrafında olan azərbaycanlı kəndlərinin xeyli əraziləri Xankəndinin rəhbərliyinə verilirdi [5, səh.4-8]. Bütün bu proseslərin nəticəsində, 1923-cü ilin iyul ayı ilə müqayisə etdikdə, muxtar vilayətə verilən kəndlərin sayı 169-dan 198-ə qədər yüksəlmişdi. Azərbaycan Statistika Komitəsinin 1924-cü ilə dair məlumatlarına əsasən, həmin dövrə qədər bu kimi yaşayış məntəqələrinin sayı 200-ü keçmişdi [9,səh.69].

• Bu kimi süni proseslərin nəticəsi olaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi sürətlə genişləndirilirdi. 1933-cü il, 1 yanvar tarixində açıqlanan rəqəmlərə görə, Vilayətin ərazisi artıq 4431,7 kv.km təşkil edirdi [10,səh.9];

• 1926-cı il siyahıyaalınmasına görə, vilayətin ərazisi Şuşa və Stepanakert (şəhərin adı 1923-cü ildə Xankəndindən Stepanakertə dəyişdirilmişdi) şəhərlərindən və Şuşa, Vərəndə, Cəraberd, Xaçın, Dizaq rayonlarından ibarət idi;

• 1930-cu ildə həyata keçirilən rayonlaşdırılma prosesindən sonra Vərəndə rayonu ləğv edilmiş və onun ərazisi yeni yaradılmış Martuni (indiki Xocavənd) və Şuşa rayonları arasında bölüşdürülmüşdür. Eyni zamanda Xaçın rayonu da ləğv edilmiş, onun ərazisi isə yeni yaradılmış Stepanakert rayonunun tərkibinə verilmişdir. Bunun nəticəsində, Muxtar Vilayət 5 rayona - Cəraberd, Martuni, Şuşa, Dizaq, Stepanakert rayonlarına bölünmüşdür;

• 1939-cu ildə qəbul edilən qərarla Dizaq rayonu Hadrut, Cəraberd rayonu isə Mardakert (indiki Ağdərə) adlandırılmağa başladı;

• Növbəti inzibati dəyişiklik 1963-cü ildə baş tutdu. Belə ki, Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə daxil edildi. 1965-ci ildə isə Şuşa rayonu yenidən bərpa olundu [6];

• 1978-ci ildə edilən inzibati dəyişikliyə əsasən, Stepanakert rayonunun tərkibindən Əsgəran rayonu ayrıldı.

• DQMV-nin inzibati bölgüsü 26 noyabr 1991-ci il tarixində, yəni Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edildikdən sonra dəyişdi. Həmin qərardan sonra Stepanakertin Xankəndi adı bərpa olunmuş, Mardakert Ağdərə, Martuni Xocavənd olaraq dəyişdirilmişdir. Bundan başqa qeyd olunan qərara əsasən, Əsgəran və Hadrut rayonları ləğv edilmiş, mərkəzi Xocalı şəhəri olan Xocalı rayonu yaradılmışdır.Əsgəran rayonunun ərazisi Xocalıya, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə daxil edilmişdir. Həmçinin, bu qərara görə, Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhər, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları isə respublika tabeli rayon statusuna sahib olmuşlar [3];

• 1992-ci il oktyabrın 13-də daha bir inzibati dəyişik edilmiş və Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Ağdərə rayonu ləğv edilmiş, onun ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürülmüşdür [4].

Beləliklə, yeni yaşayış məntəqələrinin daxil edilməsi, Qarabağın inzibati bölgüsünün tez-tez dəyişdirilməsi Vilayətdə əhalinin sayı və etnik tərkibini də dəyişirdi. Əvvəla, qeyd etməliyəm ki, ermənilərin iddia etdiyi torpaqlarla əlaqəsi uzaq keçmişə dayanmır. Tarixin müxtəlif mərhələlərində Qarabağın əhali tərkibi ilə tanış olaq.

❖ 1823-cü ildə rus idarəsi tərəfindən hazırlanan "Qarabağ əyalətinin təsviri" adlı kitaba əsasən, Qarabağda qeydə alınan 18563 ailədən 1559-u, yəni yalnız 8,4 faizi beş erməni məlikliklərinin payına düşürdü [2]. Həmçinin erməni alimləri də bu mənbəyə istinad edərək yazırlar ki, 1823-cü ildə Qarabağda 20 mindən artıq ailənin 5107-sinin erməni ailəsi olmuşdur [1,səh.9-18]. Bununla da Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə qədər ermənilərin Qarabağda azırbaycanlılarla müqayisədə xeyli az olduğu təsdiq olunur;

❖ 1828-ci ildə Rusiya və İran arasında bağlanan Türkmənçay müqaviləsinə əsasən ermənilərin İrandan Qarabağa kütləvi şəkildə köçürülməsinə başlanıldı. Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min,Osmanlı imperiyasından 90 min erməni köçürülmüşdür. Qeyri-rəsmi şəkildə köçürülmüş ermənilərlə birlikdə onların sayı 200 mindən artıq idi. Bu köçürülmələrdən sonra Qarabağın əhali tərkibində ermənilərin sayı müsəlman əhaliyə nisbətdə artmağa başladı [8,səh.106-108];

❖ I Dünya müharibəsi zamanı 1916-cı ildə çar Rusiyasının həyata keçirdiyi siyahıyaalmaya əsasən Şuşa qəzasında əhalinin ümumi sayı 171.954 nəfər olmuşdur: onların 77.189 nəfərini azərbaycanlılar, 94.785-i isə ermənilər təşkil etmişdir;

❖ 1926-cı ildə Sovet hökumətinin həyata keçirdiyi növbəti siyahıyaalmaya əsasən DQMV-də yaşayan 125.300 nəfər əhalinin 111.700 (89%) erməni, 12.600 (11%) isə azərbaycanlılar idi. 1916-cı ildən keçən dövr ərzində Qarabağ əhalisinin etnik tərkibi ilə yanaşı, DQMV-də milli- mədəni dəyərlər də assimilyasiyaya məruz qalmışdı. Burada Azərbaycan türklərinə məxsus tarixi yer adları, yaşayış məntəqələrinin adları dəyişdirilmiş və erməni adları ilə əvəz edilmişdir [8,səh.106-108];

❖ 1979-cu ildə həyata keçirilən siyahıyaalmaya görə Dağlıq Qarabağ əhalisinin təqribən 75%-ni ermənilər, 23% azərbaycanlılar, 2% -ni isə digər xalqların nümayəndələri təşkil edirdi;

❖ 1989-cu il sovet əhali siyahıyaalmanın nəticələrinə görə isə, Dağlıq Qarabağ Muxtar Vilayətinin 187,8 min nəfərlik əhalisinin 145,4 mini (77%) erməni, 40,3 mini (21,5%) azərbaycanlı olduğu müəyyən edilmişdir. Beləliklə, 1939-1979-cu ildə keçirilmiş əhali siyahıyaalmaların nəticələrinə görə, Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibində azərbaycanlı əhalinin sayı müəyyən dərəcədə artmışdır. Lakin 1989-cu il əhalinin siyahıya alınması ərəfəsində Mərkəzdən bütün vasitələrlə himayə olunan ermənilərin vilayətin etnik tərkibində azərbaycanlıların sayını süni şəkildə azaltmaq cəhdləri nəticəsində azərbaycanlıların sayınının 23%-dən 21,5%-ə enmişdir [8,səh.106-108].

XX əsrin 80-ci illərindən başlayaraq ermənilər Dağlıq Qarabağa dair ərazi iddialarını yenidən irəli sürməyə başladılar və bu zaman muxtar vilayətin mövcudluğu faktından öz iddialarını əsaslandırmaq üçün istifadə etmişlər. Eyni zamanda bu proseslər DQMV-in ləğv olunması ilə nəticələndi. 20 fevral 1988-ci ildə DQMV-nin Xalq Deputatları Sovetinin iclasında vilayətin erməni icmasının nümayəndələri belə bir qərar qəbul etdilər ki, DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə keçirilməsi ilə bağlı Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetlərinə müraciət etsinlər. Lakin 1989-cu ilin 23 sentyabrda Azərbaycan SSR Ali Soveti "Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında" Azərbaycan SSR-in Konstitusiya Qanununu qəbul etdi [12]. Bu qanunun 5-ci maddəsində qeyd olunur ki, "Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilir" və "Azərbaycan SSR-in digər müttəfiq respublikalarla sərhədləri yalnız müvafiq respublikaların qarşılıqlı sazişi üzrə dəyişdirilə bilər" [12].

1 dekabr 1989-cu il tarixində Ermənistan SSR Ali Soveti birtərəfli qaydada Ermənistan SSR və Azərbaycanın tərkib hissəi olan Dağlıq Qarabağın yenidən birləşdirilməsi haqqında qərar qəbul etmişdir. 10 yanvar 1990-cı il tarixində isə SSRİ Ali Sovetinin Rəyasət Heyəti " Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də, həmçinin 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların hər ikisinin SSRİ Konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etmişdir. Qərarda Ermənistan SSR ilə Dağlıq Qarabağın Azərbaycan SSR-in razılığı olmadan birləşdirilməsinin qeyri-qanuni olması rəsmi qaydada göstərilmişdir.

30 avqust 1991-ci il tarixində Azərbaycanın Ali Soveti 23 sentyabr 1989-cu il tarixli Konstitusiya Qanununa istinad edərək, 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən bəyan edilmiş dövlət müstəqilliyinin bərpasını elan etdi. Lakin bundan sonra, 2 sentyabr 1991-ci il tarixində Dağlıq Qarabağ Vilayət və Şaumyan rayon Xalq Deputatları Sovetlərinin birgə yığıncağında Azərbaycanın DQMV və Şaumyan rayonu sərhədləri çərçivəsində "Dağlıq Qarabağ Respublikası"nın yaradılması elan olundu [1,səh.9-18]. Azərbaycan Respublikası 18 oktyabr 1991-ci il tarixində qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə siyasi və iqtisadi müstəqilliyinin təməlini qoymuş və ardınca 26 noyabr 1991-ci il tarixində Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi haqqında" Qanun qəbul etmişdir.Bundan sonra, 1991-ci il dekabrın 10-da Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) ermənilər tərəfindən vilayətin SSRİ-nin tərkibindən çıxaraq müstəqil olmasını müəyyən edən birtərəfli,

qeyri-qanuni “referendum” keçirildi. Göründüyü kimi, illər öncə DQMV-nin yaradılması SSRİ-nin hüquqi subyekt kimi mövcudluğunu itirdiyi bir dövrdə ermənilərin həmin ərazilərin müstəqilliyinə iddialar irəli sürməsinə gətirib çıxarmışdır. Ermənilərin qondarma “Dağlıq Qarabağ Respublikası”-na dair bütün bu iddiaları beynəlxalq hüquqda heç bir əsası olmasa da, təəssüf ki, hazırda da davam edir. Separatizmə əsaslanan bu davranışların davam etməsi DQMV-dən başlayan proseslərin əsas tarixi nəticələrindən biridir.

ƏDƏBİYYAT

1. Abdullayev Elşad “Dağlıq Qarabağ Problemi Beynəlxalq Hüquq MüstəvisindəBakı – 2004, s. 9-18;
2. AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu, “Qarabağ Çar Rusiyası dövründə”; http://mfa.gov.az/content/805
3. "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 26 noyabr 1991-ci il, № 279-XII;
4. “Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarı, Bakı şəhəri, 13 oktyabr 1992-ci il, № 327;
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), fond 1, siyahı 74, iş 136, vərəq 4-8;
6. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranma tarixinə dair. 1918-1925: Sənədlər və materiallar. - B.: Azərnəşr, 1989, səh.156;
7. Dağlıq Qarabağ 1918-1923-cü illərdə: Sənəd və materiallar toplusu, səh. 323-327;
8. Dədəyev.B, Mahmudlu.C, Əbilov.Ş. “Qarabağ 99 sualda” (Bakı 2014) kitabından səh. 106-108;
9. Mahmudov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, 2005, səh.69;
10. MSSR-də sosialist quruluşu. Statistik məcmuə. Bakı: Azərbaycan Xalq Təsərrüfatı Uçotu İdarəsi, 1935, səh.9;
11. Niftəliyev İ.V. Azərbaycan SSR ermənilərin ekspansiya planlarında (XX əsrin 20-ci illəri). Bakı, 2010, səh.61-62;
12. http://www.mfa.gov.azhttp://www.virtualkarabakh.az/read.php?lang=1&menu=10&id=11#.WuidLS7FKUk

SUMMARY

ESTABLISHMENT OF THE NAGORNO-KARABAKH AUTONOMOUS OBLAST AND ITS HISTORICAL CONSEQUENCES

Khalilova F.

This article explores the establishment of the Nagorno-Karabakh Autonomous Oblast and its historical consequences. The article describes the historical events from the establishment to the abolition of the Nagorno-Karabakh Autonomous Oblast. In addition, this article analyzes facts on the administrative territory and population of the region. In this article, the author emphasizes the impact of the establishment of the Nagorno-Karabakh Autonomous Oblast on the Armenian-Azerbaijani conflict. Moreover, at the end of the article is underlined that Armenians' illegal claims on Nagorno-Karabakh still continue.

Keywords: *Nagorno-Karabakh, Azerbaijan, Armenia, history, conflict.*

РЕЗЮМЕ

СОЗДАНИЕ НАГОРНО-КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ И ЕГО ИСТОРИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ

Халилова Ф.

Данная статья рассматривает создание Нагорно-Карабахской автономной области и его исторические последствия. В этой статье описываются исторические события от создания до упразднения Нагорно-Карабахской автономной области. Кроме этого, в статье анализируются. факты об административной территории и населении региона. Автор оценивает влияние создания Нагорно-Карабахской автономной области на армяно-азербайджанский конфликт. Более того, в конце статьи подчеркивается что незаконные притязания армян на Нагорный Карабах все еще продолжаются.

Ключевые слова: *Нагорный Карабах, Азербайджан, Армения, история, конфликт*

ÇARİZMİN QAFQAZ SİYASƏTİ VƏ QARABAĞ XANLIĞININ İÇĞALI

İsgəndərov V.Q.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan

Açar sözlər: *Qarabağ xanlığ, çarizm, Kürəkçay müqviləsi, işğalçılıq siyasəti, Qafqaz siyasəti, müstəmləkəçilik siyəsəti*

Rus hərbi komandanlığı regionda son dərəcə məkrli taktiki gedişlərlə öz məqsədlərini reallaşdırmağa çalışırdı: Rusiyadan asılı və bəlli zamana kimi müəyyən daxili sərbəstliyə malik vassal hakimlər sistemi yaradılırdı, həmin hakimlər bəzən şirnikləndirmə, bəzən isə təzyiq yolu ilə lazımlı hərbi-siyasi hərəkətlərə sövq edilirdi. Çarın göstərişinə əsasən Rusiyanın İrandakı müvəkkili Kovalenski bu məqsədlə Qafqazın bir sıra müsəlman feodal hakimləri ilə görüşlər keçirmişdi.[4] Lakin Qafqazın nəyin bahasına olursa olsun müstəqilliklərini qoruyub saxlamaq istəyən Qarabağ xanı İbrahim xan, Gəncə xanı Cavad xan, Quba xanı Şeyxəli xan, Qazıqumuxlu Surxay xan, Avar xanı Ümmə xanın timsalında Qafqazın daha iri feodal dövlətlərinin başçıları Qafqaz uğrunda mübarizə aparan iri güclərin arasında manevr etmək siyasəti yeritməyə çalışırdılar.

Bu məqsədlə Qafqazdakı rus ordularının komandanı general P.D.Sisianov vəzifəsinə başlayan kimi Georgiyevsk şəhərində sabiq imperator I Pavelin Azərbaycan və Dağıstan hakimlərinin federasiyasını yaratmaq məramına uyğun olaraq onların görüşünü təşkil etmişdi. Nəticədə 1802-ci ilin dekabrın 26-da Azərbaycan və Dağıstanın bəzi feodal hakimlikləri arasında Rusiyanın vasitəçiliyi ilə Georgiyevskdə 12 bənddən ibarət müttəfiqlik müqaviləsi bağlanır.[7] Sisianovun xarici işlər naziri qraf A.R. Voronsova göndərdiyi məlumatında Georgiyevskdə 1802-ci ilin dekabrın 26-da dostluq ittifaqı və razılığı haqqında müqavilənin imzalanmasının təfərrüatlarından bəhs olunur.[3]

Rusiya himayəsinə qəbul olunmuş feodal hakimliklərin ittifaqı olan bu müqavilə, bir növ I Pavelin Qafqazın geodal hakimliklərindən federativ dövlət yaratmaq planını xatırladırdı. Lakin bunun ardınca çar Rusiyasının Qafqazın hərbi cəhətdən işğalı yoluna qədəm qoyması həmin müqavilənin bu yolda bir keçid mərhələsi olduğunu göstərir.

Rus hökuməti eyni zamanda "parçala və hökm sür" imperiya siyasətinə uyğun olaraq daha xırda feodalları mükafatlandırmaqla, bu və ya digər bölgədə baş vermiş həyəcan və üsyanları yatırmaqda onların köməyindən istifadə etməklə yerli feodal hakimliklər arasında düşmənçiliyin yaradılması taktikasından da fəal şəkildə yararlanırdı.

Rusiya 1803-cü ildən etibarən faktiki olaraq hərbi yolla Şimali Azərbaycanın ərazisinin işğalına başlayır. 1803-cü ildə Car-Balakən camaatlığı, 1804-cü ildə isə Gəncə xanlığı silah gücünə işğal edilmişdi. Rusiya Azərbaycan xanlıqlarının bəzilərini danışıqlar yolu ilə tabe etməyə çalışırdı. 1805-ci ilin mayın 14-də Rusiya ilə Qarabağ xanlığı arasında bağlanmış Kürəkçay müqaviləsi şuşalı və qarabağlı İbrahim xanın Rusiyanın təbəəliyinə keçməsini, Rusiyanın Qarabağ xanlığını müstəqil dövlət kimi qəbul etdiyini, İbrahim xanın və varislərinin xanlığın yeganə sahibi olduğunu təsdiq edirdi. Bu müqavilədə Qarabağ xanlığının bütövlüyünün saxlanılmasına Rusiya imperatoru tərəfindən zəmanət verilirdi. Belə bir müqavilə həmin ilin mayın 22-də Kürəkçayda Şəki xanı Səlim xanla, dekabrın 25-də isə Şirvan xanı Mustafa xanla da imzalanmışdı.[1]

Sədaqət haqqında andlı öhdəlik imzalamaqla əslində xanlıq Rusiyanın yarımmüstəmləkəsinə çevrilmişdir. İbrahimxəlil xan öz suveren hüquqlarının bir hissəsindən əl çəkməklə öz taxtını və Qarabağın bütövlüyünü qorumaq istəmişdir. Ancaq çox tez bir zamanda xanın yanıldıgı məlum olmuşdur. Rusiya himayəsinin qəbulundan cəmi bir il sonra yanındakı xristian məliklər tərəfindən qızışdırılan mayor Lisaneviç 1806-ci ilin yayında hücum edib silahsız xanı, onun bir neçə ailə üzvünü və qulluqçusunu cəmi 17 nəfəri vəhşicəsinə qətlə yetirmişdir. Bu, əhalinin böyük hiddətinə səbəb olsa da, Cəfərqulu Ağa yaranmış vəziyyətdən rus qoşunlarını Qarabağdan qovub çıxarmaq üçün istifadə etməmişdir. Xanlıq ərazisində rus və Qacar qoşunları arasında hərbi əməliyyatlar əhaliyə böyük zərbə vururdu. Rus işğalının əhali üçün olmazın bəlalar gətirdiyini görən Azərbaycanın bir çox feodal hakimləri, o cümlədən Qarabağın yeni hakimi Mehdiqulu xan artıq rus komandanlığı ilə əvvəlki kimi əməkdaşlıq etməkdən imtina edir, bəzi hallarda isə İran tərəfinə keçmək üçün imkanlar axtarırdılar. Bir çox cəhətdən Rusiya hakimiyyət orqanlarının amansızlıgı və onlarla təhqiramiz şəkildə rəftar etmələri ilə bağlı idi. Şübhəsiz ki, həm də Mehdiqulu xan öz atasının qətlə yetirilməsini unuda bilməzdi. 1813-cü ilin oktyabrın 12-də Rusiya ilə Qacarlar arasında baglanmış Gülüstan müqaviləsinə görə Arazdan şimaldakı bir çox Azərbaycan xanlıqları kimi Qarabağ xanlığı da Rusiya işğalı altında qaldı.[2]

Çar hökuməti müqavimət göstərən, öz müstəqilliklərini qorumaq məqsədilə manevretmə siyasəti yeridən xanları, bəyləri hakimiyyətdən məhrum edirdi ki, bu da bəzi hallarda sonuncuların hətta fiziki cəhətdən məhv edilməsi ilə də nəticələnirdi. Qarabağdakı alban-erməni məliklərinin fitvası ilə İbrahimxəlil xan ailəsi ilə birlikdə ruslar tərəfindən qətlə yetirilmişdi.[8]

General Pauliççi 1812-ci ildə Qafqazda rüşvətxorluğun və digər sui-istifadələrin vüsət almasını etiraf edərək yazırdı: "Mən Bakı, Quba və Dərbənd vilayətlərinin icmalı zamanı insanların narazılığına səbəb olan və hökumətin imicinə zərər vuran çoxlu özbaşınalıqlara və sui-istifadə hallarına rast gəldim."[5]

Çar hakimiyyətinin hakim təbəqəni razı salmaq üçün torpaq münasibətlərinə müdaxiləsi, yerli feodalların kəndliləri torpaqdan məhrum etmək siyasətini dəstəkləməsi, çarizmə eyni zamanda torpağın bir hissəsini xəzinənin mülkiyyətinə çevirməyə imkan verdi. Nəticədə, bilavasitə müstəmləkəçilik siyasətinin məhsulu və mütləqiyyətin torpaq hüquq münasibətlərinə müdaxiləsinin nəticəsi olan torpaq mülkiyyətinin dövlət forması formalaşır. "Dövlət" torpaq fondunun formalaşma mənbələri kəndlilərin icma torpaqlarının zəbt edilməsi və çar hökumətinə "xəyanət" edən xanların və bəylərin mülklərinin qismən müsadirə edilməsi idi.[6] Dövlət torpaqlarından çar zabitləri və yerli əyanlar üçün böyük torpaq sahələri ayrılırdı.

XIX əsrdə Qafqaz tarixində feodal və müstəmləkə zülmünə, talanlara qarşı etirazların baş vermədiyi 5-10 illik bir zaman intervalını tapmaq çox çətindir. XIX əsrdə Qafqaz xalq hərəkatının çalxalanan dənizinə bənzəyirdi. Qafqaz xalqlarını mübarizəyə sövq edən əsas səbəblərdən biri rus mütləqiyyətinin amansız müstəmləkəçilik siyasətinin bölgənin əsarət altına alınmış xalqlarının üzərinə ağır yük kimi düşərək, həyatlarını daha da ağırlaşdırması idi.

Çarizmin Qafqaz xalqlarına qarşı yeritdiyi müstəmləkə siyasətinin tarixinin dərindən və obyektiv tədqiqi, bu zülmə qarşı yüksələn kütləvi xalq hərəkatının səbəblərini anlamağa kömək edəcəkdir.

Qafqazda hərbi-siyasi ekspansiya siyasətini həyata keçirən çar Rusiyası bir tərəfdən bu zəngin diyarı ələ keçirmək istəyir, digər tərəfdən də Qacar İranı və Osmanlı dövlətini zəiflətmək üçün bir körpü əldə etməyə çalışırdı. Bununla da eyni zamanda İngiltərənin də bölgə maraqlarına zərbə vurmaq niyyətində idi. Qafqazın işğalı həm də Xəzər dənizinin mənimsənilməsi və Orta Asiyaya nüfuz etmək məqsədi daşıyırdı. Məhz bu səbəbdən də mühüm strateji əhəmiyyət kəsb edən Qafqaz Rusiyanın xarici siyasətində xüsusi yer tuturdu.

R.A.Fadeyevin sözlərinə görə Rusiya üçün Qafqaz həm Rusiya sahillərindən Asiya qitəsinin ürəyinə atılan körpü, həm Mərkəzi Asiyanı düşmən təsirindən sıxışdıran divar, həm də hər iki dənizi - Qara və Xəzər dənizlərini qoruyan istehkamdır. Bu bölgənin işğalı xüsusi zərurət kəsb edirddi.[9]

Rusiya ilə Qarabağ xanı arasında bağlanmış Kürəkçay müqaviləsində əsasən Çarizm öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi. İlk növbədə Qarabağ xanı və onun ailə üzvlərinin amansızlıqla qətlə yetirilməsi götürülmüş öhdəliyin nəinki pozulması hətta həmin müqaviləyə xəyanət kimi qiymətləndirilməlidir. Rusiya əslində kürəkçay müqaviləsini imzalamaqla Cənubi Qafqazda öz mövqeyini möhkəmləndirmək üçün vaxt qazanmaq istəyirdi. Digər Azərbaycan xanlıqlarının da ərazisini işğal edən Rusiya öz mövqeyini gücləndirdikdən sonra Kürəkçay müqaviləsinin şərtlərindəki öhdəlikləri pozaraq Qarabağ xanlığının ləğv edilməsi və və onun ərazisinin işğal edilərək imperiyanın ərazisinə qatılması haqqında qərar verdi. Beləliklə Qarabağ xanlığının Rusiya tərəfindən işğalı başa çatdırıldı.

İlk öncə bu çox mürəkkəb və müxtəlif sosial təbəqələri əhatə etmiş xalq hərəkatlarının sosial mahiyyətini düzgün başa düşmək üçün mütləqiyyətin Qafqaz siyasətinin mahiyyəti üzərində dayanmaq və onun konkret sosial şəraitdə təzahür üsullarını və formalarını göstərmək lazımdır. Bu arada qeyd etmək lazımdır ki, çarizmin Qafqazdakı müstəmləkə siyasətinin tarixi sovet tarixçilərinin əsərlərində kifayət qədər obyektiv əksini tapmamışdır. Beləki, 1950-ci illərdən etibarən Qafqaz dağlılarının azadlıq hərəkatından yazan bir çox tədqiqatçılar həmin dövrün sovet ideoloji konyukturasına uyğun olaraq əsassız şəkildə bu hərəkatın başlanmasının başlıca səbəblərindən biri olan çarizmin yerli müsəlman əhaliyə münasibətdə yeritdiyi müstəmləkə siyasətini inkar edirdilər.

Çarizmin qarşısında duran vəzifələrin həyata keçirilməsində xanların, bəylərin və s. simasında "yerli zadəganlar" onun etibarlı müttəfiqləri ola bilərdilər. Çar hökuməti onlarla qarşılıqlı olaraq hər iki tərəfin maraqlarına xidmət edən bir növ ittifaq bağlayır: çarizm özünə tabe etdiyi ərazilərdə xanların hakimiyyətini dəstəklədi və gücləndirdi, xanlar isə yerli xalqları itaətdə saxlamaqda çarizmə kömək etdi. İlhaq edilmiş xanlıqlarda çar hökuməti onlara loyal mövcud xan idarəçilik sistemini saxlayır. Nəticədə Rusiya işğalından sonra bir sıra yerlərdə xanların və bəylərin hakimiyyəti mütləqiyyətin siyasəti sayəsində xeyli güclənirdi.

ƏDƏBİYYAT

1. MahmudovY.M. Şükürov K.K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi, s. 366-367
2. Quliyev C.Ş. Qarabağ xanlığının tarixi Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında. Baki Universitetinin xəbərləri. Humanitar elmlər seriyası.№3, 2013, s.112
3. Донесение кн. Цицианова гр. Воронцову, от 28 декабря 1802 г. // АКАК, т. 2, с. 780-781
4. Донесение статского советника, министра в Грузии и поверенного делах в Персии Коваленского. 1800 год. GMTA, f.2, siy.1, iş. 12, v. 99-102 arxa
5. Отношение маркиза Пауличчи к министру полиции, от 10-го марта 1812 года. АКАК, т. 5, с. 20
6. Рамазанов Х.Х. Колониальная политика царизма в Дагестане..., s. 14

7. Рапорт кн. Цицианова Государственной Коллегии иностранных дель, от 28-го декабря 1802 года. АКАК, т.2, Тифлис, 1868, док. 2014, стр.1009-1012
8. Утверждение русского владычества на Кавказе. Т. I. С. 240- 241
9. Фадеев Р. А. Государственный порядок. Россия и Кавказ..., s. 43

SUMMARY

CARISM'S CAUCASIAN POLICY AND OCCUPATION OF THE KARABAKH KHANATE

Isgandarov V.G.

The report discusses Russia's policy of establishing a system of vassal rulers in Azerbaijan, meeting with a number of Muslim feudal rulers in the Caucasus and maneuvering among the major powers fighting for the South Caucasus to preserve its independence. In addition, Russia's military occupation of Northern Azerbaijan, attempts to subjugate some Azerbaijani khanates through negotiations, the Kurakchay Treaty, Russia's colonial policy, Ibrahimkhalil Khan's policy of protecting the integrity of the Karabakh khanate, Russia's brutal assassination of the Karabakh khan and several of his family members. Military operations between Russian and Gajar troops in the territory of the Karabakh khanate, the troubles caused by the Russian occupation for the population, the Gulustan agreement between Russia and the Gajars and the abolition of the Karabakh khanate by Russia were investigated.

Keywords: *Karabakh khanate, tsarism, Kurakchay treaty, occupation policy, Caucasus policy, colonial policy*

РЕЗЮМЕ

КАВКАЗСКАЯ ПОЛИТИКА КАРИЗМА И ОККУПАЦИЯ КАРАБАХСКОГО ХАНСТВА

Искендаров В. Г.

В докладе обсуждается политика России по установлению системы вассальных правителей в Азербайджане, встречи с рядом мусульманских феодальных правителей на Кавказе и маневрирование среди крупных держав, борющихся за Южный Кавказ для сохранения его независимости. Кроме того, военная оккупация Россией Северного Азербайджана, попытки подчинить себе некоторые азербайджанские ханства путем переговоров, Кюракчайский договор, колониальная политика России, политика Ибрагимхалил-хана по защите целостности Карабахского ханства, жестокое убийство Россией Карабахского хана и нескольких его членов семьи.Расследованы боевые действия между русскими и гаджарскими войсками на территории Карабахского ханства, бедствия, причиненные русской оккупацией населению, Гюлистанский договор между Россией и гаджарцами и упразднение Карабахского ханства Россией.

Ключевые слова: *Карабахское ханство, царизм, Куракчайский договор, оккупационная политика, кавказская политика, колониальная политика*

THE ROLE OF THE PEOPLE'S-ARMY-STATE UNION IN THE GLORIOUS PATRIOTIC WAR 2020

Ismailov D.Y.
Azerbaijan Architrcture and Construction University, Baku, Azerbaycan
dilgamismayil@gmail.com

Keywords: *Motherland, people, president, commander, army, state, victory, territorial integrity*

The glorious Patriotic War of 2020 ended with the brilliant victory of Azerbaijan and the liberation of our lands from occupation. The unity and solidarity of our eople played a key role in achieving this victory. The period of occupation after the First Karabakh War showed that the Armenian fascists wanted to perpetuate this occupation. Seeing that no results were achieved through negotiations, our people signrd this victory on yhe battlefield and liberated the homeland from the enemy. In the words of President of the Republic of Azerbaijan Ilham Aliyev, we won this war at the expense of the lives of our martyrs, at the expense of the bravery of our servicemen, at the expense of the policy of our state [9].

Analyzing the success of this war, one can conclude that it is not the result of a day or a year of preparations. This victoty is the results of the correct policy pursued by the President of Azerbaijan during the occupation to liberate our lands. This succes is a manifestation of the modern military-technical equipment of the Azerbaijany army, and the establishment of the spiritual unity of our people. This is clear indication of the close unity of political forces operating in our country around the President for the Motherland. At the same time, it is a celebration of the successful foreign policy pursued by our President. The development of the independent Azerbaijani state with great strides and ensuring the unity of the people and power in our country, the growth of our role and prestige in the world have clearly demonstrated to the international community that President of the Republic of Azerbaijan Ilham Aliyev has fulfilled his great leadership mission at a high level.

The 2020 Patriotic War, known as the "Iron Fist" operation, is known as the XXI century war. Because the latest weapons of the military industry were used in this war. It was these weapons and the astonishing bravery of the heroic Azerbaijani servicemen that led the Azerbaijani army to successive victories. Although the OSCE Minsk Group co-chairs declared a ceasefire three times during the war, it was violated as a result of Armenian provocation [7]. As a result, the Armenian fascists were crushed by an iron fist.

President of the Republic of Azerbaijan Ilham Aliyev put forward specific conditions for the cessation of hostilities during the war inspired our people that if Armenia does not comply with these conditions, our territorial integrity will be restored by force. The Azerbaijani army, which launched military operations, destroyed the defensive barriers considered insurmountable by the enemy and liberated the Fuzuli, Zangilan, Gubadli, Shusha [2; 3; 4; 5; 6] regions of Azerbaijan in a short period of time, One of the our historical victories is the liberation of Azerbaijan regions as Aghdam, Lachin and Kalbajar from occupation and return to its jurisdiction by political means, i.e. without conducting military operations. The enemy was forced to comply with the requirements of UN Security Coincil resolutions.

The capture of control of Shusha was a turning point in the course of the war. The liberation of Shusha, the temple of culture and the pearl of Azerbaijan, the symbol of Karabakh, played an important role in achieving our great victory. The rescue of this city became a confirmation of the invincibility of our Armed Forces, broke the will of the enemy, completely destroyed the myth of the "invincible army" of the Armenians. In general, all these successes achieved through great political and diplomatic efforts are expression of the historic victory of Azerbaijan, the heavy and fatal defeat of the occuping Armenians and the Armenians of the world. Separatists admit losing control of Shusha in Nagorno-Karabakh on November 9. They said that the Azerbaijani Army was on the threshold of Khankendi. On the same day, Azerbaijan announced the liberation of about 70 villages in various regions. As the President of Azerbaijan Ilham Aliyev said, Azerbaijan won a brilliant victory in the war and our lands were liberated from occupation [8].

The capture of Shusha by the Azerbaijani army forced the enemy to sign a ceasefire statement. The ceasefire statement of November 10, 2020 was signed by the Presidents of Russia and Azerbaijan and the Prime Minister of Armenia. The ceasefire statement stated the following: 1.The Republic of Azerbaijan and the Republic of Armenia shall stop at their current positions; 2. Aghdam district shall be returned to the Republic of Azerbaijan by 20 November 2020; 3. Along the contact line in Nagorno-Karabakh and along the Lachin corridor, a peacekeeping contingent of the Russian Federation shall be deployed in the amount of 1,960 military personnel with small arms, 90 armored personnel carriers, and 380 units of the automobile and special equipment; 4. The peacekeeping contingent shall be deployed in parallel with the withdrawal of the Armenian armed forces. The period of stay of the peacekeeping contingent of the Russian Federation is 5 years and shall be automatically extended by a further five-year period if none of the Parties declares six months prior to the expiration of the period of its intention to terminate the application of this provision; 5. In order to increase the effectiveness of control over the implementation of the agreements by the Parties to the conflict, a peacekeeping center shall be deployed to exercise control over the ceasefire; 6. The Republic of Armenia shall return Kalbajar district to the Republic of Azerbaijan by 15 November 2020 and Lachin district by 1 December 2020; 7.A plan for the construction of a new route along the Lachin corridor shall be determined in the next 3 years, providing communication between Nagorno-Karabakh and Armenia, with the subsequent redeployment of the Russian peacekeeping contingent to protect this route; 8.Internally displaced persons and refugees shall return to the territory of Nagorno-Karabakh and adjacent districts under the control of the United Nations High Commissioner for Refugees; 9. The exchange of prisoners of war and other detainees and bodies of the dead shall be carried out; 10. All economic and transport links in the region shall be restored. The Republic of Armenia guarantees the safety of transport links between the western regions of the Republic of Azerbaijan and the Nakhchivan Autonomous Republic in order to organize an unimpeded movement of citizens, vehicles and goods in both directions. Control over transport shall be

exercised by the bodies of the Border Guard Service of the Federal Security Service (FSB) of Russia. The construction of new transport communications linking the Nakhchivan Autonomous Republic with the western regions of Azerbaijan shall be ensured [10].

In Azerbaijan, this agreement was accepted as a victory, and in Armenia as a capitulation. Thus, according to the ceasefire agreement, Aghdam, Kalbajar and Lachin regions were returned to Azerbaijan by December 1, 2020. However the city of Lachin will remain under the control of Russian peasekeepers for some time. The reason for this is that the Lachin corridor connecting Nagorno-Karabakh and Armenia passes through the city of Lachin. President of Azerbaijan Ilham Aliyev has said that Lachin will be returned to Azerbaijan after the construction of a new road from Karabakh to Armenia in the next three years.

Thus, according to the ceasefire agreement, Aghdam, Kalbajar and Lachin regions were returned to Azerbaijan by December 1. The Glorious Patriotic War, led by the President of the Republic of Azerbaijan Ilham Aliyev with great skill and determination, ended with a great victory of our people. The occupation of Azerbaijani lands has been stopped once and for all. As the President has repeatedly emphasized, our joint strength in the victory of Azerbaijan played an important role in the Second Karabakh War. In other words, the People's-President-Army union played an important role in restoring our territorial integrity [8].

After the statement was signed the Armenian Prime Minister said in his address to the nation that he was forced to sign a ceasefire agreement. He said he made the decision "at the insistence of the army". In Azerbaijan, this agreement was accepted as a victory, and in Armenia as a capitulation. The news of the end of the war and the surrender of the territories controled by the Armenian forces on the evening of November 9 provoked the anger of the people in Yerevan. After the destruction of the Armenian army, protests against N.Pashinyan began in Armenia. Protesters accused Pashinyan of treason, attacked and destroyed his office, and beat the speaker of parliament. During these events, deputies were afraid to leave their homes for several days, and the Prime Minister of Armenia couldn't appear in public.

This war is also a celebration of the correct foreign policy pursued by Azerbaijani President Ilham Aliyev and Azerbaijani diplomacy. Six months before the start of the Second Karabakh War, the leaders of Azerebaijan and Armenia met at the Munich Security Conference (Februaru 2020). For the first time in the history of conflict, the leaders of the two countries held a public debate. In the face of Ilham Aliyev's political, historical knowledge and logic, the Armenian leader fell into a humiliating and ridiculous situation. The inauguration ceremony was held in Shusha after local Armenians held a fake presidental election in Nagorno-Karabakh in the spring of 2020. The Prime Minister of Armenia N.Pashinyan also attendend the festivities. In Ilham Aliyev's speeches during the 44-day war always emphasized that Pashinyan performed a "Yalli" dance in Shusha. During the war in 2020, Ilham Aliyev criticised at meetengs reflecting Pashinyan's slogan "Karabakh is Armenia" and D.Tonoyan's "New war – new territories" and described it as an irritating situation for the war.

On the eve of the war, Azerbaijan repeatedly stated that Armenia refused to negotate. İ.Aliyev said at an international event that the Armenian side was preparing for war. Transportation of weapons from Russia and Serbia to Armenia after the Tovuz battles was widely discussed in Azerbaijan. For the first time in the history of the Karabakh conflict, Ilham Aliyev expressed dissatisfaction with the transportation of "military" cargo from Russia to Armenia during a telephone conversation with V.Putin.

The great victory of our Armed Forces on the military front was also formalized in the diplomatic sphere. In interviews with influential foreign media and television channels, the head of state conveyed the true voice of our republic to the world community with convincing arguments and skillfully prevented the interference of pro-Armenian foreign circles in the war, proving that Azerbaijan is waiging war its lands. His clear, unequivocal and decisive views on the issue were exeptional importance in terms of conveying the just position of our country to the world community. These interviews significantly strengthened Azerbaijan's position in the information war with Armenia and contributed to the global exposure of Armenian lies.

In his interviews with foreign TV channels, the President of Azerbaijan Republic I.Aliyev gave detailed information about the so-called "Nagorno-Karabakh Republic", the need to liberate the occupied Azerbaijani lands, the artificial prolongation of the Armenian-Azerbaijani conflict, attempts to maintain the status-quo, proved with logical arguments that the Azerbaijan side is in the right position in resolving this conflict. In the program "60 minutes" on "Russia-1" TV channel, the leadership of our state once again conveyed serious and well-founded information about the real situation on the frontline to Russia and the world community. This war not only demonstrated to the world that the President of Azerbaijan is a wise and far-sighted politican, but also his ability to lead skillfully and make the right decisions in difficult situations. On the day of signing the joint statement by the Presidents of Azerbaijan, Russia and the Prime Minister of Armenia, the head of state stressed that "we have shown our strength and independence on the battlefield, in the political arena, in any format" [9].

The President of Azerbaijan, with great foresight and restraint, took urgent measures in both diplomatic and army building during the years of the conflict. He proclaimed the truth about Karabakh to the world from the tribunes of the highest international ceremonies in which he participated. At the same time, President Ilham Aliyev made efforts to increase the combat capability of the Azerbaijani Army and provide it with the latest military equipment.

President İlham Aliyev set an example of leading the military with great skill as a strong-willed, well-trained and detemined leader in the Patriotic War, which we started liberate our lands from occupation because we had no other choice. His extraordinary professionalism and unshakable will in the political-ideological sphere, in the conduct of information warfare and in the management of military operations form a solid basis for Azerbaijan's victories in the just war. For more than 17 years of leading the independent state of Azerbaijan, President Ilham Aliyev has irrevocably carried out the mission of true leadership for the comprehensive development of our country and its worthy place in the international arena. After the signing of the ceasefire agreement in May 1994, our state has done a lot to build an army in Azerbaijan and increase the country's defense capabilities. During the last 2003-2020, as a result of the great efforts of President Ilham Aliyev, our military budget has increased more than tenfold. At the same time, professional, national and patriotic personnel with high combat readiness have been trained in the Azerbaijani army over the years, our heroic warriors, who have a high fighting spirit and are equipped with the most modern techniques and military equipment, fought with great courage in the glorious Patriotic War and honorably fulfilled the sacred task set before them, liberating our lands from enemy occupation[1].

The President's address to the people of Azerbaijan on September 27, 2020 is an expression of the call to demonstrate patriotism and unity in the just war for the liberation of Nagorno-Karabakh and our surrounding lands from Armenian occupation. Unlike in the early 1990s, all sections of society, including various political parties, soon united around the Supreme Commander-in-Chief to demonstrate unparalleled national unity and solidarity. Since the beginning of the war, the majority of political parties operating in Azerbaijan have issued statements condemning the large-scale provocation of the enemy army against Azerbaijan. This statement of the political forces proved once again that all forces with different political positions are able to unite at any time in fateful issues, in the struggle for a holy and united cause. In this statement condemning the agressive policy of Armenia, these political parties stated at a high level that they are with the President of Azerbaijan in the sacred struggle for victory over the enemy.

During the 44-day fighting, the people of Azerbaijan showed all their strength to defeat the enemy in the process of liberating our occupied lands and provided all possible assistance to our army. Our young people, even the elderly, were ready to go to the front at any time, and this fact gave the Azerbaijan side a great opportunity to gain a military-psychological advantage. The partial mobilization of the President of Azerbaijan and the departure of thousands of young people to the front was a clear example of the high fighting spirit and determination of our people. It was a rare fact in the history of the wars that not a single fugitive from the Azerbaijani side in this war. However, tens of thousands of soldiers fled on the enemy's side. At the same time, there was no evidence that the Azerbaijani army, which had won one victory after another, lost or retreated during the war.

The Great Victory is the decisive succes of the strong people's power union like the Iron Feast created in Azerbaijan in the person of President Ilham Aliyev. This victory is the victory of the Azerbaijani Army, which was brought up by the Supreme Commander-in-Chief in the spirit of patriotism and Azerbaijanism and equipped with modern military equipment. After this war, by the order of the President of the Republic of Azerbaijan I.Aliyev, Polad Hashimov (posthumously), Ilgar Mirzayev (posthumously) and Ibad Huseynov was named the National Hero of the Republic of Azerbaijan [11].

Thus, the 30-year longing of our people for land was put to an end and jutice was restored. At the same time, President, Supreme Commander-in-Chief Ilham Aliyev reaffirmed that the victorious commander, the Azerbaijani Armed Forces are a strong army, and our people are great, proud and invincible.

LITERATURE

1. azertag.az/xeber/Xalq-Prezident-birliyi-Azərbaycanın-uğurlarının-əsas-şərtidir-1726879.
2. Cəbrayıl azad olundu". Modern.az. 4 oktyabr, 2020.
3. "Qubadlı şəhəri işğaldan azad olundu". qafqazinfo.az. Qafqazinfo. 25 0ktyabr, 2020.
4. "Zəngilan və bu kəndləri azad edildi". qafqazinfo.az. Qafqazinfo. 20 oktyabr, 2020.
5. "İlham Əliyev. "Füzuli işğaldan azad olundu". Oxu.az.17 oktyabr, 2020.
6. "Müstəqillik tariximizin ən möhtəşəm xəbəri – Şuşa azad edildi". sputnik.az. Sputnikş Azərbaycan.8 noyabr, 2020.

7. Nagorno-Karabakh Conflict unacceptable: EU". The Canberra Times, 29 oktyabr, 2020.
8.oxu.az./Politics/457002.Xalq-Ordu-Prezident vəhdəti:Azərbaycan xalqı İlham Əliyevin rəhbərliyi ilə hər şeyə qadirdir.
9.prezident.az/news/interviews/
10. «Путин выступил с заявлением о прекращении огня в Карабахе». RİA Novosti. 2020-11-09.
11.sputnic.az/karabakh/20201209/425680120/Polad-Həşimova-Milli-Qəhrəman-adı-verildi-htm.

XÜLASƏ

2020-ci il ŞANLI VƏTƏN MÜHARİBƏSİNDƏ XALQ- ORDU-DÖVLƏT BİRLİYİNİN ROLU

İsmayılov D.Y.

Bu məqalədə 2020-ci ilin 27 sentyabr – 10 noyabr tarixində Azərbaycanla Ermənistan arasında baş vermiş İkinci Garabağ müharibəsində Azərbaycanın möhtəşəm qələbəsinin səbəblərindən biri kimi Xalq-Ordu-Dövlət vəhdətinin rolu araşdırılmışdır. Tədqiqat işində belə bir fikir vurğulanır ki, şanlı Vətən müharibəsindəki Azərbaycanın qələbəsində xalqımızın birlikdə güclü olması önəmli rol oynadı və Xalq–Ordu-Dövlət birliyi ərazi bütövlüyümüzün bərpasında, torpaqlarımızın işğaldan azad edilməsində mühüm əhəmiyyət daşıdı. Eyni zamanda, qeyd edilmişdir ki, bu müharibə Prezident, Ali Baş Komandan İlham Əliyevin qalib sərkərdə, Azərbaycan Silahlı Qüvvələrinin güclü ordu, xalqımızın isə böyük, məğrur, yenilməz xalq olduğunu bir daha təsdiqlədi.

Açar sözlər: *Vətən, xalq, prezident, sərkərdə, ordu, dövlət, qələbə, ərazi bütövlüyü*

РЕЗЮМЕ

РОЛЬ НАРОДНО-АРМИАЛЬНО-ГОСУДАРСТВЕННОГО СОЮЗА В СЛАВНОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ 2020 ГОДА

Исмаилов Д.Ю.

В данной статье рассматривается роль единства Народ-Армия-Государства как одной из причин великой победы Азербайджана во Второй Карабахской войне между Азербайджаном и Арменией 27 сентября - 10 ноября 2020 года. В исследовании подчеркивается, что сила нашего народа сыграла важную роль в побеве Азербайджана в славной Отечественной войне, а Союз Народ-Армия-Государства сыграл важную роль в восстановлении нашей территориальной целостности и освобождении наших земель от оккупации. В то же время было отмечено, что эта война подтвердила, что Президент, Верховный Главнокомандующий Ильхам Алиев был полководцем-победителем, сильной армией, Вооруженных Сил Азербайджана, а наш народ – великим, гордым и непобедомым народом.

Ключевые слова: Родина, народ, президент, полководец, армия, государство, победа, территориальная целостность

44 GÜNLÜK MÜHARİBƏ - ŞANLI QƏLƏBƏ

İsmayılov Ş.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

Açar sözlər: *Prezident, Dəmir yumruq, işğalçılar, müharibə, qələbə*

2020-ci il sentyabrın 27-də erməni silahlı birləşmələri bütün təmas xətti boyunca Azərbaycan Ordusunun mövqelərini və cəbhə xətti yaxınlığındakı mülki yaşayış obyektlərini artilleriya və digər ağır silahlardan atəşə tutdu.

Artıq xalqımızın səbir kasası dolmuşdu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələrinin

əks-hücum əməliyyatları başlandı. Müharibənin ilk günündə Ağdərə, Kəlbəcər və Füzuli- Cəbrayıl istiqamətində əks-hücuma keçən silahlı qüvvələrimiz düşmənə ağır zərbələr endirdi. Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edildi. Şimal istiqamətində isə ordumuz düşmənin müdafiə xətlərini darmadağın edərək Ağdərə rayonunda bir sıra yüksəklikləri və Kəlbəcərin strateji əhəmiyyətli Murovdağ silsiləsindəki yüksəklikləri ələ keçirdi.

Bu sistemlərin aşkara çıxarılıb məhv edilməsi üçün əvvəlcə köhnə və ucuz pilotsuz uçuş təyyarələrinə çevrilmiş yüngül, çoxtəyinatlı təyyarə növü AN (Antonov-2) təyyarələri havaya buraxılırdı. Onlardan yalançı hədəf kimi istifadə edilirdi. Bunu həqiqi döyüş təyyarələri hesab edən düşmən isə "hədəf"i atəşə tuturdu. Müəyyən edilən atəş nöqtələri isə Türkiyə istehsalı olan "Bayraktar", İsrail istehsalı olan "Harop" və Azərbaycanın yerli istehsalı olan "Zərbə" adlı PUA-larla məhv edilirdi.

Düşmən əsil həqiqəti anlayanda isə artıq gec idi. Düşmənin Qarabağdakı Hava Hücumundan Müdafiə Sistemləri darmadağın edilmişdi. Azərbaycan Ordusu XXI əsrin müharibəsini aparır, düşmənə, sözün həqiqi mənasında, hərbi "dərs" keçirdi. Düşmənin öyündüyü və arxalandığı "OSA", "S-300", "TOR" qurğularının böyük hissəsi müharibənin ilk günlərindəcə məhv edildi. Nəticədə Qarabağ səmasında Azərbaycan şahinləri böyük üstünlük əldə etdilər.

Qəhrəman əsgərlərimiz də bir-birinin ardınca azad etdikləri yaşayış məntəqələrimizdən Müzəffər Ali Baş Komandana məruzələrini məhz bu cümlə ilə tamamlayırdılar.

Döyüş meydanında məğlub olan və vəziyyətin getdikcə ağırlaşdığını görən Ermənistan rəhbərliyi dünya dövlətlərindən, havadarlarından imdad diləməyə başlamışdı. Qarabağın üzük qaşı hesab edilən Şuşada, Cıdır düzündə qol açıb oynayan, orada qondarma rejimin rəhbərliyi üçün "andiçmə" mərasimi keçirən Ermənistanın baş naziri cəbhədəki ağır məğlubiyyətlərini diplomatik yolla sığortalamağa çalışırdı. Onun əsas məqsədi nəyin bahasına olursa-olsun, ordumuzun zəfər yürüşünü dayandırmaq idi. Ermənistan rəhbərliyi, demək olar ki, hər gün bir ölkəyə kömək üçün müraciət edir, onları Azərbaycanı durdurmağa çağırırdı.

Azərbaycan Prezidenti İlham Əliyev isə hərbi əməliyyatlar başlayandan dərhal sonra onu dayandırmağın yollarını açıq şəkildə bəyan etmişdi: Ermənistan öz silahlı qüvvələrini Azərbaycandan çıxarmalı, Azərbaycanın ərazi bütövlüyünü tanımalı, işğal edilmiş rayonların geri qaytarılmasının qrafikini təqdim etməlidir.

Cəbhədə, döyüş meydanında sarsıdıcı məğlubiyyətlərdən və verdiyi böyük itkilərdən azğınlaşan düşmən Azərbaycanın mülki yaşayış məntəqələrini, dinc əhalini hədəfə almağa başladı. Təmas xəttindən uzaqda yerləşən yaşayış məntəqələrimizi, dinc əhalini raket atəşinə tutan erməni hərbçiləri bununla ölkəmizdə vahimə və qarışıqlıq yaradacağına ümid edirdi. Oktyabrın əvvəllərindən başlayaraq Tərtər, Bərdə, Beyləqan və Gəncə şəhərləri aramsız raket atəşinə məruz qaldı. Bu raketlər təkcə ermənilərin Qarabağdakı mövqelərindən deyil, Ermənistan ərazisindən də atılırdı. Bununla Ermənistan rəhbərliyi həm Azərbaycanı cavab atəşi açmağa, həm də üçüncü ölkəni münaqişəyə cəlb etmək niyyəti güdürdü. Yaşayış məntəqələrimizə atılan hərbi sursatlar arasında qadağan edilmiş kaset bombaları da var idi. Nəticədə xeyli sayda mülki şəxs həlak oldu. Həyatını itirənlərin arasında körpə uşaqlar da var idi. Lakin verilən çoxsaylı insan itkilərinə, evlərinin dağılmasına baxmayaraq, heç kim öz doğma yurd-yuvasını tərk etmədi. Əksinə, bu cinayətlər xalqımızı daha da birləşdirdi, mübarizə əzmini daha da artırdı. Azərbaycanın hər yerindən evləri dağılmış, qohum-əqrabalarını itirmiş ailələrə yardımlar gəlirdi. Müharibə getməsinə baxmayaraq, dövlət də bu ailələrin sosial vəziyyətini diqqətdə saxlayırdı.

2020-ci il oktyabrın 9-da Rusiya Federasiyası Prezidenti V.Putinin vasitəçiliyi ilə Moskvada Azərbaycan və Ermənistan XİN-in görüşü baş tutdu. Görüşdə humanitar atəşkəsin elan edilməsi ilə bağlı razılıq əldə edildi. Lakin əldə edilən atəşkəsi elə özləri də pozdular. Oktyabrın 11-də gecə saat 2 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan və müharibə zonasından uzaqda yerləşən Gəncə şəhəri qadağan edilmiş raketlərlə atəşə tutuldu.

Nəticədə 10 nəfər dinc sakin həyatını itirdi, 35 nəfər yaralandı. Ümumiyyətlə, hərbi cinayətlər nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak oldu, 454 mülki vətəndaş yaralandı və evsiz-eşiksiz qaldı. Bu çətin anlarda Azərbaycan hökuməti xarici media nümayəndələrini atəşə tutulmuş yaşayış məntəqələrimizə aparır, hadisələrin yerindəcə işıqlandırılmasını və bu hərbi cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasını təmin edirdi. 44 günlük müharibə dövründə qardaş Türkiyənin xəbər agentlikləri, televiziya kanalları xalqımıza qarşı törədilən cinayətlərin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm rol oynadı.

Vətən müharibəsində Azərbaycan Ordusunun şah əsəri Şuşa əməliyyatı oldu. Düşmən Qarabağımızın gözü sayılan bu şəhəri təxminən 1500-2000 nəfərlik qüvvə və çoxsaylı hərbi texnika ilə müdafiə edirdi. Onlar Pənahəli xanın tikdirdiyi qala-şəhərin alınmazlığına əmin idilər. Lakin general-

leytenant Hikmət Mirzəyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri doğma Şuşanı azad etməkdə qərarlı idi. Onlar cəmi 400 nəfərlik dəstə ilə əsas yoldan deyil, düşmənin ağlına belə gəlməyəcək bir istiqamətdən – sıldırım qayalıqlardan dırmaşaraq şəhərə daxil oldular. Yalnız yüngül silahlarla silahlanmış qəhrəman əsgərlərimiz 4 tərəfdən düşmənin içərisinə ustalıqla sızaraq əlbəyaxa döyüşdə Ermənistan ordusunun qüvvələrini məhv etdilər. Düşmən yüzlərlə döyüşçüsünün cəsədini döyüş meydanında qoyaraq qaçmağa məcbur oldu. 2020-ci il noyabrın 8-də Şuşa düşmən tapdağından azad edildi.

Beləliklə, sentyabrın 27-dən başlayan Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı.

Ermənistan öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək məcburiyyətində qalaraq 2020-ci il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycana təhvil verdi.

2020-ci il oktyabrın 19-da BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar keçirilmiş müzakirələrdən sonra Təhlükəsizlik Şurasının adından Rusiya və Fransa tərəfindən bəyanat layihəsi hazırlandı. Lakin layihədə BMT Təhlükəsizlik Şurasının işğal edilmiş Azərbaycan əraziləri barəsində olan qətnamələrə istinad yox idi. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi, o cümlədən Qoşulmama Hərəkatının üzvü olan ölkələr həmin qətnamələrin bəyanata daxil edilməsində israr etdi. Nəticədə münaqişə haqqında əsil həqiqətləri özündə əks etdirməyən layihə geri götürüldü. Bu, Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycanın mühüm qələbəsi idi.

Beləliklə, müzəffər ordumuz Qarabağ uğrunda döyüşlərdə, Azərbaycan diplomatiyası isə beynəlxalq arenada ardıcıl qələbələr qazandı. Müharibənin ilk günlərindən bir sıra ölkələr: Türkiyə, Pakistan, Ukrayna, Gürcüstan və digərləri Azərbaycanın haqq işini müdafiə edərək siyasi dəstəklərini əsirgəmədi. Türkiyə Respublikası Azərbaycana ən böyük mənəvi-siyasi dəstək verən ölkə idi. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin ilk günlərindən çəkinmədən dünyaya "Azərbaycanın yanındayıq" mesajını verdi.

Türkiyə rəsmiləri 44 günlük Vətən müharibəsi dövründə bir neçə dəfə Azərbaycana səfər etmiş, ölkəmizin haqlı mövqeyini diplomatik tribunalardan da müdafiə etmişlər. Bütün bunlar "Bir millət, iki dövlət" ideyasının təntənəsi idi.

44 günlük müharibədə Müzəffər Ali Baş Komandan–Müzəffər Xalq–Müzəffər Ordu birliyi dəmir yumruğa çevrilərək düşmənin məhv edilməsində əsas rol oynadı. Dilindən, dinindən, irqindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları yağı düşmənə qarşı bir yumruq kimi birləşdilər.

Müharibənin ilk günlərindən Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri doğma vətənlərinin müdafiəsinə qalxdılar. XX əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq ölkədə vahid komandanlıq, güclü siyasi hakimiyyət var idi. Ən müasir silahlarla silahlandırılmış peşəkar ordu formalaşdırılmışdı. 1994-cü ildə imzalanmış atəşkəs sazişindən keçən 26 il ərzində Azərbaycan Respublikasının rəhbərliyi dəfələrlə problemin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu bəyan etmişdi. Lakin bununla yanaşı, əgər danışıqlar prosesi nəticə verməzsə, işğal edilmiş ərazilərin hərb yolu ilə azad ediləcəyi Ermənistan rəhbərliyinin və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin diqqətinə çatdırılmışdı. İlham Əliyevin 2003-cü ildə prezident seçilməsindən sonra ordu quruculuğuna diqqət daha da artırıldı. Yeni hərbi doktrina hazırlandı, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması üçün mühüm addımlar atıldı. 2003-cü ildən keçən dövr ərzində hərbi xərclərə dövlət büdcəsindən ayrılan vəsait bütün Ermənistan büdcəsinə bərabər və ya ondanda çox olmuşdur. Bütün bu amillər 44 günlük Vətən müharibəsindəki böyük qələbəmizdə həlledici rol oynadı. Rəşadətli ordumuz havada və quruda düşmənə aman vermədi.

Düşmənin itkiləri o qədər böyük oldu ki, müharibənin sonuna yaxın, demək olar ki, ordusuz qaldı. Çətin döyüş şərtlərinə, bütün strateji yüksəkliklərin düşmənin əlində olmasına baxmayaraq, Azərbaycan Ordusu inanılmaz manevrlər edərək düşmənin "alınmaz" hesab etdiyi müdafiə xətlərini bir-birinin ardınca ələ keçirdi. Kiçik qruplarla düşmən içərisinə sızan qəhrəman əsgərlərimiz az qüvvə ilə düşmənin sayca üstün qüvvələrini darmadağın edib müqəddəs torpaqlarımızdan qovdu. Yalnız Rusiyanın vasitəçiliyi və məsələyə müdaxiləsi Ermənistanı tam hərbi və siyasi fəlakətdən xilas etdi. Düzgün düşünülmüş taktika və strategiya, düşmənin hərbi-müşahidə məntəqələrinin, möhkəmləndirilmiş mövqelərinin və gizlədilmiş döyüş texnikalarının PUA və dəqiq artilleriya zərbələri ilə məhv edilməsi, hərbçilərimizin döyüş bacarığı, yüksək rütbəli zabitlərimizin də öz əsgərləri ilə səngərlərdə çiyin-çiyinə döyüşməsi hərb tariximizin qızıl hərflərlə yazılmış şanlı səhifəsidir. Təəssüf ki, müharibə qansız-qadasız olmur. Vətən müharibəsi dövründə Azərbaycan Ordusu 2908 nəfər şəhid verdi, 6 nəfər isə itkin düşdü. Dövlətimiz və xalqımız öz şəhidlərini ehtiramla dəfn etdi. Hər dəfn mərasimi isə təntənəli yürüşə çevrilirdi. Heç kim əyilmir, heç kim sarsılmırdı. Əksinə, bu mərasimlər torpaqlarımızı işğal etmiş düşmənə nifrət hissini daha da artırırdı. Azərbaycan əsgərləri saysız-hesabsız qəhrəmanlıq nümunələri ilə

dastan yazdılar. Bütün bunlar Azərbaycana qarşı münasibətin dəyişməsinə, dünyanın hər yerində xalqımıza qarşı açıq-aşkar rəğbət və hörmət hissinin formalaşmasına böyük təsir göstərdi.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə hər il **27 sentyabr Anım Günü, 8 noyabr** isə **Zəfər Günü** kimi qeyd edilir.

2020-ci il dekabrın 10-da Bakıda Zəfər paradı keçirildi. Paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edirdilər. Azərbaycan Ordusu hərbi birləşmələrinin və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının hər iki dövlət başçısının olduğu tribuna önündən keçidi xalqlarımızın birliyinin təntənəsi idi.

Hərbi paradda düşmənin sıradan çıxarılmış bahalı hərbi texnikaları ilə yanaşı, işlək vəziyyətdə olan və qənimət kimi ələ keçirilmiş silah-sursatları, ağır texnikaları nümayiş etdirildi. Bu addım vaxtilə düşmən hərbçilərinin və ayrı-ayrı erməni əsilli şəxslərin "Müharibə başlayarsa, tanklarımız Bakıya qədər gələcək" kimi sərsəm bəyanatlarının cavabı idi. Tanklar Bakıya gəlmişdi, amma hərbi qənimət kimi! Paradda düşmənin döyüş maşınlarının dövlət nişanlarından ibarət stend də nümayiş etdirildi. Bu göstəri Birinci Qarabağ savaşından sonra ermənilərin atdığı analoji addımın daha sərt qarşılığı oldu. Zəfər paradında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edərək Vətən müharibəsində qazanılmış qələbənin əhəmiyyətini, həmçinin ölkələrimizin sarsılmaz birliyini dünyaya bir daha çatdırdılar.

2021-ci ilin aprelin 12-də Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə yaradılan Hərbi Qənimətlər Parkının açılışı oldu. Parka giriş üçün ilk bilet Müzəffər Ali Baş Komandan İlham Əliyevə təqdim edildi. Ölkə başçısı Hərbi Qənimətlər Parkının açılış mərasimində çıxış edərək bu parkın yaradılmasının məqsədlərinə aydınlıq gətirdi və əhəmiyyətini vurğuladı. Hərbi Qənimətlər Parkı düşmənin qıcıq mənbəyinə, xalqımızın və ölkəmizə gələn qonaqların isə ən çox ziyarət etdiyi məkanlardan birinə çevrilmişdir.

Dünya ictimaiyyəti təkcə qələbəmizin şahidi olmadı. Onlar həm də işğaldan azad edilmiş ərazilərimizdə ermənilərin törətdiyi dəhşətli dağıntıları, tarixi abidələrimizin, qəbiristanlıqların məhv edilməsini də gördülər. Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş bölgələrimizə səfərlərində ölkəmizdə olan xarici dövlətlərin və informasiya agentliklərinin nümayəndələri də iştirak edirlər.

"Qafqazın Hirosiması" adlandırılan Ağdamın tamamilə dağıdılması, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının talanı erməni vandalizminin əyani nümunələri kimi dünya ictimaiyyətini də heyrətə gətirdi.

İndi dövlətimizin qarşısında duran ən böyük məsələ işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması, məcburi köçkünlərin tezliklə öz yurd-yuvalarına qayıtmasıdır.

Azərbaycan Respublikası Prezidentinin göstərişi ilə qısa müddət ərzində Füzuli şəhərində böyük hava limanı, Şuşaya çəkilən və "Zəfər yolu" adlandırılan yol artıq istifadəyə verilmişdir. Zəngilan və Laçında da hava limanlarının inşası nəzərdə tutulur. Lakin ərazilərin minalanmış olması və Ermənistan rəhbərliyinin bu ərazilərin mina xəritələrinin Azərbaycana təhvil verməməsi quruculuq işlərinin həyata keçirilməsinə böyük maneə törədir. Müharibədən sonra bir neçə Azərbaycan vətəndaşı minaya düşərək həyatını itirmiş, bəziləri isə yaralanmışdır.

2021-ci ilin iyunun 12-də birbaşa hərbi əməliyyatda iştirak etmədiyi və cinayət törətmədiyi məhkəmə yolu ilə sübuta yetirilmiş 15 hərbi əsir Ermənistana qaytarıldı. Əvəzində düşmən tərəfi Ağdamın mina xəritəsini Azərbaycana təqdim etdi. Məlum oldu ki, ermənilər Ağdamı dağıtmaqla kifayətlənməmiş, rayon ərazisinə 97 min ədəd mina basdırmışlar. Lakin bütün çətinliklərə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işləri davam etdirilir. Ağdam şəhərinin yeni bərpa layihəsi hazırlanıb. Füzuli şəhərində kiçik elektrik stansiyası fəaliyyətə başlayıb. Quruculuq işlərinə xarici şirkətlər də cəlb edilib. Şübhəsiz ki, Azərbaycan dövlətinin səyləri nəticəsində yaxın illərdə tamamilə dağılmış vəziyyətdə olan ərazilərimiz yenidən çiçəklənəcək, məcburi köçkünlər öz ata-baba yurdlarına qayıda biləcəklər.

Təkcə 44 günlük Vətən müharibəsi dövründə deyil, müharibədən sonrakı aylarda da Azərbaycan- Türkiyə dostluq və qardaşlıq münasibətləri yüksələn xətlə inkişaf etməkdədir. Ölkə başçısı İlham Əliyevin vurğuladığı kimi,"İki dövlət arasında bu cür səmimi münasibətlər dünyada nadir rast gəlinən münasibətlərdəndir"

SUMMARY

44 DAILY WAR - GLORIOUS VICTORY

Ismayilov Sh.M.

As a result of the 44-day war for the return of our lands lost in and around Karabakh, all our lands were taken back from the Armenian occupiers.The rights of the Republic of Azerbaijan were restored in the lands of Karabakh.

Keywords: *President, Iron Fist, Invaders, War, Victory*

РЕЗЮМЕ

44 ЕЖЕДНЕВНАЯ ВОЙНА - СЛАВНАЯ ПОБЕДА

Исмаилов Ш.М.

В результате 44-дневной войны за возвращение наших земель в Карабахе и вокруг него, утраченных в Карабахской войне, все наши земли были отняты у армянских оккупантов.Права Азербайджанской Республики на землях Карабаха были восстановлен.

Ключевые слова: *Президент, Железный Кулак, Захватчики, Война, Победа*

ERMƏNİLƏRİN QARABAĞA KÖÇÜRÜLMƏSİ: SƏBƏBLƏR, NƏTİCƏLƏR VƏ MÖVCUD VƏZİYYƏT

[1]Kəlbiyev H. [2]Kəlbizadə E.
[1]Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
[2]AMEA Qafqazşünaslıq İnstitutu, Bakı, Azərbaycan
kelbizadeh@gmail.com

Açar sözlər: *Qarabağ, Azərbaycan, etnodemoqrafik tərkib, ermənilər, köçürülmə*

Giriş. Azərbaycanın Qarabağ bölgəsinin etno-demoqrafik tərkibində baş verən dəyişikliklərin dərk edilməsi, ermənilərin bu bölgəyə yerləşməsinin səbəblərinin aydınlaşdırılması üçün tarixin ən qədim dövrlərinə qısaca nəzər salmaq zəruridir. Tarixi qaynaqlar üzərindən aparılmış araşdırmalar nəticəsində artıq çoxdan sübut edilib ki, nə "erməni" nə də "arsax" adlanan anlayışların özlərini "hay", yaşadıqları məkanı isə "Hayastan" adlandıran indiki Ermənistan sakinləri ilə heç bir əlaqəsi yoxdur. Təkcə onu qeyd etmək lazımdır ki, hayların ulu əcdadları hesab edilən friqlərin Van gölü ətrafında "Armenia" adlandırılan bölgəyə gəlməsinə qədər bu ad bölgədə mövcud olmuşdu [12]. Bu baxımdan indiyə qədər özlərini haylar adlandıran xalqın ətrafdakılar tərəfindən erməni şəklində adlandırılması etnik kimliyə deyil, daha çox ərazi kimliyinə əsaslanmışdır. Eləcə də indi hayların Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsini ifadə etmək üçün istifadə etdikləri "Arsak" və ya "Er-sak" adının da ermənilərlə bağlılığı yoxdur, söz yalnız türk dillərində izah edilir. Digər bir məqam isə ondan ibarətdir ki, indiki Qarabağ ərazisi, o cümlədən onun dağlıq hissələri tarixin heç bir dönəmində Ərməniyyə, Armeniya, Ermənistan adlanan hər hansı nəz siyasi, nə inzibati, nə də coğrafi vahidin tərkibinə daxil olmamışdır.

Kilsə Qafqazda ermənilərin yerləşmə prosesində hansı rolu oynamışdır? Bütün qaynaqlar, statistik sənədlər birmənalı şəkildə təsdiq edir ki, Cənubi Qafqazda, o cümlədən tarixi türk yurdu olan Qarabağda XIX əsrə qədər ermənilər heç bir zaman kompakt şəkildə yaşamamış və hər hansı məntəqədə say üstünlüyünə malik olmamışdılar. Qaraqoyunlu dövlətinin hakimiyyəti illərində - 1441-ci ildə Üçkilsənin (Eçmiədzin) Erməni-Qriqorian kilsəsinə mərkəz olaraq verilməsindən [8, s. 29] sonra Qafqazda ermənilərin tək-tək ailələr halında ilkin yerləşmələri müşahidə olunmağa başlamışdı. Bu dövrə qədər Cənubi Qafqaz ərazisindəki Alban xristian kilsəsi öz varlığını qoruyub saxlasa da xüsusən Ərəblərin işğalları dövründə səlahiyyətləri məhdudlaşdırılmış, onu Erməni Qriqorian kilsəsinin bir arxiyepiskopuna çevirmək üçün ciddi cəhdlər göstərilmişdir. Bu baxımdan bəzi hallarda XIX əsrə qədər bölgədə ermənilərin olması ilə bağlı əksini tapan məlumatları təhlil edərkən nəzərə almaq lazımdır ki, burada söhbət milli etnik mənsubiyyətdən deyil, dini kilsə mənsubiyyətindən gedir. Digər tərəfdən aparılan təhlillər göstərir ki, Qaraqoyunlular, Səfəvilər, Əfşarlar dövründə Erməni qriqorian kilsəsinə xüsusi imtiyazlar tanınmasının özünəməxsus səbəbləri olmuş, bölgədəki qeyri-erməni xristian əhalinin bu kilsəyə tabe edilməsinə gətirib çıxarmışdır. Təhlillər bu dəstəyin maraqlı bir səbəbini üzə çıxarmağa imkan verir. Aydın olur ki, indiki bu dövlət və imperiyalar tarix boyunca erməni qriqorianlığını Avropa dövlətləri tərəfindən dəstəklənən katolikliyə və onun müxtəlif ordenlərinə qarşı alternativ olaraq dəstəkləmiş, xristianlığı təbliğ edən missioner ordenlərinə nisbətən dini mərkəzi nəzarət altında olan qriqorianlığı daha idarəolunan və təhlükəsiz hesab etmişlər [6, s. 33-34]. Beləliklə, bölgədə əslində etnik mənsubiyyətinə görə heç zaman erməni olmayan kiçik xristian qrupları dini-kilsə mənsubiyyəti nəzərə alınmaqla əsassız olaraq "erməni" hesab edilmişdir. Halbuki Qarabağdakı alban xristianlarının mərkəzi olan Gəncəsər kilsəsi Eçmiədzindəki Erməni Qriqorian kilsəsindən asıllığı gerçəklikdə heç zaman qəbul etmək istəməmiş, öz tarixi statusunu qorumaq uğrunda daim mübarizə aparmışdır. Qaynaqlar Qarabağ xanlığı dövründə bu feodal dövlətinin tabeliyində olan "Xəmsə

məlikləri”nin (Beş məliklik) əhalisinin guya erməni olmaları ilə bağlı ortaya atılan, erməni “alimləri”nin fantaziyası olan faktları təsdiqləmir [5, s. 36-38].

Buna baxmayaraq çar Rusiyası tərəfindən Azərbaycanın əksər şimal xanlıqlarının, o cümlədən Qarabağ xanlığının işğalından sonra - 1815-ci ildə Alban Arxiyepiskopluğu mitropillik səviyyəsinə endirilmiş [16], 1836-cı ildə isə çar II Nikolayın əmri ilə ləğv edilərək, zor gücünə Erməni Qriqorian Kilsəsinin tabeliyinə verilmişdir [17]. Bu baxımdan bir sıra rus məmurlarının Çar Rusiyası tərəfindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsinə qədər burada olan az sayda ermənilərlə bağlı məlumatlar etnik kimlikdən daha çox kilsə mənsubiyyətini ifadə edirdi.

Ermənilərin Qarabağa kütləvi köçürülməsi və çar Rusiyasının məqsədləri. 1804-1813, 1826-1828-ci illərdə çar Rusiyası və Qacarlar dövləti arasında baş verən iki müharibə, eləcə də 1828-1829-cu illərdə isə çar Rusiyası ilə Osmanlı dövləti arasında müharibələr ermənilərin Qafqaza kütləvi köçürüləməsinin yolunu açmışdır. Xüsusən çar Rusiyası əzəli rəqibi olan Osmanlı dövlətinin Qafqaz və Mərkəzi Asiya türkləri ilə əlaqəsini kəsmək, yerli azərbaycanlı əhalisinin Osmanlı dövləti ilə əlaqələrini məhdudlaşdırmaq, özünə dayaq ola biləcək xristian bölgəsi yaratmaq üçün Qacarlar dövlətinin daxili vilayətlərindən və Osmanlı dövlətinin ərazisindən köçürülən ermənileri əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirməyə çalışırdı. Qarabağa köçürülən ermənilər əsasən Qacarlar dövlətinin ərazisindən – indiki İranın daxili vilayətlərindən gətirilən ermənilər idi. Qarabağda ermənilərin məskunlaşması işinə rəhbərlik dairə rəisi knyaz İ.N.Abxazova tapşırılmışdı [4, s.15]. Artıq 1828-ci ilin may ayının sonlarına qədər Qarabağa 279 erməni ailəsi köçürülmüşdü [4, s.16]. Təkcə iki il ərzində - 1828-1829-cu illərdə Qarabağda ermənilərin sayı 18 min nəfərə çatmışdı [11, s. 228]. Bir daha xatırladılmalıdır ki, mənbələrdə “erməni” adı ilə qeyd olunanların bir qismi alban-xristianları idilər. Sadəcə olaraq çarizm bölgədə erməni əhalisinin çoxluğu görüntüsünü yaratmaq üçü albanların da ermənileşdirilməsi siyasətinə dəstək verir, çar məmurları siyahyaalmalarında onların kilsə mənsubiyyətini əsas götürməklə qriqoryan-erməni kimi qeyd edirdilər.

XIX əsrin 40-cı illərinin əvvəllərində bölgədə erməni adlandırılan əhalinin sayı 35 min nəfərə yaxın idi [11, s. 228]. Burada köçürmə ilə yanaşı digər bir faktor da nəzərə alınmalıdır. 1836-cı ildə alban kilsəsinin ləğvindən sonra ermənilərin sayının birdən-birə qəflətən artması həm də bu hadisə ilə bağlı olmuşdur. Artıq birmənalı şəkildə erməni kiləsinə tabe edilmiş albanları rus məmurları erməni kimi qeydiyyata alırdılar.

XIX əsr boyunca davam edən ermənilərin köçürülməsi və yerləşdirilməsi siyasəti, paralel olaraq müsəlman – azərbaycanlı əhaliyə qarşı təzyiqlər Qarabağda müsəlmanların –azərbaycanlıların sayının azalmasına müəyyən təsirlər göstərmişdi. 1916-cı ildə belə keçmiş Qarabağ xanlığına daxil olan ərazilərdə əhalinin 51 faizini azərbaycanlılar, 46 faizini isə ermənilər və zorla erməni kimi qeydə alınmış albanəsilli xristian əhali təşkil edirdi [9, s. 36].

XIX əsrin sonu – XX əsrin əvvəllərində də Qarabağ ərazisində ermənilərin yerləşməsi prosesi müşahidə edilirdi. Belə ki, Osmanlı dövlətinə qarşı baş verən erməni üsyanları, bölgədə gərginliklərin yaranması ermənilərin Cənubi Qafqaza, o cümlədən Qarabağ ərazisinə axınlarını güclədnirirdi.

1917-1919-cu illərdə regionda yaranmış qeyri-sabitlikdən, qarışıqlıqlardan, Azərbaycan Xalq Cümhuriyyətinin bu ərazilərə tam nəzarəti təmin edə bilməməsindən istifadə edən erməni quldur dəstələri, eləcə də Daşnak Ermənistanının dəstəklədiyi qüvvələr Qarabağda və Zəngəzurda dinc azərbaycanlı əhaliyə qarşı qırğınlar törədirdilər. 1919-cu ilin axırları – 1920-ci ilin əvvəlində avanşir, Cəbrayıl və Şuşa qəzalarında, hələ xanlıqlar dövründə Qarabağ xanlığının bir hissəsi olmuş Zəngəzurda erməni quldur dəstələri türk-müsəlman əhaliyə qanlı qətliamlar törətmişdilər.

Sovet dövründə Qarabağın etnik tərkibini dəyişdirmə cəhdləri. Bakının 1920-ci ilin aprelin 27-də bolşeviklər tərəfindən işğalından və bir gün sonra Azərbaycan SSR-in yaradılmasının elan olunmasından sonra bütün ölkəyə nəzarətin ələ keçirilməsi üçün XI Qırmızı Ordu hərəkətə keçdi. May ayının ortalarında Qarabağ nəzarət altına alındı. 1920-ci ilin noyabrın sonlarında Ermənistanda sovet hakimiyyətinin elan edilməsi, Rusiya bolşeviklərinin Azərbaycan əraziləri hesabına erməni bolşeviklərinin daşnaklar qarşısında mövqelərini gücləndirmək cəhdləri fonunda Azərbaycanın bolşevik hakimiyyətinə təzyiqlər artırdı. V.İ.Lenin və tərəfdarları Ermənistanda münasibətdə “sovetləşmə əvəzinə ərazilər” prinsipini nəyin bahasına olursa olsun Azərbaycan hakimiyyətinin əli ilə etməyə çalışırdı. Məhz bunun nəticəsi idi ki, 1920-ci ilin noyabr ayının 30-da Azərbaycan İnqilab Komitəsi Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi, Qarabağın dağlıq hissəsində yaşayan erməni əhaliyə isə tam şəkildə öz müqəddəratını tanıma hüququnun tanınması barədə bəyanat Verdi [13, s.6-7]. Ermənistan Xalq Komissarlar Soveti isə heç bir əsas olmadan 12 iyun 1921-ci ildə Azərbaycanın Qarabağ bölgəsinin Erməsnistana məxsusluğu barədə dekret Verdi [9, s. 57]. Lakin iyulun 5-də Rusiya Kommunist Partiyası Qafqaz Bürosunun Plenumunun iclas protokolunda yazırılırdı: “Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyini, yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində

saxlanılsın" [9, s. 58]. 1923-cü il iyulun 7-də Azərbaycan SSR Sovetləri Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır [14, s. 152-153]. Muxtar vilayətin yaradılmasından sonra xaricdən gələn ermənilərin indiki Ermənistan adlanan ərazi ilə yanaşı, gizli şəkildə Qarabağ bölgəsinin dağlıq hissəsində də məskunlaşdırılması müşahidə edilmişdir. Bölgənin dağlıq hissəsində xüsusi bir inzibati vahid – muxtar vilayət yaratmaqla, bölgənin tarix boyu formalaşmış təbii inzibati bölgüsü bölməklə bolşeviklər gələcəkdə buranın Ermənistana verilməsi üçün təbii əsas yaratmağa çalışmışdılar. Lakin buna baxmayaraq azərbaycanlı əhali yaranmış sabitlikdən istifadə edərək tədricən öz doğma yurd-yuvalarına qayıtmış, azərbaycanlılar arasında təbii artımın yüksək olması hesabına əhalinin tərkibind onların sayı tədricən artmışdır. 1926-cı ilə aid rəsmi statistikada Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin 10,1 faizini Azərbaycanlılar, 89,1 faizini ermənilər təşkil edirdilər. 1959-cu ildə isə muxtar vilayətin əhalisinin 13,8 faizi azərbaycanlılardan, 84.4 faizi etnik ermənilərdən ibarət olmuşdur [7]. Aparılan tədqiqatlar göstərir ki, XX əsrin 40-cı illərində yaradılmış qondarma muxtar vilayətdə azərbaycanlı əhalinin sayının daha yüksək say artımım qarşısının alınması üçün inzibati addımlar atılmışdı. Məsələn 1949-cu ildə 132 ailə (549 nəfər) azərbaycanlı vilayətin ərazisindən Azərbaycan SSR-in Xanlar (Göygöl) rayonuna köçürülmüşdü [2, s.43]. XX əsrin 40-cı illərində baş verən müharibə XX əsrin 70-ci illərində bölgədə aparılan böyük quruculuq tədbirləri, habelə daşnakların bölgədəki gizli fəaliyyətinin qarşısının alınması, təhlükəsizliyin daha yüksək səviyyədə təşkil oluna bilməsi sayəsində bölgə əhalisinin tərkibində azərbaycanlı əhalinin sayı artmışdır. 1970-ci ilin statistikasına artıq azərbaycanlılar əhalinin 18,1, ermənilər isə 80,5 faizini təşkil edirdilər. 1979-cu ildə isə bölgə əhalisinin 23 faizi azərbaycanlılar, 75,9 faizi etnik ermənilər idi [7].

Qarabağın ermənilərə aid olmamasını sübut edən addımlardan biri XX əsrin 70-ci illərində elə vilayətin erməni idarəçiliyinin özü tərəfindən atılmışdı. Belə ki, 1978-ci ildə ermənilər Qarabağa köçürülmələrinin 150 illiyini təntənə ilə qeyd etmiş, Azərbaycanın Dağlıq Qarabağ vilayətinin Ağdərə - Mardakert rayonunda bu münasibətlə abidə qoymuşlar. 1989-cu ildə Qarabağın dağlıq hissəsində mövcud olan qondarma muxtar vilayətdə 145 min 593 nəfər erməni (ümumi əhalinin 76,4 faizi), 42 min 871 nəfər azərbaycanlı (22,4 faiz) yaşayırdı. 1988-1994-cü illərdə Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisini işğal etməsi, paralel olaraq azərbaycanlı əhaliyə qarşı qətliyam və soyqırımlarla müşahidə olunmuş, işğal nəticəsində keçmiş vilayət ərazisində və işğal olunmuş ətraf bölgələrdə yaşayan azərbaycanlı əhali öz yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmışdılar.

İşğaldan sonrakı dövrdə göstərilən cəhdlər. İşğaldan sonrakı dövrdə bölgədəki ermənilərin sayının qanunsuz miqrasiya hesabına artırılması üçün Ermənistan dövləti tərəfindən məqsədyönlü işlər həyata keçirilmişdir. Lakin işğalçı hərbi xunta rejiminin nəzarətində ağır həyat şərtləri, iqtisadi böhran ermənilərin bölgədən miqrasiya etməsinə səbəb olmuşdu. 2005-cu ildə ATƏT-in faktları araşdırma missiyası hesabatından aydın olur ki, təkcə keçmiş Dağlıq Qarabağ vilayətinə aid olmayan, lakin Ermənistan tərəfindən işğal edilmiş ətraf rayonlarda 14 min nəfərə yaxın erməni məskunlaşdırılmışdı. Kəlbəcər rayonunun ərazisində 2700, Kəlbəcər şəhərinin özündə 450-500, Cəbrayıl rayonunun ərazisində 100, Ağdam rayonunun ərazisinin işğal altında olan hissəsində 800-1000, Zəngilan rayonunun ərazisində 700-1000, Qubadlı rayonunun ərazisində 1000-1500, Laçın rayonunun ərazisində 6000-8000 [3]. Ermənistan dövləti mümkün olduqca bölgəyə ermənilər yerləşdirməyə çalışsalar da bir müddət sonra özlərinə aid olmayan torpaqlardan əhalinin köçü müşahidə olunurdu. İşğal olunmuş ərazilərdəki "oyuncaq rejim" isə statistik rəqəmlərlə oynamağa, xüsusən Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsində ermənilərin sayın mövcud olandan daha yüksək göstərməyə çalışmışdır. Bölgənin qeyri-qanunu məskunlaşdırılması ilə bağlı digər faktlar da mövcuddur. Xüsusən 2010-cu ildə Yaxın və Orta Şərq ölkələrində "Ərəb baharı" dalğasının başlaması ilə Suriya və Livandan etnik ermənilərin bölgəyə gətirilməsinə və qanunsuz olaraq məskunlaşdırılmasına çalışmışlar. 2014-cü ilə aid məlumatlardan birində qeyd olunurdu ki, Suriyada vətəndaş müharibəsinin başlamasından sonra 22 ailə köçürülərək Azərbaycanın işğal olunmuş Zəngilan, Kəlbəcər və Laçın torpaqlarında yerləşdirimişdir [10]. Yaxın Şərqdən təbii artımın yüksəkliyini nəzərə alsaq bu ailələrin hər birinin 5-7 nəfərdən ibarət olduğunu müəyyən etmək olar. Bu isə o deməkdir ki, təkcə Suriyadan cəmi üç il ərzində 150-dən artıq erməni gətirilərək qanunsuz şəkildə işğal olunmuş ərazilərdə yerləşdirilmişdi.

BBC-nin rus bölməsinin hazırladığı reportajlardan birində Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsində işğalçılar tərəfindən sadəcə olaraq bir kənddə 300 nəfər Livan ermənisinin yerləşdirildiyi qeyd olunmuşdu [15].

"Erməni qaçqınların geri qaytarılması" adı altında məkrli planlar. 2020-ci ilin sentyabr-noyabr aylarında baş verən və Azərbaycanın işğal altında olan əraziləri azad etməsi ilə nəticələnən II Qarabağ müharibəsi də Ermənistan dövlətinin ərazilərdə qanunsuz məskunlaşma aparması ilə bağlı bir çox faktları

üzə çıxarmışdı. Müəyyən edilmişdi ki, işğal dövründə Zəngilan rayonu ərazisinə 60 suriyalı erməni (cəmi 19 ailə) qanunsuz olaraq köçürülmüşdür [10].

Müharibədən sonrakı dövrdə qaçqınların bölgəyə qaytarılması adı altında hələlik Rusiya sülhməramlılarının nəzarəti altında olan bölgəyə də Ermənistandan qanunsuz köçlərin təşkilinə cəhdlər göstərilmişdir. Paralel olaraq ermənilər, o cümlədən Rusiya sülhməramlıları nəzarətləri altında olan əraziyə qayıdan ermənilərlə bağlı şişirdilmiş statistik rəqəmlər açıqlamağa başlamışdılar. Bunda məqsəd guya burada erməni əhalinin kütləviliyi ilə bağlı faktiki vəziyyət yaratmaq və gələcəyə hesablanmış bir çox çirkli məqsədlərdir. Bu məqsədləri çıxışlarından birində dəqiqliklə ifşa edən, Azərbaycanda yetərli məlumatların olduğunu deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev faktları aşağıdakı şəkildə vurğulamışdı:

"Biz Laçın dəhlizi ilə Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri də izləyirik. Xankəndiyə gedən avtomobillərin sayını dəqiqliyi ilə bilirik. Bu yaxınlarda bizim mətbuatda bu məsələ ilə bağlı açıqlama verildi, o cümlədən göstərildi ki, son bir ay ərazində - iyulun 11-dən avqustun 8-dək təqribən 5 minə yaxın insan Xankəndidən Ermənistan tərəfinə getdi və qayıtmadı. Yəni, oradan 20 min insan çıxdı və 15 min insan oraya girdi. Deməli, biz insanların sayına qədər bilirik.

...Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazidə yaşayan ermənilər biz yolunu azmış Azərbaycan vətəndaşları sayırıq. Onların sayı o qədər də çox deyil. Dəqiq məlumata görə, 25 minin altındadır" [1].

Nəticə. Qaynaqlarda, arxiv sənədlərində verilən məlumatların, eləcə də rəsmi-statistik sənədlərin təhlili sübut edir ki, XIX əsrə qədər Azərbaycanın Qarabağ regionu, o cümlədən onun dağlıq hissəsində heç bir zaman erməni əhalisini kütləvi şəkildə yaşamamışdır. Son orta əsrlər dövründə bölgədə nadir hallarda çalışan "erməni" adlanan ünsürlər heç də etnik baxımdan indiki Ermənistanda yaşayan hay-erməni ünsürü ilə eynilik təşkil etməmişdir. Sadəcə olaraq müxtəlif siyasi və dini proseslərin təsiri altında qriqorian kilsəsinin təsiri altına düşmüş və ya ona bağlı olmaq məcburiyyətində qalmış xristian əhali olmuşdur. XIX əsrdə Qafqazın çar Rusiyası tərəfindən işğalından sonra Qacarlar dövlətinin daxili vilayətlərindən və Osmanlı imperiyasından ermənilərin Azərbaycan torpaqlarına o cümlədən Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülməsi və məskunlaşdırılması siyasəti həyata keçirilmişdir. Köçürmə siyasətinin bütün kütləviliyinə baxmayaraq Azərbaycanın Qarabağ bölgəsində,eləcə də XVIII-XIX əsrin əvvəllərində Qarabağ xanlığının tərkib hissəsi olmuş Zəngəzurda XIX əsrin sonlarına qədər ermənilər kütləvi çoxluğu təşkil etməmişdilər. 1905-1907-ci illərdə ermənilər tərəfindən Çar Rusiyasının da dəstəyi ilə azərbaycanlı əhaliyə qarşı həyata keçirilən qırğınlar, 1918-1919-cu illərdə gerçəkləşdirilən soyqırımı aktları bu bölgələrdə azərbaycanlı əhalinin azaldılması, məhv edilməsi məqsədinə xidmət etmişdi. Rusiya imperializmini yeni formada davam etdirən Sovetlər bütün qırğın və qətliamlara baxmayaraq ermənilərin say üstünlüyü təşkil etdiyi bölgə yarada bilmədikləri üçün Azərbaycanın Qarabağ regionunun ermənilər məskunlaşdırılmış dağlıq ərazilərində süni və qondarma bir muxtar vilayət yaratmışdılar. Sonrakı dövrdə bu saxtakar fəaliyyətin əsaslandırılması üçün məqsədli olaraq elə bir ərazi seçilmişdi ki, həmin ərazidə xristian məbədləri, kilsə və monastrların sayı çox olsun. Beləliklə, tarixən xristian albanların məskun olduqları Qarabağ bölgəsinin dağlıq hissəsi erməni ünsürü ilə doldurulduqdan sonra bu hissənin süni surətdə xüsusi status qazanmasına nail olmuşdular. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də vaxtilə vurğuladığı kimi, belə bir qondarma vilayətin yaradılması əslində Azərbaycan üçün "gec partlayan mina" rolunu oynamışdır. Bu cür siyasət Sovet Rusiyasına Cənubi Qafqazı əldə saxlamağa, bölgədən lazım gəldikdə cəzalandırma vasitəsi kimi istifadə etməyə imkan vermişdi. Lakin xüsusən XX əsrin 70-ci illərində Azərbaycan SSR rəhbərliyində olan Heydər Əliyev tərəfindən həyata keçirilən siyasət bu tarixi Azərbaycan torpağında azərbaycanlıların sayının yenidən artmasına gətirib çıxarmışdır. Belə olan halda Heydər Əliyevi Azərbaycandan uzaqlaşdırmaqla Sovet rəhbərliyi bölgədə erməni təbliğatının güclənməsinə, terror-siyasi təşkilatlarının fəallaşmasına rəvac vermişdir. Bölgədə azərbaycanlı əhaliyə qarşı təhdid və terror fəaliyyətləri güclənmiş, 1988-1994-cü illərdə baş verən müharibə nəticəsində isə keçmiş qondarma muxtar vilayətin ərazisi və ətraf rayonlar Ermənistan tərəfindən işğal edilmişdir. İşğal dövründə Ermənistanın bölgəyə qanunsuz olaraq erməniləri yerləşdirməyə çalışmasına baxmayaraq gətirilən əhali özlərinə aid olmayan torpaqları tərk edərək digər ölkələr köçmüşdür. Buna baxmayaraq Ermənistan dövləti ərazilərin işğaldan azad edilməsinə qədər müxtəlif Yaxın və Orta Şərq ölkələrindən yoxsul erməni qaçqınlarını müxtəlif vədlərlə buraya yerləşdirməyə çalışmışdır. 2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycanla Ermənistan arasında baş verən və işğal olunmuş ərazilərin azad edilməsi ilə nəticələnən II Qarabağ müharibəsindən sonra ermənilərin bölgədən axınları başlamışdır. Müxtəlif dövrlərdə bölgəyə köçürülmüş erməni əhali özlərinə məxsus olmayan əraziləri kütləvi tərk etməyə başlamışlar. Lakin müxtəlif siyasi və geosiyasi ambisiyalardan irəli gələrək Azərbaycan ərazisinin Rusiya sülhməramlılarının müvəqqəti olaraq nəzarətində olan ərazilərinə ermənilərin gətirilməsi üçün həm Ermənistan, həm də Rusiya tərəfindən cəhdlər göstərilməkdədir. Erməniləri buraya artıq cəlb edə bilməyən

bu qüvvələr guya bölgəyə qayıdan ermənilər barədə şişirdilmiş rəqəmlər təqdim etməklə faktiki vəziyyət yaratmağa cəhd göstərirlər.

ƏDƏBİYYAT

1. *Azərbaycan Prezidenti İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi.* (2021, Avqust 14). Bu Azərbaycan Respublikası Prezidentinin Rəsmi internet saytı: https://president.az/articles/52736 mənbədən tapılıb
2. Dadaşova, R. B. (2019). *Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarix, siyasi və hüquqi təhlil* . Bakı: Mütərcim.
3. Haber, E., Chahtahtinsky, A., Dvinyanin, A., Kasprzyk, A., O'Neill, L., & Pietrusiewicz, J. (2005). *Report of the OSCE Fact-Finding Mission (FFM)to the Occupied Territories of Azerbaijan Surrounding Nagorno-Karabakh (NK).* Prague: OSCE.
4. Qasımlı, M. C. (2014). *"Ermənı məsələsi"ndən "ermənı soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920).* Bakı: Mütərcim.
5. *Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr - I kitab.* (1989). Bakı: Yazıçı.
6. *Nadir şah Əfşarın Azərbaycanın xristian əhalisi ilə münasibətlərinə dair farsdilli sənədlər (Ermənı icmasının timsalında)./ Tərt. N.Gözəlova.* (2020). Bakı: Elm.
7. *Resettlement of armenians to Karabakh.* (2005). Virtual Karabakh: https://www.virtualkarabakh.az/en/post-item/29/112/resettlement-of-armenians-to-karabakh.html adresinden alınmıştır
8. Stone, N., & Stone, M. E. (2007). *The Armenians: Art, Culture and religion.* Chester Beatty Library.
9. Şükürov, K., & Mahmudov, Y. (2005). *Qarabağ: Real tarix, faktlar, sənədlər.* Bakı: Təhsil.
10. Tağıyev, T. (2020, Noyabr 9). *Qarabağda məskunlaşmış Suriya və Livan ermənləri.* Bu Azvision: https://azvision.az/news/236885/qarabagda-meskunlasmis-suriya-ve-livan-ermenleri--fotolar-.html mənbədən tapılıb
11. Вердиева, Х. (1999). *Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX - начало XX века).* Баку.
12. Геродот. (1972). *История в девяти книгах. Изд-во «Наука», Ленинград.* http://ancientrome.ru/antlitr/t.htm?a=1269007000#77 adresinden alınmıştır
13. Декларация Азревкома в связи с установлением в Армении советской власти. (tarixsiz). Nahçivan Özerk Cümhuriyyeti Devlet Arşivi, Fond 314, liste 5, klasör 15, .
14. *К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР: 1918-1925: документы и материалы.* (1989). Баку: Азернешр.
15. Катаева, М. (2020, октября 23). *Как живут ливанские армяне в Карабахе и что думают о войне между Арменией и Азербайджаном.* BBC NEWS (Русская служба): https://www.bbc.com/russian/features-54659346 adresinden alınmıştır
16. Мобили, Р. (2012, января 18). *Албанская церковь и армянская фальсификация.* Албано-удинская Христианская обшина: https://udi.az/articles/0009-2.html adresinden alınmıştır
17. *Указ от 11 марта 1836 года Его Императорского Величества Правительствующему Сенату об утверждении Положения «О управлении делами Армяно-Григорианской Церкви в России».* (1836). Erevangala: https://erevangala500.com/upload//pdf/1324321669.pdf adresinden alınmıştır

SUMMARY

TRANSMIGRATION ARMENIANS TO KARABAKH: CAUSES, CONSEQUENCES AND CURRENT SITUATION

Kalbiyev H., Kalbizade E.

The article examines the identity of Armenians, the role of the Gregorian Church in the process of Armenianization in the Caucasus, their mass resettlement to Karabakh and the goals of Tsarist Russia in the process. In addition, the study also touched upon the attempts to change the ethnic composition of Karabakh during the Soviet era, and the efforts made in this direction in the post-occupation period. The article, which compares historical processes with modern political processes, shows the true nature of the insidious plans based on the facts under the title "Return of Armenian refugees" after the 44-day war.

Keywords: *Karabakh, Azerbaijan, ethno-demographic composition, Armenians, resettlement*

РЕЗЮМЕ

ПЕРЕСЕЛЕНИЕ АРМЯН В КАРАБАХ: ПРИЧИНЫ, ПОСЛЕДСТВИЯ И СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ

Калбиев Х., Калбизаде Э.

В статье рассматривается идентичность армян, роль Григорианской церкви в процессе арменизации на Кавказе, их массовое переселение в Карабах и цели царской России в этом процессе. Кроме того, в исследовании также изучались попытки изменения этнического состава Карабаха в советское время и усилия, предпринятые в этом направлении в постоккупационный период. В статье, в которой исторические процессы сопоставляются с современными политическими процессами, показан истинный характер коварных планов, основанных на фактах под названием «Возвращение армянских беженцев» после 44-дневной войны.

Ключевые слова: *Карабах, Азербайджан, этнодемографический состав, армяне, переселение.*

SLAVYANLARIN BƏRDƏ ŞƏHƏRİNƏ HÜCUMU

Kərimli S.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
samir-karimli@mail.ru

Açar sözlər*: Bərdə, slavyan, rus, Salari dövləti, Kürki bazarı*

Azərbaycanın qədim şəhərlərindən olan Bərdənin yaşayış məskəni olaraq meydana gəlməsi aparılan arxeoloji tədqiqatlara görə eramızdan əvvəlki dövrə aid edilir. Lakin şəhərin yüksək sürətlə inkişafı erkən orta əsrlərdə olmuşdur. Məhz V əsrdə Bərdənin Albaniyanın paytaxtına çevrilməsi şəhərin siyasi, iqtisadi, mədəni həyatında əsaslı dəyişikliklərə səbəb oldu. Alban tarixçisi Musa Kalankatukluya görə Arşaki sülaləsinin nümayəndəsi II Vaçe (444-463) Şimali Qafqaz istiqamətində davam edən köçəri tayfaların dağıdıcı hücumu qarşısında 446-cı ildə Qəbələ şəhərinin əvəzinə Kür çayı sahilinə yaxın ərazidə yerləşən Bərdəni inşa etdirərək paytaxtı bura köçürtdü (5, s.151). Digər məlumatında isə Musa Kalankatuklu Bərdə şəhərinin salınmasına dair əmrin Sasani şahı Firuz (459-484) tərəfindən verildiyini göstərir (9, s.20).

Müəyyən dövrlərdə Sasanilərin Albaniyanın müstəqilliyinə son qoyaraq burada mərzbanlıq idarəetməsi tətbiq etmələrinə baxmayaraq Bərdənin inkişafının qarşısını almaq mümkün olmamışdır. 630-cu ildə Albaniyada hakimiyyətə gələn Mehranilər sülaləsi yenidən Bərdəni paytaxta çevirdi (10, s.158). 705-ci ildə Ərəb Xilafəti tərəfindən Albaniyanın müstəqilliyinə son qoyulsa da Bərdə şəhəri əhəmiyyətini itirmədi. Çünki bu dövrdən başlayaraq Kür və Araz çayları arasındakı ərazi Arran vilayəti, Bərbə şəhəri isə Arranın mərkəzi olaraq tanınırdı (7, s.33). 859-cu ildə ərəb mənşəli Yezid ibn Məzyəd mərkəzi Bərdə şəhəri olmaqla yarımmüstəqil əmirlik qurdu.

Bərdə şəhəri siyasi və inzibati cəhətdən mərkəz olmaqla bərabər həm də ticarət və sənətkarlıq mərkəzi kimi tanınırdı. Şəhərdə yerləşən Kürki bazarı onun şan-şöhrətini yaxın və uzaq olkələrə yayırdı. Yerləşdiyi bölgənin siyasi, iqtisadi və mədəni həyatında oynadığı mühüm rola görə Bərdə şəhəri dövrün bəzi müəllifləri tərəfindən "Arranın anası" olaraq xatırlanmışdır (7, s.108). Təsadüfi deyildir ki, X əsr ərəb müəllifi İstəxri Xorasandan İraqa qədər olan ərazidə Rey və İsfahandan sonra Bərdəni ən gözəl və böyük şəhər hesab etmişdir (7, s.88).

Dövrünün inkişaf etmiş şəhərlərindən olan Bərdə vaxtaşırı yadelli işğalçıların hücumuna məruz qalırdı. Şəhərə olan hücumlardan biri – hətta ən faciəli olanı 943-944-cü illərdə slavyanların iştirakı ilə həyata keçirilmişdir. Əslində slavyanlar hələ IX əsrin ikinci yarısından etibarən Azərbaycan torpaqlarına hücumlar təşkil edirdilər. Lakin 943-944-cü illərdə Bərdəyə edilən yürüş əvvəlki yürüşlərdən xeyli fərqlənirdi. Hər şeydən öncə vurğulamaq lazımdır ki, slavyanlar əvvəllər qarətçi və talançı məqsəd daşıdığı halda 943-944-cü illərdəki yürüşü işğal və məskunlaşmaq üçün həyata keçirmişdilər. Həmçinin slavyanlar əvvəllər yürüşlərini Xəzərsahili Azərbaycan torpaqlarına qarşı təşkil edirdilərsə bu dəfə ölkənin içərilərinə doğru hərəkət etməyi qarşılarına məqsəd qoymuşdular. Başqa tərəfdən isə slavyanlar bu yürüşdə əvvəlkilərə nisbətən say etibarı ilə də fərqlənirdilər. Və slavyanlar bu yürüşü məhz Bərdəyə doğru həyata keçirdilər. Yürüşün Bərdə şəhərinə təşkil edilməsi təsadüfən olmamışdır. O dövrdə Bərdənin məşhur Kürki bazarı və vacib ticarət yolları üzərində yerləşməsi şəhərin adının uzaq ölkələrdə də tanınmasına səbəb olmuşdur. lakin

bu yürüş təkcə şəhərin ad-sanı ilə bağlı olmamışdır. Belə ki həmin dövrdə Ərəb Xilafətinin dağılması, Azərbaycan ərazisində vahid dövlətin olmaması və feodal dağınıqlığının mövcudluğu da slavyanları özünə cəlb edirdi.

Slavyanların Bərdəyə yürüşü çox böyük dağıntılar və qırğınlarla müşayət olunduğundan bir çox orta əsr müəlliflərinin əsərlərində bu haqda məlumat öz əksini tapmışdır. Lakin ən qiymətli və geniş məlumatlar İbn Miskaveyhə (1030-cu ildə vəfat etmişdir) aiddir (4). Məhz bu səbəbdən məqalədə daha çox İbn Miskaveyhin məlumatlarına istinad edilmişdir. Bununla belə digər orta əsr müəlliflərinin də məlumatlarından faydalanmaq mümkün olmuşdur. Belə müəlliflərdən biri Azərbaycan tarixçisi Musa Kalankatuklu da slavyanların hücumuna "Alban tarixi" adlı əsərində toxunmuşdur (4). Hətta görkəmli Azərbaycan şairi Nizami Gəncəvi də "İsgəndərnamə" əsərində slavyanların Bərdəyə hücumu mövzusuna nəzər yetirmişdir (6). Bundan başqa İbn əl-Əsir (1160-1233), Yaqut əl-Həməvi (1178-1229), Əbu əl-Fərəc (1286-cı ildə vəfat etmişdir), İbn Haldun (1406-cı ildə vəfat etmişdir) və digərləri də bu barədə məlumat vermişlər. Bəzi tədiqatçılara görə bir çox orta əsr müəllifləri əsərlərindəki məlumatları əslində İbn Miskaveyhə istinadən vermişlər. Bütün müəlliflər əsərlərində demək olar ki, əsasən İbn Miskaveyhin məlumatlarını təkrar etsələr də Əbu əl-Fərəc ilə İbn Haldun bir məsələdə fərqlənmişdir. Belə ki, Əbu əl-Fərəc Bərdəyə hücumun İbn Miskaveyhdən fərqli olaraq hicri 332-ci ildə (miladi 943) deyil hicri 333-cü ildə (miladi 944) baş tutduğunu göstərir. İbn Haldun isə yadellilərin vətəninin Rum ölkəsi (Bizans imperiyası) və Azərbaycan sərhəddində yerləşdiyini qeyd edir.

İbn Miskaveyh məlumat verir ki, hicri 332-ci ildə (miladi 943-cü il) slavyanlar Kür çayı ilə üzərək Bərdəyə yaxınlaşdılar (2, s.121). Bu zaman onların qarşısına Salari hökmdarı Mərzuban ibn Məhəmmədin nümayəndəsi və Bərdə şəhərinin hakimi çıxdı. Onların yanında 300 nəfərədək döyüşçülər də vardı. Sonradan isə köməyə gələn əlavə qüvvələr sayəsində slavyanlara qarşı toplanan silahlıların sayı 5000 nəfərə çatdı. Döyüşdən öncə sadə insanlar ərazini tərk etdilər. Slavyanların üstünlük qazandığı gərgin keçən döyüşdə müsəlman əsgərlər ağır itki verdilər. Əsgərlərin böyük hissəsi qətlə yetirildi. Sağ qalan müsəlman əsgərlər isə qaçmağa başladı. Qaçan müsəlman əsgərlərini təqib edən slavyanlar demək olar ki, müqavimət görmədən Bərdə şəhərinə daxil oldular. Şəhərdəki əhalinin də böyük hissəsi təcili şəkildə Bərdə şəhərini tərk etdi. İbn Miskaveyh qeyd edir ki, hadisənin şahidi olan Əbu Abbas ibn Nudar adlı şəxsin verdiyi məlumata görə şəhərə daxil olan slavyanlar əhaliyə üz turaraq Bərdəyə həmişəlik gəldiklərini, bunun üçün də şəhərdə hakimiyyəti ələ keçirəcəklərini bildirmiş, yerli əhalidən isə onlara tabe olmasını tələb etmişlər (9, s.30).

Yadellilərin yerli əhaliyə müraciətində ən çox diqqəti özünə cəlb edən məqam slavyanlarla şəhər əhalisinin dini inancının eyni olmasını iddia etmələri olmuşdur. Ola bilsin ki, yadellilər yerli əhalini silahlı müqavimət fikrindən yayındırmaq üçün belə fikir söyləmişlər. Əbu əl-Fərəc Bərdəyə hücum edənlərin alan, slavyan və ləzgi tayfalarından ibarət olduğunu qeyd etməklə hücum edənlərin fərqli etnoslardan olması ilə bərabər ayrı-ayrı dini inanclara da sahib ola biləcəklərini qeyd etmişdir (8, s.380). Slavyanların yerli əhali ilə eyni dini inanca malik olması fikrinə başqa aspektdən də yanaşmaq mümkündür. Bərdə şəhəri uzun müddət Albaniya dövlətinin paytaxtı olmaqla bərabər həm də xristianlığın mərkəzi kimi də çıxış edirdi. Ərəb Xilafəti dövründə isə xristianlıq dininə qarşı nisbətən mülayim münasibətin göstərilməsi səbəbindən mümkündür ki, Bərdədə xristian icması qalmaqda idi.

Az müddət sonra Bərdə şəhərinin ətrafına müsəlmanların yaşadığı müxtəlif ərazilərdən xeyli sayda silahlı insanlar toplaşmağa başladı. Şəhər ətrafındakı əsgərlərin slavyanlar üzərinə hücumu zamanı şəhər daxilindəki müsəlmanlar yadellilərin üzərinə daş ataraq "Allahu əkbər" deyərək qışqırırdılar. Yerli əhalinin itaətsizliyini görən yadellilər şəhər əhalisinə Bərdəni tərk etmələri üçün 3 gün müddət verdilər. Lakin əhalinin əksəriyyəti bu tələbi ciddiyə almadığından Bərdədə qaldılar. Mövcud vəziyyətdən hiddətlənən slavyanlar şəhərdə böyük qırğın törətdilər. Daha sonra 10000 nəfərdən çox sağ qalan əhlini topladılar. Onlardan qadın və uşaqları Bərdənin Şəhristan adlanan hissəsinə apararq orada özlərinə dayaq qurdular. Kişiləri isə şəhər məscidinə yığaraq sağ qalmaları üçün hərəsindən 20 dirhəm istədilər. Bu məbləği ödəyənlər sağ buraxıldı, ödəyə bilməyənlər isə qətlə yetirildi. Bunula bərabər slavyanlar şəhərdə misli görünməmiş qarət və talanlar da törətdilər. Var-dövləti tamamlə əlindən alınan insanlara yadellilər üzərinə möhür vurulmuş gil parçası verirdilər. Bu gil parçası sübut edirdi ki, həmin şəxs artıq heç nəyə, o cümlədən pula, qızıla, xalçaya, qiymətli paltarlara sahib deyildir və bu şəxs gəlmələr üçün maraqsız idi (9, s.28). Beləliklə, slavyanlar bərdəlilərin qarət edilməsi nəticəsində çox böyük sərvət əldə elədilər .

Bərdədə yaşanan faciənin miqyası artdıqca ətraf ərazilərdə daha çox müsəlman əhali slavyanlara qarşı həlledici döyüşə hazırlaşmağa başladı. Salari Mərzuban ibn Məhəmməd daimi qoşunundan əlavə həm də əhaliyə çağırış edərək ümumilikdə 30 minlk ordu toplayaraq Bərdəyə doğru hərəkətə başladı. Lakin say üstünlüyünə baxmayaraq Salari hökmdarı slavyanlara qarşı uğurlu döyüş apara bilmədi. Şəhəri mühasirəyə alan ordu səhər-axşam etdiyi ardıcıl hücumlardan əliboş geri qayıdırdı və döyüşlər günlərlə uzanırdı (9, s.31).

Slavyanlar hələ Salari ordusu Bərdəni mühasirəyə almazdan öncə Marağa şəhərinə də hücum təşkil etmişdilər. Marağanı ələ keçirsələr də burda uzunmüddətli qala bilməyərək Bərdəyə qayıtmışdılar. Bunun əsas səbəbi slavyanlar arasında bir sıra xəstəliklərin, o cümlədən yolxucu xəstəliklərin yayılması oldu. Slavyanlar mövcud şəraiti nəzərə alıb Bərdəyə geri qayıtmağa qərar verdilər.

Slavyanların müqavimətini qıra bilməyəcəyini anlayan Salari hökmdarı gəlmələr arasında yolxucu xəstəliyin yayımasını öyrəndiyi üçün bunu öz xeyrinə istifadə etməyə çalışdı. Salari hökmdarı hesab edirdi ki, slavyanlar mühasirədə qalmaqdan bezdiklərinə və yayılan yolxucu xəstəlik səbəbindən Bərdəni tərk etmək istəyirlər (10, s.53). O, buna görə hərbi hiylə işlətmək qərarına gəldi. Öz yaxın adamları ilə məsləhətləşərək qərara gəldilər ki, Salarilərin kiçik dəstəsi slavyanlarla döyüşə girsin. Bir qədər döyüşdükdən sonra qəfildən qaçmağa başlasın. Onların arxasınca düşən slavyanları isə Mərzuban ibn Məhəmməd böyük silahlı dəstə ilə əvvəlcədən müəyyən edilmiş yerdə tələyə salıb məhv edəcəkdi. Döyüşün ilk anlarında hər şey Mərzuban ibn Məhəmmədin istədiyi kimi oldu. Lakin geri çəkilən kiçik dəstəni təqib edən slavyanlar Salarilərin digər qüvvələrində də vahimə yaratdı və bütün müsəlman ordusu qaçmağa başladı. Hətta Mərzuban ibn Məhəmməd qışqıraraq ordusunu yenidən döyüşə səsləməyə başladı. Yalnız bundan sonra müsəlmanlar yenidən toplaşaraq yadellilərin üzərinə hücuma keçdilər və onlardan 700 nəfərini öldürdülər. Ölənlər arasında slavyan ordusunun rəisi də vardı. Məğlub olan yadellilər Bərdəyə qayıtdılar. Salari ordusu slavyanlarla mübarizəni daha da sərtləşdirdi. Belə çətin məqamda Salari hökmdarı Mərzuban ibn Məhəmmədə Əbu Abdullah Hüseyn ibn Səidin Səlmas şəhərinə yürüşü barədə məlumat gəldi. Salarilər Bərdə yaxınlığında kiçik hərbi hissə qoyaraq Səlmasın müdafiəsinə çəkildilər (9, s.33).

Mərzuban ibn Məhəmmədin ordusu ilə döyüşlər, həm də yolxucu xəstəliklər səbəbindən slavyanlar ağır itki vermişdilər. Az sayda qalan yadellilər şəhəri tərk etmək qərarına gəldilər. Əldə etdikləri sərvətin çox hissəsini, o cümlədən qadın və uşaqlardan ibarət əsirləri də özləri ilə götürərək Kürün sahilinə doğru hərəkət etdilər. Onları burada hazır gəmilərdə 300 nəfər slavyan əsgəri gözləyirdi. Gəmilərə minən slavyanlar Bərdəni tərk etdilər (9, s.33).

943-944-cü illər ərzində slavyanların Bərdəni özlərinə tabe etdikləri dövrdə Salari ordusu ilə aramsız döyüşlər aparmaları şəhərdə böyük dağntılara səbəb oldu (7, s.86). Slavyanların yürüşünə qədər nəinki Azərbaycanın, o cümlədən Şərq dünyasının əsas siyasi, iqtisadi, mədəni mərkəzlərindən olan Bərdə bir daha özünə gələ bilmədi. Artıq tacirlər yollarını Bərdədən salmır, dincəlmək üçün burada dayanmırdılar. Şəhərdə fəaliyyət göstərən Kürki bazarı artıq mövcud deyildi. Slavyanların hücumundan bir neçə il sonra – 971-ci ildə Bərdəyə yaxın olan Gəncənin yeni yaranan Şəddadilər dövlətinin paytaxtı elan edilməsi şəhərin dirçəlməsi yolunda növbəti zərbə hesab edilə bilər. Bərdənin mövcud vəziyyətini təsəvvür etmək üçün belə bir məqama diqqət yetirməyimiz mümkündür: 1136-cı ildə İraq Səlcuq sultanı Məsud mərkəzi Bərdə olmaqla Arran torpaqlarını Atabəy Şəmsəddin Eldənizə iqta olaraq vermiş, lakin Atabəy Şəmsəddin Eldəniz Bərdədə deyil, məhz Naxçıvanda öz iqamətgahını qurmuşdur. Güman ki, Atabəy Şəmsəddin Eldənizin bu cür addım atmasının əsas səbəbi Bərdənin əvvəlki qüdrətindən çox uzaqda olması ilə bağlı olmuşdur.

ƏDƏBİYYAT

1. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, Çaşıoğlu, 1999, 244 s.
2. Hacıyev Q. Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi. Bakı, UniPrint, 2008, 250 s.
3. Haqverdiyev Ə.Ş. Orta əsr Bərdə şəhəri (Dərs vəsaiti). Bakı, Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedoqoci Universiteti Nəşriyyatı, 1991, 112 s
4. Kalankatuklu M. Alban tarixi. Qoş M. Alban səlnaməsi. Bakı, Avrasiya press, 2006, 296 s.
5. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil, 2006, 400 s.
6. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı, Lider nəşriyyat, 2004, 432 s.
7. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm, 1974, 223 s.

Rus dilində

8. Артамонов М.М. История хазар. Ленинград, Издательство Государственного Эрмитажа, 1962, 521 с.
9. Ибн Мисковейх. Таджариб ал-Умам. Перевод П.К.Жузе, НАИИ НАНА, инв. №162, 46 с.
10. Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. Баку, Маариф, 1993, 207 с.

SUMMARY

SLAVS ATTACK ON BARDA CITY

Karimli S.S.

The city of Barda was known not only as a political and administrative center, but also as a center of trade and crafts. As a result of the Slavic invasion in 943-944, life in the city was almost destroyed. At that time, the city, which was part of the Salari state, initially suffered heavy losses due to poor defense. The Salari army, which later came to the aid of the Barda people, managed to drive the Slavs out of the city after a long struggle. Although Barda was liberated from the Slavs, it could not recover. Trade caravans no longer passed through here.

Keywords: *Barda, Slav, Russian, Salari state, Kurki market*

РЕЗЮМЕ

НАШЕСТВИЕ СЛАВЯН НА ГОРОД БАРДА

Каримли С.С.

Город Барда был не только политическим и административным центром, но и славился своей торговлей и ремеслом. В результате нашествия славян в 943-944 годах город был практически уничтожен. В то время город, входивший в состав государства Саларидов, поначалу понес большие потери из-за слабой обороны. Саларидские войска, пришедшие позднее на помощь бардинцам, после долгой борьбы сумели выбить славян из города. Несмотря на то, что Барда была освобождена от славян, восстановить ее не удалось. Через этот город больше не проходили торговые караваны.

Ключевые слова*: Барда, славяне, русские, государство Саларидов, базар аль-Кюрки*

II QARABAĞ MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN – TÜRKİYƏ QARDAŞLIĞI

Kərimova S.Ə.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
samira.kerimova80@mail.ru

Açar sözlər: *Türkiyə, Azərbaycan, Vətən müharibəsi, qardaşlıq, qələbə,Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib, genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir.*

Sovet rejimi dövründə Azərbaycan-Türkiyə münasibətləri xeyli dərəcədə məhdud xarakter daşıyırdı. Bunun əsas səbəbi rejimin yaratdığı problemlərdən irəli gəlirdi. Lakin rejimin dağılması İttifaqa daxil olan türk respublikaları o cümlədən Azərbaycan üçün geniş imkanlar yaratdı. 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktını qəbul edən Azərbaycan xarici siyasətdə siyasi münasibət quruduğu ilk ölkə Türkiyə olmuşdur. Azərbaycanın Müstəqlliyini tanıyan ilk dövlət məhz Türkiyə olmuşdur.

Nəticədə XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycan-Türkiyə münasibətləri bütün sahələr üzrə artan templə inkişaf etmişdir. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan-Türkiyə münasibətlərində enerji amili mühüm rol oynamağa başladı. Azərbaycan ərazisinin 20 faizinin erməni silahlı qüvvələri tərəfində işğal edilməsinə Türkiyənin münasibəti həmişə birmənalı olmuşdur. Lakin keçən əsrin 90-cı illərində Türkiyə indiki kimi hərbi və iqtisadi baxımdan güclü deyildi. Buna baxmayaraq Azərbaycana siyasi dəstəyini əsirgəməmişdir. İstər ATƏT çərçivəsində, istərsədə digər beynəlxalq təşkilatlarda Türkiyə Azərbaycanın haqq işini müdafiə etmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın hakimiyyət başına gəlməsindən sonra Trükiyə hərbi-siyasi və iqtisadi cəhətdən gücləndi və bununla paralel olaraq Azərbaycan-Türkiyə münasibətləri yüksək inkişaf səviyyəsinə çatdı. Azərbaycan-Türkiyə münasibətlərində hərbi əməkdaşlıq istiqamətində də ciddi naliyyətlərə nail olundu. Azərbaycan gənclərinin türkiyədə təhsil alması, qarşılıqlı hərbi təlimlərin keçirilməsi, müasir tipli silahların alınması və s. sahələrdə uğurlu əməkdaşlıq. Bütüm bunlar

Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf etdirilməsi ilə yanaşı Azərbaycanın ordusunun hərbi baxımdan müasir standartlara uyğun olaraq qurulmasına gətirib çıxarmışdır.

Azərbaycanın Türkiyə ilə iqtisadi, siyasi və hərbi əməkdaşlığının qurulması və inkişaf etdirilməsinin nəticəsində hər iki ölkənin istər ölkə istər regionda istərsə də beynəlxalq münasibətlər sistemində mövqeyinin əsaslı şəkildə güclnməsinə gətirib cıxarmışdır.

Otuz ildən artıq düşmən tağdağında qalan torpaqlarımızın azad edilməsi istiqamətində İkinci Qarabağ müharibəsi başlayan zaman yenə də Qardaş Türkiyə Azərbaycanının yanında olduğunu hətta beynəlxalq tribunalardan qətiyyətlə bildirməklə bəzi güc mərkəzlərinin Azərbaycana qarşı göstərilə bilinəcək təzyiqlərdən qorumağa nail ola bildi.

Şanlı qələbə ilə başa çatmış İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə münasibətlərində qardaşlıq münasibətlərinin zirvəsi idi. Bu münasibətlər beynəlxalq münüsibətlərdə yeni bir nümunə idi. Prezident Rəcəb Tayyib Ərdoğan müxtəlif tribunalardan Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməklə beynəlxalq ictimaiyyətin diqqətini obyektiv gerçəkliklərə, tarixi, siyasi və mənəvi həqiqətlərə yönəltdi. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının real həyatda bir daha öz təsdiqini tapmasıdır.

İkinci Qarabağ müharibəsinin başladığı tarixdən etibarən, sentyabrın 27-də Türkiyənin Müdafiə naziri H.Akar Azərbaycanın tərəfində olduğunu bildirərək Ermənistanın mövqeyinin Cənubi Qafqazda sülh və sabitliyin ən böyük əngəli olduğunu vurğulamışdır [1].

Rəcəb Tayyib Ərdoğan qeyd etmişdir. "Addım-addım işğal altındakı şəhərləri və Qarabağı azadlığa qovuşduran azərbaycanlı qardaşlarımızın sevinci bizim də sevincimizdir''.[2] Azərbaycan Ordusunun silahlanmasına önəmli təsir göstərən "Baykar" şirkətinin istehsal etdiyi pilotsuz uçuş aparatlarının (PUA) hərbi potensialımızı əhəmiyyətli dərəcədə gücləndirməsi də bu fikrin bariz nümunəsidir.

Prezident İlham Əliyev Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin gücləndirilməsinə, əməkdaşlığın inkişafına, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə Selçuk Bayraktarı "Qarabağ" ordeni ilə təltif edib. [3]

Vətən müharibəsi başlayan andan Azərbaycanla müttəfiqlik münasibətlərindən bir addım olsa belə geri çəkilməyən Türkiyə müharibə başa çatdıqdan sonra da bu prinsipi əsas tutaraq əməkdaşlığı daha da dərinləşdirilməsi istiqamətində çox əhəmiyyətli və uğurlu tədbitlər həyata keçirmiş və keçirrməkdədir. Cənab Rəcəb Tayyib Ərdoğanın Bakıda keçirilən qələbə paradında iştirak edərək çox böyük mesajlarla dolu nitqi Azərbaycan-Türkiyə münasibətlərində qardaşlıq münasibətlərinin bariz nümunnəsi idi.

İyun ayının 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalanıb. [4]

Bu tarixi Qələbədən sonra Türkiyə ilə Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi isə iki ölkə arasındaki birliyin daha da üst səviyyələrə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edən sənəddir.

Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsi hər iki dövlətin strateji maraqlarının təmin edilməsi üçün son dərəcə vacibdir. Bu istiqamətdə bir sıra addımların atılması və önəmli tədbirlərin həyata keçirilməsinə baxmayaraq iki qardaş dövlət gələcək təhlükəsizliklərinin təmin edilməsi və türk dünyasının gələcəyi naminə bu prosesi davam etdirməlidir. Təkcə Azrəbaycan-Türkiyə deyil türk dövlətlərinin iqtisadi, siyasi və mədəni əlaqələrini bütün vasitələrdən istifadə edərək inkişaf etdirilməsi müasir dövrün günümüzün ən əsas tələblərindən biridir. Ona görə də Azərbaycan-Türkiyə münasibətləri türk dövlətləri üçün bir örnək olmalıdır. Birmənalı olaraq qeyd edə bilərik ki, Türkiyənin həbi-siyasi və sosial – iqtisadi baxımdan inkişafı, eləcə də beynəlxalq münasibətlərdəki mövqeyinin güclənməsi bizim üçün nə qədər əhəmiyyətlidirsə, bizim də inkişafımız Türkiyə üçün o qədər əhəmiyyətlidir. Türk dünyasının gələcək inkişafı və təhlükəsiliyi onun birliyindədir.

ƏDƏBİYYAT

1. Bakan Akar'dan Azerbaycan'a mesaj: Kardeşlerimizin yanındayız // https://www.yenisafak.com/video-galeri/gundem/bakan-akardan-azerbaycana-mesaj-kardeslerimizin-yanindayiz-2210581 (28 sentyabr 2020)
2. https://xalqqazeti.com/mobile/az/news/89747
3. http://newtimes.az/az/relations/conflicts/7432/
4. https://amp.azvision.az/news/264231/-azerbaycan-ve-turkiye-arasinda--susa-beyannamesi--imzalandi-.html

SUMMARY

AZERBAIJAN-TURKEY BROTHERHOOD IN THE II KARABAKH WAR

Karimova S.A.

The article discusses the moral strength, political support and eternal Azerbaijani-Turkish friendship provided by the brotherly Turkish Republic during the 44-day Patriotic War. Relations between the two countries have always been in focus during the rule of great leader Heydar Aliyev. Until the end of the war, the Turkish state was always with Azerbaijan, and with its moral and political support, inspired the Azerbaijani people with the determination to win.

Keywords: *Turkey, Azerbaijan, Patriotic War, brotherhood, victory*

РЕЗЮМЕ

АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОЕ БРАТСТВО В ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Каримова С.А.

В статье рассматривается моральная сила, политическая поддержка и вечная азербайджано-турецкая дружба, оказанная братской Турецкой Республикой в годы 44-дневной Отечественной войны. Отношения между двумя странами всегда были в центре внимания во время правления великого лидера Гейдара Алиева. До конца войны турецкое государство всегда было с Азербайджаном и своей моральной и политической поддержкой вселяло в азербайджанский народ решимость победить.

Ключевые слова: *Турция, Азербайджан, Отечественная война, братство, победа.*

AZERBAİJAN'S KARABAKH VİCTORY: RESTORATİON OF HİSTORİCAL

Khudaverdiyeva E.M., Kerimova A.M.
Ganja State University, Ganja, Azerbaijan
elnura_israfilova@mail.ru

Key words: *Karabakh, occupied territories, territorial integrity of Azerbaijan, Azerbaijani army, Azerbaijani people.*

The brilliant and unconditional victory of the Azerbaijani army in the Patriotic War under the leadership of the President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev put an end to one of the bloodiest and most tragic events in the history of the XX-XXI centuries - the protracted conflict with Armenia.

As a result of the 44-day war from September to November 2020, the Azerbaijani Armed Forces inflicted a crushing defeat on the army of the occupying Armenia, defeated and virtually destroyed it.

Armenia capitulated, which was a logical consequence of Armenia's aggressive policy towards Azerbaijan for almost 30 years with the occupation of 20 percent of the territory of Azerbaijan.

The reason for the beginning of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict was the territorial claims of the Armenian side to the historical lands of Azerbaijan in an open form. The leadership of the Armenian SSR, the Armenians represented in the leadership of the Soviet Union, and the Armenian Diaspora abroad since the early 1980s, taking advantage of the weakening of the central government of the USSR, took purposeful actions to separate the Nagorno-Karabakh Autonomous Region (NKAO) created as part of the Azerbaijan SSR and annex it to the Armenian SSR [2].

Since the end of 1987, the third deportation of Azerbaijanis from the territory of Armenia, formed on the historical lands of the Irevan Khanate, began in the XX century. The process of expelling Azerbaijanis from their native lands was accompanied by special cruelty. In total, more than 250,000 Azerbaijanis were forcibly expelled from Armenia [1].

The political conditions prevailing in Azerbaijan at that time further complicated this situation. Due to the absence of a strong political leader, chaos, arbitrariness and anarchy reigned in the republic. The

paralysis of the work of state institutions, the economic crisis, the threat of civil war have put the country in danger of actual destruction.

At that time, the removal from politics of the prominent statesman of the Azerbaijani people, national leader Heydar Aliyev had a direct impact on the deepening of the conflict, and the Armenian side sought to achieve exactly this.

At such a critical moment, the Azerbaijani people, with their inherent wisdom, saw their way to salvation in the brilliant son, the experienced statesman Heydar Aliyev. The Azerbaijani people clearly saw that only Heydar Aliyev could save them from a tragic end. Therefore, entrusting him with the future fate of the country, he entrusted her with a historic mission.

After that, all illegal armed formations were disarmed in Azerbaijan, and a civil war was prevented. A period of stability and development has begun in the country. It was in those years that very important decisions were made, which marked the beginning of political and economic reforms. A strategic goal was set for the development of Azerbaijan as a democratic republic, the Constitution of independent Azerbaijan was adopted, and the ideological foundations of the state were laid. Large-scale reforms have also begun to be carried out in the economic sphere - the market economy has been adopted as the main principle.

Azerbaijan managed to break the information blockade, it was elected a member of reputable international organizations. Subsequently, these organizations adopted important decisions and resolutions unequivocally recognizing the territorial integrity of Azerbaijan and demanding the immediate, complete and unconditional withdrawal of the Armenian armed forces from the occupied Azerbaijani territories [3].

The greatest desire of the national leader was the liberation of Karabakh from enemy occupation, the restoration of the territorial integrity of Azerbaijan. He was sure that only a strong, truly independent, highly respected Azerbaijan in the world will be able to achieve a just resolution of the conflict. Many years ago, Heydar Aliyev said with great foresight: "We will solve the Karabakh issue. We need time. No one can take away the land of Azerbaijan. Our occupied lands will definitely be returned. At any cost."

The dream of the great leader was realized by his worthy successor, the President of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev. It was under his leadership that the brave Azerbaijani army liberated our native lands from the Armenian occupation.

Thus, Azerbaijan, having restored its territorial integrity by military and political means and thereby completely changing the geopolitical situation in the region, solved this issue itself. Prior to that, there was a long-term negotiation process on a peaceful settlement of the conflict - the reason for its ineffectiveness was the destructive position of Armenia, which seeks to freeze the conflict, and the ambiguous approaches of international mediators on the example of the OSCE Minsk Group and its co-chairs the United States, France and Russia [4].

Another brilliant victory of President Ilham Aliyev in negotiations with Prime Minister Nikol Pashinyan within the framework of the Munich Security Conference on February 15, 2020 once again demonstrated to the world the absolute superiority of Azerbaijan over Armenia.

The Azerbaijani leader's impeccable command of oratory, the ability to conduct high-level discussion, deep knowledge of history and the subject of controversy, determination in every action, irony in relation to the Armenian Prime Minister "checkmate" destroyed the false policy of Yerevan that had been formed for decades. In these debates, the undeniable advantage of Ilham Aliyev and the bitter defeat of Nikol Pashinyan was perceived even by the Armenian expert community.

On July 12, 2020, Armenia resorted to a new provocation – this time in the direction of the state border. As a result of the shelling of the Tovuz district of Azerbaijan, Azerbaijani soldiers and a 76-year-old civilian were killed, serious damage was caused to civilian infrastructure.

This provocation was aimed at increasing tension in order to involve third States in the conflict. Azerbaijan's resolute response to this provocation has reduced these efforts to zero. Armenia, having applied for military support to the Collective Security Treaty Organization (CSTO), once again admitted its military defeat.

False accusations against Azerbaijan have also been made by high-ranking politicians of some states, but during all this time not a single fact has been presented to confirm these erroneous statements.Conversely, there was not a single condemnation of Armenia, which committed crimes against humanity during the war, exposing peaceful towns and villages of Azerbaijan to rocket attacks. We are talking about settlements located not only near the combat zone, but also at a considerable distance from it. Armenia purposefully and deliberately attacked the civilian population and civilian infrastructure of such Azerbaijani cities as Ganja, Barda, Terter, Naftalan, Mingachevir, Aghjabedi.

It was a tactic of intimidation and terror, similar to the war crimes committed by the Armenian side during the First Karabakh War. It's just that this time modern types of weapons and missiles of great

destructive power, prohibited by international conventions, were used to destroy the civilian population of Azerbaijan.

Ganja, the second largest city of Azerbaijan with a population of half a million, located more than 100 km from the place of hostilities, was repeatedly shelled from the Scud missile system on October 4, 8, 11 and 17. As a result, 32 civilians were killed and 143 were injured [4].

It should be noted that the Azerbaijani army has never struck at the peaceful Armenian population.

This has been repeatedly pointed out by Azerbaijani President Ilham Aliyev. Thus, answering a question from a correspondent of the Ukrainian TV channel "Inter" during a press conference for representatives of local and foreign media on February 26, 2021, the head of the Azerbaijani state noted the issue of minimizing civilian casualties.

Every time the news about the liberation of our villages and cities from occupation sounds like this: "Karabakh is ours! Karabakh Is Azerbaijan!"tears of joy flowed from our eyes when we finished with the words, a feeling of joy was in the hearts of millions of our compatriots. In those days, the entire Azerbaijani people showed unsurpassed solidarity, rallying around the Supreme Commander-in-Chief and our army around a single idea - the liberation of their native lands from occupation. This unshakable force of solidarity inspired our soldiers and officers, and caused terror from the enemy that could not be expressed in words [3].

Selfless Azerbaijani soldiers, showing exceptional heroism, climbing steep cliffs, crossing dense forests and deep ravines, sometimes having only light weapons on their faces, losing their comrades, liberated our lands from the invasion of the eternal enemy. The blood of our martyrs did not remain in place - on November 10, 2020, the day Armenia signed the document of surrender, Azerbaijan restored justice, liberated its native lands from enemy enslavement and inscribed this sacred Victory in golden letters in the history of our people.

Currently, work is underway on the lands liberated from occupation – the construction period has begun here. President Ilham Aliyev, considering the restoration of the liberated territories to be the most important issue, personally visits every district, city, village, gives instructions and checks their implementation. Considering the terrible consequences of Armenian vandalism, the once prosperous villages were completely destroyed, and the beautiful cities that once boomed with life turned into ruins -there is a lot of work to be done here.

But the process has already begun, large-scale infrastructure projects are being implemented in the areas liberated from occupation, primarily during the First Karabakh War, in order to ensure a safe, stable, prosperous life for people expelled from their native lands and preparing to return home after the Patriotic War, which put an end to the Armenian occupation.

REFERENCE

1. Аббас-Кули-Ага Бакиханов. Гюлистан-и Ирам. - Баку, 1991, с. 203.
2. Греков Б., Якубовский А. Золотая Орда. - Л., 1937, с. 55.
3. www. virtualkarabakh.az
4. http://anl.az/el/vsb/Qarabag_Azerbaycandir/index.htm

XÜLASƏ

AZƏRBAYCANIN QARABAĞ ZƏFƏRİ: TARİXİ ƏDALƏTİN BƏRPASI

Xudaverdiyeva E.M., Kərimova A.M.

İşğal olunmuş torpaqlarımız düşmən qüvvələrindən təmizləndikcə, o ərazilərin təbiətinin nə qədər gözəl və füsunkar olması təəccüb doğurur. Həm yerüstü, həm də yeraltı resurslarla zəngin olan bu ərazilər böyük təbii iqtisadi potensiala malikdir. Qarabağ və onun dağlıq hissəsi heç vaxt iqtisadi cəhətdən geridə qalmış zona hesab edilməyib. Bu baxımdan da, təbii ki, orada sosial vəziyyət hər zaman yaxşı olubdur. Ona görə də rayonların, kəndlərin, yaşayış məntəqələrinin bərpası müharibədən sonrakı dövrdə Azərbaycan dövlətinin qarşısında duran mühüm vəzifədir.

Açar sözlər: *Qarabağ, işğal olunmuş torpaqlar, Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan ordusu, Azərbaycan xalqı*

РЕЗЮМЕ

КАРАБАХСКАЯ ПОБЕДА АЗЕРБАЙДЖАНА: ВОССТАНОВЛЕНИЕ ИСТОРИЧЕСКОЙ СПРАВЕДЛИВОСТИ

Худавердиева Э.М., Керимова А.М.

По мере того, как наши оккупированные территории очищаются от вражеских сил, у человека возникает ощущение удивления, насколько прекрасна и очаровательна их природа. Эти территории, богатые как наземными, так и подземными ресурсами, обладают большим природным экономическим потенциалом. Карабах и его горная часть никогда не считались экономически отсталой зоной. И поэтому, естественно, там всегда было хорошее социальное положение. Поэтому восстановление районов, сел, населенных пунктов является важной задачей, стоящей перед азербайджанским государством в послевоенный период.

Ключевые слова: *Карабах, оккупированные территории, территориальная целостность Азербайджана, азербайджанская армия, азербайджанский народ.*

BİR DAHA İBRAHİMXƏLİL XAN-SİSİANOV MÜNASİBƏTLƏRİNƏ DAİR (GƏNCƏNİN İŞĞALINDAN KÜRƏKÇAY MÜQAVİLƏSİNƏDƏK)

Qafarova Z.A., Məhərrəmov E.Ə., Həsənov H.N.
A.Bakıxanov adına Tarix İnstitutu Bakı, Azərbaycan
hacihasanov@mail.ru

Açar sözlər: *Qarabağ, Şuşa, İbrahimxəlil xan, Gəncə, Sisianov, Kürəkçay*

Məlum olduğu kimi, artiq XIX yüzilliyin əvvəllərində romanovlar Rusiyası imperiyanın cənub istiqamətində çoxdan bəri hərisliklə baxdığı ölkələrin bir hissəsini, o cümlədən Güney Qafqazın böyük bir hissəsini təşkil edən Quzey Azərbaycanı işğal etməyə nail olmuşdur.

Romanovların Cənubi Qafqaz işğallarında mühüm rol oynamış general P.D.Sisianovun qısamüddətli baş komandanlığı dövründə (sentyabr, 1802-fevral, 1806) müstəmləkəçilərin Azərbaycanın feodal hökmdarlarına qarşı yürütdükləri siyasət özünün qatı mürtəceliyi, eybəcərlikləri, kobudluğu və qeyri-insaniliyi ilə xüsusilə fərqlənmişdi.

Bu kiçik məqalədə biz Gəncənin işğalından Kürəkçay müqaviləsinədək İbrahimxəlil-Sisianov münasibətlərində baş vermiş bəzi əsas proseslərə işıq salmağa çalışacağıq.

1803-cü ilin sonlarında Cavad xanla hərbi-siyasi çarpışmanın qızğın çağında Qarabağ hökmdarına çox məhrəmanə məktublar yazan, saxta tərifləri ilə İbrahimxəlil xanın "başının altına yumşaq-yumşaq yastıqlar qoyan" Pavel Dmitriyeviç Gəncənin işğalından, Cavad xanın şəhadətindən cəmisi beşcə gün sonra – 1804-cü il yanvarın 8-də İbrahimxəlil xana həqarətyana, yekəxana, həyasız və hədələyici tələblərlə dolu bir məktub [3, s. 696] yazır: "Cavad xanın qüruru qanla yuyuldu və mənim ona yazığım gəlmir, çünki Allah vüqarlıların əleyhinədir; lakin onun öz qismətinə məruz qoyduqlarına təəssüflənirəm. Mən ümid edirəm ki, siz alihəzrət ona oxşamaq istəməyəcəksiniz və belə bir ümumi qaydaya əməl edəcəksiniz ki, zəif güclüyə ram olur və onunla dartışmağı arzulamır". Bunun ardınca bu müştəbeh işğalçı Qarabağ hökmdarından tələb edir ki, guya ki qarabağlılar tərəfindən Cavad xan və Gəncə sakinlərinin qovulub aparılmış mal-qarasını geri qaytarsın, Məlik Cəmşidin həbsdə olan oğlu Bahramı və nəvəsi Astvasaturu azad edib ruslara təhvil versin, Qarabağ xanlığının Rusiya tabeliyinə keçməsi barədə şərtlərin müəyyənləşdirilməsi üçün xan ya etibar etdiyi bir məmurunu və ya öz övladlarından birini Sisianovun yanına, Gəncəyə göndərsin [3, s. 696]. Bir neçə od arasında qalmış İbrahimxəlil xan bu güclərin əhatəsində manevrlər edərək hakimiyyətini, dövlətini qoruyub saxlamağa çalışsa da, boğucu həlqə sürətlə daralırdı. Təxminən bir aydan sonra – 1804-cü il fevralın 4-də Sisianov xana növbəti məktubunda [4, s. 696] qəzəblə yazırdı ki, "sizin işin mahiyyətinin bir damcısını belə özündə ehtiva etməyən, lakin hiyləgər İran ruhunu tam dolğunluğu ilə ifadə edən məktubunuzu aldım; Mirzə Məmmədəliyə verdiyiniz nə şifahi ismarışları, nə də sizin etdiyiniz kimi, möhürsüz və imzasız göstərişlərinizi qəbul etmirəm və belə siyasətinizi siz də, Cavad xan kimi qanınızla ödəyəcəksiniz. Mən sizin mütiliyinizi və təbəəliyinizi arzulamıram, çünki mən İran sədaqətinizə, küləyə nə qədər ümid etmək mümkündürsə, o qədər ümid edirəm..." Hədəsini davam etdirən Sisianov daha sonra xana yazırdı ki, "Novruzu gözləyin, Baba xanın (Qacar şahı Fətəlinin – müəl.) köməyini gözləyin, mən isə öz vaxtında,

gözlənilmədən sizə baş çəkəcəyəm. Bilirəm ki, mən Gəncə ətrafında dayananda siz ağacdakı yarpaq kimi əsirdiniz... mən hələ Gəncəyə gəlməmişkən qorxaq dovşan və yaltaq tülkü kimi Şəmşəddil murovu Andronikovun yanına adam göndərmişdiniz... Mənə inanın ki, sizin qalanızın alınmazlığı ruslar üçün asan iş olacaqdır, vaxtı gələndə siz bunu işdə görəcəksiniz, – Cavad xan da ta torpağı dişləyənə qədər belə danışırdı. Mən sözümə əməl etməyi bacarıram. Dünyada eşidilibmi ki, milçək qartalla danışıqlar aparsın; – güclüyə əmr etmək xüsusiyyəti məxsusdur, zəif isə güclüyə tabe olmaq üçün doğulmuşdur" [4, s. 696]. Rusiya-Qacar müharibəsinin aktiv fazasının sürətlə yaxınlaşmasına və daha sonra başlamasına baxmayaraq Sisianov Qarabağı qamarlamaq niyyətini bir an belə unutmur, qoca Qarabağ hökmdarını gərginlik və qorxu içərisində saxlamağı özünün əsas vəzifələrindən biri sayırdı. O, 1804-cü il mayın sonunda yazdığı məktublardan birində [5, s. 697] İbrahimxəlil xan Qarabağlıya müraciətən qeyd edirdi ki, "hərçənd ki, sizin davranışınız həm Gəncə sakinlərinin sizdə olan və mənim tələbimə rəğmən qaytarılmamış ilxısı üzrə, habelə mənim gözətçi dəstəmə hücumunuz baxımından, üstəlik əvvəllər Gəncə adlanan Yelizavetpoldan axırıncı dəfə 292 atın sürülüb aparılması İsrafil bəyin mənə təqdim etdiyi məktubunuza müvafiq deyildir, mən gərək sizə tərəf çıxmayaydım, öz adətləri üzrə sizin gözlərinizi çıxararaq və ya burnunuzu, qulağınızı kəsəcək iranlılardan sizi müdafiə etməyəydim; – hərçənd ki, mən sizi onların əlinə verməli və sonradan Şuşanı onlardan almalı idim..." [5, s. 697]Lakin general bütün ədabazlığı ilə "mərhəmətli" Rusiya çarının adından İbrahim xanı "böyük lütfkarlıqla" bağışlayıb onu aşağıdakı şərtlərlə "Ümumrusiya İmperiyasının təbəəliyinə" qəbul etməyə caiz sayırdı. Xan:

1) Sarsılmaz sədaqətə əməl etməli;
2) Bunu Sisianovun göndərəcəyi məmur qarşısında öz andı ilə təsdiq etməli;
3) Rus qoşunlarının yerləşməsi üçün qala verməli;
4) Böyük oğlunu ruslara "əmanət" (əslində girov – müəl.) verməli və
5) Hər il Rusiyaya 10000 çervon təzminat ödəməli idi [5, s. 697].

Sisianov elə həmin gün Rusiya imperiyasının xarici işlər naziri knyaz A.E.Cartorıyskiyə məktubunda [6, s. 697-698] bildirdi ki, Qacar qoşunlarının yaxınlaşmasından qorxuya düşmüş İbrahimxəlil xan çaparla Sisianova məktub göndərib Rusiya himayəsinə keçməyə, çara sədaqətlə xidmət etməyə hazır olduğunu bildirərək, ondan hərbi qüvvə ilə yardım istəyib. Sisianov isə cavab məktubunda xanın qarşısında yenə də yuxarıda sadaladığımız tələbləri yenidən irəli sürmüşdür. Ancaq Sisianov xarici işlər nazirinə etiraf edirdi ki, rus alaylarının tam komplektləşdirilməməsi, habelə yolları su basdığına görə payızadək əlavə qüvvələr ala bilməyəcəyi səbəbindən İbrahim xana hərbi yardım göstərməkdə çətinlik çəkir [6, s. 697-698].

Artıq 1804-cü ilin payızında Sisianov Qarabağ xanlığının Rusiyaya ilhaq edilməsinin rəsmiləşdirilməsi istiqamətində real addımların atılmasına başladı. Belə ki, o, 1804-cü il oktyabrın 13-də gürcü zadəgan Ninia Corayevə xüsusi məktubla İbrahimxəlil xanın yanına – Şuşaya getməyi əmr edir [13, s.697]. O zaman üçün çox böyük məbləğdə – 300 çervon ezamiyyət xərci (görünür ki, bu, təkcə ezamiyyət xərci deyildi, ola bilsin ki, bu vəsaitdən ələ almalar üçün də istifadə edilməli idi – müəl.) almış Corayev qarabağlıların Gəncədən sürüb apardıqları ilxının geri qaytarılmasını təkidlə tələb etməli olsa da, onun başlıca vəzifəsi xanı Rusiya təbəəliyini qəbul etməyə meyilləndirmək idi. Sisianovun Corayevə məktubunda qeyd edilirdi ki, "xana təlqin edin ki, o, Rusiya təbəəliyini axtarsın. O, bu təbəəliyə aşağıdakı şərtlərlə qəbul oluna bilərdi:

1) Şuşa qalasında ... rus qarnizonu yerləşdirilməli...;
2) Xanın böyük oğlu və ya nəvəsi girov verilməli;
3) Xanlıq hər il Rusiya xəzinəsinə 8000 çervon təzminat (deməli, general artıq iştahını bir qədər "gödəldib" 10000 çervondan 8000-ə düşmüşdü – müəl.) ödəməli və
4) Xanlıqdan keçib gedənlərin (təbii ki, Rusiyanın adamlarının – müəl.) təhlükəsizliyini təmin etməli idi [13, s.697].

Etiraf etmək lazımdır ki, Qarabağın azadlıq və müstəqilliyi kimi taleyüklü məsələlərin həll olunduğu belə bir mühüm dövrdə nəinki xanlığın əyanları, heç xan ailəsinin öz içərisində fikir, mövqe birliyi yox idi. İbrahimxəlil xanın tərəddüdlər içərisində çırpındığı, çıxış yolu axtarışlarında min bir vasitəyə əl atdığı bir dövrdə onun böyük oğlu Məhəmmədhəsən ağa polkovnik Karyaginə məxsusi məktub [10, s. 698] yazaraq ona bol-bol yaltaqlandıqdan sonra rus zabitinə bildirirdi ki, bundan əvvəl də "İran qoşununun burada olduğunu xəbər vermişdim. İndi, ötən ayın 10-da Dizaqda onlarla vuruşub qalib gəldik, oradakı İran xanlarının hamısını – Müqəddəm Məhəmməd xan, Nəsəkçibaşı Əli xan Kəngərlini və Maqsud bəyi tutmuşuq, 1000 nəfərədək süvari və piyadanı əsir almış, xeyli İran əsgərini qırmışıq" [10, s. 698]. Bundan cəmisi bir neçə gün sonra Sisianov 17-ci yeger alayın mayoru Lisaneviçə göstəriş vermişdi [14, s. 698] ki, Corayevlə birlikdə İbrahimxəlil xanın Rusiya təbəəliyinə keçməsinin sürətləndirilməsi işini ona tapşırır, rusların hazırladığı traktatı xana təqdim etməyi, ancaq bu sənəddə heç bir dəyişiklik edilməsinə yol verməməyi vurğulayırdı. General həmçinin Lisaneviç və Corayevə xanı, bu traktatı imzalamaq üçün heç olmasa ikicə günlüyə məhz Yelizavetpola gəlməyi razı salmağı tapşırırdı (Yelizavetpolun görüş yeri kimi təkid olunmasının əsl "səbəbi"ni aşağıda elə bu müştəbeh generalın öz sözləri ilə açıqlayacağıq – müəl.). Bunun üçün belə bir bəhanə gətirir ki, "traktat mənim və onun adından yazıldığı üçün bizim tərəfimizdən hazırlanmalıdır. Ona görə də

Yelizavetpoldan başqa bir yerdə yığışa bilmərik (niyə? –müəl.)... O, (xan – müəl.) heç nədən ehtiyat etməməlidir, çünki ruslar heç vaxt yalan danışmırlar; əgər əminlik üçün kimisə istəyərsə, kimi istədiyini bildirsin". Rusların özləri demişkən "Без комментарий!" Bu təlimat-əmrdə daha bir maraqlı məqam var: Sisianov tapşırır ki, xanın böyük oğlu Məhəmmədhəsən ağaya da xüsusi məktub verərək, "onunla təklikdə danışmağa çalışın və danışıq zamanı ona izah edin ki, bütün bu iş onun xeyrinədir, onun nəslinin xeyrinə ola bilər" [14, s. 698]. Sisianov həm də eyni zamanda Şirvanda olan Səlim xan Nuxalıya da təcili olaraq belə bir məktubun çatdırılmasını əmr edirdi. Elə həmin tapşırıqda Sisianov Lisaneviçə xanla mülayim davranmağı, eyni zamanda Şuşa qalasında rus qarnizonu üçün əlverişli və təhlükəsiz yerin müəyyənləşdirilməsini, habelə qalanın girəcəyini rus arabaları üçün əlverişli hala salmaq imkanlarını araşdırmağı əmr edirdi [14, s. 699]. QAKA-nın II cildində Sisianovun elə həmin gün – 1805-ci il yanvarın 16-da İbrahim xana və onun böyük oğlu Məhəmmədhəsən ağaya ünvanladığı ikinci təklifi də yer almışdır [11, s. 699-700; 12, s. 700].

İlk təklifdə İbrahimxəlil xandan razılıq haqqında Corayev və Məmməd ağa tərəfindən çatdırılan xəbərdən göyün yeddinci qatında olan Sisianov xanın bu qərarını tərifləyir, ona vədlər verərək lovğalanır ki, "kim məni tanıyırsa xəbərdardır ki, mənim dilim yalan danışmır və mənim verdiyim söz porfərdən və qranitdən möhkəmdir!" [11, s. 700].

Məhəmmədhəsən xan ağaya təklifdən isə məlum olur ki, ağa generala iki məktub yazsa da, Sisianov onlara cavab verməyərək ağanı pəjmürdəhal etmişdir. Bu təkliflə Sisianov ağanın könlünü bir qədər alaraq Avropa adətlərində baş rəhbərə yazandan sonra onun məmuruna yazmaq qaydasının olmadığını bəhanə gətirib ağanı Rusiya meyilliliyinə görə tərifləyər, bu işin ilk növbədə onun xeyrinə olduğu, atasından sonra onun xan taxtına çıxacağını vurğulayır, Əbülfət ağa üzərindəki qələbəyə görə Fətəli şah tərəfindən cəzalandırıla biləcəyi ilə qorxudur [12, s. 700].

1805-ci ilin fevralında İbrahimxəlil xanın böyük oğlu ilə birlikdə Araz sahillərinə səfərindən bərk əndişələnən Sisianov [15, s. 700-701] polkovnik Karyaginə də, Lisaneviçə də dərhal məlumat yığmağı tələb etmişdir.

Bunun ardınca Sisianov hər bir vəchlə İbrahimxəlili bu traktatı imzalamağa təhrik edir, bu günü mümkün qədər yaxınlaşdırmaq üçün əlindən gələni əsirgəmirdi. Artıq 1805-ci il martın 14-də o yeni bir məktubunda Qarabağ hökmdarına yazırdı ki, əgər Yelizavetpolda görüşmək istəmirsənsə, onda sənin təyin etdiyin yerdə tezliklə görüşək ki, "mən səni qardaşım kimi qəbul edib və bağrıma basım!" [7, s. 701].

Sən demə bu üçcə ayın içində "Qorxaq dovşan və hiyləgər tülkü" doğma qardaşa da çevrilə bilərmiş!

Cəmisi iki gün sonra Sisianov xandan xahiş edirdi ki, Qarabağ hökmdarının əlində əsir olan iki qacar xanını (onlardan biri Təbriz bəylərbəyinin qohumu idi) bəylərbəyinin əlində olan gürcü knyazlarına dəyişsin. Buna görə general hətta xana 1500 çervon verəcəyini də bəyan edirdi [8, s. 701].

1805-ci ilin aprelində İbrahimxəlil xan, çox güman ki, çoxtərəfli məqsədlərlə, Sisianova məktubunda Fətəli şahın elçilərinin onun yanına xüsusi fərman və bol-bol vədlərlə gəldiklərini bildirməklə generalın əhvalını durultmuşdu. Lakin general dərhal xanın elçilərə nə cavab verdiyini yazmamağından təəccübləndiyini bildirərək, hələ Kürəkçayda müqavilənin imzalanmasına 19 gün qalmış – aprelin 25-də xana az qala əmr tonunda bildirir ki, siz elçilərə deməliydiniz ki, "səmalara bərabər və günəşəbənzər böyük Ümumrusiya İmperiyasının ali himayəsinə və təbəəliyinə girərək Gürcüstan baş rəisinə (yəni Sisianova – müəllif.) əvvəlcədən xəbər vermədən və onun razılığı olmadan digər dövlətlər və qonşu hökmdarlarla heç bir danışıqlara girə bilməzsiniz!" [9, s. 702].

Məktubun sonunda general artıq 4 gündür ki, Yelizavetpolda olduğunu və səbirsizliklə xanla birlikdə müqaviləni imzalayacaqlarını gözlədiyini bildirirdi [9, s. 702].

Kürəkçay müqaviləsinin imzalanmasından beş gün əvvəl Sisianov imperiyanın xarici işlər naziri Çartorıyskiyə yazırdı ki, "sabah – mayın 10-da 4 batalyonla (! – hətta bu görüşə bu "igid" car generalı dörd batalyonluq qoşunla gedirdi! – müəllif.) Yelizavetpolun 3 ağaclığında İbrahim xan Şuşalı ilə görüşə gedərək Qarabağ xanlığının Rusiya himayəsi və təbəəliyinə keçməsinin rəsmiləşdirilməsini başa çatdıracaqlar. Nazirə elə bu məktubundaca Sisianov müqavilənin məhz Yelizavetpolda imzalanmasında israrlı olmasının səbəbini açıqlayır: "...bu görüş indiyədək başqa heç bir səbəbdən yox, ancaq ona görə ləngiyirdi ki, mən Rusiyaya daha böyük şöhrət (seyrəltmə bizimdir – müəllif.) üçün İbrahimxəlil xanı Yelizavetpola dəvət etməyi arzulayırdım, ancaq o, asiyalılara xas olan güvənsizliyi ilə bununla razılaşmadı və bizim hüdudlarda – Kürəkçayın sahilində bu görüşə güclə razılıq verdi. O, artıq oraya gəlmişdir və bizim bu görüşümüzün nəticələri haqqında Siz zati-alilərə oradan məlumat vermək şərəfinə nail olacağam" [2, s. 702].

General Sisianov mayın 22-də, yəni Kürəkçayda İbrahimxəlil və Səlim xanlarla müqavilələrin imzalanmasından dərhal sonra çar I Aleksandra (1801-1825) raportunda [1, s. 702-705] böyük təmtəraqla çarı yeni ərazilərin tutulması münasibəti ilə təbrik edir, Qarabağ xanlığının coğrafi mövqeyi, 85 yaşlı İbrahimxəlil xanın şəxsiyyəti, xanlığın əhalisi, bu ilhaqın Rusiya üçün əhəmiyyəti haqqında məlumat verir, xan ailəsinin təltifi haqqında təklif və xahişlərini bildirirdi. Sonuna 14 may 1805-ci il tarixli Kürəkçay müqaviləsinin mətni əlavə edilmiş bu raportun axırında infanteriya generalı P.D.Sisianov başqaları ilə, o cümlədən Corayev, Lisaneviç, habelə ərəb (?!) dili tərcüməçisi Mirzə Abraam Yenikalopovla yanaşı bu məktubu və Şuşa qalasının açarlarını Peterburqdakı çar sarayına çatdırmış leyb-qvardiya İsmayıl alayının podporuçiki – öz yaveri kn. Sisianovun da təltif olunmasını xahiş

edirdi.

Beləliklə, yuxarıda gətirilən bəzi qaynaq materialları sübut edir ki, İbrahimxəlil xan Qarabağın müstəqilliyini qoruyub saxlamaq üçün nə qədər cəhdlər göstərsə də, hiyləgər və amansız Sisianovun şəxsində Rusiya işğalçıları bu xanlığı da qəsb edib, onu imperiyaya qata bildilər.

ƏDƏBİYYAT

1. Всеподданнейший рапорт кн.Цицианову, от 22 мая 1805 года, №19 //АКАК,т.II,док.1436,1238 с. – с.702-705.
2. Отношение кн. Цицианова к кн. Чарторыйскому, от 9 мая 1805 года, № 298 // АКАК, т. II, док.1435, с.702.
3. Письмо кн. Цицианова к Ибрагим-хану, от 8 января 1804 года.Гянджа // АКАК,т.II,док.1416,с. 696.
4. Письмо кн. Цицианова к Ибрагим-хану, от 4 февраля 1804 года, №79// АКАК, т.II, док.1417, с. 696.
5. Письмо кн. Цицианова к Ибрагим-хану, от 26 мая 1804 года, №261 // АКАК, т. II, док. 1420, с. 697.
6. Письмо кн. Цицианова к кн. Чарторыйскому,от 29 мая 1804 года,№297// АКАК, т.II,док.1421,с. 697-698.
7. Письмо кн. Цицианова к Ибрагим-хану, от 14 марта 1805 года, №162 // АКАК, т. II, док. 1431, с.701.
8. Письмо кн. Цицианова к Ибрагим-хану, от 16 марта 1805 года, №165 // АКАК, т. II, док. 1432, с.701.
9. Письмо кн. Цицианова к Ибрагим-хану, от 25 апреля 1805 года, № 279 // АКАК, т. II, док.1434, с.702.
10. Письмо Мамед-Хасан аги, сына Ибрагим хана, к полк. Карягину, – получено 7 января 1805 года (перевод старый) // АКАК, т. II, док. 1423, с. 698.
11. Предложение кн. Цицианова Ибрагим хану, от 16 января 1805 года, №37 // АКАК, т. II, док. 1428, с. 699-700.
12. Предложение кн. Цицианова к Мамед Хасан аге, от 16 января 1805 года, №39 // АКАК, т. II, док. 1429, с. 700.
13. Предписание кн. Цицианова грузинскому дворянину Ниниа Джораеву, от 13 октября 1804 года // АКАК, т. II, док. 1422, с. 697.
14. Предписание кн. Цицианова 17-го егерского полка майор Лисаневичу, от 16 января 1805 года, №11 // АКАК, т. II, док. 1425, с. 698.
15. Предписание кн. Цицианова полк. Карягинуот 26 февраля 1805года, №110//АКАК, т.II,док. 1430,с.700-701.

SUMMARY

ONCE AGAIN ON THE RELATIONS OF IBRAHIMKHALIL KHAN-SISIANOV (FROM THE OCCUPATION OF GANJA TO THE KURAKCHAY AGREEMENT)

Gafarova Z.A., Maharramov E.A., Hasanov H.N.

In this article, based on reliable primary sources, first of all, according to this treasure trove of the history of the Caucasus of the 19th century, and more precisely, based on the materials of the “Acts collected by the Caucasian Archaeological Commission”, some interesting aspects of the relationship between the penultimate sovereign of the Karabakh Khanate, Ibrahimkhalil khan, and the commander-in-chief of the Russian troops in the Caucasus by General P.D. Tsitsianov are considered.

Relying on objective, reliable information, only on bare facts collected in this invaluable storehouse of historical rarities, compiled under the guidance of the famous Caucasian scholar A.Berger (by the way, Mirza Fatali Akhundov was among those people who participated in the creation of these sources), we tried consider the course of evolution and the results of the relationship between this Azerbaijani khan and the Russian general from the beginning of 1804 until the conclusion of the Kurekchay Treaty on May 14, 1805.

The above information, exhausted from these invaluable sources, allows us to follow the course of the relationship between these historical figures of the beginning of the century before last. The conducted studies show the true predatory goals, the undisguised coarse colonial manners of the colonial general, as well as the desire of Ibrahimkhalil khan to maneuver between various serious forces that at the beginning of the 19th century really threatened the sovereignty of the Karabakh Khanate and the khan’s attempts to somehow maintain his power and independence of the Khanate.

The above materials also allow us to consider some difficult moments in the relationship among the khan’s family itself. It becomes clear that the colonialists did not shy away from any methods in order to achieve their

predatory goals.

Keywords: *Karabagh, Shusha, Ibrahimkhalil khan, Ganja, Tsitsianov, Kurakchay*

РЕЗЮМЕ

ЕЩЕ РАЗ ОБ ОТНОШЕНИЯХ ИБРАГИМХАЛИЛА ХАН-СИСИАНОВА (ОТ ОККУПАЦИИ ГЯНДЖИ ДО КУРАКЧАЙСКОГО СОГЛАШЕНИЯ)

Гафарова З.А., Магеррамов Э.А.,Гасанов Х.Н.

В настоящей статье на основе достоверных первоисточников, в первую очередь, по сведениям настоящей кладези по истории Кавказа XIX века, а точнее по материалам «Актов, собранных Кавказской Археологической Комиссией», рассматриваются некоторые интересные стороны взаимоотношений предпоследнего государя Карабагского ханства Ибрагимхалил хана с главнокомандующим российскими войсками на Кавказе генералом П.Д.Цициановым.

Опираясь на объективные, достоверные сведения, только на голые факты, собранные в этом бесценном кладезе исторических раритетов, составленный под руководством известнейшего кавказоведа А.Берже (кстати, среди тех людей, которые участвовали в создании этого источника был и Мирза Фатали Ахундов), мы попытались рассмотреть ход эволюции и итоги взаимоотношений этого азербайджанского хана и российского генерала с начала 1804 до заключения Кюрекчайского договора 14 мая 1805 года.

Приведенные сведения, исчерпанные из этих бесценных источников, позволяют следить за ходом взаимоотношений этих исторических лиц начала позапрошлого века. Проведенные исследования показывают истинные захватнические цели, неприкрытые грубые колониальные замашки генерала-колонизатора, а также стремление Ибрагимхалил хана лавировать между различными серьезными силами, которые в начале XIX столетия реально угрожали суверенитету Карабахского ханства и попытки хана как-то сохранить свою власть и самостоятельность ханства.

Приведенные материалы так же позволяют рассмотреть некоторые сложные моменты во взаимоотношениях среди самой ханской семьи. Становится ясным, что для достижения своих захватнических целей колонизаторы не чурались никакими методами.

Ключевые слова: *Карабаг, Шуша, Ибрагимхалил хан, Гянджа, Цицианов, Кюрекчай*

QARABAĞ BƏYLƏRBƏYLİYİNİN ƏRAZİSİ, SƏRHƏDLƏRİ, İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ VƏ ƏHALİSİ (XVI-XVIII ƏSRİN ƏVVƏLLƏRİ)

Qarayev E.T.
AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu, Bakı
elchin_garayev@mail.ru

Açar sözlər: *Qarabağ, ərazi, sərhəd, inzibati-ərazi bölgüsü, sancaq, kənd, əhali.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qararabağ bölgəsinin tarixinin hərtərəfli araşdırılması vətən tarix elmi qarşısında duran aktual məsələlərdən biridir. Qarabağ bölgəsinin bir çox məsələləri ilə bərabər, onun tarixi-siyasi coğrafiyası diqqəti cəlb edən əsas məsələlərdən biridir. Məqalə əsasən, Qarabağ bəylərbəyliyinin ərazisi, sərhədləri, inzibati-ərazi bölgüsünə və əhalisinə həsr olunmuşdur.

Səfəvilər dövlətinin (1501-1736) mövcud olduğu dövrdə onun tərkibinə daxil olan bölgələrdən biri də Qarabağdır. Qeyd etmək lazımdır ki, Səfəvilər dövləti inzibati ərazi bölgüsü cəhətdən bəylərbəyliklərə bölünmüşdü. “Təzkirət əl-mülk” əsərində Səfəvilər imperiyasında bəylərbəyliklərin sayının 13-ə bərabər olduğu göstərmişdir. Bu bəylərbəyliklər bunlardır: 1.Şirvan; 2.Qarabağ; 3. Azərbaycan və yaxud Təbriz; 4. Çuxursəd; 5. Qələmrov-i Ali Şəkər (Həmədan); 6. Qəzvin; 7. Kuh Giluyə (Fars); 8. Kerman; 9. Astrabad; 10. Məşhəd-i Müqəddəs-i Müəlla, 11) Herat; 12) Mərv-i Şahicahan; 13. Qəndəhar [14, s.20-21; 2, s.242]. Səfəvilər dövlətinin mövcud olduğu ilk dövrlərdən Azərbaycan onun əsas mərkəzi vilayəti olmuş, dövlətin digər əraziləri buradan idarə olunmuşdur. Yuxarıda göstərilən ilk 4 bəylərbəylik Azərbaycan vilayətinin inzibati ərazi bölgüsünə daxil idi. Bu bəylərbəyliklərdən biri də Qarabağ bəylərbəyliyidir.

Bəylərbəyliklərin tarixi əsasən Səfəvilər dövrü ilə əlaqədar idi. Səfəvi şahları özlərinə yaxın nüfuzlu əyanları bu bölgənin hakimi təyin edirdilər. Onların əlində həm mülki, həm də hərbi hakimiyyət birləşmişdi. Hətta hakimlərin bəziləri vəzifəsindən sui-istifadə edərək mərkəzdən gələn göstərişlərə məhəl qoymur və ilk

dövrlərdə varislik uğrunda mübarizə aparırdılar. Səfəvi şahları, xüsusən də şah I Abbas (1587-1629) hakimlərin bu istəyinə qarşı çıxmış, onların fəaliyyətini məhdudlaşdırmaq üçün bəylərbəylikləri bibaşa şaha tabe olan mülki əyanlarla əhatə etmişdilər [12, s.118; 8, s,57]. Lakin XVI əsrin əvvəllərindən başlayan Osmanlı-Səfəvi müharibələri zamanı (1514-1555, 1578-1590, 1603-1612, 1623-1639, 1723-1727, 1730-1736) bu bəylərbəyliklərin əksəriyyəti, o cümlədən Qarabağ Osmanlı hakimiyyəti altına keçmişdir. Osmanlı hakimiyyəti bu bəylərbəyliklərdə dəyişikliklər etməsə də, onları öz idarə üsullarına uyğunlaşdırmışdılar. Bu bəylərbəylikləri sultan tərəfindən təyin olunan paşalar idarə etmişdilər.

Taix emində Qarabağ bəylərbəyliyinin nə vaxt yaranması haqqında bir çox fikirlər mövcuddur. Alman tarixçisi K.M.Rohrborn Qarabağ bəylərbəyliyinin yaranmasını 1554-cü ilə aid etmiş və Qacar tayfasından olan Şahverdi sultan Ziyadoğlunun Qarabağın ilk bəylərbəyisi olduğunu bildirmişdi [9, s.165]. Lakin N. Musalı naməlum azərbaycanlı müəllif tərəfindən qələmə alınmış "Tarix-i aləmara-yi Şah İsmayıl" adlı mənbəyə əsaslanaraq bu bəylərbəyliyin şah I İsmayıl dövründə yarandığını məqaləsində belə göstərmişdir: "Bu bəylərbəylik I Şah İsmayılın dövründə yaranmış, o, "Qarabağın və o sərhədin bəylərbəyliyini Qara Pirinin oğlu Rüstəm bəyə inayət etmişdi" [9, s,166].

Qarabağ bəylərbəyliyinin mərkəzi Gəncə şəhəri olmuş və bəylərbəylik geniş ərazini əhatə etmişdir. Onun sərhədləri şimalda Kür çayı boyunca şimal-qərbə doğru, cənubda isə Kür-Araz qovşağından Araz çayı boyunca cənubi-qərbə doğru Bərgüşad livasına və buradan da şimal istiqamətində Göyçə gölünün şərq hissəsindən keçərək yenə də şimala döğru, Tiflis əyalətinə daxil olmuş Borçalının cənub hissəsi və Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qəzasına qədər uzanmışdır [3, s.7]. Gəncə bəylərbəyliyi cənubdan Təbriz (Azərbaycan) bəylərbəyliyi, qərbdən Çuxursəd bəylərbəyliyi, şərqdən və şimaldan Şirvan bəylərbəyliyi ilə, həmçinin şimal-qərbdən Kartli-Kaxetiya ilə həmsərhəd olmuşdur. "Təzkirətil-mülk" əsərində Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin 9 inzibati rayondan ibarət olması haqqında məlumat verilmişdir. Mənbədə nəinki həmin ərazilərin adları, eyni zamanda onların illik mədaxili və qoşunların sayı haqqında məlumat verilmişdir. Səfəvilər dövlətində Qarabağ bəylərbəyliyinə daxil olan rayonlar bunlar idi: Zəyəm, Bərdə (Gəncədən cənub-qərbdə yerləşirdi, Axstabad (indiki Ağstafa- Ağstafa çayının ətrafında yerləşirdi), Cavanşir (Tərtər və Araz çayları arasında yerləşirdi), Bərgüşad (Ordubadın şimal-şərqində yerləşirdi), Arasbar (Culfa və Ordubaddan şərqdə, Araz çayının hər iki sahilində yerləşirdi), Qaraağac (Kartli vilayəti ərazisində yerləşirdi), Lori və Pəmbək (Çuxursəd bəylərbəyliyinin şimalında yerləşirdilər) [13, s.88]. Mahalların hər birinin öz hakimi və qoşunu var idi. "Təzkirətil-mülk"ə görə, Zəyəm hakimi 5998 tümən 5980 dinar illik mədaxilə və 1200 nəfərlik qoşuna, Bərdə hakimi 3792 tümən 2735 dinar mədaxilə və 515 nəfərlik qoşuna, Ağstafa hakimi 852 tümən 5930 dinar mədaxilə və 700 nəfərlik qoşuna, Cavanşir hakimi 2102 tümən 8000 dinar mədaxilə və 832 nəfərlik qoşuna, Bərgüşad hakimi 341 tümən 2750 dinar mədaxilə və 300 nəfərlik qoşuna, Qaraağac hakimi 636 tümən 5434 dinar mədaxilə və 210 nəfərlik qoşuna, Lori və Pəmbək hakimi 1545 tümən 8434 dinar mədaxilə və 550 qoşuna malik olmuşdur [6, s.114].

Qeyd etmək lazımdır ki, XVI əsrin əvvəllərindən XVIII əsrin birinci yarısına qədər fasilələrlə davam edən Səfəvi-Osmanlı müharibələri Azərbaycanın tarixi-siyasi coğrafiyasına böyük təsir göstərmişdir. Bu müharibələr zamanı Qarabağ bəylərbəyliyi də əldən ələ keçmiş, XVI əsrin sonundan XVII əsrin əvvəllərinə qədər, 1723-1735-ci illərdə bu bölgə Osmanlı Türkiyəsinin nəzarətinə keçmişdir. 1593-cü ildə Osmanlı hakimləri Qarabağ bəylərbəyliyində siyahıyaalınma həyata keçirmiş, sonradan bu siyahıyaalınma "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" adı ilə tarixə düşmüşdür. Bu kameral təsvirdə Qarabağ əyalətinin inzibati-ərazi bölgüsü ilə bağlı qiymətli məlumat verilmişdir. Doğrudur, Osmanlı hakim dairələri Qarabağ əyalətinin inzibati-ərazi bölgüsündə bir o qədər də dəyişiklik etməyə çalışmamış, yalnız özlərinin inzibati-ərazi bölgüsü adlarına uyğunlaşdırmışdılar. Əgər Səfəvilər dövründə Qarabağ bəylərbəyliyi inzibati-ərazi bölgüsünə görə mahallara, kəndlərə bölünürdüsə, Osmanlı hakimiyyəti dövründə sancaqlara, sancaqlar nahiyələrə, onlar da kəndlərə bölünürdü.

1593-cü il "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri"ndə əyalət 7 sancaq və 36 nahiyədən ibarət olmuşdur. Ən böyük nahiyə **Gəncə sancağı** olmuş, bu sancağa Gəncə, Gəncə Aranı, Dağlıq Gəncə, Şəmkür Aranı, Dağlıq Sunqur, Kürəkbasan Aranı, Şütür, danqı, Zəyəm Aranı, yevlaq, Tavuz və Dəmirhəsən nayihələri, **Bərdə sancağına** Bərdə, Sir, Pətəklik və İncərud nayihələri, **Xaçın sancağına** Xaçın, Qaraağac, Ağcabədi, Dağlıq Çalaberd, Çalaberd, Qarqar və Mağaviz nahiyələri, **Axıstabad (Ağstafa) sancağına** Axıstabad (Böyükçay), Quzey, Güney, Dağlıq İncə və İncə nayihələri, **Dizaq sancağına** Arasbar, Dağlıq Dizaq və Dizaq nayihələri, **Həkəri sancağına** Keştasf, Həkəri, Zarıs və Alpaut nayihələri, **Vərəndə sancağına** isə Vərəndə nayihəsi daxil idi [3, s.5-6; 11, s.73; 4, s.7-8].

Osmanlı hakim dairələrinin 1727-ci ildə keçirdiyi kameral təsvirdə Gəncə-Qarabağ əyaləti 37 nayihəni özündə birləşdirən iki qəzadan və 5 livadan (sancaqdan) ibarət olmuşdur. **Gəncə qəzasına** Gəncəbasar Sunqurabad, Şəmkürbasan, Kürəkbasan, Kiçik Kürəkbasan, Böyük Kürəkbasan, Yevlaq Qaramanlı, Talış, Gülüstan, Danqı nayihələri, **Lori qəzasına** Güney və Quzey nahiyələri, **Xılxına livasına (sancağına)**

Xılxına, Həsənsuyu, Tavuz, Axıncı, Əsrik və Yal, Qaraqaya, Türkənlər, Yuxarı Zəyəm və Aşağı Zəyəm nayihələri, **Bərdə livasına (sancağına)** Bərdə, İncərud, Sir və Bayat nayihələri, **Arasbar livasına (sancağına)** Bərgüşad, Zarıs, Dizaq və Köştasf nayihələri daxil olmuş, **Çələndər livasının (sancağının)** nayihələri göstərilməmişdir [3, s.23-435; 11, s.74].

1727-ci il Qarabağ əyalətinin müfəssəl dəftərinə görə, əyalət 1178 kənddən ibarət olmuş, bu kəndlərdən 701 kənddə sakin yaşamışdır. Müfəssəl dəftərdə 478 əhali yaşamayan, 165 isə vaxtilə sakinləri olmuş, sonradan isə heç kimim yaşamadığı (məzrəə) kəndlər də qeyd olunmuşdur. Beləliklə, siyahiyaalınma keçirildiyi vaxt əyalətin boş kəndlərin sayı 643 idi. Kütləvi surətdə kəndlərin boşalmasının səbəbi XVIII əsrin əvvəllərində Səfəvilər dövlətində baş vermiş iqtisadi və siyasi böhran, şah I Sultan Hüseynin yeritdiyi ağır vergi siyasəti və Osmanlı-Səfəvi müharibələri olmuşdur. Bu müharibələr zamanı minlərlə sakin öz yurdlarından didərgin düşmüşdür. Bundan əlavə, "Müfəssəl" dəftərdə Gəncə-Qarabağ əyalətinin 21 qışlağının, 4 yaylağının, 12 böyük və xırda çaylarının və bir sıra arxlarının adları da qeyd olunmuşdur [3, s.8-9; 1, s.18-20, s.29-30; 7, s.37-42, s.60-67; 5, s.74-80].

Gəncə-Qarabağ əhalisinin böyük əksəriyyəti köklü Azərbaycan türkləri olmuşdur. Mənbələrdə Qarabağın əhalisi və etnik tərkibi haqqında mühüm məlumatlara rast gəlmək olar. Qeyd etmək lazımdır ki, bu mənbələrdə əhalinin sayı haqqında verilən məlumatlar gerçəkliyi əks etdirmir. Çünki Səfəvi-Osmanlı müharibələri nəticəsində, yaxud Osmanlı hakimiyyəti dövrlərində Azərbaycanın digər ərazilərində olduğu kimi, Qarabağ bəylərbəyliyinin əhalisinin böyük bir hissəsi, xüsusən də müsəlman şiə əhalisi öz yurdlarını tərk etmək məcburiyyətində qalmışdı. Yuxarıda "İcmal" dəftərlərinə əsasən Qarabağ əyalətində boş kəndlərin göstərilməsi buna bariz nümunədir.

XVI əsrin sonlarında Azərbaycanda baş verən Osmanlı-Səfəvi müharibələri əhalinin məcburi miqrasiyasına daha böyük təsir göstərmişdir. Bunu Osmanlı tarixçilərinin özləri də etiraf etmişdilər. Məsələn, Osmanlı tarixçisi İbrahim Rəhimzadə "Zəfərnameyi-sultan Murad salis" əsərində yazırdı ki, Azərbaycanı ələ keçirmək üçün osmanlılara köməyə gəlmiş Krım xanı Qazi Girey qoşunu ilə Gəncə-Qarabağ əyalətinə soxularaq Gəncə ilə Bərdə arasındakı ərazidə talanla məşğul olmuş, geri dönəndə isə 30 minə qədər əsir aparmışdır [3, s.15]. Digər mənbə olan "Gənceyi-fəthi-Gəncə" əsərində göstərilir ki, 1588-ci oldə Gəncə-Qarabağ bəylərbəyi, qacarlardan olan Məhəmməd xan osmanlı ordusunun Gəncə şəhərinə yaxınlaşmamışdan bir neçə gün əvvəl tabeliyində olan 50 minə qədər insanı və öz ailəsini əyalətdən çıxarıb, Araz çayını keçərək Qaradağda yerləşdirsə də, bura gəlmiş osmanlı ordusu onları tamamilə məhv etmişdir. Bu məlumatdan sonra mənbədə qeyd edilir ki, Gəncə-Qarabağ əyalətinin qeyri-müsəlman olan mülkləri gəlib osmanalılara itaətini bildirdilər və müqabilində öz vəzifələrində qalmaqla yanaşı, həm də yeni torpaqlar da aldılar [3, s.15].

Eyni vəziyyət XVIII əsrin əvvəllərində də müşahidə olunur. Məsələn, H.Cəlalyan əsərində göstərmişdi ki, Hacı Davudun başçılığı ilə baş vermiş üsyan nəticəsində yerli müsəlman əhalisi əsir aparılmış, kəndlər boş qalmış, qeyri müsəlman əhalisini isə Vərəndə məliyi Bağır hədiyyələr nəticəsində azad etmişdir [1, s.29-30]. Bundan əlavə, 1725-ci ildə Osmanlı-Səfəvi müharibələri nəticəsində Gəncə-Qarabağ əyalətinin bütün nayihələrində kəndlərin boşalmasının şahidi oluruq. 1727-ci il müfəssəl dəftərə görə, Yevlaq-Qaramanlı, Bərdə, Bayat nayihələrinin əhalisi, Otuzikilərin bir qismi Şirvan əyalətinə, Şahsevən, Kəbirli və Kəngərli tayfalarının hamısı Muğan düzünə, Salyan bölgəsinə köçmüşdülər. Təqribən eyni vəziyyət Qarabağ əyalətinin dağlıq və dağətəyi hissəsində də müşahidə olunmuşdur. Xaçın Sığnağın 77 kəndindən 36 kəndin, Dizaqın 79 kəndindən 21 kəndin, Köçəzin 19 kəndindən 14 kəndin, Arasbarın 71 kəndindən 55 kəndin, Həkərinin 21 kəndindən 20 kəndin, Zarısda 12 kəndin, Keştaspda olan 7 kəndin əhalisinin hamısı öz yurdlarını tərk etmək məcburiyyətində qalmışdılar. Məhz buna görə, əhalinin ümumi sayından Dizaq nahiyəsində 49,2 %, Xaçın Sığnaq nahiyəsində 13,1 %, Vərəndə Sığnaq nahiyəsində 9,7 %, Gəncəbasar nahiyəsində 41,6 %, Əsrik nahiysində 37,1 %, Axırıncı nahiyəsində 36,9 % Azərbaycan türk əhalisi qalmış, Gülüstan, Talış və Qaraqaya nahiyələrində isə bir nəfər də olsun türk əhalisi qalmamışdır [3, s.16].

Lakin Qarabağ əhalisinin müharibələr və köçürmələr nəticəsində azalmasına baxmayaraq, siyahıyaalınmanın nəticələrinə görə, Azərbaycan türk əhalisi Qarabağ bəylərbəyliyində çoxluq təşkil etmişdir. 1727-ci ildə tərtib olunmuş "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"nə görə, bu əyalətdə əhalinin sayı 121975 nəfər olmuş, bunun 80440 nəfərini (65,9 %) Azərbaycan türkləri, 37885 nəfərini (37885 %) xristianlar və 3750 nəfərini (3,1 %) isə kürdlər təşkil etmişdilər [3, s.17; 11, s.74].

1593-cü ilin "İcmal dəftəri"ndə Qarabağın əhalisi olan Qacarlar, Otuzikilər, Hacılar, Qaramanlılar və Şəmsəddinli otmaqları haqqında ətraflı məlumat verilmişdir. Bu siyahıyaalmada İyiridördlü tayfasının bütün 24 oymağı, qışlaqlarının yeri haqqında məlumat vardır. Bərdə, Sir, İncərud, Çelaberd, Şütur, Qaraağac, Yevlaq, Pətəklik nahiyələrində qışlaqları olan İyirimidördlü oymaqlarının adları aşağıdakılardır: Yasavullu, Əlişarlı, Sarıhacılı, Bəxşeyişli, Yollu, Bəxtiyarlı, Tokaclu, Dədəxəlilli, Tobulu, Tərəli, Molla Əlili, Seydi-Zəng, Dərəbəyli, Varvara, Zeyd, Gədə Əhmədli, Alpaut, Göyçəliyi-Varvara, Göyçəli, Pir Mahmudlu,

Dördlər, Dürhəsənli, Ərəbli və Xəlləcan. Lakin 1727-ci il "Müfəssəl dəftəri"ndə bu tayfa haqqında məlumat yoxdur. Ehtimal olunur ki, İyirimidördlülər otuzikilərin bir qismi kimi Şirvan əyalətinə və yaxud başqa yerlərə köç etmiş, digər tərəfdən Qarabağda yaşayan digər camaatın tərkibinə daxil olmuşdular [3, s.20].

"İcmal dəftər"də **Qacar tayfasına** məxsus 8 oymağın- Qaraca-Sevgülən, Qaytaq, Qolsuzlu, Ağcaqoyunlu, Gəngəldili, Əylənli, Şam Bayatı, Yıva Qacar, **Qaramanlı tayfasına** məxsus 3 oymağın- Rüstəmbəyli, Sorluq, Hacı Vacardıki və Hacı Tırnagerd, **Hacılı tayfasına** məxsus 31 oymağın-Əlişarlı, Bukavullu, Canılı, Çıraclı, Davılı, Davudlu, Dəmirçilər, Top-Əli, Əmir Alyanlı, Əmir Həsənli, Qazili, Hindimallı, Xəlifəli, İsabəyli, İsmayıl-Qazılı, Qədim İsmailli, Kağan Ərli, Qara Sofılu, Kərəməddinli, Qoruqçulu, Qoyunlu Mahmud, Qul Mahmudlu, Kürələr, Mirxanili, Sarsarlı, Sazağanlı, Səməli, Səməli-yi Artuc, Sökəli, Törəli, **Otuzilili tayfasına** məxsus 26 oymağın- Atlucalı, Padar, Bay Əhmədli, Buğdayüzü, Cancanlı, Cavanşir, Dögərli, Həsirli, Hüseynli, Kəpənəkçi, Kırqallı, Əski Kumanlı, Yeni Kumanlı, Lalə Bükili, Maqsudlu, Maksudlu-Həmidli, Məhəmmədşahlı, Molla Əbdülcəlilli, Molla Əbdülməcidli, Müqəddəmli, Sarıhacılı, Sirkəli, Şirvanşalı, Üç Oğlan, Yay-Okçu, Veysəlli oymaqlarının adları göstərilmişdir [4, s.116-117; 10, s.10-11].

Beləliklə, mənbələrin təhlili göstərir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bir bəylərbəylik kimi XVI əsrin əvvəllərindən 1736-cı ilə kimi fəaliyyət göstərmiş, siyasi vəziyyətlə əlaqədar olaraq müəyyən dövrlərdə ərazi cəhətdən dəyişikliyə uğramışdır. Qarabağ bəylərbəyliyi inzibati-ərazi bölgüsünə görə sancaqlara, nayihələrə və kəndlərə bölünmüşdür. Bəylərbəyliyin əhalisinin böyük əksəriyyətini isə etnik cəhətdən Azərbaycan türkləri təşkil etmişdir.

ƏDƏBİYYAT

1. Джалалян, Е.Х. Краткая история страны Албанской (1702-1722) / Е.Х.Джалалян. - Баку: Элм, – 1989.
2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti / O.Əfəndiyev. -Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.-1993.
3. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifi Hüsaməddin Məmmədov N (Qaramanlı). Bakı: Şuşa. – 2000.
4. Gəncə-Qarabağ əyalətinin icmal dəftəri /-Bakı:-2009.
5. Иванов, М.С. Очерки истории Ирана / М.С.Иванов. - Москва: Госполитиздат, – 1952.
6. Историческая география Азербайджана //- Баку: Элм.-1987.
7. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində / E.Qarayev.-Bakı: ADPU.-2005.
8. Qarayev E. İrəvan hakimlərinin tarixindən / E.Qarayev.-Bakı:-2021.
9. Musalı N. Səfəvilər dövlətində Qarabağ bəylərbəyliyinin yaradılması və onun inzibati quruluşu // Bakı: Qarabağ dünən, bu gün və sabah.-2006
10. Nəcəfli T. Qarabağ bölgəsi XV-XVII yüzilliklərdə / T.Nəcəfli.-Bakı: Ipək yolu,- 2021.
11. Piriyev, V. Azərbaycanın tarixi coğrafiyası / V.Piriyev. - Bakı: Araz, –2002.
12. Петрушевский, И.П. Очерки по истории феодальных отношения в Азербайджане и Армении XVI-начале XIX вв / И.П.Петрушевский. - . Ленинград: ЛГУ, – 1949.
13. Рахмани, А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700) / А.Рахмани. - Баку: Элм, – 1981.
14. Təzkürəti əl mülk / Tərtibçi Ə.Rəhmani // AMEA TİEA, fond1, siyhı 1, iş 3607, v.20-21.

SUMMARY

TERRITORY, BORDERS, ADMINISTRATIVE-TERRITORIAL STRUCTURE AND POPULATION OF THE KARABAKH BEYLERBEG (BEGINNING OF THE 16TH-18TH CENTURIES)

Garayev E.T.

The article is devoted to the territory, administrative-territorial structure and population of the Karabakh beklerbey at the beginning of the 16th-18th centuries. The history of the Karabakh beklerbeg was mainly connected with the history of the Safavid state, but in some periods it was part of the Ottoman state. The analysis of sources shows that during the indicated period, the Karabakh beglerbey, which is an integral part of Azerbaijan, was divided into sanjaks, mahals and villages according to the administrative-territorial division. Ethnically, the overwhelming majority of the Beglerbeg population were Azerbaijani Turks.

Key words: *Karabakh, territory, border, administrative-territorial division, sancaq, village, population;*

РЕЗЮМЕ

ТЕРРИТОРИЯ, ГРАНИЦЫ, АДМИНИСТРАТИВНО-ТЕРРИТОРИАЛЬНОЕ УСТРОЙСТВО И НАСЕЛЕНИЕ КАРАБАХСКОГО БЕГЛЕРБЕГСТВО (НАЧАЛО XVI-XVIII ВВ.)

Гараев Э.Т.

Статья посвящена территории, административно-территориальному устройству и населению Карабахской беклербегства в начале XVI-XVIII вв. История Карабахского беклербегства в основном была связана с историей Сефевидского государства, но в отдельные периоды оно входило в состав Османского государства. Анализ источников показывает, что в указанный период Карабахское беглербегство, являющееся составной частью Азербайджана, по административно-территориальному делению делилось на санджакы, магалы и села. В этническом отношении подавляющее большинство населения беглербеги составляли тюрки-азербайджанцы.

Ключевые слова: *Карабаг, территория, граница, административно-территориальное деление, санджак, село, население;*

XOCALI SOYQIRIMI, TÜRKLƏRƏ QARŞI ERMƏNİLƏRİN MƏRHƏLƏ-MƏRHƏLƏ GERÇƏKLƏŞDİRİLƏN DÜŞMƏNÇİLİK SİASƏTİNİN TƏZAHÜRÜDÜR

Qasımov Ş.M.
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
shikarqasimov@mail.ru

Açar sözlər: *Soyqırım, talan, müstəqillik, köçürmə, qətliam*

Xocalı faciəsindən 30 il keçdi. Otuz il bundan əvvəl, 1992-ci il fevralın 25-dən 26-a keçən gecə Azərbaycanda elə bir faciə baş verdi ki, bunun bənzərini göstərməkdə adam çətinlik çəkir. Müstəqillik illərinə qədər tariximiz barədə bir çox fakt və bilgilər əldə etsək də son 200 ildə xalqımıza qarşı törədilmiş qırğınlar, talanlar və qətliamlar barəsində lazımınca məlumat əldə edə bilməmiş və bu məsələləri özümüzə və dünyaya çatdıra biləcək təbliğat maşını da yarada bilməmişdik. 70 il saxta beynəlmiləlçilik şüarına inanaraq əsil həqiqətlərdən uzaq düşmüşük və faciəmizi bizə unutdurmuşlar. Müstəqilliyə qovuşduqdan sonra ermənilərin Türk-müsəlmanlara qarşı törətdikləri qırğınlar, yaşayış məskənlərimizi viran etmələri və qətliamlar haqqında çox məlumat öyrənə bilmişik. Birdən adam düşünür düşmən nə qədər pis xislətli olsa da bir gecədə bir şəhəri necə məhf edə bilib?. Xocalı qətliamı nəticədir. Ona görə də Xocalı fasiəsindən danışmazdan əvvəl, bu faciəyə gedən yola nəzər salmaq daha düzgün olar. Belə ki, son iki əsrdə xalqımız məqsədyönlü şəkildə həyata keçirilmiş, soyqırımı siyasəti nəticəsində böyük faciələrlə üzləşmişdir. Bu faciələrin tarixini öyrəndikcə- 1918-ci ilin mart qırğınlarına, deportasiyaya, 20 yanvara, Xocalıya gedən yol bilinəcəkdir. Bu mənada xalqımızın keçdiyi yola nəzər salmaq daha məqsədə uyğundur.

Tarixi gerçəkliyi izləyərək görürük ki, IV əsrdən etibarən ermənilərin yaşadıqları ərazilər İran və Bizans arasında bölüşdürülmüşdür. Mövcud olan "erməni dövləti" Bizansdan, Səlcuqlardan asılı, yarımmüstəqil kiçik knyazlıqlar şəklində təzahür etmişdi. 1375-ci ildə Kilikiya knyazlığına son qoyulduqdan, XX əsrin əvvəlinə- 1918-ci ilə kimi tarixdə erməni dövləti və yaxud çarlığı olmamışdır. Tarixdə mövcud olan yarımasılı erməni knyazlıqlarının Cənubi Qafqaz bölgəsinə qətiyyən aidiyyatı olmamışdır. Ermənilər Qafqaza, o cümlədən Şimali Azərbaycana gəlmə xalqdırlar.

Erməni başçıları "Böyük Ermənistan" yaratmaq xülyası ilə XVII əsrdən dünyanın iri dövlətlərinə müraciət etmişlər. Rusiya və Qərbin bəzi iri dövlətləri yaxın şərqdə hökm-ranlıq etmək, İran və Türkiyəni zəiflətmək məqsədilə ermənilər dəstəkləmişlər.

Ermənilərin Cənubi Qafqazda yerləşməsi prosesində XVI-XVII əsrlər və XVIII əsrin ilk rübündə baş vermiş Səfəvi-Osmanlı müharibələrinin və Rusiya imperatoru I Pyotrun xüsusi rolu olmuşdu.

XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalını başa çatdıran Rusiya imperiyası, ermənilərin ortaya atdığı "Böyük Ermənistan" ideyasının ağ yalan olduğunu bilə-bilə, 1828-ci il martın 21-də I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti"ni (12,s.144) yaratdı. Bu qurumda aparıcı rolu sayca onlardan dəfələrlə çox olan azərbaycanlılara deyil, məhz azlıqda olan ermənilərə verdi.

Mövcud siysətlə paralel olaraq Tükrmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan 40 min, 1829-cu və 1877-1878-ci illərdəki Rusiya-Türkiyə müharibələrinin yekunla-rına əsasən isə Türkiyə ərazisindən təxminən 84 min erməni (4), İrəvana, Qarabağa və Naxçıvana köçürülür. Köçürülmə başa çatdıqdan sonra "erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də azərbaycanlılar yaşayırdılar (7,s.63). Göründüyü kimi ilbə-ilə şirniklə̇ndirilən ermənilər ağlasığmaz xülyalarla yaşayır və çirkin yollara əl atmaqdan çəkinmirlər. Azər-baycan, Türkiyə və Gürcüstan ərazəsində "Böyük ermənistan" qurmağı niyətləyən, qərbin hakim dairələri tərəfindən şirniklə̇ndirilən erməni separatçıları 1862, 1878, 1884-cü illərdə Türkiyənin Zeytun, 1880-cı ildə Sasun və 1884-cü ildə Van vilayətlərində qanlı faciələr törətmişlər. 1896-cı ildə İstanbul poçtxanasını partlatmış və neçə-neçə günahsızı qanına qəltan etmişlər. Bundan sonra erməni millətçiləri mübarizəni Qafqaza keçirirlər. 1887-ci ildə Cenevrədə "Qnçaq", 1890-cı ildə, Tiflisdə "Daşnak sütyun" və 1895-ci ildə Nyu-Yorkda "Erməni Vətənpərvərləri İttifaqı" kimi siyasi teror təşkilatlarını yaratmışlar (11,s.56).

Moskva isə vətənimizin Naxçıvan, Zəngəzur, Qarabağ və Gəncə kimi gözəl yerlərini onlara vəd etmişdir. Xalqın müqaviməti, Türkiyənin diplomatik müdaxiləsi nəticəsində o vaxt bu torpaqların bir qismi qorunub saxlanmışdı. Azərbaycan Zəngəzurun qərb hissəsini Gəncə və Qazağın dağlıq hissəsini itirmişdi. Mənfur niyətli ermənilər 1905-ci il Rus inqilabının başlanması ilə ölkədə yaranmış hərc-mərclikdən istifadə edərək 1905-ci ilin fevralın 6-9-da və avqustun 20-25-də İrəvanda, Bakıda, Şuşada, Gəncədə, Qazaxda və digər yerlərdə milli qırğınlar törətmişlər.

Birinci Dünya müharibəsi ərəfəsində II Nikolayın Qafqaza gəlişi və osmanlılara qarşı ermənilərə əməkdaşlıq təklif etməsi, məsələni daha da ciddiləş-dirmişdi. Çar Tiflisdəki nitqini bu sözlərlə bitirmişdi: "Qoy, rus bayrağı altında üzən gəmilər Bosfor və Dardanel boğazla-rında sərbəst hərəkət etsin. Qoy, erməni xalqı Rusiyanın köməyi ilə Osmanlı ərazisində öz müstəqil dövlətini qura bilsin. Çar hökumətinin himayəsi altında din qardaşlarımızla birləşərək, nəhayət hürriyyət və ədalət nemətlərinə qovuşacaqsınız. Ermənilərin sədaqətinə inanıram, erməni xalqını xoş gələcək gözləyir. Sizi əmin edirəm ki, arzunuz yerinə yetiriləcək!" (6,s.37). Beləliklə, II Nikolayın bu qərəzli və təhrikedici çıxışı ermənilərin Rusiya tərəfindən Türkiyəyə qarşı müharibədə iştirak etməsini təmin etdi.

1914-cü ilin noyabrın 1-də Qafqaz istiqamətində Osmanlı sərhədlərini rus ordusunun keçməsi Osmanlı ərazilərində yaşayan ermənilər hərəkətə gətirdi. Rus ordusunun Şərqi Anadoluya daxil olması ermənilərin türklərə qarşı kütləvi qırğın törətməsi üçün şərait yaratdı. Rus ordusunun tərkibindəki ermənilər yerli ermənilərlə birləşərək heç bir günahı olmayan 100 minlərlə dinc əhalini qətlə yetirir və onları öz dədə-baba yurdlarından didərgin salırdılar. 1915-ci ilin yanvarında Sarıqamış rus qoşunları tərəfindən ələ keçirildikdən sonra kütləvi qırğınların miqyası daha geniş-lənmişdi.

Onda belə sual yaranır, bəs əslində 1915-ci ildə Osmanlı dövlətinin ərazisində nə baş verib? Və yaxud bu köçürmələr 1915-ci ilin mayında baş vermişsə, ermənilər niyə qondarma soyqırım günü kimi aprelin 24-nü seçiblər? Tarixi prosesləri obyektiv izləyən hər kəs görə bilər ki, bütün bu qırğınların hamısı 1915-ci ilin aprelinə qədər olub. Ermənilər tərəfindən türklərə və müsəlmanlara qarşı törədilib.

Birinci Dünya Müharibəsi illərində Osmanlının təəbəsi olan erməni döyüşçüləri xəyanətə əl atır, könüllü dəstələr (çetelər) yaradır, silahı türklərə qarşı yönəldir, kütləvi şəkildə Rusiya tərəfə keçirlər. Arxada isə erməni silahlı dəstələri dinc tükləri, müsəlmanları qırıb, hökumət orqanlarına hücum edib, ölkəyə, rəsmi hakimiyyətə qarşı qiyam qaldırırlar. Ərzincana hücum etməzdən əvvəl erməni dəstələrinə əvvəlcə göstəriş verilmişdir ki, 5 yaşa qədər, sonra isə göstəriş verilmişdir ki, 2 yaşa qədər uşaqlar hamısı məhv edilsin. Yaddaşlarda heç nə qalmasın.

Vəziyyəti nizama salmaq üçün 1915-ci il aprelin 24-də Osmanlı İmperatorlu-ğunun Daxili İşlər Nazirliyi "Təhcir haqqında" (ərəbcə "köç" mənasını verir) qanun qəbul etməyə məcbur olur. Aprelin 26-da da Baş komandanlığın yeni əmri çıxır. O əmrə görə 2345 erməni terrorçusu ölkənin müxtəlif yerlərində həbs edilir. Bunların bir çoxu kəndlərə hücum edərək silahsız əhalini qıran cinayətkarlar idi. 27 may 1915-ci il tarixində "Söbh və isqan haqqında" ("Köç") qanun qüvvəyə minir (14). 28 maddədən ibarət bu qanuni sənəddə Şərqi Anadolu ərazisində daima problem yaradan, xarici qüvvələrlə işbirliyinə girən və əsgəri baxımından böyük təhlükə törədən əhalini, öz təhlükəsizlikləri baxımından daha etibarlı və idarəçilik baxımından da rahat olan ərazilərə köçürülməsindən bəhs edilir (8,s.34).

Türkiyənin burada başlıca məqsədi özünə qarşı arxadan vurulan zərbənin qarşısını almaqdan ibarət olub. Qiyamçı erməni dəstələrinin Van, Bitlis, Ərzurum, Adana, Sis, Mərsin, İskəndərun və Antakyadan ölkənin cənub vilayətlərinə köçürülməsi məsələsi də xahiş olunurdu (13,s.37). 1915-ci il 30 may tarixli məlumatda isə köçürülən ermənilərin məskunlaşdırılması, onların iaşə və tibbi məsələlərinin həlli tələb edilirdi (13,s.85).

1915-ci il 24 aprel tarixli "Təhcir qanunu"nda əksini tapmış təhlükəli hesab olunan qiyamçı dəstələr, dövlətə xəyanət edənlər ermənilər arasında müşahidə edilirdi. Belə ki, göstərildiyinə görə köçürülən 478.758 ermənidən 382.148 nəfəri köçürülən bölgələrə gəlib çatmışdır. Müharibə şəraitinin çətinlikləri, ağır yol həyatı, xəstəliklər və bu

kimi səbəblərdən ölən ermənilərin sayı isə 200 min nəfərə yaxın olmuşdur (10,s.18; 3). Köçürmə zamanı ölən ermənilərin sayının 1,2 və yaxud 1,5-milyonadək şişirdilirdi ki, bunun da heç bir əsasa söykənmədiyi və sadəcə təbliğat xarakteri daşıdığı aydın görünür. Hətta ölənlərin sayını ildən-ilə artıraraq utanmadan indi üç milyona çatdıran erməni boşboğazları da vardır.

Ermənilər köçürülərkən onların təhlükəsizliyini və sağlamlıqlarını qorumaq üçün jandarm qüvvələri və həkim dəstəsi ayrılmışdı. Hökumət bu prosesə təxminən 86 milyon lirə xərcləmişdi. Ermənilər Van, Bitlis və Ərzurumdakı vilayətlərin daxilindən daha təhlükəsiz ərazilərə, indiki Suriya və Livan ərazisinə köçürülmüşlər (2,s.66-67). köçürmələr ağrısız-acısız ötüşməmiş, xəstəlikdən və ya başqa səbəblərdən həyatını itirənlər də az olmamışdır. Üstəlik birbaşa xəyanətdə əli olan əsgər və zabitlər müharibə qanunları əsasında cəzalan-dırılmışdılar. Deməli, 24 aprelin soyqırımı kimi qondarılmasının "ermənilərin öldürülməsi" ilə heç bir əlaqəsi yoxdur. Həmişə yalan və böhtan yazan ermənilərdən həqiqəti gözləmək özünü aldatmaq kimidir. Və digər baxımdan ölənlərin sayı bölgədə yaşayan ermənilərin sayından çox göstərilir. Bu da bütün niyətlərdən xəbər verir. Həmin dövrün rəqəmlərinə diqqət yetirsək görürük ki, öldürülən ermənilərin sayı əvvəlcə 600 min, sonra 800 min, sonra isə 1 milyon 500 min nəfər göstərilir (14). Ona görə də, qondarma "soyqırımı" erməni uydurmasıdır. Tarixi sənədlərin hamısı aydın şəkildə göstərir ki, ermənilərin "soyqırımı" ilə bağlı söylənilənlərin heç bir əsası yoxdur.

Bir həqiqəti də qeyd edək ki, əgər həmin vaxt 1,5 milyon erməni öldürülmüş olsaydı, bu gün dünyada barmaqla sayılası qədər erməni olardı.

Aram Andonyan adlı erməni tarixçisinin Londonda, Parisdə və Bostonda "Naim bəyin xatirələri, ermənlərin köçürülməsi və qətli haqda rəsmi türk sənədləri" adlı dərc etdirdiyi kitabda qondarılan Tələt paşanın teleqramlarına istinad edərək erməni "Soyqırım"ının olduğunu israr edirlər. Bu kitablarda Tələt paşaya aid olduğu əsassız olaraq iddia edilən və ermənilərin kütləvi qətlini əmr edən 50 teleqram və 2 məktub göstərilir (9,s.38-39; 10,s.20).

İngilis ordusu İstambulu işğal etdikdən sonra "gənc türklərin" "hərbi cinayətlər törətmiş" nümayəndələrinin məhkəmə qarşısına çıxarldığı "İstambul hərbi tribunalı" A. Andonyanın materiallarını saxta saymış və bunu sübut kimi qəbul etməmişdir. Bir qədər sonra Berlində Tələt paşanı qətlə yetirmiş Soqomon Teyleryanın məhkəməsi zamanı "erməni soyqırımının" sübütu kimi təqdim olunmuş "Tələt paşanın teleqramları" yenə də sübut kimi gəbul olunmur, sənədlərin ekspertizasını keçirən Berlin kriminalistika bürosunun ekspertləri sənədlərin saxta olduğu qənaətinə gəlmişlər (3). Burda Nuru paşanın "Ermənin nə vaxt və necə, harada ölməsindən asılı olmayaraq başını məzardan qaldırır və qışqırır: mən kütləvi qırğın zamanı öldürülmüşəm" (6,s.57; 9,s.38; 1.v.10) sözləri yada düşür.

Deyilənlərin əksi olaraq, tarixi sənədlər sübut edir ki, xəyanət etməyən, dövlətə qarşı çıxmayan ermənilər İstanbulda və Osmanlının digər şəhərlərində azad yaşayıb və onların törəmələri bu gün də Türkiyədə sərbəst yaşayırlar. Belə ki, vaxtı ilə milləti-sadıka (sadiq millət) olaraq xarakterizə edilən ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 baş konsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli məmur olduğu göstərilir (3).

I dünya müharibəsi və 1917-ci il inqilabları ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratmışdı. Moskva təkcə Azərbaycanı parçalamaqla kifayətlənmirdi. 1917-ci il dekabırın 30-da Lelin və Stalinin imzaladıqları 13 saylı dekretə əsasən Türkiyənin şərq vilayətləri ermənilərə vəd edilmişdi. Məqsəd Türkiyəni federasiya halına salmaqdan ibarət idi. Osmanlı inperatorluğu ilə qalib dövlətlər arasında imzalanan Mudros müqaviləsinin 20-ci maddəsində Türkiyənin 6 şərq vilayətindən ibarət bir Ermənistan yaratmaqdan söhbət gedirdi. Bu Ermənistan isə Amerikanın təsiri altında olmalı idi. Şirniklənən ermənilər 1918-ci ilin martında kütləvi rırğınlar törətdilər. Bunlar azmış kimi, himayəçilərinin köməyi ilə Zəngəzurun Qərb hissəsi Ermənistana verildi və Azərbaycanın dilbər guşəsində 1923-cü ildə DQMV yaradıldı. Mehri rayonunun təşkili ilə Azərbaycan ayrılmaz hissəsi olan Naxçıvan Azərbaycandan ayrı salındı. Sonralar ermənilərin patriarx-katalikosu İ.V.Stalinə məktub yazıb dünya ermənilərinin sovet Ermənistanına gəlmək istədiklərini bildirmişdir. Stalin məktubun üzərinə 1945-ci il aprelin 19-da öz dəstixətti ilə yazmışdır: Razıyam, SSRİ XKS sədri, Stalin (5).

Ermənilər onlara verilən açıq dəstəkdən daha da şirniklənirlər. Bundan sonra Ermənistan KP-nin birinci katibi Arutyunov məktubla Stalinə müraciət edib Qarabağın da Ermənistana verilməsini xahiş etdir. Lakin M.C.Bağırovun əzəli Azərbaycan torpağı olan Borçalı, Göyçə, Dərbənd və Zəngəzurun onda Azərbaycana verilməsi məsələsini qaldırması bu fikri arxa plana salmışdı. Bunu görən ermənilər Azərbaycanlıların deportasiya edilməsi üzərində dayandılar. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçular və digər azərbay-canlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərar qəbul edildi. Bu qərara əsasən 1948-1953-cü illərdə indiki Ermənistan adlandırılan ərazilərdən 100 minlərlə Azərbaycanlılar çətin şəraitdə və şəraiti olmayan ərazilərə köçürüldülər (10,s.33).

Bütün bunlara Xocalıya gedən yoldur desək səf etmərik. M.Qarbaçovun 1985-ci ildən başlanan bədnam yenidənqurma siyasəti bu yolu daha da yaxınlaşdırdı. Bu siyasət bir tərəfdən millətlərin müstəqillik uğrunda mübarizəsinə şərait yaratsa da, digər tərəfdən xeyli fəsadlar törətdi. Milli ədavət, millətçilik qızışdı, müstəqillik uğrunda mübarizə aparan xalqlara hədələr və təcavüzlər artdı.

Dağlıq Qarabağ "məsələsini" reallaşdırmaq üçün ermənilər və onların himayədarları müəyyən tarixi məqam gözləyirdilər. Belə fürsət ermənilərin əlinə XX əsrin 80-cı illərində düşdü. Onlar SSRİ-də başlayan yenidənqurma

siyasətindən, "aşkarlıq və demokratiya" prinsiplərindən istifadə edərək özlərinin Rusiyadakı və xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları irəli sürdülər. Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipial qiymət verməməsi baş verən hadisələrə laqeyd münasibəti və qarşısını almaması yaranmış vəziyyəti daha da ağırlaşdırdı. Ermənistan Dağlıq Qarabağla bərabər, digər ərazilərimizə də hərbi qüvvə göndərərək açıq təcavüzə başladı.

1988-1991-ci illərdə, Ermənistanda yaşayan azərbaycanlılar son nəfərinə kimi tarixi torpaqlarından qovuldu. SSRİ süqut etdikdən sonra isə ermənilər və onların havadarları Dağlıq Qarabağ məsələsini öz maraqları çərçivəsində beynəlxalq əhəmiyyətli problemə çevirmək üçün genişmiqyaslı kompaniyaya başladılar. SSRİ hökuməti isə Bakıda 1990-cı ilin Qanlı yanvarını törətdi... Yanvar faciəsi, Xocalı qırğını və digər fciələr mart hadisələrinin davamı və "Böyük Ermənistan" xülyasının açıq təzahüri idi.

Bu proseslərin heç biri xalqımızı müstəqillik uğrunda mübarizədən döndərə bilmədi. 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya aktı qəbul edildi. Ancaq, ölkə daxili hakimiyyət böhranı getdikcə dərinləşirdi. "Beynəlxalq problem" kimi xarakterizə olunan qondarma Dağlıq Qarabağ problemini həll etmək üçün, tarazlaşdırılmış prinsipial xarici siyasət xətti götürmək vacib idi. Lakin, iqtidar düzgün xariçi siyasət xətti müəyyən edə bilmədi. 1991-ci ilin 20 noyabrında törədilmiş "vertalyot faciəsi"nə o vaxt ki, Azərbaycan rəhbərliyinin qətiyyətsiz münasibətini görən ermənilər ərazilərimizə hücumu genişləndir-dilər. Torpaqlarımızın bir hissəsi hələ 1992-ci ilin yanvar, fevral ayının əvvəlində düşmənin əlinə keçdi və yaşayış məntəqələrimiz yandırılaraq viran qoyuldu. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin respublikaya rəhbərlik etməməsi, A.Volskinin rəhbərliyi ilə yaranmış Təşkilat komitəsinin anti Azərbaycan siyasəti seperatçı ermənilər dahada şirniklendirirdi. Ermənilər artıq DQMV-də olan 53 Azərbaycan kəndindən azərbaycanlıları qovub çıxartmışlar. Bütün bunlar A.Volskinin və Polyaniçkonun əli ilə həyata kesirildi. 1991-ci ilin sentya-brın 2-də Vilayətin ərazisində qondarma "Dağlıq Qarabağ Respublikası"nı elan etdilər. Artıq Moskva və Bakıdan heç bir kömək gözləməyən əhali könüllü dəstələrlər təşkil edib, müdafiyə qalxdılar. Xocalının vəzyəti isə günü-gündən pisləşdi. Əhali mühasirə vəzyətində qalmışdı. Fevral ayının 25-dən 26-na keçən gecə, Erməni ordusu kesmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhəri üzərinə hücum etdi. Bu alayın tərkibində 100 ədəd zirehli döyüş texnikası vardı. Polkun tərkibində olanlardan 49-u zabit və gizirlərdən ibarət idi. O mühidiş gecədə qocalar, qadınlar, uşaqlar işgəncələrlə məhv edildi. Xocalılar öldülər, ancaq əyilmədilər. Neçə-neçə erməni məhv etdilər. Əlif Hacıyev, Aqil Quluyev, Tofiq Hüseynov, Hikmət Nəzərli və İnqilab İsmayılov Xocalının müdafiəsində qəhrəmanlıq göstər-diklərinə görə, Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldülər.

Bütün bu vəhşilikləri törədən ermənilər, ilk günlər utanmazcasına dünya ölkələrinə car çəkərək, guya onların qırılmasından danışdılar. Öldürülənlərin fotolarının guya ermənilərə aid olduğunu təqdim etməyə səy göstərirdilər. 1992-ci il mayın 8-də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərini və 1992-ci il mayın 17-18-də Laçın rayonunu işğal etdilər. Laçının işğalı ilə, Ermənistanın işğalçılıq planlarının daha geniş olduğu üzə çıxdı.

Xocalı soyqırımı ermənilərin Türk-müsəlmanlara qarşı mərhələ-mərhələ gerçəkləş-dirilən düşmənçilik siyasətinin təzahürü idi. Faciədən sonra Beynəlxalq təşkilatlara rəsmi müraciətlər göndərilsə də Ermənistan təcvüzkar kimi töhmətləndirilmədi. Beynəlxalq təşkilatlar ilk vaxtlar müəmmalı şəkildə, mövqe bildirmədilər. Ancaq Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Milli Məclisin 29 mart 1994-cü il tarixli iclasında Xocalı soyqırımı və 20 yanvar faciəsi müzakirə edildi və siyasi-hüquqi qiymət verildi. Heydər Əliyevin çoxsaxəli və yorulmaz fəaliyyəti nəticəsində Xocalı faciəsi dünya ölkələrinə çatdırıldı. Azərbaycanın Avropa Şurasına daxil olması daha geniş imkanlar açdı. Avropa Şurasında iştirak edən deputat qrupunun, xüsusi ilə o dövrdə qrupun rəhbəri olan Cənab İlham Əliyevin məzmunlu çıxışlarının da Qarabağ probleminin dünya ölkələrinə çatdırılmasında əhəmiyətli rolu olmuşdu.

Xocalı faciəsinin dünyaya çatdırılmasında və erməni cəlladlarının iç üzünün açılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və fondun Vitse Prezidenti Leyla xanım Əliyevanın "Xocalıya ədalət" kompaniyası çərçivəsində gördüyü işlər misilsiz əhəmiyyətə malikdir. Elə bütün bu görülən işlərin nəticəsidir ki, dünyanın bir çox ölkələrində Xocalı faciəsi anılmış və bir çox ölkələrdə isə soyqırımı kimi qəbul olunmuşdur. ABŞ-ın 24 ştatında və qubernatorluq səviyyəsində bu faciə soyqırımı kimi qəbul olunmuşdur.

Bunlara baxmayaraq indiyə qədər dünyanın bir çox ölkələri Xocalı soyqırımına öz münasibətini hələ də bildirməyiblər və soyqırımı kimi qəbul edilməyibdir. Buna görə də biz Xocalıda xalqımızın başına gətirilənləri və işğal etdikləri bütün ərazilərimizi nə günə saldıq-larını dünya ictimayyətinə çatdırmaq yolunda fəaliyyətimizi davam etdirməliyik.

Bilinməlidir ki, Xocalı soyqırımı nə birinci, nə də ki, sonuncudur. Biz öz müdafiə qabliyyətimizi daima möhkəmləndirməliyik. Tarixin ibrət dərsləri olduğu kimi Xocalının da ibrət dərsləri vardı: Ən əsası o zaman güclü lider- rəhbərimiz yox idi, güclü ordumuz yox idi, xalq-iqtidar birliyi yox idi, ölkənin iqtisadi durumu zəif idi. Bütün bu sadalanan ibrət dərslərindən nəticə çıxarmagımız 44 günlük Vətən müharibəsində özünü göstərdi. Ali Baş Komandanın rəhbərlik bacarığı, Ordumuzun varlığı, xalq- iqtidar birliyi, iqtisadi durumumuz və qardaş Türkiyənin mənəvi-siyasi dəstəyi sahəsində torpaqları işğaldan azad etdik. Xocalının qısasını aldıq.

Vaxtı ilə Ata Türkün dediy: Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir, Heydər Əliyevin bir millət iki dövlət kəlamları, son zamanlardakı Beynəlxalq tədbirlərin birində İlham Əliyevin Türküyə burda yoxsa, mən burdayam sözləri və vaxtıilə Naxçıvanı bizə verən Qars müqaviləsini, bu gün iki qardaş dövlət başçılarının imzaladıqları Şuşa bəyannaməsi davam etdirdi. Azərbaycan-Türkiyə- əlaqələrinin yeni mərhələsi başlandı.

30 ilin,bu il ikinci ili oldu ki, bizlər Xocalı soyqırımını anarkən bir millət olaraq dedik ki, Xocalı şəhidləri Allah sizə rəhmət eləsin. Rahat yata bilərsiniz, qanınız yerdə qalmadı. Torpaqlarımızı işğaldan azad etmişik. Cənab Prezidentimizin rəhbərliyi, xalqımızın vətən sevgisi və qardaş Türkiyənin köməyi ilə bərpa-quruculuq işləri görülür. Tezliklə Qarabağımız yenə də öz firavan dövrünü yaşayacaq və şəhidlərimizin ruhu daha da şad olacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.894, siy.10, iş 81,vər.10;
2. Ali Karaca. Türkiyede Ermeniler için Yapılan Reformlar ve Tehcir Gerçeği (1878-1915). İstanbul, 2003.
3. ”Azərbaycan” qəzeti, 24 aprel 2018-ci il.
4. ”Azərbaycan” qəzeti, 15 yanvar 2019-cu il.
5. ”Azərbaycan” qəzeti, 16 yanvar 2019-cu il.
6. Эрих Ф. Правда о террорре. Армянский терроризм – истоки и причины. Баку, 2000.
7. Hacıyev İ.M. Ermənilərin Azərb-na qarşı ərazi iddeaları və qanlı cinayərləri.N.2012, 192s.
8. Halaçoğlu Y. XVIII Yüzyılda Osmanlı İmparatorluğunun iskan Siyaseti ve Aşiretlerin Yerleştirilmesi. Ankara, 1988.
9. İsgəndərli Anar. Azərbaycan həqiqətləri 1917-1920.Bakı, 2012, 228s. + 16 s.şəkil.
10. Qasımov Ş.M., Məmmədli L. “Azərbaycan ərazilərində erməni saxtalaşdırmaları və ekoloji terror, Bakı,2018. 260 s. üç dildə.
11. Qasımov Ş.M. Xalq qəhrəmanı Sultan bəy, Bakı, 2009, 440s.
12. Мамедов И.С. Об истории, исконной земле и горькой судьбе азербайджанцев, изгнанных из нынешней Республики Армения. Б.: Гисмет, 2009, 376 с.
13. Sonyel S. Yeni Belgelerin İşığı altında Ermeni Tehcirleri. Ankara: 1972, 303 s.
14. “Səs” qəzeti, 23 aprel, 2015-ci il.

SUMMARY

THE KHOJALY GENOCİDE İS A MANİFESTATİON OF THE STEP-BY-STEP HOSTİLİTY OF ARMENİANS AGAİNST TURKS

Gasimov Sh.M.

After gaining independence, we have learned a lot about the massacres committed by Armenians against Turkish-Muslims in the last 200 years, the destruction of our settlements and massacres. By studying the tragedies committed, we learn the way to Khojaly.

Armenian separatists, seduced by Western ruling circles, committed bloody tragedies in the Turkish provinces of Zeytun, Sasun and Van in the second half of the 19th century with the intention of establishing a "Greater Armenia". Later, Armenian nationalists fought in the Caucasus. In February and August 1905, they committed genocide.

The entry of the Russian army into Eastern Anatolia in 1914 created conditions for the Armenians to commit a massacre against the Turks. They kill hundreds of thousands of innocent civilians and expel them from their ancestral homes. Later, they invented the so-called "Armenian genocide". Supported and seduced for years, the Armenians made territorial claims using the policy of perestroika that began in the USSR in the 1980s and with the help of their patrons. Part of our lands was occupied in January and early February 1992. Our settlements were devastated. On the night of February 25-26, the Armenian army, with the help of the 366th motorized infantry regiment of the USSR, attacked the city of Khojaly and tortured the elderly, women and children to commit genocide. In one night, Khojaly was wiped off the face of the earth.

Despite the mysterious silence of international organizations, the policy initiated by the great leader Heydar Aliyev in conveying the Khojaly genocide to the world and exposing the inner faces of the Armenian executioners was successfully continued.

As well as the lessons of history, Khojaly also had lessons. Our conclusions from these lessons were reflected in the 44-day Patriotic War. We liberated our lands from occupation and took Khojaly short.

Keywords: *Genocide, looting, independence, resettlement, massacre*

РЕЗЮМЕ

ХОДЖАЛИНСКИЙ ГЕНОЦИД – ЭТО ПРОЯВЛЕНИЕ ПОЭТАПНОЙ ВРАЖДЕБНОСТИ АРМЯН ПРОТИВ ТУРОК

Гасымов Ш.М.

После обретения независимости мы многое узнали о массовых убийствах, совершенных армянами против турок-мусульман за последние 200 лет, разрушении наших поселений и массовых убийствах. Изучая совершенные трагедии, мы узнаем дорогу в Ходжалы.

Армянские сепаратисты, соблазненные правящими кругами Запада, учинили кровавые трагедии в турецких провинциях Зейтун, Сасун и Ван во второй половине XIX века с целью создания «Великой Армении». Позже армянские националисты воевали на Кавказе. В феврале и августе 1905 года они совершили геноцид.

Вступление русской армии в Восточную Анатолию в 1914 году создало условия для того, чтобы армяне устроили резню против турок. Они убивают сотни тысяч невинных мирных жителей и изгоняют их из домов их предков. Позже они изобрели так называемый «армянский геноцид». Поддерживаемые и соблазняемые годами, армяне предъявляли территориальные претензии, используя политику перестройки, начавшейся в СССР в 1980-х годах, и с помощью своих покровителей. Часть наших земель была оккупирована в январе и начале февраля 1992 года. Наши поселения были опустошены. В ночь с 25 на 26 февраля армянская армия с помощью 366-го мотострелкового полка СССР напала на город Ходжалы и замучила стариков, женщин и детей с целью совершения геноцида. В одну ночь Ходжалы был стерт с лица земли.

Несмотря на загадочное молчание международных организаций, начатая вели-ким лидером Гейдаром Алиевым политика по донесению до всего мира Ходжалинского геноцида и разоблачению внутренних лиц армянских палачей была успешно продол-жена.

Помимо уроков истории, в Ходжалы тоже были уроки. Наши выводы из этих уроков нашли отражение в 44-дневной Отечественной войне. Мы освободили наши земли от оккупации и быстро взяли Ходжалы.

Ключевые слова: *Геноцид, грабежи, независимость, переселение, резня*

QAN YADDAŞIMIZ XOCALI FACİƏSİNDƏN 30 İL ÖTÜR

Qasımova S.Ə.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə şəhəri, Azərbaycan
samira.qasimova82@mail.ru

Açar sözlər: *Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı, qan yaddaşı, etnik təmizləmə, qanlı cinayətlər, Vətən müharibəsi, tarixi qələbə.*

Ümumilikdə, düşünülmüş və planlaşdırılmış şəkildə bizim eranın son iki əsri ərzində Qafqazda müsəlmanlara qarşı çar Rusiyası tərəfindən məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində Azərbaycan xalqı ağır mərhumiyyətlərə və milli faciələrə məruz qalmışdır. Tarixi kökü etibarilə həyata keçirilən soyqırımı hadisələri bir zamanlar Osmanlı imperiyasının torpaqlarının bölüşdürülməsi - Şərq məsələsinin həyata keçirilməsi üçün uydurulmuş, əslində mövcud olmayan "erməni məsələsi" ilə bağlıdır. Rus çarı I Pyotrun hakimiyyəti dövründən başlayaraq XX əsrin sonunadək davam edən dövrdə rus və sovet imperiyaları Azərbaycan və Anadolu türklərinin torpaqlarının işğalına və onların soyqırımına çalışmışlar. İran və Rus impreiyaları arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri isə Azərbaycan xalqının parçalanmasının, onun tarixi torpaqlarının bölünməsinin əsasını qoydu. Ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular [8].

Çar hökümətinin tarixi Azərbaycan torpaqları əsasında "Erməni vilayəti" yaratması ilə I Pyotrdan başlayaraq ermənipərəst siyasətin həyata keçirildiyi təsdiq olunurdu. "Erməni vilayətinin" yaradılması ilə Azərbaycanın Rusiya tərəfindən işğal olunmuş digər torpaqları ilə Osmanlı imperiyası arasında "xristian

səddi” çəkildi. Digər tərəfdən, bununla Naxçıvan və İrəvan ərazilərinin ermənləşdirilməsinə haqq qazandırmaq məqsədi əks edilirdi (guya bu yerlər “əvvəldən ermənilərə məxsus olmuşdur!”) [1,144].

Belə süni ərazi bölgüsü ilə, əslində Azərbaycan türklərinin öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. Bu zamandan mənfur “Böyük Ermənistan” ideyaları təbliğ olunmağa başlandı və bu uydurma xəyali dövlətin Azərbaycan torpaqlarında yaradılmasına “bəraət qazandırmaq” məqsədilə erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edir [3,10].

Bundan sonra 1836-cı ildə erməni Qriqorian kilsəsinin təhriki ilə müstəqil alban kilsəsi ləğv olunması ilə çar Rusiyası tərəfindən himayə və müdafiə olunan ermənilər bu vaxtdan etibarən Azərbaycanda və Anadoluda türk-müsəlman əhaliyə qarşı kütləvi qırğınlara başladılar. Erməni millətçiləri 19-cu əsrin sonlarında Qriqorian kilsəsinin “xeyir-duası” ilə daha mütəşəkkil fəaliyyətə başladılar. Bir-birinin ardınca millətçi-terrorçu erməni partiyaları (“Hnçak”, “Daşnaksütyun” və s.), cəmiyyətləri və terrorçu qrupların yaradılması dövrü başlandı. Dünyanın hər yerinə səpələnmiş çoxsaylı erməni təşkilatlarının geniş maliyyə imkanları, Qriqorian kilsəsinin istiqamətverici və təşkilatçılıq rolu, ayrı-ayrı ölkələrin, o cümlədən böyük dövlətlərin müxtəlif strukturlarında mühüm mövqelər ələ keçirmiş ermənilərin dünya siyasətinə təsir göstərməsi sülh və əmin-amanlıq üçün, insanlığın gələcəyindən ötrü təhlükəli maneəyə çevrilmişdir. Yeri gəlmişkən qeyd edək ki, 200 ildən artıq bir müddət ərzində Azərbaycan və Türkiyə torpaqlarında qanlı terror əməlləri, soyqırımları həyata keçirmiş ermənilərin hazırda dünyada onlarla iri terrorçu təşkilatları və çoxsaylı terror qrupları fəaliyyət göstərir [5, 11].

XX yüzillikdə isə ermənilərin Osmanlı İmperatorluğuna və Azərbaycan türklərinə məxsus olan torpaqlara qarşı ərazi iddiaları irəli sürməsi qanlı toqquşmalara səbəb olmuşdur. Bu torpaqların onlara məxsusluğunu iddia edən ermənilər əslində “Dənizdən-dənizə Ermənistan” planını həyata keçirmək istəyirdilər. Onlar öz cinayətləri üçün tədricən planlar hazırlayır və onları həyata keçirməyə yollar axtarırlar”. Ermənilərin bu metodu tarix boyu onların bütün torpaq iddialarında mühüm rol oynamışdır və indi də oynayır [2, 18-20].

Bir sıra dövlətlərin hakim dairələrinin himayə etdiyi erməni daşnaqları tərəfindən Sovet hakimiyyəti dövründə də azərbaycanlılara və türklərə qarşı amansız terror və soyqırımı siyasəti ardıcıl şəkildə davam etdirilmişdir. SSRİ-nin süqutu prosesindən istifadə edən ermənilər 1988-ci il fevralın 8-də yaxın və uzaq xaricdəki himayədarlarının köməyi ilə “böyük Ermənistan” ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. 1991-ci il oktyabrın sonunda və noyabr ayı ərzində Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, Kərkicahan, Malıbəyli, Quşçular kəndlərini ələ keçirdilər. Lakin, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə həyata keçirilən Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur.

Əslində Xocalı şəhəri 1991-cı ilin oktyabrından Qarabağdakı erməni separatçılarının blokadasında idi. Oktyabrın 30-da şəhərlə avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi olaraq vertolyot əlaqəsi qalmışdı Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 41 nəfərin faciəli surətdə həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilmirdi

1992-ci il fevralın 25-dən 26-na keçən gecə saat 23:00- da ermənilər üç istiqamətdən Xocalıya hücum etdi. Bu hücumda Ermənistan Respublikası Silahlı Qüvvələrinin tabeçiliyində olan silahlı qruplar, muzdlu əsgərlər, özünü Artsax Xalq Ordusu adlandıran Dağlıq Qarabağın erməni birləşmələri və 366-cı rus hərbi alayı iştirak etmişdi. Bu hücumda Xankəndi tərəfindən öndə olan 366-cı alayın hərbi texnikası, onların ardınca rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən çox silahlı quldurlar daha çox fəallıq göstərirdilər. Əvvəlcə 366-cı alayın tanklarının köməyilə piyada qüvvələri şəhərə doğru irəliləyərək artilleriya atəşi ilə şəhərdə olan əsgər qərargahları və atəş mövqelərini məhv etmiş dilər [7,6].

Xocalı Əsgəran rayonunun Naxçıvanik, Ağbulaq, Noraguh, Baclara, Daşbulaq, Ballıca və Mehdikənd kəndlərinin əhatəsində, Qarqar, Hilis və Xocalı çaylarının qovuşağında yerləşir. Strateji əhəmiyyətə malik olanXocalı, müdafiə üçün çətin bir ərazidə idi. Bütün şah yüksəklikləri ermənilərin əlində idi. Bu isə Xocalının müdafiəsini qat-qat çətinləşdirirdi [4,11]. Lakin, buna baxmayaraq şəhərin müdafiəçiləri səhərə qədər düşmənə qarşı rəşadətlə döyüşmüş, özünümüdafiə qüvvələri son nəfərinə, son gülləsinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Qüvvələr nisbətinin qeyri-bərabər olduğu bu döyüşlər şəhəri müdafiə edən insanların göstərdiyi böyük qəhrəmanlıq, fədakarlıq nümunəsi idi. Çox təəssüf ki, o dövrdə Xocalıya heç bir kömək olmadığından həmin əhalinin demək olar ki, böyük bir hissəsi erməni vəhşiliyinin qurbanı oldu.

Belə ki, Xocalı soyqırımı nəticəsində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca bir neçə saatın içində amansızlıqla qətlə yetirildi, 1275 nəfəri isə girov götürüldü (onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil), 487 nəfəri ağır xəsarətlərə məruz qoyulmuşdu. 8 ailə tamamilə məhv edildi, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərinin hər ikisini itirdi. Erməni hərbi birləşmələri insanları qətlə yetirmək məqsədilə ən qəddar üsullara əl atdılar. Şahidlərin təsdiqlədiyinə görə insanların başlarının dərisi soyulmuş, müxtəlif əzaları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları yarılmış, adamlar diri-diri

torpağa basdırılmış və ya yandırılmışdır. Güllə yarasından ölməyənlərin başlarına sonradan güllə vurulmuş, meyitlər zorakılığa məruz qalmışdır. Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Xocalı sakini Əntiqə erməni hərbiçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırıldı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, "4 Məshəti türkü və 3 azərbaycanlının erməni qəbri üzərində başlarını kəsdilər. Daha sonra 2 azərbaycanlının gözlərini çıxartdılar". Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədənlərinin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışlar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə Konvensiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırımı olduğunu təsdiqləyir [6, 387-392].

Xocalı faciəsi Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq məqsədilə həyata keçirilsədə, mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Bir çox milli faciələrimiz kimi Xocalı soyqırımına da siyasi-hüquqi qiymət verən Ulu Öndərimiz Heydər Əliyev Xocalı faciəsinin xalqımızın qəhrəmanlıq tarixində xüsusi yeri olduğunu vurğulayaraq demişdir: "Xocalı faciəsi xalqımızı sarsıtsa da, onun dözümünü, iradəsini qıra bilmədi. Bu müsibət müqəddəs Vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizədə bizi daha da mətinləşdirdi və birləşdirdi. Bu gün şəhidlərimizin müqəddəs ruhu işğal olunmuş torpaqlarımızın azad edilməsi və qaçqın soydaşlarımızın öz yurdlarına qaytarılması uğrunda mübarizədə hər birimizi daha böyük əzmkarlıq göstərməyə səsləyir" [2, 61].

Ümummilli Lider Heydər Əliyev məqsədyönlü siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ə Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması istiqamətində mühüm işlər görülmüşdür. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu soyqırımına obyektiv qiymət verilməsi məqsədilə davamlı addımlar atılır. Bu prosesdə Azərbaycan dövlətinin, eyni zamanda 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "Xocalıya ədalət" kompaniyası ötən bir illər ərzində uğurla davam etmiş, bu aksiyaya dünyanın əksər ölkələrində könüllülər qoşulmuşdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktlann gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir. Nəticə olaraq qeyd etmək lazımdır ki, indiyədək 17 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-ın 23 ştatı Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən qətnamə və qərarlar qəbul edib. Eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatında və Türk Dövlətləri Təşkilatında Xocalı soyqırımının kəskin şəkildə pislənilməsini ehtiva edən qətnamə və bəyanatlar qəbul olunub.

Şükürlər olsun ki, müxtəlif vaxtlarda ağır faciələr görən xalqımız bu gün qürur hissi ilə yaşayır. Belə ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirtməklə torpaqlarımızı mənfur düşmənin işğalından azad etdi. Vətən müharibəsinin ilk günlərindən taktiki üstünlüyü ələ alan Azərbaycan Ordusunu hər gün yaşayış məntəqələrimizi, strateji yüksəklikləri azad edərək düşmən üzərində tam üstünlüyə nail oldu, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında yerlə yeksan etdi və tarixi qələbə qazandı. Qarabağın tacı sayılan Şuşanın azad edildiyi 8 Noyabr rəmzi olaraq tariximizə Zəfər Günü kimi yazıldı.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Ensiklopediyası. 2 cilddə, 1 cild, Naxçıvan 2005, 360 səh.
2. Əliyev H. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları, 24 fevral 1996-cı il.səh.-61
3. Əziz B. Xocalı soyqırımı: Səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı, 2008, səh.18-20.
4. Qazıyev Y. Erməni məsələsi yalanlar və gerçəklər. Nurlar NPM, Bakı 2009, 344 səh.
5. Qırxqızlı Q. Əsrin faciəsi-Xocalı. Bakı, Şərq-Qərb, 1999, 124 səh.
6. Hüseynov S. Erməni xəyanəti: Terror, soyqırım və deportasiya siyasəti. "Avropa nəşriyyatı servis" MMC, Bakı-2009. 121 səh.
7. Məmmədov S. Xocalı soyqırımı. Bakı, 2015, 16 s .

8. Mete Ə.,Əhmədov N. İblis Xisləti Erməni. Bakı: 2009, səh. 387-392.
9. Mirzəzadə A. XIX əsrin 20-30-cu illərində Çar Rusiyası tərəfindən ermənilərin Cənubi Qafqaza kütləvi köçürülməsi və bölgədə "erməni amili" nin yaranması. Tarix və onun problemləri, № 4 2014.

SUMMARY

30 YEARS HAVE PASSED SINCE THE KHOJALY TRAGEDY

Qasimova S.A.

The Khojaly genocide is distinguished by the special cruelty among the bloody crimes and massacres commited as a result of the territorial claims of the Armenian nationalists against Azerbaijan and the policy of ethnic cleansing pursued against our people at different times. The Khojaly genocide, committed on the night of February 25-26, 1992 was forever engraved in the blood of the Azerbaijani people as one of the most tragic pages of our recent history. As a result of the genocide, 613 peaceful Azerbaijanis, including 63 children, 106 women and 70 elderly people were brutally killed within a few hours, 1275 people were taken hostage and 487 people were seriously injured. 8 families were completely destroyed, 130 children lost one parent and 25 children lost both parents. For thirty years, the people of Azerbaijan have borne the moral pain and unimaginable horrors of this bloody crime.

Keywords: *Azerbaijan, Nagorno-Kharabakh conflict, Khojaly genocide, blood memory, ethnic cleansing, bloody crimes, homeland war, historic victory.*

РЕЗЮМЕ

ПРОШЛО 30 ЛЕТ СО ДНЯ ХОДЖАЛИНСКИЙ ТРАГЕДИИ

Гасимова С.А.

Особой жестокостью среди кровавых преступлений и массовых убийств, совершенных в результате территориальных претензий армянских националистов к Азербайджану и проводимой в разное время в отношении нашего народа политики этнических чисток, выделяется Ходжалинский геноцид. Ходжалинский геноцид, совершенный в ночь с 25 на 26 февраля 1992 года, навсегда вошел в память крови Азербайджанского народа как одна из самых трагических страниц нашей новейшей истории. В результате геноцида в течение нескольких часов были зверски убиты 613 мирных Азербайджанцев, в том числе 63 ребенка, 106 женшин и 70 стариков, 1275 человек взяты в заложники, 487 человек получили тяжелые ранения. 8 семей были полностью уничтожены, 30 детей одного родителя и 25 детей потеряли обоих родителей. На протяжении тридцати лет Азербайджанского народ носил в своих сердцах нравственную боль и невообразимые ужасы этого кровавого преступления.

Ключевые слова: *Азербайджан, Нагорно-Карабахский конфликт, Ходжалинский геноцид, память крови, этническая чистка, кровавые преступления, Отечественная война, историческая*

XALQ-ORDU BİRLİYİ

Qocayev S.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
samin-qocayev@mail.ru

Açar sözlər: *Vətən müharibəsi, xalq-ordu birliyi, həmrəylik, Ali Baş Komandan, qələbə, yeni siyasi relallıq, müzəffər ordu.*

Ali baş komandan İlham Əliyevin başçılığı altında Azərbaycan ordusu tarix yazdı. Uzun illərdən bəri işğal altında qalan torpaqlarımız nəhayət ki, geri qaytarıldı. 2020-ci il sentyabr ayının 27-də sübh tezdən başlanan torpaqlarımızın azad edilmə əməliyyatları 44 gün ərzində düşmən ordusunun darmadağın edilməsi ilə nəticələndi. Həm döyüş meydanında, həm də siyasi arenada rəzil duruma düşən Ermənistan rəhbərliyi 10 noyabr tarixində məğlubiyyətini etiraf edərək 3 ölkə rəhbərinin birgə bəyanatını imzalamaq məcburiyyətində qaldı. Azərbaycan dövləti öz iradəsi və ordusunun gücü ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində

kağız üzərində qalan 822, 853, 874 və 884 saylı qətnamələrin icrasına da nail oldu. Bu müharibədə Azərbaycanın qələbəsi xalqımızın özünə olan inamını artırmaqla yanaşı, Ermənistan rəhbərliyinin xalqına sırıdığı məğlubiyyətsizlik miflərini də darmadağın etdi, Hollivud filmlərində olduğu kimi sonda hər şeyin xoşbəxt sonluqla bitməsinə gətirib çıxartdı. Vaxtilə Azərbaycan əhalisinin əksəriyyətinin tapındığı atəşpərstlik dininin müqəddəs kitabı sayılan Avestada xeyrin şər üzərində qazandığı qələbə kimi Azərbaycan ordusu da Ermənistan ordusunu məhv etdi. 10 Noyabr bəyanatı əsasında dekabrın 1-nə kimi Ermənistan tərəfi Ağdam, Laçın və Kəlbəcər rayonlarını da Azərbaycana qaytardı.

Beləliklə, 2020-ci il sentyabrın 27-dən başlayaraq noyabrın 10-na qədər davam edən bu müharibə dövründə Azərbaycan xalqı erməni hərbi təxribatlarına cavab verilməsi, işğal altında olan torpaqların azad edilməsi üçün ordumuzun əks-hücum əməliyyatlarını çox böyük ruh yüksəkliyi ilə qarşıladı, Azərbaycan dövlətinin, Azərbaycan ordusunun yanında olduğunu əməli addımlarla nümayiş etdirdi. Azərbaycanın bütün şəhərlərindən, rayonlarından ordumuza və dövlətimizin başçısına dəstəklər gəlirdi. Xalqımız hər gün prezident İlham Əliyevin "tvitter" vasitəsilə ordumuzun nailiyyətləri, geri qaytardıqları kənd, rayon və yüksəkliklər barədə məlumat aldıqca qələbəyə olan inamı daha artırdı. Hətta bəzi günlərdə qələbə xəbərləri gəlməyəndə xalqımız bunu təəccüblə qarşılayar və səhəri gün daha intizarla xəbərləri izləyərdilər. Uzun illərdən bəri ilk dəfə idi ki, ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar, qeyri-hökümət təşkilatları, ayrı-ayrı ictimai-siyasi fəallar dövlətimizin başçısının ətrafında sıx birləşdiklərini, ordumuzu sona qədər dəstəklədiklərini bəyan etdilər. Dediklərimin sübutu kimi "50+1" formatında siyasi partiyaların prezident İlham Əliyevə müraciətlərini qeyd edə bilərəm. Həqiqətən xalqımızın necə birlik nümayiş etdirdiklərini bütün dünya gördü, təbii ki, ölkə başşısına və ordusuna belə dəstək olan xalqı məğlub etmək olmazdı. Prezident İlham Əliyevin də müsahibələrinin birində qeyd etdiyi kimi, xalqımızın ordumuzun və dövlət başçımızın ətrafında yumruq kimi birləşməsi erməni hərbi-siyasi xuntasının bəri başdan məğlubiyyəti sayılmalıdır [2].

Döyüşlərin ilk günündən sonuna kimi bu vəziyyət davam etdi. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, məhv olmuş və döyüş meydanından qaçaraq canını qurtarmaq istəyən düşmən əsgərlərindən fərqli olaraq, Azərbaycan döyüşçüləri dayanmadan yalnız irəlilədi, bir nəfər də öz döyüş tapşırığını yerinə yetirməkdən boyun qaçırmadı, hədəfə çatmaq üçün ölümün gözünə dik baxdılar [4].

Ermənistan tərəfindən 30 ilə yaxın möhkəmləndirdiyi və "Ohenasyan xətti kimi adlandırılan, keçilməzliyi haqqında miflər uydurulan, tikanlı məftillər, piyada və tank əleyhinə minalarla bol ərazilərdən Azərbaycan ordusu qısa zamanda keçərək bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, Hadrut qəsəbəsini, Şuşa şəhərini, 200-dək kənd və qəsəbəni, onlarla strateji yüksəkliyi düşmən tapdağından azad etdi. Heç şübhəsiz ki, əldə edilən bu qələbənin əsas memarları Ali Baş Komandan, ordumuz və döyüşçülərimizə dəstək verən, onlara dayaq olan xalqımız idi [1].

Müharibənin gedişində xalq-ordu birliyi yarandı, Azərbaycanda yaşayan bütün etniklər bir amal uğrunda birləşdi. Azərbaycan türkləri ilə yanaşı, talışlar, avarlar, ləzgilər, ruslar, yəhudilər və digər etniklər də, bir an belə düşünmədən könüllü olaraq ordu sıralarımıza yazıldılar, öz dövlətləri üçün, gələcəkləri üçün canlarını fəda etdilər. Respublikamızda müxtəlif istiqamətli idarə və təşkilatlar, xarici ölkələrdəki diaspora üzvləri, ayrı-ayrı vətəndaşlar, ordumuza əllərindən gəldiyi qədər dəstək olur, hətta evlərində olan soununcu manatlarına qədər Silahlı Qüvvələrə Yardım Fonduna ianə edirdilər [6]. Torpaqlarımızın Ermənistan işğalından azad etmək üçün başladılan əks-hücuməməliyyatlarını həyata keçirən Azərbaycanın mərd oğullarına dəstək məqsədilə xalqımız "Əsgərə sovqat" adlı kampaniya təşkil etdi. Bu kampaniya hələ Birinci Qarabağ müharibəsi dövründə mövcud olsa da, həmin dövrdə yenimüstəqillik qazanmış xalqımızın maddi durumu yaxşı olmadığına görə ianələrin miqdarı daha az idi. Lakin bu günki gündə Heydər Əliyevin başlatdığı və İlham Əliyevin davam etdirdiyi iqtisadi siyasət sayəsində xalqımızın maddi-rifah halı Birinci Qarabağ müharibəsi dövründən dəfələrlə yaxşı olduğuna görə bu dəfə ki ianələr daha effektiv nəticələr verdi. Dövlətimiz tərəfindən ordumuz bütün zəruri mallarla təmin edilməsinə baxmayaraq, xalqımız tərəfindən əsgərlərimizin gündəlik istifadəsi üçün nəzərdə tutulan əşyalar-papaq, corab, dərman preparatları və digər zəruri tələbat malları hərbi hissələrə təhvil verilirdi. Hərbi hissələr isə onları birbaşa döyüş bölgələrinə apararaqəsgərlərimizə xalqımız adından təslim edirdilər. Əsgərlərimizin döyüşkənlik ruhlarını qaldırmaq üçün, onlara dəstək vermək və əlaqələri möhkəmləndirmək üçün "Əsgərə məktub" aksiyası da genişləndi. Respublikamızın tanınmış elm və mədəniyyət xadimləri, şairlər, müğənnilər, ictimai-siyasi xadimlər, dini icmaların üzvləri hərbçilərlə görüşərək onların vətənpərvərlik hisslərinin artmasında dəstək olurdular. [3].

Döyüş meydanında məğlub olan Ermənistan rəhbərliyi Ağdam, Füzuli, Tərtər, Goranboy rayonunda mülki evləri hədəf almaqla kifayətlənməmiş, hətta cəbhə xəttindən on kilometrlərlə aralıda yerləşən Bərdə və Gəncə şəhərlərinə də bir neçə dəfə raketlər ataraq onlarla mülki vətəndaşlarımızın həlak olmasına səbəb olmuşdur. Hətta bu da xalqımızın mübarizə əzmini sındırmamışdır, əksinə düşmənə qarşı daha amansız etmiş, doğmalarını itirən vətəndaşlarımız isə vətən sağolsun deyərək ordumuzu daha qətiyyətli olmağa səsləmişdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsində qazanılan qələbədə ümummilli birlik, həmrəylik və xalqımızın mübarizə əzmi haqda yüksək fikirlər səsləndirmişdir. Cənab prezident çıxışlarının birində qeyd etdiyi kimi "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə

bilməzdik. Güclü siyasi iradə, xalq-iqtidar birliyi uzun illərdən sonra tarixi həqiqətin gerçəkləşməsinə səbəb oldu [5].”

Beləliklə, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan xalqı hamılıqla səfərbər olaraq, xalq-ordu birliyi sayəsində 30 ilə yaxın düşmən tapdağı altında olan tarixi torpaqlarımızı qaytardı və vətən həsrətinə son qoydu.

ƏDƏBİYYAT

1. https://mod.gov.az/az/pre/29023.html. Xalq-ordu birliyi
2. https://ikisahil.az/post/181553-tarixi-qelebemizin-esas-formulu-xalq-iqtidar-ordu-birliyi
3. https://xalqqazeti.com/mobile/az/news/64229
4. https://mi-news.az/xalq-dovl-t-ordu-birliyi-sarsilmazdir/
5. https://sesqazeti.az/news/politics/831034.html
6. https://azerbaijan-news.az/az/posts/detail/dovlet-xalq-ordu-birliyi-1640969684

SUMMARY

PEOPLE-ARMY UNITY

Gocayev S.M.

In the course of the war, our people created a new example of being a united society in the face of the enemy, of becoming a strong fist. The people showed that they were on the battlefield, next to the soldiers, around the state. Various departments and organizations, individual citizens, and even our compatriots living abroad supported our people, our army, and made donations to the Armed Forces Assistance Fund. The number of people joining the action initiated by the President of Azerbaijan Ilham Aliev and the First Vice-President Mehriban Alieva increased rapidly.

***Keywords**: Patriotic War, People's Army Unity, Solidarity, Supreme Commander-in-Chief, Victory, New Political Reality, Victory Army*

РЕЗЮМЕ

НАРОДНО-АРМЕЙСКОЕ ЕДИНСТВО

Годжаев С.М.

В ходе войны наш народ создал новый пример того, как быть единым обществом перед лицом врага, становиться крепким кулаком. Люди показали, что они на поле боя, рядом с солдатами, по штату. Различные ведомства и организации, отдельные граждане и даже наши соотечественники, проживающие за рубежом, поддерживали наш народ, нашу армию, делали пожертвования в Фонд помощи Вооруженным Силам. Число людей, присоединившихся к акции, инициированной Президентом Азербайджана Ильхамом Алиевым и Первым вице-президентом Мехрибан Алиевой, стремительно росло.

***Ключевые слова:** Отечественная война, Единство Народной Армии, солидарность, Верховный Главнокомандующий, победа, новая политическая реальность, Армия Победы.*

REGİONDA TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA ŞUŞA BƏYANNAMƏSİNİN ROLU

Quliyeva Ş.R.
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
shalala.quliyeva@mdu.edu.az

***Açar sözlər:** Şuşa bəyannaməsi, Türkiyə, Azərbaycan, Zəngəzur dəhlizi, müttəfiqlik, təhlükəsizlik, siyasi-diplomatik əlaqələr.*

2020-ci il sentyabr ayının 27-də Ermənistanın təxribatçı hücumu ilə başlayan və 44 gün davam edən “ikinci Qarabağ müharibəsi”ndə illərdir işğalda olan torpaqlarımız azad edilməsi ilə yanaşı, bu müharibə bizlərə dostumuzu və düşmənimizi tanımağa da imkan yaratdı. “Bir millət, iki dövlət” şüarı ilə dövlətlərarası əlaqələrimizi

səciyyələndirdiyimiz qardaş Türkiyənin ölkəmizi bütün siyasi tribunalarda dəstəkləməsi nəinki müharibənin nəticəsinə, regionda qüvvələr balansının dəyişməsində çox mühüm təsir göstərdi.

Türkiyə və Azərbaycan arasındakı siyasi əlaqələri yalnız strateji tərəfdaşlıq kimi qiymətləndirmək, hesab edirəm yanlış olardı. Bu iki dövləti dərin tarixi, milli-mənəvi dəyərlər birləşdirir. Hələ 1918-ci il iyun ayının 4-də imzalanan Batum müqaviləsi ilə Türkiyə və Azərbaycan Cümhuriyyəti ilə rəsmi diplomatik əlaqələrinin əsası qoyulmuş, möhkəm siyasi, iqtisadi, ticarət əlaqələrinin qurulması ilə yanaşı, o dövrdə də türk qoşunlarının Azərbaycanın ərazi bütövlüyüyn təmin olunmasında danılmaz dərəcədə böyük rolu olmuşdur. 1991-ci il 18 oktyabrda müstəqilliyimizi yenidən bərpa etdikdən sonra Sovet ittifaqı dönəmində iki qardaş ölkə arasında itirilimiş ikitərəfli siyasi diplomatik əlaqələr sürətli şəkildə inkişaf etməyə başladı. Ümumimilli lider Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı iki dövlət arasındakı əməkdaşlığın müttəfiqlik həddinədək yüksəlməsi ilə nəticələndi.

İkinci Qarabağ müharibəsində qazandığımız qələbə iki qardaş ölkə arasındakı münasibətlərin yeni mərhələsinin əsasını qoydu. 15 noyabr 2021-ci ildə imzalanmış Şuşa bəyannaməsi iki ölkə arasındakı gələcək münasibətləri tənzimləyən və onu müttəfiqlik səviyyəsinə qaldıran mühüm tarixi sənəddir [1]. Bu müttəfiqliyin özünəməxsus xüsusiyyəti odur ki, bəyyannaməyə görə müttəfiqlərdən biri digərindən üstün deyil, başqa sözlə bu ittifaq sırf mənfəət yönümlü də deyil. Şuşa bəyannaməsi iki ölkə arasındakı mövcud qardaşlığın bir daha möhürlənməsi və bunun dünyaya elanıdır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 2020-ci il 10 dekabrda keçirilən Zəfər paradında iştirak etmək üçün Bakıya səfəri zamanı mətbuatla keçirilən konfransda Şuşaya səfər edəcəyi ilə bağlı xəbər verilmişdi. 30 il işğal altında olan Qarabağın incisi Şuşa şəhərinə dövlət başçısı səviyyəsində ziyarət edilməsi və iki ölkə arasındakı münasibətlərin gələcəyi ilə bağlı mühüm razılığın məhz Şuşada imzalanması Türkiyənin Azərbaycana verdiyi dəyərin göstəricisi olmaqla yanaşı, böyük tarixi revanş idi.

Bəyannamədə iki ölkə arasında imzalanan əvvəlki tarixi sənədləri rəhbər tutaraq, iki xalqın maraq və mənafeyinə xidmət etdiyi, siyasi, iqtisadi, ticarət, təhsil, mədəniyyət, mətbuat və bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişafı nəzərdə tutulur. Bəyannamənin mətni ilə tanış olduqda görürük ki, bu bəyannamə təkcə iki ölkə münasibətlərini tənzimləmir, eyni zamanda regionda sülh və sabitliyin bərpa olunmasını, region dövlətləri arasında nəqliyyat və komunikasiya əlaqələrinin bərpasını, uzunmüddətli sülhə nail olmaq üçün region dövlətləri arasında əlaqələrin bərpa olunması ilə bağlı səylərin birləşdirilməsini də nəzərdə tutur. İki ölkə arasında əlaqələrin müttəfiqlik səviyyəsinə yüksəldən Şuşa bəyannaməsi hər iki ölkənin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığı kimi BMT Nizamnaməsinin prinsiplərini rəhbər tutaraq siyasi və hüquqi mexanizmləri müəyyənləşdirir.

Bəyannamənin önəmini tərəflərin bir-birini qoruması ilə bağlı maddənin olması daha da artırır. Bəyannayə görə əgər üçüncü bir dövlət tərəflərin hər hansı birinin ərazi bütövlüyünə təcavüz edərsə və ya suverenliyinə təhdid olarsa, tərəflər BMT Nizamnaməsinin prinsiplərini rəhbər tutaraq, hərbi güc və idarəetmə strukturlarının birgə fəaliyyətini təşkil edəcəklər [1]. Əlbəttə , zamanla regionun əsas iştraçısı olan Türkiyə ilə bu səpkidə əlaqələrin qurulması Ermənistanın ölkəmizə qarşı yenidən təxribat törətməsinin qarşısının alınmasında böyük önəm kəsb edir. Hələ müharibə dövründə Türkiyənin Azərbaycanı dəstəkləməsinin önəmini vurğulayan Prezident İlham Əliyev çıxışlarının birində "Türkiyənin dəstəyi olmasaydı, müdaxilə edən çox olardı" fikrini səsləndirmişdi[2]. Bununla belə bəyannamədə iki ölkə arasındakı hərbi-siyasi əməkdaşlığın üçüncü dövlətə qarşı yönəlmədiyi də qeyd olunub. Müharibədən sonra dəfələrlə həm Prezident İlham Əliyev, həm də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sülh danışıqlarına hazır olduqlarını bütün siyasi tribunalardan bəyan etmişlər.

Bəyannamənin dövlətlərarası işbirliyinin bir çox sahələrini əhatə etməsi onun əhəmiyyətini bir o qədər artırır. Bəyannamədə hərbi, dəniz, kosmos və müdafiə sənayesinin inkişafı, habelə kiber təhlükəsizlik sahəsində texnologiyanın inkişaf etdirilməsi məqsədiliə birgə fəaliyyətinin artırılması, bu sahədə mütəxəssis hazırlığı və elmi-tədqiqat işlərinin aparılmasında iktiərəfli işbirliyinin təşviq edilməsi nəzərdə tutulub[1].

Bəyannamə regionda ticarət və iqtisadi əlaqələrin inkişafını, bunun üçün nəqliyyat və komunikasiya layihələrinin gerçəkləşdirilməsini, birgə istehsalın inkişafı üçün malların sərbəst hərəkətinin təşkili üçün mühüm addımlar atılacağını təmin edir. Bu baxımdan qərb rayonlarımızla Naxçıvan MR ilə dəhlizin, yəni Zəngəzur dəhlizinin bərpası, onun davamı olaraq Naxçıvan-Qars dəmiryolunun tikintisi nəinki dövlətlərarası nəqliyyat əlaqələrinin intensivləşməsinə kömək edəcək, eyni zamanda bu dəhliz böyük Türk dünyasının nəqliyyat-kommunikasiya əlaqələrinin yaranmasına səbəb olacaq. Zəngəzur dəhlizi Azərbaycan üçün "Avropaya açılan qapı", Türkiyə üçün isə türk-müsəlman dünyasınına giriş qapısı rolunu oynayacaq [3]. İki türk dövləti arasında qurulan nəqliyyat-kommunikasiya dəhlizi türk dünyasının inteqrasiyasının lokomotivi ola bilər. Bu istiqamətdə tərəflər ümumilikdə Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğatına, Türk dünyasında ikitərəfli və beynəlxalq əməkdaşlığın gücləndərilməsinə xüsusi önəm verir. Xüsusilə, türk dünyasında inteqrasiyanın güclənməsində TÜRKSOY, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası kimi üzv olduğumuz qurumlarda fəalyyətimizin gücləndirilməsi nəzərdə tutulur. Bəyannamə, həmçinin, iki dövlətin türk diasporaları ilə əlaqələrin

gücləndirilməsi, problem yarandığı təqdirdə həmrəyliyin göstərilməsinə xidmət edir. Bu nöqteyi nəzərdən, qeyd edə bilərik ki, sənəd təkcə iki dövlət arasındakı münasibətləri tənzimləmir, bütövlükdə türk dünyası, onun inteqrasiyasının gücləndirilməsi üçün önəm kəsb edir. Təsadüfi deyil ki, Şuşa bəyannaməsi imzalandıqdan bir gün sonra Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın üzv olduğu Türk Şurasının Baş katibi Bağdad Amrayev Şuşa Bəyannaməsini "Türk dövlətləri arasında hərtərəfli əməkdaşlığın aydın türklük hissi ilə daha yüksək səviyyələrə necə inkişaf etməsini göstərən nümunəvi bir sənəd" olaraq xarakterizə etdi və Şuranın dəstəyini ifadə etdi [4].

Türkiyə-Azərbaycan münasibətlərində mühüm istiqamətlərdən biri enerji sahəsindəki əməkdaşlıqdır. Bəyannamədə bu məsələyə də toxunulub, regionun və Avropanın enerji təchizatında mühüm rola malik Cənub Qaz Dəhlizinin önəmi vurğulanıb, bu istiqamətdə əməkdaşlığın gücləndirlməsi üçün birgə səylərin artırılaraq davam etdirilməsi qeyd olunub.

Bəyannamə imzalandıqdan qısa müddət sonra bəyannamədə bəhsi keçən bir çox məsələnin gerşəkləşməsi istiqamətində ciddi addımlar atılmağa başladı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu il ərzində üçüncü dəfə ölkəmizdə rəsmi səfərdə olarkən bəyannamədə əks olunan Zəngəzur dəhlizinin təməl qoyma mərasimində iştrak etdi. Belə ki, 26 oktyabrda ölkəmizdə qısamüddətli işgüzar səfərdə olan Prezident Füzuli Beynəlxalq hava limanının açılışında iştrak etdikdən sonra Zəngəzur dəhlizinin, yəni Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun təməlqoyma mərasimində də iştrak etdi. Zəngəzur dəhlizinin bərpası regionun ticarət, nəqliyyat və kommunikasiya əlaqələrinin inkişafında böyük rol oynaycaq. Zəngəzur dəhlizinin önəmi haqqında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 12-si İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə öz açılış nitqində bəhs edib. Prezident qeyd edib ki, Zəngəzur dəhlizi Türk dövlətləri arasındakı ticarət dövriyyəsində maneələrin aradan qaldırılmasında və Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta dəhlizi üçün həyati əhəmiyyət kəsb edir [2].

Sənəddə Azərbaycan silahlı qüvvələrinin Türkiyənin dəstəyi ilə müasir standartlara cavab verməsi üçün birgə hərbi təlimlərin təşkili, şəxsi heyətin mübadilə proqramlarının icrası, hərbi-sənaye sektorunun müasirləşməsi üçün tədbirlərin həyata keçirilməsinin labüdlüyü bildirilib[1]. Bu məqsədlə hərbi əməliyyatlar bitdikdən sonra fevralın 1-12-də hər iki tərəf Türkiyənin Qars vilayətində genişmiqyaslı qış təlimləri təşkil olunub. Mayın 24-də isə Azərbaycan hərbi hava və hərbi dəniz qüvvələrinin "Anadolu-Feniksi 2021" adlı təlimi keçirildi. Şuşa bəyannaməsinə istinadən, Azərbaycan xüsusi təyinatlıları Türkiyənin İsparta şəhərində "Əməliyyat təlim kursu"nda iştrak etdilər[4].

Beləliklə, Şuşa bəyannaməsi iki qardaş dövlət arasındakı münasibətlərin bir çox sahədə dərinləşməsini nəzərdə tutan mühüm tarixi sənəddir. Sənəd yalnız hərbi-siyasi xarakterli daşımır, eyni zamanda mədəni, sosial, gənclərin və təhsilin inkişafı, səhiyyə və humanitar sahələrdə də inkişafın dərinləşməsini nəzərdə tutur. Şuşa bəyannaməsi təkcə iki dövlət arasında mütəfiqliyin möhkəmlənməsinə xidmət etmir, eyni zamanda regiondakı sülhün və əmin-amanlığın yenidən bərqərar olmasında mühüm rol oynayacaq.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi: [Elektron resurs] / - İyun 16, 2021. URL:https://president.az/articles/52122
2. Pirinççi F. Kardeşliğin mührü "Şuşa deklarasyonu": [Elektron resurs] / Kriter 6, 59 - Temmuz-Ağustos, 2021.
URL: https://kriterdergi.com/dis-politika/kardesligin-muhru-susa-beyannamesi
3. Kaya E. A New Step in Turkey-Azerbaijan Relations: The Shusha Declaration: [Elektron resurs] / ANKASAM – June 18, 2021.
URL:https://www.ankasam.org/a-new-step-in-turkey-azerbaijan-relations-the-shusha-declaration/?lang=en
4. Shahbazov F. Shusha Declaration Cements Azerbaijani-Turkish Alliance: [Elektron resurs] / Eurasia Daily Monitor Volume: 18 Issue: 100 – June 23, 2021.
URL:https://jamestown.org/program/shusha-declaration-cements-azerbaijani-turkish-alliance/

SUMMARY

THE ROLE OF THE SHUSHA DECLARATION IN ENSURING SECURITY IN THE REGION

Guliyeva S.R.

The second Karabakh war, which began on September 27, had a significant impact on the balance of power in the region. Our country, which put an end to 30 years of occupation at the expense of its own strength and restored justice, has created an important basis for ensuring security and sustainable peace in the region. Especially, we

believe that the Shusha Declaration on Alliance signed with brother country Turkey will play an important role in creating a safe environment in the region. The declaration envisages strengthening energy security, transport, communications and trade relations, which are important for both countries and the region.

Key words: *Shusha Declaration, Turkey, Azerbaijan, Zangazur Corridor, alliance, security, political-diplomatic relations.*

РЕЗЮМЕ

РОЛЬ ШУШЕНСКОЙ ДЕКЛАРАЦИИ В ОБЕСПЕЧЕНИИ БЕЗОПАСНОСТИ В РЕГИОНЕ.

Гулиева Ш.Р.

Вторая карабахская война, начавшаяся 27 сентября, оказала существенное влияние на баланс сил в регионе. Наша страна, положившая конец 30-летней оккупации ценой собственных сил и восстановившая справедливость, создала важную основу для обеспечения безопасности и прочного мира в регионе. В частности, мы считаем, что Шушинская декларация о союзе, подписанная с братской Турцией, сыграет важную роль в создании обстановки безопасности в регионе. Декларация предусматривает укрепление энергетической безопасности, транспортных, коммуникационных и торговых связей, важных как для этих двух стран, так и для региона.

Ключевые слова: *Шушинская декларация, Турция, Азербайджан, Зангезурский коридор, союз, безопасность, политико-дипломатические отношения.*

ERMƏNİ TERRORU DÜNYA ÜÇÜN TƏHLÜKƏDİR

Quliyeva T.Ə.
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
quliyevatahire1957@gmail.com

Açar sözlər: *erməni terrorizmi, satqın və hiyləgər, düşmənçilik, cinayətkarlıq*

Yaşamaq hüququ "Ümumdünya insan hüquqları bəyannaməsi"ndə təsbit olunmuşların ən vacibidir. Çünki ilk növbədə bu hüququn təmin olunması hər bir dövlətin Konstitusiyasında digər hüquq və azadlıqların qorunmasına şərait yaradır. Odur ki, müasir dünya bütün beynəlxalq qurumlarda əsas diqqətini terror kimi dəhşətli cinayətlərlə mübarizəyə yönəldir. Gizli deyil ki, bəşəriyyət inkişaf etdikcə terror təşkilatları da artır, güclənir, insan qırğınları ilə bağlı çoxsaylı əməliyyatlar həyata keçirilir. Ən qəribəsi də odur ki, belə terror təşkilatları sayca ən çox ermənilərdədir. Bu terror təşkilatları əsasən türk millətinə qarşı yönəlmişdir. Onların adlarının tədqiqi göstərir ki, "Ermənistanı azad edən gizli ordu – ASALA", "Haydad", "Erməni soyqırımı komandası", "Yeni erməni müqavimət qrupu", "Ərəb və Yaxın Şərq Siyasi Dustaqlar ilə Həmrəylik Komitəsi", "3 oktyabr erməni milli hərəkatı", "6-cı erməni azadlıq ordusu", "Ümumi Qisasalma Təşkilatı", "APA-terrorçu təşkilatı" və s. bu sayı davam etdirsək, görərik ki, bu erməni terror təşkilatları insanlıqla bir araya sığmayan hansı çirkin əməlləri törətmişlər. Bu təşkilatların fəaliyyəti Ermənistanda dövlət səviyyəsində dəstəklənir. Bu da Ermənistanın terrorizmə himayədarlıq edən ölkə olduğunu təsdiq edir. Lakin çox təəssüf ki, dünya hələ də bu faktalara ikili münasibət bəsləyir, terrorçu dövlət haqqında heç bir tədbir görmür. Bu da Ermənistanı terrorçu əməllərə daha da şirnikdirir. Xocalı Soyqırımı da bu terrorçu təşkilat və dəstələrin köməyilə həyata keçirilmiş bəşəri cinayətlərdən biridir. [3]

Xocalının hərbi məntəqə kimi çox böyük əhəmiyyəti var idi. Eyni zamanda Xocalı həm də ən qədim yaşayış məskənlərindən və mədəniyyət ocaqlarından biri idi. İşğalçıların basqınından əvvəl buraya qərbi Azərbaycandan ermənilərin didərgin saldıqları çoxlu qaçqın pənah gətirmişdi. Nəticədə, şəhər əhalisinin sayı xeyli artmışdı. Bu da ermənilər narahat edən əsas səbəblərdən biri idi. Onlar Qarabağı azərbaycanlılardan təmizləmək istədikləri halda, hər yerdən qaçqın düşən əhali Xocalıda məskunlaşırdı.

Ermənilərin Xocalını işğal etməsini şərtləndirən əsas səbəblərdən biri də 7 min əhalisi olan bu şəhərin Xankəndidən təqribən 12 km cənub-şərqdə, Qarabağ dağ silsiləsinin ətəyində, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşməsi idi. Aparılan tdqiqatlar göstərir ki, Xocalıda həyata keçirilən soyqırımda "ASALA" və "Haydad" təşkilatlarının birbaşa iştirakı var. Özü də bu ağlasığmaz cinayət çox dəqiq və düşünülmüş plan əsasında həyata keçirilmişdir.

1988-ci ildə Qondarma "Dağlıq Qarabağ" problemini ortaya atan kimi erməni terror təşkilatları demək olar ki, açıq fəaliyyətə keçdilər. Onların fəaliyyəti Ermənistan hökuməti tərəfindən dəstəkləndi, imkanlar yaradıldı. Onlar Azərbaycana qarşı terror əməllərinə başladılar. Bütün güclərini Azərbaycana yönəldən erməni terror təşkilatları çoxlu terror əməlləri törətdilər. Dövlətə küllli miqdarda ziyan vurdular. Hər şeydən çox insanın yaşamaq hüququna qəsd etdilər. Yüzlərlə, minlərlə insanı qətlə yetirdilər, işəncələrlə öldürdülər.

1992-ci il fevralın 16-da Xankəndidə 366-cı motoatıcı alayın nəzdində yaradılmış "Gizli erməni cəbhəsi" deyilən hərbi bölük azərbaycanlılar yaşayan kəndlərdə görünməmiş cinayətlər törətdilər. Meşəlini, Cəmillini, Kərkicahanı, Malıbəylini və Quşçuları oda qaladılar. Çox təəssüf ki, bu hadisələr bizim gözümüz qarşısında baş verirdi. Uşaqların, körpələrin günü qorxu içərisində keçirdi. Bu bölüyün tərkibində Livan, Amerika, Kanada, İran, İsveç, İtaliya, Hollandiyadan....erməni icmalarının seçmə nümayəndələri cəmləşmişdi. "Böyük Ermənistan xülyası ilə zəhərlənmiş bu ermənilər ən qəddar əməlləri törətməkdən zövq alırdılar. Xacik Vartanyanın komandanlığı ilə onlar çox vəhşiliklər törətdilər. Həmin dəstənin tərkibində Livandan gətirilmiş snayperçi qızlar heç də kişilərdən geri qalmırdılar.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə beynəlxalq miqyaslı erməni icmalarının birgə hazırladıqları terror əməliyyatında "ASALA", "Haydad" erməni terror təşkilatları "Gizli erməni cəbhəsi" nin xüsusi təlim görmüş döyüşçüləri, 366-cı motoatıcı alayın üç batalyonu iştirak edirdi. Tam müasir silahlarla silahlanmış erməni terror birləşmələri on bir istiqamətdən Xocalıya hücuma keçdilər. Onların törətdiyi bu cinayətin ağırlığı onda idi ki, günahsız dinc insanlar qətlə yetirilirdi, işgəncə ilə öldürülürdülər. Ananın gözü qarşısında balalarını oda atıb yandırır, uşaqlarının gözü qarşısında atanı ağaca sarıyaraq diri-diri yandırırdılar. Həmin şəxs yəni, ağaca bağlanıb diri-diri yandırlan Təvəkkül bizim qonşumuz idi. Xocalıda soyqırım əməliyyatlarını həyata keçirən terrorçu dəstələrdən biri də "11 Noyabr təşkilatı"dır. Onlar kimyəvi silah olan "Fosgen"dən geniş istifadə edirdilər. Bu qaz təbiətə də ciddi ziyan vururdu. İnsanların, xüsusilə uşaqların dalaq və qaraciyərini sıradan çıxarırdı. Faciədən sonra həmin ərazidə əsir qalan və bu qazdan xəstə olan uşaqların üzərində təcrübə keçmək üçün Fransaya, Almaniyaya, Suriyaya, Yerevana, Argentinaya aparırdılar. Əsir götürülmüş qız uşaqlarının bədənində kimyəvi vaksinlər sınaqdan çıxarılırdı. İlk mərhələdə 4 nəfər 8 yaşlı qız uşağı sınaqdan çıxmadılar. Vaksinlər onlarla körpə həyatına son qoydu. Belə faktlar yüzlərdədir. Hər biri də erməni vəhşiliyinin sübutudur. Xocalı soyqırımına oxşar hadisələr dəfələrlə azərbaycanlıların başına gətirilmişdir. Hələ 1918-1920-ci illərdə əzəli Azərbaycan torpaqlarımız olan Qərbi Azərbaycanda minlərlə soydaşımız-günahsız adamlar, qadın və uşaqlar vəhşiliklərlə qətlə yetirilmişlər. Erməni, gürcü, azərbaycanlı və türk mətbuatının etirafına görə İqdır və Eçmiədzin qəzalarında 60 kənd və onların bütün kişiləri, Göyçə mahalında 22 kənd və 60 min adam, İrəvan qəzasında bütün kəndlər, Zəngəzur qəzasında 115 kənd və 10 minə yaxın adam, o cümlədən 4472 qadın və uşaq məhv edilmişdi. Bu faktları uzatdıqca uzatmaq olar. Ermənistan bütün ciddi cəhdlərinə, özlərini, yazıq, əzilən xalq kimi göstərmək istəmələrinə baxmayaraq dünya ictimai fikri onların xeyirinə deyildir. Məsələn, Fidovsinin "Şahnamə" əsərinin qəhrəmanlarından biri, İran hökmdarı Keykavus qeyd edirdi ki, erməni nə qədər lazımsa, o qədər sənə vəfalı olur, lazım gələndə oğru olur, lazım gələndə qaçır. [1]

XI əsrin yadigarı olan "Qobusnamə" də yazılır: "Ermənilərin eybi-oğru, gözügötürməyən, bir ayağı qaçmaqda olan əmrə baxmayan, yersiz hay-küy salan, vəfasız, riyakar, ürəyi xıltlı, ağasına düşmənçilikdir. Ümumiyyətlə, onlar başdan ayağa müsbətdən çox mənfiyə yaxındırlar.

Vaxtilə Bizans imperiyasında "erməni böyük düşməndir", riyakardır, alçaq və hiyləgərdir" kimi zərb-məsəl yaranmışdır. 1834-cü ildə Peterburq Universitetində hazırlanmış "Naxçıvan ölkəsi" əsərdə göstərilir ki, "ermənilər olduqca xain, hiyləgər, satqın, sözlərin üstündə qurmayan, paxıl və alçaq insanlardır. Onlara heç vaxt etibar etmək olmaz. Kitabda azəri türkləri haqqında "müsəlman adı ilə belə yazılır: "Müsəlmanlar mehriban, qonaqpərvər, sözünə düz, verdiyi vədə ölsə də, əməl edən adamlardır. Lakin etiraf edək ki, erməni xəyanətləri və cinayətləri ilə mübarizədə biz gec ayılmışıq, zəif mübarizə aparmışıq. Belə bir vəziyyətin əsas təqsirkarları biz ziyalılar, alimlər, hüuqşünaslar, politoloqlar və diplomatlardır. Erməni terrorizminin cinayətlərini, Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini bütün dünya görüb bilsə də ermənilər ardıcıl surətdə hamının gözünə kül üfürür, nəinki özünü duruya çıxarır, bizi də borclu çıxarırlar. [2]

Türkiyə Strateji Araşdırmalar Mərkəzinin məlumatına görə, Ermənistanda Qarabağ münaqişəsi ilə bağlı 25-dək çox kitab çıxıb. Həmin kitabların müxtəlif dillərdə çap olunması və yayılması üçün yüz milyonlarla pul ayrılır. Ümummilli liderimiz mərhum Heydər Əliyevin qayğısı, diqqəti sayəsində problemə aid bir çox kitablar yazıldı və işıq üzü gördü.

Bu gün Ermənistan beynəxalq insan hüquqlarına ciddi təhlükə yaradıb. Onların qarşısı alınmasa, yəqin ki, bəşəriyyət hələ çox təhlükəkələrlə üzləşəcək. Odur ki, biz bu istiqamətdə səylərimizi artırmalıyıq.

İnanıram ki, Respublikamızın Prezidenti cənab İlham Əliyevin ciddi səyləri bizə erməni terrorizminin əsl üzünü açmaqda kömək edəcək.

ƏDƏBİYYAT

1.Müxalifət qəzeti 16 dekabr 1993-cü il

2.Nəcəf Orucov "Bakı şəhəri və onun ətraf kəndlərində və Azərbaycanın digər bölgələrində genosid – soyqırımı. Bakı, 1996, səh.5-8.

3. Məhərrəm Zülfüqarlı Dağlıq Qarabağda erməni terroru. Qaradağlı faciəsi. 17 fevral 1992-ci il, Bakı, 2010.

4. Elxan Süleymanov, Vurğun Süleymanov Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın nəticələri, Bakı, 2013.

5. Fazil Qaraoğlu, Ermənilər və həqiqətlər 1-ci cild, Bakı, 2007.

SUMMARY

ARMENIAN TERROR IS A THREAT TO THE WORLD

Guliyeva T.A.

Armenian terrorist organizations, focusing all their efforts on Azerbaijan, committed many terrorist acts. They caused a lot of damage to the state. Above all, they violated the right to life. Hundreds and thousands of people were killed and tortured. "These Armenians, poisoned by the illusion of a Greater Armenia, enjoyed committing the most brutal acts. Under the command of Khajik Vartanya, they committed many atrocities. Although the whole world knows that the crimes of Armenian terrorism and the occupation of Azerbaijani lands by Armenia, the Armenians are constantly blowing ashes in the eyes of everyone, not only exposing themselves, but also making us indebted.

Key words: *Armenian terrorism, treacherous and cunning, hostility, crime.*

РЕЗЮМЕ

АРМЯНСКИЙ ТЕРРОР - УГРОЗА МИРУ

Гулиева Т.А.

Армянские террористические организации, сосредоточив все свои усилия на Азербайджане, совершили множество террористических актов. Они нанесли большой ущерб государству. Прежде всего, они нарушили право на жизнь. Сотни и тысячи людей были убиты и замучены. «Эти армяне, отравленные иллюзией Великой Армении, наслаждались самыми зверскими деяниями. Под командованием хаджика Вартани они совершили немало злодеяний. Хотя всему миру известно, что преступления армянского терроризма и оккупация Арменией азербайджанских земель, армяне постоянно пускают пепел в глаза всем, не только выставляя себя, но и делая нас должниками.

Ключевые слова: *Армянский терроризм, коварный и хитрый, враждебность, преступность.*

HEYDƏR ƏLİYEVİN YENİ NEFT STRATEGİYASININ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASI PROSESİNƏ TƏSİRİ

Qurbanova S.A.

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan

sevincakifqizi@mail.ru

Açar sözlər: *neft amili, balans diplomatiyası, Əsrin müqaviləsi.*

Azərbaycanın neft diplomatiyası Cənubi Qafqazda əmin-amanlığın və sosial-siyasi sabitliyin yaradılmasına, habelə iqtisadi inkişafa gətirib çıxarmışdı. Heydər Əliyev ilk növbədə "Əsrin müqaviləsi"nə Rusiyanı cəlb etməklə onun Dağlıq Qarabağ problemində tərəfsiz mövqeyini əsasən təmin etmişdi. Rusiyanın Ermənistanı sürətlə silahlandırması Cənubi Qafqazda mövcud hərbi tarazlığın pozulmasına öz mənfi təsirini göstərmişdi. Rusiya bir tərəfdən Qafqazda sülh və təhlükəsizliyin, regional əməkdaşlığın təmin olunmasında özünün də maraqlı olmasını nümayiş etdirir, digər tərəfdən isə Ermənistanı silahlandırmaqla böhranın növbəti mərhələsinin başlanmasına şərait yaradırdı. Bu isə Heydər Əliyevin "Ümumi Qafqaz evi"nin yaranması uğrunda apardığı mübarizədə əsas

maneələrdən birinə çevrilmişdi. Məhz bu səbəbdən Heydər Əliyev Rusiya ilə münasibətləri normallaşdırmaqla və neft danışıqlarına Rusiyanı da dəvət etməklə Rusiyadan gələ biləcək hər hansı bir neqativ təsiri önləməyə müvəffəq olmuşdur.

1996-cı il iyunun 4-də Gülüstan sarayında "Şahdəniz" yatağının birgə işlənməsi haqqında HPBH sazişinə Rusiyanın Lukoyl şirkətinin cəlb edilməsi həmdə siyasi məna daşıyırdı. Nəzərə almaq lazımdır ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri idi və bu mənada Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələrində Rusiyanın neytrallığına nail olmaq istəyirdi. Azərbaycan-Rusiya münasibətlərinin tərkib hissəsi kimi 1997-ci il 2-4 iyulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, bu münaqişənin regionda təhlükəsizliyə başlıca təhdid olması geniş müzakirə mövzusu olmuşdu. Rusiya Prezidenti B.Yeltsin bu münaqişədə Azərbaycanın ədalətli mövqeyini təsdiq etmişdi. Daha əhəmiyyətlisi isə odur ki, Azərbaycanın imzaladığı neft müqavilələrində Rusiyanın iştirakı getdikcə genişlənmiş və buna Heydər Əliyev yekdilliklə dövlətlərarası münasibətlərə stimul verən amil kimi qiymət vermişdi [97, c.10, s.239].

Heydər Əliyev diplomatiyasının mühüm addımlarından biri də onun 2002-ci ilin yanvarında Rusiya Federasiyasına rəsmi səfəri olmuşdu [1, c.18, s.262-263]. Səfərin gedişində Dağlıq Qarabağ münaqişəsindən tutmuş, regionda beynəlxalq vəziyyətə, neft-qaz istehsalı və ixracı məsələləri müzakirə edilmişdir. "Kommersant" qəzeti Heydər Əliyevin Moskva səfərini müstəqillikdən sonrakı dövrün ən əhəmiyyətli hadisəsi adlandırır və qeyd edirdi ki, artıq Rusiya Azərbaycanı Cənubi Qafqazda mühüm oyunçu kimi qəbul edir və kommersiya maraqlarının üstünlüyünü başa düşür [6].

Ümummilli Lider H.Əliyevin neft diplomatiyasında Dağlıq Qarabağ münaqişəsinin dünya səviyyəsinə çıxarılması və beynəlxalq birliyin münaqişənin nizamlanmasına cəlb edilməsi mühüm yer tuturdu. Bu strategiyanın həyata keçirilməsində ABŞ dövlətinə xüsusi diqqət ayıran Heydər Əliyev xarici şirkətlərin münaqişənin sülh yolu ilə nizamlanmasını diqqətdə saxlayacaqlarını yaxşı bilirdi. Digər tərəfdən, ABŞ dövləti ilə əlaqələrin dərinləşməsi Azərbaycana 907-ci düzəlişin aradan qaldırılmasna imkan verərdi. Məlum olduğu kimi, 1992-ci il iyul-dekabr aylarında Elçibəy hakimiyyətinin səriştəsiz fəaliyyəti rəsmi Vaşinqtonun respublikamıza qarşı sanksiya tətbiq etməsinə gətirib çıxarmışdı. Müstəqilliyinin ilk illərində ABŞ, Fransa, Rusiya və bir çox ölkələrdə erməni lobbisinin Azərbaycan əleyhinə ciddi fəaliyyəti nəticəsində Azərbaycan haqqında dezinformasiya geniş yayılmışdı. Qeyd etdiyimiz kimi, bu siyasətin nəticəsində 1992-ci ilin dekabrında ABŞ konqresi Azərbaycan Respublikasına hər cür yardımları qadağan edən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişi qəbul etmişdi [4, s.61]. Heydər Əliyevin 3 ilə yaxın yeritdiyi fəal və ardıcıl siyasi xətti, keçirdiyi görüşlər ABŞ-ın nüfuzlu senatorları, konqresmenləri və siyasi xadimləri ilə apardığı danışıqlar, ABŞ-ın neft şirkətləri xüsusilə Amoko ilə əməkdaşlığı bu ölkənin Azərbaycana münasibətinin müsbət istiqamətdə dəyişməsinə, Azərbaycan Respublikasının ABŞ-ın tərəfdaşı olan dövlətlər qrupuna daxil edilməsinə gətirib çıxartdı. Məhz bu dövrdən etibarən Corc Buşun Administrasiyasında Azərbaycana birbaşa yardımlar üzərində qoyulmuş qadağanın aradan götürməsinə meyilləri güclənməyə başlamışdı ki, Heydər Əliyevin yürütdüyü neft siyasətinin buna təsiri danılmazdır. Heydər Əliyev 1997-ci il avqustunda ABŞ-da səfərdə olan zaman 907-ci düzəlişin ləğv olunması barədə Şevron, Penzoyl, Yunokal, Amoko korporasiyasının rəhbərləri Azərbaycanın haqq işinin müdafiə olunmasının vacibliyini vurğulamış, Konqresmen Kinqin 907-ci düzəlişin ləğv edilməsi ilə əlaqədar təqdim etdiyi layihəni yüksək qiymətləndirmişdilər. Aparılmış danışıqlar nəticəsində Dövlət katibi K.Pauel və senator S.Braunbək 907-ci düzəlişin ləğvi ilə bağlı konqresə məktubla müraciət etmiş və bu istiqamətdə imza toplamışdılar. 1999-cu ildən ABŞ-ın təşəbbüsü ilə artıq münaqişə tərəflərinin prezidentlərinin birbaşa dialoqu həyata keçirilməyə başlamışdı. Vaşinqton Beynəlxalq Strateji Araşdırmalar Mərkəzi Dağlıq Qarabağ münaqişəsini nəinki Cənubi Qafqaz üçün bir nömrəli problem kimi dəyərləndirmiş, eyni zamanda bütün Avrasiya regionunun təhlükəsizliyinə təhdid hesab etmişdir.

Neft amilinin balans diplomatiyasında rolunu obyektiv qiymətləndirən H.Əliyev neft müqavilələrinə Fransanı da cəlb etməklə ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi Dağlıq Qarabağ münaqişəsinin həllində fəaliyyətinin artmasına və Azərbaycanın dəstəklənməsinə nail olmağa çalışırdı. 1997-ci il yanvarın 13-də Parisdə Yelisey sarayında iki ölkə prezidentlərinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı "Lənkəran Dəniz" və "Talış Dəniz" yataqlarının kəşfiyyatı, işləməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ ilə Fransanın Elf-akiten və Total şirkətləri arasında müqavilələrin imzalanması mərasimi oldu [3]. Azərbaycan beynəlxalq xarakter almış Dağlıq Qarabağ probleminin ədalətli həllinə ümid edərək, Fransa ilə əməkdaşlığı həmin silahlı münaqişəyə tamamilə son qoyulması üçün mühüm amil hesab edirdi.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məqsədi ilə Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı olaraq Heydər Əliyevin "Ümumi Qafqaz evi" ideyası da böyük əhəmiyyətə malik idi. 1996-cı ilin martın 8-də Azərbaycan Prezidenti H.Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan bəyannaməsi imzalanmışdı [1, c.5, s.404]. 1997-ci ilin fevral ayında Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı isə iki ölkə arasında strateji əməkdaşlığın inkişaf etdirilməsinə dair imzalanmış sənədi Tbilisi bəyannaməsinin davamı hesab etmək olar. Ümummilli lider H.Əliyev

regionda təhlükəsizliyin, təmin edilməsi və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində Gürcüstanla birgə görülmüş işləri yüksək qiymətləndirdi. O qeyd edirdi ki, Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlığın yaranması üçün münaqişələrə son qoyulmalıdır. O cümlədən Abxaziya, Dağlıq Qarabağ münaqişəsinə son qoyulmalıdır [1, c.36, s.168-169].

Ümummilli liderin layiqli davamçısı İlham Əliyevin komandanlığı ilə aparılmış 44 günlük müharibə və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi bütün dünyaya Azərbaycanın yeni neft strategiyasının düzgün şəkildə həyata keçirilməsini sübut etdi. 2021-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ savaşı noyabrın 10-na keçən gecə Azərbaycanın tarixi qələbəsi ilə başa çatdı. Bu tarixi qələbə neft strategiyasının məntiqi nəticəsi idi. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqların düşmən tapdağından azad edilməsinin təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır.

ƏDƏBİYYAT

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr: [46 cilddə]/ H.Əliyev. – Bakı: Azərnəşr, — c.5- 1997.-500s, -c.10. – 2002. – 472 s.;– c.18. – 2006. – 552 s.
2. Həsənov, Ə.M. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda / Ə.M.Həsənov. – Bakı: İşıq, – 1997. – 80 s.
3. Xəzərin Azərbaycan sektorundakı "Lənkəran dəniz" və "Talış dəniz" yataqlarının kəşfiyyatı, işləməsi və hasilatın pay bölgüsü haqqında müqavilə// Azərbaycan Respublikası Milli Məclisinin Arxivi. Fond № 2941, siyahı № 122, iş № 486, vərəq –1 -114.
4. Qasımlı, M.C. Azərbaycan Beynəlxalq Münasibətlər Sistemində (1991-1995-ci illər) / M.C.Qasımlı. – Bakı: Gənclik, –1996. – 450 s. 177
5. Səlimov, Ş.D. Beynəlxalq münasibətlərdə Azərbaycan neft məsələsi: / tarix üzrə elmlər doktoru dissertasiyası / – Bakı, 2005, – 301 s.
6. Колесников, А. Визит Президента Азербайджана Г.Алиева в Москве в центре внимании СМИ // Коммерсант. – 2002, 1 февраля.

SUMMARY

IMPACT OF HEYDAR ALIEV'S NEW OIL STRATEGY ON THE PROCESS OF SETTLEMENT OF THE NAGORNO-KARABAKH CONFLICT

Gurbanova S.A.

Despite the fact that the main goal of the oil strategy of the Republic of Azerbaijan is for the country to follow the path of Western development, the liberation of Azerbaijani lands from Armenian occupation has always been a priority. National leader Heydar Aliyev fought with all his diplomatic powers to convey the truth about the Armenian occupation to the whole world. As part of the new oil strategy, security issues in the South Caucasus, especially the Nagorno-Karabakh conflict, became the subject of discussion and peace negotiations were launched to resolve it.

Keywords: *oil factor, balance diplomacy, Contract of the century*

РЕЗЮМЕ

ВЛИЯНИЕ НОВОЙ НЕФТЯНОЙ СТРАТЕГИИ ГЕЙДАРА АЛИЕВА НА ПРОЦЕСС УРЕГУЛИРОВАН НАГОРНОГО-КАРАБАХСКОГО КОНФЛИКТА

Гурбанова С.А.

Несмотря на то что основная цель нефтяной стратегии Азербайджанской Республики состоит в том, чтобы страна шла по пути западного развития, освобождение азербайджанских земель от армянской оккупации всегда было приоритетом. Общенациональный лидер Гейдар Алиев всеми силами дипломатии боролся за то, чтобы донести до всего мира правду об армянской оккупации. В рамках новой нефтяной стратегии вопросы безопасности на Южном Кавказе, особенно нагорно-карабахский конфликт, стали предметом обсуждения и для его решения были начаты мирные переговоры.

Ключевые слова: *нефтяной фактор, балансовая дипломатия, Контракт века*

REALITIES OF KARABAKH WARS: HISTORICAL BACKGROUND

Mammadova S.İ., Azizli Kh.A., Rzayeva N.Sh.
Sumgayit State University, Sumgayit, Azerbaijan
Baku_2007@mail.ru

Key words: *genocide, deportation, occupation, Karabakh, declaration,relations, war*

The beginning of the 90s of the XX century was very painful for the people of Azerbaijan. The occupation of 20% of the lands of the Republic of Azerbaijan by Armenians has left indelible marks on the memory of our people. Thus, the implementation of plans to resettle Armenians in the Caspian region from the time of Peter I, the mass resettlement of Armenians to the Iravan, Nakhchivan, Karabakh region of Azerbaijan in the late 1920s, mid-19th to early 20th centuries, 1948-1953. The deportations carried out against our people in 1988-1991 were connected with Russia's desire to create a state for Armenians in Azerbaijan lands.

On December 8, 1991, with the collapse of the USSR, the Belovezhskaya Pact restored the independence of 15 states. After this incident, the Karabakh problem turned into a war between the two independents. Military operations by Armenia against the Republic of Azerbaijan were carried out by the Armenian Defense Ministry. The Armenians were armed through Russia and organized dozens of military offensive plans.

Armenians have been pursuing a policy of aggression since January 1992. Until the first half of February 1992, the Shusha-Khojaly road and the villages around Shusha were occupied. On the night of February 25-26, 1992, the Armenians attacked Khojaly with the 366th Motorized Rifle Regiment and committed one of the greatest genocides in history. According to official statistics, 613 civilians were killed in Khojaly, including 106 women, 70 elderly people and 63 children. More than 1,000 people and 76 children were injured. 8 families were completely destroyed, 1275 people were taken hostage [1, 47].

After the Khojaly genocide, the Armenians continued their atrocities, burning the villages, killing the population and continuing their occupation. In the spring of 1992, he concentrated his military units in Shusha. The Armenian forces were led by Officer Ter-Tatevosyan. On May 7, Armenians attacked Shusha. 159 people were killed and 22 were missing. On May 17, Lachin was occupied. Capture of Lachin Armenians gained a 20 km wide corridor from Nagorno-Karabakh to Armenia.

Armenians continued their occupation plans in 1993. On April 2, they attacked Kalbajar. They approached the district center, capturing a strategically important tunnel on the Kalbajar-Lachin road. The occupation of Kalbajar was facilitated. In June, they launched an attack on Aghdara and Aghdam. After the occupation of Agder on June 26, they attacked Aghdam. After a 42-day siege, Agdam was captured on July 23. On August 23, Jabrayil and Fizuli were occupied, and on August 31, Gunbadli was occupied.On October 23, 12 tanks attacked Horadiz. The capture of this important transport hub severed ties between Zangilan and the unoccupied villages of Gubadli and Jabrayil with Azerbaijan. After heavy fighting, Minjivan was occupied on October 28 and Zangilan on October 29. Thus, Armenia mainly implemented its plans of aggression. Instead of taking serious steps in the face of this situation, international organizations and major powers have issued resolutions, decisions and declarations consisting of vague statements. UN Resolutions 822, 853, 874 and 884 remained on paper. Our brave army took back our lands in 2020 with the 44-day Patriotic War and delivered the necessary response to the whole world community.

The peace-breaking steps of the Armenian leadership were accompanied by provocative actions of the Armenian military against the Azerbaijani Army along the line of contact. In July 2020, Armenian military units attempted an attack on the state border of Azerbaijan in order to seize the strategic heights in the direction of Tovuz. In such an area, which plays an important role in oil strategy and communication policy, the enemy was repulsed as a result of 11 days of fierce fighting. Along with many armored vehicles, radio reconnaissance equipment, unmanned aerial vehicles, the Armenian side lost a lot of manpower. Twelve Azerbaijani servicemen, including Major General Polad Hashimov, Chief of Staff of the 3rd Army Union, and Colonel Ilgar Mirzayev, were heroically killed in the fighting. One civilian was killed when the enemy fired on civilian objects [2, 196].

These vandals of the Armenian armed forces forced the Azerbaijani Army to take countermeasures on the orders of the Supreme Commander-in-Chief. Due to the occupation of the Nagorno-Karabakh region and surrounding areas of the Republic of Azerbaijan by the Armed Forces of the Republic of Azerbaijan, armed attacks against the Republic of Azerbaijan and regular military provocations, martial law was declared throughout the Republic of Azerbaijan on September 28 at 00:00. According to the decree signed on September 28, partial mobilization was declared in the republic. In the first days of the "Iron Fist" operation carried out by the Azerbaijani Army, large-scale military operations were continued in the direction of Fizuli and Tartar regions, including Murovdagh. Large-scale military operations continued. the Azerbaijani flag was raised there. On the same day, the historical name of the village was restored by the President - Sugovushan. On October 17, the Azerbaijani Armed

Forces cleared the city of Fizuli from occupiers, on October 18 they hoisted the Azerbaijani flag on the Khudafar bridge, and on October 20 they liberated the city of Zangilan. Every inch of land was liberated at the cost of the lives and blood of brave Azerbaijani soldiers and officers. Counter-attacking with the famous "crescent" or "wolf trap" tactic, the Azerbaijani military advanced into the Lachin corridor and began artillery control from 10 kilometers of the main highway connecting Armenia with separatist elements in Nagorno-Karabakh. On October 25, Gubadli region was liberated from occupation.

As a result of the Azerbaijani army's control of the Lachin corridor, the occupying Armenian military units in Shusha were deprived of additional support. Armed with light weapons, the Azerbaijani Special Forces entered the city from several places, climbing the steep cliffs of Shusha with ropes and carrying wounded comrades on their shoulders. With the support of the military units in the liberated village of Dashalti, the mountain infantry of the Azerbaijani army broke the last resistance of the Armenian soldiers who were suddenly ambushed. During the liberation of Shusha, hundreds of Armenian servicemen were killed and many were missing.Visiting the Alley of Martyrs on November 8, President of the Republic of Azerbaijan Ilham Aliyev announced the liberation of Shusha by the Azerbaijani Armed Forces: “Shusha, which has been under occupation for 28 years, has been liberated! ... We won this historic victory on the battlefield ... Dear Shusha, you are free! Dear Shusha, we are back! Dear Shusha, we will revive you! Shusha is ours! Garabagh is ours! Karabakh is Azerbaijan!”.

On the night of November 9-10, President of the Republic of Azerbaijan Ilham Aliyev, Prime Minister of the Republic of Armenia Nikol Pashinyan and President of the Russian Federation Vladimir Putin adopted a joint statement. After the signing of the statement, Aghdam, Kalbajar and Lachin districts were liberated on November 20, 25 and 25, respectively. Due to bad weather conditions and problems at the Vardenis (Goycha) crossing, the Azerbaijani state took a humane approach to the Armenian side's request for another 10 days to evacuate Kalbajar.Azerbaijan ended the Second Karabakh War (Patriotic War), which began on September 27, 2020 and lasted for 44 days, with great victory in the context of a global pandemic. In the last two hundred years, Azerbaijan has emerged from the war not with territorial losses, but with the restoration of territorial integrity. The long-term longing of Azerbaijani citizens wishing to return to their native lands has come to an end. To end the 30-year blockade of Nakhchivan, a historic step was taken to connect it with the main part of Azerbaijan by land through the Mehri Corridor [3].

Thus, during the years of independence, the struggle of our people in response to the armed aggression against our statehood and territorial integrity began under the leadership of national leader Heydar Aliyev. This intense and comprehensive work, the strategy for the realization of international legal responsibility for the terrible crimes committed by Armenia, is being continued today by President Ilham Aliyev with political will and great effort.

LITERATURE

1. Akif Naghi. Kharabagh War. Baku, 2014, - 97 s.
2. President Library of the Republic of Azerbaijan. Conflict between Azerbaijan and Armenia. Baku:2005, - 399
3. Nazim Mustafa, Genocide and departation of Azerbaijani,Newspaper “Xalq”, 6-7. 01. 2009, - 182 s. https://files.preslib.az/projects/azerbaijan/gl7.pdf

XÜLASƏ

QARABAĞ MÜHARIBƏLƏRININ REALLIQLARI: TARIXI FON

Məmmədova S.İ., Əzizli H.A., Rzayeva N.Ş.

Məqalənin əsas məqsədi Qarabağ müharibələrinin həqiqətlərini araşdırmaqdır. 1990-cı illərin əvvəlləri Azərbaycan xalqı üçün çox ağrılı olmuşdur. Azərbaycan Respublikasının 20 faiz torpaqlarının ermənilər tərəfindən işğalı xalqımızın yaddaşında silinməz iz buraxmışdır. I Pyotrun dövründən ermənilərin Xəzər bölgəsinə köçürülməsi planlarının həyata keçirilməsi, 1920-ci illərin sonu, 19-cu əsrin ortaları - 20-ci əsrin əvvəllərində ermənilərin Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ bölgələrinə kütləvi şəkildə köçürülməsi, 1948-1953. 1988-1991-ci illərdə xalqımıza qarşı həyata keçirilən deportasiyalar Rusiyanın torpaqlarımızda ermənilər üçün dövlət yaratmaq istəyi ilə bağlı idi.

1991-ci il dekabrın 8-də SSRİ-nin dağılması ilə Belovej paktı 15 dövlətin müstəqilliyini bərpa etdi. Ermənilər 1992-ci ilin yanvarından işğalçılıq siyasəti aparırdılar. 1992-ci il fevralın birinci yarısına qədər Şuşa-Xocalı yolu və Şuşa ətrafındakı kəndlər işğal olunmuşdur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər 366-cı motoatıcı alayınla Xocalıya hücum edərək tarixin ən böyük soyqırımlarından birini həyata keçirtmişdilər. Rəsmi statistikaya

görə, Xocalıda 613 dinc sakin, o cümlədən 106 qadın, 70 qoca və 63 uşaq həlak olub. 1000-dən çox insan və 76 uşaq zərər çəkib. 8 ailə tamamilə məhv edilib, 1275 nəfər girov götürülüb.

Tətbiqi əhəmiyyəti: ali və orta təhsil müəssisələrində seminar və mühazirələrdə istifadə oluna bilər.

Açar sözlər: *soyqırım, deportasiya, işğal, Qarabağ, bəyannamə, münasibətlər, müharibə*

РЕЗЮМЕ

РЕАЛИИ КАРАБАХСКОЙ ВОЙНЫ: ИСТОРИЧЕСКАЯ СПРАВКА

Мамедова С.И., Азизли Х.А., Рзаева Н.Ш.

Основная цель статьи исследовать реалии карабахских войн. Начало 90-х годов XX века было очень болезненным для азербайджанского народа. Оккупация армянами 20% земель Азербайджанской Республики оставила неизгладимый след в памяти нашего народа.

Таким образом, реализация планов переселения армян в Каспийском регионе со времен Петра I, массовое переселение армян в Ереванский, Нахчыванский, Карабахский районы Азербайджана в конце 1920-х, середине XIX - начале XX веков, 1948-1953 гг. Депортации, осуществленные против нашего народа в 1988-1991 гг., Были связаны со стремлением России создать государство для армян на наших землях.

8 декабря 1991 года с распадом СССР Беловежский пакт восстановил независимость 15 государств. После этого инцидента карабахская проблема переросла в войну. Армяне проводят политику агрессии с января 1992 года. До первой половины февраля 1992 года дорога Шуша-Ходжалы и села вокруг Шуши были оккупированы. В ночь с 25 на 26 февраля 1992 года армяне атаковали Ходжалы 366-м мотострелковым полком и совершили один из величайших геноцидов в истории. Согласно официальной статистике, в Ходжалы погибло 613 мирных жителей, в том числе 106 женщин, 70 пожилых людей и 63 ребенка. Пострадало более 1000 человек и 76 детей. Полностью уничтожено 8 семей, 1275 человек взяты в заложники.

Ключевые слова*: геноцид, депортация, оккупация, Карабах, декларация, отношения, война.*

QARABAĞ GENERAL- QUBERNATORLUĞU ALMAN TARİXÇİNİN TƏDQİQATLARINDA

Manafov N., Manafova M.
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
manafov49@mail.ru

Açar sözlər: *Qarabağ general-qubernatorluğu, alman tarixçisi, erməni silahlı dəstələri, müsəlman əhalisi, ərazi bütövlüyü*

Alman tarixçisi, Humbold Universitetinin professoru Yorq Baberovskinin (Jörg Baberowski) əsas fəaliyyət sahəsi və doktorluq dissertasiyası Azərbaycanla bağlıdır. Onun bütün əsərlərinin leytmotivini Azərbaycan məsələsi təşkil etsə də, yalnız bir əsəri oxucularımıza tanışdır: "Düşmən hər yerdədir. Stalınızm Qafqazda" (Bakı, "Alatoran" nəşriyyatı, 2021, tərcümə edən Məhəmməd Hüseynoğlu).

Y. Baberovski tədqiqatlarında Azərbaycan xalqının başına gətirilənləri (1828-1941-ci illər) tarixi faktlar və arxiv materialları əsasında geniş şəkildə şərh edir.

Tədqiqatçı göstərir ki, Ermənilərin Şərqi Anadoludan Qarabağa kütləvi axını yalnız XIX əsrin sonunda və Birinci Dünya müharibəsinin gedişində başladı. Bu bölgənin erməni icmalarında islam və türk əleyhinə əhval-ruhiyyə Qafqaz ermənilərinin ənənəvi yaşayış yerləri ilə müqayisədə daha güclü idi. Dağlıq Qarabağdakı və qəza şəhəri Şuşadakı münaqişələr faciəli haqisələrin əsasını qoyurdu [1, 131].

Erməni kəndlilərin yaşayış sahəsi Şuşa və Ağdam şəhərləri arasında olan zolaqda cənubdan şimala doğru uzanırdı. Lakin bu rayonların hüdudları daxilində ermənilərin kompakt yaşayış yeri yox idi. Erməni kəndlilər, əsasən Qafqaz dağlarının ətəklərindəki əlçatmaz dərələrdə yerləşirdilər.

Ermənilər öz kənd təsərrüfatı məhsullarının satışı hesabına yaşayırdılar.

Bildiyiniz kimi, 1918-ciil mayında Batum şəhərində üç yeni yaranmış respublikalar arasında müqavilə imzalandı. 1918-ci il mayın 29-da tarixən Azərbaycan şəhəri olmuş İrəvan şəhəri paytaxt olmaqla 10 min kv ərazi yeni yaradılan Ararat (Ermənistan) respublikasının ərazisi kimi müəyyənləşdirildi. Lakin Azərbaycan tərəfindən

irəli atılan bu xeyirxah addım ermənləri daha da şirniklendirdi. Onlar "Böyük Ermənistan" ideyasını reallaşdırmaq üçün əlverişli məqam olduğunu sanaraq Azərbaycana qarşı daha geniş ərazi iddiaları irəli sürdülər [2,105].

Müstəqil respublikaların elanından sonra etnik təmizləmə konsepsiyası üstünlük qazandı. Millətlərarası münaqişələrin həlli üçün demokratik vasitə kimi yaradılmış xalqların öz müqəddaratını təyin etmə hüququ Zaqafqaziyada ən iyrənc formasında zəfər çalırdı.

Şuşada Erməni Milli Şurasının üzvləri Azərbaycan Respublikasının bu bölgədəki müstəqilliyini qəbul etmirdilər. Şuşada toplanmış Erməni Milli Konqresı Dağlıq Qarabağın siyasi müstəqilliyini elan etdi. 1918-ci il yayın sonlarında müsavatçılar, faktiki olaraq, bölgədə nəzarəti itirdilər; heç kəs onların Şuşadakı komendatına əhəmiyyət vermirdi, cünki onun nə hərbi, nə də siyasi dayağı var idi.

Sentyabrda Andranikin dəstəsi Şuşanın kənarına çatdı. Şuşa şəhərinin xarici aləmlə əlaqəsi kəsildi, Əsgəran qalası yaxınlığındakı dağ keçidi bağlandı. Şəhərin Andranikin dəstələri tərəfindən indicə tutulacağı barədə şayiələr yayıldıqda, onun erməni hissəsində silah paylamağa başladılar . Müsəlmanlar evlərinə qapandılar və kiçik döyüş dəstələri yaratdılar. Səhərin erməni və müsəlman hissələrini ayıran səngərlər silahlı adamlarla doldular [1,136]. Sentyabrın sonunda Şuşada aclıq və yatalaq epidemiyası başladı və xəstəlik hər gün 30-40 nəfərin həyatını əlindən aldı.

Sentyabrda ayının 25-də Türkiyə hərbi hissələri heç bir müqavimətlə qarşılaşmadan Şuşaya girdilər. Şuşanın müsəlman hissəsində sakinlər Türklərin şərəfinə zəfər tağı qurdular və erməni şəhər rəisləri Azərbaycan Respublikasının Dağlıq Qarabağ üzərindəki siyasi suverenliyini tanımaq məcburiyyətində qaldı.

Türkiyə qoşunlarının Qarabağdan çıxmasından sonra general Tomson Azərbaycan və Ermənistan nümayəndələri arasında sülh müqaviləsi bağlanmasını təklif etdi (Tiflis, 23 noyabr 1918).

Lakin bu cəhd də heç bir nəticə vermədi. Dekabrda erməni birləşmələri yenidın Şuşaya hücum etdilər. Ermənilər şərqə doğru yolda Zəngəzur qəzasındakı 100-dən çox müsəlman kəndini dağıtdılar, bir neçə min müsəlmanı həyatdan və vətəndən məhrum etdilər.

Əhalinin kütləvi məhvinin qarşısını almaq məqsədi ilə Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyi Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzaları hüdudlarında ayrıca Qarabağ general-qubernatorluğunun yaradilmasını təklif etdi. Azərbaycan Cümhuriyyətinin 1919-cu il 29 yanvar iclasinda Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Ona Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzalarına münasibətdə hakimiyyət səlahiyyətləri verildi.

Ermənistan hökuməti Xosrov bəy Sultanovun Qarabağın general-qubernatoru təyin edilməsinə razı deyildi. Qısa vaxtda Sultanov özünü çox bacarıqlı, siyasi cəhətdən hazırlıqlı, bütün regionu, xüsusən də Qarabağı və Zəngəzuru yaxşı taniyan siyasətçi kimi göstərdi, əmin-amanlığın qorunub saxlanmasında mühüm rol oynadı.

Musavat hökuməti 1919-cu ilin yazında Dağlıq Qarabağdakı nüfuzunu qismən bərpa etdı.

Erməni Milli Şurasının nümayəndələri Xosrov bəy Sultanovun tədbirlərində şəhərin erməni əhalisi üçün təhlükə olduğunu düşünürdülər.

General-qubernatorun Şuşa poçt şöbəsinin şəhərin müsəlman hissəsinə köçürülməsi və Azərbaycan əsgərlərinin Şuşanın erməni kazarmalarında yerləşdirilməsi göstərişini ermənilər narazılığla qarşıladılar. Şuşa şəhəri yenidən hərbi düşərgəyə çevrildi. Silahlı müsəlmanlar və silahlı ermənilər şəhərin hər iki hissəsini ayıran səngərlər qurdular. Ermənilər ətrafda Şuşaya basqın etməyə hazır olan 4 min nəfərlik silahlı dəstə yaratdı. Onlarla insan şəhərdəki atışmaların qurbani olsa da, münaqişə millətlərarası qırğına çevrilmədi. Erməni dəstələri geri çəkildi, Azərbaycan general-qubernatoru (Xosrov bəy Sultanov) Şuşada daha da üstünlük qazandı: poçt şəhərin erməni hissəsindən müsəlman hissəsinə keçirildi, Azərbaycan əsgərləri erməni kazarmalarını tutdular. Sultanovun tələbi ilə, əhali arasında təhriklərə son qoymaq üçün Erməni Milli Şurasının aparıcı nümayəndələri Şuşadan qovuldu.

Müsəlman kəndlilər mal-qaranın sürülməsi mövsümündə general-qubernator Sultanovun səfərbər olmaq və erməni kəndlilərinə qarşı çıxış etmək çağırışlarına cavab verdilər.

1919-cu il yayın əvvəlində Qarabağın general-qubernatoru zor gücünə aşırımlardan keçidin açilmasına nail oldu. Dağlara gedən yolda hər il ortaya çıxan maneələr aradan qaldırıldı.

Xosrov bəy Sultanov iyunun sonuna qədər Dağlıq Qarabağ üzərində hərbi üstünlüyünü birdəfəlik möhkəmləndirdi. Coxsaylı erməni kəndləri general-qubernatora tabe oldular və sadiq olduqlarını bildirmək üçün elçilərini onun yanına göndərdilər. Dağ cığırlarına postlar yerləşdirildi, yay otlaqlarını isə gözətçilər qoruyurdular [1,139].

Alman professoru Yorq Baberovskinin tədqiqatlarının təhlili göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanmasında Qarabağ general-qubernatorluğunun yaradılması mühüm rol oynamışdır.

ƏDƏBİYYAT

1. Baberovski Yorq. Düşmən hər yerdədir. Stalinizm Qafqazda. Bakı, "Alatoran", 2021
2. Baxşəliyev Fazil. Qarabağ general-qubernatorluğunun yaranması və fəaliyyəti haqqında. Bakı Dövlət Universiteti, AXC-100, Beynəlxalq elmi konfransın materialları, 21-23 may 2018

SUMMARY

GENERAL- GOVERNORSHİP OF KARABAKH IN THE STUDIES OF THE GERMAN HISTORIAN

Manafov N., Manafova M.

German historian Humboldt University professor Jörg Baberowski's main field of activity and doctoral thesis are related to Azerbaijan. The researcher shows that the conflicts around Karabakh started in 1917. Numerous Armenian refugees and Armenian soldiers of the disbanded tsarist army marched to Karabakh, displacing the Muslim population in the foothills.

In January 1919, the Governor-General of Karabakh was established and Khosrov bey Sultanov was appointed Governor-General.

The establishment of the Karabakh General-Governorship played a significant role in maintaining the territorial integrity of the Democratic Republic of Azerbaijan.

Keywords: *General --governorship of Karabakh, German historian, Armenian armed groups, Muslim population, territorial integrity*

РЕЗЮМЕ

ГЕНЕРАЛЬ-ГУБЕРНАТОР КАРАБАХСКОЙ ОБЛАСТИ В ИССЛЕДОВАНИЯХ НЕМЕЦКОГО ИСТОРИКА

Манафов Н., Манафова М.

Основная сфера деятельности и докторская диссертация немецкого историка, профессора Университета имени Гумбольдта Джорджа Баберовски связана с Азербайджанской Республикой. Исследователь показывает, что конфликты вокруг Карабаха начались в 1917 году. Многочисленные армянские беженцы и армянские солдаты расформированной царской армии стекались в Карабах, вытесняя мусульманское население в предгорья.

В январе 1919 года было создано генерал-губернаторство Карабаха, и генерал-губернатором был назначен Хосров бек Султанов.

Создание Карабахского генерал-губернаторства сыграло важную роль в сохранении территориальной целостности Азербайджанской Демократической Республики.

Ключевые слова: *Карабахский генерал-губернатор, немецкий историк, армянские вооруженные формирования, мусульманское население, территориальная целостность.*

AZƏRBAYCANIN QARABAĞ ZƏFƏRİ: TARİXİ ƏDALƏTİN BƏRPASI

Mədədzadə K.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
konulmededzade@mail.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, İkinci Qarabağ müharibəsi, Ermənistan qoşunları, azad edilmiş ərazilər, hərbi əməliyyatlar.*

XVIII əsrin əvvəllərindən Azərbaycan torpalarına başlanan erməni köçü I Pyotrun ölümü ilə yarımçıq qalmış, lakin XIX əsrin əvvəllərindən yenidən kütləvi xarakter daşımışdır. Xüsusilə də Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ermənilərdən özlərinə sosial dayaq yaratmaq istəyən Rusiya bu prosesi daha da gücləndirdilər. Cənubi Qafqazda dövlətçilik tarixinə malik olmayan ermənilər 1918-ci ildə Azərbaycan torpaqları hesabına özlərinə dövlət qurduqdan sonra zaman-zaman Azərbaycana qarşı yeni ərazi idddiaları ilə çıxış etməyə başladılar. Baxmayaraq ki, İrəvan da daxil olmaqla Azərbaycan torpaqlarının ermənilər güzəşt edilməsi müqabilində ermənilər Azərbaycan qarşı ərazi iddialarına son qoymalı idi. Lakin öz himayədarlarına arxalanan ermənilər yaranmış şəraitdən məharətlə istifadə edərək Azərbaycana qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başladılar. Rusiyada sovet rejiminin yaranması və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və Rusiyanın Azərbaycan xalqına qarşı yeritdiyi qərəzli siyasətin nəticəsi olaraq

qısa bir müddət ərzində Zəngəzur və digər tarixi torpaqlarımız ermənilərə verildi. Sovet rejiminin hakimiyyəti dövründə Azərbaycana qarşı soyqırım və deportasiya siyasəti davam etdirildi.

"Məlum olduğu kimi, Ermənistanın aqressiyası nəticəsində 1988-1993-cü illərdə Ermənistan Respublikasından 350 000-dən artıq, Dağlıq Qarabağ və ətraf rayonlardan isə 830 000-dək, yəni ümumilikdə 1 200 000-ə yaxın soydaşımız daimi yaşadıqları ata-baba yurdlarından, tarixi Azərbaycan torpaqlarından məcburi olaraq çıxarılmış və həmin insanlarımız 30 ilə yaxındır ki, qaçqın və köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışdılar. Bu təcavüzün nəticəsi olaraq ölkəmizin 20% ərazisi işğal edilmişdi."[2]

Qarabağ probleminin həll edilməsi üçün ATƏT-in ABŞ, Rusiya və Fransanın həmsədrliyi ilə Minsk qrupu yaradıldı. Lakin tarixin gedişi də göstərdi ki, Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya ermənilərin Cənubi Qafqaza köçürülərək yerləşdirilməsinin və tarixi şəraitin yaranmasından istifadə edərək Azərbaycan torpaqlarının hissə-hissə Ermənistana verlməsində mühüm rol oynamış, müstəqillik əldə edildikdən sonra Ermənistanda öz hərbi baxasını yaratmış, Azərbaycan torpaqlarının işğal edilməsində və Ermənistanın silahlandırılmasında yaxından istirak etmişdir. Ona görə də Rusiyanın həmsədr olaraq Qarabağ probleminin həll edilməsində ədalətli mövqe tutması mümkün deyildir.

Fransanın tarixən ermənipərəst mövqe tutmsı bəllidir. Birinci və ikinci Qarabağ müharibələri zamanı Fransa Ermənistana öz dəstəyini əsigəməmişdir. Eləcə də Minsk qrupunun həmsədri olaraq Ermənistanı müdafiə etmişdir.

ABŞ Rusiya və Fransaya nisbətən bitərəf mövqe nümayiş etdirməyə çalışsa da əslində bir sıra məqamlarda Ermənistanın tərəfində idi. Bütün bunları nəticəsi olaraq Qarabağ problemi uzun müddət həll edilmədi.

Hətta Ermənistan Azərbaycanı yeni ərazilərin işğal edilməsi ilə təhdid etməyə başladı. Nəticədə Aprel döyüşləri baş verdi. Azərbaycan qrdusu qısa müddətdə erməni səddini yarıb keçərək işğal edilmiş ərazilərimizə daxil oldular. Lakin Rusiyanın vasitəçiliyi ilə hərbi əməliyyatlar dayandırıldı. Ermənistan tərəfindən törədilən Tovuz döyüşlərində Ermənistan qoşunlarının hücumunun qarşısı alındı. Lakin Aprel və Tovuz döyüşlərindən dərs almayan Ermənistan 2020-ci ilin sentyabrın 27-də Azərbaycan ərazisinə qarşı hücuma keçdi. Əkshücuma keçən Azərbaycan ordusu ciddi uğurlar əldə etdi.

"Sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı. Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi."[1]

Ermənistan üzərində qələbənin çalınmasında mühüm rol oynayan amillərdən biri milli ordunun yenidən qurulması, Qardaş Türkiyə ilə hərbi təlimlərin təşkil edilməsi, hərbi sənayesi inkişaf etmiş xarici ölkələrdən müasir tipli silahların alınması, xüsusilə də Türkiyədən alınmış PUA-lardan səmərəli şəkildə istifadə edilməsi, Azərbaycanın hərbi sənayesinin inkişaf etdirilməsi, Azərbaycan zabit və əsgərlərinin göstərdikləri qəhrəmanlıqlar və Ali Baş komandan başda olmaqla ordu-xalq birliyinin nəticəsi idi.

"Artıq tarixə qovuşmuş 2020-ci il Azərbaycan xalqı üçün istər siyasi, istər diplomatik, istərsə də digər sahələr üzrə uğurlarla yadda qaldı. İlin ən mühüm uğuru isə 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı tarixi qələbəmizdir.."[3]

Ermənilər tərəfindən həyata həyata keçirilən 30 illik işğala son qoyduqdan sonra azad edilmiş ərazilərdə bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan hökuməti tərəfindən bir sıra proqaramlar qəbul edilmiş və onların icrası həyata keçirilməkdədir.

ƏDƏBİYYAT

1. Bayramov V. Azərbaycan Ordusu 44 günlük müharibədə tarixi Qələbə əldə etdi."Xalq qəzeti" 11 Noyabr 2020
2. Məmmədov H. Tarixi ədalətin bərpası uğrunda mübarizə https://aznotary.az/storage/434/DFWEIcpWTo-Tarixi-%C9%99dal%C9%99tin-b%C9%99rpas%C4%B1-yolunda..pdf
3. Süleymanov V. Tarixi zəfərimiz qürur mənbəyimizdir. Respublika qəzeti, 11 mart 2021-ci il

SUMMARY

KARABAKH VICTORY OF AZERBAIJAN: RESTORATION OF HISTORICAL JUSTICE

Madadzade K.M.

The thesis presented the resettlement of Armenians to the territory of Azerbaijan by Russia and, as a result, the establishment of the Armenian state in our historical lands, the occupation of our new territories from time to time under the auspices of Russia. At the same time, Armenian-Russian units, which took advantage of the situation in the early 1990s, occupied up to 20 percent of Azerbaijan's territory. military operations and liberation of our territories from occupation were investigated.

Keywords: *Azerbaijan, Karabakh, the Second Karabakh War, Armenian troops, liberated territories, military operations.*

РЕЗЮМЕ

КАРАБАХСКАЯ ПОБЕДА АЗЕРБАЙДЖАНА: ВОССТАНОВЛЕНИЕ ИСТОРИЧЕСКОЙ СПРАВЕДЛИВОСТИ

Мададзаде К.М.

В тезисе представлено переселение Россией армян на территорию Азербайджана и, как следствие, создание Армянского государства на наших исторических землях, оккупация время от времени наших новых территорий под эгидой России. В то же время армяно-российские формирования, воспользовавшись ситуацией, в начале 1990-х годов оккупировали до 20 процентов территории Азербайджана, расследовались боевые действия и освобождение наших территорий от оккупации.

Ключевые слова: *Азербайджан, Карабах, Вторая карабахская война, армянские войска, освобожденные территории, боевые действия*

KÜRƏKÇAY MÜQAVİLƏSİ VƏ ONUN NƏTİCƏLƏRİ

Məhərrəmov S.Q.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Meherremovsamir394@gmail.com

Açar sözlər: *Kürəkçay müqaviləsi, Qarabağ xanlığı, şah hökuməti, xəzinə, vassal, idarəçilik*

Rusiya Gəncə xanlığını ələ keçirdikdən sonra qarşıda duran əsas məqsəd Qarabağ xanlığını özündən asılı vəziyyətə salmaq idi. bu dövrdə Qarabağda vəziyyət gərgin olaraq qalmaqda idi. Belə ki, Şuşa ərazisində iki xüsusi qüvvə arasında mübarizə başlamışdı. Mübarizənin yekununda Rusiyaya meyilli olan Məhəmmədhəsən xanın qüvvələri qalib gəldi. İran sərkərdələrinin və şahın qeyd etdiyinə görə alınmaz hesab olunan Şuşa şəhəri iran tərəfi üçün Zaqafqaziyanın açarı, Rusiya üçün isə İranın qapısı hesab olunurdu. Fətəli xanın qarşıya qoyduğu əsas məqsəd Qarabağ xanlığını ələ keçirməkdən ibarət idi. lakin bu dövrdə Rusiya tərəfi ümumi üstünlüyü ələ keçirmək üçün hər vəchlə çalışırdı. Şah Əbülfət xanı beş min nəfərlik qoşun birləşmələri ilə atasına yardım göstərmək məqsədi ilə Qarabağa göndərdi. Bildirdi ki, Məhəmmədhəsən ağanı və o dövrdə İrana qarşı çıxan bir neçə Qarabağ bəylərini şahın yanına göndərsin, lakin ibrahim xan şahın göndərdiyi yardımı qəbul etməyərək oğlu Əbülfət xana ağır cavab göndərərək Qarabağ torpağına daxil olmağı ona qadağan etdi. Lakin İbrahim xan atası tərəfindən ona edilmiş qadağanı pozdu. Baş verən döyüşdə İbrahim xan və Məhəmmədhəsən xanın birləmiş qüvvələri şah qoşununu burada qarşılayaraq məğlubiyyətə uğratdılar. Qoşunun bütün qənimətləri ələ keçirildi, sərbazlardan çoxu öldürüldü, bir çoxu əsir düşdü. Fətəli şahın qorxduğu əsas məsələlərdən biri İbrahimxəlil xanınn Rusiyanın himayəsi altına keçməsi idi. Buna gorə Kərim xan və Abdulla xanı İbrahimxəlil xanın yanına gondərərək Rus hakimiyyətini qəbul etməməyi ondan xahiş etdi. Hətta bildirdi ki, Şuşa toxunulmaz qaladır və Rusiya qoşunlarını şəhərə buraxaraq onların daxili şəhəri və qalası etməsin Şah Qarabağı rus qoşunlarından müdafiə etmək məqsədi ilə Şahbulağı qalasına Qacar hərbi birləşmələrinin yerləşdirilməsini təklif edir və bildirirdi ki, Qarabağ xanlığı ilə duşmənçilik edən qonşu sakinləri cəzalandırmaq üçün oğlu Abbas Mirzəni kömək üçün göndərəcəkdir. Lakin İbrahimxəlil xan

şahın elçilərinə qeyri-müəyyən cavab verib onları geri göndərdi. Kərim xan niyyətindən əl çəkmədi və əvvəlki təkliflərini təkrarladı, Kərim xanı, Abdulla xanı və Rəhim xanı qiymətli hədiyyələrlə Şuşaya göndərdi. Bu dəfə İbrahimxəlil xan elçiləri geri qaytarmayaraq Şuşada ev dustağı kimi saxladı və məsələ haqqında Sisianova məlumat verdi.

Fətəli şah bu zamana qədər heç kəsə etmədiyi güzəşti bibaşa İbrahimxəlil xana etməklə onun Rusiyanın himayəsi altına keçməsinə imkan vermək istəmirdi. Belə ki, Fətəli şah «Qarabağ mahalını şah xəzinəsinə çatmalı olan mədaxili ilə birlikdə əbədi olaraq İbrahimxəlil xana verməyi, hətta öz övladlarından iki nəfərini onun yanına girov göndərməyi öz öhdəsinə götürmüşdü. [3, s.216]

Bu güzəştlərin müqabilində rus qoşunlarının hücumlarının qarşısını almaq üçün Tiflis-Gəncə yolu üzərində yerləşən Əsgəranın hər iki qalasında İran ordusu yerləşdirilməli və Şuşa qalası yaxınlığında qazılmış səngərlər bu orduya verilməli idi. Yerləşdirilmiş ordu birləşmələrinin hər bir ehtiyacı Şah hökumətinin xəzinəsi hesabına qarşılanmalı idi və İbrahimxəlil xanın tapşırdığı bütün tapşırıqlar qeyd-şərtsiz, heç bir etiraz edilmədən həyata keçirməli idi. Bu bir növ ordunun hərtərəfli İbrahimxəlil xanın ixtiyarına verilməsi idi.

Buna baxmayaraq şahın irəli sördüyü bu təkliflər heç bir nəticə vermədi. İbrahimxəlil xan Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi siyasətini daha inadkarlıqla davam etdirirdi. Bu addımın gələcəkdə hansı nəticələrə gətirib çıxaracağını dərk etməyən İbrahimxəlil xan muqavilə layihəsi üzərinda aparılan işləri daha da surətləndirərək onu tezliklə başa çatdırmağa tələsirdi. [2, s.188-189]

Sisianov 1805-ci ildə Azərbaycan xanlıqlarını özünə tabe etmək məqsədi ilə Gəncə şəhərinə gəldi. Gəncədən İbrahim xana məktub yazaraq onun hansı dövlət tərəfində olduğunu açıq bildirməyi qəti formada tələb etdi. Sisianov qeyd etdi ki, bu iki yoldan ən əsas və yaxşı yolun seçilməsi qarşıya məqsəd kimi qoyulmuşdu. Yaxşı yol anlayışı isə Rusiya idi. artıq səksən yaşına çatmış Qarabağ xanı yaşadığı müddət ərzində belə bir kəskin davranışla üz-üzə gəlməmişdi.

Sisianov Gəncə yaxınlığında Kürək çayına yaxın olan ərazidə düşərgə salmışdı, İbrahim xan Məhəmmədhəsən, Mehdiqulu, Xanlar və Qarabağın digər ə'yanları ilə birlikdə Kürək çayı yaxınlığına gəldi. Adam göndərərək kürəkəni Şəki hakimi Səlim xanı da ə'yanları ilə "böyük sərdarın" yanına çağırdı. Sonra andlaşma oldu: xanlar "Andlı öhdəlik" adlanan müqaviləyə möhürlərini basdılar, Sisianov isə qol qoydu. 1805-ci il 14 may tarixində Kürəkçay sülh müqaviləsi imzalandı. Kürəkçay müqaviləsi 11 maddədən ibarət idi. Sülh müqaviləsinə əsasən Qarabağ xanı rus çarının vassalı olmasını öhdəsinə götürdü, çarın xeyrinə müstəqil xarici siyasət yeritməkdən imtina etdi və çar xəzinəsinə 8000 çervon vergi ödəməyə borclu idi. Rusiya dövləti də üzərinə düşən müəyyən öhdəlikləri götürərək daxili idarəetmə ilə bağlı olan bütün hakimiyyət daxili məsələlərin xanın öhdəsində qalacağına söz verirdi. Rus çarı özü və knyazları adından "öz imperatoruna və onun canişinlərinə ölkənin bütövlüyünə təminat verir və Qarabağ xanlığı üzərində xanın varisi və varisinin hakimiyyətinin dəyişməz qalacağına söz verirdi., məhkəmə və divanxana işləri, daxili idarəetmə ilə əlaqədar hakimiyyət işləri, eləcə də, ölkə ərazisindən yığılan gəlir hökmdarın səlahiyyətində saxlanacaqdır. Lakin xanlığın daxili idarəsinin qorunub saxlanılması ona siyasi muxtariyyət verilməsi demək deyildi. Çünki general-leytenant rütbəsi alan Qarabağ xanı Qafqaz komandanlığının əmrlərini yerinə yetirməli idi. Eyni zamanda, Xanbağı adlanan qalaya bitişik əraziyə mayor Lisaneviç də daxil olmaqla 500 rus əsgərinin yerləşdirilməsi xanın davranışını məhdudlaşdırırdı. [1, s.589-590].

ƏDƏBİYYAT

1. Əliyarlı S. Azərbaycan tarixi "Azərbaycan" nəşriyyatı, Bakı 1996. 872 s.
2. Mustafazadə T. Qarabağ xanlığı. «Sabah» , Bakı 2009, 333 s.
3. Qəniyev H.Q. Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. Bakı, 2019, "Elm və Təhsil" nəşriyyatı, 499 s.
4.

SUMMARY

KURAKCHAY CONTRACT AND ITS CONSEQUENCES

Maharramov S.G.

After the Russian occupation of the Ganja khanate, the main goal was to make the Karabakh khanate dependent on it. The natural and geographical conditions in which the Karabakh khanate was located pitted the Russian and Gajar governments against each other in order to seize the territory. Fatali khan tried, he could not reach an agreement with Ibrahimkhalil khan. All these processes resulted in the signing of the 11-article Kurakchay Treaty by the Karabakh khan Ibrahimkhalil khan with Russia on May 14, 1805.

Key words: *Kurakchay agreement, Karabakh khanate, shah's government, treasury, vassal, administration.*

РЕЗЮМЕ

КУРАКЧАЙСКИЙ ДОГОВОР И ЕГО ПОСЛЕДСТВИЯ

Магеррамов С.Г.

После оккупации Гянджинского ханства Россией главной целью было сделать Карабахское ханство зависимым от нее. Природно-географические условия, в которых находилось Карабахское ханство, настраивали русское и гаджарское правительства друг против друга с целью захвата территории. Как ни старался Фатали-хан, ему не удалось договориться с Ибрагимхалил-ханом. Итогом всех этих процессов стало подписание 14 мая 1805 года карабахским ханом Ибрагимхалил ханом с Россией Куракчайского договора из 11 статей.

Ключевые слова: *Куракчайское соглашение, Карабахское ханство, шахское правительство, казна, вассал, администрация.*

AZƏRBAYCAN TÜRKLƏRİNİN İNDİKİ ERMƏNİSTAN ADLANAN TARİXİ TORPAQLARINDAN ÜÇÜNCÜ DEPORTASİYASI

Məhərrəmova S.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Oguz.Gunhan@gmail.com

Açar sözlər: *etnik təmizləmə, ictimai-siyasi şərait, istifadə, qırğın, acı tale*

Rusiyada 1917-ci il fevral burjua inqilabından sonra Transqafqazda ictimai siyasi şərait əsaslı surətdə dəyişmişdi. M.Ə.Rəsulzadənin fikrincə, 1917-ci il inqilabı məhkum siniflərə hüriyyət, məhkum millətlərə də muxtariyyət verəcəkdir [14, s.27]. Öndərlərimizin məhəlli muxtariyyət uğrunda apardıqları mübarizə Oktyabr çevrilişindən sonra "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Sülh haqqında" dekret imperiya ucqarlarında yaşayan xalqlara müstəqil dövlət yaratmaq üçün hüquqi təminat verməsini nəzərə alıb, milli müstəqillik uğrunda mübarizə ilə nəticələnmişdir. Lakin tarixin sonrakı gedişi göstərmişdir ki, bu sənədlər nəinki Rus müstəmləkəçiliyinə son qoymuş, hətta imperiya siyasətinə yeni təkan vermişdir [10, p.7]. Oktyabr çevrilişindən sonra Antanta dövlətlərinin Rusiyaya münasibəti dəyişmiş, Qafqaz və Asiya Türkiyəsinin Rusiyasız bölüşdürülməsi uğrunda fəal mübarizəsi başlamışdı. Çar Rusiyasının diplomatik üsullarından istifadə etmiş bolşeviklər, Qafqazda maraqlar uğrunda gedən açıq və gizli mübarizədə xarici dövlətləri "erməni məsələsi" siyasi oyundan kənar qoymaq məqsədi ilə Lenin 1917-ci il dekabrın 29-da "Türkiyə Ermənistanı" haqqında dekret vermişdir. Bolşeviklərdən Türkiyə və Azərbaycan torpaqlarının xeyli hissəsi hesabına erməni dövləti yaradılacağı vədini alan ermənilər, Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur ərazilərinə əsassız torpaq iddiaları irəli sürmüşdür. 1917-ci ilin dekabrından I Dünya müharibəsi ərəfəsində yaradılmış erməni quldur dəstələri daşnak simalı Bakı Komunnası ilə birlikdə "Böyük Ermənistan" planının etnik təmizləmə mərhələsinə uyğun olaraq bütün Azərbaycan türklərinə qarşı soyqırım siyasəti aparmış, Azərbaycan xalqının soyqırım günü kimi e'lan edilmiş mart qırğınlarını törətmişdilər [3].

Bununla da 1917-1921-ci illər zaman kəsiyini əhatə edən Qərbi Azərbaycan türklərinin tarixi etnik torpaqlarından kütləvi qovulmalarının III mərhələsi başlamışdı. Belə ki, Bakı komunnası ilə birləşən erməni quldur dəstələri "əksinqilabi ünsürlərə qarşı mübarizə" adı altında aparılan etnik təmizləmə, soyqırım siyasəti bütün Azərbaycan ərazisində - Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa bölgələrdə xüsusi vəhşilik və qəddarlıqla həyata keçirilmişdir. Qətl-qiyamlardan əvvəl Erməni Milli Şurası erməni əsgərlərinə belə müraciət etmişdir: "Siz çoxəsrlik düşmənlə döyüşdə şöhrət qazanmış döyüşçülər, bu gün yenə də əyilməz iradənizlə bütün xalqımızı ruhlandıran məqsəd qarşısındasınız" [9, s.151]. Belə çağırışlardan sonra ruhlanan qisasçı erməni əsgərləri minlərlə insanı milli mənsubiyyətinə görə məhv etmiş, evlərə od vurmuş, insanları bir yerə yığıb diri-diri yandırmış, milli me'marlıq inciləri, məscidlər, xəstəxanalar, ümumiyyətlə türklüyə aid olan hər şey məhv edilib darmadağın edilmiş, kəndlər xarabazara çevrilmişdir. Bu olaylar haqqında "Bəsirət" məcmuəsi yazmışdır: "Bir dəstə daşnak soldatları və bir dəstə Şaumyan adamları Cəmiyyəti xeyriyyətin qarşısına gəlib o binayi müqəddəsə, o möhtəşəm imarətə, o müzzəm binaya xainanə bir surətdə od vurdular, onu yandırdılar. Qanlı Nikolayın dövründə görünməyən zülmlər bizə bu gün mart ayının 18-21-i günləri arası rəva görüldü, 10 minlərlə müsəlmanın qanı axıdıldı" [7, s.15]. 3 gün ərzində 12 min azərbaycanlı qətl edilmişdi [7, s.16]. Azərbaycanın bütün bölgələrində

Andronik, Njdeh, Şaumyan, Lalayan, Sulikov və başqa komandirlərinin başçılıq etdiyi erməni dəstələri [8, s.78] qanlı faciələr törətmiş, kəndləri viran edərək yerlə-yeksan etmişdilər. Zaqafqaziya Seymində çıxış edən Səfikürdski demişdi ki, bizim tariximizdə çoxlu qanlar tökülüb, onların çoxu qanla yazılıb, biz bunu da tarixə qanla yazacağıq [9, s.51]. Azərbaycanlılara qarşı birləşmiş qüvvələr tərəfindən soyqırım siyasəti davam etdiyi bir zamanda, tarixi yol ayrıcında qalan Azərbaycan ya öz müstəqilliyini e'lan etməli, ya da parçalanaraq məhv olmalı idi. Beləliklə, 1918-ci il mayın 28-də AXC-in yarandığı e'lan edildi və "Batum" müqaviləsinə əsasən İrəvan erməni daşnaklarına güzəştlə verildi, lakin ermənilər əldə olunmuş sazişlərə ("Ərzincan", "Trabzon", "Brest-Litovsk", "Batum") [13, s.33] məhəl qoymayaraq Zəngəzurda, İrəvanda, Qarabağda, Naxçıvan və başqa bölgələrdə silahlı basqınlar, etnik təmizləmə siyasətini davam etdirmişdilər. İrəvan Erməni daşnak hökumətinin paytaxtı e'lan edildikdən sonra Bağır bəy Rzayev Milli Şurada təmsil olunan İrəvan azərbaycanlıları adından demişdir ki, müstəqil Azərbaycan uğrunda çalışmaqla yanaşı, rica edirik bizi - Ermənistan respublikası ərazisində qalanları unutmayasınız [5, s.228].

B.Rzayevin haqlı çağırışı ermənilərin (körpə, qoca, cavan) bütün türk əhalisini Qərbi Azərbaycanda məhv etmək təhlükəsindən irəli gəlmişdi. 1917-1921-ci il zaman kəsiyində Qərbi Azərbaycanda yerli türklərə qarşı aparılan türksüzləşdirmə siyasəti nəticəsində İrəvan quberniyasında azərbaycanlıların sayı 1916-cı ildə 373582 nəfər olduğu halda, 1920-ci ilin noyabrında cəmi 12000 nəfər qalmışdır [4, s.6]. Başqa statistik mə'lumata görə Qərbi Azərbaycanın (1905-1907-ci illərdən sonra) 575000 azərbaycanlı əhalisindən 1920-ci ilin noyabrında 10000 nəfər qalmışdır [18, c.167]. 1908-1920-ci illər ərzində Ermənistanda 1000-ə yaxın azərbaycanlı kəndi dağıdılmış [2, s.25], əhalisi soyqırımına mə'ruz qalmış, qaçqına çevrilmişdir. Ümumiyyətlə, Qərbi Azərbaycanda türklərin sayı 84 faiz azaldılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bütün sərhədyanı bölgələrinə hücuma keçib dinc əhaliyə qarşı qanlı qırğınlar törətməklə kifayətlənməyən Erməni daşnak hökuməti böyük siyasi oyunlarda fəal çıxış edərək özlərinin əməllərini və planlarını qanuniləşdirmək, "Böyük Ermənistan" dövlətini reallaşdırmağa çalışmışdılar. Bu məqsədlə Transqafqazda siyasi maraqları toqquşan dövlətlərdən istifadə etmişdilər.

Belə ki, I Dünya Müharibəsinin yekunlarına həsr olunmuş konfranslarda Böyük Dövlətlər Qafqazda cərəyan edən hadisələri müzakirə etmişdilər. Onlar Qafqazı nüfuz dairələrinə salmağa çalışmış, Rusiya və Türkiyəni bu ərazilərdən sıxışdıraraq yerli ictimai siyasi şəraitdən istifadə etməyə çalışmışdılar. Belə ki, Paris sülh konfransında Yaxın Şərqə dair maraqlar konkretləşdirildi. Paris sülh konfransında ermənilər Antanta ilə «çiyin-çiyinə» vuruşan müttəfiq kimi baxılmasını tələb edərək «Böyük Ermənistan» dövlətinin lahiyəsini iştirakçılara təqdim etmişdi [7, s.83], Böyük dövlətlər üçün "erməni məsələsi"nin təkcə Türkiyəyə qarşı təzyiq vasitəsi kimi deyil, eyni zamanda Qafqazda Sovet Rusiyası əleyhinə dayaq kimi daha böyük siyasi əhəmiyyət kəsb etmişdir. Onlar məqsədlərinə uyğun olaraq Qafqazda erməni münaqişə ocağını açıq, həll etməmiş saxlamışdılar. Belə ki, bir müddət İngiltərə mandatlığı (İngiltərənin Yaxın Şərqdəki mövqelərini möhkəmləndirən 1919-cu ildə İranla müqavilə bağlanması, İstanbulun işğal edilməsi, fransızları isə Kilikiyadan Türk qoşunları tərəfindən tamamilə qovulması onların "erməni məsələsi"nə marağını azaltmışdı) [1, s.24-25] altında olan ermənilər [13, s.118], 1919-cu ilin yayından ABŞ mandatlığına verilmişdi və prezident V.Vilsonun Ermənistan üzərində ABŞ mandatlığının tətbiq edilməsi haqqında təklifi 1920-ci il 1 iyunda senat tərəfindən rədd edilmişdi [11, s.210], o mandatı ki, ermənilər nə qədər böyük ümidlər bəsləmişdilər. "Erməni məsələsi" bir sıra mö'təbər konfrans və iclaslarda (müəyyən məqsəd daşıyan təzyiq vasitəsi kimi) müzakirə olunmuşdu. Lakin, Böyük Dövlətlər tərəfindən erməni məsələsinin həll ediləcəyinə təntənəli şəkildə verilən vədlər kağız üzərində qalmışdı. Britaniya, Fransa, İtaliya və ABŞ onu tumarlayır, yalnız asta-asta başlarını yırğalayırdılar. 1920-ci ilin 12 martında Ali Şura bu mandatı Millətlər Cəmiyyətinə təklif etmişdir. Lakin Millətlər Cəmiyyət ağıllı hərəkət edərək ondan imtina etmişdir [6, s.350]. Beləliklə, Azərbaycanın tarixi torpaqları hesabına yaranan Ermənistan respublikasının "Böyük Ermənistan" dövlətinə çevrilməsi planı baş tutmamış və böyük dövlətlər tərəfindən həll edilməmiş kağız üzərində qalmışdı. Müttəfiqlərin qələbəsi və Qafqaza gəlişi ilə "cəfakeş erməni xalqının" vəziyyətinin yaxşılaşacağı ümidinin, heyrət, şübhə və təəssüf hisləri ilə əvəz olunması, Aprel işğalı ərəfəsində onların fəaliyyət istiqamətini dəyişmişdi. Qərb dövlətləri tərəfindən atılan "cəfakeş ermənilər" öz arzularına çatmaq yolunu yenidən Rusiyada axtarmışdılar. Daşnak hökumətinin başçısı Ov.Kaçaznuni yazmışdı ki, biz öz sərhədlərimizin genişləndirilməsi məsələsini yalnız Rusiyaya arxalanaraq həll edə bilərik [17, c.77]. Aprel işğalı ərəfəsində Azərbaycan Ermənistanla müharibə şəraitində idi və bütün sərhəd boyu Azərbaycan silahlı qüvvələrinə və dinc əhaliyə qarşı qanlı döyüşlər gedirdi. Bir gün belə gecikdirilmədən Azərbaycan 1920-ci il 27 apreldə işğal olunmuşdu. T.Svyatoxovski yazır: "Sovet Rusiyası üçün Gürcüstan və Ermənistanın birləşdirilməsinin böyük bir əhəmiyyəti yoxdur, fəqət Bakı Sovet Rusiyasının vuran qan damarıdır" [15, s.258]. İşğalın həyati zəruriliyi haqqında Lenin - Bakını almaq bizə olduqca və olduqca vacibdir [6, s.335], çünki Bakı neftindən bütün Rus sənayesi qidalanır – demişdi [9, s.34]. İşğaldan sonra Azərbaycanda ictimai siyasi quruluş dəyişdirildi, lakin ona qarşı siyasət dəyişmədi. Ü.Hacıbəyli yazırdı ki, Azərbaycanı əvvəl rus

çarizmi, sonra isə rus bolşevizmi əzirdi [9, s.18]. Bolşevik Rusiyasının siyasəti çar Rusiyasının siyasəti ilə mahiyyətcə eyni (imperiya), yalnız formaca başqa idi. Azərbaycandan fərqli olaraq Sovet Rusiyası Ermənistana silahlı müdaxilə haqqında qərar verməkdə tələsməmişdir. O, Ermənistanla Türkiyəni vuruşdurub, zəif Ermənistanda məqsədinə nail olmağa çalışmışdı. 1920-ci ilin payızında Ermənistan Türkiyə tərəfindən tamamilə məhv olmaq təhlükəsi ilə üzləşmişdir. Belə bir təhlükəli şəraitdə tarixi himayəçisi ruslar, Ermənistanda 1920-ci il 29 noyabrda sovet hakimiyyətinin qurulduğunu e'lan etmişdir. Ermənistanda siyasi quruluş dəyişsə də, ermənilər yenə də düşmənçiliklərində və əsassız ərazi iddialarında qalmaqda davam edirdilər. Belə ki, erməni bolşeviklərinin çoxu kommunizm maskası geymişdilər. Əgər maska düşərsə, erməni kommunisti daşnakdır və "Böyük Ermənistan" arzulayır. Ov.Kaçaznuni bu haqda yazmışdı: "Daşnaksütun yerini bolşeviklərə verir. Onlar da indiki şəraitdə həmin işi davam etdirə bilərlər və artıq bunu edirlər" [17, s.76-89].

Ermənistanın sovetləşməsinə töhfə olaraq Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi haqqında: AK (b) PMK Siyasi və Təşkilat bürosunun 30 noyabr 1920-ci il tarixli qərarı 100 minlərlə qanı axan həmvətənlərimizə, tarixi torpaqlarından qovularaq qaçqına çevirilən soydaşlarımıza qarşı ədalətsizlik, cinayət, millətçi daşnakların isə tarixi arzularını reallaşdırmaq idi. Sonralar ən yaxşı yoldaşları - kommunist -daşnaklara Zəngəzur, Göyçə, Dərələyəz, Dilican, Vedibasar, Qaraqoyunlu mahallarının böyük bir hissəsini bağışlayaraq onun ərazisini 29,8 min km^2-ə çatdırmış və xalqımızın sonrakı taleyinin hökmünü vermişdilər. İctimai siyasi quruluşdan asılı olmayaraq ermənilər Qafqazda planlarına nail olurdular. Belə ki, şirniklənən ermənilər, tarixi himayəçilərinə arxlanaraq Qarabağ və Naxçıvan ərazilərinə iddialarından əl çəkməmişdilər. 1921-ci il iyulun 4-də Dağlıq Qarabağın Ermənistana qatılması haqqında RK (b) RMK-nın Qafbüroda qərar qəbul edilmişdi. N.Nərimanovun ədalətsiz qərara etirazı, məsələyə yenidən baxılmasına səbəb olmuşdur. Tarixi torpağımız Qarabağı Azərbaycanla bağlayan iqtisadi şəraitə görə Azərbaycana birləşdirilsin şərti adı altında 1923-cü il iyulun 7-də DQMV-in yaradılması haqqında dekret verilmişdi [11, s.220-222]. Lakin həmin dövrdə Ermənistanda yaşayan azərbaycanlıların (1917-21-ci illər ərzində etnik təmizləmə siyasətinin nəticəsində 10 min azərbaycanlı qalmış, lakin sovetləşmədən sonra yurd həsrəti qaçqınların torpaqlarına qayıtmasına səbəb olmuş və onların sayı 77767 nəfər, 1931-ci ildə isə 105838 nəfər çatmışdır) [12, s.46] taleyi heç kimi düşündürməmişdi. Onlara nəinki muxtariyyət hüququ tələb olunmuş, hətta onlar tarixi etnik torpaqlarından "dinc yolla" soyqırım, deportasiya siyasətinə məruz qalmışdılar.

Ermənistan sovetləşəndən sonra ermənlərin "Böyük Ermənistan" yaratmaq və erməni məsələsini (1923-cü ildən dünyaya erməni hərəkatı beynəlxalq terror hərəkatına çevrilmiş və erməni terror hərəkatının II mərhələsi başlamışdı) [16, p.7] tarixin arxivinə çevrildiyini zənn edənlər yanılmışdılar. Ermənistanda hakimiyyətdə kimlərin olması və hansı siyasi əqidəyə qulluq etmələrinə baxmayaraq onlar erməni olmuş, yaranmış əlverişli şəraitdə məqsədləri uğrunda mübarizə aparmışdılar. Tarixi şəraitdə uyğun olaraq ermənilər "Böyük Ermənistan" dövləti və onun "etnik təmizləmə" mərhələsini "beynəlmiləlçilik" pərdəsi altında aparmışdılar.

Sonrakı tarixi dövrlərdə başımıza gələn qanlı fəlakətlər ermənilərin kimliyini unudaraq sadəlövhcəsinə onlarla mehriban qonşu kimi yaşamağa başlamağımız olmuşdur. Lakin erməni ermənilliyini unutmamış, heç vaxt da unutmayacaq. Xalqımız hər şəhərdə kənddə "Şəhidlər Xiyabanı" kimi müqəddəs and yeri saldıran erməni niyyətini, erməni məkrini unutmamalıdır. Gələcək nəsillərimizin başına daha ağır fəlakətlərin gəlməməsi naminə!

ƏDƏBİYYAT

1. Arşiv belgelerine göre Kafkazlarda ve Anadoluda ermeni mezalimi. I. c. (1906-1918). T.C.Başbakanlı Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, Yayın № 23, Ankara, 1995, 698 s.
2. Azərbaycanlıların Qərbi Azərbaycandan indi Ermənistan adlandırılan ərazidəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransın materialları. Bakı, ADPU, 1998, 220 s.
3. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. - Bakı. 1998. 26 mart. http://www.e-qanun.az/framework/4684
4. Budaqov. B., Qeybullayev. Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, Oğuz-Eli, 1998, 452 s.
5. Deportasiya: azərbaycanlıların Ermənistan ərazilərindəki tarixi etnik torpaqlarından deportasiyası. Bakı, Azərbaycan Ensiklopediyası, NPB, 1998, 440 s.
6. Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı, Azərnəşr, 1993, 362 s.
7. Həsənov C. Ağ ləkələrin qara kölgəsində. Bakı, Gənclik, 1991, 200 s.

8. İsayev V. Haradan gəlir bu köç. Bakı, Azərnəşr, 1995, 166 s.
9. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, Mütərcim, 1997, 184 s.
10. Kolarz Walter. Russia and her colonia, London. 1953, 688 p.
11. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (1920-1922-ci illər). Bakı, Qanun, 1998, 360 s.
12. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, Azərbaycan, 1992, 71 s.
13. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1920-ci illər). Bakı, Bakı Universiteti, 1996, 385 s.
14. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. Bakı, Elm, 1990, 116 s.
15. Swietochowski Tadeusz. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı : 1905-1920. İstanbul, Bağlam yayıncılık, 1988, 296 s.
16. The Armenian murders in our century. Ankara, Anadolu basin birliği genel merkezi, 1986, 35 p.
17. Качазнуни Ованес. Дашнаксутюн больше нечего делать. Баку, Элм, 1990, 89 с.
18. Коркодян З. Население Советской Армении 1831-1931. Йереван, 1932, 344 с.

SUMMARY

THE THIRD DEPORTATION OF AZERBAIJANI TURKS FROM THE HISTORICAL LANDS CALLED PRESENT-DAY ARMENIA

Maharramova S. S.

The article discusses the essence of the policy of bloody massacre and deportation carried out by Dashnak Armenian nationalists against Azerbaijani Turks, taking advantage of the socio-political situation in the early twentieth century.

Keywords: *ethnic cleansing, socio-political conditions, use, massacre, bitter fate*

РЕЗЮМЕ

ТРЕТЬЯ ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНСКИХ ТЮРКОВ С ИСТОРИЧЕСКИХ ЗЕМЕЛЬ, ИМЕНУЕМЫХ СОВРЕМЕННОЙ АРМЕНИЕЙ

Магеррамова С.С.

В статье рассматривается сущность политики кровавой расправы и депортации, проводимой дашнакскими армянскими националистами против азербайджанских тюрков, используя общественно-политическую ситуацию в начале XX века.

Ключевые слова: *этническая чистка, общественно-политические условия, применение, расправа, горькая участь.*

1920-Cİ İL QARABAĞ ÜSYANI

Məmmədov Ə.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
mammadovanvar1969@mail.ru

Açar sözlər*: Azərbaycan SSR, Qarabağ, bolşevik Rusiyası, Milli ordu, XI Ordu, erməni təxribatları, üsyan.*

Azərbaycanın XI Qırmızı Ordu tərəfindən işğalının ilk günlərindən əsgərlərin özbaşınalığı, başqalarına dərs vermək üçün əhalinin gözü qarşısında nümayişkaranə şəkildə günahsız insanları güllələməsi, rekvizisiyalardan, ərzaq və mallarının zorla müsadirəsindən, Qızıl Ordu komandanlığının, onun Xüsusi Şöbəsinin nümayəndələrinin özbaşınalığından hiddətlənmiş xalqın ciddi narazılığına səbəb olur. Kütləvi həbs və repressiyalarla müşayət olunan işğala qarşı çevrilmiş xalqın qəzəb dalğası Azərbaycanın müxtəlif bölgələrində sovet tarixşünaslığında “bəy”, “xan”, “molla” iğtişaşları kimi adlarla damğalanaraq üstündən sükutla keçilmiş kütləvi xalq hərəkatlarına səbəb olur. Bu barədə M.Ə.Rəsulzadə yazırdı: ”İşğaldan bir ay

sonra Azərbaycan dəhşətli işğala məruz qaldığını başa düşdü...xalq dözmədi və üsyan etdi" [10, s. 163]. Sovet tarix elmi bu məsələlərin üstündən sükutla keçsə də, işğalın ilk aylarında bütün Azərbaycanı antisovet üsyanları bürüdüyünü sənədlərin yaddaşından silmək mümkün olmadı.

Bütün bunları əvvəlcədən görən demokratik ziyalılar hələ sovet hakimiyyətinin ilk günlərində yazırdılar: "Öz istiqlaliyyəti naminə qurbanlar vermiş, qazandığı azadlığı iki il ərzində var qüvvəsi ilə qoruyan və əziz bilən Azərbaycan xalqı ona zorakı yolla qəbul etdirilən yeni qayda-qanunla barışa bilməz" [4, s. 23]. Gəncə və Qarabağ üsyanlarının iştirakçısı olmuş, onların məğlubiyyətindən sonra həbs olunmuş, beləliklə də onun özünün dediyi kimi, sovet cəza sisteminin bütün vəhşiliklərini görən, ilk fürsətdə sonradan xidmət etdiyi Sovetlər Birliyindən qaçmağa müvəffəq olan Əsgərov-Kəngərlinski bolşevik işğalını Azərbaycanın faciəsi adlandırmış, işğalın ilk illərində xalqımızın üzləşdiyi müsibət və fəlakətlərin geniş tablosunu cızmışdı.

Sovet hakimiyyətinin ilk aylarından Azərbaycanın bir çox bölgələrini üsyan dalğası bürüyür. Bəhz olunan dönəmdə belə üsyan mərkəzlərindən biri də Gəncə, Zaqatala, Nuxa, Quba, Xaçmaz və digər bölgələrlə yanaşı Qarabağ idi.

Qarabağ üsyanı mayın 21-23-də baş vermiş Tərtər hadisələri ilə başlayır. Belə ki, mayın 21-də yerli əhalidən təşkil olunmuş dəstələrin Tərtərdəki sovet bölmələri və bölgəni tərk edən Qırmızı Ordu alayı üzərinə etdiyi hücum Tərtərdə həyəcanlara səbəb olur. Qızıl Ordunun 32-ci diviziyasının Tərtərdə yerləşmiş 282-ci piyada alayı mayın 21-də şəhəri tərk edərkən zorla buradakı Azərbaycan Milli Ordusunun 3-cü süvari Şəki alayına məxsus atları da aparmaq cəhdi qarşıdurmaya səbəb olur [7]. Baş vermiş döyüşdə Qırmızı Ordu hissələri 80 nəfər itki verərək geri çəkilməyə məcbur olur. Bu döyüşdə onların komandiri də öldürülür [2, v. 29 arxa].

Üsyanın genişlənməsinin qarşısını almaq məqsədilə Azərbaycan İnqilab Komitəsi tərəfindən D.Bünyadzadə və Ç.İldırım bölgəyə göndərilir. Bura əlavə hərbi qüvvələrin yeridilməsindən sonra Tərtər-Bərdə bölgəsindəki həyəcanların genişlənməsinin qarşısı qısa müddətə də olsa alınır [3, v. 16-16 arxa].

Bölgədəki müvəqqəti sabitlik Qarabağ üsyanının başlanmasıyla yenidən pozulur. Beləki, Gəncədəki üsyan xəbəri alınan kimi Cəbrayıl ətrafında milli qüvvələrin toplantısı keçirilir və mayın 29-dan 30-a keçən gecə üsyana başlamaq qərara alınır. Gəncə üsyanının gedişatı ilə bağlı məlumat almaq məqsədilə kiçik dəstə ilə Bərdədən Yevlaxa doğru hərəkət edən Ehsan Xan Naxçıvanski XI Ordu hissələri tərəfindən yolda yaxalanaraq güllələnir [6, s. 111]. Qarabağ üsyanı ilə bağlı tarixə düşmüş "32-lər dastanı" adlı hadisə də həmin vaxtı baş verir. Belə ki, bu qeyri-bərabər mücadilənin şahidlərindən birinin yazdığına görə mayın 26-da Yevlaxdakı qırmızı hissənin komandanlığı tərəfindən Gəncəyə doğru hərəkət etmək əmri almış 3-cü süvari Şəki alayının bir divizionu Tərtər çayının daşması səbəbindən əsas hissələrdən ayrılaraq Bərdəyə doğru hərəkətə başlayır. Gəncədə başlanmış üsyandan xəbərsiz hərəkət edən bu divizion yalnız Bərdə ətrafına çatdıqda baş verənlərdən agah olur. Şəki alayının tərksilah olunmasının qərara alındığını anlayan alayın əsgər və zabitləri qirmızı hissələr tərəfindən mühasirəyə alınmış Gəncə üsyançılarının köməyinə də gedə bilməyəcəklərini düşündüyündən təslim olmamaq üçün evlərinə dağılışmağı qərara alırlar. Yalnız əsgərlərdən 28 nəfər və 4 zabit alaya məxsus ləvazimatı təslim etməmək məqsədilə sona qədər mübarizə aparmağı qərara alır [7].

İyunun 3-dən 4-nə keçən gecə general Nuru paşa silahdaşları polkovnik Zeynalov, polkovnik Səfiyev və sabiq pristav Qalabəyovla birlikdə çoxsaylı üsyançı dəstə ilə Şuşaya gələrək yerli İnqilab Komitəsi üzvlərini həbs edib özünü "Qarabağ hakimi" elan etdi. İyunun 5-də Qarabağda sovet hakimiyyətinin devrildiyi elan olunur, polkovnik Zeynalov Qarabağın Milli Hərbi Qüvvələrinin komandanı təyin olunur. Tərtər çayına qədərki ərazilər üsyançılar tərəfindən tutulur və qırmızı qüvvələr çayın sol sahilinə sıxışdırılır. İyunun 5-də isə Qarabağ İnqilab Komitəsinin həbs olunmuş üzvlərindən 4-ü, B.Vəlibəyov, Q.İbrahimov, H.Hacıyev və S.Nuri güllələnməyə məhkum olunurlar [8, s. 113]. Bu arada həmin vaxtı artıq qırmızı hissələr tərəfindən yatırılmış Gəncə üsyanının iştirakçılarının bir hissəsi Cahangirbəy Kazımbəy başda olmaqla Bərdə istiqamətinə, oradan da Qarabağın içərilərinə doğru irəliləyərək Nuru paşanın hərbi birləşmələrinə qoşulur [4, s. 42].

Üsyanın genişlənməsindən ciddi narahat olan Azərbaycan Kommunist bolşeviklər Partiyasının Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsi tərəfindən Ç.İldırım və D.Bünyadzadənin başçılığı ilə 20-25 nəfər partiya işçisi Qarabağa göndərilir. Yevlaxda XI Ordu komandanı M.K.Levandovski, 18-ci süvari diviziyanın komandiri P.V.Kurişko, bu diviziyanın hərbi komissarı İ.A.Sviridov və digər hərbi hissə komandirləri, eləcə də Azərbaycan bolşeviklərindən Ç.İldırım, D.Bünyadzadə, C.Vəzirov və başqalarının iştirakı ilə XI Ordunun Hərbi İnqilab Şurası Səhra Qərargahının müşavirəsi keçirildi. Müşavirədə Qarabağ üsyanının yatırılması üçün plan hazırlanır. Bu plana görə Ç.İldırım və D.Bünyadzadə azərbaycanlı kommunistlərdən təşkil olunmuş dəstə ilə cəbhəni gizlicə keçərək üsyançıların nəzarətində olan kəndlərdə vərəqələr yaymalı, əhali arasında sovet hakimiyyətinin lehinə təbliğat aparmalı idi [5, s. 88-89]. Bununla

bərabər XI Qırmızı Ordunun komandanı M.K.Levandovskinin göstərişi ilə 32 və 20-ci atıcı diviziyalar, həmçinin 2-ci atlı korpusu Qarabağ üsyanının yatırılması üçün gətirilir [13, s. 282].

1920-ci il iyunun 9-da XI Ordu komandanlığı tərəfindən üsyanın yatırılması məqsədilə verilmiş xüsusi əmrə görə 32-ci diviziyanın sərəncamına verilməklə 20-ci atıcı diviziyanın bir briqadası, zirehli avtomobillər və müsəlman fəhlə dəstəsinin iştirakıyla genişmiqyaslı hücumun həyata keçirilməsi nəzərdə tutulmuşdu. Bu məqsədlə 18-ci süvari diviziya da bura yeridilmişdi. Bundan əlavə qırmızı hissələri hücum zamanı hərbi təyyarələr müşayiət etməli idilər. Üsyançı qüvvələr də həlledici döyüşə hazırlaşırdı. Polkovnik Səfiyevin komandanlıq etdiyi 1-ci tatar süvari alayı, Cavanşir piyada alayının bölmələri, top divizionu və digər bölmələr Tərtərçayın sol sahilində müdafiə mövqeyi tutur [1, s. 130].

Qırmızı hissələrin genişmiqyaslı hücumu iyunun 10-da başlayır. Arxada təhlükəsizliyin təmin edilməsi məqsədilə Sarov kəndində Krivonosovun komandanlığı ilə 94-cü atıcı briqada mövqe tutur. Şəmkir stansiyasındakı Azərbaycan milli qüvvələrinin istənilən an baş verə biləcək hücumu Qırmızı Ordu komandanlığını bu cür ehtiyat tədbirlərini görməyə vadar etmişdi. Krivonosovun briqadasına XI Ordu rəhbərliyi tərəfindən Qızılhacılı, Borsunlu, Cəmilli və Seydimli kəndlərində keşikçi dəstələr yerləşdirmək, atlı kəşfiyyatçıların köməkliyi ilə irəlidəki məntəqələri yoxlamaq tapşırılmışdı [12, s. 302]. Hindarx yaxınlığındakı döyüşdə Zeynalovun rəhbərlik etdiyi üsyançı dəstə məğlub olaraq geri çəkilmək məcburiyyətində qalır. Bu zaman qırmızı hissələr tərəfindən ələ keçirilmiş üsyan fəallarından Cəmşid, Adil bəy və Xanlar bəy Sarıcalinski güllələnirlər [6, s. 112].

İyunun 11-də Tərtər və Bərdə qırmızı hissələr tərəfindən tutulur. Tərtər çayına qədərki əraziləri tərk etməyə məcbur olan üsyançılar Ağdamda cəmləşirlər. Burada Nuru paşanın başçılığı ilə 4 minə qədər üsyançı toplaşmışdı. Ağdamın tutulmasıyla Şuşaya yol açılır. Şuşaya hücumla bağlı XI Ordu komandanı Levandovski və XI Ordunun Hərbi İnqilab Şurasının üzvü Y.Vesnik tərəfindən imzalanmış 64 nömrəli əmrdə deyilirdi: "Qarabağdakı üsyanın tamamilə yatırılması və bu bölgənin əldə saxlanması üçün əmr edirəm: 32-ci diviziyanın komandiri Şteyger Goran-Borsunlu-Yuxarı və Aşağı Çaylı-Mardaqir-Ağdam-Yusucaoğlu məntəqələrindəki ayrı-ayrı zastavaları tutmaqla Qarabağın dağlıq hissəsindən bu istiqamətə gedən bütün yolları bağlasın. Bununla da Ağdam-Sarov-Tərtər-Qərvənd rayonlarını nəzarətdə saxlasın. Əsgəran, Xankəndi və Şuşanın tutulması üçün artilleriya və zirehli maşınlarla təchiz olunmuş dəstələr ayıraraq sürətli hücumla bu məntəqələri ələ keçirib orada alay yerləşdirsin" [11, s. 57]. Həmin gün axşama yaxın Xankəndi və Əsgəran qırmızı hissələr tərəfindən tutulur. Həbs olunmuş bolşeviklər azad olunur. Bu barədə iyunun 13-də teleqramla Leninə xəbər verən Q.K.Orconikidze yazırdı: "Qarabağda qiyam yatırılmışdır. Qoşqu ləvazimatları və atlarla birlikdə 8 top, 28 pulemyot, döyüş ləvazimatı olan ambarlar, tüfəng və pulemyotlar ələ keçirilmişdir." [5, s. 91]. İyunun 15-də 20 və 32-ci diviziyanın hissələri Şuşanı tuturlar [14, s. 161].

Lakin üsyan hələ tam yatırılmamışdı. Nuru paşa başda olmaqla Qarabağ üsyanının bütün rəhbərləri sərəncamındakı qüvvələrlə Cəbrayıl istiqamətinə geri çəkilmişdilər. Üsyançıların son qalıqlarının da zərərsizləşdirilməsi məqsədilə Levandovski və Vesnik tərəfindən iyunun 15-də 18-ci diviziyanın komandiri İ.P.Orlova verilmiş əmrdə deyilirdi: "Ağdamdan çəkilmiş üsyançılar Arasparlıdan 40 verst cənubda yerləşən Qarabulaqda və Şuşadan 40 verst cənub-şərqdəki Cəbrayıl rayonunda mövqe tutublar. Onların sərəncamında 1-ci Cavanşir alayının 94 və 102 nəfərlik 2 bölüyü, Tatar süvari alayının 250 nəfərlik bir bölüyü, Bakı alayının 1 top, 12 pulemyota malik 300 əsgəri olan hissələr var. Onların arasında Nuru paşa, Qarabağ ordularının keçmiş komandanı Zeynalov, 2-ci Qarabağ atlı alayının komandiri Pirafilov, Cavanşir alayının komandiri Rəfibəyov da var...Zirehli maşın, artilleriya ilə təchiz olunmuş güclü dəstə ilə iyunun 16-da Cəbrayıl və Qarabulağa hücuma keçərək qəfil zərbə ilə üsyançıların qalıqlarını darmadağın edin. Türkiyə və İrana gedən bütün yolları bağlayaraq Nuru paşa, Zeynalov və digərlərini həbs edin" [11, s. 58].

Qırmızı hissələr bu qeyri-mütəşəkkil qüvvələri Qaryagin (Füzuli) istiqamətindən və ermənilərin köməkliyi ilə Gorus tərəfdən mühasirəyə almağa cəhd etsə də, üsyançıların bir hissəsi ermənilər Gorus tərəfdə qaçmağa məcbur edərək Naxçıvana, digər hissəsi isə İran ərazisinə keçə bildi. Əsgərov-Kəngərlinskinin yazdığına görə komanda heyətilə birlikdə sərhəddi keçən 2000 nəfərlik Azərbaycan Ordusunun cəmi 1200-ü Araz çayını, İran Qaradağını keçərək Ordubad və Naxçıvana çata bildi. Bu əsgəri hissələrin qalıqları heç yerdən dəstək görmədikdə Türkiyəyə üz tuturlar [9, s. 82]. Bununla da Qarabağ üsyanı məğlubiyyətlə nəticələnir. Qarabağ üsyanının yatırılmasında N.V.Sokolovun rəhbərlik etdiyi 18-ci alay xüsusilə fərqlənmişdi. Bu "xidmətlərinə görə o, Qırmızı bayraq ordeni ilə təltif olunmuşdu" [6, s. 112].

Həmin vaxtı bir-birinin ardınca baş vermiş Gəncə, Qarabağ və Zaqatala üsyanlarının arasında əlaqənin zəif olması, üsyan başçıları arasında vahid hərəkət barədə razılığın olmaması Qızıl ordu hissələrinə onu ayrı-ayrılıqda yatırmağa imkan verir. Azərbaycanda sovet hakimiyyət orqanlarının özbaşınalıqlarına qarşı qalxmış müqavimət hərəkatına qarşı döyüşən qırmızı hissələrin tərkibində yer almış çoxsaylı erməni

könüllüləri antisovet çıxışların yatırılmasından sonra yerli müsəlman əhaliyə divan tutulmasında xüsusi canfəşanlıq göstərmişdilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.İki cilddə.IIcild.Bakı: Lider nəşriyyatı,2005,472 s.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.27, s.1, iş 705.
3. ARDA, f.27, s.4, iş 20.
4. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm, 1996, 308 s.
5. Katibli M. Çingiz İldırım. Bakı, Azərnəşr, 1964, 118 s.
6. Qasımlı M. Azərbaycan türklərinin milli mücadilə tarixi. 1920-1945, (türk dilində). İstanbul, 2006, 704 s.
7. Məmmədzadə M.B. Otuzikilərin dastanı. "Fəryad" qəzeti, 28 may 1991-ci il.
8. Rəhimov Ə.C. 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1962, 212 s.
9. Аскеров-Кенгерлинский А. Трагедия Азербайджана. Журнал "Хазар", 1990, №3 (4), стр. 68-87.
10. Гулиев Дж.Б. К истории образования Второй республики Азербайджана. Баку, Элм, 1997, 164 с.
11. Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы (1920-1921). Баку, Азернешр, 1989, 196 с.
12. Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье. М., Военное изд.-тво, 1960, 510 с.
13. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку: Издательство АН Азерб. ССР, 1957, 332 с.
14. Траскунов М.Б. Героический боевой путь XI Армии на фронтах гражданской войны (1918-1921 гг.). Тб., 1958, 274 с.

SUMMARY

KARABAKH UPRISING OF 1920

Mammadov A.F.

The article deals with some episodes of the Bolshevik occupation of Azerbaijan in 1920, accompanied by mass arrests and repressions at first, as well as the Karabakh uprising against the arbitrariness of the Red Army command, its Special Department. An analysis of primary sources and historical literature allows us to conclude that the anti-Soviet uprisings in the Azerbaijan SSR at that time posed a serious threat to the establishment of Bolshevik power in the South Caucasus.

Key words: *Azerbaijan SSR, Karabakh, Bolshevik Russia, National Army, XI Army, Armenian provocations, uprising*

РЕЗЮМЕ

КАРАБАХСКОЕ ВОССТАНИЕ 1920 ГОДА

Маммадов А.Ф.

В статье рассматриваются некоторые эпизоды большевистской оккупации Азербайджана в 1920 году, сопровождавшаяся массовыми арестами и репрессиями в первое время, а также Карабахское восстание против произвола командования Красной Армии, ее Особого отдела. Анализ первоисточников и исторической литературы позволяет сделать вывод, что антисоветские восстания в Азербайджанской ССР в указанное время представляли серьезную угрозу утверждению власти большевиков на Южном Кавказе.

Ключевые слова*: Азербайджанская ССР, Карабах, большевистская Россия, Национальная армия, XI армия, армянские провокации, восстание*

HEYDƏR ƏLİYEVİN DAXİLİ VƏ XARİCİ SİYASƏTİNDƏ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN YERİ

Məmmədov N.F., Məmmədov F.F.
Azərbaycan Tibb Universiteti, Bakı, Azərbaycan
fuadmammadov603@gmail.com

Açar sözlər: *İttifaq, çevik, sessiya,cəsarətlilik, xətti*

Sov.İKP-nin "Yenidənqurma siyasətinin baş tutmaması İttifaqın düşdüyü ümumi böhranı günü-gündən dərinləşdirirdi. Belə bir vəziyyətdə SSR-nin dağılmasının qarşısını almaq üçün hakim dairələr milli münaqişələri, antitürk, antiislam siyasətini gücləndirirdilər. Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların soyqırımını törətmək, Azərbaycanı parçalamaq, bu yolla bütün regionda ağalığı saxlamaq siyasəti həyata keçirilirdi. Uzun illər fürsət gözləyən erməni millətçiləri yaranmış vəziyyətdən istifadə edib, bu dəfə də Azərbaycanın hesabına öz torpaqlarını genişləndirmək məqsədi ilə fəaliyyətə başladılar [1].

Ulu öndər Heydər Əliyev bu real təhlükəni uzaq görənliklə hiss edirdi. Naxçıvan MR Ali Məclisində 21.11.90-cı il tarixdə çıxışında o demişdi: "Mənim yaxçı yadımdadır SSRİ Ali Sovetinin sessiyası idi. Mən də hələ SSRİ Ali Sovetinin deputatı idim. Azərbaycan Ali Sovetinin keçmiş sədri Xəlilovla orada görüşdüm. Mən ona dedim ki, siz nə edirsiniz orada? Dağlıq Qarabağ əldən getdi mənim söhbətim 1988-ci il iyulun 18 də olmuşdur." [2].

Heydər Əliyev həm Qarabağın getdiyini, həmdə SSR-nin dağılmaqda olduğunu görürdü. Azərbaycanın yarıtmaz rəhbərliyi, dövlət müstəqilliyinin bərpasından sonra 1991-1993-cü illərin xaosu da buna şərait yaratdı. Nəticədə Azərbaycanın 20% torpaqları ermənilərin işğalı altına düşdü. 1991-ci il sentyabr ayının əvvəllərində qeyri-qanuni bir qrum "Dağlığ Qarabağ Respublikası" yaradılmışdı [3].

Dağlıq Qarabağ probleminin sülh yolu ilə aradan qaldırılması, Azərbaycanın dövlət müstəqilliyyinin və süverenliyinin möhkəmləndirilməsi, ölkənin dünya burliyində layiqli yer tutması Ulu öndır Heydər Əliyevin xalqın təkidlı tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra həyata keçirdiyi məqsədyönlü xarici siyasətin ana xəttini təşkil edirdi. Ulu öndərin çevik diplomatiyası nəticəsində Azərbaycana qarşı ermənilərin zaman-zaman yaratdıqları informasiya blokadası yarıldı, dünyanın bütün demokratik dövlətlərinin və aparıcı ictimai-siyasi təşkilatlarının ölkəmizə onun zorla cəlb olunduğu silahı münaqişəyə münasibətini dəyişdirməyə nail olundu. Aparılan ardıcıl məqsədyönlü siyasətin nəticəsində ilk dəfə ATƏT – in Budapeşt sammitinin Dağlıq Qarabağ və Ermənistan-Azərbaycan münaqişəsi gündəliyə çıxarıldı.

Cəsarətlilik onun xarakterinin əsas əlamətlərindən biri idi. Lissabon zirvə görüşündə yekun sənədə veto qoyacağını bəyan edən Heydər Əliyev beynəlxalq münasibətlər tarixində analogiyası olmayan addım atdı. ATƏT-in sədri Kotti, S.Dəmrəl, V.Çernomırdin, A.Qor və diğər liderlərlə danışıqların sonunda Azərbaycan həqiqətlərinin ATƏT sənədlərində əks olunmasına və onun beynəlxalq aləmdə tanınmasına nail oldu. O gecə Azərbaycan ətrafında yaradılmış infornasiya blokadası yarıldı. ATƏT-ə üzv olan dövlətlərin hamısı başa düşdü ki, Ermənistan təcavüzkar, Azərbaycan təcavüzə məruz qalan dövlətdir. O gecə xeyir şərə qalib gəldi. Bu gün AŞ-da və digər Beynalxalq qrumlarda qazandığımız uğurların bünövrəsi o gecə qoyuldu. Çox təsssüf ki, bu nəhəng addım nəinki cəmiyyət, heç mütəxəssislər tərəfindən axıra qədər dərk edilməyibdir. Lissabon sammitindən sonra siyasi hadisələrin və proseslərin Azərbaycanın ziyanına işləməsi dayandı [4].

Lissabon Sammittində aparıcı dövlətlərin dəstəyinə nail olması, Avropa ilə Asiyanı birləşdirən Böyük İpək yolunu bərpasına xidmət edən regional iqtisadi layihənin icrasına başlanılması-bütün bunlar böyük Heydər Əliyev şəxsiyyətinin qaydışı ilə başlayan tarixi uğurların bir hissəsidir. Lissabon Sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafeylərini əks etdirən prinsipləri dəstəklədi.

Heydər Əliyev diplomadiyasının nəticəsidir ki, ABŞ və Avropanın bir sıra nüfuzlu dövlətləri Dağlıq Qarabağ probleminin həll edilməsinə diqqəti artırdı, bununla onlar Azərbaycanın iqtisadi və siyasi partnyoru olmaqda maraqlı olduqlarını biruzə verdilər.

Ulu Öndərin ordu quruculuğu siyasəti öz bəhrəsini verdi. Belə ki, 1994-cü ilin yanvar-fevral aylarında ordumuz öz Ali Baş Komandanınn rəhbərliyi altında Erməni-Rus hərbi qüvvəlləri ilə ölüm-dirim savaşına girərək, son bir il ərzində ilk dəfə olaraq düşmənin hucumunu dayandırdı [5]. Bu hələ qələbə deyildi, zamana ehtiyac var idi. 1994-cü ilin 12 mayında elan olunmuş atəşkəs böyük hərbi-siyasi əhəmiyyət daşıyan tarixi hadisə idi [6.7].

Hələ 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına qoşulan Azərbaycan Respublikası Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada, sülhün əmin-amanlığın bərqərar olunmasına xidmət edən "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qəbul olundu. Həmin il mayın 4-də Prezident Heydər Əliyev bu proqramın Çərçivə sənədini imzaladı. NATO-nun Avropa-Atlantika Tərəfdaşlıq Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci il iyul ayında keçirilən Madrid zirvə toplantısının qəbul etdiyi sənədlərdə NATO-nun Tərəfdaş Dövlətlərinin müstəqilliyinin, suverenyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına təminat verdiyi, dövlətlərin bir-birinə qarşı güc işlətməmək, hədə qorxu gəlmək hüququna malik olmadığı bildirildi. Bunlar Azərbaycanın haqq işinin müdafiəsi sayəsində böyük əhəmiyyətə malik idi. Ulu Öndər BMT tribunalarından dəfələrlə çıxışlar edərək Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etdi [8, 10].

Millət vəkili İlham Əliyevin başçılığı ilə AŞ-nın yığıncaqlarında iştirak edən Azərbaycan nümayəndə heyyəti xüsusi fəallıq göstərdilər. Bu təşkilatda iştirakdan məqsəd Ermənistanın təcavüskar kimi tanınmasına nail olmaq və onu işğal etdiyi əraziləri qaytarmağa məcbur etmək idi.

Prezident Heydər Əliyevin diplomatik uğurları onun ikinci dəfə hakimiyyətə gəlişindən sonra dünyanın aparıcı dövlətlərinə səfərləri və həmin dövlətlərin başçıları ilə danışıqlarda özünü daha çox biruzə verdi. O, Fransanın prezidenti Fransua Mitteran, böyük Britaniyanın baş naziri Con Meysorla görüşlərində Qarabağ konfliktinin xarakterini izah edərək, bu diyarın Azərbaycanın əzəli ərazisinin ayrılmaz hissəsi olduğunu faktlarla inandıra bilmişdir. Onun dipomatik isdedadı ABŞ səfəri, BMT tribunalarında çıxışları zamanı hamını heyrətləndirmişdi. ABŞ ın Azərbaycanın dövlətçiliyi, müstəqilliyi və təhlükəsizliyi üçün nə qədər müstəsna yol oynaya biləyəcəyini yalnız Heydər Əliyevin uzaqgörən zəkası dipıomatik intelekti dərk edə bilmişdi [1]. Vətəninin və xalqının ağrılarını dərindən yaşayan Heydər Əliyev belə bir informasiya blokadası şəraitində ABŞ səfərinə Dağlıq Qarabağ probleminin qondarma, sovet siyasi gercəkliyinin dağılması üçün istifadə olunan problem olduğu, Ermənistan-Azərbaycan konfliktinin süni olaraq yaradılmasının kökləri barədə geniş məlumat vermişdi [10]. Daha önəmli cəhəd budur ki, bu Heydər Əliyevin Beynalxalq ünsiyyət təşəbbüsü gələcəkdə Amerika-Azərbaycan diplomatik əlaqələrinin sağlam düşüncə baxımından genişlənməsi üçün yeni təsirli təkan oldu.

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ta əvvəldən mümkün qan tökülmədən, qırğın və dağıntılara yol vermədən, dinc vasitələrlə həll etmək xətti götürdü. Bütün ölkələrin başçıları ilə görüşlərində Heydər Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi qaldırdığı əsas məsələ olmuşdu. O, 1993-2000-ci illərdə bu məsələni ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya rəhbərliyi ilə 28, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirə etmiş, problemin həlli yollarını araşdırmışdı. Bütün bu fəaliyyətin nəticəsi olaraq dünya ictimaiyyəti Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyətini anlaya bildi." [8, 9].

Təssüflə qeyd edilməlidir ki, beynəlxalq təşkilatların ikili siyasət yeritməsini ulu öndər yaxşı görür və hiss edirdi. Onların "reallıqla razılaşmaq lazımdı" [10] tövsiyyəsini qəbul etməyən Heydər Əliyev jurnalistlərlə görüşündə uzaqgörənliklə "müharibə variantı"nın istisna olmadığını bildirmişdi [1]. Ulu öndərin bu uzaq görənliyi özünü döğrultdu. Onun siyasi kursunu davam etdirən Azərbaycan Rüspublikasının Prezidenti İlham Əliyev də 17 il bu danışıqları davam etdirdisə də son nəticədə müharibə variantı gündəmə gəldi. Nəhayət 44 günlük Vətən müharibəsi ilə müzəffər Prezidentimiz Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərlyi altında müzəffər ordumuz erməni işğalı altında olan torpağlarımızı azad etdi. Bununla da ulu öndərin vəsiyyəti yerinə yetirilmiş oldu.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, VII cilddən, 7-cild, Bakı, "Elm" ,2008, s. 246-247, 334-336, 348
2. Azərbaycan" qəzeti 12 may 1994-cü il
3. Əliyev H. Müstəqillik yollarında. I ci cild, Bakı, Azərnəşr, 1997, s. 478
4. Ələskərov Ş Heydər Əliyev fenomeni haqqında düşüncələr. /Heydər Əliyev Müstəqil Azərbaycan Dövlətinin qurucusu. Bakı, Azərnəşr, 2003, s. 83, 89
5. "Həyat qəzəti, 25 senyabr 1991-ci il
6. Qayıdış. 1990-1993.Səmədlər toplusu. Bakı, 1996, s. 84
7. Quliyev M. tarixi yaradan dahi /Heydər Əliyev Müstəqil Azərbaycan Dövlətinin qurucusu. S. 177
8. TİEA, f. 1, s. 19, i. 8953, v. 133, 136
9. Томас де БААН. Черныйсад. Армения и Азербайджан между миром и войной. М., «Токсан», 2005, 362-363
10. "Yeni müsavat" qəzeti, 31 may 2001-ci il

SUMMARY

THE PLACE OF THE NAGORNO-KARABAKH ARMENIAN-AZERBAIJANI CONFLICT IN THE INSIDE AND FOREIGN POLICY OF HEYDAR ALIYEV.

Fakhraddin Nariman oglu, Mammadov F.F.

With the insistent demand of the people, after the second coming to power of the national leader Heydar Aliyev, a new period began in Azerbaijani diplomacy.

The main place in his foreign policy was occupied by the Armenian-Azerbaijani Nagorno-Karabakh problem.

The information blockade created by the Armenians around Azerbaijan was broken during a visit to foreign heads.

He brought to the attention of the world community the truth about the belonging of the original Azerbaijani lands of Nagorno-Karabakh to Azerbaijan.

He came up with the initiative to solve the problem peacefully from the highest tribunes and at the same time, with political farsightedness, did not rule out the solution of the problem by military means.

Keywords: *Union agility, session, courage, line*

РЕЗЮМЕ

МЕСТО НАГОРНО-КАРАБАХСКОГО АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО КОНФЛИКТА ВОВНУТРЕННЕЙ И ВНЕШНЕЙ ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА

Фахреддин Нариман оглы, Мамедов Ф.Ф.

При настойчивом требовании народа после второго прихода к власти Общенационального лидера Гейдара Алиева начался новый период в азербайджанской дипломатии.

Основное место в его внешней политике занимала армяно-азербайджанская Нагорно-Карабахская проблема.

Информационная блокада, созданная армянами вокруг Азербайджана была прорвана во время визита к главам иностранных.

Он довел до мировой общественности правду о принадлежности исконно азербайджанских земель Нагорного Карабаха Азербайджану.

Он выступил с инициативой решения проблемы мирным путем с самых высоких трибун и в тоже время с политической дальнозоркостью не исключил решение проблемы военным путем. В результате его дальновидность оправдала себя.

Ключевые слова*: Союз, мобильный, сессия, направление, мужественность*

AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏN AZƏRBAYCANLILARIN DEPORTASİYASI (1948-1952-ci illər)

Məmmədov N.R.
Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
Mamedov-n@yahoo.com

Açar sözlər: *Azərbaycan, Qarabağ, deportasiya, siyasət, türk-müsəlmanlar, köçürülmə*

1920-1930-cu illərdə “Böyük Ermənistan” yaratmaq xülyasında olan ermənilər Dağlıq Qarabağı Azərbaycandan qopara bilmədikdə başqa bir “yolu” hədəf seçdilər. Belə ki, Ermənistanda qədimdən yaşayan azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini reallaşdıraraq onları öz ata-baba yurdlarından çıxarmaq və həmin əraziyə dünyanın müxtəlif ölkələrinə səpələnmiş erməniləri köçürmək və beləliklə “Türksüz Ermənistan” yaratmaq planını qərarlaşdırmışdılar. Terrorçu “Daşnaksutyun” partiyası bu zorakılığı özünün əsas məramına çevirmişdi. Qeyd edək ki, hələ 1943-cü ildə yuxarıda adıgedən hədəflə bağlı SSRİ Xarici İşlər Naziri V.Molotova müraciət edilmiş, o isə öz növbəsində İ.V.Stalinlə razılaşmışdı. Zorakı köçürülmə prosesinin reallaşmasında İ.Stalinə yaxın olan Beriya və Mikoyanın da xidmətləri əvəzolunmaz idi. Beləliklə,

1946-cı il oktyabrın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı "Fərman"a imza atdı [3, v.21]. Bundan sonra, 1947-ci ilin iyununda "Daşnaksutyun" partiyasının XIV konqresində "Azərbaycanlıların yaşadıqları Ermənistan SSR ərazisindən çıxarılması və Ermənistan SSR sərhədlərinin genişləndirilməsi haqqında" qərar qəbul etdi. Əvvəlki illərdə olduğu kimi, növbəti vandalizmdə də Qriqorian kilsəsi öz xeyir-duasını əsirgəməmişdir. Bununla da Azərbaycan türklərinin Ermənistan SSR ərazisindəki öz dədə-baba torpaqlarından məcburi şəkildə qovulmasının növbəti üçüncü mərhələsinə start verildi. Yeri gəlmişkən onu da qeyd edək ki, etnik təmizləmənin birinci mərhələsi 1905-1906-cı illərdə, ikinci mərhələ 1918-1920-ci illərdə, üçüncü mərhələ isə 1948-1953-cü illərdə reallaşmışdı. Rəsmi Moskva özünün məxfi niyyətini gecikdirmədi. Belə ki, SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı, 10 mart 1948-ci il tarixli 754 saylı başqa bir qərarında isə konkret "tədbirlər planı" qəbul etdi [4, v.61]. Yuxarıda adıgedən "plan"da 1948-1950-ci illər ərzində "könüllülük prinsipi əsasında" Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi nəzərdə tutulmuşdu. Eyni zamanda, ərazidən deportasiya edilmiş azərbaycanlıların evləri müxtəlif ərazilərdən Ermənistana köçürüləcək ermənilərə bağışlanması da, SSRİ Nazirlər Sovetinin "planı"na daxil edilmişdi. Tədqiqatlardan məlum olur ki, 1948-1953-cü illərdə Ermənistan SSR-də yaşayan Azərbaycanlıların 150 min nəfəri doğma yurdlarından zorla köçürüldü. Bu qəddarlığın adı "könüllü" ifadəsi ilə işlənsə də əslində 150 min azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunaraq etnik təmizləməyə məruz qaldılar. Azəri-türklərinə qarşı etnik təmizləmə tədbirləri Ermənistanın 22 rayonunu əhatə edirdi, hansı ki, həmin rayonlarda azərbaycanlılar yığcam və ya yağı düşmənlə "qonşu" yaşamışdılar. Azərbaycanın Saatlı, Göyçay, Tərtər, İmişli, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Beyləqan, Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına köçürülmüş, minlərlə soydaşlarımız, xüsusilə uşaqlar və qocalar kəskin iqlim dəyişikliyi və ağır məhrumiyyətlərlə üzləşərək həlak olmuşdular.

Bütün bunlarla yanaşı, bəhs etdiyimiz dövrdə Dağlıq Qarabağ rəhbərliyi "daxili köçürmə" adı altında vəziyyətdən istifadə edib burada yaşayan azərbaycanlıları deportasiyaya məruz qoymuşlar. Qeyd edək ki, XX yüzilliyin 40-60-cı illərində Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları, Dağlıq Qarabağda azərbaycanlılara qarşı zorakılıqları, yaranmış əlverişli vəziyyətdən istifadə edərək bölgədə yaşayan azərbaycanlıların deportasiyaya məruz qalması, bu zorakılıqlarda məqsədlər və onun törətdiyi ağır nəticələr mötəbər tarixi mənbələrdə işıqlandırılmışdır [1-9]. Apardığımız təhlillərdən məlum olur ki, Ermənistandan deportasiya olunan Azəri-türklərinin DQMV-də yerləşdirilməsinə, Azərbaycanda köçürmə komissiyasına rəhbərlik edən erməni Brutens və Sevumyan hər vasitəsi ilə maneə olmuşdular. Bütün bunlara baxmayaraq 1948-ci ilin avqustunda Ermənistan SSR-dən DQMV-nin Xocavənd rayonuna 103 təsərrüfat (570 nəfər) köçürülmüşdür. Onlardan 86 təsərrüfat (455 nəfər) Xocavənd rayonunun Qişi kəndində, 17 təsərrüfat isə (115 nəfər) rayonun Xunuşnak kəndində məskunlaşdırılmışdılar [5, v.52]. Ermənistandan köçürülənlərin DQMV-də yerləşdirilməsinə Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin nümayəndəsi Əbdürrəhmanov və DQMV İcraiyyə Komitəsində işləyən Kərimov kömək etsələr də Azərbaycanda yüksək vəzifələr tutan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları köçən azərbaycanlıların DQMV-dən geri qaytarmışdılar [16, s.393]. Eyni zamanda, DQMV-nin erməni rəhbərliyi də, Dağlıq Qarabağa köçürülmüş azərbaycanlıları hər vasitəsi ilə sıxışdırmışlar. Deyilənləri aşağıdakı faktlardan da aydın görmək olar. Belə ki, DQMV-də yaşayan ermənilər mərkəzə böhtan dolu məktub yazaraq, köçüb gələn azərbaycanlıların ərazidə özlərini yaxşı aparmaması, oğurluq etməsi, şuluqluq salması, dövlət siyasəti əleyhinə təbliğat aparması, millətlər arasında münaqişələr törətməsi və sair yalan xəbərlərlə onlara şər atırdılar. Yeri gəlmişkən onu da qeyd edək ki, DQMV-nə köçürülən azərbaycanlılar çox dözülməz şəraitdə həyat sürürdülər. İşıq, qaz, su yox dərəcəsində idi və elə hallar olurdu ki, bir neçə ailə bir daxmada daldalanır, çox hallarda isə mal-qara ilə bir tövlədə yaşayır, yaşadıqları "evlərin" isə tavanı, qapı-pəncərəsi çox yarıtmaz vəziyyətdə olurdu. "Gəlmələr" arasında "xəstəlik" halları aşkar edilirdisə dərhal ərazidən qovulurdular. Təəssüflər olsun ki, Xankəndindən göndərilən və milliyyətcə erməni olan həkim buradakı qaçqınların əksəriyyətində yayıla bilən xəstəliklər "aşkar" edir, təcilli onların ərazidən çıxarılmasına "Arayış" təqdim edirdi. Bundan əlavə, tədqiqatlardan məlum olur ki, dövlət tərəfindən köçürülənlərə ayrılan vəsait vilayət rəhbərliyi tərəfindən tamamilə mənimsənilir, həmin vəsaitin yalnız cüzi bir hissəsi onlara çatırdı. Həmin dövrdə bölgəyə köçürülən azərbaycanlılara təhsil sahəsində də ikili mövqelərdən yanaşmalar aşkar edilmişdir. Apardığımız araşdırmalardan məlum olmuşdur ki, Xocavənd rayon Xalq Maarif şöbəsinin müdiri Ulubabayan "gəlmə" azərbaycanlılara həqarətlə baxır, onların uşaqlarının təhsilə cəlb olunması üçün heç bir tədbir görmür, hətta buna mane olurdu. Təhsil almaq üçün məktəb binası demək olar yox dərəcəsində idi. Sınıx-salxaq "məktəblərdə" isə məktəb ləvazimatları, kitab dəftər və s. çatmırdı. İxtisas müəllimləri yox idi. Təkcə bir faktı qeyd edək ki, Güney-Çartaz kəndində "Azərbaycan dili" dərsi deyən müəlliməni RTŞ-nin müdiri işdən azad etmiş və onun yerinə heç bir ixtisası olmayan, sadəcə olaraq oxuyub yazmağı bacaran özünün yaxını olan şəxsi müəllim təyin etmişdir. Təəssüflər olsun ki, belə faktlar çoxluq təşkil edirdi.

Belə bir vəziyyətdə DQMV-nə köçən soydaşlarımız acınacaqlı vəziyyətdə yaşadıqlarını və təqiblərə məruz qaldıqlarını Respublika Nazirlər Sovetinin sədri İ.K.Abdullayevə ünvanlandıqları məktubda bəyan etmişdilər. Cavab

özünü çox gözlətmədi və Azərbaycan hökumətinin göstərişi ilə 1949-cu ilin mayında Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi N.Allahverdiyev DQMV-də vəziyyətlə tanış olmaq üçün Xankəndinə ezam olunmuşdu. Azərbaycan SSR Köçürmə İdarəsinin rəisi N.Abdullayevin araşdırmalarından məlum olmuşdur ki, doğurdanda Xocavənd rayonuna köçürülmüş azərbaycanlıların vəziyyətləri son dərəcə acınacaqlıdır. N.Abdullayev şahidi olduğu acınacaqlı vəziyyət barədə mərkəzə məlumat vermişdir. N.Abdullayevin məlumatına belə bir əlavə də edilmişdir ki, Xocavənddəki "köçkünlərin" adi məişət şəraiti yoxdur, aclıq və xəstəlik baş alıb gedir, yaxşı olar ki, buradakı məskunlaşan ailələri Ağdərə rayonuna köçürək [2, v.24]. Ümumilikdə Ermənistandan deportasiya olunan azərbaycanlıların Dağlıq Qarabağda məskunlaşdırılması bölgənin rəhbərliyini qane etmirdi. Çünki bu proses ərazidə azərbaycanlıların sayının artmasına səbəb olur və bu hal onların gələcək "Plan"larına mane ola bilərdi. Odur ki, DQMV-nin erməni rəhbərliyi Azərbaycan köçürmə komissiyasının rəhbərlərindən olan ermənilərin [Brutens, Sevumyan və başqalarının] köməyindən istifadə edərək, müxtəlif bəhanələrlə DQMV-nin bütün ərazisində məskunlaşmış "gəlmələri" çıxarıb Yevlax, Kürdəmir, Ucar, Bərdə, Beyləqan rayonlarında yerləşdirmişlər. Bölgədə süni surətdə ermənilərin say çoxluğunu yaratmağa çalışan erməni hakim dairələri Azəri türklərinin öz dədə-baba yurdlarından deportasiyası zamanı bir nəfərdə olsun azərbaycanlını DQMV-nin ərazisinə buraxmamışdılar. Tamamilə bunun əksinə olaraq əvvəlki dövrlərdə olduğu kimi 1948-1950-ci illərdə daxili qarışıqlıqdan istifadə edən Dağlıq Qarabağın erməni rəhbərliyi azərbaycanlıları yaşadıqları qədim Qarabağ ərazisindən çıxarıb köçürməyə nail olmuşdular. Apardığımız təhlillərdən məlum olur ki, təkcə 1949-cu ildə "daxili köçürmə" adı altında Dağlıq Qarabağdan 132 azərbaycanlı ailəsi (549 nəfər) Azərbaycanın aran rayonlarına köçürülmüşdür [1, v.13]. Təəssüflər olsun ki, sonrakı illərdə bu proses "uğurla" davam etdirilmişdir. Belə ki, məqsədli şəkildə DQMV-nin azərbaycanlılar yaşayan kəndlərində heç bir sosial-iqtisadi, mədəni tədbir həyata keçirilməmiş, süni surətdə aclıq, yoxsulluq, işsizlik, qıtlıq yaradılmış və soydaşlarımızı öz tarixi torpaqlarından köçməyə vadar etmişdilər. İstər Ermənistan SSR-dən, istərsə də DQMV-dən azərbaycanlıların zorla köçürülməsi və ya köçməyə məcbur edilməsi prosesi vaxtı xarici dövlətlərdən ermənilər bu ərazilərə gətirilmiş, hər cür şəraitlə təmin edilmiş, boşaldılmış azərbaycanlıların evlərində yerləşdirilmiş və süni surətdə bölgədə ermənilərin say çoxluğunun yaradılmasına nail olmuşdular.

Bütün yuxarıdakı araşdırmaların yekunu olaraq belə qənaətə gəlirik ki, 1948-1953-cü illərdə Qərbi Azərbaycanda və Yuxarı Qarabağda süni surətdə ermənilərin sayı artırıldı və Mərkəzi hökumətin yeritdiyi antiazərbaycan siyasəti nəticəsində istər Ermənistanda, istərsə də DQMV-də qədim Azərbaycan toponimləri ermənilləşdirilməyə, azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə rəvac verildi. Bütün bunlarla yanaşı, Azərbaycanın yeni sənaye mərkəzlərinə – Sumqayıt, Mingəçevir, Daşkəsən və başqa şəhərlərinə xaricdən ermənilər gətirilərək evlə, işlə təmin edildi və istər DQMV-də, istərsə də Bakıda, Gəncədə erməni lobbisi gücləndi. Eyni zamanda, soydaşlarımıza qarşı mənəvi terrora geniş meydan verildi. Qeyd edək ki, 40 ildən sonra, yəni 80-ci illərin sonlarında isə Ermənistanda bir nəfərdə olsun soydaşımız qalmadı. 1991-ci il avqustun 8-də Qərbi Azərbaycandakı sonuncu azərbaycanlı kəndi olan Nüvədi kəndinin boşaldılması ilə azərbaycanlıların dədə-baba torpaqlarından kütləvi şəkildə qovulmasının sonuncu mərhələsi başa çatdı. Bununla yanaşı, Azərbaycanın qədim şəhəri olan Şuşanın 1992-ci il mayın 8-də işğalı ilə Yuxarı Qarabağdan azərbaycanlıların deportasiyası sona yetdi. Təəssüflər olsun 1988-1994-cü illəri əhatə edən Birinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildi və bir milyondan artıq Azərbaycanlı türkü doğma yurdlarından didərginə çevrildi. İşğal altında qalan ərazilərimizdə gözlə görünən nə varsa erməni vandalizminin qurbanına çevrildi.

Onu da qeyd etmək yerinə düşərdi ki, Sovet rejimi şəraitində soydaşlarımızın deportasiyası, adi bir dəyişiklik hesab olunmuş, prosesin əsil mahiyyəti dünya ictimaiyyətindən gizlədilmişdir. Azərbaycan türklərinə qarşı çevrilmiş bu etnik təmizləmə siyasətinə ilk dəfə olaraq siyasi qiyməti Ümummilli liderimiz Heydər Əliyev vermişdir. Ulu öndər Heydər Əliyev 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzaladı [10, s.41]. Çox böyük əhəmiyyətə malik olan bu fərman xalqımızın çoxdankı istəyini ifadə edən tarixi, siyasi və hüquqi sənəd oldu. Həmçinin, həmin sənəd soydaşlarımıza qarşı soyqırımı və deportasiya siyasətinin mürtəce mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından çox böyük əhəmiyyətə malik idi.

Sevindirici hal ondan ibarətdir ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi dövlət başçımızla müzəffər ordumuzun, xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə Azərbaycan silahlı qüvvələrinin qələbəsi ilə sona çatdı. 2020-ci il noyabrın 10-da Ermənistan dövləti Qarabağda atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması haqqında kapitulyasiya aktı imzalamağa məcbur edildi. Azərbaycan xalqı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə işğaldan azad olunmuş torpaqlarımızda partlayıcı maddələrdən təmizləmə, tikinti-quruculuq işlərinin uğurla davam etdirəcəyinə, məcburi köçkünlərimizin doğma yurdlarına qayıdacaqlarına inanır! Bu işdə canlı və namuslu hər bir Azərbaycan vətəndaşı dövlətimizə yaxından dəstək olmalı, əlindən gələn köməyi əsirgəməməlidir!!

ƏDƏBİYYAT

1. ARPİİSSA, F.1, s.222, i.48, v.13-14.
2. ARPİİSSA, F.1, s.221, i.5, v.27, 24.
3. ARPİİSSA, F.1, s.221, i.5, v.20, 21.
4. ARPİİSSA, F.1, s.221, i.78, v.62.
5. ARPİİSSA, F.1, s.121, i.30, v.52.
6. ARPİİSSA, F.1, s.277, i.21, v.10.
7. ARDTA, F.411, s.38, i.13, v.187.
8. ARDTA, F.411, s.9, i.73, v.267, 283, 287, 284.
9. ARDTA, F.411, s.277, i.21, v.8, 9, 10.
10. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, soyqırımı, qaçqınlıq. Bakı, "Qartal", 1998, 280 s.
11. Abdullayev Ə. Ermənistanın AZərbaycana qarşı təcavüzkarlıq siyasəti. Bakı, "Elm", 1998, 324 s.
12. Mahmudov Y., Şükürov K. Qarabağ: Real tarix, faktlar sənədlər. Bakı, "Təhsil", 2007, 218 s.
13. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri. Bakı, "AR MM", 2000, 318 s.
14. Məmmədov İ. Əsədov S. Ermənistan azərbaycanlılarının acı taleyi. Bakı, "Azərbaycan", 1922, 51 s.
15. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal. Bakı, "Təhsil", 2009, 272 s.
16. Məmmədov N. Qarabağ tarixi (1920-1990). Bakı, "Avropa", 2020, 984 s.
17. Nəcəfov B. Deportasiya. Bakı, "Çaşıoğlu", 1998, 240 s.
18. Paşayev A. Köçürülmə. Bakı, "Gənclik", 1995, 40 s.
19. Şükürov K. Azərbaycan tarixi. Bakı, "Elm", 1998, 284 s.
20. Vəliyev İ. Qaçqınlıq. "Ömər", 1996, 104 s.

SUMMARY

DEPORTATION OF AZERBAIJANIS LIVING IN KARABAGH REGION AZERBAIJAN FROM THEIR ANGESTRAE LANDS (1948-1952)

Mammadov N.R.

The deportation of Azerbaijanis Turks from Armenia SSR and Karabax in is implied 1948-1953 in the context of Sovet Turkey relations in the article. One of the problems which are investigated all round attracted attenuation that is the Armenians make use of created situation, so, a way of the result of their action and the steps which they undertook are uncovered in the dissertation. At the same time the problem which deals with official position Moscow with the policy of deportation of Azerbaijan Turks, enemy attitude to Turkish people, displacement this in the published decrees, pretests and counteraction of deportated people this policy is investigated in the given work.

***Key words**: Azerbaijan, Karabakh, deportation The policy, turkish- muslims, resettlement*

РЕЗЮМЕ

ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА (В 1948-1952 ГГ)

Мамедов Н.Р.

В статие в контексте отношений СССР с Турцией рассматривается принудительные переселение азербайджанских турок в 1948-1953-годы, из Армении и Карабах широко освещается влияние этих отношений на их депортацию. Привлекает внимание и один из вопросов который всесторонние исследует, то как армяне пользовались создавшейся ситуацией. Так, широко раскрываются шаги, которые они предпринимали и результаты их действий. Исследуется так же вопрос связанный с официальной позицией Москвы в связи с политикой депортации азербайджанских турок, враждебное отношение к тюркским народом, проявление этого в изданных постановлениях, протесты и противостояние этой политике депортированных.

***Ключевая слова:** Азербайджан, Карабах, депортации, политика, турецкие-мусульмане, переселен*

QARABAĞDA ERMƏNİ İŞĞALI VƏ DEMOQRAFİK PROBLEM

Musayev E.A.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
etibaradiloglu@mail.ru

Açar sözlər: *Dağlıq Qarabağı, Cəbrayıl, Füzuli, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, ABŞ, Qaçqınlar*

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Digər postsovet respublikalarından fərqli olaraq bu proses Azərbaycanda çox ağrılı-acılı hadisələrlə müşayiət olunurdu. Belə ki, sovet cəmiyyətində uzun on illiklər boyu yığılıb qalmış olan sosial-iqtisadi, siyasi, ideoloji problemlər XX əsrin 80-ci illərinin ortalarında daha da kəskinləşdi. 1985-ci ildə SSRİ rəhbərliyinə gələn M.S.Qorbaçov əhalinin diqqətini bu problemlərdən yayındırmaq və ölkəni labüd iflasdan xilas etmək məqsədilə "Sürətləndirmə konsepsiyasını" irəli sürdü və "yenidənqurma" xəttini qəbul etdi. "Yenidənqurma", "demokratikləşmə" və "aşkarlıq" Azərbaycan cəmiyyətində demokratik hərəkatın inkişafına təkan verdi[7,26]. Çoxdan əlverişli məqam gözləyən ermənilər də dövlət siyasətində baş verən dəyişikliklərdən məharətlə istifadə etdilər və "Qarabağ problemi"ni yenidən, növbəti dəfə gündəmə gətirdilər. Müxtəlif dairələrdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə fikirlər səslənməyə başladı. Bütün məsələlərdə ermənipərəst mövqe tutan Moskva Azərbaycanda milli azadlıq hərəkatının qarşısını almaq məqsədilə onları müdafiə etdi. Ermənilərin "mərkəz"dəki havadarlarının gördükləri birtərəfli tədbirlər nəticəsində bu problem daha da kəskinləşərək savaşa çevrildi.

Daha hazırlıqlı olan və Sovet Ordusunun silah-sürsatından, həta canlı qüvvəsindən lazımınca kömək alan ermənilər tarixi Azərbaycan torpaqlarını işğal etməyə başladılar. Erməni hərbi birləşmələri tərəfindən 1988-1993-cü illərdə Dağlıq Qarabağ, o cümlədən 1992-ci ilin 8 mayında Şuşa[2,99-100], 1993-cü ilin fevralında Ağdərənin böyük hissəsi[2,104], 18 mayında Ermənistanı Dağlıq Qarabağla birləşdirən, ən qısa və rahat yol hesab edilən, uzunluğu 30 km olan Laçın dəhlizinin yerləşdiyi Laçın[10], 1993-cü ilin 2 aprelində Kəlbəcər[10], 23 iyununda Ağdam[10], 23 avqustunda Cəbrayıl və Füzuli[10], 31 avqustda Qubadlı[10], 29 oktyabrda isə Zəngilan işğal edildi[10]. Ümumilikdə erməni hərbi birləşmələri Azərbaycan ərazisinin 13,3 min km^2-ni işğal etmişdir ki, bunun da 4,4 min km^2 və ya 33,3%-i Dağlıq Qarabağın, 66,6%-i isə ətraf rayonların ərazisidir. Beləliklə, ermənilərin 1988-ci ildən başlayan təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-i və ya başqa sözlə, Dağlıq Qarabağ və ona bitişik olan yeddi rayon işğal olundu [4]. Bundan başqa respublikamızın Ermənistanla həmsərhəd olan Naxçıvan Muxtar Respublikasının Qazax, Tovuz, Gədəbəy, Ağstafa, Goranboy,Tərtər və başqa rayonların sərhədyanı yaşayış məntəqələri də ermənilər tərəfindən ya işğal olunmuş, ya da onların nəzarəti altındadır. Nəticədə, həmin ərzilərdə olan 900 yaşayış məntəqəsi[16], 150 min ev[16], 7 min ictimai bina[16], 693 məktəb[16], 695 səhiyyə ocağı[16], 855 uşaq bağçası[16], 927 kitabxana[15;16], 10 minlərlə tarixi abidə, muzey, məscid, sənaye və kənd təsərrüfatı müəssisəsi və s. ermənilər tərəfindən qəsb edilmiş, dağıdılmış, məhv edilmişdir[16]. Təxmini hesablamalara görə erməni təcavüzü nəticəsində Azərbaycan Respublikasına 60 milyard ABŞ dolları həcmində ziyan dəymişdir [5]. Lakin fikrimizcə Azərbaycan Respublikasına dəyən bu milyardlarla dollar həcmindəki zərər başlıca ziyan deyil. Erməni təcaüzü nəticəsində Azərbaycana dəyən ən böyük ziyan, hər bir ölkənin başlıca kapitalı hesab edilən Azərbaycan əhalisinə dəyər ziyandır. Çünki bütün dağıntıları aradan qaldıran, onu bərpa edən, ölkəni inkişaf etdirən əhalidir.

Ermənistanın Qarabağı özünə birləşdirmək istəyilə başlayan hadisələr Azərbaycanın buna kəskin etirazının ilk qurbanı məhz Ermənistanda-Qərbi Azərbaycanda yaşayan soydaşlarımız oldu. "Türksüz Ermənistan", "Ermənistan ermənilər üçündür" şüarını həyata keçirən ermənilər Azərbaycan türklərini öz ata-baba yurdlarından çıxarmağa başladılar. Respublika hökumət komissiyasının məlumatına görə 1988-ci ilin dekabrın sonunadək Ermənistan SSR-dən Azərbaycan ərazisinə 165 mindən [12] çox azərbaycanlı gəlmişdi. Statistik məlumatlara görə, 1988-1990-cı illərdə Ermənistandan SSRİ-dən gələn qaçqınların sayı 350 mindən çox olmuşdur[11;16]. SSRİ baş prokurorluğunda aparılan istintaq nəticələrinə görə, Ermənistan SSRİ-dən qovulan 216 nəfər azərbaycanlı qətlə yetirilmişdir. Onlardan 5-i südəmər, 18-i 2-10 yaş arası uşaq, 57-si isə qadın olmuşdur. Elə həmin vaxta təsadüf edən Özbəkistanın Fərqanə vilayətindəki hadisələrlə əlaqədar 1989-cu ilin iyulunda Azərbaycana 50 mindən çox mexseti türkü də gəlmişdir[11]. Onların hamısı da Qarabağa məskunlaşmışdır. Erməni təcavüzü nəticəsində onların da sayını əlavə etsək qaçqınların sayı 250 mindən çox olmuşdur. Bundan əlavə, Dağlıq Qarabağın 60 min[11], Xocavənd 11333 nəfər[11], Xocalı 14406 nəfər[11], Laçının 72298 nəfər[11], Kəlbəcərin 70574 nəfər[11], Ağdamın 144406 nəfər[11], Füzulinin 115992 nəfər[11], Cəbrayılın 66833 nəfər[11], Qubadlının 34945 nəfər[11], Zəngilanın 38907 nəfər[11] əhalisi işğallar zamanı öz doğma vətənlərindən məcburi köçkünə çevrildilər ki, onların da ümumi sayı 1176666 nəfər olmuşdur[16]. Bununla bərabər, Ermənistan və Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 100 mindən çox soydaşımız da ermənilərin təcavüzü nəticəsində öz daimi yaşayış yerlərini tərk etmişlər. Ümumilikdə, Dağlıq Qarabağ və onun ətrafında gedən müharibə nəticəsində Azərbaycan ərazisinin 20%-i işğal edilmiş, 20

mindən çox adam həlak olmuş, 50 mindən çox adam şikəst olmuş, 1 milyondan çox adam qaçqın və məcburi köçkünə çevrilmişdir. Beləliklə, həmin dövrdə Azərbaycan əhalisinin 1/7 hissəsi qaçqın və məcburi köçkün oldu. Həmin dövrdə onlar qaçqın və məcburi köçkün statusu daşımırdılar. Çünki Qarabağ savaşı başlayarkən, Azərbaycan və Ermənistan vahid dövlət olan SSRİ-nin sərhədi daxilində idilər. Ona görə də bu insanlara BMT-nin Qaçqınlar haqqında olan 1951-ci il Konvensiyasına uyğun olaraq status vermək olmazdı. Yüz minlərlə qaçqın və məcburi köçkün bu statusu yalnız Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra əldə etdilər[2,91]. Beləliklə, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində başlayan Qarabağ savaşı ölkədə bütün demokratik durumu dəyişdi.

O vaxtkı Azərbaycanda olan hakimiyyətin səriştəsizliyindən, ölkədə baş verən hərc-mərclikdən, hakimiyyət uğrunda gedən münaqişələrdən istifadə edən Ermənistan Azərbaycanın əzəli və tarixi torpağında, Dağlıq Qarabağda qeyri-qanuni hakimiyyət stukturları yaratmağa başladı. Sonda Dağlıq Qarabağ Ermənistan silahlı qüvvələri və separatçılarının tam hərbi nəzarəti altına düşdü.

1993-cü ilin iyununda xalqın tələbi ilə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqların erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi, ölkənin parçalanması təhlükəsi ilə üzləşən xalq Heydər Əliyevi yenidən hakimiyyətə çağırdı. Qısa müddətdə ölkədə baş qaldırmış separatçı qüvvələri, dövlətçiliyimizə və müstəqilliyimizə qəsdlər törədən cinayətkar qrupları zərərsizləşdirdi. Ölkə daxilində ictimai-siyasi sabitlik bərqərar oldu. Yaranmış hərc-mərcliyin aradan qaldırılması, ölkədə sabit siyasi-ictimai iqlimin yaranması nəticəsində xarici kapitalın axını təmin edildi, Azərbaycan həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırıldı.

Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyev Beynəlxalq təşkilatlar və dünyanın aparıcı dövlətləri ilə 1993-2003-cü illərdə böyük siyasi fəaliyyət göstərmişdir. Bu istiqamətdə görülən tədbirlər sırasına neft kəmərlərinin keçəcəyi marşrutların müəyyən edilməsini əlavə etsək yanılmarıq. Bu məsələ hər şeydən əvvəl Rusiya və ABŞ-ın geostrateji nüfuz uğranda mübarizəsi, yəni, Xəzərin enerji daşıyıcıları uğranda mübarizəsi Azərbaycanın, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu dövlətlərin birtərəfləşdirilməsi məsələlərinə xidmət etdi. 1999-cu ilin noyabrın 18-də İstanbulda keçirilmiş ATƏT-in sammiti çərçivəsində Heydər Əliyev regionda inkişafı, sülhün bərpa edilməsi istiqamətində təkliflər irəli sürmüşdür. Bu təkliflərdən ən təqdirə layiqi Cənubi Qafqazda "Təhlükəsizlik və Əməkdaşlıq" paktının yaradılması ilə bağlı təklifi idi. Qeyd edək ki, Heydər Əliyevin irəli sürdüyü təklif istər Cənubi Qafqazın, istərsə də qonşu regionların təhlükəsizliyinin təmin olunmasını nəzərdə tuturdu. Dağlıq Qarabağ münaqişəsinin həlli müstəqil Azərbaycana rəhbərliyi dövründə Heydər Əliyevin siyasi xəttinin və diplomatik fəaliyyətinin əsasını təşkil etmişdir. Heydər Əliyevin regionda əməkdaşlığın, təhlükəsizliyin təmin edilməsi istiqamətində əvəzsiz xidmətlərindən biri kimi qiymətləndirilmişdir[1].

Heydər Əliyevin yeritdiyi məqsədyönlü siyasət sayəsində Azərbaycanın malik olduğu təbii sərvətləri, zəngin karbohidrogen ehtiyatları Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi, mühüm nəqliyyat kommunikasiya dəhlizlərinin keçdiyi və çox böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malik Qafqazda sülhün, sabitliyin qorunmasını şərtləndirən amillərə çevrildi.

Heydər Əliyev bu amillərdən istifadə edərək, regionda Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında geniş təsir imkanlarına malik olan dünyanın aparıcı dövlətləri ilə balanslaşdırılmiş siyasət yürütməyə nail oldu.

Eyni zamanda Heydər Əliyevin sayəsində Azərbaycanın mühüm geosiyasi, geoiqtisadi əhəmiyyəti Qafqazda sabitliyin qorunmasında ABŞ-ın, Avropa dövlətlərinin, Rusiya, İran, Türkiyə, Çin və digər dövlətlərin ciddi marağına səbəb olmuşdur. BTC əsas ixrac kəmərinin inşası nəticəsində Qərb Kapitalının Azərbaycana axını ABŞ və Qərb dövlətlərinin regionda təhlükəsizliyin təmin edilməsi məsələsində fəal mövqe **mümay**iş etdirməsinə gətirib çıxartdı. Aydın məsələdir ki, regionda təhlükəsizliyin təminatı ABŞ və Qərb dövlətlərinin Azərbaycanın təbii sərvətləri, karbohidrogen ehtiyatlarına yatırdıqları kapitalın təminatı ilə bilavasitə bağlıdır. Məhz buna görə də dünyanın aparıcı dövlətlərinin Dağlıq Qarabağ münaqişəsilə bağlı sülh prosesinə maraqları artmış oldu. Beləliklə, Dünyada qüvvələr nisbətini düzgün qiymətləndirən Heydər Əliyev "iqtisadi diplomatiyanın" uğurlarını daha ali məqsədlərə yönəldərək ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına, onun regionda lider dövlətlərdən birinə çevrilməsinə çalışmışdır.

2003-cü ildə Prezident seçilən İlham Əliyev Qarabağ məsələsinin həlli istiqamətində uğurlu addımlar atmışdır. Problemin sülh yolu ilə həll olunmasının tərəfdarı olan Azərbaycan diplomatiyası beynəlxalq aləmdə bir çox maneələrlə üzləşdi. Xüsusilə də erməni havadarlarının təsiri ilə məsələnin uzadılmasına nail olmağa çalışan erməni millətçiləri Qarabağa və işğal etdikləri ətraf rayonlara xaicdən erməni əsilli terrorçuları köçürdərək bu bölgədə "güclü istehkam" yaratmışdılar. Dəfələrlə atəşkəs rejimini pozaraq beynəlxalq qrumların tələblərini yrtinə yetirməkdən boyun qaçırırdılar. Ermənilərin 2016-cı il aprel və 2020-ci il iyun təxribatları nəticəsində Azərbaycan xalqı öz torpaqlarının azad edilməsi uğrunda mübarizənin silah yolu ilə həllində gördülər. Nəhayət erməni tərəfi 27 sentyabr 2020-ci ildə yeni ərazilər işğal etmək xülyası ilə hərbi əməliyyatlara başladı. Lakin Azərbaycan ordusunun əks hücümu nəticəsində ikinci Qarabağ-Vətən müharibəsinə başlayan Azərbaycan 44 gün ərzində erməni nasist qüvvələrini darmadağın edərək tarixi torpaqlarımızı işğaldan azad etdi. Bu gün Azərbaycan tərəfi diplomatik yollarla

məsələnin tam həlli və məcburi olaraq öz yurdlarından didərgin düşmüş soydaşlarımızın doğma yurdlarına geri dönməsi üçün işləri davam etdirir. İndi işğaldan azad olan torpaqlarmızda quruculuq abadlıq işləri uğurla davam etdirilir.

ƏDƏBİYYAT

1.Arzumanlı V. Azərbaycan Diasporu, Bakı, Qartal 2000, 800səh

2.Azərbaycan Respublikası 1991-2001, Bakı 2001, 360 səh.

3.Azərbaycan Respublikası əhalisinin siyahıya alınması 1999-cu il I hissə, Bakı: ARDSK, 2000, s. 18;

4.Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009-cu il. I cild, Bakı: ARDSK, 2010, s. 20. Azərbaycan əhalisi 2005, Bakı: ARDSK, 2005, s. 19;

5.Azərbaycanın Demoqrafik göstəriciləri 2006 (statistik məcmuə) Bakı: ARDSK, 2006, s. 23;

6.Azərbaycan əhalisi, 2008, Bakı: ARDSK, 2008, s. 20.

7.O.B.Sultanov. 80-ci illərin conu,90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə, Bakı,1995, 232 səh.

8.Həsənova L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında. Bakı: 2003, s. 118-121

9.Населление Азербайджанской республики. 1989 г, с. 8;

10.https://big.az/32284-isgal-olunmus-rayonlar-haqqinda-melumat.html

11.http://shamkir-ih.gov.az/page/66.html

12. https://story.karabakh.center/az/azerbaycanlilarin-muasir-ermenistan-erazisinden-deportasiyasi

13. «Бакинский рабочи» qəzeti, 3 dekabr 1988-ci il

14. http://www.demoscope.ru/weekly/ssp/sng_nac_89.php?reg=13

15.https://mod.gov.az/az/pre/24525.html

16.https://justice.gov.az/categories/22

SUMMARY

ARMENIAN OCCUPATION AND DEMOGRAPHIC PROBLEM IN KARABAKH

Musayev E.A.

The history, essence and consequences of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict and its consequences for the Azerbaijani state and people are well known to the world community. This conflict arose as a result of Armenian fascist ideologues and Armenia's territorial claims to Azerbaijan, which sought to tear down and unite the ancient land of Azerbaijan, Nagorno-Karabakh, and dream of creating a "Greater Armenia." When the conflict broke out in 1988, the former Soviet Union's unfair and biased stance against Azerbaijan and its unwillingness to prevent the problem in time deepened the conflict.

***Keywords**: Nagorno-Karabakh, Jabrayil, Fizuli, Lachin, Kalbajar, Aghdam, Zangilan, USA, Refugees*

РЕЗЮМЕ

АРМЯНСКАЯ ОККУПАЦИЯ И ДЕМОГРАФИЧЕСКАЯ ПРОБЛЕМА В КАРАБАХЕ

Мусаев Э.А.

История, сущность и последствия армяно-азербайджанского нагорно-карабахского конфликта и его последствия для азербайджанского государства и народа хорошо известны мировому сообществу. Этот конфликт возник в результате армяно-фашистских идеологов и территориальных претензий Армении к Азербайджану, стремившейся разорвать и объединить древнюю азербайджанскую землю, Нагорный Карабах, и мечтающей о создании «Великой Армении». Когда в 1988 году разразился конфликт, несправедливая и предвзятая позиция бывшего Советского Союза по отношению к Азербайджану и его нежелание вовремя предотвратить проблему усугубили конфликт.

***Ключевые слова:** Нагорный Карабах, Джебраил, Физули, Лачин, Кельбаджар, Агдам, Зангилан, США, беженцы*

ŞUŞA BƏY KOMISSIYASININ MÜVAFİQ TƏLIMATA UYĞUN YARADILMASI VƏ FƏALİYYƏTİ

Mustafayeva S.M.
Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
Sevinj.Mustafayeva1958@gmail.com

Açar sözlər: *Ali zümrə, bəy komissiyaları, təlimatlar, Şuşa, Qafqaz canişinliyi, şəxsi hüquqlar, mülkiyyət hüquqları, silki hüquqlar.*

XIX əsrin ortalarından etibarən Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda ali müsəlman zümrəsinin silki hüquqları ilə bağlı məsələlər nəhayət ki, öz həllini tapmağa başladı. Çar hakim dairələri əvvəlki cəhdlərindən fərqli olaraq bu dəfə daha real addımlar atmaq qərarına gəldilər. Lakin yenicə Qafqaz canişini təyin edilmiş A.İ.Baryatinski tərəfindən məsələnin araşdırılması ilə bağlı yaradılmış komissiyanın gəldiyi nəticə heç də sözügedən problemin müsəlman zadəganlığının xeyrinə həll oiunacağını vəd etmirdi. Çünki, ali zümrənin hüquqları ilə bağlı araşdırmaların aparılması və bu barədə müəyyən fikrin söylənilməsi səlahiyyəti müsəlmanlara dərin nifrət bəsləyən və onlara qənim kəsilmiş canişinlik şurasının üzvü Smittenə həvalə edilmişdi [7,190]. Araşdırmalar başa çatdıqdan sonra, gözlənildiyi kimi, həmin şəxsin gəldiyi əsas nəticə ondan ibarət oldu ki, "müsəlman ölkələrində zadəganlar heç vaxt olmayıb və indi də mövcud deyillər"[9, 20], əvvəllər də, indi də yalnız ali şəxsi zümrənin mövcudluğundan söhbət gedə bilər. Özü də, onun fikrincə, bu zümrənin nümayəndələri irsi hüquqlara malik deyillər [6,104]. Eyni zamanda, müsəlman cəmiyyətinin yüksək təbəqələri içərisində çarizmin sosial dayaqlarını yaratmaq ideyasını dəstəkləyən Smitten, çıxış yolunu "zadəgan titulunun yalnız çox məhdud sayda insanlara şamil edilməsində" görərək, "müsəlmanlar arasında zadəganların və nüfuzlu şəxslərin az olmasının hökumət üçün daha sərfəli olduğunu" və hökumətin bundan daha az zərər çəkəcəyini bildirirdi. O, formalaşdırdığı bu ideyanı müsəlman xalqının, xüsusən də onun ali zümrəsinin və ruhaniliyinin etibarına və sədaqətinə inamsızlığı fikri ilə əsaslandırırdı. Qeyd olunmalıdır ki, çar məmurları sırasında onunla həmfikir olanlar da az deyildi. Bu, şübhəsiz ki, müsəlmanlara, xüsusən də onun ali zümrəsinə qarşı olan nifrətin, müəyyən mənada isə qorxunun təzahürü idi. Bu tip məmurlarla yanaşı, Qafqaz administrasiyasında yerli şəraitə daha yaxından bələd olan, vəziyyətin nə qədər mürəkkəb, mürəkkəb olduğu qədər də həssas olduğunu anlayan real düşüncə sahibləri də var idi ki, onlar yerli feodalların hüquqlarının inkar edilməsini, onların vergiverənlər siyahısına salınmasını xoşagəlməz nəticələrə gətirib cıxaracağını, Smitten və onun həmfikirlərinin ideyalarının həyata keçirilməsini isə hökümətin bu diyarla bağlı planlarının (müstəmləkəçilik planlarının – S.M.) gerçəkləşməsi yolunda əngələ çevriləcəyini bildirir [9, 20], bu ideya və fikirlərdən çəkinməyə çağırırdılar. Uzun müddətli mübahisələrdən və araşdırmalardan sonra, nəhayət, ali müsəlman zümrəsinin hüquqlarının müəyyənləşdirilməsi məqsədilə dörd komissiyanın – Tiflis, İrəvan, Şuşa və Bakı bəy komissiyalarının yaradılması qərara alındı [7, 228].Tiflis bəy komissiyası 1865-ci il iyul ayının 6-da, İrəvan bəy komissiyası həmin ilin sentyabr ayının 1-də, Şuşa bəy komissiyası 1870-ci il mart ayının 17-də, Bakı komissiyası isə 1871-ci il mart ayının 20-də fəaliyyətə başladı [10, 3-4; 8, 37-41; 11, 1; 13 ,5; 5 ,77; 3, 10-11; 6, 104; 9, 21; 2, 199-200; 12* ,22]. Tiflis və İrəvan bəy komissiyalarından fərqli olaraq, Şuşa və Bakı komissiyalarının fəaliyyətə gec başlamalarının əsas səbəbi kimi, bu bölgələrdə yerli feodalların milkiyyət (torpaq – S.M.) hüquqları ilə bağlı məsələlərin hələ öz həllini tapmadığı, yəni bu məsələlərlə məşğul olan komissiyanın işlərinin hələ də başa çatdırılmaması göstərilirdi [8, 40-41]. Belə ki, qəbul edilmiş qərarlara əsasən, əvvəl, yerli feodallların mülkiyyət hüquqları, ondan sonra isə səxsi və silki hüquqları ilə bağlı məsələlər həll edilməli idi. Sözügedən bölgələrdə ali zümrənin torpaq hüquqları ilə məşğul olan komissiyaların işi başa çatdıqdan sonra, Qafqaz canişini tərəfindən Şuşa və Bakı bəy komissiyalarının ştat tərkibi və təlimatları təsdiq olundu [8, 41] və bununla da həmin komissiyaların fəaliyyətə başlamalarına rəvaç verildi.

Qeyd olunduğu kimi ali zümrənin şəxsi və silki hüquqlarının müəyyənləşdirilməsi üçün yaradılan bəy komissiyaları öz fəaliyyətlərini təlimatlarla həyata keçirir və tənzimləyirdilər ki, bu təlimatlar da komissiyalar fəaliyyətə başlamazdan xeyli əvvəl, hər bir komissiya üçün ayrıca tərtib edilərək (hər bir komissiya üçün ayrıca təlimatın olması keçmiş xanlıqların hər birində, həm torpaq sahibliyində, həm də cəmiyyətin sosial strukturunda mövcud olan fərqli xüsusiyyətlərdən irəli gəlirdi –S.M.), Qafqaz canişini tərəfindən təsdiq edilirdi. Bu mənada, Şuşa bəy komissiyasının fəaliyyətini tənzimləyəcək təlimat da istisnalıq təşkil etmir. Göstərildiyi kimi, Şuşa bəy komissiyası öz işinə 1870-ci il mart ayının 15-də başlasa da, onun fəaliyyəti ilə bağlı təlimat 1869-cu il 5 iyun tarixində Qafqaz canişini Mixail Nikolayeviç tərəfindən "Şuşa bəy komissiyasının təlimatı" adı altında təsdiq edilmişdi. Təlimat ümumilikdə 44 bəndi özündə birləşdirən, 4 hissədən ibarətdir. "Komissiyanın yaradılmasının məqsədi və onun tərkibi" adlı birinci hissə 7

bənd və əlavə qeydlərdən ibarət olaraq, elə ilk bənddə keçmiş Qarabağ və Şəki xanlıqlarından yaranan Yelizavetpol quberniyasının Şuşa, Zəngəzur və Nuxa qəzalarında yerli feodalların hüquqlarının və ali silkə mənsubluğunun müəyyən edilməsi üçün Şuşa bəy komissiyasının təsis edildiyi bildirilirdi [7, 230-234]. Bənddən sonra verilən əlavə qeyddə isə "bu təlimatla, (yerli – S.M.) ali zümrənin səxsi hüquqlarının imperiyanın hər hansı bir imtiyazlı silkinə aid edilməsi deyil, yalnız mövcud dərəcəyə uyğun müəyyən edilməsi" bildirilirdi. "Komissiya o ailələrin, və yaxud nəsil və şəxslərin şəxsi hüquqlarının müəyyənləşdirilməsi ilə məşğul olacaq ki, hansılar özləri, yaxud əjdadları Rusiyaya birləşdirilənə (Rusiya tərəfindən istilasına – S.M.) qədər, xanlıqlarda ali silki təşkil edən xan, bəy, məlik, sultan titullarından birinə mənsub idi" [4, 1]. Bu bənddə diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, Şuşa bəy komissiyası Rusiyanın himayəsinə keçən ali zümrə nümayəndələrinin hüquqlarının müəyyənləşdirilməsi ilə yanaşı, eyni zamanda işğal ərəfəsində (mənbədə:"Rusiyaya birləşdirilənə qədər"- S.M.) keçmiş Qarabağ və Şəki xanlıqlarından sürgün edilmiş şəxslərə, hətta həmin şəxslər sonradan geri qayıtsalar da belə [4, 1], təlimatın bu bəndi şamil edilmişdi. Çox güman ki, bu ifadənin təlimatın bəndinə əlavə edilməsi, Rusiya hakim dairələrinin ümumilikdə yerli feodalları hökumətdən narazı salmamaq zərurətindən irəli gəlirdi.Şüsa bəy komissiyasının təlimatına əsasən komissiya işini əvvəl iki - Şuşa və Zəngəzur qəzalarında (keçmiş Qarabağ xanlığı) birgə həyata keçirəcək, daha sonra isə Nuxa qəzası ilə Ərəş pristavlığında davam etdirəcəkdir [4, 1].

Təlimata görə komissiyanı daimi və dəyişilən tərkibdən ibarət olmaqla, daimi tərkibə - sədr və üzv-kargüzarın, dəyişilən tərkibə isə komissiyanın fəaliyyətini əhatə edən qəzaların ali zümrəsi içindən seçilən 24 nəfərin də daxil olduğu bir heyət təşkil etməli idi. Dəyişilən tərkibin fəaliyyətdə olan üzvlərinin siyahısından başqa, hər qəza üzrə bu tərkibə namizəd ola biləcək üzvlərin də siyahısı (dəyişilən tərkibə namizədlərin siyahısı hər ehtimala qarşı, əsas üzvlərdən kiminsə xəstəliyi, vəfatı və s. ilə əlaqədar hazırlanırdı) qabaqcadan tərtib edilməli idi. Qeyd edilməlidir ki, həm dəyişilən tərkib üzvlərinin, həm də bu tərkibə namizəd şəxslərin siyahıları, seçkilər zamanı topladıqları ballara əsasən tərtib edilirdi. Yəni, nəticələrə görə daha yüksək bal toplayan 24 nəfər – dəyişilən tərkibə, nisbətən az bal toplayan 24 nəfər şəxs (onlar da ali zümrə nümayəndələri işərisindən seçilirdi) isə namizədlər siyahısına daxil edilirdi. O da qeyd olunmalıdır ki, dəyişilən tərkibin fəaliyyəti yalnız məhdud məkan üçün nəzərdə tutulurdu. Məsələn, əgər Şuşa qəzası üzrə ali zümrənin silki hüquqları məsələsinə baxılırsa, deməli, o iclasda və səsvermədə yalnız Şuşa qəzasından seçilən ali zümrə nümayəndələri iştirak edə bilərlər. Bu qayda komissiyanın digər yerlərdəki fəaliyyətinə də aid idi. Komissiyanın sədri və üzv-kargüzarı Qafqaz canişini tərəfndən təyin edilir, eyni zamanda dəyişilən və namizəd tərkiblərin siyahisı da təsdiq üçün ona təqdim olunurdu.

Şuşa bəy komissiyası fəaliyyəti dövründə birbaşa Qafqaz canişininə tabe idi. Qəbul edilmiş sənədlərin imzalanması proseduru isə dövlət gerbinin təsviri olan möhürlə təsdiqlənirdi.

Təlimatın 26 bənddən ibarət "Komissiyanın fəaliyyət qaydaları" adlı ikinci hissəsi, komissiyanın işə başlayarkən, bilavasitə mərhələ-mərhələ həyata keçirəcəyi tədbirlərə həsr olunmuşdur. Təlimatda həmçinin, göstərəlir ki, ailələrin və ya nəsillərin hüquqlarının müəyən edilmsinə başlamazdan əvvəl, komissiya sədri, verilən arayışları kameral siyahılara (əvvəllər tərtib edilmiş – S.M.) əsasən komissiya üzvlərinin nəzərinə çatdırmağa borcludur [4, 1].

Təlimata görə komissiyaya ərizə ilə müraciət edən ailənin və ya nəslin ali zümrəyə mənsubluğu seçkili üzvlərin yekdil rəyi əsasında. yalnız o halda təsdiqini tapmış olaçaqdır ki, həmin ailə və ya nəsil nümayəndələrinin general A.P.Yermolovun hələ 1817-1818-ci illərdə yerli feodalların statusunun müəyyənləşdirilməsi məqsədilə [1,75] tərtib etdirdiyi siyahılarda əsilzadə qismində adları olmuş olsun; onların adı heç bir kameral təsvirdə vergiverənlər siyahısında olmasın və komissiyanın yekdil rəyi ilə yanaşı, komissiya sədrinin və üzv-kargüzarının da razılığı olsun [4, 2]. Bu yuxarıda göstərilən qaydalar bəy əsil-nəcabətinin təsdiq edilməsi üçün vacib hesab edilən qaydalar idi. Xan nəslinə mənsubluğun təsdiqi üçün də həmin qaydalar, bu hissənin18-19-cu paraqraflarında öz təsbitini tapmışdır [4, 2]. Təlimatda həmçinin göstərilir ki, hər hansı bir nəsil, kəndinin adını özünün soyadı qismində seçmək fikrinə düşsə, bunu yalnız həmin kəndin sahibkarı edə bilər. Əgər kənd üzərində şərikli sahibkarlıq varsa, o zaman üstünlük kəndin əvvəlki sahibinə verilirdi. Mübahisəli məsələlər isə, razılıq əldə edilmədiyi təqdirdə, səsçoxluğu vasitəsilə nizama salınmalı idi. Ümumiyyətlə, hər hansı bir ailənin və ya nəslin özünə soyad seçməsi (bu yalnız əsilzadələr üçün nəzərdə tutulurdu – S.M.) tamlığı ilə komissiyanın qərarından asılı idi. Təqdim olunan ərizə-xahişnamələrdə hər hansı bir məkan, kənd adı göstərilmədikdə, o zaman həmin ailəyə və ya nəslə komissiya tərəfindən nəslin yaradıcısının və ya malik olduğu mülkün adı, soyadı qismində verilməli idi. Bu ondan irəli gəlirdi ki, soyadın mövcudluğu ali zümrə nümayəndələri üçün vacib şərtlərdən hesab edilirdi.

Nəzərə çatdırılmalıdır ki, təlimatlara, o cümlədən Şuşa bəy komissiyasının təlimatına görə komissiyaların fəaliyyətə başlamaları haqqında bildiriş "Qafqaz" qəzetində dərc edilməli və qəza rəisləri vasitəsilə yerli əhaliyə çatdırılmalı idi.

Şuşa qəzasında bəylərin mülkiyyət hüququnu müəyyən edən torpaq komissiyasının işi başa çatdığından Qafqaz canişini Mixail Nikolayeviç 1866-cı il 24 noyabr tarixli sərəncamı ilə Şuşa bəy komissiyasının fəaliyyətə başlamasına izn verdi və komissiyanın sədri vəzivəsinə, bəylərin mülkiyyət hüquqlarını müəyyən edən komissiyanın üzvü V.A.Dzyubenkonu təyin etdi. Sərəncamın verilməsinə və onun həmin ilin dekabrın 20-də Qafqaz komitəsi tərəfindən təsdiq edilməsinə baxmayaraq, onun icrası xeyli yubandı (əsas səbəb Baş İdarə Şurası tərəfindən torpaq sahibləri siyahılarının baxılması və təsdiq edilməsinin 1869-cu ilə qədər süründürülməsi oldu). Nəhayət, 1870-ci il mart ayının 17-də uzun sürünrürməçilikdən və təlimata və seçki qaydalarına edilən bir sıra dəyişikliklərdən (şərtlərin daha da sərtləşdirilməsi məqsədi ilə) sonra, Şuşa bəy komissiyası öz işinə başladı [3, 8 və arx.]. Komissiya sədri vəzifəsində Dzyubenkonu Abessalamov əvəz etdi. Digər komissiyalardan fərqli olaraq, Şuşa bəy komissiyasının fəaliyyəti uzunmüddətli olaraq, Şuşa və Zəngəzur qəzaları üzrə işini 1873-cü ilin yanvar ayında bitirib, daha sonra, Nuxa şəhərinə gedərək orada Nuxa qəzası və Ərəş pristavlığı üzrə yerli feodalların hüquqlarının müəyyənləşdirilməsi ilə məşğul olmuşdur [5; 145, 205]. Abessalamovun verdiyi məlumata görə Şuşa və Zəngəzur qəzaları üzrə ali zümrəyə mənsubluğunu sübut etməkdə iddialı olan şəxslər tərəfindən komissiyaya təqdim olunan ərizələrin ümumi sayı 801 olsa da, onların hər biri (yəni hər bir ərizə) özlüyündə 1-dən 30-a qədər ailəni birləşdirirdi. Komissiya fəaliyyətinin ilk ilində 459, ikinci ilində 342 ərizəni araşdıraraq, onlardan, bəy nəcabətinə yalnız 127 nəsli layiq görmüş, 268 nəslin isə bu şərəfə mənsubluğu inkar edilmişdir. 641 nəslin iddia ərizəsinə isə komissiyanın gücləndirilmiş tərkibdə (yəni, 48 nəfər heyətlə) keçirilən iclasında baxılaraq 321 nəslin hüquqları təsdiq edilmişdi ki, onlardan 305-i irsi, 16-sı şəxsi bəy adına layiq görüldü, 320 nəslin ali zümrəyə mənsubluğu isə inkar edildi [3, 10]. Nuxa qəzası və Ərəş pristavlığı üzrə isə 65 nəslin iddia ərizəsi təmin edilmiş, 289 nəslə isə rədd cavabı verilmişdi. Şuşa bəy komissiyasının gəldiyi ümumi nəticə ondan ibarət oldu ki, baxılan 1015 iddia ərizəsindən 386-na müsbət cavab verilərək, onlardan 370-i irsi,16-sı isə şəxsi bəy adına layiq görüldü, 629 ərizənin təmin edilməsi rədd edildi.

Lakin komissiyanın gəldiyi bu nəticələ də hələ qəti deyildi. Bütün komissiyaların, o cümlədən Şuşa bəy komissiyasının nəticələri ilə bağlı qəti qərarlar yalnız 1883-cü ildə Baş rəislik şurasında qəbul olundu. Qəbul olunan qərarlar isə yerli feodalların xeyrinə olmayıb, onsuz da komissiyalar tərəfindən, demək olar ki, yarıbayarı azaldılan təkibləri, daha da azaldıldı. Belə ki, Şuşa bəy komissiyasının təsdiq etdiyi 370 nəsildən 340-nın, şəxsi bəy adını almış 16 nəfərdən isə yalnız 5-nin adı Şura tərəfindən təsdiqini tapmış oldu.

Beləliklə, digər məsələlərin həllində olduğu kimi, yerli feodalların hüquqlarının tanınması və statusunun müəyyənləşdirilməsi məsələsində də hakim rejim, müstəmləkəçilik maraqlarından çıxış edərək, hər vasitə ilə, o cümlədən, yaratdığı bəy komissiyaları vasitəsilə ali zümrənin hüquqlarının məhdudlaşdırılmasına, xüsusən də onların say tərkibinin azaldılmasına nail oldu.

ƏDƏBİYYAT

1. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər. Bakı, 2005.
2. Агаян Ц.П. Крестьянская реформа в Азербайджане. Баку, 1956.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA) ,f.55, siy.1, iş 33.
4. ARDTA, f.69, s.1, iş 3.
5. ARDTA, f.69, s.1, iş 61.
6. Исмаил-Заде Д.И.Население городов Закавказского края в XIX – начале XX в. Москва, 1991.
7. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х годах XIX века. М.-Л.,1936,ч.II.
8. Линден В. Высшие классы коренного населения Кавказского края и правительственные Мероприятия по определению их сословных прав. Тифлис, 1917.
9. Мамедов Э.С. Царизм и высшее сословие Закавказья (проблема сословно-земельных отношений. Начало XIX в.- 1917 г.). Баку, 1987.
10. Отчет по Главному управлению наместника кавказского за 1862-1872 гг.
11. Российский государственный исторический архив (РГИА), ф.1405, оп.63, д.2832.
12. Рштуни В. Крестьянская реформа в Армении в 1870 г. Ереван, 1947.

*Qeyd olunmalıdır ki, İrəvan bəy komissiyasının iclaslarının açılmasını Rştuni 1866-ı il 23 may tarixinə aid edir, lakin bu səhv fikirdir, çünki, sözügedən komissiya fəaliyyətinə yuxarıda göstərilən tarixdə başlamaşdır ki, bu da arxiv sənədləri və tarixi ədəbiyyatda öz əksini tapmışdır.

13. ЦГИА Грузии, ф.13, оп.23, д.97.

SUMMARY

ESTABLISHMENT AND ACTIVITIES OF THE SHUSHA BEK COMMISSION UPON THE APPROPRIATE INSTRUCTION

Sevinj M.M.

In the article, using archival documents and historical literature, the activities of the bek commissions established in the 60-70s of the 19th century in the Northern Azerbaijan were analyzed in order to determine the personal and class rights of the local feudal lords, in particular, the activities of the Shusha bek commission, according to the results of which had been proved the belonging of a number of families and clans to the upper class, which is reflected in the corresponding figures.

The article also considers the instruction that directed and regulated the activities of the Shusha bek commission and highlights some of its points in more detail.

Key words: *Upper class, bek commissions, instructions, Shusha, the Caucasian governorship, personal rights, property rights, class rights.*

РЕЗЮМЕ

СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ШУШИНСКОЙ БЕКСКОЙ КОМИССИИ НА ОСНОВАНИИ СООТВЕТСТВУЮЩЕЙ ИНСТРУКЦИИ

Севиндж М.М.

В статье, с использованием архивных документов и исторической литературы была рассмотрена деятельность бекских комиссий, созданных в 60-70-х годах XIX века в Северном Азербайджане, с целью определения личных и сословных прав местных феодалов, в особенности, подробно проанализирована деятельность шушинской бекской комиссии, по итогам работы которой была доказана принадлежность ряда семей и родов к высшему сословию, что нашло свое отражение в соответствующих цифрах.

В статье, также рассмотрена инструкция, направлявшая и регулировавшая деятельность шушинской бекской комиссии и более подробно освещены некоторые ее пункты.

Ключевые слова: *Высшее сословие, бекские комиссии, инструкции, Шуша, кавказское наместничество, личные права, имущественные права, сословные права.*

SİLAHLI MÜNAQİŞƏLƏR DÖVRÜNDƏ QADINLARA QARŞI ZORAKILIQ

Namazova L.V.
AMEA-nın Hüquq və İnsan haqları İnstitutu, Bakı, Azərbaycan
lala.namazova.ln@mail.ru

Açar sözlər*: qadınlara qarşı zorakılıq, silahlı münaqişə, müharibə cinayəti, sülh və insanlıq əleyhinə cinayətlər, beynəlxalq cinayət*

Qadınlara qarşı zorakılıq bu gün dünyanın müxtəlif bölgələrində, müxtəlif forma və təzahürlərdə baş verir. Xüsusən, silahlı münaqişələr zamanı qadınlar kütləvi şəkildə qəddar zorakılıq əməllərinin qurbanı olurlar. Silahlı münaqişələr zamanı qadınların mühafizəsi əsas məsələlərdən biridir. IV Cenevrə Konvensiyasına əsasən başqa mülki şəxslər kimi qadmlar düşmən tərəfin hakimiyyəti altına düşdükdə pis rəftardan mühafizə hüququna malikdirlər. IV Cenevrə Konvensiyasının 27 maddəsinin II hissəsi və I Əlavə Protokolun 75 və 76 maddələrinə əsasən, qadınlar zorlanmadan, fahişəliyə məcbur edilməkdən və bu kimi başqa nalayiq qəsdlərdən mühafizə edilirlər. Protokolun 4-cü maddəsində "insan ləyaqətini alçaltmaq, xüsusən təhqiramiz və alçaldıcı rəftar, zorlamaq, fahişəliyə məcbur etmək və hər hansı başqa formada nalayiq qəsd" qadağan olunur. I Əlavə Protokolun 8-ci maddəsi hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hamilə qadınları da yaralı və xəstələr kateqoriyasına daxil etməklə onlarla eyni mühafizəni təmin etmişdir.[3]. Buradan belə bir nəticəyə gələ bilərik ki, silahlı münaqişə zamanı qadınlara qarşı törədilən

zorakı hərəkətlər beynəlxalq cinayətdir və IV Cenevrə Konvensiyasının və I Əlavə Protokolunun kobud şəkildə pozulmasıdır.

Qadınların silahlı münaqişə dövründə girov saxlanılması qadınlara qarşı kütləvi şəkildə törədilən, cinayət xarakterli zorakılıqdır. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsinin məlumatına əsasən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı 2000-ci ildə 347 azərbaycan qadını və uşaq erməni girovunda saxlanılırdı. [3]

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Xocalı şəhərində həyata keçirdikləri soyqırımı nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülüb ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qoca idi. Səkkiz ailə tamamilə məhv edilib. Bundan əlavə, 1275 nəfər əsir götürülüb, 150 nəfərin taleyi isə indiyə kimi məlum deyil. Bu soyqırım zamanı mülki insanlar, o cümlədən qadınlar və uşaqlar xüsusi amansızlıqla qətlə yetirilmiş, başları kəsilmiş, başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, hamilə qadınlar süngü ilə deşik-deşik edilmişdir. Xəsarət alanlardan 487 nəfəri şikəst olmuşdur ki, onlardan 76 nəfəri azyaşlıdır. [5]. Azərbaycan xalqına qarşı törədilən soyqırım - beynəlxalq cinayətdir. Bu əməl beynəlxalq konvensiyaların, o, cümlədən IV Cenevrə Konvensiyasının və I Əlavə Protokolunun kobud şəkildə pozulmasıdır.

Beynəlxalq cinayət- ayrı-ayrı dövlətlərin hüquq və qanuni mənafelərini, beynəlxalq səviyyədə tanınımış insan hüquqlarını kobud və ya kütləvi şəkildə pozan, hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən olunmuş, beynəlxalq hüquqa zidd olan əmələ deyilir.[2] Beynəlxalq cinayətlərin və onların törədilməsinə görə məsuliyyətin subyektləri qismində dövlətlər, təşkilatlar və fiziki şəxslər çıxış edə bilər. Ölkələr və beynəlxalq hüququn digər subyektləri beynəlxalq cinayətin törədilməsinə görə mənəvi, maddi və siyasi məsuliyyətə, fiziki şəxslər isə beynəlxalq cinayət məsuliyyətinə cəlb olunurlar. [5].

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsində gender zəminində törədilən zorakılıq beynəlxalq cinayət kimi tanınır. Həmin sənədin 7-ci maddəsinin 1 "g" bəndinə əsasən, seksual köləyə çevrilmə; zorlama; fahişəliklə məşğul olmağa məcbur etmə; məcburi hamiləlik; məcburi sterilizasiya etmə kimi hərəkətlər və müqayisəyə gələn ağırlığa malik və istənilən mülki şəxslərə genişmiqyaslı və ya sistematik basqın çərçivəsində törədilmiş seksual xarakterli digər zorakılıq formaları insanlıq əleyhinə cinayətlər kimi tövsif olunur. 8-ci maddədə eyni hərəkətlərə beynəlxalq hərbi münaqişələrə tətbiq olunan adətlərin və qanunların ciddi surətdə pozulması kimi baxılır və bu səbəbdən müharibə cinayəti kimi tanınır. Nizamnamənin 7-ci maddəsinin 2 "f" bəndində məcburi hamiləlik etnik tərkibin dəyişdirilməsinə yönəlmiş cinayət əməli kimi göstərilir. Məcburi hamiləlik hər hansı əhalinin etnik tərkibinin dəyişdirilməsinə yönəldilmiş cinayət əməli olaraq, digər ciddi beynəlxalq hüquq pozuntularını törətmək məqsədilə məcburi qaydada hamiləliyə məcbur edilmiş hər hansı bir qadının qanunsuz olaraq azadlıqdan məhrum edilməsini ifadə edir. [1]

Qadınlara qarşı cinsi zorakılığın digər bir forması məcburi sterilizasiyadır. Məcburi sterilizasiya şəxsin razılığı olmadan dölsüzləşdirilməsidir. Məcburi strelizasiya Roma Nizamnaməsinin 8-ci maddəsinin 2 "a" bəndinin ikinci hissəsisində müharibə cinayəti kimi ifadə olunmuşdur.

Yuqoslaviya Tribunalının Nizamnaməsinin 5-ci maddəsində də adamöldürmə, kütləvi qırğın, kölə vəziyyətinə salma, deportasiya etmə, həbs etmə, işgəncə, zorlama, siyasi, irqi və dini motivlər uzrə təqib etmə, digər insanlıq əleyhinə aktlar insanlıq əleyhinə cinayət kimi tanınır. Zorlama əməlini, Tribunal insanlıq əleyhinə cinayət kimi belə müəyyən etmişdi: genosid törətmək niyyətilə də seksual zorakılıq baş verə bilər, bu, hər hansı bir millətin genefondunun məhvi kimi ola bilər; zorlama sistematik və ya genişmiqyaslı hücumun bir hissəsi kimi çıxış edir; qurbanlar zorlanaraq işgəncələrə məruz qalır; insan bədəninə təcavüz, hətta qadının zorla soyundurulması da cinsi zorakılığın əlamətlərindən hesab olunur; kişilər də seksual zorakılığın qurbanı ola bilər; zorlama cinayəti ayrı-seçkiliyin bir növü kimi çıxış edir; zorlama cinayətinin icraçısı qadınlar da ola bilər, yəni zorlama əməli qadınlar tərəfindən həm qadınlara həm də kişilərə qarşı həyata keçirilə bilər; zorlama aktı mütləq araşdırılmalı, səbəbləri müəyyənləşdirilməli və reallığa uyğun olaraq hüquqi cəhətdən qiymətləndirilməlidir; zorlama cinayətinə görə məsuliyyəti icraçılar, göstəriş verənlər, planlaşdıranlar, hətta icrasına kömək edənlər də daşıyırlar. Yuqoslaviya Tribunalı zorlamanı beynəlxalq hüququn əsas prinsiplərindən olan əsas insan hüquq və azadlıqlara hörmət edilməsi prinsipinin pozulması və beynəlxalq humanitar hüquq normalarının pozulması kimi qiymətləndirir ki bu da, muharibə cinayəti kimi öz əksini tapır.

Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsinin 3-cü maddəsinə əsasən məcburi şəkildə insana edilən zorakı hərəkətlər- zorlamadır. Maddəyə görə, milli, siyasi, etnik, irqi və dini səbəblər üzündən mülki əhaliyə qarşı törədilmiş hücumun tərkib hissəsində zorlama aktı olduqda, bu insanlıq əleyhinə cinayət hesab olunur. Ruanda Beynəlxalq Cinayət Tribunalı zorlamanı təcavüzün bir növü kimi nəzərdə tutur.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsinin təsir dairəsində dörd beynəlxalq cinayət – insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, soyqırım, təcavüz cinayətləri formalaşır. Roma

Nizamnaməsinin preambulasında göstərildiyi kimi hər bir ölkənin vəzifəsi törədilmiş beynəlxalq cinayətlərə görə məsuliyyət daşıyan şəxslər üzərində cinayət yurisdiksiyasının həyata keçirilməsinin təmin olunmasıdır. Buna müvafiq olaraq mövcud qanunvericiliyə düzəlişlərin edilməsi və ya cinayətləri beynəlxalq hüquqa əsasən tövsif edən yeni qanunların qəbul olunması iştirakçı ölkələrin əsas vəzifəsini təşkil edir.

Silahlı münaqişə dövründə qadınlara qarşı kütləvi zorakılıqlar etnik təmizləmə aparmaq, müəyyən irqi, milli və ya dini qrupun tamamilə və ya qismən məhv edilməsi məqsədi ilə törədilir. Beynəlxalq normativ hüquqi aktlar belə əməlləri sülhə və insanlıq əleyhinə cinayət hesab edir.

Beləlklə, son olaraq qeyd edək ki, silahlı münaqişələrdə qadınlara qarşı törədilən zorakılıq aktları insan hüquqlarının kobud və kütləvi şəkildə pozulmasıdır və beynəlxalq cinayətdir.

ƏDƏBİYYAT

1. Allahverdiyev. Ə.V. Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər. Dərs vəsaiti. “Elm və təhsil” nəşriyyatı, 376 s. Bakı 2017
2. Hüseynov L.H Beynəlxalq hüquq . Dərslik, Bakı:”Hüquq ədəbiyyatı” nəşriyyatı, 2000.- 408 s
3. lbayev.V.Beynəlxalq humanitar hüquq. “Hüquq ədəbiyyatı” nəşriyyatı. B., 2001. 496 səh.
4. Qaracayev C.Y. “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası Qanununun kommentariyası Bakı.,2011.- 132səh
5. Лукашук, И. И. Международное право. Особенная часть: учебник / И.И. Лукашук – М : Издательство БЕК, 1998. – 700 с.
6. https://ombudsman.az/az/view/pages/163/

SUMMARY

VIOLENCE AGAINST WOMEN DURING ARMED CONFLICTS

Namazova L.V.

Violence against women occur in various forms. Mass violence against women is mainly occurred during armed conflicts. Massive violences are committed against women to carry out ethnic cleansing with the aim of completely or partially destroying a certain race, national or religious group. These acts are classified as serious human rights violations and international crimes.

Acts of violence against women during armed conflicts and norms reflected in international standard legal acts in connection with that have been studied in this article.

***Key words**: violance against women, armed conflict, war crime, genocide, crimes against peace and humanity, international crime*

РЕЗЮМЕ

НАСИЛИЕ В ОТНОШЕНИИ ЖЕНЩИН В ПЕРИОД ВООРУЖЕННЫХ КОНФЛИКТОВ

Намазова Л.В.

Насилие в отношении женщин происходит в различных формах. Массовое насилие в отношении женщин в основном совершается во время вооруженных конфликтов. Массовое насилие совершается в отношении женщин с целью проведения этнической чистки и полного или частичного уничтожения той или иной расы, национальной или религиозной группы. Эти действия квалифицируются как серьезные нарушения прав человека и международные преступления.

В статье рассматриваются акты насилия в отношении женщин во время вооруженных конфликтов и нормы, отраженные в международных нормативно-правовых актах по этому вопросу.

***Ключевые слова**: насилие в отношении женщин, вооруженный конфликт, военные преступления, геноцид, преступления против мира и человечности, международное преступление*

XX. YÜZYIL BAŞLARINDA KAFKASYA'DA ETNİK ÇATIŞMALAR

Nejla Günay
Qazi Universiteti, Ankara, Türkiye
ngunay@gazi.edu.tr

Giriş. Ermeniler, Kafkasya'da toplam nüfusun yüzde 12'siyle üçüncü büyüklükteki milli grup olmakla birlikte gerçek bir ülkeye sahip değillerdi. Ermenilerin yüzde 79'u köylerde, yüzde 21'i şehirlerde yaşamaktaydı. Ermeni erkeklerin çoğu Bakü, Batum ve Tiflis'te işçi olarak çalışmaktaydı. Bunlar ekseriyetle petrol işçisiydi. Bu sektörde sayıları az ama servetleri göz kamaştırıcı aileler vardı. Ermeni din adamları, bu kişilerden hayır yapmak suretiyle kendi milletlerini himaye etmelerini ve kendi kurumlarında Ermeni işçi çalıştırmalarını istedi. Aynı anlayış Müslüman önderlerde de vardı. Firmaların yöneticileri de Ermeni olunca, Ermeni işçiler 1901-1903 bunalımı patlak verinceye kadar, patronu kendilerine iş ve para sağlayan bir hayır sahibi gibi düşündüler. Azerbaycan Türkü işçiler için de durum aynıydı; oysa Bakü, Tiflis ve Batum'daki Gürcü işçiler için, bir Gürcü endüstriyel burjuvazisinin yokluğunda mal sahibi her zaman bir yabancı, çoğunlukla da bir Ermeni'ydi. Dolayısıyla Gürcüler arasında sınıf bilincinin millî bilinçle ve yabancı düşmanlığıyla el ele geliştiği daha çabuk ortaya çıktı.[1]

Ermeni işçi hareketleri arasındaki en önemli gelişmelerden biri de 1902 yılında Tiflis'te St. Şaumyan, B. Knunyanets ve A. Zurabyan önderliğinde Ermeni Sosyal Demokratlar Birliğinin oluşmasıdır. 1902 yılından itibaren Rusya Sosyal Demokrat İşçi Partisi komitelerinin Tiflis ve Bakü'deki çalışmalarıyla yakın çevrede de Marksist grup ve toplulukların ortaya çıktığı görülmektedir. Özellikle Erivan'da daha 1903 yılında bile farklı sosyal demokrat gruplar vardı. 1904 yılında ise bu grupları bir araya getirmeye ve hepsi ortak bir şehir örgütü altında toplamaya çalışılır. Bölgede etkin olan bir diğer grup ise St. Şaumyan'ın liderliğini yaptığı Borçalı Sosyal Demokrat Örgütüdür. Bölgedeki işçi ve köylülerin devrimci faaliyetlerine destek olan örgüt, emekçilerin haklarını savunur ve küçük burjuva partileriyle savaşmayı sürdürür. Ermeni sosyal demokrat örgütleri ilk günden itibaren küçük burjuva yanlısı, ulusalcı örgütlerden Hınçak, Sletsifikos ve özellikle Taşnaksutyun'a karşı savaş vermek zorunda kalır.[2]

Azerbaycan Türkleri, genellikle yüksek yerlerde yaşayıp geçimlerini büyükbaş hayvancılığı, narenciye ve zeytin üreticiliği ile sağladılar. Azerbaycan Türkleri arasında, küçük kentli bir entelektüel grup vardı. Petrol endüstrisinin gelişmesiyle birçok Azerbaycan Türkü, Hazar kıyılarında niteliksiz işçiler olarak iş bulmak için tepelerden aşağıya indiler.[3]Bu da Ermenilerin Müslümanlara yönelik düşmanca tavır takınmasında etkili oldu.

1903-1905 Yılları Arasında Kafkasya'da Etnik Çatışmalar. 1901-1903 yıllarındaki ekonomik çöküntü, fazlasıyla donanmış endüstriyel yörelerin geleneksel bir köy ekonomisiyle yan yana var olduğu Güney Kafkasya'yı derinlemesine etkiledi. 1900 ile 1903 yılları arasında iktisadî grevler demiryolu işçilerini, köylüleri, hepsinden çok da Tiflis, Don üzerindeki Rostov, Bakü, Batum ve Guria ilçesinin çok uluslu işçilerini felce uğrattı.1901 ve 1902'de Rus, Gürcü ve Ermeni Sosyal Demokratları tarafından kurulan Tiflis, Bakü ve Batum komitelerinin çabalarıyla grevler siyasileşti ve Ermeni işçiler bu grevlere kendiliklerinden katıldılar.[4] Rusya, Ermeni komitelerinin etkinliğini azaltmak için bölgede Ermenilerle Azerbaycan Türklerini karşı karşıya getirmiş, bu da bölgedeki kargaşanın etnik çatışmalara dönüşmesine sebep olmuştu.[5]Sınırları içerisinde komitacılık yapılmasından rahatsız olan Rusya, Ermeni gazetelerini ya sansüre tabi tuttu ya da kapattı. Ermenicenin kullanılmasını kısıtlayıp Ermeni okullarına ve kiliselerine sıkı bir denetim uyguladı. Ermeni din adamlarının başka ülkelerdeki meslektaşlarıyla yazışmaları Rus hükümeti tarafından kontrol edildi. Rus-Ermeni gerilimi, 1896-1904 yıllarında Kafkasya Genel Valiliği yapan Prens Golitsyn'in önerisi üzerine, Eçmiyazin Kilisesi'nin mallarının 1903 yılında müsadere edilmesiyle doruğa çıktı. Genel Vali ayrıca Azerbaycan Türklerinin yerel yönetimde nüfuslarıyla orantılı görev alamadıkları

---

*Gazi Üniversitesi Gazi Eğitim Fakültesi, Ankara/TÜRKİYE ngunay@gazi.edu.tr

[1] Anaide Ter Minassian, Ermeni Devrimci Hareketi'nde Milliyetçilik ve Sosyalizm 1887-1912, çev. Mete Tunçay, İletişim, İstanbul 2012, s. 42-44.

[2] Arutyunov, G., *Revolyutsionnoye dvijeniye v Armenii v oktyabre-dekabre 1905 goda* (Революционное движение в Армении в октябре—декабре 1905 года) [1905 Yılının Ekim-Kasım Aylarında Ermenistan'daki Devrimci Hareketler], *İzvestiya Akademii Hauka Armyanskoco SSR*, No:10, Yerevan 1955, c. 4-5.

[3] Geoffrey Hosking, Rusya ve Ruslar Erken Dönemden 21. Yüzyıla, Çev. Kezban Acar, İletişim, İstanbul 2011, s. 466.

[4] Minassian, *Ermeni Devrimci Hareketi'nde,* s. 44-45.

[5] *İstoriya Armyanskovo naroda* (История Армянского народа) [Ermeni Halkının Tarihi], red. Avakyan S. İzdatelstvo Yerevanskovo universiteta, Yerevan 1980, c. 251.

konusundaki şikâyetlerini haklı bulup görev dağılımını bu doğrultuda yapmaya başlamış, bu da Ermenilerin valiye duydukları öfkeyi daha da artırmıştı.[6]

Ermeniler arasında kendiliğinden gelişen bir milliyetçi dalga ortaya çıktı. 1903 yazında köylüler, zanaatkârlar, işçiler, tacirler ve aydınlar ayaklandılar. Ermenilerin Rus hükümetine öfkesi arttıkça gösteriler büyüdü ve yönetime karşı bir tavır hâlini aldı. Çıkan çatışmalarda ölü ve yaralılar olduğundan söz edilmeye başlandı ve nihayet gösteriler 2 Eylül 1903'te Bakü'de büyük bir isyana dönüştü.[7] Başlangıçta işçi ve insan haklarına saygı talebiyle ortaya çıkan çatışmalar kısa sürede siyasi bir mahiyet kazandı ve bazı etnik taleplerin ortaya konmasına ve buna bağlı etnik çatışmalara dönüşmeye başlamasına sebep oldu. Kafkasya'da 1901-1903 arasında da karışıklıklar çıkmış ama bunlar çoğunlukla ekonomik sebeplerden kaynaklandığı için taleplerin karşılanması ile problemlerin çözüme kavuşturulması mümkün olmuştu. Ancak 1905 yılının başlarından itibaren Kafkasya'daki eylemlerin büyük çoğunluğu, işçilerin birliği ilkesi yerine etnik gruplarla cemaatlerin taleplerinin öne çıkarılmasından kaynaklanmaktaydı.[8]

Anlaşmazlıklar kısa sürede etnik çatışmaya dönüştü. Bu, durumun çok daha tehlikeli bir vaziyet alması demekti.[9]Bu etnik çatışmalar; Ermeni, Gürcü, Azerbaycan Türkleri ve Çerkez kabileleri arasında oldu. Ermeniler Rus hükümetine karşı Müslüman ahalinin desteğini temin etmeye çalışmıştır. Ermenilerle Müslümanların birleşmesini istemeyen hükümet, buna engel olmak için tarafların arasına nifak sokmuş ve taraflar birbirini katletmeye başlamıştır. Olayların çığırından çıkması üzerine Tiflis'te görev yapan yetkililer, Bakü'de meydana gelen üzücü olayların burada da yaşanmaması için dini önderlerden yardım istedi ve onlardan cemaatlerine mukayyet olmalarını talep etti. Çünkü 3-9 Şubat 1905 tarihleri arasında Ermeni tüccarlarından Bodakof, Maylov ve Karasyaynikov'un evleri yağmalanmış; Tomafov'un da evi gazyağı dökülmek suretiyle içindekilerle birlikte yakılmıştır. Adamov ve karısı da aynı şekilde evlerinde yakılarak öldürülmüştür. Babıcenov ve Lazarov'un evleri de yıkılmıştır. Müslümanların önde gelen isimlerinden Mirza Balbideşov, Ali Ekber Ali Ekberov, Ağa Baba bin Aşomahanov, Cebrail Aliyev, Ali Mahmut Hüseyinov, Mirza Ali Mikailov ve Esaeddin Zeynelov'un mağazalarındaki malları yağmalanmış ve 100 bin ruble civarında bir hasar oluşmuştur. Dini liderler bu duruma son vermek için bazı müşterek çalışmalar yürütüp "*Kafkasya bizim vatanımız*!" düşüncesini işlediler.[10]Ancak Ermeni komitelerinin özellikle Taşnakların sosyalizmin getirdiği devrimcilik fikrini işçi kesim üzerinde işleyip memnuniyetsiz kitleler oluşturduğu ve bu durumu etnik amaçları için kullandığı görülmektedir. Ermenilerin baskı ve katliamına maruz kalan Müslümanlar bir heyet oluşturarak Kafkasya Genel Valisi Vorontsov Daşkov'a gittiler. Heyet, Kafkasya'da meydana gelen müessif olayların Ermenilerin iddia ettiği gibi Müslümanlardan kaynaklanmadığını, Ermenilerin her fırsatta Müslümanları eğitimsizlikle suçlayıp hor gördüklerini, asıl Ermenilerin Müslümanları bölgeden kaçırmak için onlara zulmetme yolunu seçtiklerini ifade edip bu konuda tedbirler alınmasını istediler.[11] Tiflis'teki Müslümanlar, Ermenilerin Bakü ve Suşa'da yaptığı mezalim üzerine Osmanlı padişahı ile İran şahını da bilgilendirdiler.[12]

Ermeniler, Rusya'nın Japonya ile savaşması sırasında Kafkasya Genel Valisi Golitsyn'i öldürmeye kalkıştılar. Rusların Japonlara yenilmesinden sonra ise Kafkasya'daki birçok memuru katlettiler. Katillerin hiçbirinin yakalanamaması Ermenilerin cesaretini daha da artırmış ve Kafkasya'da komitelerin etkinliği önlenemez bir noktaya ulaşmıştı.[13]

Batum Şehbenderliği, Hariciye Nezareti'ne 1 Ağustos 1905 tarihinde gönderdiği tahriratta; Batum jandarmasının Gence (Elizabetpol)'deki Ermeni komitelerine Batum ve Poti üzerinden gönderilen çok sayıda silah ve mühimmatı ele geçirdiğini bildirdi.[14]Ermenilerin silahlanması sonucunda bölgede Müslümanlara yönelik katliamlarda artış gözlendi. Gence eyaletinin Civanşir kazasında, Müslümanlarla Ermeniler arasında çıkan çatışmalarda dokuz kişi öldü. Gence Valisi yanına aldığı 200 Kazak süvarisiyle olaylara müdahale etti. Suşa'da da durumun çok gergin olduğu, her an istenmeyen olaylar patlak verebileceği haberleri gelmekteydi. Hükümet buna meydan vermemek için çeşitli tedbirler aldı.[15]Ancak bu yeterli olmadı ve 12 Ağustos 1905 tarihinde Ermenilerin Müslümanlara saldırması sonucunda 81 Müslüman şehit oldu. Şehirde çıkarılan

---

[6] Candan Azer, *Babadan Oğula Güney Kafkasya Türkiye-Güney Kafkasya İlişkileri*, Truva, İstanbul 2011, s.135.
[7] Minassian, *Ermeni Devrimci Hareketi'nde,* s. 49-50.
[8] A. Holly Shissler, *İki İmparatorluk Arasında Ahmet Ağaoğlu ve Yeni Türkiye*, İstanbul Bilgi Üniversitesi Yayınları, İstanbul 2005, s. 193.
[9] BOA. **Yıldız Arşivi Hususi Maruzat Evrakı** (Y. A. HUS), 485/64 (1322 M 12).
[10] BOA. Y. A. HUS, 486/59, (1323 S 05).
[11] BOA. Y. A. HUS, 491/80, (1323 C 16).
[12] BOA. Y. A. HUS, 492/96, (1323 B 09).
[13] Nejla Günay, *Zoraki İttifaktan Yol Ayrımına İttihat-Terakki ve Ermeniler*, Atatürk Araştırma Merkezi Yayınları, Ankara 2015, s. 8.
[14] BOA. **Dâhiliye Nezareti Tesrii Muamelat Komisyonu Belgeleri** (DH. TMIK. M),204/47, lef 1-2, (1323 C 26).
[15] BOA. Y. A. HUS; 493/63, (1323 Ca 23).

yangınla birçok insan evsiz kaldı.[16] 22 Ağustos 1905 tarihinde Suşa'da sükûnetin sağlandığı haberleri geldi. Fakat Bakü'de 270 Müslümanla 130 gayrimüslimin öldüğü, Bakü'nün her tarafında yangınların devam ettiği, 300 petrol kuyusunun yakılmış olmasının yangını söndürmeyi güçleştirdiği, petrol sevkiyatı yapılan hatlarla birçok fabrikanın tahrip olduğu ve hasar tespiti yapmanın mümkün olmadığı bildirildi.[17] Bu durum bir anda Kafkasya'yı dünyanın ilgi odağı hâline getirdi. Çünkü petrol piyasasındaki dengeler bozuldu. Bakü'de toplam 150 milyon varil civarında petrolün yanması ve hatların tahrip olmasıyla bütün sevkiyatın durması petrol fiyatlarının artmasına sebep oldu. Petrol yan ürünlerinin bulunması zorlaştı. Özellikle piyasada neft yağı tedarik etmek çok güçleştiğinden bu ürün fahiş fiyata satılmaya başlandı.[18]Rusya'daki bütün sanayi dalları bu gelişmeden olumsuz etkilendi.[19]

Sosyal Demokrat gruplar, bu karışıklıkları kendi yararlarına kullanmak için büyük çaba gösterdiler. 3 Ekim 1905 tarihinde Tiflis Belediyesinde Şura-yı Devlet'e seçilecek üyeler hakkında görüşmeler yapılırken aralarında Rus, Gürcü ve Ermenilerin bulunduğu bir sosyal demokrat grup toplantı salonuna baskın yapıp zabıta kuvvetlerine ateş açtı. Kazak süvarileriyle piyade devriye kollarının karşı ateş açması sonucunda bunlardan 30'u öldürüldü, birçoğu yaralandı. Ölenlerden yedisinin, yaralılardan 70'inin kadın olduğu belirlendi. İki saat kadar süren çatışma sonrasında çok sayıda insan da tutuklandı.[20] Sosyal Demokratlar bu olaydan sonra daha büyük karışıklıklara yol açabilecek eylemlere giriştiler. Olayda ölenlerin cenaze töreni nedeniyle bir beyanname yayımladılar ve tehditle şehirdeki bütün mağaza, dükkân, lokanta gibi ahalinin ihtiyaçlarını karşılayabileceği yerleri kapattırdılar.[21]

Tiflis Başşehbenderliği'nden Hariciye Nezareti'ne bildirildiğine göre; 7 Kasım 1905'te karışıklıklar iyice arttı. Tiflis'in değişik mahallelerine bombalar atıldı. Hatta Genel Vali'nin sarayını korumakla görevli olan Kazak Alayları doğrudan hedef alındı ve onların üzerine bomba atılmasıyla birçok Kazak askeri hayatını kaybetti. Olaylarda 200'den fazla ölü ve birçok yaralı olduğu belirlendi.[22]Tiflis'te meydana gelen saldırılardan en çok etkilenenler Müslüman köyleri oldu. Osmanlı hükümeti, katliamların önlenmesi ve köyleri basılıp yakılan Müslümanlara yardım edilmesi için bazı girişimlerde bulundu. Bunun sonucunda Tiflis askeri deposundan Müslüman köylülere çadır dağıtıldı.[23] Ermeniler baskın yapıp kontrol altına aldıkları Müslüman köylere, dışarıdan erzak sokulmasını önleyince buralarda açlık baş gösterdi.[24] Bölgede yaşayan ve yangınlardan, asayişsizlikten bunalan Müslüman tebaa, demiryollarının kapalı olmasından dolayı Osmanlı Devleti'nin Batum'a bir vapur gönderip oradaki Müslümanları tahliye etmesini talep etti.[25]

Rusya 1905 yılında Japonya'ya yenilmesinden sonra iç ve dış politikasını yeniden gözden geçirmek zorunda kaldı. Çarlık yönetimi, Kafkasya'daki şiddet olaylarını Ermeni devrimcilerin organize ettiğini anlamakta gecikmedi ve buna engel olmak için daha önce el koyduğu Ermeni kilisesine ait mal ve emlaki Kafkasya Ermeni Ruhani Heyeti'ne iade etti.[26] Rusya, kendi tebaası Ermenilerin milliyetçi çalışmalar yapmalarını engellemeye yönelik tedbirler alma ihtiyacı duydu ve Taşnakların kendi topraklarında barınmasını göze alamadı.[27]Rusya, kendi sınırları içerisindeki komitacıları temizledikten sonra Ermeni halkının sadakatini garantiye aldı. Ardından Osmanlı topraklarında karışıklık çıkarmaya yönelik çalışmalar yaptı. Ermeniler ise Müslümanların bölgeyi boşaltması için insanlık dışı yollara başvurdular. Rusya'nın da desteğiyle bölgedeki Müslümanlara yönelik katliamlar başlatıp Müslüman köylerindeki ahaliyi acımasızca öldürdüler.[28] Kafkasya Genel Valiliği'nde çalışan üst düzey Ermeni memurları aracılığıyla silahlandırılan Ermeni çeteleri, 1905-1906 yıllarında Bakü, Erivan, Nahçıvan, Zenzegur, Karabağ, Gence, Tiflis ve diğer yerlerde yaşayan Azerbaycan Türklerine ve diğer Müslüman ahaliye karşı katliam başlattılar. Ermeniler bu şekilde bölgede nüfus üstünlüğü sağlamaya çalışıyorlardı. Çünkü o dönemde bölgedeki 54 kazadan sadece beşinde Ermeni nüfus daha fazlaydı.[29]

---

[16] BOA. Y. A. HUS, 493/110, (1323 Ş 04).
[17] BOA. Y. A. HUS, 494/036, (1323 Ş 12).
[18] BOA. Y. A. HUS, 494/79, (1323 Ş 19).
[19] BOA. Y. A. HUS, 495/1, (1323 N 01).
[20] BOA. Y. A. HUS, 494/81, (1323 Ş 19).
[21] BOA. Y. A. HUS, 495/16, lef 3, (1323 N 02).
[22] BOA. Y. A. HUS, 496/28, lef 3, (1323 L 07).
[23] BOA. Y. A. HUS; 493/59, (1323 B 24).
[24] BOA. Y. A. HUS; 499/57, (1323 Z 12).
[25]BOA. Y. A. HUS; 499/12, (1323 Z 03).
[26] BOA. Y. A. HUS, 493/24 (1323 B 17).
[27] Musa Qasımlı, *Kafkaslarda Ermeni Sorunu 1724-1920,* Ankara 2014, s.179, 186-187, 193, vd.
[28] BOA. Y. A. HUS; 500/6, (1323 M 02).
[29] Nazim Mustafa, "Ermenilerin 1905-1906 Yıllarında Güney Kafkasya'da Yaptıkları Katliamlar", *Atatürk Dergisi*, cilt 3, sayı 1(2014), s. 3.

Osmanlı Devleti, Kafkasya'daki Müslümanların maruz kaldığı katliamları çok yakından takip etti. Tiflis, Batum şehbenderlikleri kendilerine müracaat eden kişilere yardım elini uzattı. Saldırılar sonucunda birçok Müslüman yaşadığı toprakları terk etmek zorunda kaldı.[30]

Sonuç. XX. yüzyıl başlarında Kafkasya'da işveren ve işçiler etnik kimlikleriyle öne çıkmaya başladı. Ermeniler hem işçi hem işveren statüsündeydi. Azerbaycan halkı ise yüksek yerlerde hayvancılık ve zeytincilikle uğraşırken petrol endüstrisinin gelişmesiyle vasıfsız işçi statüsünde çalışmak üzere düzlük yerlere indiler. Başlangıçta ekonomik taleplerden kaynaklanan anlaşmazlıklar zaman içinde cemaatlerin taleplerine dönüştü. Bu da anlaşmazlıkların büyük etnik çatışmalara dönüşmesine sebep oldu. Rusya bölgede kargaşa çıkmasını istediği için bu çatışmaları körükledi.

Farklı etnik grupların çatışmasında Ermenilerin Müslümanlara yönelik katliamları dikkat çekici boyutlardadır. Rusya'nın Japonlara yenilmesinden Ermenilerin saldırılarında artış gözlenmiş ve Müslümanlar Ermeni fedailer tarafından şehit edilmiştir. 1905 yılında Bakü, Gence, Tiflis ve Şuşa'da çok sayıda Müslüman şehit edildi. Çünkü Japonya'ya yenilen Rusya Ermeni tebaası ile arasını düzeltti. Bu bölgeyi Müslümanlardan arındırmak isteyen Ermenilerin Bakü, Erivan, Nahçıvan, Zenzegur, Karabağ, Gence, Tiflis başta olmak üzere geniş bir alanda Müslümanlara karşı insanlık dışı muameleler sergilemesine sebep oldu.

KAYNAKÇA

Arşiv Belgeleri

Cumhurbaşkanlığı Osmanlı Arşivi (BOA)

Dâhiliye Nezareti Tesrii Muamelat Komisyonu Belgeleri (DH. TMIK. M),204/47, lef 1-2, (1323 C 26).

Yıldız Arşivi Hususi Maruzat Evrakı (Y. A. HUS), 485/64 (1322 M 12).

Y. A. HUS, 486/59, (1323 S 05).

Y. A. HUS, 491/80, (1323 C 16).

Y. A. HUS, 492/96, (1323 B 09).

Y. A. HUS; 493/63, (1323 Ca 23).

Y. A. HUS, 493/110, (1323 Ş 04).

Y. A. HUS, 494/036, (1323 Ş 12).

Y. A. HUS, 494/79, (1323 Ş 19).

Y. A. HUS, 495/1, (1323 N 01).

Y. A. HUS, 494/81, (1323 Ş 19).

Y. A. HUS, 495/16, lef 3, (1323 N 02).

Y. A. HUS, 496/28, lef 3, (1323 L 07).

Y. A. HUS; 493/59, (1323 B 24).

Y. A. HUS; 499/57, (1323 Z 12).

Y. A. HUS; 499/12, (1323 Z 03).

Y. A. HUS, 493/24 (1323 B 17).

Y. A. HUS; 500/6, (1323 M 02).

Y. A. HUS; 498/121, (1323 Za 27).

Araştırma ve Tetkik Eserler

ARUTYUNOV, G., Revolyutsionnoye dvijeniye v Armenii v oktyabre-dekabre 1905 goda (Революционное движение в Армении в октябре—декабре 1905 года) [1905 Yılının Ekim-Kasım Aylarında Ermenistan'daki Devrimci Hareketler], *İzvestiya Akademii Hauka Armyanskoco SSR*, No:10, Yerevan 1955, cc. 3-24.

AZER, Candan; *Babadan Oğula Güney Kafkasya Türkiye-Güney Kafkasya İlişkileri*, Truva, İstanbul 2011.

GÜNAY, Nejla; *Zoraki İttifaktan Yol Ayrımına İttihat-Terakki ve Ermeniler*, Atatürk Araştırma Merkezi Yayınları, Ankara 2015.

HOSKING, Geoffrey; *Rusya ve Ruslar Erken Dönemden 21. Yüzyıla*, Çev. Kezban Acar, İletişim, İstanbul 2011.

İSTORİYA ARMYANSKOVO NARODA (История Армянского народа) [Ermeni Halkının Tarihi]; red. Avakyan S. İzdatelstvo Yerevanskovo universiteta, Yerevan 1980.

MINASSIAN, Anaide Ter; *Ermeni Devrimci Hareketi'nde Milliyetçilik ve Sosyalizm 1887-1912*, çev. Mete Tunçay, İletişim, İstanbul 2012.

NAZİM MUSTAFA; "Ermenilerin 1905-1906 Yıllarında Güney Kafkasya'da Yaptıkları Katliamlar", *Atatürk Dergisi*, cilt 3, sayı 1(2014), ss. 1-12.

QASIMLI, Musa; *Kafkaslarda Ermeni Sorunu 1724-1920*, İpek Üniversitesi Yay., Ankara 2014.

[30] BOA. Y. A. HUS; 498/121, (1323 Za 27).

SHISSLER, A. Holly; *İki İmparatorluk Arasında Ahmet Ağaoğlu ve Yeni Türkiye*, İstanbul Bilgi Üniversitesi Yayınları, İstanbul 2005.

AZƏRBAYCANIN QARABAĞ ZƏFƏRİ: TARİXİ ƏDALƏTİN BƏRPASI

Nəsirova N.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nargiz917@gmail.com

Açar sözlər: *zəfər, tarix, ədalət, bərpa, münaqişə*

Ədalətsizliyi doğuran səbəblər. Bütün tarix boyu insanların arzuladığı ən başlıca məsələ ədalətli mühitdə, cəmiyyətdə sərbəst, azad yaşamaq olub. Hüquqların məhdudlaşdırılması, pozulması, kənar müdaxilələr isə acı faciələrə, dağıntılara, hətta inqilablara səbəb olub. Təəssüflər olsun ki, rəqəmsallaşma, robotlaşma dövrünə qədəm qoyan çağdaş dünyamızda yenə də antik düşüncə tərzindən – başqa xalqlara, dövlətlərə məxsus torpaqların, təbii ehtiyatların min bir bəhanə ilə ələ keçirilməsi-yağmalanması fikrindən əl çəkmək istəməyən qüvvələr mövcuddur. Anlaşılmazlıq doğuran məsələ odur ki, tarixin mizan-tərəzisi, birgəyaşayışın balansı, dünyanın nizamı super güc dövlətlər tərəfindən kobudcasına pozulur. Nəticədə dövlətlər iflasa uğradılır, şəhərlər, kəndlər viran qoyulur, insanlar tələf olur, yaxud tarixi yurdlarından məhrum edilərək didərgin salınır. İraq, Suriya, Liviya, Yəmən, Əfqanistan, Ukrayna və dünyanın onlarla digər bölgələrində cərəyan edən hadisələr, miqrantların sayının ilbəil çoxalması onu deməyə əsas verir ki, ədalətsizlik adi yaşayış tərzinə çevrilir.

Müasir dünyamızda baş verən hadisələrin səthi təhlili belə bu ədalətsizliklərin başlıca başvermə səbəblərini ortaya çıxarır: başqa dövlətləri zəiflətmək, öz təsiri altına, özündən asılı vəziyyətə salmaq, təbii ehtiyatlarını ələ keçirmək, daha çox sərvət toplamaq. Hegemonluq, ağalıq iddiası ilə yaşayan super güclərin başlıca hədəfi dünyanı yenidən bölüşmək, daha çox əraziyə nəzarət etməkdir. Ağıl, zəka, sağlam düşüncə tərzinə tamamilə yad olan bu "qəbilə" yanaşması isə müasir dünyamız üçün yaxşı heç nə vəd etmir, əksinə, onu sonu görünməyən yeni böhranlara sürükləyir. İnsanların adi sosial problemlərini həll etmək əvəzinə milyardlarla vəsaiti yeni kütləvi qırğın silahlarının kəşfinə və istehsalına sərf etmək və bunu dünyaya böyük fəxarətlə bəyan edərək özünü qəhrəman kimi göstərmək isə sadəcə təəssüf və ikrah hissi doğurur.

Azərbaycanın 1980-ci illərin sonunda məqsədyönlü şəkildə düçar edildiyi keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəbləri də təxminən eynidir: müxtəlif xarici qüvvələrin və erməni lobbisinin üst-üstə düşən maraqları. Burada ermənilərin torpaq iddiaları məsələnin görünən tərəfidir. Özü də bu iddia yeni məsələ deyil, onun izləri təxminən 200 il bundan əvvələ gedib çıxır. Belə ki, 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrində [1] sonrakı qısa müddətdə İrandan və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan ərazilərinə, xüsusən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının torpaqlarına köçürülməsi ilə milli faciəyə start verildi və bu bölgələrdə əhalinin etnik tərkibi süni şəkildə, qəsdən ermənilərin xeyrinə dəyişdirilməyə başlanıldı. Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaradılmasından ruhlanan ermənilər havadarlarına arxalanaraq "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək məqsədi ilə əzəli Azərbaycan torpaqlarına sahib çıxmaq, qətl, qırğın törədərək azərbaycanlıları tarixi-etnik torpaqlarından zorla çıxarmaq və Ermənistan ərazisini genişləndirmək siyasətini açıq-aşkar həyata keçirməyə başladılar.

1905-1907-ci illərdə Bakı, Naxçıvan, İrəvan, Zəngəzur, Dağlıq və Aran Qarabağ bölgələrində, 1918-ci ilin mart ayından 1920-ci ilin martınadək ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına [2] əsasən 150 mindən çox azərbaycanlının əzəli torpaqlarından deportasiya edilməsi, 1988-1992-ci illərdə Ermənistanın planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 250 min azərbaycanlının tarixi torpaqlarından zorla qovulması və nəhayət, Ermənistan silahlı qüvvələri tərəfindən 1988-1993-cü illərdə Azərbaycan torpaqlarının 20 faizinin – Dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisinin işğalı təticəsində 700 min nəfərədək azərbaycanlının məcburi köçkün düşməsi, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən XX əsrin faciəsi hesab edilən Xocalı soyqırımının törədilməsi artıq bütün dünyaya məlum olan ədalətsizliklərin acı nəticələridir.

Ədalətsizliyin acı nəticələri. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın beşdə bir hissəsi 30 il işğal altında saxlanıldı, bir milyona yaxın soydaşımız yurd nisgili ilə yaşamağa məcbur oldu, 20 min nəfər azərbaycanlı həyatını itirdi, 100 min nəfər yaralandı, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil oldu, 4 mindən çox vətəndaşımız itkin düşdü, əsir-girov götürüldü.

Erməni vandalları Azərbaycanın 900 yaşayış məntəqəsini, 150 min evi, 7 min ictimai binanı, 693 məktəbi, 855 uşaq bağçasını, 695 tibb müəssisəsini, 927 kitabxananı, 808 klubu, 85 musiqi məktəbini, 473 tarixi abidəni, 22

muzeyi, 40 min muzey eksponatını, 4 rəsm qalereyasını, 10 mədəniyyət və istirahət parkını, 44 məbədi, 67 məscidi, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsini, 394 poçt və telekommunikasiya obyektini, 188 telekommunikasiya qurğu və stansiyaları, 2561 km rabitə xəttini, 210 km dəmir yolunu, 2 670 km avtomobil yolunu, 160 körpünü, 2 300 km su, 2 000 km qaz, 15 000 km elektrik xəttini, 280 min hektar meşə sahəsini, 1 mln. hektar kənd təsərrüfatı üçün yararlı torpağı, 1200 km irriqasiya sistemini darmadağın etdilər. [3] Azərbaycanın Gəncəsər və Xudavənd monastırlar kompleksi və digər alban abidələrini mənimsəməklə, onlara aid olan detal və yazılara erməni element və yazıları əlavə etməklə işğalçılar Qafqaz Albaniyası kilsələrini öz abidələri kimi dünyaya təqdim edirdilər.

Azərbaycan dövləti ermənilərin bu vəhşilikləri haqqında zaman-zaman beynəlxalq təşkilatlara və ictimaiyyətə konkret faktlarla məlumat verəndə onlar inanmırdılar, bəlkə də etiraf etmək istəmirdilər. Ancaq 44 günlük müharibə nəticəsində azad olunmuş torpaqlarımıza səfər edəndə bütün bu dağıntıların, vandalizmin əyani şahidi oldular.

Haqsızlıq və beynəlxalq səviyyəli ikili yanaşma. Azərbaycan 30 il beynəlxalq hüquqa güvənərək müxtəlif tribunalardan öz haqq səsini ucaltdı, beynəlxalq aləmi reallığı görməyə və onu düzgün qiymətləndirməyə səslədi. Lakin təəssüflər olsun ki, beynəlxalq təşkilatlar yalnız kağız üzərində qalan qərarlar, qətnamələr qəbul etməklə kifayətləndilər. Özlərinin qərarlarına belə sayğısızlıq, etinasızlıq nümayiş etdirdilər, icrasını təmin etmək üçün isə heç bir addım atmadılar. Hər şeyi qondarma, əldəqayırma Minsk Qrupunun üstünə atdılar. Bu qurumun təmsilçiləri isə öz missiyalarını yerinə yetirmək əvəzinə, turist kimi bölgəyə saysız-hesabsız səfərlərlə, mənasız görüşlərlə, məqsədsiz danışıqlarla görüntü yaratmaqdan başqa konkret bir təklifi ortaya qoya bilmədilər və ya qoymaq istəmədilər. Beləcə öz mandatlarının və öz iş yerlərinin müddətini süni şəkildə uzatmağa, status-kvonu saxlamağa, münaqişəyə "dondurulmuş münaqişə" damğası vurmağa çalışdılar.

Azərbaycan bu ikili standartlara, qeyri-konstruktiv yanaşmalara, bir sözlə, haqsızlıqlara səbrlə, təmkinlə dözdü və tarixi ədaləti özü bərpa edəcəyi günə məqsədli, sistemli şəkildə hazırlaşdı.

30 il ərzində keçmiş məcburi köçkün soydaşlarımız arasında demoqrafik göstəricilər təzələndi, yaşlı nəslin xeyli hissəsi dünyasını dəyişdi, ata-baba yurdunu görməyən yeni nəsil meydana gəldi. Lakin uzun müddət keçməsinə baxmayaraq, yurd həsrəti, nisgili, geriyə qayıdış istəyi, inamı azalmadı,əksinə, dövlət də, vətəndaşı da öz əzmini qoruyub saxladı və yeri gəldikcə müxtəlif səviyyələrdə bunu qətiyyətlə bəyan etdi. Burada xalqın seçdiyi rəhbərə etibarı, dövlətin yeritdiyi xarici siyasətə inamı da xüsusi rol oynadı.

Bizi Zəfərə qovuşduran illər. Beynəlxalq hüququn acizliyini, xarici dövlətlərin, beynəlxalq təşkilatların səthi, ikili yanaşmalarını görən Azərbaycan dövləti öz ali məqsədinə çatmaq üçün qarşıda duran prioritet vəzifələri düzgün müəyyənləşdirdi: güclü dövlət, güclü iqtisadiyyat, qüdrətli ordu və milli birlik.

Ötən 18 ilin iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, 2003-cü il ilə müqayisədə iqtisadiyyat 3 dəfə, valyuta ehtiyatları 27 dəfə, dövlət büdcəsi təxminən 30 dəfə, hərbi büdcə isə 15 dəfədən çox artıb.[4] Hər il Azərbaycan müdafiə xərclərinə Ermənistanın illik büdcəsi həcmində vəsait ayırıb, peşəkar hərbçilərin yetişdirilməsi, ordunun ən müasir silah-sursatla təminatı ən prioritet məsələlərdən olub. Təsadüfi deyildir ki, bu gün Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasında 50-ci yerdədir. 44 günlük Vətən müharibəsinin bəzi hərb səhnələri, xüsusilə Şuşanın azad edilməsi, Füzuli və Ağdam istiqamətlərində ermənilərin keçilməz qala hesab etdikləri istehkamların qısa müddətdə darmadağın edilməsi XXI əsrin hərb tarixinə həkk olunub və dünyanın hərbi mütəxəssisləri tərəfindən müasir döyüş nümunələri kimi öyrənilməkdədir.

Bu dövr ərzində Azərbaycanda milli birliyin təmin edilməsinə və daha da möhkəmləndirilməsinə xüsusi önəm verildi, Azərbaycanın müstəqilliyinin qorunması, torpaqların azad edilməsi üçün hər an hazır olan vətənpərvər, gənc nəsil yetişdirildi. Məhz bunun nəticəsidir ki, Vətən müharibəsinin ilk günlərindən xalq yumruq kimi birləşərək orduya mənəvi dəstək oldu. Xeyli soydaşımız könüllü olaraq cəbhəyə yollandı, silaha sarılaraq əsgər və zabitlərimizlə birlikdə torpaqlarımızı yağı düşməndən təmizlədi. Bəzi televiziya kanallarının həmin günlər yayımladıqları cəbhə reportajlarında yol boyu ön xəttə irəliləyən ordumuza vətəndaşlarımızın necə ürəklə yardım etdiklərinin canlı şahidləri olmuşuq. Həqiqətən, bu qürurverici səhnələr xalqla ordu birliyinin, mübarizliyin, haqq uğrunda savaşın bariz nümunələri idi!

Ədalətin Zəfəri. Xalqın 30 il ərzində səbirsizliklə gözlədiyi gün - haqqın-ədalətin bərpası günü, nəhayət, yetişdi. 2020-ci il sentyabrın 27-si Azərbaycan dövləti, xalqı və ordusu öz tarixi missiyasını yerinə yetirərək düşmənlə ölüm-dirim savaşına qalxdı. Ermənistan silahlı qüvvələrinin 5 il ərzində (1988-1993-cü illər) işğal etdikləri, 30 il müddətində işğal altında saxladıqları torpaqlarımız müzəffər ordumuzun şücayəti, qəhrəmanlığı sayəsində cəmi 44 günə azad olundu. Xalqımızın qürur mənbəyi olan 8 Noyabr - Zəfər Günü Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Ermənistan siyasi, iqtisadi, hərbi, mənəvi cəhətdən tam iflasa uğradı, uzun illər dünyaya yaydıqları erməni mifi darmadağın edildi. Azərbaycan heç bir beynəlxalq təşkilatın dəstəyi olmadan beynəlxalq təşkilatların, o cümlədən BMT-nin qərar və qətnamələrinin icrasını təmin etdi, tarixi ədaləti bərpa etməklə öz ərazi bütövlüyünü təmin etdi, vətəndaşlarının öz yurdlarına ləyaqətlə qayıdışına münbit şərait yaratdı.

Həmin təlatümlü günlərdə qardaş Türkiyə və Pakistandan başqa heç bir dövlət Azərbaycana mənəvi dayaq olmadı, əksinə, hər vasitə ilə müharibəni dayandırmağa, ermənilər xilas etməyə çalışdılar. Hətta üzdə bizə dost deyən bəzi dövlətlər içərisində ikili oyun oynayaraq ermənilərə silah-sursat, yanacaq göndərənlər, əlaltdan müxtəlif

köməklik göstərənlər də tapıldı. Müharibənin qızgın çağında yenə də təxribata əl atan ermənilər döyüş zonasından kənarda yerləşən şəhər və kəndlərə, mülki əhaliyə raket zərbələri, fosfor bombaları atanda xarici ölkələrin diplomatik korpusunun, kütləvi informasiya vasitələrinin nümayəndələri dəfələrlə həmin yerlərdə oldular, erməni vəhşiliyini, 100-dən çox həlak olan insanı, 400 dağılan evi gözləri ilə gördülər. Amma dünya yenə də susdu, ermənivə "dayan, dur" demədi. Bu gün də onlar ermənininin başını sığallayırlar. Belə haqsızlıqlarla gələcəkdə də rastlaşacağıq. Vəzifəmiz, nicat yolumuz:

1. Biz həmişə yumruq kimi bütöv və güclü olmalıyıq, dövlətimizi, ordumuzu daim möhkəmləndirməliyik ki, rastlaşacağımız hər bir təhlükəni ləyaqətlə aradan qaldıra bilək.

2. Türkiyə, Pakistan və bizə yaxın olan digər dövlətlərlə güclü BİRLİK yaratmalıyıq.

Heç kəsə sirr deyil ki, dünyanı güclər idarə edir, maraqlara söykənən qütbləşmə getdikcə dərinləşir. Burada haqq, ədalət ikinci plana keçir. Ümumiyyətlə, qalibiyyət gücə bağlıdır, kim güclüdür, o da qələbə çalır. Tarix boyu belə olub, indidən sonra da belə olacaq. Azərbaycanımızın şanlı tarixinə əbədi həkk olunan Qarabağ Zəfəri də böyük güc - dövlətin, rəhbərin, ordunun, xalqın birliyi hesabına qazanılb. Bu birlik bizim tarixi sərvətimizdir. Qarabağ Zəfəri həm də tarixi ədalətin Zəfəridir.

ƏDƏBİYYAT

1. 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələri.

2.SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliiyinin rəsmi saytı www.justice.gov.az

4. "Azərbaycan Respublikasının 2022-ci il üçün dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. 23 dekabr 2021.

SUMMARY

KARABAKH VICTORY OF AZERBAIJAN: RECOVERY OF HISTORICAL JUSTICE

Nasirova N.M.

The article is provided with the reasons of Armenian occupation of Azerbaijan's historical lands, the history of conflicts, the results and processes of events. At the same time the unfairness of the agreements signed between Russia and Iran, which led to the resettlement of Armenians in the historical lands of Azerbaijan and its results,bipartial approaches of international organizations to this conflict are noted.

The article also discusses Azerbaijan's struggle for justice, its important work in the political, economic, military and spiritual spheres to restore historical justice, and explains the achievements with concrete facts.

As a result, it is said that our ancient lands, which were occupied for 30 years, were liberated in just 44 days thanks to the heroism of our soldiers and officers. November 8 - Victory Day, a source of pride of our people, has been forever written in golden letters in the glorious history of Azerbaijan. This victory, which is a celebration of the sovereign right of our state, ensured the territorial integrity of Azerbaijan, restored the moral rights of our people and restored historical justice. The Victory of Karabakh is also the Victory of historical justice.

Key words: *victory, history, justice, recovery, conflict*

РЕЗЮМЕ

КАРАБАХСКАЯ ПОБЕДА АЗЕРБАЙДЖАНА: ВОССТАНОВЛЕНИЕ ИСТОРИЧЕСКОЙ СПРАВЕДЛИВОСТИ

Насирова Н.М.

В статье говорится о причинах оккупации древних азербайджанских земель армянами, об истории этого конфликта, процессе и результатах происходящих событий. В то же время отмечается подписание несправедливых соглашений между Россией Ираном и Турцией, чему послужило переселение армян на исторические земли Азербайджана, результаты этой несправедливости, двойное отношение международных организаций к трагическим событиям в регионе.

В статье также отмечается борьба Азербайджана за правое дело, раскрывается проделанная важная работа для восстановления исторической справедливости в политической, экономической, военной, моральной сферах, конкретными фактами объясняются завоеванные успехи.

И как результат указывается, что земли, оккупированные армянами на протяжении 30 лет, героическим подвигом наших солдат и офицеров были освобождены всего за 44 дня. Гордость нашего народа 8 ноября – День Победы – вписано в славную историю Азербайджана золотыми буквами. Эта Победа, явившаяся торжеством суверенного права нашего государства, обеспечила территориальную целостность Азербайджана, вернула народу его нравственное право и обеспечила историческую справедливость. Карабахская Победа – это победа исторической справедливости.

Ключевые слова:*победа, история, справедливость, восстановление, конфликт*

ŞUŞALI MƏCBURİ KÖÇKÜNLƏR: DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ, MƏKAN, KOLLEKTİV YADDAŞ

Pərvin Ahənçi
Azərbaycan Milli Elmlər Akademiyası
Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Bakı, Azərbaycan
ahanchiparvin@gmail.com

Açar sözlər: *Dağlıq Qarabağ münaqişəsi, şuşalı məcburi köçkünlər, kollektiv yaddaş, narrativlər, məkan, məhəllə.*

Dağlıq Qarabağ münaqişəsi və Birinci Qarabağ müharibəsi nəticəsində Şuşa şəhərinin sakinləri ata-babalarının əsrlərcə yaşadıqları doğma torpaqlarını məcburən tərk etməyə vadar oldular. Hadisələrin sürətlə gərginləşməsi, şəhərin mütəmadi atəşə tutulması evlərin, idarələrin dağıntılara məruz qalması, yüzlərlə insanın ölümü, sakinlərin öz mülklərini tərk edib zirzəmilərdə sığınacaq tapmaqları ilə nəticələndi. İnsanlar kitablardan oxuduqları, filmlərdə izlədikləri, heç ağıllarına belə gətirmədikləri müharibə şəraitində yaşamaq məcburiyyətində qaldılar.

Xankəndində dislokasiya olunmuş sovet 366-cı motoatıcı alayı separatçı qüvvələri hərbi ləvazimatla, o cümlədən "Kristall", "Alazan" raketlərilə təmin etməsi Şuşanın yollarında, ətraf kəndlərində, eləcə də şəhərin daxilində sabit həyata son qoydu. Davamlı gərginlik, qeyri-müəyyənlik, stress, qorxu, erməni ultramillətçi qruplarının günahsız insanlara qarşı törətdikləri terror hadisələri ümumilikdə bütün Şuşa rayonunun sakinlərini məcburən yaşadıqları əraziləri tərk etməyə məcbur etdi.

Azərbaycan ərazisinin 20 faizinin Ermənistan və rus birləşmiş qoşunları tərəfindən işğalı nəticəsində Şuşanı tərk etmək məcburiyyətində qalan insanlar həmin münaqişə, onun əsas ideoloji əsaslarının formalaşması və bu ideyanın icraçıları haqqında, eləcədə müharibə ilə bağlı daha geniş ictimaiyyət üçün mühüm və hələ də əhatəli araşdırılmamış ilkin informasiya mənbəyidir [1]. Müəllif bu boşluğu aradan qaldırmaq məqsədilə Şuşa şəhərinin yaşlı sakinlərinin (hazırda 60-70 yaş arası) və orta nəslin nümayəndələrinin (münaqişə başlayanda onların 15-20 və ya daha çox yaşı var idi) məcburi köçkün düşmələrini, "məcburi köçkün" statusunda yaşayıb, məskunlaşdıqları ərazilərə adaptasiya olmaqları barədə təcrübələri, yaddaşlarında hazırkı həyatlarını və Şuşanı öz məkanları kimi necə əlaqələndirdikləri barədə apardığı müsahibələrin nəticələrini təqdim edir.

Şuşalı məcburi köçkünlər öz narrativlərini [2] bölüşdükdə tədqiqatçıların "icmaların yaddaşı" [3] adlandırdıqları anlayışı formalaşdırırlar. Müsahibələrdə ayrı-ayrı məcburi köçkünlərin yaşadıqları travmatik və həyatlarını dəyişdirdikləri hadisələrə dəyərləndirdikdə yaddaşlarından necə istifadə etdiklərini öyrənmək xüsusi maraq doğurur. İcmaların yaddaşı homogen olmadığını və kollektiv yaddaşın mürəkkəb ola biləcəyini qeyd edərək, məcburi köçkünlərin şəxsi təcrübələrini yerli, regional, milli və dünya tarixi kontekstləri ilə əlaqələndirmək üçün yaddaşdan necə istifadə etdiklərini öyrənmək xüsusi maraq kəsb edir.

Müəllif "Dağlıq Qarabağ münaqişəsi, işğalı və məcburi köçmənin şahidlərinin şifahi tarix arxivi" mövzusunda daha geniş və davam etdirilən layihə çərçivəsində indiyədək Şuşalı məcburi köçkünlərlə 84 müsahibə aparıb. Aparılan müsahibələrə əlavə olaraq, məcburi köçkünlərin şəxsi məlumatları (adı, soyadı, milliyyəti, sosial mənşəyi, Şuşadakı ev ünvanı, təhsili, peşəsi və s.), habelə məskunlaşdığı yaşayış məntəqəsinin ünvanı, qohumların vəfatı, adaptasiya prosesləri, humanitar yardımdan istifadə imkanları, münaqişəyə dair ümumi baxışları və s. əks etdirən orijinal anketlər də paylanmışdı [3].

Münaqişə və işğalı bir neçə prizmadan tədqiq etmək üçün müsahiblərin real həyat hekayələrinin səsləri sənədli filmlərin, arxiv səhifələrinin, nəşr olunan məqalələrin və kitabların hamısından kənarda durur. Müxtəlifliyi ilə seçilən, istər həyəcanlı, istərsə də kədərli, ədalətə çağıran məsum və məzlum ifadələrdir. Demək olar ki, əksər hallarda müsahiblər münaqişə ilə bağlı həyat hekayələrini, xatirələrini daha geniş ictimaiyyətin diqqətinə çatdırmaq üçün məmnuniyyətlə bölüşürdülər.

Qarabağın hər bir şəhəri, kəndi, qəsəbəsi və məhəlləsi memarlıq, adət və ənənələri də daxil olmaqala bir çox cəhətdən unikaldır. Bu isə, hər bir icmanın öz tarixi və "kollektiv imici" olduğunu təsdiqləyir. Tarixən Şuşanın şəhərsalma və arxitektura quruluşu məhəllələrdən ibarət idi. Belə ki, ilkin mənbələrə əsasən, şəhər əhalisi hər bir məhəlləyə məxsus olan məscid və hamam daxil edilməklə 17 məhəllədə yaşayırdı (XVIII-XIX-cu əsrlər). Məhz məhəllə formatında yaşayıb fəaliyyət göstərmiş əhalinin şüur və davranışında möhkəm qohumluq bağlılığı, doğmalıq, mehribançılıq, qayğıkeşlik, təəssübkeşlik, xeyir-şərdə kömək əli uzadılması kimi mənəvi dəyərləri sistemini formalaşdırmışdı. Bu Şuşa şəhəri əhalisinin (müsəlman əhalidən söhbət gedir) sıx şəkildə yaşayan və bir-biri ilə qohumluq, tanışlıq əlaqələri ilə bağlı idi. Münaqişə və sonrakı müharibə mərhələsi insanları bir-birindən ayırdı və gündəlik həyat münasibətlərinə son qoydu.

Məcburi köçkünlərin kollektiv yaddaşında həkk olmuş düşüncələrini çox kövrək misralar əhatə edir:

"...El-obamızdan uzaq düşdüyümüzdən hələ də özümüzü qaçqın hesab edirik...

"Doğma ölkəmizdə belə özümüzü Şuşadakı kimi rahat hiss edə bilmirik, çünki çox dərin bir məna var "öz elimdə, öz obamda..."

Müsahibə apardığım məcburi köçkünlərin məskunlaşdıqları qəsəbə və yataqxanalarında Sabir Rüstəmxanlının şerinə Eldar Mansurovun bəslədiyi "Halımı sorma" mahnısı (Ağadadaş Ağayevin ifasında) çox məşhurdu. Xüsusən yaşlı respondentlər şerin aşağıdakı bəndini gözlərində yaş, titrkək, kövrək səslə deyirdilər:

...Vətənim yaralı, elim yaralı,
Ürəyim yaralı, əlim yaralı.
Qaçqınam, köçkünəm, halımı sorma
Sıx məni köksünə, halımı sorma...

Müsahiblərim ailə tərkibi, sosial mənsubiyyətləri, peşə və köçkünlük illərindəki təcrübələri, adaptasiya prosesi zamanı üzləşdikləri problemlərlə və s. fərqlənsələr də, lakin ümumilikdə onları "mümkün qədər tez bir zamanda Şuşamıza, evimizə qayıtmaq" arzusu birləşdirirdi. Çoxları köçkünlük dövrünün ilkin mərhələsində qohumların evlərində məskunlaşdıqlarından Azərbaycan atalar sözünü misal çəkirdi: "el-elə sığar, ev-evə sığmaz".

Onlar tez-tez sovet dövründəki "sabit" həyatlarından, Şuşada yaşamış erməni qonşularla münasibətlərinin yaxşı olduğu dövrdən bəhs edirdilər. Respondentlər, həqiqətən də, erməni əhalisinin də azərbaycanlılara qarşı mehriban davrandıqlarını xatırlayırdılar, onların uşaq baxçalarından başlayaraq orta və musiqi məktəblərində, texnikumlarda və s. birgə təhsil aldıqlarını, iş yerlərində birgə çalışdıqlarını vurğulayırdılar. Sovet internasionalizmi siyasəti kontekstində Şuşada, Azərbaycanın müxtəlif yaşayış yerlərində olduğu kimi, hər iki millətin nümayəndəsi arasında qarışıq ailələr (erməni qızları Azərbaycanlı oğlanları ilə ailə qururdular) mövcud idi. Bu tip ailələr, xüsusən də onların övladları, münaqişə başlayanda çox böyük çətinliklərlə üzləşmişdi.

Respondentlər həmçinin xatırlayırdılar ki, erməni qonşuları münaqişənin meydana gəlməsinə çox təəssüfləndiklərini bildirirdilər və azərbaycanlıların Xankəndindən, Ağdərədən və s. sıxışdırıqlarını pisləyirdilər. Onlar həm də hadisələrin gərginləşməsindən narahatçılıq hissi keçirərək bəziləri Şuşadan köçmək məcburiyyətində qalmışdı.

Eyni zamanda respondentlər digər erməni əhalisinin "böyük Ermənistan naminə" planlarına uyğun olaraq, xaricdən dəstək alan xüsusi təşkilatlarla birlikdə zorakılıqlarda fəal iştirak ediblər. Respondentlərin fikrincə, belə insanlar Ermənistan silahlı qüvvələrinə Azərbaycan şəhərlərindəki strateji nöqtələr barədə məlumat verməklə münaqişənin erkən mərhələsində özlərini göstəriblər.

Şuşalılar nəinki Azərbaycanın müxtəlif rayonlarında, hətta Rusiya və Qərb ölkələrində məskunlaşıblar. Bir-birindən ayrı düşmüş şuşalı köçkünlər Şuşa İcra Hakimiyyəti, Qarabağ mətbuatı, "Şuşa" qəzeti, telefon/mobil telefon, sosial şəbəkələr vasitəsilə yaşadıqları ərazidən öz yerliləri ilə ("qohum-qonşu", "dost-tanış", "sinif yoldaşı", "iş yoldaşı") Şuşadakı ünsiyyəti davam etdirmək üçün böyük səy göstərirlər.

Maraqlıdır ki, şuşalılar Şuşa İcra Hakimiyyəti tərəfindən mütamadi olaraq keçirilən Azərbaycanın mühüm tarixi səhifələrinə həsr edilmiş tədbirlərlə (iclaslar, konsert proqramları, sərgilər, kitab təqdimatları və s.), ənənəvi bayramlarla yanaşı "Qara Yanvar", "Xocalı faciəsi", "Qarakənd faciəsi" kimi "qara" tarixlərdə də görüşdüklərini bir daha təsdiqləyirlər. Bu isə onların keçmiş və deməli, gələcək haqqında necə düşündüklərini müəyyənləşdirir.

Şuşa ətrafı kəndlərin əhalisi ümumiyyətlə şəhərlərdə yaşamaq təcrübələri olmadığından daha çox əziyyət çəkirlər, onların adaptasiya prosesləri olduqca ağır keçib. Onlar səbirsizliklə Şuşaya qayıdacaqlarını gözləyirlər. Respondentlər Şuşadakı ata-baba mülklərinin onlar üçün çox dəyərli, qiymətli olduğunu və onları gələcək nəsillər üçün saxlamaq arzusunda olduqlarını qeyd edirlər.

Şuşalıların ən təsirli ifadələri mayın 8-də Şuşanın işğalı günü, "bizim üçün sankı vaxtın dayanması", "ümidimiz üzüldü", "hamımız şoka düşdük", "Qarabağ əldən getdi" hissi ilə bağlıdır. Şuşalılar həmin gündən əvvəl planlaşdırılmış hava hücumu ilə bağlı şayiələrə görə şəhəri tərk etməyə məcbur olmuşdular. Bu zorakılıq hadisələri - erməni ultra-millətçilərinin kütləvi müharibə vəhşilikləri şuşalıların yaddaşına ömürlük həkk olunmuş və onlar dərin psixoloji sarsıntılara məruz qalmışdı.

“Şuşa özünümüdafiə könüllülər batalyonu” üzvlərinin məlumatları onların şəhəri tərk etmək fikri olmadıqlarını, yayılmış xəbərə əsasən, hərbi əməliyyat keçirilməsi üçün əvvəlcədən mülki əhalinin şəhərdən çıxarılmasını təsdiqləyir və (1992-ci il) mayın 8-nə qədər şəhərdə olduqlarını deyirdilər. Müsahiblərimdən bir qismi erməni qəsbkarlarının şəhəri işğal etdiklərində belə öz evlərində olduqlarını təsdiqləyirdilər. Şuşanı müdafiə etmək səylərinə gəlincə, respondentlərin əksəriyyəti “Şuşa özünümüdafiə könüllülər batalyonunun” böyük ruh yüksəkliyini, şəhərdə fəaliyyət göstərmiş digər alaylarının bir-birilə zəif kommunikasiya etdiklərini, pərakəndə fəaliyyət göstərdiklərini, vahid komandanlığın olmadığını xatırlayırdılar. Bütün bunlar Rusiyanın 366-cı motoatıcı alayının sayəsində güclü təchiz edilmiş erməni separatçılarının hərbi qüvvələrinin azğınlaşmış hərəkətlərilə müqayisəedilməzdir. Ümumiyyətlə, sovet dövründə əsasən hərbi-tikinti batalyonlarında qulluq etmiş azərbaycanlıların hərbi döyüş təcrübəsi zəif idi.

Şəhərin erməni qəsbkarları tərəfindən işğal edilməsinin bilavasitə şahidlərilə aparılan çoxsaylı müsahibələr tədqiqat üçün önəm kəsb edən bir sıra suallardan ibarətdir: insanlar şəhəri “nə üçün?”, “nə vaxt?”, “kiminlə birlikdə?” tərk etməli oldular?*

Doğma yurdunuzu məcburən və kiminlə birlikdə tərk etdiniz?
1990-1992-ci illər



- ailəmlə birgə
- dostlarımla, “Şuşa özünümüdafiə könüllülər batalyonu”nun üzvlərilə
- tək başına

Diaqramdan göründüyü kimi, əksər respondentlər (89%) Şuşanı ailəsilə birgə, 6%-ı dostları ilə (könüllülər batalyonun üzvlərilə), 5%-ı isə tək başına tərk etdiklərini qeyd edirlər [4]. Həmin sakinlərin şəhəri tərk etmələrinin gərginliklə dolu həyat hekayələri tədqiqat üçün böyük əhəmiyyət kəsb edir, lakin məqalənin məhdud həcmi burada onları təhlil etməyə imkan vermir. Tədqiqatın nəticələri şəhərin boşalmasını bir sıra amillərin təsiri altında baş verməsini təsdiqləyir. Bunların sırasında, Xankəndindən raket atəşlərinin intensivləşməsini, uğursuz Daşaltı əməliyyatını, Şuşanın Xəlfəli kəndi yaxınlığında terror hadisəsi nəticəsində Mi-8 helikopterinin vurulmasını və faciəvi şəkildə şuşalıların həlak olmasını qeyd etmək olar.

44-günlük müharibə nəticəsində Azərbaycan xalqının cəsur oğullarının fədakarlığı sayəsində Şuşanın azad edilməsi Zəfər günü kimi tarixə yazıldı və şuşalılar xüsusi qürur və göz yaşı sevincilə “mən daha köçkünə deyiləm!” ifadələrilə qələbə gününü qeyd etdilər.

Respondentlər tarixən Şuşanın tamhüquqlu, qanuni sahibləri olduqlarını və şəhərin ərazisində aparılan geniş bərpa-yenidənqurulma işlərində iştirak etmələrini arzuladıqlarını qeyd edirdilər. Ən parlaq, Şuşa həsrəti və sevgi dolu fikirlərdən biri bu cür səsləndi: *“Erməni qəsbkarlarının təcavüzi nəticəsində dağıdılmış olsa da belə, 30 illdir həsrətində olduğumuz ata-baba yurdumuza, qayıtmağımızı, yenidən gözəl şəhərimizə, Şuşamıza qovuşmaq, “məcburi köçkün” statusunda yox, məhz Şuşanın əzəli sakinləri - qalalıları kimi yaşamaq istəyirik...”*

ƏDƏBİYYAT

1. Ahənçi P.Ə. Şifahi tarix: problemlər və perspektivlər (Qarabağ köçkünlərinin xatirələri bir tarixi mənbə kimi). “Qarabağ dünən, bu gün və sabah” V elmi-praktiki konfransın materialları. “Qarabağ Azadlıq Assosiasiyası Press”, Bakı, 2006.

2. Аханчи П.А. Нагорно-Карабахский конфликт по нарративам вынужденных переселенцев и беженцев. “Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 2, “Nafta-Press”, Bakı, 2014.

3. Maurice Halbwachs. The Collective Memory. Translation of 1950 ed. New York: Harper & Row, 1980; Jacques LeGoff, History and Memory, 2nd ed. New York: Columbia University Press, 1992; Social Memory

Studies: From “Collective Memory” to the Historical Sociology of Mnemonic Practices. Annual Review of Sociology, vol. 24, 1998, pp. 105-140.

4. Parvin Ahanchi. Witnessing the War in Nagorno-Karabakh: Shusha’s IDPs testify. Azerbaijan in the World. Vol, 4, No.10, May 15, 2011.

* Məqalənin həcminin konfrans materiallarının tələblərinə uyğun olması müsahibələrin bütün parametrlər üzrə təhlilinin burada verilməsini istisna edir.

5. Parvin Ahanchi. Witnesses and “Memorizers” in the Nagorno-Karabakh Conflict. Azerbaijan in the World. ADA Biweekly. Vol. IV, No. 24, December 15, 2011.

SUMMARY

IDPS FROM SHUSHA: NAGORNO-KARABAKH CONFLICT, SPACE, COLLECTIVE MEMORY

Parvin Ahanchi

The presented article is devoted to the events imprinted in the collective memory of Shusha’s internally displaced persons (IDPs), who witnessed the Nagorno-Karabakh conflict and the First Karabakh War. For almost 30 years, Shusha residents have unequivocally associated such concepts as “my Shusha”, “my homeland”, “my hometown”, “my land”, “my native land”, “land of ancestors” in a spatial sense with Shusha.

The study includes the observations of the author, who witnessed the beginning of the Nagorno-Karabakh conflict, the escalation of events and its transition to a military stage, as well as the narratives of numerous interviews conducted in a number of cities and regions of Azerbaijan, including Baku, Gobu-Park settlements, in places of compact residence of Shusha’s IDPs.

Key words: *Nagorno-Karabakh conflict, IDPs from Shusha, collective memory, narratives, space, neighborhood.*

РЕЗЮМЕ

ВЫНУЖДЕННЫЕ ПЕРЕСЕЛЕНЦЫ ИЗ ШУШИ:
НАГОРНО-КАРАБАХСКИЙ КОНФЛИКТ, КОСМОС, КОЛЛЕКТИВНАЯ ПАМЯТЬ

Парвин Аханчи

Представленная статья посвящена событиям, запечатлевшимся в коллективной памяти вынужденных переселенцев из Шуши, ставших свидетелями Нагорно-Карабахского конфликта и Первой Карабахской войны. В течение почти 30 лет такие понятия как «моя Шуша», «моя родина», «моя земля», «мой родной город», «мой край», «земля предков» шушинцы однозначно ассоциируют в пространственном смысле с Шушой.

В исследование включены наблюдения автора, являющегося свидетелем событий Нагорно-Карабахского конфликта, эскалации событий и перехода в вооруженную стадию, а также нарративы многочисленных интервью, проведенных в ряде городов и районов Азербайджана, в том числе в Баку, поселках Гобу-Парк, в местах компактого проживания вынужденных переселенцев из города Шуша.

Ключевые слова: *Нагорно-Карабахский конфликт, вынужденные переселенцы из Шуши, коллективная память, нарративы, пространство, квартал.*

QƏRB DÖVLƏTLƏRİNİN II QARABAĞ SAVAŞINA MÜNASİBƏTİ

Rüstəmov M.A.
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
murad_rustemov@yahoo.com

Açar sözlər: *Beynəlxalq reaksiya, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan, İkinci Qarabağ müharibəsi, Türkiyə-Rusiya münasibətlər*

Ermənistan-Azərbaycan münaqişəsi təmas xəttində baş verən bir neçə hərbi atışma istisna olmaqla, dondurulmuş münaqişə hesab edilirdi. Ermənistanla Azərbaycan arasında sentyabrın 27-də qəfildən başlayan

müharibə bir daha sübut etdi ki, bu, "dondurulmuş münaqişə" kimi müəyyən edilə bilməz, bu Ermənistanın separatçı Dağlıq Qarabağ regionunun tanınmasına çalışdığı iki dövlət arasında aktiv düşmənçilik şəraitində qalırdı. Azərbaycan isə öz ərazi bütövlüyünü Ermənistan işğalından bərpa etmək məqsədi daşıyırdı. Beynəlxalq siyasət nöqteyi-nəzərindən Ermənistan və Azərbaycan arasındakı toqquşma sadəcə olaraq iki keçmiş Sovet respublikası arasında "ərazi mübahisəsi" deyil, Cənubi Qafqazda nüfuz uğrunda daha geniş regional güc mübarizəsini ortaya qoyan münaqişədir[7]. Burada yerli mübahisələrin inkişafında mühüm rol oynaya biləcək regional, eləcə də qlobal aktorların xarici siyasətlərini müzakirə etmək vacibdir. Xarici diplomatik və hərbi dəstək, xüsusən də beynəlxalq ətalət Azərbaycan və Ermənistan arasında onsuz da gərgin olan münasibətləri daha da artırdığı halda, cəlb olunan tərəflərə birbaşa təsir göstərə bilər. Daha doğrusu, ATƏT-in Minsk Qrupunun rəhbərinin Ermənistan-Azərbaycan münaqişəsinin həllində daha fəal olmaq istəməməsi işğal altındakı torpaqlarının azad edilməsini və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində həllini arzulayan azərbaycanlılar arasında səbirsizliyin yığılmasına səbəb olub. Yeni seçilmiş Ermənistan hökuməti çox millətçi və populist yönümlü olmuşdu və müharibədən əvvəl münaqişənin həlli ilə bağlı bəyanatlar vermişdi. Ermənistanın və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin birləşdirilməsinə, eləcə də Şuşanı yeni "Dağlıq Qarabağın paytaxtı" etmək planı və Ermənistandan işğal olunmuş ərazilərə, Azərbaycanın Cəbrayıl rayonuna[1] yeni yolun tikintisi gərginliyin alovlanmasına və İkinci Qarabağ müharibəsinə səbəb olan ciddi təxribatlar kimi qəbul edildi. Beynəlxalq siyasi ətalət Azərbaycanla Ermənistan arasında onsuz da gərgin olan münasibətləri sadəcə olaraq artırırdı. Hər bir hərbi münaqişədə ittifaqlar və xarici dəstək qarşı tərəfə və hərbi toqquşmaların nəticələrinə əhəmiyyətli təsir göstərə bilər. Məhz buna görə də dünya siyasəti kontekstində kiçik dövlətlər arasında mübahisələrin əhəmiyyətsiz görünən nəticələrini müzakirə edərkən yerli münaqişələrə beynəlxalq reaksiyaların təhlili nəzərə alınmalıdır. Hələ 1994-cü ildə Bişkekdə ATƏT-in Minsk Qrupunu təmsil edən Ermənistan, Azərbaycan və Rusiya Federasiyasının nümayəndələri tərəfindən imzalanmış müvəqqəti atəşkəs sazişi iyirmi ildən artıq bir müddətdə nisbi sabitliyi qoruyub saxlaya bildi. Bu sənəd Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların çıxarılması və qaçqınların geri qaytarılması üçün zəmin hazırlamaq məqsədi daşıyırdı, lakin qeyri-konstruktiv əlaqə vasitəsilə hərbi status-kvonu uzatmaqda idi. Bişkek protokolu da heç bir daimi həll yolu gətirmədi və iki Cənubi Qafqaz qonşu dövləti arasında uzunmüddətli, davamlı sülh sazişi yaratmağa müvəffəq olmadı, sadəcə olaraq növbəti qanlı münaqişəni təxirə saldı. Son iki onillikdə Azərbaycanın məyusluğu o həddə çatdı ki, o, beynəlxalq aktorların nəhayət status-kvonu pozmasını və Azərbaycanın Dağlıq Qarabağ regionunun da daxil olduğu beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyündən tam istifadə etməyə imkan verməsini gözləyə bilmədi.

İkinci Qarabağ müharibəsi Azərbaycanın qələbəsi və Dağlıq Qarabağ bölgəsinin bir çox strateji əhəmiyyətli hissələrinin və ətraf rayonların geri alınması ilə başa çatdı. Azərbaycanın son münaqişə boyu Türkiyədən aldığı güclü siyasi dəstək Azərbaycanın niyyətlərini və mənəviyyatını gücləndirdi. Digər tərəfdən, Rusiyanın münaqişənin həllinə ilkin reaksiyası onu göstərdi ki, Azərbaycanın şimal qonşusu regionda status-kvonun qorunub saxlanmasında daha çox maraqlıdır. Bəziləri iddia edir ki, Kreml son müharibə zamanı erməni tərəfinə dəstək verməməklə, xalqın küçə etirazları ilə hakimiyyətə gələn, lakin Rusiyanın açıq dəstəyi olmadan Ermənistanın yeni baş nazirini cəzalandırmaq istəyib. Üstəlik, bəzi analitiklər Rusiyanın ətalətini Rusiyanın Cənubi Qafqazda təsirinin zəifləməsi kimi şərh etdilər. Onu da nəzərə almaq lazımdır ki, münaqişə koronavirus pandemiyası və Amerikada seçkilər dövründə baş verirdi, beləliklə qlobal və regional güclər öz daxili işləri ilə məşğul idilər. Bu münaqişə həm də bölgəyə yeni regional güc (Türkiyə) gətirdi. Türkiyə sübut etdi ki, regional məsələlərdə fəal iştirak etmək istəyir və beləliklə, Rusiyanın Cənubi Qafqazda böyük güc kimi ənənəvi rolunu bir növ şübhə altına alır. Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş razılaşma Dağlıq Qarabağ müharibəsi zonasında qanlı toqquşmaları dayandırsa da, bütün iştirakçı və cəlb edilmiş tərəflər yeni əldə edilmiş razılaşmanı saxlamaq üçün sülh danışıqlarını dəstəkləməyə davam etməsələr, regionun növbəti münaqişəyə sıçraya biləcəyi ilə bağlı narahatlıqlar hələ də mövcuddur. Azərbaycan və Ermənistanın xarici maraqlı tərəflərlə birlikdə yeni vasitəçilik etdiyi bu atəşkəsin aydın və davamlı sülhə gətirib çıxarmasını təmin etmək üçün çalışması lazımdır. Son zamanlar Ermənistan-Azərbaycan münaqişəsinə beynəlxalq reaksiyanın təhlili Cənubi Qafqazda yeni güc dinamikasını üzə çıxarıb. Türkiyə regionda siyasi imicini artırıb və yəqin ki, Rusiya ilə birlikdə gələcək regional işlərlə daha çox məşğul olacaq. Digər tərəfdən, müharibə Qərbin zəif reaksiyasını gördü və ATƏT-in Minsk Qrupunun vasitəçilik fəaliyyətinin məqsədini və effektivliyini şübhə altına aldı.

ATƏT-in Minsk Qrupu rəsmi olaraq 1994-cü ildə ATƏT-in Budapeşt Zirvə Toplantısında yeganə məqsəd Ermənistan-Azərbaycan münaqişəsinin real siyasi həllini tapmaq məqsədilə yaradılmışdır. Qrupa Fransa, Rusiya Federasiyası və ABŞ həmsədrlik edir, lakin daimi üzv dövlətlər kimi Belarus, Almaniya, İtaliya, İsveç, Finlandiya və Türkiyə, həmçinin Ermənistan və Azərbaycan da daxildir. Bu illər ərzində Minsk Qrupu Cənubi Qafqazda qanlı hərbi əməliyyatların və regional qeyri-sabitliyin daimi həllini təmin

edəcək ən uyğun sazişi tapmağa çalışdı. Məsələn, 2009-cu ildə ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri tərəfindən təklif olunan Birgə Bəyanat 2007-ci ilin noyabrında Madrid Sənədindən əsas prinsiplərin yenilənmiş variantı idi və Ermənistan-Azərbaycan münaqişəsinin yekun həllinə nail olmaq məqsədi daşıyırdı.

Əsas Prinsiplər Dağlıq Qarabağ bölgəsini əhatə edən işğal olunmuş rayonların Azərbaycanın nəzarətinə qaytarılmasını, qaçqınların və məcburi köçkünlərin geri qaytarılmasını, sülhməramlı qüvvələrin yerləşdirilməsini tələb etsə də, təklif olunan tədbirlərin heç birini həyata keçirə bilmədi. Minsk Qrupunun fəaliyyəti böhranın hərtərəfli həllini masaya çatdıra bilmədi və daim danışıqlarda dalana dirəndi. Bəziləri Minsk Qrupunun həmsədrlərinin parçalanmış və qərəzli olduqlarını və bununla da yekun qərara gələ bilmədiklərini iddia edirlər. Fransa açıq şəkildə erməni tərəfini dəstəkləyir, Rusiya status-kvonun təmin edilməsində maraqlı idi, ABŞ isə problemin həllinə xüsusi maraq göstərmirdi.[10] Üstəlik, ATƏT mühüm məsələlərlə bağlı qərar qəbul edərkən mütləq yekdillik tələb edən dövlətlərarası səlahiyyətlərə malik olmayan hökumətlərarası təşkilat olduğu üçün fəaliyyətində məhdudlaşmalar var idi.[8] Belə səmərəsiz diplomatiya Azərbaycan tərəfini daha çox məyus edirdi və Ermənistanla Azərbaycan arasında təkrarlanan döyüşlərin günahkarlarından birine çevrildi.[4] Minsk Qrupu çərçivəsində vasitəçilik prosesi qismən atəşkəs əldə edə bilərdi, lakin bu, son üç onillikdə uzunmüddətli həlli təmin etmədi və ya münaqişənin yenidən dirçəlməsinə imkan vermədi.

İkinci Qarabağ müharibəsi zamanı Minsk qrupunun rolu bir daha cüzi idi. Atəşkəs və sülhə dair bəyanatlar və çağırışlardan başqa, Qrup heç bir yenilikçi yanaşma gətirmədi və münaqişənin uzunmüddətli həllinə nail ola bilmədi. Bölgədə sülhə nail olmaq üçün üç uğursuz cəhd oldu, lakin bu müddət ərzində Qrupun fəaliyyəti hər iki tərəfi hərbi əməliyyatları dərhal dayandırmağa və dinc danışıqları bərpa etməyə çağıran rəsmi bəyanat yaymaqla məhdudlaşdı. Türkiyə də son münaqişədə Minsk Qrupunun zəif fəaliyyətini kəskin tənqid edirdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Minsk Qrupunun həmsədrlərinin münaqişənin həllində dalana dirəndiyini bəyan dirdi.[3] Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış atəşkəsin başa çatmasına gətirib çıxaran sonuncu bəyanat, əsasən, Minsk Qrupunu yeni nizamlanmış razılaşmaların layihəsinin hazırlanmasında və ya təsdiqində iştirakdan yan keçdi.[2] Mövcud vəziyyəti nəzərə alsaq, Minsk Qrupunun gələcək taleyi gözlənilməzdir, xüsusən də Qrup Azərbaycan və Ermənistan arasında münaqişənin həllinə kifayət qədər mülayim yanaşmaqda davam edərsə.

Ermənistanla Azərbaycan arasında imzalanmış atəşkəs Qafqazda yeni qüvvələr balansını tətbiq etdi. Moskva və Ankara ortaq maraqlara malikdir və iki keçmiş sovet respublikası arasında son toqquşmanın həllində fəal iştirak edirlər. Azərbaycan İkinci Qarabağ müharibəsindən şəksiz qalib kimi çıxıb, öz ərazi bütövlüyünü bərpa edib və münaqişədən geostrateji qazanclar əldə edib. Göründüyü kimi, Rusiya artıq regionda yeganə əsas xarici aktor deyil. Türkiyənin fəal siyasi dəstəyi ilə Azərbaycan işğal olunmuş ərazilərdə hərbi cəhdlərindən uğurla istifadə etməyə və regional güc balansını yenidən formalaşdırmağa nail oldu. Azərbaycanın müdafiə naziri türkiyəli həmkarı ilə görüşündə açıq şəkildə Azərbaycan-Türkiyə dostluğunu yüksək seviyyədə olduğunu dəfələrlə bəyan etmişdi. Azərbaycan rəsmilərinin bu cür davranışı birmənalı şəkildə göstərdi ki, Bakı regional münasibətlərdə yeni yanaşma tətbiq etməyə başlayıb və bununla da Azərbaycanın geosiyasi məqsədlərinin reallaşmasında Rusiyadan başqa digər xarici güclərə daha çox yer buraxıb. Şübhəsiz ki, Türkiyənin xarici siyasəti çox iddialı və rəqabətlidir. Türkiyə regional rolunu və təsirini genişləndirmək üçün yollar axtarır. Sərhədlərinin və yaxın ətrafının təhlükəsizliyini təmin etmək üçün ölkə hazırda Liviya, Suriya və İraqda hərbi qüvvələr saxlayır; 1923-cü ildə müasir respublikanın qurulmasından sonra ilk dəfədir ki, türk qüvvələri bu qədər regional münaqişələrlə məşğul olur. Türkiyə də Fransanın əsas aktor kimi özünü göstərmək istədiyi Şərqi Aralıq dənizində fəallıq nümayiş etdirir və bu, güclü gərginliyə səbəb olub.[11] Türkiyə Ermənistanla Azərbaycan arasındakı münaqişədə səmərəsiz vasitəçilik etdiyi üçün Minsk Qrupunu ən sərt tənqid edən ölkə olub. Fransa Türkiyənin Azərbaycana fəal siyasi dəstəyindən sonra ATƏT-in Minsk Qrupunun həmsədri kimi qərəzsizliyini itirmək bahasına müharibə dövründə Ermənistanın mövqeyinə üstünlük verən mövqe ortaya qoydu. Digər tərəfdən, Fransa ATƏT-in Minsk Qrupunun ictimai imicini daha az aktuallaşdıran Türkiyənin Azərbaycana səsli dəstəyindən sonra ATƏT-in Minsk Qrupunun zədələnmiş reputasiyasını kompensasiya etmək üçün münaqişəyə beynəlxalq nəzarət tələb etdi. Müqavilə Rusiyanın yalnız regional arbitr rolunu təsdiqləsə də, Türkiyə Qafqazda yeni, ciddi geosiyasi oyunçu kimi tanındı. Türkiyənin ən yüksək dövlət rəsmiləri tərəfindən açıq şəkildə dəstəklənən işğal olunmuş ərazilərdə həyata keçirdiyi uğurlu hərbi əməliyyatdan sonra Türkiyənin Azərbaycanda populyarlığı həddsiz dərəcədə artdı. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "dost və qardaş Azərbaycana" tam dəstəyini açıq şəkildə ifadə edərək, Türkiyənin bütün imkanları və ürəyi ilə yardıma açıq olacağını vurğulayıb. Bununla yanaşı ikinci Qarabağ müharibəsinin nəticələri birdən çox qalibi üzə çıxardı. Azərbaycanın demək olar ki, otuz illik status-kvondan sonra əldə etdiyi qələbə bu ölkənin müasir siyasətində böyük uğurdur. Halbuki, Türkiyə və

Rusiya Qarabağ müharibəsindən də böyük fayda əldə etdi. Türkiyə Cənubi Qafqazda möhkəmlənməyə nail oldu və Azərbaycanla dostluq və firavan diplomatik münasibətləri möhkəmləndirə bildi.

ABŞ-ın siyasətinə gəldikdə isə Tramp administrasiyası əsasən münaqişədən kənarda qaldi və ABŞ-ın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı rəsmi mövqeyi ondan ibarət idi ki xarici güclər yerli münaqişəyə qarışmamalı, öz rollarını atəşkəs üçün diplomatik çağırışlarla məhdudlaşdırmalıdırlar. Birləşmiş Ştatların dövlət katibi Mayk Pompeo bu yaxınlarda ABŞ-ın kifayət qədər sakit cavab verməsinin səbəbini izah etdi. Ermənistan-Azərbaycan münaqişəsinə administrasiya: "Biz bunun beynəlmiləlləşməsinə mane oluruq. Düşünürük ki, kənar şəxslər kənarda qalmalıdırlar. Biz atəşkəsə çağırırıq."[9] ABŞ Rusiyanın vasitəçiliyi ilə əldə edilən əvvəlki iki razılaşma uğursuz olduqdan sonra sülh sazişi təklif etdi. Lakin Amerikanın vasitəçiliyi ilə atəşkəs də münaqişə tərəflərinə atəşkəs gətirə bilmədi. Amerika nümayəndələrinin bu münaqişədə zəif iştirakı və maraqlı olmaması Qarabağ döyüşləri ilə paralel olaraq Amerikada da mövcud olan konkret şəraiti əks etdirə bilirdi. Amerikanın öz prezident seçkiləri ilə məşğul olması və koronavirus pandemiyasının yaratdığı ciddi sağlamlıq böhranı səbəbindən ABŞ administrasiyası başqa bir xarici böhranda sərt mövqe tutmamağa, daxili siyasətə diqqət yetirməyə qərar verdi. Fransa Ermənistan-Azərbaycan münaqişəsində, əsasən Türkiyənin iştirakı ilə maraq göstərsə də, digər Aİ dövlətləri qonşuluqlarında Cənubi Qafqazda hərbi xəritənin dəyişməsinə səbəb olan son hadisələri müzakirə etməkdə istəksiz və hətta maraqlı deyildilər. Ermənistan-Azərbaycan münaqişəsi və onun geosiyasi nəticələri Brüsselin siyasi dairələrində ciddi müzakirə olunmadı və Ermənistan-Azərbaycan hərbi əməliyyatlarının həlli üçün hər hansı məqsədəuyğun təklif irəli sürə bilməyən Aİ şərq qonşuluğunda müvafiq aktor və sülh agenti olmaq fürsətini əldən verdi.[5] Avropanın xarici siyasəti bu böhrana bir neçə bəyanatla cavab verdi ki, onlar sülh danışıqlarına və ATƏT-in Minsk Qrupu vasitəsilə sülh prosesinin davam etdirilməsinə çağırıblar ki, bu da artıq 30 ilə yaxındır davam edən münaqişənin həllində öz səmərəsiz diplomatik rolunu nümayiş etdirir. Bir daha Aİ Moskva və Ankaranı regionda maraqları və gücü bölüşməsi üçün Cənubi Qafqazdakı güc dinamikasından neytral və uzaq qaldı.

ƏDƏBİYYAT

1. Babayev, A., "Nagorno-Karabakh: Why did the Second Armenia-Azerbaijan War Start?" Leibniz Institute Hessian Foundation for Peace and Conflict Research, Noyabr 5, 2020, https://blog.prif.org/2020/11/05/nagorno-karabakh-why-the-second-armenia-azerbaijan-war-started

2. BBC, *Nagorno-Karabakh: Russia deploys peacekeeping troops to region*, Noyabr 10, 2020, https://www.bbc.co.uk/news/amp/world-europe-54885906

3. Butler, D., "Turkey's Erdogan says Minsk group stalling on Nagorno-Karabakh conflict," *Reuters*, Oktyabr 14, 2020, https://ca.reuters.com/article/idUSKBN26Z1P8

4. Diab, A., "The Resumption of Conflict between Azerbaijan and Armenia over Nagorno-Karabakh: Geopolitical Dimensions and Likely Scenarios," *The Emirates Policy Center* (EPC), Oktyabr 4, 2020, https://epc.ae/whatif-details/34/the-resumption-of-conflict-between-azerbaijan-and-armenia-over-nagorno-karabakh-geopolitical-dimensions-and-likely-scenarios

5. Grgic, B., "The EU suffered a major loss in Nagorno-Karabakh," *Al Jazeera*, Noyabr 23, 2020, https://www.aljazeera.com/opinions/2020/11/23/the-biggest-loser-in-nagorno-karabkh-is-not-armenia/

6. Mirovalev, M., "What role is Russia playing in the Nagorno-Karabakh conflict?," *Al Jazeera*, Oktyabr 19, 2020, https://www.aljazeera.com/news/2020/10/19/is-russia-reduced-to-a-secondary-role-in-nagorno-karabakh

7. Nikolova, M., "Nagorno-Karabakh is a territorial, not sectarian, conflict," *Emerging Europe*, Oktyabr 9.2020, https://emerging-europe.com/news/nagorno-karabakh-is-a-territorial-not-sectarian-conflict/

8. Qəribov A., "Why the OSCE Keeps Failing to Make Peace in Nagorno-Karabakh," *The National Interest*, May 11, 2016, https://nationalinterest.org/blog/the-buzz/why-the-osce-keeps-failing-make-peace-nagorno-karabakh-16161

9. Safi, M. and Borger, J. "US silence on Armenia-Azerbaijan conflict reflects international disengagement," *The Guardian*, Noyabr 4, 2020, https://www.theguardian.com/world/2020/oct/04/us-armenia-azerbaijan-nagaon-karabakh

10. Sofuoğlu, M., "Why the Minsk Group is unable to address the Azerbaijan-Armenia conflict," *TRT World*, Oktyabr 5, 2020, https://www.trtworld.com/magazine/why-the-minsk-group-is-unable-to-address-the-azerbaijan-armenia-conflict-40306

11. Zhigao, H., "France-Turkey disputes roiling European and Mediterranean affairs," Global Times, Oktyabr 28, 2020, https://www.globaltimes.cn/content/1204992.shtml

SUMMARY

WESTERN STATES 'ATTITUDE TO THE II KARABAKH WAR

Rustamov M.A.

Azerbaijan became the sole and obvious winner of The Second Karabakh war. Turkey as well as Russia in terms of geopolitics benefited from interventionist foreign policies in the recent Armenia–Azerbaijan clashes. Western big powers couldn't make an effort to settle within a framework of European values or interest. In the end Azerbaijan has turned decisive power in South Caucasus and bolstered the role of gateway between West and East.

***Keywords**: International reaction, Nagorno-Karabakh conflict, Azerbaijan, Second Karabakh war, Turkish-Russian relations*

.

РЕЗЮМЕ

ОТНОШЕНИЕ ЗАПАДНЫХ ГОСУДАРСТВ КО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Рустамов М.А.

Азербайджан стал единственным и очевидным победителем Второй карабахской войны. Турция, как и Россия с точки зрения геополитики, выиграла от интервенционистской внешней политики в недавних столкновениях между Арменией и Азербайджаном. Крупные западные державы не могли попытаться урегулировать ситуацию в рамках европейских ценностей или интересов. В итоге Азербайджан превратился в решающую силу на Южном Кавказе и укрепил роль ворот между Западом и Востоком.

***Ключевые слова**: международная реакция, нагорно-карабахский конфликт, Азербайджан, Вторая карабахская война, турецко-российские отношения*

ERMƏNİSTAN - AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TARİXİ SƏBƏBLƏRİ VƏ HƏLL EDİLMƏSİ ASPEKTİNDƏ MİQRASİYA AMİLİNİN YERİ VƏ ROLU

Rzaxanov R.N.
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
rasimrzaxanov@mail.ru

***Açar sözlər:** miqrasiya böhranı, hərbi təcavüz, münaqişənin yaranma səbəbləri, etnik təmizləmə, qaçqın miqrantlar, humanitar fəlakət*

Miqrasiya siyasətinin tarixindən bəhs edildikdə onun milli dövlət siyasəti kimi Yeni dövr - müstəmləkəçilik dövründən yarandığı və sistemli şəkildə tətbiq edildiyi qeyd olunur. Ümumiyyətlə, ədəbiyyatdan məlumdur ki, miqrasiya prosesləri imperiyaların və metropoliyaların müstəmləkə-məskunlaşma siyasəti ilə sıx bağlıdır və tarix boyu davam etmişdir [11].

Geosiyasi vəziyyətinə və coğrafi mövqeyinə görə arasında strateji əhəmiyyətə malik Cənubi Qafqazda bu proseslər tarixin bütün dövrlərində intensiv şəkildə davam etmişdir. Tarixən geosiyasi parçalanma xəttində olan region ölkələri, xüsusən də təbii sərvətləri baxımından daha zəngin olan Azərbaycan torpaqları zaman-zaman müxtəlif dövlətlərin, güc mərkəzlərinin maraqlarının toqquşması və rəqabət meydanına çevrilmişdir.

1828-ci ildə Azərbaycan parçalandıqdan və ölkənin şimalı Rusiya tərəfindən işğal edildikdən sonra hakimiyyət sistemli şəkildə Azərbaycan ərazisinə başqa xalqların köçürülməsinə başladılar. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra Çar Rusiyası İrandan və Osmanlı imperiyasından erməni əhalisinin kütləvi şəkildə Azərbaycana köçürülməsinə başladı. Nəticədə 1 milyona yaxın erməni Cənubi Qafqaza köçürüldü. Beləliklə, Cənubi Qafqazda ermənilərin sayı 1 milyon 300 min nəfərə çatdırıldı [6].

İran və Osmanlı İmperiyası arasındakı müharibələrin uğurlu nəticəsi Rusiyaya İran və Türkiyədən yüz minlərlə ermənini Cənubi Qafqaza köçürməyə və Qafqaz tarixində ilk presedent erməni fiziki-coğrafi vahidi olan "Erməni vilayətini" yaratmağa imkan verdi. Ermənilər bölgədə çar hökumətinin əsas müttəfiqi kimi çıxış edirdilər və

onların azərbaycanlıların və gürcülərin mənafeyini məhdudlaşdırmaqla maksimum fayda əldə etmək imkanlarını yalnız bununla izah edə bilərdi [8].

Amerika tarixçisi Tadeuş Sviatyxovskinin qeyd etdiyi kimi, "Rusiyanın qanadları altında erməni əhalisi müsəlmanlardan daha sürətli və əhəmiyyətli dərəcədə inkişaf etməyə başladı. Buna əsasən, Azərbaycan iqtisadiyyatının həmin dövr üçün inkişaf mərhələsinə qədəm qoymasından ermənilər daha çox faydalanıblar [10].

1828-ci ildə Çar Rusiyasının məskunlaşdırma siyasəti ilə başlayan miqrasiya prosesi 1988-ci ildə başa çatdırılmış, Ermənistanda yaşayan son 160 min azərbaycanlı sürgün edilərək bütün əmlakları talan edilmişdir. Bundan sonra Azərbaycana qarşı qondarma ərazi iddiaları və Dağlıq Qarabağın mülkiyyətçiliyi müzakirə olundu və açıq silahlı müharibə başlanıldı [4, s.6].

"Çar Rusiyasının ermənilərin Azərbaycan ərazisinə dəfələrlə köçürülməsi siyasəti nəticəsində Azərbaycanın geostrateji strukturuna müdaxilə və sonrakı ərazi iddiaları artıq sübut olunmuş nəticədir" [12, s.15].

İndiki miqrasiya böhranından əvvəl Azərbaycan dünyada ən çox qaçqın yaşayan ölkə idi. Sosializm sisteminin süqutu ilə müstəqilliyini yenicə əldə edən Azərbaycan dövləti mühacirətin az qala ən fəlakətli forması ilə üzləşdi. İşğalçı ermənilərin hücumları nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, bir milyona yaxın soydaşımız məcburi miqrasiyaya məruz qalmışdır. Ümumiyyətlə, 1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ, eləcə də 7 qonşu rayon (Ağdam, Füzuli, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Kəlbəcər) işğal olundu və bir milyon vətəndaşımız qaçqın və məcburi köçkünə çevrildi [2].

Belə ki, XIX əsrdə imperiyalararası müharibələrdə tarixi torpaqlarımızın bölünməsi və ondan sonra ermənilərin bilərəkdən Azərbaycana köçürülməsi, gəlmə-miqrant anklavlarının dövlətimizə qarşı ərazi iddiaları şovinist separatizmdən qaynaqlanan münaqişəyə səbəb oldu.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onilliklər ərzində həllini tapmayan problemlər nəticəsində: əvvəlcə dövlətin qurulması, sonra isə müstəmləkəçi məskunlaşdırma siyasəti nəticəsində tarixən Azərbaycanda məskunlaşmış ermənilərin ərazi iddiaları; ikincisi, ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmış azərbaycanlıların məcburi köçünün səbəb və nəticələrinin aradan qaldırılması, ədalətin bərpası və uğursuzluğa düçar olmayan geosiyasi güclərin "ikili standart" siyasətinin mövcudluğu beynəlxalq hüququn iflasa uğramasıdır [1].

BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazilərinin işğalı ilə bağlı dörd qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, qətnamələr onilliklər ərzində sənəddə qaldı. Amma Azərbaycan Vətən Müharibəsində qələbə çaldıqdan sonra (27 sentyabr - 10 noyabr 2020-ci il) işğalçı tərəf bu qərarları həyata keçirməli oldu.

Ədalət mühakiməsinə ikili yanaşmanın bariz nümunəsi işğal olunmuş ölkə ilə bağlı verilən ədalətsiz mühakimələrdir. Əslində, 1992-ci ildə erməni lobbisinin dəstəyi ilə ABŞ Konqresinin qəbul etdiyi və Azərbaycana dövlət yardımını qadağan edən 907-ci Düzəliş: "Azadlığa Dəstək" Aktı bu gün də qüvvədədir. Sənədə əsasən, təcavüzkar dövlətə işğala məruz qalmış Azərbaycandan daha çox yardım edilir.

Mövcud miqrasiya böhranı fonunda bir məqam xüsusilə diqqəti cəlb edir: işğal siyasəti nəticəsində yurd-yuvasından didərgin düşmüş bir milyondan çox vətəndaşımızın hüquqlarını və dövlətimizin dəstəyini tələb etdiyi bir vaxtda Azərbaycanın daşqınlara məruz qalmış Avropada humanitar fəlakətin tənzimlənməsinə dair beynəlxalq ictimaiyyətin ölkəmizin təcrübəsinin araşdırılmasına ehtiyac vardır. Qaçqın miqrantlarla əlaqədar problemlərin həlli ilə bağlı keçirilən beynəlxalq görüşlərdə Azərbaycan Prezidentinin humanitar fəlakətlərin idarə olunmasında Azərbaycanın təcrübəsinə dair çıxışlarına diqqət çəkilib. 2016-cı ilin fevralında Londonda "Suriya və regiona dəstək" mövzusunda müzakirələr zamanı Azərbaycan Prezidenti "1990-cı illərin əvvəllərində Ermənistanın bizə təcavüzü zamanı Azərbaycanın özü də humanitar fəlakət və böhran yaşadı. Bu hücum nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olundu və biz etnik təmizləməyə məruz qaldıq. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Bu böyük iqtisadi və sosial problemlərdən əziyyət çəkən bir ölkə olaraq biz buna necə nail olacağımızı bilirik. Biz humanitar böhranın idarə olunması ilə bağlı təcrübəmizi bölüşə bilərik və paylaşacağıq" [3].

Bu məqamda Ermənistan Suriya əsilli erməniləri ölkəmizin işğal olunmuş torpaqlarına köçürmək siyasəti yürüdürdü. Məlumata əsasən, Suriyada müharibə başlayandan sonra ölkəni tərk edən erməni əsilli suriyalıların təxminən üçdə biri, 15-17 min nəfər Ermənistanda məskunlaşıb. 2012-ci ildən bəri 15 minə yaxın Suriya ermənisinə Ermənistan vətəndaşlığı verilmişdir [7]. Ermənistan vətəndaşlığı olmayanlar sərhəd qapılarında dərhal Ermənistan vizası ala bilirlər və ölkədə müvəqqəti yaşamaq icazəsi rüsumundan azaddırlar. Azərbaycan tərəfi erməni qaçqınlarının işğal olunmuş ərazilərə yerləşdirilməsinə etiraz etmiş, bunu "yolverilməz" adlandırmışdır [5].

Ümumiyyətlə, miqrasiya probleminin siyasi aspektləri miqrant axınlarının yaranmasından onun həllinin uzadılmasına, yeni ziddiyyətlərin yaranmasına qədər bütün mərhələlərdə həlledici təsirə malikdir.

Böhranın həll edilməsi ilk növbədə siyasi iradədən asılıdır. Bu kontekstdə qeyd etmək lazımdır ki, miqrasiya böhranı başqa bir məqamı da gündəmə gətirir. Bu, əsasən, siyasi liderlik faktorunun zəif olması və inkişafdan geri

qalan zəif ölkələrdən daha böyük miqrasiya dalğasının olmasıdır. Gözü başqa ölkələrin torpaqlarında olan Ermənistanın əhalisi Cənubi Qafqazın ən könüllü şəkildə miqrasiya edən qrupuna daxildir. Ermənistanın 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlaması bu ölkədə vəziyyətin daha da ağırlaşmasına, ətraf mühitdən tam təcrid olunmasına səbəb olub. BMT-nin məlumatına görə, hər il 30 min insan ölkəni tərk edir [9]. Hal - hazırda ölkə əhalisinin 40-50 faizi potensial miqrantdır.

Yekun olaraq qeyd edə bilərik ki, əgər işğalçı Ermənistan II Qarabağ – Vətən müharibəsindəki rüsvayçı məğlubiyyətindən lazımi nəticələr çıxararaq bir daha Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürməzsə, gələcəkdə regionda gerçəkləşən böyük iqtisadi layihələrin iştirakçısı olaraq müsbət nəticələr qazana bilər. Bu isə öz növbəsində burada yaşayan vətəndaşların sosial rifahının yüksəlməsi və əhalinin ölkədən miqrasiya etməsinin qarşısının alınması ilə nəticələnər.

ƏDƏBİYYAT

1. Ermənistan silahlı qüvvələri tərəfindən əraziləri işğal olunmuş və ya zərər çəkmiş, Ermənistanla və Qağlıq Qarabağla həmsərhəd olan rayonlar barədə məlumat.- http.//www.refuges- idps-committee.gov. az/az/ pages /1. Html 121
2. Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat (1988-2011-ci illər) – http:// www.refuges-idps-committee.gov.az/docs/kitab.pdf 120
3. İlham Əliyevin Londonda "Suriyaya və regiona dəstək" konfransında nitqindən. /04 fevral 2016/ -https://president.az.articles/17957125
4. Qeybullayev Q. Qədim türklər və Ermənistan. B.: Azərnəşr, 1992, 140 s.
5. Suriyalı qaçqınlar Laçında - video/08.04.2013/-https://www.bbc.com/azeri/multimedia/ 2013/04/130408_syria_refugees_karabakh126
6. XX əsrin ən amansız soyqırımı - 31 mart/müsahibə/Musa Qasımlı: Ermənilər azərbaycanlılara qarşı yalnız bir prinsiplə soyqırım həyata keçirirdi - "türksənsə öldürülməlisən"/ "İki sahil"/qəzeti, 31 mart 2011, s.11/-http://www.anl.az/down/meqale/ iki sahil/2011/mart/165206.htm
7. Армения приняла 13 тыс. сирийских беженцев за три года. – http: //www.mir24.tv/ news/society/12802259
8. Джаббаров Ф. О некотрых аспектах национальной политики Российской империи в Северном Азербайджане. //Strateji təhlil jurnalı, 3-4 (20-21), s.245
9. На работу –в ЕС. В Армении разрабатывается концепция циркулярной миграции. http://www. arminfo.am/index.cfm? objected =67A40500-6COB-11E4-92440EB7COD21663
10. Свиетоховский Т. Русский Азербайджан (1905-1920). Формаривание национального самосознания в мусульманском сообществе. //Хазар, № 1, 1990, с.99
11. Emmer, Pieter C., Lucassen , Leo. Migration from the Colonies to Western Europe since 1800, in: Europe History Online (EGO), published by the Leibniz Institute of European History (IEG), Mainz 2012-11-13. URL: http//www.ieg-ego.iu/emmerp-Lucassenl-2012-en URN: urn:nbn:de: 0159-2012111308 118
12. McCarthy J. Armenian Terrorism: History as Poison and Antidote, "International Terrorism and the Drug Connection", Ankara, Ankara University Press, 1984, p.141

SUMMARY

THE PLACE AND ROLE OF THE MIGRATION FACTOR IN THE HISTORICAL CAUSES AND SETTLEMENT OF THE ARMENIAN-AZERBAIJANI NAGORNO-KARABAKH CONFLICT

Rzakhanov R.N.

Against the background of the conflicting geopolitical interests of the world empires, we can mention the policy of colonial settlement as one of the most important directions of colonial policy. In this sense, one of the main goals of Tsarist Russia's colonial policy in the Caucasus was to build support from close allies. Since the time of Petewr I, the resettlement f Armenians to the ancient territories of Azerbaijan has been an integral part of the purposeful policy of the empire. This policy has led to numerous conflicts in the region, spreading na disctional, ethnic and political discord, and as a result of this problem, unresolved conflicts have been inherited.

Key words: *migration crisis, military aggression, causes of conflict, ethnic cleansing, refugee migrants, humanitarian disaster*

РЕЗЮМЕ

МЕСТО И РОЛЬ МИГРАЦИОННОГО ФАКТОРА В ИСТОРИЧЕСКИХ ПРИЧИНАХ И УРЕГУЛИРОВАНИИ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО - КАРАБАХСКОГО КОНФЛИКТА

Рзаханов Р.Н.

На фоне противоречивых геополитических интересов мировых империй можно выделить политику колониального заселения как одно из важнейших направлений колониальной политики. В этом смысле одной из основных целей колониальной политики царской России на Кавказе было заручиться поддержкой ближайших союзников. Со времен Петра I переселение армян на древние территории Азербайджана было составной частью целенаправленной политики империи. Эта политика привела к многочисленным конфликтам в регионе, распространению национальной, этнической и политической розни, и в результате этой проблемы в наследство достались неурегулированные конфликты.

Ключевые слова: *миграционный кризис, военная агрессия, причины конфликта, этническая чистка, беженцы-мигранты, гуманитарная катастрофа*

QARABAĞDA İŞĞAL İZLƏRİ

Rzayeva G.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
gulnarzayeva@mail.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, işğal, tarixi-mədəni, irs.*

Tarix boyu aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilən tapıntılar, müxtəlif memarlıq abidələri, sənət əsərləri Azərbaycanın qədim tarixi keçmişə və zəngin mədəni irsə malik ən qədim yaşayış məskənlərindən biri olduğunu göstərir. Dünyada ilk insan məskənləri sayılan Azıx və Tağlar mağaraları kimi arxeoloji tapıntılar buna əyani sübutdur. Mədəni irslər cəmiyyətin keçmişini məlumatlandıran, xatirələrini yaşadan və yalnız cəmiyyətin tarixini deyil, həm də mədəni dəyərlərini əks etdirən arxivlərdir. Bu mədəni irslərə daha çox Azərbaycanın Qarabağ bölgəsində rast gəlinir.

Qarabağ qədim sivilizasiyaların ilk mərkəzlərindən biri olduğundan böyük tarixi və coğrafi əhəmiyyətə malik bir bölgədir. Zəngin yeraltı və yerüstü sərvətlərə malik bu torpaqlar I Qarabağ müharibəsi zamanı erməni işğalına məruz qalır. Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş torpaqlarında ekoloji terror törətmiş, Qarabağın flora və faunasını, zəngin yeraltı və yerüstü sərvətlərini istismar etmişdir. Regionun meşə örtüyü məqsədli şəkildə məhv edilmiş, münbit torpaqlar, su ehtiyatları ekoloji və radioaktiv çirklənməyə məruz qoyulmuşdur.

Ermənistan tarixi və mədəni abidələrimizin dağıdılması və qəsddən korlanması ilə nəticələnən çirkin əməlləri ilə dünya birliyinin qərarlarını kobud şəkildə pozmuş, "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, YUNESKO-nun "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri" haqqında 1970-ci il və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" 1972-ci il Konvensiyaları, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyalarına zidd hərəkət edərək bölgəni vandalizmə məruz qoymuşlar [2, səh. 7].

Azərbaycana məxsus torpaqların Ermənistan tərəfindən işğalı nəticəsində Azərbaycan çox vacib iqtisadi mənbələrdən məhrum edildi. Hələ işğaldan əvvəl Qarabağ və ətraf rayonlar kənd təsərrüfatı sahəsində digər Azərbaycan rayonlarından üstün idi. Ölkə əhalisinin 2 faizinin yaşadığı vilayət ümumi kənd təsərrüfatı məhsullarının 5%-ni verirdi. Kənd təsərrüfatında taxıl, tütün, üzüm, katrof, pambıq istehsalı üstünlük təşkil edirdi. 1993-cü ilə qədər torpaqlarının 20 faizini itirərək meyvə və tərəvəz becərilməsi üçün münbit torpaqlardan məhrum olan Azərbaycanda bu məhsulların istehsalında azalma oldu. Qarabağda üzümçülük və şərabçılığın inkişaf etməsinə, hətta yeni texnologiyalaradan istifadə edilən şərab fabrikinin fəaliyyət göstərməsinə baxmayaraq, erməni işğalı nəticəsində üzüm istehsalı və şərab ixracı nəzərə çarpacaq

dərəcədə azalmışdır. 117 üzüm istehsalı fabrikindən əksəriyyəti fəaliyyətini dayandırmışdır. Ermənilərin işğal etdikləri ərazilər məhsuldar əkinçilik sahələri idi. Məs: Füzulidə hər il 100 min ton üzüm istehsal olunurdu. Zəngilan şəhəri 3 üzüm emalı fabrikinə və 3000 hektar üzüm bağına sahib idi. Ağdamda pambıqçılıq, Qubadlıda heyvandarlıq geniş yayılmışdı [3, səh. 143].

Ermənilər işğal etdikləri torpaqlarda ələ keçirdikləri qiymətli sərvətləri Ermənistana daşımış, daşınması mümkün olmayanları məhv etmiş, kəndlərdə, meşələrdə yanğınlar törətmiş, bölgəni dağıntılara məruz qoymuşdular. 2006-cı ilin iyun ayında ermənilər tərəfindən yanğınlar törədilmiş və Azərbaycan Təbii Sərvətlər Nazirliyinin açıqlamasında bildirilmişdir ki, Ağdam rayonunun işğal altında olan 6 kəndi tamamilə məhv olmuş, Füzuli, Xocavənd, Cəbrayıl və Tərtər rayonlarında minlərlə hektar meşə və yaşıllıqlar yanmış, 47 bitki və 19 ağac növü tamamilə məhv olmuşdur. Tarixi əsərlərə və qəbiristanlıqlara ciddi ziyan dəymişdir [4. səh. 272].

Törədilən yanğınlar münbit torpaqlara və bitki örtüyünə ciddi ziyan vurmuşdur. Kəlbəcər və Zəngilanda yetişən və Avropada nadir hesab edilən çinar ağaclarının kəsilərək yandırılması ekoloji terror kimi qiymətləndirilir. Eyni zamanda Azərbaycan meşələrindən kəsilən ağaclar ermənilər tərəfindən Avropa şirkətləri vasitəsilə müxtəlif ölkələrə satılmışdır. Hadrut və Tuğda yol çəkilməsi üçün çox sayda ağac kəsilmiş, Zəngilanda yerləşən Bəsitçay Milli Parkındakı çinar meşələri məhv edilərək ağaclardan tikinti materialları hazırlanmışdır.

İşğal edilmiş torpaqlarda ağır hərbi sursatların istifadəsi, hərbi maşınlar və avadanlıqların saxlanılması, minaların basdırılması torpaq və bitki örtüyünə ciddi ziyan vurmuş, eyni zamanda bölgənin təbiətini və ekoloji vəziyyətini təhlükə altına salmışdır. Bölgədəki təbii ehtiyatlardan balanssız istifadə edən və ekologiyaya ciddi ziyan vuran Ermənistan ekoloji vəziyyət barədə məlumatları qəsddən gizlədirdi. Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı yalnız şəhər və kəndlərin, meşələrin, tarixi və mədəni irsin deyil, eyni zamanda bitki və heyvan növlərinin məhvinə, ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur.

Ermənilər haqqında rus tarixçi-alimi V.Veliçkonun kitabında onların gürcü və alban abidələrində əsil yazıları pozmaları və dəyişdirmələri haqqında, ermənilərin öz kiçik xalqını yüksəltmək üçün qıraq, qonşu xalqların daha zəngin tarixinə kölgə salmaları haqqında qeydlər var. Gürcü şairi İlya Çavçavadze yazırdı: "Ermənilərin gürcü kilsələrində gürcü yazılarını pozaraq, daşları çıxarıb əvəzinə erməni yazıları olan daşları qoymaları haqqında bir çox faktlar var". Bütün bunlar bir daha sübut edir ki, ermənilər işğal etdikləri torpaqlarda mədəniyyət abidələrini ya yox edir, ya da qazıntılar apararaq əsil yazıları dəyişir və ermənilərdirirlər [5, səh. 9].

Qarabağda erməni vandalizminə məruz qalmış ən qədim yaşayış məskənlərindən biri sayılan Azıx mağarası nəinki Azərbaycanın, eləcə də dünyanın nadir mədəni sərvətlərindən biridir. Erməni işğalçıları Xocavənd rayonunu işğal etdikdən sonra Azərbaycana məxsus olan bu qədim sərvəti özününküləşdirmək və tarixi mənimsəmək üçün təxribatçı fəaliyyətlə məşğul olmuş, xarici alimləri cəlb etməklə burada qanunsuz arxeoloji qazıntılar aparmışlar. Bu kimi fəaliyyətləri ilə onlar yuxarıda qeyd etdiyimiz kimi beynəlxalq humanitar hüququ, YUNESKO-nun "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi" haqqında 1954-cü il Konvensiyası və "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri" haqqında 1970-ci il Konvensiyasının müddəalarını kobud şəkildə pozmuşlar [6].

İşğal olunmuş torpaqlarımızda memarlıq abidələri arasında erməni vandalizminə, dağıntı və tələfata məruz qalan məscidlər, türbələr və digər ibadət yerlərini də göstərə bilərik. Ağdamda Qutlu Musa türbəsi (1314), Zəngilanda Məmmədbəyli türbəsi (XIV əsr), Cəbrayılda Şıx Baba türbəsi (XIV əsr), Xocalı türbəsi (XIV əsr), Füzulidə Qarabazar Karvansarayı (1681), Laçında Sarı Aşıq türbəsi (XVII əsr), Ağdamda Şahbulaq sarayı (1751-1752), Pənahəli xan sarayı (XVIII əsr), Cümə məscidi (1868-1870), Şuşada Aşağı Gövhər Ağa (1874-1875) və Yuxarı Gövhər Ağa məscidləri (1883-1884), Hacı Ələkbər məscidi (1889-1890), Molla Pənah Vaqifin məqbərəsi (1977), Ağdam Çay evi (1980-ci illər), dünyada ikinci, SSRİ-də isə ilk və yeganə olan, 1983-cü ildə fəaliyyətə başlayan Ağdam Çörək Muzeyi, Kəlbəcər Tarix-Diyarşünaslıq muzeyi (1982) və bu kimi minlərlə tarixi və mədəni abidələr ya erməni abidələri kimi qələmə verilmiş, ya dağıdılmış, ya da tamamilə məhv edilmişdir [1]. Rəsmi məlumatlara görə Füzulidə 16, Şuşada 13, Zəngilanda 12, Laçında 8, Qubadlıda 8, Ağdamda 5, Cəbrayılda 5 olmaqla, ümumi Dağlıq Qarabağ və ətraf rayonlarda 67 müsəlman məscidi fəaliyyət göstərmişdir. Onlardan 63 məscid tamamilə dağıdılmış, 4-ü isə yararsız hala salınmışdır [2, səh. 102].

Bütün bunlarla yanaşı işğalçı erməni qüvvələri tərəfindən Azərbaycan ərazisində 547 memarlıq abidəsi, 927 kitabxana, 808 klub müəssisəsi, 85 musiqi məktəbi, 12 monument, 22 muzey, 10 mədəniyyət və istirahət parkı, 4 şəkil qalereyası, 4 dövlət teatrı və 2 konsert müəssisəsi yandırılmış, dağıdılmış və ya qarət edilmişdir [5, səh. 10].

İşğal müddətində Kəlbəcər, Ağdam, Şuşa və Zəngilanda talan edilmiş muzeylərdən 40000-ə yaxın qiymətli əşya və tarixi əsərlər oğurlanaraq Ermənistana aparılmışdır. Xurşudbanu Natavan, Xan Şuşinski, Bülbül, Üzeyir Hacıbəyova məxsus ev muzeyləri qarət olunmuş və xatirə əşyaları məhv edilmişdir.

İşğaldan sonra Qarabağın tarixi-mədəni irsinə, şəhərlərin mədəni və arxeoloji xüsusiyyətlərinə qəsddən zərər vermək və onları məhv etmək yalnız Azərbaycan mədəniyyətinə deyil, eyni zamanda dünya mədəniyyətinə zərbə kimi qiymətləndirilə bilər. Mədəni irsə dəyən ziyanın maddi ölçülərini təyin etməklə yanaşı, bu məhvi kompensasiya etmək də çətindir. Lakin bu çətinliyə baxmayaraq erməni vandalizminə məruz qalmış tarixi-mədəni abidələrimizə vurulmuş zərərin qiymətləndirilməsi çox vacibdir. Azərbaycanın işğal edilmiş tarixi və mədəni irsləri dünya mədəni irsinin bir hissəsini təşkil etdiyi üçün bu irsləri qoruyub saxlamaq və gələcək nəsillərə ötürməliyik.

Mənfur düşmənin çirkin əməlləri onların iç üzünü bütün dünyaya göstərdi. II Qarabağ müharibəsində müzəffər Azərbaycan ordusunun şanlı qələbəsi bizi öz əzəli və əbədi torpaqlarımıza qovuşdurdu. Bu gün Azərbaycan dövləti dünya tarixinə, mədəniyyətinə böyük zərbə olan erməni vandalizmini bütün dünyaya çatdırmaq üçün çalışır. 30 illik işğaldan sonra, II Qarabağ müharibəsi nəticəsində yenidən öz xalqına qovuşan Qarabağın vandalizmə məruz qalmış bütün abidələri bərpa olunacaq və dünyanın mədəniyyət incilərinə çevriləcək.

ƏDƏBİYYAT

1. Azerbaycan ve Dağlı Karabağ. Sevilay Yıldırım, E.Elif Gönüllü. T.C. Kültür ve Turizm Bakanlığı.
2. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər. Faiq İsmayılov. Bakı 2016.
3. Karabağ savaşı. Osman Nuri Aras, Bilal Dədəyev, Reha Yılmaz, Vəfaddin İbayev. Bakı 2008.
4. Qarabağ. Bildiklərimiz və Bilmədiklərimiz. Reha Yılmaz. Bakı 2010.
5. Yaddan çıxmaz Qarabağ. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Xuraman İsmayılova, Kərim Tahirov. Bakı 2007.
6. http://science.gov.az/az/news/open/16463

SUMMARY

TRACES OF OCCUPATION IN KARABAKH

Rzayeva G.Sh.

The article deals with the vandalism committed by Armenians in the occupied territories of Azerbaijan. Armenia's policy against Azerbaijan in these lands has resulted not only in the occupation of territories, but also in the destruction and armenianization of our historical, national and cultural values in the region. Mosques, tombs, houses of culture, world-famous Azerbaijani carpets and thousands of other monuments in Karabakh fell victim to Armenian vandalism. Forest fires have resulted in the deployment of heavy military ammunition in the region, the discharge of polluted water into rivers, damage to soil and vegetation, the destruction of wildlife, and serious damage to the environment. These atrocities committed by them are a great blow not only to the cultural heritage of Azerbaijan, but also to the world cultural heritage.

***Key words**: Azerbaijan, Karabakh, occupation, historical-cultural, heritage.*

РЕЗЮМЕ

СЛЕДЫ ОККУПАЦИИ В КАРАБАХЕ

Рзаева Г.Ш.

В статье рассматривается вандализм, совершенный армянами на оккупированных Азербайджанских землях. Политика Армении против Азербайджана на этих землях привела не только к оккупации территорий, но также к разрушению, разрушению и арменизации наших исторических, национальных и культурных ценностей в регионе. Мечети, гробницы, молельные дома, музеи, библиотеки, дома культуры, всемирно известные азербайджанские ковры и тысячи других памятников в Карабахе стали жертвами армянского вандализма. Лесные пожары привели к переброске тяжелых боеприпасов в регионе, сбросу загрязненной воды в реки, повреждению почвы и растительности, уничтожению дикой природы и серьезному ущербу окружающей среде. Совершенные ими зверства наносят большой удар не только по культурному наследию Азербайджана, но и по всемирному культурному наследию.

***Ключевые слова:** Азербайджан, Карабах, оккупация, историко-культурное, наследие*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ ERMƏNİLƏRİN QARABAĞDA TƏXRİBATLARI

Səfərova Ç.Q.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
seferova.cinare@bk.ru

Açar sözlər: *ADR, Qarabağ, Zəngəzur, Şuşa, Cavanşir,Cəbrayıl qəzaları,erməni təcavüzləri*

1918-ci il mayın 28-də Xalq Cümhuriyyətinin elan edilməsi Azərbaycan dövlətçilik ənənələrinin bərpası yolunda ən böyük tarixi hadisə idi.23 ay mövcud olmasına baxmayaraq Azərbaycan xalqının taleyində böyük rol oynayan məhz milli dirçəliş və dövlətçilik mərhələsi, həmçinin müsəlman dünyasında ilk müstəqillik əldə edən Azərbaycan Xalq Cümhuriyyəti Şərq ölkələrində demokratik ideya və hərəkatların inkişafına da müsbət təsir göstərmişdir. Ancaq Cümhuriyyət dövründə torpaqlarımızın ərazi bütövlüyünün qorunması sahəsində böyük xidmətlər görülməsinə baxmayaraq, daxildə olan bolşevik-daşnak qrupları Xalq Cümhuriyyətinin fəaliyyətinə daim mane olmağa çalışırdılar. Cümhuriyyət ordusunun formalaşdığı dövrdə belə ölkədə mürəkkəb hərbi-siyasi şərait mövcud idi. Təbii ki, bu həm ordunun formalaşması prosesinə, həm də bütünlükdə ölkənin bütün ictimai-siyasi həyatına öz təsirini göstərirdi. Bir yandan ölkənin cənub bölgəsi olan Lənkəran ərazisi AXC-nin müstəqilliyinə yad olan qüvvələrin nəzarəti altında idi və bu qüvvələr Azərbaycan Cümhuriyyətini tanımaq istəmirdilər. Digər tərəfdən isə Qarabağ və Zəngəzur bölgəsində erməni daşnakların təcavüzkarlığı kəskinləşməkdə davam edirdi. [1,s.241] Həmin əraziləri parçalayaraq Ermənistana birləşdirmək istəyənlər hər cür çirkin vasitələrə əl atırdılar. Bir tərəfdən isə çar Rusiyasının sərhədlərini bərpa etməyə çalışan denikinçi qüvvələr şimaldan Azərbaycanın müstəqilliyinə təhlükə yaradırdılar. Mövcud təhlükələrin aradan qaldırılması üçün həm Hərbi Nazirlik, həm də hökumət tərəfindən ciddi addımların atması labüd idi. Qafqazda yaranmış vəziyyəti və beynəlxalq şəraiti Böyük Ermənistan ideyasının reallaşdırılması üçün fürsət bilən ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürərək, Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında etnik təmizləmə siyasəti həyata keçirməyə başladılar. Bunun nəticəsində Azərbaycanın bir sıra bölgəsində, xüsusilə həmin mahallarda yaşayan dinc azərbaycanlı əhali Andronik, Dro və Njdenin quldur dəstələri tərəfindən məqsədyönlü soyqırıma məruz qalmış, köçkün və didərginə çevrilmişdi. [4]

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra ermənilər Qarabağın yuxarı hissəsinə yenidən iddia etməyəcəklərinə dair verdikləri sözün üzərində dayanmadılar, hətta saxta iddia ilə çıxış edib Qarabağda təcavüzü daha da genişləndirdilər.Erməni hökuməti Qarabağla bağlı saxta iddialarını Azərbaycan hökumətinə rəsmi şəkildə ünvanlanmasa da xaricdə apardıqları yalançı təbliğatda, eyni zamanda Türkiyənin dövlət adamları ilə görüşlərdə irəli sürdükləri sərhədlər daxilində tərtib olunmuş xəritəyə görə Qarabağa göz tikirdilər. Əsasən də müsəlman qətliamlarının əsas təşkilatçılarından olan qəddarlığı ilə tanınan Andranikin Zəngəzura və Qarabağa gəlməsi vəziyyəti dözülməz həddə çatdırmışdı. Qarabağda Andranikin hərbi qüvvələri qeyri-rəsmi olaraq intensiv şəkildə yerli dinc müsəlmanları kütləvi sürətdə qırırdı. 1918-ci ilin iyul ayından başlayaraq Zəngəzur qəzasında yerli əhalinin məskunlaşdığı müsəlman kəndlərini məhv edərək avqustda qəzanın bir hissəsini tutmuş, Şuşa qəzasını isə təcrid vəziyyətinə salmışdı.Azərbaycan hökuməti həmin vaxtda Bakı məsələsi ilə məşğul olduğundan erməni separatçılarının törətdiyi hadisələrin danışıqlar yolu ilə qarşısını almaq məqsədilə Şuşaya nümayəndə heyəti göndərmiş, avqustun 15-də Ermənistan hökumətinə Andranikin törətdiyi qırğınlarla əlaqədar etiraz notası göndərmişdi.Notanın göndərilməsindən iki gün sonra erməni hökuməti Andranik və onun dəstəsinin onların rəsmi korpusuna daxil olmamasını bildirdi. Baş verən hadisələri görməməzlikdən gələrək onun xüsusi erməni korpusuna tabe olmadığı bildirilirdi. Ermənistan hökumətinin Tiflisdəki diplomatik nümayəndəsi Andranikin quldurluğunun erməni hökumətinə məxsus olmaması görüntüsü abu havası göstərmək, Qarabağla bağlı çirkin planlarını gizlətmək məqsədilə 1918-ci ilin avqustunda Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsindən Şuşaya Ermənistandan xüsusi nümayəndə heyəti göndərilməsinə razılıq verməyi xahiş etmişdi. Açıq aşkar bəlli idi ki, erməni hökümətin Qarabağla bağlı saxta planlarını Andranik öz əməlləri ilə gerçəkləşdirirdi.Vəziyyətdən xəbərdar olan Türk QİO-nun komandanı Nuru paşa bütün qüvvələri Bakının azad edilməsinə səfərbər etməsinə baxmayaraq podpolkovnik İsmayıl Haqqı bəyin məlumatını diqqətə alaraq avqustun əvvəllərində 9-cu Qafqaz alayından bir bölüyünü İsmayıl Haqqı bəyin sərəncamına göndərmişdir.İsmayıl Haqqı bəy yerli qüvvələrin də köməyi sayəsində Şuşanı erməni qəsbkarlarından təmizləmiş, onların işğal etdiyi Qalakənd qəsəbəsini ələ keçirmişdi.Lakin ermənilər məkrli niyyətlərini davam etdirərək Azərbaycan hakimiyyətinə tabe olmamaqda qərarlı idilər. Nuru paşanın Qarabağın Azərbaycan hakimiyyətinə tabe olmaq tələbini Şuşada avqustun 5-də keçirdikləri birinci qurultayda rədd

etmişdilər. Belə olan halda 1918-ci il yayın sonunda Ənvər paşa Nuru paşaya Qarabağda yaranan gərgin vəziyyətin azərbaycanlılar üçün son dərəcə çətin və dözülməz olduğuna görə Zəngəzur və Qarabağı ərazisini ələ keçirmək əmri vermişdi. Lakin Nuru paşa 1918-ci ilin iyulun 18-də imzaladığı əmrdə "Hədəfimiz Bakıdır" deyərək sentyabrın 15-də əldə edilmiş qələbə haqqında verdiyi məlumatı "Hədəfimiz olan Bakı alınmış" bu mühüm əməliyyat sona çatmışdı.Bundan sonra hərəkatımız Şimali Qafqaz və Qarabağa istiqamətlənmişdi-yazaraq sonlandırmışdı. [3,s.93] Nuru paşanın əmri ilə Qarabağın ermənilərin təcavüzündən qurtuluş hərəkatı başlandı. Qarabağda döyüş əməliyyatlarına rəhbərlik isə birinci Azərbaycan diviziyasının komandiri olan Cəmil Cahid bəyə tapşırılmışdı. Bakı əməliyyatından sonra Nuru paşa Qarabağdakı ermənilərdən silahları təhvil verib Azərbaycan hakimiyyətinə tabe olmağı tələb etsə də ermənilər bu tələbi rədd edərək daha irimiqyaslı qırğın törətməyə başladılar.Cəmil Cahid bəy ən qısa müddətdə ermənilərin təslim olmayacağı təqdirdə Şuşaya hücum başlanacağını söyləmişdi. [3,s.94] Oktyabrın 1-də Ağdama gələn Nuru paşa bir daha ermənilərə təslim olmaq ultimatumu verdi. Qafqaz İslam Ordusu rəhbərliyi ermənilərin təcavüzkar əməllərinə baxmayaraq onlara bir neçə dəfə sülh yolu ilə tərk-silah olub Azərbaycan hökümətinə tabe olmağı təklif etmişdi.Lakin ermənilər Azərbaycan hökümətini məcburən tanıdıqlarını bildirsələr də, silahları təhvil vermək istəmədilər.Erməni quldur dəstələrinin döyüşü davam etdirmək istəyi onlara qarşı hücumu labüd etmişdi.Nəhayət oktyabrın 8-i Osmanlı-Azərbaycan hərbi qüvvələri Şuşa şəhərinə daxil olmuş,ermənilər Azərbaycan hakimiyyətini qəbul etdiklərini bildirmişlər.Qafqaz İslam Ordusunun hərəkəti 1 ay davam etmişdir.Ancaq ermənilər yene də əsassız iddialar irəli sürürdülər.Lakin Nuru Paşa teleqrafdakı ittihamlarla razılaşmamış oktyabrın 27-də cavab məktubu göndərmişdir.4 bənddən ibarət cavabda ermənilərin ittihamları rədd edilirdi: "qırğınların qarşısı alınmış,asayiş təmin edilmiş,heç bir neqativ hadisə baş verməmişdi."Lakin Nuru Paşa mövcud beynəlxalq durumu nəzərə alaraq Qarabağda olan Osmanlı hərbi qoşunlarını geri çağırdı.General-mayor İ.Usubov 1-ci Azərbaycan diviziyasının komandiri təyin edildi.Qarabağda erməni təcavüzünə qarşı mübarizə Azərbaycan hissələrinin öhdəsinə düşdü. Qafqaz İslam Ordusu Qarabağda erməni basqınlarını tam olaraq dəf edə bilməsə də ərazinin tamamilə Azərbaycan hakimiyyəti altında olduğuna dair mövqeyini qətiyyətlə vurğuladı. Qarabağdaki hərbi vəziyyətin azərbaycanlıların xeyrinə dəyişməsi Azərbaycana həmin zamanda gələn ingilis komandanlığını real vəziyyətlə hesablaşmağa məcbur etdi. Mənfur ermənilər xarici hərbi qüvvələrin Azərbaycanda olduqları dövrdə Qarabağla bağlı saxta, çirkin iddialarını gündəmdə saxlamaqda davam edirdilər.Osmanlılar hərbi birləşmələrini Azərbaycandan çıxardıqdan və müttəfiq dövlətlərin hərbi qüvvələri gəldikdən sonra Andranik Qarabağda yeni fəlakətlər gətirmək planı həyata keçirməyə başladı. Hətta Andranik ingilislərin guya Qarabağın ixtiyarını ona verməsi haqqında şayiə yaymağa başlamışdı.F.Xoyski parlamentdəki nitqində bu xəbərin yanlış olduğunu bildirmişdi.General Tomson da dekabrın 22-də bu şayiəni təkzib etmişdi.Fətəli xan Xoyski Zəngəzur mahalında Andranikin törətdiyi qırğın və talanlar barədə generel Tomsona məlumat vermişdi,həmçinin teleqramların surətini ona göndərmişdi.Tomson isə bildirmişdi ki,asayiş bərpa edilməsə bütün məsuliyyət onun öhdəsinə düşəcəkdir. Müsəlmanlara qarşı təcavüzün davam etməsi Azərbaycan hökümətini ciddi tədbirlər görməyə vadar edirdi.Andranikin dəhşətli əməllərinin şahidləri Azərbaycan hökümətinə teleqramlar göndərirdilər. Teleqramlarda Andranikin rəhbərliyi ilə erməni quldur dəstələrinin müsəlman əhaliyə tutduğu qanlı divan əməlləri konkret şəxslərin imzaladığı faktlar əsasında göstərilirdi. Belə ki, Zəngəzurda 50-dən çox türk kəndinin dağıldığı,minlərlə ölən və yaralanan olduğu bildirilirdi. Mənbələrdən məlum olur ki, 1918-ci ilin axırlarında daşnaklar Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzasında 21, İrəvan quberniyasında isə 60-dan çox Azərbaycan kəndini məhv etmiş və əhalisini təcavüzə məruz qoymuşdular. Həmin ərazilərin 100 mindən çox əhalisi isə öz dədə-baba yurdlarından didərgin düşdülər. Həmin əraziləri parçalayaraq Ermənistana birləşdirmək istəyən qüvvələr hər cür vasitələrə əl atırdılar. 1918-ci ilin noyabr-dekabr aylarında türk qoşunlarının Azərbaycan ərazisini tərk etməsi Zəngəzurda və Qarabağda erməni təcavüzünün yeni bir faciəli dövrünün başlanmasına səbəb oldu. Azərbaycanlılara qarşı həyata keçirilən qırğınlar xeyli genişləndi. Həmin il dekabr ayının 2-də Gülyataq ermənilər böyük bir silahlı dəstə ilə Sırxavənd kəndi üzərinə hücum etdi. Bütün gücü ilə müdafiə olunan azərbaycanlılar 1 erməni öldürüb, 6 ermənini yaralasalar da, aparılan yüzlərlə mal- qaranı geri qaytara bilmədilər. [2] Azərbaycan parlamentinin dekabrın 20-də keçirilmiş fövqəladə iclasında Andronikin quldur dəstələrinin Qarabağda və o cümlədən Şuşada törətdikləri qanlı əməllər barədə ayrıca məsələ müzakirə olundu. Hökumətin gördüyü tədbirlər haqqında F.X.Xoyskinin çıxışı və müzakirəsindən sonra, Parlament Azərbaycanın ərazi bütövlüyünün qorunması və təcavüzə məruz qalmış əhaliyə mənəvi və maddi yardımın göstərilməsi istiqamətində aparılan işlərin gücləndirilməsi barədə qərar qəbul elədi. [1,s.246] Erməni quldur dəstələrinə qarşı qətiyyətli mübarizə aparmaq üçün Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubematorluq yaradılması haqqında qərar qəbul etdi. Qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu. Nazirlər Şurasının 1919-cu il 15 yanvar tarixli iclasında Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi və aprelin 3-də onun səlahiyyətləri müttəfiq qoşunlar komandanlığı tərəfindən də tanındı.[1] Lakin Azərbaycan hökumətinin verdiyi qərarlar Qarabağda, Şuşada yaşayan dinc müsəlman əhaliyə qarşı daha da qırğınların genişlənməsinə səbəb oldu. Andranikin quldur dəstələri Zəngəzur istiqamətindən Qarabağın içərilərinə doğru irəliləyərək qarşısına çıxan bütün kəndləri talan etdi. O, Şuşanın 35 kilometrliyində idi. 1919-cu il fevralın ikinci

yarısında 200 nəfərlik ingilis qüvvələrinin Şuşaya gəlməsi silahlı quldur dəstəsinin irəliləməsinin qabağını aldı.Lakin Qarabağ, xüsusilə Şuşaya dair ingilis siyasəti bütövlükdə ziddiyyətli səciyyə daşımışdır. X.Sultanov 1919-cu ilin fevralında Şuşaya gələrək, vəzifəsinin icrasına başladı. İyun ayının əvvəllərində Şuşada vəziyyət gərginləşməyə başlamışdı. Qarabağda baş qaldırmış hadisələr birbaşa Erməni Milli Şurasının planı əsasında törədilmişdi. İngilis komandanlığı isə aprel ayında bu plan əsasında Qarabağda erməni və müsəlman icmaları arasında sabitliyi pozmağa yönəlmiş fəaliyyəti öyrəndikdən sonra onun üzvlərinin Qarabağ ətrafından uzaqlaşdırılacağını bildirmişdi. 1919-cu il iyun ayının əvvəllərində Erməni Milli Şurasının Şuşanın ermənilər yaşayan məhəlləsinə gizli yolla silah gətirdikləri məlum oldu. Məqsəd o idi ki, Qarabağ yaylaqlarına qalxaraq yerli azərbaycanlıların qarşısını almaq idi.

Azərbaycan hökumətinin qətiyyətli mövqeyi nəticəsində 1919-cu ilin yayında respublikanın qanuni hakimiyyəti Qarabağda bərqərar edildi. Qarabağın dağlıq hissəsində,həm də Şuşa qəzasında və digər ərazilərdə Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov ərazi bütövlüyü uğrunda böyük xidmətlər göstərdi. Ermənilər Xosrov bəy Sultanovun Qarabağın general-qubernatoru vəzifəsinə təyinatını qəbul etmək istəmirdilər. Hətta qardaşı Sultan bəy Sultanov da ermənilərə qarşı mübarizə aparırdı.Ermənilər bundan da xəbərdar idilər. Ona görə də ermənilər bir çox dövlətlərə müraciət edərək öz narahatlıqlarını xəbər verirdilər. Xaincəsinə Qarabağ qubernatorluğunun ləğv olunması üçün xarici havadarlarından kömək istəyirdilər. Bum səbəbdən Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi bir neçə nota verərək Qarabağın, Zəngəzurun qədim Azərbaycan torpağı olduğunu bildirmişdir. 1919-cu il 3 aprel tarixində isə ingilis komandanlığı tarixi həqiqətlər qarşısında aciz qalan bəyanat verərək Andranikin qoşunlarının buradan çıxarılmalı olduğunu və Qarabağ general-qubernatorluğunu qəbul etdiklərini bildirmişlər. Bu qəti addımlardan narahat olan Ermənistan belə bir zamanda Qarabağla bağlı saxta iddia ilə çıxış etdi.Ancaq Ermənistanın etirazına baxmayaraq Qarabağda hadisələrin qarşısını almaq uğrunda mühüm işlər görüldü. Quldur dəstələr isə Qarabağda milli qırğın siyasətini davam etdirməyə cəhd göstərərək Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında azərbaycanlılara qarşı soyqırım törədirdilər. Qarabağ general-qubernatoru X.Sultanov separatçılara qarşı inadla mübarizə aparırdı. [5] O, Qarabağda daşnak, erməni quldur dəstələrilə mübarizəni davam edtdirərək təhlükəli yerlərdə milli ordunun əsgərlərindən ibarət mühafizə dəstəsi yaradıb, erməni milli şurası üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Artıq martın axırlarında – apreldə görülən hərbi və diplomatik tədbirlər nəticəsində ermənilərin Qarabağdakı düşmənçilik fəaliyyətinin qarşısı alındı.Quldur Andranik X.Sultanovun qətiyyəti və əzmi nəticəsində,eyni zamanda müttəfiqlərin köməyi ilə nəinki Azərbaycanı, hətta bütün Cənubi Qafqazı tərk etməyə məcbur olmuşdu. Son üç əsrdə öz məkrli planlarını həyata keçirməyə çalışan, mənfur qonşularımız olan ermənilərə qarşı Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində qalib gələrək erməni ideologiyasına birdəfəlik ağır, sarsıdıcı zərbələr endirdi.Və tarixi ədalətin bərpa olunmasına şərait yaratdı.İşğal olunan torpaqlarımız geri qaytarılaraq ərazi bütövlüyümüz bərqərar oldu.

ƏDƏBİYYAT

1. MƏMMƏDOV Nazim.Azərbaycan Respublikasının Şuşa Şəhərinin tarixi.Bakı 2016,s.246-944
2. Агаян Ц. Роль России в исторических судьбах армянского народа. М., 1978, с.267.
3. Əhmədova .F.Cənubi Qafqazın ilk mədəni muxtariyyəti 100 il öncə Qarabağda gercəkləşdi. Qarabağ Azadlıq Təşkilatı."Qarabağ dünən, bu gün və sabah" 18-ci elmi-əməli konfransının materialları.Konfrans Qarabağ General Qubernatorluğunun 100 illiyinə həsr olunur.Bakı-2019.s.88-102
4. ARDTA. f.894, siy.10, iş 105, v.60-61.
5. https://science.gov.az/ru/news/open/15847 // Aynur BABAYEVA, Qarabağın general-qubernatoru – Xosrov bəy Sultanov.Müraciət tarixi [07.03.2022]

SUMMARY

PROVOCATIONS OF ARMENIANS IN KARABAKH DURING THE PEOPLE'S REPUBLIC OF AZERBAIJAN

Safarova Ch.G.

1918-1920 is a very important period in the life of the Azerbaijani people. It was during this period that Azerbaijan gained state sovereignty for the first time and took a worthy place in the world community. This period was not only an important stage in the life of our people, but also laid the foundation for the future and independence of the people. The Republic of Azerbaijan existed in a very complex historical and geopolitical environment, but also became a point of interest for a number of countries due to its favorable geographical and strategic importance, natural and economic resources. In 1918-1920, thanks to the patrons of the Armenians, the policy of aggression against the ancient lands of Azerbaijan became more widespread.This became the most serious obstacle to strengthening the statehood of Azerbaijan. However, a

strong regular army formed in a short time allowed to restore the sovereignty and territorial integrity of Azerbaijan in Karabakh, Shusha, Zangazur and other areas.

Keywords: *ADR, Karabakh, Zangazur, Shusha, Javanshir, Jabrayil districts, Armenian aggression*

РЕЗЮМЕ

ПРОВОКАЦИИ АРМЯН В КАРАБАХЕ В УСЛОВИЯХ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

Сафарова Ч.Г.

1918-1920 годы – очень важный период в жизни азербайджанского народа.Именно в этот период Азербайджан впервые обрел государственный суверенитет и занял достойное место в мировом сообществе. Этот период был не только важным этапом в жизни нашего народа, но и заложил основы будущего и независимости народа. Азербайджанская Республика существовала в очень сложной исторической и геополитической среде, но также стал объектом интереса для ряда стран из-за его благоприятного географического и стратегического значения, природных и экономических ресурсов. В 1918-1920 годах, благодаря покровителям армян, более широкое распространение получила политика агрессии против исконных земель Азербайджана. Это стало самым серьезным препятствием на пути укрепления государственности Азербайджана. Однако сформированная в короткие сроки сильная регулярная армия позволила восстановить суверенитет и территориальную целостность Азербайджана в Карабахе, Шуше, Зангезуре и других районах.

Ключевые слова: *АДР, Карабах, Зангезур, Шуша, Джаваншир, Джебраильский районы, армянская агрессия.*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ İSRAİLİN MÖVQEYİ

Səfərova G.R.
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
gunaysafarova@yahoo.com

Açar sözlər: *Azərbaycan, İsrail, İkinci Qarabağ müharibəsi, diplomatiya, neft*

İsrail 1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycanı tanıyan ilk ölkələrdən biri olmuş və 1992-ci ildə ölkəmiz ilə diplomatik əlaqələri daha da gücləndirərək ölkəmizdə öz səfirliyini açmışdır. İsrailin Azərbaycana təyin olunan ilk səfiri Eliezer Yotvat olmuşdur ki, o da 1993-1996-cı illərdə fəaliyyət göstərmişdir [4]. Hazırda ölkəmizə təyin olunan İsrailin fövqəladə və səlahiyyətli səfiri Corc Dikdir.

Azərbaycan və İsrail arasındakı münasibətlər nəinki regionda, eləcə də dünyada sülhün qorunması və daha da möhkəmlənməsinə xidmət edir. İki ölkə arasındakı əlaqələr siyasi, iqtisadi və mədəni sahələrdə yüksək səviyyədə inkişaf edir. Qeyd olunan bu sahələr ilə yanaşı, hərbi sahələrdə də güclü əlaqələrimiz mövcuddur və bu əlaqələr günü-gündən artan tempdə inkişaf etməkdədir. Belə ki, istər Birinci Qarabağ müharibəsi, istərsə də ikinci Qarabağ müharibəsində İsrailin Azərbaycana yaxından dəstəyinin şahidi olduq.

Qeyd edək ki, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycan İsrail ilə uzun illərdir ki, mehriban və səmimi münasibət saxlayır. Ölkələrimiz arasında dostluq əlaqələrinin sıx və möhkəm olmasının əsas səbəblərindən biri uzun illərdir vətənimizdə yaşayan və buranı özlərinin ikinci vətəni hesab edən minlərlə dağ yəhudiləridir.

Azərbaycanın silah sənayesinin formalaşmasında və ordumuzun müasir silahlarla təchiz edilməsində İsrail önəmli müttəfiq rolunu oynayır. Belə ki, hazırda Azərbaycanın silah ehtiyatının 60 faizindən çoxunu məhz İsrail silahları təşkil edir. İsrail də öz növbəsində neft tədarükünün çox hissəsini Azərbaycandan alır və danılmaz faktdır ki, Azərbaycan İsrailin enerji məhsulları ilə təmin olunmasında ən etibarlı tərəfdaşıdır. Belə ki, Azərbaycan İsraildən milyardlarla dollarlıq silah alaraq yəhudi dövlətini neftlə təmin etməkdədir [1].

2012-ci ildə Azərbaycan ordusu İsrail istehsalı olan “Arrow” (Ox) raketdənmüdafiə sistemi ilə təhciz edilmişdir. Bu layihənin dəyəri təxminən 2 milyard dollar civarındadır. ABŞ-ın maliyyə yardımından istifadə edən İsrail bu layihəyə 1998-ci ildə start vermiş və layihə üzrə 2010-cu ildə hazırlanmış sistem sınaqdan keçirilərək İsrail ordusuna daxil edilmişdir. Azərbaycan da bu raketdənmüdafiə sistemindən istifadə edən

ölkələr sırasındadır və hətta İsraildən sonra bu sistemə malik olan ikinci ölkədir. Bu sistemin əsas xüsusiyyətlərindən biri raketlərin hədəfi ən yüksək məsafədə 100% dəqiqliklə zərərsizləşdirməsidir [2].

44 günlük müharibə dönəmində İsrailin Azərbaycana dəstəyi hərbi istiqamət ilə yanaşı, media sahəsində də öz əksini tapırdı. Belə ki, İsrail rəsmiləri dəfələrlə Azərbaycana dəstəyini mediada ifadə ediblər.

Məsələn, "Yisrael Beiteinu" partiyasının lideri Aviqdor Liberman yerli "Vesti" qəzetinə açıqlamasında Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edərək demişdir: "Məhz buna görə də BMT-yə üzv olan heç bir dövlət, o cümlədən Ermənistan Dağlıq Qarabağı suveren qurum kimi tanımayıb. Tarixi reallıq və beynəlxalq hüquq, eləcə də İsrail dövlətinin maraqları baxımından bizim mövqeyimiz tamamilə birmənalıdır. Biz Azərbaycanın ərazi bütövlüyü dəstəkləyirik. Biz hesab edirik ki, o ərazi bütövlüyü bərpa edilmədən regionda məsələnin həlli mümkün deyil. Tarix baxımından, beynəlxalq və milli maraqlar baxımından Azərbaycanın ərazi bütövlüyü İsrailin rəsmi mövqeyidir" [5].

Bundan başqa, müharibə dönəmində İsrailin ölkəmizə yaxından dəstəyinin səfirlik səviyyəsində də şahidi olduq. Belə ki, 11 və 17 oktyabr 2020-ci il tarixində Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncəyə atılan raketlər nəticəsində həlak olan onlarla mülki qurbanların xatirəsini yad etmək və bu hücumdan zərər çəkənlərə tibbi yardım da daxil olmaqla humanitar yardım göstərmək məqsədilə İsrailin Azərbaycandakı hazırki səfiri Corc Dik həmin il oktyabrın 22-də Gəncəyə səfər edərək burada dağılan ərazilərə baş çəkmiş və bu vəziyyətdən əziyyət çəkən insanları dinləyərək onların dərdinə şərik olduğunu bildirmişdir [3].

Qeyd edək ki, hər şeydən əvvəl ölkələr öz münasibətlərini milli maraqlar, eləcə də iqtisadi səmərə əsasında əməkdaşlıq üzərində qursalar da, Azərbaycan-İsrail münasibətlərinin yalnız və yalnız "silah əvəzinə neft" səviyyəsinə endirilməsi doğru bir yanaşma deyil. Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan həm də burada yaşayan minlərlə dağ yəhudilərinin vətənidir. Belə ki, Azərbaycanda sayı minlərlə olan kiçik yəhudi icması yaşayır, icmanın üzvləri yüz illər əvvəl vətənimizdə məskunlaşıblar və onlar burada heç vaxt antisemitizmdən əziyyət çəkməyiblər [1].

Onu da əlavə edək ki, Azərbaycanla İsrailin hökumətlərarası əlaqələri millətlərarası əlaqələrə əsaslanır. Belə ki, iki millət arasında birgə nigahların daimi şahidi oluruq. Sadə dillə desək, Azərbaycan İsrailə neft hasil etməmişdən və ya İsrailin silahlarını almamışdan çox əvvəl də bu iki etnik qrup arasında yaxşı münasibətlər olub [6].

İsrailin müharibə dönəmində Azərbaycana hərbi dəstəyi ilə yanaşı, humanitar dəstəyi də olmuşdur. 2021-ci ilin mart ayında "YAŞAT" Fondunun təşəbbü sü , İ srailin Azərbaycandakı səfirliyinin və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşkilati dəstəyi ilə tibbi-humanitar yardım məqsədilə oftalmoloqlardan ibarət nü mayəndə heyəti İ sraildən Azərbaycana gələrək 8 gün ərzində qazilərə 58 protez göz taxmış, 150-dən çox qaziyə müalicə etmişlər.

Son olaraq qeyd edək ki, Azərbaycan və İsrail arasında mövcud olan əməkdaşlığın inkişafında azərbaycanlılarla yəhudilər arasında tarixən mövcud olan münasibətlərin rolu danılmazdır. Hazırda Azərbaycanda sayı on minlərlə ölçülən yəhudi icması, eləcə də İsraildə xeyli sayda Azərbaycan əsilli yəhudilər yaşayır. Azərbaycanda yaşayan yəhudilər burada heç vaxt özlərini yad kimi hiss etməyib, heç bir antisemitizm halları ilə qarşılaşmayıblar. Bu baxımdan İsrailin əhalisinin əksəriyyəti müsəlman olan dövlətlərdən Azərbaycan ilə yaxın dostluq əlaqəsi bütün dünyaya ən yaxşı nümunə ola bilər.

ƏDƏBİYYAT

1. Azerbaijan opens first trade office in Israel to boost economic ties https://www.timesofisrael.com/azerbaijan-opens-first-trade-office-in-israel-to-boost-economic-ties/
2. İsrailin Azərbaycana satdığı yenilməz "Arrow" - Ermənistanı neytrallaşdıran raket kompleksinin göstəriciləri http://femida.az/az/news/95388/
3. İsrail səfiri Corc Dikin tviti @GeorgeDeek https://twitter.com/GeorgeDeek?s=09
4. Israel Ministry of Foreign Affairs https://mfa.gov.il/MFA/AboutTheMinistry/Israeli%20ambassadors/Pages/Azerbaijan.aspx)
5. The Second Karabakh War, Patriotic War or "Operation Iron Fist" https://www.virtualkarabakh.az/en/post-item/52/2871/the-second-karabakh-war.html)
6. יחסי אזרבייג'ן-ישראל: פרי של קשר היסטורי (Azərbaycan-İsrail münasibətləri: tarixi bağlılığın bəhrəsi) https://www.israelhayom.co.il/news/world-news/article/3672880

SUMMARY

ISRAEL'S POSITION IN THE SECOND KARABAKH WAR

Safarova G.R.

The ties between Israel and Azerbaijan date back to the break-up of the USSR in the early 1990s. On October 18, 1991, the declaration of the Parliament of Azerbaijan restored the country's independence. On December 25, 1991, Israel formally recognized the independence of Azerbaijan, becoming one of the first states to do so, and established diplomatic relations with the country on April 7, 1992. Azerbaijan is home to a Jewish community numbering in the thousands. Baku has bought billions of dollars of weapons from Israel and provided the Jewish state with oil. In the September 2020 Nagorno-Karabakh conflict with Armenia, Azerbaijan has deployed Israeli-made weapons on Armenian targets, and Israel continues to back Azerbaijan in its decades-long territorial dispute with Armenia. Azerbaijan has opened a trade office in Israel, its first official mission in the Jewish state, to boost economic ties between the two countries. A secular, Muslim-majority state, Azerbaijan has long had warm relations with Jerusalem.
Keywords: *Azerbaijan, Israel, The Second Karabakh War, diplomacy, oil*

РЕЗЮМЕ

ПОЗИЦИЯ ИЗРАИЛЯ ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Сафарова Г.Р.

Отношения между Израилем и Азербайджаном восходят к распаду СССР в начале 1990-х годов. Принятой Декларацией парламента Азербайджана от 18 октября 1991 года, он восстановил свою независимость. Азербайджан и Израиль поддерживают дипломатические отношения с 1992 года. 25 декабря 1991 года, Израиль официально признал независимость Азербайджана, дипломатические отношения с Азербайджаном были установлены 7 апреля 1992 года. Азербайджан является домом для еврейской общины, насчитывающей несколько тысяч человек. Баку закупил у Израиля оружия на миллиарды долларов и обеспечил еврейское государство нефтью. Во время Нагорно-Карабахского конфликта с Арменией в сентябре 2020 года Азербайджан применил оружие израильского производства против армянских целей, и Израиль продолжает поддерживать Азербайджан в его многолетнем территориальном споре с Арменией. Азербайджан открыл торговое представительство в Израиле, свою первую официальную миссию в еврейском государстве, для укрепления экономических связей между двумя странами. Азербайджан, светское государство с населением преимущественно исповедующим ислам, давно поддерживает теплые отношения с Иерусалимом.
Ключевые слова: *Азербайджан, Израиль, Вторая Карабахская война, дипломатия, нефть*

II QARABAĞ MÜHARİBƏSİ ZAMANI AZƏRBAYCANA QARŞI BEYNƏLXALQ REAKSİYALAR

Səlimov Ş.D.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Shirxan.salimov@mail.ru

Açar sözlər: *Azərbaycan, II Qarabağ müharibəsi, beynəlxalq reaksiya, Türkiyə, Pakistan, ABŞ, Rusiya, Fransa*

XVIII əsrin əvvəllərindən etibarən özgə torpaqlarında dövlət yaratmaq istiqamətində fəaliyyətə keçən ermənilər ilk növbədə Avropa ölkələrinə üz tutdular. Lakin ermənilərin bu cəhdi bir nəticə vermədi. Avropadan əliboş qayıdan ermənilər Rusiyaya müraciət etdilər. bu zaman arausiya Şimal müharibəsində iştirak etdiyi üçün ermənilərə vəddən başqa bir şey verə bilmədi. Şimal müharibəsinin Rusiyanın qələbəsi ilə nəticələnməsi. Rusiyanın Cənubi Qafqaz siyasətinin gündəmə gəlməsinə səbəb oldu. Səfəvi dövlətinin böhran keçirməsindən yararlanmaq istəyən I Pyotr Azərbaycanın Xəzəryanı vilayətlərini ələ keçirmək üçün

hərbi əməliyyata başladı. Nətisədə Azərbaycan torpaqlarının bir hissəsini ələ keçirən Rusiya bu ərazilərdə etnik dayaq yaratmaq məqsədilə ermənilərdən istifadə etmək qərarına gəldi. Lakin I Pyotrun ölümü həm Rusiyanın həm də ermənilərin bu məqsədləri həyata keçmədi.

XVIII əsrin sonlarında rusiyanın Cənubi Qafqaz siyasətinin fəallaşması ermənilər də hərəkətə keçirdi. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsi və ermənilərin kütləvi şəkildə Azərbaycanın tarixi torpaqlarına köçürməsi ilə ermənilərin Azərbaycan torpaqlarında kütləvi məskunlaşması dövrü başladı. Ancaq tarixi mənbələrdən bəllidir ki, Rusiya Cənubi Qafqazda heç zaman erməni dövləti yaratmaq məqsədi olmayəb. Sadəcə olaraq öz işğalçılıq məqsədlərinə çatmaq üşün ermənilərdən istifadə etmişlər. Türkmənçay müqaviləsindən sonra Azərbaycan ərazisində Erməni vilayətinin yaradılmasına baxmayaraq tezliklə Rusiya tərəfindən ləğv edilməsi bunun bariz nümunəsidir.

Lakin Rusiya tərəfindən ermənilərin kütləvi şəkildə Azərbaycan ərazisinə köçürülməsi prosesi davam etmişdir. Beynəlxalq münasibətlərdə yaranmış şəraitdən istifadə edən ermənilər 1918-ci ildə Azərbaycanın tarixi torpaqlarında 9 min kv km-lik bir ərazidə ermənu dövləti yaramağa nail oldular. Sovüt işğalı və Rusiyanın ədalətsizliyinin nəticəsində sovet rejimi dövründə əlavə olaraq Azərbaycanın tarixi torpaqlarından 20 min kv km ərazi alınaraq Ermənistana verildi. Bununla yanaşı Azərbaycan ərazisində heç bir hüquqi əsası olmadığı halda ermənilərə muxtariyyət hüququ verildi. Bütün bunlarla kifayətlənməyən ermənilər Rusiyanın hərbi-siyasi dəstəyində yararlanaraqtarixi torpaqlarımızı işğal etməkdə və xalqımıza qarşı soyqırım və deportasiya siyasətini davam etdirmişdir. Nəticədə Azərbaycanın beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən tanınmış ərazisi olan keçmiş Dağlıq Qarabağ və ətraf rayonlar işğal edilmişdir. Otuz ilə yaxın davam edən işğallar zamanı ermənilər işğala məruz qalmış Azərbaycan torpaqlarında tarxi-maddi mədəniyyət abidələrimizə, Azərbaycan vətəndaşlarına məxsus olan bütün mülklərinə, eləcədə ekologiyaya qarşı müasir vandalizm siyasəti yeritmişdir. Şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir.

Cəzasızlıq mühitindən iştahlanan havadarlarının çaldığı musiqiyə həvəslə oynayan Ermənistan Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid etməyə başladı. Öz hərbi gücləri ilə öyünən Ermənistan aprel döyüşlərinin nəticəsində Azərbaycan ordusu qarşısında tab gətirə bilməyəcəklərini anladılar. Rusiyanın bir başa siyasi müdaxiləsinin nəticəsi olaraq Azərbaycan hərbi əməliyyatları dayandırdı. Lakin Aprel döyüşlərindən dərs almayan Ermənistan Azərbaycana qaşı yeni təhdidlərlə şıxış etməyə başladı. Tovuz istiqamətində Azərbaycanın sərhədlərini pozmağa cəhd edən ermənistan Azərbaycan milli ordusu tərəfindən ciddi cavab zərbələri ilə qarşılaşdı.

2020-ci ilin sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bütün sərhəd boyu Azərbaycan ərazisinə hücuma keçdi. Beləliklə II Qarabağ müharibəsi başladı. Azərbaycan ordusu əkshücuma keçərək düşmənə ağır zərbələr endirməyə başladı. Ermənilərin keçilməz hesab etdikləri, illərlə xarici dəstəklər nəticəsində inşa etdikləri ohanyan səddi Azərbaycan milli ordusunun hücumu qarşısında tab gətirə bilmədi. Azərbaycan ordusu strateji və taktiki baxımdan həbi əməliyyatları çox dəqiq qura bilmiş və müharibənin ilk günlərindən hərbi üstünlükləri ələ ala bilmiş və bu üstünlüyü müharibənin sonuna qədər əldən verməmişdir.

Ali baş komandan İlham Əliyev başda olmaqla ordu, iqtidar və xalq birliyinin, yüksək vətənpərvərlik hissinin nümayiş etdirilməsi, eləcə də qardaş və strateji müttəfiqlərimiz olan dövlətlərin siyasi dəstəyinin nəticəsi olaraq Azərbaycan düşmənə ardıcıl və sərrast zərbələr endirərək onun üzərində qələbələrə nail olmuşdur.

İkinci Qarabağ müharibəsi başılandığı andan dünya dövlətləri və beynəlxalq təşkilatların diqqət mərkəzində olmuş bu və ya digər şəkildə münasibət bildirmişlər.

"Müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində zəfəri nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurası, BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, Türk Şurası, NATO, GUAM, Avropa Parlamenti və digər beynəlxalq təşkilatların erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinin əsasında həllinə çağıran qərar və qətnamələrini həyata keçirdi, 30 illik işğala son qoyuldu."[1]

"II Qarabağ müharibəsinin gedişində BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş iki qapalı iclasında ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin fəaliyyəti ilə bağlı baş verənlərin üzərində xüsusi olaraq dayanmağa dəyər. Belə ki, 2020-ci il 29 sentyabr və 19 oktyabr tarixlərində BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair müzakirələr keçirildiyi məlumdur. Oktyabrın 19-da BMT TŞ-nin Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən xüsusi bəyanat layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnamələrinə istinad edilməmişdi ki, bu, Azərbaycanı təşkilatda dəstəkləyən dövlətlərin gözündən yayınmamışdı."[3]

Beynəlxalq Təşkilatların əksəriyyəti Azərbaycanın müstəqilliyini tanıyan zaman ermənilər tərəfindən işğal edilmiş ərazilərin Azərbaycana məxsus olmasını bir daha təsdiq etmişlər. Bununla yanaşı hər iki tərəfi atəkəsə əməl etməyə çağırmışlar ki, bu da təbii haldır. Ümumilikdə hərbi əməliyyatlar zamanı Azərbaycan heç bir beynəlxalq təşkilat tərəfindən təzyiqlərə məruz qalmamışdır. Bunun əsas səbəbi Azərbaycanın öz ərazi bütovlüyünü təmin etmək məqsədilə erməni terroruna və separatizmə qarşı mübarizə aparmasından irəli gəlirdi.

II Qarabağ müharibəsinin başladığı ilk gündən Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı hərbi əməliyyatlara ən böyük siyasi-mənəvi dəstək qardaş Türkiyədən gəldi. Türkiyənin prezidenti cənab Rəcəb Tayyib Ərdoğan mövcud vəziyyətlə bağlı qeyd etmişdir: "Erməni xalqını fəlakətə aparan hökumətlərinə və bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəkərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyanı işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram. 30 ilə yaxındır məsələyə etinasız yanaşan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həll üçün fəaliyyətdən, təəsüf ki çox uzaqdır. Ermənistan bölgədə sülh və sabitliyin önündəki ən böyük təhdid olduğunu növbəti dəfə göstərib. Türk milləti hər zaman olduğu kimi bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır."[2]

Türkiyənin dövlət başçısı ilə yanaşı digər rəsmi şəxslər də hərbi əməliyyatlar zamanı dəfələrlə Azərbaycana səfərlər etmiş, torpaqlarımızın yağı düşmənlərdən təmizlənməsində bizə siyasi dəstəklərini vermiş və Azərbaycan xalqının yanında olduqlarını beynəlxalq aləmə nümayiş etdirmişlər.

Bunula yanaşı Türkiyənin siyasi partiyalarının mütləq əksəriyyəti, o cümlədən Türkiyə ictimaiyyəti Azərbaycana ciddi şəkildə siyasi-mənəvi dəstək verərək bir millət iki dövlət olduğumu bir daha əyani şəkildə sübut etmişlər.

II Qarabağ müharibəsi zamanı Türkiyə ilə yanaşı Azərbaycana ən ciddi siyasi dəstək verən verən qardaş Pakistan dövləti olmuşdur. Pakistan Azərbaycanın öz müstəqilliyini elan etməsinin ilk illərindən ölkəmizə qarşı isti münasibət bəsləmişdir. Hətta Pakistan dünya dövlətləri içərisində yeganə ölkədir ki, ölkəmizə qarşı işğalçılıq siyasəti yeritdiyinə görə Ermənistanın müstəqilliyini tanımır. Müharibənin başlanmasının ilk günlərindən Pakistan rəsmi olaraq dövlət səviyyəsində Azərbaycanın yanında olduğunu dəfələrlə bildirmişdir. Hətta Azərbaycana istənilən səviyyədə kömək göstərməyə hazır olduğunu dəfələrlə bəyan etmişdir.

Azərbaycanla yaxın manasibətlərdə olan və onun ərazi bütövlüyünü həmişə dəstəkliyən dövlətlərdən biri də İsraildir. İsrail dəfələrlə birmənalı olaraq Azərbaycanın haqlı mövqeyini ciddi şəkildə müdafiə edərək Ermənistanın əsassız ərazi iddialarına qarşı şıxmışdır. Digər tərəfdən İsrailin müasir tipli silahların Azərbaycana satması da II Qarabağ müharibəsində qələbəmizin təmin edilməsində mühüm rol oynamışdır.

Dünyanın super güclərindən, həm də bununla yanaşı ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan ABŞ müharibə edən hər iki tərəf üçün hərbi əməliyyatların dərhal dayandırılmasına çağrış etməsilə yanaşı Ermənistanın Azərbaycan torpaqlarına hücum etdiyini, ərazi bütövlüyünü və suverenliyi dəstəklədiklərini bildirmişdir ki, bu da Azərbaycanın dövləti maraqlarına cavab verir.

Müstəqilliyin yenidən bərpa edilməsindən sonra Azərbaycanla siyasi, iqtisadi və mədəni əlaqələrə üstünlük verən İngiltərə Qarabağ problemini əvvəlindən ölkəmizə qarşı obyektiv mövqedən çıxış etmişdir. II Qarabağ müharibəsi zamanı İngiltərə Azərbaycanın öz ərazi bütövlüyü uğrunda apardığı müharibədə siyasi dəstəyini bildirərək BMT TŞ-da Azərbaycanın əleyhinə olan qətnamənin qəbul edilməsinin qarşısını almaqla öz ədalətli mövqeyini bir daha bildirmişdir

Qarabağ probleminin memarı olan Rusiya hərbi əməliyyatların gedişi zamanı Ermənistana göstərilən hərbi yardım və dəstəyi istisna etməklə demək olar ki, siyasi baxımdan prosesə müharibənin Azərbaycanın tam qələbəsi ilə nəticələnəcəyi ana qədər (Azərbaycan ordusunun Xankəndinə daxil olması anına qədər) ciddi müdaxilə etmədi. Hətta Ermənistan KTMT-nin üzvü olaraq Rusiyanı və digər müttəfiqlərini hərbi əməliyyatlara cəlb etməyə dəfələrlə cəhd göstərsə də buna nail ola bilmədi. Rusiya Federasiyasının Prezidenti Putin Azərbaycanın Ermənistan ərazisinə hücum etmədiyini öz sərhədləri daxilində hərbi əməliyyatlar apardığını əsas gətirərək KTMT-nin üzvləri ilə birlikdə müharibəyə qoşulmaqdan imtina etdi. Hətta Ermənistanın özünün belə Qarabağı siyasi cəhətdən tamadığını bildirmişdir. Lakin Rusiya müharibənin həlledici anında Şuşanın azad edilməsinin ardınca Xankəndinin azad edilməsinə ciddi şəkildə maneə oldu. Hətta Azərbaycana qarşı İsgəndər raketlərinin atılması ilə bağlı müəmmalar da baş verdi. Rusiyanın hərbi əməliyyyatlar zamanı nümayiş etdirdiyi mövqeyin arxasında Paşinyan hökumətinin cəzalandırılması amilinin də olduğu etimallar içərisində yer almışdır. Digər tərəfdən son anda ermənilərin xilas edilməsində əsas məqsəd Rusiyanın dəstəyi olmadan Ermənistanın heç nəyə nail ola bilmədiyini ermənilərə anlatmağa hesablanmışdır. Nəticə etibarı ilə Rusiya memarı olduğu qarabağ problemini ölüm ayağından xilas edərək ona sanki zəif də olsa yeni bir nəfəs verdi.

Müstəqilliyin bərpasından sonra Azərbaycan Fransa ilə münasibətlər üstünlük verməsinə baxmayaraq Eransa Azərbaycana münasibətdə ermənipərəst mövqeyi ilə seçilmişdir. II Qrabağ müharibəsi başlayan

zaman Fransanın Prezidenti E. Makron işğalçı Ermənistanın maraqlarına cavab verən bəyanala çıxış etdi. Qarabağ probleminin həll edilməsi üçün yaradılmış ATƏT-in Minsk qrupunun həmsədri kimi haqqın, ədalətin yanında olmaq əvəzinə Fransa təssüf ki, öz missiyasına tamamilə zidd olan ədalətsiz bir mövqe nümayiş etdirdi. Bununla yanaşı Fransa Senatı bir az da irəli gedərək 25 noyabr 2020-ci ildə "Dağlıq Qarabğ Respublikası"nın tanınmasına dair qətnamə ilə beynəlxalq qanunlara və hətta Fransanın siyasi imicinə ciddi şəkildə zərbə vuran addım atmışdır.

İran İslam Respubliksı II Qarabağ müharibəsi zamanı rəsmi olaraq bitərəfliyini nümayiş etdirməyə cəhd etsə də İran ərazisindən Ermənistana silah daşınmasına dair bəzi məlumatlar vardır. İranın rəsmi dairələri ilə yanaşı Cənubi Azərbaycan türkləri də II Qarabağ müharibəsi zamanı öz münasibətlərini bildirmişlər. Onlar Cənubi Azərbaycanın böyük şəhərlərində mitinqlər təşkil edərək Azərbaycan milli ordusunun əldə etdiyi uğurlara bağlı öz sevinclərini bizimlə bölüşürdülər. Bununla yanaşı Cənublu qardaşlaımız İrandan Ermənistana gedən yardımların qarşısını almaq üçün mübarizə aparırdılar.

ƏDƏBİYYAT

1. Bayramov C. Böyük qələbənin mükəmməl diplomatiyası https://www.azerbaijan-news.az/posts/detail/boyuk-qelebenin-mukemmel-diplomatiyasi-1636230843
2. https://azerbaijan.az/related-information/307
3. Məmmədov Q.H. II Qarabağ müharibəsində qələbə həm də Azərbaycan diplomatiyasının geosiyasi meydanda və informasiya müharibəsində böyük uğurudur http://newtimes.az/az/organisations/7340

SUMMARY

INTERNATIONAL REACTIONS AGAINST AZERBAIJAN DURING THE II KARABAKH WAR

Salimov Sh.D.

In the material presented, the Armenians by Russia, beginning in the early eighteenth century mass resettlement in the historical lands of Azerbaijan, further acceleration of this process by Russia's occupation of the South Caucasus - especially North Azerbaijan, the Armenian factor in Russia's North Azerbaijan policy, the establishment of the Armenian state in the historical lands of Azerbaijan, the partial transfer of Azerbaijani lands to Armenia. The issue of granting autonomy to Armenians in the territory of Azerbaijan, the occupation of the former Nagorno-Karabakh and surrounding regions by Armenians was discussed. In addition, Armenia's threats to occupy new territories against Azerbaijan, Armenia's attack on Azerbaijani territories and the start of the Second Karabakh War by the Azerbaijani army, the reactions of international organizations and some countries to Azerbaijan during military operations were investigated.

Keywords: *Azerbaijan, II Karabakh war, international reaction, Turkey, Pakistan, USA, Russia, France*

РЕЗЮМЕ

МЕЖДУНАРОДНАЯ РЕАКЦИЯ ПРОТИВ АЗЕРБАЙДЖАНА В ГОДЫ II КАРАБАХСКОЙ ВОЙНЫ

Салимов Ш.Д.

В представленном материале армяне России, начиная с начала XVIII в.массовое переселение на исторические земли Азербайджана, дальнейшее ускорение этого процесса оккупацией Россией Южного Кавказа, особенно Северного Азербайджана, армянский фактор в политике России в отношении Северного Азербайджана, создание Армянского государства на исторических землях Азербайджана, частичное передача азербайджанских земель Армении.Обсуждался вопрос о предоставлении армянам автономии на территории Азербайджана, оккупации армянами бывшего Нагорного Карабаха и прилегающих территорий. Кроме того, были исследованы угрозы Армении оккупировать новые территории против Азербайджана, нападение Армении на азербайджанские территории и начало Второй карабахской войны азербайджанской армией, реакция международных организаций и некоторых стран на Азербайджан в ходе военных операций.

Ключевые слова: *Азербайджан, II карабахская война, международная реакция, Турция, Пакистан, США, Россия, Франция*

AZƏRBAYCANDA ORDU QURUCULUĞU VƏ II QARABAĞ MÜHARİBƏSİNDƏ QƏLƏBƏYƏ APARAN YOL

Səlimova R.D.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

Açar sözlər: *Azərbaycan, ordu quruculuğu, II Qarabağ müharibəsi, qələbə, Ermənistan silahlı qüvvələri, Azərbaycan ordusu*

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanın hərbi fəaliyyət təcrübəsi də kifayət qədər tarixin dərinliklərinə gedib çıxır. Ilk dövlət qurumlarından başlamış Xanlıqlar dövrünə qədər- xüsusilə də Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Azərbaycan Səfəvilər və Əfşarlar dövlətlərinin hərbi qüdrətlərinin nəticəsi olaraq Azərbaycan orduları öz sözlərini demiş və dövlətlərinin siyasi varlıqlarının qorunub saxlanılmasında mühüm rol oynamışlar. Lakin I Pyotrun hakimiyyəti dövründən intensiv xarakter alan Rusiyanın xarici işğalçılıq siyasətində Azərbaycan mühüm yer almağa başladı. Şimal müharibəsini qələbə ilə başa vuran Rusiya Azərbaycan ərazilərinin- xüsusilə də Xəzəryanı vilayətlərin ələ keçirilməsi istiqamətində fəaliyyətə başladı. Bu zaman Səfəvilər dövlətinin tənəzzül dövrünü keçirməsi Xəzəryanı vilayətlərin Rusiya tərəfindən işğal edilməsi üçün münbit şərait yaratdı.

I Pyotrun ölümü, Nadirin hərbi fəaliyyəti və güclü hərbi qüdərət malik olan Əfşarlar dövlətinin yaranması Rusiyanın işğalçı qoşunlarının Azərbaycan ərazisindən vurulub çıxarılmasına gətirib çıxardı. Əfşarlar dövlətinin süqutu və Azərbaycan ərazisində ayrı-ayrı xanlıqların yaranması vahid dövlətçiliyimizə ağır zərbə vurması ilə yanaşı xarici müdaxilə və işğallar üçün münbit şərait yaratdı. Əfşarlar dövlətinin xanlıqlara parçalanması və II Yekatrinanın hakimiyyət başına gəlməsinin nəticəsi olaraq Rusiyanın Azərbaycana qarşı işğalçılıq siyasəti yenidən gündəmə gəldi. Rusiyanın Qafqaz siyasətinə mühüm önəm verən II Yekatrina Azərbaycan torpaqlarının da işğalı üçün tədbirlər həyata keçirməyə başladı.

II Yekatrinanın ölümü və I Pavelin hakimiyyətə gəlməsi Rusiyanın Qafqaz, o cümlədən Azərbaycana qarşı işğalçılıq siyasətində yeni bir fasilənin yaranmasına səbəb oldu. I Pavel rus qoşunlarının Qafqazdan geri çağrılmasına qərar verdi. Lakin 1801-ci ildə I Aleksandrın hakimiyyət başına gəlməsilə Rusiyanın Azərbaycan torpaqlarının işğal edilməsinə yenidən başlandı. Ilk növbədə Qazax, Şəmsəddil, Car-Balakən və Gəncənin işğal edilməsi Azərbaycanın digər ərazilərinin də işğal edilməsi üçün münbit şərait yaratdı.

Qarabağ xanlığına qarşı siyasi təzyiqlərini artıran Rusiya İbrahim xanla işğalçılıq xarakteri daşıyan Kürəkçay müqaviləsini bağladı. Müqavilənin şərtlərinə görə Qarabağ xanlığı siyasi müstəqilliyini itirirdi. Bunun ardınca Şəki və Şamaxı xanlıqları ilə də eyni şərtlərlə müqavilə imzalandı. Bakı ətrafında Sisianovun öldürülməsi bu prosesi bir qədər ləngitsə də qarşısını ala bilmədi. Nəhayət Rus-Qacar və Rus-Osmanlı müharibləri, eləcə də Rusiyanın bəzi Azərbaycan xanları ilə bağladığı Kürəkçay müqaviləsinin şərtlərinin xaincəsinə pozaraq xanlıqların ləğv edilməsinin nəticəsi olaraq Şimali Azərbaycan öz müstəqilliyini itirdi və Rusiyanın müstəmləkəsinə çevrildi.

"Rusiya... Qafqazdakı etnik tərkibi dəyişdirərək bu ərazilərdə uzunmüddətli hakimiyyət qurmağı planlaşdırmış, Qacarlara və Osmanlılara qarşı güclü sədd yaradaraq güclü iqtisadi, hərbi və siyasi imkanlar qazanmaq məqsədini güdmüş, gələcəkdə Osmanlı dövləti üzərinə təzyiq qurmaq məqsədilə ermənilərdən faydalanmışdır".[2s.5]

Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra Azərbaycana qarşı yeridilən müstəmləkəçilik siyasətinin tərkib hissəsi olaraq Azərbaycan gənclərini Rusiya ordu sıralarına çağırmırdılar. Bunun səbəbi kimi güya Azərbaycan gənclərinə etibarı olmaması ilə izah edilirdi. Lakin əsas səbəb Rusiya ordu sıralarında təlim keçərək hərbi təcrübəyə malik olan Azərbaycan gənclərinin nə zamansa müstəmləkəyə qarşı mübarizə apararaq öz müstəqilliklərinə qövuşacaqlarından ehtiyat edirdilər. Azərbaycan türklərindən ancaq elitaya daxil olan ailələrin övladları hərbi xidmətə cəlb edilə bilərdi. Nəticədə Şimali Azərbaycanda milli hərb sənətinin inkişafına məqsədli şəkildə bir zərbə vuruldu. Bu proses Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər davam etmişdir. Lakin bütün bunlara baxmayaraq şar rusiyasının ordusunda zabitlərdən ibarət nüfuzlu hərbiçilər yetişmişdi.

XIX əsrin ikinci yarısında XX əsrin əvvəllərində rus ordusunda xidmət edən, əslən Azərbaycan türkllərindən olan Şıxlinskilər, Bakıxanovlar, Cavanşirlər, Gəngərlilər, Cavadxanlar, Vəkilovlar və başqa sülalərdən onlarla generallar yetişmişdir.

Çar rusiyasının ordu sıralarında xidmət edərək yüksək hərbi rütbəyə və nüfuza sahib olan "Səməd bəy Mehmandarov 1904-cü il oktyabr ayının 22-də general-mayor rütbəsinə və dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeninə layiq görülmüşdür. 1907-1910-cu illərdə Səməd bəy Mehmandarov 3-cü Sibir ordusunda artilleriya rəisi işləmişdir."[4]

Hərbi nazir olaraq fəaliyyətə başladıqdan sonra qısa bir müddətə 40 min nəfərlik Azərbaycan milli ordusu yaratmağa nail olmuşdur.

Çar rusiyasının ordu sıralarında xidmət etmiş generallardan biri də Əliağa Şıxlinskidir. O 1904-1905-ci illərdə baş vermiş Rus-Yapon müharibəsi zamanı batareya komandiri kimi Port-Arturun müdafiəsindəki qəhrəmanlığına görə "Qızıl qılınc" mükafatına layiq görülmüşdür. Hərbi fəaliyyətini davam etdirən Şıxlinski 1908-ci ildə polkovnik, 1912-ci ildə general-mayor rütbəsinə yüksəlir. Birinci Dünya müharibəsi başlayanda Şıxlinski Petroqradın müdafiəsində artileriya komandiri kimi fəal iştirak etdiyi üçün rusiya qoşunlarının Qərb cəbhəsində Artilleriya qoşunlarının rəisi və onuncu ordunun komandanı vəzifəsinə təyin edilir. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Əliağa Şıxlinski vətənə qayıdaraq milli ordumuzun yaranması və inkişafında mühüm rol oynamışlar.

"Birinci Dünya müharibəsi illərində Rusiya ordusu tərkibində 250-dən çox azərbaycanlı zabit döyüşmüşdür".[3] Əvvəllər çar rusiyasının ordusunda xidmət edən zabit və generallarımızın əksəriyyəti Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli ordumuzun yaranması və inkişafında mühüm rol oynamışlar.

Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Azərbaycanda milli ordu quruculuğu istiqamətində ciddi qərarlar qəbul edilmiş, islahatlar aparılmış, çar rusiyasının ordu sıralarında xidmət etmiş milli hərbi kadrlardan istifadə edilmiş və 40 minlik bir ordu yaradılmışdır.

1920-ci il aprel işğalından sonra Azərbaycanda sovet rejiminin qurulması digər sahələrdə olduğu kimi ordu quruculuğu istiqamətində də əldə edilmiş naliyyətlərin üzərindən bir xətt çəkdi. 1922-ci ilə qədər formal müstəqillik saxlansa da SSRİ-nin təşkilindən sonra sövet rejimi tərəfindən verilən vədlərə baxmayaraq Azərbaycan ordusu və milli hərbi kadrlara qarşı amansız represiyalar başladı. Azərbaycan öz müstəqilliyini elan edənə qədərki dövr ərzində ordu quruculuğu sövet rejiminin nəzarəti altında oldu.

Ikinci Dünya müharibəsi zamanı Azərbaycan milli diviziyalarının təşkili və onları istər ölkə daxilində istərsə də ölkə xaricində hərbi əməliyyatların uğurla aparması, düşmən üzərində qələbənin təmin edilməsində mühüm rol oynaması tarixə bəllidir. Bununla yanaşı Azərbaycan döyüşçülərindən ayrı-ayrı hərbi hissələrdə vuruşaraq general rütbəsinə qədər yüksələnləi və hətta bir neçə dəfə Sovet İttifaqı Qəhrəmanı adı alanlar da olmuşdur. Eyni zamanda Azərbaycan hərbiçiləri ayrı-ayrı ölkələrdə partizan hərəkatında da fəal iştirak etmiş və düşmənə ağır zərbələr vuraraq qəhrəmanlıq səlnamələri yazmışlar.

Ümummilli lidar Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə Mərkəzi hökumətin maneələrinə baxmayaraq milli zabit kadrların hazırlanması istiqamətində bir sıra qərarlar qəbul edilərək onun icrasına nail olunmuşdur.

Müstəqilliyin ilk illərində milli və nizami ordu yaradılması istiqamətində bir sıra qərarlar qəbul edilmişdir. Lakin Ermənistan tərəfindən Azərbaycan torpaqlarının bir qisminin işğalı, təcrübəli hərbi kadr çatışmamazlığı, siyasi və maliyyə böhranlarının mövcud olması ordu quruculuğu prosesini ləngidirdi.

Azərbaycanda ordu quruculuğu ilə bağlı Heydər Əliyevin 1993-cü il 2 noyabr müraciətində bütün problem və görüləcək tədbirlər öz əksini tapmışdır. Bəzi çətinliklərə baxmayaraq Azərbaycan ordusunda quruculuq işləri aparılmışdır. 1994-cü ildə Ermənistanla atəşkəs razılaşması əldə edildikdən sonra Azərbaycan ordusunun yenidən qurulması, silah və sursatla təmin edilməsi istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilməyə başlanıldı.

"Cənab İlham Əliyevin qayğısı nəticəsində son illər ərzində Azərbaycan Ordusu inkişafının yeni bir səviyyəsinə yüksəlib."[5] "Tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini də qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazdı. Bu müharibə xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu".[1]

ƏDƏBİYYAT

1. Azadi S. Ordu quruculuğu: Böyük Qələbəyə aparan yol. https://ikisahil.az/post/258574-ordu-quruculugu-boyuk-qelebeye-aparan-yol
2. Hacıyev İ., Şıxəliyev E, Cəfərli E., Şabanov M. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri. Bakı-Elmin inkişaf Fondu-2017, 300 s.
3. https://az.wikipedia.org/wiki/Rusiya_%C4%B0mperator_Ordusunun_az%C9%99rbaycanl%C4%B1_generallar%C4%B1
4. https://modern.az/az/news/154729
5. https://ordu.az/az/news/167002

SUMMARY

ARMY BUILDING IN AZERBAIJAN AND THE WAY TO VICTORY IN THE KARABAKH WAR II

Salimova R.D.

The article presents Azerbaijan's historical military experience, Russia's policy of aggression against Azerbaijan, the signing of the Kurakchay Treaty between Ibrahim Khan and Russia, the occupation of Northern Azerbaijan by Russia, the non-conscription of Azerbaijani youth into the Russian army, officers serving in the Russian army. generals, national army building in Azerbaijan during the rule of the Azerbaijan Democratic Republic, army building policy of the Soviet regime in Azerbaijan, ruthless repressions against national military personnel, decisions on creation of national and regular army in the first years of independence, Heydar Aliyev's appeal of November 2, 1993, Ilham Aliyev's leadership Reforms in the Armed Forces and the victory over the enemy were discussed.

Keywords: *Azerbaijan, army building, II Karabakh war, victory, Armenian armed forces, Azerbaijani army*

РЕЗЮМЕ

АРМЕЙСКОЕ СТРОИТЕЛЬСТВО В АЗЕРБАЙДЖАНЕ И ПУТЬ К ПОБЕДЕ ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Салимова Р.Д.

В статье представлен исторический военный опыт Азербайджана, агрессивная политика России против Азербайджана, подписание Кюракчайского договора между Ибрагим-ханом и Россией, оккупация Россией Северного Азербайджана, непризыв азербайджанской молодежи в российскую армию, офицеры, служившие в русская армия генералы, строительство национальной армии в Азербайджане в период правления Азербайджанской Демократической Республики, политика советского режима в строительстве армии в Азербайджане, беспощадные репрессии против национальных военнослужащих, решения о создании национальной и регулярной армии в первые годы независимости, Обращение Гейдара Алиева от 2 ноября 1993 года, руководство Ильхама Алиева Обсуждались реформы в Вооруженных Силах и победа над врагом.

Ключевые слова: *Азербайджан, строительство армии, II карабахская война, победа, армянские вооруженные силы, азербайджанская армия*

XX ƏSRİN ƏVVƏLİNDƏ CƏNUBİ QAFQAZDA "ERMƏNİ MƏSƏLƏSİ"

Süleymanov N.M.
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
nizamisuleymanovunec@gmail.com

Açar sözlər: *Cənubi Qafqaz, Azərbaycan, Qarabağ, Şuşa, "erməni məsələsi, çar Rusiyası, Osmanlı, "Şərq məsələsi".*

XIX əsrin əvvələrindən başlayaraq çar Rusiyasının ermənileri Cənubi Qafqaza köçürməsi həmin yüzilliyin 30-cu illərindən kütləvi xarakter almışdır. Çarizmin köçürmə siyasətində məqsədi ermənilərdən Cənubi Qafqazda etnik dayaq yaratmaq və gələcəkdə Osmanlı türkləri ilə Azərbaycan türkləri arasında əlaqələri kəsmək üçün erməni dövləti yaratmaq olmuşdur. Rusiyanın xarici işlər naziri S.D.Sazanovun 1912-ci ildə nazirlər kabinetində məruzəsində "Rusiyanın məqsədi, nəyin bahasına olursa-olsun, türklər və bizim tatarlar (Azərbaycan türkləri nəzərdə tutlur-S.N) arasında olan səddi – Ermənistanı yartmaqdır" söylədiyi fikri təsadüfi deyildi [8, s.74].

Rusiya çarının 1899 və 1904-cü illərdə imzaladığı qanunlar da ermənilərin və digər xristian əhalinin, xüsusilə provaslavların Cənubi Qafqazda, əsasən də Azərbaycanda köçürüləcək geniş torpaq sahələri ilə onların təmin edilməsini nəzərdə tuturdu [7,s.13].

Çar Rusiyalı və Qərbin böyük dövlətləri Osmanlı dövləti və Cənubi Qafqazda olan maraqlarını həyata keçirtmək üçün ermənilərdən istifadə etmək niyyətində idilər. Rusiya hökuməti Şərqi Anadolu və Azərbaycanın qərb torpaqları hesabına "Böyük Ermənistan" yaradaçağını vəd etməklə Osmanlı dövlətinin içərisində təxribatlar törətmək üçün ermənilərdən istifadə etməyə çalışırdı. Qərb dövlətləri də Osmanlı dövlətinin zəiflədilməsinə və süqutuna hesablanmış "Şərq məsələsi"ndə ermənilərdən istifadə etməyə çalışırdılar. Onlar bu məqsədlə XIX yüzilliyin sonralarında "erməni məsələsi"ni "Şərq məsələsi" nin bir variantı kimi gündəmə gətirdilər. Bu məqsədlə 1896-cı ilin 23 dekabrında İstanbul yığınçağını təşkil etdilər. Məqsəd ermilərin yaşadığı 6 vilayətdə onlara muxtariyyət keçirilməsinə nail olmaq idi [2, s.115]. 4-7 iyun 1902-cı ildə "erməni məsələsi" ilə əlaqədar Brüsseldə Beynelxalq konfrans keçirildi, konfransda "erməni məsələsi"ni dəstəkləmək üçün komissiya yaradıldı və qətnamə qəbul edildi. Erməni din xadimləri "erməni məsələsi"ni dəstəkləmək üçün xristian dövlət başçılarına müraciətlər edir və bu sahədə xüsusi fəallıq göstərirdilər. Fransa prezidenti tərəfindən 1906-cı il iyulun 15-də keçirilən London konfransında "erməni məsələsi" ilə əlaqədər təkliflər səsləndirildi [4,s.47].

1905-1906-cı illərdə Azərbaycan ərazisində türk-müsəlman xalqına qarşı həyata keçirilən soyqırım zamanı Şuşada həyata keçirilməsi nəzərdə tutulan hücum əməliyyatının planı və vaxtı əvvəlcədən müəyyənləşdirilmişdi: "Planda nəzərdə tutulmuşdu ki, Şuşada yaşayan bütün müsəlmanların hamısını qırmalı, onların nəyi varsa, hamısını garət etməli, ev-eşiklərini yandırıb xarabalığa çevirməli... qələbə əldə edənə qədər russların gücündən istifadə etməliyik [5, s,127]. Göründüyü kimi ermənilərin Cənubi Qafqazda keçirdikləri terror siyasəti Rusiya höküməti tərəfində nəinki müdafiə olunur, hətta onlarla birlikdə iştirak edirdilər. Qafqaz canişini erməni quldur dəstələrinin yaradılmasına və silahla təmin edilməsinə bilavasitə kömək edirdi. Qafqazda yaşayan ermənilərdən ibarət könüllü silahlı dəstələrdən başqa, xarici ölkələrdə yaşayan ermənilərdən də belə dəstələr hazırlanır və Rusiya rəsmi dairələrinin köməyi ilə Cənubi Qafqaza gətirilirdi.

"Erməni məsələsini həyata keçirmək, erməni dövlətini yaratmaq məqsədi ilə "Daşnaksutyun" partiyası tərəfindən yerli təşkilatlarına göstəriş verilirdi ki, İrəvan, Gəncə və Qarabağda olan bütün türk kəndlərini viran qoysunlar, bu kəndləri yerli əhalidən, yəni Azərbaycan türklərindən birdəfəlik təmizləsinlər [2, s.163].

Birinci dünya müharibəsi dövründə ermənilər mövcüd şəraitdən faydalanaraq "Böyük Ermənistan" ideyasını həyata keçirməyə çalışırdılar. Rusiya, Fransa, İngiltərə və ABŞ ermənilərdən öz məqsədlərini həyata keçirmək üçün istiafdə edirdilər. Çar Rusiyasının siyasətinə uyğun olaraq Qafqaz canişini Vorontsoy-Daşkov "Daşnaksutyun" partiyasının liderləri ilə görüşür və onlara ermənilərdən ibarət könüllü adı ilə quldur dəstələri yaratmaq üçün göstərişlər verirdi. O, həmin erməni quldur dəstələrini silahlandırmaq məqsədi ilə Rusiyanın hərbi naziri Suxomlinova 10 avqust 1914-cü ildə Qafqaz dairəsinə 5000 tüfəng və 50 miliyon güllə göndərilməsi ilə əlaqədar müraciət etmişdi [3, s.78].

Erməni katalikosu 5 avqust 1914-cü il tarixli məktubunda Qafqaz çanişini Vorontoy-Daşkovdan yaranmış şəraitdən istifadə edilməsini, "erməni məsələsi" nin həyata keçirilməsinə kömək göstərməsini xahiş edirdi.

Daşnakların Şərqi Anadoluda erməni dövləti yaratmaq planları baş tutmadıqda Cənubi Qafqazda, Azərbaycan ərazisində öz mənfur niyyətlərini həyata keçirtməyi qərara aldılar. 1918-cı ildə Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırım siyasətidə həmin məqsədə nail olmaq üçün edilirdi.

1917-ci ildə oktyabr çevrilişindən sonra Cənubi Qafqaz Komissarlığının, sonra isə Seymin təşkili və ermənilərin də orada təmsil olunması onlara Cənubi Qafqaz Seyminin tam hüquqlu üzvləri kimi Trabzon və Batum konfransllarında Osamanlı dövləti ilə danışıqlarda iştirak etməyə şərait yaratdı. Gürcüstanda və Azərbaycanda milli Respublikaların yarandığı zaman erməni dövlətinin yaradılması məsələsi mübahisələrə səbəb oldu. Həmin dövrdə, 1918-ci il may ayının 24-də Osmanlı dövlətinin Baş Naziri Tələt paşa Batumdaki nümayəndə həyətinin rəhbəri Xəlil paşaya göndərdiyi teleqramında göstərirdi ki, ermənilərin bir hökümət halında təşəkkül etməsinə qətiyyən razı deyiləm. Kiçik bir erməni muxtariyyəti 5 il sonra 5 mln. əhalisi olan bir erməni dövləti halına gələcək və İranda, Amerikada olan ermənilər orada yerləşəcək, İngilis və fransızlar tərəfindən hər sürətlə müdafiə olunaraq gələcəkdə əleyhimizə hərəkət edəcəklər [1. s.661-662]. Lakin Azərbaycan Milli Şurası erməni Milli Şurasının müraciətini müzakirə edərkən ermənilərə bir siyasi mərkəzin verilməsinin qaçılmaz olduğu qərarına gələrək İrəvan şəhəri paytaxt olmaqla 9,8 min kv.km ərazidə, Azərbaycanın tarixi torpaqlarında dövlət yaratmalarına razılıq verildi.

Beləliklə, "erməni məsələsi" ideyası Azərbaycanın qərb torpaqlarında erməni dövlətinin yaradılması ilə gerçəkləşdi.

Daşnakların rəhbərlik etdiyi erməni dövləti yarandığı gündən azərbaycanlıların total soyqırımına başaladılar. Erməni tarixçisi A.A.Lalayanın hesablamalarına görə "özümün 30 aylıq hakimiyyəti dövründə (may 1918-noyabr 1920) daşnaksütyun təkcə ermənistanda azərbaycanlı əhalinin 60 faizinin yer üzündən silib" [6, s.90].

Beləliklə, XX əsrin əvvəllərində İngiltərə, Fransa və Rusiya dövlətlərinin Cənubi Qafqazda öz təsir dairələrini yaratmaq və gələcəkdə bu bölgədə öz mənafelərini qoruyub saxlamaq üçün ermənilərdən bir alət kimi istifadə etmək siyasətləri Azərbaycanın tarixi torpaqlarında erməni dövlətinin yaradılması ilə nəticələndi.

ƏDƏBİYYAT

1. Akdes N.K. Türkiyə və Rusya. Ankara: 1994, 775 s.
2. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlan, 2009, 344 s.
3. Qlinka S.N Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köcürülməsinin təsviri. Bakı: Azərbaycan, 1995, 128 s.
4. Məmmədov İ.S. Erməni kilsəsi və türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu. Bakı: Nurlan, 2010, 240 s.
5. Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə. Bakı: ADPU-nun mətbəəsi, 2005, 169 s.
6. Məhərrəmov N. Ermənilər tərəfindən Anadolu Azərbaycan türklərinin soyqırım tarixindən. H.Əliyev adına AANM-ın Elmi Əsərlər Məcmuəsi, №1, Bakı, 2003.
7. Seyidzadə D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı: Ulduz,1998, 187 s.
8. Вердиева Х.Ю. «Родословная армян и их миграция на Кафказ с Балкан.Баку: Элм,2003,216 с.

SUMMARY

"ARMENIAN ISSUE" IN THE SOUTH CAUCASUS AT THE BEGINNING OF THE XX CENTURY

Suleymanov N.M.

The article describes the use of Armenians as a tool by Tsarist Russia and Western countries against the Ottoman Empire and the Caucasus in the early twentieth century. The terrorist policy pursued by the Dashnaktsutyun party in the South Caucasus, its activities in the field of creating an Armenian state at the expense of Azerbaijani lands with the support of major powers were analyzed.

Key words: *South Caucasus, Azerbaijan, Karabakh, Shusha, "Armenian issue, Tsarist Russia, Ottoman," Eastern issue ".*

РЕЗЮМЕ

«АРМЯНСКИЙ ВОПРОС» НА ЮЖНОМ КАВКАЗЕ В НАЧАЛЕ XX ВЕКА

Сулейманов Н.М.

В статье рассказывается об использовании армян царской Россией и странами Запада в качестве инструмента против Османской империи и Кавказа в начале XX века., Террористическая политика, проводимая партией Дашнакцутюн на Южном Кавказе, ее деятельность на местах проанализированы возможности создания армянского государства за счет азербайджанских земель при поддержке крупных держав.

Ключевые слова: *Южный Кавказ, Азербайджан, Карабах, Шуша, «армянский вопрос», царская Россия, Османская империя, «восточный вопрос».*

ERMƏNİ TƏCAVÜZÜNÜN VƏ TERRORUNUN FORMALAŞMASI TARİXİNDƏN

Süleymanova N.M.

Azərbaycan Respublikası Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, Azərbaycan

nsdia.edu@gmail.com

Açar sözlər *: erməni təcavüzü, Cənubi Qafqaz, Rusiya, Türkmənçay müqaviləsi, Osmanlı İmperiyası, İran, Daşnaksütyun*

I Pyotrun hakimiyyətə gəlməsi ilə kifayət qədər möhkəmlənən və dövlətin sərhədlərini xeyli genişləndirməyə nail olan Rusiya hərbi qüvvələrə arxalanmaqla bərabər, Cənubi Qafqazda olan ermənilərdən də bəhrələnməyə çalışırdı. Azərbaycan ərazisinə səpələnmiş olan ermənilər öz tərəfinə çəkməyə çalışmaqla Rusiya Cənubi Qafqazda özünün dayaq nöqtəsi yaratmaq istəyirdi.

1722-23-cü illərdə rus qoşunları Dərbənddən Bakıya qədər olan Xəzəryanı əraziləri işğal edəndə Azərbaycan ərazisinə səpələnmiş ermənilər bundan sevinib öz silahlı dəstələrini təşkil etdilər və onlar Şamaxıda rus qoşunları ilə birləşmək istəyirdilər (1). Amma Osmanlı qoşunlarının təzyiqi ilə üzləşən rus qoşunları Şamaxıya, Gəncəyə və Qarabağa tərəf hərəkət edə bilmədi. Onda Rusiya dövləti ermənilərə təklif etdi ki, Xəzəryanl ərazilərə köçsünlər. Onlara vəd olunurdu ki, burada onlar üçün ən yaxşı şərait yaradılacaq, torpaqlar veriləcəkdir, yerli əhali buna narazı olduğu halda öz yerlərindən köçürülməli və onların evləri ermənilərə verilməli idi. Bu məsələ ilə bağlı Rusiya çarının xüsusi fərmanı da imzalanmışdı (2).

Lakin rus qoşunları tezliklə geri çəkilməli oldular və Rusiyanın ermənləri Xəzərsahili ərazilərə köçürmək planı baş tutmadı. XIX əsrin əvvəllərindən Rusiya yenidən Cənubi Qafqazı işğal etməyə başladı. Bu işğalçılıq planlarının həyata keçirilməsində də ermənilər Rusiyaya yaxından kömək etdilər. Rusiya ermənilərə söz verdi ki, Cənubi Qafqazı işğal edəndən sonra onlara xüsusi qayğı göstəriləcəkdir. Ermənilər isə istəyirdilər ki, ruslara göstərdikləri kömək əvəzində İrəvan vilayətinin (xanlığının) ərazisində Erməni dövləti yaradılsın. Bu dövlət Rusiyanın tərkibində mövcud olmalı idi (3).

Rusiya 30 ilə yaxın İrəvan xanlığının işğal edilməsi uğrunda mübarizə apardı. İrəvan xanlığı 1827-ci ildə işğal edildi. Erməni tarixçilərinin çoxu o zaman vilayət əhalisinin əksəriyyətinin azərbaycanlı olmasını gizlədirlər. Amma bəziləri etiraf edirlər ki, o zaman vilayət əhalisinin yalnız 33,8 faizi ermənilər idi (4). Fransız səyahətçisi Jak Şardenin verdiyi məlumata görə isə İrəvan qalası daxilində heç bir nəfər də olsa erməni yaşamırdı (5).

Ermənilər güman edirdilər ki, İrəvan xanlığı ərazisində özlərinə dövlət yarada biləcəklər. Amma Rusiya onlara belə şans vermədi. Çünki ruslar əmin idilər ki, ermənilərə müstəqil dövlət verilsə onlar rusların da nəzarəti altından çıxacaqlar. Ona görə əvvəlcə İrəvan vilayəti ərazisində Müvəqqəti İdarəetmə Komitəsi yaradıldı . Bu Komitənin üç üzvündən biri erməni yepiskopu Nerses idi. Rus generalları tezliklə onun Rusiya maraqlarına cavab verən bir şəxs olmadığını görəndə onu vəzifədən azad etdilər və Bessarabiyaya sürgün etdilər (6).

1828-ci ildə Rusiya ilə İran arasında Türkmənçay müqaviləsi imzalanandan sonra isə İrəvan vilayəti ərazisində Erməni vilayəti yaradıldı və tamamilə rusların hakimiyyəti altına verildi. Lakin ruslar İranla və Türkiyə ilə sərhəddə azərbaycanlıların sayının çox olmasından ehtiyat edirdi. Ona görə də Cənubi Qafqazın İranla və Osmanlı dövləti ilə sərhəd xətti boyunca xristian ermənləri yerləşdirməklə Rusiya özünə təhlükəsizlik zonası yaratmağa başladı. 1828-ci ilin fevralında İranla imzalanmış Türkmənçay müqaviləsinə və 1829-cu ildə Osmanlı Türkiyəsi ilə imzalanmış müqaviləyə əsasən İran və Osmanlı ərazisində yaşayan ermənilərin Cənubi Qafqaza, azərbaycanlılar yaşayan ərazilərə köçürülməsinə nail oldu. Türkmənçay müqaviləsinin XIV maddəsinə əsasən İran ərazisində yaşayan ermənilər Azərbaycanın Qarabağ, İrəvan və Naxçıvan xanlıqları ərazisinə köçürülməli idi (7).

Ermənilərin İrandan Azərbaycan torpaqlarına köçürülməsi üçün Rusiya tərəfindən xüsusi komitə yaradıldı və milliyyətcə erməni olan rus qoşunları polkovniki Lazarev bu komitənin rəhbəri təyin edildi. Qısa müddət ərzində ermənilərin İrandan köçürülməsinə başlandı. Türkmənçay müqaviləsindən sonra İran ərazisindən 6976 ailə və ya 35560 nəfər erməni Azərbaycan ərazisinə köçürüldü. Onlardan 2557 ailə Naxçıvan ərazisində, 1395 ailə İrəvan xanlığı ərazisində, 3000 ailə və ya 15 min nəfər isə Qarabağda yerləşdirildi (8).

Osmanlı ərazisindən köçürülənlərlə birlikdə iki il ərzində Erməni vilayətində yaşayan ermənilər 22500 nəfərdən 64450 nəfərə çatdırıldılar. Naxçıvanda olan 2150 nəfər ermənininin sayı 13771 nəfər çatdırıldı (9).

Erməni tarixçiləri etiraf edirlər ki, təkcə İran ərazisindən 8249 erməni ailəsi və ya 45 min erməni İrəvan, Naxçıvan və Qarabağ ərazisinə köçürüldü (10).

Osmanlı dövlətindən köçürülənlər də nəzərə alınmaqla 1828-1830-cu illər ərzində Qarabağa isə 40 min erməni İrandan, 90 min erməni isə Osmanlıdan köçürüldü (11). Halbuki erməni tarixçiləri də etiraf edirlər ki, Türkmənçay müqaviləsindən əvvəl Qarabağda yaşayanların əksəriyyəti azərbaycanlılar idi. Daha doğrusu orada 48512 nəfər azərbaycanlı, 21740 nəfər erməni yaşayırdı (12).

Özlərinə vətən axtarışında olan ermənilərin azərbaycanlılar yaşayan ərazilərdə sayları artandan sonra məhz həmin ərazilərdə vətən yaratmaq arzuları gücləndi. Xüsusilə XİX əsrin ortalarında və sonlarında Osmanlı ərazisində muxtariyyət almaq planları baş tutmayanda ermənilər bütün diqqətlərini Cənubi Qafqaza çevirdilər. Çünki ermənilərin toplu şəkildə yaşadıqları yer Qarabağ və İrəvan vilayəti idi.

1890-cı ildə erməni millətçiləri "Daşnaksütyun" millətçi partiyası blgədə azərbaycanlı əhaliyə qarşı həyata keçirilən təcavüzkarlığın əsas təşkilatçısına çevrildi. Bu partiya qarşıya qoyulan məqsədə, yəni Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılmasına çatmağın əsas yolunu silahlı təcavüzdə görürdü. Bu məqsədlə "Daşnaksütyun" partiyası rəsmən elan etdi ki, ermənilər qarşılarına qoyduqları məqsədə çatmaq üçün silahlı vasitələrdən istifadə etməli, özünün silahlı dəstələrini yaratmalıdır. Partiyanın 1892-ci ildə keçirilən ilk qurultayında zinvorlardan (əsgərlərdən) ibarət erməni silahlı dəstələrinin yaradılması haqqımda

qərar qəbul etdi (13). Bu silahlı dəstələr erməni planlarının həyata keçirilməsi üçün həm Osmanlı Türkiyəsi ərazisində, həm də Cənubi Qafqazda terror aksiyalar həyata keçirməli idi. Elə XIX əsrin sonlarında Daşnaksütyun partiyasının terror etmək üçün kifayət qədər böyük imkanları var idi və bu yolla bu partiya Osmanlı Türkiyəsi ərazisində öz məqsədlərinə nail olmaq istəyirdi (14). Bunun üçün ermənilər "xumba" adlanan xüsusi erməni dəstələri də təşkil etmişdilər. Daşnaksütyun partiyasının qərargahı Cənubi Qafqaza yerləşdiyi üçün bu partiyanın rəhbərliyi altında ilk terror təşkilatları da Cənubi Qafqazda təşkil edildi. Belə xumbalardan birinə Kukucanyan rəhbərlik edirdi və bu dəstə terrorların təşkil edilməsi üçün Türkiyə ərazisinə keçdi. Sonradan bu dəstə ruslar tərəfindən tərksilah edildi. Başqa bir erməni xumbası isə İran ərazisindən Türkiyəyə keçdi və orada terrorlar törətməyə başladı (15).

Terror qruplarının yaradılması üçün partiya üzvləri çox fəal iş aparırdılar. Onlar xüsusilə Cənubi Qafqaz ərazisində məskunlaşmış erməni gənclərini terror dəstələrinə cəlb etməyə çalışırdılar.

Daşnaksütyun partiyasının rəhbərliyi altında Cənubi Qafqazda iki müstəqil terror şəbəkəsi yaradılırdı. Bu şəbəkələrdən biri partiyanın silahlı dəstələri idi. Həmin dəstələr qeyri-qanuni şəkildə, gizli olaraq yaradılır və gizli yolla əldə edilmiş silahlarla silahlandırılırdılar. Həmin dəstələrin (xumbaların) üzvlərinin sayı böyük ola bilərdi və bu dəstələr daha böyük qırğınların, silahlı basqınların həyata keçirilməsi üçün istifadə edilirdi.

İkinci erməni terror şəbəkəsi isə Daşnaksütyun partiyasının Mərkəzi komitələrinin nəzdində yaradılırdı. Bu şəbəkə peşəkar terrorçulardan ibarət şəbəkə idi. Daşnaksütyun partiyasının iki mərkəzi ofisi vardı. Onlardan biri Avropada yerləşirdi və Qərb bürosu adlanırdı. Digəri isə Tiflisdə yerləşirdi və Şərq bürosu adlanırdı. Cənubi Qafqazda Daşnaksütyun partiyasının bütün fəaliyyətinə Şərq bürosu rəhbərlik edirdi. Böyük şəhərlərdə isə Daşnaksütyun partiyasını mərkəzi komitələri yaradılmışdı. Tək Azərbaycan ərazisində bu partiyanın dörd mərkəzi komitəsi vardı və onlar Bakıda, Şuşada, Gəncədə və Naxçıvanda yerləşirdilər (16). Daşnaksütyun partiyasının hər bir mərkəzi komitəsi özünün terrorçu dəstəsini yaratmalı idi. Yəni, təkcə Azərbaycan ərazisində ermənilərin dörd peşəkar terroristlər dəstəsi var idi.

Mərkəzi komitələrin nəzdində olan terror dəstələrinə adətən 40-100 nəfər daxil olurdu. Cənubi Qafqazdakı ən böyük erməni terrorçu dəstəsi Tiflisdəki Mərkəzi komitənin nəzdində yaradılmışdı. Bu dəstənin üzvlərinin sayı 150 nəfər idi. Tiflisdə şəhərin özündə fəaliyyətə məsuliyyət daşıyan mərkəzi komitəsi var idi, bir də bütün Cənubi Qafqazdakı mərkəzi komitələrə rəhbərlik edən Şərq bürosu var idi. Şərq bürosunun nəzdində də ayrıca bir terror dəstəsi yaradılmışdı. Bu dəstənin üzvləri Şərq bürosunun qərarı ilə Cənubi Qafqazın müxtəlif məntəqələrinə yollanır və orada terror aktları törədirdilər.

1904-cü ildə Daşnaksütyun partiyasının hərbi nizamnaməsi çap olundu. Bu nizamnamə terrorçulara rəhbərlik üçün rəhbər sənəd idi. Orada zinvorların həm terror tapşırıqlarının icrası zamanı, həm də dinc vaxtlarda vəzifələri öz əksini tapmışdı (17).

1905-07-ci illərdə Rusiyada fəhlə üsyanları baş verəndə erməni millətçiləri də Cənubi Qafqazda güclərini yoxlamağı qərara gəldilər. Silahlı dəstələr vasitəsilə çox böyük ərazilərdə azərbaycanlı əhali qırılmalı, təmizlənməli və ermənilərin nəzarəti altına alınmalı idi. Buna onlar asanlıqla nail olurdular. Çünki, azərbaycanlıların erməni silahlı dəstələrinə cavab verəcək dəstələri yox idi (19).

1905-09-cu illər ərzində erməni terror dəstələri tərəfindən Cənubi Qafqaz ərazisində 200-dən artıq terror aktı yerinə yetirildi (20). Erməni terrorçuları hətta onların fikirləri ilə razılaşmayan ermənilərin özlərinə qarşı da terrorlar təşkil edirdilər (21).

Qanunsuz erməni silahlı dəstələrinə rəhbərlik etmək üçün daşnak partiyasının xüsusi proqramı var idi. Bununla əlaqədar Bolqarıstanda erməni zabitləri hazırlayan kurs yaradıldı. 1907-ci ildə həmin kursu 53 erməni zabiti bitirdi və onlar hamısı Cənubi Qafqaza göndərildi. Qanunsuz erməni silahlı dəstələrinin sayı artanda Baş Hərbi Şura yaradıldı. Bu Şuranın tərkibinə keçmiş hərbçilər daxil idilər. Şuranın nəzdində Baş Qərargah da yaradılmışdı. Baş Qərargah və Baş Hərbi Şura mərkəzi komitələrin nəzdində yaradılmış hərbi şuraların işinə rəhbərlik edirdi. Bu şuralara isə yüz nəfərlik dəstələrin komandirləri daxil idilər (22). Daşnak hərbi qüvvələri yalnız öz partiyasının əmrlərini yerinə yetirirdi. Bu partiyanın Cənubi Qafqazdakı əsas fəaliyyəti isə azərbaycanlılara qarşı istiqamətlənmişdi. Çünki onlar əsasən azərbaycanlılar yaşayan əraziləri təmizləyib orada erməni dövləti yaratmaq istəyirdilər.

Daşnak partiyası topladığı pul hesabına çoxlu sayda silah və sursat da alırdı. 1905-07-ci illər fəhlə inqilabının baş verdiyi illərdə çar polisi təkcə Bakı və Gəncədə apardığı axtarışlar zamanı daşnak partiyasının silah anbarlarından 10 min ədəd tüfəng, 1 milyondan artıq güllə, 1000-dən artıq bomba və çoxlu revolver ələ keçirmişdi (23). Bir daha qeyd etmək lazımdır ki, ermənilər Cənubi Qafqazda dövlətə qarşı müharibə aparmırdılar, gürcülərlə də münasibətləri elə də kəskin deyildi. Bu silahlar və silahlı dəstələr bütünlüklə azərbaycanlılara qarşı çevrilmişdi.

Bütün bunların nəticəsi idi ki, 1905-ci il erməni-müsəlman qırğınlarında minlərlə azərbaycanlı qətlə yetirildi.

Birinci dünya müharibəsinin başlanması ermənilərə yenidən ümid verdi ki, böyük dövlətlərin köməyi ilə Türkiyə ərazisində erməni dövləti yarada biləcəklər. Bunun üçün onlar yenidən fəaliyyətə başladılar. Daşnak partiyası və digər partiyalar həm Türkiyə ərazisindəki ermənilər, həm də Cənubi Qafqazdakı ermənilər bu müharibəyə cəlb etdilər. Mövcud olan məlumatlara görə Türkiyə ərazisində 60 min erməni Osmanlı ordusu tərkibində idi (24). Rus ordusunun tərkibində isə 300 minə qədər erməni var idi (25). Onların da əksəriyyəti Qafqaz cəbhəsində türklərə qarşı vuruşurdu. Məlumdur ki, Türkiyə ordusunda olan ermənilər türk ordusuna qarşı təxribatlar həyata keçirirdilər. Onlar arxadan türklərə zərbə endirir, türk kəndlərini yandırıb talayır. Qarşı tərəfdən də rus qoşunları tərkibində olan ermənilər türk əhalisini qırırdı.
Türkiyə ordusundan qaçan ermənilər də ayrıca dəstələr yaradıb onlar da türkləri qırmağa başladılar. Belə bir şəraitdə Osmanlı Türkiyəsi cəbhə xətti boyunca yerləşən ermənilər ölkənin cənubuna köçürməyi qərara aldı (26).

Rus ordusunda olan ermənilərdən başqa ermənilər I Dünya Müharibəsi dövründə özlərinin müstəqil silahlı dəstələrini (drujinalarını) yaratmışdılar. Dörd belə dəstə yaradılmışdı və onların hər birinin tərkibində 985 nəfər silahlı var idi (27). Sonradan bu dəstələrin sayı 9-a çatdırıldı. Bu dəstələrdən birinə Andronik Ozanyan rəhbərlik edirdi. Həmin dəstələr əvvəlcə Türkiyə ərazisində fəaliyyətə başladılar. Oradan qovulandan sonra isə onlar Zəngəzur və Qarabağda azərbaycanlıları qırmağa başladılar.

1915-ci il mart ayının 18-də Rusiya, Fransa və İngiltərə arasında Konstantinopol müqaviləsi bağlandı və bu müqaviləyə əsasən I Dünya müharibəsində qələbədən sonra Türkiyə ərazisi bu dövlətlər arasında bölüşdürülməli idi (28). Böyük dövlətlər ermənilərə söz versələr də bu müqavilədə Türkiyə ərazisində onlara muxtariyyət verilməsi nəzərdə tutulmurdu. Ermənilər anlayanda ki, Türkiyə ərazisində dövlət qurmağa nail olmayacaqlar, onda bütün güclərini Cənubi Qafqaza topladılar və bundan sonra azərbaycanlı əhaliyə qarşı qırğınlar daha da artdı.

1917-ci ildə Rusiyada fevral inqilabı baş verəndən sonra Cənubi Qafqazda milli hərəkatlar gücləndi. Bu dövrdə Cənubi Qafqazın Moskvadan asılılığı kəsildi və Cənubi Qafqazın idarə edilməsi üçün əvvəlcə Xüsusi Komitə, sonra da Zaqafqaziya Komissarlığı yarandı. 1918-ci ilin yanvar ayının 5-də bolşeviklər Moskvada Müəssislər Məclisini (Bolşeviklərin ilk parlamenti) dağıdandan sonra onun Cənubi Qafqazdan olan deputatları Zaqafqaziya seymini yaratdılar. 1918-ci ilin may ayının 26-28-də Zaqafqaziya seyminin gürcü deputatları Gürcüstanı, azərbaycanlı deputatları Azərbaycanı müstəqil etdilər. Erməni deputatlar da özlərinin müstəqil dövlətlərini yaratdıqlarını elan etdilər. Azərbaycanlılar və gürcülər üçün müstəqil dövlətin hansı ərazilərdə yaradacaqları məlum idisə, ermənilər bilmirdilər ki, öz dövlətlərini hansı ərazidə formalaşdırsınlar. Onda erməni deputatlar azərbaycanlı deputatlara müraciət etdilər ki, Azərbaycan tərəfi İrəvanın erməni dövlətinin paytaxtı elan edilməsinə icazə versinlər. Azərbaycanın Milli Şurası 29 may 1918-ci il tarixli iclasında bölgədə sülhün əldə edilməsi və dinc qonşuluq şəraitində yaşamaq xatirinə İrəvənın ermənilərə güzəştə gedilməsinə razılıq verdi. Azərbaycan Nasirlər Şurasının sədri Fətəli xan Xoysli bununla əlaqədar yazırdı ki, biz İrəvanı ermənilərə güzəştə getdik. Güman edilirdi ki, bununla erməni qırğınlarına da son qoyulacaq (29).

İrəvan ermənilərə güzəştə gedilsə də ermənilər müharibəni dayandırmadılar. Çünki onlar yalnız İrəvan ətrafında onlara verilmiş ərazilərlə razı deyildilər. Onlar Zəngəzuru, Naxçıvanı və Qarabağı da Azərbaycandan qoparmaq istəyirdilər. Bunun üçün də erməni ordusu və erməni terror dəstələri birləşərək Zəngəzurda, Naxçıvanda və Qarabağda azərbaycanlı əhalini qırmağa başladı. Bakı şəhərində əsasını ermənilər təşkil edən Sovet hakimiyyəti qüvvələri ilə erməni daşnak silahlı dəstələri birləşərək Bakıda, Şamaxıda, Qubada kütləvi qırğınlar həyata keçirdilr. Təkcə Bakıda 15 min azərbaycanlı qətlə yetirildi (30

Azərbaycanda erməni qırğınlarının qarısının almaq çətin olanda Azərbaycan dövləti Osmanlı Türkiyəsinə müraciət edib hərbi yardım istədi. Türkiyə hərbi qüvvələrinin yardım ilə bu qırğınların qabağını saxlamaq və Bakı şəhərini sovet-daşnak qüvvələrindən azad etmək mümkün oldu. Birinci Dünya müharibəsinin nəticələrinə görə Türkiyə hərbi qüvvələri Azərbaycanı tərk etdi və Cənub Qafqaza ingilis hərbi qüvvələri daxil oldu.

Sovet hakimiyyəti qurulandan sonra azərbaycanlı əhaliyə qarşı davam edən erməni qırğınlarının qarşısını saxlamaq mümkün olmadı. Naxçıvanda azərbaycanlıların qırılması elə bir miqyas aldı ki, Türkiyə hərbi qüvvələri bir daha azərbaycanlıların yardımına gəldi və Naxçıvan əhalisini məhv olmaqdan xilas etdi. Bolşeviklərin bir başa müdaxiləsi ilə ermənilər Zəngəzuru da Azərbaycandan ayıra bildilər. Dağlıq Qarabağa isə 1923-cü ildə muxtariyyət statusu verildi. Amma ermənilər bununla da razılaşmadılar və onun nəticəsidir ki, burada müharibə bu gün də davam edir.

ƏDƏBİYYAT

1.Лысцов В.П. Персидский поход Петра 1 . Москва, 1951, с.65

2.Мустафазаде Т.Т. Азербайджан и Русско-турецкие отношения в первой трети XVIII в. Баку, 1993, с.143

3. Парсамян В.А. История Армянского народа. Книга 1, Ереван, 1972, с.73

4. Присоединение Восточной Армении к Росии и его исторические значение. Ереван, 1978, с.27-28

5.Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, 1997, s.25

6. Акты Кавказской Археологической Комисии. Том 8, Тифлис, 1866, с.265

7. Garabagh. Baku, 2005, s.325

8. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (X1X- начале XX в.) Баку, 1999, с.106

9. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (X1X- начале XX в.) Баку, 1999, с.230

10. Присоединение Восточной Армении к Росии и его исторические значение. Ереван, 1978, с.27-28

11. Garabagh. Baku, 2005, s. 34

12. Галоян Г. Россия и народы Закавказья. М., 1976, с.156

13. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar (Public movment) Arxivi, fond 276, siyahı 8, qovluq, vərəq 31 (arxivin adı qısaca AR SPİHA)

14. Firuz Kazemzadeh. The struggle for Transcaucasiya. Nevv York. 1951, s.10

15. Firuz Kazemzadeh. The struggle for Transcaucasiya. Nevv York. 1951, s.10

16. AR SPİHA, fond 276, siyahı, 8, qovluq 276, v.98-99

17. AR SPİHA, fond 276, siyahı 8 qovluq 256, v.9

18 AR SPİHA, fond 276, siyahı 9 qovluq 66, v.151

19. Firuz Kazemzadeh. The struggle for Transcaucasiya. Nevv York. 1951, s.19

20. AR SPİHA, fond 276, siyahı 9 qovluq 66, v.152

21. Christofer J. Walker. Armenia and Karabakh. London, 1991, S.23

22. AR SPİHA, fond 276, siyahı 8 qovluq 259, v.31-32

23. AR SPİHA, fond 276, siyahı 8 qovluq 263, v. 38, 60, 70

24. Christofer J. Walker. Armenia and Karabakh. London, 1991, S.23

25. Арутунян А.О. Кавказский фронт 1914-1917. Ереван, 1971, с.296

26. Гурко-Кряжин. Армянский вопрос. Баку, 1990, с.26

27. Арутунян А.О. Кавказский фронт 1914-1917. Ереван, 1971, с.296

28. Firuz Kazemzadeh. The struggle for Transcaucasiya. Nevv York. 1951, s.30

29. Azərbaycan Respublikası Dövlət Arxivi, fond 970, siyahı 1, qovluq 4, v.12

30. Muradzadə Məhəmməd Mart hadiseyi-əliməsi Bakı, 1996, s.4,8

SUMMARY

FROM THE HISTORY OF THE FORMATION OF ARMENIAN AGGRESSION AND TERROR

Suleymanova N.M.

The South Caucasus is of great geostrategic importance due to its location at the crossroads of Europe and Asia. From the 18th to the 19th centuries, this region became the center of struggle of the great powers of that time. On the one hand, Russia, on the other hand, the Ottoman state and on the other hand, Iran were trying to implement their plans of aggression by strengthening their position in the region, as well as to control the economic potential of the region, especially its natural resources. Various means were used to achieve the goal. Armenians enthusiastically supported Russia's invasion of the region. Because the Armenians scattered in a number of Asian countries hoped that with the help of Russia they would be able to create an Armenian organization in the South Caucasus.

Keywords: *Armenian aggression, South Caucasus, Russia, Turkmenchay Treaty, Ottoman Empire, Iran, Dashnaktsutyun*

РЕЗЮМЕ

ИЗ ИСТОРИИ ФОРМИРОВАНИЯ АРМЯНСКОЙ АГРЕССИИ И ТЕРРОРА

Сулейманова Н.М.

Южный Кавказ имеет большое геостратегическое значение из-за своего расположения на перекрестке Европы и Азии. С 18 по 19 века этот регион стал центром борьбы великих держав того времени. С одной стороны, Россия, с другой стороны, Османское государство и, с другой стороны, Иран пытались реализовать свои планы агрессии, укрепляя свои позиции в регионе, а также контролировать экономический потенциал региона, особенно его природные ресурсы. Для достижения цели использовались различные средства. Армяне с энтузиазмом поддержали вторжение России в регион. Потому что армяне, рассеянные по ряду азиатских стран, надеялись, что с помощью России им удастся создать армянскую организацию на Южном Кавказе.

Ключевые слова: *армянская агрессия, Южный Кавказ, Россия, Туркменчайский договор, Османская империя, Иран, Дашнакцутюн.*

ƏRAZİMİZİN BÜTÖVLÜYÜNÜN BƏRPASI – TARİXİ ƏDALƏTİN BƏRPASIDIR!

Şamilova A.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
aysel.yaqubova5@mail.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, qətnamə, beynəlxalq təşkilatlar, Ulu öndər*

Keçən əsrin 90-cı illərindən başlayan erməni işğallarının nəticəsi olaraq Azərbaycanın tarixi torpaqlarının 20 faizindən çoxu işğal edilmişdir. Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 qətnamə (822, 853, 874 və 884) qəbul edib. Bu qətnamələrin hər birində ermənilərin təcavüzkar siyasəti pislənilsə də və erməni hərbi birləşmələrinin zəbt etdikləri Azərbaycan torpaqlarından qeyri-şərtsiz çıxmaları birmənalı şəkildə tələb olunsa da bu tələblər yerinə yetirilmədi.

Qarabağ probleminin həll edilməsi istiqamətində beynəlxaq təşkilat olaraaq fəaliyyətə başlayan ATƏT-in Minsk qrupu uzun müddət fəaliyyət göstərsələr də heç bir nəticəyə nail ola bilmədilər. Bunun əsas səbəblərində biri Minsk qrupunun həmsədrlərinin biri olan Rusiyanın Ermənistanın strateji müttəfiqi olması, Fransanın ermənipərəst mövqe tutması və ABŞ-ın isə nis bətən neytral mövqe tutmağa meylli olmasına baxmayaraq Azərbaycanın ədalətli mövqeyini ciddi şəkildə müdafiə etmirdi. Ona görə də uzun müddətli müzakirələrə baxmayaraq Minsk qrupu heç bir nəticəyə nail ola bimədi. Bütün fəaliyyəti müddətində Azərbaycandan daha çox güzəştlər qoparmağa cəhd etdilər.

Ümumiyyətlə, ərazi bütövlüyümüzün bərpası Prezident İlham Əliyevin daxili və xarici siyasətinin şah əsəridir. Ordumuz dövlətimizin təməl prinsiplərindən biri, təhlükəsizliyimizin əsas təminatçısıdır. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı ordu quruculuğu və bu sahədə perspektiv vəzifələr barədə danışan Prezident İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Azərbaycan ildən-ilə hərbi büdcəsini artırmaqla ordunun yenidən qurulması və müasir silahlarla silahlanması istiqamətində fəaliyyətini davam etdirdi. Azərbaycanda silahlanma iki istiqamətdə gedirdi. Birincisi öz hərbi sənayesini inkişaf etdirməklə yeni silahların istehsalına başlanmıdır. İkincisi hərbi sənayesi daha çox inkişaf etmiş xarici ölkələrdən müasir tipli silahların alınması yolu ilə öz tələbatını ödəməyə çalışmışdır. Xüsusilə də Qardaş Türkiyədən və İsraildən alınan silahlar hesabına öz tələbatını ödəmişdir.

2016-cı ilin aprelin əvvəlində təmas xəttində işğalçı Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatına qarşı həyata keçirilən hərbi əməliyyatlar bir daha göstərdi ki, Azərbaycan dövləti və xalqı işğalla heç bir zaman barışmayacaq və torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcək. Aprel döyüşlərinin nəticəsi Azərbaycan ordusunun silah-sursat və hərbi hazırlıq baxımından Ermənistan ordusundan nə qədər yüksək olduğunu bir daha göstərdi. Azərbaycan ordusu "keçilməz" hesab edilən erməni səngərlərini qısa bir müddətə uğurla keçməyə və sürətlə irəliləyə bildi. Lakin Azərbaycanın bu uğurlarından narahat olan erməni havadarları döyüşün dayandırılmasına nail oldular.

"Aprel döyüşlərindən nəticə çıxarmayan ermənilər 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "Dəmir Yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi."[1]

Əkshucuma keçən Azərbaycan ordusu ermənilərin hücumunu dəf etməklə yanaşı işğal altında olan torpaqlarımızın azad edilməsi məqsədilə bütün istiqamətlərdən uğurlu hərbi əməliyyata başladı. Ermənistan silahlı qüvvələri müasir silahlarla silahlanmış Azərbaycan ordusunun qarşısında tab gətirə bilmədi. Ermənistan öz himayədarlarının köməyi ilə yaradılmış "Ohanyan" səddi Azərbaycan silahlı qüvvələri tərəfindən qısa bir müddətə zərərsizləşdirilidi. Milli ordumuzun qəhrəman əsgərləri və Qardaş Türkiyədən alınmış müasir silahlar-xüsusilə də PUA-ların köməyi ilə Ermənistan ordusuna sarsıdıcı zərbələr endirildi. Nəticədə uzun müddətdir düşmən tapdağında qalan torpaqlarımızın böyük bir qismi işğaldan azad edildi. Düşmən ağır itkilərə məruz qaldı.

"Beynəlxalq təşkilatlar, böyük dövlətlər ikili standartlardan yanaşaraq Qarabağ məsələsinin ədalətli prinsiplər əsasında nizama salınmasını, işğala məruz qalmış Azərbaycanın haqlı mövqeyini müdafiə etmək istəmirdilər. Onlar bölgədə sabitliyin qorunub saxlanmasında maraqlıdırlar. Azərbaycan isə məğlubiyyəti qələbəyə çevirmək əzmində idi. Qüdrətli və ləyaqətli millətə, dövlətə doğru yol Qarabağdan keçir." [2] Böyük dövlətlərin əksəriyyəti hərbi əməliyyatların gedişi zamanı Fransa istisna olmaqla Azərbaycanın haqq işinə dəstək verməsələr də maneə yaratmadılar. Çünki Azərbaycanın ərazi bütövlüyü həmin dövlətlər tərəfindən Qarabağ daxil olmaqla tanınmışdır. Ancaq bu zaman həmişə olduğu kimi Rusiyanın Ermənistana hərbi-siyasi dəstəyi davam etməkdə idi.

"Azərbaycan Böyük Qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü."[3] Son dərəcə strateji əhəmiyyət kəsb edən Şuşanın milli ordumuz tərəfindən azad edilməsi demək olar ki, müharibənin taleyini həll etdi. Ermənilərin tam olaraq mühasirəyə düşməsi və Ermənistan ordusunun darmadağın olunması məqamında Rusiya yenidən hərbi əməliyyatların dayandırılması istiqamətində fəaliyyətə başladı.

Nəticədə 30 ilin işğalına 44 gündə son qoyuldu. Erməni vandalları layiq olduqları cəzanı aldılar. Bu gün ölkəmizin həyatında yeni mərhələ - işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri uğurla davam edir. Qarabağımız cənnət məkana çevrilir. Prezidentimiz İlham Əliyev qarşıya qoyulan məqsədə çatmaq, yəni ölkəsinin ərazi bütövlüyünü bərpa etmək üçün mükəmməl siyasət həyata keçirdi, çoxlarının edə bilmədiyini bacardı.

ƏDƏBİYYAT

1. https://static.president.az/upload/Files/2021/11/01/5ulpglhigs_veten_muharibesi_az.pdf
2. Qarabağ müharibəsi. Qısa Tarix. Bakı 2014, səhifə 126, s.96
3. https://xalqqazeti.com/az/news/63147

SUMMARY

THE RESTORATION OF THE INTEGRITY OF OUR TERRITORY IS THE RESTORATION OF HISTORICAL JUSTICE!

Shamilova A.M.

The thesis speaks about the restoration of the integrity of our territory as a result of the successful po licy founded by our great leader and continued by our Supreme Commander-in-Chief, as well as the tireless and purposeful activity of President Ilham Aliyev. It is noted that despite the occupation by a foreign invader, our country has regained its independence.

Keywords: *Azerbaijan, Karabakh, resolution, international organizations, Great Leader*

РЕЗЮМЕ

ВОССТАНОВЛЕНИЕ ЦЕЛОСТНОСТИ НАШЕЙ ТЕРРИТОРИИ — ЭТО ВОССТАНОВЛЕНИЕ ИСТОРИЧЕСКОЙ СПРАВЕДЛИВОСТИ!

Шамилова А.М.

В тезисе говорится о восстановлении целостности нашей территории в результате успешной политики, заложенной нашим великим лидером и продолженной нашим Верховным Главнокомандующим, а также неустанной и целенаправленной деятельности Президента Ильхама Алиева. Отмечается, что, несмотря на оккупацию иностранным агрессором, наша страна вновь обрела независимость.

Ключевые слова: *Азербайджан, Карабах, резолюция, международные организации, великий лидер*

TÜRKMENÇAY ANTLAŞMASI VE ERMENİLERİN AZERBAYCAN'A GÖÇÜ

[1]Ahmet TOKSOY Osman, [2]Şeyda BELHAN Abdullah
[1]Aydın Adnan Menderes Üniversitesi, Aydin/Türkiye
ahmet.toksoy@edu.adu.tr

[2]Buca Halk Eğitim Merkezi ve Akşam Sanat Okulu, İzmir/Türkiye
belhanseyda@gmail.com

***Anahtar Kelimeler**: Azerbaycan, Revan, Rusya, Osmanlı Devleti, Kafkas*

İran'da güçlü Safevi hanedanlığının ortaya çıkması ve ardından da Doğu Anadolu'yu hâkimiyet altına almak istemesi iki Türk devletini karşı karşıya getirmiştir. Bundan dolayı XV.- XVIII. Yüz yıllar arasında Azerbaycan, Osmanlı-İran mücadelesine sahne olmuştur. İki devletin de temelini Türkmenler oluşturuyordu, Safevilerin Doğu Anadolu'daki Türkmen nüfuzundan yararlanmak istemesi üzerine Yavuz Sultan Selim ve Kanuni Sultan Süleyman bu devlete karşı seferler düzenlemek zorunda kalmışlardır. 1588'lerde Ferhad Paşa'nın kumandasındaki Osmanlı ordularının Azerbaycan'dan Hazar Denizi'ne kadar ilerleyip bu toprakları ele geçirmesi üzerine, Anadolu Türklüğü ile Azerbaycan Türklüğü birleştirilmiştir. Ancak bununla bölgedeki mücadele bitmemiş ve uzun yıllar devam etmiştir. İki Oğuz İl'inin bu denli mücadelesinden istifade eden Ruslar, sessizce Volga havalisine yerleşmişler ve sonra da 1556'da Astrahan'ı alarak Azerbaycan'a komşu olmuşlardır. Bu komşuluktan hoşlanmayan Osmanlı Devleti, her ne kadar Rusya'yı Astrahan'dan atmak istemişse de kâfi derecede hazırlıklı hareket edemediğinden bir netice alamamıştır. Esasen İran veya Türkistan üzerinden Hindistan ile doğrudan ticaret yapmak amacında olan Rus Çarı Petro, Volga ve Hazar denizinde bir donanma vücuda getirerek Hazar kıyılarına bilhassa Kafkaslara hâkim olmak istemiştir. Özellikle Petro bu arzusunu 1711'de Prut'ta Türkler karşısında uğradığı mağlubiyetten sonra gerçekleştirmek istemiş ve bu vesileyle 1715 yılında İran'ın durumunu öğrenmek için bir elçi göndermiştir. Bu sıralarda İran'da hüküm süren Türk hanedanlığının durumunun iyi olmadığını öğrenince de bu ülke üzerine yürümüş ve Kafkaslara girmiştir[31]. 1722'de Çar Petro zamanında İran'a kadar inen Ruslar, bundan sonra Çar Petro'nun meşhur vasiyeti onun halefleri tarafından ilke olarak kabul edilerek sıcak denizlere inmek hemen bütün Çarlar tarafından uygulanmaya çalışılmıştır[32].

Rusların Kafkaslara ayak basmaları ve yerleşmelerinde Gürcülerin de rolleri büyük olmuştur. Gürcü beylerinden bazıları, İran ve Osmanlı Devleti'nin baskılarından ancak Rusya'nın himayesi altına girmek suretiyle korunmak mümkün olacağını sanmışlar bundan dolayı Gürcü kralı Taymuraz 1658'de Moskova'ya gelmiş ve Çar Aleksey Mikhayloviç'ten Gürcistan'ı İran ve Türkiye'ye karşı korumasını istemiştir. Fakat Moskova hükümeti o sıralarda buna cesaret edememiştir. Ancak II. Katarina tahta geçince, bazı Gürcü büyükleri tekrar yardım isteyerek müracaatta bulunmuşlardır. Rusya'nın yayılması yolunda her fırsattan istifadeye çalışan II. Katarina Gürcülerin isteklerini hemen dikkate almış ve bu yolda gereken emirleri vermiştir[33]. Bunun üzerine Rus hizmetinde bulunan Alman asıllı General Todtleben, 1769'de dört yüz asker ve dört topla, kuzey Kafkaslardan, Kazbek dağlarının eteğinden Gürcistan'a giden yegâne yol olan Daryal/Daryol geçidi üzerinden Tiflis'e gitmiştir. Ertesi sene Gürcistan'a bir miktar asker daha geldi. General Todtleben Türk hâkimiyetinde bulunan Kutayıs kalesine saldırarak ele geçirdi[34].

Rusların yalnız kuzey Kafkaslarda değil, "Mavera-i Kafkas" ya da Trans-Kafkasya'yı da hâkimiyetleri altına almak istedikleri aşikârdı. Bu maksatla Daryal geçidi yaz ve kış geçilecek bir yol haline getirildi. Kafkaslardaki Rus kuvvetleri başkumandanı General Paul Potamkin'in emri ile bir Alman mühendis zabitin yaptığı plana göre sekiz yüz Rus askeri çalıştırılarak 1783'te bu yolun inşası tamamlandı. Ayrıca Ruslar bu defa muayyen mesafelerle yol boyunca tahkimli noktalar yapmak suretiyle yolu tam bir emniyet altına aldılar. Aynı zamanda Vladikavkaz (Kafkaslara hâkim ol) adıyla bir kale yaptırıldı ve burası Rusların askeri dayanakları görevini yapmaya başladı. Rusların Kafkasların güneyine sarkmaları ve Türkiye'yi tehdide başlamalarında bu yolun büyük bir rol oynadığı bilinmektedir[35].

---

[31] Fahrettin Kırzıoğlu, Osmanlıların Kafkas Ellerini Fethi 1451-1590, Ankara 1976; s. 111 vd.; M. Sadık Bilge, Osmanlı Varlığı Döneminde Kafkasya'nın Siyasi, Askeri, Tarihi ve İdari Taksimatı, İstanbul 2005, s. 39-41; Mehmet Saray, Yeni Türk Cumhuriyetleri, Ankara 1996 s. 19

[32] Enver Konukçu, Selçuklulardan Cumhuriyete Erzurum, Ankara 1993, s. 473; Emin Şıhalıyev, "Çarlık Rusyası Tarafından Ermenilerin Azerbaycan Topraklarına Göçürülmesi Ve Akabinde Oluşturulan Ermeni Vilayeti (1828) Rus ve Ermeni Kaynakları Işığında), Çankırı Karatekin Üniversitesi, Uluslararası Avrasya Stratejileri Dergisi, 4(1), : 001-016, s. 9

[33] Akdes Nimet Kurat, Türkiye ve Rusya, Ankara 1990, s. 35

[34] Kurat, Türkiye ve Rusya, s. 35

[35] Kurat, Türkiye ve Rusya, s. 35-36

Kendi iç işleri ile uğraşan Osmanlı Devleti, Kafkas Türklerinin uyarmasıyla tehlikeyi sezdiğinden hemen harekete geçerek Petro'ya verdikleri bir nota ile Rusların daha fazla yer işgal etmelerine mani olmuştur. Ne var ki, İran'ın karışık durumundan istifade etmek isteyen Petro 1724'de Osmanlı Devleti ile anlaşmaya muvaffak olarak Şirvan'ın kuzeyinde kalan Azerbaycan topraklarını işgal etmiştir. Azerbaycan'ın işgal edilmeyen yerleri ise Osmanlı Devleti'ne bağlanmıştır[36].

1727'de yapılan tahrire göre deftere kayıtlı 15.662 nüfusun %61,2'si Türk, %38,8'i Hıristiyan olan Revan, Nahcivan, Kapan, Çavuldur, Bergüşad, Ordubad, Hoy, Pişkuh, Maku, Nihavend ve Şüregel sancaklarından meydana gelen bir eyalet oluşturuldu ki bu eyalet Nadir-şah kumandasındaki Türk ordusunun Revan'ı ele geçirmesine kadar devam etmiştir[37]. Bu arada Safevi hükümdarı II. Tahmasb 1730'da Revan'ı yeniden ele geçirebilmek için Osmanlı Devleti'ne karşı savaş başlatmışsa da başarısız olarak geri çekilmiştir. Bunun üzerine yine Şah'ın talebi üzerine 10 Ocak 1732'de Osmanlı Devleti ile bir barış anlaşması imzalanmıştır. Bu anlaşmaya göre Aras Nehri sınır kabul edilmiş Şirvan, Revan, Nahcivan ve Dağıstan Osmanlı Devleti'nin hâkimiyetinde kalmış, diğer yerler Safevilerin elinde kalmıştır[38]. Daha sonra İran'da Oğuzların Avşar boyu yeni bir hareket başlattı. Sonuçta Şah Tahmasb'ı tahtan indiren Avşar boyuna mensup olan Nadir-Şah yönetimi ele geçirerek İran'da yeni bir Türk hâkimiyetinin temellerini attı. Nadir-Şah da Osmanlı Devleti'nin elindeki diğer Azerbaycan topraklarını ele geçirmek maksadıyla sefere çıkmıştır. Önce Kars daha sonra da Revan üzerine sefere çıkan Nadir-Şah, Osmanlılara karşı yaptığı savaşlarda başarı kazanınca Gence ve Revan'ı ele geçirmiştir[39]. Ancak Nadir Şah'ın ölümü üzerine yerine geçenler Azerbaycan'da hâkimiyeti devam ettirememişlerdir. Azerbaycan Türkleri birbirlerinden ayılarak Şirvan, Şeki, Taliş, Karabağ, Kuba, Gence, Revan ve Bakü Hanlıklarını kurarak müstakil birer devletçik durumuna gelmişlerdir[40]. Fakat onların bu parçalanmış hali düşmanlarının işgal emellerini uyandırmıştır[41].

Ancak Azerbaycan'ın dağılması Kafkasları işgal etmek için fırsat bekleyen Rusların iştahını kabartmıştır. Komşularından gelen bu tehditler üzerine Azerbaycan hanlıkları Osmanlı Devleti'ne müracaat ederek destek istemişlerdir. 1747'de Şeki Hanı Hacı Çelebi Han, 1751'de Gence hanı Şahverdi Han, 1760'da Şirvan Hanı Mehmet Han gönderdikleri mektuplarla Osmanlı hizmetinde olduklarını ifade etmişlerdir. Bu mektuplar, Osmanlı Devlet adamlarını Azerbaycan ve Dağıstan'ı fiilen Osmanlı kontrolüne alma fikrine sevk etmiştir. Özellikle 1780'li yıllarda Kırım'ı Rus işgalinden kurtarmak için verilen mücadele esnasında bu fikrin oldukça yaygın hale geldiğini görmekteyiz. Ne var ki, Osmanlı Devleti içine düştüğü krizden kurtulamadığı için ne Kırım'ı kurtarabilmiş, ne de Azerbaycan'ı resmen kendine bağlayabilmiştir[42].

Bu arada Osmanlı Devleti'nin hareketsizliğini gören Gürcü kralı İrakli, Rusya'nın da desteğini alarak, Azerbaycan hanlıklarına karşı düşmanca bir siyaset takibine başlamıştır. Hatta daha da ileri giden Gürcü kralı, Gence ve Revan hanlıklarına baskınlar düzenlemiştir. Bu düşmanca gelişmeyi öğrenen Osmanlı hükümeti de 1775'de Çıldır Valisi kanalıyla ilgili hanlıklara fermanlar ve hediyeler göndererek düşmanlarına karşı birlik olmaya davet etmiştir. Osmanlı Devleti'nin Azerbaycan Hanlıklarını himaye eder bir tavır içine girdiğini gören Gürcü kralı, Rus çarına müracaat ederek Moskova hâkimiyetini kabul ettiğini bildirmiştir. Arkasını kuvvetli bir hamiye dayayan Gürcü kralı, Moskova'nın direktifi ile Azerbaycan Hanlıkları arasında kurulmaya çalışılan birlik ve ittifak çalışmalarını bozacak entrikalar peşine düşmeye başlamıştır. Bundan bir netice çıkaramayan Rusya, Azerbaycan Hanlıklarına elçiler ve hediyeler göndererek onları önce Rus idaresine girmeye teşvik etmiş, bunu başaramayınca da tehdit etmeye başlamıştır. Rusların bu baskı ve tehditleri karşısında Azerbaycan Hanları yeniden Osmanlı hükümetine müracaat ederek yardım ve himaye istemişlerdir. Bunun üzerine harekete geçen Osmanlı devlet adamları, 1782 ve 1784 yıllarında Çıldır valisi vasıtasıyla Azerbaycan Hanlıklarına hediye ve nişanlar göndererek morallerini düzeltmeye çalışmıştır[43].

Osmanlı Devleti, Rusya'nın faaliyetlerinden tedirgin olduğu için, Kafkas hududundaki kaleleri takviye yoluna gitmiş ve bu arada karşı faaliyete geçerek Gürcü kralını kendi tarafına çekmeye çalışmıştır. Osmanlı Devleti bu faaliyetlerinde başarılı olamadığı gibi bazı Azerbaycan Hanlıklarının da Rusya tarafına meyletmesine engel olamamıştır. Fakat bu hanlıkların çoğu İstanbul'a bağlı kalmışlardır. Osmanlı Devleti Kırım meselesi dolayısıyla Rusya ile devam eden mücadelesinden bir netice alamadığı gibi III. Selim

---

[36] Rusya İran'dan Mazenderan ve Gilan vilayetlerini alırken Revan ve çevresi Türkiye'nin eline geçti. Bkz. Kurat, Türkiye ve Rusya, s. 22

[37] Osmanlı Devleti ve Kafkasya (1454-1829), s. 219-220

[38] M. Sadık Bilge, Osmanlı Varlığı Döneminde Kafkasya'nın Siyasi, Askeri, Tarihi ve İdari Taksimatı, İstanbul 2005, s. 112

[39] Bilge, Osmanlı Varlığı Döneminde Kafkasya'nın Siyasi, Askeri, Tarihi ve İdari Taksimatı, s. 114-116

[40] Tadeusz Swıetochowsk, Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycan'ı 1905-1920, Çvr. Nuray Mert, İstanbul 1988, s. 20

[41] Saray, Yeni Türk Cumhuriyetleri, s. 19.

[42] Saray, Yeni Türk Cumhuriyetleri, s. 19 vd.

[43] Saray, Yeni Türk Cumhuriyetleri, s. 20.

zamanında orduda yapmak istediği ıslahatı da gerçekleştirememişti. Neticede Azerbaycan Hanlıklarının istediği mali ve askeri yardımı da vermemişti. Bu ise Azerbaycan Türk Hanlıklarını İstanbul'a bağlı tutmakla birlikte kendilerini istikbal için endişeye sevk etmişti. Bu da yetmiyormuş gibi Hanlıklar arasındaki birlik ve beraberlik de bozulmaya başlamıştı. Bu dönemde İran'da hâkimiyet kurmuş olan Kaçarlar da Kafkas meselesine girmişlerdir. İran'da kaçar hanedanlığını kuran Ağa Muhammet Han, Kafkaslardaki bu karışık durumdan istifade ederek bölgede hâkimiyet kurmak istemiştir. Önce bölgede rahat hareket eden Gürcü kralını itaate davet etmiş ve istediği cevabı alamayınca Tiflis'i ele geçirmiştir. Bunun üzerine Ruslara sığınan Kral İrakli, derhal Rusya'dan yardım istemiştir. Fakat Rus çarı İran ile hesaplaşmayı ileri bir tarihe bırakmak mecburiyetinde kalmıştır. Buna rağmen bölgedeki Gürcüler ve Ermeniler, Türk düşmanlığını daha da ileri götürerek bazı Müslüman köylerini basmışlardır[44].

Osmanlı Devleti ve İran'ın dâhili meşgalelerle uğraştığı bir devirde başlayan Rus işgali hem Azerbaycan Hanlıklarını ve hem de güvenceleri durumundaki iki Müslüman hükümeti gafil avlamıştır. Zira Rus işgali, küçük bir ordu ile olmasına rağmen oldukça hızlı ve başarılı bir şekilde gelişmiştir. Rusların ilk taarruz ettiği hanlık, Gence Hanlığı olmuştur. Zira Gence, kuzeyden Azerbaycan'a inen askeri ve ticaret yollarının uğrak yeri bir nevi kilit noktasını oluşturuyordu. 1804 yılında Ruslar Gence'ye saldırdıkları zaman ülkenin başında bulunan Cevat Han, kahramanca müdafaa etmiştir. Ancak Rusların ateş güçlerinin fazla olması dolayısıyla ayrıca hiçbir yerden yardım alamamaları üzerine mağlup olmaktan kurtulamamışlardır. İşgalden sonra halk katledilmiştir. İşgalin ardından şehrin adı Rus çariçesi şerefine Yelizavetpol olarak değiştirilmiş, camiler kiliseye çevrilmiştir. Bu kanlı işgal gerçekleşirken Osmanlı Devleti fiili bir harekette bulunamamıştır. Kanlı bir şekilde Gence'yi işgal eden Ruslar, Osmanlı Devleti ve İran'dan her hangi bir tepkinin gelmemesi üzerine istila hareketini devam ettirmişlerdir. Kendi aralarında bir çeşit federasyon kurmuş olan Derbent, Şirvan ve Bakü Hanlıklarıyla bir araya gelen Kuba Hanlığı, bu birliği muhafaza edememiş ve ortaya çıkan karışıklıktan faydalanan Ruslar da 1806'da Derbent ve Kuba Hanlıklarını işgal ederek Rusya'ya ilhak etmişlerdir. Çar I. Aleksandr 1801'de Tiflis'e Rus askerlerini gönderdi. Nihayet 1804-1805'de Bakü, Nahcivan ve Revan hanlıklarını işgal eden Rusya, sınırlarını Hazar Denizi'nden Karadeniz istikametine doğru genişletmiştir[45].

Gence Hanlığından sonra Rus işgaline en çok karşı koyan Hanlıklardan biri de Bakü Hanlığı idi. General Zavaliş'in kumandasında 1806'da Bakü'ye hücum eden Ruslar, hiç ummadıkları bir mukavemetle karşılaşınca geri çekilmişlerdir. Üç ay sonra yeniden toparlanan Rus kuvvetleri General Tsitsinof komutasında Bakü'yü hem karadan hem de denizden kuşatmıştır. Bu kuşatma sırasında komutanın bir Türk genci tarafından öldürülmesi kuşatmanın kaldırılmasına neden olmuştur. Ertesi sene tekrar Bakü önlerine gelen Ruslar şehri teslim almaya muvaffak olmuşlardır. Kuşatma esasında Rusların katliam yapmasından korkan Türk halkı 3 Eylül 1807 günü Rus hücumlarına mukavemet göstermeden teslim olmuşlardır. Bundan sonra Talış ve Lenkeran Hanlıklarına hücum eden Ruslar, Türklerin mukavemetine rağmen hanlığın merkezi Lenkeran'ı kuşatmaya muvaffak olmuşlardır. Türkler hanlıklarını kahramanca savunmuşlarsa da 31 Aralık 1812'de Lenkeran Hanlığını da işgal etmeyi başarmışlardır[46].

Azerbaycan'da vuku bulan Rus işgal hareketi sahil hanlıklarının ele geçirilmesi üzerine Azerbaycan'ın iç kısımlarına doğru yönelmiştir. İlk hedef ise Şeki Hanlığı olmuştur. Önce Şeki Hanlığının iç işlerine karışarak Cafer Kulu Han'ı başa geçirmişler, ancak bu hanın kendileri hesabına çalışmadığını gördükten sonra, 1815'de hanlığın başına İsmail Han'ı getirmişlerdir. Bu handan da istedikleri neticeyi alamadıklarını görünce bu durum üzerine Kafkas genel valiliğine atanan Ermeni asıllı General Yermelov, Rus birliklerini Şeki'ye sevk ederek hanlığı işgal etmiştir[47]. Hiçbir yerden yardım alamayan halk çaresiz bu Rus emrivakisine katlanmak mecburiyetinde kalmıştır. Şeki Hanlığından sonra sıra Şirvan Hanlığına gelmiştir. Şirvan Hanlığı, 1820'ye kadar Rus baskı ve entrikalarına karşı koymaya çalışmış, hatta Osmanlı Devleti'nden yardım alamayınca İran'dan yardım istemek zorunda kalmıştır. Ne var ki, Şirvan Han'ı Mustafa Han, hiç kimseden yardım alamayınca üstüne sevk edilen Rus kuvvetlerine karşı koyamayarak İran'a sığınmak mecburiyetinde kalmış ve hanlık da Rus işgaline uğramıştır[48].

Azerbaycan'da Rus işgalleri başlayınca Osmanlı Devleti'nden yardım isteyen ilk hanlıkların başında Karabağ Hanlığı gelmektedir. Fakat Osmanlı Devleti'nden istediği yardımı alamayınca Karabağ Han'ı İbrahim Halil, İran'da Kaçar Hanedanı hükümdarı Ağa Muhammet Han'a yaklaşmış hatta onunla Ruslara karşı savaşmışlardır. Ancak Ağa Muhammet Han'ın Ruslardan çekinerek mücadeleyi bırakması üzerine çaresiz kalan İbrahim Halil Han, Rus nüfuzunu kabul ederek vergi vermek zorunda kalmıştır. Fakat bu

[44] Saray, Yeni Türk Cumhuriyetleri, s. 20-21
[45] Kurat, Türkiye ve Rusya, s. 50; Saray, Yeni Türk Cumhuriyetleri, s. 21 vd.
[46] Saray, Yeni Türk Cumhuriyetleri, s. 22
[47] Barthold, W., "Şeki" Maddesi, İslam Ansiklopedisi, C. XI, İstanbul 1956, s. 402 vd.
[48] Saray, Yeni Türk cumhuriyetleri, s. 23 vd.

duruma katlanamayan İbrahim Halil, İran'ın yeni hükümdarı Feth Ali Han'dan yardım istediği sırada durumu öğrenen Ruslar, Han'ın evine baskın yaparak ailesini katletmişlerdir. Rus entrikalarından bıkan Han, İran'a kaçmış ve Ruslar da hanlığı işgal etmişlerdir[49]. Rusların işgal ettiği Azerbaycan Hanlıklarının sonuncusu İlisu (Zakatala) Hanlığı'dır. 1803 yılından beri Rus baskısı altında bulunan İlisu Hanı Danyal Bey, hiçbir yerden yardım alamayınca Şeyh Şamil kuvvetlerine katılarak mücadelesine silahlı olarak devam etmiştir[50]. Çaresiz kalan halk da Rus hâkimiyetini kabul etmek mecburiyetinde kalmıştır. 1825'de Nahcivan Hanlığını, bir yıl sonra da Revan Hanlığını işgal eden Ruslar, Aras Nehrine kadar kuzey Azerbaycan'ın işgalini tamamlamışlardır. Devletlerarası hukuka aykırı olarak Rusların yürüttüğü işgale hiç bir ülkeden protesto gelmemesi son derece manidardır.

Rusların Azerbaycan Hanlıklarını teker teker işgal etmesi Güney Asya'da büyük menfaatleri olan İngilizleri telaşa düşürdü. Özellikle Lenkeran Hanlığının 1812'de Ruslar tarafından işgal edilmesi üzerine başlayan ve bir grup İngiliz subayının İran ordusuna danışmanlık yaptığı birinci Rusya-İran Savaşı sonucunda İran orduları mağlup oldu. İran,1813 yılında Gülistan Antlaşmasını imzalamak mecburiyetinde kaldı.[51]. Bu antlaşmaya göre Revan ve Nahcivan hanlıkları hariç Aras Nehri'nin kuzeyinde olan Azerbaycan Hanlıklarının Rusya tarafından işgali tamamlandı.

12 Ekim 1813'de Rusya ile İran arasında imzalanan Gülistan Antlaşması'na göre:

1- İran Şah'ı, Rusya'nın Kafkaslarda işgal ettiği toprakları Rusya'nın bir parçası olarak tanıyacaktır.

2- Bu topraklar Kafkasların Dağıstan bölgesinden Arpaçay-Aras Nehrine kadar uzanan Kuzey Azerbaycan, Gürcistan bölgelerini de içine alan sahayı kaplıyordu.

3- Yukarıda zikredilen bölgelerde yalnız Şah değil, ondan sonra Şah olacak şehzadeler de Rusya'nın hâkimiyetini tanıyacaktı.

4- Hazar Denizi'nde ticaret yapan Rus tüccarları İran, İran tüccarları da Rus limanlarını serbestçe kullanabilecekti.

5- Alınan harp esirleri karşılıklı olarak serbest bırakılacaktır.

6- Her iki ülke, birbirlerinin başkentlerini yeni elçiler göndererek dostluklarını göstereceklerdir.

7- Her iki ülke tüccarları birbirlerinin topraklarında ticari faaliyette bulunacak ve bu tüccarların emniyetleri sağlanacaktır.

İran'ın kayıpları çok büyük olduğu için, bir müddet sonra antlaşmaya uymamaya başladı. Böylece başlayan sürtüşmeler, sonunda taraflar arasında savaşın başlamasına sebep oldu. Ancak bu savaş daha farklı bir şekilde gelişti ki savaşın gidişatını Ermeniler değiştirerek Kafkasya'daki dengelerin değişmesine neden oldu. Rus Çar'ı Petro, Kafkaslarda güç elde edebilmek için Ermenilere kaşı ilgi göstermeye başladı. Bu ilgi dolayısıyla Rusya'nın İran'a karşı yaptıkları savaşlarda Rusya'nın yanında savaşmaktan çekinmediler. Çar Petro, Doğu ticaretinden faydalanmak için Ermenilerden yararlanmayı düşündü. Bundan dolayı Ermenileri kendi ülkesinde yaşamaya davet etti. Ayrıca kendilerine dini ve dünyevi her türlü imtiyazı vermeye hazır olduğunu da bildirdi. Bazı Ermeni aileleri bu davete uyarak Rusya'ya giderek burada yerleşti[52].

1826 yazında başlayan Rus-İran savaşı, Petro'nun arzu etmiş olduğundan çok daha fazlasının gerçekleşmesine neden oldu. Savaş başlar başlamaz kısa zamanda ele geçirilen yerler yalnızca Rus silahlarının başarısı ve etkinliği ile değil, fakat aynı zamanda Ermenilerin gönüllü işbirliği ve katkılarıyla oluşan faaliyetlerinin de bir sonucu olmuştur. Revan'ın surları müdafaa edilmeden düştü. Çünkü burası Ermeniler tarafından gönüllü bir coşkunlukla Rus kuvvetlerine teslim edilmişti. Mart 1827'de General Benkondorf kumandasındaki Rus kuvvetleri Eçmiyazin'i işgal ettiklerinde aşırı bir coşkunluk ile karşılanmışlardır. Rus kuvvetlerini bizzat Katalikos Nerses kendilerini kutsayarak kutlamıştır. Ayrıca Nerses, cemaatini Rusların yanında yer almaya çağırmış ve "Gönüllü Ermeni Alayları" adı altında Ermenileri teşkilatlandırarak Ruslarla birlikte faaliyet göstermelerini ayrıca Ermenilerin Rus askerleriyle beraber savaşmalarını öğütlemiştir. Zaten Ermeniler savaşı başından beri Ruslara onların yabancı oldukları İran topraklarında ileri harekâtında kılavuzluk hizmeti görmekte ve Ruslarla omuz omuza savaşmaktaydılar. Böylece Tebriz'de savunulmadan kapılarını Ruslara açmıştır. 19 Ekim 1827'de buraya giren General Paskeyeviç, şehrin kumandanlığına Ermeniler üzerinde büyük saygınlığı ve etkisi olan Albay Lazerev'i tayin

[49] Bala, Mirza, "Karabağ" Maddesi, İslam Ansiklopedisi, VI. İstanbul 1956, s. 212-215.

[50] Ahmet Caferoğlu, Azerbaycan, İstanbul 1940, s. 22

[51] İntikam Beşiroğlu, "19-20. Yüz Yıllarda Ermenistan'daki Azeri Türklerinin Göç Ettirilmesi ve Soykırım Gerçeği", Avrasya Dosyası, İlkbahar 2001, VII/1, s. 455; Saray, Yeni Türk Cumhuriyetleri, s. 24.

[52] Ayrıca Moskova'da "Ermeni Şark Dilleri Enstitüsü" 1816'da kuruldu. Bu enstitünün kurulmasında Rusya'ya giden Ermeni ailelerinden Lazarev ailesinin büyük katkıları olmuştur. Geniş bilgi için bakınız Kemal Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", Belgeler, XIII, S. 17, Ankara 1988, s. 368

etti[53]. Bu savaşlarda yıldızı parlayan General Paskeviç, Ermenistan fatihi olarak Çar tarafından kutlandı ve kendisine "Kont Erivanski" unvanı veridi[54].

Rusya'nın Güney Kafkasya'daki jeopolitik çıkarları konusunda Valeri Madatov, Osip Bebudov, Ovanes Lazarev, İosif Argutinski gibi Ermeni ileri gelenleri, özellikle Rus ordusunda hizmet eden Ermeni asıllı generaller ve din adamları ellerinden geleni yapmışlardır. Bu Ermeniler, özellikle Azerbaycan topraklarında hayalî "büyük Ermenistan" hedeflerinin gerçekleşmesine zemin hazırladıkları görülmektedir[55].

General Paskeyeviç'in İran şehzadesi Abbas Mirza ile başarısız bir şekilde gelişen mütareke görüşmelerinin kesilmesi silahlı çatışma ve ileri harekâtın devam etmesine neden olduğundan dolayı Ruslar kısa zamanda Urmiyye ve Erdebil'i ele geçirdiler ve Tahran tehdit edilmeye başlandı. Bu gelişme nedeniyle İran, Rusya'nın her türlü isteklerine boyun eğerek barış görüşmelerine başladı. Tebriz yakınlarında Türkmençay köyünde başlayan yapılan barış görüşmelerinden sonra antlaşma imzalandı. Antlaşmaya göre;

1- Rusya, Gülistan Antlaşması ile elde ettiği topraklara ilaveten Revan ve Nahcivan Hanlıklarını da kontrolü altında tutacaktı ve Kafkasya üzerindeki bütün hak ve iddialarından vaz geçiyordu.

2- Her iki tarafın tüccarları vergi vermeden ilgili ülkelerde serbestçe ticaret yapabileceklerdi.

3- Hazar Denizi'nde her türlü kontrol Rusların elinde olacaktı.

4- Harp esirleri karşılıklı olarak serbest bırakılacaktı.

5- Taraflar mevcut sınırları tanıyacak ve birbirlerine karşı düşmanca bir tavra girmeyeceklerdi[56].

20 Mart 1828'de Çar I. Nikola, Türkmençay Antlaşmasını onayladıktan sonra, 21 Mart 1828'de Ermeni Vilayetinin kurulması ile ilgili fermanını da imzaladı. 1828'e kadar yani Revan Hanlığının Çar Rusya'sı tarafından işgalinden önce bölgedeki nüfus yapısı şöyleydi. Azerbaycan Türkleri 84. 089, Ermeniler 57.305, diğerleri 27.600 olup toplam nüfus ise 168.994 idi[57]. Rusya'nın Ermeni iskân politikası, imzalanan bu antlaşma ile gerçekleşti. Aslında Türkmençay antlaşması Rusya'nın tek taraflı olarak dikte ettirdiği bir antlaşmadır. Neticede aşağıda da vurgulanacağı üzere hem İran ve hem de Osmanlı ülkesinden Ermenilerin göçü işgal edilen Azerbaycan topraklarına başladı[58].

Bu antlaşma ile Ermenilerin Rus topraklarına göç ettirilmeleriyle ilgili plan ve beklentilere de olumlu bir cevap verebilecekti. Zira antlaşmanın 15. Maddesi Azerbaycan'da yaşayan Ermenilerin bir sene içinde Rus topraklarına geçebileceklerine, mal ve mülklerini bu süre içinde satmalarına veya nakletmelerine amir idi. Taşınmaz malların tasfiyesi için beş senelik bir süre ön görülmekteydi. Antlaşmanın imzalanmasından sonra Güney Azerbaycan'da yaşayan Ermenilerin Rus topraklarına nakli Albay Lazarev'e havale edildi. Yaptığı hizmetlerden dolayı artık Mareşal rütbesi alan Paskeyeviç, bu göç ettirme işinin nasıl yürütüleceği konusunda on maddelik bir talimatname hazırlayarak Lazarev'e verdi. Bu talimatnamede Azerbaycan'ın çeşitli vilayetlerinde meskûn Ermeniler ve Urmiyye'deki Rumların, kıtalarımızın Tebriz'i ele geçirmeleriyle birlikte göç etmek arzusunda bulundukları bilindiğinden dolayı bu işe izin verildi. Bundan dolayı bütün askeri kumandanların Ermenilerin bu arzularını desteklemeleri kararlaştırılmıştır[59]. Esasında Çarlık Rusya'sı ele geçirilen toprakların Ermenileştirilmesi politikasını yürütmeye başladı. Bu şekilde Çarlık Rusya'sı Kafkaslarda kendi çıkarlarını koruyabilmek için bölgedeki en yakın müttefiki Ermenilerden yararlanmaya çalışarak Ermenileri bu topraklara yerleştirmeye başladı[60].

Göç eden Ermeniler Rus topraklarına girinceye kadar memurların mesuliyeti altında bulunacaklardı. Muhacirlerin yerleştirilmeleri kendilerine her türlü yardımın yapılması ve iskân edilmeleri işleri için "Revan Geçici Hükümeti" bir komite oluşturacak ve göç eden her kafile Rus topraklarına ayak basar basmaz bu komitenin idaresine girecekti. Bu komite gelen her kafileye, bunların nereye götürüleceklerini gösterecek birer memur tahsis edecekti. Karabağ'a gelecek muhacirlerin bakımı işlerini ise askeri yönetici olan Abşasov üstlenecekti. Göç edenlerin özellikle Revan ve Nahcivan bölgelerine sevk edilmek istenmesi ve böylece yeni ele

---

[53] Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", s. 368-369; Albay Lazarev'in Tebriz valisi olduğunu öğrenen Ermeniler, Lazarev'in huzuruna çıkarak, "Çar hazretlerinin devletinde yaşamaya ve ölmeye çok sevindiklerini" Çara iletmesini istediler. Bkz. Şıhalıyev, "Çarlık Rusyası Tarafından Ermenilerin Azerbaycan Topraklarına Göçürülmesi Ve Akabinde Oluşturulan Ermeni Vilayeti (1828) Rus ve Ermeni Kaynakları Işığında), s. 12

[54] Konukçu, Selçuklulardan Cumhuriyete Erzurum, 473

[55] Şıhalıyev, "Çarlık Rusyası Tarafından Ermenilerin Azerbaycan Topraklarına Göçürülmesi Ve Akabinde Oluşturulan Ermeni Vilayeti (1828) Rus ve Ermeni Kaynakları Işığında), s. 12-13

[56] Richard G. Hovannisian, Armenia on The Road to İndependance,1918, Los Angeles 1967, s. 8; Vassan Giray Cabağı, Kafkas-Rus Mücadelesi, İstanbul 1967, s. 48; Kurat, Türkiye ve Rusya, s. 57; Saray, Yeni Türk Cumhuriyetleri, s. 25

[57] Beşiroğlu, "19-20. Yüz Yıllarda Ermenistan'daki Azeri Türklerinin Göç Ettirilmesi ve Soykırım Gerçeği", s. 456

[58] Şıhalıyev, "Çarlık Rusyası Tarafından Ermenilerin Azerbaycan Topraklarına Göçürülmesi Ve Akabinde Oluşturulan Ermeni Vilayeti (1828) Rus ve Ermeni Kaynakları Işığında), s. 8

[59] Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", s. 369-370

[60] Beşiroğlu, "19-20. Yüz Yıllarda Ermenistan'daki Azeri Türklerinin Göç Ettirilmesi ve Soykırım Gerçeği", s. 458; Gaffar Çakmaklı Mehdiyev, "Türksüz Ermenistan İdeolojisinin Sonuçları: Ermenistan'ın Tek Uluslu Ve Monoetnik Devlete Dönüştürülmesi Süreçleri", Turkish Journal of Tesam Academy, Ocak 2015, 2 (1), 7-8, s. 9

geçirilen bölgelerin Ermeni nüfusu ile iskân edilmesinin düşünüldüğünü açıkça ortaya koymaktadır. 9 Mart 1828'de Tebriz'i terk etmeye başlayan Rus ordusu ile birlikte Türkmençay bölgesinde oturan Ermeniler de hazırlıklarını bitirerek yola koyuldular. İran hükümeti başlangıçta göç edeceklerin sayısının pek fazla olmayacağını veya bir organize tehcir hadisesi ile karşı karşıya kalacaklarını düşünmediklerinden dolayı şaşkınlık ve huzursuzluk duymaya başladı[61].

Göç işlerinin ancak belirli bir zaman içinde hallolması mümkün olabilecekti. En önemli konusu ise, taşınmaz malların hemen ve değerinde satılarak tasfiye edilmesinde rastlanan zorluklar oldu. İran hükümeti de bu tür malların hemen alıcı bulmasına engel olmaktaydı. Ancak Rusların ikna metotları o kadar güçlüydü ki, ikna edilen Ermeniler her türlü mal varlıklarını, çiftlik ve tarlalarını geride bırakarak Rusya'ya göç etmeye hazır olduklarını Albay Lazerev'e bildirmelerini teminine yetmekteydi. Fakat herkesin kısa bir zaman içinde yollara düşürülmesi, günlük ekmek dâhil olmak üzere pek çok ihtiyaçların karşılanmasında zorlukların çekilmesine neden olmaktaydı. Urmiyye, Meraga ve Tebriz'den gruplar halinde yola çıkan Ermeniler, Aras'a doğru yola koyulmakta, sayısız kervanlar halinde Azerbaycan'dan geçmekteydiler. İran hükümeti, göçleri engellemek ve göçmeyi düşünenleri bu fikirden vaz geçirmek için sağlamayı vaat ve ilan ettiği pek çok kolaylığa rağmen etkisiz kaldı. Hatta muhacirler, "bizler Çar'ın hükümranlığı altında yaşamaya gidiyoruz. Biz onun tebaası olarak yaşamak ve ölmek istiyoruz" diyerek göç etmekte kararlı olduklarını bildirdiler[62]. 1828 ve 1829 yıllarında gerçekleştirilen göçlerle Revan ve Tiflis'te ilk Ermeni bütünleşmesi meydana geldi[63].

Albay Lazarev Urmiyye'den Ermenilere hitap eden bir beyanname yayınladı. Bu beyannamede, Çar'ın Rusya'ya gideceklere sakin, huzur dolu ve mutluluk içinde yaşam sürecekleri iskân mahalleri tahsis ettiğini ilan etti. Revan, Nahcivan ve Karabağ'da göçmenler için mümbit tarlalar ayrılmış olup bunların bir kısmı daha şimdiden ekilmiş bulunuyordu. Buraların sahibi olacak olan muhacirler, mahsulün yalnızca aşarını devlete vergi olarak verecekler altı yıl boyunca vergiden muaf tutulacaklar ve diğer gerekli ihtiyaçları da karşılanacaktı. Göç ederek taşınmaz mallarını İran'da bırakmak zorunda kalanlar, yapılan barış antlaşması uyarınca taşınmaz malların satışlarını beş yıl içinde yapılabilecek ve bu işlerin takibi için geride bir temsilci bırakabileceklerdi[64].

Bu arada Aras Nehri'ni geçmek üzere yola dökülen veya nehri geçen göçmen sayısı beş bin aileyi aşmış bulunuyordu. Ancak bu arada önemli sorunlarla karşı karşıya kalındı. Özellikle bu kadar ahalinin iaşe noksanlıklarını karşılamak büyük mesele olmakta, açlık ve hastalık da büyük boyutlara ulaşmaktaydı. Düşünülen tedbirler arasında, göç etmek için yollara dökülenlerin Revan veya Nahcivan yerine önce yiyecek maddelerinin daha bolca tedarik edileceğinin sanıldığı Karabağ istikametine yöneltilmesi olmuştur. Ayrıca yerlerinden ayrılmamış olanların da hasat mevsimine kadar yola çıkmaları ve mahsulün toplanmasından sonra göçürülmelerine karar veridi. Albay Lazarev, Mayıs sonunda her şeye rağmen kısa zamanda ve büyük ölçüde tehciri gerçekleştirmiş bulunuyordu[65].

Ermeniler, Rus ajanlarının kışkırtmaları üzerine Erzurum bölgesinden toplu göç etmeye karar verdiler. Yukarıda da değimiz gibi Türkmençay Antlaşması ile ele geçirilen topraklarda kendilerine taraftar insana ihtiyaçları vardı. Rus General Paskeviç, Çar ile yaptığı görüşmede mutabakata vardıktan sonra harekete geçti. Kars ve Erzurum gibi merkezlerde yaşayan Ermenilere türlü vaatler bulundu. Özellikle Edirne Antlaşmasının yürürlüğe girmesinden sonra göç için ciddi çalışmalar başlatıldı. Ermenilerin anlayışına göre Ruslar çekildikten sonra sahipsiz kalacaktı ve Türklerin de muhtemelen husumeti onlar için tehlike arz edecekti. Erzurum'daki Katolik Ermenilerinden yüz elli hane daha ilk göçte Rusya'ya çoluk çocuklarıyla göç ettiler. Üç yüz Ermeni de Rus subaylarının aldatması ve yönlendirilmesi sonucunda şehirden ayrıldı[66].

Osmanlı idaresi Ruslarla barış akdedilmesinden sonra Erzurum, Kars, Bayezid ve Eleşkirt vesaire istilaya duçar kalan yerlerin halkına gizli veya açık birçok haberler ve adamlar gönderilerek güvenceler verilmesine özen gösterilmekte ve Rusların boş vaatlerine kanıp, yerlerini terk ederek göçe kalkışmamaları tavsiye edilmekteydi. Esasen Babıali, yoğun bir zorlama ve baskı ile organize ve önceden tasarlanmış bir göçürme hareketi ile karşılaşacağını ummamıştı[67]. 1830 senesi yazında Ermeniler artık yollara dökülmüştü. Müslümanlara karşı "ihanet" ve canice davrananlar ve bu yüzden "Av namelere" rağmen kalmaya mecalleri olmayanlar ön sıralarda ve ilk kafilelerde yer almakta, ancak bunlar kendi halinde olan halka da yollara düşürmekte zorlayıcı her türlü aşırılığı göstermekteydiler. Yola koyulanların her biri mal ve mülklerini, bakımlı bahçe ve ekili tarlalarını velhasıl her şeylerini yüzüstü bırakmak zorunda kalmışlardı. Ruslar, Erzurum'dan göç eden Ermenilerin çoğunu Ahıska'da iskân etmeyi düşünmekteydiler. Ancak buraya getirilen Ermenilerin firara hazır oldukları anlaşıldığından, bölgeyi sıkı bir kontrol altında tutmaya başlamışlardı. Doğu Anadolu'dan göç ettirilen Ermeniler, Ahıska, Ahılkelek ve Gümrü'ye

[61] Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", s. 371-372
[62] Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", s. 372-373
[63] Konukçu, Selçuklulardan Cumhuriyete Erzurum, s. 700
[64] Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", s. 373-374
[65] Beydilli, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", s. 374
[66] Konukçu, Selçuklulardan Cumhuriyete Erzurum, s. 700
[67] Konukçu, Selçuklulardan Cumhuriyete Erzurum, s. 701

yerleştirildiler. Ancak Ermeniler yerleştikleri bu sahalarda istedikleri hayata kavuşamadılar[68]. Çünkü Ermeniler müstakil bir Ermeni devleti kurulmasını beklerken, Rus Çarı I. Nikola bir ferman yayınlayarak "Armiyanskaya Oblast" yani Ermeni vilayeti adını verdiği yeni tampon bölgeyi ilhak ettiğini açıkladı. Hatta Eçmiyazin Katalikos'u Nerses, tutuklanarak Rusya'nın içlerine sürüldü. Ermenilerin Ruslara bağladıkları umutlar ve bağımsızlık hayalleri de bir defa daha sönmüş oldu[69].

Ruslar, Azerbaycan'ı işgal ettikten sonra hâkimiyetlerini devam ettirebilmek için onlara devlet kurma vaadiyle Ermenileri Türklere karşı kullandılar. Yine Türklerin gücünü kırabilmek için iki yönlü göç faaliyeti uyguladılar. İşgal ettikleri bölgelerde yaşayan Türkleri Osmanlı ülkesine göç ettirirken, İran ve Osmanlı ülkesinde yaşayan Ermenileri de işgal altında tuttukları bölgelere göç ettirdiler. Böylece kendilerine karşı herhangi bir isyan ve başkaldırı olaylarının önüne geçmek istediler. Ancak Rusların Ermenilere verdikleri bağımsız bir Ermenistan hayali gerçekleşmedi. Zira Ruslar, Ermenileri yerleştirdikleri bölgeleri merkeze bağlayarak bağımsız Ermenistan kurulması fikrini rafa kaldırdılar.

KAYNAKÇA

Bala, Mirza, "Karabağ" Maddesi, İslam Ansiklopedisi, VI. İstanbul 1956

Barthold, W., "Şeki" Maddesi, İslam Ansiklopedisi, C. XI, İstanbul 1956

Beşiroğlu, İntikam, "19-20. Yüz Yıllarda Ermenistan'daki Azeri Türklerinin Göç Ettirilmesi ve Soykırım Gerçeği", Avrasya Dosyası, İlkbahar 2001, VII/1,

Beydilli, Kemal, "1828-1829 Osmanlı-Rus Savaşında Doğu Anadolu'dan Rusya'ya Göçürülen Ermeniler", Belgeler, XIII, S. 17, Ankara 1988,

Bilge, M. Sadık, Osmanlı Varlığı Döneminde Kafkasya'nın Siyasi, Askeri, Tarihi ve İdari Taksimatı, İstanbul 2005

Cabağı, Vassan Giray, Kafkas-Rus Mücadelesi, İstanbul 1967

Caferoğlu, Ahmet, Azerbaycan, İstanbul 1940

Hovannisian, Richard G., Armenia on The Road to İndependance,1918, Los Angeles 1967

Kırzıoğlu, Fahrettin, Osmanlıların Kafkas Ellerini Fethi 1451-1590, Ankara 1976

Konukçu, Enver, Selçuklulardan Cumhuriyete Erzurum, Ankara 1993

Kurat, Akdes Nimet, Türkiye ve Rusya, Ankara 1990

Mehdiyev, Gaffar Çakmaklı, "Türksüz Ermenistan İdeolojisinin Sonuçları: Ermenistan'ın Tek Uluslu Ve Monoetnik Devlete Dönüştürülmesi Süreçleri", Turkish Journal of Tesam Academy, Ocak 2015, 2 (1), 7-8

Osmanlı Devleti ve Kafkasya (1454-1829),

Saray, Mehmet, Yeni Türk Cumhuriyetleri Tarihi, Ankara 1996

Saray, Mehmet, Ermenistan ve Türk-Ermeni İlişkileri, İstanbul 2003

Swıetochowsk, Tadeusz, Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycan'ı 1905-1920, Çvr. Nuray Mert, İstanbul 1988

Şıhalıyev, Emin, "Çarlık Rusya'sı Tarafından Ermenilerin Azerbaycan Topraklarına Göçürülmesi Ve Akabinde Oluşturulan Ermeni Vilayeti (1828) Rus ve Ermeni Kaynakları Işığında), Çankırı Karatekin Üniversitesi, Uluslararası Avrasya Stratejileri Dergisi, 4(1), : 001-016

SUMMARY

THE TREATY OF TURKMENCHAY AND THE MIGRATION OF ARMENIANS TO AZERBAIJAN

Ahmet TOKSOY, Şeyda BELHAN

As a result of the First Russo-Persian War, the Persian armies were defeated. They had to sign the Treaty of Gulistan in 1813. With this agreement signed, Azerbaijan was divided into two. However, this war developed in a different way that the Armenians changed the course of the war, which led to a change in the balance in the Caucasus region. Russian Tsar Peter began to show interest in Armenians in order to gain power in the Caucasus. Armenian leaders formed voluntary Armenian regiments, organized Armenians, acted together with the Russians, and were allowed to fight together with Russian soldiers. Until 1828, the major cities of Azerbaijan, especially Revan, were occupied by the Russians. In order for the Russians to keep the Caucasus in hand, Armenians from Iran on the one hand and from the territory of the Ottoman Empire on the other hand were settled in the occupied territories.

Key words: *Azerbaijan, Revan, Russia, Ottoman Empire, Caucas*

[68] Konukçu, Selçuklulardan Cumhuriyete Erzurum, s. 703-704

[69] Mehmet Saray, Ermenistan ve Türk-Ermeni İlişkileri, İstanbul 2003, s. 28

QARABAĞ KOLANILARI

Vəliyeva X.T.
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
xuraman.veliyeva@bk.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, tayfa, Kolanı, mahal*

Qarabağ kolanıların min illərdir məskunlaşdığı ərazilərdən biridir. Erkən orta əsrlərdə Qarabağ torpağında (böyük ehtimalla Ağdərə ərazisində) Kolanqat kəndinin olması çox şeydən xəbər verir. Tanınmış alban tarixçisi Musa Kalankatlı272o kənddən idi. Orta çağ ərəb müəllifləri Əl-İstəxri (X yüzillik), İbn İdris (XII yüzillik) və digərləri öz əsərlərində Qarabağda Kolanqat adlı yaşayış yerinin olduğunu qeyd edirlər. Bəzi araşdırmaçılar Kolanqat kəndinin Tərtər çayının sahilində olduğu qənaətindədirlər.

Qarabağda 20-ci yüzilliyə qədər böyük bir ərazi "Kolanı mahalı" adlanırdı. 19-cu yüzilliyə aid qaynaqlar və dövrün müəllifləri Kolanı mahalının Tərtərdən Göyçəyə qədər uzandığını qeyd edirlər. Kolanı mahalında 9 oymaqda cəmi 462 (203 vergi ödəyən, 259 ödəməyən) ailə vardı. Onun sakinləri müsəlman-azərbaycanlılar idi, əhalinin başlıca məşğuliyyəti isə maldarlıq və taxılçılıq idi. Mahalda hər bir oymağın öz hakimi vardı. Ən böyük oymaqlar 61 ailədən ibarət Qaravənd, 67 ailədən ibarət Qızılhacılı, 120 ailədən ibarət Dinniboyəhmədli oymaqları idi. Onun əhalisi yalnız azərbaycanlılardan ibarət idi[2].

O da məlumdur ki, Qarabağ xanlığı 21 mahaldan ibarət idi. Mahalları naiblər idarə edirdilər. Kolanı mahalı bu mahallar içərisində ən böyüklərindən biri idi.

İstər XIX-XX yüzillik müəllifləri, istərsə də daha əvvələ aid qaynaqlar Qarabağ kolanılarını bu bölgədə yaşayan ən mərd, ədalətli və namuslu tayfalardan biri kimi xarakterizə etmişdilər. Sovet hakimiyyəti qurulandan sonra bolşeviklərin ən ciddi şəkildə yanaşdıqları türk soylarından biri məhz kolanılar idi. Sovet hakimiyyətinin qurulduğu ilk illərdə Qarabağda kolanılarla Sarov kəndində yaşayan ermənilər arasında münaqişə meydana gəlmişdi. Həmin ərəfədə Mircəfər Bağırovun da tərkibində olduğu qrup Qarabağa ezam olunmuşdur. Respublika rəhbərliyi məsələyə xüsusi həssaslıq və həyacanla yanaşırdı. Komissiya geri qayıtdıqdan 272sonra Mircəfər Bağırov rəhbərliyə yazılı hesabat verir. Hesabatda bəzi cümlələr durumu açıqlamaqla bərabər kolanıların xarakter cizgilərini əks etdirirdi:

Əslində cəsurluqları və "narahat tayfa" olmaları hər zaman kolanıların qurbanlar verməsi ilə nəticələnmiş, onlar zaman-zaman incidilmiş və sürgünlərə məruz qalmışdılar. Kolanılar istər çar hökumətini, istərsə də Sovet rejimini işğalçı qüvvələr kimi tanımış, tabe olmaqdan israrla boyun qaçırmışlar. Kolanıların "narahat tayfa" olması hətta çar hakimiyyətinin başında duranları onlarla ehtiyatlı və həssas davranmağa vadar edirdi. Tarixçi professor Tofiq Vəliyev yazırdı: "I Nikolayın " Yerli əhalinin Rusiyaya münasibəti necədir?" –sorğusuna cavab olaraq çar polkovninki öz məlumatlarında bildirib ki, bizim qanunlara yalnız kolanılar tabe olmaq istəmirlər. Onlar keçmiş Naxçıvan, İrəvan, Qarabağ və Şirvan xanlıqları ərazilərində yaşayırlar. Çox cəsurdular, verdikləri sözün ağasıdırlar…"[3]

1920-30-cu illərdə də Qarabağ ərazisində sovetləşməyə və kolxozlaşmaya qarşı ən çox direniş göstərən kolanılar idi.

1918-ci ildə erməni-bolşevik birləşmələrinin Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımdan ən çox zülmə məruz qalanlardan biri kolanılar olmuşdular. Bunu Azərbaycan Xalq Cümhuriyyəti dönəmində yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının üzvü N. Mixaylovun məruzəsindən də aydın görmək mümkündür. Həmin məruzədə deyilir: "Beləliklə, bütünlükdə Cavanşir qəzasının yalnız Kolanı icmasının kəndləri talan edilmişdi." [1].

Qarabağ döyüşləri zamanı kolanılılar xüsusi qəhrəmanlıq göstərmişdilər. Erməni hücumlarının və vəhşiliklərinin qarşısını almaq üçün 1990-cı illərin əvvəllərində "Kolanı" təşkilatı yaradılmışdı. Həmin illərdə respublika mətbuatı tərkibində döyüşçü oğulları birləşdirən bu təşkilat haqqında qürur dolu yazılar yayımlayırdı. "Azad Azərbaycan" qəzeti yazırdı: "Vəziyyətdən çıxmaq üçün dörd kəndin qeyrətli oğullarını birləşdirmək üçün təşkilat yaratmaq lazım idi. (16 XII 1992-ci il)". Yuxarıda gətirilmiş məlumatlar sübut edir ki, Qarabağın məhşur tayfalarından olan Kolanı tayfası əsrlər boyu həm bölgənin, həm də, bütövlükdə Vətənimizin social-iqtisadi və içtimai-siyasi həyatında fəal iştirak etmiş, kolanı elinin igidləri torpaqlarımızın bütövlüyü, el obanın qeyrəti uğrunda mübarizədə heç nəyi əsirgəməmişdilər.

ƏDƏBİYYAT

1. AR Dövlət Arxivi, fond 970, siyahı 10, iş 161
2. Mirzə Adıgözəl bəy "Qarabağnamə" (Bakı – 1989)

3. Tofiq Vəliyev “Ağdam rayonu və onun toponomiyası” (Strateq.az saytı)

SUMMARY

KOLANI KINS OF KARABAGH

Valiyeva Kh.T.

According to the consideration of the investigators, but bush, ashes, flower expresses the meanings of "majority, huge, lıand" this word developed used (for instance, ashes Tegin-Gul Tigin, Kol erki) in the "huge" meaning in the idea of my collection. It is supposed that but "ashes, bushes" kin name and developed, more correct to explain the "an" affix in the meaning of "living place". "Kolan, Kulan" developed in the meaning of "Kol, Kul " has defined the kin concerning to this place toponims belonging affix of "lı" inform be addition. Origin of the name short-horned wherehas been according to considerations "n" letter have been written the short-horned falling copy move to the writing later on. Some toponims has existed connected with name of this kin in Azerbaijan territory.

Key words: *Azerbaijan, Karabakh, kin, Kolani, region*

РЕЗЮМЕ

КАРАБАГСКИЕ КОЛАНИЙЦЫ

Велиева Х.Т.

По мнению исследователей, Коль, Куль, Гюль употреблялись у древних тюрков в значении «великий» (например, Кул Тагин-Гюль Тегин, Коль Эрки), а слово означает «множество, величие, народ» в собирательном значении. Считается, что «кул, кол» использовалось как название племени, а суффикс «ан» правильнее означать «место жительства». В новых переселяемых местах к топониму «Колан, Кулан» добавлялся суффикс «ли», употребляемый в значении «Коль, место жительства племени кул» и описывающий принадлежавшее этому месту племя. То есть "из Колана, слободы Кулан". Согласно мнениям изначально это имя было Коланли, оно также использовалось в языке как «Коллани», а когда оно было позже расшифровано, буква «н» была опушена и было написано Колани. На территории Азербайджана было много топонимов, связанных с названием этого племени.

Ключевые слова*:Азербайджан, Карабах, племя, Коланы, махал*

ОСВОБОЖДЕНИЕ ШУШИ

Алиева Ф.Б.
Азербайджанский Государственный Аграрный Университет, Гянджа, Азербайджан
fazilkaazerinka@mail.ru

Ключевые слова: *Азербайджан, вооруженные силы, Карабах, Шуша*

Шуша, отделенная долиной, находится приблизительно в 15 км от Ханкенди. Город Шуша контролирует весь Карабах и поэтому характеризуется как стратегическая высота. Этот стратегический город был назван «недоступным», азербайджанский народом. Через Шушу проходит Лачинский коридор.

В Шуше, с начала войны периодически поступали сообщения,что на фроне происходят артиллерийские обстрелы. 4 октября был разрушен «Дом культуры» в Шуше, метким ракетным ударом нашей армией. По некоторым сведениям было известно, что около 300 армянских военнослужащих собралось в этом здании. Большинство присутствующих были ранены и убиты. [1, с.35].

В начале ноября в Шуше началась подготовка к боевым действиям. Из-за скалистых дорог, Вооруженным силам Азербайджана пришлось 5 дней идти в сторону Шуши.

Верховный главнокомандующий Ильхам Алиев неоднократно говорил, чтобы добраться до Шуши, азербайджанские солдаты переходили ущелья, леса и горы.

В районе Красного рынка армянское командование надеялось оказать сопротивление азербайджанским войскам. Вторым направлением, было направление на Лачин, на котором армянская армия ждала атаки азербайджанских солдат на Шушу. Однако, по масштабам, плану и последовательности,

командование азербайджанской армии принимает беспрецедентное решение. Командоване открывает новый путь в Шушу из карабахских густых лесов. От Больших арок в леса до сел Шуша, Канакчи и Сигнах за три дня открывается дорога протяженностью сорок два километра. Также инженеры, для того чтобы техника могла двигаться, превратили узкую горную тропу в лесную тропу. В результате азербайджанским частям удалось обвести артиллерию вокруг Чанакчи.

О боевых действиях, 4 ноября появилась информация, проишедшие в районе Шуши. Взяв под свой контроль часть дороги Шуша-Лачин, азербайджанские войска предотвратили прибытие войск из Армении. В российской прессе сообщалось, что азербайджанским боевикам удалось осадить город с трех сторон - юга, запада и востока.

7 ноября в город Шушу вошли отважные азербайджанские сыны. Кроме того, одна группа оказывала огневую поддержку силам, которые входили в городу после освобождения Дашалты, а другая группа блокировала Лачинский коридор, для того чтобы предотвратить прибытие дополнительных сил из Армении.

Разделенные на четыре группы по сто человек в каждой и оснащенные легким вооружением и боеприпасами четыреста азербайджанских спецназовцев, поднялись по веревкам на крутые горы Шуши и утром с четырех сторон вошли в город, и начались кровопролитные рукопашные бои. Армянские силы были изгнаны из города Шуши, а сам город перешел под полный контроль боевиков Азербайджана.

Вся территория Шуши, 8 ноября была очищена от оккупантов. Таким образом, спустя двадцать восемь лет, дата 8 ноября 2020 года вошел в историю как день освобождения Шуши от армянских оккупантов [2, с.19].

8 ноября 2020 года главнокомандующий Вооруженных сил Азербайджана Ильхам Алиев посетил Аллею шехидов и объявил об освобождении Шуши от армянских оккупантов.

Во Второй Карабахской войне Шушинская битва сыграла решающую роль и считается серьезным ударом как для армянской армии, так и для армянского общества [4, с.17].

10 ноября 2020 года премьер-министр Армении Николь Пашинян, осознавая свое поражение, подписал акт о капитуляции. И после этого в тот же день было подписано трехстороннее соглашение между президентом Азербайджанской Республики Ильхамом Алиевым, президентом Российской Федерации Владимиром Путиным и премьер-министром Армении Николом Пашиняном об объявлении режима прекращения огня.

Таким образом, после сорок четырех дней войны, азербайджанская армия одержала громкую победу, завершила тридцатилетнюю оккупацию, очистила свои исконные земли от врага и добилась целостности Азербайджана и все это просходило под командованием Победоносного Верховного Главнокомандующего Ильхама Алиева. [3, с.21].

10 ноября 2020 года, сорока четырех дневная война завершилась полной победой вооруженных сил Азербайджана.

Наши вооруженные силы, развеяли миф о непобедимой армянской армии,так как азербайджанская армия завоевала господство на земле и в воздухе, сокрушив врага сокрушительным ударом,.

Результаты Второй карабахской войны:

- Прекращение боевых действий и освобождение оккупированных территорий от армянских оккупантов;
- Был восстановлен наш политический и правовой суверенитет и территориальная целостность на всей территории Азербайджана -1 декабря 2020 года. Азербайджан установил территориальную целостность и обеспечил международное право;
- Подтвержден международный межгосударственный характер нагорно-карабахского конфликта;
- Статус-кво был отменен и статус Нагорного Карабаха больше не был предметом переговоров;
- Азербайджан самостоятельно выполнил 4 резолюции Совета Безопасности ООН. Руководствуясь статьей 51 Устава ООН, индивидуально выполнил требования этих резолюций;
- Государственная граница с Исламской Республикой Иран освобождено от оккупации (132 км). Эти границы уже находятся под контролем азербайджанской армии.
- Азербайджан получил доступ в Нахчыван как через Лачин, так и через другие западные районы страны. Несомненно, будет выход из Азербайджана в Нахчыван, а оттуда в Турцию, а в обратном направлении будет огромная турецкая полоса из Турции, Южного Кавказа, Средней Азии и Китая;
- И самое главное, наш менталитет изменился. Мы прошли путь от побежденной страны к победившей стране и нации. 44-дневная вторая Карабахская война вернула гордость, чувство собственного достоинства и честь азербайджанского народа. Поднялись национальный патриотический дух, морально-психологическое состояние нашего народа и армии.

ƏDƏBİYYAT

[1] Azərbaycan respublikası prezidentinin işlər idarəsinin prezident kitabxanasi. Ikinci Qarabağ müharibəsi, 44 günlük zəfərin xronikası. Bakı-2021, 3359 səh.

[2] Beynəlxalq avrasiya mətbuat fondu BMT Sosial-İqtisadi Şurasının (ECOSOC) Əsas Məşvərətçi Statuslu üzvü, "İkinci Qarabağ müharibəsi başlama səbəbləri, yaratdığı fəsadlar və törədilən cinayətlərə dair", Hesabat (Sentyabr-Oktyabr 2020), Bakı, 21 səh.

[3] 44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr, Bakı – 2021, 36 səh.

[4] Олег Кузнецов «Война за Карабах 2020 года: год спустя» Баку – 2021, 40 стр.

XÜLASƏ

ŞUŞANIN AZAD EDİLMƏSİ

Əliyeva F.B.

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin Şuşanı erməni işğalçılarından azad edilməsi uğrunda döyüşü hərb tarixində nadir əməliyyatlardan biridir. Şuşa və onu əhatə edən dağlıq rayonlar Qarabağ regionunun ən mühüm yerlərindən biridir. Ümumiyyətlə, rayonun "döyünən ürəyi" kimi tanınan Şuşa şəhəri 19-cu əsrin ortalarına qədər bölgədə yaşayan azərbaycanlı əhalinin mədəni və siyasi mərkəzi hesab olunurdu. Şuşa şəhəri 1992-ci il mayın 8-də Birinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, nəticədə azərbaycanlı əhali məcburi köçkün vəziyyətinə düşmüşdür.

Açar sözlər: *Azərbaycan, silahlı qüvvələr, Qarabağ, Şuşa*

SUMMARY

LIBERATION OF SHUSHA

Aliyeva F.B.

The battle of the Azerbaijani Armed Forces for the liberation of Shushi from the Armenian occupiers during the Second Karabakh War is one of the rare operations in military history. Shusha and the mountainous regions surrounding it are one of the most important places in the Karabakh region. In general, the city of Shusha, known as the "beating heart" of the region, was considered the cultural and political center of the Azerbaijani population living in the region until the middle of the 19th century. The city of Shusha was occupied by the Armenian armed forces on May 8, 1992 during the First Karabakh War, as a result of which the Azerbaijani population was displaced.

Keywords: *Azerbaijan, armed forces, Karabakh, Shusha*

РУССКИЕ И СОВЕТСКИЕ ИСТОРИКИ ОБ ИСТОРИИ КАРАБАХСКОГО ХАНСТВА

Исмаилова А.М.

Дагестанский государственный университет (г. Махачкала, Российская Федерация)

almaz.ismailova@mail.ru

Ключевые слова. *Российская империя, Карабахское ханство, Южный Кавказ, историография, русские исследователи, кавказоведение, советские историки, провинция, социально – экономическое развитие, торговля, феодальные отношения.*

Карабахское ханство — феодальное государство на Южном Кавказе (середина XVIII — начало XIX веков), а с 1805 года — в составе Российской империи, которое было ликвидировано в 1822 году и преобразовано в российскую провинцию. Основателем Карабахского ханства был Панах Али-хан Джеваншир (1747—1763гг.) из оймага Сарыджалы Джеваншировского племени.

Историографическое изучение истории азербайджано-русских отношений XVIII – начале XIX вв., в том числе и истории Карабаха, отличается многоплановостью, как сюжетного характера, так и широтой хронологических рамок. История Карабаха освящена как в трудах русских

путешественников и историков дореволюционного, так и советского периода. Рассмотрим некоторые из них.

Исследуя историю карабахского ханства XVIII в., российский востоковед И.Н Березин писал о том, «Хан был совершенно независим. Он сосредоточил в своих руках не только всю административную и судебную, но и даже духовную власть [4, с.45].

Русский кавказовед П.Г. Бутков в 1796 г. принимал участие в наступлении русских войск в Азербайджан. Будучи участником и свидетелем многих событий, носящих характер первоисточника, во второй части своего трехтомного труда он дает много сведений об азербайджанских ханствах, в том числе и Карабахском ханстве [7].

Требованиям историографии нового времени отвечало вышедшее в 1871 г. в Петербурге сочинение академика Н. Дубровина [8]. Но, как видно уже из самого заглавия, автор в своем историческом труде выступил в качестве представителя историографии, проникнутой великодержавническими взглядами.

Подобный же характер в идеологическом отношении имеет труд, изданный под редакцией генерала Потто[22]. Русское правительство не прощало себе того, что, несмотря на территориальный захват Карабаха, им не удалось сломить карабахцев [23, с.420]. Побывавший в конце XVIII в. в Шуше полковник С.Д. Бурнашев опубликовал сведения о географически - стратегическом положении Шуши, его торговых отношениях и численности населения города [6].

В начале XIX века С. М. Броневский (правитель канцелярии главнокомандующего на Кавказе Цицианова) также писал о «Ханстве карабахском, лежащем между стечением Куры и Аракса [5].

Содержательный материал по экономике шекинской, ширванской и карабахской провинций Азербайджана в первые два десятилетия XIX в. сосредоточены в описаниях этих ханств, составленных в 1819, 1820 и 1823 гг. [14]. Одним из первых документов сообщающий подробные сведения об этническом составе населения Карабаха является Налоговый реестр Карабахской провинции «Описание Карабахской провинции», составленное на 1823 г. по распоряжению главноуправляющего в Грузии Ермолова действительным статским советником Могилевским и полковником Ермоловым. Согласно данным реестра, в провинции имелся один город — Шуша, и около 600 сел (450 азербайджанских и 150 армянских), в которых проживало около 20 000 семей или около 90 000 жителей.

Для изучения истории Карабаха большой интерес представляет статья «Карабахская провинция», написанная русским чиновником Зубаревым в первой половине 30- х годов XIX в. и изданная в 3-е части «Обозрений российских владений за Кавказом»[9]. Среди печатных источников по своему объему и значению занимают важное место документы (акты), собранные Кавказской Археологической комиссией [1], где приведены тексты писем азербайджанских ханов, рапорты русских военных чиновников Кнорринга, Коваленского, Цицианова и др. Следует отметить, что большинство документов АКАК составлены царскими чиновниками и не свободны от тенденциозности. Особый интерес, конечно для нас представляет документ, связанный с родословной Ибрагим-хана [11, с.695].

Сочинение «Гюлистани-Ирам» («Райский цветник»), написанное Аббаскули-ага Бакихановым (1794-1846 гг.) в 1891 г. на персидском языке и переведенное вскоре на русский язык, содержит много сведений по истории Гарабага. В 1823 г. А.А. Бакиханов был назначен Ермоловым членом особой комиссии, исследовавшей Гарабагскую провинцию. А.А. Бакиханов максимально воспользовался этой возможностью. В пятой главе своего сочинения он очень интересно и живо систематизировал историю Гарабага, представил политическую панораму Гарабагского ханства в 1747-1813 гг., взаимоотношения этого ханства с другими азербайджанскими ханствами, географические и этнографические сведения о Гарабаге [2].

Весьма важными и полезными в исследовании истории Карабаха в 80-х годах XIX в. являются также тематические сборники [13,125в которых можно найти много содержательного материала по истории Карабаха.

Как было указано в резюме, историю Карабаха продолжали изучать и советские историки – востоковеды.

Известный советский ученый И. Б. Петрушевский в 1928 г. совершил путешествие по Карабаху, главной целью которого было изучение культуры, искусства, быта местного населения и собрал огромный материал в этой отрасли. Труды видного востоковеда И. П. Петрушевского сыграли значимую роль в изучении истории Карабаха [16,17,18,19]. В них приводятся политические и экономические предпосылки возникновения карабахского ханства, социально – экономические отношения, описываются существовавшие в них податная система и формы земельной собственности. Говоря о правителях Карабаха, Петрушевский отмечает: «Панах Али-хан Джаваншир стоял в ряду наиболее значительных государственных деятелей Азербайджана XVIII века [19 с. 100] . В результате долгого изучения и исследования этноса, быта, культуры местного населения ученый пришел к следующим выводам: «Карабах

никогда не был центром армянской культуры. Карабахская культура целостна и принадлежит она азербайджанскому народу»[19 с.110]

Другой советский историк В. Левиатов [11] показывает с одной стороны активизацию политики российского правительства в отношении азербайджанских ханств, а с другой – угрозу самостоятельности азербайджанских ханств со стороны иранского правителя Ага Мухаммеда Гаджара.

Вопросу завоевания прикаспийских областей Азербайджана Россией посвящена и статья М. А. Полиевктова[21], в которой немало места уделено и истории Карабаха.

К числу исследователей, предпринявших попытки создать обобщающие работы по истории Азербайджана следует отнести Е. А. Пахомова [15], в которой уделено место и вопросам Карабахского ханства XVIII – начале XIX вв.

Говоря об изучении прошлого азербайджанского народа необходимо отдать должное деятельности первого научного учреждения в Азербайджане – «Общества обследования и изучения Азербайджана», созданного в Баку в 1923 года.

Так, значительным для того времени событием было опубликование курса лекций выдающегося советского востоковеда академика В.В. Бартольда [3]. Ценность его работы состоит в том, что она включает в себя продуманную оценку, анализ сведений, почерпнутых из первоисточников.

Некоторые аспекты интересующей нас проблемы были затронуты в работе М. Н. Покровского[20]. Немаловажное значение в истории Азербайджана в целом, и второй половины XVIII века, в частности, имели отношения другого крупного азербайджанского деятеля Ибрагим Халил - хана Карабахского с Россией, которые нашли широкое освещение в работе О. П. Марковой [12].

В советский период также были созданы коллективные труды, где можно также найти интересующий нас материал, а именно по истории Карабаха[10]. Истории Карабаха посвящено огромное количество трудов, монографий, но здесь мы смогли затронуть лишь некоторые из них.

Конечно же, наш обзор по истории Карабахского ханства не может ограничиться вышеуказанным обзором, истории Карабахского ханства посвящено значительное количество трудов, в частности это научные исследования азербайджанских историков. Но мы в нашей статье решили указать исследования русских и советских историков.

Сделав анализ вышеперечисленных источников и литературы как дореволюционного, так и советского периода, можно сделать следующие выводы:

1. Карабахское ханство, благодаря свое военно-экономической и военно – политической мощи, выделялось среди других ханств;
2. Основатель Карабахского ханства, Панах Али – хан стоял в ряду наиболее значительных государственных деятелей Азербайджана XVIII века;
3. Карабахское ханство занимало значительную часть азербайджанской территории;
4. Исследования также подтверждают большую роль Карабахского хана- Ибрагим – хана в истории Азербайджана;
5. В сельском хозяйстве господствовали развитые феодальные отношения;
6. В экономической жизни ханства город Шуша играл важную роль;
7. В ханстве господствовало натуральное хозяйство, внутренняя торговля здесь была развита слабо;
8. В Карабахском ханстве имелась 21 административная единица;
9. Карабахское ханство было суверенным государством с присущими ему атрибутами - армией, денежной единицей, четко определенными границами, в ханстве господствовали зрелые феодальные социально – экономические отношения.

Таким образом, взаимоотношения Северного Азербайджана с Россией в XVIII – начале XIX вв., и, особенно история Карабаха, являются важной научной проблемой, от решения которой зависит изучение многих вопросов истории Азербайджана в разные периоды его развития. Только всесторонний и объективный анализ этой проблемы, как и других проблем истории Азербайджана, поможет приблизить нас к исторической истине, создать правдивую картину истории, определить ясные перспективы на будущее.

ЛИТЕРАТУРА

1. Акты Кавказской Археографической Комиссии. Т. II, ст. 1436.
2. Бакиханов А. К. Гюлистан-и Ирам. Баку, 1991.
3. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Т. II, ч. I, М., 1963.
4. Березин И.Н. Путешествие по Дагестану и Закавказью.2-е изд. Казань, 1850.
5. Броневский С. Новейшие географические и исторические известия о Кавказе», ч. ч. I и II. Москва, 1823.

6. Бурнашев С.Д. Описание областей Адребиджанских в Персии и их политического состояния, сделанное пребывающим при его высочестве царе карталинском и кахетинском Ираклии Теймуразовиче полковником и кавалером Бурнашевым в Тифлисе в 1786 г., Курск, 1793.

7. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. Ч.III. Санкт – Петербург,1869.

8. Дубровин Н. История войны и владычества русских на Кавказе. Санкт – Петербург,1871.

9. Зубарев Д. Карабахская провинция. Обозрение Российских владений за Кавказом, в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Ч. III // Обозрение российских владений за Кавказом. СПб. 1836.

10. Колониальная политика российского царизма в Азербайджане в 20-60-е гг.XIXв. Ч.1-2. Москва – Ленинград, 1936.

11. Левиатов В. Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948.

12. Маркова О. П. Россия, Закавказье и международные отношения в XVIII веке. М., 1966.

13. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т.IV. Тифлис, 1886.

14. Описание Карабахской провинции, составленное в 1823году по распоряжению главноуправляющего на Кавказе Ермолова. Тифлис, 1866.

15. Пахомов Е. А. «Краткий курс истории Азербайджана. Москва, 1923.

16. Петрушевский И. П. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. М., 1936.

17. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX вв., Л., 1949.

18. Петрушевский И. П. Система русского колониального управления в Азербайджане. Ч.1. Москва-Ленинград,1936.

19. Петрушевский. И.П. Ханства Азербайджана и возникновение русской ориентации. Известия АН Азерб. ССР (отдел, общ. наук). Вып. Н. 1946, № 5.

20. Покровский М.Н. Дипломатия и войны царской России в XIX столетии. Москва, 1924.

21. Полиевктов М.А. Проект хозяйственной эксплуатации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа. Материалы по истории Грузии и Кавказа, вып. IV. Тбилиси, 1937.

22. Потто В. Исторический очерк кавказских войн от их начала до присоединения Грузии. Тифлис, 1899.

23. Потто В. Кавказская война.Т.3, вып.3. СПб.,1887.

24. Родословная Ибрагим-хана и его детей. АКАК.Т.2, док.1415.

25. Сборник материалов для изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис. 1886.

XÜLASƏ

RUS VƏ SOVET TARİXÇİLƏRİ QARABAĞ XANLIĞININ TARİXİ HAQQINDA

İsmayılova A.M.

Qarabağ xanlığı təkcə Azərbaycanın deyil, həm də Cənubi Qafqazın qonşu regionlarının siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Azərbaycanın şimal xanlıqlarını Rusiyaya birləşdirdikdən, xan idarəçiliyini ləğv etdikdən və yeni idarəçiliyi tətbiq etdikdən sonra, şübhəsiz ki, Rusiya İmperiyasının tərkibinə daxil olmuş yeni torpaqlarla tanış olmaq zərurəti yaranmışdır. Qarabağın tarixini təkcə inqilabdan əvvəlki tarixçilər deyil, həm də sovet tarixçiləri də tədqiq etmişlər.

***Açar sözlər**: Rusiya imperiyası, Qarabağ xanlığı, Cənubi Qafqaz, tarixşünaslıq, rus tədqiqatçıları, qafqazşünaslıq, sovet tarixçiləri, quberniya, sosial-iqtisadi inkişaf, ticarət, feodal münasibətləri*

SUMMARY

RUSSIAN AND SOVIET HISTORIANS ON THE HISTORY OF THE KARABAKH KHANATE

Ismailova A.M.

Karabakh Khanate played a key role in the political, economic and cultural life of not only Azerbaijan, but also for the neighboring South Caucasus regions. After joining the northern khanates of Azerbaijan to Russia, the elimination of Khan's management and the introduction of new management, of course, there is a need to familiarize

with the new lands became part of the Russian Empire. Karabakh's history is studied not only the pre-revolutionary historians, it has been the subject of research, and also of Soviet historians.

Keywords. *Russian Empire, Karabakh Khanate, South Caucasus, historiography, Russian researchers, Caucasian studies, Soviet historians, province, socio-economic development, trade, feudal relations.*

ВТОРАЯ КАРАБАХСКАЯ ВОЙНА

Набиева Э.И.

Азербайджанский Государственный Аграрный Университет, Гянджа, Азербайджан

Ключевые слова: *Азербайджан, вооруженные силы, конфликт, президент*

На очередном заседании СБСЕ 1992 года (с 1994 года именуемого ОБСЕ) в Хельсинки было принято решение о созыве Минской конференции по мирному урегулированию армяно-азербайджанского нагорно-карабахского конфликта. За 26 лет Минская группа ОБСЕ не достигла каких-либо положительных результатов, так как, отличалась двойными стандартами и явно проармянским характером, [2, с.4].

Армянские воинские части, постоянно нарушали режим прекращения огня и регулярно обстреливали населенные пункты и азербайджанские позиции. В результате нарушения режима прекращения огня вооруженными силами Армении, в ночь с 1 на 2 апреля 2016 года, конфликт начался вновь и в результате контратаки вооруженных сил Азербайджана, четырех дневных ожесточенных боев были освобождены от врага село Сейидсулан, село Талыш и ряд высот, а также возвышенности Лалатапа Джебраильского района, село Гюлистан Геранбойского района, село Джоджугмарджанлы, село Газахлар Тартарского района и дороги в направлении села Суговушан.

В результате вмешательства России и других стран поддерживающие политику Армении, атака Вооруженных сил Азербайджана была остановлена, было подписано новое соглашение о прекращении огня, 5 апреля 2016 года. Но все равно, армянская сторона, как всегда, каждый раз нарушала режим прекращения огня.

В результате «бархатной революции» в Армении, в апреле 2018 года, лидер оппозиции Николь Пашинян захватил власть. И с тех пор в армяно-азербайджанском нагорно-карабахском конфликте возросла политическая напряженность. И все это, аннулировало все договоренности, который были достигнуты в ходе переговоров, и это стало неизбежным началом крупномасштабных военных действий.

Николь Пашинян своей популистской речью остановил мирные переговоры: «Карабах - это Армения, и точка». [3, с.16].

В мае 2019 года приезд Николь Пашиняна на оккупированные территории Азербайджанской Республики, празднование 27-й годовщины оккупации Шуши на Шуша-Чыдырской равнине, 7 условий выдвинутых для Азербайджана, 31 марта 2020 года проведение так называемых президентских и парламентских выборов в Карабахе, даже в Шуше Церемония инаугурации президента наполнила чашу терпения азербайджанского народа.

Следует отметить, что в течение прошедшего периода Президент Азербайджана Ильхам Алиев предпринимая шаги по урегулированию нагорно-карабахского конфликта принимал участие в различных формах. В городе Сочи России 3 октября 2019 года состоялось пленарное заседание 16-го ежегодного собрания международного дискуссионного клуба «Валдай».. На берегу озера Валдай была проведена первая конференция клуба, в России Великом Новгороде. И отсюда этот клуб получил свое название. В клубе, который за годы работы стал местом встречи ведущих мировых экспертов, особое внимание уделяется изучению экономических процессов и мировой политики. До сегодняшнего дня в клубе приняли участие более тысяча представителей мирового научного сообщества из семидесяти четырех стран, а также главы государств и правительств. На эти мероприятя, лидеры других стран приглашаются в ограниченном количестве. На заседании присутствовал и Президент Азербайджана Ильхам Алиев. В своем выступлении Ильхам Алиев сказал, что одной из тем постоянных обсуждений является урегулирование армяно-азербайджанского нагорно-карабахского конфликта. Карабах - историческая, древняя земля Азербайджана. Таким образом, Карабах - это Азербайджан и восклицательный знак!

12 июля 2020 года после этого противник совершил еще более чудовищные поступки и обстрелял пограничные посты Азербайджана в направлении Товузского района из артиллерии и крупнокалиберного оружия. Среди погибших был - отважный сын азербайджанского народа, генерал-майор Вооруженных сил Азербайджана, заместитель командующего 3-м армейским корпусом ВС Азербайджана - начальник штаба

Полад Гашимов, полковник Вооруженных сил Азербайджана, командующий артиллерией 3-й армейский корпус ВС Азербайджана Ильгар Мирзаев и один мирный житель. Противник получил достойный ответ, в результате боевых действий.

В направлении Геранбойского района, 24 августа 2020 года, провокационная группа армянской армии попыталась атаковать азербайджанские позиции, эта группа была нейтрализована, а командир взят в плен. Армянская сторона готовила военные планы по захвату азербайджанских земель, это стало ясно из полученных разведывательных материалов.

25 сентября 2020 года в своем выступлении на 75-й сессии Генеральной Ассамблеи ООН Президент Азербайджана Ильхам Алиев отметил, гибель азербайджанских военнослужащих и 76-летнего гражданского лица в результате армянских провокаций, а также серьезный ущерб гражданской инфраструктуре.

Президент Турции Реджеп Тайип Эрдоган, на этом мероприятии, высказался в поддержку территориальной целостности Азербайджана и Грузии. 27 сентября помощник президента республики Хикмет Гаджиев выступил с заявлением в связи с грубым нарушением режима прекращения огня вооруженными силами Армении.

После этого, командование азербайджанской армии приняло решение начать быстрое контрнаступление по всему фронту, чтобы не допустить боевых действий армянской армии и обеспечить безопасность мирного населения.

27 сентября 2020 года по инициативе азербайджанской стороны, после очередной провокации армянских вооруженных сил азербайджанская сторона развернула широкомасштабные военные действия в направлении Джебраил, Тертер и Физули. И так, началась Отечественная война славного азербайджанского народа, вошедшая как «44-дневная война» в современную военную историю Азербайджана .[1, с. 3354].

Армяне строили мощные укрепления на оккупированных территориях, в течение 30 лет, известные как «линия Оганяна». Чтобы избежать тяжелых потерь и быстро прорвать оборону противника, азербайджанская армия использовала тактику полумесяца. Был задействован в боевых действиях военный контингент численностью сто тысяч человек. Азербайджанская армия нанесла сокрушительный удар по армянской армии за короткое время, вооружившись самоходной артиллерией, турецкими, израильскими, пакистанскими и азербайджанскими беспилотными летательными аппаратами – Байрактар, Хароп, Итигован, зенитными ракетами израильского производства «Iron Force». Затем началось освобождение оккупированных территорий.

В Азербайджане было объявлено военное положение и комендантский час, а с 28 сентября - частичная мобилизация, а в Армении - военное положение и началась всеобщая мобилизация. За короткий период времени, этот конфликт перерос в глобальную войну.

ООН и многие страны решительно осудили конфликт и призвали обе стороны снизить напряженность и без промедления возобновить переговоры. Турция, Афганистан, Пакистан, Украина и Северный Кипр выразили поддержку Азербайджану.

Совет Безопасности ООН 29 сентября 2020 года провел экстренное заседание по ситуации в Нагорном Карабахе. 10 октября Армения нарушила режим прекращения огня, несмотря на решение гуманитарное прекращение огня, поддержанное Россией, Международным комитетом Красного Креста и принятое Азербайджаном и Арменией. Между Вооруженными силами Азербайджана и Вооруженными силами Армении с 27 сентября по 17 октября 2020 года шли ожесточенные бои за Физулинский район и город Физули. В результате восемьнадцать сел Физулинского, Джебраильского и Ходжавендского районов были освобождены.

В те дни вокруг Нагорного Карабаха были уничтожены вооруженные силы Армении и боевая техника, при поддержке ракетно-артиллерийских частей личного состава и танковых частей Вооруженных Сил Азербайджана, фронтовой авиации и беспилотных летательных аппаратов на северном, северо-восточном и юго-восточном направлениях.

В ходе всех операций, являвшимся стратегически важным участком Физули, Джебраиль и Ходжавенд и поселок Гадрут был очищены от захватчиков. И после этого азербайджанская армия интенсивнее начала продвигаться, и освободила Зангилан и Губадлы. Они вошли в Шушу пересекая горные перевалы и без каких-либо боевых действий города Агдам, Кельбаджар и Лачин были мирно очищены от ненавистного врага [4, с. 2].

ƏDƏBİYYAT

[1] Azərbaycan respublikası prezidentinin işlər idarəsinin prezident kitabxanasi. Ikinci Qarabağ müharibəsi, 44 günlük zəfərin xronikası. Bakı-2021, 3359 səh.

[2] Beynəlxalq avrasiya mətbuat fondu BMT Sosial-İqtisadi Şurasının (ECOSOC) Əsas Məşvərətçi Statuslu üzvü, "İkinci Qarabağ müharibəsi başlama səbəbləri, yaratdığı fəsadlar və törədilən cinayətlərə dair", Hesabat (Sentyabr-Oktyabr 2020), Bakı, 21 səh.
[3] 44 günlük Qarabağ müharibəsi: Mülahizə və nəticələr, Bakı – 2021, 36 səh.
[4] "Xalq qəzeti" № 203 (29745) 23 sentyabr 2021-ci il, 8 səh.

XÜLASƏ

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ

Nəbiyeva E.İ.

Azərbaycan xalqının müasir tarixinin ən parlaq səhifələrindən sayılan ikinci Qarabağ müharibəsi öz miqyasına, mahiyyətinə və nəticələrinə görə "Vətən müharibəsi" kimi səciyyələnir. "Dəmir yumruq" əməliyyatı kimi başlayan bu genişmiqyaslı hərbi əməliyyatın əsas məqsədi 1988-1994-cü illərdə Birinci Qarabağ müharibəsi zamanı Ermənistan qoşunları tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və onun ətrafındakı Azərbaycan torpaqlarını azad etmək idi. 1994-cü il mayın 12-də Bişkek protokoluna uyğun olaraq atəşkəs əldə edildi və "dondurulmuş" münaqişə kimi 26 il davam etdi.
Açar sözlər: *Azərbaycan, silahlı qüvvələr, münaqişə, prezident*

SUMMARY

SECOND KARABAKH WAR

Nabiyeva E.I.

The Second Karabakh War, considered one of the brightest pages in the modern history of the Azerbaijani people, is characterized as a "Patriotic War" in terms of its scale, nature and consequences. The main goal of this large-scale military operation, which began as Operation Iron Fist, was to liberate Azerbaijani lands in and around Nagorno-Karabakh, occupied by Armenian troops during the First Karabakh War in 1988–1994. On May 12, 1994, a ceasefire was reached in accordance with the Bishkek Protocol and lasted 26 years as a "frozen" conflict.
Keywords: *Azerbaijan, armed forces, conflict, president*

АРМЯНСКАЯ ФАЛЬСИФИКАЦИЯ ЗАКОНОВ СССР И МЕЖДУНАРОДНЫХ ПРИНЦИПОВ В НАГОРНОМ КАРАБАХЕ В КОНЦЕ 80-Х - В НАЧАЛЕ 90-Х гг. XX ВЕКА

Сафаров П.Ш.
АГПУ, Баку, Азербайджан

Ключевые слова: *конституция и законы СССР, Армянская фальсификация законов СССР, агрессия против Азербайджана, изгнание азербайджанцев, принцип право на самоопределение и его фальсификация армянами, сепаратизм.*

Введение. После распада СССР армяне Нагорно-Карабахской Автономной области при поддержке Армянской ССР организовали настоящий террор по отношению к азербайджанскому населению области и прилегающих районов Азербайджана. С армянской стороны все это сопровождалось истолкованием и законов СССР, и международных законов и принципов по своему, в частности принципа права наций на самоопределение в том числе. Такими преступными и демагогическими методами армянское население НКАО хотело выйти из состава Азербайджана и присоединиться к Армении. В использованных при написании статьи литературах авторы согласны тем что в современном мире принцип территориальной целостности во многом преобладает над принципом самоопределения.

1. Попытка армян истолковать законы СССР исходя из своих планов по завладению НКАО. Первая попытка армян на уровне Конституции СССР закрепить статус НКАО в ней как часть Армянской ССР случилось в 1977 г. в очередном заседании комиссии по разработке нового основного закона страны, где среди прочих членов комиссии были представлены в т.ч. руководители союзных республик. Секретарь ЦК КПСС, заместитель председателя комиссии Б.Пономарьев (председателем был Л.И.Брежнев, Генеральный секретарь ЦК КПСС,но когда он отсутствовал заседание комиссии вел Б.Пономарьев)

внезапно объявил о том, что из НКАО и Армянской ССР поступили обращение граждан с просьбой рассмотреть вопрос о передаче НКАО из состава Азербайджанской ССР в состав Армянской ССР которые будут рассматриваться на следующем заседании. Все попытки присутствующего на заседании комиссии руководителя Азербайджана Гейдара Алиева снять с повестки дня этот вопрос не увенчались успехом. Тогда он пошел К.Л.Брежневу, разъяснил о последствиях такого обсуждения и Л.Брежнев дал указание снять этот вопрос с обсуждения [8, 205].

Аргументы Армении, базирующиеся на том что Нагорный Карабах прежде не был частью независимого Азербайджана и вышел из состава в соответствии с пресловутым законом СССР «О порядке решения вопросов связанных с выходом союзной республики из СССР» от 3 апреля 1990 г. не выдерживают никакой критики. Так в статьях 76 и 78 Конституции СССР закрепилось, что союзные республики являются суверенными государствами, объединившимся с другими республиками в Союз СССР, что территория союзной республики не может быть изменена без ее согласия и что границы между союзными республиками могут измениться только по взаимному соглашению соответствующих республик, причем подлежащим дальнейшему утверждению Союзом СССР.

А закон от 3 апреля 1990 г., конкретно его 3-я статья гласила, что в союзной республике, которая имеет в своем составе автономные республики и автономные области референдум по вопросам пребывания в составе СССР или выхода из союзной республики приводится отдельно в каждой автономии и вопрос определения государственно-правового статуса относятся к компетенции этих образований. Таким образом становиться ясно, что статья 3 данного закона идет вразрез с положениями Конституции, конкретно 76 и 78-ми статьями Основного закона СССР. А в случаи несоответствие закона с основным законом страны, верховенство имеет основной закон – Конституция страны. [4]

С другой стороны утверждение армянской стороны о том, что Азербайджанская ССР еще в 1989 г. объявил о своей независимости тоже не соответствует правде. Так как в Конституционном законе «О суверенитет Азербайджанской ССР» от 23 сентября 1989 г. однозначно подтверждается, что Азербайджанская ССР – суверенное социалистическое государство в составе Союза ССР». Так было до октября 1991 г. когда Азербайджан был частью Советского Союза, а НКАО частью Азербайджанской Республики. Надо обратиться также и к результатом проведенного референдума по сохранению СССР от 17 марта 1991 г., в ходе которого по официальной статистике большинство населения Азербайджана высказалась за сохранение СССР. В любом случае, очевидным является тот факт, что на фоне проведения упомянутого референдума и вынесение на обсуждение проекта нового союзного договора, вопрос выхода отдельно взятой республики из СССР и соответственно, применение упомянутого Закона потеряла свою актуальность. [3,102]

Референдум о т.н. «Независимости Нагорно-Карабахской Республики» был проведен 10 декабря 1991 г. К тому времени 18 октября 1991 г. Азербайджан уже принял Декларацию «О восстановлении государственной независимости Азербайджанской Республики». Иными словами к моменту принятия этой Декларации Закон от 3 апреля 1990 г. утратил не только свою актуальность, но и юридическую силу, так как 6 сентября того же года Съезд народных депутатов СССР и Госсовет СССР признали независимость Латвии, Литвы и Эстонии. Это было юридическим оформлением начало развала СССР.[1,172]

Что касается различных постановлений и решений НКАО и Армянской ССР по отделении области от республики то все они были признаны несоответствующими и противоречащие Конституции СССР и Азербайджанской ССР и были аннулированы решениями Верховного Совета СССР от 18 июня 1988 г. и от 10 января 1990 г.[4]

2. Применительно ли право наций на самоопределения к армянам Карабахского региона. Представление о праве наций на самоопределение родилось в XIX в период национально-освободительной движений в Европе и американских колониях [2, 9]. Особенно США – в лице президента Вудро Вильсона который декларировал это право на Версальской мирной конференции в 1919 г. - продвигала этот принцип по отношению азиатских и африканских колоний.

Послевоенный период, после образования ООН в 1945 г. и включения принципа самоопределения наций наряду с другим не менее важным принципом мирного сосуществование государств - нерушимости границ и территориальной целостности государств - международное право погрузилось глубокую полемику, какой из этих принципов имеет главенствующую роль.

Если вспомнить об истоках Карабахской авантюры, ереванские политики тоже прикрывали свои территориальные притязании к Азербайджану правом армянского населения на самоопределения, совершенно игнорируя аргументы противоположной стороны о том что армянский народ уже самоопределился виде Армянской Республики, а армяне в местах своего проживания в других регионах просто являются этническими меньшинствами и свои духовно-материальные потребности должны

удовлетворять взаимодействии властями и местным законодательством в регионах своего комплектного проживания. [6, 92]

В регионе были созданы все условие для обеспечения всех морально-культурных потребностей армян. Работала широкая сеть культурно-просветительских учреждений, средних и средне специальных школ, а также библиотеки, музей, клубы и дома творчеств. Функционировал драматический театр и педагогический институт. Конечно, мы далеки от намерение с помощью статистики кому то, что-то доказывать с учетом того что о не состоятельности утверждения армян о каких то притеснениях много писалось, говорилось и печаталось. В этих публикациях фактами доказывалось динамичное развитие НКАО иногда-превышало не только республиканских и союзных показателей. Например 1970-1986 гг. увеличение объема примышленного производства в области выросло в 3,3 раза, тогда как в республике в 3 раза. Или, в январе 1983 г. надои с каждой коровы составляли 2414 кг. молока, производство мяса на каждого человека составило 58 кг. Это был самый высокий показатель по всему Южному Кавказу.[7, 93]

В 1983 году Верховный Совет Азербайджанской ССР принял закон «О Нагорно Карабахской Автономной Области» по которому территория НКАО не могло быт изменения без ее согласия. Во всех этих выше перечисленных фактах не прослеживается даже намека не только на угрозу физического сосуществование армян, по и малейшего признака притеснения со стороны азербайджанцев. Так что всякие разглагольствование относительно самоопределения ради выживание лищены всяких оснований и направлена на территориальное притязание против суверенного государства со стороны другого государства, которое со стороны международного права может рассценивается как агрессия. Принцип права наций на самоопределение сегодня не выглядит так уж привлекательно для мирового сообщества как в начале и в средине прошлого века. Наоборот, каждое государство от мала до велика старается защитить свою суверенную территорию, приводя свою Конституцию и законодательство в соответствии с этим. Не случайно последняя Конституционная реформа в России в 2020 г. предусмотрела и закрепила в основном законе РФ принцип территориальной целостности страны.[5] Сейчас этнические меньшинства во многих продвинутых странах предпочитают сепаратизму интеграцию своем государстве, решают свои проблемы в рамках единого государства.

Армении следует извлекать урок из происходящих в мире и регионе событий. Она должна понять что истолкование принципов возникших в период колониализма и имперского засилья по своему и манипуляции ими не поможет ей в своей захватнической политике. Тем более в ходе 44 дневной войны в 2020 году Азербайджан победоносно освободив захваченные территории и восстановив территориальную целостность государство навсегда отправило на свалку истории вопрос статуса армянского меньшинства в Карабахском регионе.

Заключение. Анализ соответствующей литературы и прослеживания происходивших событий в мире в последние десятилетия приводят к следующему заключению:

1. В современном миропорядке принцип территориальной целостности государств стало преобладающим над принципом права нации на самоопределение.

2. Право нации на самоопределение может применяться перед угрозой физического уничтожения и исчезновения конкретного народа. Жителям армянского происхождения Карабахского региона Азербайджана такая угроза не грозит. Потому что:

а) рядом 3-х миллионная Армения с 99 процентом армянским населением

б) в мире общее количество армян около 10 миллионов

в) учитывая многонациональный характер Азербайджана, политику толерантности ко всем этническим меньшинствам, которые находятся под защитой конституции АР для малочисленной армянской общины Карабахского региона нет необходимости обособиться в виде особого статуса.

ЛИТЕРАТУРА

1. Государственный суверенитет vs право наций на самоопределение. Отв. Ред. Рябинини А.П. Издательский дом НИУ ВСИЭ, 2011, 252 стр.

2. Право народов на самоопределение: идеология и практика. Материалы к семинару. Москва. 22-23 марта. 1997 г. «Звенья» Москва, 1997, 47 стр.

3. Ильгар Мамедов. Тофик Мусаев. Армяно-азербайджанский конфликт: История, право, посредничество. Тула 2006 г., 192 стр.

4. Нагорный Карабах. Без права выхода. Фархад Мирзоев разбивает аргументы армянских правоведов. // https://haqqin.az/news/190335; Bakuinform.az. время публикации: 26 сентября 2020 г.

5. Григорий Юдин: “Путин предложил плебисцит в чистом виде” newsru.com. время публикации: 16 января 2020 г.

6. Abdullayev E.Ə. Erməni təcavüzü, acı faktlar, fəlakətli nəticələr. Bakı, İqtisad Universitetinin nəşri, 2003, 114 s.
7. Qasımlı M.S. Azərbaycan Respublikasının xarici siyasəti. 1991-2003: (2 ciliddə). 1.c., Mütərcim, Bakı, 2015, 648 s.
8. Məmmədov N.R. Azərbaycan Respublikasının Qarabağ bölgəsi 1970-1985-ci illərdə. Bakı, Avropa nəşriyyat. 2017, 328 s.

XÜLASƏ

XX ƏSRİN 80-Cİ İLLƏRİN SONU - 90-Cİ İLLƏRİN ƏVVLƏRİNDƏ DAĞLIQ QARABAĞDA ERMƏNİLƏRİN SSRİ QANUNLARINI VƏ BEYNƏLXALQ PRİNSİPLƏRİ SAXTALAŞDIRMASI

Səfərov P.Ş.

Məqalədə 1988-ci ilin fevralında DQMV-nun və Ermənistan SSR-in ermənilərinin SSRİ və Azərbaycan SSR Konstitusiyalarının müddəalarını, sovet qanunlarını və beynəlxalq prinsipləri öz mənafelərinə uyğun yanlış izah edərək saxtakarlıqla DQMV-nı Azərbaycan SSR-dən ayırmaq üçün fəaliyyətə başlamaları barədə məlumat verilir. Erməni nümayəndələri eyni zamanda millətlərin öz müqəddəratını təyinetmə hüququna istinad edirdilər.Lakin hələ XIX əsrin sonu-XX əsrin əvvəllərində Asiya və Afrika müstəmləkələrindəki ictimai-siyasi və iqtisadi vəziyyətin nəticəsi olaraq ortaya çıxmış bu prinsipin XX əsrin sonunda dinamik inkişaf edən DQMV-ya tətbiq edilməsi mümkün deyildi. Ermənilər bu qanun və prinsiplərin arxasında gizlənərək DQMV-nın azlıq təşkil edən azərbaycanlı əhalisinə və vilayətə qonşu daha 7 rayona qarşı təcavüz aktı törətmiş və onların da əhalisini öz evlərindən didərgin salaraq torpaqlarını tutmuşlar .

***Açar sözlər**: SSRİ konstitusiyası və qanunları, SSRİ qanunlarının ermənilər tərəfindən saxtalaşdırılması, Azərbaycana qarşı təcavüz, azərbaycanlıların qovulması, öz müqəddəratını təyinetmə hüququ prinsipi və onun ermənilər tərəfindən saxtalaşdırılması, separatizm.*

SUMMARY

ARMENIAN FALSIFICATION OF THE LAWS OF THE USSR AND INTERNATIONAL PRINCIPLES IN NAGORNO-KARABAKH IN THE END OF THE 80'S - IN THE BEGINNING OF THE 90'S XX CENTURY

Safarov P.Sh.

The article deals with that the Armenias of UKAR and Armenia on March 1988 by interpreting in their own way the Constitution of the USSR and Azerbaijan Republic, Soviet laws and international principles began the activity to separate UKAR from Azerbaijan SSR. Armenian representatives at the same time refer to the right of nations to self determinaton, which in this case was unlikely to be applied to the Armenians of UKAR, as social-political and economic situation in African and Asian colonies of European powers at the end of XIX- at the beginning of XX centurties, whom it was applied, was completely different from dynamic developing UKAR with its Armenian majority at the end of XX century. However,hiding behind of these laws and principles the Armenians commited an act of agression against Azerbaijani minority of UKAR and 7 more districts around the region expelled them from their native lands turning these lands into the burnt.

***Keywords:** constitution and laws of the USSR, Armenian falsification of the laws of the USSR, aggression against Azerbaijan, expulsion of Azerbaijanis, the principle of the right to self-determination and its falsification by Armenians, separatism.*

ХОДЖАЛИНСКАЯ ТРАГЕДИЯ-ЭТО МЕЖДУНАРОДНОЕ ПРЕСТУПЛЕНИЕ

Юсифова М.Р.
Мингечевирский государственный университет, Мингечевир, Азербайджан
yusifovametanet350@gmail.com

***Ключевые слова:** Ходжалы, геноцид, армянские бандиты, международное право, преступление, Конвенция.*

После распада Советского Союза в 1991 году Азербайджан и Армения были признаны международными субъектами. С 1987 года армянские военные формирования начали военные действия. Армения вела необъявленную войну, результатом которой стала оккупация азербайджанских территорий, в том числе Нагорно-Карабахского региона и семи прилегающих районов. Армения проводила политику этнической чистки на оккупированных территориях, изгнав с родных земель около миллиона азербайджанцев, а также совершила в ходе конфликта другие тяжкие преступления.

Ходжалы –это было населенным пунктом с площадью 940 кв.м. В нем проживало 7000 человек. Ходжалы располагался в 10 км к северо-востоку от Ханкенди, на дорогах Агдам-Шуша и Аскеран-Ханкенди. В Ходжалы был один город, один поселок (Аскеран) и 50 деревень; распологался в соседстве с Лачинским, Кельбаджарским, Агдамским, Ходжавендским и Шушинским районами.

Ходжалы считался важным коммуникационным узлом, имея единственный гражданский аэропорт в Карабахском регионе. Ходжалы был убежищем для турок-мехсети (ахыска), спасавшихся от кровавых межэтнических столкновений в Средней Азии, а также изгнанных из Армении азербайджанских беженцев.

Ходжалы находился в осаде армянских бандитов с октября 1991 года. С 30 октября все дороги в город были перекрыты, остался единственный путь- связь с помощью вертолетом, который был подрезан в январе. Последний гражданский вертолет приземлился в Ходжалы 28 января 1992 года, а последний военный — 13 февраля. Ходжалы не снабжался электричеством со 2 января. Ходжалинцы жили и защищались благодаря героизму и мужеству защитников города. Оборона города состояла в основном из местных сил самообороны и местных ополченцев, вооруженных автоматами и дробовиками.

Ходжалы был поселением, отражавшим исторические и культурные традиции Азербайджана с древнейших времен до современности. Возле Ходжалы имеются памятники ходжалинско-гедабекской культуры, относящиеся к XIV-VII векам до нашей эры [1]. Расположение Ходжалы на Карабахском хребте и на дорогах Агдам-Шуша, Аскеран-Ханкенди-этот вопрос тоже интересовал армян. Целью оккупации Ходжалы было иметь стратегическое преимущество и получить благоприятных возможностей для захвата других городов Нагорного Карабаха. Одной из основных задач, поставленных перед вооруженными силами Армении, была эвакуация с дороги Аскеран-Ханкенди через Ходжалы и захват аэропорта. Они также хотели стереть Ходжалы с лица земли, так как исторические следы в Ходжалы и прилегающих районах свели на нет территориальные претензии Армении.

В ночь с 25 на 26 февраля 1992 года, после тяжелой артиллерийской подготовки, армянские вооруженные силы и военизированные формирования при поддержке 366-го мотострелкового полка бывшего СССР двинулись на захват города. После начала атаки около 2500 жителей города попытались покинуть город, чтобы добраться до ближайшего пункта под контролем Азербайджана (Агдам). Однако они попали в засаду армянскими военными блокпостами у сел Нахчыванлы и Пирджамал. Некоторые из них были убиты, а некоторые-взяты в плен. Остальное население, в основном женщины и дети, погибло от обморожения в горах. Лишь небольшое количество людей смогли добраться до Агдама.

28 февраля журналисты пришли в ужас от увиденного, когда на двух вертолетах летели к месту расправы над азербайджанцами – площадь была усеяна трупами. Задача вертолета заключалась в том, чтобы приземлиться в гористой местности и забрать тела с места, где произошла резня. Однако под шквальным огнем армян удалось увезти только четыре тела. Людей зверски убивали с особой жестокостью.

Несомненно, то, что произошло в Ходжалы, было геноцидом. При штурме и взятии города погибло 613 человек, в том числе 106 женщин, 63 ребенка и 70-летних стариков. 1275 жителей были взяты в плен, судьба 150 человек до сих пор неизвестна. Город был разрушен. В ту трагическую ночь были тяжело ранены 487 ходжалинцев, из них 76 детей. Восемь семей были полностью разрушены, 25 детей потеряли обоих родителей и 130 детей потеряли одного родителя. Пятьдесят шесть убитых были зверски сожжены, с удалением кожи головы, шеи и глаз, а беременным женщинам нанесены ножевые ранения в живот [3].

Ходжалы как геноцид во многом отличается своей уникальностью. Во-первых, Ходжалы был вполне гражданским населенным пунктом, без серьезной военной техники и укреплений. Поэтому наступление на город с тяжелой техникой не может быть оправдано с военной точки зрения, так как не было военной необходимости. Во-вторых, наступление на Ходжалы совпадает с началом межгосударственного этапа военных действий. По этой причине, несомненно, Армения намеревалась запугать азербайджанцев, чтобы получить психологическое преимущество при проведении очередных агрессивных операций. Беспрецедентная степень армянских зверств, в том числе непродолжительное и особо зверское истребление населения армянскими оккупантами, и последующие надругательства над трупами, дают несомненные основания для такого вывода.

Еще один важный момент связан с «коридорными» претензиями армян. Армения утверждает, что предоставила «гуманитарный коридор» для выхода из города мирных жителей[3]. Необоснованность заявления о коридоре по показаниям свидетелей, а также международные отчеты и даже признания

армянских официальных лиц показывают, что население покинуло город бесцельно, хаотично, без каких-либо инструкций или предварительного уведомления. Кроме того, если намерением Армении было предоставить гуманитарный доступ, то почему армянские военные устроили засаду и убили население вдоль «коридора», когда они покидали город?[3]

Теперь рассмотрим факт геноцида с точки зрения международного права.

Во 2-й статье закона «Конвенции о преследовании и наказании за геноцид» говорится: «под геноцидом понимаются следующие действия, совершаемые с намерением уничтожить, полностью или частично, какую-либо национальную, этническую, расовую или религиозную группу как таковую:

1) убийство членов какой либо группы;

2) причинение серьезных телесных повреждений или умственного расстройства членам какой либо группы;

3) предумышленное создание для какой-либо группы таких жизненных условий, которые рассчитаны на полное или частичное физическое уничтожение ее;

4) меры, рассчитанные на предотвращение деторождения в среде какой либо группы;

5) насильственная передача детей из одной человеческой группы в другую»[2].

В контексте уголовной ответственности за Ходжалинский геноцид Азербайджанская сторона заинтересована в том, чтобы добиться уголовного процесса, в контексте международного права.

В статье 5 Статута Международного уголовного суда, принятого в Риме в 1998 г., перечислены следующие международные преступления: геноцид, преступления против человечности, военные преступления и агрессия. Следует отметить, что согласно положениям Статута, на первый взгляд, можно сделать вывод об отсутствии реальных возможностей для преследования преступлений, совершенных на территории Азербайджана, в том числе геноцида. Это связано с тем, что Римский статут не распространяется на преступления, совершенные до его вступления в силу (принцип обратной силы). Однако правовая ситуация в отношении геноцида и агрессии может быть несколько иной. Точнее, исходя из норм современного международного уголовного права, можно определить, что **данное преступление является исключением.**

Так, в решении Международного Суда по применению Конвенции о предупреждении преступления геноцида и наказании за него от 26 февраля 2007 г. указано, что юрисдикция Суда в данном случае ограничивается только статьей 9 Конвенции. Можно сделать вывод, что Суд правомочен выносить решения исключительно о преступлении геноцида среди других нарушений своих обязательств по международному праву. В то же время статья 9 Конвенции позволяет любому государству ставить вопрос об ответственности за преступление геноцида в международных судах по требованию любой из конфликтующих сторон.

Кроме того, согласно статье 1(b) Конвенции ООН о неприменении сроков к военным преступлениям и преступлениям против человечности, принятой 26 ноября 1968 г., преступление геноцида, даже если оно не является преступлением Согласно внутреннему законодательству., независимо от даты его совершения, срок ответственности не может быть применен. Пример тому уже есть в международном праве: Камбоджийские палаты чрезвычайных судов рассматривали дело о геноциде, совершенном при режиме красных кхмеров в 1975-1979 годах, и срок не был установлен.

Что касается факта агрессии Армении, поскольку конкретно сложные преступления являются продолжающимся видом преступления и представляет собой общественную опасность, то преступление агрессии- реальная угроза международному миру и безопасности в соответствии с резолюциями Совета Безопасности ООН. По причине невыполнения Арменией этих резолюций это преступление не имеет обратной силы. Пока Азербайджан не ратифицировал Статут Международного уголовного суда, но тем не менее по современному международному праву оба преступления - геноцид и агрессия - могут быть отнесены к юрисдикции Суда.

Обратим внимание на международно-правовые элементы Ходжалинского геноцида. Ходжалинский геноцид – международное преступление, совершенное армянами против азербайджанцев 26 февраля 1992 года, не признаваемое мировыми державами в качестве преступления. Характер и элементы преступления агрессии, инициированного и продолжаемого армянами с 1988 года, сегодня должны быть оценены на основе международных документов.

Как правило, каждое государство осуществляет правосудие за преступления, совершенные на своей территории. Однако этот принцип несколько меняется применительно к международным преступлениям: то есть не только государство, где было совершено преступление, но и другие государства могут осуществлять правосудие в связи с международными преступлениями. Это означает, что национальный суд любого государства имеет право судить виновных геноцида в Азербайджане. Объявляя организаторов и исполнителей Ходжалинского геноцида в розыск, мы можем вывести их в Азербайджан через любое государство или привлечь к ответственности в самом этом государстве. Потому что то, что произошло в

Ходжалы, является не только геноцидом против азербайджанского народа, но и кровавым преступлением против человечества. Умышленное убийство 613 азербайджанцев с целью полного или частичного уничтожения их национальной идентичности подтверждает, что события в Ходжалы являются геноцидом по международному праву. Одним из важных условий, отличающих международные преступления от национальных преступлений, является то, что преступные деяния должны быть признаны большинством субъектов международного сообщества как с точки зрения объекта преступления, так и для определения ответственности. Следующий этап требует международного судебного разбирательства по этим деяниям.

Стратегической целью Азербайджанского государства является расселение армянского населения на исторических азербайджанских землях Карабаха и Зангезура с 19 века, насильственное изменение демографической ситуации, геноцид против азербайджанского населения в 1918-1920, 1987-1992 гг., отделение Зангезура и Нахчывана от Азербайджана, 1948 г. Депортация сотен тысяч азербайджанцев из родных земель на территории современной Армении в 1953 и 1988 гг., формирование единого Международного военного трибунала по Ходжалинскому геноциду и продолжающемуся преступлению агрессия.

Есть ряд важных моментов в правовой оценке Ходжалинскому геноциду и предъявлении международно-правовых претензий армянам. Потому что имеющиеся у нас сейчас ресурсы - современная государственная политика, принятые международно-правовые акты и внутреннее законодательство, дипломатические условия, реальная военно-экономическая мощь нашей республики, особенно победа нашей страны в апрельских боях 2016 года и восстановление села Джоджуг Марджанлы, и наконец 44- дневная война и Победа, предпринятые Президентом Азербайджанской Республики концептуальные шаги дают полное основание и возможность для окончательного признания Ходжалинских событий геноцидом, а также правовой оценки других международных преступлений Армении.

ЛИТЕРАТУРА

1. Yaqub Mahmudov, Kərim Şükürov, Qarabağ – Real tarix, faktlar, sənədlər. Bakı, 2005.
2. Конвенция о преследовании и наказании за геноцид», Резолюция Генеральной Ассамблеи ООН от 9 декабря 1948 года
3. 30 il ədalət gözləyən insanlıq faciəsi.https://stm/az/news/825/

XÜLASƏ

XOCALI FACİƏSİ BEYNƏLXALQ CİNAYƏTDİR

Yusifova M.R.

“Xocalı faciəsi beynəlxalq cinayətdir” adlı tezisdə müəllif Dağlıq Qarabağ münaqişəsinin başladıldığı dövrdən etibarən ermənilərin törətdiyi qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı, onun miqyası, nəticələri haqqında danışır. Qeyd edilir ki, Beynəlxalq Konvensiyalarda “soyqırım” anlayışına verilən tərifə əlaqədar olaraq, erməni vəhşiliyinin növbəti təzahürü olan Xocalı soyqırımı da bəşəriyyətə qarşı törədilmiş bir cinayətdir. 44 günlük müharibədən sonra, hazırki mərhələdə Xocalı faciəsinin dünya dövlətləri tərəfindən beynəlxalq cinayət kimi qəbul edilməsinə nail olmaq dövlətimizin əsas hədəfidir.

Açar sözlər: *Xocalı, soyqırım, erməni quldurları, beynəlxalq hüquq, cinayət, Konvensiya*

SUMMARY

KHOJALY TRAGEDY IS AN INTERNATIONAL CRIME

Yusifova M.R.

In the thesis about the "Khojaly tragedy is an international crime", the author talks about the Khojaly genocide, one of the bloodiest crimes committed by Armenians since the beginning of the Nagorno-Karabakh conflict, its scale and consequences. It is noted that in connection with the definition of "genocide" in international conventions, the Khojaly genocide, another manifestation of Armenian savagery, is also a crime against humanity. After the 44-day war, the main goal of our state is to achieve the recognition of the Khojaly tragedy as an international crime by the world community at this stage.

Key words: *Khojaly, genocide, Armenian bandits, international law, crime, Convention.*

II BÖLMƏ
QARABAĞIN SOSİAL-İQTİSADİ HƏYATI

II СЕКЦИЯ
СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ КАРАБАХА

II SECTION
SOCIO-ECONOMIC LIFE OF KARABAKH

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ IV SƏNAYE İNQİLABİ İSLAHATLARI

Abayev Y.Q.
ADPU-nun Quba filialı, Quba, Azərbaycan
yusifabayev@mail.ru

Açar sözlər: *rəqəmsallaşma, məsafəli iqtisadiyyat, ağıllı kənd, alternativ enerji, rəqabət*

GİRİŞ. İşğaldan azad olunmuş ərazilər ölkənin iqtisadi inkişafı üçün çox böyük iqtisadi əhəmiyyətə malikdir. Bunu inzibati-amirlik dövründə həmin rayonların statistik iqtisadi göstəricilərindən də müəyyən etmək olar. İstər ölkə daxilində əhalinin strateji cəhətdən əhəmiyyətli ərzaq məhsullarına və ya qeyri ərzaq məhsullarına olan tələbatın ödənilmısi üçün, istərsə də ümumiittifaq bazarı üçün nəzərdə tutulmuş məhsulların həcmində Qarabağ iqtisadi rayonun və digər ətraf rayonların iqtisadi payı böyük olub. Digər tərəfdən də məhsullar bazara xammal şəkilində yox emal müəssisələrində emal olunmaqla hazır və aralıq məhsullar şəkildə də çıxarılırdı. Yəni ərazidə kənd təsərrüfatı ilə pararel yüngül və yeyinti sənayesi də inkişaf etmiş və bir çox məhsullar ixtisaslaşmış müəssisələrdə emal olunurdu. Amma çox təssüf hissi ilə qeyd etmək istəyirəm ki, 30 il yaxın bir dövür ərzində işğal altında olan həmin ərazilərdə yerləşən bütün maddi və mənəvi varlıqlardan vəhşicəsinə istifadə olunmuş, tam yarasız hal gətirmişdilər. İstər əvvəl mövcud olan təbii resurslar olsun, istərsə də iqtisadi nemətlər olsun bütövlükdə talan olunmaqla istismar olunmuşdur.

44 günlük vətən müharibəsi nəticəsində ölkəmizin ərazi bütövlüyü təmin olundu və ərazilərimiz işğaldan azad olunmaqla ölkənin iqtisadi inkişafında yeni dönəmin başlanmasına səbəb oldu. İşğaldan azad olunmuş ərazilər həmçinin qonşu rayonların da inkişafına təsir etməklə yeni strateji konsepsiyalarının qəbul edilməsini zəruri edir. İşğaldan azad olunmuş ərazilərin bərpası, gələcəkdə inkişafın təmin olunması, zərurui infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışın təşkili məqsədilə dövlət tərəfindən davamlı və geniş miqyaslı proqramlar icra olunmaqdadır. İcra olunan proqramlar iqtisadi və sosial yönümlü olmaqla bütün sahələri əhatə etməkdədir.

Ölkə prezidenti Cənab İlham Əliyevin 2 fevral 2022-ci il tarixində Gəncilər günü ilə əlaqadar gənclərin suallarının cavablandıranda qeyd etmişdi ki **"Dördüncü Sənaye İnqilabı artıq reallıqdır və biz geridə qalmamaq üçün bu istiqamətdə öz addımlarımızı atırıq".** Cənab prezidentin bu nitqini qeyd etməkdə məqsədim işğaldan azad olunmuş ərazilər hal-hazırkı dövrdə "Dördüncü Sənaye İnqilabın prioritetlərini tətbiq üçün çox əlverişli imkanlara malik olduğu nəzərdə tutub. Cənab Prezidentin 06 yanvar 2021-ci tarixli sərancam ilə, qlobal iqtisadiyyatda cərəyan edən trendləri diktə edən, rəqabət qaydaları dəyişən Dördüncü Sənaye İnqilabında Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr arasında yer almasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tabeliyində **"Dördüncü Sənaye İnqilabının Təhlili və Kordinasiya Mərkəzi"** publik hüquqi şəxs yaradılmışdır. Mərkəz Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, habelə rəqəmsal iqtisadiyyat üzrə çağrışların, təşəbüsslərin, strategiyaların və layihələrin təhlili vasitəsilə qlobal iqtisadiyyatda rəqabətdə qalmağa calışmaqdadır. Yeni yaradılan dövlət qurumların və icrası nəzərədə tutulan bütün növ dövlət proqramların hədəf mərkəzi işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə ölkənin sürətli iqtisadi inkişafının təmin edilməsidir [www.president.az/az/articles/view/49932].

QARABAĞ İQTİSADİ RAYON. Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliyinin artırılması, iqtisadi idarəetmədə çevikliyin təmin olumasını məqsədilə ölkə prezidentinin 07 iyul 2021-ci il fərmanı uyğun iqtisadi rayonların tərkibinə yenidən baxılmış, yeni iqtisadi rayonlar yaradılmışdır [https://president.az/az/articles/view/52389]. Yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi

rayonu və tərkibində dəyişiklik edilmiş Qarabağ iqtisadi rayon Azərbaycanın iqtisadi bütövlüyün möhkəmlənməsinə xidmət etməklə ərazilərin qısa zamanda yenidən bərpa olunmasına və böyük qayıdışın vaxtında icra olunmasına səbəb olacaq.

Ərazilərin bərpası ilə bağlı qurulan yeni bütün növ infrasturkturlar qısa zaman ərzində özünü göstərəcək. Ərazilərin yenidən bərpasına və quruculuq işlərinə nəqliyyat və kommunikasiya xətlərin bərpası ilə başlanılmışıdır. Yeni nəqliyyat-kommunikasiya xətlərin bərpası və bu istiqamətdə tranzit daşımaların bölgənin inkişafı ilə əlaqadar nəzərəd tutulan strateji istiqamətlərin səmərəliyinin artıracaq. Xüsusində Zəngəzur dəhlizinin açılması bölgədə bütün nəqliyyat və iqtisadi əlaqələri blokadadadn xilas edərək, Azərbaycanın digər rayonlar arasında əlaqələrin şaxələnməsinə səraiət yaradır. Nəqliyyat infrastruktrunun bərpası və dəmir yolu dəhlizinin yenidən qurulması Cənubi Qafqazda dəmir yolu şəbəkəsinin genişləndirməklə Qərbi Çindən bütün növ yüklərin Türkiyəyə və Avropaya qısa yolla tez bir zamanda daşınmasına imkan verəcək. Həmçinin nəqliyyat infrastrukturu Şimal-Cənub və Şərq-Qərb nəqliyyat qovuşağı üzərində Azərbaycanın strateji əhəmiyyətinin artırmaqla nəqliyyat dəhlizindən istifadə edən bütün dövlətlər üçün etibarlı tərəfdaşa çevriləcək.

İşğaldan azad olunmuş ərazilərin, xüsusəndə Qarabağı logistika mərkəzinə çevirmək məqsədilə geniş zolaqlı Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomabil yolu, Füzuli rayonu ilə Şuşa şəhərini əlaqələndirən"Zəfər yolu" , Kəlbəcər-Laçın yolu, Füzuli-Hadrut yolu, Bərdə-Ağdam avtomobil yolu, Horadiz-Ağbənd və Bərdə Ağdam dəmiryol xətlərinin yaradılması, Füzuli, Laçın və Kəlbəcər hava limanlarını qurmaqla çox geniş nəqliyyat şəbəkəsi formalaşdıracaq. Nəqliyyat qovuşağı işğaldan azad olunmuş ərazilərə qısa müddətə böyük qayıdışın təşkil ounmasında, sosial baxımdan rahat yaşamasına, yeni istehsal zəncirinin qurulmasına, təbii və iqtisadi nemətlərin milli kapitala çerilməsində mühüm rola malik olacaq və bütövlükdə Azərbaycanın iqtisadi aktivliyini gücləndirəcək [www.ereforms.gov.az].

Nəqliyyat infrastrukturu ölkədə qeyr-neft sektorun inkişafı hesabına iqtisadi diverfikasiyanın şaxələnməsi, əmək qabiiyyətli əhali arasında əmək məşğulluğun inkişafı, əhalinin sosil rifah halının yaxşılaşdırılması və sahibkarlıq subyektlərin maraqlarının təmin olunması məqsədilə imzaladığ fərman, sərəncam və dövlət proqramlarının iqtisadi səmərəliyini artırmaqla davamlılığın təminatçısına çevrilimiş olur. Xüsusi olaraq bir neçə fərman və sərancamı qeyd etmək olar ki bunların davamlılığı iğşaldan azad olunmuş ərazilərin yenidənqurulmasına çox böyük tövhələr verə bilər. Bu fərmandan ikisin qeyd etmək istəyirəm.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə **"Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"** təsdiq edilmişdir. Qeyd olunan Fərmanla müəyyən edilmişdir ki, sənaye parkı ölkə daxilində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün hammıya əlçatan və vacib olan infrastruktura və mərkəzləşmiş idarəetmə qurumlarına malik olan, innovativ texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların güzəştli şərtlər daxilində səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir [www.e-qanun.az/framework/25657].

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"** Müasir istehsal infrastrukturuna malik sənaye parkının yaradılması ölkədə qeyri neft sektorun inkişafının, ölkə iqtisadiyyatının dayanıqlıqlığının təmin edilməsinin, habelə istehsal olunan məhsulların xammal formasından çıxaraq daha çox hazır və son məhsulların istehsalına yönəlik sahələrin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilmişdir. Sənaye parklarının yaradılması həmçinin, dövlət tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və şəffaflığının artırılması, ölkənin iqtisadi diverfikasiyanın davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin bir və iki məhsuldan aslılığının aradan qaldırılması, eləcə də rəqabətqabiliyyətli, strateji cəhətdən əhali üçün əhəmiyyətli məhsullara olan tələbatın yerli istehsal hesabına artırılması, ətraf rayonlarla qarşlıqılı iqtisadi əlaqələrin qurulması və məşğulluğun təmin edilməsi baxımından xüsusilə əhəmiyyətlidir [www.e-qanun.az/framework/28964].

Bu gün işğaldan azad olunmuş ərazilərdə böyük köçün qısa müddətdə təşkili, sosial və iqtisadi infrastrukturun qurulması, əhali arasında məşğulluğun təmin edilməsi, sahibkarlıq subyektlərin əlverişli və bərabər imkanlar daxilində fəaliyyətlərinin qurulması, dövlət tərfindən göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 28 may tarixli 1347 nömrəli Fərmanı ilə Ağdam rayonunda **"Ağdam Sənaye Parkı"** yaradılmışdır. Hazırda Ağdam Sənaye Parkında zəruri infrastrukturun qurulması istiqamətində işlər aparılır.

Bununla yanaşı Naxçıvan Muxtar Respublikası ilə quru yolla birbaşa olaraq nəqliyyat kommunikasiya xəttlərinqurulması və bu istiqamətdə yük daşımaların həyata keçirilməsi üçün prespektiv imkanlar yarandığından, nəqliyyat kommunikasiya xəttləri üzərində müvəqəti saxlanc anabarların qurulması, ticarət və məlumat informasiya mərkəzlərin yaradılması ilə əlavə xidmətlərin göstəriləmsi, həmçinin qabaqçıl texnologiyalara və alternativ enerji mənbələri ilə təchiz olunmuş rəqabətqabiliyyətli və innovativ sənaye sahələrin inkişafı üçün Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 4 oktyabr tarixli 1453 nömrəli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonun Cəbrayıl rayonun ərazisində **"Araz Vadisi İqtisadi Zonası"** Sənaye Parkı yaradılmışdır [www. economy.gov.az].

Qeyd olunan hər iki sənaye parkı çox profilli olmaqla investorların fəaliyyəti üçün zəruri olan infrastrukturu, müasir texnologiyalar vasitəsilə rəqabətqabiliyyətli məhsul istehsalı və emalı, xüsusəndə aralıq və son məhsulların emlı və satışına şəraiət yaradan, fəaliyyətlərinə təsir edən xidmətlər göstərən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Sənaye müəssisələrində kənd təsərrüfatı məhsullarının emalından tutmuş qablaşdırılmasına qədər olan uzun bir dəyər zəncirin özündə birləşdirən müxtəlif istehsal sahələri üzrə fəaliyyət göstərən müəssisələri özündə cəmləşdirməklə sənaye parkları, buran logistik mərkəzə çevirməyi nəzərədə tutur.

Dördüncü Sənaye İnqilabı da qlobal gəlir səviyyəsini yüksəltmək və bütün dünya əhalisinin həyat keyfiyyətini yaxşılaşdırmaq potensialına malikdir. Bu günə qədər ondan ən çox qazananlar rəqəmsal dünyanı ödəyə və əldə edə bilən istehlakçılar olub; texnologiya şəxsi həyatımızın səmərəliliyini və zövqünü artıran yeni məhsul və xidmətləri mümkün etmişdir. Burada fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün dövlət tərəfindən torpaq sahəsi bina və avadanlıqlardan əlavə olaraq konsalting xidmətlərdə təklif olunur. İqtisadi fəaliyyətlərinə birbaşa dəstək məqsədilə gəlir və əmlak vergisindən 10 il müddətinə, xaricidən istehsal məqsədli gətirilən avadanlıq və texnologiyaların ƏDV və idxal rüsumların ödənilməsindən müvafiq olaraq 10 və 7 il müddətinə azad edilir.

Bu gün bütün dünya yaşamaq, işləmək və bir-birləri ilə münasibətlərini kökündən dəyişdirəcək texnoloji inqilabın astanasındadır. Öz miqyasına, əhatə dairəsinə və mürəkkəbliyinə görə əvvələr yaşadığı heç bir inqilaba bənzəməyən Dördüncü Sənaye İnqilabı dövlət və özəl sektordan tutmuş akademik və vətəndaş cəmiyyətinə qədər bütün tərəflərin maraqlarının əhatə edir. Dördüncü Sənaye İnqilabı fiziki, rəqəmsal və bioloji dünyalar arasındakı sərhədləri təsvir etmək üsuludur. Bu, süni intellekt (AI), robototexnika, Əşyaların İnterneti (IoT), 3D çap, gen mühəndisliyi, kvant hesablamaları və digər texnologiyalarda irəliləyişlərin birləşməsidir. Bu, sürətlə müasir həyat üçün əvəzolunmaz hala gələn bir çox məhsul və xidmətlərin arxasında duran kollektiv qüvvədir [Klaus Şvab- Dördüncü Sənaye İnqilabı. İqtisad Universiteti nəşriyyatı].

Dördüncü Sənaye İnqilabı qlobal gəlir səviyyəsini yüksəltmək və bütün dünya əhalisinin həyat keyfiyyətini yaxşılaşdırmaq potensialına malikdir. Hazırda işğaldan azad olunmuş ərazilərdə qurulan yüksək sürətli nəqliyyat infrastrukturu, emal güçü və yaddaş tutumu yüksək olan data bazalar, smart şəhər və kənd layihələri, yaşıl enerji zonaları, nanotexnologiya və biotexnologiya əsaslı elektron elmi-tədqiqat mərkəzləri vahid proqram əsasında ərazidə bərabər inkişafın təmin edilməsini şərtləndirir. Digər tərəfdən də işğaldan azad olunmuş ərazilər Dördüncü Sənaye inqilabın icrasını səbəb olan sürət, əhatə dairəsi və sistemlərə təsir imkanına malik olmaqla sənaye inqilabın qısa zamanda gerəkləşməsinə öz tövhəsin verəcək.

ƏDƏBİYYAT

1. https://president.az/az/articles/view/49932
2. https://president.az/az/articles/view/52389
3. https://ereforms.gov.az/az/ekspert-yazilari/zengezur-dehlizinde-region-olkelerinin-de-maragi-yuksekdir-59
4. http://www.e-qanun.az/framework/25657
5. http://www.e-qanun.az/framework/28964
6. https://www.economy.gov.az/
7. Klaus Şvab- Dördüncü Sənaye İnqilabı. İqtisad Universiteti nəşriyyatı

SUMMARY

IV INDUSTRIAL REVOLUTION REFORM IN THE LIBARATED AREAS

Abayev Y.G.

The current economic potential of the liberated territories promises great economic prospects for the implementation of the Fourth Industrial Revolution in Azerbaijan. Rehabilitation of transport and communication lines in the area, creation of competitive industrial parks, development of low-waste agricultural products, application of the concept of "smart cities and villages", creation of an alternative energy zone contribute to the development of socio-economic infrastructure. Constantly evolving technology, innovation and digitalization pave the way for the integration of the national economy into the global economy. The construction work in the liberated territories gives us time and leads to the formation of a competitive economy in the global economy.

Keywords: *digitalization, remote economy, smart village, alternative energy, competition*

РЕЗЮМЕ

IV ПРОМЫШЛЕННАЯ РЕВОЛЮЦИЯ РЕФОРМА НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Абаев Ю.Г.

Нынешний экономический потенциал освобожденных территорий сулит большие экономические перспективы для осуществления Четвертой промышленной революции в Азербайджане. Реабилитация транспортных и коммуникационных магистралей в районе, создание конкурентоспособных индустриальных парков, развитие производства малоотходной сельскохозяйственной продукции, применение концепции «умных городов и сел», создание зоны альтернативной энергетики способствуют развитию социально-экономической инфраструктура. Постоянно развивающиеся технологии, инновации и цифровизация открывают путь для интеграции национальной экономики в мировую экономику. Строительные работы на освобожденных территориях дают нам время и ведут к формированию конкурентоспособной экономики в мировом хозяйстве.

Ключевые слова: *цифровизация, удаленная экономика, умная деревня, альтернативная энергетика, конкуренция.*

AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İNFRASTRUKTUR LAYİHƏLƏRİ

Abdullayeva Z.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
abdullayeva_fuad_2018@mail.ru

Açar sözlər*: infrastruktur layihələr, potensial imkanlar, yaşıl enerji, yol infrastruktu, işğaldan azad edilmiş*

Işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin həyata keçirilməsini, yeni infrastruktur layihələrin işlənilməsini böyük qürur hissilə qarşılayırıq. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri ilkin infrastruktur layihələrinin təməlqoyma mərasimlərinin keçirilməsi və açılışı xalqımız tərəfindən böyük maraqla və ruh yüksəkliyi ilə izlənilir. Azərbaycan güclü bir dövlər kimi bu regionda yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələrini birləşdirən "ağıllı kənd" layihəsini həyata keçirir.

44 günlük Vətən müharibəsi, Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsini tarixə qovuşdurdu və ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Bu tarixi qələbə son 17 il ərzində Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirən, Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasətinin nəticəsi idi. Bu illər ərzində münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq əldə edilmiş, ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində məqsədyönlü işlər aparılmışdır.

Hazır ki, dövrdə dövlətimiz qarşısında duran mühüm vəzifə işğaldan azad olunan ərazilərdə ilkin olaraq infrastrukturun bərpa olunmasıdır. Azərbaycanın işğaldan azad edilən ərazilərdə bərpa planları kifayət qədər geniş olub, müəyyən ardıcıllıqla həyata keçirilməsi nəzərdə tutulur. Regionun Azərbaycan iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi məqsədilə dövlət büdcəsində 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur[1].

30 il müddətində işğalçılar bu ərazilərdə hər şeyi məhv etsələr də, ərazilərin potensialı imkanları çox yüksəkdir. Qarabağ regionunun gözəl təbiəti, yeraltı və yerüstü resursları yaxın gələcəkdə iqtisadiyyatımıza böyük dividentlər gətirəcəkdir. Belə ki, ərazilərdə müasir infrastruktur işləri həyata keçiriləndən sonra insanlar o torpaqlara qayıdacaq, torpaqlar becəriləcək, sosial-iqtisadi infrastruktur yaradılacaq və həmin bölgələr inkişafımıza böyük təkan verəcəkdir.

Məcburi köçkünləri və qaçqınları öz doğma yerlərinə qaytarmaq üçün ilkin olaraq həmin ərazilərin minalardan təmizlənəsi işləri aparılır. Bundan sonra tamamilə dağılmış bütün infrastruktur sahələrin bərpası və yenidən qurulması işləri prioritet məsələ kimi dövlətin diqqət mərkəzindədir.

Işğaldan azad edilmiş torpaqların bərpası və inkişaf konsepsiyası üzərində işlərə hələ çoxdan başlanılmışdır. İlkin olaraq, bu ərazilərdəki bütün şəhərlərin, kəndlərin bərpası zamanı müasir tələblər nəzərə alınmaqla yanaşı, bərpa olunacaq şəhərlərin və kəndlərin dəqiq say tərkibinin müəyyən edilməsi üzərində

müəyyən təhlillər aparılır. Bununla yanaşı ərazilərdə yüksək səviyyədə infrastrukturun yaradılması, məşğulluq kimi məsələlərin həlli diqqət mərkəzindədir[2].

İşğaldan azad olunmuş ərazilərin böyük enerji potensialı var və bu ərazilərdə yaşıl enerji zonası yaratmaq istiqamətində tədqiqatlar aparılır. İran İslam Respublikası ilə birgə Araz çayı üzərində Xudafərin və Qız qalası hidroqovşaqlarının qurulması nəzərdə tutulur. Bu stansiyalar gələcəkdə bizə 100 meqavatdan çox enerji verəcəkdir. Bununla yanaşı Kəlbəcər və Laçın rayonlarında su elektrik stansiyalarının yaradılması, dağıdılmış SES-lərin bərpa edilməsi nəzərdə tutulur. İlkin olaraq Laçın rayonunun Güləbird kəndində SES bərpa olunaraq istifadəyə verilmişdir. Laçın rayonu ərazisində 5, Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq, onlardan gücü 120 meqavat olan enerji alınacaqdır[2].

Regionda müasir texnologiyalar tətbiq edilməklə iqtisadi cəhətdən səmərəli olan yaşıl enerji(su, külək, günəş) mənbələrindən istifadə olunması istiqamətində işlər aparılır. Burada 500 meqavat gücündə külək elektrik stansiyasının, 4000 meqavat gücündə günəş elektrik stansiyasının tikilməsi üçün potensial imkanlar mövcuddur. Hazırda 240 meqavat gücündə külək və 200 meqavat gücündə isə günəş elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Böyük transmilli şirkətlərin bu sahəyə investisiya qoyuluşuna cəlb etmək və onların azad olunmuş torpaqlarda fəaliyyətini təmin etmək ölkəmiz üçün əhəmiyyətli nəticə verə bilər. Artıq Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə 240 meqavat külək elektrik stansiyasının tikintisi üzrə müqavilələr imzalanıb. Bu layihə əsasında işlər başa çatdıqdan sonra ildə 200 milyon kubmetr qaza qənaət olunacaqdır. Digər layihə, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birlikdə işlənilən "Günəş" layihəsidir. Azad olunmuş ərazilərdə əldə edilən enerji sistemi bizim ümumi enerji sistemimizə tam inteqrasiya ediləcək və vahid enerji sistemi yaranacaqdir[4].

Yol infrastrukturunun qurulması işğaldan azad olunmuş rayonlarda əsas prioritet məsələlərdən biridir. İndiyədək bununla bağlı bir neçə layihənin icrasına başlanılıb. Prezidentin Cəbrayıl və Zəngilana səfər zamanı işğaldan azad olunmuş ərazilərdə ikinci hava limanının təməli qoyuldu. Gələcəkdə Zəngilanda inşa olunan bu hava limanı ərazini beynəlxalq nəqliyyat mərkəzinə çevirəcək, çünki buradan dəmir və avtomobil yolları da keçəcək və Naxçıvana yol açılacaqdır [4].

Yeni təməli qoyulan Zəngilan-Horadiz avtomobil yolunun ümumi uzunluğu 124 kilometr olmaqla, 6 zolaqdan ibarət olacaq. Eyni zamanda Horadizdən Zəngilanın Ağbənd qəsəbəsinə qədər yeni dəmir yolunun çəkilməsi də nəzərdə tutulur. Gələcəkdə bu xətt Zəngəzur dəhlizi ilə Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Hazırda Şuşa şəhərinə getmək üçün yeni yol çəkilişi lahihəsinə start vermişidir. Bu yol çətin relyefə malik ərazilərdə həyata keçiriləcəkdir. Lakin hazırda Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu inşa olunmuşdur[1]

Ərazidə çətin relyefdən keçən, bəzi yerlərdə hündürlüyü 3500 metr çatan Toğanalı - Kəlbəcər yolunun da inşasına başlanmışdır. Bu yol layihəsində Toğanalıdan Kəlbəcərə çəkiləcək yolun Laçın rayonuna qədər davam edəcəyi nəzərdə tutulur. Bununla yanaşı Horadizdən Zəngilana, buradan da Qubadlıya və Laçın rayonuna qədər yol çəkilsinə hazırlıq işləri gedir. Deməli Laçın və Kəlbəcər rayonlarına həm şimaldan, həm cənubdan yol-nəqliyyat infrastrukturu yaradacağıq. Çox çətin relyefə malik olan Laçın və ya Kəlbəcər rayonlarının dağlıq ərazilərində müasir beynəlxalq hava limanının tikilməsi nəzərdə tutulur. Artıq Füzuli şəhərində beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir. Qarabağ zonasında beynəlxalq aeroportların inşa edilməsi bu regionun cələcək inkişafında mühüm rol oynayacaqdır. Azad edilmiş ərzilərdə yol infrastrukturunun qurulması olduqca əhəmiyyətli olub, ərazilərin inkişafı üçün cox geniş imkanlar açır[2].

Hörmətli Prezidentimiz İlham Əliyev başda olmaqla bütün xalqımız Qarabağ ərazisində gedən bu geniş quruculuq işlərini böyük qürur hissi ilə alqışlayır. Müasir texnologiyalara əsaslanan "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin həyata keçirilməsi və bu quruculuq işlərinə beynəlxalq şirkətlərin cəlb olunması, bizə dost olan ölkələrin yaxından iştirakı bu regionun sürətlə inkişaf edəcəyindən xəbər verir. Bunun üçün böyük potensial imkanlar – ərazinin zəngin faydalı qazıntı ehtiyyatları, sirin su və rekresiya imkanları, yaşıl enerji ehtiyyatları və bu imkanlardan istifadə üçün güclü dövlət dəstəyi və əzmikar xaqımız, onun qəhrəman övladları, tarixin bizə bəxş etdiyi böyük qələbə sevinci mövcuddur.

ƏDƏBİYYAT

1. İlham Əliyev azad edilmiş torpaqlarla bağlı planları 2020-ci ilin yekunlarıma həsr olunmuş videoformat müşavirəsi. 7 yanvar 2021-ci il.
2. Leyla RƏŞİD, "Xalq qəzeti", 9 dekabr 2020-ci il.
3. https://www.wikipedia.org/
4. https://www.stat.gov.az/
5. https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050

SUMMARY

INFRASTRUCTURE PROJECTS IN THE OCCUPIED TERRITORIES OF AZERBAIJAN

Abdullaeva Z.H.

.

The article reflects the plans for restoration in the liberated territories of Azerbaijan the ongoing targeted work on the construction of infrastructure facilities based on new technologies. The beautiful nature, underground and surface resources of the region will bring great dividends to our economy in the near future. The creation of hydroelectric power plants in the region, the restoration of destroyed hydroelectric power plants, the use of wind and solar energy, and the construction of road infrastructure open wide opportunities for the development of territories. Restoration plans are quite extensive, and they are planned to be implemented in a certain sequence. The article says that in the future, the airport under construction in Zangilan will turn this area into an international transport center and open a railway and a road to Nakhchivan through the Zangezur corridor. Attracting large transnational companies to invest in this area and ensuring their activities on the liberated lands can bring significant results for our country.

Keywords: *infrastructure projects, potential opportunities, green energy, road infrastructure, liberation from occupation*

РЕЗЮМЕ

ИНФРАСТРУКТУРНЫЕ ПРОЕКТЫ НА ОККУПИРОВАННЫХ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА

Абдуллаева З.Г.

В статье отражены планы восстановления на освобожденных территориях Азербайджана, в особенности проводимая целенаправленная работа по строительству инфраструктурных объектов на основе новых технологий. Прекрасная природа, подземные и наземные ресурсы региона в ближайшем будущем принесут большие дивиденды нашей экономике. Создание гидроэлектростанций в регионе, восстановление разрушенных гидроэлектростанций, использование энергии ветра и солнца, строительство дорожной инфраструктуры открывают широкие возможности для развития территорий. Планы реставрации достаточно обширны и их планируется реализовать в определенной последовательности. В статье говорится, что в будущем строящийся в Зангилане аэропорт превратит этот район в международный транспортный центр и откроет железную и автомобильную дорогу в Нахчыван через Зангезурский коридор. Привлечение крупных транснациональных компаний к инвестициям в эту сферу и обеспечение их деятельности на освобожденных землях может дать значительные результаты для нашей страны.

Ключевые слова: *инфраструктурные проекты, потенциальные возможности, зеленая энергетика, дорожная инфраструктура, освобождение от оккупации*

ERMƏNİSTANIN QARABAĞDA AZƏRBAYCANA QARŞI HƏYATA KEÇİRDİYİ EKOLOJİ TERRORUN FƏSADLARI

Abdulov K.Ş.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

aqayev_tahir@mail.ru

Açar sözlər: *ekoloji terrorizm, meşələrin qırılması,işğal olunmuş ərazilər, çayların çirklənməsi, tullantılar*

Qlobal iqlim dəyişikliyi, torpaqların səhralaşması və təmiz içməli suyun çatışmazlığını nəzərə alsaq, ekologiya bu gün bütün beynəlxalq ictimaiyyəti narahat edən əsas problemlərdən biridir. Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasəti nəticəsində Qarabağın ekoloji vəziyyətinə ciddi ziyan dəymişdir. Müəyyən bir ölkə və ya şəxs tərəfindən başqa ölkənin flora və faunasına qəsdən ziyan vurulması, onun təbii sərvətlərinin məhv edilməsi ekoloji terror hesab edilir.

Əvvəlcə, tez-tez ekoloji müharibə kimi adlandırılan ekoterrorizm hərbi strategiya kimi və ya silahlı münaqişə zamanı ətraf mühitin qəsdən və qeyri-qanuni məhv edilməsi, istifadəsi və ya dəyişdirilməsi mənasında işlədilirdi. Hazırda Ermənistanın son 30 ildə işğal etdiyi Azərbaycan torpaqlarında həyata keçirdiyi əməlləri ekoterrorizm adlandıra bilərik.

Məlum olduğu kimi Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün 1988-ci ildə başladığı müharibə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdu. Bütün bu ərazilərin beynəlxalq səviyyədə rəsmi şəkildə Azərbaycanın tərkib hissəsi kimi tanınmasına baxmayaraq, 90-cı illərdən başlayaraq Ermənistan Dağlıq Qarabağ və Azərbaycanın onun ətrafındakı 7 rayonunu qanunsuz işğal altında saxlayırdı. İşğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurmaqla yanaşı, kəskin ekoloji problemlərə də səbəb olmuşdur. Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, təbii sərvətlərin talan edilməsi nəticəsində Qarabağda ekoloji tarazlıq pozularaq, tamamilə yararsız hala düşmüşdür. Nəticədə bu ərazilərin ekoloji fonu və bioloji müxtəlifliyinə ciddi şəkildə zərər verilmişdir [1].

Azərbaycanın əvvəllər işğal olunmuş bütün ərazilərində 260 min hektara yaxın meşə sahəsi olsa da, erməni vandallarının destruktiv fəaliyyətinin nəticəsi olaraq son 30 ildə meşə örtüyü sürətlə azalır. Meşə torpaqlarının məhv edilməsi haqqında məlumatlar kosmosdan çəkilən görüntülərdə öz əksini tapmışdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin hesabatında qeyd olunur ki, qoz, palıd, Eldar şamı, xurma və digər xüsusi mühafizə altında olan ağaclar kəsilərək, mebel, çəllək və tüfəng qundağı istehsalı üçün Ermənistana ixrac edilirdi. Yeni mədənlərin istismarı ilə əlaqədar minlərlə hektar meşə sahəsi məhv edilmişdir. Bir çox ağac növlərinin nəsli kəsilmək üzrədir [2].

Prezident İlham Əliyev 2020-ci il dekabrın 1-də xalqa müraciətində işğal olunmuş ərazilərin Ermənistan tərəfindən vəhşicəsinə istismarı faktlarına diqqət çəkib: "Orada on minlərlə hektarda, xüsusən də Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında buğda səpilib. Mənə məlumat verildiyi kimi, Ermənistan işğal etdiyi torpaqlardan ildə 90 min ton buğda yığırdı. Ermənistanın buğda istehsalının ümumi həcmi işğal olunmuş bu torpaqlarda yetişdirilənlərlə birlikdə 190 min ton təşkil edirdi. Bu məhsulun yarısını bizim torpaqlarımızda yığıblar. Bu, torpaqlarımızın qanunsuz istismarıdır... Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - 22 min hektar ərazini meşələr təşkil edir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi var. Zəngilan və Qubadlı rayonlarında - 12 min hektar. İşğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri var. Meşələr planetimizin ağciyərləridir. Mənfur, qəddar düşmən 30 il meşələrimizi qırıb, talan edib, son zamanlarda onları yandırıb...".

Ermənistanın ekoterrorizmi Azərbaycanın su təsərrüfatının idarə edilməsi və planlaşdırılması sisteminə də mənfi təsir göstərib. Daha dəqiq desək, bəzi transsərhəd içməli su ehtiyatları və suvarma sistemləri birbaşa Ermənistan tərəfindən zəbt edilir və bir qayda olaraq Azərbaycan xalqına qarşı "silah" kimi istifadə olunurdu[3]. Su çatışmazlığı müasir dünyada, o cümlədən bütün yerüstü su ehtiyatlarının 73%-ə qədəri ölkədən kənarda formalaşan bizim respublika üçün də aktual mövzudur. Ermənistan transsərhəd su ehtiyatlarını daim kimyəvi və bioloji maddələrlə çirkləndirir. Araşdırmalar göstərir ki, hər il Ermənistan ərazisindən keçən təxminən 350 milyon kubmetr su kimyəvi maddələrlə çirklənir.

Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın cəbhəyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi haqqında" 26 yanvar 2016-cı il tarixli 2085 nömrəli Qətnamədə deyilir: "Assambleya hesab edib ki, süni ekoloji böhranın qəsdən yaradılması "ekoloji təcavüz" və bir dövlətin digər dövlətə qarşı düşmənçilik aktı kimi qiymətləndirilməlidir, məqsədi ekoloji fəlakət zonalarının yaradılmasına və təbii fəlakətdən zərər çəkmiş əhali üçün qeyri-mümkün normal həyat şəraitinin yaradılmasına yönəlmişdir".

İşğal zamanı çaylarımızın məcrasını da bağladılar, nəticədə bəzi ərazilərdə quraqlıqdan 100 min hektardan çox ərazi yandı. Prezident İlham Əliyev 2021-ci il fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri çərçivəsində Besitçay Dövlət Təbiət Qoruğunda olarkən bu fikri təkrarladı: "Besitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu region çaylarla zəngindir. Bundan sonra Tərtərçay, Xaçınçay, Besitçay, Bazarçay, Həkəri və digər çaylar Azərbaycan xalqına xidmət edəcəkdir. İşğal dövründə mənfur düşmən Tərtərçayın da qarşısını kəsmiş, bir sıra rayonlarımızda yüz min hektardan çox ərazi susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilib".

Şanlı Azərbaycan Ordusu uzunmüddətli işğaldan sonra cəmi 44 gündə erməni ordusunu darmadağın edərək torpaqlarımızı azad etdi. Ermənilər Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılmasını nəzərdə tutan üçtərəfli noyabr sülh sazişinə əsasən tərk etməli olduqları bölgələrdə də irimiqyaslı ekoloji terror aktlarına əl atıblar. Noyabr müqaviləsində nəzərdə tutulan Kəlbəcər rayonunun Azərbaycana təhvil verilməsi zamanı genişmiqyaslı ekoloji terror xüsusilə müşahidə olundu. Kəlbəcərin təhvil verilməsi həm də rayonun

erməni sakinlərinin yola düşməzdən əvvəl meşələrin qırılması və bəzi ərazilərin yandırılması ilə müşayiət olunub.

Qeyd etmək lazımdır ki, ermənilər işğal etdikləri ərazilərdə Azərbaycanın faydalı qazıntılarını da talayıblar. Azərbaycanın işğal olunmuş ərazilərindəki 5 qızıl yatağı da daxil olmaqla 155 qiymətli metal yatağı ekoloji fəsadlar nəzərə alınmadan vəhşicəsinə istismar edilib.

Hazırda Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifələrdən biri ərazilərimizə yerləşdirilən bütün zərərləri, o cümlədən təhlükəli tullantıların miqdarını müəyyən etmək və beynəlxalq səviyyədə tanınmasına nail olmaqdır. Ermənistanın vurduğu zərərin ödənilməsi və beynəlxalq məhkəmə yolu ilə kompensasiyası və ərazimizdə basdırılan təhlükəli tullantıların çıxarılması və onların Ermənistana qaytarılmasını təmin etməkdir. Bunun üçün beynəlxalq ekspertlər bu sahədə çalışmalı, qiymətləndirmə aparmalıdırlar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, düşmən tərəfindən işğal olunmuş ərazilərdə törədilən ekoloji terror kosmosdan izlənilib və onların əllərində tutarlı sübutlar var. Məlumatda o da bildirilir ki, bütün faktları dəyərləndirmək və təsdiqləmək üçün beynəlxalq monitorinq və qiymətləndirmə qrupları Azərbaycana dəvət olunacaq.

ƏDƏBİYYAT

1. Ağayev T.D. Ölkənin sosial-iqtisadi inkişafında təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinin əhəmiyyəti// Azərbaycan respublikası 1991-2021: dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosialmədəni inkişafı. Respublika elmi konfransı (14-15 oktyabr 2021), SDU. 2020, s. 139-141
2. İbrahimov İ.H. Erməni terroru və işğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyət/İqtisadiyyat.–2021.–16-22 dekabr.-№ 50.–S.7.
3. Məmmədli E. Ermənilərin Sərsəng vandallığı - Azərbaycan Ordusu 30 illik ekoloji terrorun da qarşısını alır/ Yeni Müsavat. 2020. 24-26 oktyabr. -№ 168. s. 6.

SUMMARY

CONSEQUENCES OF ARMENIA'S ENVIRONMENTAL TERROR AGAINST AZERBAIJAN IN KARABAKH

Abdulov K.Sh.

The article deals with the consequences of the ecological terror of Armenia against Azerbaijan in Karabakh. Intentional damage to the flora and fauna of another country by a certain country or person, the destruction of its natural resources is considered environmental terrorism. Currently, one of the main tasks is to determine all the damage caused to our territories, including the amount of hazardous waste, and achieve international recognition.

Keywords: *environmental terrorism, deforestation, occupied territories, river pollution, waste*

РЕЗЮМЕ

ПОСЛЕДСТВИЯ ЭКОЛОГИЧЕСКОГО ТЕРРОРА АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА В КАРАБАХЕ

Абдулов К.Ш.

В статье рассматриваются последствия экологического террора Армении против Азербайджана в Карабахе. Умышленное повреждение флоры и фауны другой страны определенной страной или лицом, уничтожение ее природных ресурсов считается экологическим терроризмом. В настоящее время одной из главных задач является определение всего ущерба, нанесенного нашим территориям, включая количество опасных отходов, и достижение международного признания.

Ключевые слова: *экологический терроризм, вырубка лесов, оккупированные территории, загрязнение рек, отходы*

QARABAĞ ÇAYLARININ KİMYƏVİ AXIM SIRALARININ BƏRPASI VƏ İON AXIMI

Abduyev M.A.
ADPU, AMEA akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
abduyevm@gmail.com

Açar sözlər: *Qarabağ, su ehtiyatları, çaylar, hidrokimyəvi tərkib, kimyəvi axım, ion axımı*

Qarabağ ərazisi Azərbaycanın təbii sərvətləri zəngin, kənd təsərrüfatı üçün münbit torpağı və bol suyu olan ərazisidir. Ərazi çaylarının su ehtiyatları 1,8 km^3 təşkil edir [9]. Bu Azərbaycanın yerli su ehtiyatının (10,3 km^3) 17,5 %-i deməkdir [1]. Lakin son 30 ildə işğal altında olmuş bu ərazilərdə milli sərvətlərimiz talan edilmiş, ekoloji əhəmiyyətə malik ekosistemlər antropogen təsirlərə məruz qalmışdır. Düşmən tərəfindən törədilən ekoloji terror su mənbələrinin korlanması, meşələrin qırılması, regionun ekoloji tarazlığının pozulmasına ciddi təsir göstərmişdir. İşğal nəticəsində infrastrukturu sıradan çıxarılmış hidrometeoroloji məntəqələrdə tezliklə müasir avtomat sistemlərinin tətbiqi ilə müşahidələrin bərpası tələb olunur. 30 ilə yaxın müddət ərzində işğal altındakı ərazilərdə tədqiqatların aparılması mümkün olmadığından təqdim olunan tədqiqat işi dolayı metodlardan istifadə edilməklə yerinə yetirilmişdir.

Tədqiqat ərazisinin Ermənistan tərəfindən işğal olunması ilə əlaqədar çaylar üzərindəki hidrometrik məntəqələr 1988-ci ildən başlayaraq fəaliyyətini dayandırmışdır. Sonuncu fəaliyyətini dayandıran məntəqə Tərtərçay üzərindəki Kəlbəcər məntəqəsi olmuşdur. Bu məntəqədə su sərfi üzərində fasiləsiz aparılan müşahidələr 1949-1992-ci illəri (44 il) əhatə edir. 1992-ci ilədək aparılmış analizlərin və məntəqələrin sayının ərazi üzrə paylanması cədvəl 1-də verilmişdir.

Cədvəl 1

Ərazi, Qarabağ	Analizlərin sayı						Cəm	%
	<25	25-50	51-100	101-150	151-200	>200		
Məntəqənin sayı	7	5	3	3	1		19	100
%-lə	37	26	16	16	5			100

Cədvəldən göründüyü kimi, 37% məntəqələrdə analizlərin sayı 50-dən, 63% məntəqələrdə isə 25-dən çoxdur. Bununla belə məntəqələrin 26%-də (5 məntəqə) analizlərin sayı 25-50 arasında dəyişir. 7 məntəqədə (37%) analizlərin sayı 25-ə qədər, 1 məntəqədə isə (5%) 150-dən çoxdur. Bütövlükdə işğaldan azad olunmuş ərazi çaylarından 1098 analiz götürülmüşdür. Aparılmış hidrokimyəvi müşahidələrin aylar və fəsillər üzrə paylanmasının nəticələri cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Ərazi	Aylar											
	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII
Yuxarı Qarabağ	2,1	7,8	9,2	10,4	12,6	11,2	10,1	9,7	7,3	6,5	5,6	7,5

Ən çox müşahidələr gursululuğun qalxma dövründə (34,2%) və may ayında (12,6%), ən az isə qıtsulu dövrdə (17,4%) və yanvarda (2,1%) aparılmışdır.

Hidrokimyəvi tədqiqatlarda [7, 8, 10] minerallaşma sıralarının bərpası zamanı əsasən korrelyasiya, xətti interpolyasiya və analogiya metodlarından istifadə olunur. Bu metodlardan istifadə edilməklə tədqiq olunan çayların minerallaşma sıraları bərpa edilmişdir. Yəni paralel illər üçün su sərfinin və minerallaşmanın orta aylıq qiymətləri arasında qurulmuş əlaqələrə (şəkil 1) görə kimyəvi axım sıraları da uzadılaraq davamiyyəti 68 ilə (1950-2018) bərabər olan eyni dövrə gətirilmişdir. Əlaqələrin sıxlığı Q. A. Alekseyevin [5, 6] metodu ilə təyin edilmişdir.



Qarqarçay-Xankəndi **Tərtərçay-Kəlbəcər**

Şəkil 1. Orta aylıq su sərfi (Q_{ay}, m^3/s) ilə minerallaşma (C, mq/l) arasında əlaqə

Uzadılmış sıralara əsasən cədvəl 3-də verilmiş xarakterik çaylar üçün su sərfinin və minerallaşmanın çoxillik orta qiymətləri hesablanaraq, onlara görə axım həcmi və ion axımı müəyyən edilmişdir.

Cədvəl 3

Faktiki və hesablanmış ion axımı

Çay-məntəqə	Hövzə-nin sahəsi F, km^2	Hövzənin orta yüksək-liyi H,km	Axım həcmi W_Q mln. m^3	Çoxillik orta ion axımı, R_i, min ton	$W_q \frac{\sqrt{F}}{H}$	Təklif olunan düsturla hesablan-mış ion axımı	Hesab-lanmış ion axımının nisbi xətası,%
İncəçay-Gülüstan	63	1,94	35	8,8	143,2	8,5	-3
Tərtərçay-Kəlbəcər	483	2,64	166	50,5	1383	43,6	-14
Tərtərçay-Maqavuz	2160	2,08	460	175	10281	185	+6
Tərtərçay Suqovuşan	2460	2,03	631	223	15415	247	+11
Levçay-Qamışlı	363	2,37	181	55	1456	45,2	-18
Tutqun-mənsəb	522	2,16	125	44	1323	42	-5
Xaçınçay-Vankulu	175	1,78	44	14	327	15	+7
Qarqarçay-Ağakörpü	238	1,61	66	33	768	29	-12
Oxçuçay-Qafan	685	2,43	308	226	3255,6	84,4	-63
Bazarçay-Eyvazlar	2020	2,28	637	189	12535	213	+13
Həkəriçay-Laçın	1180	2,13	319	97	5126	111	+14
Həkəriçay-Qaracalı	2310	1,73	472	205	13112	220	+7
Zabuxçay-Zabux	495	1,97	157	46	1772	52	+13
Quruçay-Tuğ	201	1,55	51	17	466	20	+17
Köndələnçay-Qırmızı Bazar	166	1,13	18	8,7	201	10	+15

Tədqiqatlar [4, 8, 10] göstərir ki, heç də həmişə bütün çaylarda su sərfi ilə kimyəvi axım arasında əlaqə alınmır. Odur ki, çayların kimyəvi axımının öyrənilməsində əsas vəzifələrdən biri ion axımının hesablanmasıdır. Fikrimizcə kimyəvi axımın hesablanmasında su və ion axımı arasındakı əlaqələrin dəqiqləşdirilməsi üçün səthi axımla yanaşı ətraf mühitin elementlərinin cəmilə səciyyələnən hövzənin morfometrik ünsürlərindən təşkil olunmuş komplekslərdən istifadə edilə bilər. Kompleksə illik axım həcmindən (**W_Q mln. m^3**) başqa, hövzənin orta yüksəkliyi (H_o, km) və hövzənin sahəsi (F, km^2) daxil

edilmişdir [2, 3]. Ölçü vahidlərinin təhlili üsulu vasitəsilə qeyd edilən morfometrik ünsürlərdən $\mathbf{W_Q}\frac{\sqrt{F}}{H}$ şəklində kompleks əldə edilmişdir. Faktiki ion axımı ilə (R_{ion}) alınmış kompleks $(\mathbf{W_Q}\frac{\sqrt{F}}{H})$ arasında loqarifmik şəbəkədə əlaqə (şəkil 2) qurulmuşdur.

Aldığımız əlaqə riyazi şəkildə aşağıdakı kimi ifadə olunur:

$$\mathbf{R_{ion}=0{,}2386\ (\gamma W_Q\frac{\sqrt{F}}{H})^{0{,}72}}\text{, min ton} \qquad (3.2)$$

düsturdakı γ-suyun xüsusi çəkisi (1 t/m^3) olub, ölçü vahidlərinə əməl olunması üçün daxil edilmişdir.



Şəkil 2. İşğaldan azad olan ərazi çaylarının çoxillik orta ion axımı ilə (R_i, min t) $(\mathbf{W_Q}\frac{\sqrt{F}}{H})$ kompleksi arasında əlaqə

Alınmış düsturla hesablamaların nəticələri göstərir ki, 12 halda xəta ±15%-dən az, 3 halda isə 15%-dən çoxdur (cədvəl 3). Odur ki, təklif olunan düsturlarla uzun vaxt tələb edən hesablamalar və baha başa gələn analizlər aparmadan işğaldan azad olunan ərazilərin zəif öyrənilmiş və ya öyrənilməmiş çaylarının ion axımını hesablamaq olar.

ƏDƏBİYYAT

1. Abduyev M.A. Qarabağ çaylarının axım sıralarının bərpası. Coğrafiya elmləri doktoru, Əməkdar elm xadimi Saleh Hacı oğlu Rüstəmovun 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan hidrometeorologiyası və ətraf mühit" mövzusunda elmi-praktik konfransın materialları. Bakı-2021, səh.20-27

2. Абдуев М.А. Исследование ионного стока горных рек Азербайджана./ / Известия РГО. т. 141, вып. 1. Санкт Петербург, 2009. с. 72-76

3.Абдуев М.А. Методические вопросы расчета среднемноголетнего ионного стока горных рек (на примере Азербайджана). // Метеорология и гидрология. №4, Москва, 2011. с.96-103

4. Алекин О.А. Основы гидрохимии. Л. Гидрометеоиздат. 1970. 444с

5.Алексеев Г.А. К вопросу определения эмпирических квантилей и коэффициента корреляции. // Метеорология и гидрология. 1963. №4. с. 16-23

6. Алексеев Г.А. Объективные методы выравнивания и нормализации корреляционных связей. Л. Гидрометеоиздат. 1971. 363с

7. Владимиров А.М. Гидрологические аспекты проблемы качества воды. Тр. IV Всесоюзного гидрологического съезда. Л. Гидрометеоиздат. 1976. т. 9. с. 105-112

8. Гачечиладзе Г.А. Гидрологические аспекты химической денудации в горных регионах. Л. Гидрометеоиздат, 1989. 292с

9. Рустамов С.Г., Кашкай Р.М. Водный баланс Азербайджанской ССР. Баку, Элм-1978, 109 с

10.Фадеев В.В., Тарасов М.Н., Павелко В.Л. Связь между гидрохимическим и водным режимом равнинных и горных рек СССР. Тр. IV Всесоюзного гидрологического съезда. Л. 1976. т. 9. с. 198-212

SUMMARY

RESTORATION AND IONIC AXIS OF CHEMICAL STREAMS OF KARABAKH RIVERS

Abduyev M.A.

On the basis of the reconstructed series, the average values of water discharge and mineralization of the rivers of the region were calculated, and the water runoff and ion runoff were determined from them. To calculate the ion runoff of rivers, along with surface runoff, complexes were used, consisting of morphometric elements of the basin, characterized by the sum of environmental elements. In addition to the annual runoff (WQ million m3), the complex includes the average height of the basin (Ho, km) and the area of the basin (F, km2). A formula combining the indicated morphometric elements is proposed to determine the ion sink of little-studied or unstudied rivers in the liberated territories.

***Key words**: Karabakh, water resources, rivers, hydrochemical composition, chemical flow, ion flow*

РЕЗЮМЕ

ВОССТАНОВЛЕНИЕ И ИОННЫЙ ПОТОК ХИМИЧЕСКИХ ПОТОКОВ РЕК КАРАБАХА

Абдуев М.А.

На основе восстановленного ряда рассчитаны средние значения расхода воды и минерализации рек района, по ним определены стока воды и ионный сток. Для расчета ионного стока рек наряду с поверхностным стоком использовались комплексы, состоящие из морфометрических элементов бассейна, характеризуемых суммой элементов окружающей среды. Помимо годового стока (WQ млн м3) в комплекс входят средняя высота бассейна (Но, км) и площадь бассейна (F, км2). Предложено формула объединяющего указанные морфометрические элементы для определения ионного стока малоизученных или неизученных рек на освобожденных территориях.

***Ключевые слова**: Карабах, водные ресурсы, реки, гидрохимический состав, химический сток, ионный сток.*

İŞĞALDAN AZAD EDİLMİŞ REGİONLARIN ƏHALİSİNİN SOSİAL-MADDİ PROBLEMLƏRİNƏ DÖVLƏT QAYĞISI (2004-2014)

Adıgözəlova G.R.
Sumqayıt Dövlət Universiteti,Sumqayıt, Azərbaycan
adigozelli.87@mail.ru

***Açar sözlər:** sosial problem, proqram, tədbir, işğal, dövlət, beynəlxalq, ərazi, prezident*

İşğal altında olmuş regionların bərpası, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırması kimi məsələlərin həllinə 90-cı illərdən başlanılsa da, bu siyasət Cənab Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra yüksələn istiqamətdə davam etdi. Nəzərə alaq ki, respublikada yoxsulluğun ən yüksək həddi elə məcburi köçkünlər arasında idi. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq ictiçaiyyətin nəzərinə çatdırılması və bu sahədə görüləcək işləri sürətləndirmək məqsədilə bir çox nüfuzlu regional, beynəlxalq təşkilatlarla əlaqələri gücləndirdi, yerli, daimi nümayəndəlikləri ilə çoxsaylı görüşlər keçirildi, yeni qrantlar, yardımlar alındı. Hətta 2005-ci il 4 iyul tarixində Bakı şəhərində Avropa Şurası Parlament Assambleyasının Qaçqınlar üzrə Ali komitəsinin sədri xanım Rut -Qabi Vermot-Manqoldanın iştirakı ilə "Cənubi Qafqazda Köçkün düşmüş əhali" mövzusunda seminar keçirilmişdir. Bu seminardan sonra müvafiq hesabat və memorandum hazırlanmışdır. Aparılan güclü işlərin nəticəsidir ki, 2004-2012-ci illərdə xarici ölkələrin, beynəlxalq maliyyə qurumlarının, humanitar və inkişaf təşkilatlarının nümayəndələri ilə 420-dən çox görüş keçirilmiş, ölkəmizdə akreditə olunmuş diplomatik nümayəndəlik mənsublarının məcburi köçkünlərin müvəqqəti yaşadıqları ərazilərə səfərləri təşkil olunmuşdur. [1, 45]

Dövlət təşkilatları ilə yanaşı, qeyri-hökümət qurumları və onların başçıları ilə çoxsayli seminarlar, müzakirələr aparılmışdır. "Soros" Fondu, "Human Rayts Voç", "Fridom Hauz", "İREX" təşkilatlarının və Milli Demokratiya İnstitunun nümayəndələrinin də qatıldığı beynəlxalq seminarlarda dəfələrlə Azərbaycanda onların

fəaliyyəti üçün azad şəraitin yaradılması haqqında məlumat vermişlər. Təbii ki, ölkədə demokratik prinsiplərə söykənən sosial-siyasi mühitin yaradılması, cənab prezidentin qayğısı, hər bir işin icrasına birbaşa nəzarət etməsi, çoxsaylı yoxsulluğun azadılması, işsizliyin ləğvi istiqamətində dövlət proqramlarının dövlət tərəfindən qəbul olunması beynəlxalq layihələrin həyata keçirilməsinə münbit şərait yaratdı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzünün beynəlxalq aləmdə ifşa olunması, bunun müvafiq hüquqi-siyasi qiymətləndirilməsi istiqamətində aparılan diplomatik fəaliyyətin də rolunu danmaq olmaz.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 1999-cu il tarixli fərmanına əsasən Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu yaradılmışdı ki, bunun da yaradılmasında əsas məqsəd və vəzifəsi köçkünlərin müvəqqəti yerləşdikləri ərazilərdə mənzil-məişət, infrastruktur şərtlərinin yaxşılaşdırılması, yeni iş yerləri açmaq, kiçik və orta biznesin inkişafına dəstək vermək idi. [5, 67] Ali İdarəetmə orqanı Müşahidə Şurası idi ki, bura da yerli hökümət, qeyri- hökümət, özəl təşkilatların nümayəndələri ilə yanaşı beynəlxalq donor təşkilatların nümayəndələri da daxil idi. Səmərəli sosial müdafiə sisteminin yaradılmasında bir sıra önəmli prinsiplər var ki, bunlara bazis yaradan amillər də deyilir. Sosial təminat sisteminin əsaslı qurulmasında ilk öncə ünvanlılıq prinsipinə üstünlük verilmiş, daha sonra mənzil kommunal sektoru müəssisələrinin fəaliyyətinin özəl sektora həvalə edilməsi, bu sahədə xidmət keyfiyyətinin modernləşdirilməsi kimi məsələlər öz həllini tapmışdır.

Müstəqilliyin ilk illərində mövcud siyasi-iqtisadi vəziyyətdən irəli gələn obyektiv səbəblərə görə yoxsulluq və işsizlik yüksələn xətt üzrə idi. Buna görə də ünvanlılıq prinsipindən əlavə, həm də ədalətlilik prinsipindən irəli gələn obyektiv zərurət hallarını: əhalinin həssas kateqoriyalarının rifah halı, maddi sosial-iqtisadi durumundakı fərqlər və.s problemləri dövlətçiliyə sadiq qalmaqla müsbət istiqamətdə həll edilməsi çox təqdirəlayiq idi. Aztəminatlı ailələrin hüquqlarının müdafiə olunması məqsədilə effektli sosial müdafiə sistemi qurmaq üçün Ünvanlı Sosijal Yardimi ilə əlaqədar olaraq, kommunal xərclərin ödənilməsinə subsidiyaların verilməsi də başlanıldı..[2, 89] Ədalət prinsiplərinə uyğun olaraq, bu çərçivədə kommunal tariflərin dəyəri əvvəlcədən müəyyən edildi və kommunal tariflərin güzəştli sistemi yaradılmağa başladı. Bu sistemdə göstərilən xidmətlərdən əhalinin aztəminatli həssas təbəqəsi, qaçqın və mcburi köçkünlər, imtiyazlı sosial qruplar yararlana bilər.

Qaçqın və məcburi köçkünlər, xüsusən də bu kateqoriyanın aztəminatlı və həssas ailə qrupları üçün ünvanlılıq, şəffaflıq, ədalətlilik prinsiplərinin qorunması çox vacibdir ki, burada subsidiyaların verilməsi individiual olaraq aparılmalı, hər bir ailə üçün müvafiq adam sayına və sərfiyyat limitinə görə strategiya müəyyən olunmalıdır. Bu da ən çox onunla izah olunur ki, müəyyən limitə görə adambaşına düşən dövlət dəstəyi saxlanılaraq, limit həddini keçən kəmiyyət göstəricilərinə görə subsidiyaların miqdarı azaldılmalıdır. İşğaldan azad edilmiş regionlarda yenidən həyatı canlandlrmaq, öz yurd yuvalarından didərgin düşmüş insanların sosial problemlərinin həlli istiqaməti və inkişaf parametrləri aşağıdakı kimi qruplaşdırılır:

- azad edilmiş regionların sosial iqtisadi həyatında dinamik inkişafın davam etdirilməsinə nəzarətin artıtılması və bu sahədə qarşıya çıxan problemləri vaxtında həll edilməsi;
- müxtəlif sahələrin inkişafına dair son illərdə qəbul olunmuş dövlət proqramlarının icrasının araşdırılması, məsul şəxslərin seçilməsi, xüsusi tapşırıqların verilməsi, kadr təminatına baxılması;
- ölkədə, xüsusilə də, gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına yönəldilmiş proqram və layihələrin hazırlanması;
- regionların yerli resursları və digər amillər nəzərə alınmaqla, onların sosial-iqtisadi inkişafı məqsədilə müvafiq inkişaf proqramlarının hazırlanması və icra olunması;
- iqtisadi inkişafda hərtərəfli tərəqqiyə nail olmaq məqsədilə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi, yerli və xarici investorların maraqlarının reionda görüləcək işlərə cəlb edilməsi və bütün bu tədbirlərin məqsədyönlü şəkildə həyata keçirilməsi;
- maliyyə intizamının gücləndirilməsi, bu sahədə olan nöqsanların aradan qaldırılması və dövlət büdcə xərclərinin strukturunun təkmilləşdirilməsinə dair yeni təkliflərin hazırlanması və.s [4, 123]

İqtisadiyyatda müşahidə olunan müsbət meyllər, ölkənin beynəlxalq imicinin artması, yeni-yeni sosial layihələr və mövcud imkanlar ölkəmizin güclü sosial dövlətə çevrilməsinə, dünya təsərrüfat sisteminə inteqrasiyası və bu sistemdə getdikcə layiqli yer tutması, sosial problemlərin həlli, əhalinin güzəranının daha da yaxşılaşdırılması üçün lazımi şərait, zəmin hazırlamışdır. Eyni zamanda Azərbaycan Respublikasının vitse-prezidenti, birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKOnun xoşməramlı səfiri Mehriban Əliyevanın da diqqətini, qayğısını xüsusi qeyd etməliyik.

Bugün biz qalib ölkənin vətəndaşlarıyıq və bunu bütün dünyaya sübut etdik. Bir zamanlar çadır şəhərciklərinin ləğvinə çalışdığımız halda indi çox böyük qürur hissi və fəxarətlə işğaldan azad olmuş ərazilərin bərpasına çalışırıq. Məcburi köçkün anlayışını aradan qaldıraraq vətəndaşlarını orada yerləşdirmək üçün münbit sosial-iqtisadi şərait qurmağa hazırlaşırıq. Əldə etdiyimiz bu möhtəşəm zəfərə görə xalqımızın milli birlik və əzminə, Cənab Ali Baş Komandan İlham Əliyevə, onun əyilməz, möhkəm iradəsinə, müzəffər, qeyrətli, şanlı ordumuza və ən nəhayət, bu torpaq uğrunda ömürlərini fəda etmiş müqəddəs şəhidlərimizin ölməz ruhlarına borcluyuq. Torpaq su ilə qarışdıqda palçıq, şəhid qanı ilə qarışdıqda vətən olur!!!

ƏDƏBİYYAT

1. Azərbaycanda İqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri (elmi əsərlər toplusu XIV buraxılış) . Bakı Nafta Press 2014 səh 267
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Əmək və sosial problemlər. Toplu Hesabat № 1 (14) 2014. Bakı: Arxidey MMC, 2014, 164 s.
3. Əliyev İlham. İnkişaf məqsədimizdir. Beşinci kitab.Bakı:Azərnəşr, 2010. 392 s.
4. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu (7 fevral 2006-cı il, N-55-IIIQ), Qanunvericilik toplusu, maddə 76, Azərbaycan, 241-247 s.
5. Qaçqın və məcburi köçkünlərə prezident qayğısı.(Qaçqın və məcburi köçkünlərlə iş üzrə dövlət komitəsi) Bakı İndigo 2009. səh 359

SUMMARY

STATE CARE FOR SOCIAL AND MATERIAL PROBLEMS OF THE POPULATION OF THE LIBERATED REGIONS (2004-2014)

Adigozalova G.R.

The Republic of Azerbaijan is a country with sustainable socio-economic development, founded by national leader Heydar Aliyev. A state with such rich natural resources and energy resources can easily keep pace with the pace of civilized development of the modern world. The issue of social security has always been one of the main priorities. In particular, the implementation and control of new social programs in a country whose territory and population have been terrorized for a long time and whose citizens have been displaced from their homes is commendable.

Keywords: *social problem, program, event, occupation, state, international, territory, president*

РЕЗЮМЕ

ГОСУДАРСТВЕННАЯ ЗАБОТА О СОЦИАЛЬНЫХ И МАТЕРИАЛЬНЫХ ПРОБЛЕМАХ НАСЕЛЕНИЯ ОСВОБОЖДЕННЫХ РАЙОНОВ (2004-2014 ГГ.)

Адигозалова Г.Р.

Азербайджанская Республика – страна с устойчивым социально-экономическим развитием, основанная общенациональным лидером Гейдаром Алиевым. Государство с такими богатыми природными и энергетическими ресурсами может легко идти в ногу с темпами цивилизованного развития современного мира. Вопрос социального обеспечения всегда был одним из главных приоритетов. В частности, похвально осуществление и контроль над новыми социальными программами в стране, территория и население которой долгое время терроризировались, а граждане были вынуждены покинуть свои дома.

Ключевые слова: *социальная проблема, программа, событие, оккупация, государство, интернационал, территория, президент*

QARABAĞ COĞRAFİ-İQTİSADİ RAYONUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ "BÖYÜK QAYIDIŞ"IN HƏYATA KEÇİRİLMƏSİ

Ağaməmmədov N.T.
İsmayıllı rayon Təhsil şöbəsi E.Həsənov adına Mücüməftəran kənd tam orta məktəbi, İsmayıllı, Azərbaycan
naqamemmedov@mail.ru

Açar sözlər: *Qarabağ coğrafi-iqtisadi rayonu, erməni təcavüzü, inkişaf, Böyük Qayıdış, təbii ehtiyatlar, istehsal və qeyri-istehsal sahələri*

Prezident İlham Əliyevin 07 iyul 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası ərazisində 14 iqtisadi rayon təşkil edilmişdir. Həmin iqtisadi rayonlardan biri də Qarabağ iqtisadi rayonudur. Onun tərkibinə-Şuşa və Xankəndi şəhərləri, Ağcabədi, Ağdam, Bərdə, Xocalı, Xocavənd, Füzuli, Şuşa, Tərtər inzibati rayonları daxildir. Coğrafi-iqtisadi rayonun sahəsi 8,99 min km^2, əhalisi Dövlət Statistika

Komitəsinin məlumatına görə (2021) 904,5 min nəfər təşkil edir. Qeyd etmək lazımdır ki, hazırda Xankəndi, Xocavənd, Xocalı inzibati ərazi vahidləri Rusiya Sülhməramlılarının müvəqqəti nəzarəti altındadır.

İşğaldan sonra torpaqların Azərbaycanın öz gücünə azad edilməsi faktı Dağlıq Qarabağdakı muxtariyyat statusunun beynəlxalxalaq hüququn tələblərinə vacab vermədiyi fikrini sübuta yetirdi və onu tarixin arxivinə gömdü. Qarabağ iqtisadi rayonunun təşkil edilməsi Azərbaycan Respublikası daxilində Qarabağın real siyasi-coğrafi statusunu özündə cəmləşdirir. İqtisadi rayonun bu formada təşkili faktiki ərazidə Azərbaycan dövlətinin müəyyən etdiyi proqramlarla regiondakı xalqların (o cümlədən separatizmə meyllənmiş erməni əhalinin) iştirakı ilə gələcək sosialiqtisadi tərəqqi üçün hüquqi əsas hesab edilməlidir. Şərqi Zəngəzur iqtisadi rayonu gələcəkdə Böyük Qayıdış layihəsinin trankontinental müstəviyə keçməsinə səbəb olacaqdır. Belə ki, əhali köçürüldükdən sonra Zəngəzur dəhlizi vasitəsi ilə regionun yeni inkişaf epoxası başlayacaqdır. Zəngəzur nəqliyyat qovşağı Avropa ilə Asiyanı birləşdirəcəkdir.

Müasir dövrün mühüm vəzifəsi ölkə iqtisadiyyatının sosial istiqamətini gücləndirmək, hər bir iqtisadi rayonun yerli təbii və potensial ehtiyatından dolğun şəkildə istifadə etmək, xalqın müxtəlif tələbatlarını ödəməkdən ibarətdir [4].

Cədvəl 1

İqtisadi rayonlar üzrə ümumi məhsul istehsalı

İqtisadi rayonlar	**Sahəsi, min km^2**	**Əhalinin sayı, minnəfər**	**Əsas sahələr üzrə ümumi məhsul istehsalı, milyon manat**
Bakı	2,14	2300,5	51326
Abşeron	3,73	578,8	5529
Quba-Xaçmaz	6,96	558,7	1951
Şəki-Zaqatala	8,84	630,4	1970
Dağlıq Şirvan	6,13	324,8	890
Mərkəzi Aran	6,69	740	2408
Şirvan-Salyan	6,08	501,3	2039
Mil-Muğan	5,67	522,6	1687
Gəncə-Daşkəsən	5,27	611,3	1968
Qazax-Tovuz	7,03	687,6	2380
Qarabağ	8,99	904,5	1543
Şərqi Zəngəzur	7,47	343,5	133
Lənkəran-Astara	6,07	953,6	1741
Naxçıvan MR	5,50	461,5	3688
Azərbaycan Resp.	86,6	10119,1	82344

Cədvəl, DSK-nın məlumatları əsasında tərtib olunmuşdur (01.01.2021)

Ərazinin perspektiv inkişaf üçün böyük həcmdə potensial resursları mövcuddur. Bu resurslara həm yeraltı, həm də yerüstü sərvətlər daxildir. Yeraltı sərvətlərdən sement xammalı, tikinti daşı, mərmər, əhəngdaşı, mineral sular üstünlük təşkil edir. Yerüstü sərvətlərdən isə meşə, Günəş, külək enerjisi resursları mövcuddur. Ayrı-ayrı inzibati rayonlar üzrə isə vəziyyət belədir:

-Şuşada: Turşsu və Şırlan mineral su yataqları, Şuşa əhəngdaşı yataqları, Şuşa üzlük daşı, ərazinin 20%-i meşə resursları, Keçəldağ gil yatağı (kərpic və kirəmid isetehsalı üçün), iqlim balneoloji;

-Xocalıda: Ağçay və Zərinbağ üzlük daşı yataqları, Xocalı gil yatağı;

-Xankəndidə: qum-çınqıl yatağı, yeraltı şirinsu ehtiyatları, iqlim, zəngin flora;

-Ağcabədi, Ağdam və Bərdədə: Günəş enerjisi, məhsuldar torpaqlar;

-Xocavənddə:üzlük daşı, tikinti daşı, məhsuldar torpaqlar (şabalıdı və qəhvəyi dağ meşə), meşə;

-Füzulidə: Günəş enerjisi, məhsuldar torpaqlar;

Bərdədə- Günəş enerjisi, məhsuldar torpaqlar;

Qafqaz kimi əlverişli təbii şəraiti və sıx əhalisi olan regionda uzun müddət işğal altında saxlanılan və heç bir ərzaq məhsulu alınmayan bu torpaqların belə vəziyyətdə qalması Azərbaycan xalqının sosial-iqtisadi vəziyyətini ağırlaşdırmışdır [5].

Eyni zamanda çayların enerji potensialı vardır. Burada sənaye sahələrindən-elektrotexnika, meşə və ağac emalı, yüngül və yeyinti sənayesi, meyvə-tərəvəz konservləri istehsalı, şərabçılıq, elektroenergetika, meşə, tikinti, kənd təsərrüfatı sahələrindən isə-pambıqçılıq, taxılçılıq, heyvandarlıq (yay və qış otlaqlarında), üzümçülük, meyvəçilik, kartofçuluq inkişaf perspektivləri var. Bəzi sahələr erməni vandalizmi nəticəsində iflic vəziyyətinə düşsə də, inzibati rayonların işğal altında olmayan sahələrində qismən də olsa qalmışdır.

Postmüharibə dövründə isə əsas hədəflərdən biri də mövcud olmuş istehsal və qeyri isthsal sahələrinin yenidən inkişaf dövriyyəsinə qaytarılmasıdır. Dövlət Statistika Komitəsinin 2021-cu il məlumatına əsasən iqtisadi rayonların illik ümumi məhsul istehsalı aşağıda verilmişdir (Cədvəl 1).

Cədvələ əsasən demək olur ki, sahəsinə görə ən böyük iqtisadi rayon Qarabağ iqtisadi rayonudur. Əhali sayı az olan iqtisadi rayonlar isə Dağlıq Şirvan, Şərqi Zəngəzur, Naxçıvan iqtisadi rayonlarıdır.

İdarəetmənin yerinə yetirilməsi yaşayış məntəqəsinə verilən statusdan və buna uyğun funksiyanın müxtəlif təmayüldə fəaliyyət göstərməsindən asılıdır [2].

Ümumi məhsul istehsalına görə Bakı, Abşeron, Mərkəzi Aran və Naxçıvan fərqlənir. Dağlıq Şirvan, Şərqi Zəngəzur, Qarabağ bu göstəricilərə görə aşağıdır. Şərqi Zəngəzur, Qarabağ iqtisadi rayonlarında belə vəziyyət işğal faktoru ilə əlaqədardır. Ona görə də bu göstəricilər üzrə nəticələrin yüksəldilməsi vacibdir. Təbiətdən istifadə iqtisadiyyatın əsaslı və çoxsahəli sferasını əhatə edir və çox mürəkkəb təşkilati quruluşa (struktura) malikdir [3].

Şəkil 1. "ANAMA" minatəmizləmə prosesi zamanı

İşğaldan azad olunmuş ərazilərə əhalinin "Böyük Qayıdış"ı mərhələli formada aparılmalıdır. Əvvəlcə bütün regionda yol infrastrukturu, körpülər, SES-lər, su və qaz təminatı icra olunmalıdır. Nəzərə almaq lazımdır ki, 30 illik işğal dövründə torpaqlarımız ekoloji cəhətdən çirklənməyə məruz qalıb, yeraltı və yerüstü sərvətlərimiz talan olunmuşdur. Regionda mövcud olmuş meşə ehtiyatları da barbarcasına məhv olunub. Əkinə yararlı torpaq sahələri, su resursları radioaktiv maddələrlə zəhərlənmişdir. Məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasında əsas problemlərdən biri də mina təhlükəsinin olmasıdır. Ermənistanla aparılan danışıqlar nəticəsində minalanmış ərazilərin xəritələri verilsə də, əfsuslar olsun ki, mütəxəssislərin rəyinə görə rəsmi olaraq onların dəqiqlik faizi cəmi 25% təşkil edir. Məlum olmuşdur ki, Cəbrayıl, Füzuli və Zəngilanda 2016-cı ildən bəri atəşkəs sazişi imzalanandan sonra, Kəlbəcər, Ağdam və Laçında isə 10 noyabr sazişindən sonra təxribat məqsədi ilə minalar basdırılmışdır. Bu isə beynəlxalq terrorizmin bir növü hesab olunur. Kapitulyasiya aktından sonrakı dövrdə 150 nəfərdən çox insan mina partlayışından həlak olmuş və ya ağır yaralanmışdır. Hazırda işğaldan azad olunmuş ərazilərədə minalardan təmizlənmə işini əsasən Azərbaycan respublikasının Minatəmizləmə Agentliyi "ANAMA" təşkilatı məşğul olur. Bu təşkilat həftəlik hesabat hazırlayaraq dərc edir. Eyni zamanda Türkiyə, Rusiya, İsrailin mina sahəsi üzrə mütəxəssisləri də bu işdə Azərbaycana köməklik edir. İndiyədək təşkilat tərəfindən 20000 hektardan çox ərazi minalardan təmizlənmişdir. "ANAMA"-nın məlumatına görə, Azərbaycan ərazisi dünyada mina ilə çirklənmə dərəcəsinə görə ilk üçlükdə yer alır (Şəkil 1).

"Böyük Qayıdış"-ın həyata keçirilməsi üçün həmin iqtisadi rayonlara daxil olan inzibati rayonların əhali sayının və demoqrafik göstəricilərinin bilinməsi vacibdir. Bu prosesin elminəzəri əsaslarla aparılması məqsədəuyğundur. Birinci mərhələdə əhali arasında sosioliji sorğu keçirilməli, könüllü getmək istəyən əhali qrupları dəqiqləşdirilməlidir. Eyni zamanda köçmək istəyən əhali qrupları müəyyən müddətə vergilərdən azad olunmalı, aldıqları sosial yardımlar ən azı 5 illiyə qüvvədə olmalıdır. İşğaldan azad olunmuş ərazilərin 01.01.2021-ci il tarixinə əhali sayı belədir: Xankəndi şəhəri- 55,9 min nəfər, Ağdam rayonu-205,1 min nəfər, Füzuli rayonu-134,7 min nəfər, Xocalı-29,0 min nəfər, Xocavənd rayonu-44,2 min nəfər, Şuşa rayonu-34,9 min nəfər, Cəbrayıl rayonu-82,2 min nəfər, Kəlbəcər rayonu-94,7 min nəfər, Qubadlı rayonu- 41,9 min nəfər, Laçın rayonu-79,2 min nəfər, Zəngilan rayonu-45,5 min nəfər [1]. Xankəndi şəhəri, Xocalı, Xocavənd, Şuşa, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının əhalisi tamamilə respublikanın müxtəlif regionlarında məskunlaşmışdır. Bu o deməkdir ki, bu inzibati rayonlara perspektiv planda 507,5 min nəfər əhali köçürülməlidir. Digər inzibati rayonlarda (Ağdam, Füzuli) əhalinin bir hissəsi əvvəllər işğal olunmamış ərazilərdə məskunlaşmışdır. Təkcə qeyd olunan inzibati rayonlarada köçürüləcək əhali sayı yarım milyondan çoxdur. Ona görə də aydındır ki, bu proqramın həyata keçirilməsi böyük həcmdə maliyyə vəsaitləri tələb edir. Proqramın səmərəli və keyfiyyətli formada icra olunması üçün işğaldan azad

olunmuş ərazilərdə Prezidentin xüsusi nümayəndəlikləri (Şuşa və işğaldan azad olunmuş digər ərazilərdə) fəaliyyət göstərir. Xüsusi nümayəndəlik institutu icrası vacib məsələlərin operativ şəkildə həll olunmasına köməklik edəcəkdir. Xüsusi nümayəndə müəyyən olunmuş hüdudlar daxilində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidənqurulma-sı istiqamətində işləri icra edən Azərbaycan Respublikası Prezident Adminstrasiyasının struktur bölməsidir. Artıq nümayəndəliyin müsbət istiqamətlərdə fəaliyyətləri müşahidə edilir.

Nəticə. Məqalənin mövzusu istiqamətində aparılmış elmi-metodiki təhlillər aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının təşkil edilməsi mütərəqqi siyasi-coğrafi qərardır və regonal inkişaf üçün yeni perspektivlər açır.
2. ”Böyük Qayıdış” layihəsinin icra olunması üçün ərazidə kompleks kommunikasiya, sosial infrastruktur təminatı, işsizlik problemi, mina təhlükəsizliyi, sosial təminat məsələləri tam şəkildə həllini tapmalıdır.
3. Postmüharibə dövründə əvvəllər mövcud olmuş istehsal və qeyri-isthsal sahələrinin yenidən inkişaf dövriyyəsinə qaytarılması və yenidən qurulması vacibdir.
4. İşğaldan azad olunmuş ərazilərdə yeni formalaşdırılmış Prezidentin xüsusi nümayəndəliyi institutu effektiv və məqsədəuyğun fəaliyyət göstərir.

ƏDƏBİYYAT

1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.
2. Əfəndiyev V.Ə. Urbanizasiya və şəhər yaşayış məskənləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, 397 s.
3. Göyçaylı Ş.Y. İsmayılov T. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları. Bakı: Şirvannəşr, 2006, 176 s.
4. Həsənov T.G. Coğrafiyanın tədqiqat metodları. Bakı: Bakı Universiteti nəşriyyatı, 1990, 214 s.
5. Həsənov T.G. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı: Çaşıoğlu, 2002, 118 s.

SUMMARY

PROSPECTS FOR THE DEVELOPMENT OF THE KARABAKH GEO-ECONOMIC AREA AND THE IMPLEMENTATION OF THE "GREAT RETURN"

Agamammadov N.T.

The liberation of the occupied territories as a result of the 44-day war in the last thirty years has revealed new realities and approaches in the region. Two of the 14 economic regions established in Azerbaijan after the occupation cover the liberated territories. East Zangazur was completely plundered and most of the Karabakh economic region was looted by Armenian vandals. At present, the main priority is the integration of the territories into the economy, to ensure the "Great Return" of the population. The article examines the region's natural resources, territorial and population potential, future development, and settlement routes.

Keywords: *Karabakh geographical and economic region, Armenian research, development, Great Return, natural resources, production and non-production areas*

РЕЗЮМЕ

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ КАРАБАХСКОГО ГЕО-ЭКОНОМИЧЕСКОГО РАЙОНА И РЕАЛИЗАЦИЯ «ВЕЛИКОГО ВОЗВРАТА»

Агамаммадов Н.Т.

Освобождение оккупированных территорий в результате 44-дневной войны за последние тридцать лет выявило новые реалии и подходы в регионе. Два из 14 экономических районов, созданных в Азербайджане после оккупации, охватывают освобожденные территории. Восточный Зангезур был полностью разграблен, а большая часть Карабахского экономического района разграблена армянскими вандалами. В настоящее время основным приоритетом является интеграция территорий в экономику, обеспечение «Большой отдачи» населения. В статье рассматриваются природные ресурсы региона, территориально-демографический потенциал, перспективы развития, пути расселения.

Ключевые слова: *Карабахский географический-экономический район, армянская агрессия, развитие, Великое Возвращение, природные ресурсы, производственные и непроизводственные сферы*

AZƏRBAYCANIN İQTİSADİ RAYONLARININ YENİ BÖLGÜSÜ VƏ ONUN QARABAĞ REGİONUNUN BƏRPASI VƏ İQTİSADİ İNKİŞAFINDA ƏHƏMİYYƏTİ

Ağayev T.D.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
aqayev_tahir@mail.ru

Açar sözlər: *yeni iqtisadi bölgü, sosial-iqtisadi inkişaf, azad edilmiş ərazilər, təbii ehtiyatlar, alternativ enerji*

2021-ci il iyulun 7-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iqtisadi rayonların yeni bölgüsü haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılıb. Ölkənin paytaxtı ayrıca iqtisadi rayon kimi ayrılıb, yeni Qarabağ və Şərqi Zəngəzur yaradılıb. Qarabağ iqtisadi rayonu Xankəndi şəhərini, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Suşa və Tərtər rayonlarını əhatə edir. Sənəddə zəngin tarixi-mədəni irsə, füsunkar təbiətə malik qədim Qarabağ bölgəsinin bərpasını və sürətli inkişafını təmin etmək üçün Qarabağ iqtisadi rayonunun yaradılmasının vacibliyi qeyd edilib.

Yeni yaradılmış Şərqi Zəngəzur rayonuna işğaldan azad edilmiş Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxildir. Bu rayonlar Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə və tarixi Zəngəzur qəzasının ərazisində yerləşmişdir. Belə ki, 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi- mədəni bağlılıqları onların vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Son otuz ilə yaxın müddətdə erməni vandalları tərəfindən işğal altında olan Qarabağ ərazilərində təbii ehtiyatların böyük miqyasda məhv edilməsi və meşə yanğınlarının törədilməsi ölkəmiz üçün böyük ekoloji problemlər yaratmışdır[2]. Şirin su mənbəyli tranzit çaylarımızın Ermənistan tərəfindən uzun müddət təxribat törətməklə kimyəvi, radioaktiv və digər zərərli maddələrlə intensiv çirkləndirməsi də bizim üçün həm ekoloji, həm də sosial-iqtisadi inkişafın qarşısını alan problemlər törədir. Bununla Ermənistanın həyata keçirdiyi təcəvüzkar siyasət işğal olunmuş ərazilərdəki Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə və bütövlükdə, regionun ekoloji durumuna dağıdıcı təsir göstərmişdir[2,3,5].

İqtisadi rayonların yeni bölgüsü iqtisadi ixtisaslaşmanı, səmərəli investisiya siyasətinin həyata keçirilməsini və çevik regional idarəetməni təmin edəcək. Bu, həm də 44 günlük müharibədən sonra azad edilmiş ərazilərin bərpasına və inkişafına təkan verəcək və işğaldan azad edilmiş ərazilərin vahid inkişaf planının yaradılmasında mühüm addım kimi qiymətləndirilə bilər. Aydındır ki, işğaldan azad edilmiş ərazilərdə bərpadan sonra iqtisadi imkanların reallaşması Azərbaycan iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Qeyd etmək lazımdır ki, işğal altında olan torpaqlarda 600 sənaye və kənd təsərrüfatı müəssisələri dağıdılıb, talan olunub, 1 milyon hektardan çox kənd təsərrüfatı sahəsi, o cümlədən, təxminən, 128 min suvarılan torpaq sahəsi, 35 min hektara yaxın üzüm və meyvə bağları məhv edilərək dövriyyədən çıxarılıb [4].

Qeyd etmək lazımdır ki, yeni iqtisadi rayonların əmək ehtiyatları kiyafət qədərdir. Həm də işğaldan azad edilmiş rayonların ərazilərindən məcburi köçkün düşmüş vətəndaşlarımızın böyük hissəsi öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Buna görə də həmin rayonlarda yeni iş yerlərinin açılması əhəmiyyət kəsb edir..

Ermənistan tərəfindən işğal olunmuş Qarabağ torpaqlarında, həmçinin işğal zamanı qeyri-qanuni istismar edilən qızıl, mis, civə, xromit, qurğuşun-sink kimi müxtəlif zəngin faydalı qazıntı yataqları vardır.

Bu istehsal güclərinin bərpası iqtisadiyyatın müxtəlif sahələrinin, xüsusilə də kənd təsərrüfatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcək. İlkin hesablamalara görə, yalnız yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonu sənaye, kənd təsərrüfatı, heyvandarlıq və turizm kimi sahələrdə böyük imkanlara malik olduğundan yaxın illərdə ölkənin iqtisadiyyatının inkişafına öz payını verə bilər. Yaxın gələcəkdə yeni iqtisadi rayonlarda Azərbaycanın iqtisadiyyatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərən kənd təsərrüfatı və sənaye məhsulları istehsal etmək mümkün olacaq.

İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan təbii ehtiyatların potensialı yüksəkdir, xüsusilə hidroenergetika. Müəyyən edilmişdir ki, Azərbaycanın yerli su ehtiyatlarının təxminən $\frac{1}{4}$ (2,56 milyard kubmetr su) hissəsi Qarabağda formalaşır. Bu isə su elektrik stansiyalarının (SES) yaradılması üçün böyük imkanlar yaradır. 44 günlük müharibə zamanı Azərbaycan erməni qəsbkarları tərəfindən dağıdılan 30 su elektrik stansiyası üzərində nəzarəti bərpa etdi, onların bir çoxu artıq bərpa olunub, digərlərində isə yenidənqurma işləri aparılır. İşğaldan azad edilmiş ərazilərdə alternativ enerji ehtiyatı, həm günəş və həm də külək enerjisinin əhəmiyyətli potensialı mövcuddur. Bu baxımdan Kəlbəcər və Laçın rayonları külək enerjisinin, Zəngilan, Cəbrayıl və Füzuli rayonları isə günəş enerjisinin böyük potensialına malikdir.

Aydındır ki, yeni iqtisadi rayonların ərazilərinin iqtisadi potensialını reallaşdırmaq üçün dayanıqlı nəqliyyat infrastrukturu mövcud olmalıdır. Ona görə də işğaldan azad edilmiş ərazilərin bərpası proqramının əsas istiqamətlərindən biri inteqrasiya olunmuş nəqliyyat infrastrukturunun yaradılmasıdır[1]. Artıq Qarabağın ilk hava limanı olan Füzuli Beynəlxalq Hava Limanı tikilib və sınaq uçuşları həyata keçirilib. Bu hava limanının uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Bundan başqa Zəngilan və Laçın rayonlarında daha iki beynəlxalq hava limanının da təməli qoyulub. Bu hava limanları ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə yerli avtomobil və dəmir yolları şəbəkəsinin bərpası və genişləndirilməsi işlərinə də başlanıb və artıq bəzi avtomobil yolları istifadəyə verilib.

Göründüyü kimi, yeni iqtisadi rayonların ərazilərində kənd təsərrüfatı, energetika, nəqliyyat və digər sahələrdə mövcud iqtisadi imkanlar, onların reallaşdırılması və iqtisadi rayonların yeni bölgüsü yolu ilə səmərəli idarə olunması Qarabağın iqtisadi inkişafına, həm də Azərbaycan iqtisadiyyatına əhəmiyyətli töhfə verəcəkdir. Buna görə də Qarabağın bərpasının əsas məqsədlərindən biri onun Azərbaycan iqtisadiyyatındakı payını işğaldan əvvəlki səviyyəyə qaytarmaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı. 2020. 828 s.
2. Ağayev T.D. Ölkənin sosial-iqtisadi inkişafında təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinin əhəmiyyəti// Azərbaycan respublikası 1991-2021: dövlət müstəqilliyinin bərpası, iqtisadi və sosialmədəni inkişafı. Respublika elmi konfransı (14-15 oktyabr 2021), SDU. 2020, s. 139-141
3. Ağayev T.D., Əhmədov Ş.A.,Xəlilov T.A. Ekoloji təhlükəsizlik.Bakı:Elm. 2013.177 s.
4. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri.Xalq qəzeti. 09.12.2020
5. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası.Bakı: Maarif, 1998, 400 s.

SUMMARY

NEW DIVISION OF THE ECONOMIC REGIONS OF AZERBAIJAN AND ITS SIGNIFICANCE IN THE RESTORATION AND ECONOMIC DEVELOPMENT OF THE KARABAKH REGION

Agaev T.D.

The article discusses a new division of the economic regions of the country and its significance in the restoration and economic development of the Karabakh region. It is noted that the new division of economic regions will ensure economic specialization, the implementation of an effective investment policy and flexible regional management. The existing economic opportunities in the territory of the new economic regions, their implementation and effective management through the new division of economic regions will make a significant contribution to the economic development of Karabakh, as well as to the economy of Azerbaijan.

Keywords: *new economic division, socio-economic development, liberated territories, natural resources, alternative energy*

РЕЗЮМЕ

НОВОЕ ДЕЛЕНИЕ ЭКОНОМИЧЕСКИХ РАЙОНОВ АЗЕРБАЙДЖАНА И ЕГО ЗНАЧЕНИЕ В ВОССТАНОВЛЕНИИ И ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ КАРАБАХСКОГО РЕГИОНА

Агаев Т.Д.

В статье рассматривается новое деление экономических районов страны и его значение в восстановлении и экономическом развитии Карабахского региона. Отмечается, что новое деление экономических районов обеспечит экономическую специализацию, реализацию эффективной инвестиционной политики и гибкое региональное управление. Существующие экономические возможности на территории новых экономических районов, их реализация и эффективное управление посредством нового деления экономических районов внесет значительный вклад в экономическое развитие Карабаха, а также в экономику Азербайджана.

***Ключевые слова*:** *новое экономическое деление, социально-экономическое развитие, освобожденные территории, природные ресурсы, альтернативная энергия*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN İNKİŞAFINDA SOSİAL – İQTİSADİ VƏ EKOLOJİ AMİLLƏR

Alməmmədli M.G.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
mesudaz@mail.ru

Açar sözlər: *Qarabağ, Şərqi Zəngəzur, kurort, turizm, rekreasiya.*

Ənənəvi olaraq daxili turizm istiqamətlərinin inkişafı iri turizm mərkəzlərinin ətrafında formalaşır. Daxili turizm müstəqillik illərində Azərbaycanın Xəzər dənizinin Nabran sahillərində, Böyük Qafqazın cənub və şimal-şərq yamacları, Kiçik Qafazın şimal-şərq yamacı və Talış bölgəsində yerləşən istirahət mərkəzlərinə kütləvi səyahətlər hesabına inkişaf etməkdədir. İsmayıllı, Qəbələ, Quba, Şahdağ, Nabran, Göygol, İstisu artıq tanınmış turizm brendlərinə çevrilib. 2020 - ci ildə Şanlı Ordumuzun işğaldan azad etdiyi Dağlıq Qarabağ və ətraf rayonlar da həvəskar turizm üçün, istərsə də beynəlxalq turizm üçün cazibə mərkəzlərinə çevrilməkdədir. Onu da qeyd etmək lazımdır ki, həvəskar turistlər ilə bağlı rəsmi məlumat və göstəricilər yoxdur, çünki turistlər şəxsi nəqliyyat vasitələri ilə səyahət etməyə və ya çadır şəhərciklərində, ya da yerləşdirmə obyektlərində qalmağa üstünlük verirlər. Həmin obyektlərin sahibləri mövsüm üzrə ziyarətçilərin sayı və onların qalma müddəti haqqında hesabat təqdim etmirlər. Turizm şirkətləri qeyd edirlər ki, yerli səyahətçilər öz ailələrinin bir hissəsi kimi, təkbaşına dincəlməyə və səyahətlərini turizm agentlərinin köməyi olmadan təşkil etməyə üstünlük verirlər. Həmçinin, müstəqil turistlər səyahət agentliyinin ofisinə baş çəkdikdən və ölkədaxili çimərlik tətili tarifləri ilə tanış olduqdan sonra səyahət etmək qərarına gələrək dostları və qohumları ilə birlikdə tətil təşkil edirlər.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları turizm sektorunun inkişafında yay tətili dövrü (iyun-avqust), klimatoterapiyanın müxtəlif sahələrində səmərəli istifadə olunan əlverişli iqlim şəraiti kompleksi, zəngin hidro-mineral ehtiyatların (mineral sular, müalicəvi palçıq) olması və turizm məhsulunun həyata keçirilməsində və sanatoriya-kurort işləri təşkilində mühim əhəmiyyət kəsb edən əraziləri özündə cəmləmişdir. Sovet dövrü zamanı toplanmış təcrübə, kurort müalicəsi, Kəlbəcər, Şuşa və digər bölgələri Azərbaycan Respubliksının unikal kurortlarına çevirməyə imkan verir. Həmin sahələrin inkişaf etdirilməsi zanmanı Rusiya Fedrasiyasının Şimali Qafqazda yerləşən kurort – sanatoriya mərkəzlərinin təcrübəsindən də istifadə etmək məqsədə uyğun olardı. [4].

Hamıya məlumdur ki, Dağlıq Qarabağ, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Füzuli və Cəbrayıl rayonlarının ərazisi güclü turizm potensialına malikdir və bir sıra müxtəlif turizm resurslarına malik olmaqla, elementləri aktiv istirahət, rekreasiya və sağlamlaşdırıcı olan cəlbedici və hərtərəfli turizm məhsulu yaratmağa imkan verir. Yuxarıda adları çəkilən ərazilər turizm, xizək sürmə, idman, ekoloji, görməli yerləri, etnoqrafik, uşaq və gənclər turizmi, mağaraçılıq, axtarış-xilasetmə və macəra yarışları üçün çox əlverişlidir. Mağara həvəskarları üçün ərazidə yerləşən Azıx mağarası cazibədarlığı ilə diqqəti cəlb edir [1, 2, 3]

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində turizm və rekreasiya tipli xüsusi iqtisadi zonanın (XİZ) yaradılması turizm, sanatoriya-kurort və rekreasiya potensialı kompleksinin həyata keçirilməsinə müsbət təsir göstərmiş olardı. Yuxarıda göstərilənlərin hamısına əlavə etmək lazımdır ki, bu diyarı antik dövrdən və orta əsrlərdən başlayaraq bir neçə dövrü əhatə edən unikal tarixi, mədəni və arxeoloji irs obyektləri ilə zəngindir. Sosial-iqtisadi, tarixi, mədəni, təbii və ekoloji amillər kompleksi Dağlıq Qarabağ və ətraf rayonların rəqabətqabiliyyətli turizm məkanı kimi dinamik inkişafı üçün əlverişli şərait yaradır.

Eyni zamanda, vurğulamaq lazımdır ki, bəhs etdiyim ərazinin turizm bölgələrinin ekoloji rahatlığı bir neçə əsas amili - ərazinin inkişafı üçün sosial-iqtisadi şəraiti, təbii şərait, ətraf mühitin keyfiyyəti və komfortunu nəzərə alaraq ətraflı təhlillə müəyyən edilə bilər [1].

Mövsümi antropogen təzyiq altında olan turizm regionunun vəziyyətində və inkişafında tədbir turizminin mühüm rol oynamasına diqqət yetirmək lazımdır. Tarixən Şuşa keçirilən Xarı Bülbül musiqi festivalı əraziyə turist axınına öz töhfəsini vermiş olar. İlk dəfə 1989 –cu ildə keçirilən festivalda Sovet İttifaqının müxtəlif yerlərindən 100 - ə yaxın musiqiçi iştirak etmişdir. Növbəti ildə keçirilən musiqi festivalında Türkiya, İsrail, Almaniya dövlətlərindən olan musiqiçilər festival iştirakçılarına qoşulmuşdular. 1991 - ci ildə keçirilən 3-cü estivalda artıq Dünyanın 25 ölkəsindən 300-ə yaxın musiqiçi festivalda iştirak etmişdir. İştirakçıların sırasına ABŞ, Avstraliya kimi uzaq ölkələrdən gəlmiş musiqiçilər də qoşulmuşdur.[5, 6]

Dövlət işğaldan azad olunmuş torpaqlarda turizmin təşviqi siyasətini təkmilləşdirməlidir. Bunun üçün digər məsələlərlə yanaşı, region turizminin uğurlu və müntəzəm tədqiqatı həyata keçirilməlidir. Beynəlxalq turizm sərgilərində məhsul, sosial şəbəkələrdə tərəfdaşlar, investorlar, maraqlı şəxslər, potensial və daimi turistlərlə aktiv iş aparılmalıdır. Gələcəkdə rayonda minimum kurort haqqının tətbiq edilməsi bölgədə turistlərin istehlak mədəniyyətinin səviyyəsinin yüksəldilməsi istiqamətində növbəti addımlardan biri olardı. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin effektiv inkişafı tempinə kömək edən amillər arasında turizm kompleksinin

infrastrukturunun bərabər paylanmasına, iqtisadi və kütləvi turizm seqmentində xidmətin keyfiyyətinin yüksəldilməsinə, ərazinin kurortlarına səyahət edəcək avtoturistlər üçün nəzərdə tutukan geniş turizm seqmentinə malik olan saytların yaradılmasına nail olmaq lazımdır.

Turizm, restoran, mehmanxana və ekskursiya xidmətləri sektorunda kadrların kifayət qədər ixtisasının olmaması (o cümlədən turizm mədəniyyətinin, peşə etikasının, xarici dil biliyinin aşağı olması) fərdi yaşayış obyektləri və fərdi sahibkarlar üçün xüsusilə xarakterikdir. Bu neqativ halların aradan qaldırılması üçün turust sektoruna ixtisaslı kadrları cəlb etmək lazımdır. İxtisaslaşdırılmış turizm sərgilərin keçirilməsi regiona investisiya cəlb etməyə xidmət etmiş olardı ki, bu da həm Qarabağ və ətraf rayonların, həm də Azərbaycanın digər bölgələrinin maraqlarına müsbət təsir edərdi.

Müəyyən edilmiş problemlər yeni bazar seqmentlərinin işlənməsi, yeni turist formatları olan MICE, konfrans-turizm, FIT, B2B, B2A, təhsil və işgüzar turizmin axtarışı və tətbiqi, regionun antropogen yükünün optimallaşdırılması, bütün təqvim ili ərzində mehmanxana vəsaitlərinin yüklənməsinin səmərəli planlaşdırılması nəzərə alınmaqla qısa və uzunmüddətli tədbirlər təqvimlərinin formalaşdırılması ilə həll edilə bilər [4, 5]., Bu problemlərin həlli bölgəyə açıqlanan mövsümi antropogen yükü yenidən bölüşdürəcək, turizm məkanının ekoloji rahatlıq səviyyəsini yüksəldəcək, turist təklifləri üçün daha çevik qiymət siyasəti aparacaq və ərazinin turizm məhsulunun rəqabət qabiliyyətini artıracaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Coğrafiyası. Fiziki Coğrafiya/ - Bakı: - Avropa, - I cild, - 2014.-529 s.
2. Azərbaycan Respublikasının Coğrafiyası. III cild, Regional Coğrafiya. Bakı - Avropa , 2014,399 s.
3. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası/ M.A. Müseyibov. – Bakı:Maarif, -1998. – 400 s.
4. Тимошенко Д. С. Роль брендинга туристских дестинаций в Российской Федерации / Д. С. Тимошенко // Экономические и гуманитарные науки. – 2010. – № 12(227). – с. 132-136.
5. Тимошенко Д. С. Проблемы развития туристического рынка Российской Федерации и подготовки профессионально ориентированных кадров сферы туризма в период мирового финансово-экономического кризиса / Д. С. Тимошенко // Цивилизация знаний: глобальный кризис и инновационный выбор России. 2009 : труды 10-й Международной конференции. – Москва : РосНОУ. – 2009. – Ч. 1. – с. 489-493.
6. https://az.sputniknews.ru/culture/20210513/426946521/Festival-Khary-byulbyul
7. http://www.medeniyyettv.az/az/news/1555/tarixi-xari-bulbul-festivali

SUMMARY

SOCIO-ECONOMIC AND ENVIRONMENTAL FACTORS OF TOURISM DEVELOPMENT IN THE ECONOMIC REGIONS OF KARABAKH AND EASTERN ZANGEZUR

Almammadli M.G.

The article assesses the development of the tourism potential of the Karabakh and East Zangezur economic regions. The complex impact of socio-economic and environmental conditions is studied on the example of Nagorno-Karabakh and adjacent territories and the main problems of the tourism industry are listed. The article outlines promising areas for promoting the region in the domestic and international market

***Keywords**: Karabakh, East Zangazur, resort, tourism, recreation*

РЕЗЮМЕ

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ И ЭКОЛОГИЧЕСКИЕ ФАКТОРЫ РАЗВИТИЯ ТУРИЗМА В ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ КАРАБАХА И ВОСТОЧНОГО ЗАНГЕЗУРА

Алмаммадли М.Г.

В статье оценивается развитие туристического потенциала Карабахского и Восточно-Зангезурского экономических районов. Изучено комплексное воздействие социально-экономических и экологических условий на примере Нагорного Карабаха и прилегающих территорий и перечислены основные проблемы туристической отрасли. В статье обозначены перспективные направления продвижения региона на внутреннем и международном рынках.

***Ключевые слова**: Карабах, Восточный Зангезур, курорт, туризм, рекреация.*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZDƏ TURİZM VƏ REKREASİYA POTENSİALININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Babaşova Ə.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
efsan_73@mail.ru

Açar sözlər: *turizm xidməti, iqtisadi-coğrafi rayon, tarixi-mədəni abidələr, təbii landşaft kompleksləri, kurort-rekreasiya*

Turizm sənayesi bir çox ölkələrin iqtisadiyyatında mühüm rol oynayır. Dünyanın bir sıra ölkələrində minlərlə insanın məşğulluğunu təşkil edən və təsərrüfatın bütün sahələri ilə əlaqədə fəaliyyət göstərən, geniş maddi texniki bazaya malik olan, dayanıqlı inkişaf edən turizm sənayesi mövcuddur. Turizmin inkişafı iqtisadiyyyat, ekologiya, siyasət kimi sahələrə böyük təsir göstərir və əksinə olaraq bu sahələr də turizmə təsir edirlər. Müasir dövrdə asudə vaxtın artması, əhalinin gəlirlərinin çoxalması,yaşayış səviyyəsinin yüksəlməsi əhalinin istirahət və əyləncələrə meylini artırmış və turizm xidmətlərinin genişlənməsinə səbəb olmuşdur. Dünya turizm sektorundakı inkişafı respublikamızda da müşahidə etmək olar. Müstəqillik əldə edildikdən sonra ölkənin turizm potensialı qiymətləndirilmiş, qeyri-neft sektorunda turizm sənayesinin inkişafına təkan verilmiş və ÜDM-da bu sahədən gələn gəlirlərin payı yüksəlmişdir. Respublika prezidentinin "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqda", "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə inkişafının Dövlət Proqramı","Azərbaycan kurortları Dövlət Proqramı haqda" fərmanları buna sübutdur.[2. səh.6-10]

Hazırda işğaldan təmizlənmiş ərazilərin bərpa edilməsi, bundan sonrakı dövrdə inkişafının təmin olunması, sənaye və sosial infrastrukturun yaradılması və ən əsası qaçqın əhalinin doğma torpaqlarına qayıtması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Həmin torpaqların zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədə müvafiqliyi ərazisi işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Azərbaycan Respublikasının yeni iqtisadi rayonları bölgüsündə işğaldan azad olunan torpaqlarımızın əhatə olunduğu inzibati əraziləri aşağıdakı iqtisadi rayonlarda öz təsdiq tapmışdır:

1. **Qarabağ iqtisadi-coğrafi rayonu** (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);
2. **Şərqi Zəngəzur iqtisadi-coğrafi rayonu** (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

Həmin bu inzibati rayonların demək olar ki, (yalnız Ağcabədi və Bərdə inzibati rayonları istisna olmaqla)hamısı respublikamızın əvvəlki iqtisadi rayon bölgüsündəki Yuxarı Qarabağ və Kəlbəcər- Laçın iqtisadi-cöğrafi rayonlarının ərazi dairələridir. Bu yeni iqtisadi-inzibati bölgünü, bölgənin tarixi-coğrafi inkişaf xüsusiyyətləri nöqteyi-nəzərindən də düzgün hesab etmək olar.

Keçmiş Yuxarı Qarabağ(indiki Qarabağ iqtisadi rayonu) iqtisadi-coğrafi rayonu zəngin təbii sərvətlərə malikdir. Burada mühüm polimetal filiz yataqları, vulkanik mənşəli rəngarəng tikinti daşları yayılmaqla yanaşı, regionun mineral və müalicə suları, kurort- rekreasiya ehtiyatları kimi potensial iqtisadi inkişaf imkanları mövcuddur. Düşmən tapdağından azad olduqdan sonra iqtisadi bölgənin çox böyük inkişaf etmə potensialı vardır. Əvvəlki Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonu tərkibinə daxil olan Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı inzibati ərazi vahidlərində də qızıl, civə, polimetal, tikinti materilları ilə yanaşı meşə, müxtəlif tərkibli mineral sular və s. kimi kurort-balneoloji əhəmiyyətli təbii sərvətlər ehtiyatı vardır. Zəngilan rayonu ərazisində 1974-cü ildə yaradılmış sahəsi 107 kv.m olan, nadir təbii şərq çinarlı meşə kompleksini qoruyub saxlamaq məqsədilə qoruq yaradılmışdı. Hazırda ermənilərin təcavüzü nəticəsində bu qoruğa çox böyük ziyan dəymişdir. Bu təbiətin nadir meşə kompleksinin bərpasına yəqin ki bir xeyli vaxt lazım olacaqdır. 1987-ci ildə təşkil edilmiş Laçın və qismən də Gorus rayonlarının ərazilərini əhatə edən Qaragöl dövlət qoruğu da məlum səbəblərdən həmin aqibətə məruz qalmışdır. Qaragöl dövlət qoruğunda əsasən dağ gölü xarakterli landşaft kompleksi qorunub saxlanılırdı[1. səh.137].

İşğaldan azad olmuş iqtisadi rayonlarımızın kurort-rekreasiya potensialı, tarixi mədəniyyət abidələrinin zənginliyi, gözəl təbii-meşə landşaftları, müalicəvi suları, təmiz dağ havası, dağlıq və düzən relyefi turizmin müxtəli növlərini inkişf etdirmək üçün xeyli geniş imkanlar açır. Qədim Alban tikililəri, Şuşa qalası və oradakı digər tarixi-

memarlıq abidələri turizm obyektləri kimi qonaqpərvərlikdə çox mühüm əhəmiyyətə malikdirlər. Bu qiymətli tarixi-memarlıq abidələri Qarabağa səfər edənləri milli-mədəni və tarixi irsimizlə tanış etməklə onlarda əhatəli təəssürat yaratmış olacaqdır.

Təbiət abidələri də elmi, tarixi, mədəni estetik əhəmiyyətə malik olub təbiəti mühafizə formalarından biridir. Buraya unikal təbiət obyektlərindən hesab olunan qeyzerlər, şəlalələr, mağaralar, geoloji açılmalar, paleontoloji obyektlər, nadir üzünömürlü ağaclar, və s. aiddir. Turizm sərvətlərinə nadir təbiət kompleksləri(mühafizəsinə böyük ehtiyac olan Sultanbud meşə landşaftları, vaxtilə ətrafında turist bazası olan Bəsitçay meşə tipləri, xüsusi maraq doğuran Alp landşaft kompleksi Qaragöl dağ-göl vulkanogen fasiyaları və s.) ilə yanaşı mədəni-tarixi yerlər, milli parklar də daxildir[3. səh.51-63]. Qarqar çayı hövzəsində yerləşən Daşaltı yasaqlığındakı "Topxana" Qarabağın ən böyük, ulu təbiət və tarix abidəsi kimi unikal relyef xüsusiyyətli mürəkkəb təbiət komponentləri ilə zəngin təbii meşə-çəmən bitkiləri kompleksləridir. Şuşa şəhərinin və onun ətrafının bolneoloji iqlimi, füsunkar şəfalı təbiət kompleksi yalnız Şuşadan deyil, onun ətraf ərazilərindən də sanatoriya-kurort, turizm məqsədləri üçün geniş istifadə etməyə tam imkan verir. Bütün bunlara əsasən Daşaltı yasaqlığının, Şuşa tarixi qoruğunun və şəhərdəki sanatoriyaların bazası əsasında Murovdağ milli parkının Şuşa sahəsini təşkil etmək çox faydalı tədbir olmalıdır. Belə milli park ərazidən sanatoriya-kurort kimi tam istifadə etməyə, təbii ərazi komplekslərini və qiymətli tarixi obyektləri qorumağa, rekreasiya və turizmi xeyli inkişaf etdirməyə, yerli təbii sərvətlərdən səmərəli istifadə etməyə tam imkan verərdi.

Nəticə. Bu baxımdan işğaldan azad edilən torpaqlarımızda yeni yaradılmış iqtisadi-coğrafi rayonlarımızın milli-mədəni sərvətlərini, təbii coğrafi obyektlərini də beynəlxalq turist marşrutlarına daxil etməklə ərazinin inkişafına, çiçəklənməsinə və iqtisadi-sosial inkişafına nail olmaq olar. Burada dağ-idman turizmi, ekoloji turizm, ekskursiya turizmi, müxtəlif mədəniyyətləri öyrənmək məqsədli ziyarət turizmi, istirahət-kurort məqsədli rekreasiya turizmi və s. turizm növlərini inkişaf etdirmək üçün fürsət yaranmışdır. Təbii, sosial-mədəni, tarixi-memarlıq, sağlamlıq kimi sadalanan turizm resurslarının bolluğu və məcmusu bölgəni turizm regionuna çevirmək imkanları açacaqdır. Xüsusi estetik sərvət olan səciyyəvi nadir təbii landşaftların həm qorunması həm də istirahət-kurort kimi istifadəsi üçün milli parkların yaradılması da vacib məsələlərdən biridir. Yeni azad olunmuş iqtisadi rayonlarımızda yaradılması vacib olan mill parklar xüsusi mühafizə olunacaq yerlərin relyefini, bitki və heyvanat aləmini, həmin yerlərdəki nadir təbii kompleksləri, tarixi mədəniyyət abidələrini qorumaqla yanaşı, ərazidə əhalinin və gələn turist qonaqların istirahətini təşkil etmək və onlara xidmət göstərməklə yeni iqtisadi imkanlar açmış olacaq. Turizm sektorunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inkişafı ilkin olaraq sənaye və sosial infrastrukturun həmin ərazilərdə bərpa edilməsindən sonra turizm infrastrukturunun yaradılmasından başlayır. Qaçqın və məcburi köçkünlərin azad olunmuş ərazilərimizə qaytarılmasından sonra regionda kənd turizminin inkişafı üçün də xeyli imkanlar yaranacaqdır. Bu həm də orda yaşayacaq əhalinin maddi gəlirlərinin də artmasına fürsət verəcək və həmin ərazilərdə daha sıx məskunlaşmasını stimullaşdıracaqdır.

ƏDƏBİYYAT

1. Abbasov C.R., Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası. BDU. Bakı-2005. 153s, səh.137
2. Soltanova H.B., Hüseynova Ş.H., Turizmin əsasları. BDU. Dərs vəsaiti. Bakı-2007. 316s. səh.6-10
3. İbrahimov T.O., Azərbaycanın qoruq və yasaqlıqları. Dərs vəsaiti. Bakı-2019. 392s. səh.51-63

SUMMARY

DEVELOPMENT DIRECTIONS OF TOURISM AND RECREATION POTENTIAL IN OUR RELEASED FROM OCCUPATION TERRITORIES

Babashova A.A.

The article discusses the importance of tourism and recreation potential in the socio-economic development of the newly created economic and geographical regions of Karabakh and East Zangazur in our liberated territories. In order to achieve sustainable economic growth in the region and the proper placement of the population in the area, the opportunities for tourism and recreation services must also be re-evaluated and developed.

Keywords: *tourism service, economic-geographical region, historical-cultural monuments, natural landscape complexes, resort-recreation*

РЕЗЮМЕ

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТУРИЗМА И ОТДЫХА НА НАШИХ ТЕРРИТОРИЯХ ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

Бабашова А.А.

В статье рассматривается значение туристско-рекреационного потенциала в социально-экономическом развитии вновь созданных экономико-географических регионов Карабаха и Восточного Зангезура на наших освобожденных территориях. Для достижения устойчивого экономического роста в регионе и надлежащего размещения населения в этом районе возможности для туристических и рекреационных услуг также должны быть переоценены и развиты.

Ключевые слова: *туристические услуги, экономико-географический район, историко-культурные памятники, природно-ландшафтные комплексы, курортно-рекреационный комплекс.*

EKOLOJİ TERROR

Eldarov N.Ş.
Sumqayıt Dövlət Universiteti. Sumqayıt, Azərbaycan
eldarovnazar@mail.ru

Açar sözlər: *İşğalçı, flora və fauna, antropogen təsir, ekoloji terror, ekosistem, çirklənmə*

Bir çox regionlar kimi Cənubi Qafqaz da siyasi, strateji, tarixi və sosioloji aspektlərinə görə dünyada önəmli mövqedədir. XX əsrin əvvəllərində Rusiyanın işğalı altında olan bu bölgədə üç müstəqil respublika - Gürcüstan, Azərbaycan və Ermənistan yarandı. Regionda Ermənistanın müstəqil respublika kimi yaradılıb tanınması çar Rusiyası tərəfindən həyata keçirildi. Ermənilərin XIX əsrdə məqsədli şəkildə regiona köçürülməsi bütün regionda sülh və təhlükəsizlik üçün olduqca ciddi təhlükə mənbəyi yaratdı.

XX əsrin əvvəllərində region dövlətləri müstəqillik əldə etsələr də, bu uzun sürmədi. Region Sovet hakimiyyəti tərəfindən işğala məruz qaldı. Sovet hakimiyyəti illərində Ermənistan imkan düşdükcə daima Azərbaycan torpaqlarını özününküləşdirirdi. Xüsusilə Sovet dövlətinin dağılmasından sonrakı illərdə Rus ordusunun himayəsi altında torpaqlarımız işğal olundu.

Ali Baş Komandan İ. Əliyevin rəhbərliyi altında 44 günlük müharibə nəticəsində torpaqlarımız azad olundu. 10 noyabr kapitulyasiya aktı imzalandı. Artıq Azərbaycan dövləti işğaldan azad olunan bölgələrimizin bərpası, orada kifayət qədər nəhəng layihələrin icrasını həyata keçirir.

30 ilə yaxın dövrdə Respublikamızın 1,7 milyon hektar ərazisi mənfur ermənilərin işğalı altında olmuşdur. Bu ərazilərdə 21 növü endemik olmaqla 2500-ə yaxın bitki növü bitir. Endemik bitkilərə Qarabağ güləvəri, Sağsağan gülxətmisi, Zəngilan gəvəni, Xarı bülbül, Qarabağ dağlaləsi, Şuşa gəvəni, qaraçöhrə, Şuşa xaşası və s kimi növləri misal göstərmək olar [1].

İşğala qədər ərazirin meşə fondu 280 min hektardan çox olmuşdur. Bunların 13197,5 hektarı qiymətli ağac növlərindən ibarət olmuşdur. Respublikamızın meşələrində yayılmış 460 növdən çox ağac və kol bitkilərindən 95 ağac, 309 kol növü Dağlıq Qarabağ və ona bitişik ərazilərdə bitirdi. Burada relikt növlər Şərq çinarı, Dağdağan, Giləmeyvə, Qaraçöhrə, Araz palıdı, Ayı fındığı, Yalan qoz, Saqqızağacı və həmçinin nadir növlər Adi nar, meşə üzümü, Pirkal, Şümşə, Buase armudu, Adi xurma, Eldar şamı, Söyüdyarpaq armud kimi növlər yayılmışdır[1].

30 ilə yaxın dövr ərzində Azərbaycan ərazisi ekoloji terrora məruz qalmışdır. **Bu dövr ərzində təbiətə dəyən ziyan 244,4 milyard dollar olmuşdur.** Bu ərazi üçün xarakterik 8 min hektardan çox olan palıd, ardıc, fıstıq, vələs, şam, göyrüc və qozdan ibarət meşə örtüyü məhv edilmişdir. Bu isə ərazidə biomüxtəlifliyə ən ağır zərbə olmuşdur. Burada "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında konvensiya (BMT) Ermənistan tərəfindən pozulmuşdur.

Flora və faunanın ən qiymətli növləri ilə zəngin olan işğal altında olan meşələrimiz vəhşicəsinə qırılıb (Şəkil 1, Şəkil 2), talan edilib, Ermənistana daşınıb və başqa ölkələrə satılıb. Ekosistem pozulub, torpaqlar eroziyaya uğrayıb, təbiətin müvazinəti itib, balansı pozulub.

Cədvəl 1.

2002–2020-ci illər dövründə Kəlbəcər rayonu ərazisində meşə örtüyünün azalma dinamikası

2002	2003	2004	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
23 ha	24	3	2	12	9	4	2	20	10	5	0.828	0.652	0	0.296	0.119	0	0	0



Şəkil 1



Şəkil 2

Düşmən işğal dövründə Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının ərazilərində bir çox yanğınlar törədib. Bir çox hallarda bu yanğınlar qonşu, - nəzarətimizdə olan ərazilərə də keçmişdir. Təqribi hesablamalara görə 2006-cı ildə 63414 hektar, 2007-ci ildə 31097 hektar, 2008-ci ildə 380 hektar, 2009-cu ildə 250 hektar ərazi ermənilər tərəfindən yandırılıb.

Digər rayonlar kimi Kəlbəcər rayonu ərazisində 2002-2020-ci illər ərzində 115,895 ha meşə sahəsi məhv edilmişdir.

Dünya terror və korrupsiyaya qarşı «Bank-İnformasiya» Beynəlxalq Strateji Tədqiqatlar Mərkəzinin məlumatına görə[3]:

1. Zəngilan rayonunun ərazisində yerləşən 107 ha qoruq sahəsi tam məhv edilib, ağac materialları (çinar) İranın mebel fabrikləri və başqa tikinti şirkətlərinə satılıb.
2. Ermənistanın hərbi hissələrinin tapdağı altında olan 42 ha qoruq sahəsi tamamilə məhv edilmişdir.
3. 2000-ci ildə 70 ədəd çinar ağacı məhv edilərək Tehrana (hər biri 100 ABŞ dol.) satılıb.
4. Köçürülmə yolu ilə 110 çinar ağacı Göyçə gölünün sahilləri və Yerevan şəhərinin ətrafında əkilib.
5. Bəsitçay qoruğunun ərazisindən vərəmdən müalicə məqsədilə istifadə olunub.

İşğal dövründə mənfur düşmən həmçinin bir çox ərazilərdə müxtəlif istiqamətlərdə çirklənmə aparmışdır. Bu çirklənmənin əsas istiqamətlərindən Araz çayının Oxçuçay və Bazarçay vasitəsilə, Söyüdlü – Zod qızıl yatağı vasitəsi ilə Tərtər çayının hövzəsinin çirkləndirilməsini misal göstərmək olar[3].

Güclü antropogen təsirə məruz qalan yaylaq göllərimiz: Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl və İşıqlı Qaragölün ekoloji terrordan sağalmasına illər lazım olacaqdır[3].

Tərtər çayı üzərində 1976-cı ildə tikilmiş su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarı 79 min hektar əkin sahəsini suvarılması üçün nəzərdə tutulmuşdur. İşğal dövründə kanallara yay dövrü əvəzinə tərsinə qışda su buraxılırdı. Bu da həmin illərdə suvarılması nəzərdə tutulmuş rayonların təsərrüfatını ciddi çətinliklər qarşısında qoymuşdur.

Oxçuçay və Ağstafaçayın çirkləndirilməsi nəticəsində Araz və Kür çaylarının canlı aləminə böyük ziyan dəymişdir. Bununla da Araz çayının 43 kilometr Azərbaycan hissəsində gərginlik yaranmışdır [2].

İşğaldan azad olunan ərazilərdə hal-hazırda ətraf mühitin sağlamlaşdırılması və təbiətin bərpası tədbirləri sürətlə həyata keçirilir.

ƏDƏBİYYAT

1. İradə Hüseynova, AMEA-nın vitse-prezidenti, akademik. **Ermənistan tərəfindən işğal edilmiş** ərazilərin biomüxtəlifliyi: ekoloji terrorun nəticələri. www.science.gov.az

2. Bəxtiyar Hüseynov. Azərbaycan Yazıçılar Birliyinin üzvü, ekoloq-jurnalist. *Ekoloji terrora məruz* qalmış Qarabağ təbiəti dirçəldilir

3. Habil Hüseynov. Qarabağın ekoloji harayı

SUMMARY

ECOLOGICAL TERROR

Eldarov N.Sh.

As a result of the 44-day war under the leadership of Supreme Commander-in-Chief I. Aliyev, our lands were liberated from occupation. As a result of the Armenian military aggression, 1.7 million hectares of the territory of the Republic of Azerbaijan have been occupied for about 30 years. During this period, the territory of Azerbaijan was subjected to environmental terror. The damage to nature during the occupation was $ 244.4 billion. The forests of Karabakh, rich in the most valuable trees of flora and fauna, have been savagely cut down and looted. Restoration work is currently underway.

Key words: *Invaders, flora and fauna, anthropogenic impact, environmental terrorism, ecosystem, pollution*

РЕЗЮМЕ

ЭКОЛОГИЧЕСКИЙ ТЕРРОР

Эльдаров Н.Ш.

В результате 44-дневной войны под руководством Верховного Главнокомандующего И. Алиева наши земли были освобождены от оккупации. В результате армянской военной агрессии около 30 лет оккупированы 1,7 миллиона гектаров территории Азербайджанской Республики. В этот период территория Азербайджана подвергалась экологическому террору. Ущерб природе за время оккупации составил 244,4 миллиарда долларов. Леса Карабаха, богатые ценнейшими деревьями флоры и фауны, зверски вырублены и разграблены. В настоящее время ведутся реставрационные работы.

Ключевые слова: *Вселенцы, флора и фауна, антропогенное воздействие, экологический терроризм, экосистема, загрязнение*

QARABAĞ VƏ ƏTRAF ƏRAZİLƏRİN PLEYSTOSEN YAŞLI ÇÖKÜNTÜLƏRİNİN STRATİQRAFİYASI

Əhmədova G.B.

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan

eyyubbeyli.gulnare1980@mail.ru

Açar sözlər: *çay dərələri, gətirmə konusları, çay terrasları, çöküntülər, süxur.*

Kiçik Qafqaz ərazisində Pleystosen çöküntüləri geniş yayılmışdır. Bu çöküntülər Kiçik Qafqazın dağətəyi zonasında ardıcıl olaraq daha qədim çöküntülərin üzərində örtük şəklində yayılmışdır. Dağlıq ərazilərdə isə Yura-Tabaşir yaşlı daha qədim çöküntülər üzərində qeyri uyğun toplaşır. Pleystosen çöküntülərinin daha geniş yayıldığı ərazilərdən Kiçik Qafqazın şimal-şərqində yerləşən Başkənd-Dəstəfur çökəkliyini qeyd etmək olar. Kiçik Qfaqazın dağətəyi zonasında Pleystosen çöküntüləri əsasən allüvial, allüvial-prolüval mənşəli olub, örtük şəklində Gəncə-Qazax, Naftalan, Qarabağ düzənliklərinin dağətəyi hissələrini örtür.

Alt Xəzər yaşlı çöküntülər Kiçik Qafqazın ərazisində geniş yayılmışdır və allüvial, allüvial-prolüvial, delüvial-prolüvial, göl, buzlaq çöküntülərindən travertinlərdən ibarətdir.

Allüvial çöküntülər Kiçik Qafqazın əksəriyyət çay dərələrində 150-160 m-lik terrasların səthində saxlanılmışdır. Bu çöküntülərin qalınlığı bəzən 50-60 m-ə çatır. Zəyəmçayın aşağı hissəsində (Yanıxlı kəndi) Alt Xəzər yaşlı allüvial çöküntülərin kəsilişi xeyli fərqlənir. Burada həmin yaşlı çöküntülər artıq kifayət qədər hamarlanmış xırda ölçülü çaqıldaşlarının, çeşidlənmiş qumların, gillicələrin, basdırılmış qonur torpaqların (iki təbəqə), gillərin növbələşməsindən ibarətdir. Təsvir olunan kəsilişin ümumi qalınlığı 33,5 m-dir.[1]

Alt Xəzər yaşlı allüvial çöküntülərin digər maraqlı kəsilişi Şəmkirçayın dağətəyi hissəyə yaxın olan Seyfəli kəndindən cənubda yerləşir. Alt Xəzər yaşlı allüvial çöküntülər Şəmkirçayın 160 metrlik terrasında valun-çaqıldaşı, çaqıldaşının, qum layları, bəzən də basdırılmış torpaq qatları ilə növbələşməsindən ibarətdir. Belə terras kəsilişin qalınlığı 20-25 m-ə çatır.

Alt Xəzər yaşlı allüvial çöküntülərin səciyyəvi kəsilişlərindən biri də Gəncəçayın dərəsinədə Zurnabad kəndi yaxınlığında qeydə alınmışdır.

Allüvial-prolüvial çöküntülər allüvial çökünütülərə nisbətən daha geniş yayılmışdır. Bu çöküntülər Kiçik Qafqazın əksər çaylarının əsasən gətirmə konuslarını təşkil edir. Allüvial-prolüvial çökünütlərin ən yaxşı təbii açılışı Şəmkirçayın gətirmə konusunda Çinarlı kəndindən 500-600 m şimalda açılmışdır. Allüvial-prolüvial çöküntülər Goranboy, Qarabağ düzənliyində, xüsusilə Tərtərçayının gətirmə konusunda qazılmış hidrogeoloji buruq quyularında açılmışdıır.

Göl çökünütləri Alt Xəzər yaşlı başqa çöküntülərə nisbətən az yayılmışdır. Bu genetik tip çöküntülərin ən səciyyəvi kəsilişi Gəncə-Qazax maili düzənliyinin qərbində Ağstafaçay ilə Xramçayın arasında və Başkənd-Dəstəfur çökəkliyində aşkar edilmişdir. Bu çöküntülər Ə.V.Məmmədov, B.C.Ələskərov, R.M.Atakişiyev tərəfindən öyrənilərək yaşı dəqiqləşdirilmiş və Alt Xəzərə aid edilmişdir.

Delüvial çöküntülər paleolit düşərgələri ətrafında və ümumiyyətlə Kiçik Qafqazın ərazisində geniş yayılmasına baxmayaraq, onların dolğun səciyyəvi kəsilişləri nisbətən azdır. Bu çöküntülərin ən səciyyəvi kəsilişləri Başkənd-Dəstafur çökəkliyi ərazisində müşahidə edilmişdir. Gədəbəy rayon mərkəzindən 15-20 km cənubda Govdu düzənliyində Alt Xəzər yaşlı delüvial çöküntüləri kəsilişi Şəmkirçayın 150-160 metrlik terras səthinə keçir.

Buzlaq çöküntülərinə Kiçik Qafqazın yüksək dağlıq qurşağında rast gəlinir və onlar Şəmkirçayın, Gəncəçayın, Tərtərçayın yuxarı hövzələrində daha yaxşı saxlanılmışdır. Şəmkirçay hövzəsində ən yaxşı müşahidə edilən moren çöküntüləri Qocadağın (3310 m) şimal-şərq yamacındakı troq dərəsinin aşağısında 2850 m yüksəklikdə müşahidə edilmişdir .

Vulkanik süxurlar Tərtər və Həkəri çaylarının yuxarı hövzələrində inkişaf etmişdir. Bu bölgələrdə vulkanik süxurlar andezit-bazalt və bazalt lava axınlarından ibarət olub, tufobrekçiya və vulkan külləri formasında müşahidə edilir. Lavaların səthi, demək olar ki, hamardır və ümumi meyillik 5-10^0 arasındadır. Bəzi hallarda lava qaymaları uçaraq çayların qabağını kəsir və kiçik göl əmələ gətirir. Lavaların qalınlığı 70-80 m-ə çatır.

Üst Xəzər çöküntüləri, həmçinin, allüvial, allüvial-prolüvial, delüvial-prolüvial, elüvial-delüvial, kollüvial genetik tiplərdən ibarətdir. Bu genetik tiplər sırasında allüvial və allüvial-prolüvial çöküntülər daha geniş yayılmışdır.

Allüvial çöküntülər Ağstafaçay, Tovuzçay, Şəmkirçay, Gəncəçay, Kürəkçay, Tərtərçay, Köndələnçay və Həkəriçayın 50-60 metrlik akkumulyativ terraslarını təşkil edir. Qeyd olunan terrasların ən yaxşı saxlanıldığı bölgələr həmin çayların orta axınlarıdır.

Üst Xəzər yaşlı allüvial çöküntülərin səciyyəvi kəsilişlərindən ən əsası Azıx mağarası yaxınlığında Quruçayın dərəsində müşahidə edilmişdir. [1]

Allüvial-prolüvial çöküntülər Kiçik Qaqazın şimal-şərq dağətəyi yamaclarını yelpikvari formada əhatə edir. Burada əksər çaylar hazırda valun-çaqıldaşları, çınqıl-çaqıldaşları, qumlar, vulkan külü,basdırılmış torpaq və s. materiallardan təşkil olunmuş gətirmə konuslarını kəsərək yeni konuslar formalaşdırır. Üst Xəzər yaşlı allüvial-prolüvial çöküntülərin geniş yayıldığı digər ərazilərdən Tərtərçayın Qarabağ düzü dağətəyi sahəsini göstərmək olar.

Xvalın çöküntüləri Kiçik Qafqazın ərazisində Alt və Üst Xəzər çöküntülərinə nisbətən daha yaxşı mühafizə olunmuşdur və onlar allüvial, allüvial-prolüvial, delüvial, devlüvial-prolüvial, buzlaq çöküntüləri və s. kimi tiplərdən ibarətdir. Xvalın çöküntülərinin yaxşı mühafizə olunmasının başlıca səbəbi onların nisbətən cavan olmasıdır.

Allüvial çöküntülər Kiçik Qafqaz ərazisində Ağstafaçay, Tovuzçay, Zəyəmçay, Şəmkirçay, Gəncəçay, Kürəkçay, Tərtər, Xaçınçay, Həkəriçayın 6-cı və 7-ci terraslarını təşkil edir. Bu terraslar çay yatağından 25-30 m-dən 35-40 m-ə qədər yüksəklikdə yerləşmiş akkumulyativ, erazion-akkumulyativ mənşəlidirlər. Orta və alçaq dağlıq ərazilərdə Xvalın yaşlı allüvial çöküntülər valun-çaqıldaşı, çaqıldaşı, qumlardan, bəzən basdırılmış torpaq qatlarından və nazik gil təbəqələrinin növbələşməsindən ibarətdir.

Başkənd-Dəstafur çökəkliyində Xvalın yaşlı allüvial çöküntülər daha geniş yayılmışdır. Bir çox hallarda allüvial çöküntülər çökəkliyin genişlənən hamar səthində daha yaxşı saxlanmışdır.

Xvalın yaşlı allüvial çöküntülər Tərtərçayın 35-40 metrlik terraslarında daha geniş, yayılmışdır. Çayın xüsusilə, orta hövzəsində daha yaxşı mühafizə olunmuşdur və müxtəlif ölçülü çaqıldaşları, çaqıldaşı qarışığı olan qum layları, gil və basdırılmış torpaq təbəqələrinin növbələşməsindən ibarətdir.[3]

Qeyd etdiyimiz kimi, allüvial çöküntülər Kiçik Qafqazın bütün çay dərələrində, o cümlədən Həkəriçayın 32-38 və 40-48 metrlik terraslarında yaxşı mühafizə olunmuşdur. Həmin çöküntülər Həkəriçayın yuxarı hövzəsində valun-çaqıldaşları və çaqıldaşlarının növbələşməsindən, aşağı hissədə isə çaqıldaşı və qum laylarının növbələşməsindən ibarətdir. Bunların qalınlığı 25-30 m-ə çatır.

Allüvial-prolüvial çöküntülər digər genetik tip çöküntülərə nisbətən daha geniş yayılmışdır. Bu çöküntülər Gəncə-Qazax, Naftalan, Qarabağ düzənliklərinin kənar hissələrində qalın örtük əmələ gətirir və litoloji tərkibcə çeşidləşmiş çaqıldaşlarının qumlarla, gillicələrlə növbələşməsindən ibarətdir.

Allüvial-prolüvial çöküntülərin daha geniş yayıldığı ərazi çay şəbəkəsinin daha sıx formalaşdığı Kiçik Qafqazın şimal-şərq yamacının dağətəyi hissəsidir. Burada əksər çay dərələrinin Kür çayının sağ sahilinə yaxın hissəsində çay çöküntüləri ilə sel çöküntülərini birlikdə gətirərək çökdürdüyü material allüvial-prolüvial genetik tipindən ibarətdir. Əksər hallarda yaxşı hamarlaşmış kiçik ölçülü çaqıldaşından ibarətdir. Sementləşdirici material qumlu-gillicəli çöküntülərdən ibarətdir. Qalınlığı 50-60 m-dir.

Buzlaq çöküntüləri. Xvalın əsrinə aid buzlaşma izlərinə Kiçik Qafqaz ərazisində Həkəri, Tərtər, Şəmkir çaylarının yuxarı hövzəsində karlar, sirklər, troq dərələri və bəzən moren çöküntüləri formasında rast gəlinir.

Şəmkirçayın yuxarı hissəsində Ağqaya (3057 m) və Qocadağ (3318 m) yüksəkliklərinin şimal yamaclarında buzlaq relyef formaları (karlar, troq dərələri) yaxşı saxlanılmışdır. Qocadağın şimal-qərb yamacının 2800-2900 m yüksəkliyində moren çöküntüləri Şəmkirçayın sol qolunun 40 m-lik terras səthində çökdürülmüşdür. Burada terras çöküntülərində laylılıq aydın müşahidə olunduğu halda, onların üzərinə buzlaq vasitəsi ilə gətirilmiş çöküntülərdə laylılıq əlaməti yoxdur və həm də həmin çöküntülər zəif hamarlaşmış iri valunlardan ibarətdir. Valunların zəif hamarlaşmasının səbəbi isə buzlağın nisbətən yaxın məsafədən (1,5-2,0 km) həkərət etməsidir.

N.V.Dumitraşko tərəfindən Zəngəzur silsiləsinin Qapıcıq (3904 m) yüksəkliyində Son Pleystosen yaşlı buzlaq relyef formaları (karlar, troq dərələri) və buzlaq çöküntüləri (morenlər) qeydə alınmışdır. Eyni zamanda R.Y.Quliyev və V.D.Hacıyev tərəfindən Salavartı dağının yamacında Son Pleystosen (Xvalın) buzlaqlarının izləri (sirklər və karlar) aşkar edilmişdir. [3]

Delüvial çöküntülər Kiçik Qafqazın ərazisində daha geniş yayılmışdır. Xüsusilə, ayrı-ayrı dağarası çökəkliklərdə bu çöküntülər çay terraslarının, çökəkliklərin yamaclarında müxtəlif yaşlı süxurların səthində formalaşmışdır.

Gədəbəy rayonu ərazisində bu çöküntülər Govdu, Güllər bulağı ətrafında qalın örtük əmələ gətirir. Daşkəsən rayonu ərazisində onların ən yaxşı kəsilişləri Xoşbulaq kəndi ətrafında Holosen yaşlı çay terraslarının (8-10 m) kənarlarında, Qoşqar dağının (3310 m) Xoşbulaq kəndi istiqamətindəki dağətəyi hissələrində geniş yayılmışdır.

Delüvial-prolüvial çöküntülər Azıx mağarası ətraflarında, Başkənd-Dəstəfur çökəkliyi ərazisində yamaclarının ətəklərində geniş yayılmışdır. Bu çöküntülər Düzyurd, Slavyanka, Zəhmətkəndi (Gədəbəy), Qabaqtəpə, Xoşbulaq (Daşkəsən rayonu) kəndlərinin ətraflarındakı dağların ətəklərində geniş yayılmışdır və litoloji tərkibcə külli miqdarda çınqıl və iri süxur parçalı gillicələrin, basdırılmış torpaq təbəqələrinin növbələşməsindən ibarətdir. Qalınlıq 15-20 m-dir.[1]

Göl və bataqlıq çöküntüləri Kiçik Qafqazın dağarası çökəklik, düzənliklərində müşahidə edilir. Bu çöküntülər qar, yağış, bəzən də yeraltı suların (bulaqların) çökəkliklərdə toplanması, həmçinin uçqun və sürüşmələrin dərələrə uçması nəticəsində əmələ gəlmiş göl və bataqlıqlarda formalaşmışdır. Bu çöküntülərin litoloji tərkibi torflu gillicələrdən, gillicə və gillərdən ibarət olub, qalınlığı 5-10-ə çatır.

ƏDƏBİYYAT

1. Əhmədova G.B Orta və Son Pleystosendə Kiçik Qafqazın paleoekologiyası (monoqrafiya) Baki 2016. 143 səh
2. Xəlilov H.A Geomorfologiya və ətraf mühit (seçilmiş əsərlər)Bakı 2020.s.150-156
3. Мамедов А.В., Алескеров Б.Д. Плейстоцен Азербайджана. Баку: 2002, 189с.

SUMMARY

STRATIGRAPHY OF PLEISTOCENE AGED SEDIMENTS OF KARABAKH AND SURROUNDING AREAS

Ahmadova G.B.

In this article, information about stratigraphy and accumulation conditions of the Pleistocene aged sediments spreadin the Lesser Caucasus is given. After complex researches , it was known that alluvial,alluvial-proluvial,glacier,lake and other sediments are spread widely in the mentionedarea. It was known that the listed sediments spread mainly in the basins of Tartarchay, Kondelanchay, Zayamcay, Ganjachay, Hakarichay and the other rivers that we didn`t mention.

Keywords: *river valleys, bringing cones,river terraces, sediments,rocks.*

РЕЗЮМЕ

СТРАТИГРАФИЯ ПЛЕЙСТОЦЕНОВЫХ ОТЛОЖЕНИЙ КАРАБАХА И ПРИМЕЧАЮЩИХ ТЕРРИТОРИИ

Ахмадова Г.Б.

В статье приведены сведения о стратиграфии и условиях накопления Плейстоценовых отложений Малого Кавказа. В ходе комплексных исследований устаневлено, что на указанном участке обноружены аллювиальные, аллювиально-пролювиальные, деллювиальные, деллювиально-пролювиальные, ледниковые, озерные и др. отлохения широко распространены. Выявлено, что перечисленные отложения в основном распространены в бассейнах рек Гаргарчай, Конделанчай, Заямчай, Гянджачай, Хакаричай и других.

Ключевые слова: *речные долины, конусы выноса, речные террасы, отложения, горные породы.*

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA QARABAĞ İQTİSADİ RAYONUNUN İNKİŞAFI

Əhmədova N.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nermin.ahmedova@bk.ru

Açar sözlər: *iqtisadi inkişaf, təhlükəsizlik, infrastruktur, iqtisadi-coğrafi rayon*

2021-ci ilə qədər Azərbaycan Respublikasının ərazisi 10 iqtisadi-coğrafi rayona ayrılmışdır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərin inkişafı və onların ölkə iqtisadiyyatına inteqrasiyası, həmçinin iqtisadi rayonlarda planlaşdırma işinin səmərəliliyinin artırılması məqsədilə 7 iyul 2021-ci il tarixli fərman imzalamışdır. Bu fərmana əsasən ölkədə yeni rayonlaşma aparılmış və 14 iqtisadi rayon ayrılmışdır: Bakı, Naxçıvan, Abşeron-Xızı, Dağlıq Şirvan, Şirvan-Salyan, Qarabağ, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şəki-Zaqatala, Gəncə-Daşkəsən.

Şərqi Zəngəzur və Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonun böyük hissəsi 28 il işğal altında olmuşdur. Bu müddət ərzində ərazi mütəmadi istismar edilmiş, tamamilə dağıdılmışdır. 44 günlük Vətən Müharibəsi nəticəsində həmin ərazilər işğaldan azad edilmiş, respublikamızın ərazi bütövlüyü təmin edilmişdir.

Qarabağ iqtisadi rayonunu sahəsi 8,99 min km², əhalisinin sayı isə 904,5 min nəfərdir (2021). Tərkibinə Ağcəbədi, Ağdam, Bərdə, Xocalı, Xocəvənd, Füzuli, Şuşa, Tərtər inzibati rayonları və respublika tabeli Şuşa və Xankəndi şəhərləri daxildi. Polimetal filizləri, tikinti materialları Qarabağın əsas yeraltı ehtiyatlarındandır. Ərazinin zəngin təbii ehtiyatları və füsünkar landşaftı burada iqtisadiyatın çoxsəhəli inkişaf perspektivinin olduğunun zəmanətidir.

Şərqi Zəngəzur iqtisadi rayonunun sahəsi isə 7,47 min km², əhali sayı isə 343,5 min nəfərdir. Tərkibinə Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan inzibati rayonları aiddir. İqtisadi rayonun əsas yeraltı sərvəti qızıl, civə, xromit, tikinti materiallarıdır. Həmçinin iqtisadi-rayon mineral bulaqlar, iqlim-balneoloji ehtiyatlarla zəngindir.

Qarabağın bərpası isləri sistemli şəkildə həyata keçirilir. Respublika prezidenti İlham Əliyevin tapşırığına əsasən birinci mərhələdə dəymiş ziyan qiymətləndirilməli, daha sonra isə infrastruktur layihələri həyata keçiriləcəkdir. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması məqsədilə 2021-ci il dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdır. Buna paralel olaraq prezident İlham Əliyev 2021-ci il 4 yanvarda fərman imzalamışdır ki, bu fərmana əsasən işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, müasir və yüksək həyat səviyyəsinin təmin edilməsi, bütün sahələrdə quruculuq və bərpa-abadlıq işlərinin aparılması, həmçinin təhlükəsiz yaşayışın təmin olunmasını təmin etmək məqsədi ilə Qarabağ Dirçəliş Fondu yaradılmışdır. bu regionun daha da sürətli inkişafına kömık göstərəcəkdir. [2]

Qarabağda aparılan yenidənqurma və bərpa işlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Şəhərlərin yenidən qurulması
- Enerji təminatı
- Nəqliyyat infrastrukturunun yaradılması
- Dini abidələrin bərpa olunması

Azərbaycanda ilk dəfə olaraq bu regionda "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası tətbiq olunur. Zəngilan rayonu Üçüncü Ağalı kəndində "Ağıllı kənd" layihəyi uğurla həyata keçirilir. "Ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası şəhər və kəndlərə göstərilən xidmətin keyfiyyətin, təhlükəsizliyinin, səmərəliliyinin artırılmasını, şəhər və kəndlərdə dayanıqlı inkişafın təmin edilməsini özündə əks etdirir.

Zəngilan rayonu Üçüncü Ağalı kəndində 110 hektardan çox ərazidə tikinti işləri aparılır. Layihə planında müasir texnikalardan istifadə edilərək 200 fərdi ekoloji evin, 4 ikimərtəbəli qeyri-yaşayış binasının, 360 şagirdin təhsil ala biləcəyi məktəb və 60 nəfərlik uşaq bağçasının tikintisi nəzərdə tutulmuşdur. Hal-hazırda tikinti işləri sürətlə davam edir. [1]

Onu da qeyd etmək lazımdır ki, artıq bu ərazilərdə kənd təsərrüfatı məqsədilə istifadə olunacaq torpaq sahələri də müəyyənləşdirmişdir.Əkin üçün istifadə olunacaq ərazinin sahəsi 600 hektar müəyyən edilmişdir ki, bunun da artıq 412 hektarı minadan təmizlənmişdir. Əkin planı da hazırlanmış, planda nəzərdə tutulmuş torpaq sahələri əkinə yararlığı qiymətləndirilmişdir. "Ağılı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bu həm torpaqların deqredasiyasının qarşısını alacaq, həm də məhsuldarlığını qoruyacaqdır. [2]

İşğaldan azad olunmuş yerlərdə yenidənqurma və bərpa işlərində ən mühüm yerlərdən birini də ərazilərin elektrik enerjisi ilə təmin olunması, bərpa olunan və yeni enerji mənbələrinin yaradılması tutur. Bu sahədə də çoxlu işlər görülmüşdür.

Qarabağ iqtisadi rayonu Respublikanın yerli su ehtiyatının formalaşdığı əsas rayonlardan biridir. Ölkənin su ehtiyatının 25%-i (təqribən ildə 2,56 mlr m^3) bu ərazidə formalaşır. Tərtər, Həkəri, Bazarçay kimi əsas çaylar böyük hidroenerji ehtiyatına malikdir. Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20 Mvt gücündə 4 SES-dən 3-ü artıq istifadəyə verilib.

Azərbycanda son illərdə ənənəvi enerji mənbələri ilə yanaşı, alternativ enerji mənbələrindən istifadə olunmağa başlanılmışdır. Bu təcrübədən Qarabağda da yeni enerji infrastrukturunun yaradılmasında uğurla istifadə olunur. 2021-ci ilin may ayının 3-də prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Qarabağ "Yaşıl enerji" zonası elan edilmişdir. Bununla bağlı müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədi ilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Energetika Nazirliyinə 1 milyon 391 min dolların manat ekvivalenti məbləğində vəsait ayrılmışdır.

Deyilənlərlə yanaşı, Kəlbəcər rayonunda 3093 m^3/gün, Şuşada isə 412 termal su ehtiyatları vardır. Gələcəkdə termal mənbələrdən enerji məqsədilə istifadəsi nəzərdə tutulmuşdur. [3]

Ərazi bütövlüyümüz bərba edildiyi gündən etibarən dövlət prezidentinin fərman və sərəncamları hesabına işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri aparılır, nəqliyyat-kommunikasiya şəbəkəsi də bərpa edilir. Qısa müddət ərzində Füzuli rayonu ərazisində Hava limanı tikilmiş, Kəlbəcər, Laçın və Zəngilan rayonu ərazisində isə hava limanlarının tikintisinə başlanılmışdır. Bu rayonlarda hava limanlarının inşası respublikamızın iqtisadi bütövlüyünün möhkəmlənməsinə xidmət edir. Tikiləcək olan bu hava limanları təkcə ölkəmiz üçün deyil, bütün region üçün önəm daşımaqdadır. Bu hava limanları ölkəmizin region ölkələri arasında geosiyasi mövqeyini də artıracaqdır.

Nəqliyyat şəbəkəsinin sürətli inkişafını təmin etmək məqsədilə Füzuli rayonundan Şuşa şəhərinə "Zəfər yolu" adlı avtomobil yolu çkilmişdir. Şimal, Cənub, Şərq istiqamətində çəkilməsi nəzərdə tutulan avtomobil və dəmiryol layihələrinin həyata keçirilməsi, Talış kəndinə çəkilən avtomobil yolu regionun inkişafına xidmət edir. [4]

Dövlət səviyyəsində görülən bütün bu tədbirlər əzəli-əbədi torpaqlarımızın qısa zanam ərzində bərpası və inkişafı üçündür. Görülən işlər öz yurdundan didərgin salınmış məcburi kökünlərin Qarabağa dönüşünü daha da yaxınlaşdırır.

ƏDƏBİYYAT

1. http://www/e-qanun/az, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramları
2. https://www.economy.gov.az/
3. https://minenergy.gov.az/
4. https://mincom.gov.az/

SUMMARY

DEVELOPMENT OF THE KARABAKH ECONOMIC REGION AFTER THE SECOND KARABAKH WAR

Ahmadova N.M.

.

In the territories liberated after the second Karabakh war of 2020, restoration work is being organized very quickly. Over the past short period, a lot of work has been done, first of all, to ensure the safety of people, as well as to restore infrastructure and communications.

***Key words**: economic development, security, infrastructure, economic* region

РЕЗЮМЕ

РАЗВИТИЕ КАРАБАХСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

Ахмедова Н.М.

.

На территориях, освобожденных после второй Карабахской войны 2020 года, очень быстро организуются восстановительные работы. За прошедший короткий период проделана большая работа, в первую очередь, по обеспечению безопасности людей, а также по восстановлению инфраструктуры и коммуникаций.

Ключевые слова: *экономическое развитие, безопасность,инфраструтура, экономическое регион*

QARABAĞIN TARİXİ-COĞRAFİYASI VƏ ETNİK TARİXİ

Əhmədova T.Y..

Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan

turkan_ahm@mail.ru

Açar sözlər: *Arxeoloji tədqiqatlar, etnos, toponim, Arsak vilayəti, türkdilli soylar.*

Giriş. Azərbaycanın tarixi-coğrafiyasının öyrənilməsi nəinki azərbaycanlı, eyni zamanda digər xalqlardan olan tarixşünasların diqqət mərkəzində olmuşdur. Herodot, Strabon, Plini, Musa Kalankatlı, Həmdullah Qəzvini kimi tədqiqatçılar əsərlərində Azərbaycanın coğrafiyası ilə bağlı ətraflı məlumatlar qeyd etmişlər.

İstər antik, istərsə də orta əsr müəlliflərinin əsərlərində Şimali Azərbaycan şəhərləri haqqında qiymətli məlumatlar əldə edə bilirik. Bu məlumatlar içərisində Azərbaycanın dilbər guşəsi olan Qarabağın tarixi və coğrafiyası ilə bağlı məlumatlar da öz əksini tapmışdır. Tarixi-əzəli Azərbaycan torpağı olan Qarabağın tarixi uzaq keçmişlərə gedib çıxır. Qarabağ xalqımızın ulu əcdadlarının məskunlaşdığı diyardır.

Türk səyyahı Evliya Çələbi Naxçıvandan Təbrizə yola düşərkən Qarabağa da səfər edir. Səyyah buranın zəngin sərvətlərindən, xoş təbiətindən yazır.

Kiçik Qafqaz sıra dağlarının cənub-şərq hissəsini əhatə edən Qarabağ bölgəsinin tarixi coğrafiyasının araşdırılması əhəmiyyət kəsb edir.

Bölgənin tarixiliyini sübut edən Azıx və Tağlar mağaraları qədim insanın yaranması, onun həyat tərzi, insan qruplarının tarixi inkişaf prosesi ilə bağlı qiymətli məlumatlar əldə edilməsi baxımından son dərəcə əhəmiyyətlidir.

Govurqalada, Şortəpədə, Qaraköpəktəpədə və Ergi yaşayış məskənlərində aparılmış arxeoloji tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Uti və Arsakda hələ qədim dövrlərdən şəhərlər mövcud olmuşdur. Əsası antik dövrlərdə qoyulmuş Bərdə şəhəri Uti vilayəti ərazisində formalaşmışdı. Qarabağ ərazisindəki digər şəhərlərin salınması orta əsrlər dövrünə aid edilir. Bərdə haqqında məlumat verən IX əsr ərəb tarixçisi İbn Haqvəl onu «Bu ölkənin ən yaxşı şəhəri və Arranın anası» adlandırmışdır. Doğrudan da Bərdə təbii cəhətdən gözəl, saf havalı bir ərazidə salınmışdır.

Bölgədə 140-dan çox iri və kiçik çay vardır ki, bu çaylar Kür və Araz çaylarına axır.

İndiki Yuxarı Qarabağ və Mil düzünün bir hissəsi Arsax vilayəti adlanırdı. Burada əhali maldarlıq, arıçılıq, əkinçilik, bağçılıq, sənətkarlıqla məşğul olurdu. Burada yetişdirilən Qarabağ atları çox məşhur idi. Vilayətdə qarqarlar, utilər, hunlar, xəzərlər, barsillər məskunlaşmışdılar.

Qarqarlara məxsus arxeoloji abidələr hələ də kifayət qədər öyrənilməmişdir. Yalnız bir həqiqət məlumdur ki, bu tayfa əvvəlcə dağlarda məskunlaşdığı halda, sonralar düzən hissəyə enmiş və oturaq həyatla məşğul olmuşlar. Albaniyada xristianlığı da ilk qəbul edən tayfalardan biri məhz qarqarlar olmuşdur. [3; səh:4]

Maddi mədəniyyət abidələri ilə zəngin olan tarixi Qarabağ vilayətində albanlara məxsus memarlıq abidələri qəbir abidələri, epiqrafik abidələr mövcuddur. Bu abidələrin tədqiq olunması Alban xristianlığının bir sıra xüsusiyyətlərinin öyrənilməsində mühüm rol oynayır.

Albaniyanın VII-X əsrlərə aid toponimləri əsasında erkən orta əsrlərdə Qarabağda peçenek adlı türk tayfasının yaşadığı məlum olur. Maraqlıdır ki, X əsrə aid olan mənbələrdə peçeneklərin Cənubi Rus çöllərində Qarabaq, Qapan, Göyərçi və Çur tayfalarının adlarını əks etdirən toponimlər erkən orta əsrlərdə Albaniyada da vardı. Bir sıra müəlliflərin məlumatlarına əsasən, XIII əsrdən məlum olan - Qarabağ toponimi məhz peçeneklərin Qarabağ tayfasının adını əks etdirir. Bu toponimi başqa cür izah edənlər yanılırlar. Peçeneklər oğuz mənşəli etnos sayılır. Ona görə qeyd edə bilərik ki, Alban türk dilində oğuz dilləri üçün səciyyəvi ünsürlər olmalı idi.

«Böyük Ermənistan» konsepsiyasının ideoloqları qədim keçmişdə Albaniya ərazisinə daxil olan tarixi Qarabağın ermənilər tərəfindən məskunlaşdırıldığını iddia edirlər. Tarixi faktlar isə aydın-aşkar göstərir ki, müasir Azərbaycanın və onun təbii tərkib hissəsi olan Qarabağın əsas əhalisi Qafqaz albanları olmuşlar. K. V. Trever «Qafqaz Albaniyasının tarixi və mədəniyyətinə dair oçerklər» adlı monoqrafiyasında yazır ki, Zaqafqaziyanın üç əsas qədim xalqlarından biri olan albanlar «qədim və yüksək mədəniyyətə» malik idilər. [8; səh: 88-89]

Şimali Azərbaycanın Kür və Araz çayları arasındakı torpaqların böyük bir hissəsinin eramızın əvvəllərində Arsax və Uti adlanmaları M.Kalantuklunun "Albaniya tarixi" kitabından bəllidir. Qarabağın müasir utilərin dilində "Böyük bağ" mənasını verən "Arsax" adlanması da məlumdur. XIX əsrdə Qarabağ məlikliklərinin qədim alban xristian əhalisi də utilər olmuşlar. Utilərin Araz çayından şimalda yerləşən bölgələrə cənubdan gəlmələri haqqında A.Bakıxanovun məlumatı da utilərin Azərbaycanın qədim türkdilli soylarından olmasını sübut edir. [7;səh:66]

Arsak və ya Ərsaq toponimi qədim türk tayfası olan sakların adı ilə bağlıdır və "igid sak", "ər sak", "sak kişisi" olaraq izah edilməkdədir. Arsax bölgəsinə verilən Qarabağ adı isə XII əsrdən bəri gürcü və fars mənbələrində rast gəlinir. Qarabağ türkmənşəli toponim olub çoxluq, sıxlıq olan ərazi, böyük bagları olan yer kimi izah edilməkdədir. [4; səh:155]

Qarabağdan Xar kəndinə kimi 3 fərsəx, sonra Qərq kəndinə kimi 5 fərsəx, buradan Ləbəndan (Ləmbəran) kəndinə kimi 4 fərsəx, buradan Bazarcığa kimi 3 fərsəx, buradan isə Cüzbik şəhərindən bir fərsəx aralı olan Bədəyə kimi 4 fərsəxdir; sonra Deh İsfahani kəndinə kimi 4 fərsəx, oradan Xangah, Şotora (dəvə yeri) 5 fərsəx və Gəncə şəhərinə kimi 5 fərsəxdir. Bütünlüklə Qarabağdan Gəncəyə kimi 34 fərsəx, Ərdəbildən 69 fərsəx, Sultaniyyədən 16 fərsəx yoldur. Gəncədən indi Xaraba qalan Şümkir şəhərinə kimi fərsəxdir; sonra Şadakban yurduna 3 fərsəx, sonra Yama kimi 5 fərsəx, buradan da Tiflis şəhərinə kimi 5 fərsəxdir. Bütünlüklə Gəncədən Tiflisə 20 fərsəx, Qarabağdan 54 fərsəx, Ərdəbildən 89 fərsəx və Sultaniyyədən 129 fərsəx yoldur. [1; səh:158]

Orta əsrlər dövründə Qarabağın ərazisi Azərbaycan bəylərbəyi olan Qarabağ (Gəncə) bəylərbəyinə daxil idi. XVIII yüzilliyin ortalarından XIX yüzilliyin əvvəllərinə qədər Qarabağın ərazisində azərbaycanlı "müsəlmanların" üstünlük təşkil etdiyi Qarabağ xanlığı mövcud olmuşdur. Qarabağ xanlığı Şimali Azərbaycan xanlıqları içərisində siyasi, iqtisadi və mədəni inkişafının xüsusiyyətlərinə görə seçilirdi.

Qarabağ xanlığı tarixinin ilk salnaməçilərindən Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir öz əsərlərində Cavanşir nəslindən olan Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xanın dövründə baş verən hadisələrə dair geniş məlumat verirlər. Hər iki əsər Rusiya-İran və Rusiya-Osmanlı müharibələrinə dair ən mötəbər mənbələrdəndir.

Qarabağın dini inanc sistemləri fərqli olmuş, tarixən müxtəlif dinlər bir-birini əvəz etmişdir. Albaniyada xristianlıqdan islama keçid dövründə Qarabağın dağlıq ərazilərində əhalinin bir hissəsi xristianlıq dininə sitayiş etməyə davam etmişlər.

XIX əsrdə çoxlu erməni ailəsinin Qarabağa köçürülməsindən sonra bu saxtakar etnos alban mədəniyyətinə sahib çıxmağa çalışmışdır. Kəlbəcərin Vəngli kəndi ərazisindəki Gəncəsar (farscadan tərcüməsi – "Xəzinələr dağı") monastrı hələ Qafqaz Albaniyasının dini və mədəni mərkəzi olmuşdur.

Kəlbəcər işğal altında olduğu dövrdə saxtakar ermənilər bu monastrı "Qanzasar" erməni monastr kompleksi kimi dünyaya təqdim etmişlər. Digər alban xristian abidələrinə Müqəddəs Yelisey, Amaras məbədlərini, Ağoğlan monastrını aid edə bilərik.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 2007, 400 səh.
2. Əliyev İ. Məmmədzadə K. Qarabağın Alban abidələri, Bakı, 1997, 32 səh.
3. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, 1993. 83 səh.
4. Paşayeva M.T. Azərbaycanın qədim dövlətləri. (e.ə. III minillik - III əsrin əvvəlləri). Dərs vəsaiti. Bakı, 2018. - 288 səh.
5. Qeybullayev Q. Qarabağ (Etnik və siyasi tarixinə dair), Bakı,1990, 248 səh.
6. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994. 248 səh.
7. Rəcəbli Q. Azərbaycan tarixi. Bakı, 2013, 544 səh.
8. Səfərov Y. Qədim Azərbaycan: nə bilirik. Bakı, Azərnəşr, 1989. 157 səh.

SUMMARY

HISTORY-GEOGRAPHY AND ETHNIC HISTORY OF KARABAKH

Ahmadova T.Y.

Karabakh, one of the charming corners of Azerbaijan, is also a historic country with the first human settlements. The history of this land goes back to ancient times.

The natural and geographical conditions of Karabakh made it one of the oldest human settlements. Azikh and Taglar caves, one of the oldest human settlements in the world, and other examples of material culture that existed on its territory are clear evidence of the history of the region.

Archaeological excavations have revealed rich material cultural relics reflecting the living conditions of primitive people, as well as the fauna and flora of Azerbaijan about 1.5-2 million years ago.

Karabakh has a favorable climate and rich natural resources. It is important to study the historical, geographical, and ethnic history of the region.

Keywords: *Archaeological research, ethnos, toponym, Arsak province, Turkic-speaking tribes.*

РЕЗЮМЕ

ИСТОРИКО-ГЕОГРАФИЧЕСКАЯ И ЭТНИЧЕСКАЯ ИСТОРИЯ КАРАБАХА

Ахмедова Т.Ю.

Карабах, один из очаровательных уголков Азербайджана, также является исторической страной с первыми населенными пунктами. История этой земли уходит своими корнями в глубокую древность.

Природно-географические условия Карабаха сделали его одним из древнейших поселений человека. Азыхская и Тагларская пещеры, одно из древнейших поселений человека в мире, и другие образцы материальной культуры, существовавшие на ее территории, являются ярким свидетельством истории региона.

Археологические раскопки выявили богатые материальные культурные реликвии, отражающие условия жизни первобытных людей, а также фауну и флору Азербайджана около 1,5-2 миллионов лет назад.

Карабах отличается благоприятным климатом и богатыми природными ресурсами. Важно изучить историко-географическую и этническую историю края.

Ключевые слова: *Археологические исследования, этнос, топоним, провинция Арсак, тюркоязычные племена.*

XIX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ ŞUŞA ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ HƏYATI
(“Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı”nın materialları əsasında)

Əliyeva E.K.
Azəbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı, Azərbaycan
emiliaaliyeva11@gmail.com

Açar sözlər: *Şuşa, Qarabağ, icmal, məktəb, ticarət, sənətkarlıq*

XVIII əsrin ortalarında Pənahəli xan tərəfindən müdafiə qalası kimi əsası qoyulmuş Şuşa şəhəri tezliklə yalnız Qarabağ xanlığının deyil, həm də bütün Azərbaycanın mühüm iqtisadi mərkəzlərindən birinə çevrildi. Onu da göstərmək lazımdır ki, şəhərin relyefi və coğrafi mövqeyi onun iqtisadi həyatının istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynamışdı. Belə ki, XVIII-XIX əsrlərdə Azərbaycanın əksər şəhərlərinin iqtisadi həyatında ticarət və sənətkarlıqla yanaşı kənd təsərrüfatı da mühüm rol oynayırdı. Şuşa şəhərinin sıldırım qayalarla əhatə olunmuş hündür dağ yaylasında yerləşməsi onun əhalisinin kənd təsərrüfatı ilə məşğul olmaq imkanlarını məhdudlaşdırırdı. Yarandığı ilk onilliklərdə əsas ticarət yollarından uzaqda yerləşməsi də Şuşada ticarət və sənətkarlığın inkişafını zəruri edirdi. Qarabağın digər bölgələri ilə müqayisədə Şuşada həyatın nisbətən təhlükəsiz olması burada əhalinin, o cümlədən tacir və sənətkarların sayının sürətlə artmasına səbəb olmuşdu. Bütün Qarabağdan kənd təsərrüfatı məhsullarının Şuşaya daşınması da burada ticarət və sənətkarlığın tədricən inkişafı üçün əlverişli şərait yaradırdı. Həftənin bazar günləri Şuşanın yaxınlığında yerləşən kəndlərin əhalisi istər şəhərin daxilində, istərsə də kənarında yerləşən bazarlara axışırdı. Bu bazarlar kənd əhalisinin sənətkarlıq məhsulları ilə, sənətkarların isə zəruri xammalla təmin edilməsində mühüm rol oynayırdı[5, c.71].

XIX əsrin 30-cu illərində rus məmurları tərəfindən tərtib edilmiş “Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı”nın III cildində Şuşa şəhərinin iqtisadi həyatı, əhalisinin sayı və milli tərkibi haqqında qiymətli məlumat verilir. Bu məlumatdan aydın olur ki, 1832-ci ildə Şuşada 1698 ailə yaşayırdı. Bu ailələrdən 936-nı azərbaycanlılar, 762-ni isə ermənilər təşkil edirdi[2, s.308]. Onu da göstərmək lazımdır ki, “İcmalda” erməni kimi qələmə verilən əhalinin əksəriyyətini əslində Qarabağın alban mənşəli xristian məlikliklərindən vaxtilə Şuşaya köçüb gələnlər təşkil edirdi. “Qarabağ əyalətinin təsviri”ndə verilən məlumatlardan aydın olur ki, 1823-cü ildə Şuşada yaşayan 1532 ailənin 1000-dən çoxunu azərbaycanlılar, yerdə qalanlarını isə artıq ermənilərə albanlar təşkil edirdi[3,s.4-18]. Göründüyü kimi, 1823-cü ildən 1832-ci ilə qədər keçən 9 il ərzində Şuşada yaşayan ailələrin sayında 166 artım baş vermişdi. Maraqlı burasıdır ki, bu müddət ərzində şəhərdə azərbaycanlı ailələrin sayında azacıq da olsa azalma baş verdiyi halda, “erməni” kimi qələmə verilən ailələrin sayında hiss ediləcək qədər – 200-dən çox artım olmuşdu. Heç şübhəsiz ki, bu Rusiyanın Türkmənçay müqaviləsindən sonra həyata keçirdiyi köçürmə siyasətinin nəticəsi idi.

“İcmal”da Şuşada fəaliyyət göstərən təhsil müəssisələri haqqında verilmiş məlumatlar da burada yaşayan əhalinin milli tərkibi haqqında müəyyən fikir söyləməyə imkan verir. Bu məlumatlardan aydın olur ki, bu dövrdə Şuşada 240 nəfərin təhsil aldığı 10 təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu məktəblərdən üçü Rusiyanın köçürmə siyasəti nəticəsində sayı tədricən artan ermənilərə xidmət edirdi. Bunlarda təhsil alanların ümumi sayi 80 nəfər təşkil edirdi. Yerdə qalan 7 məktəbdə Şuşanın köklü sakinləri olan azərbaycanlılar təhsil alırdılar. Onların 6-da təhsil alan 143 nəfərdən çox azərbaycanlı uşaq Azərbaycan və fars dillərində yazıb oxumağı və tarix öyrənirdilər. Cümə məscidinin nəzdində fəaliyyət göstərən məktəbdə-mədrəsədə isə 20 nəfər nisbətən yaşlı uşaqlar təhsil alırdılar. Molla olmağa hazıraşan mədrəs tələbələrinin təhsili ilə Cümə məscidinin qazısı məşğul olurdu. Onlara ərəb dili, şəriət,hesab, astrologiya, tibb kimi fənlər tədris edilirdi[2,s.310].

Şuşa məktəblərində təhsil alan şagirdlər, valideynlərinin maddi imkanlarından asılı olaraq, hər ay gümüş pulla 20 qəpikdən 2 rubla qədər təhsil haqqı ödəyirdilər. Ümumiyyətlə “İcmal”da şuşalıların təhsilə böyük önəm verdikləri xüsusi vurğulanır və göstərilir ki, onların könüllü topladıqları ianələr hesabına hələ 1828-ci ildə yerli dillərlə yanaşı rus dilinin də tədris olunduğu xüsusi məktəb təsis olunmuşdu. Az sonra Rusiya hökumətinin təsis etdiyi qəza məktəbində 50 nəfər şagirdin təhsili ilə 3 nəfər müəllim məşğul olurdu[2,s.311].

“Qafqaz arxasındakı Rusiya mülklərinin icmal”nda Şuşada yaşayan əhalinin sosial tərkibi haqqında da məlumatlar cəmlənmişdir. Həmin məlumatlardan aydın olur ki, 1832-ci ildə burada 56 bəy, 64 molla və seyid və 168 tacir və 300 sənətkar ailəsi yaşayırdı[2,s.308-309]. Sənətkarların sayını göstərən rəqəmi XIX əsrin ilk illərinə aid rəqəmlərlə müqayisə etsək, keçən müddət ərzində Şuşada sənətkarlığın dərin tənəzzülə uğradığını aydın görə bilərik. Azərbaycanın sənətkarlıq tarixini tədqiq etmiş tədqiqatçılardan biri müxtəlif illərə aid statistik məlumatları təhlil edərək Rusiya-Qacar müharibələrinin başlanmasına qədər və onun ilk illərində Şuşa şəhərində 2 mindən çox sənətkarın yaşaması fikrini irəli sürür[4,s.45].

Göstərilən mənbədə XIX əsrin 20-30-cu illərində Şuşada mövcud olan sənət sahələri, eləcədə bu sənət sahələrindən hər biri üzrə çalışan sənətkarların sayı haqqında xeyli məlumata rast gəlmək mümkündür. Həmin məlumatdan aydın olur ki, bu dövrdə şəhərdə 6 nəfər həllac, 9 nəfər dabbağ, 48 nəfər ipək, 28 nəfər bez parça

toxucusu, 12 nəfər gümüşbənd, 25 nəfər dəmirçi, 6 nəfər misgər, 3 nəfər qalayçı, 25 nəfər yəhər ustası və palançı, 24 nəfər papaqçı, 30 nəfər dərzi, 44 nəfər çəkməçi, 4 nəfər əlcək ustası, 4 nəfər dülgər, 2 nəfər keçə istehsal edən, 6 nəfər odlu, 10 nəfər isə soyuq silah istehsal edən və digər sənətkarlar çalışırdı [2,s.308-309]. Bu rəqəmləri Rusiya-Qacar müharibələrinin dağıdıcı təsirinin hələ geniş miqyas almadığı XIX əsrin ilk illərinə aid rəqəmlərlə müqayisə etdikdə, Şuşa şəhərində sənət istehsalının dərin tənəzzülə uğraması özünü aydın göstərir. Belə ki, 1809-cu ilə aid məlumata görə Şuşa şəhərində və onun yaxınlığında yerləşən kəndlərdə 1000 ədəd bez parça, 500 ədəd isə ipək parça toxuyan dəzgah fəaliyyət göstyərirdi [1]. Bu dəzgahlardan hər birində ən azı bir nəfər toxucunun çalışdığını nəzərə alsaq, onda həmin dövrdə Şuşa şəhərində ən azı 1500 nəfər toxucunun çalışdığını müəyyən edə bilərik.

"İcmal"da Şuşada parça toxuculuğu haqqında verilən məlumatlar daha sistemli və müfəssəl xarakter daşıyır. Bu dövrdə şəhərdə fəaliyyət göstərən 70 toxuculuq müəssisəsindən 42-si ipək, 28-i isə pambıq parça istehsalı üzrə ixtisaslaşmışdı. İpəktoxuyan müəssisələrdə işləyən 132 dəzgada müxtəlif növ dəsmallar, damalı örtüklər, darayi və s. parçalar toxunurdu. 1829-cu ildə şəhərdə 14040 ədəd müxtəlif növ ipək parça istehsal edilmişdi. Eni 10 verşokdan 1 arşına qədər, uzunluğu isə 25 arşın olan ipək parçanın hər ədədi gümüş pulla 8 rubldan baha satılırdı[2,s.311-312]. İpək parça toxucularının xammalla təmin edilməsilə 7 dəzgahda çalışan 15 nəfər sənətkar məşğul olurdu. Pambıq parça istehsalı ilə məşğul olan 28 toxuculuq müəssisəsində isə 80 dəzgah fəaliyyət göstərirdi. Bu dəzgahlarda hər il ədədi qaydada 8 min bez parça istehsal edilirdi və onların hər biri gümüş pulla 80 qəpikdən 1 rubla qədər satılırdı[2,s.311-312].

Şuşa şəhəri həm də bütün Qarabağda gön-dəri məmulatı istehsalının mühüm mərkəzi idi. "İcmal"da verilən məlumatdan aydın olur ki, şəhərdə fəaliyyət göstərən 19 dabbağ emalatanasında ildə 2000 ədəd ayaqqabı altlığı, 1400 ədəd keçi və 1600 ədəd qoyun dərisi emal edilirdi[2,s.313]. İstehsal edilən bu gön-dəri məmulatları şəhərdə fəaliyyət göstərən çoxsaylı sərracların, papaqçıların və çəkməçilərin xammalla təchiz edilməsində mühüm rol oynayırdı.

Şəhərdə parça toxuculuğunun və gön-dəri məmulatı istehsalının inkişafı həmin məmulatların bədii tərtibatı üçün zəruri olan boyaqçılıq sənətinin də inkişafına təkan vermişdi. "İcmal"da verilən məlumatdan aydın olur ki, tədqiq olunan dövrdə Şuşada 6 nəfər sənətkarın çalışdığı 3 boyaqçılıq emalatxanası fəaliyyət göstərirdi. Bu emalatxanalardan biri məmulatların ancaq göy rəngə, ikisi isə digər rənglərə boyaması üzrə ixtisaslaşmışdı[2,s.313].

Azərbaycanın gənc şəhərlərindən olmasına baxmayaraq, Şuşa XIX əsrin əvvəllərində yalnız Azərbaycanın deyil, həm də bütün Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdi. Qarabağ xanığının iqtisadi tarixini tədqiq etmiş M.M.Mustafayev bu dövrdə Şuşanı Cənubi Qafqazın Tiflisdən sonra ikinci böyük ticarət mərkəzi kimi xarakterizə edir[5,s.72]. Şəhər az qala bütün Qarabağı əhatə edən daxili ticarətin əsas mərkəzinə çevrilmişdi. Yuxarıda qeyd edildiyi kimi, bazar günləri təçkil edilən həftəbazarlarda və şəhərin daxilində daimi fəaliyyət göstərən bazarlarda qızgın ticarət gedirdi. Şuşa bazarlarında Qarabağın özündə istehsal edilmiş əkinçilik məhsullarından buğda, arpa, çəltik, darı, heyvandarlıq məhsullarından iri və xırdabuynuzlu malqara, yağ, ət və süd məhsulları, yun, ipək və pambıq satılırdı. Tiflisdən və Azərbaycanın qonşu əyalətlərindən Şuşa bazarlarına ümumi dəyəri gümüş pulla 90 min rubl olan müxtəlif mallar gətirilirdi. Bu mallar arasında Tiflisdən gətirilən çit, basma naxışlı pambıq parçalar, mahud, müxtəlif rəngli qələmkar parçalar, koşenil, çay, qənd, Bakıdan gətirilən dəmir, kağız, neft, zəfəran, saxsı qablar, Dərbənddən gətirilən boyaqotu, Şəkidən gətirilən tüfəng, şal, yapıncı, xalça, Gəncədən gətirilən zəy və meyvə, İrəvan və Naxçıvandan gətirilən duz və kətan daha üstün mövqe tuturdu[2,s.315-316]. Heç şübhəsiz ki, Şuşa bazarlarında satılan məhsullar arasında yerli sənətkarların istehsal etdikləri sənətkarlıq məhsulları çoxluq təşkil edirdi.

"Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı"nda verilən statistik məlumatlardan aydın olur ki, tədqiq olunan dövrdə Şuşa şəhəri Azərbaycanın xarici və tranzit ticarətində də mühüm rol oynayırdı. Mənbədə şuşalı tacirlərin ticarət əlaqələri saxladığı məntəqələr arasında İranın İsfahan,Yəzd, Kaşan, Xorasan, Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya, Ərdəbil şəhərlərinin adları çəkilir və onlardan Şuşaya hər il gümüş pulla 140 min rubl dəyərində müxtəlif malların gətirildiyi göstərilir. Bu məlumatlardan aydın olur ki, şuşalı tacirlər Təbriz şəhəri ilə daha sıx ticarət əlaqələri saxlayırdılar. Bunu hər il Təbrizdən Şuşaya gətirilən 300 yüz tay bürmet, 300 tay bez, 1000 arşın qanavuz, 600 ədəd müxtəlif rəngli Təbriz taftası, 200 ədəd qələmkar parça, 2000 ədəd ipək yaylıq, 1000 ədəd göy rəngli örtük, eləcə də xeyli miqdarda ədviyyat, qurudulmuş meyvə, xına, qənd, dəri və s. mallar haqqında mənbədə verilmiş statistik materiallar da təsdiq edir[2,s.314-315].

Göründüyü kimi, "Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı"nın III cildində XIX əsrin 20-30-cu illərində Şuşa şəhərinin sosial-iqtisadi həyatını öyrənmək üçün xeyli faktiki və statistik material cəmlənmişdir. Bu materialların təhlili və digər materiallarla müqayisəsi belə qənaətə gəlməyə imkan verir ki, Şuşa şəhəri Rusiya-Qacar müharibələrinin gedişində xeyli dərəcədə ziyan görsə də, müharibələr başa çatdıqdan sonra sürtətlə inkişaf edərək Azərbaycanın mühüm ticarət-sənətkarlıq və təhsil mərkəzlərindən birinə çevrilməyə başlamışdı.

ƏDƏBİYYAT

1.Акты Кавказской Археографической Комиссии. т.IV, Тифлис, 1874, док. 95

2.Обозрение Российских владений за Кавказом в статистическом, топографическом, этнографическом и финансовым отношениях. т.III, СПб, 1836

3.Описание Карабахской провинции, составленное в 1823 году по распоряжению главнокомандующего Грузии Ермолова. Тифлис, 1866

4.Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2002

5.Мустафаев М.М. Экономика Карабахского ханства. Диссертация по соискание ученой степени кандидата экономических наук. На правах рукописи, 1949

SUMMARY

SOCIO-ECONOMIC LIFE OF THE CITY OF SHUSHA IN THE 20-30S. OF THE 19TH CENTURY (BASED ON THE MATERIALS "OVERVIEW OF RUSSIAN POSSESSIONS BEYOND THE CAUCASUS")

Aliyeva E.K.

.

Volume III of "Review of Russian possessions beyond the Caucasus" contains very valuable information about the socio-economic life of the city of Shushi after the division of Azerbaijan between Russia and the Qajar state. Based on this information, the article discusses such issues as the social and national composition of the population, the state of educational institutions and the level of development of handicraft production and trade. Based on a comparison of the statistical data of this source with materials from the beginning of the 19th century, we conclude that the Russian-Kadjar wars caused great damage to the economic life of the city of Shushi.

Key words: *Shusha, Karabakh, reviews, school, trade, craft*

РЕЗЮМЕ

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ ГОРОДА ШУШИ В 20-30 ГГ. XIX В. (НА ОСНОВЕ МАТЕРИАЛОВ «ОБОЗРЕНИЕ РОССИЙСКИХ ВЛАДЕНИЙ ЗА КАВКАЗОМ»)

Алиева Э.К.

В III томе «Обозрение Российских владений за Кавказом» собраны очень ценные сведения о социально-экономической жизни города Шуши после раздела Азербайджана между Россией и Каджарским государством. В статье на основе этих сведений рассматриваются такие вопросы, как социальный и национальный состав населения, состояние учебных заведений и уровень развития ремесленного производства и торговли. На основе сравнения статистических данных этого источника с материалами начала XIX в. приходим к выводу, что Русско-Каджарские войны нанесли огромный ущерб экономической жизни города Шуши.

Ключевые слова*: Шуша, Карабах, обозрения, школа, торговля, ремесло*

QARABAĞ COĞRAFİ-İQTİSADİ RAYONUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ

Əmiraslanova D.Ə.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbayacn

dilare.amiraslanova@mail.ru

Açar sözlər: Qarabağ, iqtisadi rayon, işğal olunmuş ərazilər, təbii ehtiyat, məhsuldar qüvvələr

Xalqımızın uzun illər ərzində işğaldan azad edilmiş Qarabağ torpaqlarında yaratdığı maddi və mənəvi sərvətlər dağıdılıb, saxtalaşdırılıb. Binalar, məktəblər, yollar, enerji, su və sağlamlıq mərkəzləri talan edilərək dağıdılıb. Bizim üçün yalnız xarabalıqlar qalmışdı ki, bu da burada insanların yaşadığını göstərir. Hazırda torpaqların böyük hissəsi kənd təsərrüfatı üçün yararsızdır. Azad edilmiş ərazilərin iqtisadiyyatı tarixən şaxələndirilib. Çünki bu rayonlar təbii sərvətlərə görə Azərbaycanın ən zəngin rayonları sırasındadır. Neft və qaz ehtiyatlarını nəzərə almasaq, Azərbaycanın faydalı qazıntılarının üçdə birindən çoxu işğaldan azad edilmiş ərazilərdə cəmləşib.

Ərazi müxtəlif növ faydalı qazıntılar,əlvan metallar və müxtəlif tikinti materialları ilə zəngindir. Kəmiyyət baxımından qaydalı resursların əksəri Ermənistanla həmsərhəd olan Zəngilan, Kəlbəcər və Laçın rayonlarında yerləşir. Azad edilmiş ərazilər quru, təmiz iqlim və münbit qara torpaq ilə səciyyələnir. Zəngin mədəniyyətə, tarixi istehsal təcrübəsinə və əlverişli coğrafi mövqeyə malik olan regionun təkcə Azərbaycanın bölgələrinə deyil, İran, Türkiyə və Ermənistan kimi xarici ölkələrə də birbaşa çıxışı var. Bütün bunlar işğaldan azad edilmiş Qarabağ bölgəsində iqtisadiyyatın demək olar ki, bütün sahələrinin dirçəlməsi və inkişafı üçün mühüm şərtlərdəndir. Ümumilidə deyə bilərik ki, düşmən tapdağından qurtarılmış ərazilərdə hər şey tamamilə dağıdılıb. Minalanmış yerlər həyat üçün təhlükə mənbəyidir. İndi bu torpaqları təmizləmək, dağıdılmış yaşayış məntəqələrini bərpa etmək, insanların yaşayışı və işi üçün yeni şərait qurmaq vacib bir məsələdir. Bununla bağlı ölkə Prezidentinin məqsədyönlü fəaliyyəti və başçılığı ilə yaşayışın bütün sahələrinin, iqtisadiyyatın və xidmətlərin dövlət səviyyəsində bərpasını və inkişafını əhatə edən çox istiqamətli işlərin görülməsi planlarının hazırlanması üşün mühüm addımlar atılır.

Demək olar ki, belə mühüm problemin həlli zamanı iki vacib aspekt qiqqətə alınmalıdır. Birincisi, inkişaf və dirçəliş planlarının həyata keçirilməsi çətin məsələ olduğundan, onun həlli ilə bağlı müxtəlif fikirlər, tövsiyyələr və baxışlar ola bilər. Növbəti isə, bu məsələnin həlli zamanı ona əlavə və təkmilləşdirmələrin edilməsi təbiidir. Bu baxımdan Qarabağda yeni həyat keyfiyyətinin bərpası və inkişafı üçün hazırlanmış planda aşağıdakı fəaliyyət istiqamətlərinin müəyyən edilməsini, bütün həyata keçirilən tədbirlərin, elmi tədqiqatların birləşdirilməsini məqsədəuyğun hesab edirik [2]:

-əhalinin həyatı və fəaliyyəti üçün lazımi şəraitin yaradılması, habelə ərazilərin minalardan təmizlənməsi;

- köçürmənin prosesinin təşkili, ərazilərin bərpasının sistemli şəkildə həyata keçirilməsi;

- İndi və yaxın gələcəkdə istifadə oluna bilən iqtisadi inkişaf potensialının müəyyən edilməsi və təhlili;

- Olan resurslardan məqsədyönlü istifadə, əvvəldən mövcuq olmuş istehsal təcrübəsinin qorunub saxlanılması və xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi yollarını rəhbər tutmaqla iqtisadiyyatın bərpası və inkişafı istiqamətlərinin müəyyən edilməsi;

- regionda yeni həyat keyfiyyətinin bərpası və inkişafının maliyyələşdirilməsi mənbələrini və imkanlarını müəyyən etmək;

- rayonun mövcud təbii sərvətlərindən, faydalı qazıntılarından səmərəli istifadə edilməsi, məhsulların xarici bazarlara çıxarılması, əsasən Azərbaycan vətəndaşlarının cəlb edilməsi ilə sənaye sahibkarlığının formalaşdırılması;

- torpaq istifadəçiləri (sahibkarlar) arasında torpaq sahələrinin məqsədyönlü bölgüsü, ehtiyat torpaq fondunun saxlanılması və ümumilikdə torpaqlardan daha yaxşı istifadə etməklə kənd təsərrüfatının inkişaf istiqamətinin formalaşdırılması;

- regionda turizmin inkişafı ilə bağlı mövcud olan bütün imkanlarından istifadə etmək və bu sahənin inkişafına təkan vermək;

Təbii ki, bu sahələrdə nəyisə əlavə etmək, təkmilləşdirmək olar. Lakin bütün hallarda belə sistemli yanaşma problemlərin həllini nisbətən asanlaşdırır.

Yuxarıda göstərilən istiqamətlərdən əlavə qeyd etmək olar ki, Şuşada binalar müasir memarlıq üslubunda tikilməli, turizmin inkişafı imkanları, eləcə də şəhərin quru, təmiz hava və sağlamlıq funksiyası nəzərə alınmalıdır. Ora bir mərkəz kimi qorunmalıdır. Şəhərdə bütün növ kommunal xidmətlərin yüksək səviyyədə nümunəvi təşkili təmin edilməlidir. Çox güman ki, Şuşa şəhərinin dövlət səviyyəsində bərpası və inkişafı planı hazırlanarkən bu və ya digər xarakterli digər tələblər də nəzərə alınacaq. Bu gün onlar bir xəyal olsa da inanırıq ki, sabah reallığa çevriləcək. Lakin Şuşada həddən artıq müxtəlif istehsal və xidmət müəssisələri yerləşdirərək böyük şəhərə çevirməyə çalışmaq düzgün deyil. Bu, onun kurort kimi xarakterini və dəyərini zədələyə bilər. Fikrimizcə, işğaldan azad edilmiş ərazidə daha iki şəhərin regional mədəniyyət və iqtisadi mərkəz kimi inkişafına üstünlük verilə bilər. Ümumiyyətlə, onları Qarabağın məhsuldar qüvvələrinin səmərəli ərazi təşkili maraqları, habelə respublikamızın mədəni-iqtisadi mərkəzi rolunu oynamağa qadir olan şəhərlərin düzgün yerləşdirilməsi nəzərə alınmaqla müəyyən etmək olar.

Qarabağın mərkəzi kimi inkişaf edəcək şəhərlərdən biri də yəqin ki, Füzulidir. Burada beynəlxalq hava limanının tikintisi buna münbit şərait yaradır. İdarəetmənin təkmilləşdirilməsi, respublikamızın ərazisində mədəniyyət və iqtisadi mərkəz rolunu oynamağa qadir olan şəhərlərin nisbətən bərabər paylanması, Qarabağın hərtərəfli inkişafı maraqlarını nəzərə alaraq üçüncü bir şəhəri qeyd etmək olar. Təbii ki, iqtisadiyyatın bütün sahələrinin və xidmət sektorunun dövlət səviyyəsində bərpasını və inkişafını əhatə edən uzunmüddətli (təxminən 10 il) strateji xətt, plan və proqram hazırlanıb həyata keçiriləcək. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu sahələrdə təşkilati və əməli fəaliyyət artıq genişlənir. Fikrimizcə, keyfiyyətin bərpası, iqtisadiyyatın və xidmətlərin inkişafı məsələlərinin həllində ardıcıllıq müəyyən etmək lazımdır. Genişmiqyaslı, uzunmüddətli inkişaf şəraitində öz yurdlarına qayıdacaq insanların

həyat və fəaliyyəti üçün ən zəruri şəraitin təmin edilməsi ön plana çıxmalıdır. Prezident İlham Əliyev Qarabağ işğaldan azad ediləndən indiyədək insan həyatı və fəaliyyəti üçün zəruri olan su, enerji, yol və səhiyyənin bərpası ilə bağlı çox haqlı olaraq sərəncam verib. Su həyatın özüdür, yollar müasir həyatın həyat qüvvəsidir, enerji fəaliyyətin və inkişafın hərəkətverici qüvvəsidir, sağlamlıq Qarabağa qayıdan insanların sağlamlığının və işgüzarlığının qorunmasında mühüm şərtdir.

Bu ərazilərdə sənaye və sosial infrastrukturun inkişafı bütövlükdə işğaldan azad edilmiş rayonların, Qarabağ bölgəsinin iqtisadiyyatının ayrılmaz regional sistem kimi inkişafına şərait yaratmalı, digər tərəfdən ikitərəfli münasibətlərin inkişafına şərait yaratmalıdır. Kəndlərarası mərkəzlərin yaradılması və inkişafı yerli əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılmasına, əhalinin şəhərlərə axınının azalmasına, şəhər həyatının nisbətən bərabər paylanmasına əlverişli şərait yaradacaqdır. İşğaldan azad edilmiş digər ərazilərdə kəndlərarası mərkəzlər istisna olmaqla, qalan ərazilərdə bərpa və abadlıq işləri əsasən əhalinin təşəbbüsü ilə aparıla bilər. Sonradan həyat normallaşanda bu kəndlərin inkişaf perspektivləri daha aydın görünəcək.

İstehsal sahələri bərpa edilərkən ilk növbədə insanların zəngin tarixi təcrübəyə malik olduğu ərazilərin yeni şəraitin tələblərinə uyğun bərpasına diqqət yetirilməlidir. Məlumdur ki, işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatı tarixən şaxələndirilib. Qarabağın zəngin təbiəti, əlverişli coğrafi mövqeyi burada istehsalın və xidmətlərin hərtərəfli inkişafına şərait yaradır.

Qarabağda turizmin inkişafı ilə yanaşı, ermənilər tərəfindən saxtalaşdırılan abidələrin onun tarixinə salınması həllini gözləyən mühüm məsələlərdəndir [3]. Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə yeni muzeylərin inşa edilməsi böyük əhəmiyyət kəsb edir. Fikrimizcə, bəşər tarixində erməni faşizminin və vandalizminin izlərini tanımaq üçün işğaldan azad edilmiş hər bir rayonumuzda dağıdılmış tikili nümunələri tarixi eksponat kimi qorunmalıdır. Ermənilərin işğalçılıq siyasətinin saysız-hesabsız cinayətlərinin tarixi sübutu olan bu eksponatlar gələcək nəsillərə, dünyada yaşayan soydaşlarımıza və bütövlükdə dünya ictimaiyyətinə erməni faşizminin mahiyyətini aydın şəkildə izah edəcək. İşğaldan azad edilmiş ərazilərdə inşa ediləcək sahələrdən əldə ediləcək gəlir Azərbaycanın gələcək inkişafı üçün mühüm şərait yaradacaq. Regionun dirçəlişi çoxlu yeni iş yerlərinin açılmasına səbəb olacaq. Beləliklə, yeni layihələrin planlaşdırılması və həyata keçirilməsi vətəndaşlarımızın məşğulluğunun təmin olunmasında mühüm addımlardan biri olacaqdır. İqtisadi inkişaf yeni iş yerlərinin yaranmasına şərait yaradacaq. Bütün bu sahələrdə həyata keçirilən islahatlar Azərbaycan iqtisadiyyatının daha da çiçəklənməsinə səbəb olacaqdır.

ƏDƏBİYYAT

1. Sadıqlı, F. Yeni iqtisadi rayonlar ölkəmizin gələcək inkişafı üçün yeni imkanlar açır. 09.07.2021.https://azerbaijan-news.az/posts/detail/yeni-iqtisadi-rayonlar-olkemizin-gelecek-inkisafi-ucun-yeni-imkanlar-acir-1625780115.

2. https://xalqqazeti.com/mobile/az/news/70145

3.http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf

SUMMARY

DEVELOPMENT PROSPECTS OF KARABAKH GEOGRAPHICAL AND ECONOMIC REGION

Amiraslanov D.A.

The reconstruction and development of Karabakh is a realistic goal based on Azerbaijan's capabilities and the rich history of the local economy. We have every opportunity for the comprehensive development of Karabakh and its transformation into an economically strong region of Azerbaijan. At a time when a large-scale, long-term process of restoration, revival and development began in such a region with great potential as Karabakh, it should be noted that, in general, when determining the direction of development of the economy and productive forces in the regions, the various characteristics of each region and common strategic tasks facing our republic. In this regard, the restoration of the former life and the qualitative development of the liberated regions and cities of Karabakh is of great importance. The article provides information about the economic potential of Karabakh and the prospects for the development of the liberated territories.

Keywords: Karabakh, economic region, occupied territories, natural resources, productive forces

РЕЗЮМЕ

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ КАРАБАХСКОГО ГЕОГРАФО-ЭКОНОМИЧЕСКОГО РАЙОНА

Амирасланова Д.А.

Восстановление и развитие Карабаха – реальная цель, основанная на возможностях Азербайджана и богатой истории местной экономики. У нас есть все возможности для всестороннего развития Карабаха и превращения его в экономически сильный район Азербайджана. В то время, когда в таком регионе с большим потенциалом, как Карабах, начался масштабный, долгосрочный процесс восстановления, возрождения и развития, следует отметить, что в целом при определении направления развития экономики и производительных сил в регионах, учитываются различные особенности каждого региона и общие стратегические задачи, стоящие перед нашей республикой. В связи с этим большое значение имеет восстановление прежней жизни и качественное развитие освобожденных районов и городов Карабаха. В статье представлена информация об экономическом потенциале Карабаха и перспективах развития освобожденных территорий.

Ключевые слова: *Карабах, экономический район, оккупированные территории, природные ресурсы, производительные силы*

INFORMATION TELECOMMUNICATION TECHNOLOGIES IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION

Gurbanova L. I.
Sumgayit State University, Sumgayit, Azerbaijan
lale.qurbanova.85@inbox.ru

Key words: *Information Society, Information Telecommunication Technologies, Asan khidmet, E-government , smart city, smart village*

As we all know our modern world is rapidly changing and Information Telecommunication Technologies (ITT) characterizes its improvement. ITT has already become one of the main factors and widely influence all the fields around us. Of course the implementation of new technologies doesn't work equally. It depends on the level of development and the opportunities in every state. The rate of use ITT is based on the indicators of the community toward the education level, intellectual potential, the value given to human capital. And this is about using artificial intelligence widely, automation of production, robotization and implementation of digital technologies in all the fields of economy. Generally this new industry revolution leads to the newest, most different and affordable infrastructure in every field related to digitalization.

In our country the making use of ITT occupies the major place as well. In order to integrate with the technical improvements in the world our state organizations try to create more digital services for public. These services can make convenient and rapid condition for every citizen. For making this atmosphere there can be derived benefit from the experience of technological advancements. Among today's demands there is a special need for e-government and there are several steps fronting forming digital services as in many areas as possible. E-Government has been forming recent years in order to offer the distance among citizens, simplify and clarify the relationships. Widely implementation of digital services in every field can create a productive condition for everyone and take bureaucratic obstacles. It can help legal and illegal persons living in our country to derive benefit from the opportunities which are made by E- Government. Almost in most government agencies people have been provided with digital services. We can show the creation of "Asan khidmet" as an example in the field of digital services. These agencies were formed in 2012 in Azerbaijan. These centers are subordinated to the State Agency for Citizen Services and Social Innovations at the President. The purpose of this institution was to enhance the transparency in the action of government agencies, the service providing to citizens with high quality and modern innovations. Because there should be achieved new standards in this sector. Generally the development of e-Government, solving the problems related to financial sector, the adaptation process of legislation to new technological trends continues. According to national strategy for the development of the information society in the Republic of Azerbaijan for 2014-2020 there have been achieved some improvements in several sectors. "Azerbaijan 2020: vision for the future" Development Concept approved by the decree number 800 signed by the President of the Republic of Azerbaijan

dated December 29, 2012 was aimed at ensuring long-term, successful and sustainable development in the country, building a knowledge-based competitive economy [4] . One of the tasks of information is the development of society based on modern values and principles. State care for the forming of information society in Azerbaijan leads to the speed of improvement in the field of information and communication technologies as well as its transformation into a leading factor serving the welfare of our people which is an integral part of the policy aimed at the future prospects of our country. "For the development of the Republic of Azerbaijan National Strategy on Information and Communication Technologies (2003-2012)" approved by the decree number 1146 signed by the President of the Republic of Azerbaijan dated February 17, 2003 is about the implementation of state programs in the spheres of education, health, other social and economical fields. According to these implementations by the enhancing level of use of ICT (Information Communication Technologies) daily life and business activities significantly increased.

World experience shows that the effective use of ICT has a positive impact on the socio-economic development of each country and it becomes an effective tool in reducing poverty by making new job chances. Since 2001, certain steps have been taken in this area on the basis of a joint project prepared by the UN Development Program and the Government of Azerbaijan. Since February 2002, the Government of Azerbaijan has been implementing a project entitled "National Strategy for the Application and Development of Information and Communication Technologies in the Republic of Azerbaijan" developed jointly with the United Nations Development Program. This document defines the main directions, main tasks and priorities of the application of advanced communication technologies in our country. Today it can be said unequivocally that our republic has successfully embarked on the path of creating an information society in the context of modern globalization. The development of a national ICT strategy in our country should be considered an important step towards creating the necessary environment for the transition to a global information society. Approval of the project "National Strategy on Information and Communication Technologies for the Development of the Republic of Azerbaijan (2003-2012)" shows that Azerbaijan already has an important political document on the establishment of an information society. The working groups under this project have actively joined the process of ICT development in Azerbaijan and have achieved many successes. Regional ICT centers have already been established in the regions of the country. High-level representation of Azerbaijan at the Geneva World Information Summit, attended by 621 people from 112 countries and 374 organizations, once again proves that our country attaches great importance to the creation, development and establishment of relevant structures of ICT. President Ilham Aliyev's speech at the summit was the next serious step in this area. In his speech the slogan "Turn black gold into human capital" was memorized. One of the valuable ideas voiced in this speech was not only the widespread application of innovation and communication technologies in Azerbaijan, but also its development as a sector of the economy.

One of the main factors influencing the formation of the information society is the World Wide Web (www). Thus, in a modern society based on high information, a person, regardless of the geographical location, can receive complete and accurate information from any state via the Internet in a short time. Today, the Internet is not only a place for the exchange of information, but also an environment that creates new values in public administration, education, health, business, banking and other areas. Protection of human freedoms is one of the important activities of the modern Internet. The development of Internet media, freedom of thought and speech on the Internet, the expansion of social networks, ensuring open and transparent government activities, the involvement of citizens in governance processes are new opportunities provided to people by the global network.

In Azerbaijan it's paid special attention to the development of both ICT and the Internet, and the latest technology, 4G is already being used in our country. There is internet freedom in Azerbaijan. The Internet, radio and Internet- television programs, electronic newspapers and magazines, external and internal social networks are widespread in our country. Thousands of bloggers feely operate in the Internet space of Azerbaijan. Today, the spread of the Internet in Azerbaijan is 65% and it continues to expand. The whole territory of the country is covered by mobile communication and the Internet. The number of Facebook users in Azerbaijan has reached one million. According to these indicators, our country is one of the leading countries in Asia and Europe.

A lot of work has been done to build E-government based on international and US experience, which has laid the foundation for transparency and easy service in our country. Azerbaijan has achieved great success in the field of information and communication technologies for 9 years and this is being continued in our territories liberated from occupation. After the Second Karabakh War, which ended in victory, a lot of work has been started in our liberated lands to implement urban planning on a technological basis. President Ilham Aliyev has laid the foundation of the "smart village" project in the Agali village of Zangilan region and construction work is under way. One of the main components of the pilot project "smart village", which will be implemented in the first phase on 5 components, covering the first, second, third Agali villages of Zangilan, is "smart agriculture". "Smart agriculture" is a new concept that uses modern information and communication technologies to increase the quantity and quality of products while optimizing the human labor required for production. [5]

"Smart village" is not only an area related to agriculture. Factors such as the application of modern urban standards, "smart" street lighting, construction of hot and cold environmentally friendly houses, household waste management, installation of hydroelectric power plants, solar panel stations, biogas energy use are among the key components of the concept. If we take into account the construction of modern schools, kindergartens, clinics and E-government centers in these villages, as well as the formation of tourism infrastructure, the picture will be clear. Providing all homes, social facilities, processing and production of agricultural products with alternative energy sources shows the advantages of the "smart village". If such towns and villages are built in the liberated areas, some attention should be paid to ensuring that refugees who have settled in Baku and other major cities adapt to the local environment return to their homeland. In order to ensure their return, first of all, it is important to provide normal infrastructure. At the same time, there is a need for a number of reforms, including land reforms, which the refugees have been deprived of in the past. [6]

Apart from these services there has been planned to establish industrial zone in the liberated East Zangazur region, Jabrail region according to the decree of the President of the Republic of Azerbaijan dated October, 2002. Measures related to the organization, management and development of the Industrial Park will be implemented by the Agency for Development of Economic Zones under the Ministry of Economy of the Republic of Azerbaijan. All these have especial purposes to form new prosperous regions after the war and contribute to the common economy of the country

REFERENCES

1. Frank Webster. "Theories of the Information Society". New York: the Taylor & Francis e-Library, 2006.
2. Hiranya K. Nath. "The Information Society" SIBCOLTEJO – A Journal of the SCTU, 2009.
3. The Information Age: An Anthology on Its Impact and Consequences. Edited by David S. Alberts and Daniel S. Papp, CCRP Publication Series, 1997.
4. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün MİLLİ STRATEGİYA. [Digital resource] / URL: https://president.az/az/articles/view/11312
5. "Ağıllı kənd təsərrüfatı" layihələri işğaldan azad edilmiş ərazilərdə yüksək məhsuldarlıq vəd edir. [Digital resource] / URL: https://ted.az/az/view/news/33783
6. Azad edilmiş ərazilər "Ağıllı kənd" konsepsiyası əsasında qurulacaq . [Digital resource] / URL: https:\\kaspi.az
7. Qarabağda "ağıllı kənd" konsepsiyası. [Digital resource] / URL: https:// yeni xeber. org/ sosial /10 8899

XÜLASƏ

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İNFORMASİYA TELEKOMMUNİKASİYA TEXNOLOGİYALARI

Qurbanova L.İ.

Müharibədən sonra işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri müasir dünyanın yeni reallıqları tələblərinə uyğunlaşdırılmış şəkildə aparılır. Qələbə ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda texnoloji əsaslarla şəhərsalma işlərinin həyata keçirilməsi istiqamətində böyük və əməli işlərə start verilib. Onlardan ən mühümü müasir informasiya cəmiyyəti ilə ayaqlaşa bilən yeni şəhər və kənd modellərinin tətbiqidir. Ona görə də "ağıllı şəhər" və "ağıllı kənd" layihələri həyata keçirilir ki, bu da oraya yenidən məskunlaşacaq vətəndaşların rifahına xidmət edəcək. Eyni zamanda, bir sıra islahatlara, o cümlədən keçmişdə qaçqınların məhrum olduqları infrastruktur islahatlarına böyük ehtiyac var.

Açar sözlər: *İnformasiya cəmiyyəti, İnformasiya Telekommunikasiya Texnologiyaları, Asan xidmət, Elektron hökumət, ağıllı şəhər, ağıllı kənd*

РЕЗЮМЕ

ИНФОРМАЦИОННО-ТЕЛЕКОММУНИКАЦИОННЫЕ ТЕХНОЛОГИИ НА ОККУПИРОВАННЫХ ТЕРРИТОРИЯХ

Гурбанова Л. И.

Восстановительные работы на освобожденных после войны территориях ведутся в соответствии с требованиями новых реалий современного мира. После Второй Карабахской войны, закончившейся победой, была развернута масштабная и практическая работа по проведению

градостроительных работ на освобожденных от оккупации наших землях на технологической основе. Важнейшим из них является внедрение новых городских и сельских моделей, способных идти в ногу с современным информационным обществом. Поэтому реализуются проекты «умный город» и «умная деревня», которые будут служить благополучию горожан, которые туда переселятся. В то же время существует большая потребность в ряде реформ, в том числе в инфраструктурных реформах, которых беженцы были лишены в прошлом.

Ключевые слова: *Информационное общество, Информационно-телекоммуникационные технологии, Асан хидмет, Электронное правительство, умный город, умная деревня*

ŞƏRQİ ZƏNGƏZUR İR-NUN TORPAQ-BİTKİ ÖRTÜYÜNÜN MÜASİR EKOLOJI VƏZİYYƏTİ, ONLARIN OPTİMALLAŞDIRILMASI VƏ PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Hacıyeva A.Z., Cəfərova F.M.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
afaq.adiu@mail.ru, jafarova_firuza@mail.ru,

Açar sözlər: *Şərqi Zəngəzur, ekocoğrafi problemlər, işğal, meşələr, torpaq-bitki örtüyü.*

Giriş. Tədqiqat aparılan ərazi qərbdən suayrıcı dağlar boyunca Ermənistan Respublikası ilə həmsərhəddir. İqtisadi rayonun 30 ilə yaxın işğal altında olmasını nəzərə alsaq, hazırda buranın necə gərgin ekoloji vəziyyətdə olduğunu təxmin etmək o qədər də çətin deyil. Ərazinin torpaq örtüyü ilk növbədə minalardan təmizlənməli və müharibə dövründə atılaraq qalmış silah-sursat utilizasiya olunmalıdır. Bu proses əsasən ilkin etapda torpaqların eroziyalaşmaya doğru gedən vəziyyətini stabilləşdirəcəkdir. Son olaraq fitomeliorativ metodlardan istifadə etməklə iqtisadi rayon ərazisindəki zəngin torpaq və bitki növlərinin bərpasına başlanıla bilər.

Araşdırmalar və müxtəlif ədəbiyyatlara olan müraciətlər göstərir ki, tarix boyu baş verən bir çox müharibələr torpaq sahələrinin fərqli istiqamətli korlanmasına, yararsız vəziyyətə düşməsinə gətirib çıxarmışdır. Hətta 1960-cı illərin sonu, 70-ci illərin əvvəllərində ABŞ-ın Hind-Çin yarımadasında apardığı müharibəni məhz ABŞ alimləri təbiətə qarşı edilən "Ekosid" adlandırmışlar. Biz də işğaldan azad olunmuş torpaqlarımızda apardığımız ilkin müşahidələrə əsasən qeyd etmək istərdik ki, XXI əsrin ən böyük "Ekosidi" məhz Ermənistanın Azərbaycan ərazisində apardığı müharibə və işğal dövrünə aiddir. Torpaq sahələrinin uzunmüddətli silah-sursat tullantıları altında qalması, səngərlərin və bunkerlərin qazılması, eləcə də ağır texnikanın daimi hərəkəti burada üst münbit qatın məhv olmasına və yararsız vəziyyətə düşməsinə səbəb olmuşdur. Vaxtilə əkinçiliyin tətbiq olunduğu dağətəyi və düzən ərazilərdə suvarma sistemlərinin dağıdılması, fərdi təsərrüfat sahələrinin məhv edilməsi də torpaqların məhsuldarlığının aşağı düşməsinə təsir etmişdir. İqtisadi rayonun ərazisinə daxil olan istər orta və yüksəkdağlığın meşə sahələri, istərsə də düzən ərazilərin, xüsusilə də Bəsitçay qoruğunda mövcud olan Şərq çinarı meşələrinin kütləvi qırılması torpaq sahələrinin eroziyalaşmasına və landşaft örtüyünün kasıblaşmasına səbəb olmuşdur.

Təhlil. Şərqi Zəngəzur İR-nun yerləşdiyi Kiçik Qafqaz vilayətində əsas iqlim göstəriciləri dağ ətəyi ərazidən yüksəkliyə doğru dəyişir. Eyni zamanda ərazinin geoloji quruluşunun fərqli olması burada mövcud olan torpaq-bitki örtüyündə də özünü biruzə verir. Vilayətin torpaq-bitki örtüyü və onun mənimsənilməsi həm üfiqi, həm də şaquli qurşaqlar üzrə dəyişir. Təbii ki, ərazidə yayılan hər bir landşaft tipinin məxsusi torpaq-bitki örtüyü vardır.

Kiçik Qafqazın çox zəngin olan torpaq və bitki örtüyü Qarabağ düzündən başlayaraq yüksəkliyə görə fərqlənir. Dağətəyi və alçaq dağlıqdan yüksək dağlığa doğru şabalıdı, dağ qəhvəyi, qonur dağ-meşə və dağ qara torpaqları, qırmızımtıl dağ-çəmən torpaqları bir-birini əvəz edir. Meşələr ərazinin şimal və şimal-şərq yamaclarında 500-600 m-dən, 1800-1900 m yüksəkliyədək, eyni zamanda da nisbətən düzəlik sahələrin meşələri, xüsusilə də Zəngilan rayonu ərazisində yayılmışdır. Dağlıq ərazinin meşə zonasından yuxarıda subalp və alp çəmənlikləri yerləşir. Subalp çəmənliklərindən biçənək, alp çəmənliklərindən isə yay otlaqları kimi istifadə olunmuşdur [4].

İqtisadi rayonun dağ-çölləri landşaft sahəsi şabalıdı, qəhvəyi dağ torpaqlarından, müxtəlif ot bitkilərindən ibarət olan bu ərazinin çox hissəsi əkin sahələri və üzüm bağları altında istifadə olunmuşdur. Dağ-meşə landşaftı ərazinin ortadağlıq hissəsini əhatə edir. Bitki örtüyünə görə Böyük Qafqazın ortadağlığına bənzərliyi çoxdur, belə ki, burada da palıd, vələs, fısdıq meşələri üstünlük təşkil edir. Təəssüf ki, olduqca böyük sahədə meşələr tamamilə qırılmış və onların yeri əkin sahəsi və biçənək kimi istifadə olunmuşdur. Bu landşaft sahəsində mövcud olan qonur və qəhvəyi dağ-meşə torpaqları məhsuldarlığına görə kənd təsərrüfatına yararlı və qiymətli torpaqlardır. Dağ-çəmən landşaft sahəsində subalp və alp çəmənlikləri altında çimli-qara torpaqlar üstünlük təşkil edir. Tarix boyu ərazinin dağ yamac çəmənliklərinin yay otlaqları və biçənək sahələri heyvandarlığın inkişafında olduqca əhəmiyyətli olmuşdur [3].

Şərqi Zəngəzur İR-nun qəhvəyi dağ-meşə, qonur dağ-meşə, dağ-çəmən torpaqlarından kənd təsərrüfatında geniş istifadə olunmuşdur. Ərazinin torpaq sahələrinin suvarılmasında Tərtər və Həkəri çaylarının suyundan istifadə olunur. Torflu və çimli çəmən torpaqları ərazinin 1800 m-dən yüksək hissəsində yerləşir. Şimal yamac hissələrdə karbonatlı-qəhvəyi meşə torpaqlarında yüksək təbii bərpaya malik meşələr yayılmışdır. Cənub yamaclarda isə meşə-kolluqlar, kolluqlar, çəmən-kolluqlar və təkrar-törəmə komplekslər antropogen landşaftlarla əhatə olunur. Yaylanın cənub-qərb yamacından mənbəyini götürən Arpaçay və Bazarçayın suyundan, alçaqdağlıqda yerləşən torpaq sahələrinin suvarılmasında istifadə olunur.

Tədqiqat sahəsinin ekoloji vəziyyətinin gərginləşməsində qonşu ölkədən axıb gələn tranzit çaylar kifayət qədər rol oynayır. Kür çayının Ermənistandan başlayan və Kiçik Qafqaz ərazisindən axıb keçərək çaya tökülən sağ qolları da ifrat dərəcədə çirklənmişdir. Onlardan ən ciddi çirklənməyə məruz qalanı və öz çirklənmə dərəcəsinə görə Ermənistanın Zəngi (Razdan), Oxçuçaydan sonra üçüncü çayı olan Debeddir. Respublika ərazisində Kürün sağ qolu olan Debed çayına Spitak, Vanadzor, Alaverdi, Stepanavan şəhərlərinin əlvan metallurgiya, kimya və yüngül sənaye müəsisələrinin bütün tullantıları axıdılır. Son olaraq kəskin çirklənmiş Debed çayı Gürcüstan ərazisində Xrami çayına tökülür. Buna görə də Kür çayına qovuşduğu yerdə Xrami çayında zəhərli maddələrin miqdarı qəbul edilmiş həddən 100 dəfələrlə artıq olur. Eyni vəziyyət öz mənbəyini Ermənistandan götürən İncəsu, Coqaz və Ağstafaçayda da müşahidə olunur. Bu cür kimyəvi maddələrlə çirklənmiş çay sularından kənd təsərrüfatında və ya məişətdə istifadə olunması olduqca təhlükəlidir [3].

Ərazi işğal edilənə kimi Azərbaycanın ən böyük yay otlaqları Kəlbəcər və Laçın rayonlarında, eləcə də Qubadlı rayonunun müəyyən hissələrində yerləşirdi. Yay aylarında bu rayonların alp və subalp çəmənlikləri respublikanın aran rayonlarından gətirilən qoyun sürülərinin və mal-qaranın otarılmasında istifadə olunurdu. Eyni vəziyyət nisbətən də olsa, digər işğal edilmiş rayonlara da aiddir. Kiçik Qafqazın böyük bir hissəsinin işğalı nəticəsində Böyük Qafqaza və Kür-Araz ovalığına göstərilən antropogen təzyiq ekoloji vəziyyəti ifrat dərəcəyə qədər gərginləşdirmişdi.

Qeyd edək ki, 30 ilə yaxın müddətdə tədqiq etdiyimiz ərazinin alp və subalp çəmənlikləri Ermənistanın Kəlbəcər rayonu ərazisində qeyri-qanuni istifadə etdiyi Söyüdlü qızıl yatağının daşlı-qayalı süxurlardan ibarət tullantı kütlələri altında qalmış və özünün ekocoğrafi dayanıqlığını itirmişdir. Eyni zamanda da belə bir vəziyyət iqtisadi rayona daxil olan Zəngilan ərazisindəki Vejnəli qızıl yataqları üçün də səciyyəvidir [2].

Şərqi Zəngəzur iqtisadi rayonu meşə sahəsinin böyüklüyünə və zənginliyinə, həmçinin bir neçə qoruq sahələrinin mövcudluğuna görə Kiçik Qafqaz regionunda xüsusilə seçilir. Təəssüf ki, işğal altında olan iqtisadi rayon və digər ərazilərimiz azad olunduqdan sonra onların faktiki ekocoğrafi vəziyyəti ortaya çıxdı. Halbuki ərazidə mövcud olan zəngin meşə ehtiyatları uzun müddət ərzində kor-koranə məhv edilmişdir. Laçın rayonunda ən qiymətli palıd növlərində biri olan qırmızı palıd və Zəngilan rayonunda Bəsitçay qoruğundakı Şərq çinarı meşəliklərinin qırılması bu prosesə bariz nümunədir.

Ümumilikdə Azərbaycanın işğal altında qalmış ərazilərində meşə zolaqlarının qırılması və yandırılması, Araz çayı və qollarının çirkləndirilməsi, flora və fauna növlərinin məhv edilməsi, mineral-xammal ehtiyatlarının qanunsuz mənimsənilməsi halları bütün işğal dövründə baş vermişdir.

Azərbaycan Respublikasının 1,7 milyon hektar ərazisinə ziyan dəymişdir ki, bunun da 460 – dan çox növü yabanı ağac və kol bitkiləridir. Bu bitkilərdən 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir. Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, adi nar, meşə üzümü, şümşad, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növ ağaclar ərazidən məhv olaraq dünya florasının xəzinəsindən silinmək üzrədir [1].

Müşahidələr göstərir ki, tədqiqat ərazisində ekoloji əhəmiyyətə malik bir çox göllər böyük antropogen təsirə məruz qalmışdır. Bu ərazilərdə irili-xırdalı 7 relikt göl mövcuddur: Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl kimi şirin su ehtiyatları bu gün çirkləndirilmiş və qurudulmuş vəziyyətdədir [1]. Eyni zamanda da ərazidə axan çayların su axın istiqamətinin qəsdən dəyişdirilməsi və kütləvi çirkləndirilməsi prosesi həyata keçirilmişdir. Məhz bütün bunları nəzərə alaraq, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyasının fakt araşdırıcı missiyası ölkəmizdə olmuş və Avropa Şurası Parlament Assambleyası tərəfindən Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin sudan istifadə etmələri ilə bağlı 2085 (2016) nömrəli qətnamə qəbul edilmişdir. Qətnamədə vacib humanitar problemi nəzərə alaraq, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb edilmişdir. Lakin işğalçı ölkə bütün bu tələblərin heç birinə əhəmiyyət verməmişdir.

Vaxtilə seliteb landşaftların geniş yayldığı, kənd təssərüfatının ən əhəmiyyətli sahələrindən olan heyvandarlığın, əkinçiliyin, arıçılığın və xüsusilə də turizmin olduqca perspektivli olduğu İR-un iqtisadi əhəmiyyətli məşğulluq sahələri yenidən inkişaf etdirilməlidir. Xüsusilə də torpaq sahələrinin yenidən bərpa olunması istiqamətində ciddi tədbirlərin görülməsi sürətləndirilməlidir. Beləliklə də həm 30 il əvvəldə olduğu kimi tədqiqat ərazisinin normal həyata qaytarılmasını, eyni zamanda da həmin ərazilərdən məcburi olaraq köçmüş bütün təsərrüfat sahələrini bərpa və təmin etmiş olarıq. Bu hal Böyük Qafqazın heyvandarlıq sahələrinin yükünün azalmasına və iri şəhərlərdə də məskunlaşmanın normallaşdırılmasına şərait yaradacaqdır.

Nəticə: Şərqi Zəngəzur İR-nun torpaq-bitki örtüyünün optimallaşdırılması və perspektiv inkişaf istiqamətləri işlənilib hazırlanmalıdır.

- yaxın dövr ərzində tədqiqat ərazisinin torpaq-bitki örtüyünün yeni xəritələri tərtib edilməli və dəyən zərər hesablanmalıdır;
- İqisadi rayonun torpaq sahələrinin istifadəsinə uyğun olan kənd təsərrüfatı sahələrinin perspektiv inkişaf göstəriciləri ilə bağlı proqnozlaşdırılma aparılmalıdır;
- işğal nəticəsində landşaft sahələrinin istifadəsi, suların çirklənməsi, torpaqların eroziyası, meşələrin qırılması miqyası təyin edilməli və ekoloji planlaşdırılma həyata keçirilməlidir.

Qeyd olunan məsələlərin həyata keçirilməsi olduqca vacibdir və bu proses tədqiqat ərazisinin dayanıqlı inkişafını təmin etməklə, burada ekosistemlərin qorunub saxlanması ilə yanaşı, təsərrüfatın səmərəliliyinin yüksəlməsinə də öz təsirini göstərəcəkdir.

ƏDƏBİYYAT

1. "Azərbaycanın işğal olunmuş rayonları və həmin ərazidə qalmış təbii sərvətlər haqqında" Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi veb saytı, 2015. Eko.gov.az.
2. Həsənov T.G., Babayev M.R., Niftəlizadə O.Ş. Azərbaycan Respublikasının dağlıq regionlarının dayanıqlı sosial-iqtisadi inkişaf problemləri və onların həllinin perspektiv istiqamətləri. ACC-nin əsərləri. XIX cild. Bakı-2017.Səh.257-264.
3. Xəlilov Ş. Azərbaycanın ekocoğrafi problemləri. Dərslik. Nafta-Press nəşriyyatı, Bakı-2006. 160 s.
4. Qəribov Y. Azərbaycan Respublikasının təbii landşaftları. Dərslik. AzTU mətbəəsi, Bakı-2012. 132 s.
5. http://www.ier.az

SUMMARY

MODERN ECOLOGICAL CONDITION OF SOIL AND VEGETATION OF EAST ZANGAZUR ER, THEIR OPTIMIZATION AND PERSPECTIVE DEVELOPMENT DIRECTIONS

Hajiyeva A.Z., Jafarova F.M.

The East Zangazur ER is known to have been under occupation for about 30 years. Unfortunately, the occupying country the Republic of Armenia, has appropriated the soil and vegetation of the study area on a large scale, and at the same time has illegally plundered the valuable mineral deposits of the economic region. Although all these processes have been monitored by Azerbaijani experts and reported to international organizations, no action has been taken to date. At present, using the available opportunities, new maps of the research area based on both observation, camera and space images have been developed. Based on these maps, it is possible to determine the extent of damage to the area, as well as to conduct an eco-geographical study and begin the process of rapid recovery.

Keywords: *East Zangazur, eco-geographical problems, occupation, forests, soil and vegetation.*

РЕЗЮМЕ

СОВРЕМЕННОЕ ЭКОЛОГИЧЕСКОЕ СОСТОЯНИЕ ПОЧВЕННО-РАСТИТЕЛЬНОГО ПОКРОВА ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО ЭР, ИХ ОПТИМИЗАЦИЯ И ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

Гаджиева А.З., Джафарова Ф.М.

Известно, что Восточно-Зангезурский экономический район находился под оккупацией около 30 лет. К сожалению, страна-оккупант Республика Армения, в крупных размерах присвоила себе почву и растительность изучаемой территории и в то же время незаконно разграбила ценные месторождения полезных ископаемых экономического района. Хотя все эти процессы отслеживаются азербайджанскими специалистами и доводятся до сведения международных организаций, до сих пор не было предпринято никаких действий. В настоящее время с использованием имеющихся возможностей разработаны новые карты исследовательского района, основанные как на наблюдениях, так и на камерах и космических снимках. На основании этих карт можно определить степень поражения территории, а также провести эколого-географическое исследование и начать процесс быстрого восстановления.

Ключевые слова: *эко-географические проблемы, оккупация, Восточный Зангезур, леса, почвенно-растительный покров*

İŞĞALDAN AZAD OLMUŞ ƏRAZİLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏCƏK MÜƏSSİSƏLƏRİN SOSİAL ÖHDƏLİKLƏRİ

Həşimova A.Ç.
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı, Azərbaycan
Albina-hesimova@mail.ru

Açar sözlər: *regional iqtisadiyyat, müəssisələrin öhdəlikləri, sosial sfera, kiçik və orta sahibkarlıq, sosial məsuliyyət.*

İstehsal, bir qayda olaraq, şirkətlərdə təşkil edilir, çünki effektivlik iri miqyaslı istehsal, əhəmiyyətli maliyyə resurslarının toplanılmasını, eləcə də incədən incəyə düşünülmüş, hərətrəfli şəkildə həyata keçirilən idarəetmə və nəzarət tədbirlərinin görülməsini tələb edir.

Müasir kapitalist ölkələrində sahibkarlığın hökmranlıq edən təşkiledici-hüquqi forması korporasiyadır. Cəmiyyətin təsərrüfat subyekti kimi müəssisənin cavabdehliyi özünün işçilərinə, dövlətə, yerli idarəetmə orqanlarına qarşı onun daşıdığı öhdəliklərə nisbətən tam ola bilməz. Burada söhbət təkcə istehsalın təşkili, əmək şəraiti, istehsalın təhlükəsizlik texnikası, ekoloji təhlükəsizliklə bağlı öhdəliklərdən getmir. Vergi öhdəlikəri ilə, habelə ərazinin inkişafı ilə bağlı götürülmüş öhdəliklərlə bilavasitə əlaqəli olan, uzlaşdırılan iqtisadi və sosial öhdəliklərin təmin edilməsi də mühüm əhəmiyyət kəsb edir.

Müəssisələrin öz işçilərinə münasibətində öhdəliklərin iqtisadi və sosial tərəflərini vəhdət şəklində nəzərdən keçirmək lazımdır. Bu o deməkdir ki, öhdəliklərin tərəflərindən biri üstün ola bilər, lakin balansın gözlənilməsi – müəssisələrin effektiv artımı və inkişafının son dərəcə mühüm və əhəmiyyətli və ilkin şərtidir. Müəssisədə iqtisadi və sosial tərkib hissələrinin balansı bir çox amillərlə verilir. O cümlədən, müəssisənin ölçüləri, əməyin intensivliyi, istehsalın xarakteri və şəraiti, sahibkarlıq fəaliyyətinin növləri, əsas işçi heyətinin ixtisaslaşma səviyyəsi, sahə mənsubiyyəti, konkret ərazidə yaşayış minimumunun səviyyəsi, konkret inzibati vahidinin əhalisinin büdcə təminatlılığı dərəcəsi ilə. Hər bir halda ayrı-ayrı amillərin rolu və təsiri, onların fəsadları da olduğu kimi, eyni olmaya bilər. Buna baxmayaraq, öz işçilərinə qarşı münasibətdə müəssisənin iqtisadi və sosial öhdəliklərinin tərkib hissələri arasında balansın axtarılıb tapılması və onların (tərkib hissələrin) optimallaşdırılması müəssisənin həyatda qalmasının zəruri şərti qismində çıxış edir, çünki onlar fəaliyyətin istehsal və maliyyə-iqtisadi nəticələrinə bilavasitə və ən yaxından təsir göstərir[1,2].

Cəmiyyətdə iqtisadi və sosial problemlərin mürəkkəbləşməsi müəssisənin iqtisadi və sosial öhdəliklərin həyata keçirilməsində bununla əlaqədar meydana gələn çətinliklərdə öz əksini tapmaya bilməz. Makrosəviyyədə iqtisadi və sosial vəziyyət təsərrüfat subyektləri tərəfindən öz işçilərinin maraqlarını tam şəkildə dərk olunduğu və adekvat qərarların qəbul edilməsi iqtidarında olduqları şərtilə onların sosial inkişaf sahəsində konkret qərarların qəbul edilməsinə həlledici təsir göstərir.

Müəssisənin sosial inkişaf məsələlərinə ayırdığı diqqət istehsal effektivliyinin yüksəldilməsində aparıcı yer tutur. Ekspertlərin qiymətləndirmələrinə görə, bu amilin təsirinə istehsal artımının ehtiyatlarının 40%-i məruz qalır. Əgər onun əmək məhsuldarlığına göstərdiyi təsiri dəyərləndirsək, onun daha yüksək oldğunu görərik.

Müəssisənin sosial inkişafı məsələlərinin həlli zamanı müəssisənin ölçüləri ilə müəyyən edilən spesifikaya əsaslanmaq lazımdır. Kiçik, orta və iri müəssisələr sosial məsələlərin həlli istiqamətində müxtəlif imkanlara malikdir. Ona görə də tamamilə aydındır ki, dövlət vətəndaşların sosial təminatı ilə bağlı məsuliyyətin bütün ağırlığını müəssisələrin üzərinə keçirə bilməz. Dediklərimizdən belə bir tezis hasil olunur ki, iri müəssisələrdə çalışan işçilər müəssisələri hesabına və müəssisənin inkişafının sosial proqramları çərçivəsində özlərinin sosial tələbatlarının bir hissəsinin ödənilməsi imkanları nöqteyi-nəzərdən daha əlverişli şəraitdə olur[3].

İşçiləri qarşısında müəssisələrin sosial məsuliyyət ölçüsü necədir? Müəssisələr öz işçilərinin sosial təminat problemlərini hansı dərəcədə həll etmək iqtidarındadır? Bu suallara cavab tapmaq üçün müəssisələrin sosial inkişafının qiymətləndirilməsinin meyarlarını təyin etmək lazımdır.

Aşağıdakı baza anlayışlarını fərqləndirmək vacibdir:

- müəssisənin sosial rolu;
- müəssisənin sosial məsuliyyəti;
- müəssisənin sosial öhdəlikləri;
- müəssisənin işçilərinin sosial təminatı.

Qeyd etdiyimiz bu anlayışlar üzərində daha ətraflı dayanaq. Müəssisənin sosial rolu – bu, müəssisənin dövlətin sosial sisteminin bir elementi kimi səciyyəsidir. Heç şübhəsiz, sosial sfera və iqtisadiyyatın real sektorunun sferası kimi məfhumları qarışdırmaq olmaz. Sosial sferaya sosial məsələlərin həllinə və sosial funksiyaların yerinə yetirilməsinə yönəlmiş infrastruktur daxildir. Sözün bu mənasında sosial infrastruktur müəssisənin balansında ola, eləcə də istehsal prosesini təmin edən digər elementlərlə birgə vahid əmlak kompleksi kimi dəyərləndirilə bilər.

Ölkə iqtisadiyyatın transformasiyası dövründə, o cümlədən özəlləşdirmə dövründə müəssisələrin sosial rolu əhəmiyyətli dərəcədə dəyişmişdir. Sosialist iqtisadiyyatında dövlət müəssisələrin sosial rolunu tənzimləyir, onun artmasını stimullaşdırır, öz payına düşən sosial funksiyaların bir hissəsini müəssisələr üzərinə qoyurdu. Bu zaman müəssisənin sosial sferası və dövlətin sosial sferası həm standartlar, sosial xidmətlər dəsti baxımından, həm də sosial sfera obyektlərinin avadanlıq və texnologiyalarla təchiz edilmə nöqteyi-nəzərindən bütöv vəhdət təşkil edirdi. Müasir şəraitdə isə müəssisənin sosial rolu, hər şeydən əvvəl, müəssisənin resurs imkanları ilə təyin edilir, mülkiyyətçilərin sosial funksiyaların yerinə yetirilməsinə öz mənfəətinin bir hissəsini yönəltmək hazırlığından asılıdır.

Baxmayaraq ki, sosial funksiya sahibkarlıq fəaliyyətinin əsas hədəfinə nail olunması nöqteyi-nəzərdən müəssisəyə xas deyil, onun mülkiyyətçilərinin, menecerlərinin və müəssisədə çalışan işçilərin maraqlarının balansının qorunub saxlanılması və dəstəklənməsi zərurəti ilə obyektiv surətdə şərtləndirildiyini mütləq qaydada qeyd etmək lazımdır. Həmin balansdan müəssisənin fəaliyyətinin istehsal nəticələri, işçilərin əmək məhsuldarlığı, müəssisənin inkişafının tendensiya və perspektivləri çox asılıdır[4].

Dövlətin sosial funksiyası sosial müavinətlər, sosial yardım, digər transfertlər alan vətəndaşların ayrı-ayrı kateqoriyalarına münasibətdə hərtərəfli və hər şeyi əhatə edəndir. Burada söhbət əlillərin, pensiyaçıların, aztəminatlı vətəndaşların və s. sosial müdafiəsindən gedir.

Müəssisənin sosial funksiyası işləyən vətəndaşlara şamil olunur. O, sosial xidmətlərin daha geniş spektrindən yararlanmağa imkan verir, o cümlədən də pullu xidmətlərdən daha fəal surətdə istifadə etməyə şərait yaradır. Müəssisənin sosial funksiyası təkcə müəssisənin balansında sosial sferaya daxil olan obyektlərin mövcudluğu demək deyil. Bura, hər şeydən əvvəl, müəssisənin xərclərində sosial məsrəflərin olması, sosial proqramların mövcudluğu, işçilərin əmək haqqının səviyyəsi, eləcə də işçilər tərəfindən pullu sosial xidmətlərin əldə olunmasını maliyyələşdirməyə imkan verən başqa əlavə ödəmələr daxildir.

Beləliklə, müəssisənin sosial rolu öz işçilərinə münasibətdə sosial funksiyanın həyata keçirilməsi ilə müəyyən olunur ki, həmin funksiya dövlətin sosial funksiyasına əlavə qismində çıxış edir. İndi isə müəssisənin "sosial məsuliyyəti" anlayışına nəzər salaq. Bu məfhum müəssisənin sosial rolundan, habelə müəssisə tərəfindən social funksiyanın yerinə yetirilməsindən irəli gəlir. Müəssisənin sosial məsuliyyəti belə işçi kateqoriyasının tələbatları ilə şərtləndirilir ki, həmin tələbatlar dövlət vasitəsilə onların sosial funksiyasının reallaşdırılması ilə tam şəkildə qarşılanmır. İşçi qüvvəsinin təkrar istehsalı işçi tərəfindən onun üzərinə qoyulmuş istehsal funksiyalarının yerinə yetirilməsi üçün kifayət edə biləcək fiziki və zehni əmək qabiliyyətinin saxlanılmasına sərf olunan xərcləri ehtiva edir. Asudə vaxtının, uşaq istirahətinin təşkili, mədəni-sağlamlıq və idman tədbirlərinin keçirilməsi buna kömək edir. Mənzil probleminin həlli, tibbi xidmətlərin göstərilməsi, işçilərin ixtisas səviyyəsinin artırılması və bu kimi digər məsələlər əhəmiyyətli yer tutur. Müəssisə hesabına işçilərin sosial tələbatlarının nə qədər daha böyük hissəsi ödənilirsə, müəssisənin sosial məsuliyyəti də bir o qədər yüksək olacaqdır. Sosial məsuliyyət həmçinin yüksək iş qabiliyyətinin qorunub saxlanılması məqsədilə zəruri və kifayət edəcək sosial xidmətlərin işçi tərəfindən ödənilməsi imkanlarında da öz əksini tapır.

Müəssisənin sosial məsuliyyətinin ölçüsü qismində onun sosial öhdəlikləri xidmət edir. Bu, müəssisənin sosial məsuliyyətinin resurs təminatının göstəricisidir. Sosial öhdəliklər konkret proqramlarda, kollektiv müqavilədə, əmək müqaviləsində (kontraktda) qısaca və dürüst şəkildə ifadə oluna bilər.

Vacibdir ki, onlar müəssisənin inkişafı strategiyasında, uzunmüddətli biznes-planda öz əksini tapsın. Yalnız bu halda sosial öhdəliklər konyunktur xarakter daşımayacaq və qeyri-bərabər şəkildə maliyyələşdirilməyəcək. Sosial məsələlərin həlli istiqamətində tətbiq edilə biləcək vasitələr konkret mənbə hesabına toplanılmalı və tamamlanmalıdır. Belə bir mənbə kimi, hər şeydən əvvəl, müəssisənin mənfəəti qeyd edilməlidir. Ayrı-ayrı inkişaf etmiş ölkələrdə, misal üçün Yaponiyada, işçilərin mənfəətin əldə olunması prosesində iştirakı sistemi kifayət qədər inkişaf etmişdir. Yəni, işçilərin maddi mükafatlandırılması mənfəətin ölçüsündən və rentabellik səviyyəsindən asılı bir vəziyyətə qoyulması açıq-aşkar müşahidə olunur. Eyni zamanda, bu cür sistemin mövcudluğu sosial xarakterə malik konkret strategiyalar vasitəsilə müəssisənin sosial inkişafını özü ilə əvəz edə bilməz. Əməyin stimullaşdırılmasının əhəmiyyəti təkcə işçinin öz fəaliyyətində yüksək nəticələri əldə etmək imkanlarında və qabiliyyətində özünü büruzə vermir, bu, həmçinin onun özünün və ailəsinin bütün üzvlərinin nə dərəcədə sosial cəhətdən müdafiə olunduğunda da ifadə olunur. Bununla əlaqədar olaraq, "korporativ social məsuliyyət" və "korporativ sosial öhdəliklər" kimi terminlər daha münasib və uyğundur. Əvvəlki anlayışlardan irəli gələn növbəti məfhum – "müəssisə işçilərinin sosial təminatıdır". Burada öz işçilərinin həyat fəaliyyətində müəssisənin social iştirakının bütün formaları bir araya gətirilir və vəhdət şəklində əlaqələndirilir. Sosial təminatının səviyyəsi və keyfiyyəti müəssisə tərəfindən sosial funksiyanın yerinə yetirilmə nəticəsini xarakterizə edir.

İşçilərin sosial təminatının qiymətləndirilməsi üçün müəyyən göstəricilər sistemi tətbiq edilməlidir ki, onun vasitəsilə müəssisə tərəfindən social öhdəliklərin yerinə yetirilməsi vəziyyətinin monitorinqini həyata keçirmək, habelə tendensiyaları təhlil edərək dövlət tərəfindən sosial funksiyanın yerinə yetirilməsində və onun tənzimlənməsində yer alan zəif həlqələri üzə çıxarmaq vəburada baş verən dəyişikliklərə vaxtında reaksiya vermək mümkün olsun. İşçilərin sosial təminatının hansı səviyyədə olduğunu qiymətləndirmək məqsədilə sırf pul

göstəricilərinin istifadəsi, göründüyü kimi, kifayət etmir. Hər şeydən əvvəl natura ifadəsində təqdim olunmuş keyfiyyət meyarlara nəzarət etmək lazımdır.

İşçilərin sosial təminatı bir çox cəhətdən dövlət tərəfindən ödənişsiz əsaslarla göstərilən sosial xidmətlərin həcmindən və keyfiyyətindən asılıdır. Bu isə, öz növbəsində, iqtisadiyyatdan vergi tutulmaların ölçüləri, dövlət və bələdiyyə büdcələrinin strukturu, sosial normativlər yaxud minimal sosial standartlarla, eləcə də sığorta prinsiplərinin inkişafı və sosial məsələlərin həlli ilə müəyyən olunur[5].

Beləliklə, müəssisələrdə çalışan işçilərin sosial təminatı müəssisələrin vəsaitləri hesabına göstərilən yaxud sosial infrastruktur müəssisəsi tərəfindən yaradılmış və işçilərin istehlak etdikləri sosial xidmətlərin səviyyəsini və keyfiyyətini xarakterizə edir. Bununla yanaşı dövlət sosial xidmətlərinin və dövlət sosial infrastrukturun inkişafı dərəcəsi böyük önəm və əhəmiyyət daşıyır. Müəssisələr hesabına vətəndaşların sosial tələbatlarının ödənilməsi səviyyəsi nə dərəcədə yüksək olarsa, sosial proqramların məhdud dəstinə malik və özünün sosial infrastrukturu olmayan kiçik və orta müəssisələrdə çalışan işçilərin vəziyyəti də bir o qədər daha pis və acınacaqlı ola bilər. Digər tərəfdən, sosial xidmətlərin səviyyəsi müasir bazaya və yaxşı təlim almış (öyrədilmiş) işçi heyətinə malik ixtisaslaşmış təşkilatlarda daha yüksəkdir.

Kiçik, orta və iri müəssisələrdən başqa şəhər salma müəssisələri xüsusi əhəmiyyətə malikdir. Ərazinin sosial inkişafında onların oynadığı rol başqa tipli müəssisələrin fəaliyyəti ilə müqayisədə əhəmiyyətli dərəcədə daha mühüm və önəmlidir. Şəhər salma müəssisələri yerli büdcələrin gəlirlərində əsas daxilolmaları təmin edir ki, daha çox məhz həmin gəlirlər hesabına ərazinin sosial inkişafı həyata keçirilir. Eyni zamanda qeyd etdiyimiz bu müəssisələr öz işçilərinin sosial təminatına görə daha yüksək sosial məsuliyyət daşıyır.

Beləliklə, müəssisənin sosial rolu, sosial məsuliyyəti, sosial öhdəlikləri, eləcə də müəssisədə çalışan işçilərin sosial təminatı korporativ sektor hesabına cəmiyyətdə sosial məsələlərin həlli dərəcəsini müəyyənləşdirməklə yanaşı həmçinin ərazinin inkişafının sosial-iqtisadi göstəricilərinə də təsir edir.

İri korporasiyalar və kiçik müəssisələrin, eləcə də fərdi sahibkarların sosial sferada həll edə biləcəkləri məsələlərin və onların bu prosesdə oynadıqları rolu fərqləndirmək lazımdır. Keyfiyyətli sosial xidmətlərə bərabər əlçatanlığın təmin edilməsi zəruridir. Məhz bu səbəbə görə təşkilatların sosial proqramları, eləcə də büdcə vəsaitləri və öz daxili resurslar hesabına sosial infrastrukturun inkişaf etdirilməsi arasında balansın axtarıb tapılması məsələsi mühüm vəzifə kimi qarşıya qoyulur[6].

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında biznes-mühitin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin möhkəmləndirilməsi üçün əlavə tədbirlər haqqında" AR Prezidentinin Sərəncamı, 13 iyul 2016
2. "Azərbaycan-2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
3. Əlirzayev Ə.Q. Sosial-mədəni iqtisadi inkşaf və tənzimləmə, Bakı, 2016.
4. Əliyev Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. - Dərs vəsaiti. Bakı, "Təhsil", 2017, 136s.
5. Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. Bakı: "Gənclik", 2004.
6. Rəhmanov F.P. Sosial sfera və social siyasət. Bakı 2021, 436 s.

SUMMARY

SOCIAL OBLIGATIONS OF ENTERPRISES THAT WILL OPERATE IN THE OCCUPYED AREAS

Hashimova A.Ch.

The implementation of reforms in enterprises and organizations operating in the budget sphere requires a significant change in the approaches to the social development of the corporate sector. The social partnership system plays an important role in the regional approach to solving the social problems of enterprises. Bilateral and trilateral commissions have been developed to ensure the preparation and conclusion of relevant agreements within the framework of regional social partnership programs. This helps to establish relations between the parties in the formation and implementation of socio-economic policy of enterprises and regions.

***Key words**: regional economy, liabilities of enterprises, social sphere, small and medium business, social responsibility.*

РЕЗЮМЕ

СОЦИАЛЬНЫЕ ОБЯЗАТЕЛЬСТВА ПРЕДПРИЯТИЙ, КОТОРЫЕ БУДУТ ДЕЙСТВОВАТЬ НА ОККУПИРОВАННЫХ ТЕРРИТОРИЯХ

Гашимова А.Ч.

Реализация реформ на предприятиях и в организациях бюджетной сферы требует существенного изменения подходов к социальному развитию корпоративного сектора. Система социального партнерства играет важную роль в региональном подходе к решению социальных проблем предприятий. Созданы двусторонние и трехсторонние комиссии, обеспечивающие подготовку и заключение соответствующих соглашений в рамках региональных программ социального партнерства. Это способствует налаживанию взаимоотношений сторон при формировании и реализации социально-экономической политики предприятий и регионов.

Ключевые слова: *региональная экономика, обязательства предприятий, социальная сфера, малый и средний бизнес, социальная ответственность.*

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA QARABAĞ BÖLGƏSİNİN ROLU (2003-2021)

İsayev Ə.İ.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
amirxanisayev1965@gmail.com

Açar sözlər: *Azərbaycanda soial-iqtisadi vəziyyət, azad olunmuş ərazilərdə bərpa, "Zəfər yolu", Qarabağ, Qarabağ iqtisadiyyatı, yol-nəqliyyat infrastrukturu, "Böyük qayıdış", "ağıllı kənd"*

2003-cü il prezident seçkilərindən sonra Prezident İlham Əliyevin müdrik, düşünülmüş, uzaqgörən və zamanla sınaqdan keçirilmiş siyasəti nəticəsində ölkəmiz həm forma, həm də məzmun baxımından yeni inkişaf mərhələsinə qədəm qoydu. Yeni mərhələ iqtisadi, siyasi, diplomatik və mənəvi cəhətləri ilə diqqəti cəlb edir. Prezident İ. Əliyevin ölkə iqtisadiyyatı ilə yanaşı, sosial sferanın da inkişafını sürətləndirilməsi ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsi bu baxımdan çox vacib bir hadisə oldu. Bu onu göstərir ki, Azərbaycan hökuməti Heydər Əliyevin iqtisadi sahədə əldə edilmiş uğurlarını davam etdirməyə yönəlib [2, s.28].

Azərbaycanda iqtisadiyyatın demək olar ki, bütün sahələrinin inkişafı üçün regionlarımzda güclü potensial mövcuddur. Təbii ki, həyata keçirilən dövlət proqramlarının bu sahənin inkişafındakı rolu danılmazdır. Hazırda respublikada turizm, kənd təsərrüfatı, emal sənayesi qeyri-neft sənayesinin aparıcı sahələri hesab olunur. Ümumiyyətlə isə, sənaye milli iqtisadiyyatda önəmli rola sahibdir.

Azərbaycan iqtisadiyyatının əsaslı dönüşü 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi" imzalandıqdan sonra oldu. Bu müqavilədən sonra Azərbaycanda bir çox işlər görüldü. Belə ki, ölkəyə neft sektorundan gələn gəlirlər hesabına, qeyri-neft sənaye sahələrinin inkişafı üçün kifayət qədər investisiya qoyuluşu şansı yarandı.

Hal-hazırda Azərbaycanda innovasiya yönümlü iqtisadiyyat kontekstində ixracyönümlü sənaye siyasəti modelinə üstünlük verilir. Sənaye siyasətinin ixracyönümlü modelinin üstünlüyü ondan ibarətdir ki, bu ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına, dünya bazarlarına və texnologiyalarına çıxışına, həmçinin multiplikator effekti sayəsində digər sahələrdə də inkişafa nail olmaq üçün əlverişli şəraitin yaradılmasına kömək edir [1, s.248].

Prezident İ. Əliyevin 29 dekabr 2012-ci il tarixində təsdiqlədiyi "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasıda məhz ixrac yönümlü iqtisadi modelə əsaslanır və ölkədə iqtisadiyyatın inkişafını sürətləndirmək məqsədilə əsas vəzifələr qarşıya qoyulur. Bu konsepsiyaya əsasən regionun potensial imkanlarına uyğun olaraq xususi iqtisadi zonaların və senaye şəhərlərinin qurulmasına başlanılmışdı.

Azərbaycan regionlarının həm iqtisadi, həm də sosial inkişafının yeni mərhələsində regionların inkişafı ilə bağlı bir çox dövlət programları işlənib hazırlanmış və tətbiq olunmuşdur. 2004-cu ildən bəri ardıcıl olaraq regionların hərtərəfli inkişafı ilə bağlı müvafiq dövlət proqramlarının işlənib hazırlanması və tətbiq olunmasının rolu danılmazdır. Ölkə prezidenti İ.Əliyev tərəfindən təsdiq edilmiş 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" aqrar sektor, yüngül sənaye, kimya sənayesi, qara və əlvan metallurgiya, tikinti materialları istehsalı, dərman bitkilərinin tədarükü, tütünçülük və turizm sənayesinin inkişafı etdirilməsini hədəfə almışdır və bu istiqamətdə bir çox işlər görülmüş yeni layihələr işlənib hazırlanmışdır.

Regionların sosial inkişafı ilə yanaşı, iqtisadi inkişafının da yüksəldilməsi məqsədilə 24 noyabr 2003-cü il tarixində ölkə prezidenti İ. Əliyev cənablarının imzaladığı fərman əsasən dövlət proqramının ərsəyə gəlməsi üçün əmr verilmişdir. 11 ferval tarixindən etibarən 2004-2008-ci illər olmaqla Azərbaycanda regionların sosial-iqtisadi inkişafı yüksəldilməsi istiqaməti ilə əlaqədar fərman imzalandı. Bu illər ərzində imzalanmış fərmana əsasən qəbul edilmiş Dövlət Proqramı regionlarda sosial infrastrukturun və ümumilikdə bölgələrin hərtərəfli inkişafında əsas hüqüqi baza rolu oynayırdı və rayonların iqtisadi dirçəlişi üçün önəmli fərman idi.

Qəbul edilmiş bu proqramlar ölkənin iqtisadi regionlarında kənd təsərrüfatı, sosial sahələrinin yenidən qurulması müasir tələblərə cavab verən infrastrukturun olması üçün çox əhəmiyyətli bir sənəddir. Bu proqramın qəbul edilməsi ilə regionların inkişafı üçün əhəmiyyət kəsb edən və regionlar üçün yeni imkanlar açan başlanğıc bir addım idi. [3, s.9].

Ölkəmizdə qeyri-neft sənayesinin davamlı olaraq inkişafının təmin olunması, yaranacaq problemlərin həlli yollarının aradan qaldırılması üçün, 2014-cü il dekabrın 26-da. Azərbaycanda sənayenin inkişafına dair 2015-2020-ci illəri əhatə edəcək Dövlət Proqramı qəbul edilir. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" qeyri-neft sənayesinin daha da inkişafını qarşıya məqsəd kimi qoymuşdu. Belə ki, bu proqrama görə qeyri-neft sənayesinin ixrac potensialı artırılmalı, yeni istehsal sahələri üçün yeni təfəkkürlü mütəxəssislər hazırlanmalı idi [4].

2005-2014-ci illərdə yeni məhsul növlərinin istehsalı, yeni müəssisələrin yaradılması və istehsal potensialının artırılması davam etdirilmiş, xarici və müştərək müəssisələrin sayı 422 vahid çoxalmışdır. Ölkə ərazisində məhsul və xidmət sahələri üçün yeni obyektlər istifadəyə verilmişdir. Təsərrüfat sektorlarının və kiçik sahibkarlığın böyüməsi, qeyri-neft sektorunun rolunun artması ilə müşaiyət olunur. Nəticə olaraq 2012-ci ildə sənaye məhsulunun həcmi 2003-cü ilə nisbətən 2.6 dəfə artaraq, 33.9 milyard manat təşkil etmişdir [5, s.124-125].

Kənd təsərrüfatı sektoru hər zaman dövlətin diqqət mərkəzində olmuşdur. Aqrar sektorda qəbul olunan dövlət proqramlarının məqsədi bu sahəni daha da inkişaf etdirmək və yoxsulluğu aradan qaldırmaqdır. Bu baxımdan 2003-cü il noyabrın 24-də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" imzalanan sərəncamda Azərbaycanda kənd təsərrüfatının inkişafına nail olmaq və onu rəqabətə davamlı bir sektora çevirmək strateji hədəf olaraq qarşıya qoyulmuşdur.

Hal hazırda dünya iqtisadiyyatının önəmli sahələrindən biri turizm sayılır. Xarakter etibarı ilə turizm sektoru sosialyönümlü fəaliyyət dairəsidir. Turizmin sosial mahiyyətini yeni iş yerlərinin açılmasında, ev təsərrüfatının inkişafında, sahibkarlığın genişlənməsində və xidmət sektorunda görə bilərik.

2004-2019-cu illər üçün bölgələrin iqtisadi və sosial inkişaf proqramlarında nəzərdə tutulan fəaliyyətlər arasında turizm sektoru ilə bağlı, bölgələrdə eko-turizmin inkişafı ilə bağlı layihələr və iş planları hazırlanaraq bu sahə ilə maraqlanan xarici investorlara təqdim edilmişdir. Cəmiyyətdə yaranmış iqtisadi problemlərin həllində turizm sahəsinin rolu çoxdur. Aydındır ki, ölkəmizin turizm potensialı genişdir. Bölgələrin sosial-iqtisadi inkişafı dövlət proqramlarında da turizmin inkişaf istiqamətləri öz əksini tapmışdır.Təbii sərvətlərlə yanaşı turizmin inkişaf etdirilməsi üçün işğaldan azad olunmuş ərazilərimizdə böyük potensiala sahibdir. Dağlıq şəhərləri dünyanın hər yerindən turist cəlb etmək üçün fürsətlər verir.

İşğaldan azad edilmiş ərazilərdə böyük infrastruturun bərpası iqtisadi layihələrin və tədbirlərin də həyata keçirilməsi məhz bu uğurlu iqtisadi siyasətimizin davamıdır.

İkinci Qarabağ müharibəsinin Azərbaycan ordusunun şanlı qələbəsi ilə bitməsi, xalqımızın öz tarixi torpaqlarını işğaldan azad etməsi və erməni vandallarının törətdiyi dağıntıların üzə çıxarılaraq dünya ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyət kəsb etdi. Mövcud infrastrukturun demək olar ki, tamamilə məhv edilməsi, Azərbaycanın vaxtilə işğal altında olan ərazilərinə qarşı genişmiqyaslı dağıntılar törətməklə yanaşı, özləri üçün belə heç bir infrastruktur formalaşdırmamış olmaları otuz ilə yaxın davam edən işğal zamanı bu ərazilərin erməni işğalçıları tərəfindən necə talan edildiyini bir daha sübut etdi. Ən çox dağıntılara məruz qalan Ağdam, müharibədən sonra bura səfər etmiş xarici media nümayəndələrinin xüsusilə diqqətini çəkmiş hətta Ağdamı Cənubi Qafqazın Xirosiması adlandırmışlar.

Qarabağın inkişafının əsas strateji istiqamətlərindən biri də bu ərazilərdə sosial-iqtisadi inkişafın təmin olunması məqsədilə azad olunmuş ərazilərdə əsaslı bərpa işlərinin aparılması və bu ərazilərdə müasir tələblərə cavab verən infrastrukturun yaradılmasıdır. Yenidənqurma və bərpa prosesinin həyata keçirilməsi Azərbaycanda ümumi iqtisadi inkişafa təkan verəcək, yeni iş yerlərinin yaranmasına şərait yaradacaqdır. [11]

İşğaldan azad edilmiş ərazilərdə bərpa prosesinin mürəkkəb və uzunmüddətli olmasının başlıca səbəbi bu ərazilərdə törədilmiş dağıntıların mürəkkəb və genişmiqyaslı olmasıdır. "Böyük Qayıdış" proqramı çərçivəsində bərpa prosesinə başlanılması və İkinci Qarabağ Müharibəsi Azərbaycan ordusunun şanlı qələbəsi ilə başa çatdıqdan dərhal sonra xalqımızın tarixi torpaqlarında sosial-iqtisadi inkişaf planının hazırlanmasına dair tapşırıqlar verilməsi, bu ərazilərdə müxtəlif iqtisadi və sosial istiqamətlərdə bərpa prosesinin həyata keçirilməsinə yaranan ehtiyyac səbəbindən idi [7]

Müharibədən dərhal sonra bərpa prosesinə başlayan Azərbaycan hökuməti bu prosesi daha səmərəli və mərkəzləşdirilmiş təşkil etmək üçün gördüyü lazımi tədbirlər çərçivəsində 2020-ci ilin noyabrında Əlaqələndirmə Qərargahı və onun tərkibində də İdarələrarası Mərkəz yaradıldı. Bu mərkəzdə müxtəlif məsələlər üzrə 17 işçi qrupu fəaliyyət göstərir. İşçi qruplarının bütün istiqamətlər üzrə sistemli və inteqrasiyalı fəaliyyətinin həyata keçirilməsi üçün Strateji Fəaliyyət Planı hazırlanmışdır. Yaradılan işçi qruplardan biri də məhz iqtisadi məsələlər üzrə işçi qrupudur.

1990-cı illərdən ölkə iqtisadiyyatı üçün ciddi təhlükələr sırasında Dağlıq Qarabağ münaqişəsi ilə yanaşı, neftin qiymət dəyişikliyi dururdu. Həll edilməmiş sərhəd problemi ölkəyə xarici investorların cəlb edilməsini çətinləşdirməyə davam etdiyindən, regionda zorakılıq və müharibənin qızışdırılması səbəbindən xüsusilə boru kəmərinin tikintisinə investisiya riskli hesab edilirdi. Artıq mövcud vəziyyət onu deməyə əsas verir ki, investorlar müharibədən sonrakı dövrdə ölkəyə investisiya qoymaqda maraqlı olacaqlar.

2020-ci ilin fevralında təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış" qarşıya qoyulmuş beş prioritetdən biri olaraq müəyyənləşdirilmişdir. Müəyyən olunmuş məqsədlərin reallaşdırılması ilə həm regionun iqtisadi imkanlarından düzgün şəkildə fayda əldə etmək, həm də əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırmağın mümkünləşdirilməsi gözlənilir. Eyni zamanda azad edilmiş ərazilərin ölkə üzrə iqtisadi fəaliyyətdə payı işğaldan əvvəlki vəziyyətə çatdırılmalı və daha sonra artırılmalıdır. Məhz bu səbəbdən deyə bilərik ki, görülən tədbirlər sonrası əldə olunacaq nəticələr təkcə Qarabağ regionunun deyil, bütünlükdə Azərbaycan iqtisadiyyatının inkişafı baxımından da böyük əhəmiyyət daşıyır [12]

Azərbaycan ordusunun şücaəti, prezident İlham Əliyevin diplomatik arenada apardığı qələbə uğurlu siyasət və eləcə də bu qələbəyə gedən yolda xalqımızın birliyi nəticəsində qazanılmış tarixi torpaqların erməni vandallarının işğalı altından azad edilməsi ilə sözsüz ki, Cənubi Qafqaz yeni bir dövrə addım atmış oldu. Nəticədə minlərlə qaçqın nəhayət öz yurd-yuvalarına geri qayıda biləcək. Bununla bərabər torpaqların azad edilməsinin Azərbaycana iqtisadi inkişaf və çiçəklənmə gətirəcəyi də gözlənilir. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocavənd kimi bölgələrin, habelə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin azad edilməsinə nail olan Azərbaycan, imzalanan razılaşma ilə erməni hərbi birləşmələrinin daha üç bölgə – Ağdam, Kəlbəcər və Laçından çəkilməsinə də nail oldu. Azərbaycan torpaqları işğaldan azad olduqdan sonra investorlar enerji infrastrukturunun yaradılması barədə müqavilə imzalayırlar. Buna misal olaraq İtaliyanın "Ansaldo Energia" şirkəti ilə Azərbaycanın "Azerenerji" şirkəti arasında bağlanan müqaviləni göstərmək olar.

Ölkə prezidenti İlham Əliyev kommunikasiyaların bərpası məqsədi ilə Bərdə-Ağdam dəmir yolunun inşası və layihələndirilməsi haqqında sərəncam imzalanmışdır. Bu dəmir yolunun uzunluğu 45 km. olması nəzərdə tutulur. Rabitə sisteminin bərpası ilə işğaldan azad olmuş Qarabağımız Azərbaycan iqtisadiyyatına sürətlə inteqrasiya edəcək. Eyni zamanda Prezidentin ehtiyyat fondundan Azərbaycan dəmir yollarına beş milyon manat ayrılmışdır.

Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolu xəttlərinin də tikintisi baş tutacaq. Qarabağın əsas turizm və mədəniyyət mərkəzlərindən biinə çevrilməsi nəzərdə tutulan Şuşaya gedən magistral yol ilə yanaşı, Şuşaya dəmir yolu xətti də çəkiləcəkdir. Həmçinin, Horadiz-Ağbənd dəmir yolunun da yenidən qurulması nəzərdə tutuımuşdur. Belə ki, bu yol Ermənistan ərazisindən keçərək Naxçıvana gedən Zəngəzur dəhlizinin əsas komponentlərindən biri hesab olunur [6]

İstehsal olunan malların İran ərazisindən daşınması məhsuldarlığı aşağı salırdı. Odur ki, Üçtərəfli müqaviləyə görə Naxçıvana magistral yolun və dəmir yolunun çəkilməsi planlaşdırılır. Bu yolların çəkilişindən sonra Azərbaycan malları Avropa dövlətlərinə və Türkiyəyə asanlıqla ixrac olunacaq.

Əsas məsələlərdən biri azad edilmiş ərazilərin sürətli inkişafının təmin edilməsi, turizm potensialının artırılması və bu məqsadlə hava limanlarının tikintisi nəzərdə tutulmuşdu. Doğma Qarabağımızda ilk hava limanı layihəsi məhz *Beynəlxalq Füzuli Hava Limanının* layihəsi oldu. 2021-ci ilin yanvar ayının 14-də Füzuli hava limanının təməli qoyulmuşdu. Bu hava limanı beynəlxalq standartlara uyğun tam müasir infrastrukturla təchiz edilmişdir [8]

Dağlıq Qarabağ ətrafındakı yaşayış məntəqələri işğal zamanı tamamilə dağıdılıb və onların bərpasına ehtiyac var. Uzun illər rayonun təbii sərvətlərindən istifadə edilməmiş, eyni zamanda təxminən 1 milyona yaxın qaçqına dövlət tərəfindən hər ay yardım göstərilirdi ki, bu da ölkə büdcəsi üçün ciddi problem idi. Hal-hazırda təxmini hesabla 1,5 milyon hektara yaxın ərazi kənd təsərrüfatı məhsullarının becərilməsi üçün yararlıdır ki, bu da vətəndaşları yeni iş yerləri ilə təmin edəcək istehsal zəncirinin yaradılmasına gətirib çıxaracaq. Zəngin su ehtiyatları Azərbaycanın su çatışmazlığının ciddi problem olduğu digər ərazilərinin (Aran) suvarılmasına kömək edəcəkdir.

Laçında 8 meqavat gücündə "Güləbird" SES artıq istismara verilib. 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev stansiyanın açılışını edib. Bu stansiya 7 minə yaxın insanı elektrik enerjisi ilə təmin edəcək.

İşğaldan azad edilmiş torpaqlarda yol-nəqliyyat infrastrukturunun bərpası və yenidən qurulması məsələsi böyük əhəmiyyət kəsb edir. Belə mühüm magistral Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoludur. Belə ki, 2020-ci il noyabrın 17-də "Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər

haqqında" Sərəncam imzalanıb, buna əsasən Prezidentin ehtiyat fondundan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq bu yolun tikintisi üçün 50 milyon manat vəsait ayırmışdır. Bundan əlavə, yolun 27-ci km-də bu yolu Füzuli şəhərinin yeni aeroportu ilə birləşdirəcək nəqliyyat qovşağı və hava limanına giriş yolu tikiləcək [10]

Əsas məsələ isə bu yolun simvolik məna daşıyan hissəsi Füzuli-Şuşa avtomobil yoludur. Belə ki, büyük əhəmiyyətə malik olan bu yol Topxana meşələrinin ətəyindən keçərək Daşaltı kəndinə, oradan isə Şuşa şəhərinə çəkilitr. Hətta, İsa bulağına da yol çəkilməsi nəzərdə tutulmuşdur. Simvolik xarakter daşıması onunla əlaqələndirilir ki, Füzuli-Şuşa yolu əsgərlərimizin Qarabağın mərkəzinə və Şuşaya doğru irəlilədikləri yoldur. Bu səbəbdən də ölkə başçısı bu yolu məhz "Zəfər Yolu" adlandırmışdır.

Böyük maraq doğuran layihələrdın biri isə şəhər və kəndlərin yenidən qurulması prosesi ilə bağlı olan "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarından istifadənin nəzərdə tutulmasıdır. Burada əsas mahiyyət konseptlərin tətbiqi zamanı şəhərsalma aparılarkən dünyanın ən qabaqcıl və müasir texnologiyalarının tətbiq edilməsinə, ən əsası dünyanın qabaqcıl texnoloji şirkətlərinin ölkəmizə cəlb edilməsinə imkan yaradacaqdır. Uğurla başa çatacağı gözlənilən bu layihə daha digər şəhər və kəndlərdə də tətbiq edilə bilər [9]

ƏDƏBİYYAT

1. Abbasov İ.M., Əliyev T.N., Qeyri-neft sənayesinin iqtisadiyyatı, Bakı 2018, s.248, 267 səh.
2. Aydın B.M., Azərbaycan, zaman, inkişaf, Bakı 2007, s.28, 608 səh.
3. Azərbaycan regionları. Bakı, "DSK", 2008, 712 səh., s.9
4. Arbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illə üçün Dövlət Proqramı, Bakı, " Respublika" qəz., 27 dekabr 2014-cü il
5. Azərbaycanın Statistik Göstəricilər. Bakı, "DSK", 2015, 814 səh., s.124-125
6. Cəfərli R., Qarabağ ən qısa zamanda cənnətə çevriləcək, "Azərbaycan" qəz., 19 yanvar 2021
7. Qasımov E., Uğur düsturu: Qalib lider, yenilməz xalq, qüdrətli dövlət, "Respublika" qəz., 25 oktyabr 2021
8. Nuriyev Ə., Qarabağın bərpa və inkişaf layihələri regionun tarixi ənənələrinə və gələcək tələbatına əsaslanmalıdır, "Xalq" qəz.
9. Azad olunmuş əraziləri bərpası Azərbaycanı daha da gücləndirəcək, "Xalq" qəz., 18 iyun https://xalqqazeti.com/mobile/az/news/78552
10. "Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 17 noyabr 2020-ci il. https://president.az/az/articles/view/46989
11. Bağırov O., Qarabağa gedən yollar "ağıllı şəhər"lərdən keçəcək-Bərpa prosesinin əsas istiqamətləri, 1 aprel 2021 https://ovqat.com/prizma/46987-azad-edlm-razlrd-brpa-prosesnn-sas-stqamtlr-qarabaa-gedn-yollar-all-hrlrdn-kecck.html
12. http://e-qanun.az/framework/46813

SUMMARY

THE ROLE OF THE KARABAKH REGION IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN (2003-2021)

Isayev A.I.

The article analyzes the important measures taken to eliminate the factors that negatively affected the country's economy after Ilham Aliyev came to power in 2003. Also, as a continuation of the major measures taken in the socio-economic sphere during 2003-2017, a number of proposals to accelerate the process of socio-economic development in the liberated territories were substantiated. The significant impact of the restoration of the Karabakh region and its socio-economic potential before the occupation, as well as its further increase on the economy of Azerbaijan, as well as the significant impact on the development of the non-oil sector were emphasized.

The liberation of the lands we have longed for for almost 30 years as a result of the Second Karabakh War, the beginning of the "Great Return" process in these lands, the restoration of infrastructure in the liberated regions and cities, new transport and communication projects, "smart village" and "smart city" Issues such as the implementation of projects, construction work to develop tourism and increase economic potential in these regions, the construction of Fizuli International Airport, the restoration of railway lines and the construction of new railways were brought to the fore.

Keywords: *Socio-economic situation in Azerbaijan, recovery in liberated territories, "Victory Road", Karabakh, Karabakh economy, road and transport infrastructure, "Great Return", "Smart Village"*

РЕЗЮМЕ

РОЛЬ КАРАБАХСКОЙ ОБЛАСТИ В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ АЗЕРБАЙДЖАНА (2003-2021)

Исаев А.И.

В статье анализируются важные меры, предпринятые для устранения факторов, негативно повлиявших на экономику страны после прихода к власти в 2003 году Ильхама Алиева. Также в продолжение крупных мероприятий, предпринятых в социально-экономической сфере в течение 2003-2017 годов, обоснован ряд предложений по ускорению процесса социально-экономического развития на освобожденных территориях. Было подчеркнуто значительное влияние восстановления Карабахского региона и его социально-экономического потенциала до оккупации, а также его дальнейшее увеличение на экономику Азербайджана, а также значительное влияние на развитие ненефтяного сектора.

Освобождение земель, к которым мы стремились почти 30 лет в результате Второй Карабахской войны, начало процесса «Великого возвращения» на этих землях, восстановление инфраструктуры в освобожденных районах и городах, новый транспорт и связь проекты, «умное село» и «умный город» Такие вопросы, как реализация проектов, строительные работы по развитию туризма и повышению экономического потенциала в этих регионах, строительство международного аэропорта Физули, восстановление железнодорожных путей и строительство новых железных дорог были выдвинуты на первый план.

Ключевые слова: *Социально-экономическая ситуация в Азербайджане, восстановление на освобожденных территориях, «Дорога Победы», Карабах, карабахская экономика, дорожно-транспортная инфраструктура, «Великое возвращение», «Умное село».*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZDƏ YARADILMIŞ YENİ KİTABXANA-İNFORMASİYA MÜƏSSİSƏLƏRİNİN TURİZMİN İNKİŞAFINDA ROLU

Qasımlı H.H.
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Haci_qasimli@list.ru

Açar sözlər: *turizm, kitabxana, informasiya xidməti, imic, innovasiya.*

Giriş. Tezisdə qarşıya qoyulan əsas məqsəd işğaldan azad edilmiş doğma ərazilərimizdə yaradılacaq kitabxana-informasiya müəssisələrinin fəaliyyətində turizmin inkişafı, kitabxanalrda yeni iş üsullarının tətbiq olunması, yeni yaradılacaq kitabxanalarla bağlı kitabxanaçı-mütəxəssislər tərəfindən ideya və fikirlərin verilməsi, həmin ərazilərdə yaşayan istifadəçilərə müasir tələblərə uyğun kitabxana-informasiya xidmətinin göstərilməsi üçün yeni təkliflərin hazırlanması, kitablarla yanaşı qəzet və jurnalların rəqəmsallaşdırılması sahəsində mövcud problemlərin həll edilməsi məqsədilə müasir texniki avadanlıqlarla yeni yaradılacaq kitabxanaların təchizatı, internet vasitəsilə kitabxanalarla operativ əlaqənin yaradılması kimi problemlərin həll edilməsidir.



Şəkil-1

Şəkil-2

Müasir dövrdə ölkəmizə gələn turistlərə yüksək standartlara uyğun xidmətin göstərilməsi bir çox faktorlardan asılıdır. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu xüsusi qeyd etmək lazımdır. Turizm sektorunda ekskursiya xidməti mühüm əhəmiyyət kəsb edir. Bu xidmət informasiya-məlumatlandırıcı, təbliğat vasitəsi olmaqla yanaşı, həmçinin təşkilati, vasitəçi, ticarət, idmanəyləncə, bəzi hallarda operativ-nəzarət fəaliyyətini də əhatə edir. Ekskursiyalar əvvəlcədən planlı şəkildə həyata keçirilməlidir.

Turizmin təbliği məqsədilə kitabxananın bir müəssisə kimi təşkili ilk növbədə kitabxançının peşəkarlıq səviyyəsindən asılıdır. Uğurlu kitabxananı yaratmaq üçün bir sıra mərhələlərin həyata keçirilməsi mühür rola malikdir.

Birinci pillə

- Kitabxanaçının düşüncəsi.
- Dəyişikliyə özümüzdən başlayaraq.
- Öz işinə yaradıcı münasibət
- Fəallıq

Kitabxananın bir müəssisə kimi fəaliyyətinin təşkili ilk növbədə kitabxanaçının peşəkarlıq səviyyəsindən asılıdır.Kitabxanaçı öz işinin təxəyyülünün gücündən və yaradıcılıq qabiliyyətlərindən ən müxtəlif məqsəd və istiqamətlərdə istifadə etmək üçün onları inkişaf etdirməlidir. Kitabxanaçı fəal olmalı, təşəbbüksarlıq göstərməli, heç nədən qorxmamalıdır.

Kitabxanaçı peşəkarlığının tərkib hissələri

- Ümumi mədəniyyət
- İşin mənasını anlamaq
- Diqqət
- İşə yaradıcı və məsuliyyətli yanaşma
- İnsanlarla ünsiyyət saxlamaq bacarığı
- İnformasiya ilə işləmək bacarığı
- Yeni biliklər qazanmaq istəyi
- Çeviklik

İkinci pillə (Fəaliyyət)

- İmic
- İnnovasiya
- Layihə

İmic. Kitabxana xidməti sənətində kitabxananın imici mühüm amillərdən biri hesab edilir.



Şəkil-3

İnnovasiya

➢ Ənənələr yaxşıdırsa, innovasiyalar daha yaxşıdır, ənənələrə innovasiyaların birləşməsi isə daha yaxşı nəticə verə bilər.

Layihə

➢ Kitabların buktreylər formasında təqdimatı "Bookstory: oxuyuruq, baxırıq, düşünürük" layihəsinin keçirilməsi.

Üçüncü pillə

(Kitabxananın reklamı)

➢ Müasir dövrdə kitabxananın fəaliyyətini reklamsız təsəvvür etmək çətindir. Kütləvi tədbirlərin keçirilməsində diqqət ayrılmalıdır. Çünki oxucuların rəyi də bir reklamdır.

➢ Bu gün kitab ən universal və ən əlçatan informasiya mənbəyidir. Kitablar mətbuatın, yerli radio və televiziyanın imkanlarından istifadə etməklə öz informasiya xidmətlərini fəal təklif etməlidir.

➢ Kitabxana reklamı onu göstərir ki, kitabxana oxucuya yönəldilmişdir. Reklam fəaliyyəti kitabxanaların həyatına üzvi surətdə daxil olmalıdır.

Dördüncü pillə

(Əməkdaşlıq)

Yeni yaradılacaq kitabxanalar ictimaiyyətlə sıx əlaqə yaratmalıdır. Təhsil müəssiələri və digər mədəniyyət müəssisələri ilə tərəfdaşlıq etməlidirlər.

Şəkil-4

Şəkil-5

Beşinci pillə (Müsabiqələrdə iştirak)

Müsabiqələr yaradıcılıq və peşəkarlıq baxımından inkişafda özünəməxsus bir pillədir.

Sonuncu Altıncı pillə (Yeni tipli kitabxana)

Fəallıq, yaradıcı yanaşma, müsabiqələrdə iştirak etmək - Yeni tipli kitabxananın yaranmasına səbəb oldu.

Yeni yaradılacaq kitabxanaların qarşısında duran məsələlər



Şəkil-6

Nəticə. Bütün bu məsələlərin həlli kitabxanaya yeni oxucular cəlb edilməsində, mütaliənin və kitabın təbliğindən ibarət olan ən vacib məsələnin həll etməyə imkan verir. İşğaldan azad edilmiş ərazilərimizdə yaradılacaq yeni tipli kitabxanların əsas fəaliyyət istiqamətləri bilavasitə cəmiyyətin sosial və iqtisadi inkişafına da xidmət göstərməlidir.

SUMMARY

THE ROLE OF NEW LIBRARY AND INFORMATION INSTITUTIONS IN THE DEVELOPMENT OF TOURISM CREATED IN OUR LIBERATED TERRITORIES

Gasimli H.H.

The article comprehensively analyzes the level of professionalism of the librarian in the organization of the library as an institution, first of all, the stages of formation of new library and information institutions are studied on a scientific basis.

Keywords: *tourism, library, information service, image, innovation*

РЕЗЮМЕ

РОЛЬ НОВЫХ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ УЧРЕЖДЕНИЙ В РАЗВИТИИ ТУРИЗМА, СОЗДАННЫХ НА НАШИХ ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Гасымли Х.Х.

В статье комплексно анализируется уровень профессионализма библиотекаря в организации библиотеки как учреждения, в первую очередь на научной основе исследуются этапы формирования новых библиотечно-информационных учреждений.

Ключевые слова: *туризм, библиотека, информационная служба, имидж, инновации.*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN MƏDƏNİ, SOSIAL-İQTİSADİ İNKİŞAFININ YENİ TƏKAMÜL DÖVRÜ

Qasımova N.Z.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt. Azərbaycan
kulturoloq1@gmail.com

Açar sözlər: *Region, sosial-iqtisadi, prioritet, aqrar islahat, infrastruktur, diversifikasiya, mədəni strategiya, investisiya*

Tarixən qədim yaşayış məskənləri ilə tanınmış Azərbaycan müxtəlif dövrlərdə misilsiz mübarizələr aparmışdır. Özünün zəngin tarixi keçmişini qoruyaraq inkişaf etmiş və yüksək mədəni irsə malik olduğunu dəlillərlə sübuta yetirmişdir. Hazırkı dövrdə Azərbaycanın dünyada böyük nüfuza sahib olması, onun mədəniyyətinin, iqtisadiyyatının güclü olması deməkdir. Müasir qloballaşan dünyamızda, beynəlxalq münasibətlər sistemində böyük inkişaf modeli ilə seçilən Azərbaycan ictimai-syasi sabitliyin hökm sürdüyü ölkələr sırasındadır. Bu gün Azərbaycan iqtisadi, siyasi və mədəni inkişafının yeni tarixi dönüş mərhələsini yaşamaqdadır. Bu dönüşün əsasında ölkəmizdə regionların sosial-iqtisadi inkişafının əsası dayanır.

Regionların inkişafı ilə bağlı dövlət proqramları qəbul edilərək, bu baxımdan yeni iqtisadi siyasət strategiyası həyata keçirilməyə başlandı. Azərbaycan Respublikası prezidentinin 2021-ci il, 2 fevral tarixli sərəncamı ilə "Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sistemi qəbul edilmişdir. Bu sərəncamdan irəli gələn Milli Prioritetlərin inkişafı ölkəmiz üçün dayanıqlı iqtisadiyyatın artımı deməkdir. Sözsüz ki, Respublikamızda regionların inkişafı ölkədə ugurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının əsas tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 yanvar 2019-cu ildə imzaladığı "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərmanı bunun bariz nümunəsidir. Həmçinin Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixdə imzaladığı "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması" haqqında fərmanı ölkəmizin davamlı inkişafının təmin olunmasında böyük əhəmiyyət kəsb edəcəkdir. Ardıcıl olaraq həyata keçirilən məqsədyönlü islahatlar gücləndirilmiş iqtisadiyyatın nəticəsi olaraq, 44 günlük Vətən müharibəsindəki parlaq və unudulmaz qələbəmizin qazanılmasına qüdrətli zəmin yaratdı. Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitləri yüksək peşəkarlığa və qibtə olunacaq Vətən sevgisinə malik olduqlarını əzmlə nümayiş etdirdilər. Vətən torpağı uğrunda canlarını fəda etmiş şəhidlərimizin və qazilərimizin göstərdikləri şücaət nəticəsində artıq Qarabağımız və Şərqi Zəngəzurumuz öz azadlığına qovuşmuşdur. [1, 25] Qarabağ anlayışı xalqımızın əbədi qürur mənbəyidir. Çünki Qarabağ və Zəngəzur Azərbaycanın tarixi torpaqları olmaqla yanaşı həmçinin zəngin maddi mədəniyyətə mənsub olan bölgəsidir. Zəngəzur tarixi-coğrafi baxımdan qədim Azərbaycan torpağıdır. Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafının təmin olunması, yeni infrastrukturların yaradılması istiqamətində geniş tədbirlər planı həyata keçirilməkdədir. Bölgə üzrə iqtisadiyyatın, sosial infrastrukturun dinamik inkişafı gələcəyə böyük töhfə verəcək. İşğaldan azad olunmuş əraziləri bərpa etmək üçün buraya milli və xarici investisiyalar qoyulur. Sözsüz ki, bu investisiyalar Qarabağ və Şərqi Zəngəzurun bərpasında həlledici rol oynayacaq və iqtisadiyyatının inkişafı üçün yeni imkanlar açacaqdır. Həmçinin otuz ilə yaxın öz ata-baba yurdlarından didərgin düşmüş əhalinin yenidən doğma torpaqlarına qaytarılması istiqamətində planlar həyata keçirilir. Bu gün dövlətimiz üçün ən vacib məsələ qazanılan qələbəmizi əbədiləşdirmək üçün doğma yurdlarından məcburən köçkün düşmüş insanların öz yerlərinə qayıtmalarını təmin etmək və həmin ərazilərin ölkəmizin yeni iqtisadi sisteminə inteqrasiyasını təşkil etməyə əsaslanır. İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi rayonlar üzrə bölgüsünə bir daha baxılması hazırkı reallığı özündə əks etdirdi. Bu, Azərbaycan iqtisadiyyatının inkişafı baxımından, həmçinin bölgələrimizin iqtisadi potensialının artması və genişləndirilməsi baxımından da çox vacibdir. Dövlətimiz tərəfindən iqtisadi rayonların yeni bölgüsü ölkəmizdə iqtisadi inkişafın yeni sistemliliyini yaratdı. [2, 78] Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması bu bölgəyə həm ölkəmiz, həm də xarici dövlətlər tərəfindən şirkətlərin investor qoymasına böyük maraq göstərilir. Təbii ki, Qarabağ bölgəsinin yenidən bərpasına əsasən inşaat şirkətləri maraq göstərir. Türkiyə, İsrail, Almaniya, Böyük Britaniya və İsveç kimi dövlətlər Qarabağ və Şərqi Zəngəzur bölgəsinin iqtisadi canlanmasında iştirak etmək istəklərini rəsmi formada bildirmişlər. Xarici və yerli sahibkarların Qarabağ və xüsusən Şuşaya olan maraqları daha üstündür. Ölkəmiz tərəfindən bu addım dəstəklənməkdədir. Sözsüz ki, öz tarixi-mədəni əhəmiyyəti ilə Azərbaycan mədəniyyət tarixində müstəsna rol oynamış Qarabağ bölgəsində aparılan bərpa-quruculuq işlərinə xüsusi qayğı və həssaslıqla yanaşılmalıdır. Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixi sərancamı ilə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Xalqımızın tarixi-mədəni, ictimai-siyasi həyatında böyük rol oynamış Şuşa bu tarixi sərancamdan irəli gələrək yenidən öz əhəmiyyətini, mənəvi dəyərə sahib olunmasını təsdiqlədi. Əfsus ki, 1992-ci il mayın 8-də Şuşamız mənfur Ermənistan Respublikası tərəfindən işğala məruz qaldı və orada xalqımızın tarixi-mədəni irsinin məhv edilməsini həyata keçirdilər. Lakin ədalət öz yerini aldı.

Otuz ilə yaxın bir zamanın ağrı-acısını qəhrəman ordumuzun qətiyyətli mübarizəsi ilə 2020-ci il 8 noyabr tarxində Qarabağın incisi əzəmətli Şuşamız düşmən tapdağından azad edildi. Şuşaya, onun tarixi-mədəni irsinə vurulmuş ziyanın inventarizasiyası aparıldı. Şuşanı yenidən dirçəltmək, bərpa-quruculuq işlərinin səmərililiyi təşkil olunaraq, buraya böyük diqqət ayrılmışdır. [3, 92] Tarix salnaməmizdə öz adı ilə həmişə diqqəti cəlb etmiş Ağdam yenidən tarixi mədəniyyətini bərpa edəcək. Zəngin milli-mənəvi dəyərləri, təbiətinin füsünkarlığı onun musiqisinə, sənət əsərlərinə hopmuş və onu dünya mədəniyyətinə tanıtmışdır. Çox fəxarət hissi ilə deyə bilərik ki, qədim milli mədəniyyət dəyərlərini özündə yaşadan Ağdam bir musiqi beşiyi kimi də Azərbaycanın muğam tarixində böyük rol oynamışdır. Bəli, artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması təkcə Şuşanı deyil, yerlə yeksan olmuş, sözün əsl mənasında ruhlar şəhərinə çevrilmiş Ağdamımıza yeni ruh verəcək. Həmçinin Füzuli rayonu da bu bölgədə əzəli şöhrətini yenidən bərpa etməkdədir. Burada Beynəlxalq Hava Limanının inşası Füzuli rayonunun dünya xəttinə çıxması deməkdir. Dövlətimiz layiq olduğu uğura imza ataraq 2021-ci il 7 noyabr tarixində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fizuli rayonunda Zəfər yolunun açılışını etdilər. Bir başa Şuşaya çəkilən "Zəfər yolu" sözün əsl mənasında yolumuzu genişləndirdi. Bu yolun strateji və iqtisadi əhəmiyyəti olduqca böyükdür. Çünki bu yol xalqımızı Qarabağın mirvarisi adlanan Şuşaya aparır. Zəfər yolu xalqımızın həyatında müstəsna rolu olan Şuşaya xüsusi qayğı ilə yanaşılmasını vacib edir. Çox sevindirici tarixi hadisə isə Azərbaycan Prezidenti İlham Əliyevin 7 may 2021-ci il sərəncamı ilə Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi oldu. [4, 109]

Qazanılan tarixi qələbədən sonra ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Şərqi Zəngəzur iqtisadi rayonu- Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarını əhatə edir. İstər Qarabağ bölgəsində, istərsə də Şərqi Zəngəzura daxil olan rayonların bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlər planıyaxın gələcəkdə öz töhfəsini verəcək. Xüsusən qeyd etmək lazımdır ki, vətən müharibəsində qazanılan tarixi qələbəmizdən sonra Zəngəzur dəhlizinin açılması məsələsi ölkəmiz üçün çox önəmli bir hadisəyə çevrildi. Əslində Zəngəzur dəhlizinin strateji əhəmiyyəti iqtisadiyyatımız üçün çox vacib amildir. Eyni zamanda dəhliz Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına da müsbət təsir edəcək. Bir sözlə qədim Azərbaycan torpağı olan Zəngəzur artıq bütöv türk dünyasının birləşməsində önəmli rol oynayacaq. Buradan keçən kommunikasiya, nəqliyyat infrastruktur layihələri türk dünyasını birləşdirəcək. Daha dəqiq desək, Türkiyəyə və Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq. Tarixi ata-baba yurdları olan qədim Zəngəzur torpağına xalqımız məhz bu dəhlizin vasitəsilə qayıdacaqlar. Azərbaycan Respublikasının Prezidenti İlaham Əliyev öz çıxışlarında dəfələrlə bəyan etmişdir ki, "Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün quruculuq işləri davamlı şəkildə gedəcək və biz istəklərimizə nail olacayıq". [5, 18]

Bu gün Azərbaycan iqtisadiyyatının dinamik inkişafı durmadan genişlənməkdədir. İldən-ilə bu iqtisadi güc artaraq öz strategiyasını və modernləşdirmə siyasətini düzgün şəkildə aparır. Təbii ki, inkişafa aparan yol heç zaman hamar olmayıb. Hələ ilk müstəqilliyi dövründə ölkəmiz bir çox iqtisadi, siyasi və sosial problemlərlə üzləşərək çətinliklər yaşadı. Azərbaycan iqtisadiyyatının vahid bir formada inkişaf etməsi, yalnız Ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı nəticəsində böyük bir dönüş yaratdı. Ulu öndərin uzaqgörən siyasəti bu gün bütün xalqımızın yaşadıqlarıdır desək, səhf etmərik. Bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü siayasət düzgün atılmış strateji addımlar ölkəmizin iqtisadi qüdrətini gücləndirir. Bütün dünyanın gözü qarşısında Azərbaycan dövlətinin ortaya qoyduğu güc, Qarabağda və Şərqi Zəngəzur bölgəsində sürətli bərpa və quruculuq işlərinin aparılması bunun bariz nümunəsidir. Artıq bütün dünya əmin oldu ki, işğal altında olan torpaqlar Azərbaycanın əzəli torpaqlarıdır və ona sahib çıxmağı bacardı. Cənubi Qafqazın lider dövlətinə çevrilmiş Azərbaycan region iqtisadiyyatının ümumi gücünü və statusunu möhkəmləndirməkdə davam edir. [6, 201] Dövlətimiz bütün atdığı addımlarda iqtisadi tərəqqinin genişlənməsi ilə yanaşı xalqımızın sosial və mənəvi rifahının yüksəlməsini də təmin etməkdədir. Bir sözlə Azərbaycan iqtisadiyyatda dayanıqlı inkişaf modelini tərənnüm edən ölkələr sırasındadır və onlarla birlikdə sıx əməkdaşlıq edir. Ölkəmiz qüdrətli dövlət, dinamik və sosial ədalətə köklənən bir cəmiyyətə əsaslanır. Bütün qeyd etdiklərimizə rəğmən deyə bilərik ki, Azərbaycan gələcəyə ümidlə baxır, əsas strateji hədəflərinə döğru qətiyyətlə addımlayır. Ümid arzulara gedən yolun başlanğıcıdır. Azərbaycan bundan sonra da tarixi, sosial- iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək, müasir həyat səviyyəsini təmin etmiş bir ölkə kimi bütün dünyada daima tanınacaq. Uğurlu siyasi nailiyyətlər və milli-multikultural dəyərlər tarix boyu Şərqlə Qərbin qovşağı olan ölkəmizin qüdrətini daha da artıracaq.

ƏDƏBİYYAT

1. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev. AZƏRBAYCAN İQTİSADİYYATI: Reallıqlar və perspektivlər. Bakı "Turxan"NPB, 2016- 536 səh

2. A.F.Musayev, İ.Ə.Qarayev "SOSİAL SİYASƏT VƏ İQTİSADİ İNKİŞAF" Vergi jurnalı, Bakı-2013, 67-86 səh

3. E.M.Hacızadə. SOSİALLAŞAN İQTİSADİYYAT, BAKI, Elm-2006, 509 səh.M.Vəliyeva, M.İbrahimova. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (Dövlət proqramının həyata keçirilməsinə dair materiallar) I buraxılış. Bakı-2007, 202 səh

4. S.M.Yaqubov, A.C.Məmmədov SOSİAL İQTİSADİ STATİSTİKA, Dərslik, Bakı-2008, 497 səh

5. S.D.Məmmədova. AZƏRBAYCANDA SOSİAL DÖVLƏT: İNKİŞAFI, PERSPEKTİVLƏRİ. Bakı-"AVROPA" nəşriyyatı-2017, 232 səh

6. M.Vəliyeva, M.İbrahimova. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (Dövlət proqramının həyata keçirilməsinə dair materiallar) II buraxılış. Bakı-2009, 345 səh

SUMMARY

A NEW EVOLUTIONARY PERIOD OF CULTURAL, SOCIO-ECONOMIC DEVELOPMENT OF KARABAKH AND EAST ZANGAZUR

Casimova N.Z.

Despite the difficult historical period, Azerbaijan has confidently passed its evolutionary path over the past thirty years, secured its socio-economic and cultural life, and introduced itself to the world as a country. The traditions of statehood have been strengthened in the society and modern social infrastructure has been successfully implemented. Karabakh and the Eastern Zangazur region, which are an integral part of Azerbaijan's history, are of great importance for the study of you country's history, both economically and with its epigraphic cultural monuments. At present, our state views the development of the regions as an important part of the country's sustainable socio-economic development strategy. As a result of this approach, a separate state proqram for the development of the regions is being developed and implemented. Taking into account the existing potential of the Karabakh and East Zangazur economic regions, which were liberated as a result of the victory, the sustainable development of constructive restoration work is being carried out in this region.

Key words: *Region, socio-economic, prioritet, infrosturuktur, differentiation, cultural strategy, investment*

РЕЗЮМЕ

НОВЫЙ ЭВОЛЮЦИОННЫЙ ПЕРИОД КУЛЬТУРНОГО, СОЦИАЛЬНО – ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ КАРАБАХА И ВОСТОЧНОГО ЗАНГЕЗУРА

Касумова Н.З.

Несмотря на сложный исторический период, Азербайджан за последние тридцать лет уверенно прошел свою социально-экономическую и культурную жизнь, представился миру как страна. В обществе укрепились традиции государственности, успешно построена современная социальная инфраструктура. Карабах и Восточно-Зангезурский регион, которые являются неотьемлемой частью истории Азербайджана, имеют большое значение для изучения истории нашей страны, как с экономической точки зрения, так с эпиграфическими памятниками культуры. Развитие регионов рассматривается как важная частью текущей стратегии социально-экономического развития страны. В результате такого подхода разрабатывается и реализуется отдельная государственная программа развития регионов. С учетом имеющегося потенциала Карабахского и Восточно – Зангезурского экономических районов, освобожденных от оккупации в результате победы, в этом регионе ведется работа по устойчивому развитию

Ключевые слова: *Область, социально-экономический, приоритет, инфраструктура, диверсификация, культурная стратегия, инвестиции*

POSTMÜHARİBƏ DÖVRÜNDƏ AZƏRBAYCANDA YENİDƏNQURMA PROSESİNDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN YERİ VƏ ROLU

Qasımova T.M.
Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı, Azərbaycan
tezegulgasimova@gmail.com

Açar sözlər: *Postmüharibə dövrü, yenidənqurma, bərpa, Vətəndaş cəmiyyəti, dəyər, hədəf, yeni çağrlşlar.*

Münaqişədən sonrakı bir cəmiyyətin, yəni zorakı hücumdan, təcavüzdən və müharibədən xilas olan bir cəmiyyətin yenidən qurulması, bərpası məsələsi ortaq dəyərlərin qurulmasında təməli olan ədalətin bərpası ilə və bütün tərəflər üçün məqbul olan etik normalarla əlaqələndirilir [4].

Bu problemin təhlilinə nəzər yetirsək, iki istiqamətin önə çıxdığının şahidi oluruq. Bir tərəfdən müharibədən sonrakı cəmiyyətin yenidən qurulması ilə ortaq ədalət və ictimai harmoniyaya əsaslanan cəmiyyətin sosial, siyasi və institusional quruluşunun qanuniliyinin yenilənməsi, ikinci tərəfdən isə cəmiyyətin sahib olduğu dəyərlər, çatmaq istədiyi ümumi hədəflər və yeni çağırışlar. Tədqiq etdiyimiz problemin həlli yolunu tapmaq üçün bu üç tərəf arasındakı məntiqi zəngiri unutmamalıyıq. Cəmiyyətin sahib olduğu dəyərlər- çatmaq istədiyi hədəf- yeni çağırışlar. Problemin təhlili məhz bu istiqamətdə getsə doğru nəticənin əldə olunması qaçılmazdır.

Gündəlik həyatımızda doğruluğuna inandığımız çoxlu hadisələri diqqətlə araşdıranda onların daxilinə nüfuz etmiş çoxsaylı aşkar ziddiyyətin olduğunu görürük və bütün bunların doğrudan da indiyədək düşündüyümüzdən fərqli olduğuna inanmaq üçün bir az düşüncəmizi həddən artıq gərginləşdirməklə həqiqəti anlaya bilirik. Və bu da təcrübələrin hesabına mümkün olur [5, s.6]. Hadisəyə və gerçəyə olan münasibət nəticəsində zorakı təcavüzə uğramış bir cəmiyyətin yenidən qurulması və bərpası məsələsinin ziddiyyətlərlə dolu olduğunu görürük və həmin cəmiyyətin yenidən dirçəlməsi üçün uzun bir yol qət edəcəyini əminliklə qəbul edirik.

Münaqişə sonrası yenidənqurma siyasəti, zorakı münaqişənin dayandırılmasını və qanunun aliliyinin köməyi ilə ictimai harmoniyaya və normal sosial qarşılıqlı fəaliyyətə qayıtmağı vurğulayan xüsusi bir ədalət çərçivəsinə söykənir desək yanılmarıq. Bu siyasət bir neçə istiqamətdə müəyyən edilə bilər: birinci məqsəd şiddəti, zorakılığı dayandırmaqdır; ikincisi, qeyri-adi kənar müdaxiləyə ehtiyac qalmadıqdan sonra ictimai harmoniyanı və sosial tarazlığı qorumaqdır; üçüncüsü, suveren milli idarəetmənin qurulması və böyük həcmdə öz-özünə təyin edilmiş iqtisadi fəaliyyətin təmin edilməsi və əsas ictimai xidmətlər ilə işləyən infrastrukturun yenidən qurulması.

Müharibədən sonra Azərbaycan Respublikasının dövlət siyasətinin əsası azad edilmiş ərazilərin yenidən bərpası, yenidənqurulmasıdır ki, hansı ki bu məsələlər dövlət investisiya proqramlarında, dövlət layihələrində öz əksini tapmışdır. Azərbaycan dövləti cəmiyyətin yenidən qurulması üçün iki proqramla çıxış edir. Birinci, 2030-cu ilədək olan inkişaf proqramı, digəri isə Qarabağın bərpası üçün olan inkişaf proqramıdır. Və əsas diqqət çəkən bir məsələ işğaldan azad edilmiş ərazilərdə yeni idarəçilik modelinin təqdim olunmasıdır. Bu model vasitəsilə idarəçiliyə və bu sahədə inkişafa çox müasir yanaşma formalaşacaq ki, bu da iki dövrü əhatə edəcək, bərpa zamanı və bərpadan sonrakı müddətdəki inkişafı.

Müharibədən və qarşıdurmadan sonrakı bir cəmiyyətin yenidən formalaşmasının əsas tərəflərinə etik normalar, ictimai harmoniya, hansıki əsasını ədalət konsepsiyası təşkil edir aid etsək yanılmarıq. İctimai harmoniyanı barışıq, birgəyaşayışın daha geniş ölçüləri əhatə edir. Münaqişədən sonrakı yenidənqurma prosesi 3 konseptual mərhələdə təşkil edilə bilər. Təhlükəsizlik, sabitlik və hərbi müdaxilə, hansı ki fövqəladə xidmətlər üçün hərbi müdaxilə ilə xarakterizə olunur. Yuxarıda qeyd etdiyimiz kimi siyasətə haqq qazandırmaq üçün onu ədalətdən kənarda həyata keçirmək uğurdan uzaqlaşmağa doğru aparır. Hər iki elementi birləşdirməyə çalışsaq isə harmoniyaya, daha doğrusu ictimai harmoniyaya çatmış olarıq. İctimai harmoniyadan danışarkən "passivizmi" unutmaq olmaz.

Digər bir etik və mənəvi dəyəri də qeyd etmək lazımdır. Özüननkünü yənihaqqı olanı hansı vasitə ilə olur-olsun almaq. Azərbaycanın ərazi bütövlüyünün bərpası onun haqqıdır. Bu etik norma və dəyərlər də uçub dağılmış, məhv olmuş bir cəmiyyətin bərpasının, formalaşmasının əsasını təşkil edir.

Ümumiyyətlə, onu qeyd etmək istərdim ki, bu gün Azərbaycan inkişaf etmiş və müharibədən qalib çıxmış bir dövlət kimi təcavüzə məruz qalmış cəmiyyətini bərpa etmək üçün bütün siyasi-etik prinsipləri qoruyur, məqsədinə doğru irəliləyir və bu uğura da öz imzasını atır. Barış, ictimai harmoniya və insan rifahı üçün vacib olan prinsiplər və dəyərlərin mövcud olduğu cəmiyyət çox asanlıqla yenidən formalaşa və bərpa oluna bilər. Bu işdə dövlətimiz və xalqımız birgə fəaliyyət göstərir. Bu birlikdə ölkəmizdə fəaliyyət göstərən siyasi görüşlərində, siyasi baxışlarında bir-birinə əks olan siyasi təsisatların, qurumların və vətəndaş cəmiyyətlərinin birgə addımları da danılmazdır. Çətin və məqsədli işdə bir -birinə dəstək olan vətəndaş cəmiyyətləri dövlətimizin yenidən bərpa olunmasında, güclü sosial və ictimai nəzarət sisteminin təmin olunmasında və həyata keçirilməsində hökumətimizin yanında yer aldılar .

Məhz bu mənəvi dəstək, bu sarsılmaz birlik bizi zəfərə apardı. Bu yaxınlaşma, çətin anda bir-birinə dəstək münaqişənin mənfi ilə yanaşı, müsbət tərəfinin də olduğunu xatırldır. XX əsr alman politoloqu, siyasi nəzəriyyəçilərindən olan Ralf Darendorfun münaqişədə hər bir cəmiyyətin yaradıcı başlanğıcını, inkişafın əsasını və onların əldə olunması şansını da görmək olar fikiri məhz bizim cəmiyyətimizdədə özünü göstərdi. Yəni Qarabağ uğrunda başlanan mübarizə bir-birinə əks olan bütün qüvvələri birləşdirdi.

Vətəndaş cəmiyyəti əsasən ictimai həyatda öz üzvlərinin fəal iştirakı ilə inkişaf edən demokratik cəmiyyət forması olaraq başa düşülür. Yeni qurulmuş cəmiyyət vətəndaşların könüllü öhdəliyi və maraqları ilə dəstəklənir. Vətəndaş cəmiyyəti konsepsiyası insan cəmiyyəti və sivil cəmiyyət anlayışları ilə sıx siyasi və elmi müzakirə əsasında formalaşır. Başqa bir nöqteyi-nəzərə diqqət yetirək. Hələ vaxtilə İbn Xəldun sosial harmoniyanın konvergensiya prinsipini funksiyalaşdıran çox dəyərli bir model irəli sürüb: "Dövlətin gücü onun hər bir vətəndaşının gücü qədər artır." Qərb demokratik dövlətçiliyi və vətəndaş cəmiyyəti əslində bu model əsasında qurulub [6, s.34].

Artıq müharibədən zəfərlə çıxan bir dövlətin post konflikt dövr yaşamına, yenidən qurulmasına, yenidən bərpaolunmasına nəzər yetirsək görərik ki, Azərbaycan bu sahələr üzrə artıq yeni modellər irəli sürüb, yeni inkişaf, yeni bərpa yolu cızıb. Bu yolda dövlətimizə güclü xalq və ayrı-ayrı sosial-siyasi cəmiyyətlər dəstək dururlar. Məqsəd isə itirdiklərimizi geri qaytarmaq, azad olunmuş ərazilərimizdə gözəl həyat bərpa etməkdir. Bu tək dövlətin deyil, bütün cəmiyyətin, sosial qrupların, vətəndaş cəmiyyətlərinin, siyasi təsisatların istəyi, məqsədidir. Onu da qeyd etmək istərdim ki, bu sosial-siyasi birliklərin birgə fəaliyyəti zamanın tələbidir. Dövlətimiz də məhz bu tələb prizmasından fəaliyyət göstərərək öz işini qurur. Digər bir tərəfdən post müharibə dövründə yaradılan fondların fəaliyyətinə diqqət yetirək. Yaradılan bu fondların fəaliyyəti vətəndaş cəmiyyətlərinin fəaliyyəti ilə eynidir desək, yanılmarıq. Vətəndaş cəmiyyətləri sosial bir təşkilat kimi yarandığı müddət ərzində dövlətlə birgə işləyir və ümumimənafe, maraq üçün fəaliyyət göstərir. Bu gün Azərbaycanda fəaliyyət göstərən vətəndaş cəmiyyətlərinin fəaliyyətinə nəzər yetirək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə "YAŞAT" Fondu yaradılıb. Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir. Fondun fəaliyyətinin təşkili ilə bağlı Tədbirlər Planı təsdiq edilib, müvafiq icra qrupu müəyyən edilib [3].

Digər bir sosial təşkilatın fəaliyyətinə nəzər yetirək. Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Müharibədən sonra cəmiyyətin yenidən bərpaolunmasında iştirak edən vətəndaş cəmiyyətlərindən QHT-in də fəaliyyətini yaddan çıxarmaq olmaz. Bu barədə onların hesabatlarında da qeyd olunmuşdur. "Vətən müharibəsi dövründə QHT sektorunun fəaliyyətinə dair ilkin hesabat"da isə qeyri-hökumət təşkilatlarının Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək tarixi qələbəmizə verdiyi töhfə, ordumuza və cəbhəyanı ərazidə yaşayan soydaşlarımıza göstərdiyi dəstək, Ermənistanın törətdiyi cinayətlərlə bağlı beynəlxalq təşkilatlara və xarici ölkələrin rəhbərlərinə operativ şəkildə ünvanladığı müraciətlər və sosial media platformalarındakı fəaliyyəti işıqlandırılıb. 107 səhifədən ibarət olan ilkin hesabatda 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan QHT-lərinin çoxprofilli fəaliyyəti, o cümlədən Ali Baş Komandana, xalqa müraciətləri, Ermənistanın ölkəmizə hərbi təcavüzü, müharibə cinayətləri və digər əməlləri ilə bağlı müvafiq beynəlxalq təşkilatlara və bir sıra dövlətlərin rəhbərlərinə fərdi və kollektiv müraciətləri, işğalçıya qarşı adekvat addımların atılması üçün çağırışları əks olunub. Bu müddət ərzində QHT-lər 39 beynəlxalq təşkilata, 5 ölkənin prezidentinə, parlamentinə və xarici işlər nazirlərinə Ermənistanın işğalçılıq siyasəti, törətdiyi beynəlxalq cinayətlər və digər hüquq pozuntuları ilə əlaqədar 22 kollektiv və 16 fərdi olmaqla 38 müraciət göndərib [1]. Vətən müharibəsi dövründə qeyri-hökumət təşkilatlarının əsgər, gizir və zabitlərimizi, həmçinin şəhidlərimizin və hərbiçilərin ailələrini daim diqqət mərkəzində saxlaması, onlara maddi və mənəvi dəstək göstərməsi ilə bağlı faktlarla da hesabatda tanış olmaq mümkündür.İlkin hesabatda diqqət yetirilən məqamlardan biri də QHT-lərin informasiya müharibəsində üstünlüyümüzü təmin etmək, düşmən və onun havadarlarının ölkəmizə qarşı apardığı yalan və böhtan kampaniyasını zərərsizləşdirmək və Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi və soyqırımı cinayətlərini ifşa edərək dünya ictimaiyyətini operativ və geniş şəkildə məlumatlandırması istiqamətində fəaliyyətidir. Digər bir tərəfdən vətəndaş cəmiyyətlərinin fəaliyyəti təhlil olunan zaman dövr, zaman, məkan

anlayışını da diqqətdən qaçıtrmaq olmaz. Vətəndaş cəmiyyətlərinin post müharibə dövründəki fəaliyyətini təhlil edən zaman Heydər Əliyev Fondunun bütün işlərdə dövlətimizin, xalqımızın yanında olduğunun şahidi oluruq [2]. İstər müharibədən əvvəlki, istərsə də müharibədən sonrakı dövrlərdə Fond öş xoşməramlı missiyasını yenə də yerinə yetirməkdədi. Post müharibə dövründə Heydər Əliyev Fondu işğaldan azad olunmuş torpaqlarımızın yenidən bərpa olunmasına, məhv olmuş, dağıdılmış tarixi- mədəni irsimizin yenidən bərpa olunmasına həm maddi, həm də mənəvi dəstək göstərir. Qarabağın ürəyi, gözü olan Ağdam, mədəniyyət şəhəri olan Şuşanın yenidən dirçəldilməsi, bərpa olunması, məscidlərin bərpası, Vaqif məqbərəsinin təmiri, dahi sənətkarlarımızın ev muzeylərinin bərpası və bir də möhtəşəm Xarı bülbül musiqi festivalının keçirilməsi kimi tədbirlərin altında Heydər Əliyev Fondunun imzası var. Dövlətimiz tərəfindən uğurla həyata keçirılən Ağıllı kənd, Ağıllı şəhər layihələri də bu fond tərəfindən maddı və mənəvi dəstəklənir. Sonda onu qeyd etmək istərdim ki, Heydər Əliyev Fondunun timsalında Azərbaycanda vətəndaş cəmiyyətinin dövlətlə birğə fəaliyyət göstərməsi, ümumi sosial rifahın yüksəlməsinə çalışması bir daha sübut edir ki, çətin bir dövrü arxada qoyan Azərbaycan dövləti demokratik və hüquqi dövlətdir, bu dövlət daxilində mövcud olan vətəndaş cəmiyyətləri və siyasi təsisatların hüquqları qorunur və müstəqil səmərəli fəaliyyət göstərmələrinə hər cür şərait yaradılır. Vətəndaş cəmiyyətləri, sosial-siyasi təşkilatların, təsisatların birgə fəaliyyəti olan bir cəmiyyətdə sosial nəzarət sistemi mükəmməl qurulursa, etik, siyasi prinsiplər gözlənilərsə həmin cəmiyyətdə xaos yox, harmoniya həmişə mövcud olacaq. Və o cəmiyyət hərtərəfli inkişafa doğru addımlayacaqdır.

ƏDƏBİYYAT

1. https://apa.az/
2. http://cssn.gov.az.new
3. https://president.az/
4. https://www.researchgate.net/search/publication?q=publications-23547745
5. Rassel B. Fəlsəfənin problemləri. Bakı: Qanun nəşriyyatı, 2017
6. Ulusel V. Vətəndaş cəmiyyəti özünün yaradıcı enerjisini idarə edən və yönəldə bilən cəmiyyətdir // Vətəndaş cəmiyyəti" jurnalı. N.4, 2009

SUMMARY

THE PLACE AND ROLE OF CIVIL SOCIETY IN THE PROCESS OF RECONSTRUCTION IN AZERBAIJAN DURING POST-WAR

Gasimova T.M.

The article examines the analysis of the problem of restoration and rebuilding a destroyed society, which will be focused by Azerbaijan, a victorious country after Patriotic War. Analysis of the issues in the article shows that there is a need for strong solidarity, political dialogue, social control, the formation of a system of public control in order to return the lost and restore the destroyed. At the same time, the article analyzes the joint activities of civil society and the state, which is a social system in the process of rehabilitation, the application of the control system.

Keywords: *Postwar period, reconstruction, recovery, Civil society, value, goal, new challenges.*

РЕЗЮМЕ

МЕСТО И РОЛЬ ГРАЖДАНСКОГО ОБЩЕСТВА В ПРОЦЕССЕ ВОССТАНОВЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД

Гасымова Т.М.

В статье исследуется анализ проблемы восстановления и воссоздания разрушенного общества, на котором будет сосредоточен Азербайджан, страна-победительница после Отечественной войны. Анализ рассматриваемых в статье вопросов показывает, что необходима крепкая солидарность, политический диалог, общественный контроль, формирование системы общественного контроля с целью возвращения утраченного и восстановления разрушенного. При этом в статье анализируется совместная деятельность гражданского общества и государства, представляющего собой социальную систему в процессе реабилитации, применения системы управления.

Ключевые слова: *послевоенный период, реконструкция, восстановление, гражданское общество, ценность, цель, новые вызовы.*

KİÇİK QAFQAZIN CƏNUB-ŞƏRQ HİSSƏSİNİN QURU ÇÖL VƏ YARIMSƏHRA LANDŞAFTI FONUNDA KƏND TƏSƏRRÜFATI TORPAQLARININ SU EROZİYASINDAN QORUNMASI

Quliyev İ.Ə. , Rüstəmova A.M.
Azərbaycan MEA akad H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
ismayil-quliyev@rambler.ru, almaz.rustam@bk.ru

Açar sözlər: *hərbi-texnogen, eroziya, mexaniki tərkib, fiziki gil, dehumifikasiya, antropogen, deqredasiya, aqrotexniki, aqromeliorativ aqrotexniki, aqromeliorativ.*

Giriş. İnsanın təsərrüfat fəaliyyəti nəticəsində torpaqların deqredasiyasında eroziya birinci yerdə durur. Bəzi tədqiqatçı alimlər onu „ planetin səssiz böhranı″ hesab edir. Qeyd edilir ki, son 100 ildə kənd təsərrüfatında istifadə edilən torpaqların hər altı hektarından biri təbii fəlakətə məruz qalmışdır [3].

Azərbaycan Respublikasının ümumi torpaq fondunun 56-58 %-i bu və ya digər dərəcədə eroziyaya məruz qalmışdır. Relyefdə meyilliyin yüksək və suayırıcı tirələrin uzun olması alçaq dağlıq bölgələrdə eroziyanın sürətlə getməsinə gətirib çıxarmışdır. Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqların, o cümlədən əkinaltı torpaqlar arid ərazilərdə deflyasiyaya, quru çöllərdə, meyilliyi çox olan yamaclarda su eroziyasına məruz qalır. Hər il yarğan eroziyası nəticəsində yuyulan torpaqların həcmi artır, əkin sahələri kiçilir. Yuyulan torpaqlarla böyük miqdarda qida maddələri aparılır.

Eroziyaya qarşı aqrolandşaftlarda kompleks mübarizə tədbirlərindən biri torpaqqoruyucu aqrotexniki tədbirlərdir. Bu zaman tələb olunan şərt ərazinin coğrafi şəraitinin düzgün qiymətləndirilməsidir. Aparılmış eksperimental tədqiqat işlərindən məlum olmuşdur ki, torpaq qoruyucu aqrotexniki tədbirlər nəticəsində meşə-çöl və çöl zonasının əkinaltı torpaqlarında hər hektara 50-120 m^3 suyun əriməsi ləngiyir [2]. Meşə torpaqlarında birgə bu ləngimə hər hektara 150-dən 350 m^3/ha qədər təşkil edir. Ümumiləşdirilmiş məlumata əsasən ərimiş suyun səth axımı 5-10 dəfə çoxdur.

Eroziyaya qarşı kompleks mübarizə tədbirlərinin təşkili zamanı birinci olaraq ərazinin torpaq-ekoloji şəraiti, təsərrüfat istiqaməti nəzərə alınmalıdır. Yeni tətbiq olunacaq təsərrüfat istiqamətinin torpaq-ekoloji və yamacın meyillik dərəcəsi ilə bağlılığı və torpaqqoruyucu xüsusiyyəti düzgün qiymətləndirilməlidir. Sonra ərazidə meşə zolaqlarının salınması, hidrotexniki qurğuların tikintisi zamanı xətti eroziya yaradan səth axınlarının istiqaməti və onların konturluluğu nəzərə alınmalıdır. Meşə zolaqlarının və meşə əkinlərinin bir çox məlum funksiyaları var ki, bunlar gözlənilməlidir.

Strateji yol xərtiələrində əsas məsələlərdən biri də işğaldan azad olmuş ərazilərdə bioloji müxtəlifliyi bərpa və inkişaf etdirmək üçün geniş meşə massivlərinin salınması nəzərdə tutulur. Bunlar həyata keçirilərkən təsərrüfat istiqaməti və torpaq-ekoloji şəraiti düzgün qiymətləndirmək lazımdır.

Aqrotexniki tədbirlər həyata keçirilərkən klassik metod olaraq şumlama yamacın meyilliyinə perpendikulyar istiqamətdə aparılmalı, ərazidə yağıntı nəticəsində yaranmış nanorelyef formaların (şırım, rulon və s.) nəzərə alınmaqla, çoxillik əkmələr, dərin yumşaltma işləri tətbiq edilməlidir. Aparılmış hesablamalar göstərir ki, praktik olaraq fitomeliorasiya tədbirlərinə çəkilən xərclər, eroziya nəticəsində dəyən zərərdən 300 dəfə ucuz başa gəlir [4].

Tədqiqat metodu. Su eroziyası səth sularının təsiri nəticəsində torpaq örtüyünün dağılmasıdır.

Bununla bağlı keçmiş SSRİ miqyasında, istərsə də dünyada bir çox metod və üsullar işlənilmişdir [1,5,6,7,8].

FAO tərəfindən torpaqların yuyulma dərinliyi ilə bağlı deqredasiya dərəcəsinin təsnifatı hazırlanmışdır. Bu aşağıdakı kimidir: I - < torpaq profili qalınlığın 25 %-i; II – 25-50 %; III – 50-75 %; IV – 75 %-dən çox.

Bir il müddətində su və külək eroziyasının təsiri altında eroziyaya uğramış torpaqların sahəsinin artması aşağıdakı kimi qiymətləndirilmişdir: zəif (I) < 1%, orta (II) – 1-2 %, şiddətli (III) – 2-5 %, çox şiddətli (IV) - > 5 %

Apardığımız tədqiqatlar zamanı, aşağıdakı düstur üzrə, torpaq eroziyasının maksimum həddi müəyyən edilmişdir.

$$V_s = H/t$$

burda, V_s – torpaq eroziyası zamanı yol verilən maksimum hədd, mm/il,
t - ilin sayı, H_{sm} – torpaq (humusun) qatının qalınlığının yaranması zərurəti.

Torpaq qatının qalınlığının zaman baxımından artıb və ya azalması bərabər baş vermir. Bu az və yaxud normadan çox ola bilər. Aparılmış tədqiqatlardan görmək olur ki, bu sürət çöllər zonasında ildə 0,28-0,36 mm təşkil edir. Eroziya ilə bağlı yol verilən maksimum hədd çöllər zonasının qaratorpaqları üçün 0,28 mm/il, şabalıdı torpaqlar üçün 0,36 mm/il təşkil edir [6].

Müasir eroziyada insanın təsərrüfat fəaliyyətinin çoxalması ilə əlaqədar olaraq hər iki amilin – təbii və antropogen amilərin qiymətləndirilməsi metodiki baxımdan düzgün yanaşmadır. Aparılmış tədqiqatlar zamanı hər iki amil qiymətləndirilir.

Aqrolandşaftlarda antropogen amil daha çox rol oynadığı halda, meşə, dağ çölləri landşaftlarında təbii amillərin qiymətləndirilməsinə diqqət çəkilir. Su eroziyasında təbii amil kimi iqlim (yağınıtının miqdarı, intensivliyi, qarın qalınlığı), relyef (yamacın parçalanması dərəcəsi, eroziya bazisi, yamacın sutoplayıcı forması, yamacın uzunluğu, forması və ekspozisiyası), torpağın xüsusiyyəti (qranulometrik tərkib, struktur vəziyyət, sukeçirmə, su saxlama), təbii bitkilərlə örtülmə dərəcəsi.

Torpaqların deqredasiyaya məruz qalması, xüsusilə, eroziyaya uğraması antropogen təsir nəticəsində otlaq sahələrinin tənəzzülü olaraq bitki örtüyünün pisləşməsi və bitki qalıqlarının torpaq səthini qoruya bilməməsidir. Yəni torpaqların eroziyaya məruz qalmasını qiymətləndirərkən bu kriteriya metodik cəhətdən nəzərə alınır.

Torpaqların deqredasiyaya məruz qalma dərəcəsini metodiki baxımdan digər göstəricisi tərkibinin aqronomik baxımdan pisləşməsidir. Nəticədə torpaqlarda humusun miqdarı azalır, torpağın kipliyi artır, məsaməliliyi, rütubət tutumu, rütubət ehtiyatı aşağı düşür.

Xətti eroziyanı metodik cəhətdən düzgün qiymətləndirərkən aşağıdakı kriteriyalar götürülmüşdür: vahid əraziyə düşən yarğanların sayı, yarğanın sahəsi və uzunluğu, torpaq kütləsinin itmə göstəricisi, yarğanın dərinliyi, yeni yarğanların əmələ gəlməsi və artım dinamikası.

Təhli və müzakirə. Uzun illər tədqiqat rayonu işğal altında olduğu üçün, hərbi-texnogen təsir nəticəsində torpaqlar fiziki və kimyəvi deqredasiyaya məruz qalmışdır. Belə bir ekoloji şəraitdə aparılmış tədqiqatlar [1,5,7,8] göstərir ki, yarımsəhra və quru çöl landşaftlarda relyefin meyillik dərəcəsindən asılı olaraq, torpaqlar əkin şəraitində, aird şəraitdən fərqli olaraq, bir hektar 50-120 m^3 ərimiş su tutmağa imkan verir. Meşə zolağı mövcud olduğu şəraitdə bundan üç dəfə çox ərimiş su saxlaya bilir. Ağır hərbi texnikanın uzun illər hərəkəti nəticəsində torpaqlar deformasiyaya məruz qaldığından ərimiş suyun səth axımı 15-26 dəfə çox olur. Ona görə də belə torpaqlarda aqrotexniki tədbirlərin aparılması zəruridir.

Cəbrayıl rayonunun torpaq örtüyünün çox hissəsin yarımsəhra və quru çöl landşaftında formalaşan boz-qəhvəyi (şabalıdı) torpaqlar təşkil edir. Bu torpaqları cənub, cənub-şərq istiqamətdə quru çay vadiləri kəsir. Bu vadilərdə formalaşmış torpaqlar əsasən allüvial-çəmən torpaqlardır. Rayonun dəniz səviyyəsindən 600-700 m hündürlüyündən sonra bozqırlaşmış dağ-meşə qəhvəyi və kserofil meşələrin dağ-meşə qəhvəyi torpaqların müxtəlif yarımtipləri yayılmışdır.

Cəbrayılın alçaq dağlıq və dağətəyi ərazilərin torpaqlarından ötən əsrin 50-60-cı illərində dəmyə şəraitdə taxıl altında istifadə edilmişdir. Yetmişinci illərdə təsərrüfat istiqaməti dəyişilərək üzümçülük məqsədilə istifadə olunmuşdur.



Şəkil 1.

Alçaq dağlıq və dağətəyi ərazilər relyef baxımdan nisbətən stabil olub, torpaqları ot və kol bitkiləri altında formalqşmışdır. Torpaqlar dənəvari-kəltənvari və yaxud kəltənvari-qozvari strukturaya malikdirlər. Mexaniki baxımdan gilli torpaqlardır və qida maddələri, o cümlədən humus 4-6 % təşkil edir.

Rayon ərazisində bu torpaqlar güclü eroziyaya məruz qalmışlar. Otuz il bu torpaqların Ermənistan tərəfindən işğal altında saxlanılması, intensiv olaraq əkinə cəlb olunmaması və qida maddələri ilə daha yaxşı təmin olunmasına şərait yaratmışdır. Digər tərəfdən ərazidə yazın axırları və payızda otların yandırılması, ağır hərbi texnikanın intensiv hərəkəti, nəhayət torpaqların hərbi-texnogen yolla çirklənməsi deqredasiyaya yol açmışdır

Rayonun bu zonasında, o cümlədən Dağtumas-Yarəhmədli, Çullu-Balyand istiqamətlərində bozqırlaşmış qəhvəyi, boz-qəhvəyi torpaqlar yayılmışdır.

Cəbrayılın İncə-Gəyən qış otlağı sahəsinin xarakterik torpaqları dağ şabalıdı, çüründülü-sulfatlı dağ şabalıdı, bərkimiş dağ şabalıdı, tam inkişaf etməmiş dağ şabalıdı torpaqlardır.

Yuxarıda qeyd etdiyimiz dağ şabalıdı torpaq tipinin şimal istiqamətdə davamı Minbaşı-Daşkəsən yaşayış məntəqəsi ətrafı zona üzrə davam edir. Burda torpaqəmələgətirən süxurlar karbonatlı və lössəbənzər gillicələrdir. Bu torpaqlar ağır mexaniki tərkibə malik olmaqla, qida maddələri ilə nisbətən yaxşı təmin olunmuşdur. Humusun miqdarı torpağın üst horizontunda 2,5-4,0 % arası dəyişir.

Cəbrayıl rayonu ərazisində torpaqların deqredasiyaya məruz qalmasında su eroziyası böyük rol oynayır. Ərazidə torpaqların su eroziyasına məruz qalması təbii şəraitlə, o cümlədən iqlim, bitki örtüyü, relyef - meyillik və yamacın uzunluğu və onun forması ilə əlaqədardır. Meyilliyi 1,5-2,0° olan ərazidə eroziya demək olar ki, baş vermir. 3° və ondan çox olan meyilli ərazilərdə eroziya prosesi sürətlənməyə başlayır. Cəbrayılın Arazboyu zəif meyilli düzənlikləri və onunla kəsişən çay vadilərində meyillik əsasən 2-3° olub, bu ərazilər su eroziyasına zəif məruz qalmışdır (Şəkil 1).

Torpaqların intensiv olaraq eroziyaya məruz qalmasının başlıca səbəblərindən biri də yamacların ekspozisiyası və torpağın tipidir. Mexaniki tərkib baxımdan gilli və ağır gillicəli torpaqlar yüngül tərkibli torpaqlara nisbətən daha çox eroziyaya məruz qalır.

Digər mühüm səbəblərdən biri də torpağın strukturluluğudur. Strukturasız torpaqların sukeçiricilik xassələri zəif olduğundan bu torpaqlarda səth axınları su eroziyasının yaxşı inkişaf etməsinə şərait yaratmış olur.

Cəbrayıl rayonun ərazisində ən geniş yayılmış torpaq tipi boz-qəhvəyi (şabalıdı) torpaqlardır. Bu torpaqlarda mexaniki tərkib üzrə fiziki gilin miqdarı orta hesabla (<0,01 mm) 53,5-80,8 % arası dəyişir.

Eroziyanın qarşısının alınmasında bitki örtüyü də əsas rol oynayır. Xüsusilə bitkilərin kök sistemi torpaq hissəciklərini tutaraq onu yuyulmaqdan qoruyur.

Cəbrayılın ümumi ərazisinin 65-70 %-i 135-300 m mütləq hündürlüklər arası dəyişir. Bu hündürlükdə torpaqlar əsasən boz-qəhvəyi (şabalıdı) və qismən allüvial-çəmən torpaqlarından ibarətdir. Bu .əraitdə eroziya nəticəsində çoxlu miqdarda humus maddəsinin itirilməsi baş verir. Bu itki həm də aqrotexnologiya ilə bağlıdır. Hər il əraziyə taxıl bitkilərinin əkilməsi və məhsulun toplanması humusun ciddi miqdarda itirilməsinə gətirib çıxarır.

Ərazidə torpaqları su eroziyasından qorumaq üçün sistemli olaraq aqrotexniki tədbirlərin həyata keçirilməsi tələb olunur. Bunlara, növbəli əkin sisteminin tətbiqi, torpağın eroziyaya qarşı hazırlanması, bitki zolaqlarının yerləşdirilməsi, gübrələrin tətbiq olunması, bufer zolaqlar və digər tədbirləri aid etmək olar.

Nəticə. Nəzəri baxımdan Cəbrayılın torpaq örtüyü, təbii şərait, o cümlədən iqlim, bitki örtüyü, relyefin meyilliyi, yamacların uzunluğu, forması, torpaqların fiziki xassələri nəzərə alınmaqla su eroziyasına, dehumifikasiya prosesinə həssas ərazi kimi qiymətləndirilə bilər. Digər tərəfdən otuz ilə qədər davam edən antropogen, o cümlədən hərbi-texnogen təsir bu prosesi bir qədər də sürətləndirmişdir. Ona görə də ərazidə su eroziyasına qarşı kompleks mübarizə tədbirlərinin həyata keçirilməsi zəruridir.

ƏDƏBİYYAT

1. Барабанов А.Т. Агромелиорация в почвозащитном земледелии. Волгоград.: 1993. 156 с.
2. Варламов, А. А. Организация территории сельскохозяйственных землевладений и землепользовании на эколого-ландшафтной основе / А. А. Варламов. М.: 1993. 114 с.
3. Волков С.Н., Папаскири Т.В., Шептухов В.Н. и др. Почвозащитная организация использования и охраны сельскохозяйственных земель на ландшафтной основе. М.: Изд-во ГУЗ, 2003. 337 с.
4. Жданов С.А. Экономические модели и методы в управлении. М.: Дело и Сервис, 1998, 176 с.
5. Толба М. Опустынивание общечеловеческая проблема // Пробл. освоения пустынь. 1978. №3. с. 7-17
6. Экономико-математические методы в АПК: История и перспективы: Материалы международного научного симпозиума (13-15 апреля 1999 год Москва). М.: РАСХН, 1999.
7. Appleby P.G. Three decades of planting recent sediments by fallout radionuclides: a review // Holocene. 2008. v.18. p/ 83-93. Doi 10. 1177 / 0959683607085598
8. Zapata F. Handbook for the Assessment of Soil Erosion and Sedimentation Using Environmental Radionuclides. Dordrecht: Kluwer Academic Publisher, 2002, 219 p.

SUMMARY

PROTECTİON OF AGRİCULTURAL LAND FROM WATER EROSİON İN THE SOUTH-EAST PART OF THE SMALL CAUCASUS AGAİNST DRY WESTERN AND HEMİSERT DESERT LANDSCAPE

Guliyev İ.A., Rustamova A.M.

The article discusses the protection of lands in the liberated Jabrayil administrative region from water erosion. It is noted that from a theoretical point of view, the lands of the region are sensitive to water erosion. The main reason for this is the type of gray-brown (chestnut) soil, which is more widespread in the area, the physical properties of these soils, the degree of inclination, exposure, length of slopes, etc. is related to. Anthropogenic, especially military-man-made influences lead to more intensive development of water erosion in the area.

***Keywords**: military-man-made, erosion, mechanical composition, physical clay, dehumidification, anthropogenic, degradation, agro-technical, agro-ameliorative.*

РЕЗЮМЕ

ЗАЩИТА СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ЗЕМЕЛЬ ОТ ВОДНОЙ ЭРОЗИИ В ЮГО-ВОСТОЧНОЙ ЧАСТИ МАЛОГО КАВКАЗА ОТ СУХОГО ЗАПАДНОГО И ПОЛУПУСТЫННОГО ЛАНДШАФТА

Кулиев И.А., Рустамова А.М.

В статье рассматривается защита земель в освобожденном Джебраильском административном районе от водной эрозии. Отмечено, что с теоретической точки зрения земли региона чувствительны к водной эрозии. Основной причиной этого является тип серо-бурых (каштановых) почв, который более распространен в районе, с чем связаны физические свойства этих почв, степень наклона, экспозиция, протяженность склонов и т.д. Антропогенные, особенно военно-техногенные воздействия приводят к более интенсивному развитию водной эрозии в этом районе.

***Ключевые слова:** военно-техногенный, эрозиоz, механический состав, физическая глина, осушение, антропоген, деградациz, агротехнический, агромелиоративный.*

BÖYÜK QAYIDIŞ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ ÖZÜNƏMƏŞĞULLUQ SİYASƏTİ

Məmiyev C.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
cmmiyev@mail.ru

***Açar sözlər:** Böyük Qayıdış, Dövlət Məşğulluq Agentliyi, əhali, məşğulluq, özünüməşğulluq, məşğulluq modelləri, işsiz şəxs, fəaliyyət proqramı.*

44 günlük Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandanın rəhbərliyi altında mənfur düşmən üzərində parlaq qələbə qazandı. 30 ilə yaxın düşmən tapdağında inləyən əbədi, əzəli və doğma torpaqlarımız işğaldan azad olundu. İkinci Qarabağ müharibəsindəki qələbəmiz parlaq, mükəmməl hərbi-siyasi Zəfər olmaqla bərabər həm də ölkəmizin gələcək inkişafı baxımından mühüm sosial – iqtisadi əhəmiyyətə malik oldu. Artıq qarşıda işğaldan azad olunmuş torpaqlarımızın bərpası ilə bağlı vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm vəzifələr durur.

Qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası – Böyük Qayıdış eyni zamanda Azərbaycan vətəndaşlarının məşğulluğunun təmin olunmasına mühüm töhvələr verəcək. Artıq bir sıra istiqamətlər üzrə bərpa işlərinə start verilmişdir. Həmin istiqamətlər üzrə xeyli vətəndaşımızın məşğulluq problemi həllini tapmışdır. İşğaldan azad edilmiş ərazilərdə bərpa – quruculuq işlərinin aparılması istiqamətində işlər uğurla gedir. Böyük Qayıdış illərində bu proses daha da geniş vüsət alacaqdır. Xüsusən də Qarabağda aparılacaq quruculuq

işlərinə gənclər daha aktiv cəlb olunacaqlar. Bu da gənclərin məşgulluğu istiqamətində yeni perspektivlər ortaya qoyacaq. Prezident İlham Əliyevin çıxışlarında açıqladığı bəyanatlardan bəllidir ki, Böyük Qayıdış keyfiyyətcə yeni bir həyata qayıdış olacaq. Ərazilərimiz düşmən işğalı altında olduğu müddətdə Azərbaycan dövləti qaçqın və köçkünlərin özünüməşğulluğu üzrə bir sıra layihələr həyata keçirmişdi. Bu layihələr Böyük Qayıdış proqramları çərçivəsində işğaldan azad olunmuş torpaqlarımızda da davam etdiriləcək. Ümumiyyətlə məşğulluq və özünüməşğulluğ probleminə tədqiqatçıların yanaşmalarını nəzərdən keçirmək maraqlı olar.

Müasir sivil dövlətlər əhalinin sosial rifah halının yüksəldilməsini, aztəminatlı təbəqələrin sosial müdafiəsinin gücləndirilməsini, işsizliyin minimuma endirilməsini, məşğulluğun təmin edilməsini prioritet məsələ kimi qarşıya qoyur. Heç şübhəsiz ki, məşğuluq probleminin həllində özünüməşğulluq proqramları çox mühüm rol oynayır. Özünüməşğulluq problemi müxtəlif dövrlərdə fərqli tədqiqatçılar tərəfindən ətraflı araşdırılmışdır. Bunun nəticə olaraq bu problemə fərqli yanaşmalar formalaşmışdır. Onlardan bəzilərinin üzərində bir qədər ətraflı dayanmaq məqsədəuyğundur.

Parker (2004) "Sahibkarlıq və özünüməşğulluq iqtisadiyyatı" kitabında əmək bazarını təhlil edir və özünüməşğulluq barədə geniş məlumatlara toxunur. Parkerə qeyd edir ki, özünüməşğul – fərdlərin bütün biznes risklərinin məsuliyyətini üzərinə götürməklə öz sahəsi (peşəsi) üzrə çalışan şəxslərdir. O, özünüməşğul sayılan fərdləri üç qrupa ayırır. Birinci qrupa – öz biznesinə başçılıq edən sahibkarlar və ya işəgötürənlərin özləri, ikinci qrupa – öz peşəsi üzrə sərbəst və təkbaşına çalışanları, üçüncü qrupa isə eyni hüquqa malik olan ortaqlıqları aid edir. Özünüməşğulluğun ən əsas amili sahibkarın birbaşa tabe olduğu şirkət və ya işəgötürənin və daimi maaş şəklində mütəmadi gəlirin olmamasıdır. Tədqiqat zamanı aydın olur ki, özünüməşğulluq anlayışı həm də kənd təsərrüfatı sahəsinə malik olan kəndliləri də əhatə edir.

Vandner (1992) qeyd edir ki, işsizlərin özünüməşğulluğa cəlb olunması ilk dəfə Fransada 1979-cu ildə baş vermişdir. 1980-ci illərin ortalarında Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan 17 ölkədə tətbiq edilirdi. Proqramın əsas mahiyyəti işsizlərə yardım etməklə, onlara özləri üçün iş yerləri yaratmalarına dəstək olmaq idi. Avstraliya, Belçika, Kanada, Böyük Britaniya, Hollandiya, Danimarka, Finlandiya, Fransa, Almaniya, İtaliya, Lüksemburq, Yunanıstan, İrlandiya, Norveç, İsveç, İspaniya və Portuqaliya əsasən iki formatda (maliyyə dəstəyi və təlim, konsultasiya və s. dəstək xidmətləri) həyata keçirilirdi. İşsizlərin özünüməşğulluğa cəlb olunması üzrə iki ilkin model mövcuddur: Fransız modeli – özünüməşğulluğa cəlb olunan işsizə mikrosahibkarlıq subyektinin qurulması üçün birdəfəlik ödənişdən ibarət idi. Bu model Lüksemburq, Norveç, Portuqaliya, İspaniya, və İsveçdə tətbiq edilir. Britaniya modeli – işsiz şəxsə mikrosahibkarlıq subyektinin qurulması üçün ödənişləri müxtəlif hissələrə ayıraraq ödəyir. Bu daha çox şəxsin gəlirinin aşağı olduğu dövrdə, dəstək şəklində verilir. Böyük Britaniyadan başqa Avstraliya, Belçika, Kanada, Danimarka, Finlandiya, İrlandiya, İtaliy, Almaniya və Niderland da məhs bu modeldən istifadə edir.

Müxtəlif ölkələrdə özünüməşğulluq fəaliyyətinə yanaşma müxtəlifdir. Belə ki, bir çox hallarda, özünüməşğulluq anlayışının hüquqi və vergi ödəyicisi olaraq tərifi fərqlənir. Məsələn, hüquqi baxımdan görüləcək işlər üçün xidməti müqavilə bağlandığı halda, işi görən tərəf "işçi" hesab olunur. Buna baxmayaraq, xidməti sifariş edən tərəf işi görən üzrə vergi və s. ödəmələri həyata keçirmir. ABŞ və Böyük Britaniya qanunvericiliyinə əsasən, hüquqi şəxs sahibləri özünüməşğul deyil, "işçi" olaraq qeydiyyata alınır. Məşğulluq statusu və vergi ödəyicisi olaraq status adətən fərləndirilir. Statistik göstəricilərdə özünüməşğul olanların sayı ya sorğu zamanı respondentlərin öz fəaliyyətini – məşğulluq statusunu sərbəst seçməsi (sorğuda bəndləri seçməklə) və ya vergi ödəyicisi olaraq kateqoriyanın – vergi ödəyicisinin mükəlləfiyyətinin seçməsinə uyğun hesablanır. Birinci halda daha çox hüquqi, ikinci halda isə vergi üzrə təsnifatlar nəzərə alınır. Özünüməşğul olanlar işçilərin sahib olduğu məzuniyyət ödənişi, xəstəliyə görə ödəniş, təlimlərə cəlb olunma, əməyin və məşğulluğun mühafizəsi və s. bu kimi üstünlüklərə malik olmurlar. Bəzi hallarda, şirkətlər işlərin "özünüməşğul" kimi qeydiyyatda olanlar tərəfindən həyata keçirilməsinə daha çox üstünlük verirlər. Belə olduqda, onlar xərclərini azaltmış olurlar. Daimi işçilərin saxlanılması daha çox xərc tələb etsə də, stabillik, loyaqllıq və intizam baxımından daha uyğunudur.

Özünüməşğul əhalinin ümumi məşğul əhalinin nisbəti inkişaf etməkdə olan və ya iqtisadi baxımdan zəif inkişaf etmiş ölkələrdə daha yüksəkdir. Bir sıra iqtisadi səbəblər statistik göstəriciləri izah etmək üçün istifadə olunur. Birinci əsas səbəb, iqtisadiyyatı zəif olan ölkələrdə iş yerlərinin az olması və çatışmazlığı ilə izah olunur ki, bu da öz növbəsində uzun müddət iş tapa bilməyən və işsiz qalan şəxslərin sayını artırır. Belə olan halda, şəxs özü və ya dövlət beynəlxalq təşkilatlar tərəfindən maliyyələşən layihələrin dəstəyi ilə özünüməşğulluq proqramlarına qoşulur və şəxsin məşğulluğu təmin edilir. İkinci əsas səbəb isə kənd təsərrüfatı sahəsi olan şəxslər bir mənalı olaraq özünüməşğul olaraq qeydiyyata alınmasıdır. Kənd təsərrüfatı üçün yararlı olan torpaq sahəsinə malik kəndli inkişaf etməmiş və bir çox hallarda inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatından başqa məşğul olacağı sahə bilmir. Bu cür torpaqlar ailə-kəndli təsərrüfatı hesab olunduğu üçün bütün ailə üzvləri özünüməşğul olaraq qeydiyyata alınır. Üçüncü səbəb isə iqtisadiyyatı zəif olan ölkələrdə sahibkarlıq fəaliyyətinin qurulmasında (xüsusilə hüquqi şəxs yaradılması) bir sıra süni maneələrə rast gəlinir ki, fiziki şəxs olaraq qeydiyyatdan keçmək və fəaliyyət göstərmək daha məqsədəuyğun olur. Bəzi səbəblər, özünüməşğul olanların sayının süni artırılmasına gətirib çıxarır. Parker

(2004) qeyd edir ki, özünüməşğul olaraq qeydiyyatdan keçmiş vətəndaşların vergi ödəmələrinə çox ciddi yanaşılmalıdır. Bir çox ölkələrdə (Rusiya), özünüməşğul olaraq qeydiyyatda olan vətəndaşlar göstərdikləri xidmətlər üzrə gəlirlərini sərbəst formada qeyd edirlər. Belə olduqda, vergidən yayınma halları da istisna deyil. Hüquqi şəxslərə və ya digər vergi ödəyicilərinə xidmət göstərildikdə isə gəlir şişirdilmiş göstərilə bilər.

Bundan başqa, öxünüməşğulluq immiqrantlar arasında da yüksəkdir. Səbəb – ayrıseçkilik, daimi iş tapmaqda çətinlik və s. kimi izah olunur. İqtisadiyyatı zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı üzrə daha geniş yayılır. Digər səbəb olaraq, inkişaf etməkdə olan ölkələrdə, iqtisadi fəaliyyətə və vergi ödəmələrinə nəzarət mexanizmi zəif inkişaf etmişdir. Belə olan halda, özünüməşğul olaraq fəaliyət göstərən işçilər və ya işlərin "özünüməşğul" olanlara ötürülməsi daha geniş yayılmışdır. Buna görə də, inkişaf etməkdə olan ölkələrdə özünüməşğul olaraq qeydiyyatda olanların ümumi məşğul əhalinin sayına nisbəti inkişaf etmiş ölkələrdən daha çoxdur. Bu sahə üzrə tədqiqatlar əsasən empirik tədqiqatlardır və sorğuda iştirak edənlər öz məşğulluqlarını sərbəst seçmək hüququna malikdirlər.

İşsiz şəxslərin işlə təmin olunması məqsədilə Azərbaycanda özünüməşğulluq proqramının həyata keçirilməsi üzrə təşəbbüslər 1998-ci ilə təsadüf edir. "Azərbaycan Respublikasında 2003-2005-ci illər üçün yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" 3.3.8 – ci bəndində kənd yerlərində özünüməşğulluq imkanlarının yaradılması" barədə yazır. 2016-cı il 7 aprel tarixində Azərbaycan Respublikasının Prezienti İlham Əliyev "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbilər haqqında" sərəncam vermişdir. Sərəncama əsasən, 2016-cı ildə Azərbaycan Respublikası Dövlət büdcəsindən 6 milyon manat əhalinin özünüməşğulluğuna kömək məqsədilə ayrılmışdır. "Özünüməşğulluq" hüquqi olaraq, Azərbaycan Respublikasının Məşğulluq haqqında qanununda öz əksini tapır. Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunu dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Əhalinin məşğulluğunun təmin olunmasında dövlət tərəfindən keçirilməsi nəzərdə tutulan tədbirlər həmin qanunda əks olunmuşdur. Belə ki, Məşğulluq haqqında Azərbaycan Respublikasının qanunun 1.1.15-ci maddəsində özünüməşğulluq anlayışının hüquqi tərifi, 24.11-ci maddəsində isə fəaliyyətin ümumi təşkili məsələlərinə toxunulmuşdur. Həmin qanuna əsasən, "özünüməşğulluq – şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi"dir və işsiz şəxslərin özünüməşğulluğunun təşkili qaydasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

"İşsiz şəxslərin özünüməşğulluğunun təşkili haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı bu fəaliyyətin həyata keçirilməsi üçün vacib məsələlərə toxunur. Həmin qanuna əsasən, işsizlikdən sığorta alan şəxslər özünüməşğulluq proqramına cəlb edilmirlər. Cəlb edilənlər arasında prioritet aşağıda qeyd olunanlara verilir:

- ünvanlı dövlət sosial yardımı alan;
- əlilliyi olan;
- şəhid ailəsinin üzvlərinə;
- bir ildən artıq işsiz kimi qeydiyyatda olan;
- pensiya yaşına iki ildən az qalan şəxslərə;
- cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslər.

Dövlət Məşğulluq Agentliyi Məşğulluq Tədbirləri Departamenti Özünüməşğulluq şöbəsindən alınan məlumata əsasən, bu günə qədər 4360,000 nəfər özünüməşğulluq layihəsinə cəlb olunmuş və fəaliyyətlərini həyata keçirmələri üçün imtiyazlarına əmlak və ya kənd təsərrüfatı üçün nəzərdə tutulan vasitələr, o cümlədən, iribuynuzlu heyvan və s. verilmişdir. 2021-ci ildə özünüməşğulluq proqramından 13,061 nəfər 5 yararlanmışdır ki, onlardan 1690 nəfər – şəhid ailə üzvləri, 1245 nəfər - əlilliyi olan şəxs, 1522 nəfər – qazi, 49 nəfər – ünvanlı sosial yardım alanlar və 2720 nəfər – müharibə iştirakçılarıdır. Ümumilikdə, 2021-ci ildə 7000 nəfərə kənd təsərrüfatı sahəsində, 2721 nəfərə isə digər sənaye və istehsalat sahələrində, o cümlədən xidmət sahələrində çalışmaq üçün dəstək verilmişdir. Bundan başqa, DMA-nın sosial şəbəkə hesablarında, eləcə də, KİV-də reklamlar vasitəsilə də vətəndaşlar məlumatlandırılırlar. Şəxsin özünüməşğulluq proqramına seçilməsi təsdiq olunduqdan sonra, fəaliyyətin həyata keçiriləcəyi yerə baxış keçirilir (ilkin monitorinq).

DMA-nın filialları təlimləri təşkil etməkdə əsas məsul qurumdur. Təlimlər 20 nəfərədək qruplarda keçirilir. Biznes plan hazırlandıqdan sonra DMA Mərkəzi Monitorinq və Qiymətləndirmə filialından 2 nəfər, yerli DMA orqanı və ya filialından isə 1 nəfər olmaqla qiymətləndirmə qrupu yaradılır. Biznes plan qəbul edildikdən sonra, qanunda nəzərdə tutulan aşağıdakı addımlar atılır: "Özünüməşğulluğa cəlb olunmuş şəxslə Agentliyin müvafiq yerli qurumları və ya 8 mərkəz arasında 1 (bir) il müddətinə müqavilə imzalanır. İndiyə qədər 360,000 nəfərlə müqavilə imzalansa da, yalnız 12,909 monitorinq həyata keçirilmişdir. Özünüməşğulluğa cəlb olunan işsizlər işə başlamaq üçün DMA-dan dəstək aldıqdan sonra növbəti mərhələdə KOBİA-a 10, Sahibkarlara Dəstək Milli Fonduna və digər təşkilatlara müraciət edə bilirlər. Yeni yaradılan sahibkarlıq subyektlərinin (fərdi sahibkarların) siyahısı vergilər orqanına göndərilir.

Böyük Qayıdış və özünüməşğulluq perspektivləri ilə bağlı danışarkən mütləq şəkildə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində bu sahədə geniş fəaliyyət imkanları və perspektivləri vardır. İşğaldan azad edilmiş ərazilərimizdə turizm, heyvandarlıq, əkinçilik, arıçılıq, bağçılıq, bostançılıq və xırda

sahibkarlıq baxımından xeyli geniş imkanlar, perspektivlər vardır. Bu özünüməşğulluq proqramları erməni işğalçıları tərəfindən dağıdılmış və talan edilmiş yaşayış məntəqələrimizin barpasına da çox mühüm töhfələr vermiş olacaq.

SUMMARY

GREAT RETURN AND SELF-EMPLOYMENT POLICY OF THE REPUBLIC OF AZERBAIJAN

Mamiyev J.M.

The Great Return will make an important contribution to the employment of Azerbaijani citizens. The article is provided with the ideas of several researchers on employment and self-employment's history and progress periods. The approaches on self – employment's activity are different in many different countries. Also, there are juridicial and factual sides of self – employment's research. The initiatives on implementation of self-employment's program in Azerbaijan Republic began in 1998 year.

The President of Azerbaijan Republic Ilham Aliyev signed the order about "additional events on population's self-employment provision". It should be noted that self-emploment programs will contribute to the restoration of areas and houses which have been destroyed by Armenians

Keywords: *Great Return,* State Employment Agency, population, employment, self-employment, employment models, unemployed person, activity program

РЕЗЮМЕ

ВЕЛИКОЕ ВОЗВРАЩЕНИЕ» И ПОЛИТИКА САМОЗАНЯТОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Мамиев Д.М.

«Великое возвращение» внесет важный вклад в трудоустройство граждан Азербайджана. В представленной статье широко отражены взгляды многих исследователей на историю и этапы развития проблемы занятости и самозанятости. Подходы к самозанятости варьируются от страны к стране. Также в статье исследуются правовые и фактические аспекты самозанятости.

Инициативы по реализации программы самозанятости в Азербайджанской Республике относятся к 1998 году. Президент Азербайджанской Республики Ильхам Алиев издал распоряжение «О дополнительных мерах по обеспечению самозанятости». Программы самозанятости также внесут весомый вклад в восстановление наших населенных пунктов, разрушенных и разграбленных армянскими оккупантами.

Ключевые слова: «Великое возвращение», *Государственное агентство занятости, население, занятость, самозанятость, модели занятости, безработный, программа деятельности.*

ŞƏRQİ ZƏNGƏZURUN ƏRAZİSİNİN LANDŞAFT-EKOLOJİ XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ (1:100000 MİQYASLI TOPOXƏRİTƏ ƏSASINDA)

Mərdanov İ.İ.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

geography.sumqayit@mail.ru

Açar sözlər: *meşə, otlaq, relyef, material, təsərrüfat, turizm, qurşaq*

Giriş. Tarixi Şərqi Zəngəzurun ərazisi Kiçik Qafqazın Azərbaycan daxilində yerləşən və mürəkkəb ekogeomorfoloji şəraiti ilə səciyyələnən region hesab edilir. Bu ərazinin quru çöl zonasından başlayaraq subnival sahələrədək müxtəlif landşaft qurşaqlarında, o cümlədən, Qarabağ vulkanik yaylasında yerləşməsi ilə əlaqədardır. Burada dağlıq və dağətəyi düzənlik ərazilərin növbələşməsi müşahidə edilir. Ərazinin dağlıq hissəsində iqlim-meteoroloji şəraitin sərt olmasına baxmayaraq, ətraf mühitin özünəməxsusluğu bu rayonu müxtəlif xarakterli turizm fəaliyyətinin inkişafı baxımından cəlbedici edir. Burada yaxın keçmişdə ərazinin işğal altında qalmasına, 44 günlük Vətən müharibəsi zamanı döyüş əməliyyatlarının baş verməsinə, hal-

hazırda humanitar koridorun keçdiyi bölgə olmasına, mina və partlamamış sürsatlar təhlükəsinin mövcudluğuna baxmayaraq, uğurlu tikinti-bərpa tədbirləri həyata keçirilir. Rayonda nəqliyyat şəbəkəsinin təkmilləşdirilməsi, Laçın və Zəngilan inzibati rayonlarında beynəlxalq aeroportların tikintisi regionun dünyada qəbul edilən turizm istiqamətlərindən birinə çevrilməsinə imkan verə bilər.

Bu məqsədə nail olmaq üçün rayonun landşaft-ekoloji şəraitinin ətraflı müəyyənləşdirilməsinə böyük ehtiyac vardır. Bu tədqiqatlar kompleks xarakter daşımalı və təbii mühitin bütün komponentlərini əhatə etməlidirlər. Belə tədqiqatların mühüm istiqaməti ekogeomorfoloji xarakterli tədqiqatlardır. Relyef şəraitinin qiymətləndirilməsi gələcəkdə tikinti işlərinin planlaşdırılması, torpaq və bitki örtüyünün meliorasiyası sahəsində həyata keçiriləcək tədbirlər zamanı da mühüm əhəmiyyətə malikdir. Məsələ ondadır ki, məhz geoloji-geomorfoloji şəraitin qiymətləndirilməsi vasitəsilə meşə-meliorasiya tədbirlərinin həyata keçirilməsi üçün prioritet bölgələr müəyyən edilə bilər. Eyni zamanda, ekstremal turizm marşrutları, gəzinti zonaları, istirahət mərkəzlərinin tikilməsi üçün ən əlverişli ərazilər dəqiqləşdirilə bilər. Düzənlik ərazidə çöl tədqiqatlarının yerinə yetirilməsi daha asan olsa da, hal-hazırda yol infrastrukturunun bərbad vəziyyətdə olması müəyyən çətinliklər yaradır.

Metodika. Bu işdə tədqiqat ərazisinin SSRİ dövründə 1975-ci ildə tərtib olunmuş və hərbi-siyasi əhəmiyyət kəsb edən 1:100000 topoqrafik xəritəsinin landşaft və relyef baxımından təhlili nəticəsində əldə olunmuş məlumatlardan, o cümlədən, Kiçik Qafqaz ərazisi haqqında mövcud olan ədəbiyyat materiallarından istifadə edilmişdir.

Bu xəritədə əks olunmuş tarixi Şərqi Zəngəzur torpaqlarının mühüm bir hissəsi və Ermənistanla həmsərhəd olan Laçın inzibatı rayonunun ərazisi mürəkkəb ekogeomorfoloji şəraiti ilə səciyyələnir. Relyefin mürəkkəbliyi özünü landşaft şəraitində, hündürlük qurşaqlığının formalaşmasında da təzahür edir.

Təhlil edilən topoqrafik xəritədə rayon ərazisinin mütləq hündürlüyünün qərbə getdikcə artması müşahidə edilir. Rayonun qərb hissəsi daxilində mütləq hündürlüklər 2000-3000 metr arasında, şərq hissəsində isə 1200-1800 metr hündürlüklər arasında tərəddüd edir. Bu vəziyyət Laçın ərazisində həyata keçirilən təsərrüfat fəaliyyətinin bərpası, infrastruktur layihələrinin planlaşdırılması və həyata keçirilməsi dövründə mütləq nəzərə alınmalıdır. Həyata keçirilən işlər zamanı topoqrafik xəritələrin və rəqəmli kosmik şəkillərin kompüter emalı mühüm əhəmiyyətə malikdir. Bu yolla səthlərin meyllik göstəricilərinin təyini əsasında ərazilərin relyefinin mənimsənilmə imkanları müəyyən edə bilər [3]. Bu dağlıq ərazilər, o cümlədən, Kiçik Qafqaz üçün böyük aktuallıq kəsb edir. Qeyd etmək lazımdır ki, Arazboyu düzənliklərdən fərqli olaraq, burada yamacların səthlərinin böyük meylliklər, üfüqi parçalanmanın böyük göstəriciləri burada torpaq-meliorasiya və tikinti işlərinin həyata keçirilməsi üçün böyük çətinliklər yaradır.

Kartoqrafik materialların, o cümlədən, Azərbaycanın landşaft xəritəsinin təhlili göstərir ki, Ermənistanla həmsərhəd olan Laçın inzibati rayonunun ərazisi landşaft baxımından meşə altından çıxmış, kollu dağ-çöl, dağ-meşə, dağ-çəmən qurşaqları daxilindədir. Rayon ərazisi subnival zonaya da daxil olur. Laçında işğala qədər uzun illər intensiv antropogen fəaliyyət – otlaq heyvandarlığı həyata keçirilmişdir. Nəticədə, xüsusilə, rayonun şərq hissəsində, o cümlədən, Laçın şəhəri ətrafında yarğan eroziyası şiddətli dərəcədə inkişafı müəyyən edilmişdir. Məhz belə yarğanlı sahələr torpaq-meliorasiya işlərinin təşkili baxımından böyük diqqət və maliyyə vəsaitinin sərfini tələb edir. Bu sahələrdə meşə-meliorasiya tədbirləri böyük səmərə verə bilər və meşə sahələrinin artmasına səbəb olar.

Laçın inzibati rayonunun ərazisi Ermənistan tərəfindən işğal olunanadək əsasən, kənd təsərrüfatı və faydalı qazıntı hasilatı məqsədilə istifadə edilmiş, mühüm təsərrüfat sahəsi olan otlaq heyvandarlığı inkişaf etdirilmişdir. Bu amilin əhalinin yenidən rayon ərazisinə köçürülməsi zamanı nəzərə alınması böyük əhəmiyyət kəsb edir. Köçürülmənin həyata keçirilməsindən əvvəl intensiv texnologiyalar əsasında müasir heyvandarlıq komplekslərinin yaradılması vacibdir. Eyni zamanda, otlaq dövriyyələrinin tətbiqi etibarlı yem bazasının yaradılması ilə birlikdə, torpaq eroziyası kimi təbii-dağıdıcı prosesin inkişafının qarşısını ala bilər. Bu təsərrüfat fəaliyyətində durğunluğun, əraziyə köçürülən insanlar arasında təəssüf hissinin yaranmasının qarşısını ala bilər.

Şərqi Zəngəzurun filiz hasilatı ərazilərinin rekultivasiyası mütləq nəzərə alınmalıdır. Əks halda, filiz mədənləri Laçın ərazisində ətraf mühitin yüksək dərəcədə texnogen çirklənməsinə, digər fəaliyyət sahələrinin inkişafı üçün problemlərin yaranmasına səbəb ola bilər.

Hal-hazırda təsərrüfat strukturunun yenidən bərpası, şəhər və kəndlərin yenidən tikilməsi dövründə relyef və landşaft şəraitindən ən səmərəli istifadə yollarının müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Şərqi Zəngəzurun düzənlik hissəsi quru çöl zonasında yerləşdiyindən ərazi müasir suvarma sistemləri əsasında əkinçiliyin inkişafı imkanları mövcuddur. Bunun üçün ərazidə yaradılacaq günəş enerjisindən istifadə əsasında işləyən elektrik stansiyasının böyük əhəmiyyəti olacaqdır.

1:100000 miqyaslı topoqrafik xəritənin təhlili göstərir ki, Laçın inzibati rayonunun ərazisi daxilində dağ-meşə sahələri əsasən, çay dərələrində, xüsusən, ərazidən axan Hoçazsu və Şəlvə çaylarının yuxarı axınlarında geniş yayılmışdır. Hal-hazırda inşa edilən Qubadlı-Laçın avtomobil yolu rayonun şərqində və şimalında yayılmış bu meşələrin yaxınlığından keçir. Bu meşələr əlverişli iqtisadi şəraitdə əhəmiyyətli beynəlxalq və yerli turizm arealları kimi fəaliyyət göstərə bilər. Lakin işğal dövründə Ermənistanın ölkəmizin ərazisində ekoloji terror həyata keçirdiyini

nəzərə alsaq, müasir tədqiqat vasitələrindən istifadə etməklə bu meşə massivlərinin sahələrinin, yayılma xüsusiyyətlərinin, ağaclarının növ və yaş tərkibinin yenidən müəyyənləşdirilməsinə böyük ehtiyac mövcuddur.

Laçin inzibati rayonu kimi mürəkkəb təbii şəraitə malik ərazinin landşaftlarının vəziyyətinin obyektiv qiymətləndirilməsi üçün aerokosmik fotoçəkiliş materiallarının istifadəsi böyük əhəmiyyət kəsb edir. Xüsusilə təkrar çəkiliş materiallarından istifadə böyük rol oynaya bilər. Bu istiqamətdə həyata keçirilən tədqiqatlar digər dağlıq ərazilərdə olduğu kimi [1], ekocoğrafi şəraitdə baş vermiş dəyişiklikləri obyektiv qiymətləndirməyə, Ermənistan dövlətinə qarşı məhkəmə iddialarının daha da əsaslandırılmasına imkan verə bilər.

Geoekoloji, o cümlədən, landşaft-ekoloji şəraitin qiymətləndirilməsi, təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsi üçün daha təhlükəli ekoloji vəziyyətin yarandığı ərazilər müəyyənləşdirilməlidir. Bu zaman prioritet sahələrin seçilməsi məqsədilə Coğrafi İnformasiya Sistemləri texnologiyalarının tətbiqi də böyük əhəmiyyətə malikdir [2].

Nəticə. Laçin inzibati rayonunun ərazisi daxilində Minkənd kəndindən şimalda və qərbdə, Ermənistan sərhəddinə doğru yerləşən ərazilərdə mütləq hündürlüklər 2000-3400 metr arasında tərəddüd edir və məhz bu ərazidə səthlərin meylliklərinin nisbətən azlığı ənənəvi təsərrüfat sahələri ilə yanaşı, turizm təsərrüfatının da inkişaf etdirilməsi üçün əlverişli imkanların mövcud olduğunu göstərir. Məhz bu ərazidə subalp çəmənləri geniş areala malikdir və Minkənd kəndindən qərbdə yerləşən çoxsaylı tektonik, vulkanik göllərlə yanaşı, turistlərin diqqətini cəlb edə biləcək məkan kimi nəzərdən keçirilə bilər. Bu ərazidən cənubda da alp çəmənləri landşft zonasında yamacların meylliklərinin kiçik olması, daha böyük – 2700-3000 metr mütləq yüksəkliklərin mövcudluğu turizmin inkişafı baxımından yeni imkanlar açır. Lakin turizm komplekslərinin yaradılmasından əvvəl Böyük Qafqaz təbii vilayətinin bir sıra digər ərazilərində olduğu kimi, mütləq yay otlaqları kimi istifadə olunan dağ çəmənlərinin bitki örtüyünün növ müxtəlifliyi müəyyən olunmalı [9], geobotaniklər tərəfindən nadir bitkilərin yayılma arealları müəyyənləşdirilməli və böyük miqyasda xəritələşdirilməlidir. Nəzərə almaq lazımdır ki, məhz bu sahədə məhşur Böyük İşıqlı vulkanı (3550,4 m), Kiçik İşıqlı (3450,6 m) zirvəsi, Garagöl gölü yerləşir. Onlar təbiət abidələri kimi nəzərdən keçirilir. Həmin təbiət abidələri, şübhəsiz, həm yerli, həm də xarici ölkələrdən gələcək turistlərin nəzər-diqqətini cəlb edə bilər. Lakin hər hansı turizm fəaliyyətinin təşkilindən əvvəl, ölkənin digər bölgələrində həyata keçirilmiş tədqiqatlar kimi [5, 6, 8, 10], mütləq həmin ərazinin ekogeomorfoloji vəziyyəti öyrənilməlidir. Eyni zamanda müvafiq mühafizə tədbirləri həyata keçirilməlidir. Çətin keçilən ərazilərin, o cümlədən, Böyük İşıqlı vulkanı ətrafindakı subnival landşaft zonası sahələri daxilində landşaft xüsusiyyətlərinin tədqiqi elmi maraqla yanaşı, ekstremal turizm həvəskarlarının təşviqi baxımından əhəmiyyət kəsb edə bilər. Bu sahədə Böyük Qafqaz təbii vilayətinin ərazisində dağ-çəmən və subnival-nival landşaft qurşaqlarında həyata keçirilmiş tədqiqatların təcrübəsindən də istifadə etmək mümkündür [4, 7].

Vaxtilə təsis olunmuş Qaragöl Dövlət Qoruğunun ərazisinin hüdudlarının yenidən nəzərdən keçirilməsi vacib məqamlardan biridir.

Şərqi Zəngəzurun, o cümlədən, Laçın rayonu ərazisindəki dağ-meşə massivlərinin sahəsinin dəqiqləşdirilməsi zərurəti mövcuddur. Bu baxımdan, yüksək ayırd etmə qabiliyyətinə malik kosmik fotoşəkillərin vizual və alətli deşifrələnməsi materialları mühüm əhəmiyyət kəsb edə bilər. Bu materialların işğaldan əvvəlki dövrdə həyata keçirilmiş kosmik və aero çəkiliş təsvirləri ilə müqayisəli təhlili işğalçıların vandalizminin miqyasını müəyyən etməyə imkan yarada bilər. Ərazinin təsərrüfat baxımından mənimsənilməsi və yaxın gələcəkdə müxtəlif sənaye, kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi şəraitində Şərqi Zəngəzurun Laçın, Zəngilan, Qubadlı və Kəlbəcər inzibati rayonlarının meşələrinin milli park kimi ayrılması mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, Kiçik Qafqaz təbii vilayəti meşələrinin bioloji müxtəlifliyinin təmini vacib məsələ olsa da, ərazinin turistləri cəlb edən məkan kimi də nəzərdən keçirilməsi də vacibdir. Qeyd etmək lazımdır ki, Şərqi Zəngəzurdakı bir çox mineral bulaqlar müalicəvi əhəmiyyətə malikdir. Bu bulaqların bir çoxu Kəlbəcər və Laçın inzibati rayonlarının ərazisində böyük sahə tutan dağ-meşə qurşağı daxilində yerləşir. Onların balneoloji əhəmiyyətinin müəyyənləşdirilməsi, sonrakı istifadəsi meşə mühafizəsi tədbirləri ilə paralel aparılmalıdır.

Ümumiyyətlə, Laçın rayonu ərazisində həyata keçiriləcək bütün elmi tədqiqatlar kompleks xarakter daşımalıdır. Bu zaman ətraf mühitə antropogen təsirin bütün tərəflərini, o cümlədən, yaşayış məntəqələrinin bərpasını, yol infrastrukturunun qurulmasını nəzərdən qaçırmaq olmaz. Eyni zamanda, beynəlxalq aeroportun tikintisi, energetika sistemlərinin, sənaye komplekslərinin yaradılması nəticəsində artacaq antropogen təsirlərin xüsusiyyətləri nəzərə almalıdır.

ƏDƏBİYYAT

1. Qəribov Y., Mərdanov İ., Ağayev Z., İsmayilova N., Məmmədova G., Eldarov N. Yan silsilənin yüksək dağlığında eroziya proseslərinin zaman-məkan dinamikasının tədqiqi. Lənkəran Dövlət Universiteti, Elmi xəbərlər jurnalı, 2019, № 2, İSSN 2617-8052.–S. 70-78.

2. Исмаилов А.И. Применение ГИС-технологий в почвенно-экологических исследованиях в Азербайджанской Республике // НАНА, Отделение Аграрных Наук, Общество Почвоведов Азербайджана.

Международная научная конференция “Почвы Азербайджана: Генезис, география, мелиорация, рациональное использование и экология”, Том XII, Часть I. Баку, 2012, с. 268-272.

3. Кулиев Р.Я. Углы наклона поверхности рельефа и оценка экогеоморфологической напряженности горных регионов Азербайджанской Республики // Baki Universitetinin Xəbərləri, №3, Təbiət elmləri seriyası, 2010, с.154-159.

4. Гулиева С.Ю., Ализаде Э.К. Эколандшафтная оценка горных геосистем по степени активности морфодинамических процессов (на примере Азербайджана) // Труды Географического Общества Азербайджана, XII том, посвящается 100-летию со дня рождения академика Г.А. Алиева, Баку,2008, с.92-97.

5. Марданов И.И., Джаруллаев А.Ш. Геоэкологический анализ состояния горных ландшафтов азербайджанской части Большого Кавказа и Джейранчель-Аджиноурского предгорья // Безопасность жизнедеятельности. №1, 2017, с. 57-60.

6. Марданов И.И., Юсифова С.Н. Геосистемный анализ экзогенеза высокогорных ландшафтов азербайджанской части Большого Кавказа // Устойчивое развитие горных территорий, Том 9, №1(31), 2017, с. 32-39.

7. Марданов И.И. Формирование ландшафтного разнообразия в субнивально-нивальном поясе азербайджанской части Большого Кавказа // Известия Тульского государственного Университета, науки о земле, Выпуск 4, Тула, Издательство ТулГУ, 2021, ISSN 2218-5194. -С.121-131.

8. Alizade E., Ismayilov M., Guliyeva S., Zeynalova S., Tarikhazer S., Yunusov M., Mustafayev N., Mammadbayov E. The assessment of landscape and environmental risks and hazards caused by landslides in mountain areas // Applied ecology and environmental research 14(3), ALÖKI Kft., Budapest, Hungary, 2016, pp.573-586.

9. Korotkov K.O., Belonovskaya E.A. Syntaxonomical Survey of Alpine Meadows in the Great Caucasus // Fragmenta geobotanica (Polish Botanical Journal), Krakow, Polish Academy of Sciencies, V. 45, № 1-2, 2000, pp. 323-343.

10. Mardanov I.I., Aliyev E. A. Influence of the Geodynamic situation on ecotourism development in highlands of Azerbaijan part of Great Caucasus // Tourism Economics, The business and finance of tourism and recreation, ISSN 1354-8166 (print); 2044-0375 (online) Impact Factor: 0.515. 5-Year Impact Factor: 0.745. Vol. 22, №1.1, February, 2016, pp.94-100.

SUMMARY

THE ANALYSIS OF LANDSCAPE AND ECOLOGICAL PARTICULARITIES OF THE TERRITORY OF EAST ZANGEZUR (ON THE TOPOGRAPHIC MAP OF SCALE 1:100 000)

Mardanov I.I.

This article discusses the characteristic features of the landscapes of the part of Eastern Zangezur, which is part of various landscape zones and belts, including the mid-mountain and high-mountain belt of the Azerbaijani part of the Lesser Caucasus and the possibility of forest reclamation, placement of tourist, industrial, energy and agricultural facilities on its territory, taking into account relief situation. There is a need to assess its condition in the post-occupation period on the basis of expeditionary and desk studies.

Key words: *forest, pasture, relief, material, farm, tourism, belt*

РЕЗЮМЕ

АНАЛИЗ ЛАНДШАФТНО-ЭКОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЕЙ ТЕРРИТОРИИ ВОСТОЧНОГО ЗАНГЕЗУРА (НА ОСНОВЕ ТОПОГРАФИЧЕСКОЙ КАРТЫ МАСШТАБА 1:100 000)

Марданов И.И.

В этой статье рассмотрены характерные особенности ландшафтов части Восточного Зангезура, входящего в пределы различных ландшафтных зон и поясов, в том числе, среднегорного и высокогорного пояса азербайджанской части Малого Кавказа и возможности лесомелиорации, размещения на ее территории туристических, промышленных, энергетических и сельскохозяйственных объектов с учетом рельефной ситуации. Существует необходимость оценки ее состояния в пост оккупационный период на основе экспедиционных и камеральных исследований.

Ключевые слова*: лес, пастбище, рельеф, материал, хозяйство, туризм, пояс*

ZƏNGƏZUR DƏHLİZİNİN APARICI MÖVQEYİ VƏ SİYASİ-İQTİSADİ PERSPEKTİVLƏRİ

Mirzəyev Q.E.
Bakı Dövlət Universiteti, Bakı, AZərbaycan
qalib.mirzeyev.1983@mail.ru

Açar sözlər:. *Zəngəzur, nəqliyyat-logistika, deportasiya, dəhliz.*

Azərbaycanın tarixən Asiya ilə Avropanın qovşağında yerləşməsi, Şərqlə-Qərbi birləşdirən beynəlxalq kommunikasiyalar üçün əlverişli geostrateji mövqedə olması, zəngin karbohidrogen ehtiyyatlarına, davamlı yanacaq-energetika infrastrukturuna malik olması, əlverişli təbii coğrafi mühitdə yerləşməsi və s. amillər bölgədə iqtisadi və mədəni əlaqələrin qurulması baxımından dünya dövlətləri tərəfindən unikal bölgə kimi qiymətləndirilir. Lakin Azərbaycan zaman-zaman tanrının bəxş etdiyi bu nemətlərdən öz iradəsindən asılı olmayaraq istifadə imkanlarından məhrum edilmiş, torpaqlarımız işğal olunmuş, beynəlxalq hüququn norma və pirinsiplərinin kobud sürətdə pozulması ilə ərazilərimiz parçalanmışdır.



Şəkil 1. Azərbaycan Xalq Cümhuriyyəti yarananadək Zəngəzur İrəvan quberniyasının tərkibində

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) ölkənin ərazisi 113 895.97 min kv.km kimi (faktiki ərazisi 97.297.687 kv.km, 16.598.30 kv.km isə mübahisəli ərazi kimi gələcəkdə danışıqlar prosesində həll edilməli idi) qəbul olmuşdur [2.s.2].

Cədvəl 1.

Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi (kv. verst və kv. kilometr hesabı ilə)

Ərazinin adı	***Kv. verst***	***Kv. kilometr***	***Qeyd***
Bakı quberniyası	34276,45	39075,15	Mübahisəsiz ərazi
Gəncə quberniyası	38922,22	44371,29	
Zaqatala dairəsi	3502,24	3992,54	
İrəvan quberniyası*	8647,99	9858,69	
Cəmi	***85348,90***	***97297,67***	
İrəvan quberniyası**	6941,41	7913,17	Mübahisəli ərazi
Tiflis quberniyası***	7618,56	8685,13	
Cəmi	***14559,97***	***16598,30***	
Yekun	**99908,87**	**113895,97**	



Şəkil 2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)

Lakin suveren ərazilərimizin 1920-ci il aprelin 28-də XXI Qızıl ordu tərəfindən işğalı, sonrakı dövrdə Moskvanın təkidi ilə torpaqlarımızın hisə-hisə Ermənistana birləşdirilməsi ilə nəticələndi. 1929-30-cu illərdə Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvanın qəzasının Şahbuz nahiyyəsinin Ağxəç, Oqbin, Almalı, Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçivan kəndi və Kilit kəndinin bir hissəsi, Qazax qəzasının dağlıq hissəsi-Dilican ərazisi, Şərurun Sədərək və Kərki kəndləri ətrafında ərazilər əhalisi etnik tərkibinin əsasən türk olmasına baxmayaraq zorla qopardılaraq Ermənistana verilmişdir. Onu da qeyd etmək lazımdır ki, 1929-cu ildə Zəngəzur qəzasının Aldərə, Lehvaz, Astazur, Nüvədi və başqa yaşayış məntəqələrinin Ermənistana verilməsi nəticəsində həmin ərazilər hesabına 1930-cu ildə Mehri rayonunun yaradılması Azərbaycandan ayrı salınmış Naxçıvan Muxtar Respublikasının gələcəkdə Ermənistana birləşdirilməsinə hesablanmış siyasət idi [2.s.55]. 1969-cu ildə Laçın rayonunun Qaragöl, Qubadlı rayonunun Çayzəmi, Qazax rayonunun Kəmərli kənd əraziləri, Kəlbəcər rayonunun Zod qızıl yatağının bir hissəsi Moskva rəhbərliyinin təkidi ilə Ermənistana verildi. 1982-ci ildə Qazax rayonunun İncidərə yaylağı, Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndlərinin ərazilərinin bir hissəsi Ermənistana verildi. 1986-cı ildə Qazax rayonunun 2500 hektarlıq ərazisi yenidən Moskva rəhbərliyinin qərarı ilə Ermənistana bağışlandı [2.s.57] . Qanunsuz olaraq yerli türk əhalisinin rəyini nəzərə almadan torpaqların Ermənistana verilməsi bütün Beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı Azərbaycan SSR-nin (1920-1991) ərazi bütövlüyünə qəsd idi [2.s.57]. Beləliklə, 70 illik Sovet əsarəti dövründə, xüsusilə də (1948-1953-cü illər) 150 mindən çox azərbaycanlının öz tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası həyata keçirilmişdir [2.s.55].



Şəkil 3. Azərbaycan Xalq Cümhuriyyəti. Zəngəzur qəzası (1918-1920)

1988-1989-cu ilərdə isə bunun davamı olaraq Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qarşı başladığı işğalçılıq siyasəti 1991-ci ildə axırıncı Nüvədi kəndi sakinlərinin də qovulması ilə sonuclandı. 250 mindən artıq azərbaycanlının kütləvi sürətdə öz dədə-baba yurdlarından qovulması ilə Ermənistan bu torpaqlarda türk toplumunun varlığına son qoydu [4.s. 5]. Ermənistanın azərbaycanlılara qarşı vandallıq siyasəti təkcə əhalinin qovulması və faciəvi məhv edilməsi ilə yekunlaşmır, onların bu siyasəti işğal olunmuş ərazilərin yaşayış və nəqliyyat infrastrukturunun tamamilə dağıdılması, həmin ərazilərin yaşayış üçün yararsız hala salınması məqsədi güdürdü. 30 illik dövr ərzində Ermənistanın işğalçılıq siyasəti təkcə Qarabağın itirilməsi, Azərbaycanın maddi və mənəvi dəyərlərinə böyük ziyanlıq yetirməsi deyil, həmçinin region ölkələrini milyardlarla dollar həcmində ölçülən gəlirdən etdi.

Azərbaycanın 44 günlük Vətən Müharibəsindəki parlaq qələbəsi nəticəsində Ermənistan Respublikası kapituliyasiyaya məcbur edilərək Qarabağda hərbi əməliyyatların bitməsini qəbul etdi və atəşkəs barədə 10 noyabr bəyənatına imza atmaq məcburiyyətində qaldı. Azərbaycan, Rusiya, Ermənistanın birgə bəyanatının 9-cu bəndi həm region, həm də böyük Türk dünyası üçün böyük əhəmiyyət kəsb edir. Bu bənddə Türk dünyasının ayrılmaz parçası olan Zəngəzur dəhlizinin bərpası nəzərdə tutulub ki, bu da Naxçıvan Muxtar Respublikasının blokadasının aradan qaldırılması və region ölkələri üçün yeni nəqliyyat imkanlarının yaradılması deməkdir. Ermənistan Respublikası bütün Azərbaycan vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərinin hər iki istiqamətə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanətlə bağlı öhdəlik götürür. Əslində Naxçıvanla nəqliyyat (avtomobil) əlaqəsinin yaradılması sovetlər dönəmində də layihələndirilmiş, inşaat işlərinin Azərbaycanın öhdəliyinə düşən, Nüvədiyə qədər olan hissəsi tikilmişdir [6.s.2]. Lakin Ermənistan tərəfi öz öhdəsinə düşən hissənin tikintisini 1986-cı ilə qədər müxtəlif bəhanələrlə ləngitdi. Yalnız Ulu Öndər Heydər Əliyevin qətiyyətli mövqeyi və yaradılmış komissiyanın əraziyə baxış keçirməklə, təhlillər əsasında qəbul etdiyi qərarları Ermənistanı bəhanəsiz buraxdı. 1987-ci ilə qədər Nüvədiyə qədər yolun tikintisi yekunlaşdı. Lakin 1988-ci ildə Ermənistanın Qərbi Azərbaycanda soydaşlarımıza qarşı başladığı separatçı fəaliyyəti o zaman Naxçıvanla avtomobil əlaqəsinin yaranmasına imkan vermədi.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni kommunikasiya xətlərinin inşa edilməsi təmin edilməlidir. Danışıqların növbəti mərhələsində hər üç ölkənin baş nazirlərinin müavinləri səviyyəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılması ilə məşğul olacaq

işçi qrupu yaradılmalıdır. İmzalanmış bəyanata baxmayaraq Ermənistan regional kommunikasiyaların açılması həqiqətini tam dərk edə bilmir, ya da bəyənatın öhdəliklərini yerinə yetirməməklə Zəngəzur dəhlizinin reallaşdırılmaması üçün müxtəlif bəhanələr səsləndirir. Lakin müqavilə əsasında Ermənistan dəmiryolları mülkiyyətinin Rusiyanın inhisarında olması, eləcə də bu dəhlizin Rusiyanın iqtisadi maraqlarına cavab verməsi, Ermənistanı bu bəyanatın icrasını yerinə yetirmək məcburiyyətində qoyur. 44 günlük müharibənin dayandırılmasında və bu bəyanatın imzalanmasında əsas tərəflərdən biri olan Rusiyanın Ermənistanın xilaskarı qismində olduğunu nəzərə alsaq, Ermənistanın bu bəyanatdan boyun qaçırması Rusiya Prezidenti V.V.Putinin qeyd etdiyi kimi gələcəkdə bu dövlət üçün xoşagəlməz problemlər yarada bilər. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin qətiyyətili qərarları ilə artıq öz ö Zəngəzur dəhlizinin tərkib hissəsi olan kommunikasiyaların inşasına start verilib. Prezidentin " Biz Zəngəzur dəhlizini icra edəcəyik , Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə daha asan həll edəcəyik, istəməsə zorla həll edəcəyik" fikri Azərbaycanın bu məsələdə prinsipiallığını ortaya qoyur. Prezidenti İlham Əliyev Ermənistandan fərqli olaraq Azərbaycanın bu məsələdə əsas söz sahibinin özü olduğunu göstərməklə, istənilən öhdəlikləri yerinə yetirməyə, eləcə də verdiyi sözün arxasında durmağa hazır olduğunu bəyan edir. Dəhlizin reallaşması faktiki olaraq regionun nəqliyyat qovşaqlarında Azərbaycanın yüklərin qəbuledici və yönləndirici mərkəzə çevrilməsi deməkdir. Bu dəhlizin reallaşması Tarixi İpək yolunun bərpası baxımından da əhəmiyyətli olmaqla yanaşı, Bakı-Tiblisi-Qars dəmir yoluna da alternativ dəhliz funksiyasını daşıyacaq.



Şəkil 4. Mövcud Bakı-Tibilisi-Qars və Zəngəzur dəhlizindən keçməklə inşa olunacaq avtomobil yolu

Belə ki, Zəngilan rayonu Ağbənd stansiyasından Zəngəzur dəhlizi vasitəsilə Ordubad-Culfa-Naxçıvan-Sədərək-Dilucu sərhəd istiqaməti, ardınca Aralıq-İqdır-Qars dəmir yolu xətti ilə Qars şəhərində Türkiyənin dəmir yol şəbəkəsinə qoşulmaqla regional dairəvi dəmir yol şəbəkəsinin əsası qoyulacaq. Bununla hər iki istiqamətdə daha çox yüklərin daşınması baş verəcək ki, bu da region ölkələrinin gəlirlərinin artması, eləcə də yüklərin diversifikasiyasını təmin etməlidir. Bu baxımdan 2021-ci il fevral ayının 25-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti ilə bağlı Anlaşma Memorandumu"regionun nəqliyyat xəritəsində iki qardaş türk dövlətinin Zəngəzur dəhlizinin mütləq reallaşacağına dair dünyaya hayqırtısı kimi qəbul edilməlidir. Layihələndirmə və inşaat xərclərinin 1,2 milyard dollar maliyyə vəsaiti hesabına ərsəyə gələcək bu layihə Qarsdan başlayaraq dəmir yol xəttinin İqdırdan keçməklə Araklı və Dilucu sərhəd nəzarət buraxılış məntəqəsinə qədər davam etməklə 224 km məsafə uzunluğunda olacaq. Layihənin növbəti hissəsində Sədərək rayonundakı sərhəd məntəqəsindən Naxçıvan dəmir yol şəbəkəsinə 7 km-lik dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulub ki, bu da Türkiyə-Naxçıvan dəmir yolları şəbəkələrinin birləşdirilməsi deməkdir.

Azərbaycan ordusunun sentyabrın 27-də başıladığı əks-hücum əməliyyatları ilə düşmənin 30 il ərzində qurduğu hərbi istehkamları məhv edildi və düşmən tapdağı altında qalan ərzilərimiz azad edildi. Bunun nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası ilə 30 il öncə mövcud olmuş, lakin sonradan erməni vandalları tərəfindən məhv edilmiş Naxçıvanımızla əlaqəni təmin edən avtomobil və dəmir yolları əlaqələrinin bərpası üçün zəmin yarandı. Həmin nəqliyyat infrastrukturunun bərpası üçün 44 günlük müharibənin nəticəsi kimi 10 noyabr bəyannaməsindəki müvafiq bənd əsas oldu. Prezident İlham Əliyev müharibə dövründəki qətiyyətli mövqeyini müharibədən sonrakı dövrdə də nümayiş etdirməkdədir. Belə ki, cənab Prezident 2021-ci il fevralın 14-də Ermənistanla sərhəddə tarixi Zəngəzur dəhlizinə qədər Horadiz-Ağbənd dəmiryolu xəttinin, aprelin 26-da isə Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun inşa edilməsinə dair təməlini qoydu. Avtomobil yolunun ümumi uzunluğu 124 km, dəmir yolunun ümumi uzunluğu isə 114 km təşkil edəcək. Zəngəzur dəhlizinin mühüm hissəsi olan Ağbənd-Ordubad dəmir yolu xəttinin Ermənistan hissəsindən keçən 43.4 km-lik dəmiryolu xətti erməni vandalları tərəfindən dağıdılmış, Mehri rayonu ərazisində yerləşən dəmir yolu infrastrukturuna aid depo, stansiya, tunel, körpülər, elektrik dirəkləri, rabitə xətləri, anbarlar tamamilə məhv edilmişdir.

Azərbaycan Respublikası Prezidenti qədiyyətli " Hadisələri qabaqlamaq istəmirəm, amma bu dəhlizin açılması noyabrın 10-da imzalanmış bəyanatda öz əksini tapıb və nəzərə alsaq ki, Ermənistan dəmir yolları Rusiya

dəmir yollarının mülkiyyətindədir, deməli bizim tərəf müqabilimiz əlbəttəki Rusiyadır" fikri bu dəhlizin reallığa qovuşacağı günün çox yaxında olduğundan xəbər verir. "Dəmir yumruq" əməliyyatının nəticələri artıq özünü siyasi arenada da hiss etdirməkdədir. Ən yaxşı müdafiə hücumdur prinsipini əsas tutan Azərbaycan hakimiyyəti işğaldan azad olunmuş ərazilərin infrastrukturunun bərpası, əhalinin doğma torpaqlara qayıdışı istiqamətində genişmiqyaslı tədbirlərə start vermişdir. Azərbaycan hakimiyyəti və xalqı torpaqların sahibi kimi strateji hədəflərini aydın görür. Bunun əyani təsdiqi kimi dövlət başçısının 7 iyul 2021-ci il tarixli iqtisadi rayonların yeni bölgüsü haqqında fərmanını qeyd etməliyik [1.s.1]. Fərmanda Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi , tarixi-mədəni bağlılıqları olan Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zərurətini yaratdı [4.s.55]. Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünə məxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün isə yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Şəkil 5. Qarabağ və Şərqi Zəngəzurda inşa olunan avtomobil yolları

Bu məqsədlə yaradılmış 14 iqtisadi rayonun bölgüsündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi və tarixi varislik öhdəliyinə sadiq qaldığının əyani sübutudur. Fərmanın 7 iyul tarixində verilməsi təsadüfü seçilməmişdir. Məhz 1923-cü il 7 iyulda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı və coğrafi baxımdan bir-birinə bağlı olan dağlıq hissənin arandan ayrılması ilə bağlı məntiqsiz qərar qəbul edildi. Təbii ki, Sovet xisləti bu qərarı qəbul etməklə gələcəkdə Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi kimi çirkin niyyət güdürdü. Dövlət başçısı bu addımı ilə tarixi qərarın ədalətsiz olduğunu dünyaya bəyan etdi. Prezident İlham Əliyevin hər şeydən əvvəl dədə-baba torpaqlarımız olan və ermənilərə Rusiya, SSRİ tərəfindən hədiyyə edilən Zəngəzur, Göyçə, İrəvan və digər vətən torpaqlarının geri qaytarılması bizim milli ideologiyamızın əsasını təşkil etməlidir.

Şəkil 6. Azərbaycanın İqtisadi Rayonları

Azərbaycanın xarici siyasəti də, xaricdəki diasporların fəaliyyəti də bu hədəflərə kilitlənməlidir fikri Ermənistan və onun havadarlarında şok effekti yaratdı. "Komunikasiya xətlərinin açılmasından sonra Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına, Zəngəzura, Göyçəyə, İrəvana qayıdacaq" bəyanatı isə Zəngəzur dəhlizinin yaxın zamanlarda reallaşacağına əminlikdir.

ƏDƏBİYYAT

1. Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 2021.
2. Azərbaycanın itirilmiş tarixi torpaqları, Təfəkkür elmi xəbərlər jurnalı, Bakı 2015,
3. "Cənubi Qafqaz 1903-cü il" xəritəsi, Bakı Kartoqrafiya Fabriki, Bakı 2012.
4. E.Süleymanov, V.Süleymanov. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü, Bakı 2012.
5. İlk Cümhuriyyət dövründə Ermənistan üçün qoparılmış torpaqlarımız, Bakı Xəbər 2020
6. Naxçıvanla nəqliyyat əlaqəsinin yaradılmasına Ermənistan sovet dövründə də mane olub, Trend.az, Bakı 2021.
7. "Qafqaz təqvimi" (Kafqazskiy Kalendar) verilmiş təqvim əsasında hazırlanmış Zəngəzur qəzasının xəritəsi, Tarix İnstitutu, Bakı 2004.

SUMMARY

LEADING POSITION AND POLITICAL-ECONOMIC PERPECTIVES OF ZANGAZUR CORRIDOR

Mirzayev G.E.

The Zangazur Corridor will restore the historical connection of Turkic-speaking countries. Rehabilitation of the Zangazur corridor means establishing direct contacts with the blockaded Nakhchivan Autonomous Republic, ensuring uninterrupted transportation of passangers and cargo. Taking into account the tourism potential of their countries, the opening of the Zangazur corridor will mark a new stage in the development of interregional cooperation in terms of tourism development.

Keywords: *Zangazur, transport and logistics, deportation, corridir*

РЕЗЮМЕ

ЛИДИРУЮЩЕЕ ПОЛОЖЕНИЕ И ПОЛИТИКО-ЭКОНОМИЧЕСКИЕ ПЕРСПЕКТИВЫ ЗАНГЕЗУРСКОГО КОРИДОРА

Мирзоев Г.Э.

Зангезурский коридор восстановит историческую связь тюркоязычных стран. Реабилитация Зангезурского коридора означает установление прямых контактов с заблокированной Нахчыванской Автономной Республикой, обеспечение бесперебойной перевозки пассажиров и грузов. С учетом туристического потенциала своих стран открытие Зангезурского коридора станет новым этапом в развитии межрегионального сотрудничества в сфере развития туризма.

Ключевые слова: *Зангазур, траспорт и логистика, депортасия, коридор.*

ERMƏNİSTANIN QARABAĞ ƏRAZİSİNDƏ TÖRƏTDİYİ EKO TERRORİZM

Musayeva M.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
musaeva.matanat@mail.ru

Açar sözlər: *Qarabağ, Oxçuçay, ekoterror, flora və fauna, Araz çayı, Sərsəng su anbarı, meşə ərazisi*

Ermənistanın son 30 ildə işğal etdiyi Azərbaycan torpaqlarında həyata keçirdiyi aksiyalar ekoloji terrorizmin bariz faktıdır. Ermənistanın ekoterrorizmi Azərbaycanın su təsərrüfatı sisteminə mənfi təsir göstərib. Daha doğrusu, bəzi transsərhəd içməli su ehtiyatları və suvarma sistemləri uzun illərdir ki, Ermənistanın birbaşa təcavüzü altında olub və adətən Azərbaycan xalqına qarşı "silah" kimi istifadə olunur. Tərtərçay üzərində tikilmiş Sərsəng su anbarını erməni terrorçuları 400 mindən çox azərbaycanlılar üçün potensial təhlükə mənbəyinə çevrilib. Su anbarında suyu daha çox buraxmaqla yaşayış məntəqələrini, kənd təsərrüfatı sahələrini, kommunikasiya xətlərinin su basmasına, yayda isə düşmən su təchizatını kəsməklə, su qıtlığına və quraqlığa səbəb oldu.

Bütün dünyada olduğu kimi hazırda Qarabağda da iqlim dəyişikliyi çayların hidroloji rejiminə təsir göstərir. Çay sularının tərkibinin öyrənilməsi və dəyişən şəraitdə toksiki və zərərli maddələrlə çirklənmə səviyyələrinin müəyyən edilməsi mühüm vəzifədir. Qlobal iqlim dəyişikliyi şəraitində qış-yay-payız fəsillərin yerdəyişməsi baş verir. Mövsümi temperatur dəyərləri su hövzəsinin hündürlüyü ilə dəyişir. Temperaturun kəskin dəyişməsi ilə əlaqədar olaraq yağıntıların tezliyində və miqdarında dəyişikliklər baş verir, həmçinin Qarabağın əsas su arteriyalarını təşkil edən çaylarının çirklənməsi də ümumi axınına təsir göstərir. Qarabağ çaylarının təmiz su ehtiyatları regionun və ölkənin iqtisadiyyatında etibarlı kapitaldır.

Çay sularının tərkibinə və keyfiyyətinə nəzarətin zəruriliyi onların balıqçılıqda, turizmdə, kənd təsərrüfatı torpaqlarının suvarılmasında, əhalinin içməli su ilə təmin edilməsində və sənaye istehsalında istifadədə əhəmiyyəti ilə bağlıdır. Suyun təbiətdəki dəyəri bütün canlılar üçün böyükdür və əsas enerji mənbəyidir. Tədqiqat ərazisinin su obyektlərində zərərli maddələrin, o cümlədən təhlükəli azot birləşmələrinin tərkibinin öyrənilməsi - mühüm komponent üçüncü minilliyin vəzifələrindən biridir ki, onun həlli ərazi çaylarının keyfiyyətinin öyrənilməsi və qiymətləndirilməsi ilə asanlaşdırılır.

30 il ərzində Qarabağ ərazisində güclü daşqınlar, subasmalar müşahidə olunub, kifayət qədər təmizlənməmiş tullantı sularının və çirklənmiş təmizlənməmiş çirkab suların axıdılması müşahidə olunur. Kifayət qədər təmizlənməmiş çirkab suların ən böyük axıdılması Oxçuçay, Azaz çayı, Tərtərçay və diğər çaylarında müəssisələr tərəfindən həyata keçirilir. Qarabağ çaylarında suyun keyfiyyətinin kəskin şəkildə aşağı düşməsi Ermənistanın mis-molibden və mis filizitəmizləmə zavodlarının kimyəvi tullantıları, habelə Kafan və Qaçaran şəhərlərinin bioloji və məişət tullantıları təmizləyici qurğuların köhnəlməsi və olmaması, həmçinin çayların məcrasının və daşqın sahələrinin məişət tullantıları, habelə müəssisələrin tullantılarla çirklənməsi ilə əlaqədardır. Erməni vəhşiləri tərəfindən yuxarıda göstərilənlərin hamısı müxtəlif məqsədlər üçün geniş istifadə olunan çay sularının kimyəvi tərkibinin dəyişməsinə və keyfiyyətinin pisləşməsinə təsir edən eroziv akkumlyativ proseslərlə bağlı müxtəlif ekoloji fəsadlara səbəb olub. Suyun insan həyatı və bütün canlılar üçün qiymətli və bahalı məhsullardan birinə çevrildiyi üçüncü minilliyin problemlərindən biri də su yollarının mühafizəsi və yarana biləcək ekoloji problemlərin vaxtında xəbərdar edilməsidir. Qarabağın çay sularında azot birləşmələrinin tərkibinə dair aparılan müşahidələr əsasında əsas çayların tərkibi və çirklənmə səviyyəsi müəyyən edilmişdir. Bu işin məqsədi həmçinin çay sularının qeyri-üzvi azot birləşmələri ilə çirklənməsinin qiymətləndirilməsi olmuşdur.

İşğal səbəbindən 30 ildən artıqdır ki, çirkləndiricilərin tərkibinin təhlili aparılmırdı. Əvvəllər (işğala qədər) dərc olunmuş işlərdəki nəticələr çay sularının çirklənmə səviyyələrini əks etdirir, lakin iqlim dəyişikliyi səbəbindən məsələ aktual olaraq qalır. Su nümunələri yerüstü sular üzrə təlimatlara uyğun olaraq qışın azsulu dövründə və yay daşqınlarında aparılmışdır. Hər çay üçün yuxarı hissəsi dağətəyi-aşağı dağlıq zonada, qapayıcı hissəsi isə tədqiqat ərazisinin düzənlik hissəsində yerləşirdi. Çay sularında NO_2^-, NO_3^- və NH_4^+ tərkibi kimyəvi analiz üsulları ilə müəyyən edilmişdir.

Tədqiqat ərazisində metod üzrə suyun Mn tərkibinə görə çirklənmə səviyyəsinin və keyfiyyətinin dəyişməsi izlənildi. Manqan bitki və canlı orqanizmlərin həyatı üçün zəruri olan vacib elementdir. Səth sularında metalın icazə verilən maksimal konsentrasiyası 10 mkq/dm^3-dur. Çirklilərin konsentrasiyasının YVQH səviyyəsindən artıq olması və quru səth sularının keyfiyyətinin ekoloji sinifləri nəzərə alınmaqla çay sularının ekoloji siniflər üzrə çirklənməsinin qiymətləndirilməsi verilmişdir.

Təhlillər göstərmişdir ki, ərazidə çaylar nitrit və ammonium ionları ilə çirklənmiş, konsentrasiyalar mənsəbə doğru artır ki, bu da çox güman ki, bu çayların keçdiyi yaşayış məntəqələrindən əlavə miqdarda çirkləndiricilərin antropogen təsiri ilə əlaqədardır. Azot birləşmələrinin mənbəyi məişət tullantılarının, təsərrüfatların və sənaye tullantılarının yuyulmasıdır. Su ekosistemlərində ağır metalların duzlarının artması həm ətraf mühitin çirklənməsi, həm də bölgənin geokimyəvi xüsusiyyətləri ilə əlaqədar ola bilər. Təqdim olunan su axarlarının hövzələrində yerləşən çoxsaylı mineral bulaqların suları da daxil olmaqla, mikroelementlərlə zənginləşdirilmiş qrunt və yeraltı sular çayların əsas kanalına daxil olur. Suda müəyyən bir zəhərli elementin tərkibinə dair analitik məlumatlara əsaslanaraq, canlı orqanizmlər üçün konsentrasiyanın təhlükəsini mühakimə etmək olar.

Çay sistemlərində suyun keyfiyyətini qiymətləndirərkən yüksək zəhərli təsir göstərən və müxtəlif ekosistemlər üçün xüsusi təhlükə yaradan prioritet çirkləndiricilər fərqləndirilir. Su obyektlərində çirkləndiricilərin konsentrasiyalarının müəyyən edilməsi ilə yanaşı, su rejiminin müxtəlif fazalarında su obyektlərinin ayrı-ayrı bölmələri üzrə onların paylanmasının ümumi qanunauyğunluqlarının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Qarabağ Azərbaycanın su ilə təmin olunan bölgələrindən biridir.

Respublikanın ekoloji ehtiyatlarına və saf təbiətinə baxmayaraq, işğal dövründə ermənilərin təsərrüfat fəaliyyəti ərazinin tədricən çirklənməyə gətirib çıxarıb. Həmçinin kifayət qədər inkişaf etməmiş kanalizasiya şəbəkəsi (kənd yaşayış məntəqələrində praktiki olaraq yoxdur) tullantı sularının əhəmiyyətli bir hissəsi əraziyə axıdılır.

Tədqiqat ərazisində kənd təsərrüfatı və heyvandarlıq da çayların çirklənməsinə kömək edir. 30 illik işğal dövründə burada suyun böyük bir hissəsi heyvanların suvarılmasına və saxlanmasına gedib. Kənd təsərrüfatı tullantıları insanlar üçün təhlükəlidir. Onların tərkibində canlılar üçün zərərli hesab edilən kimyəvi maddələr var. Heyvandarlıq və quşçuluq müəssisələrindən atılan tullantılar da çox təhlükəlidir. Ərazidə belə tullantılar təmizlənmədən çaylara atılır və ya tarlalara səpələnir. Bu zaman torpaq çirklənir, nəcis qrunt sularına sorulur və sonra çaylara və su anbarlarına gedir.

İşğala qədərki dövrdə daimi məntəqələrdən su nümunələri götürülürdü. Sudan nümunə götürərkən havanın, suyun temperaturu və şəffaflığı qeydə alınırdı. Ağır metalların həll olunmuş formalarının tərkibinin səviyyəsini müəyyən etmək üçün su nümunələri məsamə diametri 0,45 mkm olan filtrlərdən süzülüb.

Yay yağış daşqınlarında metal birləşmələrinin konsentrasiyalarının dalğalanma diapazonu (Mo dalğalanma diapazonu istisna olmaqla), qışda azsulu dövr ilə müqayisədə daha yüksəkdir. Oxçuçay, Azaz çayı, Tərtərçay və başqa çayların sularında yay yağışı daşqınları zamanı Mo konsentrasiyalarının dalğalanma diapazonu azsulu qış dövründəki dalğalanma diapazonundan yuxarıdır. Cr, Ni və Cd kimi digər təhlil edilən metal birləşmələrin məzmunu balıq üçün YVQH-dən əhəmiyyətli dərəcədə yüksəkdi. Stasionar şəraitdə götürülmüş bütün nümunələrdə pH dəyəri və ağır metalların (Cr, Ni, Mo, Pb, Zn, Mn, Cd) konsentrasiyası ölçüldü.

Mn birləşmələri balıqlar üçün YVQH-ni keçmənin ən yüksək tezliyi Araz və Oxçuçay çaylarının suyunda müşahidə olunur. Qışda azsulu dövrdə 20%, yayda yağışlı daşqınlarda təxminən 60% təşkil edir. Balıqların Zn birləşmələri üçün YVH-i aşması hallarının ən yüksək tezliyi həmin çaylarının sularında yay yağış daşqınları zamanı müşahidə olunur. Pb birləşmələri balıqlar üçün YVQH-i aşması hallarının maksimum tezliyi Araz və Oxçuçay çaylarının suyunda yay yağışı selində daha çox müşahidə olunur. Tədqiqat dövründə işğaldan azad olunan Qarabağ zonasının çay sularında ağır metal birləşmələri və diğər çiklendiricilərin göstəricisinin YVQH-dən dəfələrlə artıq olması balıqların kütləvi məhvinə səbəb olmuşdur.

Aparılan monitorinqin nəticələrinə görə Ermənistan ilə transsərhəd olan Araz çayında da mis və fenolun miqdarı normadan dəfələrlə artıq müşahidə olunmuşdur. Suyun əsas çirkləndiricilərindən olan fenollar çayın Horadiz məntəqəsində 3, Şahsevən və Bəhramtəpə məntəqələrində 2 dəfə yol verilən qatılıq həddini (YVQH) keçmişdir. Mis birləşmələri isə Horadiz və Şahsevən məntəqələrində 4, Bəhramtəpə məntəqəsində isə 3 dəfə yol verilən qatılıq həddini (YVQH) keçmişdir (Şəkil 1). Bunun səbəbi Ermənistan ərazisindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət, heyvandarlıq və sənaye müəssisələrinin çirkab sularıdır.



Şəkil 1. Göstərilən məntəqələrdə mis birləşmələri və fenolların YVQH-dən olan müqayisəli qiymətləri

Ermənistan tərəfi Azərbaycanın Zəngilan rayonu ərazisindən keçərək Araza tökülən Oxçuçay transsərhəd çayını zəhərli tullantılarla müntəzəm olaraq çirkləndirir[1,2]. Bakı müxtəlif səviyyələrdə dəfələrlə Ermənistan tərəfinin zəhərli tullantılarla çirkləndirdiyi transsərhəd Oxçuçaydakı vəziyyətdən narahatlığını bildirib. Araşdırmalar göstərir ki, hər il Ermənistan ərazisindən keçən təxminən 360 milyon kubmetrdən çox su kimyəvi maddələrlə çirklənir. Çayda 10-a yaxın çirklənmə mənbəyi var, beləki, Araz çayındakı tullantı anbarlarında zərərli və zəhərli maddələr saxlandığından - bunlar mineral emalı zamanı radioaktiv, zəhərli və digər tullantıların saxlanması və ya utilizasiyası üçün nəzərdə tutulmuş xüsusi qurğu və avadanlıq kompleksləridir. Sonra həmin zərərli maddələr tullantı anbarlarından Oxçuçay çayına atılır. Bu tullantıların tərkibində ağır tullantılar, duzlar və metallar - mis, kobalt, molibden, sink, nikel var ki, çayda onların miqdarı normadan dəfələrlə çoxdur[1, 2].

2021-ci ilin yanvar-iyun aylarında Oxçuçaydan götürülmüş su nümunələrinin tərkibində ağır metalların, xüsusilə mis, molibden, manqan, dəmir, sink və xromun yüksək olduğu müəyyən edilib. Təbii

Sərvətlər Nazirliyinin monitorinq hesabatlarına əsasən, çayda yanvarın 9-da nikelin miqdarı normanı 7,1 dəfə, yanvarın 28-də isə 5,7 dəfə keçib. İyunun 14-də transsərhəd mənbədən götürülmüş su nümunəsində dəmirin miqdarı 2,2 dəfə, Zəngilan şəhərindəki su nümunəsində dəmir 1,5 dəfə, manqan 1,1 dəfə yol verilən həddi keçib. Şəkil 2-də Oxçuçaydakı çirkləndiricilərin müqayisəli təhlili verilmişdir.



Şəkil 2. Oxçuçayda müxtəlif zərərli birləşmələrin YVQH-dən dəfələrlə çox olması

Qarabağda suyun çirklənməsi ilə yanaşı, meşə sahələri də zərər çəkib. İşğaldan əvvəl Dağlıq Qarabağda 264 min hektar meşə var idi, indi neçəsi məlum deyil. Bu ərazidə iki mindən çox bitki növü bitir ki, bu da Azərbaycanın bütün florasının 42 faizini təşkil edir. Eyni zamanda, 50 növ bitki örtüyü və 70-dən çox heyvan növü Qırmızı Kitaba daxil edilmişdir[1,2]. Təəssüf ki, ermənilərin vəhşi fəaliyyətləri nəticəsində əminliklə deyə bilərik ki, bəzi növlər Yer üzündən əbədi olaraq yox olub.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ətraf mühitə dair qanunvericilik toplusu. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. 2002.I cild 404 səh., II cild 424 səh.

2. Azərbaycan Respublikasının Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkisafa dair Milli proqramı. Azərb. Respublikasının Ekol. və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2002.

3. Əliyev F.S. Azərbaycan Respublikasının yeraltı suları, ehtiyatlarından istifadə və geoekoloji problemləri. "Çasıoglu", Bakı, 2000. 326s.

SUMMARY

ECOTERISM COMMITTED BY ARMENIA IN THE KARABAKH TERRITORY

Musayeva M.A.

The article provides information about the ecological terror carried out by Armenia in the occupied Azerbaijani lands over the past 30 years and its consequences. Analyzes show that during the 30-year occupation of Armenia, the flora and fauna of Karabakh was destroyed, the process of self-cleaning of rivers weakened due to the excess of heavy metals and other pollutants in the border rivers in all seasons, as well as the extinction of some plants and animals listed in the Red Book. completely cut off.

Key words: *Karabakh, Oxchuchay, eco-terrorism, flora and fauna, Araz river, Sarsang reservoir, forest area*

РЕЗЮМЕ

ЭКОТЕРРОРИЗМ, СОВЕРШЕННЫЙ АРМЕНИЕЙ НА ТЕРРИТОРИИ КАРАБАХА

Мусаева М.А.

В статье представлена информация об экологическом терроре, проводимом Арменией на оккупированных азербайджанских землях за последние 30 лет, и его последствиях. Анализы показывают, что за время 30-летней оккупации Армении флора и фауна Карабаха была уничтожена, процесс самоочищения рек ослаблен из-за избытка тяжелых металлов и других загрязняющих веществ в пограничных реках во все времена года, а также по мере вымирания некоторых растений и животных, занесенных в Красную книгу, полностью истреблены.

Ключевые слова: *Карабах, Охчучай, экотерроризм, флора и фауна, река Араз, Сарсангское водохранилище, лесной массив*

TARİXİ ŞUŞA QƏZASI VƏ ONUN YELİZAVETPOL(GƏNCƏ) QUBERNİYASININ SOSİAL-İQTİSADİ VƏ İCTİMAİ HƏYATINDA OYNADIĞI ROLU VƏ YERİ

Musayeva Ş.X.
Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə, Azərbaycan
musayeva_shafa@list.ru

Açar sözlər: *qəza, sərhəd, imperiya, vilayət, qubernator, qərar, idarə*

Çar hökuməti 10 aprel 1840-cı ildə hərbi - inzibati islahat keçirmək haqqında qərar qəbul edir. İslahata əsasən Cənubi Qafqaz diyarı Gürcü İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər Vilayətinə bölündü. Xəzər Vilayətində isə 7 qəza, 32 nahiyə təşkil olundu. Həmçinin Qarabağ əyaləti də Şuşa qəzasına çevrildi və nəticədə Xəzər Vilayətinə daxil edildi. «Parçala və hökmranlıq et» prinsipini əlində əsas rəhbər tutan çar Rusiyası yaradığı bu inzibati bölgü ilə Azərbaycanın bütövlüyünü və tarixən mövcud olan ənənəvi sərhədləri pozmağa müvəffəq oldu . İmperiyanın hər yerində imperiya qanunları rəhbər tutulur, məsul vəzifələrə mənfur ermənilər və ruslar təyin edilir və hətta Azərbaycanı imperiya ilə «Vahid bir orqanizm halında formalaşdırmaq və oradakı sakinləri rus kimi danışmağa, düşünməyə və fikirləşməyə məcbur etmək» nəzərdə tutulurdu. Bu, demək olar ki, Rusiyanın Qarabağda ruslaşdırma, ermənilərdirmə və xristianlaşdırma siyasəti idi və əlbəttə ki, bütün bunlar xalqımız üçün gələcəkdə ağır nəticələrini verməli idi və verdi də. XIX əsrin ortalarında Qarabağda yaranmış qəzalardan biri Şuşadə qəzası olmuşdur. Şuşa qəzası – Cavanşir, Göyçay, Cavad, Cəbrayıl, Zəngəzur qəzaları ilə həmsərhəd idi. Qəzanın mərkəzi Şuşa şəhəri olmuşdu. 1846-cı il inzibati ərazi bölgüsünün həyata keçirilməsi zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına, 1859-cu ildə isə Bakı quberniyasına tabe edildi. 1867-ci ildə Yelizavetpol quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verilir və ərazi bölünərkən burada daha üç qəza – Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının da əsası qoyulur . Bununla da, Şuşa qəzası vahid inzibati-siyasi idarəsindən məhrum edilir. Belə bir inzibati ərazi bölgüsü xüsusi məqsədlə həyata keçirilmiş və ermənilərin Qarabağın idarəçilik sistemində

geniş təmsil olunmalarına hərtərəfli imkanlar yaratmışdır. Şuşa qəzasını qəza rəisi, qəza rəisinin müavini, xəzinədar, məntəqə iclasçıları və şəhər polisi idarə edirdi. Şuşa qəzasında məhkəmə də yaradılmışdı. [1] Şuşa qəzası Mehri, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd, Vərəndə sahələrinə ayrılmışdı.

Zaqafqaziya və Qafqaz diyarının idarəsinin yenidən qurulmasıvə təşkili haqqında 1867-ci il 9 dekabr tarixli çar əmrinə əsasən Yelizavetpol quberniyası təşkil edildi .Quberniyanın sahəsi 38 982 km^2, əhalisi isə 1897-ci il siyahıyalınmasına görə 879 min nəfərə yaxın, 1916-cı ildə isə 1.275.131 nəfər olmuşdur. Əhalinin tərkibinə bütövlükdə nəzər görə bilərik ki, XIX əsrin sonlarında quberniya əhalisinin 63%-ni Azərbaycan türkləri, 30%-ni ermənilər təşkil edirdilər. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından isə Yelizavetpol qəzası, İrəvan quberniyasından ləğv edilmiş Ordubad qəzasının bir hissəsi ayrılmış və yeni yaradılan quberniyanın tərkibinə daxil edilmişdir. Quberniyanın əsas mərkəzlərindən biri kimi tarixi Şuşa qəzasının rolu olduqca böyükdür. Qəzanın inzibati - mərkəzi Şuşa şəhəri idi, 1897 –ci il statistikasına əsasən qəzada 138 771 nəfər yaşayırdı, sahəsi 4 315,6 km2 təşkil edirdi. Qəzanı qəza rəisi, onun köməkçisi, xəzinə sahibi, sahə iclasçıları və şəhər polisi idarə edirdi. Qəzada məhkəmə aparatının da əsası qoyulmuşdur. [2]

Əlverişli strateji coğrafi mövqedə yerləşən və zəngin yeraltı, yerüstü sərvətlərlə zəngin qəzada kənd təsərüfatı da yüksək səviyyəda inkişaf etmişdi- əkinçilik, maldarlıq, ipəkçilik, üzümçülük, bağçılıq bu baxımdan əsas yerlərdən birini tuturdu. Toxuculuq –pambıq, yun parçalarla xalça, ip, mahud hazırlanması geniş arealda yayılmışdı .1872-ci ildə Moskvada keçirilən Moskva Politexnik universitetində təşkil edilən sərgidə böyük qürur hissi ilə nümayiş etdirilən Azərbaycan incilərindən sayılan Azərbaycan xalçaları, ipək məmulatları və digər əl işləri ekspertler və Moskva universiteti tərkibindəki təbiətşünaslıq həvəskarlarının imperator cəmiyyəti şurası tərəfindən çox yüksək qiymətləndirildi. Sərgidə iştirak edən xalçaçıların böyük bir hissəsi, o cümlədən Şuşa qəzasından iştirak edən məşhur xalçaçılar - Bayram Məşədi Qurban oğlu, Kərbəlayi Əhməd Dəmir oğlu, Cabbar Hacı Əhməd oğlu yüksək keyfiyyətli əl işləri və çeşidli xalçalar nümayiş etdirdiklərinə görə sərginin qızıl medalı ilə mukafatlandırılırlar. Başqa qrupumuz isə gümüş medala layiq görülmüşdür. Qarabağın ipəkçilik müəssisələri əsasən Şuşa və Cəbrayıl qəzalarında yerləşirdi. XX əsrin əvvəllərində Şuşa qəzasında 12, Cəbrayıl qəzasında isə 5 ipəkəyirən fabrik fəaliyyət göstərirdi. Bu fabriklərin bir qismi maşınla, buxar qazanları ilə təchiz edilmiş iri fabriklər olaraq müntəzəm fəaliyyət göstərirdi. Qarabağın ipəkçilik sənayesində hətta səhmdar cəmiyyətlər də yaradılmışdir. [3] Belə səhmdar cəmiyyətlərdən biri hələ XX əsrin başlanğıcında Şuşa qəzasında əsası qoyulmuşdur . Bu səhmdar cəmiyyətin 7 ipəkəyirən, 3 ipəkeşən və 5 baramaboğan fabriki var idi. Bu fabriklər əsas etibarilə Şuşa qəzası ərazisində yerləşmişdi və müntəzəm olaraq öz işini həyata keçirirdi.

1851-ci ildə Rusiyada əhali sayının araşdırılması üçün həyata keçirilmiş IX araşdırmaya əsasən, inzibati cəhətdən Bakı, Şamaxı, Lənkəran, Nuxa və Şuşa qəzalarını əhatə edən Şamaxı quberniyasının əhalisi 319.923 nəfəri kişilər, 283.083 nəfəri qadınlar olmaqla 603.006 nəfər təşkil edirdi. Əhalinin ümumi sayı haqqında məlumatlar imperiyanın Maliyyə Nazirliyinin Zaqafqaziya idarəsi tərəfindən təqdim olunmuşdu. Qəzalar üzrə qadınların ayrıca sayını müəyyən etmək mümkün olmadığına görə yalnız kişilərin dəqiq sayı müəyyən edilmişdir. Kişilərin qəzalar üzrə sayı haqqında məlumatlar isə Tiflisdən əsas dövlət məsləhətçisi Aleksey Fyodoroviç Kruzenştern tərəfindən hazırlanmış və təqdim olunmuşdu. Beləliklə də, həmin məlumatlara əsasən Şuşa qəzasının bütün yaşayış yerlərində kişi cinsindən toplam 105.404 nəfər əhali yaşadığı müəyyən edilmişdir. 1903-cü ilin məlumatına görə Şuşa qəzasında Şuşa şəhəri və dörd polis məntəqəsi olub. [9]

Cənubi Qafqazda Zaqafqaziya Komissarlığı yaradıldıqdan sonra Yelizavetpol quberniyasında hakimiyyət milli şuraların əlinə keçdi. Milli hərbi hissələrin silahla təmin edilməsi üçün 1918 ilin yanvarında Qafqaz cəbhəsindən qayıdan rus qoşunları Şəmkir stansiyasında tərksilah edilməyə başlanıldı. Apreldə Zaqafqaziya Demokratik Federativ Respublikasının yaranması elan edildikdən sonra , Yelizavetpol quberniyası onun tərkibinə daxil oldu. [4] Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə quberniya onun əsas hissəsini təşkil etməyə başladı və Azərbaycan torpaqlarının bütünlüklə azad edilməsinin mərkəzinə çevrildi. İyunun 16-da Azərbaycan Milli Şurası və Hökuməti Yelizavetpola (Gəncəyə) köçürüldü. Azərbaycana hərbi yardım üçün dəvət olunmuş türk qoşunları da mayın axırı – iyun ayının əvvəllərində burada yığışmağa başladılar. İyunun 17-də Gəncədə Fətəli xan Xoyskinin sədrliyi ilə II hökumət kabinəsi təşkil edildi. Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin 30 iyul tarixli qərarına əsasən Yelizavetpolun tarixi adı – Gəncə adı bərpa edilərək özünə qaytarılır. Bundan sonra quberniya da Gəncə quberniyası adlandırılmağa başlanılır. Gəncə şəhəri 1918 il iyunun 17-dən sentyabrın 17-dək Azərbaycan Xalq Cumhuriyyətinin paytaxtı oldu. [5]

Azərbaycan Xalq Cümhuriyyətinin inzibati-ərazi bölgüsündə ən vacib yerlərdən birini tutan Gəncə quberniyası, keçmiş Yelizavetpol quberniyasına yeni əlavə edilmiş ərazilər hesabına xeyli dərəcədə genişləndirilmişdi. Bakı və Zaqatala quberniyalarının ərazilərindən başqa, qalan 10 qəza (Qazax, Gəncə, Nuxa, Ərəş, Cavanşir, Şərur-Dərələyəz, Naxçıvan, Zəngəzur, Cəbrayıl, Şuşa) və bir dairə (Göyçə) Gəncə ətrafında sıx birləşmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti erməni şovinizmini və azərbaycanlılara qarşı törədə biləcəkləri soyqırımı şəraitində ölkəni daha yaxşı idarə etmək üçün bir sıra amillərdən istifadə edirdi. 1919-cu il yanvarın 13-də Qarabağ general-qubernatorluğu yaradılır, fevralın 28-də isə Cənub-qərbi Azərbaycan general-

qubernatorluğıı əsası qoyulmuşdur. Gəncə quberniyasını isə səlahiyyətli şəxs olan qubernator idarə edirdi. [6] AXC hökumətinin 1919-cu il 30 mart tarixli qərarına əsasən Gəncə qubernatoru İbrahim ağa Vəkilova general-mayor, köməkçisi Hüseynqulu xan Xoyskiyə isə polkovnik rütbəsi verilmişdi. İ.Vəkilov Azərbaycan ordusu Baş qərargahının Baş idarəsi topoqrafiya şöbəsinin rəisi təyin olunduğunduqdan sonra , 6 may tarixli qərarla Xudadat bəy Rəfibəyli Gəncə qubernatoru təyin edilmişdi. Quberniyada quberniya idarə sistemi yaradıldıqdan sonra quberniya idarəsinə vitse-qubernator, müşavirlər, quberniya tibb müfəttişi, quberniya mühəndisi, memarı, yerölçəni daxil edilmişdir . Quberniya idarəsi geniş ölçülü məsələlərlə məşğul olurdu : kəndlərdə vəzifəli şəxslərin seçilməsi və pay torpaqlarının sənaye müəssisələri və tikililər üçün ayrılması haqqında kənd icmalarının qərarlarını təsdiqləyir, inzibati-polis idarələri məmurlarının vəzifə cinayətləri haqqında işlərə, kassasiya şikayətlərinə və kənd məhkəmələrinin qərarlarına və s. baxırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncə quberniyasının sosial-iqtisadi və mədəni inkişafına diqqətlə yanaşırdı. Erməni-quldur birləşmələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti nəticəsində İrəvan quberniyası qəzalarından qaçqın düşmüş azərbaycanlılar daha çox Gəncədə və onun ətrafında yerləşdirilmişdi. Onların ərzaqla təmin edilməsi üçün və sağlamlıqlarının qorunması üçün bir sıra tədbirlər görülmüşdü. Lakin düşmən qüvvələri bütün vasitələrdən istifadə edərək, quberniyada əhalinin siyasi sabitliyini pozmağa cəhd göstərirdi. [7] Bu sahədə xüsusi canfəşanlıq göstərən bolşeviklər, quberniyanın əsas xüsusiyyətini nəzərə alaraq, burada kəndli hərəkatının genişləndirilməsinə çalışırdılar. Hələ 1917 ilin dekabrında ayında Qovlar stansiyasında yaxınlığında bolşevik Müseyib Əliyevin evində S.Şaumyan və H.Sultanovun iştirakı ilə gizli müşavirə keçirilmişdi. 1918 ilin yanvarında Bakı komitəsinin göstərişi ilə Məşədi Əzizbəyov də Gəncəyə gəlmiş, buradakı vəziyyət haqqında "Hümmət"in iclasında xüsusi nitq ilə çıxış etmişdir . Cümhuriyyət dövründə də bu pozuculuq işlərinin həyata keçirilməsi davam etdirilirdi. 1919 ilin yazında Gəncədə F.Əliyevin rəhbərliyi ilə Rusiya Kommunist (bolşeviklər) Partiyasının gizli şəkildə idarə edilən dairə komitəsi təşkil olunmuşdu. Gəncə quberniyasında fəhlə və kəndlilər Hökumətə qarşı çıxışlara etməyə təhrik edilirdi. 1919 ilin yanvarında Gəncə quberniyası dəmiryolçularının kütləvi etirazı baş vermişdi. 1920 il aprelin 28-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin süqutu və Azərbaycan Sovet Sosialist Respublikaının qurulmasının elan edilməsi Gəncə quberniyasında vəziyyətə təsir göstərdi. Elə həmin gün F.Əliyevin sədrliyi ilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Gəncə Dairə Komitəsi Quberniya İnqilab Komitəsini yaratdı və hakimiyyətin təhvil verilməsi haqqında Gəncə qubernatoruna ultimatum verdi. [8]Ultimatum qəbul olundu. Aprelin 29-da hakimiyyətin Quberniya İnqilab Komitəsinə verilməsihaqqında akt imzalandı. Mayın 1-də 11-ci Qırmızı ordu hissələri Gəncəyə daxil oldu. Lakin Gəncə quberniyasında sovet hakimiyyəti güclü müqavimət hərəkatı ilə üzləşdi. Gəncədə, Qarabağda və digər bölgələrdə sovet bolşevik işğalına qarşı üsyanlar baş verdi. XI-ci ordu hissələri bu üsyanları amansızlıqla yatırmağa müvəffəq oldu və sovet hakimiyyəti quruldu. Gəncə quberniyası isə ləğv edildi. [8]

ƏDƏBİYYAT

1. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti. Bakı, 2010
2. Hacıyev Q., Çingizoğlu Ə. Qarabağlı hərbçilər (Çar və AXC ordusunun zabitləri). Bakı, 2011
3. Hüseynov Y. Şuşa və şuşalılar. Bakı, 2016
4. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. Bakı, 1959.
5. Mahmudov Y., Kərimov Ş. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, 2005
6. Mahmudov Y.M., Mustafayev C.M. Şuşa-Pənahabad. Bakı, 2012
7. Məmmədov N. Azərbaycanın Şuşa qəzası (1900-1917-ci illər). Bakı, 2005.
8. Məmmədov N. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı, 2017
9. Şükürov K. Azərbaycan tarixi. Bakı, 1997).

SUMMARY

HISTORICAL SHUSHA COUNTY AND ITS ROLE AND PLACE IN THE SOCIO-ECONOMIC AND SOCIAL LIFE OF YELIZAVETPOL (GANJA) PROVINCE

Musayeva Sh.K.

Historical Shusa district had a great socio-economic and social role as one of the main centers of Yelizavetpol province. When Yelizavetpol province was established in 1867, Shusha district was given to it and when the territory was divided, three more districts were established here - Zangazur, Javanshir and Jabrayil districts. The center of Shusha district was the magnificent city of Shusha. Agriculture was also highly developed in the accident - agriculture, cattle breeding, silkworm breeding, viticulture, gardening occupied one of the main places in this regard.

Keywords: *accident, border, empire, province, governor, decision, administration*

РЕЗЮМЕ

ИСТОРИЧЕСКАЯ ШУШИНСКАЯ УЕЗД ЕЕ РОЛЬ И МЕСТО В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ И ОБЩЕСТВЕННОЙ ЖИЗНИ ЕЛИЗАВЕТПОЛЬСКОЙ (ГЯНДЖИНСКОЙ) ГУБЕРНИИ

Мусаева Ш. Х.

Шусинский уезд имел большое социально-экономическое и социальное значение как один из главных центров Елизаветпольской губернии. При образовании Елизаветпольской губернии в 1867 году ей был передан Шушинский уезд, а при разделе территории здесь были образованы еще три уезда - Зангезурский, Джаванширский и Джебраильский уезды. Центром Шушинского уезда был величественный город Шуша. высоко развитые в аварии земледелие, скотоводство, шелководство, виноградарство, садоводство занимали одно из основных мест в этом отношении.

***Ключевые слова**: авария, граница, империя, провинция, наместник, решение, администрация.*

QARABAĞ İQTİSADİ RAYONUNDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFI VƏ ƏRAZİ TƏŞKİLİNİN İQTİSADİ-COĞRAFİ PROBLEMLƏRİ

[1]Niftiyev F.Q., [2]Babaşova L.M.
[1]Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxs, Bakı, Azərbaycan
[2]Bakı Dövlət Universiteti[2,] Bakı, Azərbaycan
f.niftiyev@mail.ru; leyla.bm90@gmail.com

***Açar sözlər:** təhsil, məktəb, məktəbəqədər, müəssisələr, Qarabağ*

Qarabağ iqtisadi rayonu respublikanın cənubi-qərb hissəsində yerləşir. İqtisadi rayonun tərkibinə Ağcəbədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhəri daxildir. Ümumi sahəsi 8,99 min km^2 olmaqla, respublika ərazisinin 10,4% təşkil edir [4]. Ərazi cənubdan İran İslam Respublikası, şərqdən Mil-Muğan, şimaldan və şimal-şərqdən Mərkəzi Aran, şimal-qərbdən Gəncə-Daşkəsən, qərbdə Şərqi-Zəngəzur iqtisadi rayonlarla sərhəddir. Region uzun müddət Ermənistan tərəfindən işğal altında olmuşdur. 2020-ci ildə 44 günlük müharibədən sonra azad edilmişdir. İqtisadi rayonda bütün infrastruktur obyektləri, o cümlədən mənzil, təhsil, səhiyyə, turizm, mədəniyyət, ictimai iaşə və digər sahələr dağıdılmışdır [5].

Təhsil müəssisələrinin inkişafı və ərazi təşkilinin formalaşmasında təbii şəraitin, relyefin və iqlimin rolu böyükdür. Bu səbəbdən ərazini relyef xususiyyətlərini bilmək və təhsil müəssisələrinin yerləşməsində regionun bu sahədə atacağı addımlarından biridir. İqtisadi rayonun relyefi əsasən düzənlik, yaylalar və dağ silsilələri bir birini əvəz etsələrdə, dağarası çökəkliklər və dərin dərələr müəyyən əraziləri əhatə edir. İqtisadi rayonun qərbində yerləşən hündür Qarabağ silsiləsi enlik istiqamətində, şərq və şimalda Kür-Araz ovalığı və cənubda Araz çayı ilə əhatələnir [6].

İqtisadi rayonun relyefi mürəkkəb olması rəngarəng iqlim tiplərinin yaranmasına səbəb olmuşdur. Araz çayı boyu və Kür-Arazda qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi, Murovdağ və Qarabağ silsiləsində qışı quraq keçən mülayim isti iqlim hakimdir [6].

İllik yağıntıların miqdarı Kür-Araz və Arazboyu düzənliklərdə 300 mm olduğu halda, yüksəkliyə doğru 600-900 mm dəyişir. Günəş radiasiyasının illik miqdarı düzənlik, dağətəyi və orta dağlıq ərazilərdə 133-135 kkal/sm^2 olduğu halda, yüksək dağlıqda 141-145 kkal/sm^2 kimi yüksəlir. Düzənlik və dağətəyi zonalarda şaquli istiqamətdə illik günəş radiasiyası 3000° − 3800 S^o, o cümlədən dağlıq ərazilərdə radiasiya 800° − 2000 S^o arasında tərəddüd edir [6].

Beləliklə, ərazinin relyefi və təbii şəraiti imkanı verir ki, təhsil müəssisələri ərazi təşkili üçün əlverişli şərait vardır. Nəzərə alsaq ki, regionda bütün sosial infrastruktur sahələri dağıdılmışdır və bu səbəbdən regionun şəhər, kənd və qəsəbə yaşayış məntəqələrində zəlzələyə davamlı məktəblərin tikintisinə ehtiyac yaranmışdır. Eyni zamanda yol infrastrukturu burada yenidən bərpa edilib təhsilin və digər sahələrin inkişafına zəmin yaradacaqdır.

Təhsil müəssisələri yaradılmamışdan əvvəl ərazidə məskunlaşan əhalinin sayını bilmək vacibdir. Təhsil müəssisələrin inkişafına zəmin yaradan amillərdən biri də əhalidir. Burada əhalinin demoqrafiyası, təbii artımı, yaş, cins tərkibi nəzərə alınır. İqtisadi rayonda əhalinin sayında artım müşahidə edilib. 2015-ci

ildə 868,9 min nəfər, 2017-ci ildə 885,9 min nəfər, və 2021-cu ildə 904,5 min nəfər olmuşdur. Ümumilikdə 35,6 min nəfər artım olmuşdur. Respublika əhalisinin 8,9%-ni bu iqtisadi rayonun payına düşür.

Əhalinin sayının artması təbii artımdan aslıdır. Təbii artımda azalma qeydə alınmışdır. 2015-ci ilə təbii artım 9709 nəfər idisə bu, 2020-ci ildə 4130 nəfər olmuşdur [1]. 2015-2020-ci illərdə əhalinin hər 1000 nəfərinə təbii artım 7,7 nəfər azalaraq 5,2 nəfər olmuşdur. Regionda doğumun azalması və ölümün artması qeydə alınmışdır. Doğulanlar 2015-ci ildə 13882 nəfər və 2020-ci ildə 10400 nəfər olmuşdur. 2015-2020-ci ildə ölənlərin sayı 4173 nəfərdən 6270 nəfərə artmışdır. Doğulanların azalması gələcəkdə təhsilin keyfiyyətinə və onun formalaşmasına mənfi təsir edəcəkdir.

İqtisadi rayonda cins bölgüsü, o cümlədən təhsil alanlar arasında kişi və qadın fərqlərinin müəyyən edilməsi əsas amillərdəndir. Belə ki, 2021-ci il üçün kişilər 450,2 min nəfər və qadınlar 454,3 min nəfər olmuşdur. Şəhər əhalisi arasında qadınlar üstünlük təşkil edirsə, kənd əhalisi arasında kişilər üstünlük təşkil edir.

Respublikada məktəbəqədər təhsil müəssisələrin sayı 2000-ci ildə 1790 ədəd, 2005-ci ildə 1764 ədəd, 2010-cu ildə 1638 ədəd, 2015-ci ildə 1722 ədəd və 2020-ci ildə 1825 ədəd olmuşdur. Onlarda oxuyan uşaqların sayı 2000-2020-ci illərdə 111020 nəfərdən 126509 nəfərə qalxmışdır. Qarabağ iqtisadi rayonunda məktəbəqədər təhsil müəssisələrinin sayında artım qeydə alınmışdır. 2015-2020-ci illərdə məktəbəqədər təhsil müəssisələrinin sayı 169-dan 179-a yüksəlmişdir. Bu göstərici respublikada məktəbəqədər təhsil müəssisələrinin 9,7 % təşkil edir [2]. Onlarda oxuyan uşaqların sayında 8972 nəfər artaraq 9995 nəfər olmuşdur. Xankəndi, Şuşa, Xocalı və Xocavəndə inzibati rayonlarında məktəbəqədər təhsil müəssisələrinin sayı aşağı səviyyədədir. Onlarda oxuyanların sayı Ağdamda 2320 nəfər, Ağcəbədidə 2080 nəfər və Füzulidə 1821 nəfər təşkil edir. Məktəbəqədər təhsil müəssisələrində 100 yerə düşən uşaq sayı iqtisadi rayon üzrə 2020-ci ildə 97 təminat olmuşdur. Xankəndi və Şuşa rayonunda 2020-cu ildə aşağı göstərici qeydə alınmışdır (cədvəl 1). Məktəbəqədər təhsil müəssisələrinin sayına görə iqtisadi rayon Bakı şəhəri və Şəki-Zaqatala iqtisadi rayonundan geri qalır.

Cədvəl 1

Qarabağ iqtisadi rayonunda təhsil müəssisələrin göstəriciləri

Göstəricilər	2015	2017	2020
Məktəbəqədər təhsil müəssisələrin sayı	169	176	179
Onlarda uşaqların sayı, nəfər	8972	9577	9995
Məktəbəqədər təhsil müəsssisələrilə (100 yerə düşən uşaq hesabı ilə) təminat	99	98	97
Əyani ümumi təhsil müəssisələrin sayı	450	449	448
Onlarda şagirdlərin sayı, nəfər	89715	100051	108740
II və III növbədə oxuyanların xüsusi çəkisi, faizlə	11,1	9,6	13,3

Mənbə: Azərbaycanda təhsil -2020, DSK

İqtisadi rayonda əyani ümumi təhsil müəsssisələrinin sayında ötən dövrlər ərzində azalma qeydə alınmışdır. 2015-ci ildə 450 ədəd və 2020-ci ildə 448 ədəd olmuşdur [3]. Əyani ümumi təhsil müəssisələrində azalma o dərəcə olmamışdır. Onlarda şagirdlərin sayında artım müşahidə edilir. 2015-ci ilə nisbətən 19025 şagird artaraq 2020-cu ildə 1087470 nəfər olmuşdur. II və III növbədə oxuyanların xüsusi çəkisində artım qeydə alınmışdır. Belə ki, 2015-2020-ci illərdə artım 11,1 faizdən 13,3 faizə yüksəlmişdir. Əyani ümum təhsil müəssisələrinin sayına görə iqtisadi rayon Bakı şəhəri və Lənkəran-Astara iqtisadi rayonundan geri qalır. (cədvəl 1).

2020-ci ilin əvvəlinə peşə təhsil müəsssisələrin sayı 8 ədəd, onlara qəbul olanların sayı 694 nəfər, tələbələrin sayı 865 nəfər olmuşdur. Peşə təhsil müəssələrində oxuyanlar əsasən Bərdə, Ağdam, Füzuli və Tərtər rayonlarındadır.

2020/2021-ci tədris ilinin əvvəlinə sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi və internat məktəblərində oxuiyan şagirdlərin sayı 13 nəfər qeyd edilmişdir.

İqtisadi rayonda məkdəbdənkənar ümumi təhsil mərkəzi Tərtər (2 ədəd), Şuşa şəhəri (2 ədəd) və Bərdə rayonu (2 ədəd) fəaliyyət göstərir.

Ağdam Dövlət Sosial İqtisadi Kolleci Təhsil Nazirliyinin tabeliyyində olan orta ixtisas təhsil müəsisəsidir. Kollecdə əsasən maliyyə işi, təsviri incəsənət müəllimliyi, nəqliyyatda daşımaların təşkili və fiziki tərbiyyə müəllimliyi ixtisasları üzrə mütəxəsislər hazırlayırlar.

Bərdə Dövlət İdarəetmə və Texnologiya kolleci 2002-ci il 26 avqust tarixində Nazirlər Kabinetinin qərarı əsasında yaradılmışdır. Kollecdə mühasibat uçotu, poçt rabitəsi, aqrar (fermer) təsərrüfatının təşkili, su təhcizatı və baytarlıq ixtisasları üzrə mütəxəsis hazırlayırlar.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Prezidentinin 29 yanvar 2019-cu il tarixli fərmanı regionun təhsil müəssisələrinin inkişafında böyük rol oynayacaq.
2020-ci ildə işğaldan azad olunan iqtisadi rayonda təhsil müəssisələrinin inkişaf etdirilməsi üçün Dövlət proqramları hazırlanmalıdır.

Nəticə. Qarabağ iqtisadi rayonunda təhsil müəssisələrinin inkişafında və ərazi təşkilində problemlər hələdə öz həllin tapmayıb.

1. İşğaldan azad olunan rayonlarda təhsil müəssisələri yenidən qurulmalıdır.
2. İqtisadi rayonda aqrar peşə məktəbləri açılmalıdır.
3. Təhsil müəssisələrində yüksək əmək haqqı ödəməklə müəllim heyəti ilə təmin olunmalıdır.
4. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün rabitə-telekommunikasiya və yol infrastrukturu inkişaf etdirilməlidir.
5. İqtisadi rayonda xüsusi və internat məktəbləri yaradılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycanın demoqrafik göstəriciləri, Bakı: 2021, 560 s
2. Azərbaycanın regionları. ARDSK-nın məcmuəsi, Bakı: 2021, 844 s.
3. Azərbaycanda təhsil, elm, mədəniyyət, Bakı : 2021, 504 s.
4. Əfəndiyev V. Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Bakı 2010, 257s
5. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı: 2007, 469 s
6. Museyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı 1998. 201 s.

SUMMARY

ECONOMIC AND GEOGRAPHICAL PROBLEMS OF EDUCATIONAL INSTITUTIONS AND TERRITORIAL ORGANIZATION IN KARABAKH ECONOMIC DISTRICT

Niftiyev F.G., Babashova L.M.

The article is dedicated to the development of educational institutions, territorial organization and improving the quality of educational services in the Karabakh economic region. The study analyzes the role of natural conditions and relief features of the region, the demographics of the population, the main areas of education in the administrative regions. Territorial organization of education in the region, shortcomings in the field of education are being investigated. The measures taken by the state in this area are analyzed in detail, and recommendations are given for further development of education in the economic region.

Keywords: *education, school, preschool, institutions, Karabakh*

РЕЗЮМЕ

ЭКОНОМИЧЕСКИЕ И ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ И ТЕРРИТОРИАЛЬНОЙ ОРГАНИЗАЦИИ КАРАБАХСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

Нифтиев Ф.Г., Бабашова Л.М.

Статья посвящена развитию образовательных учреждений, территориальной организации и повышению качества образовательных услуг в Карабахском экономическом районе. В исследовании анализируется роль природных условий и особенностей рельефа региона, демографии населения, основных направлений образования в административных районах. Исследуется территориальная организация образования в регионе, имеющиеся недостатки в сфере образования. Подробно анализируются меры, предпринимаемые государством в этой сфере, и даются рекомендации по дальнейшему развитию образования в экономическом районе.

Ключевые слова: *образование, школа, дошкольное учреждение, учреждения, Карабах*

BÖYÜK QAYIDIŞ – İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZDƏ İNFRASTRUKTURLARIN YARADILMASI

Rzaquliyeva S.D.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt Azərbaycan
sosiologiya@mail.ru

Açar sözlər: *infrastruktur, sosial,regional siyasət, dövlət, iqtisadi siyasət, sosial-iqtisadi inkişaf.*

Azərbaycan hökuməti 30 il əvvəl erməni işğalçıları tərəfindən buradan didərgin salınmış, ötən müddət ərzində burada heç bir daş-qaş qoymayan yüz minlərlə vətəndaşının bu ərazilərdə məskunlaşmasını tezliklə təmin etmək istəyir. Nəticədə yeni yollar, qaz və su kəmərləri, elektrik stansiyaları və elektrik ötürücü sistemlər, hava limanları, rabitə, məktəblər, xəstəxanalar lazımdır.Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərində 2020-ci il İkinci Qarabağ müharibəsində bu ərazilərin dirçəldilməsi üçün zəruri olan infrastrukturun bərpası və yaradılması və 30 illik ayrılıqdan sonra müvəqqəti məcburi köçkünlərin oraya qayıtması üçün genişmiqyaslı işlər aparılır.

Dövlətin inkişafı əsas insan tələbatlarının ödənilməsi, onunə razisi, nəqliyyat vasitələri, mənzil xidmətləri, sosialsistemlər, səhiyyə, təhsil, bələdiyyə idarəetməsi sosial infrastruktur təmin edən əsas amillərdən biridir.[5s25]

Hər şeydən əvvəl sosial infrastrukturun sosial əhəmiyyəti əhali üçün ilkin şəraitin olması, fərdlərin özünü təmin etmək imkanı, öz peşəkarlığının inkişafı, sahibkarlıq fəaliyyəti, trans formasiya şərtlərinin xarakterik və biznes bölməsi üçün əməliyyat xərclərinə nəzarət vacibdir.[3]

İnfrastruktur sosial təminat və siyasi sabitlik sosial inkişafın səmərəliliyini təmin edir. Qarşıya qoyulan problemlərin mürəkkəbliyi və çox ölçülü olması onlara xüsusi tələblər qoyur. İlk növbədə yerli səviyyədə sosial fəaliyyətin və inkişafı təmin edən idarəetmə sistemi olmalıdır. Sosial idarəetmə təcrübələri infrastrukturun modernləşdirilməsi müəyyəne dilməli, əhalinin mədəni və mənəvi tələbatlarını formalaşdırmalı, vahid milli prioritet ideologiyalarını məqsədlərinə uyğun olaraq təkmilləşdirməlidir. Müasir tələblərə uyğun sosial infrastrukturun formalaşdırılması əhalinin təhsil və mədəni ehtiyacları üçün əsas rol oynayır.

Sosial infrastruktur üçün investisiyaların cəlb edilməsi üçün potensial imkanlar inkişafı, eləcə də göstərilən xidmətlərin keyfiyyət parametrləri ictimai nəzarət sisteminin qurulmasına kömək edir. İnfrastruktur yerli özünü idarəetmə orqanları sosial müasirləşmənin əsas subyektidir. Sosial infrastrukturun modernləşdirilməsinin digər subyektləri regional güc strukturları, özəl biznes, bələdiyyə bölməsi və əhali daxildir. [1s244]

Türkiyənin şirkətləri artıq bu ərazilərdə infrastrukturun yaradılması prosesində iştirakedirlər. Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın möhkəmlənməsi davamlı əsas da həyata keçirilir və bu, qardaş ölkələr arasında ikitərəfli iqtisadi əlaqələrin inkişafına çox səmərəli təsir göstərir.

Azərbaycan tərəfindən yenidən qurma layihələri üzrə beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində mütəmadi tədbirlər həyata keçirilir, yeni infrastruktur obyektlərinin salınması davam etdirilir, yollaryenidənqurulur, [erməni silahlı qüvvələri tərəfindən əvvəllər işğal olunmuş ərazilərdə yerləşdirilmiş] minalardantəmizləməişləriaparılır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq və qeyd-şərtsiz qələbə XX əsrin tarixində ən qanlı və faciəvi hadisələrdən biri olan Ermənistanla uzun sürən münaqişədə böyük nida işarəsi qoymuşdur...

Dağlıq Qarabağ və ona bitişik rayonlardan təxminən 30 il davam edən erməni işğalı dövründə qeyri-qanuni fəaliyyət məqsədləri ilə fəal şəkildə istifadə edilmişdir. Burada "boz bazarı" həm dövlət strukturları ilə bağlı Ermənistan şirkətləri, həm də iri beynəlxalq şirkətlər idarə edirdilər. Bu barədə daha ətraflı bizim araşdırmamızda.

Prezident İlham Əliyevin qəbul etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də nəzərdə tutulan beş əsas prioritetdən biri də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə təcavüzkar ölkə üzərində tam üstünlüyümüzün sübutu olmaqla yanaşı, həm də Azərbaycan xalqının bütün dünyaya özünəməxsus mesajıdır. Biz ədalətsizliklə heç vaxt barışmamışıq və milli maraqlarımızı qorumaq üçün "dəmir yumruq" kimi birləşmişik.[5]

Artıq yeni çərçivədə təqdim olunan "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin şahidiyik. Bərpa prosesi tarixi əhəmiyyət daşıyan abidələrimizin, sadəcə, qorunub saxlanılması ilə yanaşı, onun inkişaf etdirilməsi prosesini də əhatə etməlidir. Tarixdə Stalinqrad, Sarayevo, Xirosima hadisələri kimi faciələri xatırladan M.Cabbarov deyib: "Qarabağdakı hadisələr şüurlu şəkildə, onilliklər ərzində həyata keçirilən dağıntı prosesidir. İşğal zamanı təkcə tarixi abidələrimiz, infrastruktur obyektlərimiz, şəhər və kəndlərimiz dağıdılmayıb, regionun gözəl təbiətinə də çox böyük zərər vurulub.

ƏDƏBİYYAT

1. H.Ə.Piriyev və İ.H.Piriyev "Müstəqil Azərbaycanın sosial-iqtisai inkişafının əsas istiqamətləri", Bakı, Elm 2005, 344s
2. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı.
3. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" .
4. Prezident İlham Əliyev. Elmi redaktoru Ə. Həsənov. Bakı, 2004.s 871.
5. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyası ,39 s (Azərbaycan RespublikasıPrezidentinin 29.12.2012 tarixlifərmanıilətəsdiqedilmişdir).

SUMMARY

THE GREAT RETURN - THE CREATION OF INFRASTRUCTURE IN OUR LIBERATED TERRITORIES

Rzaguliyeva S.D.

We have already witnessed the "smart city" and "smart village" projects presented in a new framework. The restoration process should include not only the preservation of our historical monuments, but also the process of their development. Recalling tragedies such as the events in Stalingrad, Sarajevo and Hiroshima, Jabbarov said: "The events in Karabakh are a deliberate process of destruction over decades. During the occupation, not only our historical monuments, infrastructure facilities, cities and villages were destroyed, but also the beautiful nature of the region was severely damaged.

Keywords: *infrastructure, social, regional policy, state, economic policy, socio-economic developmen.*

РЕЗЮМЕ

БОЛЬШАЯ ОТДАЧА - СОЗДАНИЕ ИНФРАСТРУКТУРЫ НА НАШИХ ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Рзагулиева С.Д.

Мы уже видели проекты «умный город» и «умная деревня», представленные в новом формате. Процесс реставрации должен включать в себя не только сохранение наших исторических памятников, но и процесс их развития. Вспоминая такие трагедии, как события в Сталинграде, Сараево и Хиросиме, Джаббаров сказал: «События в Карабахе — это целенаправленный процесс разрушения на протяжении десятилетий. Во время оккупации были разрушены не только наши исторические памятники, объекты инфраструктуры, города и села, но и сильно пострадала прекрасная природа края.

Ключевые слова: *инфраструктура, социальная, региональная политика, государство, экономическая политика, социально-экономическое развитие*

XIX YÜZİLLİKDƏ ŞUŞADA NƏQLİYYAT VƏ RABİTƏNİN DURUMU HAQQINDA

Sadıxova G.N.
A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
hacihasanov@mail.ru

Açar sözlər: *Azərbaycan, Qarabağ, Şuşa, karvan, rabitə, nəqliyyat*

Ölkənin kiçik xanlıqlara parçalanması, feodal çəkişmələri təkcə iqtisadiyyatın deyil, həm də nəqliyyatın inkişafına mənfi təsir göstərdi. XIX əsrin birinci rübünün Rusiya-İran müharibələri zamanı döyüş əməliyyatları əsasən Azərbaycan ərazisində baş vermiş, bir sıra yolların və körpülərin dağılmasına gətirib çıxarmışdır.

Azərbaycan xanlıqları arasında ən çox ziyan Qarabağ xanlığına və onun mərkəzi Şuşa şəhərinə dəymişdi. Lakin bütün bunlar Azərbaycanın qonşu ölkələrlə qarşılıqlı əlaqələrini ciddi şəkildə poza bilmədi. Belə ki, mövcud karvan yolları, nəqliyyat vasitələri (araba, yük heyvanları) vasitəsilə daxili və xarici ticarət davam etdirilmişdi.

Tədqiq olunan dövrdə Şuşa Azərbaycanın həm daxili, həm də xarici ticarətində mühüm rol oynamışdı. Gəncə və Naxçıvan karvan yollarının yaxınlığında yerləşən Şuşa Cənubi Qafqaz və İranın bir sıra şəhərləri ilə əlaqə saxlayırdı. Bakı-Tiflis yolunun bir hissəsi Şuşa istiqamətinə yönəlirdi, Xudafərin körpüsünə qədər uzanaraq orada İranın ən mühüm karvan yolları ilə birləşirdi. Bu yolun uzunluğu Tiflisdən Gəncəyə qədər 194 verst, Gəncədən Şuşaya qədər isə 123 verst, Şuşadan Gorusa qədər 116 verst, oradan isə Abbasabad qalasına qədər 11 verst idi.

Gorus-Şuşa-Yevlax yolunun uzunluğu 192,75 verst təşkil edirdi. Bu yolun hərəkət etmək üçün ən çətin sahəsi Ağkörpü körpüsündən Şuşaya qədər uzunan 10,5 verstlik hissəsi idi [2, vər.64.]. Payız və qış bu yolda nəqliyyatın hərəkətini əhəmiyyətli dərəcədə çətinləşdirirdi. Yuxarıda adları çəkilən yollar Kür, Xaçın, Qarqarçay, Köndələnçay, Araz kimi çaylardan keçirdi. Həmin çaylarda və həmin yolların keçdiyi iri suvarma kanallarında 43 böyük və xırda körpü var idi [1, vər.435,488].

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra bu diyarın iqtisadi cəhətdən mənimsənilməsi nəqliyyatın və yolların vəziyyəti ilə sıx bağlı olmuşdu. Bunu nəzərə alaraq, çarizm XIX əsrin ortalarından başlayaraq yerli əhalinin qüvvələrindən istifadə edərək mövcud yolların keyfiyyətinin yaxşılaşdırılması üçün bəzi təmir işləri aparmağa başladı.

Bütün bu yollar boyunca kiçik karvansaraya bənzəyən kiçik qonaqlılar tikildi. Bu qonaqlıqlarda tacirlər və səyyahlar istirahət edib gecələyə bilərdilər. Lakin bu yolların heç biri çınqılla örtülmədiyinə görə ağır hava şəraitində hərəkət çox çətin olurdu.

Ötən əsrin 80-ci illərinin əvvəllərində Yevlax dəmir yolu stansiyasından Şuşaya gedən yolda bir sıra təmir işləri aparılmışdı. Bu yolun əhəmiyyətli bir hissəsinə çınqıl döşənmiş, buradakı taxta körpülərin bəziləri daş körpülərlə əvəz edilmişdi. Yevlax-Şuşa yolunun təmiri üçün yalnız xəzinədən 90 min manat vəsait xərclənmişdi [5, vər.45-46].

XIX əsrin axırlarında Şuşa-Gorus yolunda da nəqliyyat üçün tamamilə uyğun hala gələn təmir işləri aparıldı. Bu təmirə sərf olunan vəsaitin böyük hissəsi əhalidən alınan vergilər hesabına ödənilmişdi. Nəqliyyatın inkişafı təkcə yolların abadlaşdırılması ilə deyil, həm də üzərindəki körpülərin vəziyyətinin və möhkəmliyinin yaxşılaşdırılması ilə bağlı idi. Hərəkətin intensivliyinin artması, ticarət əlaqələrinin genişlənməsi Qarqarçay çayı üzərindən daha etibarlı körpünün tikilməsinə səbəb olmuşdu. Onun tikintisi XIX əsrin 90-cı illərinin sonunda başa çatdırıldı [1, vər.96.].

Tədqiq olunan dövrdə əsas nəqliyyat vasitələri camışlar, öküzlər, atlar, qatırlar, həmçinin araba və furqonlar olmuşdu. Minik vasitəsi kimi faytonlar, furqonlar və Qarabağ atlarından geniş istifadə olunurdu. Öküz və camışların qoşulduğu yük arabalarından geniş istifadə edilirdi. Onları çox zaman qarasaqqal arabaları və ya camış arabaları adlandırırdılar. Gediş-gəlişin ləngiməsinə baxmayaraq, bu arabalar şəhər yüklərinin daşınması zamanı o dövr üçün əvəzolunmaz nəqliyyat vasitəsi idi və mənbələrin birində qeyd olunduğu kimi, "...onlar dağılmış yollarımızda özlərini doğrultdular" [3, s.336].

Azərbaycanda ümumi iqtisadi inkişafla əlaqədar daha rahat nəqliyyat vasitələri meydana çıxmağa başladı, poçt və teleqraf quruldu, dəmir yollarının tikintisi onların inkişafına kömək etdi.

Şuşada hələ XIX əsrin birinci yarısında poçt idarəsi var idi. O, Cənubi Qafqazın bir sıra şəhərləri ilə əlaqə saxlayırdı [4, vər.630]. XIX əsrin 60-cı illərindən etibarən poçt işi əhəmiyyətli dərəcədə genişləndi. 1863-cü ildə Qafqaz poçt dairəsi yaradıldı, o da öz növbəsində 4 mərkəzi birləşdirdi: Stavropol, Yekaterinburq, Tiflis Şuşa və Bakını əhatə etdi [6, vər.10].

XIX əsrin 60-cı illərində Azərbaycanda teleqraf xətlərinin çəkilməsinə başlanıldı. XIX əsrin 70-ci illərinin sonlarında Şuşa artıq Gəncə və Tiflis ilə teleqraf rabitəsinə malik idi. Bu teleqraf xəttinin tikintisinə 18253 rubl sərf olunmuşdu. Şuşanın Gəncə teleqraf xəttinə qoşulması onun Bakı ilə də əlaqəsini gücləndirdi.

Gətirilmiş materiallar sübut edir ki, XIX əsrin ortalarında Şuşada nəqliyyat və rabitə şəhər həyatının bu sahələrinin inkişafının ilkin mərhələsində idi. Lakin bununla yanaşı Şuşa Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının məşhur mərkəzi kimi Azərbaycan və Qafqazın digər bölgələri, habelə qonşu ölkələrlə etibarlı əlaqəyə malik idi.

ƏDƏBİYYAT

1. AMEA TİEA ., F. 1, siy. 1, iş. 2361, v. 435, 488.
2. AR DTA., F. 130, siy. 1, iş. 15, v. 64.
3. Вермишев Х.А. Земледелие у государственных крестьян Закавказского края. - Тифлис, 1889, с. 336.
4. ГИА РФ (в Санкт-Петербурге), ф. 1263, оп. 1, д. 1068, лл. 630.
5. Там же, ф. 1268, оп. 1, д. 3, лл. 45-46.
6. Там же, ф. 1268, оп. 9, д. 477, лл. 10.

SUMMARY

ON THE STATUS OF TRANSPORT AND COMMUNICATION IN SHUSHA IN THE XIX CENTURY

Sadikhova G.N.

In this report, the author, on the basis of materials collected from reliable archival and other sources, briefly examines the situation in one of the areas of urban life, namely the state of urban transport and communications in Shusha in the 19th century.

The presented materials show that transport and communications in Shusha in the middle of the 19th century were at the initial stage of development of these branches of urban life. But, at the same time, Shusha, as a well-known center of the socio-political, economic and cultural life of Azerbaijan, had reliable ties with other regions of Azerbaijan, the Caucasus, as well as with neighboring countries.

Key words: *Azerbaijan, Karabakh, Shusha, caravan, communication, transport*

РЕЗЮМЕ

О СОСТОЯНИИ ТРАНСПОРТА И СВЯЗИ В ШУШЕ В XIX ВЕКЕ

Садыхова Г.Н.

В данном докладе автор, на основе собранных материалов из достоверных архивных и других источников, вкратце рассматривает положение одной из сфер городской жизни, а именно состояние городского транспорта и связи Шуши в 19 столетии.

Приведенные материалы показывают, что транспорт и связь в Шуше в середине 19 веке находились на начальном этапе развития этих отраслей городской жизни. Но, вместе с тем Шуша, как известный центр общественно-политической, экономической и культурной жизни Азербайджана, имела надежные связи с другими регионами Азербайджана, Кавказа, а также с сопредельными странами.

Ключевые слова: *Азербайджан, Карабах, Шуша, караван, связь, транспорт*

POSTMÜHARIBƏ DÖVRÜNDƏ QARABAĞDA SOSİAL-İQTISADİ PROBLEMLƏRİN HƏLLİ İSTİQAMƏTLƏRİ

Səlimova N.B.
Bakı Biznes Universiteti, Bakı, Azərbaycan
nezaketsalimova1@gmail.com

Açar sözlər *sosial –iqtisadi inkişaf, kommersiya infrastrukturu, nəqliyyat dəhlizi.*

Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi, rəşadətli Ordumu-zun gücü ilə 44 günlük müharibədə Azərbaycan öz beynəlxalq səviyyədə tanınmış dövlət sərhədlərini bərpa etdi. Vətən müharibəsində qazanılan qələbədən sonra dövlətimiz və onun Prezidenti cənab İlham Əliyev regionda əbədi sülhə nail olmaq üçün müxtəlif sə-viyyəli beynəlxalq görüşlərdə diplomatik səylərini uğurla davam etdirir. Azərbaycan Res-publikasının Prezidenti eyni zamanda informasiya və diplomatiya sahəsində də çox uğurlu siyasi gedişlər edərək Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmaqla döv-lətimizin ədalətli mövqeyini tutarlı və təkzibedilməz sübutlarla beynəlxalq ictimaiyətə qəbul etdirdi. Elə 6 aprel 2022-ci ildə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə keçirilən üçtərəfli görüşdə də Prezidentimizin siyasi uzaqgörənliyi, diplomatik bacarığı və liderlik keyfiyyətləri bir daha özünü büruzə verdi. Cənab Prezident bu hərbi, siyası və diplomatik qələbələrə Azərbaycan xalqının vahid yumruq kimi birləşməsi yolu ilə nail oldu. O, məhz xalqımızın birliyinə və bu birlikdən yaranan gücünə arxalanaraq beynəlxalq birlik qarşısında cəsarətlə dayanaraq, Azərbaycanın ərazi bütövlüyü, dövlət suverenliyi və müdafiə qabiliyyətinin, habelə dövlət təhlükəsizliyinin möhkəmləndiril-məsində uğurlu nəticələrə nail oldu.

Ermənilər uzun müddət işğal altında saxladığı ərazilərdə xalqımıza və dövlətçili-yimizə qarşı ağır cinayətlər törətmiş, Azərbaycan Respublikasının Qarabağ və ətraf yed-di rayonunda bütün infrastrukturu məhv etmişdilər.

Qarabağda Azərbaycanın şanlı qələbəsindən sonra işğaldan azad olunmuş ərazilə-rin bərpası, sürətli quruculuq işlərinin aparılması, sosial-məişət şəraitinin yaradılması, məcburi köçkünlərin öz doğma yerlərində məskunlaşdırılması və bölgənin iqtisadi fəallı-ğının artırılması dövlətin əsas vəzifələrindən birinə çevrilmişdir.

Elə bu məqsədlə ötən ilin yekunlarına dair müşavirədə cənab İlham Əliyev işgal-dan azad olunmuş ərazilərdə sürətli quruculuq işlərinin aparılmasını hökumətin qarşısında mühüm vəzifə kimi qoymuşdur. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidən-qurma işlərinin göstərilən istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur: İlk növbədə nəqliyyat-loqistika xidmətlərinin həyata keçirilməsi məqsədi ilə nəqliyyat dəh-lizlərinin yaradılması, xüsusilə Azərbaycanın tərkib hissəsi olan Naxçıvanla birbaşa əla-qələrin həyata keçirilməsi üçün Zəngəzur dəhlizinin, onunla paralel olaraq həmin dəhliz boyu avtomobil yolu, dəmiryolu, elektrik - qaz xətlərinin çəkilməsi, çoxsaylı infrastruktur obyektlərinin yaradılması, onların bazasında qədim ipək yolunun bərpası prioritet vəzifə kimi dövlətin daim diqqət mərkəzindədir. Ona görə də bütün siyasi, iqtisadi və diploma-tik vasitələrdən istifadə olunmaqla bu strateji layihəyə xüsusi diqqət yetirilir.

Qeyd olunan layihənin uğurla reallaşması Azərbaycanın Cənub və Şərq-Qərb dəh-lizlərinin qovşağına çıxmaqla, Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqaz -da strate-ji mövqe əldə etməsinə gətirib çıxaracaqdır. Bu yolun Qarabağın və bütövlükdə Azərbay-canın iqtisadi inkişafında əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycana daxil olan yüklər Bakı-Tblisi-Qars dəmiryolu xətti ilə Qarabağdan keçməklə Mehri dəhlizi vasitəsi ilə Naxçıvana və Türkiyəyə, oradan da Avropaya çatdırılacaqdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 4 yanvar 2021-ci il ta-rixli fərmanı ilə azad olunmuş ərazilərimizin bərpası, həmin ərazilərdə müxtəlif sosial-iq-tisadi, aqrar, loqistiq, enerji, turizm və s. layihələrin icrasını təmin etmək məqsədi ilə "Qarabağ Dirçəliş Fondu" yaradılmışdır. İşğaldan azad edilmiş ərazilərimizdə mədən sə-nayesinin, mineral suların, baramaçılığın, şərabçılığın, xalçaçılığın inkişaf etdirilməsi də həmin Fondun vəsaiti hesabına təmin ediləcəkdir.

Onu da nəzərə almaq lazımdır ki, qeyd olunan sahələrdə görülməli olan mühüm iş-lər hələ 2004-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisa-di inkişafı Dövlət Proqramı" (2004 – 2008 ci illər) kimi mühüm strateji sənəddə öz əksini tapmış, həmin sənəddə Yuxarı Qarabağ iqtisadi rayonunun gələcək inkişaf perspektivləri göstərilmişdir.

Bütün inkişaf proqram və layihələrinin həyata keçirilməsinin başlıca məqsədi əha-linin sosial rifahının yaxşılaşdırılması, vətəndaşlarımızın xüsusi həssas təbəqələrinin - əlillərin, şəhid ailələrinin, vətən müharibəsi iştirakçılarının və onların ailə üzvlərinin, tə-qaüdçülərin, aztəminatlı ailələrə verilən vəsaitlərin artırılmasını təmin etməkdir.

Dünya təcrübəsində misli görünməmiş bir layihənin Füzuli Hava limanının çox qı-sa müddət ərzində beynəlxalq standartlara uyğun şəkildə tikilib istifadəyə verilməsi, Zən-gilan və Kəlbəcər rayonlarının ərazilərində də belə hava limanlarının tikilməsinin planlaş-dırılması, işğaldan azad edilmiş digər ərazilərdə avtomobil və dəmiryol layihələrinin real-laşdırılması bütövlükdə həmin ərazilərə köçürüləcək əhalinin sosial-məişət şəraitinin yax-şılaşdırılmasına əlverişli şərait yaradacaqdır.

İşğaldan azad edilmiş ərazilərimizdə sosial obyektlərin tikintisinin planlaşdırılması və icrası, "ağıllı şəhər", "ağıllı kənd " layihələrinin uğurla həyata keçirilməsi ilə paralel şəkildə həmin ərazilərdə digər infrastruktur layihələrinin gerçəkləşdirilməsi sahəsində də mühüm işlər görülür ki, bunlar da öz doğma torpaqlarına qayıdacaq vətəndaşlarımızın so-sial rifah halının yaxşılaşdırılmasına yönəldilmiş, mühüm tədbirlər kimi qiymətləndiril-məlidir.

Qeyd olunan ərazilərdə infrastruktur potensialının əsas elementləri olan nəqliyyat, su təhcizatı və kanalizasiya, telekommunukasiya və enerji kimi infrastruktur sahələri ilə yanaşı kommersiya infrastrukturunun formalaşdırılması da əhalinin məşğulluğunun təmin edilməsi və beləliklə də onların sosial rifahınınn yüksəldilməsinə xidmət etməklə Qarabağ üzrə regional inkişaf strategiyasının mühüm şərti hesab oluna bilər.

Qarabağ regionun sosial-iqtisadi inkişafı qeyd olunanlarla məhdudlaşmır. Azad olunmuş rayonların və ərazilərin yüksək aqro-sənaye yönümlü inkişaf potensialını nəzərə alaraq məşğulluq səviyyəsinin yüksəldilməsi və əhalinin güzəranının daha da yaxşılaşdı-rılması məqsədi ilə həmin regionlarda vacib sosial struktur rolunu oynayan istehlak koope-rasiyası sisteminin dirçəldilməsi istiqamətində mühüm işlər görülür.

İstehlak korperasiyasının yaradılmasının başlıca məqsədi azad olunmuş rayonlarda və ilk növbədə, kənd yerlərində sosial infrastrukturun genişləndirilməsi və inkişaf etdiril-məsindən, istehlak malları bazarının sabit inkişafını təmin etməkdən ibarətdir ki, bu da əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcəkdir.

Qeyd olunan məqsədlərə daha tez nail olunması üçün yeni informasiya texnologi-yalarının tətbiqi yolu ilə elektron kommersiyanın inkişafını əsaslandıran infrastruktur ele-mentlərinin, həmçinin elektron ödəniş sistemlərinin tətbiqi mexanizmlərinin formalaşdı-rılması kimi pespektiv strategiyaların qəbuluna xüsusi önəm verilir.

Belə hala xüsusi diqqət yetirilməlidir ki, Azərbaycanın azad edilən Qarabağ re-gionunun coğrafi mövqeyi, həmin ərazidən Avropaya və Asiyaya çıxışın real imkanları-nın daha çox artması Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layi-hələrində daha fəal iştirakını gücləndirir. Məhz bu amili nəzərə alaraq Azərbaycan Res-publikasının Prezidenti İlham Əliyev bütün ikitərəfli və çoxtərəfli danışıqlarda və diplo-matik

təmaslarda, habelə geniş auditoriyaya ünvanlanmış müsahibələrində bu məsələləri xüsusi olaraq dünya ictimaiyyətinin və dövlətlərin rəhbərlərin diqqətinə çatdırır.

Hətta bir sıra qərb siyasətçiləri də etiraf edirlər ki, Azərbaycan ikinci Qarabağ mü-haribəsindəki danılmaz və möhtəşəm qələbəsi ilə qərbə və şərqə çıxışın qovşağında yerlə-şən və öz əzəli ərazisi olan Qarabağı erməni işğalçılarından azad etməklə özünün geosiya-si və geostrateji kursunu daha çox dəqiqləşdirmək imkanına malik oldu. Bütün bunlar Azərbaycana regional və beynəlxalq səviyyədə kifayət qədər iqtisadi, siyasi və hətta so-sial-mədəni üstünküklər verdi və onu bölgədə çox güclü bir regional, bəzi məqamlarda isə beynəlxalq oyunçuya çevrildi.

Artıq Qarabağda bərpa olunan enerji mənbələrinin istifadəsini, enerji səmərəliliyi-ni, ekoloji cəhətdən təmiz texnologiyaları, o cümlədən nəqliyyat vasitələrinin istifadəsini və digər sahələri əhatə edəcək yaşıl zona konsepsiyasının inkişaf etdirilməsinə başlanıl-mışdır. Bu məsələ ilə əlaqədar ölkənin daxili potensialının səfərbər edilməsi ilə yanaşı Beynəlxalq Bərpa olunan Enerji Agentliyi ilə çox səmərəli müzakirələr aparılmaqdadır.

Qeyd olunanlar Qarabağ bölgəsinin çox geniş turizm potensialının reallaşdırılması-na əlverişli şərait yaradır. Həmçinin bu bölgənin olduqca zəngin, misilsiz təbiətə və tarixi abidələrə malik olması bu imkanları daha da genişləndirməklə Azərbaycanın əsas turizm zonalarından birinə çevrilməsi prosesini daha da sürətləndirilməsini təmin edir.

Bölgədə yol sektorunun inkişafı da turizm potensialını genişləndirməyə və belə-lik-lə əhalinin sosial rifahının yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Qarabağ regionunun bərpası zamanı digər sahələrin də inkişafına, xüsusilə mədən sənayesinin, enerji istehsalının, mineral suların iştesalı və dünya bazarına çıxarılması, şərabçılıq, xalçaçılıq və digər sahələrin bərpası və inkişaf etdirilməsi respublikamızın iqti-sadi qüdrətinin artmasında əhəmiyyətli rola malik olacaqdır.

SUMMARY

DIRECTIONS FOR SOLVING SOCIO-ECONOMIC PROBLEMS IN KARABAKH IN THE POSTWAR PERIOD

Salimova N.B.

The article entitled “Directions for solving socio-economic problems in Karabakh during the post-war period” highlights various directions of the Karabakh region, shows the implementation mechanisms of infrastructure projects developed in these areas, their effectiveness. The article focuses on transport and communications, in particular the diplomatic activity of Prezident llham Aliyev at the regional and international levels in the opening of of Zangazur corridor, contacts with European and regional leaders and their role in resolving the Nagorno-Karabakh conflict.

Demining of areas, restoration of our destroyed cities and villages, safe return of the population to treir homes, tourism, energy, agrarian work are analyzed.

Key words: *Socio-economic development, Commercial infrastructure, transportation corridor.*

РЕЗЮЬМЕ

НАПРАВЛЕНИЯ РЕШЕНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИХ ПРОБЛЕМ КАРАБАХА В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД

Салимова Н.Б.

В статье под названием “Основные направления решения социально-экономических проблем послевоенный период в Карабахе” были рассмотрены вопросы, связанные с развитием социально-экономических вопросов в Карабахе в различных направлениях, механизмы исполнения подготовленных инфраструктурных проектов и их эффективность.

В статье особое внимание уделены дипломатической деятельности на международной и региональной уровнях Президетна Азербайджанской Республики Ильхама Алиева и его связям с руководительями региональных и европейских стран, его роли вокончательном решении Карабахского конфликта, открытие транспортных комуникаций, особенно Зангезурского коридора.

Анализируются вопросы, связанные с разминированием территорий, освобожденных от оккупациии, восстановлении разрушенных городов и сел, обеспечение безопасного возвращения беженцов в родные очаги, развития туризма, енергетики, аграрной сферы и т.д.

Ключевые слова: *социально-экономическая развития, коммерческие инфраструктуры, транспортные коммуникации.*

“BÖYÜK QAYIDIŞ” - İNSAN KAPİTALININ DEMOQRAFİK MƏSƏLƏLƏRİ

Süleymanova T.Ə.
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
tarana.suleymanova73@mail.ru

Açar sözlər: *insan kapitalı, demoqrafiya, sosial-iqtisadi inkişaf, innovativ cəmiyyət, təhsil*

Dünyada artan rəqabətə davam gətirmək üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas rol oynayır. İnsan kapitalı insanın cəmiyyətə inteqrasiyası şəraitində özünün biliyindən, bacarığından, intellektindən, peşəkarlığından, sağlamlığından, əməyindən, keyfiyyətli həyat şəraitindən tam istifadəsidir.

1990-cı ildən BMT ekspertlərinin hazırladığı “İnsan inkişafı” konsepsiyası cəmiyyətdə ön plana çəkilir. Respublikamızda bu iqtisadi inkişafın sosial-iqtisadi siyasətinin əsas vəzifələrdən biridir. XX əsrin axırlarında insanın inkişaf metodologiyası “insanlar iqtisadiyyatın inkişafına yox, iqtisadiyyat insanların inkişafına xidmət etməlidir” kimi qeyd olunmuşdur. Sosial-iqtisadi inkişafı yüksəltmək üçün intellekt səviyyəsi yüksək olan azad, sağlam düşüncə tərzinə malik insanları yetişdirmək lazımdır. Buna görə də sosial-iqtisadi inkişafa nail olmaq üçün dövlətin əsas məqsədi əhalinin rifahının yüksəldilməsi olmalıdır. Çünki, insanın inkişafı sosial-iqtisadi inkişafa öz təsirini göstərir. İnsanın inkişafının demoqrafik məsələləri doğumu, əhalinin sağlamlığını, uzunömürlülüyü, əhalinin yaşlaşmasını, reproduktiv sağlamlığı və digər əlaqəli məsələləri özündə birləşdirir. [2]

Respublikamızın müasir demoqrafik tarixini 1990 – 2002 - 2003-cü ildən sonrakı dövrlərə ayırmaq olar. 1990-cı ildən Sovetlər birliyi dağıldı və Azərbaycan Respublikasının bazar iqtisadiyyatı sisteminə keçidi özü ilə bir sıra iqtisadi və sosial problemlər də gətirdi. Eyni zamanda 1990-cı ildən Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etdi və 1 milyondan çox insanlarımızı qaçqın və məcburi köçkün vəziyyətinə saldılar. Həmin dövrlərdə əhalinin həyat səviyyəsi kəskin surətdə aşağı düşdü. Ölkədə böhranlı vəziyyət yarandı. [3]

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi dövlət müstəqilliyinin möhkəmləndirilməsinə şərait yaratdı. Belə ki, ölkənin sosial-iqtisadi, ictimai, siyasi, elmi, mədəni həyatında, beynəlxalq əlaqələrdə elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başlandı. Bu dövr Azərbaycan üçün yaxşıya doğru bir dönüş nöqtəsi oldu. Azərbaycanı böhran vəziyyətindən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin sosial-iqtisadi inkişafı üçün də tədbirlər görməyə başladı. Bu da özünün konkret nəticələrini 1990-2002-ci illərdə göstərdi. 2003-cü ildən başlayaraq Respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar, makroiqtisadi sabitlik, əhalinin sosial müdafiə sisteminin gücləndirilməsi, yoxsulluğun azaldılması və əhalinin həyat səviyyəsinin yüksəlməsi demoqrafik inkişafa təkan verdi.

1999-cu ildə ölkədə demoqrafik vəziyyəti yaxşılaşdırmaq, demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq məqsədi ilə “Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası” qəbul edilmiş və bunun əsasında Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2004-cü il tarixli Sərəncamı ilə “Demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı” təsdiq edilmişdir. 2004-cü ilin əvvəllərində qəbul edilmiş birinci proqram demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi - 2018" hesabatında inkişaf etməkdə olan ölkələr sırasında Azərbaycan Respublikası 3-cü yeri tutub. [5]

Hazırda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası onun layiqli davamçısı, özü kimi inandığı siyasi varisi — Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimiz bütün sahələrdə uğurlu inkişaf yolunda addımlayır.

2020-ci il 27 sentyabr – 10 noyabr tarixlərində 44 gün ərzində erməni vandalları tərəfindən 30 il işğal altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Müzəffər Ordumuzun sayəsində hərbi yolla işğaldan azad edildi. Dağlıq Qarabağda qazanılmış böyük Zəfər Azərbaycanın bütövlüyü uğrunda aparılan müharibənin parlaq hərbi-siyasi yekunu, möhtəşəm nəticəsidir.

İşğal zamanı erməni vandalları vəhşiliklər törədərək ərazilərimizdəki bütün infrastrukturu, evləri, uşaq bağçalarını, məktəbləri, xəstəxanaları, əkin sahələrini yerlə yeksan etmişlər. 2021-ci il 4 yanvar tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə “Qarabağ Dirçəliş Fondu” yaradılmışdır. Həmvətənlərimiz həmin fonda müəyyən məbləğdə ianələr etməklə güc-birlik nümayiş etdirirlər. [6]

Azərbaycan ölkəsi əhalisinin rifah halının daha da yaşxılaşdırılması üçün əsas diqqətini sosialyönümlü məsələlərin həllinə yönəltmişdir. Sosial rifahın daha da yaxşılaşdırılması məqsədi ilə yüksək, dayanıqlı, inklüziv və özəl təşəbbüslərə əsaslanan sosial-iqtisadi artımın sürətlənməsi, işğaldan azad edilmiş torpaqlara əhalinin qayıdışının təmin edilməsi Azərbaycanın yeni inkişaf magistralının əsas ideyasını təşkil edir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli

Prioritetlər" təsdiq edilmişdir. Ölkəmizdə sürətli inkişafın təmini üçün cəmiyyət, biznes və dövlət üçbucağını möhkəmləndirmək lazımdır. Bazar iqtisadiyyatında dövlətin rolunun islahatlar vasitəsi ilə effektiv və səmərəli şəkildə idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların ixracını artırmaq məqsədi ilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin əsas rolu olacaq. Bu məqsədə nail olmaq üçün dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən səmərəli makroiqtisadi siyasət çərçivəsinin formalaşmasını, iqtisadi inkişafın orta və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam bərpa edilməsini tələb edir. İqtisadi artımı yüksəltmək üçün gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsini yüksəltməyə nail olmaq olar. Davamlı və yüksək iqtisadi inkişafı hər bir vətəndaş öz həyatında hiss etməlidir. Bu prioritet vətəndaşların sosial vəziyyətindən, ərazicə yerləşməsindən asılı olmayaraq üç məqsədlə, birincisi, iqtisadi inkişafdan hər bir vətəndaşın bəhrələnməsi, ikincisi, yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət, üçüncüsü isə paytaxt və regionların tarazlı inkişafı əsasında uğurla həyata keçirilə bilər. [1]

Bu prioritetin uğurlu reallaşdırılması üçün dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətə reinteqrasiyaya nail olunmalıdır:

Qeyd edək ki, ölkəmizin ərazi bütövlüyünün bərpası xalqımızın çoxəsrlik tarixində əsas yeri tutur. Öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış həmvətənlərimizin işğaldan azad olunan torpaqlarda dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkəmizin iqtisadi fəaliyyətinə qovuşmasında bir zəncir rolunu oynayacaqdır. İşğaldan azad olunmuş torpaqlara qayıdan həmvətənlərin əvvəlki dövrlərdə olduğu kimi təhlükəsiz yaşayışı təmin edilməlidir. Regionumuz ölkənin ən sivil guşələrindən biri olmalıdır. Bu stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir.Bütün sahələrdə quruculuğa nail olunmalıdır, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan müasir komfortlu yaşayış mühiti yaradılmalıdır. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalıdır, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir.Yalnız belə olan halda işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür.

Dünyada artan rəqabətə davam gətirmək üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün də müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas rol oynayır. Bu prioritetin də uğurla reallaşdırılması üçün birincisi, XXI əsrin tələblərinə uyğun təhsilə, ikincisi, yaradıcı və innovativ cəmiyyətə, üçüncüsü isə vətəndaşların sağlam həyat tərzinə nail olunmalıdır. [1] [4]

Məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələli şəkildə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir və beləliklə "Ömürboyu təhsil"ə xüsusi diqqət yetirilməlidir. Təhsil sahəsində ümumi modernləşmə davam etdirilməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Gənc nəsli məktəb yaşından rəqəmsal texnologiyaları yiyələndirmək lazımdır. Onları yeni bacarıqlara, ixtisaslara və peşələra hazırlamaq lazımdır. Kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır. Güclü təhsil sayəsində yüksək peşə bacarıqlarına malik insan kapitalı formalaşdırmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır.

Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır. Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlirli orta və yüksək texnoloji sahələrin inkişafı təmin edilməlidir. Elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır

İnsanların uzunömürlülüyü və sağlam həyat tərzi təmin olunmalıdır. Bu da ölkədə səhiyyə sisteminin keyfiyyətindən birbaşa asılıdır. Müasir innovasiyaların səhiyyəyə tətbiqi sahəsində yüksək nəticələr əldə edilməklə, keyfiyyətli səhiyyə xidmətlərinin milli gəlirin yaranmasında payı artırılmalıdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ciil 2 fevral tarixli Sərəncamı
2. Tofiq Əvəz oğlu Quliyev. 2013. İnsan resurslarının idarə edilməsi (insan naminə)
3. http://www.e-qanun.az/
4. https://president.az/
5. http://scfwca.gov.az
6. https://az.wikipedia.org/wiki/Qarabağ_Dirçəliş_Fondu

SUMMARY

"GREAT RETURN" - DEMOGRAPHIC ISSUES OF HUMAN CAPITAL

Suleymanova T.A.

In order to further improve public welfare on the basis of the "Great Return" to Karabakh, to accelerate socio-economic development based on high, sustainable, comprehensive and private initiatives, to ensure the return of the population to the liberated lands, the Republic of Azerbaijan "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" . For the successful implementation of this priority, education in accordance with the requirements of the XXI century must come first, a creative and innovative society second, and a healthy lifestyle of citizens third.

***Keywords*:** *human capital, demography, socio-economic development, innovative society, education*

РЕЗЮМЕ

"ВЕЛИКОЕ ВОЗВРАЩЕНИЕ" - ДЕМОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА

Сулейманова Т.А.

В целях дальнейшего повышения общественного благосостояния на основе «Великого возвращения» в Карабах, ускорения социально-экономического развития на основе высоких, устойчивых, комплексных и частных инициатив, обеспечения возвращения населения на освобожденные земли, Республика Азербайджана «Азербайджан 2030: национальные приоритеты социально-экономического развития». Для успешной реализации этого приоритета на первом месте должно стоять образование в соответствии с требованиями XXI века, на втором – созидательное и инновационное общество, на третьем – здоровый образ жизни граждан.

Ключевые слова: *человеческий капитал, демография, социально-экономическое развитие, инновационное общество, образование.*

AZƏRBAYCANDA İQTİSADİ-COĞRAFİ RAYONLAŞMANIN TARİXİ VƏ YENİ RAYONLAŞMANIN ƏHƏMİYYƏTİ

Vəliyev A.C.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
a..valiyev1956@gmail.com

***Açar sözlər**: dövlət müstəqilliyi,* bazar iqtisadiyyatı, iqtisadi-coğrafi rayonlaşdırma*, Dövlət Proqramı, Qarabağ, Şərqi Zəngəzur*

Müstəqilliyə qədərki dövrdə təsərrüfat sistemində ərazi planlarının hazırlanmasında əsasən iqtisadi-coğrafi rayonlaşdırmadan istifadə olunurdu. Hazırki mərhələdə - bazar iqtisadiyyatının formalaşdığı dövrdə regionların səmərəli inkişafına nail olmaq, ixtisaslaşmış satış məhsulları istehsalını yerləşdirmək, əhalinin yüksək yaşayışını təmin etmək kimi kompleks problemləri həyata keçirilməsi məqsədi ilə iqtisadi-coğrafi rayonlaşdırma məhfumu yenidən gündəmə gəldi. Azərbaycan MDB ölkələri içərisində ilk dəfə olaraq regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) işlədi, eyni zamanda bu istiqamətdə böyük tədbirlər planı reallaşdı.

Qeyd etməliyik ki, iqtisadi-coğrafi rayonlaşdırma ölkənin idarə edilməsinin təşkili, regionlarda təsərrüfatın səmərəli qurulması və onun ixtisaslaşmasına əlverişli şəraitin yaradılması, ərazi üzrə regional siyasətin həyata keçirilməsi kimi məsələləri həll edir. Bunlarla yanaşı rayonlararası nəqliyyat-iqtisadi əlaqələrin təşkili, əmək ehtiyatlarından rayonlar üzrə səmərəli istifadənin təmin etməsi, regionların qeyri-bərabər inkişafının tədricən aradan qaldırılması kimi aktual məsələlərin həlli də iqtisadi-coğrafi rayonlaşdırmanın həyata keçirdiyi tədbirlər sisteminə aid edilir. İqtisadi-coğrafi rayonlaşdırma əsasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı və müxtəlif məqsədli ərazi layihələri həyata keçirilir.

Görkəmli rus coğrafiyaşünası V.M.Çetırkin rayonlaşdırmanın əhəmiyyətini yüksək qiymətləndirərək qeyd

edir ki, hər hansı bir ölkənin iqtisadi rayonlaşdırmasını aparmadan nəinki onun həqiqi öyrənilməsinə başlamaq olmaz, hətta bu cür tədqiqatlar özünün obyektiv elmi xarakterini itirər və hadisələrin mahiyyətini dərk etmək iqtidarına malik olmayan subyektiv təsvir olar [5].

7 iyul 2021-ci ildə Prezident İlham Əliyevin tarixi Fərman ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyən edildi və tarixi baxımdan böyük əhəmiyyət kəsb edən yeni iqtisadi rayonlar gündəmə gəldi. Bu Vətən müharibəsinin yekunu kimi ərazi bütövlüyümüzün və suverenliyinimizin təzahürü idi

Azərbaycanda iqtisadi-coğrai rayonlaşmanın tarixinə qısaca olaraq nəzər yetirək. İlkin olaraq XX əsrin ilk rübündə Azərbaycan torpaqlarının itirilməsi prosesini əks etdirən mərhələlərə diqqət yetirək [5]:

– 1918-1920-ci illərdə – Azərbaycan Xalq Cümhuriyyəti vaxtında;

– 1920-ci ilin aprel-noyabr aylarında – Azərbaycan SSR elan olunduğu gündən Ermənistanda sovet hakimiyyəti qurulanadək;

– 1920-ci ilin noyabrından 1920-ci ilin fevralınadək – Gürcüstanda sovet hakimiyyəti qurulanadək;

– ZSFSR təşkili və onun SSRİ tərkibinə daxil olmasına kimi – "müstəqil" Zaqafqaziya sovet respublikalarının fəaliyyət göstərdiyi dövrdə.

Bu mərhələlərin hər birinin özünəməxsus xüsusiyyətləri, incəlikləri olmuş və hadisələrin gedişinə təsir göstərmişdir. Regionda öz marağını güdən Rusiya bütün məqamlarda problemlərin "həllinə" ciddi təsir göstərmişdir.

20-ci illərin əvvəllərində, Azərbaycan Cümhuriyyəti dövründə təxminən 114 min kv.km əraziyə malik olmuşdur . Onun 97.298 kv.km mübahisəsiz, 16.6 min kv.km-i isə mübahisəli ərazilər hesab olunurdu. Ərazi məsələlərinin birtərəfli, daşnak- bolşevik sayağı "həlli" nəticəsində mübahisəli ərazilər bədnam qonşularımıza bəxşiş edilmişdir. Belə ki, 11min kv.km ərazimiz- əsasən Zəngəzur, Şərur-Dərələyəz qəzaları və Göyçə dairəsinin torpaqları Ermənistana verilmişdir. Nəticədə həmin illərdə Azərbaycanın 27.599 kv.km ərazisi itirilmişdir. XX əsrin 20-ci illərinin sonunda Azərbaycanda inzibati ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşdırma sistemi həyata keçirildi [5].

50-ci illərdə Azərbaycan EA-nın Coğrafiya İnstitutunun əməkdaşları tərəfindən ölkəmizin iqtisadi-coğrafi rayon şəbəkəsi müəyyən edildi. Bu dövrdə müharibənin yaratdığı dağıntıların aradan qaldırılması üçün məhsuldar qüvvələrin geniş inkişafı tələb olunurdu. Aparılan iqtisadi-coğrafi rayonlaşdırma elmi cəhətdən daha düzgün hesab edilir. Belə ki, neft-qaz sənayesi, pambıqçılıq, meyvəçilik kimi sahələrlə yanaşı, neft-kimya, metallurgiya, maşınqayırmanın yeni sahələri, kənd təsərrüfatının ixtisaslaşmış bitkiçilik sahələrinə xüsusi diqqət verilmişdir. "Azərbaycan SSR-in coğrafiyası" dərsliyində ölkəmizin iqtisadi-coğrafi rayon şəbəkəsi bu şəkildə verilmişdir:

1. Abşeron-Qobustan; 2. Kirovabad-Daşkəsən; 3. Kür-Araz; 4.Lənkaran-Astara; 5. Nuxa-Zaqatala; 6. Quba-Xaçmaz; 7. Naxşıvan MR; 8. Dağlıq Qarabağ Muxtar Vilayəti; 9. Kəlbəcər-Laçın

50-ci illərdə aparılan rayonlaşdırmadan xeyli vaxt ərzində elmi-tədqiqat, tədris-metodiki və ərazi planlaşdırılması sahələrində istifadə olunmuşdur. İlk dəfə olaraq müəlliflər rayonları "İqtisadi-coğrafi rayon" adlandırmışlar [5].

Azərbaycan ərazisində XX əsrin 60-cı illərində də müəyyən inzibati dəyişikliklər aparıldı. Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli fərmanına əsasən rayonların istehsalat prinsipləri üzrə təşkili həyata keçirildi. 10 respublika tabeliyində şəhər (Bakı, Kirovabad, Sumqayıt, Mingəçevir, Əli-Bayramlı, Daşkəsən, Dəvəçi, Yevlax, Naftalan, Nuxa), 1 muxtar respublika tabeliyində (Naxçıvan), 2 muxtar vilayət tabeliyində (Şuşa, Stepanakert) şəhərlər və 38 kənd rayonları təşkil olundu. Kənd rayonlarının 3-ü Naxçıvan MSSR-na (Naxçıvan, Culfa, Noraşen), 4-ü DQMV-nə (Hadrut, Mardakert, Martuni, Stepanakert) daxil idi. Lakin nöbəti illərdə də inzibati-ərazi bölgüsündə bəzi dəyişikliklər aparılmışdır: Abşeron, Şuşa (1963), Naftalan (1967), Nəsimi (1969) rayonları təsis olunmuş və başqa inzibati yeniliklər həyata keçirilmişdir.

İqtisadi-coğrafi rayonlar 1970-ci illərin sonunda yeni dəyişikliklərə məruz qaldı. Ölkədə formalaşan iqtisadi tərəqqini, məhsuldar qüvvələrin ərazi təşkilini, sənaye mərkəzləri və qovşaqlarının təsirini nəzərə alaraq 13 bölgədən ibarət iqtisadi rayonlar şəbəkəsi yaradıldı: Abşeron, Kirovabad, Qazax, Mil-Qarabağ, Muğan-Salyan, Şirvan, Şəki, Lənkəran, Xaçmaz, Arazboyu, Kəlbəcər, Naxçıvan MR, DQMV. 70-ci illərin rayonlaşdırma şəbəkəsindən müstəqillik illərinə qədər istifadə olunmuşdur [5].

Müstəqillik əldə edildikdən və yeni inkişaf mərhələsinə keçildikdən sonra Azərbaycanın müasir geosiyasi vəziyyəti, təbii şəraitin xüsusiyyətlərini əsas götürməklə aşağıdakı iqtisadi-coğrafi rayonlar ayrılmışdır:

1) Naxçıvan, 2) Abşeron, Bakı şəhəri ilə birlikdə, 3) Şəki-Zaqatala, 4) Gəncə Qazax, 5) Quba-Xaçmaz, 6) Yuxarı Qarabağ, 7) Lənkəran-Astara, 8)Kəlbəcər-Laçın, 9) Dağlıq Şirvan, 10) Aran.

7 iyul 2021-ci il tarixindən etibarən Azərbaycanın yeni iqtisadi-coğrafi rayonlaşması aparılmış və aşağıdakı bölgü müəyyən edilmişdir:

1. Bakı iqtisadi rayonu (Bakı şəhəri); 2. Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları); 3. Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı

rayonları);4. Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları); 5. Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları); 6. Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları); 7.Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları); 8. Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları); 9. Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları); 10. Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); 11. Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); 12. Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları); 13. Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları); 14. Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları) [1].

Müasir dövrdə yeni bazar münasibətlərinə uyğun iqtisadi əlaqələrin qurulması, ərazi strukturlarının yaradılması rayonlaşdırma qarşısında daha mürəkkəb tələblər qoyur, yəni bütün növ regional tədqiqatların yenidən qurulması, regionların mövcud olan təbii, iqtisadi, sosial, demoqrafik və s. potensiallarından əlaqəli şəkildə istifadə kimi məsələləri aktuallaşdırır. Bu baxımdan işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılması obyektiv zərurətdən irəli gəlir. Azərbaycan iqtisadiyyatının inkişafı etdirilməsi, rayonlarımızın iqtisadi potensialının genişləndirilməsi üçün vacib addımdır.

İşğaldan azad edilən ərazilərimizdə sənaye, turizm və aqrar sektorda böyük imkanlar mövcuddur. İqtisadi rayonların yeni bölgüsü bu potensial imkanlardan səmərəli istifadə etməyə, ümumuyyətlə, Azərbaycanda iqtisadi inkişafın sistemliliyi baxımından ən doğru addım olmaqla iqtisadi inkişafın daha qısa zamanda formalaşmasına stimul yaradacaqdır. Qeyd etməliyik ki, respublikamızın qarşısında duran piroritet məsələ, qələbədən sonrakı dövrdə doğma torpaqlarından köçkün düşən insanların öz yerlərinə qayıdışını təmin etmək, bununla da həmin ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasını təşkil etməkdən ibarətdir.

İqtisadi rayonların yeni bölgüsü özündə tarixi reallığı və iqtisadi səmərəliliyi əks etdirir. Beləki, işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və doğma torpaqlara əhalinin qayıdışı istiqamətində aparılan məqsədyönlü tədbirlərin həyata keçirilməsi buna misal ola bilər. İşğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsü vahid proqram əsasında həmin ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməyə imkan verir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması və yeni təsnifata daxil edilməsi həm strateji baxımdan, həm iqtisadi baxımdan, həm də təbii ki, tarixi baxımdan çox əhəmiyyətli və vacib bir qərar olmaqla bərabər, tarixi ədalətin bərpasıdır [3].

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsinə, Azərbaycan torpaqlarının tarixi adlarının bərpasına əhəmiyyətli töhfələr verəcək.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.
2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə "Bakı şəhəri, 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/5457/print/.
3. Qarayeva, S. "Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması tarixi ədalətin bərpasıdır". https://525.az/news/171825-serqi-zengezur-iqtisadi-rayonunun-yaradilmasi-tarixi-edaletin-berpasidir.https://president.az/articles/50975.
4. İqtisadi rayonlaşdırma. https://www.azerbaijans.com/content_464_az.html.
5. Mərdanov İ.İ., Ağayev T.D., Abdullayeva Z.H., Eldarov N.Ş. Fiziki və iqtisadi coğrafi rayonlaşdırma:dərs vəsaiti. Sumqayıt Dövlət Universiteti.sdu-nun redaksiya və nəşr işləri şöbəsi,2017.-296s.

SUMMARY

HISTORY OF ECONOMIC AND GEOGRAPHICAL ZONES AND THE SIGNIFICANCE OF NEW ZONES IN AZERBAIJAN

Veliyev A.J.

The article reflects the history of economic and geographical zoning in Azerbaijan and the importance of the new zoning. The importance of economic and geographical zoning in addressing issues such as the organization of the country's governance, the effective establishment of the economy in the regions and the creation of favorable conditions for its specialization, the implementation of regional policy is emphasized. The article provides

information about the economic and geographical zoning of Azerbaijan in the 1950s, 1970s and years of independence, and touches on the stages of the process of loss of Azerbaijani lands in the first quarter of the twentieth century. The strategic, economic and historical significance of the establishment and re-classification of the Karabakh and East Zangazur economic regions is valuable, especially as the restoration of historical justice.

Key words: *state independence, market economy, economic-geographical zoning, State program, Karabakh, Eastern Zangezur*

РЕЗЮМЕ

ИСТОРИЯ ЭКОНОМИЧЕСКИХ И ГЕОГРАФИЧЕСКИХ ЗОН И ЗНАЧЕНИЕ НОВЫХ ЗОН В АЗЕРБАЙДЖАНЕ

Велиев А.Дж.

В статье отражена история экономико-географического районирования в Азербайджане и значение нового районирования. Подчеркнута важность экономико-географического районирования в решении таких вопросов, как организация управления страной, эффективное становление экономики в регионах и создание благоприятных условий для ее специализации, реализация региональной политики. В статье представлены сведения об экономико-географическом районировании Азербайджана в 1950-х, 1970-х и годах независимости, а также затронуты этапы процесса утраты азербайджанских земель в первой четверти XX века. Стратегическое, экономическое и историческое значение создания и реклассификации Карабахского и Восточно-Зангезурского экономических районов ценно, прежде всего, как восстановление исторической справедливости.

Ключевые слова*: государственная независимость, рыночная экономика, экономико-географическое районирование, Государственная программа, Карабах, Восточный Зангезур.*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ GƏNCLƏRLƏ SOSİAL İŞ VƏ GƏNCLƏRİN İŞSİZLİK PROBLEMİNİN HƏLLİ

Yusifova N.Ə.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nl.kerimzade@gmail.com

Açar sözlər: *işğaldan azad edilmiş, cəmiyyət, sosial təminat,müharibə*

Sosial iş peşəsi insan hüquqları ilə sıx əlaqəli bir peşədir. Sosial ədaləti təmin etmək və fərdlərin öz mühitində və cəmiyyətlərində sosial fəaliyyətlərini artırmaq məqsədi daşıyır. Gücləndirmə fərdlərə şəxsi, şəxsiyyətlərarası və siyasi güclərini ortaya qoymağı hədəfləyən bir yanaşmadır. Bunları icra edən zaman sosial işcilərkonkret vəzifələri həyata keçirirlər. Bu vəzifələrin ən vacibi xüsusilə qaçqın və məcburi köçkünlərlə işləyən zaman hər bir fərdin, ailənin və cəmiyyətin səlahiyyətlərinin mövcud olmasıdır. Sosial xidmətin müdaxiləsinin əsas bünövrələrindən biri fərdlərin səlahiyyət verməsidir.

Sosial işin bir məqsədi olaraq məcburi köçkün və qaçqın ailələrində, qruplarda və icmalarda problemlərin aradan qaldırılması və uyğunlaşma səviyyəsinin artırılmasına yönəldilməlidir. Başqa sözlə, öhdəliklərinin açılması məqsədi bu insanlara başqaları ilə münasibət qurmağa kömək etmək və onların güclənməsində digər sosial xidmətlər ilə "əlaqə qurma" imkanlarını artırmaqdır.

Bütün bu prosesləri nəzərə aldıqda, sosial işçinin əsas rolunun onların təbliğat, məlumat, resurslara çıxış və səlahiyyətlər kimi hüquqlarının olduğunu bildirməkdir. Bu hüquqların icrası zamanı gəlinən nəticə inkişaf və şəxsiyyət mədəniyyətinin sağlam inteqrasiyasıdır.

Sosial iş təcrübəsi, sosial elmlər, humanitar elmlər və mədəni biliklər haqqında məlumat əldə edərək, sosial işçilər fərd, ailəsi və ətraf mühit arasındakı interfeysə diqqət yetirirlər. Sosial, iqtisadi, siyasi, mənəvi və mədəni amillərin şəxslərin və icmaların sağlamlığına və rifahına təsirini tanıyırlar. Buna görə sosial işçilər insanın rifah halının yaxşılaşdırılması, rifaha təsir edə biləcək hər hansı xarici məsələlərin, məsələn, bərabərsizlik, ədalətsizlik və ayrı-seçkilik kimi problemlərin müəyyənləşdirilməsi və aradan qaldırılmasında ikiqat diqqət mərkəzində olurlar.

İnsanın sosial uyğunlaşma problemləri sosial işin ən vacib ümumi nəzəri problemləri arasındadır. Sosial uyğunlaşmanın effektivliyi, fərdin cəmiyyətin qanunvericilik, mənəvi standartları və ənənələrini pozmadan, çoxsaylı (fəlsəfi) uyğunlaşma maneələrini məhsuldarlıqla dəf etməsi, müxtəlif sosial ilə müvəffəqiyyətlə qarşılanmasına imkan verən uyğunlaşma strategiyalarını asanlıqla tapan və ya formalaşdırdığı həyat prosesi ilə təsdiqlənir. icmalar,

psixoloji sabitlik və emosional məmnunluq vəziyyətini qoruyarkən, müstəqil sosial uyğunlaşma prosesini yalnız dünyagörüşləri arasında ciddi uyğunsuzluq olmadıqda davamlı adlandırmaq olar.

Azərbaycanın dünya ölkələri ilə davamlı iqtisadi inkişafın təmin olunması, inkişafı, sosial-iqtisadi sahələrdə həyata keçirilən islahatlar maddi rifahının yüksəlməsində böyük əhəmiyyət kəsb edir. Qazanılan iqtisadi uğur ölkəmizin davamlı inkişafında, sosial problemlərin aradan qaldırılmasında yeni cığırlar acıb.

İşsizliyin həlli təbii ki, yeni iş yerlərinin yaradılmasıdır. Yaradılmalı olan iş yerlərinin sayı işsizlik səviyyəsindən və iş axtarmaq üçün işçi qüvvəsinə daxil olan insanların sayından asılıdır. İşsizlik 6%-7%-dən yuxarı qalxdıqda və orada qaldıqda, bu, iqtisadiyyatın kifayət qədər yeni iş yerləri yarada bilməyəcəyi deməkdir. Bu zaman hökumət işə qarışır.

Qaçqınların və məcburi köçkünlərin qaytarılması üçün hər hansı bir strategiyaya başlamazdan əvvəl aşağıdakıları nəzərə alaraq problemin əhatə dairəsini qiymətləndirib və anlamaq lazımdır.Yeni təyinat yerlərinə gəldikdən sonra geri qayıdan və ya məskunlaşan şəxslər uzunmüddətli iqtisadi və sosial inkişafı təşviq etmək üçün reinteqrasiya və reabilitasiya dəstəyinə ehtiyac duyacaqlar. Qaytarma və ya köçürülmə proseslərindən davamlı inkişaf fəaliyyətlərinə problemsiz keçiddə böyük boşluq mövcuddur. Sonuncu fəaliyyətlər geri qayıdan və ya məskunlaşan insanların tərk edilməməsini, lakin uzun müddət ərzində həyatlarını bərpa etmək üçün lazım olan dəstəyin verilməsini təmin etmək üçün çox vacibdir.

ƏDƏBİYYAT

1. azedu.az/az/news/1111
2. http://unazerbaijan.org/az/un_agencies/birl%c9%99smis-mill%c9%99tl%c9%99r-t%c9%99skilatinin-qacqinlar-uzr%c9%99-ali-komissarligi/
3. http://scfwca.gov.az/store/media/U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20BMT%20Konvensiyas%C4%B1.pdf
4. https://www.usaid.gov/sites/default/files/documents/1865/USAID_CEFM_Resource-Guide.PDF

SUMMARY

SOCIAL WORK WITH YOUNG PEOPLE IN THE LIBARATED AREAS AND SOLVING THE YOUTH UNEMPLOYMENT PROBLEM

Yusifova N.A.

Ensuring sustainable economic development and development of Azerbaijan with the world countries, reforms in the socio-economic spheres are of great importance in improving the material well-being. The economic success achieved has opened new avenues for the sustainable development of our country and the elimination of social problems.

The solution to unemployment, of course, is to create new jobs. The number of jobs to be created depends on the level of unemployment and the number of people entering the workforce to look for work. When unemployment rises above 6% -7% and stays there, it means that the economy will not be able to create enough new jobs. In this case, the government intervenes.

***Keywords**: liberated from occupation, society, social security, war*

РЕЗЮМЕ

СОЦИАЛЬНАЯ РАБОТА С МОЛОДЕЖЬЮ И РЕШЕНИЕ ПРОБЛЕМЫ БЕЗРАБОТИЦЫ СРЕДИ МОЛОДЕЖИ НА НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Юсифова Н.А.

Обеспечение устойчивого экономического развития и развития Азербайджана со странами мира, реформы в социально-экономической сфере имеют большое значение в улучшении материального благосостояния. Достигнутые экономические успехи открыли новые пути устойчивого развития нашей страны и устранения социальных проблем.

Решение проблемы безработицы, конечно же, заключается в создании новых рабочих мест. Количество создаваемых рабочих мест зависит от уровня безработицы и количества людей, вступающих в ряды рабочей силы в поисках работы. Когда безработица поднимается выше 6%-7% и остается на этом уровне, это означает, что экономика не сможет создать достаточное количество новых рабочих мест. В этом случае вмешивается правительство.

***Ключевые слова**: освобожденный от оккупации, общество, социальная защищенность, война.*

III BÖLMƏ
QARABAĞIN MƏDƏNİYYƏT TARİXİ

III СЕКЦИЯ
КУЛЬТУРНАЯ ИСТОРИЯ КАРАБАХА

III SECTION
CULTURAL HISTORY OF KARABAKH

XXI ƏSR QARABAĞ ŞAİRİ XURŞİDBANU NATƏVANIN AZƏRBAYCAN ƏDƏBİYYATINDA ROLU

Allahquliyeva C.M.
Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci, Sumqayıt, Azərbaycan
cavahir.allahquliyeva77@gmail.com

Açar sözlər: *şair, ədəbiyyat, Qarabağ, mədəniyyət, ictimai xadim, ədəbi məclis*

Qarabağ torpağı tarixən azərbaycan mədəniyyətinə görkəmli incəsənət xadimləri bəxş edib. Xüsusi ilə XIX əsrdə Qarabağ incəsənətinin "qızıl dövrü" başladı, Şuşa Qafqaz mədəniyyətinin mərkəzinə çevrildi. Hər sahədə olduğu kimi ədəbiyyatda da bu dövr bir çiçəklənmə dövrü oldu. Zamanının şair və alimi Mir Möhsün Nəvvabın "Tərkireyi-Nəvvab" əsərində bu illərdə Şuşada yaşamış 100-dən çox yazıçının adı sadalanır. Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Mirzə Mehdi Xaqani, Əhməd bəy Cavanşir və başqaları bu dövrün məşhur şəxsiyyətləridir.

Bu dövrə təsadüf edən parlaq simalarından biri də Azərbaycan ədəbiyyatı, mədəniyyəti tarixində öz yeri, xidmətləri olan Xürşidbanu Natəvandır. Azərbaycan mədəniyyətinə yüksək dəyər verən Ulu öndər Heydər Əliyev söyləmişdir: "Azərbaycanda keçmiş əsrlərdə də qadın, xanım şairlər olmuşdur. Məhsəti Gəncəvi, Ağabəyimağa Ağabacı, Heyran xanım, Aşıq Bəsti, Xurşidbanu Natəvan - onlar keçmiş əsrlərdə Azərbaycan qadınının nə qədər yüksək mənəvi-intellektual zirvələrə qalxmasını sübut etmişlər və bütün dünyaya nümayiş etdirmişlər. Bunlar bizim milli iftixarımızdır...Şair olmaq asan deyil. Təkcə bizim xalqımızın tarixində yox, bütün dünya xalqlarının tarixində şairlər, yazıçılar, alimlər adətən kişilərdən olubdur. Ancaq qadınlardan olan şairlər xüsusi hörmətə malikdirlər. Onlar gərək nə qədər yüksək istedada malik olsunlar ki, kişilərlə bərabər səviyyədə, bəlkə onlardan da üstün səviyyəyə qalxaraq, şerlər yazaraq, böyük şairlər dəstəsinə qoşula bilsinlər" [2].

Xurşidbanu Natəvan sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı İbrahimxəlil xanın nəvəsi idi. 6 avqust 1832-ci ildə Şuşada anadan olan qız ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda "Dürrü yekta" (Tək inci), el arasında isə "Xan qızı" çağırmışlar [3].

Natəvan uşaqlıqdan elmə böyük həvəs göstərir və xüsusi qabiliyyətləri ilə seçilirdi. O, dövrünün tanınmış alim və müəllimlərin rəhbərliyi altında ev təhsili almışdır. Mükəmməl təhsil alan Natəvan ərəb, fars və rus dillərini yaxşı bilir, daha sonralar fransız dilini də tez mənimsəmişdi. Natəvan ədəbiyyata maraq göstərdiyi üşün Şərq ədəbiyyatını dərindən bilirdi. O Firdousi və Nizaminin, Hafiz və Füzulinin yaradıcılığını öyrənir, mütaliyə edir, xalq yaradıcılığına da həssaslıqla yanaşırdı.

Natəvan xeyirxahlığı, xeyriyyəçiliyi, əliaçıqlığı, yoxsullara kömək etməsi, incə, lirik şeirləri, yaşadığı Şuşa şəhərinin abadlığına,ədəbi-mədəni həyatının canlanmasına böyük zəhmət və vəsait sərf etməsi ilə xalqın böyük məhəbbətini qazanmışdı. Onun çoxtərəfli istedadı, şairliklə bərabər gözəl rəsmlər çəkməsi, musiqini, muğamı bilməsi dövrünün görkəmli şəxsiyyətləri tərəfindən yüksək dəyərləndirilib. Şairin yaradıcılığı daim diqqət mərkəzində olub. Azərbaycan Prezidenti "Xurşidbanu Natəvanın anadan olmasının 80 illik yubileyinin keçirilməsi haqqında" 3 aprel 2012-ci il tarixli sərəncam imzladıqdan sonra bu gözəl şair və ictimai xadimin həyat və yaradıcılığına dair araşdırmalar daha da intensivləşib.

Araşdırmalardan belə məlumdur ki Natəvan yaradıcılığa hələ gənc yaşlarından təxminən 1850-ci illərdən başlayıb. Lakin "Xurşid" imzası ilə yazdığı ilk şeirlərləri qorunub saxlanmayıb və dövrümüzə çox cüzi bir hissəsi gəlib çatmışdır. Şairənin ilk şeirlər toplusu 1928-ci ildə Salman Mümtaz tərəfindən nəşr edilmişdir. Məzmuna görə Xurşidbanunun şeirləri 4 hissəyə bölünürdü: məhəbbət şeirləri, təbiət gözəlliyinə həsr olunmuş şeirlər, müasirlərinə yazdığı qafiyələr və qəmli şeirlər.

Xurşidbanu Natəvanın şeirlərinin lirik qəhrəmanı onun elə özünü təcəssüm etdirir – onun taleyini, düşüncələrini, ağrı və acılarını, sevincini və kədərini, həyatda gördüyü yaxşılıqları və pislikləri, işıqlı və zülmətli günlərini, heyrətini və məyusluğunu, ümumiyyətlə onun bütün səmimiyyəti ilə yaralı poetik ruhunu.

Natəvanın bədii irsində erkən dünyasını dəyişən oğlunun xatirəsinə yazdığı şeirlərin xüsusi yeri var ("Ağlayıram", "Getdim", "Oğluma" və s.). Bu şeirlərdə o, oğluna olan sevgisindən, sevimli oğlunu itirən ananın yaşadığı əzablardan bəhs edir. Natəvan misralarda ağrılar deyir ana ürəyinin yanqısından danışır, öz taleyinnən şikayətlənir, onun can parçasını əlindən alan qəddar zamanı lənətləyir. O müqəddəs ana məhəbbətini olduqca ucalara qaldırır, onu sevgi əfsanələrinin səviyyəsində poetik ifadələrlə əks etdirir, kədərli misralarında etiraflarını klassik sevgi poeziyasına xas olan obrazlar, metaforalar və rəmzlərlə ifadə edir. Onun qəzəllərində oğlu ilə əbədi ayrılıqa məhkum olmuş ananın faciəli obrazı oxucuya yüksək təsir edə biləcək bir səviyyə ucalmışdır. Lakin şairin kədəri nə qədər dərin olursa olsun onun yaradıcılığın ümumi ruhuna baxdıqda görürük ki, bu qəm onun həyat eşqinin üzərindən xətt çəkə bilmədi, onu insanın varlığından, təbiətin əzəmətini və gözəlliyini hiss etmək kimi duyğulardan məhrum etmədi. Bu şeirlərdə ana kədərinin izi ilə bərabər sosial motivlər, həyat eşqi və xoşbəxtlik xəyalları da eşidilir. Natəvanın şeirlərinin məhz bu xüsusiyyəti onları yalnız bir insanın şəxsi duyğuların təsviri çərçivəsindən çıxarır və daha geniş oxucu kütləsinə maraqlı edir.

Beləliklə Xurşidbanu Natəvanın poeziyasının əsas motivlərini həyata eşq, xoşbəxtlik arzuları, sevimli oğlunu itirmiş ananın kədəri, cəmiyyətdə qadınların səlahiyyətlərinin itirilməsi ilə bağlı şikayətlər və s. mövzular təşkil edir. Natəvan şeirlə yanaşı, rəssamlıqla da məşğul olub. O, mənzərələr, çiçək təsvirləri çəkib, gözəl sənət əsərləri və sənətkarlıq nümunələrini yaradıb.

Xurşidbanu Natəvan həm də öz dövrünün qabaqçıl, mütəfəkkir insanlarından biri olub. O dövrdə Azərbaycanda qadın təcrid olunmuş həyat tərzi sürməli idi, lakin Natəvan bu adətləri pozaraq qeyri-adi cəsarət və qətiyyət göstərdi. 1849-cu ildə Natəvan Dağıstanlı zadəgan, general-mayor Xasay Xan Usmiyevlə evləndi. Həmin il gənc ailə Tiflisə köçdü. O vaxtlar artıq tanınmış şairə olan Natəvan sevdiklərindən və doğma Azərbaycandan ayrılmasından çox üzüldü. 1858-ci ildə Bakıya gəlir, 1861-ci ildə isə həmişəlik doğma Şuşaya qayıdır.

Bütün varlığı ilə Qrabağ torpağına bağlı olan Natəvan Şuşaya qayıdannan sonra 1872-ci ildə özünün rəhbərlik etdiyi "Məclisi-üns" poetik məclisini təşkil etdi. O dövrün ən yaxşı şairləri dərnəyin məclislərinə toplaşır, şeirlər oxuyur, Şərq poetikasının problemlərindən bəhs edir, fəlsəfi mövzularda söhbətlər aparırdılar. Bu zaman Natəvan artıq məşhur şairə idi. Onun incə lirik və məhəbbət-fəlsəfi qəzəlləri gözəlliyi və zərifliyi ilə qəlbləri fəth etmişdir. Onları təkcə Qarabağda deyil, bütün Azərbaycanda yaxşı tanıyırdılar. Natəvanın istedadını, gözəlliyini, nəcibliyini müasirləri - şairlər Zakir, Mir Möhsün Nəvvab, Mirzə Məmmədqulu tərənnüm etmişlər.

Natəvan dövrünün görkəmli ədəbiyyatçıları, ictimai xadimləri, mütəfəkkirləri ilə də müxtəlif ədəbi məclislərdə görüşmüş, onlarla fikir mübadiləsi aparmışdır. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundov ilə tanışlığı onun ictimai məsələlərə marağının daha da artmasına səbəb olur, xalqın rifahı naminə daha böyük səylə işləməyə ruhlandırırdı.

Natəvanın şəxsiyyət kimi özünü təsdiqləməsində, vətənə, doğulduğu torpağa bağlı olmasında həm də mənsub olduğu soyun, kökün, nəslin böyük təsiri var: "Xurşidbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olub. O, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoyub. Bu fenomenin meydana gəlməsinin bir neçə əsas səbəbi var. Bunlardan birisi şairənin soy köküdür. Yəni, Natəvanda iki böyük nəslin – Cavanşirlərin və Ziyadoğlu Qacarların qanı var" [4].

Xurşidbanu Natəvan öz zadəganlığı və xeyriyyəçiliyi ilə təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada məşhur olan dövrünün görkəmli şəxsiyyətlərindən idi. Oğlu ilə bağlı yaşadığı faciə onun şeirlərinə kədərli çalarlar artırsa da, şəxsi həyatındakı heç bir sarsıntı onu xeyriyyəçilikdən və doğma şəhərinə qayğı göstərməkdən yayındıra bilməzdi. Haqlı olaraq mədəniyyət beşiyi sayılan Şuşa şəhərinin inkişafında və müasirləşməsində Natəvanın əvəzsiz rolu olmuşdur. Onun əməyi Şuşada məktəblərin, sənət ocaqlarının, su təchizatı obyektlərinin tikintisi ilə məhdudlaşmırdı. Onun azadlıq eşqi, sənət aləminə bağlılığı, nəcib davranışı örnək olub, Qarabağ qadınlarına mənəvi güc verirdi. Xurşidbanu şeirlərində cəmiyyətdə qadına qarşı rişxənd münasibəti tənqid edir, ədalət tələb edirdi. O, öz nümunəsi ilə sübut etdi ki, kişilərlə bərabər hüquqlu qadın təkcə yaradıcı insan deyil, həm də layiqli ziyalı və ictimai xadim ola bilər.

Xurşidbanu Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində lirik şair və rəssam kimi şöhrət tapmışdı: "Xurşudbanu Natəvan öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına yeni mövzular gətirən aşiqanə, lirik şeirlər müəllifi kimi də məşhurdur... Qəlbinin kədərini misra-misra kağızlara naxışlayan Xurşidbanu Natəvan müasirlərinə də şeir həsr edib. Mir Möhsün Nəvvaba, Seyid Əzim Şirvaniyə ünvanladığı şeirlər var." [1, s.19].

Natəvan Şuşa şəhərində təşkil etdiyi "Məclisi-üns" ədəbi birliyi şairənin ölümünə qədər mövcud olub. Bu dərnəyin rəhbərliyini və onun üçün bütün maddi xərcləri Xan qızı öz üzərinə götürdü. Üns Məclisində Qarabağın məşhur şairləri ilə yanaşı, tanınmış xanəndə və aşıqlar da iştirak edirdi.

Beləliklə Qarabağ torpağında doğulan və böyüyən Xan qızı Xurşidbanu Natəvan ədəbi fəaliyyəti və qabaqcıl fikirləri ilə Azərbaycan ədəbiyyatının inkişafına öz təsirini göstərmişdir onun ictimai fəaliyyəti və xeyyriyəçiliyi isə onu xalqa sevdirmiş və yaddaşlarda əbədi yaşatmışdır.

ƏDƏBİYYAT

1. Flora Xəlilzadə, «Ruhumuzun ünvanı Şuşa», publisistika, Bakı, 2013, "Zərdabi LTD", MMC, 368 səh.
2. "Azərbaycan"qəzeti, 25aprel 1998-ci il. [Elektron resurs]. URL: https://lib.aliyevheritage.org/az/7311707.html
3. [Elektron resurs]. URL: https://az.wikipedia.org/wiki/
4. [Elektron resurs]. URL: https://oxu.az/society/36432

SUMMARY

21ST CENTURY KARABAKH POET KHURSHIDBANU NATAVAN'S ROLE IN AZERBAIJANI LITERATURE

Allahguliyeva J.M.

The article gives a brief overview of the life and work of the outstanding Azerbaijani poetess of the XIX century Khurshidbanu Natavan. The sudden death of her beloved son and other life hardships inflicted a heavy blow on the "pearl" of Karabakh. But no matter how deep this sadness was , it could not stifle the love of her life , feelings , the sense of greatness and beauty of nature. Natavan's lyrics reflecting mother sadness are full of social motives, love of life and dreams of happiness. The article also discusses the poetess's public activities and role in Azerbaijani literature.

***Key words**: poet, literature, Karabakh, culture, public figure, literary society*

РЕЗЮМЕ

РОЛЬ КАРАБАХСКОГО ПОЭТА ХУРШИДБАНУ НАТАВАН В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ 21 ВЕКА

Аллахгулиева Д.М.

В статье дается краткий обзор жизни и творчества выдающейся азербайджанской поэтессы XIX века Хуршидбану Натаван. Внезапная смерть любимого сына и другие жизненные проблемы, нанесли тяжелый удар «жемчужине» Карабаха. Но как ни глубока была эта печаль, она не смогла заглушить в ней любовь к жизни, ощущение бытия, чувство величия и красоты природы. Лирика Натаван, несущая на себе отпечаток материнской печали, наполнена социальными мотивами, жизнелюбием и мечтами о счастье. В статье также говориться об общественной деятельности поэтессы и ее роли в литературе Азербайджана.

***Ключевые слова**: поэт, литература, Карабах, культура, общественный деятель, литературное общество.*

MUSTAFA ÇƏMƏNLİ YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

Babayeva A.N.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Femida278@mail.ru

***Açar sözlər:** Mustafa Çəmənli, Qarabağ, müharibə, tarix, nəsr, milli kimlik.*

Müharibə mövzusu ədəbiyyatda ən çox istifadə olunan mövzulardandır. Çünki dünyanın hər bucağında bu problemlər yaşanır. Onun yaşatdığı ağrı-acı, çarəsizlik, itki, fəlakət yeni-yeni ədəbiyyat nümunələrinə mövzu olur. Buna görə də şair və yazıçılar hər zaman bu mövzuya toxunmuş, təhlil obyekti seçmişdirlər. Azərbaycan ədəbiyyatına diqqət yetirsək, görərik ki, şair və yazıçılarımız - Nizami Gəncəvi, Xətai, M.Hadi, Hüseyn Cavid hər zaman dağıdıcı qüvvəyə malik müharibəni bəşəriyyətə bir zərbə kimi qəbul etmişlər və onu törədənləri pisləmiş və lənətləmişlər.

XX əsrin sonlarında yaşanılan Qarabağ müharibəsi hər bir azərbaycanlının milli heysiyyət məsələsinə çevrilmişdir. Belə bir məqamda isə ədəbiyyatın rolu danılmazdır. Çünki ədəbiyyat yönləndirən, təbliğ edən bir sahədir. Məhz bu səbəbdəndir ki, ədəbiyyat cameəsi Qarabağ probleminden yan keçmir, hətta bunu özünə vəzifə, vətəndaş borcu bilir. Lakin hələ də tam sönməyən Qarabağ probleminin işıqlanması haqda olan fikirlər fərqlidir. Məsələn, yazıçı-publisist Əlisahib-Əroğul deyir:

"Əfsuslar olsun ki, Qarabağ mövzusunda çoxlu sayda əsərlər yazılsa da, buradakı boşluğu doldura biləcək, tutumlu, bədii dəyəri yüksək olan janr nümunələri kifayət qədər deyil. Qarabağ uğrunda azadlıq döyüşlərinin başa çatmadığı hazırki dövrdə müstəsna əhəmiyyəti olan bu mövzudan yan keçilməsi yol verilməzdir. Erməni daşnak faşizminin mahiyyəti, onun mənfur siması böyüməkdə olan nəslə hələ qədərincə tanıdılmayıb və tanıdılmır" [1].

Lakin eyni zamanda ədəbiyyatşünas-tənqidçi Nərgiz Cabbarova bununla bağlı belə yazır: "Son zamanlarda Azərbaycan ədəbiyyatında roman bumu yaşanır. Müasir romanlarımızda Qarabağ mövzusu yenə də ilk yerdədir. Sadəcə, təsvir və problem qaldırılması istiqamətində müəyyən dəyişikliklər var. Belə ki, müəyyən mətnlərdə cəbhədə baş verən hadisələrin realist təsvirinə üz tutulursa, müəyyən romanlarda artıq məsələlər İnsan amilinə, İnsan faktoruna rakurslanaraq təhlilə gətirilir " [2, s.162].

Müharibənin ilk illərini nəzərə almasaq, bir neçə il sonra yazıçılarımız, ağrılı da olsa, Vətən probleminin təsvir və təhlilinə başlamışlar. M.Süleymanlının "Erməni adındakı hərflər...", S.Nuruqızının "Qisas", A.Abbasın "Dolu", "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", N.Məmmədlinin "Zəngulə", Elçinin "Bayraqdar", A.Xəyalın "Mənim erməni oğlum", E.Elatlının "Qisas gecəsi", "Cəhənnəmdən gələn səs", Zahid Sarıtorpaq "Qiyamət qaziləri", Azad Qaradərəlinin "Sevgilim Vətən", "Cəbrayıl əfsanəsi", və s. kimi əsərləri bu qəbildəndir. Bu əsərlərdə Qarabağ müharibəsində baş verən hadisələrin epik təsviri, səbəb və nəticələr öz inikasını tapmışdır.

Mustafa Çəmənli də o yazıçılardandır ki, milli heysiyyətimiz sayılan Qarabağın təəssübünü çəkməkdən usanmır. 1972-ci ildən yazıçılıq fəaliyyətinə başlayan yazıçının yaradıcılığına diqqət edəndə görürük ki, Vətənə sevgi, sədaqət, Qarabağ mövzusu onun yaradıcılığının əsas xəttini təşkil edir. Onun yaradıcılığından, ümumilikdə, Qarabağ qoxusu gəlir.

1991-ci ildə çap edilmiş "Xallı gürzə" [3] tarixi romanı Yazıçının Qarabağ haqqında yazdığı ilk əsərdir. Burada o, əsərin bədiiliyinə diqqət etməklə yanaşı, həm də tarixi faktları bir daha üzə çıxarmağa çalışmışdır. Pənahəli xanın Nadir şah sarayından qaçaraq qüdrətdən səngərli, qalalı dağlarımızda Qarabağ xanlığını qurması, möhkəmləndirməsi, onun bütöv Azərbaycan eşqi ilə yanması əsərdə dolğun şəkildə öz əksini tapmışdır. Tarixi keçmişə səyahət etdirən bu əsəri filologiya elmləri üzrə professor Nazim Axundov nahaq yerə "Tarixi yaddaşın bərpası" [4, s.5] adlandırmır. Məqsədyönlü şəkildə unutdurulmağa çalışılan bu tarixin yazıçı tərəfindən yenidən işlənməsi onun xalqa bir növ çağırışıdır. Müəllif xalqını qəhrəmanlıqla qurduğu keçmişi yaddan çıxarmamağa, ermənilərin kim olduqlarını unutmamağa çağırır.

"Fred Asif" [5], "Mübariz" [6] sənədli povestləri xatirələr əsasında yazılmışdır. Bu əsərlər Qarabağ uğrunda canından keçmiş igid oğullarımızın adını əbədiləşdirməklə yanaşı, həm də dövrün gerçəkliklərinin sənədli-bədii simasını əks etdirir. 1996-cı ildə çap olunmuş "Fred Asif" əsərində müəllif milli qəhrəmanımız olan Fred Asif obrazını ideallaşdırmır, onu adi bir insan kimi, doğruları və səhvləri ilə birgə təqdim edir. Bununla da yazıçı hər bir insanın səhvdən xali olmadığını söyləyir. Uşaqlığından son gününə qədər həyatını əhatə etməyi bacararaq yazıçı bir qəlbdə yuva salan vurub-yıxan, dalaşqan, eyni zamanda incə qəlbli, musiqiyə, şeirə, təbiətə vurğun insanın rahat keçməyən həyatını böyük sevgi və hörmətlə təsvir edir.

Ermənilərin bütün qəddarlıqlarına baxmayaraq Fred Asifin ədalətli və mərhəmətli davranışı onun insani keyfiyyətləri itirməməsinin göstəricisidir. Yazıçı əsərdə təsvir etdiyi xatirə-detallar vasitəsilə Fred Asif şəxsiyyətinin mənəvi yüksəlişini ifadə edir.

"Mübariz" əsəri Qarabağı görmək, onun suyunu içmək, zəmilərində gəzmək eşqi ilə yanan bir gəncin həyat və mübarizə hekayəsinin inikasıdır. Tanrı payı olan, Qarabağ sevdalı bir gəncin erkən yaşlarından Qarabağa can atması və onu azad etmək və görmək istəyi, amalı yazıçının qələmində sanki fərdiləşmə səviyyəsini aşır və ümumiləşmiş ideya konseptini qazanır. "Bir gəncin manifesti" sayıla biləcək əsərdə sanki bir çağırış var. Düşmən tapdağı altda qalmış torpaqların çağırışı. Yazıçı bu üslubla xalqı Mübarizin dalınca getdiyi bu səsi eşitməyə çağırır. Həqiqətən də, Mübariz fenomeni ümidsizliyə, susqunluğa, boşluğa qapanmış bir xalq üçün real həyatda da, söz dünyasında da bir oyanış aktına çevrildi. Əgər Sabir Əhmədlinin "Axirət sevdası" romanında "Məni ölüm düşündürür" fikri hökm sürürsə, "Mübariz" əsərində "Sənə canım fəda, Azərbaycan" ideyası oxucunu özünə çəkir. Mustafa Çəmənli bu əsərlə həm də Qarabağ mövzusunu bir daha təzələyir, baş verən hadisələri tarixi baxımdan təhlil edərək cəmiyyətdəki fikrə düzgün istiqamət verərək milli təəssübkeşliyi təlqin edir. Yazıçının qnoseoloji yanaşması sənədlilik prinsipini bir qədər adlamağa vadar edir, lakin buna baxmayaraq, qarşıya qoyulmuş məqsədə nail olunmuşdur desək, heç də yanılmarıq.

2016-cı ildə çap edilmiş polifonik xarakter daşıyan " Üç yaşlı əsir" [7] povestində iki dövr – 1948-ci ildə azərbaycanlıların Qərbi Azərbaycandan, doğma diyardan məcburi qovulması və 1992-ci ildə ermənilərin təcavüzkar işğalını təsvir edən hadisələr qarşı-qarşıya qoyulur. Birincisinin üzərindən ikinci dövrün epik mahiyyəti təhlil edilir.

Yazıçı bununla da qalmır, hər iki dövrün prizmasından gələcəyi xəbər verir. Ümumilikdə, əsərdə diqqət çəkən tərəf müharibənin təsviri yox, daha çox insan, insanın xisləti amilidir. Əsərin başlıca ideyası Azərbaycan xalqının hədsiz mərhəmətli və unutqan olmasıdır.

Yazıçı əsərdə belə bir qarşıdurma yaradır. Bir tərəfdə mərhəmət dolu Teymur və ana, ikinci tərəfdə oğlunun dalınca gəlməyən əlində silah tutan erməni ata və hər zaman övladlarına türkə qarşı qəddarlıq təlqin edən ana obrazı, üçüncü tərəfdə isə hadisələrə açıqgözlə baxan, ağılla qərar verməyə çalışan Şakir obrazı. Əfsuslar olsun ki, bu qarşıdurmada günahsız, lakin ən çox zərər görmüş tərəf Teymur və ana obrazı olur. Çünki atəşkəsə bircə gün qalmış Teymur öldürülür, hadisədən 22 il ötməsinə və atəşkəs olmasına baxmayaraq Qaratel ana yaralanır.

Bu əsər müəyyən mənada bizə M.Süleymanlının "Erməni adındakı hərflər..." [8] romanını xatırladır. Povesti oxuduqca sanki erməni akademiklərinin – Acaryan və Balacahunlunun "Böyük Ermənistan" iddialarını çılğınlıqla dəf etməyə çalışan İmirxanlının səsini eşidirik. Hər iki əsərdə lazımsız mərhəmətimiz, unutqanlığımız, səhlənkarlığımız tənqid olunur.

Avtobioqrafik xarakter daşıyan üç süjet xətt üzərində inkişafını tapmış "Ruhların üsyanı"[9] əsəri Şuşanın, Ağdamın xiffəti ilə başlayır. Pəncərəsinin önündə seyr etdiyi vaxtından əvvəl çiçək açmış şaftalı ağacı əsas qəhrəmanın ümidlərini simvolizə edir. Hər bir kiçik detal onu doğma yurda getməyə tələsdirir.

Artıq ilk səhifədən aydın olur ki, Mətləb Ağdam köçkünüdür. 15 ilə yaxındır ki, Bakıda yaşayır. O, öz torpağı, yurdu, suyu, təbiəti üçün çox darıxır. Ömrünün yarısına çatmış bu insan öz yurdunu bir daha görməmək qorxusu ilə yaşayır. Yazıçı qəhrəmanının bu xiffətini, qorxusunu göstərməklə, məcburi qaçqın və köçkün düşmüş bir milyonluq əhalimizin hiss və duyğularını ifadə edir.

M.Çəmənli sanki bir zaman maşını kimi, gah keçmişə, gah da gələcəyə səyahət edir. Daha çox monoloq üzərində qurulmuş bu əsər yazıçının bir çox əsərləri kimi yaddaş rolunu oynayır. O, Eldəgizlər dövlətinin, Qarabağ xanlığının tarixini yada salır, dünyada baş verən hadisələrə nəzər yetirir, bu hadisələrin Azərbaycana təsirindən danışır.

Əsər bütünlükdə "mənəvi şillə" xarakterini daşıyır. Yazıçı həm keçmişimizi, həm də bu günümüzü təsvir və təhlil etməklə sanki bizə dərs verir, eyiblərimizi göstərir. Müəllif eyni zamanda tarixi faktlarla bizim cəsur, igid, mərd bir xalqın nümayəndəsi olduğumuzu söyləyir, bizi oyanışa, dirçəlişə, qurtuluşa, mübarizəyə səsləyir.

Mətləb, Güllü, Şəmsəddin, Məmiş maddi və real insanlardır, buna görə də onların yaşadıqları gerçək tarixi zamandır. Qarabağda qalmış ölülərimiz, İbrahimxəlil xan, Pənahəli xan, Şəmsəddin Eldəniz ruh halında olan obrazlardır. Ona görə də onların mövcudluğu, danışıqları fəlsəfi-psixoloji məzmun kəsb edir.

Elçin Mehrəliyev "Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ mövzusu" adlı dissertasiya işində qeyd edir ki, Qarabağ mövzusunda yazılmış povest və romanların hamısı üçün səciyyəvi olan başlıca cəhət Qarabağda və onun ətrafında baş verən hadisələri qələmə almaq, onların inikasında epik mahiyyəti, dolğunluğu hifz etmək, bu yolla dövrün dramatizmini bütün təzadları ilə bədii nəsrin predmetinə çevirmək istəyidir [10, s.270]. Həqiqətən, yazıçılarımızın dili, üslubu, dərki, yanaşması fərqli olsa da, onların Qarabağ mövzusuna müraciətində bir vətəndaş mövqeyi bildirmə, qanlı tarixin yaddaşlara, bədii lövhələrə həkk olunmasını təmin etmə arzusu var.

ƏDƏBİYYAT

1. http://anl.az/down/meqale/xalqcebhesi/xalqcebhesi_noyabr2009/94729.
2. Cabbarlı N. Çağdaş dövrün roman bumu və nəticələri // - Bakı: Azərbaycan, - 2006. №6, s.160-170
3. Çəmənli M. Xallı gürzə / M.Çəmənli. – Bakı: Kitab klubu, - 2016, - 392 s.
4. Axundov N. Tarixi yaddaşın bərpası // Ədəbiyyat qəzeti. – 1992, 6 mart. – s.5
5. Çəmənli M. Fred Arif / M.Çəmənli. – Bakı: Gənclik, - 1996, - 172 s.
6. Çəmənli M. Mübariz / M. Çəmənli. – Bakı: Təhsil, - 2016, 96 s.
7. Çəmənli M. Üçyaşlı əsir / M.Çəmənli. – Bakı: Elm və təhsil, - 2016, - 240 s.
8. https://kitabxana.net/files/books/file/1460107650.pdf
9. Çəmənli M. Ruhların üsyanı / M.Çəmənli. – Bakı: Adiloğlu, - 320 s.
10. Mehrəliyev E. Azərbaycan nəsr və dramaturgiyasında Qarabağ mövzusu: /filologiya üzrə elmlər doktoru dis./ - Bakı, 2012, - 312 s.

SUMMARY

THE THEME OF KARABAKH IN THE MUSTAFA CHAMENLI'S WORKS

Babayeva A.N.

Mustafa Chemenli is one of the writers who took on this task and tried to show his civil position. In his works on the theme of Karabakh, he analyzed its history, the tragic days of our people, the life of a

helplessly forced migrant. However, at the same time, the writer presents the Karabakh problem at the level of self-esteem, pride and national identity of the Azerbaijani people. He encourages the reader to high ideological feats. The subjective thinking of the author is felt in the works. The author presents to the reader the life of folk heroes who died for the sovereignty of our state in an artistic-epic, documentary form. Mustafa Chemenli wants to say that when there are such zealous and selfless sons, revenge will not last until the Day of Judgment.

Key words: *Mustafa Chemenli, Karabakh, war, history, prose, national identity.*

РЕЗЮМЕ

ТЕМА КАРАБАХА В ТВОРЧЕСТВЕ МУСТАФЫ ЧЕМЕНЛИ

Бабаева А.Н.

Мустафа Чеменли — один из писателей, который взял на себя эту задачу и попытался показать свою гражданскую позицию. В своих произведениях на тему Карабаха он анализировал его историю, трагические дни нашего народа, жизнь беспомощного вынужденного переселенца. Однако в то же время писатель представляет карабахскую проблему на уровне чувства собственного достоинства, гордости и национального самосознания азербайджанского народа. Он побуждает читателя к высоким идейным подвигам. В произведениях чувствуется субъективное мышление автора. Автор представляет читателю жизнь народных героев, павших за суверенитет нашего государства, в художественно-эпической, документальной форме. Мустафа Чеменли хочет сказать, что когда есть такие ревностные и самоотверженные сыновья, месть не будет ждать Судного Дня.

Ключевые слова: *Мустафа Чеменли, Карабах, война, история, проза, национальное самосознание*

QARABAĞIN DİNİ-TARİXİ ABİDƏLƏRİ VƏ ERMƏNİ VANDALİZMİ

Babayeva K.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
aminbabayev2011@gmail.com

Açar sözlər: *Qarabağ, dini abidələr, Nərgiztəpə, Qafqaz Albaniyası, monastr, erməni terrorizmi*

Azərbaycan abidələr və tarixi yerlər diyarıdır. Hər bir xalqın keçmişi, həyat tərzi onun tarixi abidələrində və yerlərində təcəssüm olunur. Tarixi abidələrin, sərvətlərin talan olunması, dağıdılması xalqın varlığının məhvi deməkdir.

Azərbaycanın yüzlərlə tarixi dini abidələri: məscidlər, iqamətgahlar və digər mədəni inanc yerlərimiz erməni vandalizmi nəticəsində məhv edilmişdir. Şübhəsiz ki, bu onların dini və tarixi dəyərlərə, sərvətlərə olan nifrəti və xainliklərindən irəli gəlir. Bunu sübut edən saysız faktlardan biri kimi dini ibadət yerimiz, iqamətgahımız olan məscidlərdən ermənilərin tövlə kimi istifadə etməsini misal gətirmək olar. Ümumilikdə işğal olunmuş ərazilərdə dövlət qeydiyyatında olan tarixi abidələrin sayı 900-dən artıqdır. Dini abidələrimizin 67-si məscid. 144-ü məbəd, 192-si isə ziyarətgahdır [1, 5]. Birmənalı şəkildə demək olar ki, ermənilər məskunlaşdıqları ərazilərdə olan simvolların, eyni zamanda türk ornamentlərinin olmasını qəbul edə bilmirlər. Ona görə ki, alban dövrü abidələrinin üzərlərində olan ornament və simvolları olduğu kimi qəbul edərlərsə, bu abidələrin ermənileşdirilməsi mümkün olmazdı. Dəfələrlə ermənilər tərəfindən oğurlanmış və məhv edilmiş olan tarixi-mədəni sərvətlərimizin dəyərini pulla qiymətləndirmək mümkün deyil.

Bizim torpaqlarımız müasir sivlizasiyanın inkişafa başladığı ən qədim yaşayış məskənidir. Kəlbəcər rayonunun ərazisində, Tərtər çayının sol sahilində yerləşən, Xotavəng başqa adı Xudavəng, mənası "tanrı məbədi" olan bu kompleks Qafqaz Albaniyası dağıdıldıqdan sonra IX əsrdə Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi olmuşdur. Burada aparılan arxeoloji tədqiqatların nəticələrindən aydın olur ki, monastrın əsası VI-VII əsrlərdə qoyulub.

Albaniyada xristianlığın yayılmasında çox böyük xidmətləri olmuş apostol Yenisey xatirəsinə ölkədə əsrlər boyu bir çox məbədlər tikilmişdir. Bizim dövrə qədər gəlib çatmış olan maraq doğuran abidə Ağdərə rayonundakı Yenisey monastr kompleksidir. Bu kompleks dağlıq ərazidə yerləşir. Kompleksin ətrafını o qədər meşəlik və qayalıq örtür ki, abidəyə yaxınlaşmaq çətinləşir. Kompleksin ətrafında çoxlu sayda tarixi

abidələr, eyni zamanda müxtəlif dövrlərə aid xaç daşlar XIII və başqa əsrlərə aid də məzarlar var. Bu kompleksə aid olan tikililərin inşası Qafqaz Albaniyasının Arşakilər sülaləsindən olan hökmdarı III Mömin Vaçaqanın adı ilə bağlıdır.

B.e.ə VI-III əsrlərə aid Beyləqan, Ağcəbədi, Bərdə, Yevlax, Tərtər və Qarabağın Dağlıq ərazisində türk xalqlarına məxsus çoxlu sayda skif kurqanları aşkar olunmuşdur. Albaniyanın cənub sərhəddi bu dövrdə Araz çayı boyunca keçmişdir. Girdiman, Sakasena, Arak, Uti, Sisakan, Paytakaran Qarabağın tarixi torpaqları olub.

Laçın rayonunun Şəlvə kəndindəki XV əsrə aid edilən sövməə də Alban məbədləri sırasına daxildir. Sövməə sözünün mənası "ibadətgah, ibadət evi" deməkdir. Sövmələr karvan yollarının kənarında kiçik ibadətgah olsa da, onlar həqiqətdə memorial tikililər hesab olunur. Bura Sadınlar dərəsində Mirik dərəsində Quşçu kəndi ərazisindəki "Dəmirovlu pir" adlandırılan Sovməni misal çəkmək olar. Alban dövründəki ən mürəkkəb tikililər monastr bazilikalar hesab edilirdi. Monastr tipli abidələr Laçın rayonunda Kosalar kəndində yerləşən "Ağoğlan qəsri"ni misal çəkmək olar.

1836-cı ildə rusların köməyi ilə Azərbaycanda o zaman fəaliyyət göstərən Alban Patriarxal kilsəsinin ləğv olunub, onun mülklərinin erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verilməsi üçün rus çarı I Nikolay fərman imzalamışdı [2, 14]. Bir qədər sonra isə ermənilərin XVIII əsrin sonlarından başlayaraq davam edən sıx məskunlaşmalarının nəticəsi olaraq Alban dövlətçiliyi və dini Qarabağda müstəqilliyini itirdi.

Erməni işğalçılarının qarət etdikləri muzeylərdə xalqımızın tarixi və mədəniyyəti ilə bağlı rəsm və heykəltəraşlıq nümunələri, qiymətli əşyalar, görkəmli şəxsiyyətlərimizin xatirə əşyaları, xalçalar və başqa materiallar olmuşdur. Qubadlı, Laçın və eyni zamanda Şuşa rəsm qalereyalarının Azərbaycanın görkəmli rəssamlarının əsərlərindən ibarət fondları da dağıdılmışdır. Ancaq onların da fəaliyyətləri bərpa ediləcək.

Qarabağ ərazisində çox sayda mədəniyyət abidəsi qeydə alınıb ki, bunların da çox hissəsi demək olar ki, epiqrafik abidələr təşkil edir. İşğal olunmuş rayonların ərazisindən vaxtilə qəbir, tikinti və başqa epiqrafik abidələri tədqiq edilmişdir. Qarabağ xanlığı dövründə də şəhər və qəsəbə tipli yaşayış məntəqələri yaranmışdır. Abidələrin demək olar çoxu Azərbaycanda memorial tikililərin əsas növünü təşkil edir. Azıx mağarası kimi ən qədim sivilizasiya beşiyi olan abidəmiz ermənilərin silah-sursat anbarına çevrilmişdir.

XIX əsrin ikinci yarısından artıq alimlərimiz Qarabağ abidələrini ardıcıl olaraq tədqiq etmişdirlər. Son illərdə Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyası Mil-Qarabağ bölgəsində 170-ə yaxın arxeoloji abidəni qeydə almışdır. Belə arxeoloji abidələrdən biri də, Xocavənd rayonu ərazisindəki Nərgiztəpədir. Nərgiztəpə yüksəkliyi olduqca strateji əhəmiyyət daşıyır. Bu ərazidə arxeoloji tədqiqat işləri 2003-2015-ci illərdə aparılıb. Yaşayış məskəninin müxtəlif dövlərinə aid keramik nümunələri üstünlük təşkil edir. Burada aşkarlanan qaracilalı keramika nümunələri bölgənin erkən dəmir dövrü saxsı məmulatı ilə oxşardır. Bəhs olunan maddi mədəniyyət nümunələri içində dəfn küpü açılmışdır. Bu küpün içərisində 90-a yaxın muncuq, bir üzük, tuncdan hazırlanmış qolbaqlara da rast gəlinmişdir. Buradakı nümunlər öz oxşarlıqlarını Qafqaz Albaniyasının antik dövr küp qəbrlərindən tapır. Gələcəkdə burada tədqiqatların aparılması Qafqaz Albaniyasının sosial-iqtisadi və siyasi həyatının öyrənilməsində çox əhəmiyyətli rol oynaya bilər. Nərgiztəpə ərazisindəki türk mənşəli toponimlər, ərazidəki qəbr abidələri və folklor nümunələri burada türk dilli tayfaların yaşadıqlarını sübut edir. Dünya əhəmiyyətli tarix-memarlıq abidələri içərisində ən çox ziyan Orta Tunc dövrü insanlarının yaşayış izlərini daşıyan Üzərliktəpə arxeoloji abidəsidir. Ermənilərin işğalı altında olan bu abidə 1993-cü ildən 2019-cu ilə qədər hər il yandırılırdı [4, s. 21]. Üzərliktəpə Ağdam şəhərinin yaxınlığındadır [5, s. 12]. 1954-cü ildən bəzi rus alimlərinin diqqətini cəlb etmişdir. Bura coğrafi baxımdan da çox əlverişli mövqedə yerləşir. Burada arxeoloji qazıntılar 484 m^2 sahədə aparılmışdır. Möhtəşəm abidələrimizdən bir də "Yeddi qapı" məbədidir. Bu abidə Qarabağ bölgəsinin Yuxusen dağının ətəyində inşa olunub. Bu abidənin inşa tarixi tam müəyyənləşdirilməsə də, bir çox tarixçilərin tədqiqat əsərlərinə görə məbəd V-VI əsrlərə aiddir. Ancaq abidənin III əsrin sonu VI əsrin əvvəllərində tikilməsi gümanı daha çox inandırıcıdır.

2020-ci il sentyabr ayının 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin ağır artilleriyadan istifadə edib yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Füzuli rayonunun Babı kəndində Şeyx Babı türbəsinə çox ciddi ziyan dəymişdir [6]. Bundan başqa atılan mərmi Beyləqan rayonunda yerləşən ağır ziyarətgah yerlərindən biri olan Cərcis Peyğəmbər ziyarətgahının çox yaxınlığına düşmüşdür.

Dini ənənələr eyni zamanda milli mənsubiyyəti özündə təcəssüm etdirən bəzi abidələrimiz var ki, onlar tamamilə dağıdılıb yerlə yeksan olmuşdur. Son illərdə isə məscidlərimizdə mal-qara və başqa heyvanların da saxlanması faktı Qərb ölkələrinin foto müxbirləri tərəfindən lentə alınıb dünya ictimaiyyətinə çatdırılmışdır. Bütün bunlar azmış kimi Qafqaz Albaniyasına aid olan məbədlər də qriqoriyanlaşdırılmışdır. Rayonlarımıza atılan raket və top mərmiləri nəticəsində çox sayda tarixi-dini abidələrimizə külli miqdarda zərər dəymişdir. İşğal olunmuş ərazilərimiz də dağıdılmış olan 22 muzeydən ən böyüyü Kəlbəcər rayonunda yerləşən Tarix və Diyarşünaslıq muzeyi olub. Burada 40 min növdə ağac və bitki növlərinə aid nümunələr

olub. Laçında isə yerləşən Tarix və Diyarşünaslıq muzeyi tamamilə dağıdılıb, orada olan gümüş əl çantası Londonda Sotheby`s auksionunda 80 min ABŞ dollarına satılıb [7]. Ermənistan mədəni irsimizin dağıdılmasına, Azərbaycanın işğal olunmuş ərazilərində mülkiyyət və insanlıq əleyhinə olan cinayətlərə görə məsuliyyət daşıyır. Onların törətdiyi cinayət kimi dəyərləndirilən nankor əməllər nəinki bizə həmçinin bəşər mədəniyyətinə qarşı təcavüzdür.

Azərbaycan rəhbərliyinin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin mühafizəsi, bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Xalqımızın gen yaddaşlarından gələn tolerant və multikultural ənənələrin yaşadılması, gələcək nəsillərə ötürülməsi düşüncəsinin dövlət siyasətinin tərkib hissəsinə çevrilməsidir ki, bu gün də ölkəmizdə məscidlərlə yanaşı, digər dinlərin ibadət evləri yenidən təmir və bərpa olunur. Bundan başqa Qafqazın ən möhtəşəm dini abidələrindən olan Heydər məscidi, Bakıda Dağ yəhudiləri üçün sinaqoqlar da inşa edilib. Yaxud da lap yeniləri tikilir. Prezidentimizin tapşırığı ilə Qarabağın mədəni həyatı tezliklə bərpa olunacaq və olunur. İndi vəzifəmiz Qarabağın mədəni həyatını özünə qaytarmaq, bu işdə prezidentimizə dəstək olmaqdır.

Qarabağ ərazisi, eyni zamanda işğal altında olan başqa rayonlarımız mədəni abidələrlə olduqca zəngin idi. Keçən 30 il ərzində ölkəmizə 100 milyardlarla dollar ziyan dəyib, tarixi abidələrdən başqa kənd təsərrüfatı obyektləri də aiddir. Qarabağ abidələri bizim təkcə maddi-mədəniyyət abidələri deyil, eyni zamanda mədəniyyət tariximizin arxivi və sərvətidir.

ƏDƏBİYYAT

1. Nahid Məmmədov "İşğal altındakı tarixi-dini abidələrimiz" Bakı-2015, 96 səh.
2. Faiq İsmayılov "Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət abidələrinə vurulan zərər" Bakı-2016, 174 səh.
3. Faiq İsmayılov "Tarix və mədəniyyət abidələri; qoruması, istifadəsi və bərpası barədə təlimatlar" Bakı: Nurlar, 2013
4. Ermənistanın azərbaycanlılara məxsus mədəni və tarixi irsi mənimsəməsi – hesabat – iyul-2021
5. Rəşid Göyüşov. Qarabağın keçmişinə səyahət. Azərbaycan Dövlət nəşriyyatı. Bakı, 1993, 83 s.
6. Karabakh-Org (2020) Erməni işğalı nəticəsində Azərbaycan mədəniyyətinə vurulan zərərlər:https://karabakh.org/conflict/agression/damages-to-azerbaijani-culture-as-a-result of armenia-occupation
7. https://medeniyyet.az/page/news/54312/Dini-abidelerimize-qarsi-ermeni-vandalizmi.html

SUMMARY

RELIGIOUS-HISTORICAL MONUMENTS OF KARABAKH AND ARMENIAN VANDALISM

Babayeva K.Sh.

The territory of Karabakh, as well as other occupied regions, were very rich in cultural monuments. Over the past 30 years our country has lost 100 billion dollars. Apart from cultural and religious historical monuments, it was included in agricultural facilities. The Armenian government is responsible for the destruction of cultural heritage, property crimes in the occupied territories of Azerbaijan, as well as crimes against humanity. This heinous crime cominited by them is not only a crime against us, but against all human culture.

Key words: *Karabakh, religious monuments, Nargiztepe, Caucasian Albania, monastery, Armenian terrorism*

РЕЗЮМЕ

РЕЛИГИОЗНО-ИСТОРИЧЕСКИЕ ПАМЯТНИКИ КАРАБАХА И АРМЯНСКИЙ ВАНДАЛИЗМ

Бабаева К.Ш.

Территория Карабаха также была очень богата памятниками культуры других наших оккупированных районов. За последние 30 лет наша страна потеряла 100 миллиардов долларов. Помимо культурных и религиозно-исторических памятников, в него входили и объекты сельскохозяйственного назначения. Армения несет ответственность за уничтожение нашего культурного наследия, преступления против собственности и в то же время против человечности на

оккупированных территориях Азербайджана. Это гнусное преступление, совершенное ими, является не только агрессией против нас, против всей человеческой культуры.

Ключевые слова: *Карабах, религиозные памятники, Наргизтепе, Кавказская Албания, монастырь, армянский терроризм*

QARABAĞ BÖLGƏSİNİN İLK ORTA ƏSR ŞƏHƏRLƏRİNİN ARXEOLOJİ VƏ NƏZƏRİ TƏDQİQİNƏ DAİR

Bağırzadə C.V.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
cavid.bagirzade@gdu.edu.az

Açar sözlər: *Qarabağ, Bərdə, Amaras, Govurqala, Bərdəkür, Qalatəpə.*

Azərbaycanın Qarabağ bölgəsinin ilk orta əsr yaşayış yerlərinin, o cümlədən də şəhərlərinin arxeoloji tədqiqi tarixi XIX əsrin sonlarından başlamışdır. Lakin bu tədqiqatlar təsadüfi xarakter daşımışdır. XX əsrin 20-ci illərindən etibarən Qarabağ ərazisindəki yaşayış yerlərinin arxeoloji tədqiqi başlayır. Qarabağ bölgəsinin ilk orta əsr şəhərlərindən Amarasın, Aluenin (Ağdam Govurqalasının), Bərdənin, Ana şəhərin (Bərdəkürün) arxeoloji tədqiqində R.B.Göyüşovun, Aluenin arxeoloji tədqiqində R.M.Vahidovun, Bərdənin arxeoloji tədqiqində A.B.Nuriyev, Q.Ə.Hacıyev və A.M.Məmmədovun, Bərdənin ilk orta əsr məbəd yerinin arxeoloji tədqiqində R.B.Göyüşovun, Füzuli rayonu ərazisində, Köndələnçayın yaxınlığındakı çoxtəbəqəli olan, ilk orta əsrlər dövründə isə şəhərtipli yaşayış yeri olmuş Qaraköpəktəpə abidəsinin tədqiqində Q.S.İsmayılzadənin, Aynianan-Yunan şəhərinin (Qalatəpə şəhərgahının) arxeoloji tədqiqində T.R.Əliyevin, o cümlədən də Mil-Qarabağ arxeoloji ekspedisiyasının xidmətləri xüsusi qeyd olunmalıdır [10, s.38-40; 11, s.43-46; 12, s.78-83; 13, s.187-192; 24, s.18-24]. Emil Resler XIX əsrin sonlarında bu şəhərgahlarda qazıntı işləri aparmışdır.

Tarixi-arxeoloji tədqiqatlar nəticəsində Albaniyanın ilk orta əsr şəhərlərindən biri olan Aluen şəhəri Ağdam rayonu Sofulu kəndi yaxınlığındakı yerli əhalinin Govurqala adlandırdığı abidədə lokallaşdırılmışdır. Govurqalada arxeoloji tədqiqatlar 1958-ci ildən başlanılmışdır [15, s.43; 20, s.17]. 1958-ci ildə Govurqala abidəsində arxeoloji qazıntı işləri aparmaq məqsədilə xüsusi arxeoloji ekspedisiya təşkil edilir. Burada tədqiqatlar fasilə ilə 1977-ci ilədək davam etdirilmişdir [30, s.167-168; 20, s.17]. Aluen şəhəri yerində arxeoloqlardan əsasən R.M.Vahidov və R.B.Göyüşov tədqiqatlar aparmışlar. Görkəmli arxeoloqlarımızdan biri olan R.B.Göyüşov Govurqala abidəsinin ilk orta əsr Aluen şəhəri ilə eyniləşdirilmişdir [15, s.43-48].

Govurqalanın şüşə məmulatı A.B.Nuriyev və R.B.Göyüşov tərəfindən öyərnilmişdir [29, s.108-117].

Aluen şəhəri yerində aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, şəhərdə ilk orta əsrlər dövründə qaynar həyat olmuşdur. Arxeoloji qazıntı işləri zamanı buradakı mədəni təbəqənin qalınlığının 5 m-ə çatdığı müəyyən edilmişdir. Şəhərin narınqala hissəsində həyatın qaynar olduğu dövr III-XI əsrləri əhatə etmişdir [33, s.40]. Şəhərin narınqala hissəsində diqqəti cəlb edən mühüm abidə buradakı ilk orta əsrlər dövrünə aid məbəd yeridir. Aluen məbədi tədqiq edilmiş, onun memarlıq xüsusiyyətləri və inşa tarixi ilə bağlı məsələlər haqqında tədqiqatlar həyata keçirilmişdir.

Bu işdə Azərbaycanın görkəmli arxeoloqlarından biri, mərhum R.B.Göyüşovun böyük xidmətləri olmuşdur [32; 34]. R.B.Göyüşov Albaniyanın ilk orta əsr dini abidələrinin kompleks şəkildə tədqiqini həyata keçirmiş, Alban xristian mədəniyyətinin ilk görkəmli tədqiqatçısı olmuşdur. Ağdam bölgəsinin ilk orta əsr dini abidələrinin tədqiqində tədqiqatçılardan R.M.Vahidovun [30, s.167-182; 33, s.40] və başqalarının xidmətləri də qeyd olunmalıdır. Bu tədqiqatçılar Albaniyanın xristian mədəniyyətini, onun dini abidələrini tədqiq etmişlər. Ağdam bölgəsinin ilk orta əsr dini abidələrində Z.İ.Yampolskinin, R.B.Göyüşovun, R.M.Vahidovun vaxtilə apardıqları arxeoloji tədqiqatları xüsusi qeyd etmək lazımdır.

Ərəb coğrafiyaşünas-səyyahlarının verdiyi məlumatlara görə Qarabağ ərazisində yerləşməsi şübhə doğurmayan, Bərdə - Dəbil yolunun üstündə yerləşən yaşayış yerlərindən biri kimi xatırlanan, Bərdə şəhərinin 22 fərsəxliyində yerləşən Matris (Mayris) şəhəri görkəmli arxeoloq mərhum R.B.Göyüşov tərəfindən "Ana şəhər" adlandırılan şəhər xarabalığının yerində lokallaşdırılmışdır. Aparaılmış tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Ana şəhər Albaniyanın Bərdəkür şəhəri olmuşdur. Bunlar haqqında müvafiq şəhərlərdən bəhs olunarakən danışılmışdır. Onu qeyd etmək lazımdır ki, Qarabağ abidələrinin, xüsusilə də Dağlıq Qarabağ ərazisindəki ilk orta əsr abidələrinin arxeoloji tədqiqi əsasən R.B.Göyüşovun adı ilə bağlıdır desək, səhv etmərik. Azərbaycanın Qarabağ bölgəsinin ilk orta əsr şəhərlərindən Amaras, Aluen, Ana şəhər R.B.Göyüşov tərəfindən öyrənilmişdir [15 s.30-33, 43-48; 16 s.3-98; 17, s.26; 31, s.148-149].

R.B.Göyüşov 1963-1971-ci illərdə Dağlıq Qarabağda arxeoloji səfərlər etmiş, arxeoloji kəşfiyyat işləri görmüş, buradakı yaşayış yerlərində, xüsusilə də Amaras və Ana şəhər yerlərində arxeolji tədqiqatlar aparmışdır [16, s.3-98; 14, s.124-129; 31, s.148-149].

Albaniyanın ilk orta əsr yaşayış yerlərini arxeoloji və nəzəri tədqiqatlar əsasında tədqiq etmiş M.C.Xəlilov monoqrafiya çap etdirmişdir [20]. Bu əsərlərdə Azərbaycanın Qarabağ bölgəsinin ilk orta əsr yaşayış yerləri və dini abidələrinin tədqiqi də öz əksini tapmışdır. Tədqiqatçı M.C.Xəlilovun yazılı mənbələrdə adları çəkilmiş bir çox yaşayış yerlərinin lokallaşdırılması məsələsi ilə bağlı irəli sürdüyü fikir və mülahizələrin bəziləri ilə razılaşmamış, bu məsələlər haqqında şəhərlərin lokallaşdırılmasında bəhs etmişik. Lakin qeyd etmək lazımdır ki, M.C.Xəlilovun əsərləri Albaniyanın IV-X əsrlər dövrü yaşayış yerləri haqqında sanballı tarixi-arxeoloji tədqiqatlardır.

Mil-Qarabağ arxeoloji ekspedisiyasının Aran Qarabağın ilk orta əsr yaşayış yerlərinin arxeoloji tədqiqi sahəsində mühüm xidmətləri olmuşdur.

Qarabağ ərazisindəki ilk orta əsr şəhər yerlərinin arxeoloji tədqiqi sahəsində, onların abidə olaraq qeydə alınmasında ilk addımlar hələ 1897-ci ildə atılmışdır. Bu dövrdə Emil Resler Ağcabədi rayonu ərazisindəki Qalatəpə abidəsində olmuş, arxeoloji kəşfiyyat aparmışdır [20, s.11].

Tədqiqatçı R.S.Məlikov və T.R.Əliyev Ağcabədi rayonu Salamanbəyli kəndi yaxınlığında yerləşən Qalatəpə abidəsində Albaniyanın antik və ilk orta əsr Ayniana-Yunan şəhərini lokallaşdırmışdır [21, s.113-127].

Bu sətirlərin müəllifi (C.V.Bağırzadə) Albaniyanın ilk orta əsr şəhərlərindən Kaqankatı (Kalankatuku) Ağdərə rayonu Umudlu kəndi yaxınlığındakı şəhər xarabalığında, Bərdəkür şəhərini elmi ədəbiyyatda "Ana şəhər" adı ilə bəhs edilən şəhər yerində, Matris (Mayris) şəhərini Kəlbəcər rayonunun Keşdək kəndi yaxınlığındakı abidələrdə lokallaşdırmış, onların tarixi-arxeoloji tədqiqindən bəhs etmişdir [3, s.63-67; 1, s.34-65; 2, s.3-84; 4, s.86-91]. Yazılı mənbələrdə adları çəkilmiş Tsri (Sri), Qarqar, Srxarn kimi şəhərlərin, o cümlədən də Qarabağ adlı şəhərin lokallaşdırılması ilə bağlı Qarabağ bölgəsində yerləşməsi haqqında fikirlər irəli sürmüşdür [6; 7, s.132-135; 8, 68-70].

Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə malik şəhərlərindən biri olan, Albaniyanın ilk orta əsrlər dövründə əsas paytaxtı Bərdə şəhərinin tarixi, onun yaranması, şəhər mədəniyyəti, eləcə də arxeoloji tədqiqi məsələləri ilə bağlı ayrı-ayrı tədqiqatçıların çoxsaylı əsərləri çap olunmuşdur. Həmçinin Albaniya dövlətinin tarixini tədqiq etmiş tədqiqatçıların əsərlərində də paytaxt Bərdə şəhərinin tarixi məsələləri ilə bağlı araşdırmalar öz əksini tapmışdır [20, s.63-68; 26, s.152-153; 27]. Bərdə şəhərinin tarixinin tədqiqinə bilavasitə həsr edilmiş iri həcmli tədqiqat əsərləri də yazılmışdır [18; 19; 28]. Bu tədqiqat əsərlərində Bərdə şəhərinin yaranması, onun toponimi, ölkə paytaxtına çevrilməsi, eləcə də digər tarixi məsələlər tədqiq edilmişdir. Bərdə şəhərinin tarixi məsələlərinin əsas tədqiqatçısı Q.Ə.Hacıyev Bərdə şəhərinin tarixi məsələləri ilə bağlı çoxlu sayda əsərlər, o cümlədən apardığı tədqiqatların ümumi nəticəsi olaraq iki monoqrafiya da çap etdirmişdir.

Bərdə şəhərinin toponimi və tarixi məsələləri ilə bağlı prof. A.M.Məmmədovun araşdırması xüsusilə diqqəti cəlb edir. A.M.Məmmədov Bərdə və Hərum toponimləri ilə bağlı bütün fikir və mülahizələri nəzərdən keçirmişdir [25, s.195-202].

Bərdə şəhərinin arxeoloji tədqiqi daim arxeoloqların diqqət mərkəzində olmuş, 1970-ci illərdən başlayaraq, xüsusilə də 1980-ci illərdən etibarən fasilələrlə burada arxeoloji ekspedisya fəaliyyət göstərmiş, arxeoloji qazıntı işləri həyata keçirilmişdir. 1970-ci ildə Bərdə şəhərinin "Məbəd yeri" adlanan hissəsində arxeoloji qazıntı işləri aparılmışdır. 1984-cü ildə isə Azərbaycan EA Tarix İnstitunun bilavasitə Bərdə arxeoloji ekspedisiyası təşkil edilir. Ekspedisiya t.e.d. A.B.Nuriyevin rəhbərliyi altında 1984-1988-ci illərdə fəaliyyət göstərmişdir [28, s.18]. Son illərdə prof. A.M.Məmmədovun rəhbərliyi ilə Bərdə arxeoloji ekspedisiyası tədqiqatları davam etdirməkdədir [22, s.91-93; 23, s.95-98].

Prof. A.M.Məmmədovun rəhbərliyi altında fəaliyyət göstərən Bərdə arxeoloji ekspedisiyasının hesabatlarından məlum olur ki, qədim Bərdə şəhərinin yerində, Şortəpə abidəsində antik dövrə aid zəngin arxeoloji materiallar aşkar edilmişdir. Arxeoloji materialların təhlilindən məlum olur ki, burada antik dövrdə böyük şəhər mövcud olmuşdur. Müəyyən olunmuşdur ki, ilk orta əsrlər dövründə Şortəpə abidəsində yaşayış səviyyəsi xeyli aşağı düşmüşdür. Bunu Şortəpə abidəsində ilk orta əsrlər dövrünə aid maddi mədəniyyət nümunələrinin az olması, bu dövrə aid mədəni təbəqənin zəngin olmaması təsdiq edir.

Azərbaycanın Qarabağ bölgəsinin ilk orta əsr şəhərləri, onların strukturu, iqtisadi-ticarət əlaqələri haqqında, eləcə də Albaniyanın ilk orta əsr şəhərlərindən bəhs edərkən məlumat və tədqiqatlar F.C.Məmmədovanın [26, s.150-155], Z.M.Bünyadovun [9, s.164-189] ümumi əsərlərində, A.B.Nuriyev və Ə.B.Babayevin [28] xüsusi əsərində yer almışdır.

ƏDƏBİYYAT

1. Bağırzadə C.V. Ağdərə IV – XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat), Bakı, Elm və təhsil nəşriyyatı, 2014, 126 s.

2. Bağırzadə C.V. Kaqankat (Kalankatuk) şəhərinin tarixi – arxeoloji oçerki, Bakı, Elm və təhsil nəşriyyatı, 2013, 84 s.

3. Bağırzadə C.V. Qafqaz Albaniyasının ilk orta əsr Bərdəkür şəhərinin tarixi-arxeoloji tədqiqi haqqında // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, № 2, 2013, s.63-67.

4. Bağırzadə C.V. Qafqaz Albaniyasının ilk orta əsr Matris (Mayris) şəhərinin tarixi-arxeoloji tədqiqi haqqında // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, № 2, 2014, s. 86-91.

5. Bağırzadə C.V. Bərdə şəhərinin yaranması tarixi və toponimi haqqında (mənbə məlumatları və tarixi-arxeoloji tədqiqatlar əsasında) // Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti "Gənc alimlərin I Beynəlxalq Elmi Konfransı"nın materialları, 17-18 oktyabr 2016-cı il Gəncə, GDU-nun nəşriyyatı, 2016, s. 25-33.

6. Bağırzadə C.V. Qafqaz Albaniyasının ilk orta əsr Tsri (Sri) şəhəri haqqında (mənbə məlumatları və tarixi-arxeoloji tədqiqatlar əsasında). AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalı, Bakı, 2016, № 1, s.86-97.

7. Bağırzadə C.V. Qarabağ bölgəsinin bəzi ilk orta əsr şəhərləri haqqında (mənbə məlumatları və tarixi-arxeoloji tədqiqatlar əsasında). // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Kömitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" Beynəlxalq elmi konfransın materialları, 3-5 may 2016-cı il, Bakı, I hissə, Mütərcim nəşriyyatı, 2016, s.132-135.

8. Bağırzadə C.V. İlk orta əsr Qarabağ şəhəri haqqında // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" VIII Beynəlxalq elmi konfransın materialları, 4-5 may 2017-cı il, Bakı, Mütərcim nəşriyyatı, 2017, səh.68-70.

9. Bünyadov Z.M. Azərbaycan VII – IX əsrlərdə. Bakı, Şərq – Qərb Nəşriyyatı, 2007, 424 s.

10. Əliyev T.R. Bərdə şəhərinin yaranması və "Bərdə" toponiminin etimologiyasına dair. // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Bərdə rayon İcra Hakimiyyəti, "Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi." Elmi-praktik konfransın materialları, 29-30 mart 2009-cu il Bərdə şəhəri, Bakı, 2009, s.38-40.

11. Əliyev T.R., Babayev F.İ. Mil-Qarabağ bölgəsində 2007-ci ildə aparılan arxeoloji kəşfiyyat işləri // 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı, "Nafta-Press" nəşriyyatı, 2007, s. 43-46.

12. Əliyev T.R., Babayev F.İ. Mil-Qarabağ bölgəsində Qafqaz Albaniyasının daha bir şəhəri aşkar olundu // AAT-2008, Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2008, s.78-83.

13. Əliyev T.R., Babayev F.İ., Hüseynova T.T., Əliyev V.T. Qalatəpə şəhər yeri və nekropolunda arxeoloji tədqiqatlar // AAT-2009, Bakı, "Xəzər Universiteti" nəşriyyatı, 2010, s. 187-192.

14. Göyüşov R.B., Quliyev N.M. Orta əsr Bərdə – Dvin ticarət yolu haqqında. // AMM, VII c., Bakı, Elm, 1973, s.124-129.

15. Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993. 83 s.

16. Göyüşov R.B. Amaras – Ağoğlan. Bakı, Elm, 1975, 98 s.

17. Göyüşov R.B. Govurqalada arxeoloji qazıntılar. // 1971-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar. Bakı, Elm, 1972, s. 26.

18. Hacıyev Q.Ə. Bərdə şəhəri (coğrafi, siyasi və mədəni tarixi), Bakı, Uni Print, 2008, 250 s.

19. Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi (b.e.ə. III – b.e. XVIII əsri). Bakı, "T" nəşriyyat-poliqrafiya mərkəzi, 2000, 320 s.

20. Xəlilov M.C. Albaniyanın yaşayış yerləri (IV-X əsrlər), Bakı, Xəzər Universiteti nəşriyyatı, 2010, 284 s.

21. Məlikov R.S., Əliyev T.R. Ayniana – Yunan şəhəri haqqında (yazılı mənbələr və son arxeoloji tədqiqatlar əsasında) // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, "Azərbaycan Arxeologiyası və Etnoqrafiyası" jurnalı, 2010, № 1. s.113-127.

22. Məmmədov A.M. Bərdə və ətrafında 2007-ci ildə aparılmış arxeoloji tədqiqatların yekunlarına dair // 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları, Bakı, "Nafta-Press" nəşriyyatı, 2007, s.91-93.

23. Məmmədov A.M. Şortəpədə arxeoloji tədqiqatlar // AAT-2008, Bakı, “Xəzər Universiteti” nəşriyyatı, 2008, s. 95-98.
24. Məmmədov A.M., Cəfərov P. Bərdə şəhərinin tarixinin öyrənilməsində arxeoloji tədqiqatların əhəmiyyəti. // AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Bərdə rayon İcra Hakimiyyəti, “Qarabağın tarixi, arxeologiyası, etnoqrafiyası və Bərdə şəhərinin 3000 illiyi.” Elmi-praktik konfransın materialları, 29-30 mart 2009-cu il Bərdə şəhəri, Bakı, AfpoliqrAF, 2009, s.18-24.
25. Məmmədov A.M. Bərdə toponiminə dair mülahizələr // “Tarix və onun problemləri” jurnalı, 2011, №1, s.195-202.
26. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 262 s.
27. Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə, Bakı, Təhsil, 2006, 400 s.
28. Nuriyev A.B.,Babayev Ə.H. Bərdə şəhərinin tarixi-arxeoloji oçerkləri.Bakı, Nurlan nəşriyyatı,2001,182 s.
29. Nuriyev A.B., Göyüşov R.B. Govurqalanın şüşə məmulatı. // AMM, X cild, Bakı, Elm, 1987, s.108-117.
30. Vahidov R.M. Govurqalada arxeoloji qazıntılar. // AMM, VI cild, Bakı, 1965, s.167-182.
31. Геюшев Р.Б. Археологическое обследование городища Ана шехер и крепости Чараберд //Материалы к сессии посвященной итогам археологических и этнографических исследований 1964 года в СССР. Тезисы докладов, Баку,1965, с.148-149.
32. Геюшев.Р.Б. Работы на городище Гявуркала. // АО 1977 года. Москва, Наука, 1978, с. 496.
33. Геюшев Р.Б., Ваидов Р.М., Гулиев Н.М. Работы Гяуркалинского археологического отряда (Агдамский район) // АЭИА 1973 г., Баку, Элм, 1974, с.40-42.
34. Геюшев Р.Б. Результаты археологических раскопок городища Гевуркалы. // Археологические открытия в СССР 1970 года. Москва, Наука, 1971.

SUMMARY

ARCHAEOLOGICAL AND THEORETICAL STUDY OF THE EARLY MEDIEVAL CITIES OF THE KARABAKH REGION

Baghirzade J.V.

The history of archeological research of the first medieval settlements, including cities, in the Karabakh region of Azerbaijan began in the late 19th century. However, these studies were random. Archaeological research of settlements in the territory of Karabakh began in the 1920s. In the archeological research of Amaras, Aghdam Govurgala, Barda, Ana city (Bardakur), one of the first medieval cities of the Karabakh region, R.B.Goyushov, in the archeological research of Aluen R.M.Vahidov, in the archeological research of Barda A.B.Nuriyev, G.A.Hajiyev and A.M.Mammadov, In the study of Garakopektepe monument, which was multi-layered in the territory of Fizuli region and was an urban settlement in the early Middle Ages, G.S.Ismayilzade, the services of T.R.Aliyev, as well as the Mil-Karabakh archeological expedition should be especially noted in the archeological research of Galatapa town.

Key words: *Karabakh, Barda, Amaras, Govurgala, Bardakur, Galatapa*

РЕЗЮМЕ

АРХЕОЛОГИЧЕСКОЕ И ТЕОРЕТИЧЕСКОЕ ИЗУЧЕНИЕ РАННЕСРЕДНЕВЕКОВЫХ ГОРОДОВ КАРАБАХСКОЙ ОБЛАСТИ

Багирзаде Д.В.

История археологических исследований первых средневековых поселений, в том числе городов, Карабахского региона Азербайджана, началась в конце XIX века.Однако эти исследования были случайными.Археологические исследования поселений на территории Карабаха начались с 20-х годов XIX века. Особо следует отметить заслуги Р.Б.Гоюшова в археологическом исследовании раннесредневекового города Карабахского региона Амараса, Агдамского Говургалы, Барды, города “Ана шехер” (Бардакур), Р.М.Вахидовав археологическом исследовании Алуена, А.Б.Нуриевав археологическом исследовании Барды, Г.А.Гаджиева и А.М.Мамедова, в изучении многослойного памятника Гаракопектепе, на территории Физулинского района, являвшегося в раннем средневековье городским поселением, Г.С. Исмаилзаде,Т.Р.Алиева в археологическом исследовании городища Галатапа, а также Миль-Карабахской археологической экспедиции.

Ключевые слова: *Карабах, Барда, Амарас, Говургала, Бардакур,* Галатапа.

AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİ MƏKTƏBLƏRİNİN DƏRSLİKLƏRLƏ TƏMİN OLUNMASI BARƏSİNDƏ (XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİ)

Baxışova R.R.
Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, Azərbaycan
rena-bakhishova@mail.ru

Açar sözlər: *Qarabağ, məktəb, ana dili, dərslik, kitab, lüğət, əlifba*

Azərbaycanda baş verən proseslər XIX-XX əsrin əvvəlləri yazı mədəniyyətinin inkişafına, maarifçiliyin və məktəb şəbəkəsinin genişlənməsi ilə nəşriyyatların, kitab və dərslik nəşrinin artmasına səbəb oldu. Qeyd edək ki, Azərbaycanda əsrlər boyu mövcud olmuş ilkin savad verən şəriət qaydalarının, ərəb və fars dillərinin tədris edildiyi məktəblər sistemi geniş yayılmışdır. Lakin anadilli tədrisin aparılması üçün ana dilində dərsliklərin tərtibi vacib idi. Belə dərsliklərin tərtibinə XVII əsrin sonlarından başlanılsa da Azərbaycan dilinə aid müasir tipli ilk dərsliklər XIX əsrdə yazılmışdı. Bu dövrdə yazılan dərsliklər sual-cavab topluları şəklində olmuş və onların tədris vəsaiti kimi istifadəsi XX əsrin əvvəllərinədək davam etmişdir. [2, s. 7-8]

İşğaldan sonra çar hökumətinin əhalini idarə edə bilməsi üçün məktəblərdə ruslara Azərbaycan dilinin tədris edilməsi üçün lüğətlər, dərsliklərin tərtibi zərurətə çevrilmişdi. Bu zərurət nəticəsində XIX əsrin ortalarında Azərbaycan dilinin tədrisi səhəsində elmi-pedaqoji tələblərə cavab verən yeni dərsliklər meydana gəldi. Mirzə Əbülhəsən Vəzirovun 1861-ci ildə "Tatar-Azərbaycan şivəsi dərsliyi" («Учебник татарско-адербайджанского наречия») nəşr edildi. Digər millətlərin nümayəndələrini Azərbaycan dili ilə tanış etmək məqsədi daşıyan bu dərslikdə M.Ə.Vəzirov M.Kazımbəyin felin zamanları haqqında müddəalarını təkmilləşdirmişdir. [2, s. 11]

1879-cu ildə Qori Muəllimlər Seminariyasında Azərbaycan şöbəsinin acılması və fəaliyyəti nəticəsində Azərbaycanda "Üsulu-cədid" məktəblərinin təsisi ilə özündə fonetik üsullu tədrisi etiva edən yeni tipli dərsliklər yazılmağa başladı. A.O.Çernyayevski 1882-ci ildə səs (sövti) üsulu ilə yazdığı "Vətən dili" dərsliyinin I cildini [1, s. 137; 6, s. 261] nəşr etdirmişdir. Səsli təlimə uyğun əlifba dərsliyinin tərtibi üçün H.Qaradaği Q.Zakirin iki təmsili və iki mənzum hekayəsini, M.V.Vidadinin bir lirik şeirini, Azərbaycan dilinə tərcümə etdiyi K.D.Uşinskinin əsərlərindən nümunələri, İ.A.Krılovun 60 təmsilini, topladığı atalar sözlərini, tapmaca, yanıltmac və s. şifahi xalq ədəbiyyatı nümunələrini, özünün elm və təbiətə dair yazdığı şeirlərini dərslik materialları kimi toplamış, Şuşada açdığı məktəbdə təcrübədən keçirərək Tiflisə A.O.Çernyayevskiyə və S.Vəlibəyova göndərmişdir. [11, s. 31] Beləliklə, 1888-ci ildə onlar Azərbaycan dərsliklərinin bünövrəsini təşkil edən və yeni pedaqoji prinsiplər əsasında tərtib edilmiş ilk əsaslı dərs vəsaiti və qiraət kitabı olan "Vətən dili" dərsliyinin II hissəsini nəşr etdirdilər. Bu dərslik sonralar yenidən nəşr edilərək Azərbaycan dilinin tədrisində geniş istifadə edilmişdir. S.Vəlibəyov 1889-cu ildə rus dilində "Tatar-Azərbaycan dilində müstəqil mütaliə üçün kitabça" ("Книжка для самостоятельно чтения на татарско-Азербайджанского наречия") adlı kitab-risalə nəşr etdirmişdi. Həmçinin o, bu kitabı dilimizə tərcümə edərək "İbtidai məktəb şagirdlərinə məxsus və hüsnü əxlaqa dair Azərbaycan dilində oxu risaləsi" adlandırmışdı. [6, s. 259, 263]

S.Vəlibəyov köhnə fikirli, fanatik dindarların düşüncə tərzini dətişmək məqsədilə 1891-ci ildə fars dilində "Üsuli-cədid" ("Lisani-farsi") adlı dərslik tərtib edərək ənənəvi məktəblərıə yeni təlim üsulu gətirmişdi. O, həmin ildə Azərbaycan dilində Avropa və Asiya ölkələrinin, o cümlədən Azərbaycanın tarixi, coğrafiyası, ədəbiyyatı, görkəmli şəxsiyyətləri haqqında məlumat verən izahlı və ensiklopedik xarakterli ikicildlik "Xəzineyi-əxbar" adlı lüğət nəşr etdirmişdi.. [11, s. 41] Bu tipli dərs vəsaitlərinin olmaması səbəbindən o dövrdə bu ensiklopedik vəsait – izahlı lüğət əhalinin savadlanmasında əvəzsiz rol oynadı. Məktəblərdə uşaqlara şəriət və onların yaşına uyğun olmayan kitabların tədrisinin əleyhinə olan N.Vəzirovun fikrincə tədrisin keyfiyyətini yüksəltmək üçün *"Elmi coğrafiya kitabını oxusaq, həm yazıb-oxumağı öyrənərik, həmi dünya üzündə olan vilayətlərdən xəbərdar olarıq"*. [12, s. 10]

Dünyəvi məktəblərdə rus əhalinin Azərbaycan dilinin tədrisi üçün 1887-ci ildə "Tatar dili dərsliyi və ya rəhbərliyi" ("Самоучитель татарского языка или руководство") dərslik tərtib edilmişdi. [6, s. 263]

Bir qisim ədəbiyyatlarda bu dərsliyin müəllifinin A.Tahirov (tədqiqatlardan aydın olur ki, bu şəxş Əliş bəy Tahirovdur – B.R.), bir qisim ədəbiyyatlarda isə Mirzə Həsən Tahirzadə olduğu göstərilir. Qeyd edək ki, bu şəxslərin hər ikisi əslən Güney Azərbaycanlı Məhəmmədtahir bəyin soyundan olan, sonradan Qarabağa məskunlaşmış Tahiroğulları nəslindəndir. Ə.Tahirov Qarğabazar kənd məktəbinin nəzarətçisi vəzifəsində işləmişdi. Axund M.H.Tahirzadə isə çar hökuməti tərəfindən şeyxülislamı və Şiə Ruhani İdarəsinin sədri təyin edilmişdir. O da, Cəbrayıl qəzasının Qarğabazar kəndində məktəb təsis edərək orada pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Ə.Tahirovun qavranılması asan olan 398 səhifəlik 6 hissəli dərsliyi 1890-cı ildə nəşrinə icazə verilsə də naməlum səbəbə görə nəşr edilmədi. [1, s. 140-141; 9, s. 93; 10, s. 54; 13, s. 4]

Yeni üsullu məktəblərdə ana dili, hesab və digər fənlərin tədrisi üçün 1890-cı ildə isə Şükrulla Məhərrəmzadə Qarabaği "Hərflər və xətlər kitabı, M.Nəvvab elmin müxtəlif sahələrdən bəhs edən "Kəşf-ül-Həqiqət", "Kifayət-ül-ətfal", Vüzuh-ül-ərqam" və "Nəsihətnamə" adlı dərsliklərini tərtib etmişdilər. [4, s. 273; 5, s.98]

Şuşada rus-Azərbaycan məktəbi təsis edən rus dili miüəllimi Mirzə Salah bəy Zöhrabbəyov "Azərbaycanlılar üçün rus dilinin tədrisi", Firidun bəy Köçərli ilə birlikdə isə "Təlimati-lisani-türki" dərsliyini də tərtib etmişdi.[9,s. 81]

Azərbaycan muəllimlərinin 1906-cı il I Qurultayında qəbul edilmiş qərara əsasən maarifçilər qarşısında qoyulan yeni tipli dərsliklərin tərtibi və nəşri məsələsində Qarabağ bölgəsində fəaliyyət göstərən M.Mahmudbəyov, S.S.Axundov, Ü.Hacıbəyli, F.Ağazadə kimi müəllimlər və maarifçilər əhəmiyyətli rol oynamışdılar. S.S.Axundov 1908-ci ildə A.Şaiq, M.Mahmudbəyov və digər maarifçilərlə birlikdə məşhur "İkinci il" dərsliyini tərtib etdirmişdir. [3, s. 4]

Ü.Hacıbəyovun 1907-ci ildə Azərbaycan dilində tərtib etdiyi "Hesab məsələləri" dərsliyi içindəki mövzuların sadədən mürəkkəbə doğru sıralanması, sistemliliyi, Azərbaycan-turk şivəsində olması və bunun nəticəsində mənimsənilməsinin asan olması səbəbindən məktəblərdə uzun müddət istifadə edilmişdir. [8, s. 60]

Həmin ildə o, M.Ə.Rəsulzadənin redaktorluğu ilə "Rusi-türki və türki-rusi" luğətini nəşr etmişdir. Dövrünün lüğət tərtibi tələblərinə uyğun hazırlanan, indiki analoqlarından fərqli olan bu lüğətdə ana dilimizdəki bir sözün rus dilinə tərcüməsi o zamankı ərəb qrafikalı yazılışın tələbinə əsasən onu "sağdan sola", rusca sözün dilimizə tərcüməsi isə "soldan sağa" yazılmışdır. XX əsrin 40-cı illərində də Azərbaycan lüğətçilik məktəbinin ən görkəmli nümayəndələrindən olan akademik Heydər Hüseynov Ü.Hacibəylinin hələ 23 yaşı olanda hazırlayıb nəşr etdirdiyi bu lüğəti "mədəniyyətimizin tarixində irəliyə atılmış bir addım" [8, s. 4; 14, s. 21] kimi qiymətləndirmişdi.

Qarabağ regionunda Azərbaycan xalq maarifinin inkişafında xüsusi rol oynayan Mahmud bəy Mahmudbəyovun "Ana dili" kitabı ibtidai məktəblərdə əsas tədris vasitəsi idi. [7, s. 62-63] O, 1907-ci ildə "Türk əlifbası və ilk qiraət", Abbas Səhhətlə birlikdə "Türk dilinin təlimi üçün üçüncü ilə məxsus qiraət kitabı" (1909), "İmlamız" (1911), A.S.Mehdizadə ilə birlikdə təhsilin üçüncü ilində türk dilinin təlimi üçün "Yeni məktəb" (1913), A.Səhhətlə birlikdə ali və rus-Azərbaycan məktəblərinin aşağı sinifləri üçün "Türk ədəbiyyatına ilk qədəm" (1914), Əbdürrəhmanbəyzadə, S.Axundzadə, F.Ağazadə, A.Talıbzadə, Ə.Əfəndizadə ilə birlikdə əlifba təlimindən sonra tədris edilən "İkinci il" (1917) kimi yeni üsullu dərslik və kitabları tərtib edərək nəşr etdirmişdir. [14, s. 22]

Yuxarıda qeyd olunanlardan və mənbələrdən [19, v. 20] də aydın olur ki, Azərbaycan ərazisində, o cumlədən Qarabağ regionunda mətbəələr fəaliyyət göstərdiyi halda müsəlman məktəbləri üçün dərsliklər Tiflisdə çap olunurdu.

XIX əsrdə Qarabağ bölgəsinin müxtəlif məktəblərində "Ana dili", rus dili fənni F.Levitskinin "Rus dili kursu" (I-II hissələr), K.Şeltsevin "Xarici (yerli – R.B.) məktəblərdə rus dilinin ibtidai tədrisi üçün metodik dərslik" (I-II hissələr, Odessa, 1902), Karxanidinin "Canlı söz" (I-II hissələr), Caparidze və Zedgenidzenin metodik xristomatiyası, Caparidzenin "Xristomatiya" (I hissə), Vişnevskinin "Metodika üzrə qeydlər", Martinovskinin "Rus yazıçıları" (I və II hissələr), Davisin "Doğma vətən" ("Rodnoy mir"), həmçinin Martinovskinin dərsliklərindən tədris olunurdu. Hesab fənni S.Şaxar-Trotskinin "Xalq məktəblərinin müəllimləri üçün hesabdan metodika" (SPb., 1896), Qoldenberq və Yevtuşevskinin "Hesab", Borisov və Satarovun "Hesab", Şapoşnikov və Valtsovun "Hesab" (I-II hissələr), Sokolov və Saxarovun "Hesab", Yureviçin, eləcə də Malinin və Bureninin məsələlər toplusu, həndəsə isə Yuryeviçin dərsliklərindən tədris olunurdu. Tarix fənni Smirnovun, coğrafiya fənni isə F.Kondratenkonun "Qafqazın coğrafiyası dərsliyi" (Tiflis, 1895), Stupel və Qlovun dərsliklərindən tədris olunurdu. Bundan başqa, məktəblərdə Kirpiçnikovun "Etimologiya", "Sintaksis", Qerdin "Təbiyyatşünaslıq", Sokovinanın "Rəsm üzrə nümunələr" Y.Rappeportun "Vəbadan qorunmağın yolları" (Nikolayev, 1893) dərslikləri [15, 12arx..; 16, v.45arx., 46; 17, v.5arx.; 19, v.12-12arx.; 20, v. 21; 21, v.11.; 22, v. 26] də tədris edilirdi.

Aparılan araşdırmalardan məlum olur ki, Azərbaycan dilində ədəbiyyatların və dərliklərin nəşrində ciddi problemlər mövcud idi. Dərsliklərin təhlilindən aydın olur ki, məktəblərdə dünyəvi fənlər rus müəllifləri tərəfindən yazılmış rus dilində olan dərsliklər əsasında tədris olunurdu. Ana dilimizin tədrisi sahəsindəki dərsliklərin əksəriyyəti də rus dilində yazılmış və Azərbaycan dilini ruslara öyrətmək məqsədi daşımışdır. Hətta çarizmin nəzarət mexanizminə müvafiq olaraq müsəlman məktəbləri üçün dərsliklər də Tiflisdə çap olunurdu.

ƏDƏBİYYAT

1. Abdullayev, A.S. Azərbaycan dilinin tədrisi tarixindən / A.S.Abdullayev. - Bakı: Maarif, - 1966. - 332 s.
2. Adilov, V.Z. Mirzə Məhəmməd Əfşar "Fənni-sərfü nəhvi-türki" (qrammatik oçerk, mətnin transliterasiyası, lüğət və əlyazmanın fotosurəti). / V.Z.Adilov, R.Babazadə - Bakı: Elm və təhsil, - 2015. - 260 s.
3. Axundov, S.S. Seçilmiş əsərləri/ S.S.Axundov. - Bakı: Şərq-Qərb, - 2005. - 448 s.

4. Azərbaycan tarixi: [7 cilddə] / Məs. red. M.İsmayıl. - Bakı: Elm, - c. 4: XIX əsr. - 2007. - 504 s. + 48s. illüstrasiya.
5. Əfəndiyev, P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Ş. Əfəndiyev. - Bakı: Maarif, - 1992. - 478 s.
6. Əhmədov, H.M. XIX əsr Azərbaycan məktəbi / H.M.Əhmədov. - Bakı: Təhsil, - 2006. - 580 s.
7. Xələfov, A.A. Azərbaycanda kitabxana işinin tarixi: [3 hissədə]. / A.A.Xələfov. - Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, - h.2. - 2007. - 552 s.
8. Quliyev, V.X. 180 yaşlı Şuşa məktəbi / V.X.Quliyev. - Bakı: Şuşa, - 2010. - 200 s.
9. Məmmədov, N.R. Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə / N.R.Məmmədov. - Bakı: ADPU-nun mətbəəsi, 2005. - 169+9 s.
10. Nəbiyev, B.Ə. Üzeyir Hacıbəylinin ömürnaməsi (fraqmentlər) / B.Ə.Nəbiyev. - Bakı: Şərq-Qərb, - 2012. - 520 s.
11. Nəsirov, R.B. Azərbaycan Milli mətbuatının inkişafında şuşalı ziyalıların rolu (1875-1935) / R.B.Nəsirov. - Bakı: Mütərcim, - 2018. - 216 s.
12. Nurullayev, F.İ. Şeyxülislamliq zirvəsi: Haci Allahşükür Paşazadə. Bakı: «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014. 272 s.
13. Şahverdiyev, A.B. Azərbaycan mətbuatı tarixi / A.B.Şahverdiyev. - Bakı: Təhsil, - 2006. - 248 s.
14. Tahirzadə, Ə. Peterburqda oxumuş tələbələrimiz // Azərbaycan müəllimi.- 2012, 8 mart. - 4.
15. Годовой отчёт о ходе учебно-воспитательного дела за 1916/17 год Базарчайского 2-х классного училища // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406, siyahı № 1, iş № 307, vərəq – 12-13 обр.
16. Отчет о ходе учебного дела в Кубатлинском двухклассном училище 4 района Елизаветпольской губернии за 1914/15 учебный год. 15 апреля 1915 г. // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406, siyahı № 1, iş № 95, vərəq – 45-47 обр.
17. Отчет о ходе учебного дела в Халаджском двухклассном сельском училище 4 района Елизаветпольской губернии за 1914/15 учебный год. // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406, siyahı № 1, iş № 250, vərəq – 5-5 обр.
18. Рапорт МВД Полицейского пристава 2-го части город Шуши 25 апреля Г. Шушинскому уездному начальнику. 25 октябрь 1901 г., № 22, г. Шуша // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 77, siyahı № 1, iş № 68, vərəq – 20-20 обр.
19. Рапорт Смотрителя Аликуликендского сельского одноклассного училища Господину Инспектору Народных училищ II района Елизаветпольской губернии. февраля 1907 г., № 9, сел. Аликуликенд 2-й, Зангезурского уезда // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406, siyahı № 1, iş № 96, vərəq – 12-12 обр.
20. Рапорт Смотрителя Геранзурское одноклассного училища Господину Директору Народных училищ Елизаветпольской губернии. 5 марта 1907 г., № 24 // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406, siyahı № 1, iş № 131, vərəq – 21-21 обр.
21. Список книг и периодических изданий, имеющимся выписать для Кубатлинского училища в 1905 году. 18 декабря 1904 г. // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406,siyahı № 1, iş № 95,vərəq 11.
22. Счет Г.А.Асриянца Джабраилскому Женскому училищу // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 406, siyahı № 1, iş № 177, vərəq – 26-26 обр.

SUMMARY

ON THE PROVISION OF TEXTBOOKS FOR SCHOOLS IN THE KARABAKH REGION OF AZERBAIJAN (LATE XIX AND EARLY XX CENTURIES)

Bakhishova R. R.

Processes taking place in Azerbaijan In the 19th and early 20th centuries, the expansion of enlightenment and the school network led to an increase in the publication of books and textbooks. During this period, textbooks were written in the native language, as well as dictionaries were compiled for mother tongue teaching. However, most of the textbooks in the field of teaching our native language were written in Russian and aimed at teaching the Azerbaijani language to Russians. Secular subjects were taught in schools on the basis of textbooks written in Russian by Russian authors.

***Keywords**: Karabakh, school, native language, textbook, book, dictionary, alphabet*

РЕЗЮМЕ

ОБ ОБЕСПЕЧЕНИИ УЧЕБНИКАМИ ШКОЛ КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА (КОНЕЦ XIX - НАЧАЛО XX ВВ.)

Бахишова Р.Р.

Процессы, происходящие в Азербайджане в 19 — начале 20 вв. расширение просвещения и школьной сети привело к увеличению издания книг и учебников. В этот период были написаны учебники на родном языке, а также составлены словари для обучения родному языку. Однако большинство учебников в области преподавания родного языка были написаны на русском языке и нацелены на обучение россиян азербайджанскому языку. Светские предметы преподавались в школах на основе учебников, написанных на русском языке русскими авторами.

Ключевые слова: *Карабаг,школа,родной язык,учебник,книга,словарь,алфавит*

MƏDƏNİYYƏT BEŞİYİ ŞUŞA

Bədəlova N.S.
Sumqayıt Dövlət Universiteti, Sümqayıt, Azərbaycan
nargilebedelova@gmail.com

Açar sözlər: *mədəniyyət, işğal, qələbə, şəxsiyyət, musiqi*

Mədəniyyət (və ya sivilizasiya) şəhər inkişafı, sosial təbəqələşmə, idarəetmə forması və təbii danışıq dilindən (məsələn, yazı kimi) kənarda olan simvolik ünsiyyət sistemləri ilə xarakterizə olunan mürəkkəb cəmiyyətdir.Sivilizasiyalar mərkəzləşmə, bitki və heyvan növlərinin (insanlar da daxil olmaqla) əhliləşdirilməsi, əməyin ixtisaslaşması, mədəniyyətdə kök salmış tərəqqi ideologiyaları, monumental memarlıq, vergilər, əkinçilikdən cəmiyyətin asılılığı və ekspansionizm kimi əlavə xüsusiyyətlərlə sıx bağlıdır. Tarixən "sivilizasiya" çox vaxt daha kiçik, daha az inkişaf etmiş mədəniyyətlərdən fərqli olaraq daha böyük və "daha inkişaf etmiş" mədəniyyət kimi başa düşülür. Bu geniş mənada bir sivilizasiya qeyri-mərkəzləşmiş qəbilə cəmiyyətləri, o cümlədən köçəri çobanların, Neolit cəmiyyətlərinin və ya ovçu-toplayıcıların mədəniyyətləri ilə ziddiyyət təşkil edir; lakin bəzən sivilizasiyaların özlərində olan mədəniyyətlərlə də ziddiyyət təşkil edir. Sivilizasiyalar intensiv kənd təsərrüfatı, mədənçilik, kiçik istehsal və ticarətlə məşğul olan hakim elita və tabeliyində olan şəhər və kənd əhalisi olan iyerarxik sosial siniflərə bölünmüş, sıx məskunlaşmış yaşayış məntəqələridir. Sivilizasiya gücü cəmləşdirir, insanın təbiətin qalan hissəsi, o cümlədən digər insanlar üzərində nəzarətini genişləndirir. Sivilizasiya, etimologiyasının (aşağıya bax) təklif etdiyi kimi, əvvəlcə qəsəbələr və şəhərlərlə əlaqəli bir anlayışdır. Sivilizasiyaların ən erkən meydana çıxması, ümumiyyətlə, Qərbi Asiyada Neolit İnqilabının son mərhələləri ilə əlaqələndirilir və nisbətən sürətli şəhər inqilabı və dövlət quruculuğu prosesi ilə yekunlaşır, siyasi inkişaf idarəedici elitanın meydana çıxması ilə bağlıdır.

"Sivilizasiya" təkcə cəmiyyətin özünə deyil, mürəkkəb cəmiyyətin mədəniyyətinə də aid edilə bilər. İstər sivilizasiya olsun, istərsə də olmasın, hər bir cəmiyyətin özünəməxsus ideyaları və adət-ənənələri, onu unikal edən müəyyən istehsal və sənətlər dəsti var. Sivilizasiyalar mürəkkəb mədəniyyətlər, o cümlədən dövlət əsaslı qərar qəbuletmə aparatı, ədəbiyyat, peşəkar incəsənət, memarlıq, mütəşəkkil din və elitanın saxlanması ilə bağlı mürəkkəb təhsil adətləri, məcburiyyət və nəzarət inkişaf etdirməyə meyllidirlər. Vətənimizin hər guşəsi onun keçmiş əzəmətini əks etdirən silinməz izlərlə zəngindir. Azərbaycan tarixinin öyrənilməsində alimlərimizin göstərdiyi gərgin səylərə baxmayaraq, bu barədə hələ də tədqiq edilməsi vacib bir çox açılmamış maraqlı səhifələr var. Bu səhifələrdən biri də əsrlər boyu mürəkkəb hadisələrin şahidi olan, öz gözəlliyi və təbii şəraiti ilə şöhrət qazanan qədim şəhərimiz Şuşadır.

Məlum olduğu kimi, tarix boyu Azərbaycan ərəb, fars və türk işğalçılarının hücumuna məruz qalıb. Bu da ölkəmizdə bir çox şəhər adlarının dəyişməsinə, daşıdıqları tarixi adların sıradan çıxmasına, yeni-yeni adların meydana gəlməsinə səbəb olub. Çox güman ki, Şuşa şəhəri və onun yerləşdiyi Qarabağ mahalı da ilk zamanlar başqa cür adlandırılıb. Buna görə də ərəb mənbələrində həmin mahal və şəhərin adına təsadüf edilmir, həmin mənbələrdə bu yerlər ümumi adla - Aran kimi göstərilib. Fəqət geniş bir sahəni əhatə edən Aranın inzibati bölgüsü nəticəsində burada yerləşən mahal, şəhər və kəndlərin dəqiq adı və təsviri verilməyib.

XIX əsrin ortalarında Azərbaycan və İranı tədqiq edən fransız arxeoloqu Jak de Morqan Qarabağ sözünün etimologiyası ilə maraqlanıb və belə nəticəyə gəlib ki, həmin ad vilayətə onun təbii şəraətinə uyğun olaraq verilib. Yəni Qafqaz silsilə dağlarının həmin hissəsini meyvə bağları, onun davamı olan sahəni meyvəsiz bəzək ağacları əhatə etdiyinə görə bura "Qarabağ" adı verilib.

İngilis səyyahlarından Robert Ker Porterə görə, Qarabağ vilayətinə həmin adın verilməsi qədimdə onun ərazisində yerləşən və "Qara bazar" adını daşıyan yarmarka ilə əlaqədar olub. O belə yazır: "Həftədə bir dəfə təşkil olunan Qara bazar yarım fərsənk (təxminən üç kilometr) uzunluğa və yarım fərsənk enə malik idi. Bazarda ayrı-ayrı məhsulların alverinə məxsus dalanlar salınmışdı. Fəqət sonralar həmin bazar aradan çıxmış, onun yerində geniş meyvə bağları əmələ gəlmişdir ki, bu da "Qara bazar" sözünün "Qara bağ"la əvəz edilməsinə səbəb olmuşdur." Mənbələrin məlumatına görə, həmin bazar Qarabağın Bərdə mahalında yerləşirmiş. Doğrudan da Qarabağ vilayətinin təbii şəraiti bu müddəaları tamamilə təsdiq edir.

XVIII əsrin ikinci yarısında Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı olub. Bu adın həmin şəhərə verilmə tarixi hələlik məlum deyil. Fəqət mənbələrin tədqiqi göstərir ki, onun ilk adı Şuşa yox, Şuşi olub. Sonralar bu söz dəyişərək müasir ədəbiyyatda ahəng qanununa uyğun olaraq Şuşa kimi formalaşıb.Şuşa şəhəri təbiəti və saf havasına görə və müalicə əhəmiyyəti baxımından Sovet illərində kurort şəhəri hesab olunub. Burda kilsə və məscidlər, karvansaralar, muzeylər vardı. Şuşa teatrının tarixi 19-cu əsrin axırlarından başlayıb. Azərbaycanın Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Xurşudbanu Natəvan, Həmidə xanm Cavanşir, Əhməd bəy Ağaoğlu kimi məşhur ziyalıları, sənətçiləri əslən Şuşadandırlar. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılıb.Şəhərdə Sovet dövründə tar, kamança, ud, nağara və digər musiqi alətləri istehsal edən yeganə Şərq Milli musiqi alətləri fabriki fəaliiyət göstərib. Şəhər işğal olunana kimi orada onlarla muzey, bir neçə orta və ali təhsil müəssisəsi, məktəblər və kitabxanalar olub. Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra 30 illik işğal tarixində ermənilərin Azərbaycan torpaqlarına vurduğu maddi və mənəvi zərər daha aydın göründü. Azərbaycanın incisi sayılan Şuşa şəhəri də bu vandalizimdən öz payını tapmışdır. Tarixə nəzər salsaq qeyd etmək lazımdır ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Vandalizmin davam etdiyi 29 il ərazində Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey, turizm bazası, şərq musiqi alətləri fabriki dağıdılmış, məbədgah və məscidlər təhqir edilmiş, çox sayda nadir əlyazma nümunələri məhv edilmiş, 20 kitabxana yandırılmışdır. Əldə olunan Qələbə Azərbaycanın qarşıya qoyduğu digər vəzifələri həyata keçirmək üçün böyük imkanlar yaratdı. 30 ilə yaxın bir müddətdə işğal altında qalan torpaqlarımıza azad olunduqdan sonra Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın səfərləri tarixi ata-baba yurdumuz olan torpaqlarımızda geniş quruculuq-abadlıq işlərinin başlanması üçün ilk addımlar oldu. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik...O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır.

SUMMARY

CULTURE CRADLE SHUSHA

Badalova N.S.

For centuries, Azerbaijanis have lived, built and created in Shusha. Shusha is a pearl not only of Azerbaijan, but of the whole Caucasus. However, by occupying Shusha, the hated historical enemy dealt a great blow to our cultural heritage, destroyed our monuments, destroyed and controlled our mosques. We have now returned to Shusha. It restores all our historical monuments ... In addition, the buildings in Shusha are being overhauled, restored, and their appearance must be restored.

Keywords: *culture, occupation, victory, personality, music*

РЕЗЮМЕ

КОЛЫБЕЛЬ КУЛЬТУРЫ ШУША

Бадалова Н.С.

На протяжении столетий азербайджанцы жили, строили и творили в Шуше. Шуша – жемчужина не только Азербайджана, но и всего Кавказа. Однако, оккупировав Шушу, ненавистный исторический враг нанес большой удар по нашему культурному наследию, разрушил наши памятники, разрушил и контролировал наши мечети. Мы вернулись в Шушу. Восстанавливает все наши исторические памятники… Кроме того, в Шуше идет капитальный ремонт, реставрируются здания, и их внешний вид должен быть восстановлен.

Ключевые слова: *культура, занятие, победа, личность, музыка.*

AZERBAYCAN BÖLGESİNDE TÜRK KÜLTÜR DÖNEMLERİ VE KARABAĞ ESERLERİ

Bülent Nuri KILAVUZ
Aydın Adnan Menderes Üniversitesi, Efeler/Aydin/Türkiye
bnkilavuz@gmail.com

Demokratik ülkemizin acil sorunlarının çözülmesi, tarihimizin bazı karanlık sayfalarına ışık tutarak kendimizi tanımlamayı ve yeni nesil genç aydınlar yetiştirmeyi önemli kılmaktadır. Geçmişteki engellere rağmen tarihimizin değerli sayfalarını ortaya çıkarmayı ve insanlara tanıtmayı başardık. Milletimizin her temsilcisi, tarihi geçmişini ve kültürel mirasını incelerken gurur duyar.

Azerbaycan Halkının Umumi Lideri
Haydar Aliyev

AZERBAYCAN BÖLGESİ TARİHİ COĞRAFYASI. Kuzeyde Büyük Kafkasya, batıda Göye Gölü, doğuda Hazar Denizi ve güneyde Sultaniyye-Zendjan-Hamedan sınırları, batıda Alagöz Dağları ve Doğu Anadolu sınırları arasında kalan coğrafya Azerbaycan'ın tarihi topraklarıdır [1]. Karabağ, Azerbaycan sınırları içinde, Kura ve Aras ırmakları ile Gökçe Göl arasındaki bölgeyi içine almaktadır. Karabağ adı ilk kez 14. yüzyılda kullanılmaya başlanmıştır. Daha önceleri bölgeye Gerger, Guger, Uti, Utik, Udin, Otena, Kara, Karalar, Arsak, Sev aygi gibi isimler verilmiştir. Karabağ, Türkçe kara ve Farsça bağ kelimelerinin bir araya gelmesiyle oluşmuş bir kelimedir. Karabağ bölgesinin coğrafi sınırları Ağdam, Terter, Yevlah, Fuzuli, Beylegan, Kubatlı, Cebrail, Mingeçevir, Ağcabedi, Hocavend, Şuşa, Hankendi, Laçin, Kelceber, Hanlar, Gorus, Akdere, Bedre, Zengezur, Hadrut bölgelerini içine almaktadır. Dağlık Karabağ, Karabağ bölgesinin içinde, Hankendi, Şuşa, Akdere, Hadrut, Hocavend, Askeran, bölgelerinden oluşmaktadır. M.S. 1.yüzyıldan itibaren Hunlar, Barsiller, Bulgarlar, Kengerler, Sabirler, Ogurlar ve Hazarlar bölgedeki Türk nüfusunun artmasında önemli rol oynamıştır. Bölge, Sasani ve Doğu Roma hâkimiyetinde kalmıştır [2]. Karabağ bölgesi, M.Ö. IV. yy-M.S. VIII. yy arasında çeşitli büyük devletlerin hakimiyetini kabul etse de Alban devleti sınırlarındadır. Alban devleti farklı topluluklardan ve inançlardan oluşmaktadır. Kafkasya coğrafyasında Hristiyanlık ilk olarak M.S. I. yüzyılda Albanlar tarafından kabul edilse de bölgede eski inançlar da sürdürülmüştür. VII. Yüzyılın ikinci yarısından itibaren Azerbaycan bölgesinde Arap-İslam Devletinin fetihleri başlamıştır [3].

Abbâsî Halifeliği'nin gerilemesiyle oluşan otorite boşluğunda, Müsafiriler, Sâciler, Şeddadiler ve Büveyhîler gibi birçok yerel devlet bölgeye egemen oldu [4]. X. yüzyıl sonu XI. yüzyıl başından itibaren Samanoğulları ve Gaznellilerin baskısından batıya çekilen Selçuklu Oğuz-Türkmen göçlerine sahne olmuştur. Selçuklular döneminde Türkmenler Horasan bölgesine, İran'ın kuzey bölgelerine ve Güney Kafkasya'da Karabağ bölgesine yerleşmişlerdir. Daha sonra Gürcü, Moğol, Karakoyunlu (1351-1469), Akkoyunlu (1340-1514), Safevi (XVI-XVIII yy) [5] ve Safevi devletinin yıkılmasından sonra Azerbaycanlı komutan Nadir Şah Afşar (1736-1747), Safevi İmparatorluğu'nun sınırlarını daha da genişletti. Ancak Nadir Şah'ın ölümünden sonra 18. yüzyılın ikinci yarısında imparatorluk ve Azerbaycan hanlıklar ve saltanatlar olmak üzere küçük devletlere bölündü [6]. Yazışmalardan Osmanlı devleti ile işbirliği içinde olan ve yardım alan Azerbaycan ve Dağıstan hakimleri, Karabağ'da dahil olmak üzere 17'dir [7]. Azerbaycan hanlıklarından biri olan Karabağ Hanlığı 1822 yılında Şeki ve

Şirvan Hanlıklarından sonra Rusya'nın ilhakına kadar devam etmiştir [8]. 18. yüzyılın sonunda İran'da Azerbaycan Türkü Kaçar hanedanı (1796-1925) iktidara geldi. Kaçarlar, Nadir Şah'ın yönetimi altındaki tüm topraklarda hakimiyet kurmaya çalıştılar. Azerbaycan, toprakları ve hanlıklar, Rus ve Kaçar devletleri arasında kanlı savaşların arenasına dönüştü [9]. Karabağ Hanı İbrahim Halil Han çaresiz önce İran arakasından Rus hakimiyetini kabul etse de 1806 yılında Ruslar tarafından öldürülmüş yerine geçen oğlu Mehdikulu Han döneminde Karabağ hanlığı Rusya topraklarına katılmıştır [10]. Gülistan (1813) ve Türkmençay (1828) anlaşmalarıyla, Kuzey Azerbaycan Rusya'ya ve Güney Azerbaycan- İran'a ilhak edilerek Azerbaycan toprakları iki imparatorluk arasında bölündü. [11] Osmanlı Devleti ve Azerbaycan bölgesinde hakimiyet kuran diğer Türk devletleri arasında zaman zaman karşılıklı mücadeleler olmakla birlikte her iki bölge de gelişimini sağlıklı bir şekilde sürdürmüştür [12]. Azerbaycan bölgesinin merkezi otoritesinin zayıfladığı dönemlerde Osmanlıların bölgeye düzenledikleri çeşitli seferlerde kısa süreli hakimiyetler kurulmuşsa da daha çok nüfuz etkisi sürdürülmüştür. Osmanlı devletinin XVIII. yy ortalarından itibaren gücünün zayıflaması bu durumda etkili olmuştur [13]. Karabağ Hanlığını yıkan Rus komutan Ermolov'un verdiği raporlar doğrultusunda bölgede yoğun olan Azerbaycan Türklerinin nüfusunu azaltmak için Çarlık Rusya'sı [14] kendisine destek ve Güney Kafkasya'da bir Hıristiyan kalesi oluşturmak için, işgal altındaki Azerbaycan topraklarına, özellikle Karabağ'ın dağlık bölgelerine, Erivan ve Nahçıvan hanlıklarının topraklarına kitlesel olarak Ermeni nüfusunu yerleştirerek bölgenin demografik yapısını bozmuştur. Azerbaycan'ın Karabağ hanlığından sonra Mart 1828'de İrevan ve Nahçıvan hanlıkları tasfiye edilerek sözde "Ermeni bölgesi" oluşturuldu. Çarlık Rusyasının yıkılmasıyla 28 Mayıs 1918'de Kuzey Azerbaycan'da Azerbaycan Demokratik Cumhuriyeti kuruldu. Sovyet Rusya'nın güçlenmesi ile 28 Nisan 1920'de Azerbaycan Demokratik Cumhuriyeti Sovyet Sosyalist Cumhuriyeti'ne (Azerbaycan SSC) bağlandı [15].



Harita : Azarbaycan AraЬ Xilafati devrinde (VII asrin II yarisi - IX asrin I yairsi) (Azerbaycan Respublikası, Dövlet Torpaq Ve Xeriteçekme Komitesi, Azerbaycan Milli Elmler Akademiyasının Tarix İnstitutu, Azarbaycan Tarixi Atlasi, Bakı 2007)

Ermeni silahlı kuvvetleri tarafından 1917 yılı başından 1918 yılı Mart ayına kadar, Azeri Türklerinin yoğun olduğu Erivan bölgesinde 197, Zengezur'da 109, Karabağ'da 157, diğer Azerbaycan topraklarında 60 yerleşim birimini yakılıp-yıkılarak ve masum Azeri Türklerinin yaklaşık 700.000'i şehit edilirken, 1.000.000 dan fazlası da yurtlarından göç etmek zorunda kaldı [16].

SSCB'nin dağılmasıyla 18 Ekim 1991'de Azerbaycan Cumhuriyeti bağımsızlığını ilan etti. Ancak Batı Azerbaycan'a yerleşen Ermeniler, 8 Mayıs 1992'de Ermeniler Şuşa'yı ve 2 Ekim 1992'de Hocavend'i ele geçirdi. 25-26 Şubat 1992 gecesi, Ermeniler, eski Sovyet ordusunun askerleriyle birlikte, 6.000 Azerbaycanlının yaşadığı Hocalı şehrini tamamen yok etti. Dağlık Karabağ ve 7 komşu bölgenin toprakları (Şuşa Mayıs 1992, Laçın - 18 Mayıs 1992, Kelbecer - 2 Nisan 1993, Ağdam) - 23 Temmuz 1993, Cebrail - 23 Ağustos 1993, Fuzuli - 23 Ağustos 1993, Kubadlı - 31 Ağustos 1993, Zengilan - 29 Ekim 1993) işgal edildi, 27 Eylül 2020'de Ermenistan silahlı kuvvetlerinin Azerbaycan'a yönelik saldırılarına karşılık verildi. 44 gün süren savaş sonrasında mutlak galibiyete ulaşıldı ve Dağlık Karabağ bölgesi kurtarıldı [17].

Türkler, tarihte hiçbir zaman var olmayan Büyük Ermenistan idealini gerçekleştirmek isteyen Ermeniler ve yandaşları tarafından tarihin çeşitli dönemlerinde soy kırıma tabi tutulmuşlardır. Onlar Türk yurtlarında engin hoşgörü içinde yaşama hakkı elde etmelerine rağmen ilk fırsatta Türkleri yurtlarından sürmeye veya yaşam haklarını gasp etmeye çalışmışlardır.

TARİHİ ESERLER VE KÜLTÜR VARLIKLARI. Ermenistan bütün uluslararası anlaşma ve kuralları ihlal ederek yapmış olduğu katliamlara ek olarak kültür ve tabiat varlıklarını da yağmalamıştır. Karabağ ve işgal ettiği bölgelerdeki Türk kültür varlıklarını ve yerleşim yerlerini kültürel kimliği ortadan kaldırmak amacıyla tahrip etmiştir. Ermeni işgali altındaki Azerbaycan bölgelerindeki; 500 civarında tarihi mimari eser, 100 den fazla

arkeolojik eser, 10 binlerce esere sahip 22 müze, 4 resim galerisi, 4.600.000 civarında kitap ve el yazması eserin bulunduğu 927 kütüphane, 85 müzik ve güzel sanatlar okulu, 20 kültür sarayı ve 4 devlet tiyatrosu işgal döneminde Ermenilerce kültürel kimlik katliamına uğramıştır. Bu katliamlarda herhangi bir dönem ve eser grubu ayırımı yapılmamıştır. Şuşa mağarası gibi doğal, Azıh ve Tağlar gibi Eski Çağ, Şuşa Kalesi gibi kentsel yerleşim, Şuşa Molla Penah Vagif'in mezarı, Şuşa Camii gibi dini, Fuzuli'de Şah Abbas Kervansarayı gibi sivil kültür anıtları, Kelbecer, Laçin, Kubadlı, Zengilan ve diğer yerleşim yerlerindeki eser bu katliamlardan nasibini almıştır. Ermeniler dışındaki Hristiyan toplulukların kiliseleri ve eserleri de bu yıkımdan payını almıştır. Azerbaycan Kültür Bakanlığı henüz 2006 yılında Ermeniler tarafından 700 den fazla tarihi ve kültürel eserin yok edildiğini açıklamıştır. Bazı kültür varlıkları üzerine kendi sembollerini yerleştirerek işgal ettikleri bölgelerde daha önce varmış gibi göstermeye çalışmaktadırlar [18].

Ermenistan, insanlık dışı uygulamalarıyla canlılara yaptıkları katliamlar yanında kültürel kıyım da gerçekleştirerek tarihi gerçekleri ortadan kaldırmaya cüret etmiştir.

Azərbərpa Elmi Tədqiqat Layihə İnstitutu" (Azerberpa Bilimsel Araştırma ve Proje Enstitüsü) Azerbaycan Cumhuriyeti Medeniyet ve Turizm Nazırlığına bağlı olarak faaliyetlerini sürdürmektedir. Kurumun 2017 yılı verilerine göre Azerbaycan genelinde tescil edilmiş 6308 anıtın yaklaşık 1500'ü hakkında çalışma yürütmüştür. Azerbaycan mimarlığı 10-12 yüzyıllar arasında; Aran, Tebriz, Nahçıvan, Şirvan-Abşeron (Bakü) mimarlık ekolleriyle şekillenmeye başlamıştır [19].

Azerbaycan bölgesinin merkezi 13. yüzyılda, günümüzde İran sınırları içinde güney Azerbaycan topraklarında kalan Tebriz'e taşınmasıyla Tebriz üslubu oluşmuş ve önemli gelişim sağlamıştır. Azerbaycan bölgesinde Türk-İslam mimari sanatının başlıca örneklerinden olan; Kervansaray, Hamam, Mescit, Türbe gibi yapıların inşası artarak devam etmiştir. 19. Yüzyılda Rus hakimiyetiyle birlikte Rus üslubunun etkileri de görülmeye başlanmıştır. Azerbaycan'da mimari malzeme bölgelere göre farklılıklar göstermektedir. Bakü ve çevresinde taş, kuzeydeki Şeki kentinde taş-tuğla almaşık, Gence'de ise tuğla malzeme kullanılmıştır. Bakü ve çevresindeki yapılarda, jeolojik özelliklerinden dolayı bölgenin taş ocaklarından çıkarılan kireçtaşı (bədamdam daşı) kullanılmıştır. Bu taşın günümüzde gelenekler doğrultusunda cephe kaplamalarında da kullanılmaktadır [20].

Bakü ve çevresindeki yapıların büyük bir bölümü "İçerişehir" olarak adlandırılan Bakü İç Kale'de yer almaktadır. Şehirdeki en eski yapı 1078 tarihli *"Mescid-i Muhammed"* dir. Sınık Kule olarak adlandırılan silindirik taş minareye sahiptir. Bunun dışında XII. yy da yapılmasına rağmen 1899 da yenilenen Bakü Camisi, özgünlüğünü büyük ölçüde yitiren XV yy eseri Cuma Camisi, 1169 tarihli Lezgi (Aşur) Mescidi dini yapılardandır. Şirvanşahlar külliyesi içinde Keykubad (Eski) Camii (XV. yy), Saray Camii (1441), Apşeron Şıhov (XIII. Yy), Mardakan Tuba Şah (1482) camileri, Büyük Selçuklu döneminde de örnekleri görülen tek kubbeli kare planlı yapılardır. Camilerle birlikte Bakü ve çevresinde Türbe ve Kümbet olarak mezar anıtları da mevcuttur [21].

Kafkas Dağları'nın güney eteklerinde kurulmuş Şeki kenti, 18. ve 19. yüzyıllarda Şeki Hanlığı'nın başkenti olduğu dönemde, hanlığın ticari ve kültürel merkeziydi. Şeki kent merkezinde, kentin en önemli anıtsal mimarlık örneği 18. yüzyılda inşa edilmiş Şeki Hanlar Sarayı'nda, bölgeden temin edilen taş, tuğla ve ahşap malzemeyle birlikte Venedik'ten ithal edilen camlar kullanılmıştır. Kalemişi bezemeli yüzeylerin altındaki sıva ise, "gəc" adı verilen alçı – kil karışımı bir harçtan oluşmaktadır. Yukarı ve Aşağı Kervansaraylar, mescitler ve özgün sivil mimarlık örneği bulunmaktadır. Bu bölge, ipek üretiminin önemli merkezi olmasından Şeki kenti, Geleneksel el sanatları ve mutfak kültürü gibi değerleriyle UNESCO Yaratıcı Kentler Ağı'na dâhil edilmiştir. Azerbaycan'ın ikinci büyük kenti olan ve Muhtemelen 7. veya 9. yüzyılda kurulan Gence, ticaret yolları üzerinde olduğundan, tarihte birçok kuşatmaya maruz kalmıştır. Gence, 1918'de kurulan bağımsız Azerbaycan Halk Cumhuriyeti'ne de bir süre başkentlik yapmıştır. Gence kentinde tuğla kullanımı ön plandadır. Azerbaycan lehçesinde tuğla "kərpic" olarak adlandırılmaktadır. Özellikle türbelerde kullanılan sırlı tuğlalar ise "şirli kərpic" olarak anılmaktadır. Gence kent merkezinde Cuma Mescidi, Şah Abbas Kervansarayı, Çökek Hamam, farklı dönemlere ait kilise yapıları bulunmaktadır; kente 10 km mesafede, 739 yılında vefat eden İmamzade İbrahim bin İmam Muhammed Bagır'e ait İmamzade Türbesi, 17. yüzyılda Safeviler döneminde Gence Beylerbeyliği tarafından tuğla malzeme ile inşa edilmiştir. Yapıya 19. yüzyılda çini kaplı bir kubbe eklenmiştir. Şah Abbas Mescidi, 1606 yılında Mimar Şeyh Behaeddin tarafından tuğla malzemeli, kare planlı ve tek kubbeli inşa edilmiştir. Mescidin kuzeyine, 1776 yılında iki bağımsız tuğla minare eklenmiştir. Doğu minarenin üzerinde 1271 H. / 1854-55 M. Tarihli kitabe bu dönemde bir onarım geçirdiğini göstermektedir. Karabağ bölgesinin Berde kentinde bulunan "Allah Allah" Türbesi, 1322 yılında mimar Ahmed İbn Eyyüb El Hafiz Nahçıvani tarafından inşa edilmiştir. Daire planlı, silindirik gövdeli türbe, konik bir külahla örtülüdür. Tuğla malzeme ile inşa edilmiş ve Türkuaz renkli sırlı tuğla ile makili hatta Allah lafzı gövdeyi süslemektedir. Külâh eteğinde Ayetü'l-kürsî yazılı çini süsleme şeriti dolanmaktadır. [22]

KARABAĞ TÜRK-İSLAM MİMARİSİ.*Şehirler:* Ağdam, Kubatlı, Hankendi, Hocavend, Şuşa, Laçın, Kelbecer, Fuzuli, Cebrayıl, Zengilan. Karabağ Hanlığı döneminde (1748-1822) bölgede, iskan, imar, mimari ve sanat faaliyeti gerçekleştirilmiştir. Karabağ Hanlığının ilk merkezi Bayat, Şahbulak Kaleleri, Şuşa (Penahabad) Kaleleri ve şehirleri inşa edilmiştir [23]. Ticaret yolları üzerinde bulunan Karabağ'da kervansaray ve han olmak

üzere ticaret yapıları da önemli yer tutar [24]. Karabağ bölgesi Azerbaycan'ın önemli medeniyet bölgelerindendir. Buradaki çeşitli dönemlere ait anıtsal mimari eserler bunu gösterir. Kalelerden, sivil yapılara, ticaret yapılarından dini eserlere kadar şehirlerdeki mimari eserler Yakın ve Orta Şark mimarlık geleneğinin ürünleridir [25].

Dini Mimari

Camiler/Mescitler

***Şuşa Gövher Ağa Camileri (XIX. yy.)*:** Dikdörtgen planlı, kırma çatı örtülü ve cephe kuruluşlarına çifte minarelerin hakim olduğu yapılardan *Aşağı Gövher Ağa Camisinde (1874/75)* aynı zamanda mescit-medrese birleşimi uygulanmıştır. Türk mimarisinde erken örnekleri Orta Asya'da görülen ve gelişimini Anadolu'daki Selçuklu dönemi anıtsal mimarisinde sürdürecek olan çifte minarerli yapıların Karabağda'ki diğer anıtsal cami örnekleri arasında Ağdam Camisi (1868-1870) bulunur. Merkezi planlı dört minareli şemanın temsili özellikteki yapısı olan Berde İmamzade Küliyesi (XVIII.-XIX. yy.) de yine bölge sınırları dahilindeki önemli eserlerdendir [26].

Büyük Selçuklu döneminde coğrafi yayılım gösteren kümbetler/türbelerin çok sayıda örneğine rastlanan Karabağ'daki başlıca mezar anıtları Ortaçağ döneminde inşa edilmiştir. Laçın, Cicimli Melik Ajdar Türbesi (XII.-XIII. yy.), Zengilan, Şarafan Köyü Türbesi (XIII. yy.), Mehmet Beyli Köyü Türbesi (1304-05), Fuzuli, Aşağı Veyselli Köyü Mirali Türbesi (XIV. yy.), Babı Köyü, Şeyh Babıali Türbesi (1272), Ahmedalılar Köyü Türbesi (XIII.-XIV. yy.), Ağdam, Haçın Dorbentli Köyü Türbesi (1314), Penah Han Türbesi (XVIII. yy.), Kubatlı, Demirciler Köyü Türbesi (XIII.-XIV. yy.), Gürcüler Köyü Türbesi (XIII.-XIV. yy.), Cebrayıl, Hudayarlı Köyü Türbesi (XIII.-XIV. yy.), Berde, Berde Türbesi (1322), Aksadan Baba Türbesi (XIV. yy.) bilinen örneklerdir [27].

ASKERİ MİMARİ. Bölge olarak önemli bir stratejik mevkiye sahip olan Karabag'da, Hanlık yönetimi kurulduktan sonra Bayat (1748), Şahbulak (1751/52), Askeran (XVIII. yy.), Şuşa (Penahabad, 1756/57) kaleleri inşa edildi. Cebrayıl, Halifli Kaya Kız Kalesi (XVII. yy.) gibi savunma yapıları onarılırken daha önceki evrelere ait istihkamlar elden geçirilerek yeniden işlevlendirildi. [28]

Şuşa Kalesi, doğal korunaklı sarp ve dik kaya kütleleri üzerine; dağın üst kesiminde ve ahnması güç bir yere inşa edilmiştir. Rahat savunulabilen ve etrafindaki nehirlerin oluşturdugu dere yollan vasıtasıyla çevre bölgelerle irtibatlı kalanin konumu ile olduğu kadar ülkenin Hanlıklar dönemine ilişkin siyasi tarihi açısından da büyük önem arz etmektedir. [29]

SİVİL MİMARİ (Ticaret Yapıları vd.). Fuzuli, Kargabasar Köyü Kervansarayı (1681), **Şuşa,** Meşhedi Şükür Kervansarayı, **Berde,** Ter-Ter Nehri Köprüsü (VI.-VII. yy.), **Kubatlı,** Ali Kulu Uşağı Köprüsü, **Cebrayıl,** Hudaferin Köprüleri (VII. - XII. yy.), **Agdam,** Penah Han İmareti (XVIII. yy.) dışında en iyi örnekleri Şuşa kent dokusunu oluşturan XVIII. -XIX. yy.a ait merkezde bulunan tarihi ***Şuşa evleri***, Karabağ'ın belli başlı sivil mimarlık eserleridir. [30]

Cebrayıl'ın Kumlak ve Hudaferin köyleri arasında, Araz Nehri üzerindeki köprülerden ilki on bir batısındaki diğeri ise on beş gözlü olup, VII. yüzyıldan itibaren ve özellikle Ortaçağ dönemi boyunca geniş bir kullanım alanına sahip olmuştur. [31]

Saray mimarisinin Hanlıklar dönemindeki ihtşamlı yapılarından olan Karabağ Hanlarının ikametgahı- Penah Han İmareti, Türk saray mimarisi içinde sahip olduğu önemi ve yeri dolayısıyla kaydedilmelidir. Saray ve yonetim binası olmak üzere karlışıklı iki yapıdan oluşan eser dikdörtgen planlıdır. [32]

Sarayın, kare planlı salonu, tromplarla gecilen sekizgen kasnak üzerine oturan aydınlık fenerli kubbeyle örtülüdür. Aydınlık fenerinin, Orta Asya Türk Mimarisinde gorülen dış avluyu yaşatmak amacıyla sonraki Anadolu ve erken Osmanlı döndemi yapılarında kullanıldığını gösteren çok sayıda örnek vardır. Yapılar arasındaki bu benzerlik, Türk mimarisinin sürekli yeni arayışlar içerisinde olmanın yanında, geleneksel çizgiden kopmadan geliştiğinin göstergesidir. [33]

NOTLAR

1. https://azerbaijan.az/en/related-information/275
2. Hayri Çapraz; "19. Yüzyıl'da Rusya'nın Karabağ Politikası", Belgi Dergisi, S. 3., (Şubat 2012): 231-240, 231
3. Cavid Mövsümlü; "Karabağ'ın Tarihi", Azerbaycan'ın Karabağ Bölgesi, İstanbul 2021, 16-18
4. Bilal Dedeyev; "Karabağ Hanlığı-Osmanlı Devleti İlişkileri, Dağlık Karabağ Üzerine Yazılar, Gündoğan Yayınları, İstanbul 2014, s. 17-27.
5. H. Çapraz; a.g.e. 232
6. https://azerbaijan.az/en/information/301)
7. B. Dedeyev; a.g.e., 19.
8. H. Çapraz; a.g.e., 232
9. H. Çapraz; a.g.e., 232
10. B. Dedeyev; a.g.e., 20.
11. https://azerbaijan.az/en/information/301)

12.B. Dedeyev; a.g.e., 21.
13.B. Dedeyev; a.g.e., 22.
14.H. Çapraz; a.g.e., 233
15.https://azerbaijan.az/en/information/301)
16. Cavid Kasımlı,Ertan Efegil;Dağlık Karabağ Üzerine Yazılar,Gündoğan Yayınları,İstanbul2014, s. 7
17. https://azerbaijan.az/en/information/301)
18.Vusal Gurbanov; "Karabağ'da Ermenistan Tarafından Azerbaycan Kültür Varlıklarının İmhasından Doğan Hukuki Sorumluluk", Dağlık Karabağ Üzerine Yazılar, Gündoğan Yayınları, İstanbul 2014, s. 159-170.
19.Kadir Ekinci , "Azerbaycan Teknik Gezi Notları", *Restorasyon ve Konservasyon Çalışmaları Dergisi*, c. 1, sayı. 21, Kas. 2018, ss. 66-76, 66
20.K. Ekinci , "a.g.e., 67
21.Anar Azizsoy; "Azerbaycan'ın Mimarlık Abidelerine Dair Kısa Notlar", Azarbaycan Panoraması,
22.K.Ekinci, a.g.e., 68
23.Kasım Hacıyev, Eyyub Ebdülezimov (Çevri, Beşir Mustayev); Karabağ Tarihi, Ankara 2021, 37.
24.Mehdi Genceli; Azerbaycan'ın Karabağ Bölgesi, İstanbul 2021, 219.
25.K. M. Memedzade, A.A. Hesenova; "Karabağ'ın Me'marlıq Abideleri, Türk Cumhuriyetleri Mimarlık Abideleri, Ankara 1996, 171.
26.K. M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
27.K. M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
28.K M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
29.K M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
30.K. M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
31.K. M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
32.K. M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.
33.K. M. Memedzade, A.A. Hesenova; a.g.e., 171.

SUMMARY

TURKISH CULTURAL PERIODS AND KARABAKH ARTS IN AZERBAIJAN REGION

Bulent Nuri Kilavuz

The geography of Azerbaijan is in the west of the Caspian Sea, in an important transition region between the Caucasus and Anatolian geography. In terms of its fertile lands and being on trade routes, it has maintained its importance in every period of history and has been the center of various Turkish states. With its rich cultural features, it has many cultural assets that have survived from these periods to the present day. Unfortunately, although he lost some of them as a result of the wars he went through, those who survived to the present day exhibit the characteristics of their period. Nagorno-Karabakh region of occupied Karabakh is also a culturally important geography of Azerbaijan. After Azerbaijan lost its integrity in the 18th century, many architectural works and handicrafts were created in the Karabakh region, until it was divided into 17 khanates and then divided between Russia and Iran. These works are important in terms of being the representatives of Turkish art in the region. With the liberation of the Karabakh region, all cultural assets should be identified and their status should be revealed.

XIX ƏSRİN II YARISINDA ŞUŞA ƏDƏBİ MÜHİTİ

Cabarova M.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
cabarova.84@mail.ru

Açar sözlər: *Qarabağ, Şuşa, XIX əsrin II yarısı, ədəbiyyat, ədəbi mühit*

XIX əsr Qarabağ ədəbi mühiti üçün də məhsuldar bir dövr hesab oluna bilər. Əsrin əvvəllərində müxtəlif şəhərlərdə şeir həvəskarları və şairlər görkəmli nəzm ustalarının ətrafına toplaşaraq yazdıqları şeir nümunələrini oxuyur və müzakirə edirdilər. Bu cür yığıncaqların sayının günü-gündən artması ayrı-ayrı şəhərlərdə şeir

məclislərinin yaranmasını labüd etdi. Azərbaycanın bir çox yerlərində şeirə maraq göstərənlər bu cür dərnəklərdə toplaşır və bu hal müntəzəm şəkil aldıqdan sonra buraya toplaşanlar öz iştirakçılarının tərkibinə və ya yazdıqları şeirlərin ruhuna, ya da toplandıqları yerin adına uyğun olaraq öz dərnəklərini adlandırır, dərnəyin təşkilində xüsusi rolu olan bir nəfər isə dərnəyin ağırlığını öz üzərinə götürərək iştirakçılara müvafiq istiqamət verirdi.

XIX əsr poetik məclislər üzrə tanınmış tədqiqatçı Nəsrəddin Qarayevin "Poetik məclislər" adlı kitabının ön sözündə Həmid Məmmədzadə yazır: *"Onu da qeyd edək ki, bu ədəbi məclislər bir növ ədəbiyyat məktəblərinə çevrilmişdir. Onlarca istedadlı şairlər həmin ədəbi məktəblərdə yetişmiş, ilk şeirlərini də bu məclislərdə oxumuşlar, məclisin başında duran ustad şair gənc istedadların qayğısına qalır, müəyyən şeir formalarının yaranmasında onlara istiqamət verir, aralarında, bir növ, yarış təşkil edirdi. Bunun üçün o, klassik şairlərin məşhur qəzəlinə nəzirə, təxmis yazmağı onlara tapşırır və məclisin yığıncaqlarında oxutdurub qiymət verirdi"* [3, s.4].

XIX yüzilliyin ikinci yarısında baş verən əlamətdar hadisələrdən biri kimi ədəbi məclislərin geniş miqyasını xüsusi vurğulayan Tahirə Məmməd bu məclislərin ədəbi mühit və eyni zamanda ədəbi əlaqələrin formalaşmasında birbaşa rolu olduğunu qeyd edir: *"XIX əsrin əlamətdar ədəbi hadisələrindən biri də o dövrdə geniş miqyas almış, görkəmli ədəbi simaları sıralarına cəlb etmiş ədəbi məclislərdir. Ədəbi məclislərin yaranıb fəaliyyət göstərməsi XIX əsrdən başlanmır. Onun ədəbi prosesdə mövcudluq ənənələri var. Orta əsrlərdən ayrı-ayrı bölgələrin, sarayların ədəbi təşkilatı kimi mövcud olan məclislər həm ədəbi mühitlərin, həm də əlaqələrin formalaşmasında əhəmiyyətli rol oynamışdır"* [2, s.61].

XIX əsrin ikinci yarısında Azərbaycanın müxtəlif regionlarında bir-birinin ardınca yaranmış məclislər: "Beytüs-səfa" (Şamaxı), "Fövcül-füsəha" (Lənkəran), "Məcməüş-şüəra" (Bakı), " Əncümənüş-şüəra" (Ordubad), "Məclisi-üns", "Məclisi-fəramuşan" (Qarabağ), "Divani-hikmət" (Tiflis), "Gülüstan" (Quba) özündən əvvəl yaranmış saray ədəbi məclislərindən bir çox xüsusiyyətlərinə görə fərqlənirdi. Əgər saraylarda məclislərə qatılan şairlər şahlar və ya onların təyin etdiyi məliküş-şüəralar tərəfindən seçilirdisə, bu məclislərdə yaşından və mənsub olduğu zümrədən asılı olmayaraq şeirə, sənətə həvəsi olan istənilən şəxs iştirak edə bilərdi. Digər tərəfdən bu məclislərin iştirakçıları istədiyi mövzuya müraciət etməkdə tam müstəqil idilər ki, bu da onları saray şairlərindən fərqləndirən başlıca xüsusiyyət hesab oluna bilər. Bu baxımdan XIX əsrin ikinci yarısında yaranmış məclisləri bir növ demokratik məclislər kimi səciyyələndirmək olar [4, s.150].

XIX əsrin ikinci yarısında Şuşada iki ədəbi məclis fəaliyyət göstərirdi. Bunlardan biri Mirzə Rəhim Fənanın təşəbbüsü ilə yaradılan "Məclisi-üns", digəri isə XIX əsr Azərbaycan ədəbi-nəzəri fikir tarixində özünəməxsus yeri olan Mir Möhsün Nəvvabın təşəbbüsü ilə yaradılmış "Məclisi-fəramuşan" idi. Hər iki məclis öz ətrafına istedadlı şairlər toplaya bilmiş və bu şairlərin timsalında özündən sonrakı ədəbiyyatın inkişafı üçün münbit şərait yaratmışdı. Əsrin ikinci yarısında təşkil olunmuş bu ədəbi məclislər təkcə Qarabağ ədəbi mühiti üçün deyil, bütünlüklə Azərbaycan ədəbi mühitinin yüksələn xətlə inkişafına təkan olmuşdur. Bu məclislər öz fəaliyyəti ilə ədəbiyyata yeni məzmun və forma gətirmiş, klassik irsimizin davamçıları kimi fəaliyyət göstərməklə bərabər, mövcud ictimai quruluşun eyib və nöqsanlarını əks etdirmiş, xalqın istək və arzularını, düşüncə tərzini təbliğ etməyə çalışmışlar.

"Məclisi-üns" Şuşada Mirzə Rəhim Fənanın və Hacı Abbas Agəhin təşəbbüsü ilə yaradılmış, məclisin ilkin yığıncaqları da Agəhin evində təşkil olunurmuş. Lakin 1872-ci ildə Mirzə Rəhim Fəna hökumət qulluğunu tərk edərək Natəvanın mülklərini və təsərrüfat işlərini idarə etmək üçün Xan qızının evinə gəlir. Bundan sonra şairənin öz təşəbbüsü ilə məclis üzvləri onun sarayında toplaşmış, məclisin maddi yükünü çəkməyi də Natəvan öz üzərinə götürmüşdür. "Məclisi-üns"ün otuzdan çox üzvü olmuşdur. Burada toplaşan məclis üzvləri klassik Azərbaycan və Şərq ədəbiyyatının nümayəndələrini özlərinə ustad hesab edir, onların poetik ənənələrini yaradıcılıqlarında yaşatmağa çalışırdılar. Katibi Mirzə Rəhim Fəna, məsləhətçisi isə şair Mirzə Sadıq Piran olan "Məclisi-üns" ədəbi məclisi iştirakçılarına təxəllüs verməkdə də cavabdeh idi. Bəylər Məmmədovun "Xurşidbanu Natəvan" adlı kitabında şairənin "köməksiz", "kimsəsiz" mənasını daşıyan təxəllüsünün də ona "Məclisi-üns" iştirakçılarının ümumi qərarı ilə verildiyi qeyd edilmişdir. Bu ədəbi məclisdə şairlərlə bərabər, Qarabağda məşhur olan xanəndə və sazəndələr də iştirak edirdilər. Məclis üzvlərinin musiqiyə olan marağı səbəbindən Şuşanın adlı-sanlı musiqiçiləri, ifaçıları məclisə dəvət alır, Azərbaycan musiqisinin tarixindən, musiqi və söz sənəti arasındakı qarşılıqlı əlaqələrdən söhbət açılır, xanəndələr muğam üçlüyünün müşayiəti ilə milli musiqimizin müxtəlif janrlarında ifa edirdilər. XIX əsrin ikinci yarısında təşkil olunmuş bu məclisin sədaları təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda: Tiflis, Təbriz, Tehranda da duyulurdu. "Məclisi üns"ün üzvləri eyni zamanda Azərbaycanın digər şəhərlərində fəaliyyət göstərən ədəbi məclislərin nümayəndələri ilə də məktublaşaraq sıx əlaqə saxlayırdılar. Məclisin Şuşada fəaliyyət göstərən "Məclisi-fəramuşan" ilə də yaradıcılıq əlaqələri olmuş, hər iki məclis arasında dostluq və isti münasibətin yaranmasına Mir Möhsün Nəvvab böyük səy göstərmişdir.

Mir Möhsün Nəvvab Azərbaycan ədəbiyyatı tarixinə alim, təzkirəçi, şair, müəllim kimi möhürünü vurmuş, dövrünün sayılıb-seçilən, yüksək keyfiyyətləri ilə müasirləri arasında böyük nüfuz qazanan bir şəxsiyyət olmuşdur. Şəriət dərsləri ilə bərabər, dünyəvi elmlərə də yaxından bələd olan bu dahi şəxsiyyət dərs dediyi məktəblərdə özünün hazırladığı dərsliklərdən istifadə edər, boş vaxtlarını elmin, incəsənətin inkişafı üçün yararlı ola biləcək əsərlər yazmağa sərf edərdi. Evi mədəniyyət ocağını xatırladan Nəvvabın məsləhətləri Şuşa ziyalıları, xanəndələri,

musiqiçiləri üçün olduqca önəmli idi, bu səbəbdən mübahisəyə səbəb olan bir sıra məsələlər onun evində müzakirəyə qoyular, onun fikri, düşüncələri ilə razılaşardılar. Daim yenilik axtarışında olan Nəvvab təşkil etdiyi "Məclisi-fəramuşan"ın dünya mədəniyyətindən, elm və təhsilindən geri qalmaması üçün müxtəlif yerlərdən: Bakıdan, Tiflisdən, Hindistandan qəzet və məcmuələr sifariş edib gətizdirərdi. Bundan əlavə "Məclisi-fəramuşan", "Məclisi-üns"ün və Şamaxıda fəaliyyət göstərən "Beytüs səfa"nın üzvləri ilə əlaqə saxlayar, hər üç məclis arasında şeirləşmə gedərdi.

"Məclisi-fəramuşan"ın üzvlərini bu dövrlə əlaqədar məlumat verən mənbələrə (Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab", Məhəmmədağa Müctəhidzadə "Riyazül - aşiqin", Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı") istinadən aşağıdakı şəkildə sadalamaq mümkündür: başda məclisin yaradıcısı Mir Möhsün Nəvvab olmaqla, Abdulla bəy Asi, Həsənəli xan Qaradaği, Məşədi Əyyub Baki, Fatma xanım Kəminə, Məşədi Məhəmməd Bülbül, Mirzə Məhəmməd Katib, Mirzə Muxtar, Molla Xəlil Şaki, Mirzə Hüseyn Salar, Mirzə Əli Aşiq, Məşədi Cəfərqulu, Mirzə İsmayıl Məhzun, İbrahim bəy Azər, Xarrat Qulu Yusifi, Mehdi bəy Mirzə Camal oğlu, Kərbəlayı Ələkbər Safi, Mirzə Əbdül Şahin, Abdulla bəy Abış, iki qardaş – Baxış bəy Sabur və Bayram bəy Fədai, Mirzə Sadiq Təbib, Mirzə Sadıq, musiqiçilər – Məşədi İsi, Sadıqcan, Hacı Hüsü və b.

Adları çəkilən iştirakçılar təbii ki, məclis üzvlərini bütünlüklə əhatə etmir, sadəcə əldə olan mənbələrdən heç birində məclis üzvlərinin tam siyahısı olmadığı üçün şeirlərdə çəkilmiş adlardan, digər şəhərlərdən alınmış məktublardan və s. kimi vasitələrdən yuxarıdakı siyahını müəyyənləşdirmək mümkün olmuşdur [1, s.200].

"Məclisi-fəramuşan"ın bu cür, yəni "Unudulmuşlar məclisi" adlandırılmasının da səbəbi "Məclisi-üns"lə bağlı idi. Şuşada ilk yaradılmış "Məclisi-üns" ətrafına xeyli sayda şair və elm adamları toplamışdı ki, bunlardan bəziləri məclisin yığıncaqlarında müəyyən mövzuların müzakirəsindən kənarda qalırdılar. Bu səbəbdən özlərini unudulmuş hesab edərək Mir Möhsün Nəvvabın ətrafında yeni bir məclisin "Məclisi-fəramuşan"ın işığına toplaşmışdılar. Beləliklə "Məclisi-üns"ün özündən "incik saldığı" bu şəxslər yeni bir ədəbi məclisin yaranmasına səbəb oldular. Müəyyən müddət aralarında cüzi sərinlik olan bu iki məclisin üzvləri sonradan bu narazılığı aradan qaldırmış, biri-birinə qonaq getmiş, səmimi dostluq əlaqələrinin bərpasına çalışmışlar. Xurşidbanu Natəvandan uzun müddət xəbər olmadıqda Mir Möhsün Nəvvab ona məktub yazar, şairənin vəziyyəti ilə maraqlanarmış. Bu iki ədəbi məclisin üzvləri arasında elə şairlər var idi ki, onlar eyni zamanda həm "Məclisi-üns"ün, həm də "Məclisi-fəramuşan"ın yığıncaqlarında iştirak edirdi. Müzakirəyə ehtiyac duyulan bəzi mövzularda hər iki məclis üzvlərinin fikri alınar, ümumi nəticəyə bir yerdə qərar verilərdi. "Məclisi-üns" ədəbi məclisinin iştirakçıları olan şairlər klassik Şərq və Azərbaycan ədəbiyyatına, fəlsəfə elminə, incəsənətimizə yaxından bələd olan Nəvvaba tez-tez məktublar yazar, müxtəlif məsələlərdə onun fikrini alar, məsləhətlərini dinləyərdilər. Mənbələrdən də məlum olur ki, ümumiyyətlə, "Məclisi-fəramuşan"a gələn məktubları əksər hallarda Mir Möhsün Nəvvab özü cavablandırardı.

Məclisi-fəramuşan"ın yığıncaqları, adətən, Nəvvabın evində baş tuturdu. Nəsrəddin Qarayev H.Səmədzadənin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində saxlanılan bir qeydinə istinadən yazırdı: "*Məclisi-üns"ə aristokratiyaya məxsus intiligensiya toplandığı halda, "Məclisi-fəramuşan"a aşağı təbəqənin maraqlıları yığılırdı"* [1, s.202]. Məclis üzvlərinin toplaşacağı günləri öncədən müəyyən edən Mir Möhsün Nəvvab məktublar yazaraq onları evinə dəvət edirdi. Müxtəlif peşə və sənət sahibləri olan məclis üzvləri də boş vaxt tapdıqda Nəvvabın evində toplaşaraq ədəbi və elmi müzakirə və mübahisələr aparırdılar.

XIX əsrin ikinci yarısında Qarabağ mühitinin zənginliyi təkcə poeziya - ədəbi məclis iştirakçılarının yaradıcılığı ilə deyil, eyni zamanda regionda elmin, mədəniyyətin inkişafı ilə də səciyyələnirdi. Musiqi sahəsində də yeni-yeni uğurlar əldə edilirdi. Xanəndə sənətinin inkişafında mühüm rolu olan Xarrat Qulunun məktəbindən sonra, XIX əsrin 80-ci illərində Kor Xəlifə musiqi məktəbi açılmışdı. Burada tələbələrə muğam oxumaqla bərabər milli musiqi alətlərimizdə: tar və kamanda çalmağı öyrədirdilər. Kor Xəlifənin ölümündən sonra musiqinin inkişafı üçün gərəkli addımlar atmağı Mir Möhsün Nəvvab öz üzərinə götürür və xanəndə Hacı Hüsünün iştirakı ilə "Musiqişünaslar məclisi" yaradır. XX əsrin əvvəllərində (1905) isə Nəvvab şəhərin ziyalılarını və istedadlı gənclərini açdığı hücrəyə toplayır, burada musiqidən, tarix və ədəbiyyatdan söhbətlər edir, müzakirələr aparırdı.

Söylənilənlər bu dövrdə Qarabağ ədəbi mühitinin zənginliyini xarakterizə edən mühüm faktlardır, həmçinin çoxşaxəli yaradıcılıq istiqamətinin göstəricisidir. Bütün bunlar sonrakı dövrlərdə təkcə Qarabağda deyil, bütövlükdə Azərbaycanda elmin, mədəniyyətin, tarixin, ədəbiyyatın inkişafına təkan vermiş, onun təşəkkülü və gələcək inkişafı üçün münbit şərait yaratmışdır.

ƏDƏBİYYAT

1. Qarayev, N. XIX əsr Azərbaycan ədəbi məclisləri / N.Qarayev. – Bakı: Nurlan, – 2010, – 324 s.
2. Məmməd, T.Q. XIX əsr Azərbaycan ədəbiyyatı [Ali məktəblər üçün dərslik] / T.Q.Məmməd. – Bakı: Apostrof, – 2010, – 161 s.
3. Poetik məclislər / tərt ed. N.Qarayev – XIX əsr Azərbaycan ədəbi məclisləri nümayəndələrinin yaradıcılığından seçmələr/ – Bakı: Yazıçı, –1987, –525 s.

4. Rzayev, Y.H. XIX əsr Azərbaycan ədəbiyyatı: mühazirə materialları (dərs vəsaiti) / Y.H.Rzayev. – Bakı: Elm və təhsil, – 2015, – 219 s.

SUMMARY

SHUSHA LITERARY ENVIRONMENT IN THE SECOND HALF OF THE XIX CENTURY

Jabarova M.A.

The 19th century can be considered a productive period for the Karabakh literary environment. In the second half of the century, in the city of Shusha, the center of poetry and art of Azerbaijan, about a hundred poets appeals in different topics in different genres gives us reason to think that. While studying the artistic heritage of the artist working in this period, we can witness the development of poetry in four directions,as ashig poem, realist-satirical examples, gazal literature and lamentations and sectarian poems.We would like to note that in the second half of the 19th century, the richness of the Karabakh literary environment was characterized not only by poetry, but also by the development of science, art and culture in region. New successes were achived in the field of music, especially in the development of the art of singing, was established "Assembly of Musicologists". In such circles and meetings, music, literature, history were discussed, various scientific and literary disscussion were held.

Key words: *Karabakh, Shusha, the second half of the 19th century, literature, literary environment*

РЕЗЮМЕ

ЛИТЕРАТУРНАЯ СРЕДА ШУШИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА

Джабарова М.А.

XIX век можно считать продуктивным периодом для Карабахской литературной среды. Во второй половине XIX века в городе Шуше, в центре поэзии и искусства Азербайджана, обращения сотни поэтов к разным темам в разных жанрах дает основания утверждать это. Изучая творческое наследия поэтов в этом периоде, мы можем наблюдать развитие поэзии в четырех направлениях как, ашугская поэзия, произведения реалистической сатирической поэзии, газель, траур и сектантское поэзия. Отметим что во второй половине XIX века богатство Карабахской литературной среды характеризовалась не только поэзией, но и развитием науки, искусства и культуры в регионе. Были достигнуты новые успехи в области музыки, особенно в развитии певческого искусства, была создана «Ассамблея музыковедов». В таких кружках и встречах обсуждалось музыка, литература, история, велись различные научные и литературные дискуссии.

Ключевые слова: *Карабах, Шуша, вторая половина 19 века, литература, литературная среда*

IX-X ƏSR ƏRƏB MƏNBƏLƏRİNDƏ BƏRDƏNİN TARİXİNİN TƏSVİRİNƏ DAİR

[1]Çağlayan Y.H., [2]Çağlayan E. H.
[1]AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
y.caglayan@alparslan.edu.tr
[2]Muş Alparslan Üniversitesi (Türkiye),
caglayan49@hotmail.com

Açar sözlər: *Arran, Qarabağ, Xilafət, Bərdə, ərəb mənbələri*

Bu gün Azərbaycanın mədəniyyət mərkəzi rolunu oynamaqla bərabər, eyni zamanda qədim ərazilərindən olan Qarabağın çox zəngin tarixi vardır. İstər iqtisadi, istərsə də siyasi baxımdan strateji önəmi böyük olan Qarabağ toprağı qədim arxeoloji mədəniyyətlərin, o cümlədən Xocalı-Gədəbəy mədəniyyətinin mərkəzlərindən olmuşdur. E.ə. IV əsrdə Cənubi Qafqazın etnik və siyasi xəritəsinin təşəkkülündə böyük rol oynamış Azərbaycan Albaniya dövlətinin (ərəb mənbələrində - Arran) meydana gəlməsi və Qarabağın da bu dövlətin sərhədləri içərisində olması bölgənin siyasi və iqtisadi inkişafına yol açmışdır. Bu dövrdə Albaniyada, Qarabağ da daxil olmaqla, ermənilərin (hayların) yaşadığına dair hər hansı məlumat olmayıb, bölgə xalqının əksəriyyət etibarilə türk soylu olduğu

bilinməkdədir [6, s.44]. Albaniya dövlətinin mövcud olduğu dövrə aid onomastik nümunələr də əksəriyyəti türk mənşəli olub günümüz Azərbaycan dilində izləri hələ də qalmaqdadır. E.ə. IV əsrdən eranın VIII əsrinə qədər, yəni təxminən 1200 il boyunca mövcud olmuş Albaniya "Qarabağı öz tərkibində qoruyub saxlamaq üçün misilsiz mübarizə apardı və buna nail ola bildi" [9, s.16].

705-ci ildə Albaniyanın siyasi müstəqilliyini itirməsi və Xilafətin vilayətlərindən birinə çevrilməsi ilə Qarabağın etnik durumunda hər hansı bir dəyişiklik olmadı [3, s.199-203]. Əhalinin böyük əksəriyyəti türk olmaqla yanaşı, İslam dininin mənsubları artmağa başladı. Başqa sözlə desək, VIII əsrin əvvəllərinə doğru Azərbaycan və onun önəmli bölgələrindən olan Qarabağ İslam siyasi coğrafyasına ve İslam mədəniyyətinə daxil oldu. Məhz bu dövrdən etibarən ərəb mənbələrində Azərbaycanın, o cümlədən Qarabağın siyasi coğrafiyası, iqtisadi və sosial həyatı öz əksini tapmağa başlayır. Bu mənbələrin içərisində "klasik ərəb coğrafiya məktəbiinin nümayəndələri olan İbn Xordadbeh, əl-İsətxri, İbn Hövqəl, əl-Məsudi və əl-Müqəddəsinin əsərləri xüsusi yer tutur. Adı çəkilən müəlliflərin əsərlərində Qarabağda əkinçilik, maldarlıq, sənətkarlıq və ticarətin inkişafına dair kifayət qədər məlumat vardır. Eyni zamanda bu mənbələrdə bölgə əhalisinin sosial həyatı, dili, dini, mədəniyyəti haqqında da məlumatlara rast gəlmək olar.

Ərəb müəlliflərinin Azərbaycanla bağlı ən böyük yer ayırdığı şəhərlərdən biri Bərdədir ki, bu da təsadüfi deyildir. Azərbaycan Xilafətin tərkibinə daxil olmazdan əvvəl də Bərdə həm ölkənin, həm də Cənubi Qafqazın aparıcı şəhəri olmuşdur. Sasanilərin dövründə şəhər Alban katalikosunun iqamətgahı idi [7, s.76], bu səbəbdən bölgənin həm də dini mərkəzi rolunu oynayırdı. Xilafət üçün Bərdə öz əhəmiyyətini nəinki itirməmişdi, eyni zamanda onun möhkəmləndirilməsi üçün böyük tədbirlər görülmüşdü. Məsələn, Əməvilərin Arrana hakim təyin etdiyi Əbd əl-Əziz ibn Hatəm Bərdənin hərbi cəhətdən möhkəmləndirilməsinə böyük diqqət ayırmışdı [2, s.242]. Hərbi quruculuq işləri ilə yanaşı, bu dövrdə Bərdənin sosial və iqtisadi həyatına da diqqət yetirilirdi, bu da şəhərin Xilafət üçün böyük əhəmiyyət daşıdığını göstərir. Təsadüfi deyil ki, xəlifə canişininin iqamətgahı da 654-cü ildən başlayaraq Bərdədə yerləşmişdi [1, s.137; 13, s.23, 65]. Əl-İstəxri Bərdəni Arranın ən böyük şəhəri kimi təqdim edir, Bərdədən sonra ikinci və üçüncü yerdə müvafiq olaraq Dərbəndin və Tilfisin yer aldığını yazır [14, s.187].

Bərdənin iqtisadi əhəmiyyəti ilk növbədə şəhərin mühüm ticarət yollarının üzərində yerləşməsi ilə bağlı idi. Belə ki, Xilafətin tərkibində birləşmiş Azərbaycanın cənub və şimal vilayətləri ticarət yolları ilə əlaqələnirdi. Bərdə bu yollarda əsas əlaqələndirici şəhər idi və marşrutlar bir neçə yüzillik ərzində dəyiməmiş olub, əsasən aşağıdakı kimi idi:

Bərdə – Yunan – Beyləqan – Varsan – Bəlxəb – Bərzənd – Ərdəbil.

Bərdə – Kalankatuk – Dəbil – Xoy – Salmas – Marağa – Ərdəbil.

Bərdə – Gəncə – Şəmkir – Xunan – İbn Kəndman qalası – Tiflis [14, s.192-193; 10, s.349-350; 4, s.381-382].

Bərdə - Ərdəbil xətti Cənubi Qafqaz şəhərlərini İran körfəzi bölgəsi ilə əlaqələndirirdi, Bərdə - Tiflis xətti isə Xilafət şəhərlərinin Qara dəniz ticarətində əsas əlaqələndirici xətt idi. Bu istiqamətdə müsəlman ölkələrinin intensiv ticarət əlaqələri saxladığı şəhər isə Trapezund (Trabzon) idi.

Bərdə təkcə ticarət yolları ilə deyil, eyni zamanda sənətkarlıq məmulatları və zəngin xammalı ilə də məşhur idi. Bu dövrdə Azərbaycanın ipək istehsalı Bərdə ipəyinə əsaslanırdı. İbn Hövqəl və əl-İstəxri yazır: "*Bərdə və onun ətrafında tut ağacları ümumi maldır və sahibləri yoxdur. Bu ağacları satmır və almırlar … Bərdə Fars və Xuzistanı çoxlu ipəklə təchiz edir*" [10, s.338; 14, s.183; həmçinin bax: 4, s.381]. Məhz Bərdənin xam ipəyi sayəsində Xuzistan Xilafətdə ipək toxuculuğunun əsas mərkəzinə çevrilmişdi [8, s.73]. İpək Bərdədən təkcə xammal şəklində ixrac olunmurdu, həm də ipək parçaları, örtük və pərdələri ilə də məşhur idi [10, s.338; 4, s.380]. Eyni zamanda Bərdə kənd təsərrüfatı məhsulları ilə tanınırdı: ərəb müəllifləri Bərdənin əncir, fındıq, şabalıd və zoğalının Şərq bazarlarında yüksək qiymətləndirildiyini xəbər verirlər [10, s.338; İstəxri, s.182; 4, s.380].

Bərdə bölgənin, eləcə də bütün müsəlman Şərqinin əhəmiyyətli sənətkarlıq və ticarət mərkəzi olduğu üçün, burada böyük bir yarmarkanın fəaliyyət göstərməsi də təsadüfi deyildi. İbn Hövqəl Bərdənin bazar və karvansaralarının bol olduğunu yazır [10, s.339]. IX-X əsr ərəb mənbələrində Bərdənin "Kürki" yarmarkası haqqında çox geniş məlumatlara rast gəlmək mümkündür. Yarmarka həftənin bazar günləri açılırdı və şəhərin "Bab əl-əkrad" qapılarının yanında toplanırdı. Əl-İstəxri Bərdə yarmarkasına dünyanın hər yerindən tacirlərin axışıb gəldiyini yazmaqdadır [14, s.183]. Əl-Müqəddəsi isə yazır: "*Burada ipək parça və paltar satılır. Onların qaytanları, xalçaları, qırmız boyağı, örtüləri, boyaları, zoğal adlı meyvələri, balıqları, son dərəcə dadlı olan əncir və şabalıdlarının misli yoxdur*" [4, s.380]. Qeyd edək ki, o dövrdə Azərbaycanın daha bir məşhur yarmarkası olan Gülsərə yarmarkasından daha böyük olan Kürki yarmarkası bir müddət bölgənin böyük ticarət qovşağı rolunu oynamışdır.

Bərdənin Xilafət üçün iqtisadi əhəmiyyətinin göstəricilərindən biri də burada zərbxanaların olması idi. Hətta Xilafətin zəifləyib Azərbaycanda türk mənşəli Sacilərin hakimiyyətinin bərqərar olduğu dövrdə də Bərdə bu funksiyasını itirməmişdi: Əməvilər və Abbasilər Bərdə zərbxanasında dirhəm, Sacilər isə dinar da zərb etmişlər [8, s.66]. İbn Hövqəl yazır: "*Azərbaycanda islədilən pul – qızıl və gümüşdür*" [10, s.349]. Numizmatların fikrincə, ilk Saci dirhəmi artıq hicri 285-ci (miladi 898) ildə Bərdədə Məhəmməd ibn Divdad əl-Afşinin (889-901) adına

kəsilmişdir [15, s.148]. Bununla əlaqədar haşiyə çıxıb qeyd edək ki, IX əsrin ortalarından başlayaraq Abbasi xilafətinin hərbi və siyasi gücünün azalması yerlərdə müstəqil və yarımmüstəqil dövlətlərin meydana çıxması ilə nəticələnmişdi. Bu meyllər Azərbaycanda da güclənmişdi və həmin hadisələrin fonunda yerli sülalələrin hakimiyyətə gələrək Xilafətdən formal asılı olan dövlətlər qurmasına gətirib çıxarmışdı. X əsrin əvvəllərinə adını çəkdiyimiz Sacilər Azərbaycanın tarixi torpaqlarını vahid hakimiyyə taltında birləşdirməyə nail oldular və bütün Cənubi Qafqazda möhkəmləndilər [8, s.61; 1, s.242].

Bu dövrdə bölgədəki hərbi-siyasi hadisələri içərisində xarici işğalların genişlənməsi, o cümlədən şimaldan gələn təhlükənin artması da qeyd olunmalıdır. Bu da heç şübhəsiz, Azərbaycan şəhərlərinin, o cümlədən Bərdənin iqtisadi həyatına ciddi şəkildə təsir göstərmişdir. Mənbələrdəki məlumatlarda X əsrin ortalarına doğru Bərdənin regional və beynəlxalq ticarət əhəmiyyətinin zəiflədiyinin şahidi oluruq. Bu da ilk növbədə 943/4-cü ildə Rusların Bərdəyə dağıdıcı yürüşü ilə əlaqədar olmuşdur. Bu yürüşlər Azərbaycan tarixçiləri tərəfindən (M.X.Şərifli, Z.M.Bünyadov, N.M.Vəlixanlı) kifayət qədər tədqiq olunduğu üçün üzərində geniş dayanmırıq [11; 3; 13]. Lakin belə bir faktı xüsusi vurğulamaq istəyirik ki, hələ X əsrin əvvəllərindən başlayan rus yürüşləri Xəzəryanı bölgələrin iqtisadiyyatına böyük ziyan vurmaqla bərabər, şəhərlərdə böyük insan itkisi ilə də nəticələnmişdi. İstər 913/4-cü il, istərsə 943/4-cü il, istərsə 1030-cu il və 1032-ci il rus yürüşləri Azərbaycan üçün şimaldan gələn təhlükənin nə qədər böyük olduğunu göstərməklə yanaşı, sonrakı əsrlərdə ölkə üçün hərbi donanma məsələsinin də aktual olduğunu sübut etmişdir.

X əsrdə Bərdəyə rus yürüşlərinin nəticələrini ərəb müəllifləri birmənalı şəkildə ağır qiymətləndirirlər. Məsələn, əl-Müqəddəsi yazır: *"[Bərdə] çox nəfis şəhərdir. Lakin onun ətrafı dağıdılmış və əhalisi azalmışdır. Bərdənin [şəhər] darvazaları da nizamsız haldadır*" [4, s.375]. İbn Hövqəl isə şəhərin tənəzzülündə rus yürüşləri ilə yanaşı, yerli sülalələr arasındakı ara müharibələrinin, eləcə də xarici təhlükəyə qarşı müqavimətin zəif təkil edildiyi amillərinin də böyük rol oynadığı qənaətindədir: "*Ruslarla müharibə zamanı, [eləcə də] hakimiyyətin təzyiqi və ölkəni bacarıqsız insanların idarə etməsi nəticəsində vaxtaşırı baş verən və bu günədək davam edən basqınların törətdiyi dağıntılara baxmayaraq, Bərdənin bazar, karvansara və hamamları [hələ də] çoxdur*" [10, s.339].

Bərdənin rus yürüşlərindən sonra iqtisadi tənəzzülü, bölgənin ticarət yollarına da ciddi təsir göstərmişdi. Şəhərin regional və beynəlxalq yolların qovşağı rolu tədricən Gəncəyə keçməyə başlamışdı. Hərçənd ki, XII-XIII əsrin mənbələrində hələ də Bərdədən keçən yollar, o cümlədən Bərdə - Tiflis, Bərdə - Dərbənd və Bərdə - Dəbil marşrutu haqqında məlumatlara rast gəlinir [8, s.115]. Rus yürüşlərinin bütün ağır nəticələrinə baxmayaraq, Bərdənin hələ bir müddət öz regional əhəmiyyətini qoruyub saxlamasında onun ixracatının da rolu olmuşdur. Məsələn, XIII əsrin müəllifi Zəkəriyyə Qəzvini əsərində Bərdədən başqa ölkələrə "*qərənfil, fındıq, şabalıd, zoğal, balıq ixrac edilidyini*" yazır [12, s.344]. Lakin XIII əsrin mənbələrində artıq Kürki yarmarkası, daha doğrusu, onun fəaliyyəti haqqında məlumatlara rast gəlinmir.

Ərəb mənbələrində Arranın, o cümlədən Qarabağ bölgəsinin yerli əhalisinin dili və konfessional durumu haqqında da məlumatlara rast gəlmək mümkündür. Bu məlumatlar geniş və ətraflı olmasa da, br qismi diqqətimizi çəkə bilər. Məsələn, Azərbaycanda, o cümlədən onun ayrılmaz toprağı olan Qarabağda əhalinin mənsub olduğu dil haqqında İbn Hövqəl yazır ki, "*Bərdə xalqı Arran dilində danışır*" [10, s.308]. Aydın məsələdir ki, etnik və dil mənsubiyyəti məsələsi X əsrin coğrafiyaçısının tədqiqat sahəsi ola bilməzdi; bu və ya digər dilin daşıyıcıları haqqında da o dövrdə biliklər çox məhdud idi. Ona görə də İbn Hövqəl "Arran dili"ni bölgənin adına müvafiq olaraq adlandırmışdır. Şübhəsizdir ki, burada söhbət Azərbaycan türk dilindən gedir. Q.Qeybullayevin də qeyd etdiyi kimi, "*Bu dil məhz "Dədə Qorqud" dastanlarının dilidir. Bu dilə aid leksik ünsürlər Qətran Təbrizinin, Nizaminin, Xaqaninin əsərlərində də vardır*" [6, s.139]. Bu baxımdan, İbn Hövqəlin və onun yazdıqlarının eynisini qeyd edən digər ərəb müəlliflərinin bu məlumatlarının əhəmiyyəti danılmazdır və Qarabağ bölgəsindəki əhalinin erməni dilində danışmadığına bir daha işarə edir.

Bərdə iqtisadi mərkəz olmaqla yanaşı,sosial və mədəni həyatı çox zəngin olan bir şəhər idi. Akad. N.M.Vəlixanlı haqlı olaraq qeyd edir ki, "*IX əsrin sonundan başlayan çiçəklənmə dövründə Bərdə Qafqazın ən böyük ticarət və sənətkarlıq mərkəzi olmaqla yanaşı, ərəb-müsəlman mədəniyyətinin mühüm ocaqlarından idi*" [13, s.69]. Əməvilərin dövründən başlayaraq Cənubi Qafqazda, o cümlədən Bərdədə məscidlərin inşası genişlənmişdi. Bu baxımdan ərəb mənbələrində geniş təsvir edilən Bərdə məscidi tədqiqatçılar tərəfindən bölgənin mədəni-mənəvi mərkəzi olaraq görülür [5, s.120]. Məscidlər və onların nəzdindəki mədrəsələr bu dövrdə sadəcə ibadət və dini təhsil yeri olmayıb, şəhərin və bütövlükdə ölkənin elm və ideoloji mərkəzləri rolunu da oynayırdılar.

Bəhs edilən dövrdə əslən Bərdədən olan Əbu Bəkr Məhəmməd ibn Abdulla əl-Bərdəi, Əbülhəsən Əhməd ibn Ömər ibn Abdulla əl-Bərdəi, Əbülfəzl Şəban ibn Əli ibn Məhəmməd əl-Bərdəi, Əbu Bəkr Məkki ibn Əhməd Səadaveyh, Əbu Osman Səid ibn Əmr ibn Əmmar əl-Əzdi əl-Bərdəi, Əbül-Məkarim Əbdül-Xaliq ibn Əbül-Məali əl-Arrani, Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh Əl-Bərdəi əl-Bərdici kimi alimlər bütün müsəlman Şərqində məşhur idilər [5, s.167-168, 174, 206, 208, 213, 250 və s.]. Əslən Bərdədən olan alimlərin həyatvə fəaliyyətini araşdıran Z.A.Səidov da hesab edir ki, bu dövrdə Azərbaycan alimlərinin içərisində "Bərdəi" nisbəsini daşıyanların çoxluq təşkil etməsi də şəhərin bölgədə elm mərkəzi rolu oynadığından xəbər verir [16, s.120].

İstər Bərdə şəhərinin böyük sayda məscidləri və digər müsəlman tikililəri, istər məşhur elm adamları, istərsə də əhalisinin dili və dini haqqında IX-X əsr ərəb müəlliflərinin məlumatları Qarabağ bölgəsinin qədim dövrdən başlayaraq, orta əsrlər də daxil olmaqla, tarixin bütün mərhələlərində Azərbaycanın ayrılmaz hissəsi olduğuna şahidlik edir. Azərbaycan Türk mədəniyyətinin mərkəzlərindən olan Qarabağ bölgəsinin siyasi, sosial, iqtisadi və mədəni dəyərləri Xilafətin hakimiyyətindən etibarən həm də İslam mədəniyyətinin bir parçası olaraq inkişafını davam etdirmiş, sonrakı yüzilliklərdə bölgəyə müxtəlif şərtlər altında köçürülən ermənilər isə bu dəyərlərə hər zaman yad olmuşdur. Bu səbəbdən də, tarixin bütün mərhələlərində (hətta 1829-ci ildən sonra da) Qarabağda Azərbaycan mədəniyyəti xaric, hər hansı bir başqa etnomədəniyyətin mövcudluğu mənbələrdə təsbit edilməmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı, Elm, 2007.
2. Balazuri Ahmed ibn Yahya. Kitab futuh el-buldan. I cild. Qahirə, 1256 (h).
3. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007.
4. Descriptio İmperii moslemici, auctore al-Mokaddasi // Bibliotheca Geographorum Arabicorum, Pars III, Leyden, Brill, 1967.
5. Əliyeva N.A. Azərbaycanda İslam mədəniyyəti (VII-XIII əsrlər). Bakı, "Elm və təhsil", 2017.
6. Qeybullayev, Q.A. Qarabağ. Bakı, Elm, 1990.
7. Kalankatuklu M. Albaniya tarixi. Müqəddimə, tərcümə, qeydlər və şərhlər akad. Z.M.Bünyadovundur. Bakı, Elm, 1993.
8. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri. Bakı, Elm, 2005.
9. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ. Bakı,Təhsil, 2009.
10. Opus Geographicum, auctore İbn Haukal // Bibliotheca Geographorum Arabicorum, Pars II, Leyden, Brill, 1967.
11. Şərifli M.X. IX əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətləri. Bakı, AMEA Tarix İnstitutu, 2013.
12. Zakarija b. Muhammed b. Mahmud el-Cazwini's Kocmographie. Wiesbaden, 1967.
13. Vəlixanlı N.M. Ərəb Xilafəti və Azərbaycan. Bakı, Azərnəşr, 1993.
14. Viae Regnorum. Descriptio ditionis moslemicae, auctore al-İstakhri // Bibliotheca Geographorum Arabicorum, Pars I, Leyden, Brill, 1967.
15. Пахомов Е.А. Монеты Азербайджана. Вып.1. Баку, Изд-во АН АзССР, 1959.
16. Саидов З.А. Выходцы из Берда в среде ученых Багдада и других культурных центров Халифата в IX-X веках // ИАН Аз.ССР, Серия истории, философии и права, Баку, Елм, 1990, № 1, с.115-121.

SUMMARY

ON THE DESCRİPTİON OF THE HİSTORY OF BARDA İN IX-X CENTURY ARABİC SOURCES

Caglayan Y.H., Caglayan E.H.

The medieval Arabic sources widely reflect the political geography, economic and social life of Azerbaijan, including Karabakh. These works note that the most important city of Azerbaijan in this period was Barda and the city is considered "Mother of Arran".

Arab geographers pay special attention to the trade relations of Barda, since in the 9th-10th centuries the city was a junction of regional and international trade routes. Arabic sources contain a lot of information about the architectural structure of the city, famous monuments, markets, caravanserais and baths. An analysis of this information shows that since ancient times Barda has been an important administrative, social, economic and cultural center not only of Karabakh, but of the whole of Azerbaijan.

Keywords: *Arran, Karabakh, Caliphate, Berde, Arabic sources*

РЕЗЮМЕ

К ОПИСАНИЮ ИСТОРИИ БАРДЫ В АРАБСКИХ ИСТОЧНИКАХ IX-X ВВ.

Чаглаян Е.Х., Чаглаян Э. Х.

В средневековых арабских источниках широко отражены политическая география, экономическая и общественная жизнь Азербайджана, в том числе Карабаха. В этих работах

отмечается, что важнейшим городом Азербайджана в этот период являлся Барда и город считается «Матерю Аррана».

Арабские географы уделяют особое внимание торговым связям Барды, так как в IX-X веках город был узлом региональных и международных торговых путей. В арабских источниках имеется много сведений об архитектурном устройстве города, известных памятниках, рынках, караван-сараях и банях. Анализ этих сведений показывает, что Барда с древних времен был важным административным, социально-экономическим и культурным центром не только Карабаха, но и всего Азербайджана.

Ключевые слова: *Арран, Карабах, Халифат, Барда, арабские источники*

İLK ORTA ƏSR MÜƏLLİFLƏRİ BƏRDƏ ŞƏHƏRİ HAQQINDA

Cəfərov P.T.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
parvizjafarov5@gmail.com

Açar sözlər: *Qafqaz Albaniyası, Bərdə, Arran, Uti, mənbələr, paytaxt*

Azərbaycan bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən biridir. Azərbaycanın dilbər güşəsi olan Qarabağın aran hissəsində Qafqazın ictimai-siyasi tarixində zaman-zaman baş verən təlatümlərdə, ictimai-siyasi hadisələrdə önəmli rol oynayan bir şəhər - Bərdə şəhəri salınmışdır. Arxeoloji qazıntılar təsdiq edir ki, zaman-zaman öz şıltaq üzünü göstərən Kür çayı daşaraq ətraf ərazilər su altında qoyurdu. Bəzən bu daşqınlar zamanı çay sahili boyu bir neçə kilometr ərazi Kürün coşqun suları ilə örtülmüş olurdu. Ehtimal etmək olar ki, bəlkə də bu səbəbdən Bərdə şəhəri Kür çayından bir qədər aralıda salınmışdır. Orta əsr müəllifləri Bərdənin Tərtər çayının Kürlə qovuşuduğu yerdən təqribən 20 km aralı olduğunu qeyd etmişlər.

Qədim Bərdənin yerləşdiyi Qafqaz Albaniyasının təbii-coğrafi təsviri haqqında ilkin məlumatlara yunan və latın mənbələrində rast gəlinir. Strabonun «Coğrafiya», Böyük Pliniyin «Təbiətin tarixi», Pomponiya Melin «Yerin təsviri», Plutarxın «Paralel canlı təsvir», Korneliya Tatsitin «Annallar», Ptolomeyin «Coğrafiya dərsliyi» əsərləri Albaniyanın tarixi coğrafiyası, əhalisi, təsərrüfatı və ticarəti, ictimai quruluş və mədəniyyəti barədə məlumat almaq üçün çox mühüm mənbədir [4, s.36-37].

Azərbaycanın ən qədim şəhərlərindən olan Bərdənin əvvəllər Hərum adlanan yaşayış məskəninin yerində salındığı güman olunur. Bərdənin hələ e.ə. ellin ölkələri ilə əlaqəsini sübut edən numizmatik materiallar - Makedoniyalı İsgəndər, Selevkilər, Arşakilər və Roma imperatoru Avqust dövrünə aid sikkələr, eləcə də arxeoloji qazıntılar zamanı əldə edilmiş digər maddi mədəniyyət nümunələri bu qədim yaşayış məskəninin tarixinin zamanın nə qədər dərinliklərinə getdiyinin bariz nümunəsidir.

Bərdə şəhərinin nə vaxt salınması barədə müxtəlif tarixi mülahizələr irəli sürülmüşdür. Musa Kalankatlı "Alban tarixi" əsərində yazır ki, Bərdə Alban hökmdarı II Vaçenin dövründə Sasani hökmdarı Firuzun göstərişi ilə salınmışdır. Musa Kalankatlı "Alban tarixi" əsərində həmçinin onu da qeyd edir ki, alban hökmdarı Vaçe tərəfindən inşa edilən Bərdə şəhəri V əsrdən sonra Albaniyanın paytaxtına çevrilmişdir. Bərdə şəhəri mühüm karvan yollarının üzərində yerləşirdi. Erkən orta əsr müəlliflərinin əksəriyyəti Bərdə şəhərinin Yaxın və Orta şərqin əsas ticarət mərkəzlərindən biri olduğunu öz əsərlərində dönə-dönə qeyd edirlər. Bərdə şəhəri Uti vilayətində yerləşirdi. Erkən orta əsrlərdə bu şəhər bütün Qafqazın ictimai-iqtisadi, siyasi-mədəni mərkəzi rolunu oynayırdı. Bərdə şəhəri həm alban Arşakilər sülaləsinin hökmdarlarının dövründə, həm də Mehranilər sülaləsinin nümayəndələrinin idarəetməsi dövründə onların əsas iqamətgahı olmuşdur. Bərdə şəhəri həm də Albaniyanın dini mərkəzi idi. Bərdə VI əsrdən alban katalikosluğunun iqamətgahına çevrilir. Bərdə şəhəri Albaniyanın əsas ticarət-sənətkarlıq mərkəzi idi. Bərdə şəhərindən qonşu ölkələrə aparılan məhsullar içərisində əsas yeri ipəkqurdu, barama, qızılboya tuturdu. Bərdə şəhəri regionun siyasi-hərbi münaqişələrindən də kənar qalmır, bəzən bu proseslər şəhər üçün fəlakətli nəticələrlə bitirdi. İran-Bizans müharibələrinin gedişində Bizansın müttəfiqi olan xəzərlər tərəfindən 628-ci ildə Bərdə şəhəri tutulmuş və dağıdılmışdı. Şəhər ancaq VIII əsrin əvvəllərində, Xilafətin şimal vilayətlərinin hakimi Əbd əl-Əziz ibn Xatimin əmri ilə bərpa edilmişdir [2, s. 40].

Əl-Bəlazuri Bərdənin Sasani hökmdarı I Qubadın hakimiyyəti dövründə salındığını yazmışdır. Həmdullah Qəzvini isə Bərdə şəhərinin salınmasını Makedoniyalı İsgəndərin dövrünə aid edir. Lakin qədim Bərdə şəhərinin yerləşdiyi ərazidə arxeoloqlar tərəfindən həyata keçirilən arxeoloji tədqiqatlar zamanı

çaydaşı, çiy və bişmiş kərpicdən tikilmiş binaların bünövrəsinin aşkara çıxarılması Bərdənin ticarət və sənkarlıq mərkəzi olan qədim yaşayış məntəqəsinin yerində salındığını sübut edir.
Mənbələrdə Qafqaz albanları ilk dəfə e.ə. IV əsr hadisələri ilə əlaqədar xatırlanır [3, s. 4]. Ptolomeyə görə, Albaniya "Şimalda Sarmatiyanın bir qismi ilə, Qərbdə İberiya ilə, Cənubda Ermənistanın bir qismi ilə" həmsərhəd idi [1, s. 280].

Albaniya dövlətində 11 tarixi vilayət yerləşirdi: Çola (Cənubi Dağıstanda), Lipina (Samur çayının cənubunda), Kambisena (İberiyaya qədər olan sərhəddə), Qəbələ (müasir Qəbələ rayonunda), Əcəri (Qəbələnin cənubunda), Şəki (Şəki – Zaqatala Balakən bölgəsində), Paytakaran, yaxud Kaspiana, yaxud Bəlasakan (Mil və Muğan çölündə), Uti, Girdman, Ərsak (indiki Yuxarı Qarabağ və Mil düzünün bir hissəsində), Sünik, yaxud Sisakan, yaxud Zəngəzur [7, s.63].

Tarixi mənbələrdə Bərdənin qədim Albaniyanın Uti vilayətinin baş şəhəri olduğu göstərilir [6, s.87]. Albaniyanın ikinci və sonuncu paytaxtı olan Bərdə (Partav) şəhəri bu vilayətdə yerləşirdi [2, s.14]. Bərdə şəhərinin tarixini Albaniyada baş vermiş siyasi hadisələrlə bağlı ardıcıl şəkildə izləmək mümkündür.
«Albaniya tarixi»ndə, erməni və gürcü yazılı mənbələrində Bərdə şəhərinin ictimai-siyasi, iqtisadi, mədəni həyatı ilə bağlı mühüm məlumatlar yer almaqdadır.

"Alban tarixi" əsərində M. Kalankatlı Bərdə ərazisinin təbiəti haqqında mühüm məlumatlar verir. M. Kalankatlı alban çarı III Vaçaqanın hökmdar olduğu dövrdə Bərdə şəhəri və onun ətraf ərazilərinin abadlığı, xoş guşənişinliyi haqqında dolğun təsəvvür yaradır.

Ərəb, fars və türk dilində olan mənbələr Bərdə ərazisinin təbii xüsusiyyətləri haqqında mühüm məlumatlar verir. Bu mənbələrin çoxu coğrafiyaşünasların və səyyahların Bərdənin təbii-coğrafi xüsusiyyətlərinin təsvirinə həsr olunan məlumatları ilə zəngindir. Anonim coğrafiya əsəri «Hüdud-əl-aləm»də qeyd edilir ki, «... Orada, onun ətrafında meyvə və taxılla zəngin olan geniş, çiçəklənən əkinlər var. Orada tut ağacları çoxdur» [5, s. 36].

Əl-Fəqih öz əsərində xüsusilə Bərdənin təbii sərvətlərin haqqında belə qeyd edir: «Arranda civə, mis kuprosu, mis və gümüş-qurğuşun yatağı vardır. » [9, s. 39].

İstəxri bildirir ki, Bərdə «sağlam iqlimli, münbit, çoxlu əkin sahəsi və bol meyvəsi olan yerdir.» [8, s. 88].

Sasanilər dövründə canişinlik mərkəzi kimi fəaliyyət göstərən Bərdə şəhərinin ətrafına I Qubadın dövründə divar çəkilmiş, burada İran qarnizonunun saxlanması üçün qala inşa edilmişdi. Qeyd etdiyimiz kimi V əsrdən Albaniyanın paytaxtına çevrilən Bərdə şəhərində 552-ci ildən Alban kilsəsinin mərkəzi də yerləşirdi. Bərdə zaman-zaman istilalara məruz qalmış, dövrün imperiyaları arasında baş verən qanlı-qadalı müharibələrin mərkəzi meydanına çevrilmişdi.

Xilafət dövründə mühüm strateji məntəqə olan Bərdədə ərəb qarnizonu saxlanırdı. VIII-IX əsrlərdə də Bərdə öz əvvəlki iqtisadi mərkəz mövqeyini qoruyub saxlamışdı. Bərdədən keçərək Xilafətin paytaxtı ilə Azərbaycanı qovuşduran ticarət arteriyası Bərdə şəhərinin iqtisadi həyatında mühüm rol oynayırdı. Bərdənin iqtisadi mərkəz olduğunun daha bir göstəricisi isə Arranda bütün şəhərlərarası məsafələrin Bərdə şəhərindən hesablanması idi. Bu faktın özü Bərdənin iqtisadi əhəmiyyətini bir daha təsdiq edir.

Ərəb müəlliflərindən əl-Müqəddəsi Bərdəni "ölkənin Bağdadı", ibn Havqəl isə "Arranın anası" adlandırmışlar. İbn Hövqəl Bərdənin təbii şəraiti və ərazisinin təbii xüsusiyyətləri haqqında belə məlumat verir: «Bərdə şəhərinə gəldikdə, bura Ümmu-l Randır (Arranın anası) və bu yerlərin ən yaxşısıdır... » [8,s.108]. Bərdə haqqında yazan bütün orta əsr müəllifləri onun ictimai-iqtisadi, mənəvi-mədəni mərkəz rolunu xüsusi vurğulayır, ona olan heyranlıqlarını gizlətmir və bunu əsərlərində dəfələrlə qeyd edirdilər.

ƏDƏBİYYAT

1. Azərbaycantarixi, I c. Bakı, Elm, 1998, 520 s.
2. Azərbaycantarixi, II c. Bakı, Elm, 1998, 596 s.
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Bakı Dövlət Universiteti Nəşriyyatı, 1989, 328 s.
4. Hacıyev Q. Ə. Bərdə şəhəri. Coğrafi, siyasi və mədəni tarixi. – Bakı, 2008. – 250 s.
5. Hüdud əl-Aləm. Tərcümə Ə.Ələsgərzadənindir. AMEA TİEA inv. №257, 37 s.
6. Məmmədova F.C. Albaniyanın siyasi tarixi və coğrafiyası, Bakı, 1993, 283 s.
7.Məmmədov T. M. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Təhsil, 2006, 400 s.
8. Vəlixanlı N.M.IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycanhaqqında.Bakı,Elm,1974,223 s.
9. Ибн Факих. Китаб ал-булдан (Книга о странах). Пере-вод Н.А.Караулова //СМОМПК, вып. XXXI. Тифлис,1902, с. 1-57.

SUMMARY

EARLY MEDIEVAL AUTHORS ABOUT BARDA CITY

Jafarov P.T.

The ancient Azerbaijani city of Barda has a rich political and cultural history. Geographical position Bardy and soft climatic conditions were historically at the center of attention of the states that emerged in this area and invaded this territory. Although the information about the political history of the city of Barda, which rises to our era, is small, the information about the early Middle Ages is quite rich. Barda, which became the capital of Albania in the 5th century, was the religious center of the state since 552. In the early Middle Ages, the city of Barda was the main center of socio-political and ideological struggle in Albania. From the VIII century in the political life of Bardy made serious changes. Sources in Arabic, Persian and Turkish also provide important information about the natural features of the Barda region. Many of these sources are rich in information from geographers and travelers describing the natural and geographical features of the Bard. Many of these sources are rich in information from geographers and travelers describing the natural and geographical features of the Bard.

***Key words**: Caucasian Albania, Barda, Arran, Uti, sources, capital*

РЕЗЮМЕ

РАННЕСРЕДНЕВЕКОВЫЕ АВТОРЫ О ГОРОДЕ БАРДА

Джафаров П.Т.

Древний азербайджанский город Барда имеет богатую политическую и культурную историю. Географическое положение Барды и мягкие климатические условия исторически были в центре внимания государств, которые возникли в этой области и вторглись на эти территории. Хотя информации о политической истории города Барда, которая восходит к до нашей эры, мало, сведения о раннесредневековой истории города довольно богаты. Барда, ставшая столицей Албании в V веке, была религиозным центром государства с 552 года. В раннем средневековье город Барда был главным центром общественно-политической и идеологической борьбы в Албании. С VIII века в политической жизни Барды произошли серьезные изменения. Источники на арабском, персидском и турецком языках также предоставляют важную информацию о природных особенностях района Барда. Многие из этих источников богаты информацией от географов и путешественников, описывающих природные и географические особенности Барды.

***Ключевые слова**: Кавказская Албания, Барда, Арран, Ути, источники, столица*

AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN BEŞİYİ QARABAĞ

Əbiyev Q.Ş., Muxtarlı E.A.
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası.Bakı, Azərbaycan
qalib.abiyev@sport.edu.az; eldar_muxtarli@mail.ru

***Açar söz:** Qarabağın zəngin, özünəməxsus və maraqlı folklor nümunələrindən güləş, çövqən, baharbənd, cıdır, tonqal üzərindən tullanmaq yarışları, papaq oyunu kimi oyunlar və milli mütəhərrik xalq oyunları keçirilirdi.*

Tarixi bilmədən müasirliyi bilmək olmaz. Milli idman oyunları Azərbaycan siyası tarixinin ayrılmaz hissəsidir. Azərbaycan xalq oyunlarının yaranması və inkişafı haqqında müəyyən işlər görülmüşdür. Azərbaycan milli idman oyunlarının tarixi qədimdir. Azərbaycan Zərdüştülüyün vətəni olduğu kimi ən qədim dövürlərdən milli oyunların vətənidir. Qədim Azərbaycanlıların müqəddəs saydığı Avesta kitabındakı məlumatlara görə cəngavərlik, igidlik, pəhləvanlıq, at çapmaq, güləş, ox atma yarışlarında iştirakının tarixi ən qədim dövürlərə təsadüf edir. Azərbaycanda qədim zamanlardan belə fiziki tərbiyənin inkişafının artırılması vətənin müdafiəsinə və sağlamlığın möhkəmləndirilməsinə yönəldilmişdir. [2. Səh-75]

Qarabağın çox qədim tarixi vardır. Qarabağ iki sözün anlayışından ibarətdir. Qara sözü boyük, möhtəşəm, geniş mənasında işlənmişdir. Qarabağ sözünün mənası böyük bağ deməkdir. Sahəsi 50%-dən çox meşə və bağlarla örtülü olan ərazidir. Qarabağ şəhərinin tarixi VII-əsirdən başlayır.

Qarabağ xanlığı (1747-1822) Pənahəli xan və İbrahimxəlil xanın hakimiyyəti dövründə öz suverenliyini saxlaya bilən Azərbaycan feodal dövləti idi. Onun paytaxtı Şuşa şəhəri olmuşdur. Qarabağ dağlarının birində ən yüksək zirvədə yerləşən Şuşa şəhəri mühüm strateji mövqe tutmuşdur [2.səh76-77]. Azərbaycanın Qarabağ ərazisində nizə və ox atmaq, qılınc oynatmaq, pəhləvanlıq və güləşlə məşğul olmuşlar. Qısa tarixi dövürdə Şuşa şəhərində çoxlu istedadlı şairlər, alimlər, müəllimlər, pəhləvanlar və sənətkarlar yetişmişdir[1.səh 6-7]. Bu baxımdan aparılan tədqiqatlar sübut edib ki, Azərbaycan mədəniyyətinin, tarixinin, ədəbiyyatının, o cümlədən milli idman oyunlarının tarixinin inkişafında və təkamülündə doğma vətənimizin ayrılmaz bir hissəsi olan Qarabağ mühiti əvəzsiz və böyük rolu oynayıb. Azərbaycan Sovet Ensiklopediyasının III cildində yazılaraq məlumat verilmişdir ki, "Qarabağ - Azərbaycanda tarixi vilayətdir. Kiçik Qafqaz dağlarından başlamış, Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Keçmiş SSRİ ərazisində ən qədim insan məskənlərindən biri Azərbaycanın Qarabağ zonasında aşkar olunub [5-67645.html].

XVII-XIX-əsirlərdə Azərbaycanda qüvvətli və adlı sanlı pəhləvanlar çox olmuşdur. Azərbaycan milli idman oyunları XIX-əsirdə geniş inkişaf etmişdir. Respublika əlyazmalar fondunda saxlanılan "Əhvalati Qarabağ" adlı əlyazma əsəri diqqəti cəlb edir. "Əhvalati Qarabağ" əsərində İbrahim xanın məşhur saray xadimi Mirzə Vəlinin nəvəsi Baharlı 1888-ci ildə öz əsərlərinin birində yazmışdır ki: Şuşada Nabat adlı bir pəhləvan vardır. Heç kəs ona qalib gələ bilməmişdir. Şuşalı Nabat pəhləvan Təbrizdən, Badigubədən, Şəkidən, və digər şəhərlərdən Şuşaya gələn pəhləvanlara qalib gəlmişdir. "Əhvalati Qarabağ" əsərində Şuşalı nabat pəhləvanın Təbrizdə İran şahının məşhur saray pəhləvanına qalib gəlməsi səs-küyə səbəb olmuşdur. Həmin dövürlərdə Azərbaycan pəhləvanları böyük şöhrət qazanmışdırlar[1-səh 85-86].

Atçılıq idman növüdə Azərbaycanda qədim zamanlardan inkişaf etmişdir. Əsas idman oyunlarından biri sayılan at üzərində ox atıb hədəf vurmaq idmanı Qarabağda yaranaraq Avropa ölkələrinin yarışlarında bu idman növü keçirilməyə başlamışdır. Azərbaycan idman oyunları və atları təkcə ölkəmizdə deyil xaricdə də qədim zamanlarda böyük şöhrətə malik olmuşdur.

XIX-əsrdə D.Dubenski (atçılıq üzrə mütəxəsis) demişdir ki, Zaqafqaziyadan olan atlr hamısı Qarabağ atının törəməsidir. Qarabağ adlı kitabda qeyd edilmişdir ki, (1866, 1869 və 1873) ci illərdə Moskvada keçirilən at sərgisində Qarabağ cinsindən olan atlara rusiyalı mütəxəsislər tərəfindən yüksək qiymətləndirilmişdir. General-mayor Mehdiquluxan 1826-cı ildə Qarabağda ilk atçılıq təsərrüfatı yaradmışdır. Bu təsərrüfatda yetişdirilən Qarabağ atlarının şöhrəti dünyaya yayılmışdır. General-mayor Mehdiquluxanın vəfatından sonra qızı Natəvan atasının atçılıq təsərrüfatını inkişaf etdirmişdir. Orta əsirlərdə Qarabağda çövgən oyunu inkişaf etməyə başlamışdır. Buna bəzən "Çovqan" və ya "çövkən" də deyilib. Çövgən Azərbaycanın qədim və milli oyunudur. Çövgənın qədim Azərbaycan oyunu olmasını sübut edən faktlardan biri də Azərbaycan miniatürlərində bu oyunun dönə-dönə təsvir edilməsi, yazılı mənbələrdə onun keçirilmə qaydaları haqqında məlumat verilməsidir. Çövgən yarışlarının Azərbaycanda çox qədimdən məşhur olduğu faktlarla təsdiqlənir. Çövgən oyunçularının heykəllərini kiçik oyuncaq şəkilində hazırlanaraq şahlara hədiyyə kimi verilirdi.[1.səh75-80]. Komanda oyun növü olan çövgən yarışları eramızın birinci minilliyinin ortalarında formalaşıb, yüzillər ərzində, Azərbaycan, Orta Asiya, İran, Türkiyə, İraq və qonşu ölkələrdə məşhur olub. Azərbaycanda çövgənın tarixi, hətta VI-VII əsrlərə və bəlkə ondan da qabaqlara gedib çıxır. Nizami tarixi sənədlər əsasında yazdığı "Şərəfnamə" əsərində çövgən oyunu haqqında məlumat verir. Çövgən oyununun adı oyunda işlədilən alətin adı ilə adlandırılıb. Bu da ağacdan hazırlanmış, çövkan adlandırılan alətdir. Oyunçular at belində bu alətin köməyi ilə oynayırlar. Azərbaycanda çövgən oyununda təkçə kişilər deyil, qadınlar da iştirak edirdilər. İngilislərin təşəbbüsü ilə bu oyun "polo" adı altında ilk dəfə 1890-cı ildə Parisdə keçirilən II Olimpiya Oyunlarının proqramına daxil edilmiş və beləliklə, Qərb sivilizasiyasında bu ad təsdiqlənmişdir. Bir neçə dəfə Olimpiya Oyunları proqramına daxil edilmiş çövgən – polo son dəfə 1936-cı il Berlin Olimpiyadasında oynanılmışdır. Azərbaycanda oynanılan çövgən oyunu, ümumiyyətlə, dünyada polo adı ilə tanınan oyundan bir qədər fərqli qaydalar əsasında keçirilir[4.səh 87-88].

Qarabağın zəngin, özünəməxsus və maraqlı folklor nümunələrindən biri də milli mütəhərik xalq oyunlarıdır. Milli mütəhərrik xalq oyunlarının tarixi çox qədimlərə getməklə yanaşı, xalqın müxtəlif dövrlərdə adət-ənənələrini, etnoqrafiyasını özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarına, bütövlükdə xalqın oyun-tamaşa mədəniyətinə dair ilk məlumatlara bir sıra qədim mənbələrdə rast gəlinir. Milli mütəhərrik xalq oyunların bir neçəsi Azərbaycanın Qarabağ zonasında inkişaf etmişdir. Milli mütəhərrik xalq oyunları uşaq və yeniyetmələrdə sağlamlıq, vətənin müdafiəsinə hər zaman hazır olmaq kimi keyfiyyətləri özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarında qadınlarda kişilər kimi at çapma, çövgən, qılınc oynatma, ox atma kimi yarışlarda iştirak edirdilər. Qarabağda geniş yayılan xalq oyunlarından biri də

“Dirədöymə” oyunudur. Bu oyunun oynanılması qaydası isə belədir: Uşaqlar iki dəstəyə ayrılıb, bir dairəvi cizgi çəkir və qürrə (püşk) atırlar. Qürrə hansı dəstəyə düşsə o dəstə mərəyə (dairəyə) girir. Uşaqlar hərəsi ayağının altına bir toqqa qoyur. Dairədən kənarda qalanlar toqqanı götürməyə çalışırlar. Dairədəkilər isə ayaqla vurur, toqqaları götürməyə yol vermirlər. Dairənin içərisində olanlar kənardakılardan birini ayaqla vursa, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Dairədən kənardakı uşaqlardan biri toqqanı ələ keçirsə, dairənin içərisində olan uşaqları toqqa ilə vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə çalışırlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə qələbə qazanır. Dairədəkilərin ayaqlarından biri cızıqdan çıxmamaq şərti ilə kənardakılardan birini digər ayağı ilə vurana qədər kənardakılar içəridəkiləri toqqa ilə oyundan kənarlaşdırırlar. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də kənardakı yoldaşlarının toqqasını qorumalı olurlar. Yaxud əksinə, içəridəkilər kənardakılardan birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişməli olurlar. Qarabağda məşhur olan bəzi xalq oyunları isə şeirlə ifa olunurdu. Bu isə, heç şübhəsiz ki, oyunu daha maraqlı edirdi. [3.s3-4].

Qarabağda geniş yayılmış oyunlardan biridə “Baharbənd” və “Papaq” oyunudur. At çapanlar bahar aylarının əvvəllərində çəmənliyə toplaşaraq oyuna başlayırlar.

Azərbaycan bayramlarında əsas yeri milli mütəhərrik idman yarışları tuturdu. Bu bayramlarda milli xalq idman oyunları, güləş, nizə atmaq, oxatmaq və s. kimi idman növlərindən istifadə edilirdi. Öz qüvvəsi, çevikliyi, dözümlülüyü ilə fərqlənənlər yeniyetmə və gənclər həmin oyunlarda bacarıqlarını nümayiş etdirirdilər. Belə bayramalrdan biri də Novruz bayramıdır. Bayram mərasimində musiqinin müşayəti ilə oğlanlar arasında güləş, cıdır, tonqal üzərindən tullanmaq yarışları, papaq oyunu kimi oyunlar keçirilirdi. Milli mütəhərrik xalq oyunları Azərbaycanın mədəniyyətini və tarixini inkişaf etdirir.[1.səh 107-108].

ƏDƏBİYYAT

1. Azərbaycan milli idman oyunlarının tarixi. Akif Əliyev Bakı – 2001 ci il (A.D.B.T.İ.A. üçün dərslik).
2. Qarabağnamələr. Nazim Axundov Bakı – 2006 cı il.
3. E.Acalov. Azərbaycanda Bədən Tərbiyəsi və İdmanın İnkişaf Tarixi. Bakı-1985 il.
4. Ceyhun Nəsibov,Vüqar Zeynalov İdman güc və gözəllik. Ayna uşqa ensiklopediyası. Bakı-2000 il.
5. https://www.az/news/culture/67645.html.

SUMMARY

KARABAKH IS THE CRADLE OF AZERBAIJANI CULTURE

Abiyev G.Sh., Mukhtarli E.A.

In order to study the Karabakh folklore in depth, it is important to first determine the historical territories and borders of this region. One of the rich, unique and interesting examples of Karabakh folklore is folk games. The history of folk games goes back to ancient times, as well as the traditions and ethnography of the people at different times. The first information about folk dances and the culture of folk performances in general can be found in a number of ancient sources.

Keywords: *One of the rich, unique and interesting examples of Karabakh folklore is folk games. About folk games "Chovkan", "Wrestling", "National wrestling", Baharband, "National mobile folk games", Wrestling school in Karabakh, Shusha*

РЕЗЮМЕ

КАРАБАХ – КОЛЫБЕЛЬ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

Абиев Г.Ш., Мухтарлы Э.А.

Для изучения карабахского фольклора важно прежде всего определить исторические территории и границы этого региона. Одним из богатых, уникальных и интересных образцов Карабахского фольклора являются народные игры. История народных игр уходит корнями в глубокую древность, как и традиции и этнография народа в разные времена. Первые сведения о народных танцах и культуре народных представлений в целом можно найти в ряде древних источников.

Ключевые слова: *Одним из богатых, уникальных и интересных образцов карабахского фольклора являются народные игры. О народных играх были проведены борьба, човкан,_бахарбанд, прыжки через костер, скачки и национальные подвижные народные игры*

QARABAĞIN ORTA ƏSR BƏDİİ ŞÜŞƏ MƏMULATI

Əhmədova G. R.
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Azərbaycan, Bakı
gulperi_akhmedova@mail.ru

Açar sözlər: *Qarabağ, orta əsrlər, Qafqaz Albaniyası, bədii şüşə, küp qəbir, yaşayış yeri.*

Azərbaycanın Orta əsrlər dövrü incəsənətinin mühüm sahələrindən biri də bədii şüşə sənəti idi. Orta əsrlərdə Azərbaycanda şüşə istehsalı üçün zəruri olan zəngin xammal - kvarslı qum, soda, əhəng, meşə materialları, oda davamlı gil ehtiyatları və s. kifayət qədər olmuşdur. Digər tərəfdən metal emalının artması da Orta əsrlərdə şüşə istehsalının inkişafına təsir göstərirdi. Arxeoloji qazıntılar nəticəsində əldə edilən şüşə kürələrinin varlığı, istehsal çıxarları, yarımfabrikatlar və s. Azərbaycan ərazisində istehsalın bu sahəsinin geniş yayıldığını sübut edir. Məlum olur ki, istər erkən, istərsə də inkişaf etmiş Orta əsrlərdə şüşəni iki texnoloji üsulla - daha qədim tökmə və üfürmə üsulları ilə hazırlamışlar. Bədii şüşə məmulatı nümunələri (kuzə formalı şüşə qablar, vazalar, piyalələr, dərman və ətir qabları, qədəhlər, kuboklar, müxtəlif bəzək şeyləri) Qarabağda [1], Mingəçevirdə [2], İsmayıllıda [3], Şamaxıda [4; 5], Gəncədə [6], Qəbələdə [7; 8], və başqa yerlərdə aşkar edilmişdir.

Azərbaycan ərazisində III əsrə aid edilən ən qədim şüşə qab nümunəsi Mingəçevirdə tapılmışdır [9; 10]. Şüşə, bədii baxımdan daha təsirli material kimi gemmaların hazırlanmasında, qadın bəzəklərinin dekorativ ünsürlərində, qabların istehsalında tətbiq edilirdi. Arxeoloqların Azərbaycanda aşkara çıxardığı şüşə tapıntılar zaman keçdikcə həm yerli bəzək şeylərinin, həm də qabların çeşidlərinin müxtəlifliyinin, onların bədii dəyərinin artdığını sübut edir. Artıq IV əsrdən başlayaraq möhürlər, VII əsrdən halqalar, daha sonra bilərziklər meydana çıxır. Vazalarla yanaşı, IV əsrdən başlayaraq yerli piyalə və kuzələrin, V əsrdən isə qədəhlərin istehsalı artır. Qadınlar üçün yumru, yastı, tilli bilərziklərlə yanaşı, eşmə üsulu ilə hazırlanan bilərziklər göy, yaşıl, sarı, qəhvəyi, qara və s. rəngli şüşələrdən düzəldilirdi. Bu tip bilərziklər dairəvi və ya üçbucaqlı en kəsiyinə malik idi. Bəzi şüşə qolbağıların ucları isə ilan başı formasında da hazırlanırdı.

Tapıntılar arasında əsasən məişət, ətriyyat və əczaçılıq qabları və bəzək nümunələri ilə təmsil olunan şüşə məmulatı yüksək keyfiyyəti ilə diqqəti çəkir.

Qarabağın qəbir abidələrindən və eləcə də yaşayış yerlərindən tapılmış gil qab nümunələri iə nisbətdə şüşə qablar azdır. Qazıntılarından əldə olunmuş nümunələrin bəziləri kiçik və orta tutumlu flakonlar, qədəhlər, balzamariyalara, ətriyyat qablarına məxsus boğaz qırığı və nazik divarlı qablara məxsus kiçik fraqmentlərlə təmsil olunmuşdur. Fraqmentlərin bəzisi nazik divarlı, kiçik tutumlu qablara mənsub olub şəffaf, rəngsiz şüşədən hazırlanmışlar. Digər nümunələr yenə nazik divarlı piyalə, ətriyyat tipli qabların ağız fraqmentləri olub kənarı qatlanaraq dəyirmiləşdirilmişdir. Bəzi qablar yaşıla çalan şəfaf şüşədən hazırlanmışdır. Yarımdairə şəklində yanlara açılan, yuxarıya doğru daralan, ortasında bayıra genişlənmə olan boğazı, maili çiyinlə gövdəyə keçən flakonlar şəffaf şüşədən hazırlanmış, uzun müddət torpaqda qaldığından səthləri ərp qatı ilə örtülmüş və tünd rəng almışlar.

Şüşə bəzəklər əsasən bilərziklərdən ibarət olmuşdur. Şüşə bilərziklər kütləvi istifadə olunan bəzək əşyalarından olub qazıntılar zamanı mədəni təbəqədə tez-tez rast gəlinən arxeoloji materiallardandır. Onlar en kəsiyinin formasına görə müxtəlif qrup və tiplərə bölünürlər. Bilərzik qırıqlarından bəzisi en kəsiyi oval, üzəri burma saplarla bəzədilmiş yarımşəffaf yaşıl rəngli şüşələrdən hazırlanmışdır. Lentşəkilli göy rəngli şüşədən hazırlanmış bilərziklər yalnız öz ölçülərinə görə başqa nümunələrdən fərqlənir. Şəffaf çəhrayı rəngdə şüşədən hazırlanmış bilərziklərin fraqmentlərinin üzərinə qabarıq burmalardan ibarət bəzəklər salınmışdır.

Qafqaz Albaniyasının əhatə etdiyi tarixi vilayətlərdən olan Qarabağ erkən şuşə istehsalı mərkəzlərindən biri olmuşdur. Bu da ərazidə şuşə istehsalı uçun lazım olan butun xammal növlərinin – şüşə qumundan başlamış rəngləmə vasitələrinə kimi hər şeyin qədimdən mövcud olması ilə bağlı idi. Qarabağ ərazisi şuşə qumu yataqları ilə də zəngindir. Ərazinin resurslarından çox guman ki, ən qədim zamanlardan indiyə kimi istifadə edilir. Bədii şüşə ustaları keramikanın mütərəqqi bədii xüsusiyyətlərinə yaradıcılıqla yanaşır, özlərinin orijinal formalarını yaradır, məmulatın naxışlanmasının yeni üsullarını kəşf edirdilər. Şüşə məmulatında dekorativ bəzək olan toxunma və qabırğavari naxışlar ərazimizdə səciyyəvi olduğu üçün, onun mövzusu, çox güman ki, ya yerli əhalinin hazırladığı keramika nümunələrindən, ya metal əşyalardan, yaxud da o dövr toxuculuğundan alınmışdı. Qabların müxtəlif ölçülərdə olması isə sübut edir ki, şüşəbişirən sənətkarın müxtəlif ölçüdə qəlibləri və bunlara münasib basmaları olmuşdur. Üzəri toxuma naxışlı şüşə qablar Azərbaycanın, xüsusilə onun şimal hissəsi olan Albaniyanın İlk Orta əsrlər dövrü üçün səciyyəvi qab nümunələri olduğundan bunlara qazıntılar zamanı daha tez-tez təsadüf olunur [11]. Bu qabların çoxu V-VII əsrlərin daş qutu və küp qəbirlərində aşkar edildikləri üçün tədqiqatçılar bu tip əşya nümunələrini məhz həmin dövrə aid edirdilər. Alimlərin müəyyənləşdirdiyinə görə, istehsal edilən yerli bədii şüşə məmulatının keyfiyyət baxımından təkmilləşməsi və kəmiyyətcə artması nəticəsində gətirilmə kuzə və vazalar IV əsrdən etibarən yerli qablarla əvəz olunmuşdur.

Qarabağın qəbir abidələrindən və Orta əsr yaşayış yerlərindən tapılmış şüşə qab nümunələrinin oxşarlarına Cənubi Qafqazda, o cümlədən Azərbaycanın müxtəlif bölgələrində aparılan tədqiqat işləri zamanı rast gəlinmişdir. Çox nadir və əhəmiyyətli mayelərin mühafizəsindən ötrü istifadə olunan bu kiçik və nəfis qabların dövrü və istehsal mərkəzi haqqında arxeoloqların fikirləri müxtəlifdir. Qarabağın Orta əsr abiələrində bu tip şüşə qablara rast gəlinmişdir. Tarixi Azərbaycan (indiki Ermənistan) ərazisində Baş Gərni (indiki Qarni) şəhər xarabalığında aparılan arxeoloji işlər zamanı aşkar edilmiş kiçik şüşə qab eramızın I əsrinə aid edilir və göstərilir ki, belə formalı qabların istehsal mərkəzi çox güman ki, Suriyadır [12]. Gürcüstan ərazisindəki Urbnisi şəhər yerinin Antik dövr təbəqəsindən aşkar edilən oxşar qabı da tədqiqatçı L.N.Saqinaşvili eramızın I əsrinə aid edir [13, 108]. Lakin o Urbnisi şüşə nümunələrinin tədqiqinə həsr edilmiş əsərində qeyd edilən formaya malik qabın istehsl mərkəzinin harada olmasını göstərmir.

Mingəçevirdə aparılan qazıntılr zamanı da Qarabağın qeyd etdiyimiz şüşə nümunələrinin oxşarlarına rast gəlinmişdir. Küp qəbir kompleksinə daxil olan şüşə qabı S.M.Qazıyev eramızın III-IV əsrlərə aid etmişdir [14]. A.B.Nuriyevin fikrincə isə III-IV əsrlərdə bu qablar Azərbaycan ərazisində aradan çıxmış onun yerini isə yumru gövdəli, səthini müxtəlif ornament örtmüş şüşə ətir qabları tutmuşdur. Tədqiqatçı Azərbaycan ərazisində antik dövrə aid şüşə qab istehslına tutarlı sübut olmadığı üçün belə qabları eramızın ilk əsrlərində şüşə istehslı inkişaf etmiş Yaxın Şərq əyalatlərindən gətirildiyini bildirmişdir [9, 148].

Qarabağın qəbir abidələrində aparılmış tədqiqatlar nəticəsində əsasən eramızdan əvvəl və eramızın ilk əsrlərinə, eləcə də Erkən Orta əsrlərə aid qəbirlərdən müxtəlif şüşə qablar əldə edilmişdir. Bu şüşə qablar öz formalarına görə balzamariyalara, flakonlara, qədəhlərə, küpələrə, piyalələrə və vazalara oxşar qablara bölünürlər. Şüşə qabların ən yaxşı nümunələri Şuşa, Laçın, Ağdam, Xocavənd abidələrində rast gəlinmişdir. Lakin tək-tək hallarda onlara Qarabağın başqa abidələrindən də rast gəlmək olar. Qəbirlərdən tapılmış şüşə qab nümunələrinin oxşarlarına Cənubi Qafqazda, o cümlədən Azərbaycanın müxtəlif bölgələrində aparılan tədqiqat işləri zamanı rast gəlinmişdir. Nadir mayelərin mühafizəsindən ötrü istifadə olunan kiçik və nəfis qabların dövrü və istehsal mərkəzi haqqında mütəxəssislər müxtəlif fikirlər söyləyirlər. Göyçə gölü yaxınlığında aparılan arxeoloji işlər zamanı aşkar edilmiş çox kiçik şüşə qab eramızın I əsrinə aid edilir və qeyd olunur ki, belə formalı qabların istehsal mərkəzi çox güman ki, Suriyadır.

Tədqiqatçıların fikrincə şüşə qablar ilk vaxtlar Qafqaz Albaniyasının Qarabağ ərazisinə kənardan, ilk növbədə şüşə istehsalının qədim mərkəzlərindən biri olan Suriyadan gətirilirdilər. Təxminən II əsrdən başlayarq albanlar özləri şüşə qab istehsalı ilə məşğul olmağa başlamışdılar. VI-VIII əsrlərə aid olan Qarabağın küp qəbirlərində aşkar olunmuş özünəməxsus formalı çoxsaylı şüşə qabların mövcudluğu bu qabların müəyyən bir yerli mərkəzdə, çox güman ki, Gəncədə istehsal olunmasına dəlalət edir. Orta əsrlərdə isə artıq şüşə qabların yerli istehsalı nəinki artır, hətta bu sahə inkişafının yüksək zirvəsinə çatır. Qarabağda orta əsrlərə aid həm yerli, həm gətirilmə bədii şüşə nümunələri aşkar edilmişdir.

ƏDƏBİYYAT

1. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, Elm, 1982, 182 s.
2. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, Az. SSR EA nəş-tı, 1961, 160 s.
3. Cəlilov B.M., Quliyev A.A., Hüseynov M.M. Çərmədil nekropolu. Bakı, Xəzər Universiteti, 2013, 96 s.
4. Nuriyev A.B. Qədim Şamaxıda şüşə istehsalına dair // AMM, VI cild, Bakı, 1965, s. 113-122
5. Нуриев А.Б. Результаты археологических работ в 1970 г. на могильнике Шергях (Шемахинский район) // МКА, том XI, Баку, 1993, с. 29-39
6. Нуриев А.Б. Стеклянные изделия и их производство в Кавказской Албании. Баку,1984,150 с.
7. Халилов Дж.А. Материальная культура Кавказской Албании (I в. до. н. э.-III в. н. э.), Баку, Элм, 1985, 236 с.
8. Əhmədova G.R. Qafqaz Albaniyasının şüşəişləmə sənətinə dair // Azərbaycan xalçaları. Cild 10, №34, 2020, Poliqrafaz, s. 88-99
9. Нуриев А.Б. О некоторых античных сосудах, найденных на территории Кавказской Албании // МКА, том VIII, Баку, 1976, с. 136-149
10. Казиев С.М. Археологические раскопки в Мингечауре // МКА, том I, Баку, 1949, с. 9-49
11. Əsədov V.A. Azərbaycanın küp qəbirləri. Bakı, AFpoliqrAF, 2018, 236 s.
12. Кудрявцев А.А. О стеклоделии средневекового Дагестана (VI-X вв.) // Новое археологии Северного Кавказа. Москва, 1988
13. Сагинашвили Л.Н.Стеклянные сосуды Урбниского могильника (каталог).Тбилиси,1970,№ 89
14. Qazıyev S.M. Mingəçevir küp qəbirləri albomu. Bakı, Az. SSR EA nəş-tı, 1960, 110 s.

SUMMARY

MEDIEVAL ART GLASS PRODUCTS OF KARABAKH

Akhmedova G.

One of the important fields of medieval art in Azerbaijan is artistic glass art. The presence of glass furnaces obtained as a result of archaeological excavations, production wastes, semi-finished products, etc. proves that this field of production was widespread in Azerbaijan. It also appears that in the early and advanced Middle Ages, glass was made here by two technological methods - the more ancient methods of casting and blowing. Samples of artistic glassware (jug-shaped glassware, vases, cups, medicine and perfume containers, goblets, bowls, various ornamentals) were found in Karabakh, Mingechevir, Ismayilli, Shamakhy, Ganja, Gabala and other places.

Karabakh, one of the historical provinces covered by Caucasian Albania, was one of the centers of early glass production. This was due to the fact that all the types of raw materials needed for the production of glass in the area – beginning from glass sand to paints - have existed here since ancient times. The best examples of glassware were found in Shusha, Lachin, Khojavand monuments. However, they can be randomly found in other monuments of Karabakh.

The existence of a large number of uniquely shaped glass vessels found in the pitcher graves of Karabakh, which date back to the 6th-8th centuries, indicates that these vessels were produced in a certain local center, most likely in Ganja. In the Middle Ages, local production of glassware not only increased, but also reached the peak of development of this industry. Both local and imported medieval glassware belonging to the Middle Ages have been discovered in Karabakh.

Keywords: *Garabakh, the Medieval period, Caucasian Albania, the art glass, jar burial, settlement.*

РЕЗЮМЕ

СРЕДНЕВЕКОВЫЕ ХУДОЖЕСТВЕННЫЕ СТЕКЛЯНЫЕ ИЗДЕЛИЯ КАРАБАХА

Ахмедова Г.

Одним из важных отраслей изящного искусства средних веков Азербайджана является ремесло художественного стекла. Наличие стеклянных горн, производственные отходы, полуфабрикаты и т.д., полученные в результате археологических раскопок, говорит о широком распространении этой отрасли ремесла на территории Азербайджана. Также становится ясно, что и в раннем и в развитом средневековье здесь изготавливали стекло двумя технологическими способами – более древним способом литя и способом выдувания. Образцы художественных стеклянных изделий (стеклянные сосуды в форме кувшина, вазы, чаши, сосуды для лекарств и духов, бокалы, кубки, разные предметы украшения) были обнаружены в Карабахе, Мингячевире, Исмаиллы, Шемахе, Гяндже, Габале и в других местах.

Карабах, являющийся исторической провинцией, охватываемой Кавказской Албанией, был одним из центров производства стекла. И это было связано со всеми необходимыми видами сырья на этой территории – начиная со стеклянного песка до средств краски. Самые лучшие образцы стеклянных сосудов были встречены на памятниках Шуши, Лачина, Ходжавенда. Но в отдельных случаях их можно встретить и на других памятниках Карабаха.

Наличие многочисленных своеобразных стеклянных сосудов, обнаруженных в кувшинных погребениях Карабаха, относящихся к VI-VIII векам, указывает на производство этих сосудов в определенном местном центре, скорее всего в Гяндже. В средних же веках местное производство стеклянных сосудов не только увеличивается, но даже эта отрасль достигает своего высокого пика развития. В Карабахе были обнаружены как местные, так и привозные образцы художественного стекла.

Ключевые слова: *Карабах, средневековье, Кавказская Албания, художественное стекло, кувшинное погребение, поселение.*

QARABAĞ AZƏRBAYCAN ARXEOLOGİYASI VƏ ETNOQRAFİYASININ NADİR İNCİSİDİR

Əhmədova V.Ş.
Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
vefa.ehmedova00@mail.ru

Açar sözlər: *Qarabağ, arxeologiya, etnoqrafiya, Azərbaycan ,abidələr, Xocalı-Gədəbəy mədəniyyəti*

Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olmaqla həm fiziki-coğrafi, həm iqtisadi, həm mədəni, həm də arxeoloji baxımdan Cənubi Qafqazın nadir bölgələrindən biridir.Qarabağa Qarabağ yüksəklikləri və Kur-Araz ovalığının böyük hissəsini təşkil edən Qarabağ düzənliyi daxildir. Qədim Qarabağın arxeoloji abidələrinin diqqət mərkəzində Şimali Qarabağ zonasını, daha doğrusu düz və dağlıq Qarabağın əksər hissəsini əhatə edən Qarqarçay və Tərtərçayın qovşağı durur..

Əlverişli təbii-coğrafi və iqlim şəraiti, zəngin su və mineral ehtiyatları, rəngarəng faunası və florası Qarabağın qədim insanların məskunlaşmasına, eləcə də təsərrüfatın müxtəlif sahələrinin inkişafına, tayfalararası münasibətlərin yaranmasına səbəb olmuşdur. Bütün bu proseslər çoxsaylı arxeoloji abidələrdə, xüsusən də özünəməxsusluğu, rəngarəngliyi və zənginliyi ilə seçilən Son Tunc və Erkən Dəmir dövrlərinə aid Qarabağ məzarlıqlarında öz əksini tapmışdır.Bütün bunlara əsaslansaq, təəccüblü deyil ki, bu abidələrə maraq 19-cu əsrin əvvəllə-rində artıq yaranmağa başladı.

XIX əsrin sonlarında. Beşinci Arxeoloji Konqresin Hazırlıq Komitəsi adından N.O.Silosani Bərdə yaxınlığında qismən qazıntılar aparmış və burada kurqanları qeydə almışdır. [2, 5]. Şahbulaq abidələri və Tərtər qəsəbəsi yaxınlığında poçt marşrutu boyunca yerləşən abidələr haqqında ilk fraqmentar məlumatlar Dübua de Monperoya (1834) aiddir [2,5; 53]

Qarabağ abidələri (Xocalı, Üçtəpə, Sultanbud, Bayat, Afətli, Bərdə və s. kurqan abidələri) haqqında ilk və ən etibarlı məlumat 19-cu əsrin 80-ci illərinin əvvəllərində S.Vaysenhofa məxsusdur. Mil-Qarabağ düzünün və Dağlıq Qarabağın qədim abidələri üzərində apardığı kəşfiyyat işləri nəticəsində Qarabağın ilk arxeoloji xəritəsini tərtib etdiyini söyləmək olar [2, 5].

Lakin artıq Tərtərçay hövzəsi abidələrində ilk arxeoloji qazıntıları 19-cu əsrin sonlarında E.A.Resler (1891-1898) aparmışdır. Şuşa real məktəbində alman dili müəllimi işləyib. İnqilabdan əvvəlki dövrdə arxeoloji tədqiqatların metodoloji səviyyəsi aşağı olsa da, buna baxmayaraq, bu müddət ərzində o, çoxlu sayda daş qutular və kurqanlar aşkar edib, onlardan çox qiymətli maddi materiallar əldə edib.1891-ci ildə E.Resler 1895-1897-ci illərdə Şuşa şəhərində və Şuşakənd ətrafında ilk qazıntılara başlamışdır. 1893-cü ildə burada 18-ci əsrə aid 3 basdırılmış daş sandıq tapmışdır. e.ə. E.Reslerin 1891-ci ildə apardığı qazıntılar haqqında çox səthi məlumatlar var. Onlar Rusiya Elmlər Akademiyasının Arxeologiya İnstitutunun Sankt-Peterburq şöbəsinin arxivində saxlanılır və alman jurnalında (ZE VBGAEU) dərc olunur. 1893, 1895, 1896, 1897-ci illərdə. Daşaltı, Çanaxçı və Mehdikənd kəndlərin yaxınlığında qazıntılar aparmışdır [1,72].

1893-1894-cü illərdə. E. Resler Xaçınçayın orta axarında, Dövşanlı kəndində işləmiş, burada iki kurqan tədqiq etmişdir; 1894-cü ildə və 1897-ci ildə Ballikaya və Sırxavənd kəndlərinin kurqanlarında (yeri gəlmişkən, Ballikaya kurqanlarının altında daş qutu və bəndin altındakı torpaq qəbirlər əvəzinə taxta dirəklər üzərində taxta platformanın qalıqları aşkar edilmişdir [1,72]. Araşdırmalar zamanı E.Resler 1894-cü ildə Damgölü kəndində, 1897-ci ildə Axmaxı kəndində (aşkar edilmiş 8 kurqandan cəmi 5-ni qazıb, 3-ü isə artıq talan edilmiş), 1897-ci ildə isə qazıntı işləri aparmışdır. Xaçınçay [21 ,beş; 6, 74]. 2 nömrəli Dövşənlin kurqanından, 1 nömrəli Sırxavənd kurqanından tunc əşyaların bir hissəsi Dövlət Ermitajında, qalan tunc və sümük məmulatları, keramika məmulatları, eləcə də Axmaxı kurqanlarının bütün materialları Sumqayıt şəhərində saxlanılır. Moskvada Dövlət Tarix Muzeyi.1896-cı ildə kəndin yaxınlığında E. Resler. Ağdam rayonunun Qublulu ərazisində 3 növ məzarlıq qeydə alınmışdır.

1881-ci ildə Tiflisdə keçirilən rus arxeoloqlarının 5-ci qurultayı Cənubi Qafqazın genişmiqyaslı arxeoloji tədqiqinin başlanğıcı oldu. Qurultaya hazırlıq dövründə arxeoloqlar bu rayonun bir çox zonalarında qazıntılar aparmışlar. Amma Dağlıq Qarabağa məhəl qoymadılar. S.Ter-Avetisyan 1924-cü ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi yanında Şərqşünaslıq Assosiasiyasının Dağlıq Qarabağın maddi mədəniyyət abidələrini tədqiq edən elmi ekspedisiyasının tərkibində yazırdı: "Qarabağın sıx əlaqədə olduğu Albaniya tarixən bağlı olan, Partavdan (Bərdə şəhəri - təqribən M.X.) daha diqqətəlayiq antik dövr mərkəzlərinə malikdir, lakin arxeoloji konqres ikinciyə üstünlük verdi, çünki qurultayda iştirak edən alimlərin böyük əksəriyyəti feodal ki tarixi abidələrlə maraqlanırdı."[6,4]. Amma çox gözləməli olmadıq. Dağlıq Qarabağ arxeologiyasının banisi, 1891-ci ildən Şuşa real məktəbində dərs deyən alman müəllimi E.A.Resler arxeoloji tədqiqatlara başlamışdır, S.Ter-Avetisyana görə "maraqlanan bir qrup erməni ilə üz-üzə qalmışdır. ölkə tarixində" [6,4]. 1895-ci ildə rəsmi icazə olmadan keşiş Vahan Dadyan da Dağlıq Qarabağda qazıntılara

başlayıb. S.Ter-Avetisyan onların gördüyü işlərdən belə danışır: "Qeyd etdiyim kimi, keçdiyim ərazilərdə qazıntı işlərini iki nəfər aparıb: diakon Vahan Dadyan (arximandrit Xaçik) və alman Emil Resler. Bizdə birincinin qazıntılarının nəticələri haqqında çap məlumatı yoxdur, ona görə də onların elmi əhəmiyyətini qiymətləndirmək mümkün deyil; bununla belə, Vahan Dadyan həyatının ilk dövründə Araçadzor kurqanlarını qazaraq, ancaq kurqan inventarını toplamaqla məşğul olduğunu desək, yanılmarıq. Reslerə gəlincə, o, Sankt-Peterburq Arxeoloji Komissiyasının icazəsi ilə qazıntılar aparıb və ona işinin nəticələri haqqında hesabat təqdim etmək məcburiyyətində qalıb" [6,12] .

E.Resler tərəfindən qazılmış Dağlıq Qarabağ kurqanlarından materialların müəyyən hissəsi Almaniyaya aparılıb və orada məşhur antropoloq Rudolf Virxovun (1821-1902) əlinə keçib. Kifayət qədər müşahidəçi və üstəlik, güclü intuisiyaya malik olan S.Ter-Avetisyan yazır: "Virxovun fikrincə, Qarabağ kurqanları Erməni dağlarının, daha doğrusu, Cənubi Qafqazın mədəniyyətinin yaradıcılığının məhsulu deyil və bu kurqanların başqa, hələ də kəşf edilməmiş mədəni mühitə aid olması şübhəsizdir" [6,19]. Məhz S.Ter-Avetisyan şimal mədəniyyətinin Qarabağ kurqanlarına təsirini qeyd edərək, ilk dəfə Dağlıq Qarabağ kurqanlarının spesifik etnik mənsubiyyətini aydınlaşdırmağa cəhd göstərmiş, onları skiflərin və ya sakların mədəniyyəti ilə əlaqələndirmişdir [6, s. 19-26] . S.Ter-Avetisyan hətta sakları şimaldan gələn yad xalq deyil, Cənubi Qafqazın, o cümlədən Dağlıq Qarabağın avtoxton əhalisi hesab edirdi [6, s. 24-25]

40 ildən sonra S.Ter-Avetisyanın bu konsepsiyası skif arxeologiyasının aparıcı mütəxəssislərindən biri M.N.Poqrebovanın tədqiqatı ilə müəyyən qədər təsdiqləndi. Cənubi Qafqazın Son Tunc və Erkən Dəmir dövrünə aid dəfn abidələri arasında səciyyəvi cəhətləri qəbir çuxurunda taxta konstruksiyalar, atların insanla birlikdə basdırılması və od izləri olan kurqanlar qrupunu, ayində müəyyən rol oynayırdı[4, s. 114-140]. Bu qrupa Gəncə şəhəri yaxınlığındakı çöldə yerləşən 11 kurqan, Xanlar şəhəri yaxınlığındakı 3 kurqan, Mingəçevirin 5 kurqanı və Dağlıq Qarabağın Ballukaya və Sırxavənd kəndləri yaxınlığındakı kurqanları, habelə 2 nömrəli kurqan daxildir. Xocalı məzarlığı. Xankəndi yaxınlığında Dağlıq Qarabağda qismən dağıdılmış kurqanda da at sümükləri tapılmış, orada insan sümükləri ilə qarışmışdır [4, s. 115, 120, 122]

E.Resler tərəfindən qazılmış 2 saylı Xocalı kurqanının hündürlüyü 11 m olub və içərisində yanma izləri olan iki metrlik torpaq qatı var idi. Qatda insan və at sümükləri, eləcə də digər heyvanların sümükləri və qəbir əşyaları ilə qarışmış taxta platformanın yanmış qalıqları aşkar edilmişdir.E.Resler tərəfindən də tədqiq edilən Ballukaya ilə Sırxavənd arasında olan kurqan kurqanının hündürlüyü 9 m olub, 5 m dərinlikdə çoxlu miqdarda çürümüş taxta, görünür, taxta döşəmə qalıqları aşkar edilib

Azərbaycan alimlərinin Qarabağ ərazisində apardıqları arxeoloji, etnoqrafik, epiqrafik, paleocoğrafi, paleontoloji və paleoantropoloji elmi tədqiqatlar elmi faktlara əsaslanaraq sübut edib ki, Azərbaycan xalqının qədim əcdadları qədim zamanlardan, yəni , Quruçay mədəniyyəti dövründən bu torpaqlarda yaşamış, zəngin maddi və mənəvi mədəniyyət yaratmışdır. Tarixi saxtalaşdırmağa çalışan erməni alimlərinin iddialarının tamamilə əsassızdır. Qarabağ ərazisində aşkar edilmiş Quruçay, Aşel, Musteri, Üst Paleolit, Mezolit, Neolit və Tunc dövrlərinə aid arxeoloji mədəniyyətlər bu rayonun qədim sivilizasiyanın mərkəzi olduğunu deməyə əsas verir.

Qarabağın Azıx, Tağlar, Şuşa və digər arxeoloji, memarlıq və tarixi abidələrinin 1990-cı illərdən erməni terrorçularının işğalı altındadır."Qarabağın terrorçulardan azad edilməsi bəşəriyyətə verilən ən böyük töhfədir. Çünki Qarabağ ərazisində zəngin və dünya şöhrətli Azıx, Tağlar və digər abidələr bəşəriyyətin inkişaf tarixinin öyrənilməsi üçün son dərəcə əhəmiyyətlidir. Arxeoloji tədqiqatlar zamanı Azıx mağarasının III, VX təbəqələrində aparılan qazıntılar zamanı qədim insanların ovlanması zamanı əldə edilmiş 10 mindən çox daş məmulatı və 500 mindən çox heyvan sümükləri aşkar edilmişdir. qədim Azıx düşərgəsinin VII-X təbəqələrində aşkar edilmiş mədəniyyət Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksinə yaxındır.Qədim Azıx xalqının düşərgəsində Quruçay mədəniyyəti dövrü uzun bir mərhələdən sonra inkişafı, qədim Aşel mədəniyyəti ilə əvəz olundu" [3]. Qədim Aşel təbəqəsindən tapılan maddi mədəniyyət qalıqlarının zənginliyi Aşel dövründə qədim insanların Azıx düşərgəsində uzun müddət davamlı olaraq yaşadığını göstərir. Arxeoloji qazıntılar zamanı qədim Azıx düşərgəsinin beşinci qatından Orta Aşel mədəniyyətinə aid maddi mədəniyyət nümunələrinin tapılmışdır. Azıxda qədim Aşel dövrünün sonralar Orta Aşel mədəniyyəti ilə əvəz olunmuşdur.

"Azıx mağarasının III təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı 3000-dən çox daş məmulatı və 500000-dən çox Musteri erasının faunasının qalıqları aşkar edilib. Hazırda Tağlar düşərgəsi Musteriya erasının ərazisindəki ən zəngin abidə hesab olunur. Azərbaycan. Tağlar düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı 700 000-dən çox sümük və 7 000-dən çox daş məmulat aşkar edilib.Hazırda Qarabağ silsiləsinin cənub-şərq ətəklərində qeyd olunan qədim insan düşərgələri ilə yanaşı, Qaraköpəktəpə, Günəştəpə, Meynətəpə, Tuğtəpə kimi neolit, eneolit və tunc dövrlərinə aid bir sıra nadir və çoxtəbəqəli yaşayış məskənləri aşkar edilmişdir. , Kültəpə, Leylatəpə. Bu, bir daha onu göstərir ki, qədim zamanlardan bu günə qədər insanların yaşaması üçün əlverişli təbii-coğrafi şərait olub, xalqımızın qədim əcdadları

Qarabağda yaşayıblar”[3]. Qarabağda, Füzuli rayonu yaxınlığındakı Quruçay dərəsində aşkar olunmuş paleolit dövrünə aid Azıx mağara düşərgəsində Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılan ardıcıl arxeoloji tədqiqatlar Azərbaycan ərazisində ibtidai insanların hələ iki milyon il bundan əvvəl məskunlaşdığını sübut etmişdir. Arxeoloq alimlərimizdən İdeal Nərimanov, Qüdrət İsmayılzadə, Rəşid Göyüşov, Hidayət Cəfərov, Əsədulla Cəfərov, Arif Məmmədov, Təvəkkül Əliyev uzun illər boyu Qarabağda tədqiqatlar aparmışlar. Bu tədqiqatlar nəticəsində Neolit, Eneolit, Tunc, İlk Dəmir, Antik və Orta əsrlərə aid yüzlərlə abidə qeydə alınmış, arxeoloji araşdırmalarla tariximizin bir çox qaranlıq səhifələri işıqlandırılmışdır.

2019-cu ildə Dağlıq Qarabağ separatçıları işğal etdikləri Ağdam rayonunda qanunsuz arxeoloji qazıntılara başladılar. Son zamanlar Dağlıq Qarabağda və ona bitişik ərazilərdə qazıntılar nəzərəçarpacaq dərəcədə tez-tez baş verirdi. Beləliklə, Ermənistan tarixi abidələrlə bağlı beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq Azərbaycana qarşı mədəni terror törətməkdə davam edirdi. Ağdamda aparılan qazıntılar nəticəsində qədim şəhər və insan qalıqları aşkar edilib ki, bu da erməni alimlərinin fikrincə, guya burada qədim zamanlardan “qədim ermənilərin” mövcudluğundan danışır. Tarixi saxtalaşdıran ermənilər “Böyük Ermənistan” xülyasını yaşatmaqda davam edirdilər. Ağdam rayonunda aparılan qazıntılar zamanı tapılan eksponatlar İrəvana, antropoloji fraqmentlər isə Avropa ölkələrinə göndərilibdir. Bu tarixi eksponatların taleyi məlum deyildir. Azərbaycanın tarixi abidələrinin istismarı davam edir. Arxeoloji qazıntıların aparılması Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında Haaqa Konvensiyasına və Arxeoloji İrsin Mühafizəsi üzrə Avropa Konvensiyasına ziddir. “Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında” Haaqa Konvensiyasının 5-ci bəndinə əsasən, işğalçı ölkə işğal etdiyi ərazilərdə mədəni irsi qoruyub saxlamağa borcludur. YUNESKO-nun arxeoloji qazıntıların beynəlxalq tənzimlənməsi prinsiplərinə dair tövsiyələrinin 32-ci bəndində qeyd olunur ki, silahlı münaqişələr zamanı işğalçı ölkə işğal etdiyi ərazilərdə arxeoloji qazıntılar aparmaqdan çəkinməlidir. Beynəlxalq konvensiyalara görə, işğalçı maddi mədəniyyət obyektlərinin dəyişdirilməsinə, məhv edilməsinə və qanunsuz ixracına görə məsuliyyət daşıyır.

AMEA Tarix İnstitutunun elmi işçisi, tarixçi alim Ramin Əlizadə bildirib ki, Azərbaycanın müvafiq icazəsi olmadan Qarabağda aparılan qazıntılar qanunsuzdur: "Ermənistan Mədəniyyət Konvensiyalarına qoşulub və bir sıra müvafiq sənədləri ratifikasiya edib. Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın işğal olunmuş ərazilərdə qanunsuz arxeoloji qazıntılar aparması ilə bağlı YUNESKO-ya müraciət etmək hüququ vardır, çünki onlar bizim torpaqlarımızda bizdən xəbərsiz aparılır. Azərbaycan xalqı.keramika məmulatları Oğuz türkləri tərəfindən gündəlik həyatda istifadə olunurdu.Buradan tapılan məişət əşyaları,silahlar,oxlar türk boylarına aiddir.Bütün bunlar müfəssəl şəkildə sübuta yetirilmişdir.Ona görə də heç kim bu torpaqların olduğunu iddia etməyə cürət etmir. ermənilərə məxsusdur.Ağdama e, Xocalı, Şuşe, Xocavənd, Xankəndi və Tərtərdə yüzlərlə kurqan, onların ətrafında isə müdafiə qalaları var idi”[5].

Tarixçi Qarabağın ermənilərə məxsus olduğunu sübut edən bir dənə də olsun yazılı mənbə və arxeoloji abidənin olmadığını vurğulayıb. “Bu qazıntılar sırf təxribatdır. Ağdamda tapdıqları nümunələr isə əcdadlarımıza məxsusdur. Ermənilər bu ərazidə heç vaxt erməni yazısına rast gəlməyəcəklər. Ermənilərin “Tiqranakert” adlandırdıqları əraziləri Tiqran heç vaxt görməmişdi. Qədim tarixçilər ermənilərin heç vaxt Göyçə gölü ətrafında, Qarabağda və Naxçıvanda yaşamadıqlarını sübut ediblər. Hətta yazılı mənbələrdə belə faktlara rast gəlinmir. Tiqranın Qarabağa və Göyçə gölünün ətrafına çatması ilə bağlı heç bir tarixi fakt yoxdur. Bu da ermənilərin növbəti uydurmasıdır. Burada yerləşən bütün maddi-mədəniyyət abidələri Azərbaycan xalqına məxsusdur. İşğal olunmuş ərazilərdə qazıntılar apararaq özünə hekayə uydurmaq, qazıntıların nəticələrini saxtalaşdırmaq ermənilərin köhnə ənənəsidir. Əgər XIX əsrin əvvəllərində ermənilər çar Rusiyası tərəfindən Şimali Azərbaycana köçürülübsə, qədim erməni abidələri buradan haradan gələ bilər?”[5]

Azərbaycanın zəngin təbiətə malik Qarabağ bölgəsi qədim dövrlərdən insanların məskunlaşdığı ərazilərdən olmuşdur. Burada minilliklər boyu bir-birini əvəz edən mədəniyyətlərin, dövlətlərin izlərini yaşadan çoxlu abidə mövcuddur. Azərbaycan ərazisində ilk arxeoloji tədqiqatlar da məhz Qarabağdan başlanıb. “Təəssüf ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan silahlı qüvvələri tərəfindən bu qədim diyarımızın xeyli hissəsinin zəbt edilməsi ilə buradakı tarixi, arxeoloji abidələrimiz də işğal altında qalmışdır.Obyektiv səbəblərə görə XX əsrin 90-cı illəri və XXI əsrin ilk illərindəki fasilədən sonra Qarabağ bölgəsində arxeoloji araşdırmalar son illərdə yenidən canlanmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 5 fevral 2008-ci il və 26 aprel 2012-ci il tarixli sərəncamlar Azərbaycan arxeologiyasının, o cümlədən Qarabağın arxeoloji baxımdan öyrənilməsinin yeni inkişaf mərhələsinə qədəm qoymasına zəmin yaratmışdır.”[5]

2008-ci ildə "Qarabağ" arxeoloji ekspedisiyası və 2010-cu ildə "Qarabağ Neolit-Eneolit ekspedisiyası"nı yaradılaraq Qarabağın arxeoloji abidələrini elektron qeydiyyatdan keçirdi,onların "Məlumat bazası"nı yaratdı.

Qafqaz arxeologiyasında vaxtilə görkəmli alim İdeal Nərimanov tərəfindən kəşf edilən Leylatəpə mədəniyyətinin araşdırılması gündəmdə duran prioritet istiqamətlərdəndir. "Yeni aşkar olunmuş abidələrlə bu mədəniyyətin Azərbaycanda yayılma arealı nəzərə çarpacaq dərəcədə genişlənmiş, xronoloji dövrləşməsi ilə bağlı yeni fikirlər irəli sürülmüşdür. Son dövrdəki axtarışlarla bu tip abidələrin say tərkibi artmışdır. Artıq məlumdur ki, Cənubi Qafqazda Leylatəpə mədəniyyəti abidələrinin çox hissəsi – bütövlükdə üçdə ikisi Azərbaycanın payına düşür. Son vaxtlar Qarabağda araşdırılmasına başlanan bu dövr mədəniyyət abidələri sırasında Fərmantəpə yaşayış yeri diqqəti cəlb edir."[5]

Beləliklə, araşdırmalar göstərir ki, Qarabağ təkcə Azərbaycan arxeologiyası və etnoqrafiyasının nadir incise deyil, həm də azərbaycanlıların ulu əcdadlarının yaşadığı qədim bir məkandır.

ƏDƏBİYYAT

1. Cəfərov H.F. – "Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında), B., "Elm" 2000, 187səh.
2. Джафаров Г.Ф. Очерк археологического изучения древнего Карабаха (стр.516)// Azərbaycan arxeologiya-sı və etnoqrafiyası, №2, 2006. (266с.) s.5-12
3. 11.11.2020.Имамалиев И. Карабах является краем предков азербайджанцев - археологические факты// https:// www.trend .az/ azerbaijan/ society/3332769.html
4. Poqrebova M.N.. Iran and Transcaucasia in the Erkin Iron Age, Москва, 1977, 140 p.
5. Проведение армянами археологических раскопок в Агдаме - провокация -//19 сентября 2019 г. https://report.az/ru/analitika/provedenie-armyanami-arheologicheskih-raskopok-v-agdame-provokaciya/
6. Тер-Аветисян С. Памятники древности Карабаха и скифская проблема. Тифлис, 1934, 29 с.

SUMMARY

KARABAKH IS A RARE PEARL OF AZERBAIJANI ARCHAEOLOGY AND ETHNOGRAPHY

Ahmadova V.Sh.

The article is dedicated to the history of the study of burial monuments of the ancient period of Karabakh. This historically inseparable region of Azerbaijan, which is unique in terms of physical-geographical, economic, cultural, as well as archeological, is one of the centers of ancient civilization. Numerous diverse and rich monuments of Karabakh have attracted the attention of travelers and researchers since the early 19th century. These cemeteries, rich in unique material materials, are examples of Khojaly-Gadabay culture and date back to the 14th-7th centuries. BC Funeral monuments of Karabakh provide valuable information about the social structure of society, as well as the life of ancient people, religious worldview, economic and cultural relations with the outside world (Ancient East) and other processes.

Keywords: *Karabakh, archeology, ethnography, Azerbaijan, monuments, Khojaly-Gadabay culture*

РЕЗЮМЕ

КАРАБАХ – РЕДКАЯ ЖЕМЧУЖИНА АЗЕРБАЙДЖАНСКОЙ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

Ахмедова В.Ш.

Статья посвящена истории изучения погребальных памятников древнего периода Карабаха. Этот исторически неотделимый регион Азербайджана, уникальный с точки зрения физико-географического, экономического, культурного, а также археологического, является одним из центров древней цивилизации. Многочисленные разнообразные и богатые памятники Карабаха привлекают внимание путешественников и исследователей с начала 19 века. Эти кладбища, богатые уникальными материальными материалами, являются образцами ходжалы-гедабекской культуры и датируются XIV-VII веками. до н.э Погребальные памятники Карабаха дают ценную информацию о социальной структуре общества, а также о жизни древних людей, религиозном мировоззрении, экономических и культурных связях с внешним миром (Древним Востоком) и других процессах.

Ключевые слова: *Карабах, археология, этнография, Азербайджан, памятники, Ходжалы-Гедабекская культура.*

QARABAĞ: ERKƏN OTURAQ ƏKİNÇİLİK MƏDƏNİYYƏTİNİN FORMALAŞDIĞI BÖLGƏ KİMİ

Ələsova A.F.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
alasova87@mail.ru

Açar sözlər: *Qarabağ, arxeoloji qazıntılar, neolit dövrü, yaşayış məskənləri, əkinçi-maldar tayfalar.*

Daş dövrünün son mərhələsi olan neolit dövrü istehlak təsərrüfatından istehsal təsərrüfatına keçid dövrü kimi səciyyələndirilir. İstehsal təsərrüfatı sürətlə inkişaf edir, maldarlıq və əkinçilik əsas istehsal mənbəyinə çevrilir. İstehsal təsərrüfat formasının inkişafı daimi ilkin əkinçi məskənlərinin meydana gəlməsinə səbəb olur. Möhrə və çiy kərpicdən dairəvi evlər tikilir, gil qablar yaranır.

Qarabağ düzənliyinin əlverişli təbii- coğrafi şəraiti hələ e.ə. VI minillikdən erkən istehsal təsərrüfatına malik əkinçi-maldar tayfaların tələbatlarına uyğun olmuş, onların bu ərazidə məskunlaşmasını şərtləndirmiş, təsərrüfat və mənəvi-mədəni həyatlarına güclü təsir etmişdir.

Qarabağda erkən oturaq əkinçi-maldar tayfalara aid yaşayış yerlərinin öyrənilməsi istiqamətində ilk işlər hələ XX əsrin 60-cı illərində başlamış və arxeoloji tədqiqatlar nəticəsində onlarla yeni yaşayış məskəni aşkar edilmişdi. Ancaq arxeoloji tədqiqatlar məlum müharibənin başlanması ilə əlaqədar olaraq bir müddət dayandırılmışdı. Lakin son illərdə bu tədqiqatlar yenidən başladılaraq 2010-2017-ci illərdə bu ərazilərin tədqiqi məqsədilə "Qarabağ neolit-eneolit ekspedisiyası" təşkil olunmuşdu. Ekspedisiya tədqiqat planına uyğun olaraq bölgənin neolit dövrü mədəniyyətinin öyrənilməsi istiqamətində fəaliyyət göstərmişdi. Ekspedisiyanın fəaliyyəti Ağdam rayonunun o zaman işğal altında olmayan bütün ərazisini və onunla həmsərhəd olan Ağcabədi və Bərdə royonlarının ərazisini əhatə etmişdir (2, s.7; 8; 9).

Bu illərdə ekspedisiya tərəfindən Qarabağ düzənliyində təxminən 3600 kv.km. ərazidə arxeoloji kəşfiyyat işləri aparılmış və nəticədə 300-dən çox arxeoloji abidə qeydə alınmışdı ki, onun da 156-sı neolit dövrünə aiddir. Məhz bu faktın özü nəinki Azərbaycan, ümumilikdə Cənubi Qafqaz arxeologiyası üçün bir yenilikdir. Çünki, bu tədqiqatlara kimi Cənubi Qafqaz ərazisində təxminən 150 erkən oturaq əkinçi- maldar tayfalara aid yaşayış məskənlərinin mövcud olması fikri elmə məlum idi ki, onlardan da üçdə ikisinin Azərbaycan ərazisində yerləşməsi haqqında məlumat vardı. "Qarabağ neolit-eneolit ekpedisiyası"nın tədqiqatlarının nəticəsi olaraq aşkar olundu ki, Azərbaycanın Qarabağ bölgəsi Cənubi Qafqazın əkinçi-maldar tayfalarının yaşadığı ilkin və əsas yaşayış məskənlərindən biridir. Bu baxımdan Qarabağı yalnız Anadolu, İran və İkiçayarası ilə muqayisə etmək mümkündür. Çünki, Qarabağ düzənliyində olan neolit dövrü abidələri kəmiyyət etibarilə bütün Cənubi Qafqazda olan neolit dövrü abidələrindən ən azı 2 dəfə çoxdur. Abidələrin çoxluğu bu dövrdə Qarabağ düzənliyində əhalinin məskunlaşma sıxlığının necə böyük olduğunu söyləməyə əsas verir. Arxeoloji tədqiqatlardan əldə edilmiş nəticələr bizə bunu söyləməyə əsas verir ki, Qarabağ ərazisi e.ə. VI minilikdə Qafqazda, eləcə də Yaxın Şərqdə neolit dövrünün ən əsas ocaqlarından biri olmuş və əhali burada yüksək əkinçilik mədəniyyəti formalaşdırmışdı (3, s.152).

Oturaq əkinçilik və maldarlıqla məşğul olan qədim Qarabağ əhalisi dağ ətəyi və çay kənarlarında, su mənbələrinə yaxın yerlərdə məskunlaşmışdılar. Onlar çiy kərpicdən tikilmiş, döşəməsi gil məhlulla suvanmış dairəvi planlı evlərdə və bəzən də qazmalarda (maldarlar) yaşamışlar. Evləri qızdırmaq məqsədilə onların orta hissəsində və divarın dibində ocaqlar qurmuşdular. Əkinçilik və maldarlıqdan başqa duluçuluq, toxuculuq, dəri-gönişləmə, sümükişləmə və daşişləmə sənətləri ilə də məşğul olurdular. Sümükdən toxa, oraq, biz, iynə, qaşovvari bıçaqlar, bəzək və məişət əşyaları hazırlayır, toxuculuqda yun və bitki lifindən istifadə edirdilər. Yaşayış məskənlərindən arxeoloji qazıntılar zamanı çoxlu sayda toxa, oraq, çəkic, balta, dəndaşı, sürtgəc daşı və s. tapılmışdır. Sürtgəc və dən daşlarının tapılması nəinki, dənli bitkilərin əkildiyini, həm də onların yaşayış yerlərində emal olunduğunu deməyə əsas verir. Daşın deşilməsi və cilalanması texnikasına yiyələnmək təsərrüfatda və məişətdə mühüm yeniliklərə səbəb olmuşdu. Cilalanmış daş baltalar ağac emalını sürətləndirmiş, bu da məişətdə və təsərrüfatda ağac əşyalardan geniş istifadəyə gətirib çıxarmışdı .

Qeyd etdiyimiz kimi Qarabağ düzənliyi ərazisində neolit mədəniyyətinin təşəkkülü, inkişafı və yayılması aparılmış arxeoloji qazıntı işləri nəticəsində yenidən öyrənilmişdi. Bu dövrə aid İdealtəpə, Mirvaritəpə, İsmayılbəytəpə, Şükürbəyli, Namazlıtəpə və başqa neolit dövrü yaşayış məskənləri araşdırılmış və buradan əkinçi-maldar tayfalara məxsus çoxlu sayda daş alətlər, gil qablar və s. aşkar edilmişdi. Məsələn, Ağdam rayonunun Xındırıstan kəndində yerləşən İsmayılbəytəpə adlı neolit dövrü yaşayış məskənindən düzbucaqlı və dairəvi planlı tikililər aşkar olunmuşdu. Bu tikililərdə ocaq izlərinə təsadüf edilmiş, buradan çoxlu saxsı küplər çıxarılmışdı. Saxsı küplər tikililərin əsasən saxlanc hissəsində qeydə alınmışdı. Küplərin içərisində çox güman ki, əkinçilik məhsulları saxlanılırdı ki, bu da həmin dövr əhalidə artıq əkinçilik mədəniyyətinin yüksək inkişaf etdiyini göstərir. İsmayılbəytəpə yaşayış məskəni memarlıq quruluşuna görə

Cənubi Qafqaz ənənələri ilə yanaşı, Anadolu və İranın son neolit dövrü mədəniyyət abidələrinin bəzi xüsusiyyətlərini də özündə əks etdirir. Belə ki, digər yaşayış məskənlərində Qafqaz abidələrinə xas dairəvi memarlıq üslubu üstünlük təşkil etdiyi halda burada düzbucaqlı memarlıq üstünlük təşkil edir. İsmayılbəytəpə neolit dövrü yaşayış məskəni təxminən 1,2 metr hündürlüyündə təbii təpə üzərində salınmışdı. Rodio karbon analizlərinin nəticələrinə görə e.ə. VI minillikdə burada erkən oturaq əkinçi-maldar tayfalar məskunlaşmışdı (2,s.17-18).

Qarabağ düzənliyində yerləşən erkən oturaq əkinçi-maldar tayfalara aid abidələrdə aparılmış arxeoloji tədqiqatların nəticələri bu bölgənin e.ə. VI minilikdə Cənubi Qafqazda lokal neolit mədəniyyətinin formalaşdığı bir mərkəz olduğunu söyləmək imkanı verir. Qeyd edilən dövrdə cənubdan şimala və ya əksinə ötürülən proqressif ənənələr, bu ənənələrin ötürülməsində əsas tranzit bölgə funksiyasını yerinə yetirən Qarabağda erkən oturaq əkinçi mədəniyyətinin təşəkkülü daha sürətlə baş vermişdi.

ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası. 6 cilddə, I cild (daş dövrü), Bakı :Şərq-Qərb, 2008, 445 s.
2. Alməmmədov X. Qarabağın arxeoloji abidələri toplusu. I kitab, Bakı: "Çap Art" Nəşriyyat evi, 2016, 448 s.
3. Alməmmədov X. Cənubi Qafqaz neolitində yeni sosial-mədəni məkanın- Qarabağın erkən oturaq əkinçi mədəniyyətinin təşəkkülü. // Azərbaycan arxeologiyası. Xəzər Universiteti Nəşriyyatı, 2018, Cild 21, №1, s.152-176.
4. Baxşəliyev V. Azərbaycan arxeologiyası. Icild, Bakı: Elm, 2007, 239 s.
5. Əliyev V. Qarabağ (Qədim dövr). Bakı: Çaşıoğlu, 2010, 204 s.
6. Нариманов И.Г., Джафаров И.Ф. О работе Мильско- Карабахской экспедиции //Археологическое открытия 1986, Москва 1988, с 512
7. Rəhimova M. Müstəqillik illərində Qarabağda arxeoloji tədqiqatlar.// Xalq Qəzeti. 2017. 12 mart

SUMMARY

KARABAKH: AS A REGION WHERE EARLY SEDENTARY AGRICULTURAL CULTURE WAS FORMED

Alasova A.

Azerbaijan's Karabakh region is one of the oldest cultural centers in the world. Karabakh, which has favorable natural and geographical conditions, is one of the places where primitive man was created and formed. This area is the cradle of the Kurchay river culture of the Paleolithic period and the Khojaly-Gadabay culture of the Late Bronze-Early Iron Age. The archeology of Karabakh in the Neolithic and Eneolithic periods was relatively little studied until recently. The role of the "Karabakh Neolithic-Eneolithic Expedition" organized in 2010-2017 in this area was great. As a result of the explorations of this expedition, many Neolithic settlements were discovered in Karabakh and it was proved that this place was one of the first regions where early sedentary agricultural culture was formed.

***Keywords**: Karabakh, archeological excavations, Neolithic period, settlements, farmer-cattle tribes.*

РЕЗЮМЕ

КАРАБАХ: КАК РЕГИОН ФОРМИРОВАНИЯ РАННЕОСЕДЛО-ЗЕМЛЕДЕЛЬЧЕСКОЙ КУЛЬТУРЫ

Аласова А.

Карабахский регион Азербайджана является одним из древнейших культурных центров мира. Карабах, обладающий благоприятными природно-географическими условиями, является одним из мест создания и формирования первобытного человека. Этот район является колыбелью Курчайской речной культуры периода палеолита и Ходжалы-Гедабекской культуры эпохи поздней бронзы-раннего железа. Археология Карабаха эпохи неолита и энеолита до недавнего времени была сравнительно мало изучена. Велика роль организованной в 2010-2017 годах в этой области «Карабахской неолито-энеолитической экспедиции». В результате исследований этой экспедиции в Карабахе было обнаружено множество неолитических поселений и доказано, что это место было одним из первых регионов, где сформировалась раннеоседло-земледельческая культура.

***Ключевые слова**: Карабах, археологические раскопки, период неолита, поселения, земледельческо-скотоводческие племена.*

QARABAĞIN UCA ZİRVƏSİ – FÜSÜNKAR ŞUŞA

Əliyeva G.S.
AMEA Hüquq və İnsan Haqları İnstitutu, Bakı, Azərbaycan
gunay-aliyeva-2019@mail.ru

Açar sözlər: *Qarabağ, Şuşa, Şuşa Bəyannaməsi, Xarıbülbül, elm, mədəniyyət paytaxtı, tarixi qələbə*

Qarabağın ən uca zirvəsi və gözü qədim Şuşa şəhəridir. Dəniz səviyyəsindən min dörd yüz üc metr hündürlükdə yerləşən, həmişə məğrur və başı dik olan Şuşa, Qarabağdan Azərbaycana yayılan, saf havanın, büllur sularının, poeziyanın, başladığı məkandır. Şuşa zəkamızın işığı, ruhumuzun bir parçası, qürurumuzun qalasıdır. Şuşa həm də Yusif Vəzir Çəmənzəminlinin, Q.B.Zakirin, M.M.Nəvvabin, Xurşudbanu Natəvanın, S.S.Axundovun, Ə.B.Haqverdiyevin, Xan Şuşinskinin və neçə-neçə dahi şəxsiyyətlərin bədii təfəkkürü, zəngin təbiətidir.

Ümumiyyətlə insanla, millətlə təbiət arasında daxili, fitri bağlılıq və harmoniya var. Hələ əsrin əvvəllərində hind və alman fəlsəfəsi etiraf və təsdiq edirdi ki, bizim təfəkkürümüzün səciyyəsi coğrafi şəraitlə təyin olunur. Elə bu baxımdan Qarabağı, Şuşanı xüsusilə vurğulamaq yerinə düşür.

Füsünkar Şuşada, Qarabağda doğulan və Sibirdə haqqın dərgahına qovuşan, dövlət xadimi və yazıçı, Yusif Vəzir Çəmənzəminlinin təbiətlə, folklor, mühitlə poeziya arasında əlaqələrin mahiyyətinə varmağa hamıdan çox imkanı olmuşdur. O, məhz Qarabağ əbədi mühitini nəzərdə tutaraq yazırdı: ”Mühit təbiətcə zəngin olursa, dil də genişlənir, ədəbiyyat da zənginləşir..., Dağlı, meşəli, çeşməli yerin xalqı daha incə dilə, daha şairanə tərkiblərə malik olur” [3, s.531-532].

Yuxarıda qeyd olunan tanınmış ziyalımızın dili ilə desək, həm təbii-bioloji, həm də fitri-ilahi, və mədəni-mənəvi diriliyi, milli-poetik təfəkkürün ekologiyası təbiətdən başlayır. Təbiətlə təmin və tənzim olunur, təbiətdə nizama, sahmana salınır. Qarabağ, xüsusilə də Şuşa təbiətin belə zənginliyindən sözün əsl mənasında doyunca qidalanmışdı.

Tarixi mənbələrdən də bizə məlum olduğu kimi, Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin Şuşanı, Azərbaycanın Qarabağ xanlığının paytaxtı (1748-1763) seçməsi də təsadüf olmamışdır. 1748-ci ildə Bayat və 1751-1752-ci illərdə salınmış Şahbulaq qalasının etibarlı olmadığını görən Pənahəli xan “dağların içində, möhkəm və keçilməz yerdə... əbədi və sarsılmaz qala” tikdirmək qərarına gəldi. Şuşa qalasının tikintisinə 1751-ci ildə başlanmış və 1756-1757-ci illərdə tikilib başa çatdırılmışdı. Daha sonra Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib, oranı möhkəmləndirmiş, qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə “Pənahabad”, sonradan isə “Şuşa Qalası” və “Şuşa” adlandırılmışdır [7].

Hələ o vaxtlar Pənahəli xanın Şuşa şəhərini paytaxt seçməsi, buranın necə böyük strateji əhəmiyyətə malik olmasını göstərir.

Şuşa təkcə torpağımızın yox, həm də mənəviyyatımızın qalası olub. Burada yaranan, musiqi, muğam, poeziya, folklor başqa heç yerdə yaranmayıb. Necə ki, “Xarıbülbül” də Şuşa torpağında məhəbbətdən, sevgidən cücərir. Bir folklor nümunəsində deyildiyi kimi: Şuşadan Tehrana Fətəli Şahın sarayına gəlin getmiş İbrahim Xəlil xanın qızı, şairə Ağabəyim ağa öz doğma torpağından buraya karvan-karvan torpaq gətirtdirir, burada bir Vətən bağı salır. Vətən bağında Şuşanın dağında, dərəsində yetişən bütün gül-çiçəklər bitir, Xarıbülbül isə bitmir ki, bitmir. Qərib şairənin aşağıdakı şeir misaraları da elə bu niskildən yaranıb.

Vətən bağı al-əlvandır,
Yox içində Xarıbülbül.

XVIII əsrin ortalarında Pənah xan tərəfindən müstəqil ərazi və dövlət vahidi kimi Qarabağ xanlığının əsası qoyulduqdan sonra qarabağda mədəni-ədəbi elmi mühit ən yüksək mənəvi intibah məqamına çatır. Şeirlə təbiət, poeziya ilə musiqi, muğamla qəzəl bəlkədə heç yerdə buradakı qədər harmoniya kəsb etməmişdir. O dövrdə Şuşa artıq Qafqazın və Şərqin müasir mədəni şəhərlərindən biri idi. Məşhur “ipək marşurutu”, Şərq-Qafqaz-Avropa ticarət yolu buradan keçirdi. Tarix göstərdi ki, hələ əsrin lap əvvəlindən müasirlər məhz Şuşanı “Qafqazın İtalyası” [2] adlandırmaqda səhv etməmişdilər.

Bu da o deməkdir ki, hələ o dövrdə bu şəhər necə inkişaf etmiş, elmin, mədəniyyətin, eləcədə iqtisadiyatın ən yüksək mərhələsində olmuşdur.

Mənbələrin birində göstərilir ki, XIX əsrin sonlarında Şuşada 7 Azərbaycan məktəbi olub və burada 163 şagird təhsil almışdır. Zaqafqaziya məktəblərinin nizamnaməsinə əsasən Azərbaycanda ilk dünyəvi məktəb 1930-cu il dekabrın 30-da Şuşada açılmışdır. Xüsusi məktəblər, həmçinin Şuşa realnı məktəbi (1881), qadın ibtidai məktəbi (1894), məxsusi musiqi məktəbi (1900) fəaliyyət göstərirdi. Onlara Mir Möhsün Nəvvab, Hacı Hüsü, Kərbəlayi Səfixan, Məşədi Əkbər Muxtarov kimi tanınmış ziyalılar-ustadlar rəhbərlik edirdilər [3, s.557].

Əlbəttə, bu da təsadüfi deyildi Şuşanın mədəni mühiti, onun ticarət mərkəzi kimi bütün Şərqin ən böyük şəhərlərindən biri olması, Azərbaycanın digər şəhərlərinə nisbətən bu şəhərə daha çox üstünlük verirdi. Bütün bunlar Azərbaycan mədəniyyət tarixində Qarabağa təkrarsız, unikal tarixi mövqe təmin etmiş olurdu.

Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar,16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur [8].

Şuşada həmçinin Cabbar Qaryağdıoğlu, Seyid Şuşiniski, Bülbül, Xan Şuşinski, Rəşid Behbudov Qarabağ musiqisini ifadə və təmsil edən böyük, unudulmaz sənətkarlar olmuşlar. Onların Azərbaycan mədəniyyətinin inkişafında əmək və zəhmətlərinin olması həmişə xüsusilə vurğulanmışdır. Qarabağın, Şuşanın istedad sahibi olan şəxsiyyətləri saymaqla bitmir.

Həmçinin XIX əsrin sonu XX əsrin əvvəlində Şuşada, Firidun bəy Köçərli, Haşım bəy Vəzirov, Əhmədbəy Cavanşir, Mirzə Yusif, Mirzə Adıgözəl bəy, Mir Möhsün Xəzani, Mirzə Camal bəy, Həsənəli xan Qaradağlı, Mirzə Camal oğlu, Rzaqulu bəy kimi yazıçı və tarixçilər fəaliyyət göstəriblər [4].

Yuxarıda qeyd etdiyimiz kimi böyük ziyalı təbəqəsi ilə zəngin olan, Şuşa tanınmış elm və mədəniyyət xadimlərinin vətəni hesab olunmuşdur.

Belə görkəmli tarixçi və yazıçıların Azərbaycan elminə bəxş etdikləri töhvədən yeni nəsil istifadə edir və yararlanırlar.

XVIII əsrdə yeni milli şeir məktəbinin əsası da məhz Qarabağda qoyulub. Onun başçısı haqqında məhşur bir ifadə də var "Hər oxuyan Mollla Pənah olmaz" [4]. Vaqif (1717-1797) hələ 1759-cu ildən Qarabağa köçür, Şuşada Saatlı məhəlləsində mədrəsə açır. Otuz il İbrahim Xəlil xanın sarayında ictimai və siyasi-diplomatik işlə məşğul olur. Buradan belə nəticəyə gəlmək olur ki belə yüksək bilik sahibi olan bir şəxs bu ərazini özünə daimi yaşayış yeri kimi seçməsi əbəs deyildir.

Demək olar ki, Azərbaycanda ilk poetik deyişmələr və müntəzəm şeir məclislərinin də vətəni Şuşa şəhəri olub. Belə ki, 1864-cü ildən başlayaraq Hacı Abbas Agahinin, 1872-ci ildən isə Xurşudbanu Natəvanın (1835-1897) mənzilində fəaliyyət göstərən "Məclisi-üns" Qarabağın bütün əsas bədii qüvvələrini özündə birləşdirirdi."Məclisi-üns" öz tərkibində 30 şairi cəm etmişdi: Mirzə Rəhim Fəna (1841-1929), Mirzə Həsən Yüzbaşov (1824-1904), Mirzə Ələsgər Novrəs (1846-1911), Mamo bəy Mamayi (1894-1918), Məhəmmədəli bəy Məxfi (1821-1892), Mirzə Sadıq Piran (1813-1898), İsgəndər bəy Rüstəmbəyov (1845-1917) və başqaları [3, 562].

Təşkil olunan belə məclislərdə şairlərlə yanaşı, musiqiçilər, alimlər də toplaşıb, burada şerlər oxunub, muğamlar ifa olunub, fəlsəfə, tarix, məntiq və s. elmlər ətrafında söhbətlər aparılıb. Bu cür məclisilərn məşğələləri bəzən təbiətin açıq qoynunda, Cıdır düzünün lap zirvəsində cərəyan edib.

Qarabağ şeir məktəbinin xüsusi cəhətlərindən biri də bu məktəbin qadın şeir imzası ilə zəngin olmasıdır. XII əsrin Məhsəti ənənəsi XVII-XVIII əsrlərdə ən çox Qarabağ ədəbi mühitində Aşıq Pərinin, Ağabəyim ağanın, Fatma xanım Kəminənin, xüsusilə son Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşud Banu Natəvanın timsalında bədii təsdiqini tapmışdır. Natəvan eyni zamanda milli-vətənpərvər ictimai xadim, el-oba anası, bədii məclislərin təşkilatçısı, abadlıq, elm, incəsənət maarif və mədəniyyət fədakarı olmuşdur. Yaşadığı saray kompleksini özü layihələşdirmiş,1873-cü ildə Şuşaya su kəmərini çəkdirmişdir, bu su kəməri "Xan qızı bulağı" adı ilə məşhurdur [9].

Şuşanın tanınmış bəylərinən yanaşı belə vətənpərvər, savadlı, xeyriyəçi, ürəyi həmişə xalqı üçün döyünən, vətəni üçün çalışan xanımlarıyla da məşhurdur.

Azərbaycanda mədəni tərəqqinin tarixində və taleyində xüsusi rol oynamış, Əbdürrəhimbəy Haqverdiyev (1870-1933), Nəcəfbəy Vəzirov (1854-1926), Süleyman Sani Axundov (1875-1939), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Üzeyir bəy Hacıbəyov (1888-1948), Əhmədbəy Ağaoğlu kimi Qarabağ övladları, ictimai-ədəbi fikir xadimləri, mədəniyyət klassikləri olmuşlar, yaşamış və yaratmışlar.

Bizə məlumdur ki, sonrakı dövrlərin mədəniyyət və sənət xadimlərindən Fikrət Əmirov, Zülfiqar Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Zakir Bağırov musiqi klassikası, sənət əsərləri yaratmışlar. "Leyli və Məcnun"un, "Koroğlu"nun, "Arşın mal alan"in, "Məşədi İbad"ın, bir silsilə publisist şedevrlərin, musiqi elminə və nəzəriyyəsinə dair bir çox əsərlərin müəllifi məhz Üzeyir bəy Hacıbəyovdur.

Qarabağ torpağı, xüsusilə də Şuşa belə incilər yetişdirib vətənə ərmağan edib. Təbiət Qarabağı gözəlliyin, harmoniyanın məkanı kimi secmişdi. Bu mənada hər kəsin gözü Qarabağda olub, zaman-zaman işğalçı qüvvələr, mənfur düşmənlərimiz ermənilər vətən torpağına əl uzadıb göz dikiblər. Qarabağımız, Şuşamız düşmənlərin dəfələrlə hücumlarına məruz qalıb.

Şuşanın fəlakətli günləri Sovet hakimiyyətinin qurulması ilə başlandı. 1923-cü ildə DQMV-nin yaradılması və Xankəndinin onun mərkəzi seçilməsi ilə Şuşa Qarabağın inzibati mərkəzi olmaq funksiyasından məhrum edildi. Şuşa şəhərinin və şuşalıların vəziyyəti pisləşdi, demək olar ki, şəhər sürətlə tənəzzül etməyə başladı, memarlıq abidələrinin çoxu uçurdulub, dağıdıldl. Əlli il ərzində əhalinin sayı üç dəfə azaldı, belə ki, 1917-ci ildə Şuşada 43869 nəfər əhali yaşayırdısa, 1970-ci ildə onların sayı azalaraq 13664 nəfərə enmişdir [7].

Əlbəttə belə bir vəziyyətin olması, damarlarında azərbaycanlı qanı axan hər bir azərbaycan vətandaşını narahat etmiş və bu yöndə hansı addımlar atması haqqında düşündürmüşdür.

Nəhayət 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan rəhbərliyinə gətirildikdən sonra Şuşa yenidən dirçəlməyə başladı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev söyləmişdir: " Şuşa Azərbaycanın ən əziz və boyük tarixi bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir" [5].

Bu da Ulu Öndər Heydər Əliyevin öz tarixi keçmişinə bağlılığını, vətəninə, torpağına necə böyük məhəbbət və hörmətindən irəli gələn xüsusiyyətə sahib olmasını bir daha sübut edir. Ulu öndərin bu cür diqqət və qayğısı təkcə Şuşa şəhərinə deyil, bütövlükdə Azərbaycanın hər bir bölgəsinin inkişafında özünü həmişə göstərmişdir. O, Azərbaycanın inkişafı üçün daima çalışmış və bu istiqamətdə çox böyük işlər görmüşdür.

Heydər Əliyev Şuşa ictimaiyyətilə keçirdiyi görüşdə söyləmişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır" [5].

Bu diqqət və qayğının nəticəsi olaraq Şuşanın sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Belə bir xüsusi diqqət və qayğının nəticəsi olaraq əhalinin sayı da artmış, eləcədə geniş quruculuq işləri vüsət almağa başlamışdı.

Çox təəssüf ki, Şuşanın bu dirçəlişi uzun çəkmədi. Belə ki, 1992-ci il may ayının 8-də şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olundu. Erməni vandalları sarsılmaz Qalamızı ələ keçirməklə Qarabağı zəbt etdi. Xarıbülbül boynunu büküb yetim qaldı, Natəvanın isməti girov qaldı, Zakirin, Nəvvabın məzarları, Vaqifin məqbərəsi əsir düşdü.

Erməni vəhşiliyinin bu nümunəsi maddi zərərdən başqa həm də, heç bir ölçüyə gəlməyən, bizlər üçün ən böyük mənəvi zərər deməkdir.

Nəhayət Azərbaycanın 28 illik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa, Ali baş komandanımız və igid oğullarımızın sayəsində azad edildi. Azərbaycan 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsini (Vətən müharibəsini) qlobal pandemiyanın baş verdiyi şəraitdə böyük zəfərlə başa çatdırdı.

Beləliklə, Azərbaycanın qədim şəhərinin işğaldan azad edilməsi ilə həlledici üstünlüyə nail olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa döyüşləri barədə bunları söylədi: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhramanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhraman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir". " İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbəbi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" [1].

Qələbə xəbərinin elan edilməsindən öncə dövlət başçısının ümummilli lider Heydər Əliyevin ruhu önündə nümayiş etdirdiyi ehtiram, məhz ulu öndərin vəsiyyətini yerinə yetirdiyini deməsi Azərbaycanın həm də dövlətçilik prinsiplərinə sahib olduğunu göstərdi.

Demək olar ki, azad Qarabağsız, Şuşasız mənliyimiz, milliliyimiz, müstəqilliyimiz yarımcıq qalmışdı. Ali Baş Komandanımızın və igid oğullarımızın sayəsində bütövləşdik və tam olduq. Yad nəfəsin və ayağın tapdağı altında inləyən torpaqlarımız 28 ildən sonra öz doğmalarına qovuşdu.

Yenidən Cidir düzündə Xarıbülbül Muğam festivalı keçirildi. İllərdi zirvədən enərək və səhralarda sərkərdan gəzən Qarabağ şikəstəsi öz yuvasına qayıtdı. Şuşanın dolaylarında, Cıdır düzündə göylərə ucaldı, ata vəsiyyətini şərəflə yerinə yetirən cənab Prezidentimizi kövrəltdi, şəhid analarını qürurlandırdı, illərdir doğma səs həsrəti çəkən Xarıbülbülü sevindirdi.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qardaş ölkə Türkiyə cani könüldən Azərbaycanla həmrəy oldu. Elə bunun sübutu olaraq da Türkiyənin Prezidenti Rəcəp Təyyub Ərdoğan, cənab İlham Əliyevlə birgə Şuşaya tarixi səfər etdi. Bu səfər bir çox məqamlarıyla yaddaşlarda qaldı. Belə ki, Azərbaycan tarixində əlamətdar gün, 15 iyun 2021-ci il Şuşa Bəyannaməsinin imzalandığı tarixi gün oldu.

Bizim üçün mühüm mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində, Türkiyə və Azərbaycan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var [6].

Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan qardaş ölkə Türkiyənin simasında özünə strateji tərəfdaş və rəsmi müttəfiq qazandırdı və iki türk dövlətinin gələcək inteqrasiyası və əməkdaşlığı üçün zəmin yaratdı. Demək olar ki, belə bir tarixi günə təsadüf edərək imzalanmış, Şuşa Bəyannaməsi hər bir Azərbaycan vətəndaşı tərəfindən çox yüksəl qiymətlədirildi və alqışlandı.

Hər birimizə məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti 2020-ci ilin dekabrında Vətən müharibəsinin yekunları ilə bağlı bir neçə fərman və sərəncam imzaladı. Hər il 8 noyabr Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edildi. Həmçinin 07 may 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərancamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi**.**

Cənab Prezidentimiz bu sərəncamıyla Şuşamızın öz tarixi və mədəni keçmişinin olmasını bir daha bəyan etmiş oldu. Eləcə də beynəlxalq aləmdə Azərbaycan üçün tarixi-mədəni əhəmiyyəti olan Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşlmasının zəruri olduğunu bir daha qeyd etdi.

İndi Qarabağımız, Şuşamız azaddır, Azərbaycan bəlkə də son bir əsrdə bu qədər sevinc, qürur yaşamamışdı. Bu gün qürur duyduğumuz Azərbaycan bayrağı Şuşada dalğalanır, torpaqlarımızın azadlığı uğrunda öz canlarını, qanlarını əsirgəməyən şəhidlərimizin ruhu şad və rahatdır.

ƏDƏBİYYAT

1. İlham Əliyev. İnkişaf – məqsədimizdir çoxcildliyinin “Qələbə kitabı”. Bakı: Azərnəşr, 2021
2. “Kaspi” qəzeti. 12.IX.1900, №177
3. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bahı: Sabah, 1996, 712 s.
4. Şuşinki F. Azərbaycan xalq musiqiçiləri. Bakı, 1985
5. Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir *https://qanuninfo.az* ...
6. Zaur Məmmədov - Şuşa Bəyannaməsi ilə bağlı təhlilim.... https://sw-ke.facebook.com ...
7. http://tarixinstitutu.az/page/99/shusha
8. “ŞUŞA – Azərbaycanın tarixi və strateji əhəmiyyətli ...https://azertag.az xeber SU...
9. https://az.wikipedia.org/wiki/Xur%C5%9Fidbanu_Nat%C9%99van
10. C:\Users\user\Desktop\Haqqında – Sadıqcan \ https:\sadiqcan.az

SUMMARY

THE HIGHEST PEAK OF KARABAKH - FASCINATING SHUSHA

Aliyeva G. S.

The article talks about the charm of the city of Shusha, the eye of Karabakh, and the fact that it is a valuable, beautiful and prosperous homeland for Azerbaijan. It is also said that this land is an important strategic place and has produced many geniuses and talented people. The "Shusha Declaration" signed by the Presidents of Azerbaijan and the fraternal Republic of Turkey after the liberation of Shusha from the Armenian occupation, which is important for us, was especially noted.

Key words: *Karabakh, Shusha, Shusha Declaration, Kharibulbul, science, capital of culture, historic victory*

РЕЗЮМЕ

САМАЯ ВЫСОКАЯ ВЕРШИНА КАРАБАХА ОЧАРОВАТЕЛЬНАЯ ШУША

Алиева Г.С.

В статье говорится о прелести города Шуша, глаза Карабаха, и о том, что это ценная, красивая и процветающая родина для Азербайджана. Также говорят, что эта земля является важным стратегическим местом и произвела на свет много гениев и талантливых людей. Особо отмечена важная для нас «Шушинская Декларация», подписанная президентами Азербайджана и братской Турецкой Республики после освобождения Шуши от армянской оккупации.

Ключевые слова: *Карабах, Шуша, Шушинская Декларация, Харибюльбюль, наука, столица культуры, историческая победа*

ŞUŞA QALASININ SALINMA TARİXİ

Əliyeva T.Y.
Şabran Heydər Əliyev Mərkəzi/ Şabran/Azərbaycan
tahmina751@mail.ru

Açar sözlər: *Şuşa, Qarabağ, qala, şəhərsalma, paytaxt, xanlıq, türk*

Qədim Azərbaycan diyarı, XIX əsrin tanınmış Qarabağ xanlığının igamətgahı olan olan Şuşa şəhərinin 270 illik şəhərsalma tarixi vardır. Şuşa şəhərinin bünövrəsi qala-şəhər, igamətgah formasında Qarabağlı Pənahəli xan Cavanşir tərəfindən qoymuşdur.

Qarabağın Sancalı kəndinin türk tayfası cavanşirlər nəslindən olan Pənahəli xan gənc yaşlarından igidlikdə ad çıxarmış, Nadir şahın qoşunlarında xidmət etmişdi. Tərəfdarlarını ətrafına toplayaraq müstəqil dövlət yaratmağa başlayan Pənahəli xan qısa müddət ərzində Qarabağ xanlığını güclü xanlıqlardan birinə çevirdi. Ona Qarabağın təkcə türk-müsəlman əhalisi deyil, həm də alban-mənşəli Xaçın məlikliyi və erməni mənşəli Vərəndə, Dizaq, Gülüstan, Çiləbörd məlikləri də tabe olmuşdur. [2, səh 116]

Pənahəli xan şəhərsalma və müdafiə məqsədi ilə 1748-ci ildə Qarabağ xanlığının inzibati mərkəzi, xanın igamətgahı kimi "Bayat" qalasını tikdirdir. Bu qala Azərbaycan Respublikasının Ağcəbədi rayonu Kəbirli kəndində yerləşir. [4] Qalanın memarının kim olması haqqında heç bir məlumat yoxdur. Bayat qalası Həacı Çələbi xanın yürüşündən sonra düşməndən müdafiə, Qarabağ xanlığının idarə olunması üçün əlversiz mövqeydə yerləşdiyini hiss edən Pənahəli xan yeni inzibati mərkəz tikdirtməyi qərara alır. Hətta deyilənlərə görə Hacı Çələbi xanın indiyə qədər zərbi məsəl kimi işlədilən "Pənah xan şimdiyədək bir sikkəsiz gümüş idi. Amma bizim gəlib bu növ ilə qayıtmağımızla ona sikkə vurub getdik" məsələ Çətinliklədə olsa özünü və xanlığını Bayat qalasında qoruyan Pənahəli xanın bundan sonra özünə yeni qala tikdirməsi üçün deyilmişdir.

"Şahbulaq" qalası və ya "Tərnəküt" qalası adı ilə məhşur olan xanlığın ikinci inzibati mərkəzi Nazim Axundov və Akif Fərzəliyevin 2006-cı ildə nəşr etdikləri Qarabağnamələr. II kitaba əsasən 1751-1752-ci illərdə inşa etdirilmişdir kimi qeyd olunsada sonrada bu ada düzəliş verilir. Müəliflər tərəfindən yazıda bir yalnışlıq olunduğu və "Şahbulaq" qalasının 1749, "Bayat qalası"nın isə 1748-ci ildə inşa olunduğu qeyd olunur.[1, səh 20] Memarlıq abidəsinin tikinti işləri Ağdamın Şahbulaq adlı ərazisində başlamışdır. Ehtimal ki, qalanın adı da burada yerləşən gursulu bulaqın adından – Şahbulağından götürülmüşdür. Bir sıra ehtimallara görə Şahbulaq qalası hətta Bayat qalasından öncə tikilmiş lakin sadəcə olaraq igamətgah kimi deyil, istehkam və gözətçi məntəqəsi kimi istifadə olunmuşdur. Yığcam quruluşlu bu qala düzbucaqlı biçimdədir və onun bayır divarları dairəvi və yarımsilindrik bürclərlə möhkəmləndirilmişdir.

"Şuşa" qalasını yaranma tarixində bir sıra mütəxısis və tarixçilər arasında təzadlı fikirlər vardır. Bir neçə tarixçi qalanın yaranma tarixinin 1750-ci ilə aid olduğunu, bir sıra tarixçilər isə 1752-ci ilə aid olduğunu qeyd edir. Mirzə Camalın yazdığına görə isə Şuşa qalasının inşası təxminən 1754-ci ildə başa çatmış, həmin il Şahbulaq qalasının sakinləri, bir neçə kəndlərin kəndxudaları ailələrini köçürüb bu qalanın ərazisində yerləşmişdi. Lakin faktları sübüt edən tutarlı arqumentler yoxdur. Ümumilikdə Şuşa qalasının salınma tarixi 1750-1752-ci illərdə qeyd olunur. Qala Qarabağın ən səfalı guşəsində üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsini qoyulmuşdur. Pənah xan Təbriz, Ərdəbil və başqa şəhərlərdən məşhur ustalar (bənnalar) gətirtdirdi və hasarın içərisində yeni binalar və özü üçün saray tikdirmişdir.

Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur. Divar çəkmək üçün şəhərin aşağı tərəfini və bir də şərq tərəfinin bəzi yerlərini ölçdülər. Bu işdə kənd əhli, mahalların məlikləri, ellərin başçıları ilə bir yerdə çalışaraq, beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər. Bu divardan nə top gülləsi, nə də başqa bir şey keçməzdi. Çünki divar daş və əhənglə bərkidilmişdi.[1, səh 23] Pənah xan Qarabağın Seyidli, Çuxur məhəllə, Köçərli, Saatlı, Merdinli, Qurdlar, Culfalar və başqa kəndlərindən əhalinin bir hissəsini qalaya topladı.

Qalanın "İrəvan" və ya "Xəfəli", "Ağoğlan" və ya "Muxtar qapısı" və "Gəncə" və ya "Ciləbörd" adlı üç möhkəm qapısı var idi. XIX əsrin 60-cı illərində bu qapılar Şuşanın ictimai həyatında mühüm rol oynayırdılar ki, «Иллюстрация» qəzetində çap edilmiş məqalə də bunu isbat edir. Həmin məqalədə verilən məlumata görə, Ağoğlan və İrəvan qapıları ali şəxslərin keçişi və yük daşınması üçün, Gəncə qapısı isə arabaların keçməsi üçün nəzərdə tutulmuşdu.[3, c-7, səh 257] Hətta dördüncü qapının olduğu haqqında məlumatlarda da vardır. Lakin həmin qapı qısa zamanda dağıldığından qapı götürülmüş yerinə divar hörülmüşdür.

Yeni salınmış qala-şəhər onun banisi olan Pənahəli xanın şərəfinə "Pənahabad" qalası adlandırılmışdır. Sonrakı dövrdə şəhər sadəcə Qala adlandırılmışdır. Qalanın Şuşa adını alması haqqında isə bəzi fikirlər mövcuddur. Birinci ehtimal Pənahabad şiş uclu dağlar əhatəsində yerləşəndiyindən əvvəllər "Şişə", sonralar isə Şuşa adlandırılmağa başlanmışdır. Ikinci ehtimala görə isə yerli əhali tərəfindən qalanın salındığı yer yaxınlığındakı Şuşakəndin adından ilhamlanaraq qalanıda "Şuşa" adı ilə adlandırmağa başlamışlar.

Şair və Qarabağ xanının vəziri Molla Pənah Vaqif şəxsən Şuşa qalasının inşası işlərinə rəhbərlik və nəzarət etmişdir. Qarabağ tarixçisi Həsənəli xan Qaradağı qeyd edir ki, "Molla Pənah Vaqifin birbaşa nəzarəti altında Şuşada bir sıra tikililər, o cümlədən Şuşa qalası inşa edilmişdi.

1752-1783-cü illərdə Qarabağ xanlığının igamətgahı, xanlığın paytaxı olan bu qala iç şəhər və ətrafında yerləşən 17 məhəllə vardır. [5] Şuşa şəhərinin ətrafında salınan məhəllərinin (Urudlar, Seyidli, Culfalar, Quyuluq, Mamayı, Merdinli, Hamamqabağı və s.) hər birinin məscidi, mədrəsəsi, hamamı, dükanı və bulağı var idi. bu şəhər-qala dəniz səviyyəsindən 1300- 1600 metr hündürlükdə yerləşir.

Bu qalaya 1751-ci ildə hücum edən İran şahı Məhəmməd Həsən xan Qacar və 1757-ci ildə Urmiya hakimi Fətəli xan Əfşar tərəfindən 6 ay mühasirədə saxlasa da qala ələ keçirilə bilməmişdir.

Ağa Məhəmməd şah Qacar 1795-ci ilin iyun ayında qalaya yürüş edib, bir ay mühasirədə saxlamasına baxmayaraq, onu ala bilməmişdilər.

Şuşa səhəri 1977-ci ildə Azərbaycan Respublikasının tarix-memarlıq qoruğu elan edilmişdir. Dövlətimzın və H.Ə Fondunun rəhbəri Mehriban xanım Əliyevaının səyi nəticəsində bu tarixi abidə 24 oktyabr 2001-ci ildə UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilmişdir.

ƏDƏBİYYAT

1. Nazim Axundov və Akif Fərzəliyev: " Qarabağnamələr." II kitab 2006-Bakı
2. S.Əhmədov. Azərbaycan tarixindən yüz şəxsiyyət. Bakı-2006. s. 116
3. Очерки Закавказья. «Иллюстрация» (т. VII). СПб.-М. 1861. 257.
4.https://az.wikipedia.org/wiki/Bayat_qalas%C4%B1
5.https://www.faktxeber.com/uann-tarixi-bard-bildiyimiz-v-bilmdiyimiz-mlumatlar_h496322.html

SUMMARY

HISTORY OF SHUSHA TOWER

Aliyeva T.Y.

Shusha was considered the most charming corner of Karabakh. Every place, every stone was a history. Although Shusha is a paradise, both strategies are considered inappropriate. Panahali khan Sarijali-Javanshir is the founder of this secret city. Panahali khan and Ibrahimkhalil khan can also build Shusha according to the most beautiful monuments of ancient and medieval times. Shusha, who sacrificed for Karabakh, is now free.

РЕЗЮМЕ

ИСТОРИЯ ШУШСКОЙ БАШНИ

Алиева Т.Я.

Шуша считалась самым очаровательным уголком Карабаха. Каждое место, каждый камень были историей. Хотя Шуша — рай, обе стратегии считаются неуместными. Панахали хан Сариджали-Джаваншир является основателем этого тайного города. Панахали хан и Ибрагимхалил хан тоже могут построить Шушу в соответствии с красивейшими памятниками древности и средневековья. Шуша, пожертвовавшая ради Карабаха, теперь свободна.

Ключевые слова: *Шуша, Карабах, крепость, градостроительство, столица, ханство, тюрки.*

XANKƏNDİNİN ARXEOLOJİ ABİDƏLƏRİ

Əsədova A.V.
Sumqayit Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
asadova_ayten@bk.ru

Tarixi –arxeoloji abidələr yeganə mənbədirki bütün dağıntılara, saxtakarlığa,dəyişdirmələrə məruz qalsa da belə,mənsub olduğu xalqın izini hər formada qoruyub saxlayır.
Əsədova A.V.

.

Açar sözlər: *Xankəndi, abidə,qədim,şəhər,kurqan, nekropul*

Xankəndi şəhərinin qısa tarixi. Qarabağ Azərbaycanın qədim mədəniyyət mərkəzidir. Təbii coğrafi şəraiti, tarixi arxeoloji abidələri ilə ilk insan məskəni olan (Azıx mağarası) Qarabağ dünya tarixində mühüm rol oynayan mədəniyyət beşiyidir. Qarabağın qədim yaşayış məskənlərindən biri də Xankəndi şəhəridir. Xankəndi vətənimizin inkişaf etmiş yaşayış məskəni, tarixi arxeoloji abidələr diyarıdır.Xankəndi oykonimi "xana məxsus kənd" mənasındadır[1s.35]. Şəhər kimi cavan olan Xankəndi yaşayış məskəni kimi qədimdir.[2] Şəhər XVIII əsrdə Qarabağ xanlığının istirahət mərkəzi kimi salınmışdır(Pənahxan tərəfindən 1748-1763-cü illər) . Kiçik yaşayış məskəni kimi salınan Xankəndində İbrahimxəlil xanın şəxsi malikanəsi yerləşir. Burada hətta xana məxsus cins atlar da bəslənirdi. Şəhər xanlığın paytaxtı Şuşa şəhərinə nisbətən dağ ətəyində salınmışdır. Eyni zamanda şəhər elə bir strateji ərazidə salınmışdır ki, Qarabağ xanlığının bütün əsas şəhərlərinə və yaşayış məskənlərinə yaxın idi. Şəhər dağlıq Qarabağın mərkəzi, Qarqar çayının sahilində, Qarabağ düzünün şərq ətəyində yerləşir. "Xanın kəndi" adlandırılan şəhər daha sonralar Xankəndi adlandırılmışdı.[11s.228]

1805-ci il 14 mayda Rusiya ilə Qarabağ xanlığı arasında bağlanan müqavilə ilə (Kürəkçay) Qarabağ xanlığının müstəqilliyinə son qoyuldu. Məhz həmin vaxtdan İbrahimxəlil xan və ailə üzvləri Xankəndində yaşamalı oldular. Yalnız 1807-ci ilə qədər orda yaşaya bildilər. Daha sonra Xankəndində yaşayan Mehdiqulu xan ruslara işləyən satqın ermənilər tərəfindən öz yurdundan didərgin salındı. 1822-ci ildə artıq Xankəndi ermənilərin tam yerləşdiyi bir yer idi. Bunun əsası isə 1813-cü il Gülüstan sülhü ilə qoyulmuşdu. Artıq Xankəndində çar üsul idarəsinə uyğun komendant sistemi yaradılmışdı. Çar hökumətinə aid idarə Xankəndində yerləşirdi. Əslində bu dövrdə şəhərdə xanın həyat yoldaşı Pəricahan xanım yaşayırdı.[3] Artıq bu dövrdən Qarabağın Xankəndi şəhərinin etnik tərkibinin dəyişdirilməsinə başlanılmışdır. Ermənilər şəhərdə tam məskunlaşdılar. Əslində rus hərbiçilərinin Xankəndinə gəlişi təsadufi deyildi, bu məhz ermənilərin himayəsi üçün idi. Çünki qədim Azərbaycan torpağı olan Qarabağın ermənləşdirilməsi çar hökumətinin əsas məqsədi idi. 1813-cü ildə Xankəndində heç bir rus və erməni olmadığı halda 1847-ci ildə artıq 80 erməni 52 rus ailəsi yaşayırdı [1s37]. Hətta həmin dövrdə Xankəndində ermənilər üçün kilsə də tikilmişdi. Nəzərə alaq ki, bu kilsə məsələsi belə idi ki, tarixdə heç bir vaxt XX əsrin ortalarına qədər Qarabağda erməni kilsəsi olmamışdı. 1970-ci ildə açılan erməni kilsəsi əslində 1805-ci ildə rus əsgərləri üçün Qarabağ xanlığının divanxanasında açılan ibadət yeri idi. Cumhuriyyət dövründən 1970-ci ilə qədər bu ibadət yeri baxımsız qalmışdı. Yalnız 1970-ci ildə təmir olunaraq istifadəyə verilmişdi. Belə ki artıq 200 il keçməsinə baxmayaraq Qarabağda olan Alban kilsələri erməni kilsəsi kimi təqdim olunur. 1832-ci ildə ermənilər bu ərazilərə kütləvi köçürülmüş və onlara burada (6 il ərzində) xüsusi imtiyazlar verilmişdi. Artıq I Pyotrun 1724-cü ildə qarşıya qoyulmuş məqsəd çox canfəşanlıqla həyata keçirildi. Azərbaycan torpaqlarında özlərinə yer edən ermənilər 1905-1906, 1918-1920, 1988-1989, 1992-ci illərdə bu ərazilərdə kütləvi qırğınlar, soyqırımlar həyata keçiridilər. 1813-cü ildə başlayan köçün nəticəsində artıq 1991-ci ildə Xankəndi erməni-torpaq oğrularının işğalına məruz qaldı. Qədim yaşayış məskəni Xankəndi nəinki işğal olundu şəhərdə olan bütün abidələr məhv edildi.

1918-1920-ci illərdə AXC-nin dövründə ermənilərin Dağlıq Qarabağ və Xankəndi iddiları dəf edildi. 1920-ci il aprel işğalı ilə hər şey yarımçıq qaldı.

Xankəndi şəhəri sovet dövründə Azərbaycanın inkişaf etmiş (1920-1991-ci illər) sənaye mərkəzi olmuşdu. Burada yüngül və yeyinti sənayesi inkişaf etmişdi. 1923-cü ildə Xankəndinin adı dəyişdirildi Stepanakert oldu. Avstriyalı tarixçi-professor Erix Fayqe 2006-cı ildə bildirirdi ki, "Xankəndi və Şuşa şəhərləri Azərbaycanın yüksək mədiniyyət göstəriciləridi. Bu gün tarix saxtakarları Xankəndinin Azərbaycan xalqına qarşı qırğınlar həyata keçirən Stepan Şaumyanın adı ilə adlandırlmışdı" [10 s. 125].

Xankəndinin arxeoloji abidələri. Keçmiş SSRİ-nin dövründə Xocalı və Xankəndi şəhərində və ətraf ərazilərdə arxeoloji qazıntalar aparılmışdı. Qazıntılar zamanı kurqanlar qəbir abidələr və müxtəlif yaşayış yerləri aşkar edilir. Tapılan arxeoloji abidələr Xankəndinin digər şərq ölkələri ilə iqtisadi-ticarət əlaqələri

haqqında məlumat verir. [9.s.55]. XX əsrdə şəhər ətrafında tunc dövrünə aid arxeoloji abidələr öyrənilmişdi. 1938-1939-cu illərdə aparılan arxeoloji qazıntılar zamanı şəhərdə qədim kurqanlar aşkar edilmişdi. Y.Hummel 1938-1939-cu illərdə Qarabağın Xocalı, Xankəndi və Kərkicahan ərazilərində kəşfiyyat xarakterli qazıntılar aparmışdı. Həmin vaxt o Gəncəçay ərazisində arxeoloji tədqiqatlar da aparmışdı. Hummel Xankəndi kurqanlarını eneolit yox məhz tunc dövrünə aid edirdi. Bu ərazilərdə qazıntılar 1950-ci illərə qədər davam etmişdi. Aparılan araşdırmalar zamanı məlum olmuşdu ki, bu ərazilərdə kollektiv dəfn etmə adəti olmuşdu. Eyni zamanda bu ərazilərdə e.ə.III minilliyə aid Kür-Araz mədəniyyətinin izlərinə də rast gəlinir.(ilk tunc dövrü) [4.s.35]. Xankəndi ərazisində tapılan Kür-Araz mədəniyyətinə aid keramika məhsulları ilə istehsal növlərini öyrənmiş oluruq. Xankəndində aşkar edilən eneolit dövrünə aid kurqanları araşdırdıqca məlum olur ki, burada dəfn kurqanları dairəvi planda verilib və xəndəklə əhatələnmişdir. Kurqanlarda enli sal daşlara da rast gəlinir. Bu qəbirlərdə e.ə. V-III minilliyə aid edilir və sanki iri yaşayış binasını xatırladır. Çox təbəqəli olan bu kurqanlarda kollektiv dəfn üstünlük təşkil etmişdi. Qəbirin üstü gil və xırda daşlarla örtülmüşdü. Şəhərdə tapılan arxeolojo abidələr əsasən ilk tunc dövrünə aid edilir. Tapılan maddi–mədəniyyət nümunələri ilə bu ərazilərdə əkinçilik və maldarlıq izlərini izləmiş oluruq. Hətta bəzi qəbirlərdə məhz bütün ailə üzvlərinin dəfn edildiyini görürük. Bəzi kurqanlarda 50-dən çox skletə rast gəlinir. Arxeoloqlar ehtimal edirlər ki, kurqanlarda dəfn edilənlər bir ailənin və ya bir qəbilənin üzvləridi. Açılan qəbirlərdən məlum olur ki, ölü ya sağ böyrü üstə ya da sol böyrü üstə, bükülü və yarı oturaq formada dəfn edilirdilər. Qəbilə başçısının qəbirdə yeri isə xüsusilə seçilirdi. O əsasən arxası üstə uzadılaraq dəfn edilirdi. Bu formada dəfn Azərbaycanın digər yaşayış məskənlərində də yayılmışdı. Bura Qarabağın bütün ərazilərinin Naxçıvanı, Qazaxı, Qobustanı, Şamaxını və Xızını misal göstərə bilərik. Eyni zamanda Cənubi Azərbaycanda da bu tip qəbir formalarına rast gəlinir. Xankəndində tapılan maddi-mədəniyyət nümunələri əsasında burada yaşayan əhalinin dini inancını, adət-ənənəsini öyrənmiş oluruq. Xankəndi kurqanlarından mis xəncər, daş həvəng, qızıl muncuq, ox ucları, keramika məhsulları aşkar edilmişdi. Tapılan maddi-mədəniyyət nümunələri əsasında burada yaşayan əhalinin ovşçuluqla məşğul olduğunu izləyirik. Araşdırmalardan məlum olur ki, e.ə. III minillikdə ev maldarlığından köçmə maldarlığa keçid baş vermişdi. Çünki Xankəndinin yerləşdiyi ərazi coğrafi cəhətdən köçmə maldarlığın inkişafına şərait yaratmışdı. Bu həm də Xankəndinin yaylaqlara yaxın olması ilə əlaqədar idi. Aşkar edilən arxeoloji abidələrdən məlum olur ki, e.ə. III minillikdən burada atlardan köçmə vasitəsi kimi istifadə olunub. Daimi yaşayış yeri ilə yaylaqlar arasında daim əlaqə olub. XIX əsrin 80-ci illərində Qarabaq yaylaqlarını öyrənən M.A.Skibitiski bildirirdi ki, Qarabağın dağlıq hissəsində 567 yaşayış və yurd yeri qeydə alınıb ki, bunlardan yalnız ikisi erməni toponiminə uyğun gəlir.[12.s.13;13.S.25]. Çox güman ki, iki toponim də məhz 1813-cü il köçürmələrindən sonra yaranmışdı. Çünki bu dövrdə Dağlıq Qarabağda ermənileşdirilən əsas yerlər məhz Xankəndində yerləşirdi. Xankəndində aparılan arxeoloji qazıntılar zamanı təsərrüfat küpləri aşkar edilmişdi. Burada arpa buğda becərilmiş, üzümçülük və şərabçılıq inkişaf etmişdi. Qarabağda atlardan yalnız minik kimi yox, həm də at çapmaq bir sənət növü olmuşdu. Xankəndində tapılan arxeoloji nümunələrdən məlum olur ki, əhali arasında dulusçuluq və daşişləmə sənəti inkişaf etmişdi. Metalişləmə sənətinin e.ə. III minillikdə izləmiş oluruq. Xammal filiz yataqları ilə zəngin olan Qarabağda mərgümüşdən istifadə metalişləmə sənətinin inkişafına səbəb olmuşdu. Tapılan bəzək əşyaları qablar, metal əşyalar üzərində olan naxışlar əsasında incəsənətin inkişafının görürük.[7]. Xankəndində tapılan arxeoloji abidələri araşdırdıqda məlum olur ki,burda daş vəllərlə yanaşı taxta vəllərdəndə istifadə edilmişdir

Xankəndi şəhərində arxeoloji qazıntılar zamanı erkən və orta tunc dövrünə aid nekropol (kütləvi məzarlıqlar) aşkar edilmişdi. Eyni zamanda Xankəndi şəhərinin yaxınlığında da dəmir dövrünə aid kurqanlar aşkar edilmişdi. Xankəndinin şimalında aparılan qazıntılar zamanı tunc dövrünə aid kurqanlar, şəhərin mərkəzi hissəsində isə ilk orta əsrlərə aid küp qəbirlər nekropolu aşkar edilmişdi. Xankəndinin kərpic zavodu ərazisində aparılan arxeoloji qazıntılar zamanı ilk orta və orta əsrlərə aid nekropol aşkar edilmişdi.[8.s.79]. Qazıntılar zamanı Qarabağın bir çox yerlərində qoç başı təsvir edilmiş kapitellər (sütün altlıqları) aşkar edilmişdi. Sütün altlıqları ilə yanaşı fərqli formada daşlar da aşkar edilmişdi. Arxeoloqlar bu arxeoloji abidəni məhz Dağlıq Qarabağ ərazisində türk xalqlarına məxsus olduğunu qeyd edir.

Xankəndi və ətraf ərazilərdə e.ə.VI-III əsrlərə aid skif kurqanları aşkar edilmişdi. Üzərində etnoqrafik yazı nümunələri olan qəbir daşları və dini abidələr Qarabağın yerli əhalisinin kimliyi haqqında çox qiymətli məlumat verir. Qarabağın dağlıq və düzən ərazilərində aşkar edilən Xocalı dolmenləri, Xankəndi kurqanları bölgənin tarix arxeoloji etnoqrafik tədqiqi üçün əhəmiyytii yüksəkdir. Kurqanlar aşkar edilən yerlərdə dairəvi daşla hörülmüş kromlekslərə də rast gəlinir. Azərbaycanda kromlekslər qismən yayılmışdı. Əsasən Yuxarı Qarabağ-Xocalı, Xankəndi eyni zamanda Şərur rayonu ərazisində dı rast gəlinir.

Xankəndi şəhərinin inzibati ərazisinə aid olan Kərkicahan qəsəbəsində də arxeoloji abidələrə rast gəlinir. 1960-cı ildə DQMV(Dağlıq Qarabağ Muxtar Vilayəti) millətçi erməni rəhbər orqanları tərəfindən Kərkicahan rəsmən siyahıdan çıxarılmış və Xankəndi şəhərinə birləşdirilmişdi. Qəsəbə şəhərin cənub-

qərbində yerləşir. 1988-ci ildə Xankəndinin cənub-qərbində aparılan qazıntılar zamanı III əsrə aid yazılı daşlar, qoç fiqurları, küplər və xəzinələr aşkarlanmışdı. Məlum olunmuşdu ki, bu tapıntılar I-III əsrə aiddir. Eyni zamanda Kərkicahanda XII əsrə aid qədim qəbirstanlıqlar aşkar edilmişdi. Memarlıq abidələri içərisində səkkiz guşəli minarəyə, kurqanlara, heykəllərə rast gəlinir. Arxeoloji qazıntılar zamanı bu ərazilərdə qədim məhəllələr də aşkar edilmişdi. Dağlıq Qarabağ ərazisində rast gəlinən siklopik tikililər bu ərazilərdə də öyrənilmişdi. Çox təəssüflər olsun ki, işğal dönəmində də bu abidələr təmamilə məhv edilmişdi. Kurqanlar tədqiq edilərkən məlum olur ki, burada dəfn edilənlər məhz türklərdi. Bu isə Xankəndinin əzəli türk torpağı olmasına bir sübutdur. 1970-ci ildə tapılan kurqanlar işğal dövründə təmamilə məhv edilib. Araşdırmalardan məlum olur ki, xankəndində 34 qədim məhəllə olmuşdur. Hər məhəllənin də məscidi və hamamı var idi. İşğal dönəmində bu məhəllələr də dağıdılmışdı. Xankəndində Siyafur, İmam Əli, Xərraf Usta Qulu, Əyri dam, Çay kənarı, Kiçik, Sarı və s. kimi məhəllələr olmuşdur.

Xankəndi abidələrinin son aqibəti. Əsası XIX əsrin əvvəllərindən qoyulan Xankəndinin ermənileşdirilməsi planı 1988-ci ildə pik həddə çatdı.Artıq Dağlıq Qarabağda etnik təmizləmə başlanıldı. Yuxarı Qarabağda Qarqar çayının sahilində Qarabağ silsiləsinin şərq düzündə yerləşən Xanın kəndi seperatçıların əlinə keçdi. Azərbaycanın inkişaf etmiş sənaye şəhəri olan (sovet dövrü 1920-1991-ci il) Xankəndinə XIX əsrdən İrandan köçürülən ermənilər yerləşdirilirdi. 1991-ci ildən sonra Xankəndində bir dənə də olsun azərbaycanlı yaşamır. İşğal dövründə Xankəndində 22591 eksponatı olan Tarix Diyarşünaslıq muzeyi, eyni zamanda 174 eksponat olan Dövlət rəsm qaleriyası ermənilərin əlinə keçdi. Qarabağın işğal olunmuş bütün ərazilərində olduğu lkimi Xankəndində də bütün abidələr dağıdıldı və yaxud dəyişdirilərək erməni abidəsi kimi təqdim edildi.Qanunsuz aparılan arxeoloji tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət nümunələri ermənistana daşındı. İşğal dövründə Xankəndində 14 mədəniyyət resursları, 6 abidə, qədim qəbiristanlıq, kurqanlar, alban məbədi, kromlekslər, 5 mədəniyyət izi məhv edildi. İşğal dövründə Xankəndində Qərbi Azərbaycanda (indiki Ermənistan) olduğu kimi türk yazılı abidələri erməni adı ilə əvəz olundu. Hətta 1923-cü ildə Stepanakert adlandırılan Xankəndi yalnız 1991-ci ildə adı özünə qaytarıldı.

Ermənilərin tarixi arxeoloji abidələri öz adlarına çıxması isə 1956-cı il 5 dekabr UNESCO-nun mədəni irs üzrə normativ aktına ziddir. Başqa xalqlara məxsus arxeoloji abidələri saxtalaşdırmaq, öz adlarına çıxmaq ermənilərin 17 oktyabr 2003-cü il UNESCO-nun Paris bəyamnaməsinə ziddir. 1972-ci il UNESCO konvensiyasına da birbaşa ziddir. Abidələr isə nəinki münaqişə zamanı müharibədən sonra bilərəkdən qəsdən dağıdılmışdı. Bu proses nəinki Xankəndində eyni zamanda Laçında, Şuşada, Füzulidə, Xocalıda, Kəlbəcərdə, Amarasda da təkrarlanmışdı. Ermənilərin vandal davranışları 1954-cü il Haaqa konvensiyasına, Arxeoloji irsin mühafizəsi haqqında 1992-ci il Avropa konvensiyasına, 1999-cu il Silahlı münaqişələr zamanı mədəni nümunələrin qorunması, 1972-ci il UNESCO konvensiyasına ziddir. 2000-ci illərdən 2020-ci ilə qədər ermənilər Qarabağın işğal olunmuş ərazilərində qanunsuz arxeoloji qazıntılar aparmışdılar [14].

NƏTİCƏ: Arxeoloji abidələr mənsub olduğu xalqın keçmişinin bir sübutudur.Yuxarıda deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, Xankəndi qədim zəngin arxeoloji abidələri ilə mənsub olduğu xalqın keçmişinə işıq saçır. Xankəndindən aşkar olunmuş abidələr ilə bu ərazilərin kimlərə məxsus olduğunu öyrənmiş oluruq. Ermənilər Qarabağa köçürüldükdən sonra (XIX əsrin I yarısı) və işğal dönəmində Xankəndində və Qarabağın digər ərazilərində bütün abidələr məhv edilmiş və yaxud ermənileşdirilmişdi. Ermənilər başqa xalqın abidələri üzərində olmayan tarixlərini yaratmaq istəyirlər. Lakin onlar bir gerçəyi unudurlar ki, Qarabağda olan bütün arxeoloji abidələr və torpaq mənsub olduğu xalqın izini qoruyub saxlayır.

ƏDƏBİYYAT

1. Məmmədov N. Azərbaycan Xankəndi şəhərinin tarixi.Bakı.Təhsil.2011.s.224
2. История Азербайджана по документы и публикациям.ред.З.М.Бунятова.Баку.Элм.1990.с.258
3. Hacıyev N.Dağlıq Qarabağın tarixindən sənədlər.Bakı.Gənclik.2005.s.190
4. ASE.on cilddə.9 cu cild.baş red.C.B.Quluyev.Bakı.1986.s.624
5. Гуммел Я.Н. Раскопки в Нагорно-Карабагской автономной области.в 1938г. известия. Азфан. СССР. 1939 М-4
6. Cəbiyev Q.Azərbaycan arxeologiyasının əsasları.Elm və təhsil.Bakı 2018.s596
7. Hacıyev Q.Qarabağın maddi və mənəvi mədəniyyəti. Qarabağ sual və faktlar.Bakı Qismət 2005. S156
8. Məmmədov N.İşğal altındakı tarixi dini abidələrimiz.Bakı 2015.s 96
9. İsmayılov F.Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrinə vurulan zərər.Bakı.2016 s 173
10. Erməni və Azərbaycan munaqişəsi.Bakı2005 s 366.Prezident kitabxanası.
11. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti.2 cilddə.1-ci cild .Bakı 2007.s.228

12. Xəlilov X.Ə.Qarabağın elat dünyası.Bakı. 1992
13. Məmmədov.N.R.Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi.(20-ci əsrin 20-90-cı illəri) Bakı.təhsil.2010 s.101
14. Süleymanlı S.A.Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi.Azərbaycan nəşriyyatı. Bakı 2018 s.296

SUMMARY

ARCHAEOLOGICAL MONUMENTS OF KHANKENDI

Asadova A. V.

This topic is about the ancient city of Azerbaijan, but the city of Khankendi, which is an ancient settlement with monuments. In the 18th century, the city called Khan's village was a recreation center near Shusha, the capital of the Karabakh khanate. The word Khankendi, which is of Oguz_Turkish origin, is also found in many regions of Azerbaijan. Monuments in Khankendi confirm that these areas are the land of Oghuz. During the occupation, historical and archeological monuments in these areas were completely destroyed. However, Armenians forget the fact that no matter how many monuments are destroyed, the land preserves the traces of its people. Khankendi is an integral part of Upper Karabakh, the historical land of Azerbaijan.

Keywords: *Khankendi, monument, ancient, city, mound, necropolis.*

РЕЗЮМЕ

АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ ХАНКЕНДИ

Асадова А. В.

Эта тема о древнем городе Азербайджана, а не городе Ханкенди, который является древним городищем с памятниками. В 18 веке город под названием Ханское село был базой отдыха недалеко от Шуши, столицы Карабахского ханства. Слово Ханкенди, имеющее огузско-турецкое происхождение, также встречается во многих регионах Азербайджана. Памятники в Ханкенди подтверждают, что эти земли являются землей Огузов. Во время оккупации исторические и археологические памятники в этих районах были полностью уничтожены.Однако армяне забывают о том, что сколько бы памятников не было разрушено, земля хранит следы своего народа.Ханкенди является неотъемлемой частью Верхнего Карабаха, исторической земли Азербайджана.

Ключевые слова: *Ханкенди, памятник, древний, город, курган, некрополь*

CƏLİL MƏMMƏDQULUZADƏNİN “ KAMANÇA” PYESİ ERMƏNİLƏRİN TÜRK- MÜSƏLMAN DÜŞMƏNÇİLİYİNƏ CAVABDIR

[1]Əsgərov R. H., [2]Babayev B.H., [2]Həsənova N.H., [2]Hüseynov S.N.
[1]Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və sosiologiya İnstitutu, Bakı, Azərbaycan
[2]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
asgarov_rashad@mail.ru; *baqirbabayev59@mail.ru; nasima.gasanova@inbox.ru; huseynovsadiq289@gmail.com*

Açar sözlər*: Qarabağ problemi, Azərbaycan xalqı, humanizm, Qəhrəman yüzbaşı, ermənilər, türk-müsəlman düşmənçiliyi, faşist ideologiyası*

Azərbaycan Respublikasının Prezident İlham Əliyev “Qarabağ Azərbaycandır və nida işarəsi!”,- dedi və bir ildən sonra xalqımız böyük sevinc yaşadı![8]. Azərbaycan xalqının, millətinin, məmləkətinin və dövlətinin tarixində və taleyində təbiəti, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, bütövlküdə, sənət dünyası ilə onun döyünən qəlbi, vuran ürəyi, əvəzsiz-tükənməz sərvəti Qarabağı ağrı yerimiz edən, onu erməni faşist ideologiyası və ermənilərdir. Müdrik tarix zaman-zaman onları aşkara çıxarıb xalqımıza tanıtdırdı və onların layiqli cəzalarını ömürlərinə yazdı. Deməli, tarix həm də ibrət məktəbidir.

Azərbaycan ədəbiyyatı həmişə bu qaranlıq kölgələri aydınlatmış, xalqımızın hümanizmini erməni qaniçənliyinə qarşı qoymuş, dünyaya ədalətimizi, hümanizmimizi nümayiş edtdirmişdir. XIX-XX əsr ədəbiyyatımız "bədii düşüncə baxımından özünün təkrarsız fərdi özəlliyi ilə seçilir"[2,134], "zamanın tələbinə uyğun olaraq, yeni-yeni keyfiyyətlər kəsb edir"[6,12]. Cəlil Məmmədquluzadənin "Kamança" pyesi "Qarabağdakı erməni-azərbaycanlı münaqişəsindən təsirli bir səhnə canlandırır"[2,51]. O, "bu əsərlə Azərbaycan ədəbiyyatında milli ruh, milli-mənəvi dəyərlər əks olunduğu ən kamil bədii əsər" [3,194], "Azərbaycan dramaturgiyasında Qarabağ savaşını əks etdirən ilk nümunə yaratdı" [5,115].

Dünya, xüsusilə Azərbaycan ədəbiyyatında özünəməxsus yerə sahib olan, hər zaman yeri görünən Cəlil Məmmədquluzadənin yaradıcılığındakı ideyaların cövhəri milli- mənəvi, ümumbəşəri dəyərlərdir. Dahi Mirzə Cəlil bu prinsipləri yaradıcılığında bəyan edən Azərbaycan xalqının, Türk-İslam dünyasının əbədiyaşar dahilərindəndir. Klassiklərimizin yaradıcılığında bütün xalqlara, millətlərə, dinlərə, dillərə, dini inanclara olan hörmət və ehtiram, humanist bəşəri dudyğular, dostluq və səmimi sevgi hissləri açıq-aydın görünməkdədir. Cəlil Məmmədquluzadə 1918-ci ildə günahsız olaraq işgəncələrə, təhqirlərə və kütləvi soyqırıma məruz qalmış xalqımıza, türk-müsəlmanlara qarşı ermənilərin törətdiyi soyqırım və kütləvi terror aktlarına qarşı seyrçi qalmamışdır.

"Kamança" erməni-azərbaycanlı (türk-müsəlman) münaqişəsinin acılıqlarla dolu həyat səhnələrinin canlandırılmasıdır. Xalqına, millətinə candan bağlı olan Azərbaycan türkü-Qəhrəman yüzbaşı daşıdığı, mənsub olduğu milli-mənəvi ruhu, onun əlçatmazlığını, ülviliyini və bəşəriliyini təcəssüm etdirir. Silahsız dinc azərbaycanlıların ermənilər tərəfindən nahaq yerə düşmənçiliklə, qəsdən öldürülməsi vəhşi, qaniçən ermənilər durdurmur, dayandırmır. Əksinə, Mirzə Cəlil böyük ustad kimi, bu mənanı aşılayır ki, türkü-azərbaycanlını özünə düşmən bilən erməni hər zaman və hər yerdə elə məqam axtarır ki, məhz türk-azərbaycanlı sahibsiz-yiyəsiz, silahsız-əliyalın olsun.

"Bu baxımdan Azərbaycan ədəbiyyatında Qarabağ savaşına həsr olunan ilk dram əsəri- "Kamança" pyesi mühüm əhəmiyyət kəsb edir"[3, s.193]. Cəlil Məmmədquluzadə burada "müharibə, işğalçılıq, dağıntı, qırğın kimi qorxunc həyat hadisələrinin fövqünə dünyəvi gözəlliyi qoydu, "dünyanı gözəllik xilas edəcək" kəlamının doğruluğunu bir daha təsdiqlədi"[5, s.115]. O, burada gözəl, ülvi estetik prinsipləri tərənnüm edir ki, bunlar bəşəridir, insanpərvərlik təzahürüdür, çox yüksək humanizmə malikdir. Amma burada Azərbaycan muğamının ecazkarlığı, insanı ovsunlayan gücü, qüdrəti, onun siyasətdən, ideologiyadan, amansız qanunlardan çox ucalarda dayandığı dünyaya nümayiş etdirilir, Azərbaycanın sonsuz dəyərləri təsdiq edilir. Bu mənada, Qəhrəman yüzbaşı uşaqlar, qadınlar, qocalar daxil, istisnasız olaraq, xalqın, millətin bütün günahsız qurbanlarının hər birinin dərdini-sərini çəkir, onunla birgə-həmdərd, həmfikir olur. Ermənilərin öldürdükləri hər bir günahsız insanımızın surətinin "gəlib gözümün qabağında dayanır"[4, s.433],- deməsi onun xalqın dərdinə şərik olmasına sübutdur. O, qanlı düşməni ermənilərdən biri olan kamançaçalan Baxışıya münasibətdə hökm sürən amansız savaş qanunlarını bir kənara atır, ülvi, bəşəri insani keyfiyyətləri daha da ucalarda tutur.

Azərbaycan ədəbiyyatında hər zaman azərbaycanlıların ermənilərlə dostluğu haqqında yazılmış və insani-bəşəri duyğular uca tutulmuşdur. Amma əvəzində belə bir fikri irəli sürmək olar ki, ermənilik ideologiyasının mayasında gizlənən barışmaz anti-türk, anti-müsəlman düşmənçiliyi-xisləti onların "nankor" olduqlarının sübutudur! Ermənilərin milli varlığımıza, vətənimizə, millətimizə, milli-mənəvi dəyərlərimizə qarşı talançı, vəhşi münasibəti elə XX əsrdə olduğu kimi, indi də bizləri bir daha düşünməyə vadar edir. Bu mənada "Kamança" pyesi milli qeyrət nümunəsidir, xalqa, vətənə bağlılığın parlaq simvoludur. Əsər gələcək nəsillərimizə yaşanmış faciələrimizin bir daha təkrarlanmaması üçün ibrət məktəbidir, xalqımızın yüksək mənəvi-əxlaqi dəyərlərini özündə toplayan bir xəzinədir.

1918-1920-ci illərdəki Qarabağda baş vermiş erməni-müsəlman qırğınından bəhs edən "Kamança" əsərində türk-müsəlman düşmənçiliyini kini, nifrəti ilə yoğurub nəfəsində-qanında gəzdirən ermənilərə və ermənilyə qarşı mərd, qorxmaz humanist azərbaycanlı obrazı dayanır. Qəhrəman yüzbaşı bu savaşdan, qırğından, tökülən nahaq qanlardan xəbərdardır, barıt qoxusunda qan-ölüm görənlərdən biridir. Onun gərginliyi ilə birgə qayğıları da aşıb-daşır, vətənini, millətini, ətrafında baş verənlərdən düşmənin hiyləgərliyini, namərdliyini, amansızlığını görmüşdür, dostları öldürülsə də, qəlbində yaşamağın və yaşatmağın nə olduğunu biləndir. O, kininin, nifrətinin, sönməz qəzəbinin, coşan hiss və duyğularının, intiqam almaq atəşinin üzərinə buz kimi soyuq bir örtük çəkir, xeyirxah niyyətlərini, humanizmini onların hamısından yüksəkdə tutur. O, belə ikili hisslərdən, duyğulardan bezir, cana doyur, bu "zalım dünyada" zalım olmaqdan uzaqda dayanıb mərdlik edir: o, öldürməkdən də, ölməkdən də, silahdan da əl götürüb, onları yerə çırpır, ilahi saf niyyətilə humanizmə sarılır.

Əsərdə iki fərqli psixologiya, iki fərqli ruh və mənəviyyat dünyası öz ifadəsini tapmışdır. Münaqişəni təsvir edən ədib həmvətənlərinə kədərli bir dillə, yüksək bədii sənətkarlıqla erməni psixologiyasını- xislətini aydınladır: "bu iki cüt bir tək qorxaq ermənilər, bilmirəm, vallah, bizdən nə istəyirlər?"[4, s.433]. Burada

azərbaycanlının milli psixologiyasındakı düşündürücü milli-mənəvi ruh necə də narahatdır! Ermənilər qonşuluqdakı müsəlmanların-azərbaycanlıların yaşamaq istəyinə məhəl qoymur, hesablaşmır. Ermənilərin psixologiyasını açan Mirzə Cəlil, erməni düşmənçiliyini açıq-aşkar dəllillərlə sübut edir. Ustad həm dərin kədərlə-hüznlə, həm də sönməz qəzəblə qorxunc, eləcə də, sanki qorxaq ermənivə üzünü tutub deyir: "bax, qorxudan yoluq cücəyə oxşuyursan"[4, s.433]. Əslində, saysız-hesabsız azərbaycanlının qanına əlini batıran ermənininin "yoluq cücə" xarakterini sübut edən onun mənfur, qəddar xisləti, xain-xəyanətkar keyfiyyətsizliyidir. Mirzə Cəlil xain, qəddar, qaniçən ermənini unutmamağa çağırır, mərhəmətli, bağışlayan, humanist azərbaycanlıya onu bir daha tanıtdırırdı: "sən də haman müsəlman qanına yerikləyən ermənilərdən birisən"[4, s.434].

Bu, bütün ermənilik ideologiyasına boyun əyənlərin hamısının ifşası, ədalət mühakiməsidir, eləcə də, qonşularına-müsəlmanlara-türklərə qarşı ermənilərin vəhşi əməllərinin, arzu və istəklərinin hansı məqsədlərə xidmət etdiyinin bir daha təsdiqidir. Azərbaycan milli ruhuna, mənəviyyatına böyük zərər vuran ermənininin qorxaqlığı, kin, nifrət, qisas, intiqam hissləri onların genetik kodlarından xəbər verir. Ustad Mirzə Cəlil bütün dünyaya ən ülvi, ən saf, təmiz hisslərdən məhrum qalan ermənininin yalançılığının onların qəlbində necə dərin yer tutduğunu göstərir və təəccübünü gizlətmir. Budur erməni xisləti: "bilsən də, doğrusunu ki, deməyəcəksən"[4, s.434].

Bu, danılmaz, geri çevrilməsi mümkünsüz olan məntiqi, dürüst tarixi həqiqətdir. Onları Qafqaza XIX yüzilliyin lap başlanğıcında Türkmənçay[1828] və Ədirnə[1829] müqavilələrindəki razılaşma şərtlərinə uyğun olaraq, Qacarlar dövlətindən və Osmanlı ərazilərindən qədim, köklü Azərbaycan torpaqlarının Naxçıvan, İrəvan və Qarabağ bölgələrinə köçürüb yerləşdirən Rusiya dövləti olmuşdur. Bugün Rusiyanın sayı-hesabı bilinməyən arxiv sənədlərində, hətta bütün dünyanın ermənilərinin hər bir nəfərinə yetəcək qədər qalaq-qalaq sənədlər vardır. Bu problem az qala iki yüz ilə qədəki tarixin sınaqlarında nə qədər aktual idisə, bugün onlardan daha artıq aktualdır. Çünki 44 günlük Vətən müharibəmizdəki Zəfər sevinci Azərbaycanın bütün türk-müsəlman əhalisi ilə birlikdə multikurtural cəmiyyətimizdə bütün vətəndaşlarımızın, Azərbaycan Respublikasının, bütünlüklə, Türk dünyasının ədalətli haqq səsinin eşitməsidir!

Həmişə yalnız öz mənfəətini düşünən ermənininin qonşusu Azərbaycan xalqına bütün insanlıq çərçivələrinə sığmayan, dəyişmək bilməyən münasibəti çox ibrətamizdir. Ermənilər hər zaman azərbaycanlıların başına gətirilən milli faciələrin gerçək müəllifləridir. Onların insanlıq keyfiyyətlərində ədalət və sədaqətdən heç söhbət ola bilməz. Onlar Allahın yazdığı qanunlar çərçivəsində dinindən dönməslər də, vicdansız, insafsız davranışları-əməlləri ilə bütün ətrafdakılara hər zaman çətinliklər yaşatmışlar. Azərbaycan xalqının mayasında olan tolerantlıq və multikultural ideyalar erməni xislətində heç bir şeylə öz ifadəsini tapmır. Ermənilik xislətinə hakim olan qırğın törətmək, öldürmək, qan tökmək hissləri hər zaman onları alışdırıb-yandırmışdır.

Ustad Mirzə Cəlil çox böyük arifliklə sanki erməni xislətinin necəliyindən ardıcıl olaraq ətraflı məlumat verməkdədir. Bu qədər günahlar içində yanıb tökülən, şülhə, əmin-amanlığa, dincliyə arxa çevirən, qəlbləri humanizmdən ölgünləşən xəyanətkar ermənilər törətdiyi əməllər zamanı Allahı, onun müqəddəs kitablarını heç yada salmırlar. Amma Mirzə Cəlil xatırladır ki, iş ölüb-qalmaq məsələsinə gələndə erməni yaşamaq istəyi ilə ölümün də nə olduğunu anlayır, "Ağa, din haqqı xəbərim yoxdur"[4, s.433), "Səni and verirəm bizi yaradan Allaha"[4, s.434],- deyə yalvarır. Mirzə Cəlil müsəlmanı-türkü-azərbaycanlını onun imanı, söykəndiyi uca, mütləq həqiqəti ilə üz-üzə qoyan ermənilik və çox ciddi bir təhlükə ilə üz-üzə qalan ermənilik ideologiyasının mənfur niyyət daşıdığını bir daha bizim yadımıza salır, onu əsla unutmamağa çağırır. Vəhşi və qəddar eməni canının salamatlığı üçün bicliklə, özünü axmaqlığa qoysa da, qəddarlığını, vəhşiliyini dinə söykənməklə xilas etməyə çalışır.

Bu ağrılı-acılı problemin bugünkü mənrəsinə hansı baxış bucağı altında baxsaq, millətimizin, xalqımızın, vətənimizin milli mənafeyinin vacibliyinin nə qədər gərəkli olduğunu, millətimizin milli-mənəvi yaddaşında əhəmiyyətini ən gözəl yadigarlarımız olan əbədi nümunələrə müraciət etməklə görə bilərik. Azərbaycan ədəbiyyatında heç zaman etnik ayrı-seçkilik əlamətlərini görmək olmaz. Əksinə, ölkəmizdə bütün millətlərin, xalqların, etkin qrupların, mədəni müxtəlifliklərin hamısına münasibətdə sonsuz humanizm və zəngin dostluq, qardaşlıq, beynəlmiləl insanpərvərlik münasibətləri açıq ifadəsini tapmışdır. Yəni, Azərbaycan ədəbiyyatındakı multikultural dəyərlərə geniş aspektdən yanaşsaq, etnik-milli identikliyin, tolerantlığın şahidi olarıq!

Əslində Mirzə Cəlil əsərdə türkün qonşuluğunda yaşayan ermənininin türkdən tamamilə fərqli olduğunu dünyaya tanıtdırmışdır. Erməni gündəlik həyat tərzində türkdən bir çox şeylər öyrənmişdir, amma qisasçı, haqsız-ədalətsiz, zalımlığı ilə türkdən tamamilə fərqlidir. Yazıçı sanki öncədən bunun bütün türk-müsəlman dünyasının gələcəyi üçün nə qədər təhlükə törədə biləcəyini görmüş, gələcək nəsilləri bundan xəbərdar etmək istəmişdir. Burada ədib ermənivə nifrət etmir, əksinə, daha çox ona yazığı gəlir, çünki nifrətlə daxili dünyasını puç edən erməni kinini, nifrətini ilə öz məhvinə səbəb olacaq, Türkə, azərbaycanlıya yeniləcəkdir.

Ədib Qəhrəman yüzbaşı obrazı ilə, bizə görə, Azərbaycan türkünün mayasındakı mərdlik, qəhrəmanlıq, kişilik, bağışlamaq hisslərini daha da gücləndirir, onun ürəyinə nifrətin, kinin yolunu bağlamaq istəyilə qəlbini saflaşdırmış, paklandırmış, durultmuşdur. Əsər başdan-ayağa humanizmin təcəssümüdür. Ermənilik ideologiyasına qul olanlar zəngin azərbaycanlı-türk milli ruhuna, mənəviyyatına sahib ola bilməmişdilər və belə bir ruha sahib ola bilməyəcəklər.

Cəlil Məmmədquluzadə ermənilinin psixoloji tərəfdən görünməyən cəhətlərini açmışdır. Bu münaqişədə ermənilinin bəşəri dəyərlərdən məhrum qaldığı görünməkdədir. O, ermənilik ideologiyası qullarının xarakterindəki dünyəvi, bəşəri dəyərlərin necə itib getdiyini ustalıqla ortaya çıxarıb ifşa etmiş, ermənilərin azərbaycan türklərinə qarşı nə qədər vəhşi, qisasçı və qəddar olduqlarını ortaya çıxarmışdır. Budur ermənilik: "Dünyada bir haramzadalıq qalmadı ki, öyrənməmiş olsunlar. Şeytana papaq tikirlər" [4, s.436]. Qəhrəman Yüzbaşı kövrəkqəlbli humanizmə sarılan azərbaycanlı kimi, milli mənsubiyyətinə xas olan, milli ruhu, mənəviyyatı nümayiş etdirir. Mirzə Cəlil ermənilərinsə bunların tam tərsi olduqlarını göstərir:"Siz gedin müsəlmanların toyunda plov yeyin, axmaq müsəlmanların pullarını doldurun cibinizə"[4, s.43]. Burada savaş səhnələri heç gözə dəyməsə də, Mirzə Cəlil Azərbaycan türkünün qəlbindəki Allahın kəramətinə bağlılığı canlandırır, Qəhrəman Yüzbaşı obrazı ilə hər bir azərbaycanlının humanizminin intiqam, qisas düşmənçilik hissindən üstün olduğunu böyük cəsarətlə dünyaya tanıtdırmışdır. Qəhrəman Yüzbaşı adı kimi əsl qəhrəmalıq simvoludur: güclü, enerjili, gərgin, qayğıkeş, dostcanlı, düşmənə qarşı barışmaz, eyni zamanda, bu namərd dünyada, əksinə, igid, mərd, zəifi, məzlumu əzməyən, ona rəhm edən, bağışlayan, qisas almaq istəklərini boğan, ona hakim olandır.

Azərbaycan türkünün o zaman da, bugün-indi də, gələcəkdə də erməni ilə qonşuluqda yaşaması, bəlkə də, biz bilmədiyimiz halda, Allahın hökmü olsa da, bizlər həmişə özümüzü qorumağa çalışıb, qəlbimizə, duyğularımıza düşmənçiliyi yaxın buraxmamışıq. Ustad Mirzə Cəlil Azərbaycan gəncliyinin milli-mənəvi dünyasında elə bir ruh yaratmaq istəmişdir ki, onun təməlində keçmişimizin zəngin, mənəvi sərvətlərinə sahib olaq, bəşəri, humanist ruhu daha ucalarda saxlayaq, mənfur düşməndən üstün olaq, onun alçaldığı yerlərdən ucalarda dayanaq. Ustadın arzuları vətənimizə sahib çıxmaq, onu qorumaq, ermənyə alternativ yol qoymamaq, xalqımızın tarixi kökündəki humanizmin qayəsindən xəbər verməkdədir. Ustadlarımızdan bizə örnək olan bu yolun bugün başqa alternativi yoxdur.

ƏDƏBİYYAT

1. Baxışova Rəna. Şimali Azərbaycanin Qarabağ bölgəsində ədəbiyyat (XIX-XX əsrin əvvəlləri). " Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri". Beynəlxalq konfransın materiallar toplusu: Bakı, 8-9 sentyabr 2016. 487 səh. (s. 134-137).
2. İsaxanlı Hamlet. Mənim Qarabağım və ya Qarabağ düyünü. Xəzər xəbər № 402-403 Yanvar-Fevral 2021, s.40-54.
3. Əhmədova Rasimə. Cəlil Məmmədquluzadənin yaradiciliğinda multikulturalizm. " Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri". Beynəlxalq konfransın materiallar toplusu: Bakı,8-9 sentyabr 2016. -487 səh. (s. 191-194).
4. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə, I cild, Bakı, "Öndər nəşriyyatı", 2004, 664 səh.
5. Məmmədova Solmaz. Dramaturgiyada bəzi multikultural məqamlar. " Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri" adlı beynəlxalq konfransın materiallar toplusu: Bakı, 8-9 sentyabr 2016. -487 səh. (səh.112-116).
6. Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı, Nurlan, 2012, 325 s.
7. Qasımov Ramiz. Mirzə Cəlilin "Kamança"sı: milli özünəqayıdışın "melodiyası" https://strateq.az › edebiyyat 26 May 2019
8. "Valday"da "Qarabağ Azərbaycandır və nida işarəsi" deyən Prezident İlham Əliyev düz bir ilin tamamında xalqımıza böyük sevinc yaşatdı https://azertag. az › xeber › 04.10.2020

.

SUMMARY

JALIL MAMMADKULIZADE'S PLAY "KAMANCHA" IS A RESPONSE TO THE TURKISH-MUSLIM ENMITY OF ARMENIANS

Asgerov R.H., Babayev B.H., Hasanova N.H. Huseynov S.N.

In the historical destiny of the Azerbaijani people, Karabakh with its literature, culture, and art is its beating heart, its inexhaustible wealth. And the Armenians and the Armenian ideology have turned Karabakh into our pain. But the Azerbaijani literature of the XIX-XX centuries demonstrated to the world the

humanism of our people against Armenian barbarism. In this sense, Jalil Mammadkulizade's play "Kamancha" is the first perfect work of art in Azerbaijani drama reflecting the Karabakh war, the Armenian-Azerbaijani conflict. In the work, the zealous centurion Kahraman is a symbol of the humanism of the Azerbaijani Turk, and those Armenians who did not remain in their enmity with the generation and dragged us into innocent tragedies prove the immorality of the fascist ideology.

Keywords: *Karabakh problem, Azerbaijani people, humanism, Kahraman Yuzbashi, Armenians, Turkish-Muslim enmity, fascist ideology*

РЕЗЮМЕ

ПЬЕСА ДЖАЛИЛА МАМЕДКУЛИЗАДЕ "КЯМАНЧА" - ОТВЕТ НА ТУРЕЦКО-МУСУЛЬМАНСКУЮ ВРАЖДУ АРМЯН

Аскеров Р.Г., Бабаев Б.Г. Гасанова Н.Г., Гусейнов С.Н.

В исторической судьбе азербайджанского народа Карабах с его литературой, культурой, искусством-это его бьющееся сердце, его неиссякаемое богатство. А армяне и армянская идеология превратили Карабах в нашу боль. Но азербайджанская литература XIX-XX веков продемонстрировала миру гуманизм нашего народа против армянского варварства. В этом смысле пьеса Джалила Мамедкулизаде “Кяманча”-первое в азербайджанской драматургии совершенное художественное произведение, отражающее Карабахскую войну, армяно-азербайджанский конфликт. В произведении ревностный сотник Кахраман символ гуманизма азербайджанского Тюрка, а те армяне, которые не остались в своей вражде с поколением и втянули нас в невинные трагедии, доказывают безнравственность фашистской идеологии.

Ключевые слова: *карабахская проблема, азербайджанский народ, гуманизм, Кахраман йузбаши, армяне, турецко-мусульманская вражда, фашистская идеология*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TƏHSİL İNFRASTRUKTURU

Fərhadova J.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
cale80@mail.ru

Açar sözlər: *müharibə, işğal, qələbə təhsil, məktəbli*

Gələcəyin çağrışlarına cavab vermək və innovativ inkişafı təmin etmək baxımından təhsilin məzmununun yenilinməsi mühüm prioret məsələlərdəndir. Bununla əlaqədar olaraq gələcəkdə təhsilin bütün pillələri üzrə məzmunun təkmilləşdirilməsi, əmək bazarının gələcək tələblərinə uyğunlaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Məhz bu yanaşmadan çıxış edərək müasir cəmiyyətin inkişafı üçün məktəbəqədər, ümümtəhsil, peşə və orta ixtisas, ali təhsil standartlarının tətbiqi ilə bağlı işlər davam etdirilməlidir.

2020-ci ilin Vətən müharibəsində də Ermənistan silahlı qüvvləri beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, müharibə zonasından kənarda yerləşən dinc əhalini və mülki infrastrukturu yenə də ağır silahlardan atəşə tutmağa davam etmiş, oz köhnə xislətlərinə davam etmişlər. Ermənistan silahlı qüvvləri tərəfindən Gəncə, Mingəçevir, Naftalan, Bərdə, Tərtər, Xızı, Abşeron və digər bölgələrin yaşayış məntəqələri raket atəşinə tutulmuşlar. Vurğulamaq yerinə düşər ki, Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinin ballistik raketlə hədəfə alınması nəticəsində 9 məktəbə, həmçinin 29 nömrəli tam orta məktəbin binasına da ciddi ziyan dəymiş. Tərtər rayonun artilleriya atəşə tutulması nəticəsində 18 məktəb binasına ziyan dəymiş, 2 məktəb binası təmailə yararsiz vəziyyətə düşmüşdü. Təhsil Nazirliyin məlumatında bildilir ki, baş vermiş 44 günlük müharibə zamanı təcavüzkar Ermənistan qəsdən məktəbləri hədəfə alıb, nəticədə 54 məktəb dağıdılıb, 6-15 yaş arası 10 məktəbli faciəvi şəkildə qətlə yetirilib, 16 məktəbli isə yaralanıb: Erməni işğalçıları tərəfindən bu kimi hallar Azərbaycan təhsilinə hücumdur.

Müharibə dövründə Tərtər rayonunda zərər çəkmiş obyektlərdən biri də rayonun Düyərli kənd məktəbinin binasıdır. 2021-ci ilin fevral ayında Azərbaycan Respublikasının Təhsil Naziri Emin Əmrullayev, UNİCEF və Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə birlikdə Düyərli və Gəncə şəhəri 29

nömrəli kənd məktəbində olublar. Düşmən təcavüzünün faciəvi nəticələrinin əyani şahidi olduqdan sonra rəsmi şəxslərin bu ərazilərdə təhsil alan şagirdlərlə görüşü keçirilib.

Hazırda biz azad olunmuş ərazilərimizdə məktəblərimizi yenidən tikib, təhsil ifrastrukturunu bərpa edirik. Sentyabrın 9-u tarixini Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü kimi dünya ictimaiyyəti ilə birgə qeyd edərək, azərbaycanlı məktəblilərə qarşı törətdiyi müharibə cinayətlərinə görə Ermənistan adlı işğalçını daşıdığı məsuliyyətini və uşaqların təhlükəsiz şəraitdə təhsil almaq hüququna hörmət edilməsinin vacibliyini bir daha vurğulayırıq. Ermənistandan silahlı qüvvələri tərəfindən törədilmiş müharibə cinayətlərinə dair çoxsaylı faktları araşdırmaq və bu cinayətləri törədənləri məsuliyyətə cəlb etmək beynəlxalq öhdəliklərinə riayət etməyi tələb edirik.

Şuşa sürətlə dirçələrək əvvəlki mədəni həyatına qovuşmaq yolundadır, buna Xeyirin Şər üzərində qələbəsinin təcəssümü deyə bilərik. "Dəmir yumruğa" Ağoğlanda qoyulan dəmir heykəl gücün mədəniyyətə, mədəniyyətin gücə çevrilməsi təntənəsi, Ermənistanın 30 il davam edən təcavüzkar siyasəti üzərində böyük Zəfərin simvoludur.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın müasir gəncliyi bütün sahələrdə özünü doğruldur. Milli ruhda tərbiyə almış gənclər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi, canları və qanları bahasına torpaqlıarımızı düşmən işğalından azad etdilər. Qəhrəmanlıq salnaməsi yazan Azərbaycanın müasir gəncliyi gələcək nəsillər üçün qürur mənbəyinə çevrildi.

Vətən müharibəsi zamanı 19-23 yaş arası 1020 gəncimiz şəhid olmuşdur. Vətən müharibəsində qazanılan qələbə nəzərə alınmaqla, məktəblərin tədris proqramlarına və dərsliklərinə Azərbaycanın yeni tarixi ilə bağlı əhəmiyyətli dəyişikliklər və əlavələr edilmişdir. Gələcəkdə nəşr olunacaq dərsliklərdə isə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin 44 günlük müharibədə qələbəni qazanılmasında müstəsna rolu layiqincə araşdırılaraq əks etdirilməlidir. Hesab edirəm ki, gələcək nəsillər Azərbaycan tarixində İlham Əliyevin rolunu, dahi sərkərdənin savaş günlərində qoşunları necə ustalıqla idarə etməsini, informasiya cəbhəsində təkbaşına mübarizə aparmasını sevərək oxuyacaqlar.

SUMMARY

EDUCATIONAL INFRASTRUCTURE IN THE LIBARATED AREAS

Farhadova J.F.

Under the influence of serious problems arising from Armenia's military aggression against Azerbaijan, educational institutions were regularly fired upon by the Armenian armed forces without any distinction, and schoolchildren and educational potential were involved in the educational process under threat. Such cases by the occupiers are an attack on Azerbaijani education.

Key words: *war, occupation, victory education, student*

РЕЗЮМЕ

ОБРАЗОВАТЕЛЬНАЯ ИНФРАСТРУКТУРА НА РАЙОНАХ ОСВОБОЖДЕН ОТ ОККУПАЦИИ

Фархадова Ж.Ф.

Под влиянием серьезных проблем, возникших в результате военной агрессии Армении против Азербайджана, учебные заведения регулярно без разбора подвергались обстрелу со стороны армянских вооруженных сил, а школьники и образовательный потенциал вовлекались в образовательный процесс под угрозой. Такие случаи со стороны оккупантов – это нападение на азербайджанское образование.

Ключевые слова: *война, оккупация, победа, образование, ученик*

SHUSHA - THE PEARL OF KARABAKH

Gazıyeva G.F., Guliyeva V.N.
Ganja State University, Ganja, Azerbaijan
elnura_israfilova@mail.ru

Key words: *Shusha, symbols of history and culture of Azerbaijan, Azerbaijani people, Karabakh problem, Kharibulbul.*

Shusha, the pearl of Karabakh, is regaining its former glory thanks to the restoration of the historical appearance of the city and the holding of cultural events in it.

The city of Shusha has a rich and glorious historical past. Shusha is a symbol of the historical traditions of the Azerbaijani people, a symbol of the ancient Khojaly-Gedabey culture (BC). permanent human settlement. The ancient settlements around Shusha, including the Shusha cave on the famous Dzhidyr plain (on Mount Uchmykh), prove that this area is one of the oldest human camps in Azerbaijan.

Shusha is considered one of the symbols of the history and culture of Azerbaijan. This historical capital, founded in 1752 by the first ruler of the Karabakh Khanate, Panah-Ali Khan, has always attracted tourists due to the beauties of nature, springs, pleasant weather and numerous historical monuments. But this city also has not lost its strategic importance due to its dominant geographical position in the region [3].

At the beginning of the 19th century, a school of Azerbaijani folklore singing, mughamata, began to develop here. Shusha mugham became famous throughout the Transcaucasus and even the Middle East.

Mugham performers were called "khanende". Thanks to them, Azerbaijani culture became famous throughout the region. Often the khanende took as the basis of their creativity the poems of the great Azerbaijani poets - Nizami Ganjavi, Fizuli, Nasimi and others [4].

However, Shusha became famous not only for its musicians, but also for its great poets and playwrights. We can recall the poet Molla Panah Vagif, the founder of the satirical genre in Azerbaijani poetry Kasim bey Zakir, the playwright Najaf bey Vazirov, the poetess Khurshudbanu Natavan. And this is not a complete list of glorious names of Azerbaijani literature from among the natives of Shusha.

Shusha is a mountain climatic resort. The city is located on a vast plateau at an altitude of 1400-1500 meters above sea level. On its territory there are deposits of various building stones and mineral water springs (Turshsu and Shirlan). Shusha was not only a piece of paradise, but also an impregnable fortress of great strategic importance. The distance from Shusha to Baku is 373 kilometers.

During the Russian rule, Shusha, as the capital of Karabakh, retained its significance. The strong Karabakh khanate did not suit Russia and tsarist officials came up with a cunning way to weaken it. They began to resettle in Karabakh, and especially in Shusha homeless Armenians.

During the second Russian-Iranian war from Iran in Azerbaijan, 18,000 Armenian families were resettled in Karabakh. According to the Turkmenchay treaty, 2 years from 1828 to 1830 in the South Caucasus were resettled 40 thousand Iranians and 84 thousand Turkish Armenians. They were settled in the best lands of the Ganja and Irevan provinces, and they were allocated more than 200 thousand tenths of the treasury lands.

Aura of Shusha helped all talented people who were looking for ways of their creative development. And how many talents Shusha would give to the world, if not for the terrible war that began here in the early 90s of the 20th century. The pearl of Karabakh was occupied on May 8, 1992 by Armenian armed forces [2].

Mountain Jew Albert Agarunov, a national hero of Azerbaijan, died heroically in the battle for the defense of Shusha.

Armenia has faced many problems with its land claims against Azerbaijan and the occupation of some lands. The country has been unable to modernize its economy during this period, losing billions of dollars in revenue by staying out of regional economic projects. People began to emigrate en masse, the social and economic situation began to deteriorate with each passing day, and the isolated and militaristic policy left the future of Armenia in question.

Despite the Karabakh problem, Azerbaijan's wise policy has been welcomed around the world. Followed by Ilham Aliyev Heydar Aliyev's political school; It has enabled the establishment of a democratic state, the establishment of a strong economic foundation, and the country's rightful representation in the international arena.

Thanks to the right policy pursued in Azerbaijan, the non-oil economy has developed, the annual state budget has reached $ 25 billion, and $ 50 billion in foreign exchange experience has been provided. Azerbaijan has been forced to pay attention to military development because part of its territory has been occupied. Today, the Azerbaijani military is equipped with the most modern weapons, and professionalism in this field has increased [1].

We not only respect different cultures and religions, but also perceive the entire heritage of Shusha as part of our identity. We believe that cultural heritage does not depend on origin and religious affiliation.

Turkey provided very important political and moral support to Azerbaijan during the 44-day war and now supports Azerbaijan's reconstruction efforts. Turkish companies were among those involved in the construction of the Fuzuli airport and roads, and now they are involved in the restoration and restoration work in Shusha.

The nightingale, which is not found anywhere else in the world, is one of the greatest wonders of nature. People living in the Karabakh region of Azerbaijan have always had a special attitude to this smile. Kharibulbul has become a symbol of Shusha and Karabakh in general. The image of Kharibulbul can be found on Azerbaijani carpets.

The nightingale is the last hope of a soldier who was badly wounded in battle in ancient Turkish mythology.

In commemoration of the martyrs who lost their lives during the Second Karabakh War, which lasted from September 27 to November 10, 2020, the symbol of Kharibulbul began to spread widely on social networks. Haribulbul's greatness, pride, and inflexible stance against injustice began to turn him from a legend into a symbol of victory. Gradually, the badge became a symbol of war. It became popular as a symbol of the memory of the martyrs and the victory of the Azerbaijani army.

Not only did we release our nightingales, but we were also able to lift them out of the trampoline. The Azerbaijani soldier took every inch, every step with his blood and soul.

Every Azerbaijani is justifiably proud of his state, its victories, and is proud to be Azerbaijani. This happiness, this pride was given to us by the Supreme Commander-in-Chief Ilham Aliyev and the brave Azerbaijani Army. The resolute Leader, the victorious Army, the invincible people's unity create a new and glorious history of Azerbaijan.

REFERENCE

1. A.B.Mirzəzadə.Karabağ düğümü (türk dilində). “Azərbaycan nəşriyyatı”. 2012
2. De Vaal Tomas Qara Bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında. Nyu York Universiteti Nəşriyyatı 2003
3. vestikavkaza.ru
4. strmegi.com

XÜLASƏ

ŞUŞA - QARABAĞIN İNCİSİ

Qazıyeva G.F., Quliyeva V.N.

Məqalə yarandığı gündən Qafqazın əsas siyasi və mədəni mərkəzlərindən birinə çevrilmiş Qarabağın incisi Şuşa şəhərinə həsr olunub. Şuşanın Azərbaycan xalqı üçün əhəmiyyəti onunla izah olunur ki, bu şəhər mədəniyyət, tarix və özünəməxsusluq simvolu kimi xidmət edir. Bu şəhərdə Azərbaycan tarixinin bir çox görkəmli şəxsiyyətləri doğulub. Şuşa Azərbaycanın yeganə guşəsidir ki, bu qədər tarix və mədəniyyət xadimləri yetişdirib. O, həqiqətən də Azərbaycanı şöhrətləndirdi. Azərbaycan vətəndaşları onu çox yüksək qiymətləndirirlər”

***Açar sözlər**: Şuşa, Azərbaycanın tarix və mədəniyyət rəmzləri, Azərbaycan xalqı, Qarabağ problemi, Xarıbülbül..*

РЕЗЮМЕ

ШУША - ЖЕМЧУЖИНА КАРАБАХА

Газиева Г.Ф., Гулиева В.Н.

Эта работа посвящена городу Шуше, жемчужине Карабаха, ставшей с момента своего основания одним из главных политических и культурных центров Кавказа. Значение Шуши для народа Азербайджана объясняется тем, что этот город служит символом культуры, истории и самобытности. В городе родились многие выдающиеся деятели в истории Азербайджана. Шуша - единственный уголок Азербайджана, который взрастил такое количество исторических и культурных деятелей. Она поистине прославила Азербайджан. Граждане Азербайджана очень ценят ее».

***Ключевые слова:** Шуша, символы истории и культуры Азербайджана, азербайджанский народ, карабахская проблема, Харибюльбюль.*

MIR MEHDI XƏZANİNİN "KİTABİ-TARİXİ-QARABAĞ" ƏSƏRİNDƏ QARABAĞIN XANLIQLAR DÖVRÜ MEMARLIĞI

Həsənov S.H.
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı, Azərbaycan
samirtarix@gmail.com

Açar sözlər: *Qarabağ tarixi, memarlıq, tarixi həqiqətlər*

İnsanın yarandığı ilk məskənlərdən biri olan və əsrlər boyu təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın, iqtisadi-siyasi və mədəni həyatında mühüm rol oynamış Qarabağın olduqca zəngin bir keçmişi vardır. Qədim Azərbaycan torpağı olan Qarabağın tarixi, mədəniyyət və və incəsənəti ilə bağlı son illər erməni vandallarının apardığı təbliğat tarixi həyasızcasına saxtalaşdırmaqdan başqa bir şey deyildir. Hazırda onlar bu torpaqlarda yerləşən toponimləri, qədim tarixi abidələri, ədəbiyyat, incəsənət əsərlərimizi özlərinki kimi təqdim etməyə çalışırlar.

Qarabağ xanlığının siyasi, ictimai-iqtisadi və mədəni tarixini öyrənmək üçün Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal bəy Cavanşir Qarabağinin "Qarabağ tarixi", Mirzə Yusif Qarabağinin "Tarixi-safi", Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ", Əhməd bəy Cavanşirin 1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair", Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ", M.Baharlının "Əhvalati-Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi", Həsənəli xan Qaradağinin "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları" və Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərlərində olduqca qiymətli məlumatlar var.

Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsəri Qarabağın xanlıqlar dövrü maddi və mənəvi mədəniyyətinin araşdırılması üçün çox əhəmiyyətli mənbədir. Belə ki, Mir Mehdi Xəzani əsərində Qarabağda ardıcıllıqla Pənahəli, İbrahimxəlil və Mehdiqulu xanın hakimiyyətləri dövründə Qarabağda inşa edilmiş tikinti abidələri haqqında çox dəyərli məlumatlar vermişdir.

İki yüz ildir ki, Qarabağı faciələr meydanına çevirən ermənilər bütün vasitələrdən istifadə edərək zaman-zaman tariximizi saxtalaşdırır, uydurma tarix yaradır, azərbaycanlıları öz doğma torpaq-larından sıxışdırıb çıxarırlar. Siyasətbazların əlində alətə çevrilmiş erməni "tarixçiləri" Qarabağ torpaqlarının ermənilərə məxsus olmasını "sübut edən faktlar" toplayır, "hüquqi sənədlər" hazırlayır, ermənilərin ərazi işğallarına qanuni don geyindirməyə çalışırlar.

Mir Mehdi Xəzanin "Kitabi-tarixi-Qarabağ" əsərindəki məlumatlar Qarabağın maddi və mənəvi mədəniyyətinin, Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübut etməyə əsas verir.

Qarabağın memarlıq tarixini araşdırarkən məlum olur ki, Pənahəli xan, sonra da onun oğlu İbrahimxəlil xan bu gözəl diyarın abadlıq işlərinə xüsusi fikir vermişlər. Mir Mehdi Xəzani "Kitabi-tarixi-Qarabağ" əsərinin xatiməsində (sonluq) Qarabağın memarlıq abidələri haqqında çox dəyərli məlumatlar verir. Mir Mehdi Xəzanin verdiyi məlumatlar əsasında Qarabağın xanlıqlar dövrü memarlığını üç mərhələyə bölmək olar. Birinci mərhələ: Pənah xanın hakimiyyəti dövründə inşa edilmiş abidələr, ikinci mərhələ: İbrahimxəlil xanın hakimiyyəti dövründə inşa edilmiş abidələr və üçüncü mərhələ: Mehdiqulu xanın və onların varisləri tərəfindən inşa edilmiş abidələr.

Birinci mərhələ: Pənah xanın hakimiyyəti dövründə inşa edilmiş abidələr.

Pənah xanın hakimiyyəti zamanı inşa edilmiş abidələr haqqında Mir Mehdi Xəzani qeyd edir: "Əvvəl Bayat qalasıdır ki, bişmiş kərpic ilə barı və bürc və imarət və hamam və bazarı təmir olunmuşdur. Xarab edib, kərpicin həm aparıb, qeyri yerlərdə məsrəf ediblər. Qarabağın Kəbirli mahalında vaqedir. Dağılıb, indi cüzvi asar və nişanəsi vardır [9, 103a].

1748-ci ildə inşa edilmiş Bayat qalasının ətrafına bişmiş kərpicdən qalın divarlar hörülmüş, divarların ətrafında isə düşmən hücumu zamanı su ilə doldurulması nəzərdə tutulan dərin xəndəklər qazılmışdı [5, səh. 207]. Bayat qalası 1749-cu ildə Şəki-Şirvan xanlarının hücumlarına sinə gəlmiş və Pənahəli xanın nüfuzunun artmasına səbəb olmuşdu. Məhz bu hadisədən sonra bir sıra Azərbaycan xanları Pənahəli xanın hakimiyyətini tanımaq məcburəyyətində qalmışdı. Xəzaninin yazdıqlarından aydın olur ki, Şahbulaq və Şuşa qalalarının inşa edilməsindən sonra düzənlikdə yerləşən Bayat qalası əhəmiyyətini itirmiş və qalanın kərpiclərindən başqa tikililərin bina edilməsindən ötrü istifadə edilmişdir.

"Batmanqılınc" romanının müəllifi Aqil Abbas Sovet dövründə Bayat qalasının tamamilə sökülməsi haqqında ürək ağrısı ilə yazır: "Kəndimizdə bir qala vardı, Pənah xanın qalası deyərdilər. Biz uşaqlıqda o qala divarlarının üstündə dava-dava oynayardıq. Bir gün "əmilər" həmin qalanı sökdülər, özü də elə təmiz,

elə gözəl sökdülər ki, indi heç bir arxeoloq haçansa bu yerlərdə qala olduğunu sübut eləyə bilməz" [5, səh. 207].

Buradan aydın olur ki, hələ Sovet dövründən başlayaraq ya ermənilər, ya da onların havadarları tərəfindən Azərbaycanın tarixi abidələri məhv edilirdi. Bu şəklildə onlar tarixin "canlı şahidləri"ni susturmağa çalışırdılar.

Şahbulaq qalasının inşa edilməsini Xəzani təsvir edərək yazır: "İkinci-qəleyi Şahbulağdır ki, daş və əhəng ilə çeşmə başında təmir edib. Çarsu və bazar və məscid və hamam qəsəbə şəhər kimi qayırmışdı, indi dağılıb. Hasarı hənuz möhkəm və baqidir" [9, səh. 103a-103b]. Pənahəli xanın tikdirdiyi bu qalada daşdan tikilmiş məscid, hamam, şəhər evləri və bazar yerləşirdi. Şahbulaqda iki qəsr-içqala və xarici qala var idi. İçqəsr təpənin üstündə gur bulağın yanında salınmışdı. Pənahəli xanın iqamətgahı yonulmamış daşlardan düzbucaqlı, 8 pilləli şəkildə tikilmişdi. İqamətgahın möhkəm və hündür divarları var idi [6, səh. 207]. Möhkəm olmasına baxmayaraq Şahbulaq qalası da Pənahəli xanı qane etmirdi. Bunun səbələrini Xəzani belə açıqlayırdı ki, İrandan gələn qorxulu xəbərlər, Azərbaycanda cərəyan edən feodal ara müharibələri və Qarabağda xəmsə məliklərinin düşmənçiliyi göstərirdi ki, Bayat və Şahbulaq qalaları etibarlı sığınacaq deyil. Hər hansı bir hadisə baş verməmişdən əvvəl çarə qılmaq lazım idi. Uzun müzakirələrdən sonra Məlik Şahnəzərin məsləhəti ilə yeni və möhkəm bir qala tikilməsi qərara alındı [6, səh. 207].

R. Qarabağlının yazdıqlarından aydın olur ki, Pənahəli xan islam dini dəyərlərinə sadiq qalmış və inşa etdirdiyi qalalarda məscid tikintisinə olduqca böyük əhəmiyyət vermişdi [8].

Pənahəli xanın Bayat və Şahbulaq qalalarından sonra inşa etdirdiyi Şuşa qalası haqqında Mir Mehdi Xəzani yazır: "üçüncü - Şuşa qalasıdır ki, onun köhnə barısını bina edib və bu halda olan şəhərin üçdən bir hissəsinə möhkəm hasar çəkmişdi. Qalanın bir kənarında özünə imarət yapmışdı. Qalaça tək bürc və barılı idi və böyük oğlu İbrahim xana yenə bir təpə üstə öz evinə bərabər imarəti-mərqum yapmışdı ki, düşmən qalaya gələn çağda, lazım yerləri mühafizə edə. O da bürc və barılıdır. İkinci oğlu Mehrəli bəyə və üçüncü oğlu Talıbxan bəyə dəxi qala içində imarət və ev təmir edib ki, bürc barılıdır. Onlar da indi durur. Hasarı möhkəm məlumdur" [9, səh. 103a-105b].

Pənahəli xan öz adını əbədiləşdirmək məqsədi ilə şəhərə Pənahabad adını vermişdi. Lakin getdikcə bu ad öz əhəmiyyətini itirmiş və qonşuluqdakı Şuşa kəndinin adını qəbul etmişdir" [4, səh. 48].

Həsənəli Qaradaği əsərində bu haqda qeyd edir: "İlk əvvəl bura Pənahabad adlandırılır. Burda pul sikkəsi dəxi vurulur. Eyni zamanda şəhərin yaxınlığında olan Şuşa kəndinin adı ilə Şuşa da adlanır" [7, səh. 357].

Şuşa şəhərinin adı elmi və bədii mənbələrdə üç adla qeyd olunub: Qala, Pənahabad və Şişə. Çar Rusiyası tərəfindən Qarabağın işğalından sonra rus dilində yazılmış mənbələrdə Şişə sözü rus orfoepiyasına uyğun gəlmədiyindən Şuşa kimi tələffüz olundu və indi də belə işlənir. "Şuşa şəhərinin tarixi" haqqında əsər yazan Həsən İxfa Əlizadə əsərində qeyd edirdi: "Bəzən qala sözünü "Şuşa qalası" şəklində də deyirdilər. Az sonra "Şuşa qalası", "Şəhri Şişə", yaxud "Şişə" şəklində işlənməyə başlandı. Rus dilində isə şəhərə "Şuşa" deyildi [5, səh. 317]. Poemasını Qarabağın və Şuşanın təsvirinə həsr etmiş Mirzə Həsən Qarabaği (1824-1904) də əsərində Şuşanı "Şəhri Şişə" adlandırmışdır [13, səh. 75-94].

Şuşanın qala divarlarının möhkəmliyinə verilən əhəmiyyət haqqında F. Əliyev olduqca maraqlı məlumatlar vermişdir. O, yazır: "XVIII əsr feodalı heç vaxt qala divarları ilə əhatə olunmamış yerə əhali toplayıb yaşayış evləri və digər binalar tikdirməyə ürək edə bilməzdi. Çünki belə olduqda əhali və eləcədə şəhərin bütün dükan-bazarı rəqib qoşunlarının qurbanı ola bilərdi" [4, səh. 48].

Qarabağın memarlıq tarixini araşdırarkən məlum olur ki, Pənahəli xan, sonra da onun oğlu İbrahim xan bu gözəl diyarın, xüsusilə Şuşa şəhərinin abadlıq işlərinə xüsusi fikir vermişlər.

Şuşanın şəhərsalma memarlığı 1750-ci ildən başlayaraq 1754-cü ilə qədər davam etmişdir. Bu zamanlar şəhərin qala divarları, qəsrlər, yaşayış binaları və digər təyinatlı ictimai binalar tikilməklə onun şərq hissəsinin doqquz məhəlləsi (Qurdlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur, Dördlər qurdu, Hacı Yusifli, Dörd çinar və Çöl qala) formalaşmış və sonralar onlar da ümumən "Aşağı məhəllə"lər kimi məşhurlaşmışdır [12].

XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri haqqında çox əhəmiyyətli tədqiqatlar aparmış F. Əliyev Şuşa şəhəri haqqında yazır: "Şəhərə qarabağlılardan başqa, bir çox digər xanlıqların şəhər və kəndlərindən gələnlər də var idi. Özgə yerlərdən gələnlər müvafiq olaraq müəyyən məhəllələrdə yerləşirdilər. Bunu Şuşa şəhərindəki bir çox küçə və məhəllə adları bir daha göstərir. Şuşada məhəllələrin Təbrizli, Aqulisli, Qazançalı, Köçərli, Qurdlar, Culfalar və s. adlandırılması, həmin məhəllələrdə yaşayanların müvafiq şəhər və kəndlərdən gəlmələrini gəstərən dəlillərdəndir. Pənahəli xan yeni şəhərə başqa şəhərlərdən öz ailələri ilə birlikdə çoxlu sənətkarları və tacirləri də dəvət etmişdi" [4, səh. 48].

Yenicə meydana çıxmış Şuşa şəhərinin əhalisi belə yolla yaranmışdı. Paytaxt şəhər olan Şuşanın 10 min nəfər sakini vardı [1, səh. 65]. Qala təqribən 3-4 kvadrat versti əhatə edirdi. Şəhər Şimaldan cənuba doğru amfiteatr şəklində uzanırdı.

Qala hasarlarından əlavə, xanın əmri ilə şəhərdən bir az uzaqda daha iki istehkam tikilmişdir. Bu istehkamlar əsas etibarilə keşikçi məqsədini güdürdü.

Şəhərin etibarlı qala hasarları ilə əhatə olunması, orada dinc quruculuq işlərinin aparılması üçün geniş imkanlar yaratmışdı. Odur ki, şəhərdə tikinti işləri sürətlə genişlənmişdi. Həmin dövrlərdə tikilmiş "Xan sarayı" bugünə kimi saxlanılmaqdadır. Şəhərdə bazar meydançası, hər bir məhəllə üçün məscid, hamam, mədrəsə və s. inşa edilmişdir" [4, səh. 48-49].

İran tarixçisi Ə. Pakrəvan Şuşa şəhərinin gözəlliyi haqqında əsərində yazırdı: "Ağa Məhəmməd xan Şuşanın gözəlliyi qarşısında heyran qalmışdı. Şuşa o zaman Qacar imperatorluğunun paytaxtı Tehrandan daha böyük və şəhər mədəniyyəti baxımından daha irəli səviyyədə idi. Bütün ordu mənsubları da dağların qoynunda və ormanlıqda yerləşən bu şəhərin gözəlliyinə heyran olmuşdular" [11, səh. 11].

M. Mustafayev Qarabağ xanlığının sürətli inkişafının səbəblərini belə açıqlayırdı: "Şuşa şəhərinə inşa edildiyi gündən 1797-ci ilə kimi bir dəfə də olsun düşmən ordusu daxil ola bilməmişdi. Qala möhkəm və əlçatmaz hündürlükdə yerləşirdi. Qeyd etdiyimiz kimi, belə bir vəziyyət şəhərdə istehsal qüvvələrinin inkişafı üçün əlvereşli şərait yaratmışdı. Buna görə də, əgər Azərbaycanın Bərdə, Gəncə, Şamaxı kimi qədim şəhərləri özlərinin keçmiş şöhrətləri ilə öyünə bilirdilərsə, Şuşa onları öz inkişafına görə ötüb keçmişdi" [10, səh. 8].

İkinci mərhələ: İbrahimxəlil xanın hakimiyyəti dövründə (1763-1806) inşa edilmiş abidələr.

Mir Mehdi Xəzani İbrahimxəlil xanın zamanında aparılmış tikintilər haqqında yazır: "Asar və imarət ki, mərhum İbrahim xandan qalıbıdır: Əvvəl Şuşa qalasının sabiq divarı və barısı idi ki, üç il müddəti yaxşı mühəndis peşə ustadları tərəfindən təmir olunub, 1198-ci (1783-1784) ildə itmam bulmuşdu. Sonra əmnayi dövləti Rusiya pozub əlavə yaxşı möhkəm bina və təcdid etdilər. Amma yenə bəzi məhəllələrində xanın təmiratından əsər və nişanəsi hənuz baqi qalmışdı.

İkinci, qalada vaqe böyük məscidi-camedir ki, daş və əhəng ilə səneyi 1182 (1768-1769) tarixdə təmir etmişdi. Amma sonra köhnə olmuşdu.

Üçüncü, İbrahim xanın təmiratında iki mərqub imarətlər idi ki, öz evləri idi. Birisində Xurşidbanu bəyim, Mehdiqulu xanın anası sakin olardı. Birisində Ümmə xan Dağıstanlının bacısı Bikə ağa olurdu. Onların birində şimdi Mehdiqulu xanın evi sakindir. Birisi də Əhməd xanın evidir. Sonra təcdidi imarət ediblər. Xanın divanxana evini dəxi şimdi qoşun kilsəsi edib, mərqum kilsə bina ediblər [9, səh. 105b-106a].

Xəzaninin yuxarıda qeyd etdiyimiz məlumatlarından belə bir qənaətə gəlmək olar ki, ruslar sadəcə İbrahimxəlil xanı qətlə yetirməklə qalmamış, onun inşa etdirdiyi tikililəri belə dağıtmışlar. Xanlığın idarə olunmasında əhəmiyətli olan divanxananı ləğv edərək özlərinin missiyonerlik fəaliyyətlərini həyata keçirmək üçün onu kilsəyə çevirmişlər.

Sonra Xəzani davam edirdi: "dördüncü, Ağdam kəndində bağlar və hasarlar və üç gümbəzi-alidir ki, Pənah xanın və sair övladlarının qəbirləri üstündə bina etmişdi. Böyuk çarsu damları var ki, Pənah xanın atası İbrahim Xəlil ağanın qədimi ocağı və evidir ki, yonma daş ilə tağbənd təmir olunmuşdu. Amma Ağa Məhəmməd şah gələndə o səmtdə ordu eləmişdi. Tiflis təsxirinə gedəndə gümbəzləri və evləri xarab etmişdilər.

Beşinci, Xan bağındakı imarətlərdir ki, qəleyi-Şuşanın bir ağaclığında vaqedir. Bağlar və tövlələr və buzxana və dəyirmanlar və arxlar bina edib qayırmışdı. Nəhayət, 1826-cı ildə Qızılbaş qoşunu gəlib, tamam onları yandırıb, xarab etmişdilər. Amma sonra fərzəndi-ərşədi Mehdiqlu xan ziyadə səliqə ilə təmir edib, yaxşı karvansara və dükanlar həm orada təmir etmişdir.

Altıncı, İbrahim xanın bir ümdə əsəri dəxi Əsgəran dağının iki qalasıdır. Çünki Şirvan və Şəki və Dağıstan xalqı Pənah xan ilə düşmən idilər. Ehtiyatən vəsiyyət elədi ki, hərgah mənə fürsət olmasa, gərək mənim oğlum İbrahim Xəlil bu iki dağın arasında iki qala təmir edə ki, düşmənçilik vaxtında Əsgərandan, ta Şuşa qalasınadək iyirmi səkkiz verst olur və ətraf möhkəm meşə və qayalı dağlardır ki, böyük dərələr və səhralar vardır. İlat xalqı o dağlarda və dərələrdə sığnaq edib, Əsgəran qalalarında qoşun və tüfəngçi qoysalar, düşmən keçib qala üstə müşkül gələ bilər. Əgər gələ bilsələr də, çəpəvül edib, mal-məvəşi qarət edib, apara bilməzlər. Ona əsasən İbrahim xan iki qala - biri məşriq tərəfindən birisi məğrib tərəfindən əhəng və daş ilə bürc və barını möhkəm təmir elədi. Belə ki, Ağa Məhəmməd şah qala üstən keçib Tiflisə gedən vaxtda o qalalardan keçib gedə bilmədi. İyirmi gün müddəti Şuşa qalası ilə Əsgəran arasında şahın qoşunu mətəl qaldı. Nə qədər ki, böyük torpaqlarını o qalaya atdı, bir zərər edə bilmədi. Orada çox adamlar qətlə yetişdi. Çox zərər və nöqsanlar oldu. Axərül-əmr, İbrahim xan əmr eylədi, qoşun oranı boşaldıb, Şuşa qalasına gəldilər. Ondan sonra şahın qoşunu oradan keçib gedib, Qarqar çayının kənarında yavuq ordu elədilər" [9, səh. 105a-107a].

Əsgəran qalasının tikilməsi haqqında maraqlı bir məlumat da 1927-ci ilə aid sənədlərdə keçir. Belə ki, sənəddə qeyd olunur ki, o dövrün diqqətəlayiq tikintilərdən biri də Pənah xanın oğlu Mehrəli xanın hakimiyyəti dövründə (1758-1760-cı illər arasında) tikilən "Əsgəran" qalasıdır [3, səh. 12].

Bu məlumat demək olar ki, səhvdir. Çünki, qeyd olunan dövrdə Pənahəli xan hakimiyyətdə olmuşdur. Mehrəli ağa sadəcə 1763-cü ildə qısa bir zamanda Pənahəli xan Kərim xan Zəndlə Urmiya qalası üzərinə yürüşə çıxanda atasını əvəz etmişdi. Belə qısa bir müddətdə qala inşa etmək mümkün deyildi. Son tədqiqatlar da göstərir ki, Əsgəran qalası Pənahəli xanın vəsiyyəti ilə İbrahimxəlil xan tərəfindən inşa etdirilmişdi [5, səh. 212-213].

Mir Mehdi Xəzani yazır: "yeddinci, Şuşa çayının Xəzinə qayasında, qayanın ortasında qırx-əlli sajin yer, eni və uzunu olan məqamda ki, oradan çaya yüz sajin yer, eni və uzunu olan məqamda ki, oradan çaya yüz sajin və oradan qayanın başına beşyüz sajin iltifa olub, otaqlar təmir etdirir ki, məhz qayanın arası ilə o otaqlara bir nazik yol gedir. O da piyada yoludur. Qalanın yerləri tamam qayadır. Yol yoxdur. Qalanın içindən şul imarətlər olan yerə qayanın başından tüfəng atsalar çətinlik ilə yetişir. Qayanın üstündən şul yerə daş və qaya salsalar, o imarətləri görməz, çaya gəlir. Yenə onun qənşərində Şuşa qalası tərəfində bir böyük mağara vardır ki, dərinliyi məlum olmaz. Onun ağzına yavuq Məlik Şahnəzər özünə otaqlar və evlər tikdirib ki, xanın o imarətləri qabaq-qabağa ki, düşmənçilik vaxtı olanda o imarətlərdə olanlar bir-birini himayət edib, düşməni qoymayalar və aralarında Şuşa çayı axıb gedir ki, çayı və suyu düşmən kəsə bilməz. Belə ki, 1826-cı məshiyyə ilində naibüssəltənə Abbas Mirzə qoşun ilə Qarabağa, qala üstə gələn vaxtda Şuşa kəndinin xalqı o Məlik Şahnəzərin mağara ağzında olan imarətlərində sığınaq etmişdilər. Qalaya gəlib gedirdilər. Qoşunun və şəhər əhlinin taxılını aparıb, un edib, gətirirdilər. Çaydakı dəyirmanları onların səbəbinə Qızılbaş qoşunu ala bilmədi. Qalaya külli nəfi oldu" [9, səh. 105a-107a].

Mir Mehdi Xəzaninin məlumatlarından aydın olur ki, İbrahim xan həm şəhərətrafı qala divarlarının möhkəmlənməsinə, həm də şəhərdaxili yeni məhəllələrin salınmasına xüsusi fikir vermişdir. Ümumən "Yuxarı məhəllə" adı altında yaranan sonrakı səkkiz məhəllə (Merdinli, Saatlı, Köçəri, Mamayı, Xoca Mircanlı, Dəmirçilər, Hamamqabağı və Təzə) Şuşanın ümumi estetik simasını və şəhər-salma memarlığındakı özünəməxsusluğu daha qabarıq şəkildə göstərmişdi. Bununla yanaşı şəhər ətrafına çəkilmiş divarlar, Xurşudbanu bəyim və Bikə ağanın binaları, Ağdam bağındakı hasar və daxili binalar, Xəzinə dərəsindəki saray və qala divarları, Şuşanın üç-dörd kilometrliyindəki Xan bağı deyilən yerdə tikilmiş dəyirman, buzxana (sonralar İbrahim xanın oğlu Mehdiqulu xan burda karvansara və bir dükan tikdirmişdir) və başqa təyinatlı binalar, o cümlədən, atası Pənah xanın vəsiyyəti ilə Qarqarçayın hər iki sahilində ucaldılmış Əsgəran qala divarları və s. əlbəttə, İbrahim Xəlil xanın Şuşada və ümumən Qarabağda apardığı abadlıq işlərinin tam siyahısı deyil.

Üçüncü mərhələ: Mehdiqulu xanın və onların varisləri tərəfindən inşa edilmiş abidələr.

Mehdiqulu xanın (1806-1822) hakimiyyəti dövründə inşa edilmiş tikililər haqqında Mir Mehdi Xəzani çox da söhbət açmamışdır. Belə ki, Xəzani əsərində Mehdiqulu xanın gördüyü tədbirlərdən sadəcə biri haqqında qeyd edir: "Böyuk çarsu damları var ki, Pənah xanın atası İbrahim Xəlil ağanın qədimi ocağı və evidir ki, yonma daş ilə tağbənd təmir olunmuşdu. Amma Ağa Məhəmməd şah gələndə o səmtdə ordu eləmişdi. Tiflis təsxirinə gedəndə gümbəzləri və evləri xarab etmişdilər. Sonra mərhum Mehdiqulu xan irəlidən yaxşı təmir elədi. Dəxi bir ehsan bağı orada təmir olunub. Ətrafı hasar bə barılı və bir böyük buzxana həm təmir olub. Yenə ehsan üçün və o məqbərələrə vəqf olunub ki, səhra xalqı ilat və dihat yay mövsümü və biçin vaxtlarında aparıb, sərf edərlər. Arazlılara götürüb məsrəf edirlər. Əlbəttə ki, min yük buz və bəlkə ziyadə məsrəf olur. Yaxşı ehsandır. Bunları mərhum Mehdiqulu xan təcdidi ziyadə edibdir" [9, səh. 107a-107b].

Gövhər ağa məscidinin tikilməsi haqqında Mir Mehdi Xəzani qeyd edir: "1281-ci (1864/1865) ildə öz mükərrəmə qızı Gövhər ağa (Gövhər ağa İbrahim xanın qızıdır-S.H) təcdidi-imarət qılıb, yaxşı artıq möhkəm səliqə ilə təğdidən təmir elədi və iki ali minarə müzəyyid elədi. Əlavə bir qeyri məscid dəxi Gövhər ağa mərhumə qalada tikib. O hər iki məscidə dünyadan gedəndə çox kəndlər və əmlak və mədaxil və pul vəqf edibdir ki, indi də şul vəqfiyyət davam edir. Gövhər ağadan sonra həman xərc ilə Gövhər ağanın ikinci məscidini mühəndis Kərbəlayi Səfi xan Qarabağinin səy və sənəti ilə əlavə, xoş səliqə ilə möhkəm təmir edirlər. Bu 1290 (1873)-ci ildə çox mərqub və pəsəndidə olubdur" [9, səh. 107a].

Qeyd etdiyimiz bu mərhələ, artıq Qarabağ xanlığının Rusiya ilə birləşməsindən sonrakı (1805) illərə təsadüf edir. Bu vaxtlar şəhər tikintiləri üçün əsas yer onun yuxarı-qərb zonası seçilmişdir. Burada da dövrün tələblərindən irəli gələn müxtəlif ictimai və yaşayış binaları inşa olunmuşdur. Əlbəttə, əvvəlki mərhələlərdə olduğu kimi, bu inşaat mərhələsində də Şuşanın milli memarlıq ənənəsi gözlənilmiş və şəhərin ümumi memarlıq koloritinə uyğun tikinti işləri aparılmışdır.

Mir Mehdi Xəzani əsərində memar Kərbəlayi Səfixan Qarabağinin də adını çəkir ki, bu memar XIX əsrdə və XX əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən böyük bir memarlıq məktəbi yaratmış və uzun müddət ona rəhbərlik etmişdir. Aşağı və Yuxarı Gövhərağa camiləri, Saatlı məscidi başda olmaqla digər məhəllə məscidləri, Məşədi Şükür Mirsiyab oğlunun karvansarası başda olmaqla digər bəzi karvansaralar və hamamlar, Xurşud banu Natəvanın,

Gövhər ağanın, Bəhmən Mirzənin, Uğurlu bəyin, Mehmandarovun, Hacı Dadaşın, Hacı Bəşirin, Mirzəli bəyin və s. saray tipli binaları, eləcə də Ağdam camisi, həmin rayonun Abdal-Gülablı kəndindəki hamam, Füzuli camisi və həmin rayonun Horadiz və Qoçəhmədli kəndlərindəki camilər və imarətlər, habelə Odessa şəhərindəki "Tatarlar" və Aşqabad şəhərindəki "Qarabağlar" məscidləri və s. Əlbəttə, bütün bunlar böyük ustad-memar Kərbəlayi Səfixan məktəbinin yaratdığı əsərlərin tam siyahısı deyildir.

Dünya memarlığı tarixindən məlumdur ki, Avropa dövlətlərindəki bəzi kilsə və digər binaların tikilmə müddəti illərlə, hətta əsrlərlə uzanmışdır. Belə nəhəng binalar öz mürəkkəb memarlıq kompozisiyası və zəngin bədii elementləri ilə sənət aləmində nə qədər seçilirlərsə, Kərbəlayi Səfixanın binaları da tikilmə müddətinin qısalığı və özünəməxsus sadə kompozisiyaya malik olan heyrətedici memarlığı ilə bir o qədər diqqəti cəlb edir. Bundan əlavə, Səfixanın binalarının üstünlüyü ondadır ki, onlar ünvanlıdır. Yəni, onun binaları dünyanın hansı ölkəsində, şəhər və kəndlərində tikilsə belə məhz, Qarabağ memarlığına məxsus olduğu görsənər. Bu baxımdan sanki memar öz binalarını "parlaq mirvari dənələri kimi bir sapa düzərək Qarabağ adlı bir gözəlin boynundan asmışdır. Onun bir dənəsi dünyanın hansı diyarına düşsə belə o saat Qarabağlı gözələ aid olduğunu bildirər". Səfixan yaradıcılığının fərdiliyi, milliliyi və özünəməxsusluğu da elə bundadır.

Onu da xüsusi qeyd edək ki, bu dahi memarın yaradıcılıq dövrünə qədər (XIX əsr və XX əsrin əvvəlləri) Arran memarlıq məktəbi tədricən zəifləyib üstünlüyü Naxçıvan memarlıq məktəbinə vermişdir. Lakin Qarabağda Səfixan memarlıq məktəbinin fəaliyyəti ilə bağlı hər iki - Arran və Naxçıvan memarlıq məktəbləri öz təsirini tədricən itirmişdir. Bununla bağlı, XIX əsr və XX əsrin əvvəllərində bütün Azərbaycan memarlığına Qərb memarlığının stil və eklektizmi güclü təsir etdiyi halda, Qarabağ memarlığına cüzi təsir belə edə bilməmişdir. Bu da Şərqin böyük memarı Kərbəlayi Səfixan Qarabağinin yaratdığı özümlü memarlıq məktəbinin gücü və qüdrəti ilə ölçülür [12].

Qarabağ ərazisində ayrı-ayrı dövrlərdə müxtəlif dinlər biri digərini əvəz etmişsə də, bunlar öz tarixi-etnik torpağına bağlı olan yerli xalqın tarixi taleyində baş verdiyindən, dinin özü və dini inanclar dəyişsə də, xalq bir qayda olaraq adət-ənənə özəlliyini, milli xüsusiyyətini qoruyub saxlamışdır. Ancaq bu həmişə və hər yerdə eyni olmamışdır.

Qarabağda müxtəlif dinlərin mövcud olması cəmiyyətin ictimai həyatına böyük təsir göstərmişdir. Bu insanların məişətində, mənəvi dünyasında, habelə şəhərsalma mədəniyyətində - ictimai və dini binaların, tikinti komplekslərinin memarlıq üslubunda, şəhərlərin quruluşu və planlaşdırılmasında müəyyən rol oynamışdır.

Son zamanlarda aparılmış tədqiqatlar sübut edir ki, Qarabağın əsas əhalisi gəlmə ermənilərdən fərqli olaraq, mənşə, dil və mədəniyyət etibarı ilə min illərlə Böyük Qafqaz dağları ilə Araz çayı arasında yaşamış türk mənşəli və Qafqaz dil qrupuna mənsub olan etnik qruplardan ibarət olmuşdur.

Zaman və dövrün təsirindən asılı olaraq, müxtəlif həyat tərzi, dini ideologiya mövcud olmuş, bununla əlaqədar mənəvi mədəniyyətin fərqli xüsusiyyətləri meydana çıxmışdır. Azərbaycanın digər ərazilərindən fərqli olaraq, Qarabağ ərazisində dini ayrılığın davam etməsi bölgədə sonralar böyük dəyişikliklərin yaranmasına gətirib çıxarmışdır. Albaniyada xristianlığın müsəlmanlıqla əvəz olunduğu zaman Qarabağın dağlıq ərazisində yaşayan və xristianlıq dini ideologiyasına sitayiş etməkdə davam edən avtoxton albanların xristian olmasından istifadə edərək, oraya XIX əsrdən etibarən çoxlu erməni ailəsi köçürülmüşdür. Onlar yerli xristian albanları qriqoryanlaşdıraraq, assimilyasiya etmiş, hayklar adlandırmış, ərazini isə "hayk ölkəsinin bir hissəsi" kimi qələmə vermişlər. Vaxtilə gəlib sığınacaq tapdığı Azərbaycan torpaqlarını son dövrlərdə "Şərqi Ermənistan" adlandıraraq, "Böyük Ermənistan"ın tərkibinə daxil olan ərazi kimi tanıtmaqla, həmin əraziləri tarixi vətənləri hesab edib, "erməni mədəniyyəti məskənləri" adı altında tarixi uydurma yaratmışlar. Beləliklə, tədqiqatlar Qarabağın maddi və mənəvi mədəniyyətinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübut etməyə əsas verir.

ƏDƏBİYYAT

1. Абасов Ф. Создание Карабахского ханства // История и её проблемы, Баку: 2006, № 3
2. Aqil Abbas. Batmanqılınc. Roman, Bakı, 1995.
3. Александрович Дж., Азизбеков И.,Сысоев В. Евлах-Шуша. Изв-во Азерб. Комитета охраны памятников старины, искуства и природы, Баку, 1927.
4. Əliyev F. M. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. Bakı: 1960.
5. Hacıyeva Z.Ə. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı:, 2007.
6. Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi / Qarabağnamələr. II kitab, Bakı:, 1991.
7. Həsənəli Qaradaği. Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və özvaları. Qarabağnamələr. II kitab, Bakı:, 1991.
8. Qarabağlı R. Qarabağın qədim məscidləri və "Qarabağnamələr" // Elm qəzeti, 2008, 14 fevral.
9. Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ, B-518 şifrəli inv.

10.Мустафаев М. М. Экономика Карабагского ханства в конце XVIII и первой четверти XIX в. Дис… канд. экон. наук. автореферат, М., 1953, с. 8.
11.Pakrəvan Ə. Abbas Mirzə və Azərbaycan (tərcümə: Güntay Cavanşir), Bakı, 2007.
12.Şuşanın şəhərsalma memarlığı // Qobustan jurnalı, Bakı: 2002 , yanvar.
13.Yüzbaşov Mirzə Həsən Qarabaği, Seçilmiş əsərləri (tərtib edən İ.Qarayev), Bakı:, 2000.

SUMMARY

THE ARCHITECTURE OF THE KHANATE PERIOD OF KARABAKH IN MIR MEHDI KHAZANI'S "BOOK-HISTORY-KARABAKH"

Hasanov S.H.

Architectural monuments of different periods of our history in the territory of Azerbaijan are valuable pearls of the world architectural treasury. Mir Mehdi Khazani's information about the architecture of Karabakh does not even mention Armenians. As the cultural heritage of the Azerbaijani people is an integral part of world culture, the protection and widespread promotion of our material cultural monuments is a matter of international importance.

***Key words**: Karabakh history, architecture, historical realities*

РЕЗЮМЕ

АРХИТЕКТУРА ХАНСКОГО ПЕРИОДА КАРАБАХА В «КНИГЕ-ИСТОРИИ-КАРАБАХ» МИР МЕХДИ ХАЗАНИ

Гасанов С.Г.

Архитектурные памятники разных периодов нашей истории на территории Азербайджана являются ценными жемчужинами мировой архитектурной сокровищницы. В сведениях Мир Мехди Хазани об архитектуре Карабаха даже не упоминаются армяне. Поскольку культурное наследие азербайджанского народа является неотъемлемой частью мировой культуры, защита и широкая популяризация наших материальных памятников культуры является вопросом международного значения.

***Ключевые слова:** история Карабаха, архитектура, исторические истины*

QARABAĞIN TARİXİ-MƏDƏNİ İRSİNİN TƏDQİQİNDƏ MƏRASİM ƏNƏNƏLƏRİNİN ƏHƏMİYYƏTİ

Həsənov E.L.
AMEA Gəncə Bölməsi Mərkəzi Aparatının baş mütəxəssisi, Gəncə, Azərbaycan
el-hasanov@gmail.ru

***Açar sözlər:** Azərbaycan, Qarabağ, milli-mənəvi dəyərlər, adət və ənənələr.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2022-ci il ölkəmizdə “Şuşa ili” elan edilmişdir. Məlumdur ki, Şuşa şəhəri Azərbaycan xalqının mədəniyyətdə əsaslı yer tutmuş, çoxəsrlik incəsənət ənənələrimizin, xüsusilə də muğam sənətinin yaşadılmasında mühüm rol oynamışdır. Qədim tarixə malik olan adətlərin xalqımıza məxsus cəhətləri müəyyən dəyişikliklərə uğrasa da, əsaslı xüsusiyyətlərini bu gün də saxlamışdır. Adət və ənənələr əyani şəkildə nəsillərə ötürülərək tarixən yaşamış, sonralar onların bir qismi adət hüququna çevrilmiş və insanların həyatlarında hüquq normaları üçün əsas olmuşdur. Əlbəttə, ictimai davranış qaydası kimi yaranan adət və ənənələr insanların maddi və mənəvi həyatını əcdadların irsinin ifadəsi kimi özündə təcəssüm etdirmişdir. Məsələn, qonşuluq, dostluq, qonaqpərvərlik, qarşılıqlı yardım, kömək, əməksevərlik, yaşlılara hörmət kimi adətlərə sadiqlik tarixən müqəddəs hesab olunmuşdur. "Qonaqsız ev uğursuz olar", "Hər şeyin təzəsi, dostun köhnəsi", "Qonşunu iki inəkli istə ki, özün də bir inəkli olasan", "E1 gücü - sel gücü", "Birlik harada - dirilik orada", "Çalışsan, nəyə əl vursan qızıl olar", "Böyüyə hörmət vacibdir" və s.

Qarabağda Azərbaycan xalqının çox böyük bir tarixi dövrdə əsas əmək forması olmuş maldarlıq və əkinçiliklə, habelə təbiət hadisələri ilə bağlı adətləri formalaşmışdır: "Dağaköçmə", "Köç günü", "Seyrə çıxmaq", "Şum bayramı", "Ata-baba" günü, yəni, ata-baba ruhuna ehtiram adəti də mövcud olmuşdur.

Ümumiyyətlə, ailə məişətində olan adətləri isə təxminən aşağıdakı kimi qruplaşdırmaq olar: qonaqpərvərlik, çörəyə hörmət, ailədə keçirilən bayram və ənənələr, məhərrəmlik, orucluq, qurban bayramının icra edilməsi, müasir ailə adətləri. Ailə bayramları, öz növbəsində ailə adətlərinin tərkib hissəsidir. Onların bir qismi ailə daxilində, müəyyən qrupu isə həm ictimai bayramlar kimi, həm də ailə daxilində qeyd olunur. Qarabağ bölgəsinin qədim və zəngin ənənələri, o cümlədən toy, mərasim adətləri Azərbaycanın digər ərazilərinin toy adətlərini xatırladır. Lakin bəzi səciyyəvilik, lokallıq müşahidə olunur. "Tabaqda çörəyim olsun, mərəkəsə ərim" xalq məsəli də təsadüfi yaranmayıb. Vaxtında ailə qurmaq, yaxşı həmdəm seçmək və övlad sahibi olmaq üçün valideyn övladının düzgün istiqamətləndirilməsində əsas rol oynayır [4, s. 45].

Ənənəvi olaraq bu bölgəyə toylara camaatı el arasında "təklifçi" adı ilə tanınan şəxs dəvət edir. XX əsrin 60-70-ci illərinə qədər Ağcabədi rayonunun bəzi kəndlərində gəlini oğlan evinə gətirərkən qara zurna çalanlar evin damınaa çıxıb zurna çalır va hamı toyun həmin gün harada olacağını bilərək toy evinə gələrdilər. Qız üçün "süd pulunun'" verilməsi hələ də qalmaqdadır. Toylarda, adətən qıza cehiz kimi yorğan, döşək, yastıq, qab-qacaq və s. gətirilər, həmçinin "nəmər" (pul) yığılardı. Qız toyunun xərcini oğlan evi çəkirdi. Bu xərc pul və ya ərzaq formasında ödənilirdi. Bu adət indi də qalmaqdadır [1, s. 101].

Bu qədim bölgədə toy günü ev sahibləri mağarda bəyin qarşısında oynamaqla toyu açıq elan edir, sonra gəlini gətirməyə gedirlər. Orada belə bir adət də var: oğlan evində gəlini otağa çıxaranda pilləkənin bütün pillələrində boşqab qoyurlar və gəlin boşqabları ayağı ilə sındırıb, qalxır. Toyun axırında bəyin dostları "papaq-papaq'" oyunu oynayırlar. Oyun belədir: Bəy ortada oynayanda başına papaq qoyulur. Papağı kim birinci götürsə, o birinci evlənməlidir. Sonra papaq yenə də bəyin başına qoyulur və bu təkrar olunur. Bəy oturandan sonra papağı birinci götürən öz başına qoyur, sonra oyunda qalib gələnlər arasında mübarizə gedir. Oyunda bəyin 10-15 nəfər dostları iştirak edir.

Füzuli rayonunda gəlin evdən çıxarkən üzərlik yandırırlar. Gəlin bəy evinə bərəkət üçün çörək, nəzər qaytarmaq üçün qoyun ayağı və çıraq aparır. Bunları yengə götürür. Gəlin bəy evinə aparılarkən qarşısına güzgü tutur və şamları yandırırlar, başına şirniyyat, qənd tökürlər. Rayonun kəndlərində XX əsrin 20-30-cu illərində ənənəvi olaraq gəlini at belində aparırdılar. Gəlinə çəhrayı, yaxud qırmızı rəngdə tuman, kofta, üstündən qırmızı kəmər, saçaqlı, məxməri bəzəkli arxalıq geyindirir, onu at ilə aparır, atı da bəzəyirdilər [2, s. 17].

Müasir dövrdə də bu rayonda əksər toylarda toyun sonunda bəylə-gəlini oynadırlar. "Bəy tərifi" başlanır. Toyun axırında bəylə gəlinə çoxlu pul verirlər, həmçinin pulu onların başlarına səpirlər, fişəng atır, qığılcımlar yandırır, süni yağış kimi su tökürlər. "Bəy oturma" mərasimində xanəndə muğamat oxuyur və bəylə gəlinin qohum əqrabəsindən xələt istəyir, Füzuli rayonunda qız toyunu "toy başı" adlandırılan qadın idarə edir. O oynayaraq istədiyindən xələt (hədiyyə) alır, ağacının başına bağlayır və həmin şəxsin havasını çaldırır. Oğlan toyunda toy mağarı ilə yemək mağarı ayrı olur. Bəyin sağdışı və soldışının biri subay, digəri isə evli olur [3, s. 56-61].

Burada gəlini bəzəyəndən sonra əlini öz başına qoyurlar. Deyirlər ki, gəlin süd pulu istəyir. Bu pul isə anaya çatır. Toy günü oğlan evinə gedən qızlar təzə ayaqqabısının altına adlarını yazırlar. Adətə görə hansı ad tez getsə, o qız da tez ərə gedir.

Laçın, Ağcabədi və bir sıra başqa rayonlarında ənənəvi toy mərasimi zamanı "Gərdək qaçırmaq" oyunu keçirilir. Belə ki, toy günü cavan və yaşlı adamlar at belində qız evinə gəlirlər. Qız evinin nümayəndəsi gərdəyi mümkün qədər öz qohum və tanışlarına verməyə çalışır ki, oğlan evindən xələt alsın. Oyunçu gərdəyi əlində yuxarı qaldıraraq at üstündə qız evindən oğlan evinə tərəf qaçır. Digər oyunçularda atlarını çaparaq gərdəyi alıb oğlan evinə birinci çatmaq uğrunda mübarizə aparırlar. Laçın rayonunun Ərikli kəndində toylarda masabəyinə "padşahlıq" deyirdilər. Xonça dağıtmaq adəti toylarda xüsusi yer tuturdu. Belə ki, xonça düzəldir, xonçaya qiymət qoyur, üstünü örtürdülər. Xonçanın örtüyünü açan şəxs xonçadakıları paylayır, xonça boşqabını isə sındırırdı. Toylarda sağdış-qardaşlıq adlanırdı. Qardaşlıq gəlinə paltar, qızıl, qoyun, mal gətirirdi. Öz növbəsində, qardaşlığa at bağışlayırdılar. Toya dəvət olunanları at ilə çağırışçı çağırırdı. Gəlini oğlan toyunun axırında aparardılar. Gəlini gətirəndə bəy qonşuda gizlənirdi. Sonra məşəl yandırar, musiqinin müşayiəti ilə bəyi gətirər və bəy tərifi olardı. Gəlin üç gün gərdəyin arxasında otururdu. Qayınata gəlinə at, mal bağışlayar və gəlin üzə çıxardı.

Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da toy mərasimləri zamanı, xüsusilə də toy günlərində qarşılıqlı yardım formalarından biri kimi toy evinə qohum-əqrəbanın ərzaq, qoç-qoyun gətirməsi ənənəsi var idi. Azərbaycanın bir çox bölgələrində "diz dayağı", "toy payı" adlanan bu ənənə Qarabağda da icra olunurdu. Eyni zamanda, qədim Azərbaycan toylarında "bəy durma", "bəy oturma", "bəylik taxtı", "bəybaşı" adlanan bəyin sağdış-soldışla mağara gətirilməsi ənənəsi də Qarabağda mövcud idi. Bu mərasim zamanı Qarabağ toylarında gənclər arasında "Xan-xan" və ya "Xan-vəzir" oyunu "Maral oyunu" kimi xalq-meydan tamaşaları geniş yayılmışdı.

Qədimdə Azərbaycanda, o cümlədən Qarabağda "Hümmət toyu" deyilən bir adət varmış. Kənd ağsaqqalı yoxsul, yetim bir gəncin toyunu təşkil edir və kənd camaatını bu toya dəvət eləyirdi. Toya gələnlər də imkanları

müqabilində yeni yaranan ailəyə lazım olan əşyadan, ərzaqdan "toy payı" gətirirdi. Bu tip toylara indi də qismən rast gəlinir. Laçın bölgəsində toyu oğlanın qohumlarından biri təşkil edir. Zəngin irsə malik olan Qarabağ bölgəsinin toy mərasimlərində ənənəvi, lokal ənənələr indi də qalmaqdadır. Azərbaycan dövlətinin ayrılmaz tərkib hissəsi olan Qarabağ ərazilərinin 30 ilə yaxın bir müddətdə təcavüzkar ermənilərin nəzarətində olması bu ərazidə yaşayan əhalinin məcburi köçkün vəziyyətində yaşamaları onların yaşayış tərzinə, adət-ənənələrinə təsir göstərmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Prezident Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribat törətdiklərini bəyan etdi. Beləliklə, 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqm birliyi, ordumuzun qüdrəti nəticəsində Azərbaycan dövləti qələbəsi ilə yekunlaşdı. Bu gün işğaldan azad edilmiş Qarabağ torpaqlarında Azərbaycan dövlətinin rəşadəti, səyi nəticəsində dağıdılmış şəhərlər, kəndlər yenidən tikiləcək, yurdlar çal-çağırlı olacaq, Qarabağ öz doğma sakinlərini yenidən qəbul edəcəkdir.

ƏDƏBİYYAT

1. Дадашзаде М.А.Духовная культура азербайджанского народа в средние века.Баку,1985,с. 101.
2. Кулиев Т.А. Азербайджанские народные обычаи (свадебные и пагребные обряды),Баку, 1972.
3. Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005. 347 s.
4. Qarabağ: folklor da bir tarixdir. I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Bakı: “Elm və təhsil”, 2012. 464 s.
5. Həmidov V.V.Azərbaycanda movcud siyasi-coğrafi problemlər və onların həlli yolları.Bakı:2009, 184 s.

SUMMARY

SIGNIFICANCE OF CEREMONIC TRADITIONS IN STUDY OF HISTORICAL AND CULTURAL HERITAGE OF KARABAKH

Hasanov E.L.

In this scientific work, the centuries-old historical heritage of the Karabakh region, the ancient cultural center of Azerbaijan, cultural traditions arising from national and spiritual values are studied on the basis of various scientific and written sources. As a result of the study of local ritual traditions, the rich material and cultural environment created by our ancestors, who lived in this region for centuries, the invaluable architectural heritage of Karabakh, as well as national and spiritual values, dating back thousands of years, is studied, referring to indisputable arguments and facts. The Patriotic War is celebrated on a scientific basis as a way to return to traditional life in our native lands, liberated from enemy occupation as a result of our struggle to protect our national and spiritual values, historical memory, architectural heritage and return to our traditions.

Key words: *Azerbaijan, Karabakh, national and spiritual values, customs and traditions.*

РЕЗЮМЕ

ЗНАЧЕНИЕ ЦЕРЕМОНИЧЕСКИХ ТРАДИЦИЙ В ИЗУЧЕНИИ ИСТОРИКО-КУЛЬТУРНОГО НАСЛЕДИЯ КАРАБАХА

Гасанов Э.Л.

В данной научной работе многовековое историческое наследие Карабахского региона, древнего культурного центра Азербайджана, культурные традиции, вытекающие из национальных и духовных ценностей, изучаются на основе различных научных и письменных источников. В результате изучения местных обрядовых традиций исследуется богатая материальная и культурная среда, созданная нашими предками, веками жившими в этом регионе, бесценное архитектурное наследие Карабаха, а также национальные и духовные ценности, насчитывающие тысячи лет ссылаясь на неоспоримые аргументы и факты. Отечественная война отмечается на научной основе как путь к возвращению к традиционной жизни на наших родных землях, освобожденных от вражеской оккупации в результате нашей борьбы за защиту наших национальных и духовных ценностей, исторической памяти, архитектурного наследия и возвращения к нашим традициям.

Ключевые слова: *Азербайджан, Карабах, национально-духовные ценности, обычаи и традиции.*

MİL-QARABAĞ BÖLGƏSİNİN ARXEOLOJİ ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİ TARİXİ

Həsənova C.V.
Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı, Azərbaycan
Cemile.hesenova@ascca.edu.az

Açar sözlər: *Mil-Qarabağ, arxeologiya, erkən tunc dövrü, abidə, kurqan*

Mil-Qarabağ ərazisinin arxeoloji abidələri içərisində yaşayış məskənləri önəmli yer tutur. Maraqlıdır ki, Qarabağın arxeoloji baxımdan öyrənilməsindən bir əsrdən artıq dövr keçsə də, yaşayış abidələrinin aşkar olunması və sonradan tədqiqinə çox gec başlanılmışdır. Bütövlükdə, Azərbaycanda ilk yaşayış yerinin tədqiqatı Naxçıvan ərazisində I Kültəpənin müvafiq təbəqəsinin (burada ilk tunc dövrü nəzərdə tutulur) açılması ilə başlanılmışdır. XX əsrin 50-ci illərindən başlanan bu yeniliklər A.A.İyessenin rəhbərliyi ilə Mil-Qarabağ düzənliyində, 60-70-ci illərdə Füzuli bölgəsində Q.S.İsmayılov-İsmayılzadə [4], ondan bir qədər əvvəl isə Qazax-Ağstafada İ.H.Nərimanov və Q.S.İsmayılov [1] tərəfindən aşkar olunmuş, onların bir çoxunda arxeoloji qazıntılar aparılmışdır. Bunların sırasında Kültəpənin müvafiq təbəqəsi, Babadərviş və Qaraköpəktəpənin ilk tunc dövrü təbəqəsi xüsusilə qeyd olunmalıdır.

İlk tunc dövrünün yaşayış yerləri bir qayda olaraq çay kənarlarında, şirin su mənbələrinə yaxın sahələrdə salınmışdır. Bundan başqa, yaşayış yeri üçün məskən seçilərkən yerin relyefi, yarğan kənarı, təbii qorunma imkanları, heyvanları otarmaq üçün örüş yerləri, habelə əkinçilik üçün bərəkətli torpaqların varlığı da əsas götürülmüşdür [10]. Həmin dövr üçün xarakterik olan bu əlamətlərə bizim mövzunun əhatə etdiyi bölgədə də təsadüf olunmuşdur.

Bu bölgənin ilk tunc dövrü abidələri əsasən yaşayış yerləri ilə təmsil olunmuşdur. Yuxarıda qeyd olunduğu kimi həmçinin ərazinin ilk tunc dövrü abidələrinin, xüsusilə yaşayış yerlərinin sistemli tədqiqi professor Qüdrət İsmayılzadənin (İsmayılov) adı ilə bağlıdır. XX əsrin 60-cı illərindən (daha doğrusu 1964-cü ildən) başlayaraq o, uzun müddət 1980-ci illərin axırlarına qədər bu zonada mütəmadi arxeoloji araşdırmalar aparmışdır. Aşkar olunan abidələrdə vizual baxışla yerüstü materialların toplanması ilə yanaşı, həm də müxtəlif miqyaslı arxeoloji qazıntı işləri aparmışdır. Nəticədə bölgənin təxmini ilkin arxeoloji xəritəsi cızılmış, abidələrin koordinatı, yerləşmə sistemi, yayılma arealı, dövrləşməsi haqqında elmi dövriyyəyə məlumatlar çıxarılmış, hesabat, məqalə, tezislər, başqa xarakterli yazılarda işıqlandırılmışdır.

Mil düzünün (yuxarıda qeyd etdiyimiz kimi əslində bu zonada, habelə qonşuluqdakı Xocavənd və Beyləqan rayonları da daxil olmaqla geniş regionda ərazinin "Mil" yaxud "Qarabağa" bölünməsi əslində "şərti xarakter" daşıyır) Füzuli bölgəsi ilə bağlı ilk tunc dövrü abidələri sırasında möhtəşəmliyi ilə seçilən Qaraköpəktəpə, habelə Günəştəpə, Xantəpə, Kültəpə, Şomulu təpə, Uzuntəpə, Meynətəpə kimi yaşayış yerləri daxildir.

Qaraköpəktəpə abidəsi. Qeyd olunduğu kimi bölgənin ilk tunc dövrü abidələri sırasında çoxtəbəqəli Qaraköpəktəpə abidəsi bir çox baxımdan xüsusilə fərqlənir. Mənbələrdən əldə olan məlumatlara əsasən Qaraköpəktəpəni ilk dəfə E.Resler 1895-ci ildə, ərazidə yoxlanış keçirərkən görmüş, həm Qaraköpəktəpə, həm də Cəbrayıl və Hadrut ərazilərindəki arxeoloji abidələr haqqında ilk yazılı məlumat vermişdir [9]. Lakin E.Resler səhv olaraq Qaraköpəktəpəni yaşayış yeri yox, kurqan hesab etmişdir. Ona görə də buranı qəbir abidəsi bilərək qazıntılar aparmış, lakin məqsədinə çatmadığı üçün qazıntını dayandırmışdır.

Qaraköpəktəpə haqqında ilkin müfəssəl elmi məlumat Q.S.İsmayılzadəyə məxsusdur. İlk araşdırmaları hələ 1964-cü ildə aparan Qüdrət İsmayılzadə 1967-ci ildən başlayaraq uzun müddət burada stasionar qazıntı işləri aparmışdır. Bunun sayəsində məlum olmuşdur ki, Qaraköpəktəpədə həyat ən qədim dövrlərdən (buradakı tapıntıların bəziləri, Q.S.İsmayılzadənin [11] fikrincə neolit və mezolit dövrlərinin daş alətlərini xatırladır – eneolitdən tutmuş, tuncun bütün mərhələləri, ilk dəmir, antik dövrlər, hətta orta əsrlərin ayrı-ayrı əsrlərini də əhatə etmişdir [5].

Qaraköpəktəpə Köndələnçayın hündür sağ sahilində yerləşir. Çay yatağı tərəfdən hündürlüyü 50 m, arxa tərəfdən yüksəkliyi 30 m-ə çatır. Ümumi sahəsi 4 hektara yaxındır. [8].

Çoxtəbəqəli Qaraköpəktəpədə üstdən aşağı 15 m-lik mədəni qatdan aşağıda 7 m qalınlıqda olan ilk tunc dövrü təbəqəsi açılıb öyrənilmişdir. Araşdırmalarla müəyyən edilmişdir ki, bu təbəqə ilə ondan üstdə yerləşmiş orta tunc dövrü təbəqəsi arasında boşluq (lal təbəqə) olmamışdır. Deməli, həyat Qaraköpəktəpədə uzun müddət aramsız olaraq davamlı etmişdir [11].

Onu da xatırlatmaq yerinə düşər ki, qazıntının müəllifi buradakı ilk tunc dövrü təbəqəsinin yatma dərinliyi və artefaktların çeşidlənməsi, dövr fərqinə istinadən onları "A" (alt qatlar) və "B" (üst qorizont) yaruslara bölmüşdür [10]. Mübaliqəsiz demək olar ki, bölgənin analoji dövr materialları Qaraköpəktəpədə müəyyən olunmuş, həmin ardıcıllıq prinsipinə müvafiq olaraq xronoloji və tipoloji baxımdan düzlənmişdir.

İlk tunc dövrü təbəqəsində bütövlükdə biri digərinin üzərində qərarlaşmış 5 (beş) tikinti qatının varlığı izlənilmişdir. Onlardan 3 tikinti qatı aşağı yarusda ("A" qatı), 2 tikinti qatı isə "yuxarı" yarusda ("B" qatı) olmuşdur. Q.İsmayılzadənin fikrincə yarusların bir-birindən fərqlənməsində bir neçə amil, o cümlədən tikinti texnikasında, tikililərin quruluşunda izlənilən faktorlar, habelə arxeoloji qalıqların say tərkibi və çeşidlənməsi, keramika nümunələrində nəzərə çarpan simmetriklik və forma kamilliyindəki olan əlamətlər və s. rol oynamışdır. Qeyd olunmalıdır ki, aşağı yarusdakı tikinti qalıqları planda dairəvi quruluşlu, üst yarusdakı memarlıq nümunələri isə dördkünc (düzbucaqlı) formalıdır [10].

Keramika nümunələri "A" yarusunda qırmızı və ya boz cilalı, müxtəlif quruluşlu qablar şəklində təmsil olunmaqla yanaşı, həm də miqdar baxımından çoxsaylılığı ilə fərqlənir. Burada həmçinin yuxarı qatlarda təsadüf olunmayan sümükdən hazırlanmış əşyalarda tapılmışdır.

Hər iki qatın oxşar əlamətləridə az deyil. Bu, keramikada izlənilən varislik, forma kamilliyi, naxışlama motivlərindəki bənzəmələr, ən başlıcası metal məmulatının hər iki "A" və "B" bölmələrində az da olsa varlığıdır [11].

Qaraköpəktəpə abidəsini fərqləndirən xüsusiyyətlərdən biri də arxeoloji qazıntıların gedişi zamanı çoxsaylı tikinti qalıqlarının aşkar olunmasıdır. Tikinti qalıqları həm aşağı yarusda ("A"), həm də yuxarı yarusda ("B") mövcud olmuşdur. "A" yarusdakı tikili qalıqları iki qatdan ibarətdir. Binalar quruluş etibarilə dairəvi planlı olmaqla bir cərgə yastı daşlardan hörülmüşdür.

"B" yarusunda 3 tikinti qatı açılmışdır. Evlərin divarları böyük ölçülü daşlardan hörülmüş və 1-1,2 m hündürlüyə qədər izlənilmişdir. Otaqlardan birinin sahəsi 60 kv.m çatmışdır. Otaq arakəsmələrlə bir neçə yerə bölünmüşdür [3].

Hər iki yarusda çoxsaylı arxeoloji materiallar – keramika, daş alətlər tapılmış, ocaq qurğusu və s. aşkar olunmuşdur.

Qaraköpəktəpənin ilk tunc dövrü keramikası zənginliyi və çoxçalarlılığı ilə seçilir. Buradakı keramika boz və qara cilalı küpə, bardaq, bokal tipli, habelə cam, xeyrə və s. aid fraqmentlər şəklində təmsil olunmuşdur. Onların çoxu qoşa, Kür-Araz mədəniyyəti üçün xarakterik olan yarımşar formalı qulplarla təchiz olunmuşdur. Kolleksiyanın içərisində buynuzvari çıxıntılı ocaq qurğuları diqqəti cəlb edir. Bu qurğular da yarımşarvari formalı qulplarla təchiz olunmuşdur [6].

Bu materiallar Qaraköpəktəpə ilə yanaşı Füzuli bölgəsinin qonşu abidələrində, həm Qarabağın həmdövr abidələrində, həm də Azərbaycan və bütövlükdə Cənubi Qafqazın Kür-Araz mədəniyyəti abidələrində tapılmış maddi mədəniyyəti nümunələri ilə bir tiplidir. (Bu haqda sonrakı səhifələrdə ətraflı məlumat verilir).

Kültəpə yaşayış yeri. Abidə 1965 və 1967-ci ildə təkrar olaraq Q. İsmayılzadə tərəfindən qeydə alınmışdır. Yaşayış yeri Araz çayının sol sahilindən 2 km aralıda, Quruçay-Köndələnçayın Araza töküldüyü yerə yaxın sahədə yerləşir. Əslində abidənin yerləşdiyi sahə Araz çayının qədim yataq zonasına, onun yaratdığı geniş vadiyə daxildir [4]. Bir məlumata görə onun sahəsi 4 hektara yaxın [4], başqa bir qeydə əsasən isə 6 hektara yaxın [2] olmuşdur. Planda uzunsov dördünc quruluşlu olub, hündürlüyü 15 m-ə çatmışdır. Üst platforması yastıdır. Ətrafı düzənlikdən ibarət olub, ən qədim dövrlərdən əkinçilik və maldarlığın inkişafı üçün təbii şəraitə malik olmuşdur. Bu xüsusiyyət onun cənub və qərb ətrafında daha yaxşı müşahidə olunur.

1965 və 1967-ci illərdə abidədə yoxlama-kəşfiyyat işləri aparan Q.İsmayılzadə buradan çoxsaylı arxeoloji materiallar toplamış və yaşayış yeri haqqında ilkin məlumat vermişdir [8].

Kültəpə çoxtəbəqəlidir. Buradakı təsərrüfat işləri və təbii aşınmalarla yaranmış kəsiklərdə və yerüstündən toplanan kolleksiyalar eneolit, tunc dövrünün bütün mərhələləri (ilk, orta, son tunc və ilk dəmir), habelə sonrakı dövrlər üçün xarakterik olan keramika nümunələri ilə təmsil olunmuşdur. İlk tunc dövrü ilə bağlı materiallar daha çox və müxtəlifdir. Maraqlıdır ki, ilk tunc dövrü materiallarına möhtəşəm yaşayış yeri ilə yanaşı, Kültəpəni əhatə edən kiçik ölçülü "təpələrdə" də rast gəlinmişdir. Görünür ki, "təpəciklər" halında qalmış yaşayış yerləri elə qədim dövrlərdə böyük sahəyə malik Kültəpə ilə vahid kompleks [7] təşkil etmişdir. Kültəpədə aparılmış yoxlama qazıntısı ilə burada ilk tunc dövrü təbəqəsinin 6 m yaxın olması müəyyən edilmişdir. Arxeoloji materiallar ilk tunc dövrünün müxtəlif inkişaf mərhələləri üçün xarakterik nümunələrindən ibarətdir. Bunların içərisində boz, qara və qırmızı rəngli, yarımşarşəkilli qulpu olan cilalı qab nümunələri xüsusilə seçilir.

Meynətəpə. Abidə Q.S.İsmayılzadə tərəfindən qeydə alınıb. Üç təpədən ibarət olan Meynətəpə abidələr kompleksi Füzuli şəhərindən 6 km-ə qədər şimal-şərqdə, Köndələnçayın sağ sahil zonasında yerləşir [13]. Təpələrdən (yəni yaşayış yerlərindən) birinin hündürlüyü 1,5 m, diametri 60 m-ə yaxın; ikinci təpənin uzunluğu 150 m-ə yaxın, eni 60-70 m arasında, hündürlüyü isə çay yatağı hissəsindən 20 m-ə qədər olmuşdur. Əvvəlinci iki yaşayış yeri çay yatağına bilavasitə yaxındır və onun kənarındakı təbii platformanın üzərində yaranmışdır [12].

İkinci təpə ilə birincisi arasında 15-20 m məsafə var. Uzaqdan təpə bir növ qədim qalaları xatırladır. Təpənin torpağı üst təbəqələrdə kül qarışıqdır. Çoxillik yaşayış nəticəsində yığılmış bu qalıqlar burada vaxtı ilə həyatın intensiv olmasını göstərir. Kəsikdə və uçulmuş yerlərdə toplanmış keramika nümunələri ilk tunc dövrünə aid boz və qırmızı rəngli cam, küp, çölmək, xeyrə və s. tipli keramika nümunələrinin fraqmentlərindən ibarətdir.

Birinci təpənin materialları ilk tunc dövrünün ilkin mərhələsi üçün xarakterik olan boz və qırmızı rəngli qabların hissələri ilə daha çox təmsil olunub.

Kompleksə daxil olan üçüncü təpə həm sahəsi, həm də yerləşmə baxımından əvvəlkilərdən müəyyən qədər fərqlənir. Əvvəla, onun sahəsi 3 hektara yaxındır, ikincisi o əvvəlki iki yaşayış yerinin ortasında olub, çay yatağından bir qədər aralıdadır. Bu yaşayış yeri də təbii platforma üzərində yerləşdiyi üçün yer səthindən ümumi hündürlüyü 10 m-ə çatır. Quruluş etibarilə uzunsov - ellipsvari olub, üst səthi yastıdır. Kəsikdən və yer üstündən toplanmış materiallar ilk tunc dövrü üçün xarakterik əlamətləri aydın seçilən keramika nümunələrindən ibarətdir. Tədqiqatçı Q.S.İsmayılzadə qeyd edir ki, yerüstü materiallar içərisində orta tunc dövrünü əks etdirən keramika nümunələrinin varlığı bu dövrdə də burada yaşayışın davam etdiyini göstərir [8].

Üçüncü təpədən toplanmış materiallar həm say, həm də müxtəliflik baxımından əvvəlki iki təpədən fərqlənir. Bu təpənin materialları içərisində qırmızı və boz rəngli qab nümunələri ilə yanaşı, Kür-Araz mədəniyyətinin inkişaf etmiş və son mərhələlərinə aid qara cilalı qab nümunələri də olmuşdur. Buna görə də hesab olunur ki, Meynətəpənin üçüncü təpəsində həyat tunc dövrünün bütün mərhələlərini əhatə etmişdir [9].

Birinci iki təpənin materialları isə yalnız ilk tunc dövrünə dair kolleksiyalarla təmsil olunmuşdur [5]. Yaşayış kompleksinin ətrafı əkinçilik və maldarlıq üçün əlverişli təbii şəraitə malik olması ilə yanaşı, daimi su mənbəyinin varlığı ilə də diqqəti cəlb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası. 6 cilddə. I c., Bakı: Şərq-Qərb, 2008, 448 s.
2. Axundov T.İ., Mahmudova V.Ə., Alməmmədov X.İ., Vəliyev S.S., Rəhmanov A.A. Muğanda Neolit-Eneolit dövrünün öyrənilməsi və "Muğan Neolit-Eneolit Ekspedisiyası"nın gördüyü işlər haqqında / Azərbaycanda arxeoloji tədqiqatlar - 2009. Bakı, 2010, s. 38-44.
3. Aşurov S.H, Əyyubov O. Naxçıvanın erkən tunc dövrü əkinçi-maldar tayfaların mədəniyyəti. Azərbaycan Arxeologiyası. Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2010, 13 c., № 1, s. 15-25.
4. Bəhərçi T., Mehdiyeva V.Z. Azərbaycan Respublikasının təbii şəraiti, təbii ehtiyatları, onların iqtisadi - ekoloji qiymətləndirilməsi. Bakı, 2012, 301 s.
5. Bünyatov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1960, 238 s.
6. Cəfərov H.F., Cəfərova D.H., Əliyev N.H. Qarabağ arxeoloji ekspedisiyasının çöl tədqiqatlarının ilkin nəticələri. / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2011. Bakı, 2012, s. 130-137.
7. Həsənova C.V. Borsunlu nekropolunda kremasiya mərasimli 12 saylı ilk tunc dövrü kurqanı. // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, 2014, № 1, s. 76-82.
8. Hüseynov M.M. Naftalan-Goranboy arxeoloji ekspedisiyasının apardığı arxeoloji tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2011. Bakı, 2012, s. 70-74, rəngli şəkillər.
9. İsmayılov Q.S. Füzuli rayonunda Kültəpə abidəsi // Azərb.SSR məruzələri. XXVI c., 1970, № 4, s. 85-89.
10. Quliyev F.E. Azərbaycanın kurqan qəbirlərində at dəfni. AMEA, Tarix İsn. Arxeologiya və Etnoqrafiya sektoru. Bakı: Elm, 1986, 96 s.
11. Quliyev F., Nişiyaki Y., və b. Göytəpə və Hacıəlləmxanlı neolit dövrü yaşayış yerlərində arxeoloji tədqiqatlar / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2012. Bakı, 2013, s. 309-328.
12. Məmmədov A.M. Bərdədə arxeoloji qazıntılar / Azərbaycanda Arxeoloji Tədqiqatlar - 2012. Bakı, 2013, s. 208-211.
13. Müseyibli N.Ə. Leylatəpə mədəniyyətinin metal istehsalı Ön Asiya-Qafqaz metallurgiya kontekstində // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, 2014, № 1, s. 12-46.

SUMMARY

HISTORY OF STUDY OF ARCHAEOLOGICAL MONUMENTS OF MIL-KARABAKH REGION

Hasanova J.V.

The Mil-Karabakh region covered by the theme includes Lachin, Kalbajar, Jabrayil, Fizuli, Aghdam, Aghjabedi, Terter, Beylagan, Barda and Nagorno-Karabakh. Geographically, the region includes mountainous, foothill and flat areas. The temperate climate of the region, fertile lands, rich natural resources, abundant rivers, forests, wildlife - all this from ancient times created conditions for the settlement of primitive people in the territory of Mil-Karabakh.

Key words: *Mil-Karabakh, archeology, Early Bronze Age, monument, kurgan.*

РЕЗЮМЕ

ИСТОРИЯ ИЗУЧЕНИЯ АРХЕОЛОГИЧЕСКИХ ПАМЯТНИКОВ МИЛЬ-КАРАБАХСКОГО РЕГИОНА

Гасанова Дж.В.

Охваченный темой Миль-Карабахский регион включает Лачин, Кельбаджар, Джебраил, Физули, Агдам, Агджабеди, Тертер, Бейлаган, Барду и Нагорный Карабах. Географически область включает горные, предгорные и равнинные районы. Умеренный климат региона, плодородные земли, богатые природные ресурсы, обильные реки, леса, животный мир - все это с древних времен создавало условия для расселения первобытных людей на территории Миль-Карабаха.

Ключевые слова: *Миль-Карабах, археология, ранний бронзовый век, памятник, курган.*

MÜASIR TARİXİMİZİN TƏCƏSSÜM OLUNDUĞU ƏSƏR (Əyyub Qiyas "Sonuncu büt")

Həsənova L. T.
Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbayacn
hltlala@mail.ru

Açar sözlər: *Şuşa, roman, Eyyub Qiyas, 90-cı illər, qələbə*

Nasir, tərcüməçi, dramaturq, şair –Əyyub Qiyas ötən əsrin 90-cı illərində ədəbiyyata gəlib. Bir necə şeir, hekayə kitablarının, pyeslərin, romanların, onlarla tərcümə kitablarının müəllifidir. Bu illər ərzində yazıçının bir necə romanı çap olunub. Təhlilə cəlb etdiyimiz romanın özəlliyi əsərinin son hissələrində hadisələrin Şuşada cərəyan etməsi, müasir tariximizi əks etdirməsi ilə bağlıdır.

Əyyub Qiyasın "Sonuncu büt" romanında keçid dövrü XX əsrin- 90-cı illəri əks olunub. Öz dövrünü, epoxasını canlandıran yazıçının əsas personajını "sonuncu cəngavər" adlandırmaq olar. Hadisələr əsasən müxtəlif millətlərin qarşılıqlı anlam və sevinc içində yaşadığı beynəlxalq şəhərdə - Bakıda cərəyan edir. Lakin, erməni fitnəsi bu idillik yaşama son qoyaraq günahsız gəncin həyatını məhv edir. Uzun müddət cəmiyyətdən təcrid olunan, 28 il həbsxana həyatı yaşayan Məmmədağa doğma şəhərinə, evinə dönsə də, özünü burada yad sanır. Dəmir barmaqlılqlar arasında keçirdiyi illər ərzində şəhər, insanlar, qonşular- hamı dəyişib. Romanda keçid dövrünün qaranlıq məqamları, bir çoxlarının yaxşı həyat istəyi, bəzən isə görməməzlikdən gəldiyimiz mətləblər-kriminal avtoritetlərin əlinə keçən şəhər, göyərçin damının yerində tikilən obyektlər, Məmmədağa həbsxanada olduğu zaman özlərinə iş qurub qardaşının haqqını yeməkdən utanmayan Muxtar kimilər...beləliklə, yaxşı ilə pisin yerindən oynadığı mühit əks olunur. O isə, ötən zamanların buxovunu qıraraq yeni həyata uyğunlaşa bilmir, işğalla barışmayaraq Şuşaya can atır.

Ötən əsrin 90-cı illər nəsli üçün bu hiss çox xarakterikidir. Dəyişən sosial durum, siyasi vəziyyət hər kəsdə çaşqınlığa səbəb oldu. Dəyərlərin bir anda puç olduğu keşməkeşli mühit cəmiyyətin parçalanmasına gətirib çıxardı. Kimiləri vəziyyətlə uyğunlaşaraq hər yolla pul qazanmağı üstün tutdu (Məmmədağanın antipodu olan Muxtar kimi), cəmiyyətdə mövqe tumağa çalışdılar (qardaşı İlqar kimi). Yalnız özünü düşünən, heç kimə bağlılığı olmayan Müxtar, İlqar kimilər uğur qazana bilsələr belə, bu xoşbəxtlik ilğım kimi tez də ötdü. Çünki, yaxşı həyat üçün hər şeydən keçməyə hazır olan, mənən formalaşmamış biri, nə qədər uğurlu, güclü biri olaraq görünnməyə çalışsa da, gücsüz və zavallıdır. Məmmədağa haqsızlığı cavabsız qoya bilmədiyi üçün ömrünün çox hissəsini həbsxanada keçirməli olur. Bu müddətdə Muxtar kimilər onun göyərçin damını ələ keçirərək özünə biznes qurur, İlqar təhsilini başa vuraraq mühüm vəzifədə çalışır. Məmmədağa isə illər sonra da xəyalən atasının sürdüyü qırmızı tramvayın axtarışındadır.

Zamanla, bu görüntünün duman kimi çəkilməsi nəticəsində onların miskinliyi aydın oldu. Təəssüf ki, müəyyən dövr ərzində mühit bu cür insanlar üçün əlverişli şərait yaratdı və bu kimi insanlar vəziyyətdən istifadə edərək cəmiyyəti yönləndirməyə çalışdılar. Keçid dövründə ədəbi personjlar qalereyası bir az da "zənginləşdi". Cəmiyyətdə yaşananlar- azadlıq hərəkatı, siyasi gərginlik, itkilərimizin ağrısı gələcəyə ümidimizi belə əlimizdən almışdır. Tramvay dövründən mersedesli Muxtarın dövrünə keçid anidən baş vedi, insanların bu yeniliklərə öyrəşməyə vaxtı olmadı, fakt qarşısında qaldıqda vəziyyətlə razılaşmağa məcbur olsalar da, qəbullana bilmədilər. Qəlbimizin dərinliyində bu gün də anidən ağuşuna atıldığımız müasir gerçəklik bizi qorxudur. Ötən illərə xas illüzor stabillik hissini təhtəlşüuri şəkildə olsa belə özləyirik.

Arturik xalqımızın arasında böyüyüb rişələnən erməni xislətinin doğurduğu fəsadlar, içimizə sızıb bizə qarşı nifrətini yeritməyə çalışan ermənilərin ümumiləşdirilmiş obrazı olaraq dəqiqliklə canlandırılıb. Hər məqamda "ayıq-sayıq" olan, öz çirkin əməllərini həyata keçirərkən vicdan əzabı çəkməyən (Orxanla qaşılaşma səhnəsi), həyət döyüşlərində öz iç üzünü göstərən, asanlıqla hər kəsi ələ verən gəncin törətdiyi fitnə-fəsad, bu murdar xislətli insanın mürəkkəb naturası indiki və keçmiş zaman müstəvisində göstərilmişdir. İllər sonra erməni qonşusunu taparaq onunla haqq-hesab çəkməyə nail olan Məmmədağa onlara qarşı nifrətini bu şəkildə bildirir: "Bu dəqiqə bizdə ən ağır təhqir bilirsən nədir? Bir vaxt gələcək, bu ifadə dünyada ən təhqiramiz sözə çevriləcək. Kimsə birinə "sən ermənisən" desə, qan töküləcək. Bunu unutma". Baş verənlər, ön plana keçən keçmiş hadisələrin təsviri fonunda dolğunlaşır. Həyətdə, uşaqlar arasında yaşanan hadisələr dünya siyasətində yaşananları sanki böyüdücü güzgü olaraq əks etdirir (Məmmədağanın Aruklə Orxan hadisəsində mövqeyi). "Sükutu pozan Məmmədağa dedi: "İndi sənə kim olduğun aydın oldu? İndi bunu hər kəs bilir. Kişiyə maska arxasında gizlənmək, dostlarını satmaq yaraşmaz... Bu gündən sonra bizim həyətdə özünə dost axtarma... Get..." [1,84]. Həmin döyüşlərin davamı sonradan cəbhədə yaşanır, Əhməd həyətdə baş tutan bərabər döyüşdə ermənıyə qalib gələ bilsə də, döyüş meydanında həlak olur. Çünki erməni taktikası, döyüş meydanında da davam etdirilir. Məmmədağa isə, hələ ki, həmin ərazilərdə ədalət prinsiplərini bərpa etməyə qadir deyil.

Dağınıq süjet xətti, retrospeksiya, yuxular, simvollar, axirət ilə bağlantı kimi təsvir vasitələrinin yer aldığı əsərdə bu elementlər formal səciyyə daşımayıb, mövzunun daha dərin məzmun kəsb etməsinə səbəb olur. Ömrünü erməni fitnəsi ilə bada verən, illərini həbsxana divarlarında keçirən Məmmədağa bir dəfə də olsa Şuşada olmaq, oranın suyu içmək istəyir. Bütlərin çağırışı çoxlarını narahat etsə də, İlqar gücsüzlüyünü hiss edib özünə qəsd edir, romantik hisslərlə yaşayan Rüfət də hadisələrə reaksiya verəcək biri deyil. Yalnız Məmmədağa bu çağırışa biganə qala bilməyib müqəddəs məkana yollanır.

Son illərdə qələmə alınan bir şox əsərlərdən fərqli olaraq romanda bir insanın, son olaraq bir xalqın faciəsinə səbəb olan düşmən nifrətlə xatırlanmır. Hər bir xalqın kəsdiyi çörəyə, əhd peymana sadiq qalan, içindəki şeytana qalib gələrək mələyin hökmü ilə yaşayan Arşevil, Məmmədağa kimi nümayəndələri vardır. Romanda yaxşı azərbaycanlı və mənfur düşmən qarşıdurması deyil, insanlığın öləziməsindən, zaman kecdikcə şeytan xislətli insanların ikinciləri üstələməkdə olmağından bəhs edilir, müharibələrin fərdlərin istəyi ilə deyil, dünyada şərin artması nəticəsində yaşandığını vurğulanır. Məmmədağa, Arşevil kimi insanlar təkləndikcə insanlıq ölür və şərin hakimiyyəti başlayır. İlqar kimilər gec islah olunduqları üçün bu tarixi missiyanı həyata keçirməkdə gücsüzdülərsə, Muxtar kimilər isə vəziyyəti nəzarətdə saxlayaraq şəxsi mənfət üçün hər kəslə dil tapmağa hazırdılar. Müharibənin baş verməməsi, pisliyin yaşanmaması, ruhların yerindən oynamaması üçün insanlar şərin xeyiri üstələməsinə yol verməməli, bu prosesi biganəliklə müşahidə etməməlidirlər. Müasir insandan tələb olunan yalnız budur.

Bu baxımdan əsər yalnız hər hansı xalqa deyil, ümumən pisliyə qarşı yönəlmiş roman olaraq bədii-estetik əhəmiyyət kəsb edir. Düşmənin aşağılanmasi kimi yanlış yanaşma nəticəsində mövzunun cılızlaşması baş vermir. Biz bu müharibədə bir xalqla deyil, böyük bir şərlə mübarizə aparmışıq. Vuruşmuşuq, itkilər vermişik ancaq sınmamışıq, cılız hisslərin qurbanına çevrilməmişik, xalq olaraq böyüklüyümüzü, mərdliyimizi saxlamış, tariximizə, milli-mədəni sərvətimizə sahib çıxmağı bacarmışıq. Zamanla bu hadisələr reallıqda da yaşandı, artıq vəziyyət hamıya bəllidir, göz qabağındadır. İllər öncə müəllifin bu ağrılı mövzunu bunca dəqiqliklə təsvir edərək hadisələri öncədən duya bilməsi yazıçının iti intuisiyasının, yüksək müşahidə qabiliyyətinin göstəricisidir. Çox zaman müasir ədəbiyyatın zamanı, dövrü canlandırmaqda çətinlik çəkdiyi, dövrün problemlərinə biganə yanaşdığı qeyd olunsa da, belə bir əsərin yaranması müasir ədəbiyyatımızda, nəsrimizdə əlamətdar hadisədir. Hadisələrin uğurlu sonluğunu proqnozlaşdıran müəllif, illər öncə reallığı qabaqlayaraq, düşgün, məğlub hisslərə tabe olmamış, zamanla yaşanacaq zəfər sevincini oxucusuna daha əvvəl yaşada bilmişdir.

Bu səbəbdən, qələbəmiz gerçəkləşdikdən sonra "Literaturnıy Azerbaijan" jurnalının əsəri rus dilində yenidən çap etməsi (roman ilk dəfə 2007- ci ildə azərbaycan dilində nəşr olunub) anlaşılandır. Yaşadıqlarımız, şahidi olduqlarımız gerçəkliklər romanın yeni oxunuşunu labüdləşdirir. Əyyub Qiyas arzularımızın şəhəri, yaralarımıza məlhəm bildiyimiz Şuşanı uzun illərdən sonra təsvir edən ilk nasirlərimizdəndir.

ƏDƏBİYYAT

1. Э.Гияс. Последний идол // Литературный Азербайджан, 2020, №12
2. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2 cilddə, II cild. Bakı, "Elm və təhsil", 2016, 1090 səh
3. https://az.wikipedia.org/wiki/%C6%8Fyyub_Qiyas

SUMMARY

A WORK THAT EMBODIES OUR MODERN HISTORY (Eyyub Qiyas "The Last Idol")

Hasanova L.T.

The article analyzes the novel by Eyub Giyas "The Last Idol". The novel describes the events of the 90s of the twentieth century. Mukhtar and Ilgar are trying to adapt to life, to survive at any cost, and Mammadaga, even after spending many years in prison, cannot and does not want to adapt to the new, he is faithful to the old principles, the principles of his ancestors, and the main thing for him is the opportunity to visit Shusha , he manages to fulfill his dream and stay forever in this sacred land. Eyub Giyas is one of the first modern writers who, after many years, described Shusha, the city of our aspirations.
Keywords: *Shusha, novel, Eyub Giyas, 90s, victory*

РЕЗЮМЕ

ПРОИЗВЕДЕНИЕ, ВОПЛОЩАЮЩЕЕ НАШУ СОВРЕМЕННУЮ ИСТОРИЮ (Эйюб Кияс «Последний идол»)

Гасанова Л.Т.

В статье анализируется роман Эюба Гияса «Последний идол». В романе описываются события 90-х годов XX века. Мухтар и Ильгар пытаются приспособится к жизни, выжить любой ценой, а Мамедага даже после того как, провел много лет в тюрьме, не может и не хочет приспособляться новому, он верен прежнем принципам, принципам своих предков и лавное для него это возможность побывать в Шуше, ему удается осуществить свою мечту и навсегда остаться в этой священной земле. Эюб Гияс — один из первых современных писателей, после долгих лет описавший Шушу, город наших чаяний.
Ключевые слова: *Шуша, роман, Эюб Гияс, 90-х годы, победа*

MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATINDA QARABAĞ MÖVZUSU

Hüseynova A.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt,Azərbaycan
arzuhuseynova776@gmail.com

Açar sözlər: *yaradıcılıq ,Qarabağ, vətən, həsrət, qələbə*

Vətən mövzusu bu gün ən yüksəkdə duran mövzudur. Biz bunu vətənə olan sevgi və məhəbbətimizlə biruzə veririk. Vətən bizim vicdan, sədaqət rəmzimizdir. Məmməd Araz demiş: “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı”. Vətənpərvərlik hisləri milli və mənəvi dəyərlərə əsaslanır. Hər bir insan öz vətənini sevməlidir. Əgər biz bu torpağın üzərində gəziriksə, bir vətəndaş olaraq da onu qorumalıyıq, sevməliyik.

Vətən sevgisi hər kəsə hakim kəsilməlidir. Vətəni öz anamız qədər sevməliyik. Vətənpərvərlik anlayışını hər şeydən əvvəl dərk etməliyik. Azərbaycan ədəbiyyatı ta qədim dövrdən başlayaraq bu günümüzə qədər vətənpərvərlik mövzuları ilə zəngin olmuşdur. Bu hər bir şairin, ədibin ürəyindən gələn bir hiss, sevgi idi. Vətən mövzusu, vətənə məhəbbət mövzusu sovet dövrünün ideologiyasına uyğun olaraq sosializm, kolxoz, sovxoz mövzusu deyil ki, sifarişlə yazıla. Bu mövzu millətini, vətənini sevən hər bir şairin, ədibin öz ürəyindən gələn hislər olub.

“İllər boyu faşist ermənilərlə cəng-cidalda olan bir məmləkətin yazıçısı bir an belə müharibə mövzusunu, hərbi vətənpərvərlik problematikasını unutmamalıdır.” [1, s.451] Həqiqətən də Azərbaycan yazıçısı, şairi və bütövlükdə bütün yaradıcı insanlar birinci Qarabağ müharibəsindən sonra bu mövzuda yazıb yaratmağa başladılar.

Vətənpərvərlik həmişə insanı öz daxilində formalaşdırır. 28 ildən artıq Qarabağ torpağı vandal ermənilərin əsarəti altında qaldı, amma heç kəs öz vətənini belə unutmadı. Qarabağı görməyən uşaqlar bu torpaq uğrunda gedən savaşda şəhid oldular. Böyükdən kiçiyə qədər 44 günlük Qarabağ savaşında hamı ölkə lideri İlham Əliyevin dəmir yumruğu altında birləşdilər. Bu möhkəmlik, əzmkarlıq bizi qorxutmadı. Bu

savaşda heç kəs geri çəkilmədi. Ən əsası o oldu ki, bu savaşda bizim bir dənə də olsun fərarimiz olmadı. Bunun hamısının əvvəlində bir vətən sevgisi dayanırdı. Söz yox ki, bir məqalədə Qarabağ mövzusunda yazarların hamısının yaradıcılığını tədqiqata cəlb etmək mümkünsüzdür. Bu baxımdan biz ancaq Qarabağ həsrətli, Qarabağ nisgilli Yazıçılar Birliyinin üzvü əməkdar jurnalist Xuraman xanımın yaradıcılığının bir hissəsini tədqiqata cəlb etmişik. Onun Qarabağ silsiləli şeirlərində böyük bir sevgi, əzmkarlıq görürük. Onun vətən torpağına bağlılığını görürük. Vətənimizin bir parçası olan Qarabağımıza olan ən ülvi məhəbbətin şahidi oluruq. Xuraman xanımın şeirlərinin böyük hissəsi Qarabağ həsrətinin, nisgilinin ifadəsidir. Onun "Qarabağ" adlı şeirində işğalda olan torpaqlarımızın həsrət yaşantılarını görürük.

Ağlamasın muğamatım,
Büdrəməsin köhlən atım,
Səadəti səndə tapdım,
Xoş açılsın yaz Qarabağ

Dağları duman almasın,
Çiçəklər saçın yolmasın,
Gözlərin yolda qalmasın,
Qovuşarıq tez Qarabağ[2] [4, s.9]

Şairənin bu şerində bir nisgilin şahidi oluruq. Saçlarını yolan o çiçəklər, ağlayan muğamatın indi azaddır. Şairin şeirlərinin biri də "Şuşasız" şeiridir. Şuşa Qarabağımızın üzük qaşıdır. Düşmənlər hələ qədim zamanlardan ecazkar gözəlliyə, xüsusi təbiətə malik olan Qarabağa sahib olmağa çalışmışlar. Amma Şuşa həmişə məğlubedilməz olmuşdur. 1992-ci ildə Şuşamız vandalların hücumuna məruz qaldı. Biz Şuşasız qalsaq da, bu dərd bizi əysə də, heç vaxt sındırmadı. Xuraman xanım Şuşamız işğal altında olanda ürək yanğısı ilə "Şuşamız" şeirini yazdı. Şeirdə Şuşa həsrəti, Şuşa dərdi alov saçır.

Qəlbim "Segah" çalır, ruhum "Şikəstə",
Üzeyirim dərdli, Bübülüm xəstə,
"Heyratı" üstündə Xan bizi səslər,
Muğam ocağımız sönür Şuşasız
Vətənin başından düşübdür tacı,
Qəm qovurur, ələm bişirir sacım
Xarı bülüblümün pərişan saçın,
Kim darayır, kimlər hörür Şuşasız[3] [4, s.10]

Düşmən də yaxşı bilirdi ki, o torpaqlar heç vaxt onların olmayıb və olmayacaqdır. O torpaqda Üzeyirin, Bülbülün, Xanın ruhu dolaşır. Xarıbülbül öz insanlarını istəyir.

Ümumiyyətlə poeziyamızın şah əsərləri Qarabağla bağlı olub. Xuraman xanımın yaradıcılığında "Qarabağım" şeiri xüsusi vurğulanıb. Şair bu şeiri qələmə alanda Qarabağ işğalda idi. Xalqın dərdi Qarabağ dərdi idi.

Balaca bir quş olaydım
Sənə sarı tuş olaydım
Dağlarında daş olaydım
Mənim doğma Qarabağım [4, s.14]

Bu gün qələbə zəfərimiz bizim arzularımızı reallaşdırdı. Artıq bu torpaqlar özümüzə qayıtdı. İndi bu torpaqlar çox sevinclidir, çünkü onun üzərində Qarabağ həsrətilə alışıb yanan uşaqlar gəzir. Artıq o insanlar öz doğma ata-baba yurdlarındadırlar. Onlar məcburi köçkün deyillər, onların vətəni azaddır. Xuraman xanımın yazdığı hər şeirdə bir iztirab, bir kədər hakimdir. "Həsrətim" şeirində bunu daha aydın görürük.

Həsrət sırasında, həsrət boyunda,
Bir həsrətim də var torpaq həsrəti,
Bir can qurban verib onun qoynunda,
Əbədi uyumaq, yatmaq həsrəti [4,s.15]

Bugün bu həsrət daha yoxdur. Biz vüsalımıza çatmışıq. Cənab Prezidentimizin vurğuladığı kimi "Qarabağ Azərbaycandır". Bu torpaqlar bizimdir, Qarabağ mövzusu hər bir kəsin, xüsusilə də şairlərin yaradıcılığının yaralı bir yeridir. Bugün o yaralarımız sağalıb. Biz artıq həsrət sorağında deyilik. Biz artıq doğma evlərimizdəyik. Xuraman xanımın Qarabağ nisgilli şeirlərini oxuduqca ürəyimiz ağrıyır. Qaçqın ifadəsi nə qədər ürək ağrıdan kəlmədir.

Üzüldü eldən əlim,
Ayrıldı tağdan telim,
Mənə qaçqın deməyin,
Ağırdı dağdan elim [4,s.17]

Şairin "Yaralı nəğmələr" şeirində Qarabağ dərdinin nə qədər ağır, çəkilməz olduğu qeyd olunur.

Yaralıdır nəğmələrim,
Qan süzülür gözlərimdən,
Mənsiz qalıb dərələrim,
İzim itir düzlərimdən
Kəlbəcərdə gül açmayır,
Solur düşmən nəfəsindən,
Laçında kəklik uçmayır,
Qorxur yağı gülləsindən
İndi deyin necə dözüm,
Bu ağrıya , bu acıya,
Qarabağım, iki gözüm,
Mən bu vətən möhtacıyam [4, s.20-21]

Xuraman İsmayılovanın yaradıcılıq təxəyyülünün məhsulu olan Qarabağ mövzusu bədii məharət və qabiliyyət göstəricisidir. Vətənə olan məhəbbət, sevgi, mənəvi-əxlaqi təmizlik vəhdət şəklində müəllifin dünyagörüşünün əsas istiqamətlərini işıqlandırır. Biz şairin yaradıcılığında vətən həsrəti, vətənə bağlılığı görürük. Bunu şairənin "Niyə yaşayırıq?" şeirində bir daha aydın duyuruq.

Qarabağda üzə gülən yazımız yox,
Xoş ovqatdan çalınacaq sazımız yox,
Fəda üçün torpağımız, tozumuz yox,
Daha niyə yaşayırıq bu dünyada?! [4, s.22]

Doğrudan da, Vətənsiz, torpaqsız yaşamaq çox çətin idi. Sanki insan özünü qanadsız, hər şeydən əli üzülmüş quşa bənzədidi.

"Yuxuma gəlmişdi dağlar bu axşam" şeirində vətən dərdi insan qəlbini, yuxularını tar-mar edirdi.

Göz yaşımdan dağlar yenə nəm çəkdi,
Zirvədə qartallar yaman qıy çəkdi.
Nisgilli bulaqlar şəklimi çəkdi,
Yuxuma gəlmişdi dağlar bu axşam.
Gülü üzülübdü gəlin Şuşanın,
Qanı süzülürdü dağı-daşının,
Onsuz nə önəmi var bu yaşamın,
Həsrət qılıncıyla paralanmışam. [4, s.35]

28 ildən çox bu bu həsrətlə üzüldük. Sanki bu dağların qartalları da haray çəkirdi. Dağdan daşdan qan tökülürdü. Düşmənin nəfəsi bu şəhəri qana boyamışdı.

Laçının yolların yağı tutubdu,
Qubadlı qəm içib, dərdli yatıbdı.
Ağdamın hayına bəs kim çatıbdı,
Bu sual önündə donub qalmışam.

İndi həmin yollar azaddır. Indi qəm içən Qubadlımız, Laçınımız, Ağdamımız öz sakinlərininə nəfəs verir. İnsan bu torpaqda onu hiss edir. Qubadlıda, Laçında, Şuşada çal-çağır zamanı yetişdi:

Üzümə baxmadı Füzuli babam,
Necə də küskündür Zəngilan obam.
Bu doğma yurdlara elə bil yadam,
Bu dərd ocağımda qarsalanmışam. [4, s.36]

Aparılmış hərtərəfli siyasət nəticəsində artıq nəinki Füzulimiz, Zəngilanımız azad oldu, Cənab Prezidentin dediyi kimi, "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, işğalçıları əzəli torpaqlarından qovdu və beləliklə tarixi ədalət bərpa olundu." [3, s.47] Artıq düşmənin iyrənc nəfəsi belə o torpaqlara heç vaxt dəyməyəcək. Bütün dünya erməni deyilən bir məxluqun qara sifətini gördü. Dağılmış əraziləri bütün dünya gördü. Artıq bütün dünya bu vəhşiliyi görəndən sonra onların ədalətsiz, qaniçən bir millət olduğunu gördülər.

44 günlük vətən müharibəsində qələbə çalsaq da, erməni kimi qonşusu olan bir millət, dövlət heç vaxt ayıq-sayıqlığını itirməməlidir. Şair Ramiz Duyğunun dediyi kimi "erməni vəhşiliyinin, barbarlığının, despotizminin yer üzündə misli-bərabəri yoxdur...quzu cildinə girən, özünə yazıq, məzlum millət imicini qazanmağa çalışan, əslində isə yırtıcı, terrorçu xislətli erməni faşizmi dünya üçün təhlükəlidir." [5, s. 7]

Əgər 44 günlük müharibəyə qədər şairlərimiz vətən həsrəti, torpaq itkisi haqqında yazırdılarsa, bu gündən sonra 44 günlük müharibədə belə vəhşi, qaniçən düşmənə qalib gələn Azərbaycan şəhidi, qazisi haqqında hələ çox əsərlər yazacaqlar. Çünki Prezident İlham Əliyevin dediyi kimi " "Qarabağ Azərbaycandır

və nida!” ifadəsi artıq bizim qələbəmizin rəmzidir, rəmzinə çevrilibdir. Bir il bundan əvvəl mən bunu demişəm. Fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrilibdir.” [2, s.247]

ƏDƏBİYYAT

1. Abdullayev C.M. Azərbaycan ədəbiyyatı. 2 cilddə, II cild. Bakı. Bakı Dövlət Universiteti nəşriyyatı. 2007. 564 s.
2. İlham Əliyev. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyənatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 108-ci kitab. noyabr 2020- dekabr 2021. Bakı: Azərnəşr, 2021. – 392 s.
3. İlham Əliyev. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyənatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər.110-cu kitab. fevral 2021- mart 2021. Bakı: Azərnəşr, 2021 – 392 s.
4. İsmayılova X.Qarabağım qəm ocağım.Poema və şeirlər, “Nağıl evi” Bakı,2004, 112 s.
5. Ramiz Duyğun Tarixin lənəti- kəllələrin fəryadı. “Apastrof” çap evi. Bakı 2013. 304 s.

SUMMARY

KARABAKH TOPIC IN MODERN AZERBAIJANI LITERATURE

Huseynova A.H.

The Karabakh-themed poems of Azerbaijani poetess Khuraman Ismayilova are involved a research in the article during the occupation of Karabakh. The issues of destruction of our land as a result of the Armenian occupation of Karabakh is brought to the fore in her creativity. In her poems, the impact of the longing for Karabakh, the Karabakh languor on the rise of patriotic spirit is studied. At the same time, the attention is paid to ending the occupation of Karabakh.

Keywords: *creativity, Karabakh, motherland, longing, victory*

РЕЗЮМЕ

ТЕМА КАРАБАХА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

Гусейнова А.Г.

В статье анализируются стихи азербайджанской поэтессы Хураман Исмаиловой на карабахскую тематику, написанные в период оккупации Карабаха. Отмечается, что на первый план в ее творчестве выдвигаются проблемы разорения нашего края в результате оккупации Карабаха армянами. Изучается влияние звучащих в ее стихах мотивов тоски по Карабаху на подъем патриотического духа. При этом внимание уделяется и вопросам окончания оккупации Карабаха.

Ключевые слова: *творчество, Карабах, родина, тоска, победа*

QARABAĞ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN BEŞİYİDİR

İbrahimova N.N.
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
nergiz686@gmail.com

Açar sözlər: *Azərbaycan, Qarabağ, maddi mədəniyyət, mənəvi mədəniyyət, Şuşa, incəsənət*

Qarabağ bölgəsi nəinki, Azərbaycanın, həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Dünyanın ilk insan məskənlərindən olan Azıx, Tağlar, Zar mağaraları məhz Qarabağda yerləşir. Qarabağ qədim daş dövrü insanlarının yaratdığı Quruçay mədəniyyətinin, həmçinin tunc dövrü Kür-Araz və son tunc-erkən dəmir dövrünə aid Xocalı-Gədəbəy mədəniyyətinin məskənidir. Bura e.ə. I minilliyin ortalarında Şimali Azərbaycanda yaranan Alban dövlətinin etnomədəni mərkəzi olmuşdur. Albaniyanın Artsax, Sisakan (Sünik), Sakasena vilayətləri Qarabağ bölgəsini əhatə edirdi. Eramızın əvvəllərində xristianlıq dininin yayılması ilə Albaniya və onun vilayətlərində də xristianlıq yayılır. Bu gün Qarabağda xristian abidələrinin zənginliyi bundan irəli gəlir . Laçında Ağoğlan

məbədi, Kəlbəcərdə Xudavəng və Gəncəsər monastrları və Qarabağın başqa bölgələrində yerləşən çoxsaylı alban xristian kilsələri bunun bariz nümunəsidir. Orta əsrlərdə Azərbaycanda və Qarabağda İslam dininin yayılması ilə xalqın şəhərsalma mədəniyyətində, tikinti komplekslərinin memarlıq üslubunda müəyyən dəyişikliklər baş vemişdir. Belə ki, Qarabağın hər yerində məscidlər tikilmiş, Yaxın Şərq ölkələrində olduğu kimi şəhərlər yeni üslubda qurulmağa başlamışdır. Qarabağda tarix və mədəniyyət abidələri-qalalar, türbələr, körpülər və digər tikinti qalıqları bu bölgənin, habelə Azərbaycanın bugünki mədəniyyət ənənələrinin bünövrəsini təşkil etmişdir. İslam mədəniyyətinin inkişafı prosesində Qarabağ Yaxın və Orta Şərqin etnomədəni siyasi-ideoloji mərkəzlərindən birinə çevrildi. Xilafətin Qarabağın əyalətlərini vahid Arran inzibati bölgüsünə daxil etməsi onun mədəni əyalətə çevrilməsinə müsbət təsir göstərdi. Artıq XIII əsr müəllifi F.Rəşidəddin onu "Arran Qarabağı" adlandırırdı. XVII əsr türk səyyahı E.Çələbinin isə Qarabağ haqqında məlumatları buranın Azərbaycan mədəniyyəti daxilində tutduğu mövqeyi aydın, dəqiq qiymətləndirməyə imkan verir. O, Qarabağı "Kiçik Azərbaycan" adlandırmışdır.(5,s.33).Göründüyü kimi, Qarabağ ümumi Azərbaycan mədəniyyətinin tərkib hissəsi olmaqla tarixən özünəməxsusluğu ilə fərqlənmiş və "Kiçik Azərbaycan" təsəvvürünü yaratmışdı. Çünki, Qarabağ yalnız Azərbaycan üçün deyil, həmçinin bəşərriyyət üçün də sivilizasıya beşiyi olmşdur. Azərbaycan hüdudunda milli mədəniyyət kimi formalaşan dəyərlərin kökü məhz Qarbağda idi.

XVIII ci əsrdə mərkəzi Şuşa olan Qarabağ xanlığın yaranması ilə Qarabağın mədəniyyəti daha da inkişaf etdi. Poeziyası, musiqisi, xalq sənətkarlığı yüksək inkişaf səviyyəsinə çatdı."Qarabağ" adı ilə məlum olan yeni mədəniyyət yarandı ki, bu mədəniyyət bu günə qədərdə özünəməxsusluğunu qoruyub saxlayır. Artıq "Qarabağ musiqisi", "Qarabağ poeziyası", "Qarabağ atı", "Qarabağ xalçası" Azərbaycanın mədəni inkişafında ozünəməxsusluğu ilə fərqlənməyə başladı.

Qarabağ xanlığının paytaxtı Şuşa isə özünün mənəvi intibah məqamına çatdı. Pənahəli xan Şuşa şəhərinin layihəsinin hazırlanması və tikintisi üçün yerli memar və ustalarla bərabər Şərqin tanınmış sənətkarlarını da cəlb etmişdi. Şəhər şərq memarlığının bütün incəliklərindən istifadə etməklə təbii dağ istehkamının davamı kimi yaradılmışhərbi müdafiə qalası, zadəgan şəhəri, maarif ocağı, sənətkarlıq və ticarət mərkəzi, istirahət və karvansaraylar kompleksini özündə birləşdirən yeni memarlıq incisi idi. Bu yeni üslub və mənzərə dövrün memarlıq və incəsənətinə bələd qabaqcıl şəxslərin diqqətini çəkmiş və Parislə müqayisə edərək onu"Kiçik Paris"adlandırmışlar.(5,s.76) Qarabağ xanı alimləri, rəssamları, şairləri, musiqiçi və xanəndələri, nəqqaşları, memar və yaxşı ustaları Şuşa şəhərinə dəvət edərək onların burada məskunlaşmasınaşərait yaradır və onlara lazımı qayğı göstərir, məscid, mədrəsə və ehsan evləri tikdirirdi. Qanunauyğun olaraq XVIII əsr yeni milli şeir məktəbinin əsası da Qarabağda qoyulur. Bunun nəticəsidir ki, bu gün Azəbaycanın ədəbi dili Qarabağ dialektinin əsasında formalaşmışdı. Elə bu dövrün mütəfəkkirləri tərəfindən Qarabağın tarixi yazılmağa başlayır. Mizrə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Qarabağinin "Qarabağ Tarixi", Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair", Mir Mehdi Xəzaninin "Kitabi tarixi Qarabağ" əsərləri buna misal ola bilər.Bütün bunlar Qarabağın Azərbaycan mədəniyyətinin beşiyi olduğunun bariz nümunəsidir.

Qarabağın zəngin mədəniyyətində ən mühüm yerlərdən birini onun həyat və məişəti, gündəlik güzəranı ilə bağlı olan xalq sənətkarlığı tutur. Təbiidir ki, qarabağlıların məişət xüsusiyyətləri, estetik zövqü, bir sözlə milli siması bu sənət növündə özünü xüsusilə büruzə verir. Əbəs yerə olmayaraq indi dünyanın ən zəngin muzeylərində Qarabağ xalq sənətkarlığının timsalında Azərbaycan xalq sənətkarlığının bir çox gözəl nümunələri ilə rastlaşmaq olar.Londonun Viktoriya və Albert, Sankt-Peterburqun Ermitaj, Parisin Luvr, Vaşinqtonun Metropoliten, həmçinin, Vyananın, Romanın, Berlinin, İstanbulun, Tehranın, Qahirənin zəngin muzey kolleksiyalarına baxarkən orada Qarabağ ustalarının bacarıqlı əlləri ilə yaradılmış zəngin sənət nümunələrini görmək olar.

Müxtəlif dövrlərdə Qarabağın xalçaçılıq məktəbində toxunulmuş xalçalar bu günədək öz gözəlliyi ilə insanları valeh edir. Onların bir çoxu dünyanın məşhur muzeylərində mühafizə olunur. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx və yumşaq xova malikdir. Qarabağ xalçaları həyat eşqi və parlaq koloriti ilə seçilirlər. Bütün bunlar Azərbaycan xalqının bədii mədəniyyətinin özünəməxsus "genofond"unun göstəriciləri, daxili zənginliyinin, fəlsəfi görüşlərinin və dünyaya baxışlarının təcəssümüdür.

Zəngin mədəni irsə malik olan Qarabağ bölgəsi musiqi, muğam diyarı kimi də məşhurdur. Azərbaycan musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Qarabağ musiqisinin çoxəsrlik ənənələri vardır. Qarabağ musiqi sənətində muğamlar, xalq mahnıları, rəqslər, aşıq yaradıcılığı da özünəməxsus yer tutur. XX əsrdə Qarabağ musiqi məktəbi dünyaya bir çox tanınmış musiqiçi bəxş etmişdir. Qarabağda keçirilən musiqi festivalları və müsabiqələri yeni istedadların üzə çıxması və inkişafına təkan vermiş və muğam sənətinin dünyada tanıdılmasına şərait yaratmışdır. Buna misal olaraq 1987-ci ildə Şuşada keçirilən

“Xarı bülbül” ümumittifaq musiqi festivalını göstərmək olar. (“Xarı bülbül” bu yerlərdə bitən nadir çiçəyin adıdır.).

Qarabağ dedikdə həm də qızılı-qonur rəngli, öz etibarlılığı, dözümlülüyü ilə məşhur olan yaraşıqlı, vəfalı **Qarabağ atları** yada düşür. Bu cins atlar tarixən müxtəlif beynəlxalq sərgilərin mükafatlarını qazanıb. Müsabiqələrdə Qarabağ atları “Meymun”, “Toxmax”, “Ağalar”, “Bayram”, “Zaman”, “Qaragözlü”, “Qafqaz gözəli” və s. adlar altında iştirak etmiş və dəfələrlə qalib gəlmişdir. 1956-cı ildə Zaman adlı Qarabağ atı SSRİ rəhbərliyi tərəfindən Britaniya kraliçası Yelizavetaya hədiyyə edilib. Hətta Ağdam Atçılıq Zavodu da Qarabağ atları cinsinin qorunması məqsədilə yaradılmışdı. Hazırda “Ərəb”, “Don”, “Budyonnı” kimi məşhur at cinsləri arasında Qarabağ atları da xüsusi yer tutur. Qarabağ atının adi yerişi saatda 8 kilometrdən çoxdur.

Qarabağın paytaxtı sayılan Şuşa, həm də Azərbaycanın mədəniyyət paytaxtıdır, döyünən ürəyidir. Bu şəhər görkəmli rəssamların, memarların, heykəltəraşların, musiqiçilərin, xanəndələrin, alimlərin, ədiblərin doğulduğu və yaşayıb yaratdığı şəhərdir.“Şərqin konservatoriyası”, muğamımızın beşiyi adlanan bu şəhər Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyli, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi incəsənət xadimlərinin vətəni olub. Məşhur müğənniləri dinləmək və ya ifaçılıq dərsi almaq üçün hər yerdən bura musiqi həvəskarları axışıb gəlirdilər. Lakin bu şəhər təkcə musiqiçiləri ilə şöhrət qazanmamışdır. Bura həm də ədiblərin vətənidir. XX əsr Azərbaycan maarifçilik hərəkatının öndərləri olan Ə.Ağaoğlu, N.Vəzirov, Ə.Haqverdiyev, F.Köçərli, Y.V.Çəmənzəminli kimi görkəmli ziyalılar bu şəhərin yetirmələridir.

Qarabağın həm də turizm potensialı olduqca zəngindir. Əsrarəngiz təbiət amili, saf, dupduru müalicəvi bulaqları, yaylaqları, qışlaqları, tarixi abidələr baxımından zənginliyi bu yerlərin şöhrətini daha da artırır. Burada turizmin bir çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar vardır. Sevindirici haldır ki, artıq Qarabağımız işğaldan azad olunub və biz vətənimizə qayıtmışıq. Əminəm ki, çox yaxın zamanlarda torpaqlarımız abadlaşdırılacaq, Qarabağ yenidən Azərbaycanın cənnət guşələrindən birinə çevriləcək.Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Həm maddi mədəniyyət nümunələri, həm də relyef və təbiət amilləri baxımından zəngin olan Şuşa şəhəri isə Azərbaycanın bir başqa turizm mərkəzi ola bilər. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür.Qarabağın mövcud turizm potensialının tanıdılması üçün zəruri turizm infrastrukturunun yaradılması istiqamətində gərgin işlər davam edir. Xüsusi vurğulamaq lazımdır ki, turizmin iqtisadi tərəfi ilə yanaşı, tanıtım tərəfi də vardır. Turistlər həm Qarabağımızda dincələcək, təbiətin gözəlliyindən, mədəni-tarixi abidələrimizdən, yaradılmış əlverişli mühitdən zövq alacaq, həm də Ağdam, Cəbrayıl, Füzuli kimi ərazilərimizdə işğalın nəticələrini göstərmək üçün eksponat kimi nümayiş olunacaq bəzi tikililərlə də tanış olmaqla Qarabağın erməni barbarları tərəfindən hansı vəziyyətə salındığının, indi isə əsl sahibləri tərəfindən necə abadlaşdırıldığının əyani şahidi olacaqlar.

ƏDƏBİYYAT

1.Abbasov.Z. Şuşa Azərbaycanın mədəniyyət və tarix incisidir. Bakı, 2010. s.96

2.Əliyev.V. Qarabağ (qədim dövr). Bakı, 2010. s.204

3.Qeybullayev Q. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı,1990. s.248

4.Hacıyev.Q .Qarabağın maddi və mənəvi mədəniyyəti. Bakı, 2010.s.152

5.Xəlilli X. Qarabağ: etnomənəvi inkişaf tarixi (ən qədim dövrdən 1920-ci ilə qədər).Bakı,2006. s.124.

SUMMARY

KARABAKH IS THE CRADLE OF AZERBAIJANI CULTURE

Ibrahimova N. N.

Our homeland - Karabakh, which is an integral part of Azerbaijan, rich in favorable natural and geographical conditions, rich nature and climate, fertile land, underground and surface resources, natural caves, is considered one of the oldest human settlements in the world.That is why this region is considered the cradle of human culture with its ancient history and rich culture.Historical monuments, architectural pearls, carpets, horses and other examples of folk art of Karabakh, rich in both material and spiritual culture, are known all over the world.Karabakh is also the cradle of Azerbaijan's spiritual culture.This is not only the center of our national music - mugam, but also the homeland of prominent artists, musicians and writers.

Keywords: *Azerbaijan, Karabakh, material culture, spiritual culture, Shusha, art*

РЕЗЮМЕ

КАРАБАХ – КОЛЫБЕЛЬ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

Ибрагимова Н.Н.

Наша родина - Карабах, являющийся неотъемлемой частью Азербайджана, богатый благоприятными природно-географическими условиями, богатой природой и климатом, плодородными землями, подземными и наземными ресурсами, природными пещерами, считается одним из древнейших поселений человека в мире.Именно поэтому этот регион считается колыбелью человеческой культуры с его древней историей и богатой культурой.Богатые как материальной, так и духовной культурой, исторические памятники Карабаха, архитектурные жемчужины, ковры, лошади и другие образцы народного творчества известны во всем мире.Карабах также является колыбелью азербайджанской духовной культуры.Это не только центр нашей национальной музыки - мугама, но и родина выдающихся художников, музыкантов и писателей.

Ключевые слова: *Азербайджан, Карабах, материальная культура, духовная культура, Шуша, искусство*

MİRZƏ HƏSƏN QARABAĞİ MƏSNƏVİLƏRİNDƏ QARABAĞ İCTİMAİ MÜHİTİ

İsmayılova Ə.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
efsane.ismayilzade@inbox.ru

Açar sözlər: *Mirzə Həsən Qarabaği, satira, Şuşa, Qarabağ.*

XIX yüzil Azərbaycan xalqının ədəbi-mədəni fikir tarixində məzmun, ideya-estetik yenilikləri ilə zəngin bir dövrdür. Bu mərhələ bir sıra ədəbi-mədəni hadisələri özündə ehtiva edir. Ölkənin Rusiyanın müstəmləkəsinə çevrilməsi, rusdilli təhsil ocaqlarının təsis edilməsi, rus dilinə olan marağın artması və s. hadisələr qarşılıqlı ədəbi əlaqələrin möhkəmlənməsinə, satirik poeziya ənənələrinin güclənməsinə münbit şərait yaratdı. Xüsusilə, milli mətbuatın əsasının qoyulması rus, o cümlədən, Avropa ədəbiyyatına pəncərə açdı. Beləliklə, Xaqani, Nizami, Füzuli yaradıcılığındakı satirik elementlər Mirzə Baxış Nadim, Baba bəy Şakir, Qasım bəy Zakir və b. tərəfindən inkişaf etdirilərək "satira" adlı müstəqil bir istiqamətə çevrildi. Satirik ədəbiyyat əsrin son yarısında daha da inkişaf etdi. Belə ki, Seyid Əzim Şirvani, Mirzə Həsən Qarabaği, Həsənəli Ağa Xan Qaradaği, Mirzə Ələsgər Növrəs və başqa şairlərin yaradıcılıqlarında ictimai tərəqqi və intellektual inkişafa mane olan qayda-qanunlar tənqid olunur, xalqı cəhalət girdabından çıxmağa çağırır, yalnız maarif və elmin fanatizmə qalib gələcəyinə inandırır, onları müasirliyə səsləyirdi.

Mirzə Həsən Qarabaği Qasım bəy Zakirin ədəbi davamçısı sayılır. Şairin "Rəsmi vilayəti-Qarabağ" adlı 232 beytlik məsnəvisi avtobioqrafik satiradır. Əsərdə Şuşada hökm sürən çatışmazlıqlar real boyalarla təsvir olunur. Məsnəvi Allahın mədhi ilə başlayır, ilk misralarda Quranın müqəddəsliyi, şairin öz dininə olan rəğbətindən bəhs edilir. Qarabaği bu misralarla sanki əvvəlcədən İslam dininə sayğı ilə yanaşdığını xatırladır. Əxlaqi-didaktik məzmun daşıyan bu cür misralardan sonra şair Qarabağda – xüsusilə Şuşa şəhərində hökm sürən mənasız adətlərə toxunur, məscidlərdə dini mərasimlərdə gördüyü yaramazlıqları satira atəşinə tutur.

Qeyd edək ki, XIX əsrdə yaranmış satiralarda xalqı cəhalətə sürükləyən molla, zahid, qazi və başqa din xadimlərini ifşa etmək, bu "dindar"lara xas acgözlük, rüşvətxorluq, tamahkarlıq və s. eybəcərliklərin tənqidi demək olar ki, bütün satiriklərin yaradıcılığında yer almışdır.

Qarabağinin molla, axund və rövzəxanlara münasibəti bəzən o qədər kəskin xarakter alır ki, etik tənqid hüdudlarını aşır. Şairə görə, Şuşada dini məclisləri aparan mərsiyəxanlar və mollalar o qədər cahildir ki, onların şəriətdən, İslamın müqəddəs qayda-qanunlarından xəbərləri belə yoxdur. Onlar istər yas məclislərində, istərsə də dini mərasimlərdə özlərini hörmətli şəxs kimi aparır, Qurandan bəhs edir, əslində isə heç bir dini ayindən xəbərləri yoxdur. Əksinə, cənnət-cəhənnəm xülyası ilə avam camaatı aldadırlar. Ən acınacaqlı hal isə odur ki, məscidlərə qeybət və söz toplamağa gələn adamlar da bunu yaxşı bilir, amma əhali üçün mollaların fırıldağı, moizələrin yalan və ya doğru olmasının heç bir əhəmiyyəti yoxdur:

Gər desin sırf yalan, ya oxusun sırf ğina,
Bizə ağlatmağı lazımdır, əzizim nə ola. (4, s. 90)

Satirada göstərilir ki, məscidlərdə ən dəhşətli vəziyyət məhərrəm ayında – "matəmi-şahi-şühəda" zamanı baş verir. Qan töküb sinə yarmaqla Allah tərəfindən bağışlanacağına inanan insanlar din pərdəsi altında islama zidd işlərlə məşğuldurlar. Şair təziyələrə, yas mərasimlərinə vaxtlarını mənasız söhbətlə keçirməyə gələn sözbazları, qeybətlə məşğul olan qocaları, yas adı ilə bəzənib evdən çıxan qadınları, qovğa, qalmaqal yaradan cavanları, bir sözlə, dini və milli adətləri hörmətdən salanları satirik ifadə və misralarla tənqid atəşinə tutur.

Milli-mənəvi dəyərlərə zidd toy və siğə adətləri də Qarabağinin tənqid hədəflərindəndir. O, toydan əvvəl qohumların bəsit məsələlər barədə məşvərətinə siğə və mehr məsələlərinə sərt şəkildə iradını bildirir, şərab və qumar məclislərinin toyların ayrılmaz hissəsi olduğuna təəssüflənir:

Hansı toyda əgər olmaya şürb ilə qumar,
Ona derlər ki, kişi eylədi öz toyunu xar. (4, s.83)

Şair kinayə ilə göstərir ki, Şuşada toy sahibinin qarşısında duran ən vacib məsələ şərabın təsirindən sərməst olacaq qumarbazların gecə evlərinə gedə bilməyib qalacağı otağı döşətdirməkdir. Təkcə toyda deyil, şuşalıların məişətində adi hala çevrilmiş qumar oyunları, oğurluq və quldurluq da şairi narahat edən problemlərdəndir. O, həmşəhərlilərini bu zərərli vərdişlərdən uzaq olmağa çağırır. O, qumarbazların aqibətini təsvir edərək, oğluna nəsihət edir:

İstərsən əgər mükərrəm olmaq,
Xəlq içrə əzizü əkrəm olmaq.
Əlbəttə, qumara etmə ahəng,
Ondan uzaq ol həzar fərsəng. (4, s.172)

Qarabaği əhalinin pis vərdişlərinin, "bir alçadan ötrü" bir-birini öldürüb həbsə və ya Sibirə göndərilməsinin səbəbini şəhər əhlinin mənasız həyat tərzində və bekarçılığında görür. O, öz xalqını xaricilərlə müqayisə edir və ürəkyanğısı ilə xəcalət çəkdiyini bildirir:

Abirumuz tökülüb xaricilər içrə tamam,
Qeyri-millətlər arasında biz olduq bədnam. (4, s.86)

Bəzən Qarabaği xalqının üzündən cəhalət pərdəsini götürməyə iqtidarı çatmadığı üçün ümidsizlənir, Allaha üz tutub acizliyini etiraf edir və ondan kömək umur:

Ey xudavəndi-əhəd, maliki-yövmi-ərəsat,
Bu bəladən sən özün ver bizə ümmidi-nicat. (4, s.96)

Qarabağinin kəskin notlarla tənqid etdiyi məsnəvilər XIX əsrdə təkcə Şuşanın deyil, Azərbaycanın bəzi şəhərlərinin acı mənzərəsini bütün aydınlığı ilə göstərməkdədir. Bu baxımdan "Rəsmi-vilayəti-Qarabağ" məsnəvisi dövrün ictimai məzmunlu poetik mətnləri içərisində özünəməxsus yer tutur.

Mirzə Həsən Qarabaği həm də maraqlı öyüd və nəsihətlər müəllifidir. Şairin nəsihətçilik ideyalarının əksəriyyəti də elə Qarabağda sözügedən çatışmazlıqlardan doğan əndişə və narahatçılıqdır. Onun nəsihətləri "Nəsihətnamə becəhəti püsər" başlığı altında ümumiləşdirilmişdir. Qarabaği şeirlərində gənclərə insanın mənəvi dünyasını zənginləşdirən keyfiyyətlər aşılayır. O, müasirlərini içki içmək, qumar oynamaq və s. insaniyyəti xar edən əməllərdən uzaq durmağa səsləyir:

Hərgiz ləbinə yetirmə badə,
Ta verməyəsən dinini badə.
Meyl etmə şərabə, eyləmə yad,
Çox evləri mey edibdi bərbad. (4, s.174)

Qarabağinin nəsihətləri əsasən, elm və təhsilin təbliğinə həsr olunmuşdur. Şairin fikrincə, elm var-dövlətdən üstün, xəzinədən qiymətlidir. O, insan şəxsiyyətinin formalaşmasında elmin fövqəladə rolundan bəhs edir, gəncləri yalnız elmlə ucalıb yüksək məqama çatacaqlarına, şöhrət qazanacaqlarına inandırır.

Elmilə tapıb həyatı insan,
Elm oldu cahanda ziynəti can.
Elmilə, gözüm, səfa taparsan,
Elmü ədəbü həya taparsan. (4, s.167)

Mirzə Həsənə görə elmli insan kin, lovğalıq, paxıllıq kimi mənfi xüsusiyyətlərdən uzaqdır. İnsan özündəki qüsurlu cəhətləri tərbiyə etməyə ilk növbədə elm öyrənməkdən başlamalıdır. Müəllifin "Yoldaşlıq barəsində" şeirində övladı üçün narahat atanın hiss-həyəcanları öz əksini tapır. O, Şuşa mühitində oğlu ilə yoldaşlıq edə biləcək bir nəfərin olmamasından gileylənir, övladının əsil-nəcabətsiz, vəfasız, bədqəlbli insanla yoldaşlıq edəcəyindən qorxur. Qarabağiyə görə "vəfada kamil, ədəbdə qabil" yoldaş tapmaq üçün dünyanın o biri tərəfinə də olsa getməyə dəyər:

Bir böylə rəfiqi tap cahanda,
Axtar belə yarı hər məkanda.
Ta kim, bulasan onunla hörmət,
Ondan tapasan təriqi-izzət. (4, s.171)

Maraqlıdır ki, Qarabağı xalqının gənc nümayəndələrini zərərli vərdişlərdən xilas etməyin yolunu yalnız tənqid və ifşa üsullarında deyil, həmçinin didaktik öyüd və nəsihətlərdə də görür. Oğluna xitabən poetik müraciətlər dərin əxlaqi-mənəvi səciyyəsi ilə diqqəti cəlb edir. Çünki onun bu cür poetik öyüdləri yalnız öz oğluna deyil, bütün gəncliyə ünvanlanır. Bu baxımdan Mirzə Həsən Qarabağı sələfləri Nizami, Füzuli və digər sənətkarlarla, o cümlədən, müasiri S.Ə.Şirvani ilə eyni məqamda birləşir.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, IV cild. Bakı: Elm, 2011, 838 s.
2. Əsgərli F.Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı.Bakı:ADPU-nun nəşriyyatı,2009,435 s.
3. Kərimov R. Qasım bəy Zakir və müasirləri. Bakı: Elm və təhsil, 2013, 249 s.
4. Qarabağı (Yüzbaşov) M.H. Seçilmiş əsərləri (Tərtib edən: N.Qarayev). Bakı: Şuşa, 2000, 184 s.

SUMMARY

KARABAKH SOCIAL ENVIRONMENT IN THE MASNAVIS OF MIRZA HASAN KARABAKHI

Ismayilova A. Şh.

Mirza Hasan Garabaghi, a prominent representative of the Karabakh literary environment, has a special place in 19th century Azerbaijani literature. The poet's satire "Official - the province of Karabakh", consisting of 232 verses, has an autobiographical content. Masnavi can give the reader a complete picture of the situation in Karabakh, especially in Shusha at that time. Referring to this satire, the article reflects the miserable life of the Shusha literary environment and the social shortcomings that took place here.

Key words: *Mirza Hasan Garabagi, satire, Shusha, Karabakh.*

РЕЗЮМЕ

КАРАБАХСКАЯ СОЦИАЛЬНАЯ СРЕДА В МАСНАВИ МИРЗА ГАСАНА КАРАБАХИ

Исмайлова А. Ш.

Мирза Гасан Гарабаги, выдающийся представитель карабахской литературной среды, занимает особое место в азербайджанской литературе XIX века. Сатира поэта «Rəsmi – vilayəti Qarabağ», состоящая из 232 строк, имеет автобиографическое содержание. Маснави может дать читателю полную картину ситуации в Карабахе, особенно в Шуше того времени. Ссылаясь на эту сатиру, в статье отражена жалкий жизнь шушинской литературной среды и имевшие место здесь социальные недостатки.

Ключевые слова: *Мирза Гасан Гарабаги, сатира, Шуша, Карабах*

İŞĞAL ZAMANI VƏ SONRA AZƏRBAYCANIN MƏRUZ QALDIĞI MADDİ VƏ MƏNƏVİ İTKİLƏR

Muradova K.V.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
konul.muradova.73@mail.ru

Açar sözlər: *memarlıq abidələri, mədəniyyət, beynəlxalq, yerli, dövlət*

Ermənistanın amansızlıqla həyata keçirdiyi təcavüz siyasəti respublikanın 17 min kv.km ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil və 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 km avtomobil yolunun, 348 körpünün, 220 km dəmir yol xəttinin və 24 stansiyanın, 7568 km su və 16576 km elektrik xəttinin, 394-dən artıq poçt və telekommunikasiya obyektinin, 188-dən artıq telekommunikasiya qurğu və stansiyasının, 2561 km rabitə xəttinin tamamilə yararsız hala düşməsinə gətirib çıxarmışdır.

Ermənistanın həyata keçirdiyi heç bir ölçüyə sığmayan hərbi tıcavüzü ərzində 20 min həmvətənimiz həlak olmuş, 50 min nəfəri müxtəlif dərəcəli bədən xəsarətləri alaraq əlil olmuşdur.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında 2015-ci il yanvarın 1-nə olan məlumata görə, 4009 vətəndaşımız münaqişə müddətində itkin şəxs kimi qeydiyyata alınmışdır. Onlardan 56 nəfəri uşaq, 327 nəfəri qadın, 364 nəfəri qocalardır. 1409 nəfər Azərbaycan vətəndaşı erməni əsirliyindən azad edilmişdir. 169 nəfəri uşaq, 338-i qadın , 246-sı isə qocalardır.[1] İtkin düşmüş 4009 vətəndaşdan ən azı 877 nəfər (27 nəfər uşaq, 99 nəfər qadın, 133 nəfər qoca) ermənilər tərəfindən əsir, girov götürülmüş, lakin bu faktlar bilərəkdən Beynəlxalq Qızıl Xac Komitəsi kimi bir sıra beynəlxalq təşkilatlar dan gizlədilmişdir. Həmin şəxslərin siyahısının tərtib olunmasında erməni əsirliyindən qayıtmış Azərbaycan vətəndaşlarının və digər yerlərdən əldə olunmuş şahid ifadələrinin əsasında tərtib edilmişdir.[2]

Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektlərini də xüsusi qəddarlıqla məhv etmiş və ya özününküləşdirmişlər.

XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında, 1988-ci ildən isə Dağlıq Qarabağ eləcə də münaqişə zonası ilə və Ermənistanla olan həmsərhəd ərazilərdə yüzlərlə daşınmaz tarix və mədəniyyət abidələri ermənilər tərəfindən planlı şəkildə dağıdılmışdır. Adı çəkilən yerlərdə ölkəmizin milli-mədəni dəyərlərə məxsus binaları, tarixi şəhərsalma ansamblları, şəhər qalıqları, memarlıq kompleksləri, eləcə də digər obyektlər düşmən tərəfindən dağıdılmış,başdan-başa ermənilərəşdirilmişdir. İşğal altında qalmış memarlıq abidələri müxtəlif maddi və mənəvi dəyərlərlə bərabər milli əhəmiyyətə də malikdir və bunlar yerli, ölkə və beynəlxalq həmiyyətli olmaqla üç kateqoriyaya bölünür. Cəmi 901 rəsmi dövlət qeydiyyatında olan tarixi mədəniyyət abidəsi vardır ki, bunlardan 609-u yerli, 285-i ölkə, 13-ü beynəlxalq əhəmiyyətli abidələrdir.

Daşınan (səyyar) abidələr keteqoriyasına aid olan 26 muzeydə, şəkil qalareyalarında və fərdi şəxslərdə saxlanan minlərlə eksponat torpaqlarımız işğal olunduqdan sonra ermənilər tərəfindən qənimət kimi mənimsənilərək Ermənistana aparılmış, digər bir qismi isə ayrı-ayrı dövlətlərdə hərraca çıxarılmış və ya ermənilər üçün "nüfuzlu" bilinən fiziki-hüquqi şəxslərə hədiyyə edilmişdir.

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, işğal altındakı ərazilərimizdə dövlət qeydiyyatında olan abidələrimizin tərkibi müxtəlif olmaqla onların sayı barədə də fundamental məlumatlar vardır: 50 türbə, 67 məscid, 92 ziyarətgah,106 məbəd, 262 xatirə abidə, 253 arxeoloji abidə, 39 qala və 32 körpü.

Memarlıq abidələri arasında ən çox dağıntıya məruz qalmış islam dini abidələri məscidlər, ziyarətgahlardır ki, cəmi 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamən dağıdılıb, 4-ü isə yararsız hala salınıb. [3] Yalnız beynəlxalq təşkilatların müdaxiləsi nəticəsində Ağdamdakı Cümə məscidinin, Şuşadakı Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olmuşdur. Eyni zamanda bütün çətinliklərə baxmayaraq, aparılan araşdırmalara və arxiv sənədlərinə əsaslanaraq demək olar ki, işğal altındakı ərazilərimizdə dövlət qeydiyyatından kənarda qalmış daha 1500 adda islam dini abidəsi, məscidlər, pirlər, ziyəratgahlar, qəbirüstü abidələr, qəbiristanlıqlar, o cümlədən türbələr, kurqanlar, siklop tipli memarlıq abidələri və antik qalalar mövcuddur. [4]

Ermənilər tərəfindən məqsədli şəkildə, həm də tarix boyu çoxsaylı kurqan, insan məskənləri, qəbiristanlıqlar, inanc yerləri, müsəlman dini abidələri və digər arxeoloci abidələrin tamamilə məhv edilməsi Azərbaycan tarixinə və mədəniyyətinə ciddi zərbə vurmaqla həm də böyük maddi və mədəni itkilərə cəlb olunmuşdur. [4]

Əldə olunan informasiyalar sübut edir ki, islam dininə məxsus abidələrin ermənilərəşdirilməsi (yəni xristianlaşdırılması) ilə bərabər ermənilər zəbt etdikləri ərazilərdə kilsələr də inşa etməkdədirlər. Buna misal olaraq Şuşa şəhərində 3, Şuşa-Laçın yolundakı Fətiş bulağı deyilən ərazidə 1, Laçın şəhərində 2, Laçın rayonunun Zabux kəndində 1, Şuşa-Xankəndi yolunun üzərində 2, Xankəndi şəhərində 4, Əsgəran qəsəbəsində 2, Ağdam rayonunun Şahbulaq qəsri yanında tikilən 1 kilsələri göstərmək olar.[3]

Bundan başqa, Laçın rayonu ərazisində 10, Kəlbəcər rayonu ərazisində 7, Qubadlı rayonu ərazisində 3, Zəngilan rayonu ərazisində 2, Cəbrayıl rayonu ərazisində 3, Füzuli rayonu ərazisində 2, Ağdərə, Əsgəran, Xocavənd rayonlarının ərazilərində isə ermənilər tərəfindən 15 alban məbədi təmir edilərək onlara erməni kilsəsi statusu verilmişdir. Beləliklə, təkcə 20 il ərzində işğal olunan torpaqlarda erməni kilsələrinin sayı 58-ə çatmışdır. Bu say da Ermənistan adlanan ərazidəki kilsələrin sayından iki dəfə çoxdur.[3]

Azərbaycan xalqının çoxəsrlik tarixini və şərəfli keçmişini əks etdirən 13, ölkə əhəmiyyətli 242, yerli əhəmiyyətli 434 tarix və mədəniyyət abidəsi, dünya əhəmiyyətli arxeoloji abidə olan, paleolit dövrünə aid Xocavənd rayonu ərazisində yerləşən bizim eradan əvvəl VI-VII əsrlərə aid olan və insan sivilizasiyasını öyrənmək üçün mühüm əhəmiyyət kəsb edən Azıx mağarası, eneolit dövrünə aid Xantəpə, Kültəpə, Şomutəpə abidələri, Kəlbəcər rayonundakı Azərbaycanın Alban dövrünə aid olan Xudavəng və Gəncəsər monastr kompleksləri, monimental Lev, Comərd qalası, Ağdərə şəhəri yaxınlığındakı məbəd, Laçın

rayonundakı "Ağoğlan" məbədi, Sultan Həmzənin və Sultan Əhmədin sarayları, Cəbrayıl rayonu ərazisində 12-ci əsr abidəsi sayılan Xudafərin körpüləri, 12-13-cü əsrlərdə inşa olunmuş Diridağ dağındakı «Qız Qalası» və s., Zəngilan rayonu ərazisində 1304-cü ildə inşa edilmiş «Xacə Yəhya» türbəsi, 13-cü əsr «Şərifan Sərdabəsi» və s. Qubadlı rayonu, Dəmirçilər kəndi ərazisində yerləşən və 14-cü əsrə aid olan Türbələr, Məzrə kəndi ərazisində 16-cı əsrə aid Alban kilsəsi və s., Füzuli rayonu ərazisində 13-14-cü əsrlərə aid olan Mir-Əli türbəsi, 1684-cü ildə inşa edilmiş Qarğabazar karvansarası, Xocalıdakı Əskəran qalası, Amaras məbədi, Şuşa şəhərindəki Qala, qədim məscid, Ağdamdakı Pənah xanın Şahbulaq imarəti, türbəsi, qalası bu gün də işğal altındadır və dağıdılmış və ya özününküləşdirilmişdir.

İşğal olunmuş ərazilərdəki abidələrimizin çoxu, 808 klub, 927 kitabxana, 22 muzey, 85 uşaq musiqi məktəbi və filialı, 4 teatr, 100 min eksponatı olan 4 şəkil qalereyası, 1892 mədəniyyət və incəsənət müəssisəsi qarət edilmiş və yandırılmışdır.

5 minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin Şuşa filialı, Qarabağ Dövlət Tarix Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin, klassik vokal musiqisinin banisi Bülbülün, rəssam Mir Mövsüm Nəvvabın, tarzən Qurban Pirimovun ev-muzeyləri, 2 minə yaxın eksponatı olan Qubadlı, 6 min eksponata malik Kəlbəcər, Zəngilan, Cəbrayıl və Füzuli muzeyləri talan edilmişdir.

İşğal olunmuş ərazilərdə milli mədəniyyətimizin bir çox dəyərli nümunələri həm məhv edilmiş, həm də qarət edilərək bir sıra qonşu ölkələri qənimət kimi satılmışdır. Bu nümunələr yalnız Azərbaycanın mədəni irsi sayılmır, həmçinin dünya mədəniyyətinin əvəzsiz nümunələri kimi də dəyərləndirilir.

Ermənistan silahlı qüvvələrinin hərbi əməliyyatları nəticəsində Azərbaycanın işğal olunmuş torpaqlarına, yaşayış məntəqələrinə və digər obyektlərinə dəymiş zərərin, maddi və mədəni itkiləri ənənəvi bazar qiyməti ilə müəyyənləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 51s nömrəli sərəncamı ilə İşçi Qrupu yaradılmışdır.[5] Həmin İşçi Qrupunun ilkin hesablamalarına görə, Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkilərin həcmi 600 milyard ABŞ dollarından çoxdur. Təkcə telekommunikasiya, İKT, poçt rabitəsi, televiziya və radioyayımın bərpasına 37 milyard manat vəsait tələb olunur.

Bu sahədə işlər beynəlxalq maliyyə qurumlarını, ekspertləri cəlb etməklə, BMT agentlikləri, xüsusən BMT QAK-la və digər beynəlxalq humanitar təşkilatlarla birlikdə davam etdirilir.

Azərbaycanın işğal olunmuş torpaqlarına, yaşayış məntəqələrinə və digər öbyektlərinə dəymiş zərərin, maddi və mədəni itkilərin tam dəqiq hesablanmasından sonra yekun sənədinə əsasən zərərin ödənilməsi ilə bağlı Ermənistana qarşı beynəlxalq məhkəmələr qarşısında müvafiq iddia qaldırılacaqdır.

ƏDƏBİYYAT

1. http://www.azerim1.narod.ru/girov.htm
2. http://supremecourt.gov.az/static/view/179
3. http://www.anl.az/down/meqale/xalqcebhesi/2015/may/438829.htm
4. http://www.anl.az/down/meqale/azerbaycan/2015/aprel/431161.htm
5. http://www.e-qanun.az/framework/34917

SUMMARY

AZERBAIJAN'S MATERIAL AND SPIRITUAL LOSSES DURING AND AFTER OCCUPATION AREAS

Muradova K. V.

The article discusses the material and moral losses suffered by Azerbaijan as a result of the Armenian military aggression. Detailed information was provided with statistics on the destroyed settlements, industrial and agricultural facilities, educational institutions, highways, communication lines. At the same time, the number of destroyed historical and architectural monuments was noted.

Keywords: *architectural monuments, culture, international, local, state*

РЕЗЮМЕ

МАТЕРИАЛЬНЫЕ И ДУХОВНЫЕ ПОТЕРИ АЗЕРБАЙДЖАНА, ВО ВРЕМЯ ОККУПАЦИИ И ПОСЛЕ ОККУПАЦИИ

Мурадова К. В.

В статье рассматриваются материальные и моральные потери, понесенные Азербайджаном в результате армянской военной агрессии. Была представлена подробная информация со статистикой по разрушенным населенным пунктам, промышленным и сельскохозяйственным объектам, учебным заведениям, автомобильным дорогам, линиям связи. При этом отмечено количество разрушенных памятников истории и архитектуры.

Ключевые слова: *памятники архитектуры, культура, международная, местная, государственная*

ZƏFƏR MÜHARİBƏSİNİN QADIN QƏHRƏMANI

Nadirova H.T.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
nadirova_hicran@mail.ru

Açar sözlər: *İkinci Qarabağ müharibəsi, Arəstə Baxışova, Azərbaycan qadını, qəhrəman, şəhid*

"Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" deyə çıxdığımız yolu uğurla, ZƏFƏRLƏ başa vurduq. Bir yumruq, bir birlik olduq, ən əsası inandıq və sonda bacardıq, qələbə bizim oldu... Zəfər müharibəsibarədə hər bir Azərbaycan vətəndaşı kimi, deyə bilərəm ki, həyatımda yaşadığım ən şərəfli, ən qürurlu, bir o qədər də ağrı-acılı keçirdiyim 44 gün oldu. Bir tərəfdən çox sevindik, bir tərəfdən çox ağladıq... Biz Azərbaycan xalqı olaraq qadın-kişi demədən vuruşmağa, yeri gələndə can verməyə də hazırıq. Çünki, qəhrəman dedikdə ilk olaraq əsgər və zabitlərimiz nəzərdə tutulur. Ancaq əslində müharibənin təməl qəhrəmanları QADINLARDIR. Qadınlardır qəhrəman, cəsur, igid oğulları dünyaya gətirən...Azərbaycan qadını tarix boyu Azərbaycanın əxlaq və namus mücəssiməsi kimi tanınmışdır. Hələ,birinci Qarabağ savaşınınyekunlarından göründüyü kimi, əsaslı problemlərin, həmçinin, qaçqınlıq və məcburi köçkünlük məsələsininağrısı-acısı məhz qadınların öhdəsinə düşdü. Amma Azərbaycan qadını yenə sınmadı, əyilmədi. Qəddini dikəldərək, ismətini həyatından uca tutaraq ana və bacılarımızla, Dağlıq Qarabağ savaşında şəhidlik şərbətini içmiş Salatın Əsgərova, Gültəkin Əsgərova, Qaratel Hacımahmudova kimi qəhrəman zəriflərimizlə möhtəşəm tarix yazdı [6,s.15].

Qarabağ müharibəsində qələbəmizin əsas səbəbi məhz qəhrəman igidlərimizin Vətən sevgisi, Vətən məhəbbəti, onların torpağa, yurda bağlılığı mühüm rol oynadı. Elə buna görə də, bu müharibədə torpağa, Vətənə, dövlətə sonsuz bir sevgi ilə bağlı olan gənclərimizin şücaəti sayəsində qələbə əldə etdik. Azərbaycan Ordusunun hər bir igid əsgər və zabitinin adı Vətən tarixinə qürurla yazıldı. İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan Azərbaycan oğulları sırasında bir nəfərdə kişi qeyrətli Azərbaycan qadın var idi... Arəstə Baxışova...Onun haqqında yazmaqda məqsədim, Arəstə Baxışovanın timsalında Azərbaycan qadınının qəhrəmanlığını, cəsurluğunu bir daha nümayiş etdirməkdir.

İlk öncə Arəstə adının mənasına diqqət çəkmək istəyərdim. "Arəstə"adı fars dilindən tərcüməyə əsasən bəzəkli, düzənli və nizamlıdeməkdir. Atası Kərim Baxışov "Arəstə" adını ona verəndə nizam-intizamlı bir əsgər olacağını düşünməmişdi. Bilmirdi ki, adı ilə əslində eləövadının taleyini də yazmış olacaq [5, s.5]. O, adının haqqını həqiqi mənada verən insanlardan olmuşdur. A.K.Baxışova 1989-cu il may ayının 4-də Xaçmaz rayonunda dünyaya gəlmişdir. Atası Çernobil faciəsi zamanı əlil olmuşdu. Daha sonra isə bir müddətFHN-də Mühafizə İdarəsinin rəisi vəzifəsində işlədi. Arəstənin 4 yaşı olanda isə dünyasını dəyişdi. Arəstə iki qardaşın bir bacısı idi. Göründüyü kimi, o, hərbiçi ailəsində doğulmuşdu, o ruhda böyümüşdü. Elə bunun nəticəsidir ki, Arəstə ali təhsiliniAzərbaycan Dövlət Pedaqoji Kollecinin İngilis dili fakültəsində alsa da, daima istəyi hərbi həkim olmaq idi. Kolleci bitirdikdən sonra o, bu arzusunu reallaşdırır vəSilahlı Qüvvələrin Baş Klinik Hospitalına işə düzəlir.Bu illərdə həm işləyir, həm də tibb təhsili almaq üçün kursa gedir. Kursu başa vurduqdan sonra Beyləqandakı bir hərbi hissəyə operator vəzifəsində işləmək üçün göndərilir. Daha sonra ailə həyatı qurur və iki övlad dünyaya gətirir. İkinci Qarabağ müharibəsi başladıqdan sonra övladlarını ilk öncə anasına, daha sonra Vətənə əmanət edərək könüllü olaraq cəbhəyə yollanır.Arəstənin anası Məktubə Baxışova qızının cəbhəyə könüllü olaraq getdiyini bildirib: "Dedi ki, Ana mən

hərbiyə getmək istəyirəm. Uşaqlarım sənə əmanət. Hərənin bir qisməti var. Əgər mən gedib, Vətən uğrunda şəhid olacamsa, o mənim başımın ucalığıdır"[1, s.33].. O, ölümdən qorxan qız deyildi. Onun bu cəsurluğunun şahidi olan digər hərbiçi yoldaşları müharibədən sonra Arəstənin qəhrəmanlığı haqqında olduqca maraqlı faktlar irəli sürdülər. Azərbaycan ordusunun çavuşu, hərbi feldşer olan Arəstə Baxışovanın cəsur bir hərbi tibb bacısı idi.Bir çox əsgər və zabitimiz onun göstərdiyi ilk tibbi yardım sayəsində həyatda qalmışdır. O, daha çox Füzuli, Zəngilan və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 23-də isə Qubadlı uğrunda döyüşlərdə növbəti yaralı əsgəri kürəyində döyüş meydanından çıxarmaq istəyərkən güllə yarası almış və həmin əsgərlə birlikdə şəhidlik zirvəsinə ucalmışdır.

"Beləcə sən adına min bir qəhrəmanlıq sözləri qoşulan, dastanlar, nağıllar, rəvayətlər yazılan Azərbaycan qadınının hələ ki, sonuncu ədəbiyyat, tarix nümayəndəsi, qəhrəmanısan. Qanını bu Vətənin torpağına axıdıb daşlaşmağınla, büstləşməyinlə, əbədiləşməyinlə..." [3, s.6]

Zəfər Müharibəsinin tək qadın qəhrəmanı, minlərlə şəhidin tək bacısı olan Arəstə Baxışovanın ölümündən sonra Kərim Kərimlinin ona ithafən yazdığı şeirdə deyildiyi kimi: "Sorağın gələcək ellərdən sənin,Adın düşməyəcək dillərdən sənin…"

Şəhid Arəstə Baxışova ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən 15 dekabr 2020-ci il tarixli sərəncamına uyğun olaraq, "Vətən uğrunda" medalı ilə təltif edildi.

Sentyabrın ayının 27-dən başlayaraq 44 gün davam edən Azərbaycanın qüdrətli ordusunun həyata keçirdiyi əks hücum əməliyyatları zamanı ana Vətən, doğma yurd, uğrunda canını qurban verərək şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımız həm də, öz adını xalqın tarixin silinməz yaddaşına həkk etdilər. Onlar öz simalarında həm Vətən, həm dövlət, həm də xalq qarşısında öz vətəndaşlıq borcunu son damla qanınadək ödəyib qəhrəmanlıq nümunəsi formalaşdırdılar. Onların bu qəhrəmanlığının əks-sədası təkcə ölkəmizdə deyil, ölkəxaricinə də səs saldı. Belə ki, Arəstə Baxışovanın bir tibb bacısı, şəfqət bacısı kimi könülü olaraq çətin günlərdə cəbhədə fəaliyyət göstərməsi dünya ictimaiyyəti tərəfindən dəyərləndirildi. Belə ki, o, "Florens Naytinqeyl" medalı ilə təltif edilib. Qeyd edək ki, bu medal yalnız 18 ölkədən 25 tibb bacısına verilib. Medalı qazanan tibb işçiləri öz dövlətlərində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və ya Beynəlxalq Qırmızı Aypara Cəmiyyətinin yerli idarələri və bu idarələrin komissiyaları tərəfindən təyin edilmişdir. Azərbaycandan bu medala İkinci Qarabağ müharibəsinin yeganə qadın şəhidi Arəstə Baxışova layiq görüdü. Kim ki, hərbi münaqişə vəziyyətində belə öz cəsarətini, mərdliyini, iradəsini itimədi. Qorxmadan, çəkinmədən Azərbaycan Silahlı Qüvvələrində çavuş, hərbi feldşeri kimi döyüşlərdə iştirak etdi.

Vətən torpağı uğrunda mübarizə aparan, bu şanlı və şərəfli yolda canını, qanını qurban verən qəhrəman şəhidlərimizin hər birinin xatirəsi qəlbimizdə əbədidir və unudulmazdır. Onların adlarını biz daim dərsliklərdə, monoqrafiyalarda,hətta mahnılarda, filmlərdə, radio və televeziya verlişlərində anmalıyıq. Çünki, şəhidlərimizin hər birinin həyatı və fəaliyyəti bir dastandır. Bütün bunlara baxmayaraq, bu məqaləni yazarkən şəhidlərimizin həyatı və fəaliyyəti barədə yazılan bir çox kitabda Arəstənin adına rast gəlmədim. Bu, məndə çox təəssüf hissi doğurdu. Mənim fikrimcə, elə şəhidlərimizin sırasında ilk öncə onun adı yazılmalıdır. Çünki, Arəstə Baxışova təkcə hərbi tibb bacısı deyildi. O, hər şeydən öncə bir ana, bir valideyn idi. Arəstə, ana kimi mübarək bir adın qarşısına şəhid, qəhrəman adını da yazmış bir qadındır. Onun azyaşlı iki övladı olmasına baxmayaraq, onları qoyub könüllü olaraq cəbhəyə getmişdir. Bugün analarının hərbi papağını oğlu Mərdan və qızı Zəhra qürurla başında daşıyır. Onlar, anaları ilə fəxr edirlər. Övladları daim onu xatirələrində, Arəstə haqqında yazılan, deyilən tək bir sözdə axtarırlar.

Bugün Arəstə Baxışovanın adı ilə, yalnız övladları deyil, bütün Azərbaycan xalqıfəxr edir. Onun qazandığı şəhidlik zirvəsiövladlarını daim mələk qanadları kimi əhatə edərək hər bir bəladan qoruyacaqdır. Bəlkə də, Arəstə bunu bilərək daha da ürəkli müharibəyə yollanmışdı.O bilirdi ki,gələcək yeni nəsillərin dilində daim Tomris, Nüşabə, Həcər kimi bir Arəstə dastanı da yer alacaqdır. Uzun zaman keçəcək və tarixdə 44 günlük şərəfli Zəfər uğruna canını düşünmədən fəda edən qadın əfsanəsi yaşayacaqdır.[4, s.4].

Bu müharibə xalqımızın uzun illər vərdiş etdiyi həyat fəlsəfəsini, oxuduğu tarixi dəyişdirdi, xalqımızın lazım olduqda necə birlik olduğunu, torpağımıza, ordumuza, bayrağımıza olan sevgisini bir daha sübut etdi. Hal-hazırda, hər bir Azərbaycan vətəndaşı kimi mən də, azad olunmuş, qəhrəmanlarımızın ayaq basdığı torpaqlarımızı görmək üçün səbirsizlənirəm.

44 günlük Vətən müharibəsi tarixi yaddaşımızı yeniləməklə yanaşı, həmçinin, həm yaxın, həm uzaq gələcəkdə bu yaddaşı daim oyaq və dinc tutmağı, heç bir kiçik təfərrüatı belə qətiyyən unutmamağın, unutdurmamağın vacibliyini bir daha sübut etdi.[2,s.7].

"Aslanın erkəyi dişisi olmaz" məsəlini əməli ilə, cəsurluğu ilə, qəhrəmanlığı ilə sübut edən Arəstə Baxışova Azərbaycan qadınlarının mərdlik simvoludur...

ƏDƏBİYYAT

1. Alməz Ülvi, "Vətən simurqları:II Qarabağ Vətən müharibəsinin qəhrəmanları, Bakı 2021 "Elm və Təhsil s.33
2. Camal Zeynaloğlu "Vətən müharibəsi və Vətəni yaşadanlar", Bakı, 2021, s.7)
3. Həmidə Nizamiqızı "Baharın payız üzü", Mədəniyyət qəzeti, 15 yanvar 2021-ci il, s.6
4. İlhamə Rəsulova "44 günlük müharibənin qəhrəmanları:"Ruhu mələk kimi başımıza dolanır" Yeni Azərbaycan qəzeti, 28 oktyabr 2021-ci il, s.4
5. Ramilə Qurbanlı, "İlk şəhid qadın hərbiçi", Azərbaycan qəzeti, 4 may 2021-ci il, s.5
6. Vahid Ömərov, "Qarabağ müharibəsinin qəhrəman qadınları", Səs qəzeti, 7 fevral 2019-cu il s.15
7. https://president.az/az/articles/view/49098)
8. http://ikisahil.com/post/218642-areste-baxishova-beynelxalq-medal-ile-teltif-olunub-foto
9. www.azadshusha.com/edebiyyat/7452/
10. https://memorial.az/az/qehremanlarimiz/2525

SUMMARY

WOMAN HERO OF THE VICTORY WAR

Nadirova H.T.

Aresta Bakhishova is a heroic symbol of Azerbaijani women. Therefore, this article is dedicated to the life and activity, heroism and courage of Aresta Bakhishova, the only martyr of the Second Karabakh War. The article emphasizes the love of the Fatherland in the hearts of all soldiers and officers who took part in the Victory War in his example. This article also discusses the extent to which their heroism is valued both at the state level and by the people.

***Key words**: The Second Karabakh War, Aresta Bakhishova, Azerbaijani woman, hero, martyr*

РЕЗЮМЕ

ЖЕНЩИНА-ГЕРОЙ ПОБЕДНОЙ ВОЙНЫ

Надирова Х.Т.

Ареста Бахишова – героический символ азербайджанских женщин. Поэтому данная статья посвящена жизни и деятельности, героизму и мужеству Аресты Бахышовой, единственного шехида Второй Карабахской войны. В статье на его примере подчеркивается любовь к Родине в сердцах всех солдат и офицеров, принимавших участие в Войне Победы. В данной статье также рассматривается, в какой степени их героизм ценится как на государственном уровне, так и в народе.

***Ключевые слова**: Вторая карабахская война, Ареста Бахишова, азербайджанка, герой,замучен*

XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNİN QARABAĞ QRUPU KERAMİKASI
(etnoarxeoloji tədqiqat)

Nəcəfov Ş.N.

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Azərbaycan, Bakı

shamil_necefov@mail.ru

***Açar sözlər:** Xocalı-Gədəbəy mədəniyyəti, Qarabağ, Son-Tunc və Erkən Dəmir dövrü, qəbir abidələri, arxeoloji material, keramika.*

Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin (e.ə. XIV-VIII əsrlər) Azərbaycan xalqının etnogenez tarixində mühüm bir mərhələni təşkil etməsi danılmazdır. Bu mədəniyyətə aid arxeoloji abiələrin qazıntısı və qazıntılar zamanı aşkar edilən arxeoloji faktların etnogenez tarixinin öyrənilməsində əhəmiyyəti diqqət mərkəzində dayanmalıdır. Mədəniyyətin əsas təyinedici əlamətlərindən biri olan keramika və onun istehsal üsulları, naxışlanması və s. maddi mədəniyyət mənsubluğunun müəyyən edilməsində, mənəvi mədəniyyətin, dini inancların öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Xocalı-Gədəbəy mədəniyyəti çərçivsindən kənara çıxmamaqla keramika məmulatının ümumi ərazi bölgüsünə əsasən digər iki qrupdan – Gəncə və Gədəbəy qrupundan özünün tipik xüsusiyyətləri ilə seçilən Qarabağ zonasının keramika nümunələri forma, məzmun və naxışlarının orijinallığı baxımından fərqlənir [1; 2]. Qarabağ qrupu keramikasının əsasını təşkil edən saxsı qabların forma, məzmun və hazırlanma texnologiyasına əsasən aşağıdakılardan ibarət olduğunu vurğulamaq lazımdır: yüksək keyfiyyətli, dekorativ bəzəkli, batıq kanalvari naxışlarla naxışlanmış, yaxşı cilalanmış, bəziləri əldə zərif, bəziləri isə dulus çarxında mükəmməl hazırlanmış, boz, qonur, qara-boz rəngli qablar və s.

Keyfiyyətli hazırlanaraq, əksər hallarda təmiz gil tərkibə və narın qum qarışığa malik saxsı qab nümunələri müxtəlif ölçülü və təyinatlı olub, zərifliyi, özünəməxsusluğu və naxışların üslubuna və ya müxtəlifliyinə görə bir-birindən fərqlənir. Əsasən qəbirlərdən tapılan saxsı qabların bəzilərinə çox keyfiyyətli və bütöv halda rast gəlinmişdir. Mətbəx və məişət, eləcə də təsərrüfat təyinatlı keramika nümunələri dulus dəzgahında hazırlanmış əsasən qara və tünd boz və qara rəngli gil qablardan ibarətdir. Bu qablar keramika məmulatının əsas hissəsini təşkil edirlər. Buraya əsasən enli və ya kəsikli qulplu və qulpsuz qablar – qazanlar, küp və küpələr, dopular, kasalar, çölməklər, kuzələr, xeyrələr və s. daxildir.

Qarabağın yaşayış yerlərindən tapılan xeyrə, sərnic, küp, küpə, qazan, çölmək, tava, manqal, dopu, kuzə, parç tipli gil qablar və onların fraqmentlərinin böyük əksəriyyəti keyfiyyətli hazırlanaraq sabit tempratur rejimində bişirilmiş və dulus çarxında hazırlanmışdır. Üzəriləri cilalama, cızma və çərtmə üsulu ilə əsasən həndəsi motivlərlə naxışlanmışdır. Kuzələr şar gövdəli, dar boğazlı, yastı oturacaqlıdırlar. Bəzi kuzələrin qulpu yapma düyməciklərlə, ilan təsvirlərilə və cızma xətlrələ naxışlanmışdır. Kuzə fraqmenlərinin çiyin hissəsi və gövdəsi üfüqi qabarıq və cızma zolaqlarla əhatə edilmiş, cilalı xətlərlə naxışlanmış, bəzilərinin səthi isə üçbucaqlarla bəzədilmişdir. Küpə formalı gil qabların hissələri yaxşı bişirilmiş, gilinin tərkibi isə təmizdir. Onların ağız kənarı nazik divarlı olub, üzərilərinin naxış elementi sadədir. Parç tipli qablar boz rəngli, gen ağızlı, qabarıq gövdəli olub hündür oturacağa malikdirlər. Səthləri yüngül cilalanmışdır. Çölmək və qazan tipli qablar qara və boz rəngli olub, böyük əksəriyyəti naxışsızdır. Qazanların bəziləri nazik divarlıdır və yaxşı bişirilmişdir. Üzərilərində dərin yanma izləri onların məişətdə geniş istifadə olunduğunu göstərir. Naxış elementi mürəkkəb olan qazanlar üçbucaq və kəsmələrlə naxışlanmışdır, qoç başını xatırladan simvolik qulp çıxıntıları vardır. Qazanlarda olduğu kimi küpələrin də ağız kənarı xaricə azca əyintilidir. Xeyrə tipli qablar boz və qara rəngli, gen və düz ağızlı, gen gövdəli, dar oturacaqlıdırlar. Onların böyük əksəriyyəti dulüs çarxında hazırlanmışlar. Xeyrələrin naxışları demək olar ki, yoxdur, səthləri yaxşı cilalanmışdır. Oturacaqdan yuxarı qalxdıqca divarları genişlənir. Əsasən mətbəx avadanlığı rolunu oynayan xeyrə tipli gil qablar müxtəlif həcmdə olsalar da məzmun baxımından eynidirlər. Xeyrələrin bəzilərinin qulaqcıq şəkilli qulpları vardır. Xeyrələrdən nisbətən daha böyük həcmə malik olan sinilər çox az tapılmışdır. Onların hamısı qara rəngli olub, keyfiyyətli hazırlanmış, səthləri yaxşı cilalanmışdır. Bardaqların forması eynidir. Əksəriyyəti boz və qonur rəngdə olub şargövdəli, darboğazlıdır, ağzı xaricə maili çıxıntılıdır. Nazik divarlı olub, bəzilərinin oturacaqları acza dabanlıdır. Çoz az sayda kasa və ya cam qırıqlarına təsadüf edilmişdir. Kiçik həcmli adətən dabanlı oturacağa malik belə qablar dulus çarxında hazırlanmışdır. Onların gil tərkibi təmizdir, sabit tempraturda bişirilmişdir. Üzərilərində naxış elementi ya sadədir, ya da heç təsadüf edilmir. Kasa formalı qabların ağız kənarından məlum olur ki, onlar təmiz tərkibə malik olub, yaxşı bişirilmişdir. Kasa və fincan tipli gil qab qırıqları qara və boz rəngdə olub, yaxşı cilalanmış və şüyrələnmişdir. Onların gövdə və çiyin hissələri bir-birinə paralel olan batıq dairəvi cızmalarla və kanalvari naxışlanmışdır. Gil manqallar müxtəlif formalıdır. Onların demək olar ki, hamısının içərisində kül qalığı aşkar edilmişdir. Formaca müxtəlif olmalarına baxmayaraq onların hamısı bir məqsədlə istifadə olunmuşdur. Manqallar əsasən kvadrat və oval formalı olub, ağız kənarı üçbucaq şəkilli çıxıntılıdır. Birincilərin ortası oval formada kəsikdir və oval hissənin kənarları çəp batıqlarla naxışlanmışdır. İkinci qrupa aid olan bəzi manqalların divarının yuxarısından kiçik, dairəvi deşik açılmışdır. Üçüncü qrupa aid olan manqalların ağız kənarlarının üçbucaq şəklində düzəldilməsində məqsəd onların ağızlarının kənarına qab qoymaq olmuşdur. Xocalı-Gədəbəy mədəniyyətinin inkişaf etmiş və son mərhələlərində əsasən manqallar dördkünc və oval formalarda olmuşdur. Onların ortasında rast gəlinən deşik isə manqala yığılan külü asanlıqla təmizləməyə xidmət edirdi. Bu cür gil manqallara Sarıtəpə [3, 90], Sarvantəpə [4, 179-180], Yastıtəpə [5, 89-90], Üçtəpə [6, 117-118] və Üzərliktəpə yaşayış yerlərində [7, 85] də rast gəlinmişdir. V.H.Əliyev qeyd edir ki, Azərbaycanın İlk Tunc dövrü abidələrində alçaq divarlı, dairəvi formalı (tava şəkilli) gil qablara təsadüf olunmuşdur ki, bunlar da çox böyük ehtimalla gil manqal kimi istifadə olunmuşdur [8, 120]. Onun qənaətincə Babadərvişdə iri ocaq qurğusu olan evlərin içərisində və onlardan kənarda təsadüf edilən gil manqallar qış fəslində evin içərisindəki ocağın üzərinə qoyulurmuş. Ocaqda köz yarandıqdan sonra isə belə manqalların üzərinə içərisində xörək olan qab qoyulur və isti hala gətirilirdi. V.S.Sorokin və K.X.Kuşnaryova bu manqallardan çörək bişirmək [7, 83], A.A.İessen isə ocaq və kürəsiz evləri isitmək üçün düzəldildiyini yazırlar [6, 118]. Fikrimizcə, gil manqalların hazırlanmasında əsas məqsəd onların təyinatı üzrə istifadə olunması –yəni burada yemək isitmək, ət bişirmək olmuşdur. Amma, onlardan evləri qızdırmaq üçün istifadə olunması faktı da istisna deyildir.

Nehrələrin gil tərkibi təmiz olub, yaxşı bişirilmişlər. Çiyin fraqmentlərinin üzərində olan lüləşəkilli çıxıntı vardır ki, bu da nehrənin çalxalanması prosesində havanın çıxarılmasına xidmət etmişdir. Üzərində lüləşəkilli çıxıntısı olan belə nehrələrin analoji nümunələrinə Sarıtəpə, Sarvantəpə, Babadərviş, Mingəçevir, Qazaxbəyli, Nadirbəytəpə yaşayış yerlərindən də rast gəlinmişdir [4, 178-179; 8, 118; 9, 13; 10; 11, 52-53]. Belə formalı nehrələrdən üzərində heç bir dəyişiklik edilməmək şərtilə indinin özündə də istifadə edilir.

Qarabağın yaşayış yerlərindən aşkar edilmiş gil qab məmulatının böyük əksəriyyəti məişət qablarına aiddir. Əldə edilmiş bu gil qab fraqmentlərinə əsasən həmin qabların formaları haqqında danışmaq bir qədər çətindir. Amma, qab qırıqlarında müşahidə olunan ümumi əlamətlərə görə onların Gəncə-Qazax zonasının bəzi abidələrindən tapılmış qablarla oxşar olduğunu müəyyən etmək mümkündür [9, 35-39; 10, 94-97].

Tapılmış keramika məmulatı içərisində Xocalı-Gədəbəy mədəniyyətinin bir çox xüsusiyyətlərini özündə əks etdirən qara və boz rəngli, müxtəlif həcmli və formalı təyinatı bilinməyən qabların gövdə hissəsinin qırıqları da vardır [1]. Onların üzəri çərtmələr, batıq nöqtələr, düz və dalğalı xətlər, cilalama üsulu ilə çəkilmiş naxışlarla bəzədilmişdir.

Keramika nümunələri içərisində zoomorf qulp qırıqlarının aşkar edilməsi onu sübut edir ki, Qarabağın qədim sakinləri içərisində heyvan kultu geniş yayılmışdır. Bu kult əsasən ilan, qoç-qoyun, quş, tısbağa heyvanları ilə bağlıdır. Bu tip heyvanların burada geniş yayılması onlara olan ibtidai inamla bağlıdır [5, 91-92; 12, 161-163].

Təsvir etdiyimiz gil qab nümunələri öz oxşarlarını Gəncə-Qazax bölgəsinin Son Tunc – İlk Dəmir dövrü abidələrindən məlum olan keramikalar içərisində tapır [1; 13, 48; 14]. Bu abidələrin demək olar ki, hamısında belə keramika nümunələrinin tapıldığı təbəqə e.ə. I minilliyin I yarısına aid edilir. Təsərrüfat küplərinin, iri həcmli küpələrin və başqa gil qabların üzərində daha çox təsadüf edilən bəzək ünsürləri – üzəri oyma, çərtmə, çəpinə kəsmə, batıq kanalvari, enli qabarıq kəmərvari, cızma və sünbülvari kəsmə naxışlarla bəzədilmiş qurşaqlar İlk Dəmir dövründə Azərbaycan və ümumilikdə Cənubi Qafqaz ərazisinin məlum abidələrinin keramikası üçün səciyyəvi bəzəklərdəndir [1; 2]. Belə bəzək elementlərinin e.ə. VI-V əsrlərdə tədricən aradan çıxması artıq məlumdur [15].

Xocalı, Dovşanlı, Axmaxı, Sarıçoban, Ballıqaya, Qarabulaq və Xaçınçay hövzəsi kurqanlarından, Palıdlı nekropolundan aşkar edilmiş Xocalı-Gədəbəy keramikasının üzəri yaxşı cilalanaraq hamarlanmış, cızma, çərtmə və yapma üsulu ilə çox vaxt batıq xətlər və zolaqlarla, kəndirvari, sünbülvari naxışlarla və novlarla bəzədilmişdir [15; 16, 128-129; 17]. Qabların üstü əksər hallarda anqoblanıb və yaxşı cilalanmışdır. Onlar daha çox tünd boz rəngli, az hallarda isə qara rənglidirlər. Çox məhdud sayda qonur-qırmızı çalarlı qablar aşkar edilmişdir. Bu cür gil qabların oxşarlarına Ağstafaçay, Zəyəmçay, Tovuzçay, Şəmkirçay, Cəyirçay, Qoşqarçay və Gəncəçay hövzələrinin Son Tunc-Erkən Dəmir dövrü nekropollarında, Quşçu qəbristanlığında, Borsunlu kurqanlarında, Sarıtəpə, Tavatəpə, Bozalqanlı, Yastıtəpə, Mollamey, Sarvantəpə yaşayış yerlərində, Qazaxbəyli qəbristanlığında, Mingəçevirdə, Gədəbəydə, Daşkəsən və Göygöl rayonlarında aparılan arxeoloji qazıntılarda geniş rast gəlinmişdir [1; 2; 3; 4; 8; 11].

Saxsı qab nümunələri qədim Qarabağ sakinlərinin mətbəx və məişətində müxtəlif məqsədlər üçün işlədilmişdir. Onların tipləri hansı məqsədlə işlədilmələri haqqında aydın təsəvvür yaradır. Bu qablardan məişətdə ərzaq saxlamaq, xörək bişirmək, su doldurmaq, yağ əldə etmək, süd saxlamaq, taxıl və başqa dənli bitkilər yığmaq, qurutmaq və s. məqsədlər üçün istifadə edilmişdir.

Gil qablar üzərində naxış elementləri zəngindir. Keramika məmulatında əsasən geometrik təsvirlər üstünlük təşkil edir. Onlar əsasən üçbucaqlardan, lentvari və dalğavari, xaçvari, rombvari, torşəkilli naxışlardan ibarətdir. Belə naxış elementlərinə Xocalı-Gədəbəy mədəniyyətinin yayılığı bütün arealda rast gəlinir. Qarabağ qrupunun saxsı qabları da əsasən kəsmə, cızma, cilalama və s. üsullarla naxışlanmışdır. Həndəsi, zoomorf, astral, nəbati, antropomorf naxış elementləri, su (çay və yağışı ifadə edən) naxışları gil qabların naxış motivlərini təşkil edir. Üzəri ağ maddə ilə minalanmış (inkrustasiyalı) qablar Gəncə-Qazax və Gədəbəy bölgəsinə nisbətdə daha çox tapılır. Bir çox təqiqatçılar bu cür qabları Xocalı-Gədəbəy mədəniyyətinin yayılığı Azərbaycanın qərb rayonlarının dağlıq və dağətəyi əraziləri üçün xarakterik sayırlar [18, 135-177].

Ümumiyyətlə, Tunc dövrü cəmiyyətinin inkişafında bir sıra mühüm dəyişikliklərə səbəb olmuş əkinçilik və maldarlıq təsərrüfatı ayrı-ayrı sosial qrupların və buna müvafiq olaraq ictimai şüurun formalaşmasına şərait yaratmışdır. Tunc dövrü mədəniyyətləri ümumi cəhətləri ilə yanaşı inkişaf etdikcə Orta Kür hövzəsi və Yuxarı Qarabağda müəyyən dərəcədə lokallaşma prosesinə də məruz qalmışdır. Bunu Gəncə-Qazax bölgəsinin keramikası ilə Gədəbəy qrupu və Qarabağ keramikasının fərqli xüsusiyyətləri üzə çıxardır.

Qarabağın zəngin dağlıq və dağətəyi əraziləri maldarlığın inkişafına və heyvan artımına səbəb olurdu. Bu isə istər-istəməz dulusçuluğun yüksək inkişafına şərait yaratmış, gil qabların kəmiyyət artımı ilə yanaşı keyfiyyət artımına da böyük təsir göstərmişdir. Artıq ev sənətkarlığı çərçivəsindən kənara çıxaraq istehsalın müstəqil bir sahəsinə çevrilmiş dulusçuluqada çeşidlər artırdı. Qazıntılar zamanı iri təsərrüfat küpləri, küpələr, xeyrələr, qazanlar və nehrələrlə yanaşı aşkar edilən bardaq, kuzə, sini, tava, kasa, boşqab, duzqabı, butə, dopu, müxtəlif ölçülü silindrik qablar və s. saxsı qabların həm forma, həm də məzmunca müxtəlifliyindən xəbər verir.

Xocalı-Gədəbəy mədəniyyəti keramikasının Qarabağ qrupunun fərqli xüsusiyyətləri əsasən inkrustasiya, cilalanmadan sonra qara boyadan istifadə, nisbətən kobud olmaları, lakin naxış motivlərinin çox olması, orijinal

formada olmaqla qonşu ərazilərə məxsus saxsı qablara bənzəməməkləridir. Keramikanın xüsusiyyəti isə təbii ki, Qarabağın qədim Xocalı-Gədəbəy sakinlərinin ictimai-iqtisadi, sosial və mənəvi inkişaf səviyyəsini müəyyən etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего (XIV-IX вв. до н.э.). Баку, Элм, 1989, 126 с.
2. Гусейнова М.А. Из истории Южного Кавказа. Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв. до н.э.). Баку, Бизим китаб, 2011, 200 с.
3. Nərimanov İ.H. 1960-cı ildə Sarıtəpədə arxeoloji qazıntılar // Tarix İnstitutunun Əsərləri, XVI cild. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1963, s. 81-98
4. Nəcəfov Ş.N. Sarvantəpədə 2013-cü ildə aparılan arxeoloji tədqiqatlar haqqında (Qazax rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014. Bakı, 2015, Xəzər Universiteti nəş-tı, s. 176-182
5. Наджафов Ш.Н. Краткие сведения об археологических раскопках в древнем поселении Ястытепе (Азербайджан, 2010-2011 гг.) // Этносоциум и межнациональная культура, сентябрь 2012 №7 (49)1, Москва 2012 с. 84-94
6. Иессен А.А. Поселение Уч-тепе (1958-1960 гг.) // Материалы и исследования по археологии СССР, 125, 1965, с. 95-120
7. Кушнарева К.Х. Новые данные о поселении Узерлик-Тепе около Агдама // МИА, 125,1965,с.15-87
8. Əliyev V.H. Babadərvişdə son tunc-ilk dəmir dövrü yaşayış yerləri // AMM, cild VIII, 1976, s. 104-130
9. Nərimanov İ.H., Xəlilov C.Ə. Sarıtəpə arxeoloji qazıntıları (1956-cı il) // AMM, cild IV, 1962, s. 6-67
10. İsmayılov Q.S. Qazax rayonunda arxeoloji axtarışlar // Azərb.SSR EA-nın Məruzələri, №1, 1962, s. 92-97
11. Muradova F.M. Qazax rayonunda tunc dövrü abidəsi (Nadirbəy təpəsi) // AMM, cild VI, 1965, s. 51-58
12. Nəcəfov Ş.N. Yastıtəpə yaşayış yerində arxeoloji qazıntılar (Ağstafa rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı, 2011, s. 159-167
13. Rüstəmov C.N., Nərimanov İ.H. Avey dağında qədim yaşayış yerləri və kurqan qəbirləri // AMM, cild VI, 1965, s. 44-50
14. Nəcəfov Ş.N. Yastıtəpə yaşayış yerində arxeoloji qazıntılar (Ağstafa rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı, 2013, s. 186-193
15. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında). Bakı, Elm, 2000, 187 s.
16. Cəfərov H.F., Cəfərova D.H. Palıdlı nekropolunda və ətraf ərazidə 2013-2014-cü illərdə aparılmış arxeoloji tədqiqatlar haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014. Bakı, Xəzər Universiteti, 2015, s. 127-132
17. Джафаров Г.Ф. Курган эпохи поздней бронзы в близи Сарычобана // РА, № 9, 1991, с. 84-97
18. Кушнарева К.Х. Некоторые памятники эпохи поздней бронзы в Нагорном Карабахе // СА, том XXVII, 1957, с. 135-177

SUMMARY

KARABAKH GROUP CERAMICS OF KHOJALY-GEDABEY CULTURE (ethno-archaeological research)

Najafov Sh.

It is undeniable that ceramics, one of the main defining features of Khojaly-Gedabey archaeological culture, is important in determining the affiliation of material culture, the study of spiritual culture and religious beliefs.

The ceramic samples of the Karabakh zone differing from the other two groups - Ganja-Gazakh and Gedabey group in their typical features, according to the general territorial division of ceramics, without going beyond the framework of Khojaly-Gedabey culture, differ in terms of originality of form, content and patterns.

Agriculture and cattle breeding, which led to a number of important changes in the development of Bronze Age society, created conditions for the formation of separate social groups and, accordingly, public consciousness. As the Bronze Age cultures developed along with their common features, the central Kura basin and the Karabakh area also underwent a certain degree of localization. This is revealed by the different features of the Ganja-Gazakh group ceramics and the Gedabey group and Karabakh ceramics.

The surface of Khojaly-Gedabey ceramics found in Khojaly, Dovshanly, Akhmakhy, Balligaya, Garabulag monuments, kurgans of Khachinchay basin is well polished and smoothed; It is often decorated with sunken lines

and stripes, rope, spike-like patterns by tracing, incision and molding. The surface of the dishes are often engobed and well polished.

The distinctive features of the Karabakh group of ceramics of Khojaly-Gedabey culture are mainly incrustation, use of black paint after polishing, a lot of pattern motifs, being in the original form and not resembling the pottery of the neighboring territories. The nature of ceramics, of course, allows us to determine the level of socio-economic, social and spiritual development of the ancient Khojaly-Gedabey inhabitants of Karabakh.

Key words: *The Khojaly-Gedabey culture, Garabakh, Late Bronze and Early Iron period, grave monuments, artefakt, ceramic*

РЕЗЮМЕ

КЕРАМИКА КАРАБАХСКОЙ ГРУППЫ ХОДЖАЛЫ-КЕДАБЕКСКОЙ КУЛЬТУРЫ (этноархеологическое исследование)

Наджафов Ш.

То, что керамика, которая является одним из основных определяющих признаков ходжалы-кедабекской археологической культуры, имеет важное значение в определении материально-культурной принадлежности, в изучении духовной культуры, религиозных воззрений не вызывает сомнений.

Не выходя из рамок ходжалы-кедабекской культуры, на основе общего регионального раздела керамических изделий, выделяющиеся типичными особенностями от двух других групп – Гянджа-Газахской и Кедабекской, керамические образцы Карабахской зоны отличаются по форме, содержанию и оригинальностью орнаментов.

Земледелческие и скотоводческие хозяйства, ставшие причиной ряда важных изменений в развитии общества периода бронзы, создали условия для формирования отдельных социальных групп и соответственно этому общественного сознания. Культура периода бронзы наряду с общими свойствами, бассейн средней Куры и Карабахская территория также в некоторой степени развиваясь, подверглась процессу локализации. Это выявляют отличительные черты керамики Гянджа-Газахской группы с Кедабекской группой и Карабахской керамикой.

Поверхность ходжалы-кедабекской керамики, обнаруженной на Ходжалинских, Довшанлинских, Ахмахинских, Баллыгаянских, Гарабулагских памятниках, курганах Хачынчайского бассейна хорошо лощена и разглажена, украшена прочерченным, врезным и лепным способом чаше впалыми линиями и полосами, веревочными и колосовидными узорами и желобами. Поверхность сосудов в большинстве случаев ангобирована и хорошо лощена.

Отличительные особенности Карабахской группы керамики ходжалы-кедабекской культуры в основном в инкрустации, использовании черной краски после лощения, обилии узорных мотивов, несхожестью с керамическими сосудами с соседних территорий, обладая при этом оригинальной формой. Естественно, особенность керамики позволяет определить уровень общественно-экономического, социального и духовного развития древних ходжалы-кедабекских жителей.

Ключевые слова: *ходжалы-гедабекская культура, Карабах, период поздней бронзы и раннего железа, погребальные памятники, артефакты, керамика.*

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ QARABAĞ MÖVZUSU VƏ ERMƏNİ VƏHŞİLİYİNİN İFŞASINA HƏSR OLUNMUŞ ƏSƏRLƏRİN TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Nəsibli S. A.
Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan
nesibli.lana@mail.ru

Açar sözlər: *Qarabağ, ədəbiyyat, mədəniyyət, erməni vəhşiliyi, Şuşa, tədris.*

Ədəbiyyatın həyatı, hissləri, düşüncələri, arzu və istəkləri bədii-obrazlı şəkildə əks etdirən söz sənəti olduğu hamımıza bəyandır. Məhz bu baxımdan realda olan bütün hadisələr: gözəlliklər, çatışmazlıqlar əsərlərdə təsvir və tərənnüm olunmuşdur. Milli ədəbiyyatda öz yerini tutan, xüsusi əhəmiyyətə malik olan əsas mövzulardan biri Qarabağ gözəllikləri və erməni vəhşiliyinin ifşası məsələsidir. Bəhs olunan mövzular üzrə ədəbiyyatda bir çox şair və yazıçıların baxışını, reaksiyasını əks etdirən bədii əsərlər kifayət qədərdir.

Bu məqalədə orta ümumtəhsil məktəblərində siniflər üzrə adı aşağıda qeyd olunan əsərlərin təhlili və tədrisinin əhəmiyyətindən bəhs olunmuşdur. Qarabağ mövzusunda yazılmış və erməni vəhşiliyinin ifşasını özündə əks etdirən əsərlərin qısa məzmunu və təhlilinə nəzər yetirək:

Azərbaycan milli ədəbiyyatının dəyərli ədəbi söz sənətkarlarından biri olan Fikrət Qoca "Şuşa" adlı şeir yazmışdır. Bu mövzu məktəb proqramında V sinif dərsliyində öz yerini tutmuş və şagirdlərə tədris olunmaqdadır. Qarabağın döyünən ürəyi olan Şuşa şəhərinin zəngin təbiəti və gözəlliyinin təsviri şeirdə bədii, obrazlı, güclü emosiyalarla ifadə olunan əsas ideyadır.

Daşaltı çayına yol vermək üçün
Dağ öz ətəyini yığıb altına.
Elə bil bu yeri yaratdığı gün,
Düşübdür Allahın xoş saatına [3, s.145].

Şeirin bəndlərini oxuduqca insanın gözləri qarşısında Şuşanın təbiəti, əsrarəngiz gözəlliyi canlanmaqdadır. Şair şeirdə elə bir bədii təsir və ifadə vasitələrindən istifadə edib ki, Şuşanı sanki nağıl dünyasına bənzədib. 2-ci bənddə deyildiyi kimi Şuşanın hər daşı, qayası, çayı vətənin gözəlliyini dünyaya tanıdan əvəzsiz bir nəğmədir. Onu da qeyd etməliyik ki, Şuşanın tarixi, qədimliyi, möhtəşəm təbiəti şeirdə ifadə olunan əsas məqamlardandır. Adını çəkdiyimiz əsərin tədrisi zamanı müsbət hal olardı ki, fənn müəllimi Azərbaycan Respublikası Prezidentinin 2022-ci ilin "Şuşa ili" elan edilməsi sərəncamını (5 yanvar 2022-ci il) da şagirdlərin nəzərinə çatdırmaqla Şuşanın Azərbaycanın, eləcə də Qarabağın əbədi, əzəli torpağı olduğunu və böyük əhəmiyyətə malik olduğunu vurğulamaqla mövzunu daha yaxşı mənimsəməyə, həmçinin şagirdlərdə vətənə qarşı məhəbbəti tərbiyə etməyə istiqamətlənmiş olar.

V sinif ədəbiyyat fənn proqramında öyrənənlərə tədris olunması nəzərdə tutulan ən vacib əsərlərdən hesab edilən Zeynalov Eyvazın "Oğru" hekayəsidir. Yazıçının "Oğru" hekayəsində Azərbaycan - Ermənistan münasibətlərindən bəhs olunur. Hekayədə baş verən hadisələr məktəbli bir uşağın dilindən nəql edilir. Məktəbli ilə nənəsinin söhbətindən aydın olur ki, erməni qonşuları Siranuş adlı arvad uşağın babasının mağaradan tapdığı qədim pullar, saxsı qab-qacaq, insan sümükləri olan bağlamanı oğurladığı təsvir olunmuşdur. Hansı ki uşağın babası kənd məktəbində tarix müəllimi işləmiş və bu istiqamətdə dəyərli araşdırmalar aparmışdır. Nənə ilə nəvənin dialoqundan aydın olur ki, erməni arvad məhz bu qalıqları, araşdırmaları oğurlayıb İrəvana qardaşına göndəribmiş. O da mağaradan tapılmış əşyaların şəkillərini, məlumatları İrəvan qəzet, jurnallarında çap etdirərək iddia edib ki, guya özünün tapdığı bu qalıqlar qədim erməni məskənlərindəndir, bizim torpaqların əzəli sakinləri ermənilər imiş.

"Baban soraqlayıb hamısını öyrəndi. Vicdanlı alimlər uzun araşdırmalardan sonra aydınlaşdırmışdılar ki, mağara qədim türklərə məxsusdur. Erməni aliminin yazıb-pozduqları cəfəngiyyatdan başqa bir şey deyilmiş. Demə, Siranuşun qardaşı da elə bacısı ağıldaymış...

— Nənə, bəs sonra babam bizim alimləri Bakıdan çağırmadı?

— Çağırdı, bala, amma ermənilər aranı qatdılar, bizi dədə-baba torpaqlarımızdan qovdular. Əvvəl Qarabağa pənah apardıq. Ermənilər Qarabağı da əlimizdən aldılar. Bakıda qərar tutduq. O torpaqların adı babanın son nəfəsində də dilindən düşmədi"[1, s.185].

Əsərdə şagirdlərin nəzərinə çatdırılmalı olan məqam, ana xətt mənfur düşmənlərin-ermənilərin əsrlərboyu torpaqlarımıza, milli-mənəvi dəyərlərimizə yalandan sahib çıxmaları, tarixi-maddi sərvətlərimizi oğurladıqları, erməni xəbisliyinin, oğurluğunun diqqətlə gənclərə, şagirdlərə göstərilməsidir.

Orta ümumtəhsil məktəblərinin VI sinif ədəbiyyat dərsliyi və proqramında tədrisi nəzərdə tutulmuş əsas mövzulardan biri Hikmət Ziyanın "Qarabağda" adlı şeiridir.

Qarabağ təbiətin sərvətidir, varıdır,
Azərbaycan yurdunun solmayan gülzarıdır.
Hüsnü yaşıl bağları, vüqarı dağlarıdır...
Başqa ətirlə açır qönçələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda [2, s.57].

Göründüyü kimi şair şeirində Qarabağı təbiətin sərvəti, Azərbaycan yurdunun solmayan gülü-çiçəyi adlandırır. Şeirin digər bəndlərində Şuşa, Bərdə, Ağdam, Füzuli kimi dilbər guşələrin, ərazilərimizin də adı çəkilir. Hikmət Ziya qələminin gücü ilə yazdığı bu əsərində özünün, qəlbinin bu xoş məkanların möhtacı olduğunu həqiqi emosiya, yüksək pafosla tərənnüm etməyə nail olmuşdur. "Min ilin yorğunu da dincələr Qarabağda" – deyən şair bu yerlərin yetirmələri adını daşıyan M.P.Vaqif, X.Natəvan, Q.Zakir, Ü.Hacıbəyli, Bülbül, Cabbar, Səid, Zülfü, Rəşid kimi dəyərli ədəbiyyat və musiqi sahəsindəki sənətkarlarımızın adlarını çəkir, tərifləri böyük qürur və fəxrlə oxucu kütləsinin nəzərinə çatdırır. Qarabağın gözəl havası, Turşsu, İsa bulağı adlı tarixi çeşmələri Azərbaycan təbiətinin möhtəşəm mənzərələri sırasındadır. Şeirin əsas mövzu və ideyası Azərbaycanın qədim torpaqlarının, o cümlədən Qarabağın gözəlliyi, elə-obaya məhəbbət motividir. Mövzunun tədrisi zamanı fənn müəllimi tərəfindən şeirdə adıçəkilən sənətkarlar və məkanlar haqqında qısa

təqdimat xarakterli əlavə məlumat verilməsi, ya da araşdırma aparmaları üçün şagirdlərə ev tapşırığı formatında təqdim olunması mövzunun daha yüksək səviyyədə mənimsənilməsinə müsbət təsir göstərəcəkdir.

IX sinif ədəbiyyat proqramı və dərsliyində tədrisinə yer ayrılmış mövzulardan Qılman İlkinin "İntiqam" adlı əsəridir. Qarabağ mövzusu və erməni vəhşiliyinin təsvir olunduğu "İntiqam" əsərində ideya erməni vəhşiliyinin ifşası, azərbaycanlı Xəzangülün-ananın mərdliyi, cəsarətinin təbliğidir. Hekayədə hadisələrin baş verdiyi yer Qarabağın işğal olunmuş kəndlərindən biridir. Sərkis və Levon adlı ermənilərə qarşı çıxması, hətta onlardan birini övladını qoruması naminə cəsarət göstərib öldürməsi təsvir olunmuşdur. Bu əsərin tədrisində şagirdlərin diqqətinə çatdırılmalı əsas məsələ düşmənlərin hədə-qorxusunu nəzərə almayaraq cəsarət göstərən ananın qorxmazlığı və ermənilərin vəhşiliyidir.

" Levon uşağı götürmək üçün Xəzangülün ayaqlarına tərəf dartılarkən, Xəzangülün qarşısında qəribə bir mənzərə açıldı; erməninin kürəyi Xəzangülün gözlərində ani olaraq elə böyüyüb açıldı ki, sanki geniş bir meydandır. Ürəyində Allahı köməyə səslədi və bir anı belə itirmədən bıçağı, elə bil hardansa qüvvət almış əli ilə düşmənin kürəyinə elə sancdı ki, erməni heyvan kimi bağırıb üzü üstə düşdü. Sonra bıçağı kürəyindən çıxarmağa çox cəhd etdisə, bacarmadı. Kürəyindən qan fəvvarə vururdu. Axırda üzü üstə düşüb hərəkətsiz qaldı. Bıçaq düz ürəyinə sancılmışdı. Xəzangül donub qalmışdı. İnana bilmirdi ki, bu işi o tutub. Belə bir gücü o, haradan ala bildi!" [4, s.165-166].

Yuxarıda bəhs etdiyimiz mövzulardan əlavə Qarabağ mövzusu və erməni vəhşiliyinin ifşası mövzularında qələmə alınmış Ə.Səmədli "Qanlı bənövşələr", H.Abbaszadə "Barıt iyi" əsərləri də ədəbiyyat fənnində şagird və tələbələrə əlavə oxu materialı kimi təqdim olunmaqdadır.

Yekun olaraq onu deməliyik ki, milli ədəbiyyatda Qarabağ mövzusu və erməni vəhşiliyinin ifşasına həsr olunmuş əsərlərin şagirdlər tərəfindən yaxşı mənimsənilməsi olduqca vacibdir. Bunun üçün ibtidai sinifdən əsası qoyulan bəsit biliklər yuxarı siniflərdə ədəbiyyat müəllimi tərəfindən daha da təkmilləşdirilməlidir. Fənn müəllimləri ölkəmiz, vətənimiz üçün bu cür mühüm, aktual bir mövzuya dair yazılmış əsərləri tədris edərkən daha yaradıcı və fəal olmaqla fərdi, həmçinin qrup müzakirələrindən, çalışmalarından məharətlə istifadə etməyə üstünlük verməlidirlər. Çünki bu əsərlərin düzgün şəkildə pedaqoji-metodik ustalıqla tədris olunmasının əsas məqsədi gələcəyin şəxsiyyəti olacaq öyrənənləri daha cəsur, vətənpərvər ruhlu, xalqına, millətinə, dilinə fayda verəcək şəkildə yetişdirməyi hədəfləməlidir. Məhz bu ortaq hədəf hər bir ədəbiyyat müəlliminin, xüsusilə də digər fənn müəllimlərinin prioritet istiqaməti olmalıdır.

ƏDƏBİYYAT

1. Bağırova T., Süleymanova A., Muradova İ. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, "Təhsil Nəşriyyat-Poliqrafiya", 2020, 208 səh.
2. Bağırova T., Süleymanova A. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2017, 240 səh.
3. Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, "Bakınəşr", 2016, 208 səh.
4. Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı, 2016, 224 səh.

SUMMARY

THE IMPORTANCE OF TEACHING WORKS ON THE SUBJECT OF KARABAKH AND THE EXPOSURE OF ARMENIAN SAVAGERY IN LITERATURE CLASSES

Nasibli S.

One of the main topics of special importance in the national literature is the issue of exposing the beauties of Karabakh and the Armenian savagery. There are many works of art in the literature on these topics, reflecting the reaction of many poets and writers. This article discusses the importance of analyzing and teaching the works mentioned in the article by grades in secondary schools. The main line that should be brought to the attention of students in the works is that Armenians have been falsely claiming our lands, national and moral values for centuries, stealing our historical and material treasures, and carefully showing young people and students the Armenian malice and theft.

Key words: *Karabakh, literature, culture, armenian savagery, Şuşa, teaching.*

РЕЗЮМЕ

ЗНАЧЕНИЕ УЧЕБНЫХ ПРОИЗВЕДЕНИЙ НА ТЕМУ КАРАБАХА И РАЗОБЛАЧЕНИЯ АРМЯНСКОЙ ДИКОСТИ НА УРОКАХ ЛИТЕРАТУРЫ

Насибли С.

Одной из главных тем государственной важности в национальной литературе является вопрос разоблачения красот Карабаха и армянской дикости. В литературе имеется множество художественных произведений на эти темы, отражающих взгляды и реакции многих поетов и писателей. В данной статъе рассматривается важностъ анализа и преподавания упомянутых в статъе произведений поименно в классах общеобразователъной школы. Основная линия, которая должна бытъ доведена до сведения учащихся в произведениях, заключается в том, что армяне веками ложно претендовали на наши земли, националъные и нравственные ценности, воровали наши исторические и материалъные ценности, бережно показывали молодежи и студентам армянскую злоба и воровство.

Ключевые слова: *Карабах, литература, кулътура, армянской дикости, Шуша, обучение.*

QARABAĞIN MUSİQİ MƏDƏNİYYƏTİ

Qəniyeva A.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
afaqgeniyeva79@gmail.com

Açaq sözlər: *Qarabağ, Şuşa, tarixi, mədəniyyət, abidə, musiqi, məclis*

Qarabağ - tarixi əsrlərə söykənən, zəngin mədəni-tarixi abidələri, musiqisi, şeiriyyatı, qonaqpərvərliyi, xalçaçılığı, əsrarəngiz flora və faunası və digər sərvətləri ilə Azərbaycannın ayrılmaz hissəsi kimi dünyada məşhur olan bir bölgəmizdir. Bu bölgənin yaradıcı insanları üçün ilham mənbəyi elə füsunkar iqlimin özüdür və yüksək səviyyəli estetik zövq əsasında formalaşmış xalq məişəti və sənətkarlığı ilə bağlıdır.

Tarixə nəzər salsaq görərik ki, əsası 270 il öncə, XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuş və əvvəl xanın adı ilə "Pənahabad", sonradan Şuşa qalası kimi adlandırılan Şuşa şəhəri XIX əsrdən başlayaraq Azərbaycanın musiqi mədəniyyəti tarixində əhəmiyyətli yer tutmuşdur. Azərbaycan musiqi həyatının inkişafında Qarabağ, Şuşa, Şamaxı, Bakı, Cənubi Azərbaycan musiqi məclislərinin böyük əhəmiyyəti olmuşdur. Maraqlı cəhət ondan ibarətdir ki, adları qeyd olunan musiqi məclislərinin hər biri musiqi yaradıcılığının müəyyən qollarını, şaxələrini daha da inkişaf etdirməklə musiqi tariximizdə əvəzolunmaz izlər qoymuş, özünəməxsus xüsusiyyətlər və spesifik məktəblər və tədris üsulları ilə seçilmişdir.

Qarabağ, xüsusən Şuşa XIX əsrdə dini mərasimlərə böyük ehtiram göstərən, həmşinin çoxssaylı ticarət əlaqələrinə malik bir şəhər idi. Şuşa M.M.Nəvvabın, Ə.Ağaoğlunun, M.P.Vaqifin, Q.Zakirin, X.Natəvanın, Ü.Hacıbəylinin, Bülbülün, F.Əmirovun, Ə.Bədəlbəylinin, S.Ələsgərovun, X.Şuşinskinin, C.Qaryağdıoğlunun və digər bir çox adlarını sadalamadığım bəstəkarların, xanəndələrin və müsiqişünasların vətənidir. Dahi bəstəkar Ü.Hacıbəyli tərəfindən yazılan Azərbaycanın və eyni zamanda Şərq dünyasının ilk operası olan "Leyli və Məcnun" Şuşada Ə.Haqverdiyev tərəfindən hazırlanan "Məcnun Leylinin məzarı üzərində" tamaşasından aldığı təəssüratın nəticəsidir. Qeyd edim ki, o zaman Ü.Hacıbəyli gözəl səsi olduğu üçün tamaşanın xorunda oxuyudu. İllər sonra bəstəkar özünün möhtəşəm muğam operasını yaratmaqla yalnız Azərbaycanda deyil, bütün İslam ölkələrində opera janrının əsasını qoydu.

Məşhur tədqiqatçı V.Vinoqradov 1938-ci ildə Ü.Hacıbəyli haqqında kitabında belə qeyd edirdi: "Şuşada musiqi çoxdur Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər" [4].

Musiqi baxımından Avstriya üçün Vyana, İtaliya üçün Neapol hansı dəyəri kəsb edirsə, Şuşa da Azərbaycan üçün daha böyük dəyərə malikdir. Şuşa Qarabağın əsas şəhəri olmaqla Azərbaycanın yaradıcı və intellektual qüvvələrini özündə cəmləşdirirdi. Burada Azərbaycan xalqının tarixində ilk dəfə olaraq ilk teatr tamaşaları göstərilmiş, konsertləri nümayiş etdirilmiş, ilk elm və təhsil cəmiyyətləri yaradılmışdır.

Öz təbii şəraiti, füsünkar gözəlliyi ilə məşhur olan Qarabağ bir sıra musiqişünasların, ədiblərin, səyahətçilərin, rəssamların qələmi ilə dönə-dönə tərənnüm edilmişdir. XIX əsrdə bir sıra tədqiqatçılar Şuşanı bütün Qafqazın konservatoriyası adlandırmışdılar.Həqiqətən də öz zil səsləri ilə seçilən Qarabağ xanəndələri həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda məşhurlaşmışdılar. Hətta belə bir məsəl də çəkilirdi: "Şuşanın uşaqları ağlayanda "Segah", güləndə isə "Şahnaz" üstündə gülürlər" [3]. Qeyd etdiyimiz deyim bir daha onu vurğulayır ki, Qarabağda xanəndəlik sənəti bütün xalqın mənəviyyatında özünə dərin bir kök salmışdır. Bu baxımdan da Şuşa "musiqi məclisi" Azərbaycanda xanəndəlik sənətini inkişaf etdirən, onun gələcəyini işıqlandıran, yaşadan bir məktəbə çevrilmişdir.

XIX əsrdə Qarabağın tacı hesab olunan Şuşada və həmçinin digər iri mədəni mərkəzlərdə yaradılan bir sıra məclislər ya din xadimlərinin nəzarəti altında fəaliyyət göstərirdilər, ya da müxtəlif adlar altında öz məqsədlərini həyata keçirirdilər. XIX əsrin II yarısından başlayaraq Şuşada Xarrat Qulunun və Molla İbrahimin yaratdığı ilk musiqi məktəbi öz fəaliyyətinə başlamışdır. Onların yaratdıqları məktəbin fəaliyyət göstərməsi bəzi ifaçı və xanəndələrin yetişməsində müəyyən dərəcədə öz müsbət təsirini göstərmişdir. Buna missal olaraq musiqi alətlərinin çalğı texnikasının əldə olunması, həmçinin ifaçılara musiqi alətlərinin tutlması və digərlərini qeyd edə bilərik.

Artıq XIX əsrin sonlarına doğru Şuşada Kor Xəlifənin musiqi məktəbində kiçik yaşlı uşaqlara da muğam sənətini, tar və kamançada ifa etməyi öyrədirdilər. Bununla yanaşı onu demək lazımdır ki, Şuşanın mədəni həyatının çiçəklənməsində bu məktəbin də öz rolu olmuşdur.

Şuşanın mədəni həyatının çişəklənməsində Mir Möhsün Nəvvabın məşhur müğənni Hacı Hüsü ilə birgə yaratdığı "musiqi məclisi"nin əhəmiyyətini qeyd etmək lazımdır. Şuşa xanəndəlik sənətinin beşiyi sayıldığı üçün dövrün bir sıra tərəqqipərvər insanları, həmçinin ədəbiyyatçıları da musiqi məclislərində iştirak edərək xanəndələrin ifa etdikləri qəzəllərin ahənginə, tələffüzünə, xüsusən də musiqi ilə şeiriyyatın vəhdəti məsələlərinə xüsusi diqqət yetirərdilər.

Şuşa "musiqi məclisi"ndə dövrün məşhur xanəndələrindən Hacı Hüsü, Məşədi İsi, Malıbəyli Cümşüd, Hacı Yusif Qarabaği, tarzənlərdən Məşədi Zeynal, Malıbəyli Həmid, Mirzə Sadıq Əsəd oğlu və digərlərinin adlarını qeyd etmək olar. Şuşa "musiqi məclisi" Azərbaycanda xanəndəlik məktəbinin tərəqqisini təmin etməklə "Azərbaycan milli xanəndəlik məktəbi"nin əsasını qoydu. Bu "musiqi məclisi" Azərbaycanda həmişə xanəndəlik sənətinin çiçəklənməsinə, inkişafına xidmət edərək onun gələcək taleynii təmin etmişdir. Bundan əlavə ustad xanəndə Cabbar Qaryağdıoğlunun adını da qeyd etmək lazımdır. O, Qarabağ xanəndəlik məktəbinin nümayəndəsi olmaqla öz ifaçılıq məktəbini yaratmışdır və bir çox görkəmli xanəndələr – Y.Kələntərli, Bülbül, Z.Adıgözəlov, S.Şuşinski və digərləri onun yetirmələridir. Bir neçə il M.M.Nəvvabdan dərs almış və təkrarolunmaz səs malik Seyid Şuşinskini müəllimi Cabbar Qaryağdıoğlu yüksək qiymətləndirərək, özünü layıqli davamçısı adlandırmış, hətta öz qavalını ona hədiyyə etmişdir.

Ümumiyyətlə, Azərbaycan xalq musiqi mədəniyyətinin inkişafında "musiqi məktəbləri"nin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. İstər Şuşada, istər Şamaxıda, istərsə də Bakıda təşəkkül tapmış bu "musiqi məktəbi"nin hər birinin ayrı-ayrılıqda musiqi incəsənətimizin müxtəlif sahələrinin inkişafında böyük təsiri olmuşdur [1]

Qarabağın inzibati və iqtisadi mərkəzlərindən biri olan Şuşa 1992-ci il may ayının 8-də mənfur ermənilər tərəfindən işğala məruz qaldı. Şuşada bütün mədəni, tarixi abidələr məhv edilmiş2020-ci ildə baş verən 44-günlük müharibə ötən 30 il ərszində hər zaman arzu etdiyimiz və dilimizdə az qala əzbər olan "gün gələcək, Qarabağda, Şuşada, onun "Cıdır düzü"ndə, "Isa bulağı"nda yenə "Qarabağ şikəstəsi" səslənəcək, yenə xalq mahnısı "Qarabağda bir dənəsən" oxunacaq və yeni "Qarabağ bülbülləri" cəh-cəh vuracaq bu kimi kəlmələrə son qoydu. Torpaqlarımız ali baş komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən Şuşa 2020-ci il 8 noyabrda işğaldan azad olundu. Xalqımız tarixi torpaqlarına qovuşdu. Azərbaycan, Qarabağ musiqisinin sədalarına həsrət qalan torpaqlar yenidən musiqi sədalarına büründü. Yenidən Cıdır düzündə illər sonra 2021-ci il 12-13 may tarixlərində "Xarı bülbül" festivalı keçirildi. Bu tədbirdə müxtəlif etnik qrupların iştirak etməsi Azərbaycanın yüksək səviyyəli multikultral bir dövlət olması və multikultralizmin Azərbaycan respublikasının dövlət siyasətinin tərkib hissəsini təşkil etməsi bir daha öz sübutunu tapdı. Bundan sonra da doğma yurdumuz Qarabağda, Şuşada, digər şəhər və rayonlarda maddi-mədəni abidələrimizin bərpa olunması, yenidən qurulması, həmçinin bölgəyə xas silsilə musiqi tədbirlərinin keçirilməsində yaxından iştirak etmək bir vətəndaş kimi hər birimizin börcudur.

ƏDƏBİYYAT

1. İmrani R. Azərbaycan muğam janrının yaranması və inkişafı tarixi. Bakı. ADPU, 1994. 251s
2. Səfərova Z."Mir Möhsün Nəvvab. Vüzuhül-ərşam", Bakı, Elm, 1989
3. Şuşinski F. Şuşa kitabı, Bakı, 1985, 150s.
4.Vinoqradov V. Uzeir Qadjibekov i Azerbaydanskaya muzıka. M., 1938 **s.**

SUMMARY

MUSICAL CULTURE OF KARABAKH

Ganiyeva A.

Karabakh is one of the cultural regions of Azerbaijan with ancient traditions and history. Karabakh, a charming corner of Azerbaijan, the birthplace of poetry and music. After 30 years of anguish, the cultural centers, material and cultural monuments of our country, which were destroyed by the merciless aggression of the Armenian invaders, thanks to the leadership of the President of the Republic of Azerbaijan Ilham Aliyev and our brave soldiers, our lands were returned to their historical owners. The holding of the "Xari Bulbul" festival, the restoration of the Vagif mausoleum, the Bulbul house-museum and other historical monuments are the result of the high appreciation and concern of the state for the culture of Azerbaijan and its integral part, Karabakh.
Keywords: *Karabakh, Shusha, history, culture, monument, music, assembly*

РЕЗЮМЕ

МУЗЫКАЛЬНАЯ КУЛЬТУРА КАРАБАХА

Ганиева А.

Карабах – один из культурных регионов Азербайджана с древнейшими традициями и историей. Карабах, очаровательный уголок Азербайджана, родина поэзии и музыки. После 30 лет тоски культурные центры, материальные и культурные памятники нашей страны которые было разрушенные беспощадной агрессией армянских захватчиков благодаря руководству Президента Азербайджанской Республики Ильхама Алиева и наших храбрых воинов наши земли возвращены своим историческим владельцам. Проведение фестиваля "Хары бюльбюля", реставрация мавзолея Вагифа, дома-музея Бюльбюля и других исторических памятников являются результатом высокой оценки и заботы государства о культуре Азербайджана и ее неотъемлемой части, Карабахе.
Ключевые слова: *Карабах, Шуша, история, культура, памятник, музыка, собрание*

AZƏRBAYCAN MƏDƏNIYYƏTİNİN VƏ AZƏRBAYCANÇILIĞIN BEŞİYİ QARABAĞ

Qasımbəyli C.Q.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Qasimbeyli.ceyhun@mail.ru

Açar sözlər *: Ümummilli Heydər Əliyev, Azərbaycan mədəniyyəti, azərbaycançılıq, Qarabağın sənətkarları, Azıx mağarası, Qarabağ tarixi*

Tarix boyu Azərbaycan şərqlə qərb arasında bir keçid məntəqəsi rolunu oynamışdır.Bu üzdən hər zaman işğalçılıq siyasəti aparan dövlətlərin əsas hədəflərindən biri olmuşdur. Müəyyən tarixi dövrlərdə yadelli işğalçılar bu gözəl torpağı işğal etməyə çalışmışdır. Qarabağ bölgəsi Azərbaycanın gözəl bölgələrindən biridir. Bu tarixi torpaq Azərbaycanın mədəniyyət beşiyidir desək heç də yanılmarıq. Bu torpaqlarda kimlər yetişməyib ki ?! Azərbaycan musiqisinin banisi sayılan Üzeyir Hacıbəyov 1885 -ci ildə Şuşada anadan olub. Azərbaycan musiqisində və Şərqdə ilk operası , o , bəstələmişdir. Həmçinin Azərbaycan Bəstəkarı məktəbinin əsasını qoymuşdur. Bundan əlavə Qarabağ musiqisinin şah əsərlərindən biri sayılan Muğamın əsas mərkəzlərindən biri olmuşdur. Məşhur muğam ustaları Mir Möhsün Nəvvab, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Seyid Şuşinski, Hacı Hüsü, Keçəçi oğlu Məhəmməd, Yaqub Məmmədov, Arif Babayev, Qədir Rüstəmov və başqa sənətkarlar bu torpaqda yetişmiş və Azərbaycan muğamına öz imzalarını qoymuşlar. Daha əvvələ gedəsi olsaq 18-ci əsrin sonu 19-cu əsrin əvvəllərində Qarabağda bir çox muğam ustası yaşayıb yaratmışdır. Şahsenem oğlu Yusif , Mirzə Hüseyn , Həsəncə, Qaraçı Əsəd və başqalarını misal gətirə bilərik. Məşhur tarzən Sadıqcanın şöhrəti bütün regiona geniş yayılmışdır. Məşhur ifaçılar Bülbül, Polad Bülbüloğlu, İslam Rzayev , Səxavət Məmmədov, Müslüm Maqomayev, Sara Qədimova, Məhəbbət Kazımov və digərləri Azərbaycan musiqisiniə öz töhfəsini vermişdir. Qarabağ bölgəsindən olan maestro Niyazi Azərbaycan musiqisində drijorluq sənətinin ən parlaq simalarından biridir. Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələri Fikrət Əmirov, Soltan Hacıbəyov , Süleyman Ələsgərov, Əşrəf Abbasov və

başqaları bu yurdun bu torpağın yetirmələridir. Qarabağ həmçinin şair, və dramaturq, yazıçıları ilə də məşhurdur. Əbdürrəhim bəy Haqverdiyev, Xurşidbanu Natəvan, Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Firudun bəy Köçərli buna misaldır. Molla Pənah Vaqif əslən Qazax bölgəsindən olsa da ömrünün böyük əksər hissəsini burada keçirmiş , şah əsərlərini bu yurdda qələmə almışdır. Yaşadığı dövrdə İbrahim Xəlil xanın vəziri olaraq da çalışmışdır. Qarabağ həmçinin Azərbaycan və Dünya tarixi üçün əsas mərkəzlərdən biridir. Azərbaycan üzrə ən qədim arxeoloji tapıntı 1968-ci ildə Məmmədəli Hüseynov tərəfindən Qarabağda tapılmışdır. Bu ərazi Xocavənd rayonunun Azıx kəndində yerləşən Azıx mağarasıdır. Bu ərazi 14 km şimal-qərbdə, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən mağara kompleksidir. Tədqiqatlara ilk dəfə 1960-cı ildə başlanmışdır. Azıx mağarasının sahəsi 800 kv km-dir. Burada uzunluğu 600 metrə qədər uzanan 8 dəhliz vardır. Dəhlizlərin bəzilərinin hündürlüyü 20–25 metrə qədərdir. Azıx mağarası Daş dövrü insanlarının yaşayış yeri kimi məşhurdur. Mağara 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə AMEA-nın *"Paleolit Arxeoloji Ekspedisiyası"* tərəfindən aşkar olunmuşdur. Aparılmış tədqiqat işləri zamanı on mədəni təbəqə aşkarlanmışdır. Qubadlı rayonununn Qaraqoyunlu kəndi 09.11.2020-ci ildə işğaldan azad edilmişdir. Dağətəyi ərazidə yerləşən kənddir. Yerli məlumatlara görə , təxminən XVIII əsrdə Xanqaraqoyunlu kəndindən (indiki Bərdə rayonundakı Qaraqoyunlu kəndi) ayrılmış ailələr əvvəlcə Şayıflı kəndinin (Zəngilan rayonu) yaxınlığında Xanyeri deyilən yerdı məskunlaşmış , sonra isə indiki yerə köçərək Qaraqoyunlu kəndini salmışlar. XV əsrin sonlarında qaraqoyunluların bir hissəsi – qızılbaş tayfalarının tərkibinə daxil olublar. Qaraqoyunlular baharlı, qaramamlı, dilağarda, düyərli, alpout , hacılı, bayramlı tayfalarından ibarət idilər. (1.s.88)

Qarabağ tarixinə nəzər salsaq görərik ki, 1747-1805-ci illərdə mövcud olmuş Qarabağ xanlığı Azərbaycanın ən qüdrətli xanlıqlarından biri olmuşdur. Azərbaycan Cumhuriyyətinin ilk hərbi naziri, həmçinin Qarabağ General qubernatoru olan Xosrov bəy Sultanov (1879-1943), Cumhuriyyət dövründə hərbi nazir, çar Rusiyası dövründə də artileriya komandiri olmuş Səməd bəy Mehmandarov (1856-1931) da əslən Qarabağ böləsindən olmuşdur. Qarabağda hər zaman nüfuzlu bəy və zadəgan ailələri yaşamışdır. Bunlara misal olaraq Sultan bəy, Qasım bəy, Şükür bəy və s. misal göstərmək olar.

Qarabağ özünün maddi və mənəvi mədəniyyətinin bütün komponentləri ilə tamamilə Azərbaycan xalqına məxsus idi. Qarabağ xalçası, Qarabağ geyim növləri, əltikmə işləri nəinki, Azərbaycanda, hətta bütün Şərq ölkələrində tanınmışdı və yüksək qiymətləndirilirdi. Qarabağda özünəməxsus çəki və ölçü vahidi mövcud idi. Kənd təsərrüfatında yüksək ənənəvi əkinçilik və suvarma mədəniyyəti yaranmışdı. Mənəvi mədəniyyətinin ən mühüm sahələrində də tarixən Qarabağ spesifik xüsusiyyətlərə malik olmuşdur. Hələ XVII – XVVIII əsrlərdə Azərbaycan ədəbi dilində ahəng qanunu məhz Qarabağ dialektinin təsiri ilə ardıcıllaşır və formalaşır. Qarabağ şairlərini, ziyalılarını birləşdirən Məclisi-üns və Məclisi-fəramuşan öz üslubu ilə seçilirdi. Qarabağ musiqi məktəbi isə hətta bütün Şərqdə məşhur idi. Qarabağın baş şəhəri olan Şuşa Zaqafqaziyanın konservatoriyası hesab olunmuşdur. Şuşa XVIII əsrin ikinci yarısından XX əsrin 20-ci illərinə kimi çətin sınaqlardan qalibiyyətlə çıxmış və 1753-cü ildən 1923-cü ilə qədər, Qarabağ torpağının şəhər-qala kimi paytaxt rolunu şərəflə daşımışdır. (4)

Qədim dövrlərdən bu ərazilərdə müxtəlif mədəniyyətlər formalaşmış, xalqlar yaşamışdır. Onlardan biri də Quşanlar olmuşdur.

Tarixi mənbələrdə Sasani hökmdarı II Yezdəgerdin (438-457) quşanlarla vuruşmağa erməni, iber, albanları çağırmağa elçilər göndərdiyindən danışılır. İndi Azərbaycandakı Quşlar, Quşçular kimi çoxlu yer adları da tarixi və əzəli yurdumuzda quşanların yaşadığından xəbər verir. (3)

Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti Azərbaycanı qalib etməklə ölkəmizin dünyada və regiondakı nüfuzunu, mövqelərini bir daha möhkəmləndirdi. İşğalçı ordunun "yenilməzliyi" barədə mif qısa müddət ərzində dağıdıldı. Sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük müharibənin nəticələrinin ilkin təhlili bir daha sübut edir ki, Azərbaycan həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən tarixi qələbə qazanmışdır. Prezident İlham Əliyev 3 oktyabr 2019-cu ildə Soçidəki "Valday" formunda çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bunları demişdir: "Mən Ermənistan baş nazirinin, təəcüb doğuran "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına toxunmaq istərdim. Birincisi, bu, yumşaq desək, yalandır. Qarabağ aranlı-dağlı bütün dünyada Azərbaycanın ayrılmaz hissəsi kimi tanınmışdır. Ermənistanın özü bu qanunsuz qurumu tanımır. Qarabağ əsl Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" İkinci Qarabağ müharibəsinin başladığı gün - sentyabrın 27-də igid ordumuzun uğurlu əks –hücum əməliyyatları nəticəsində bir sıra kəndlər və yüksəkliklər erməni işğalçılarından təmizləndi. Oktyabrın 3-də Madagiz də mənfur düşmən tapdağından qurtuldu və onun əvvəlki adı Suqovuşan bərpa edildi. Müdrik siyasət, güclü, yenilməz ordumuzun şücaəti sayəsində oktyabrın 4-də Cəbrayıl şəhəri və rayonun 9 kəndi 27 il sonra düşməndən azad edildi. Möhtəşəm, məğrur, qürurlu qələbələr nəticəsində artıq Suqovuşanda, Cəbrayıl şəhərində, Hadrut qəsəbəsində, Füzuli şəhərində, Horadiz qəsəbəsində, qədim Xudafərin körpüsündə, Zəngilanda, Ağbənd qəsəbəsində, Qubadlı şəhərində, Şuşada, Ağdamda Azərbaycanımızın üçrəngli bayrağı qürurla dalğalanır. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibəti ilə xalqa müraciətində 2022-ci il "Şuşa ili " elan etmişdir. Bununla bağlı 2022-ci ilin yanvarın 5-də Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur ki, Qarabağın

tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Ümummilli lider Heydər Əliyev tariximizin öyrənilməsinə xüsusi diqqət verərək göstərirdi ki, "Gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq". Heydər Əliyevin müdrik siyasəti Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin məhv olmasının qarşısını almış və bütövlükdə Azərbaycan Respublikasının xilasını təmin etmişdir. Siyasət dünyasının yüksək peşəkarlıq, zəngin həyat təcrübəsi, beynəlxalq diplomatiyanın ən incə sirlərini bilmək, ondan çıxış yollarını araşdırıb müəyyənləşdirmək bacarığı, meydana çıxan problemləri çevik və dinamik həll etmək məharəti, dövləti və xalqı idarə etmək səriştəsi məhz böyük şəxsiyyət Heydər Əliyevə məxsusdur. Onun müdrik siyasəti nəticəsində Azərbaycanı dağıtmaq, məhv etmək istəyən bütün qüvvələrin qarşısı alındı. Azərbaycan da dövlət böhranı, xaos aradan götürüldü. İctimai-siyasi sabitlik tədricən normallaşmağa başladı." (2.23) Heydər Əliyev demişdir: Xalqımın qarşısında olan borcumu mən sona qədər həyata keçirmək üçün çalışacağam. Bütün həyatını dövlətimizin tərəqqisinə həsr edən Ulu Öndər özünün diplomatik addımları ilə istər sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbayanı dünyada tanıdıb. Ümummilli lider Heydər Əliyevin qətiyyətlə və inamla başlatdığı tarixi missiyasının layiqli davamçısı İlham Əliyev siyasi müdrikliyi, zəngin təcrübəsi, strateji təfəkkürü ilə 30 ildir dünyanın mürəkkəbləşdirdiyi, sanki çözümü yoxmuş kimi təqdim etdiyi Qarabağın 30 illik qara taleyini tarixə səs salan 44 günlük zəfər ilə tamamlanmış Vətən müharibəsi ilə dəyişdirməklə Azərbaycan dövlətinin ərazi bütövlüyünü bərpa etmiş, Azərbaycanı dövlətini bütün dünyaya qalib dövlət kimi tanıtmışdır.

ƏDƏBİYYAT

1. Çingiz Salmanov. Qubadlının yer –yurd adları (mononimləri Sumqayıt "Azəri" nəşriyyatı -2015, 264 səhifə
2. Ələsgərov M. Müstəqil Dövlətimiz və Parlamentimiz, Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Bakı 2001. 321 səh
3. Kazımov .C.B. Cəbrayıl toponimləri .Bakı "Sabah" nəşriyyatı .1994 .. 52 səh
4. Yunis Hüseynov: tarix elmləri üzrə fəlsəfə doktoru. H03(016) Şuşa səlnaməsi. Bakı-2015 , "Şuşa" nəşriyyatı, 152 .

SUMMARY

KARABAKH IS THE CRADLE OF AZERBAIJANI CULTURE AND AZERBAIJANISM

Gasimbeyli J. Q.

As national leader Heydar Aliyev said, "Azerbaijan's greatest asset is its people." Because the people of Azerbaijan have always been against oppression and occupation, and have built great empires and states. Unfortunately, some nations or states have abused the sincerity and hospitality of our people. As a result, our people have been subjected to ruthless genocides and massacres from time to time. That is why the states established on the territory of Azerbaijan have paid special attention to the country's foreign policy. Because this is a very important factor. A state that is strong in foreign policy can thwart any ugly act of the enemy. The security of the state is ensured. In particular, a state located in a strategic area such as Azerbaijan should and does take a more special approach to such issues. As a result, the Karabakh problem, which has been unresolved for almost 30 years, found its political solution under President Ilham Aliyev. Karabakh is the cradle of Azerbaijani history and culture, Azerbaijanism. Famous artists in Karabakh introduced the cultural heritage of Azerbaijan to the world.

Key words: *National Heydar Aliyev, Azerbaijani culture, Azerbaijanism, Karabakh artists, Azykh cave, Karabakh history*

РЕЗЮМЕ

КАРАБАХ - КОЛЫБЕЛЬ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ И АЗЕРБАЙДЖАНСТВА

Гасымбейли Дж.К.

Как сказал общенациональный лидер Гейдар Алиев, «самым большим достоянием Азербайджана является его народ». Потому что народ Азербайджана всегда был против угнетения и оккупации, построил великие империи и государства. К сожалению, некоторые народы или государства злоупотребили искренностью и гостеприимством нашего народа. В результате наш народ время от времени подвергается безжалостному геноциду и резне. Именно поэтому государства, созданные на территории Азербайджана, уделяли особое внимание внешней политике страны. Потому что это очень важный фактор. Государство,

сильное во внешней политике, может сорвать любой безобразный поступок врага. Безопасность государства обеспечена. В частности, государство, расположенное в такой стратегической зоне, как Азербайджан, должно и действительно подходит к таким вопросам более особым образом. В результате карабахская проблема, не решавшаяся почти 30 лет, нашла свое политическое решение при президенте Ильхаме Алиеве. Карабах – колыбель азербайджанской истории и культуры, азербайджанства. Известные артисты Карабаха представили миру культурное наследие Азербайджана.

Ключевые слова: *Национальный Гейдар Алиев, азербайджанская культура, азербайджанство, карабахские художники, Азыхская пещера, история Карабаха*

QARABAĞ XANƏNDƏLİK SƏNƏTİ – SEYİD ŞUŞİNSKİ

Qəniyev T. X.
Azərbaycan Milli Konservatoriyası, Bakı, Azərbaycan
qeniyev.telman@gmail.com

Açaq sözlər: *Qarabağ, xanəndə, Seyid Şuşunski, məktəb, ustad*

Azərbaycan musiqi mədəniyyətinin inkişafında bəstəkarlar, musqişünaslar ilə yanaşı xanəndələrin də böyük rolu olmuşdur. Xalq içindən çıxmış xanəndələr xalqın musiqi tələbatını, istəklərini, mənəvi aləmlərini xalq musiqisi vasitəsi ilə həm təbliğ etmiş, həm də nəsildən-nəslə ötürmüşlər. Bunun nəticəsi kimi bu gün Azərbaycan musiqi mədəniyyəti zəngin bir irsə sahibdir.

Azərbaycan xanəndəlik sənətinin inkişafı şifahi ənənəli professional musiqi olan muğamlar ilə sıx bağlıdır. Hal-hazırda səslənən muğamların daha qədim kökləri "Xosrovani"lərə əsaslanırdı. "Xosrovani"lərin yaradıcısı Xosrov Pərvizin sarayında yaşayıb-yaratmış musiqiçi Barbəd olmuşdur. Sonralar isə muğamlar haqqında məlumata Şərqin qədim ədəbiyyatı sayılan "Qabusnamə"də rast gəliri. Onun müəllifi Keykavus "Musiqişünaslıq qaydaları haqqında" adlı fəsildə ö dövrdə (XI əsr) muğamların şərhini vermiş və "Rast", "Üşşaq", " Busəlik" və daha bir neçə muğamın adını qeyd etmişdir [3].

Azərbaycan muğamları müxtəlif dövrlərdə xanəndələr tərəfindən ifa edilərək şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür. Qarabağ tarix böyu Azərbaycan musiqi mədəniyyətinin mərkəzi kimi şöhrət tapmışdır. Böyük inkişaf yolu keçmiş Qarabağ xanəndəlik sənətinin görkəmli nümayəndələrindən olan Məşədi İsi, Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Malıbəyli Həmid, İslam Abdullayev, Seyid Şuşunski və digər sənətkarlar muğam ifası zamanı M.Füzulinin, Q.Zakirin, S.Ə.Şirvaninin doğma dillərində olan qəzəllərindən istifadə edirdilər.

Azərbaycanda mövcud olan musiqi məclislərinin mədəniyyətimizin inkişafında özünəməxsus rolu vardı. Belə ki, XIX əsrin 50-ci illərindən başlayaraq Şuşada olduğu kimi Bakıda və Şamaxıda da musiqiçilər, ədiblər və xanəndələrin cəmləşdiyi musiqili-ədəbi məclisləri mövcud idi və bu məclislərin üzvləri daima sənət mübadiləsi aparardılar. Bu məclislərin Azərbaycanda xanəndəlik sənətinin inkişafında müstəsna rolu vardı. Görkəmli yazıçı Ə.B.Haqverdiyevin qeyd etdiyi kimi, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Qafqazın harasına getsəydin orada musiqiçinin, çalanın, oxuyanın qarabağlı olduğunu görərdin. Bakı, Şəki, Şamaxı, Aşqabad, Tehran, hətta İstambul şəhərlərinin toy məclislərinə sazəndə dəstəsini çox vaxt məhz Şuşadan dəvət edərdilər. Qarabağ xanəndələri öz gözəl səsləri, mahir sənətləri ilə İran, Türk müğənnilərini həmişə kölgədə qoymuşlar. Qarabağ xanəndələri Şamaxı, Bakı musiqi məclislərinin üzvləri arasında da xüsusi bir hörmət və ehtirama malik idilər [2].

XIX əsrin sonu, XX əsrin əvvələrində Şuşa şəhəri Qafqazın ən məşhur ədəbiyyat və incəsənət mərkəzi idi. Hər yay Şuşaya gələn Azərbyacan bəstəkarları və ədibləri ilə yanaşı Avropa və Rusiyadan, həmçinin Qafqazdan gələn musiqisevərlər burada göstərilən tamaşalarda və qululan musiqili məclislərdə yaxından iştirak edərdilər. Şuşa şəhərində M.M.Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan" musiqili-ədəbi məclisində o dövrün görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və digərləri iştirak edirdilər.

Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri olan Seyid Şuşinskinin adı Azərbaycan xalqının qəlbini sevinclə döyündürən bir ad olmuşdur. Onun adı çəkilən zaman hər bir azəri türkü öz xalqının istedadının nə qədər böyk qüdrətə malik olduğunu anlayır. O, Azərbaycan vokal sənətinin inkişafında müstəsna xidmətləri olan bir ustad sənətkardır. Hər zaman xalqa yaxın olaraq, xalqın tələb və zövqlərini öyrənib öz yaradıcılığında bu tələblərə cavab verməyə çalışmışdır.

S.Şuşinski Şuşanın tanınmış şair, xəttat və musiqişünası, "Vüzuhil-ərqam" tədqiqat əsərinin müəllifi M.M.Nəvvabdan bir neçə il muğam və xanəndəlik sənəti haqqında biliklərə yiyələnmişdir. Lakin C.Qaryağdıoğlunun onun xanəndə kimi püxtələşməsində böyük rolu olmuşdur. S.Şuşinski musiqi aləminə ilk qədəm qoyan zaman Cabbar Qaryağdıoğlunun ifaçılıq məktəbini keçmişdir. Onun bədii zövqü, musiqinin incə nöqtələrini duymaq, klassik muğamları və musiqi parçalarını sənətkarlıqla oxumaq qabiliyyəti bu məktəbdə tərbiyə olunmağa başlamışdır. Qeyd edək ki, onun musiqi təhsili olmasa da öz istedadı sayəsində gənclik dövründə ətrafındakı məşhur tarzən və xanəndələrdən, musiqişünaslardan bu elmin dərinliklərini əxz edə bilmişdir.

S.Şuşinski klassik Şərq və Azərbyacan muğamlarının incəliklərinə dərindən bələd olan sənətkarlardan idi. Azərbaycanda və Şərqdə ilk opera yaradıcısı olan Ü.Hacıbəyli onun müstəqil və orijinal yaradıcılıq yoluna malik olduğunu dəfələrlə qeyd etmişdir. Qarabağın ustad sənətkarı olmuş Cabbar Qaryağdıoğlu da S.Şuşinskinin adını hər zaman böyük fəxrlə çəkmiş və Bakıda keçirilən məclislərdən birində ona öz qiymətli qavalını hədiyyə etmişdir. Dinləyicilərimizi Seyidin gözəl səslə oxuduğu mağam və təsnifləri, şaqraq zəngulələri, qünnələri (burunda və dişdə oxumaq) və uzun nəfəsləri hr zaman valeh etmişdir.

Onun bir xanəndə kimi digər sənət yoldaşlarından ayıran əsas cəhət fərdi yaradıcılıq üslububna malik olması idi. Dahi bəstəkar Ü.Hacıbəyli S.Şuşinskini nadir və istedadlı xanəndə adlandırmışdır. O, həqiqətən fitri istedad sahibi idi. Onu da qeyd edək ki, S.Şuşinski də ustad xanəndə cabbar Qaryağdıoğlu kimi opera və simfonik muğamlar yaradan bəstəkarlarımıza çox böyük kömək göstərmişdir. Onun köməyi nəticəsində görkəmli bəstəkarımız Fikrət Əmirov dünyanın bir çox ölkələrində müvəffəqiyyət qazanmış "Şur" və "Kürd-ovşarı", dirijor və bəstəkar Niyazinin "Rast" simfonik muğamları yaranmışdır.

Görkəmli bəstəkar F.Əmirov S.Şuşinskinin yaradıcılığını yüksək qiymətləndirərək belə qeyd edirdi: "Xalqımızın musiqi tarixində elə sənətkarlar vardır ki, onların adını böyük iftixar hissi ilə, qürurla çəkirik. Məgər Azərbaycan professional musiqisinin banisi Üzeyir bəyi, vokal sənətimizin ən böyük nümayəndəsi Cabbar Qaryağdıoğlunu, güllü baxçamızın şən Bülbülünü unutmaq olarmı? Şübhəsiz ki, yox! Bu məşhur və unudulmaz sənətkarlar ilə birlikdə qocaman xanəndəmiz və bizim hamımızın hörmətli müəllimi S.Şuşinskinin də adı şəkilir." [1]

S.Şuşinskini irsi böyük məktəbdir. O, 60 illik yaradıcılıq dövründə sənət meydanında daima axtarışlar aparmış, klassik musiqi irsimizi dərindən öyrənmişdir. Əldə etdiyi nəaliyyətlər fitri istedadının gücü sayəsində əldə olunmuşdur.Bu istedadın mahiyyətini isə gözəl səslə birlikdə sənəti sevmək, öyrənmək və ona şüurlu münasibət təşkil edir. S.Şuşinskinin sənəti dünya musiqisinin ən gözəl nümunələri ilə yan-yana duracaq yüksək bədii formaya malik sənətdir. Klassik Şərq musiqisinin repertuarında elə bir muğam tapmaq çətindir ki, onu ifa etməkdə Seyid Şuşinski aciz olsun. O, "Cahargah", "Mahur", "Hünayun", " Nəva", "Məsnəvi", "Mani", " Arazbarı", "Heyratı" və s. muğamların görkəmli ifaçısı olmuşdur. Onu ifa ertdiyi "Cahargah" muğamı bütün Şərq aləmində böyük şöhrət qazanmışdır. Bu muğam bir çox görkəmli xanəndələr tərəfindən ifa edilsə də S.Şuşinskinin ifasında ustad yolu keçmiş sənətkarların yaradıcılıq yolunun və ənənələrinin davam etdirilməsi aydın şəkildə özünü büruzə verir. O, öz ifası ilə dinləyiciləri düşünməyə vadar edirdi.

S.Şuşinskini geniş musiqi hafizəsinə və yüksək ifaçılıq mədəniyyətinə malik bir sənətkar idi. Təkcə Azərbaycanda deyil, Qafqazda, İranda, Türkiyədə, Gürcüstanda və digər ölkələrdə dinləyicilərin ürəyini fəth etmişdir. Məşhur xanəndə olmasından əlavə S.Şuşinski böyük xeyriyyəçi idi. O, teatr oynadığı tamaşalardan pul almaz, əksinə tamaşaların qoyulması üçün maddi yardım edərdi. Bundan əlavə ehtiyacı olan ailələr, tələbələrə, aktyorlara və digər incəsənət xadimlərinə əl tutar, jurnalların nəşrinə dəstək verərdi.

Görkəmli xanəndə Ü.Hacıbəyov tərəfindən Azərbaycan Dövlət Konservatoriyasında xanəndəlik sinfində işləməyə dəvət alır və 1926-cı ildən orada işləməyə başlayır. O, ustad xanəndə olmaqla yanaşı bir pedaqoq kimi Y.Kələntərli, R.Muradova, Y.Məmmədov, Ə.Məmmədov, S.Abdullayev və digər tanınmış xanəndələr nəslinin yetişməsində böyük xidmətləri olmuşdur.

Qarabağ və onun dilbər guşəsi olan Şuşa əsrarəngiz təbiəti ilə ədiblərin, rəssamların, musiqiçilərin, xanəndələrin ilham mənbəyi olmuş və onların sayəsində mədəniyyət mərkəzi kimi tanınmışdır. Azərbaycanın musiqi tarixini yaratmaqla həm ölkəmizdə, həm də xaricdə təbliğində və təmsil olunmasında böyük xidmətləri olmuşdur. Bu istiqamətdə novator ustad olan S.Şuşinski yalnız muğam sahəsində deyil, eyni zamanda klassik bir musiqiçi kimi musiqi mədəniyyətimizin tarixində layiqli və şərəfli bir yerə sahibdir.

ƏDƏBİYYAT

1. Əmirov F. Musiqimizin çırpınan ürəyi. Ədəbiyyat və incəsənət qazeti. 1965, №46
2. Şuşinski F. Azərbaycan musiqiçiləri. Bakı, Yazıçı, 1985, 480s
3. Zöhrabov R. Muğam. Bakı, Azərnəşr, 1991, 119s

SUMMARY

THE ART OF KARABAKH SINGING - SEYID SHUSHINSKI

Ganiyev. T.Kh.

Azerbaijan, the land of fires with an ancient history, can always be proud of its history, monuments of culture, art, literature and culture. It has a rich tradition in literature, culture and music. In the field of music, the world has reached today's modern level, using and developing musical traditions. Many outstanding composers, singers and musicologists have made an exceptional contribution to the development of Azerbaijani musical culture. The life and work of the singer S. Shushinsky is one of the brightest pages in the history of Azerbaijani musical culture.

Keywords: *Karabakh, singer, Seyid Shushinski, school, master*

РЕЗЮМЕ

КАРАБАХСКОЕ ИСКУССТВО ПЕНИЯ - СЕИД ШУШИНСКИЙ

Ганиев. Т.Х.

Азербайджан, страна огней с древней историей, всегда может гордиться своей историей, памятниками культуры, искусства, литературы и культуры. Он имеет богатые традиции в области литературы, культуры и музыки. В области музыки мир достиг сегодняшнего современного уровня, используя и развивая музыкальные традиции. Многие выдающиеся композиторы, певцы и музыковеды внесли исключительный вклад в развитие азербайджанской музыкальной культуры. Жизнь и творчество певца С.Шушинского одна из самых ярких страниц в истории азербайджанской музыкальной культуры.

Ключевые слова: *Карабах, певец, Сеид Шушинский, школа, мастер*

ŞUŞA ŞƏHƏRİ AZƏRBAYCANIN MƏDƏNİYYƏT BEŞİYİDİR

[1]Quliyev Ə.F., [2] Səmədov Y.A., [3]Səmədova Z. Y.

[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan

[2]ADPU-nun Ağcəbədi filialı, Ağcəbədi, Azərbaycan

[3]Ağcabədi şəhər Tarix Diyarşünaslıq muzeyi, Ağcəbədi, Azərbaycan

yaqub. semedov63@mail.ru; semedova.zalxa99@mail.ru

Açar sözlər: *Şuşa şəhərinin tarixi, Şuşa ili, təbii-coğrafi şəraiti, inzibati -ərazi mərkəzi, maddi-mədəniyyət abidələri*

Şuşa rayonu 1930-cu ildə yaradılmış və Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsünə daxil edilmişdir. Bu rayonun sahəsi 289 km²-ə bərabərdir. Son dövrlərdə aparılan siyahıyaalınmasının nəticələrinə əsasən buranın əhalisi 32,8 min nəfərə çatmışdır. Şuşa rayonu inzibati-ərazi bölgüsünə bir şəhər və 31 kənd daxil edilmişdir. Rayonun inzibati mərkəzi Şuşa şəhəridir. I Qarabağ müharibəsi dövründə Şuşa şəhəri rus-erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş (1992-ci il mayın ayının 8-də) və hərbi əməliyyatlar zamanı böyük dağıntılara məruz qalmışdır. Tarixə nəzər salarakən aydın olur ki, 1905, 1920-ci illərdə Şuşa şəhəri tamamilə yandırılmış və axırıncı işğal dövründə (1992-ci ildən sonra) də şəhərə böyük ziyan dəymişdir. İkinci Qarabağ müharibəsi dövründə, yəni, 8 noyabr 2020-ci il tarixdə isə aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində şəhər düşmən işğalından tamamilə azad olunmuşdu [1]. Şuşa rayonu başlıca olaraq Kiçik Qafqazın Qarabağ dağ silsiləsi ərazisində yerləşməklə yanaşı, ərazisinin də böyük hissəsi əsasən dağ silsiləsindən ibarətdir. Böyük Kirs dağı (2725m) buranın ən yüksək zirvəsi hesab olunur. Burada yayda mülayim isti və qışda isə quraqlıq keçən soyuq iqlim tipləri səciyyəvidir. Yanvarda orta temperatur -4°C-ə-1°C-ə, iyulda isə 16-19°C-ə intervalında dəyişir. İllik yağıntıya gəldikdə bu 700-800 mm. təşkil edir. Qarqar çayının da mənbəyi buradan başlayır. Qəhvəyi -qonur dağ-meşə və çimli dağ-çəmən tipli torpaqlar bu ərazi üçün xarakterikdir. Yüksək dağlıq əraziləri çöl otlaqlar örtür. Nisbətən aşağı ərazilər atropagen təsirə məruz qalmış meşələr və çəmənliklər kserofit kolluqlarla əvəzlənir. Buranın faunasından bəhs edərkən ilk növbədə

- burada daha çox ayı, canavar, tülkü, boz dovşan, cüyür, kəklik, göyərçin və s. vəhşi heyvanlara rast gəlinir [2]. İstər coğrafi mövqeyinə görə, istərsə də tarixi və mədəni zənginliyinə görə Şuşa şəhəri Azərbaycan dövləti üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Bir cəhəti də xüsusi vurğulamaq lazımdır ki, 2020 ilin iyun ayının 22-də Prezident İlham Əliyev Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzalayıb. Fərmana əsasən "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxs yaradılıb. Demək olar ki, Şuşa şəhəri yarandığı gündən Azərbaycanın tarixi-mədəni və ictimai-siyasi həyatında böyük rol oynamışdır. Belə ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1977-ci ildə Şuşa şəhəri zamanında tarix-memarlıq qoruğu elan edilmiş, həmçinin tarixi abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır [3].

2021-ci il yanvarın 5-də isə Prezident İlham Əliyevin təşəbbüsü ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyətinin paytaxtı elan olundu[4]. Qarabağ tarixçilərinin yazdığına görə, Şuşa qalasının əsası 1750-1751-ci illərdə qoyulub. Həmin illərdə Şuşakənddən bir qədər aralı, hündür, sıldırım dağın üzərində qalanın tikintisinə başlandı və tikinti işləri 1756-1757-ci illərdə yekunlaşdırıldı. Pənahəli xanın fəaliyyəti nəticəsində Şuşa paytaxt şəhəri kimi möhkəmləndirildi, qala- şəhərə çevrildi və uzun illər boyu Qarabağ xanlığının paytaxtı rolunu oynadı. Şəhər bir müddət Pənahəli xanın şərəfinə əvvəlcə "Pənahabad", qısa müddətdən sonra isə "Şuşa qalası" və "Şuşa" adı ilə məhşurlaşdı. Təsadüfi deyildir ki, 1751-ci ildən sonra Qarabağ xanlığı ilə bağlı baş verən siyasi hadisələr zamanı da bu şəhər "Pənahabad" deyil, əsasən Şuşa adalandırıldı. Şuşa qalası əsası qoyulduğu gündən başlayaraq xarici hücumlara qarşı inadlı müqavimət göstərmiş, qanlı döyüşlərə şahidlik etmişdi. İngilis səyyah və alimləri C.Morye və R. Burterin də Şuşanın qədimliyi ilə bağlı çox dəyərli mülahizələri vardır. C. Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl ilk yaşayış məskəni kimi meydana çıxmışdı. R. Burter də öz növbəsində yazmışdır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları var". Bu dəyərli mülahizələr doğurdan da, Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir yürütməyə əsas verir. Azərbaycan SSR Elmlər Akademiyasının 1981-ci ildə nəşr olunmuş məruzələrinin 7-ci sayında, Ə.B.Şükürzadənin də "Qarabağ xanlığının şəcərə cədvəli" məqaləsi bu baxımdan diqqəti cəlb edir. Həmin məqalədə qeyd olunur: "Pənah xan monqollar tərəfindən dağıdılmış qədim Şuşanın yerində 1751-ci ildə yeni şəhər saldı". Buradan aydın olur ki, Şuşa hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olmuşdur. XIX əsrin birinci yarısında şəhər əhalisinin sayı ətraf ərazilərdən gələn peşə sahiblərinin, alim və sənətkarların sayəsində 20 min nəfərə çatmışdı. 1809- cu ili məlumatına əsasən Şuşada 1500 toxucu dəzgahı olmuşdur ki, bu da ən azı 1500 sənətkar demək idi. Tarixi mənbələrdə XVIII əsrin sonu, XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu manufakturanın və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir [5]. 1882-ci ildə İ. Drozdov "Kavkazski sbornik" kitabında yazırdı: "Şuşa Yelizavetpol quberniyasının qabaqcıl şəhərlərindəndir. O, ticarətdə və gözəllikdə Tiflislə rəqabət aparır. Yelizavetpol əyalətində yaşayan 625 min 599 insanın 24 min 522 nəfəri Şuşanın payına düşür". Şuşa Azərbaycan mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş etmişdi.bax [bax6] .Şuşa qalasının üç əsas qapısı (Gəncə qapısı və ya Çiləbörd, İrəvan və Ağoğlan) [7], 549 qədim bina, ümumi uzunluğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən burada 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu [8]. Erməni işğalının davam etdiyi 30 il müddətində Şuşa şəhərində Azərbaycan xalqının izini itirmək məqsədilə 600-ə qədər milli memarlıq abidəsi dağıdılmış və xeyli sayda tarixi ərazilər hətta Qarabağ xanlığının yarandığı dövrdən Cıdır yarışlarının və Novruz bayramının keçirildiyi Cıdır düzü öz əvvəlki görkəmini itirmişdir. İşğal müddətində Pənahəli xanın sarayı, Aşağı Gövhər Ağa məscidi, Yuxarı Gövhər Ağa məscidi, Qarabağ xanlığında vəzir olmuş görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, Şərqin məşhur şairəsi xan qızı Xurşidbanu Natəvanın evi, Şərqin ilk operasının eləcədə Azərbaycan simfonik musiqisinin ilk yaradıcısı dahi sənətkar , Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin, dünya şöhrətli opera müğənnisi Bülbülün, məşhur tarixçi, rəssam, musiqişünas Mir Möhsün Nəvvabın ev muzeyləri vəhşicəsinə dağıdılmış, milli muzey fondlarımızdan 10 mindən çox eksponat, Dövlət Qarabağ Tarixi Muzeyi və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyindən 1000-dən çox əşya qarət olunaraq qanunsuz yollarla Ermənistana aparılmışdır. Ümumilikdə 60-dan çox kitabxana, muzey, musiqi məktəbi və şəhərin qədim müsəlman qəbiristanlığı məhv edilmişdir [9]. Müəyyən zaman kəsiyindən sonra haqq-ədalət qələbə çaldı. 28 il Azərbaycan Şuşasının həsrətiylə yaşamağına və Beynəlxalq Təşkilatlardan işğal edilmiş ərazilərinin azad edilməsində böyük gözləntilərinin olmasına baxmayaraq bütün arzular kağız üzərində qaldı. Digər tərəfdən də, bu müddət ərzində Şuşa rayonunun dinc azərbaycanlı əhalisi hər zaman təxribatlarla üzləşdi. Nəhayət, Ölkə rəhbəri – Azərbaycanın Ali Baş Komandanı İlham Əliyev "Dəmir yumruq"la həddini aşmış, azğınlaşmış ermənilərə layiqli cavab verilməsinin vaxtını uzaqgörənliklə müəyyənləşdirdi və münaqişənin həllində hərbi yolun yeganə çıxış yolu olduğunu tam şəkidə qətiləşdirdi. 2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq müzəffər Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğalçı ermənilərin viran qoyduğu, xarabalığa çevirdiyi torpaqlarımızı qısa müddətdə azad etməyə və həmin ərazilərdə bayrağımızı ucaltmağa başladı. Həmin ilin noyabr ayının 8-də Azərbaycan xalqı həsrətində olduğu doğma Şuşamıza qovuşdu. II Qarabağ müharbəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi və 10 noyabr günü şanlı **Qələbə Gününə** çevrildi [10].

Beləliklə, bu tarixi qələbə həm Şüşamızın tarixinin qaranlıq səhifələrinin daha dərindən araşdırılmasını aktuallaşdırdı, həm də Şuşa həqiqətlərinin dünyaya çatdırılması istiqamətində biz tədqiqatçılar üzərinə mühüm vəzifələr qoydu.

ƏDƏBİYYAT

1. https://www.wikiwand.com › ... Bu sayfanın çevirisini yap Şuşa rayonu - Wikiwan *Şuşa* rayonu - Azərbaycan Respublikasında inzibati–ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazda Qarabağ silsiləsi ərazisində yerləşir.

2. http://ryl.az › muharibe › susa PDF. Şuşa şəhəri Şuşa şəhəri XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan ... götürülmüş 68 taleyi barədə bu günə qədər məlumat yoxdur.

3 http://mct.gov.az › umumi-xe... Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan ...
Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 9223. 07.05.2021. 07.05.2021 11:58.

4. https://xalqqazeti.com › news Şuşa – Azərbaycanımızın mədəniyyət paytaxtı Xalqqazeti.com Əcdadlarımızdan bizə miras qalmış qədim Şuşa şəhərinin 28 il 6 aydan sonra ... Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşanın tarixi keçmişini yaxşı ...

5. *https://www.trt.net.tr* › actual Bu sayfanın çevirisini yap 2022-ci il Azərbaycanda "Şuşa İli" elan edilib - TRT bir gün önce — Prezident İlham Əliyev 2022-ci ilin "*Şuşa* İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.

6. Şuşa - strateji şəhər. Elçin Əhmədov, Qarabağ Araşdırmalar Mərkəzinin müdiri. "Azadlıq" qəzeti. 8 may 2014-cü il.

7. Dünyanın mədəniyyət paytaxtı olmağa layiq olan ŞUŞA. "İki sahil" qəzeti. 05 yanvar 2022-ci il.

8. https://az.wikipedia.org › wiki Bu sayfanın çevirisini yap Şuşa qalası - Vikipediya Qapıları — Şuşa qalası üç əsas qapıya malik olmuşdur: Gəncə, İrəvan və Ağoğlan ... Bəzi mənbələrdə qala divarlarının dördüncü qapının da olmasından bəhs

9. https://sia.az › news › culture Bu sayfanın çevirisini yap. Şuşanın tarixi və memarlıq abidələri - Sia.az Təəssüflə qeyd olunmalıdır ki, artıq özü bütövlükdə böyük bir abidə olan Şuşa şəhəri ermənilər tərəfindən dağıdılmışdır. 8 muzey, 31 kitabxana, 17 klub,

10. https://aztc.gov.az › posts Bu sayfanın çevirisini yap Şuşa həqiqətləri | Azərbaycan Dövlət Tərcümə Mərkəzi 11 Kas 2020 — Qədim Azərbaycan *şəhəri Şuşa* məhz həmin bu hücumlar zamanı – 1992-ci il mayın 8-də rus-erməni hərbi birləşmələri tərəfindən işğal olunur.

SUMMARY

SHUSHA CITY IS THE CRADLE OF CULTURE OF AZERBAIJAN

Guliyev A.F., Samedov Y.A., Samedova Z.Y.

First of all, the article contains brief information about the natural-geographical conditions and population of Shusha city. After that, detailed information about the history of the city, its political history and material and cultural monuments was provided from the scientific point of view on the basis of available sources. The article also reflects the damage to the city's material and cultural monuments during the Armenian occupation and the current situation in the city after its liberation from Armenian occupation. The article was specially emphasized in the decree of President Ilham Aliyev dated January 5 (2022) "On declaring 2022 the" Year of Shusha "in the Republic of Azerbaijan."

Keywords: *History of Shusha city, Shusha year, natural-geographical conditions, administrative-territorial center, material-cultural monuments*

РЕЗЮМЕ

ШУША – КОЛЫБЕЛЬ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

Гулиев А.Ф., Самедов Я. А., Самедова З.Я.

Прежде всего, статья содержит краткие сведения о природно-географических условиях и населении города Шуши. После этого была представлена подробная информация об истории города, его политической истории и материальных и культурных памятниках с научной точки зрения на основе доступных источников. В статье также отражен ущерб материальным и культурным памятникам города во время армянской оккупации и нынешняя ситуация в городе после его освобождения от армянской оккупации.

Статья особо подчеркнута в указе Президента Ильхама Алиева от 5 января (2022) «Об объявлении 2022 года «Годом Шуши» в Азербайджанской Республике».

Ключевые слова: *История города Шуша, Шушинский год, природно-географические условия, административно-территориальный центр, материально-культурные памятники*

ZƏNGƏZUR TOPONİMİ HAQQINDA BƏZİ QEYDLƏR

Tağıyeva R. İ.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
tagiyeva77@bk.ru

Açar sözlər: *Qaragöl, Qapıcıq, Laçın, Mığrı, Ərməz*

Zəngəzur bölgəsi tarixi Azərbaycan ərazisi olmuşdur. 1920-ci illərə qədər Zəngəzur mərkəzi Gorus olmaqla Gəncə quberniyasının tərkibində qəza olmuşdur. Xəritəyə Zəngəzur qəzasına aid ərazilərə nəzər yetirdikdə oradaki oronim, hidronim və oykonimlərin hamısı Azərbaycan türkcəsində danışır. Müasir Qafan, Qarakilsə, Gorus, Laçın, Megri, Qubadlı, Zəngilan rayonları bütöv Zəngəzura daxildir. Müəyyən tarixi hadisələr nəticəsində daha doğrusu, 20-ci illərdə Moskvanın təhriki ilə bu tarixi ərazi ikiyə parçalanmışdır. Qarakilsə, Megri, Qafan əraziləri yeni yaradılan Ermənistana verilmişdir.

Zəngəzurun qərb tərəfi Qərbi Azərbaycanın cənub-şərq hissəsindədir. Bazarçay, Oxçu və Megri çayları hövzəsindəki vadiləri əhatə edir. Zəngəzurun qərb tərəfindən şimaldan-cənuba doğru uzunluğu 130 km olan Zəngəzur dağ silsiləsi uzanır və Arazın sol sahilində dar Megri dərəsi ilə qurtarır. Bu dağ silsiləsinin ən hündür zirvəsi Qapıcıq zirvəsidir. Hündürlüyü 2900 metrdir. Zəngəzurun şərq tərəfində Əriməz (3392 m.), Zəngəzur və Qarabağ dağ silsilələri arasında Qarabağ vulkanik yüksəkliyi (orta hündürlüyü 2500 metr) vardır. Bu silsilələr arasinda Qızılboğaz (3581 m.), Böyük İşıqlı (3550 m.), (Alagölllər (3178 m.) dağları yerləşir (1,s.17). Zəngəzurda daşlı çöllər də çoxdur. Onlardan ən böyüyü Pəricınqıldır. Qarabağ yüksəkliyi Bazarçay və Həkəri çaylarının suayrıcısıdır. Qaragöl yüksək dağ yamaclarında yerləşir. Bazarçay üzərində Şəki şəlaləsi vardır [45, s.62].

Zəngəzur oroniminin kökündə Zəngi etnikmənşəli ad dayanır. Mənbələrdə Zəngi şəxs və sülalə adları kimi dəfələrlə xatırlanır. Bu barədə Z.Bünyadovun araşdırmaları maraq doğurur. O, Zəngilərin uzun müddət fars atabəyləri İmadədin Zəngi, Zəngi Candar, Zəngi ibn Sunqur (1161-1175), Təklə ibn Zəngi (1175-1194), Səd ibn Zəngi (1194-1260 və s.) kimi adlarla fəaliyyət göstərmələrini dəfələrlə qeyd edir [3, s.13-48; 2-173,237].

"Sultan Səncər Atabəy Zəngiyə məktub göndərərək taxtdan düşmüş xəlifə Ər Rəşidin Mosuldan qovulmasını təklif etdi" [3, s. 31].

Zəngilər haqqında türk tədqiqatçısı Faruq Sumər də ətraflı məlumat verir: *Mosul hakimi Ağsunqur oğlu İmaməddin Zəngi qonşu əmirləri itaət altına almadan səliblərə qarşı müvəffəqiyyətlə mübarizə apara bilməyəcəyini başa düşmüşdü. Bu səbəbdən (1139-1140) Zəngi Şəhrizovu Aslan Taşoğlu Əmir Qıpçağın əlindən almış və onun özünə tabe etmişdi. İmaməddin Zəngi Hələb əmiri olduqdan sonra Şəhrizov-Ərbil bölgəsindəki şivələrin mühüm bir qismini Hələb bölgəsinə gətirmiş və onlara yaxın yerdə iqta (torpaq-sahəsi) vermişdir"* [5, s.140-143]. Daha sonra o zəngilərin Azərbaycanda (xüsusilə Gəncə və Aranda) olması haqqında da məlumat verir [5, 41-144]. Başqa bir mənbədə də göstərilir ki, səlcuq hökmdarı Alp Arslanın ən görkəmli sərkərdəsi, Səlcuq ordusunun başçısı Zəngi olmuşdur [2, s.240]. Zəngəzur toponiminin iki hissədən olması(Zəngə+zur) məlumdur. Toponimin ikinci hissəsindəki "zur" müasir türk dillərində (özbək, yakut, qırğız, tatar, qazax) coğrafi termin olaraq müxtəlif fonetik variantlarla (yar//car//djar//djor//djer//jar) yer-yurd adlarında (Djararx – Dərəarx, Djarkul – Dərəgöl, Jardaş – Dərədaş və s.) aktiv işlənməkdədir [7, s.179; 6, s.67; s.966; 9, s.306]. Azərbaycan toponimiyasında coğrafi termin kimi yar termini mühafizə edilmişdir. Məsələn: Sarıyar, Qızılyar, Ağyar və s.

Türk dillərində c>d, c>j,y >d, y>z əvəzlənmələrini nəzərə alsaq bu coğrafi terminin də erməni dilinə keçərək dzor formasında işlədilməsi mümkündür. Zəngəzur//Zəngizor toponiminin Zanqadzor formasında erməni dilində təhrif olunaraq işlədilməsi erməni dilinin fonetik qaydaları əsasında olmuşdur. Zəngizurun Zəngəzur kimi işlədilməsi isə səsəvəzlənməsi ilə əlaqədardır.

Göründüyü kimi, Zəngəzur Zəngi (şəxs və ya sülalə adı) və dzor//cor//çar//djor coğrafi termindən ibarətdir. Dərənin relyefini coğrafi termin əks etdirir. Uzun müddət Səlcuq imperiyasında xidmət etmiş zəngilərin böyük bir coğrafi obyektlərə adlarının verilməsi təbiidir, həm də mümkündür.

Azərbaycan toponimiyasında əks olunan Zəngi, Zəngilər, Zəngilan, eləcə də Cənubi Azərbaycanda mövcud olan Zəngimar, Zəncan toponimlərinin də kökündə Zəngi etnikmənşəli onomastik vahid dayanır [8, s.524]. Fikrimizcə, Zəncan toponimində *c>g* əvəzlənməsi və çoxluq bildirən ***–an*** şəkilçisinin təsiri ilə ***i*** səsi düşmüş Zəng(i)an və Zəncan (Zəngilər) formasında işlənmişdir.

Zəngəzur ərazisində toplu yaşayan Azərbaycan türkləri zaman-zaman erməni terroru nəticəsində deportasiyalara və soyqırımlara məruz qalmış, yurd-yuvalarından perikdirmişlər. Ərazinin coğrafi adlarını da ermənilər uydurma erməni adları iə əvəz etmişlər. Bu da coğrafi adların soyqırımıdır.

Azərbaycan Respublikasında informasiya vasitələrində və dərsliklərdə, radio və televiziya verilişlərində aktiv işlənmədiyi üçün Zəngəzur toponimi az qala unudulmuşdur. Daha doğrusu, bu tarixi toponimin informativliyi azalmışdır. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Şərqi Zəngəzur iqtisadi zonasının yaradılması həm də Zəngəzur – Naxçıvan dəmiryolu xəttinin və avtomobil yolunun bərpa olunması – Zəngəzur dəhlizinin açılması bu tarixi toponimin işləkliyini artıracaqdır.

Zəngəzurun bir hissəsinin ermənilərə verilməsi qərəzli şəkildə Naxçıvanla Azərbaycanın digər ərazilərinin, eləcə də türk respublikaları ilə Türkiyənin loqistik əlaqəsini kəsmək məqsədi güdmüşdür.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Ensiklopediyası.Bakı: 2007,882 səh.
2. Агаджанов С.Г. Очерки истории о огуза-туркмен Средней Азии IX-XIII вв. Ашхабад: ЫЛЫМ, 1969, 295 ст.
3. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti-1136-1225. Bakı: Elm, 1985, 267 səh.
4. Ermənistanın fiziki coğrafiyası VIII sinif üçün dərslik, İrəvan: Maarif, 1960, 97 səh.
5. Faruq Sümər. Oğuzlar. Bakı: 1992, səh. (Tərcümə edən. Ramiz Əsgər)
6. İsayev D. Jer-su attarının sırı. Frunze: 1977, Mekteb. 151 səh. (qırğızca)
7. Мурзаев Е.М. Словарь народных географических терминов. Москва: Мысль, 1985, 653 ст
8. Rəcəb Albayraq. Türklərin İranı. 2 cilddə, I cild, Bakı: Mütərcim, 2017, 625 səh. (Türkcədən tərcümə edən: prof. Ramiz Əsgər)
9. Türkmən dilinin izahlı lüğəti Aşqabad: ЫЛЫМ, 1962, 910 səh.(türkməncə)

SUMMARY

SOME NOTES ABOUT ZANGAZUR TOPONYM

Tagiyeva R.I.

The article provides information about the history and geography of Zangazur district, which is a historical territory of Azerbaijan. Then a linguistic-etymological analysis of the Zangazur toponym, which is widely used in the macro-region, is carried out. The origin of the toponym Zangazur on behalf of a person of ethnic origin is presented on the basis of facts, comparisons are made based on historical arguments. The geographical term "zur" in the second part of the toponym Zangazur (Zange + zur), which consists of two parts, explains that it is used in the form of toponyms, jor // yor // yar // djor // zar in the sense of valley in the territories inhabited by Turkic peoples. Thus, he notes that the toponym Zangazur was formed in the sense of Zangi gorge.

Keywords*: Garagol, Kapicig, Lachin, Migri, Ermaz*

РЕЗЮМЕ

НЕКОТОРЫЕ ЗАМЕЧАНИЯ О ТОПОНИМЕ ЗАНГАЗУР

Тагиева Р.И.

В статье представлены сведения об истории и географии Зангезурского района, который является исторической территорией Азербайджана. Затем проводится лингво-этимологический анализ широко используемого в макрорегионе топонима Зангезур. Происхождение топонима Зангезур от имени лица этнического происхождения представлено на основе фактов, сопоставления сделаны на основе исторических аргументов. Географический термин «зур» во второй части топонима Зангезур (Занга + зур), состоящей из двух частей, объясняет, что он употребляется в форме топонимов жор // ёр // яр // джор // зар в смысле долины на территориях, населенных тюркскими народами. Так, он отмечает, что топоним Зангезур образовался в значении ущелье Занги.

Ключевые слова: *Гарагол, Капичиг, Лачин, Мигри, Армаз*

ŞUŞA: AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI, QARABAĞIN İNCİSİ

Vəliyeva D.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Vdurdana@mail.ru

Açar sözlər: *Şuşa, mədəniyyət paytaxtı, Qarabağın incisi, Xarı Bülbül, musiqi, xalçaçılıq*

Tarixən Şuşa Azərbaycanın mühüm siyasi, tarixi və mədəni mərkəzi olmuşdur. Şuşa şəhərinin əsası XVIII əsrdə Qarabağ xanı hakimiyyəti dövründə Pənahəli xan tərəfindən qoyulmuşdur. Şəhər o dövrün mədəni və təhlükəsizlik tələblərinə uyğun olaraq keçilməz bir yaylada "əbədi və keçilməz qala" kimi salınmışdır.

Şəhərin tikintisinə 1752-ci ildə Qarabağda dəniz səviyyəsindən təxminən 1600 metr yüksəklikdə başlanılmışdır. 1756-1757-ci illərdə xanlığın paytaxtı şəhərə köçürülmüşdür [3,45]. Bu dövrdən bölgədə ictimai tərəqqi dövrü başlamışdır.

O vaxtdan bəri Şuşanın yerli əhalisi şəhəri regionun əsas inzibati, iqtisadi və mədəni məkanı kimi qiymətləndirirdi. Bu şəhər Azərbaycanda xalçaçılıq sənayesinin inkişafında mühüm rol oynamışdır. Belə ki, Şuşa XIX əsrin ikinci yarısında Qarabağ bölgəsində xalçaçılıq mərkəzi olmuşdur.

Şuşada istehsal olunan xalçalar XIX əsrin sonlarında beynəlxalq bazarlara çıxarılmağa başlamışdır. Belə ki, Şuşa xalçalarının dekorativ toxunuşu, ornamental və süjet qrupları yerli xalçaçılığın əsas istiqamətini müəyyən edirdi. Burada toxunan xalçalar 1867-ci ildə Parisdə keçirilən Beynəlxalq sərgidə və bundan başqa bir çox sərgilərdə mükafatlara layiq görülmüşdür [1,167].

XIX əsrin sonlarında artıq Şuşa bütün nəinki Bakı, Gəncə, Naxçıvan və Qafqaz regionunda regionda hətta regiondan kənarda Osmanlı İmperiyası, İran, Rusiya, Hindistan və Avropa ölkələri ilə ticarət əlaqələri quran məşhur ticarət mərkəzinə çevrilmişdir. Şuşalı tacirlər Almaniyanın Leypsiq və Rusiyanın Nijni Novqorod şəhərlərində keçirilən məşhur yarmarkaların daimi iştirakçıları olublar.

Azərbaycanın bir çox böyük mədəniyyət üzvləri, ziyalılar, alimlər bu gözəl şəhərdə doğulmuşdur. Şuşa tarixi əhəmiyyəti ilə yanaşı şəhər həm də XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib [2,89]. Şuşa "Azərbaycan musiqisinin beşiyi", "Qafqazın sənət məbədi", "Cənubi Qafqazın konservatoriyası" hətta "Kiçik Paris" kimi tanınmışdır. Musiqi baxımından Avstriya üçün Vyana, İtaliya üçün Neapol necədirsə, Şuşa da Azərbaycan üçün odur. Azərbaycan klassik musiqisinin və operasının banisi bəstəkar Üzeyir Hacıbəyli, dünya şöhrətli şair Molla Pənah Vaqif, Xurşudbanu Natəvan bu şəhərdə anadan olublar. Həmiçinin Bülbül, Xan Şuşiniski, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Həmidə xanım Çavanşir, Əhməd bəy Ağaoğlu kimi məşhur ziyalılar, sənətçilər də əslən Şuşalıdırlar. Şuşa teatrının tarixi də XIX əsrin axırlarından başlayıb.

Şuşa şəhəri təbiəti və saf havasına görə və müalicə əhəmiyyəti baxımından Sovet illərində kurort şəhəri hesab olunub. Şəhərdə çoxlu sayda kilsə və məscidlər, karvansaralar, muzeylər vardır. Şəhərdə Sovet dövründə tar, kamança, ud, nağara və digər musiqi alətləri istehsal edən yeganə Şərq Milli musiqi alətləri fabriki fəaliyət göstərib.

1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Ermənistan Azərbaycana qarşı 1994-cü ildə atəşkəs əldə olunana qədər davam edən hərbi kampaniyaya başladı. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini, o cümlədən Şuşa da daxil olmaqla Dağlıq Qarabağ bölgəsini və ona bitişik yeddi rayonunu işğal etmişdir. Ermənistanın amansız etnik təmizləmə siyasəti nəticəsində 30 mindən çox etnik azərbaycanlı qətlə yetirilib, bir milyon insan öz torpaqlarından didərgin salınmışdır.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən 44 günlük müharibə zamanı Azərbaycan ordusu 2020-ci il noyabrın 8-də Şuşa şəhəri üzərində üç rəngli bayrağımızı dalğalandıraraq, ölkəmizin bütövlüyünü bərpa etdilər. Azərbaycan Silahlı Qüvvələri Cəbrayıl, Füzuli, Zəngilan Qubadlı və Şuşa şəhərləri də daxil olmaqla 300-dən çox yaşayış məntəqəsini 30 ilə yaxındır ki, qanunsuz erməni işğalından azad etmişdirlər. 2020-ci il noyabrın 10-da atəşkəsin elan olunmasında, Ermənistan silahlı qüvvələrinin geri çəkilməsində və hərbi əməliyyatların dayandırılmasında Şuşanın azad edilməsi mühüm rol oynamışdır. Ermənistan öz üzərinə götürdüyü öhdəliklər çərçivəsində işğal etdiyi Ağdam, Kəlbəcər və Laçın rayonlarını da Azərbaycana qaytarıb atəşkəs razılaşmasına getdi.

Şəhər 1992-ci ilin may ayından Ermənistanın nəzarəti altında qalıb və erməni silahlı qüvvələri bu şəhərin tarixini və mədəni irsini qəsdən məhv etməyə cəhd etmişdirlər. Şuşa 1992-ci ildə coğrafi mövqeyinə, mədəniyyətinə, tarixinə və strateji əhəmiyyətinə görə Ermənistan tərəfindən xüsusi olaraq hədəfə alınmışdır. 2020-ci il noyabrın 8-də Azərbaycan Silahlı Qüvvələri Şuşa şəhərini Ermənistanın işğalından azad edərək onun suverenliyini bərpa etmişdir.

2022-ci ildə Azərbaycan xalqı əsası Azərbaycan Qarabağ xanlığının Pənahəli xanı tərəfindən 1752-ci ildə qoyulmuş Şuşanın 270 illik yubileyini qeyd edəcək. Bu şərəfli tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə Prezident İlham Əliyev 2022-ci ili Azərbaycanda "Şuşa ili" kimi qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il yanvarın 5-də Qarabağın mirvarisi olan Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında sərəncam imzalayıb [5]. Şəhərin yeni statusu onun 2020-

ci il noyabrın 8-də Ermənistanın onilliklər boyu davam edən qanunsuz işğalından azad edilməsindən aylar sonra verilmişdir.

Şuşa şəhərinin tarixi görkəmini bərpa etmək, ona əvvəlki şöhrətini gətirmək və ənənəvi zəngin mədəni həyata qovuşdurmaq, habelə Azərbaycanın çoxəsrlik zəngin mədəniyyəti, memarlığı, şəhərsalma incisi kimi beynəlxalq aləmdə təbliğ etmək məqsədilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir.

"Xarı Bülbül" musiqi festivalı 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmazdan əvvəl Şuşada hər il keçirilirdi. Genişmiqyaslı tədbir adını yalnız Şuşada bitən Xarı Bülbül gülündən almışdır. Bu çiçəyin bülbülə bənzədiyi üçün özünəməxsus xarici görkəmi var.

"Xari" sözünün mənası "tikanlı" deməkdir. Çiçəyin iki ləçəyi qanadlara, digəri isə quş başına bənzəyir. Bir çox əfsanələr, şeirlər və mahnılar bu gözəl çiçəklə əlaqələndirilir.

Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya və digər ölkələrdən musiqiçiləri bir araya gətirən festival ilk dəfə 1989-cu ildə keçirilib. Dünyada Şuşanın, Cıdır düzünün analoqu olmadığı kimi, "Xarıbülbül" kimi musiqi festivalı da yoxdur.

12-13 may 2021-ci il tarixlərində "Xarıbülbül" musiqi festivalı 32 ildən sonra Şuşanın əsrarəngiz Cıdır düzündə təşkil edilidi [4]. Bu o deməkdir ki, şəhər həm mənəvi, həm maddi baxımından dirçəldilir.

Azərbaycan prezidenti şəhərin müharibədən sonrakı inkişafı ilə şəxsən maraqlanır. O, daha çox vaxt itirmədən dərhal bərpa olunmaq üçün mənzil fondunun və tarixi yerlərin yoxlanılmasına təşəbbüs göstərdi. Erməni işğalçıları 60 məscidi dağıdıb və onlardan heyvanlar üçün tövlə kimi istifadə edərək divarlarına təhqiramiz yazılar yazmışdır.

Azərbaycan prezidenti regionda yaşayan mülki Ermənistan vətəndaşlarına ümumi amnistiya elan edilməsini təklif edərək, onların azərbaycanlı olduqlarını və Azərbaycanın onların təhlükəsizliyinə və hüquqlarına zəmanət verdiyi üçün Qarabağ bölgəsində sülh şəraitində yaşamaqda davam etdiklərini bildirib. Azərbaycanın hazırkı hökuməti beləcə əsas hüquqlara hörmət edir və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş dəyərləri qorumağa sadiqdir.

Ölkə azərbaycanlıların mədəni və tarixi mərkəzini yenidən qurur. Bu gözəl təpəli və yaşıl rayonun sakinləri normal və dinc həyata qayıdarkən, Azərbaycan hökuməti abidələri, tikililəri və digər mədəniyyət obyektlərini bərpa edir, yenidən tikir.

Bu şəhər Azərbaycan üçün təkcə tarixi deyil, həm də strateji əhəmiyyətə malikdir. Otuz ilə yaxın Şuşa ərazisi Ermənistanın nəzarəti altında olmasına baxmayaraq, lakin indi müstəqillik əldə etdikdən sonra Azərbaycan şəhərin şöhrətini bərpa etmək əzmindədir.

Azərbaycan səkkiz aydan az müddətdə Füzuli hava limanını tikdi və bu, ölkə üçün infrastruktur möcüzəsinə çevrildi. Şəhər öz ilkin tanınmasını Şuşanı mədəniyyət paytaxtına çevirməklə qələbəsinin birinci ildönümündə alır. Bu şəhər özünün mədəni zənginliyi və tarixi tanınmasını nəzərə alaraq dövlət başçısı tərəfindən böyük diqqət görür. Şuşa Qarabağın incisidir, Azərbaycanın qəlbidir.

ƏDƏBİYYAT

1. Chingiz Qajar. Old Shusha Baku, "Şərq-Qərb", 2014,344 pages
2. Flora XƏLİLZADƏ, «Ruhumuzun ünvanı Şuşa», publisistika, Bakı, "Zərdabi LTD", MMC, 368 səh.
3. Zahid Abbasov ŞUŞA AZƏRBAYCANIN MƏDƏNİYYƏT VƏ TARİX İNCİSİDİR "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, Bakı, 2010, səh.96
4. https://az.wikipedia.org/wiki/Xar%C4%B1b%C3%BClb%C3%BCl_Musiqi_Festival%C4%B1_(2021)
5. https://president.az/az/articles/view/55197

SUMMARY

SHUSHA: THE CULTURAL CAPITAL OF AZERBAIJAN, THE PEARL OF KARABAKH

Veliyeva D. M.

Shusha has historically been one of the important centers of historical, cultural, socio-political life of Azerbaijan. The city of Shusha is known as a "symbol" of Azerbaijani history and culture. Many prominent Azerbaijani musicians and scientists were born in this city. He was massacred by Armenia on May 8, 1992 and illegally captured. On November 8, 2020, Shusha, the "pearl of Karabakh", was liberated. Shusha has been declared the cultural capital of Azerbaijan in order to restore its historical appearance, bring it to its former glory and bring it to the rich cultural life.

Keywords: *Shusha, the capital of culture, the pearl of Karabakh, the Nightingale, music, carpet weaving*

РЕЗЮМЕ

ШУША: КУЛЬТУРНАЯ СТОЛИЦА АЗЕРБАЙДЖАНА, ЖЕМЧУЖИНА КАРАБАХА

Велиева Д.М.

Шуша исторически была одним из важных центров исторической, культурной, общественно-политической жизни Азербайджана. Город Шуша известен как «символ» азербайджанской истории и культуры. В этом городе родились многие выдающиеся азербайджанские музыканты и ученые. Он был убит Арменией 8 мая 1992 года и незаконно взят в плен. 8 ноября 2020 года была освобождена Шуша, «жемчужина Карабаха». Шуша была объявлена культурной столицей Азербайджана с целью восстановления ее исторического облика, придания ей былого величия и приобщения к богатой культурной жизни.

Ключевые слова: *Шуша, культурная столица, жемчужина Карабаха, Соловей, музыка, ковроткачество*

İLYAS ƏFƏNDİYEVİN YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

Zeynallı G.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
gunel185@gmail.com

Açar sözlər: *yazıçı, roman, dramaturgiya, Qarabağ, tarixilik, millilik*

XX əsrin klassiki, xalq yazıçısı İlyas Əfəndiyev milli dəyərlərə, adət-ənənələrə, milli xüsusiyyətlərə əvvəldən axıradək sadiq qalmış və bunun gələcək nəsillərə çatdırılması üçün əlindən gələni əsirgəməmişdir. Qarabağ mövzusu ədibin yaradıcılığının əsas leytmotivini təşkil edir desək, yanılmarıq. Yazıçı ədəbiyyata gəldiyi ilk gündən qələmə aldığı bədii nəsr nümunələrinin və dram əsərlərinin çoxunu Qarabağ mövzusuna həsr edib və ömrünün sonuna qədər də bu mövqeyinə sadiq qalıb. Dramaturqun "Mahnı dağlarda qaldı", "Xurşudbanu Natəvan", "Hökmdar və qızı" pyesləri Qarabağın tarixinin müxtəlif dövrlərindən bəhs etdiyi üçün görkəmli tənqidçi Yaşar Qarayev onun yaradıcılığını səkkizinci "Qarabağnamə" kimi dəyərləndirirdi. Onun əsərləri azərbaycançılığın, ilk növbədə, məhz ədəbi, milli-mənəvi dəyərlər, yüksək bəşəri ideallar müstəvisində təqdimindən və təbliğindən ibarətdir. Dramaturqun "Mahnı dağlarda qaldı" pyesində Qarabağın timsalında Azərbaycan xalqının milli azadlıq uğrundakı mübarizəsi əks olunmuşdur. Müəllif yenicə boy atan, yetişən, qəlbinin hər ritmi vətən sevdası ilə döyünən gənc nəslin yeni nümayəndələrinin vətənin bütövlüyü, rifahı uğrundakı mücadiləsini parlaq boyalarla qələmə almışdır: "Axı bizim babalarımız bu torpağın hər bir qarışını öz canları ilə qoruyublar. Nə üçün indi çar köpəklərinin gəlib ona sahib olmalarına, bizim ana-bacılarımızı əsir-yesir etmələrinə razı olursunuz?" [1, s.374].

İlyas Əfəndiyevin xalqımızın birliyi və taleyi məsələsini əks etdirən ən samballı əsərlərdən biri də İbrahim xanın nəvəsi, general Mehdiqulu xanın qızı Xurşudbanu Natəvanın həyatına və ictimai-siyasi fəaliyyətinə həsr olunmuş "Xurşudbanu Natəvan" pyesidir. Müəllif ilk dəfə olaraq qadın obrazını tarixi dramın aparıcı baş qəhrəmanı kimi önə çəkmişdir. Natəvan ürəyi vətən eşqi ilə çırpınan bir qadın, təmiz, ülvi, nəcib duyğuların zərif nəğməkarı olan bir şairədir. Xalqın taleyi onu düşündürən başlıca məsələdir. Natəvan öz dininə, dilinə, elinə-obasına bağlı olan vətənpərvər bir obrazdır: "Öz dilinə, öz milli varlığına sahib sənətkar bütün millətlər üçün əzizdir. Dil bizim milli varlığımızdır. Ağalar, nə qədər ki, Azərbaycan xalqı yaşayır, Azərbaycan dili də yaşayacaq" [1, s.456]. Yazıçı xalqının gələcəyi ilə bağlı narahatlığının və həyəcanını Natəvan obrazının simasında ümumiləşdirib. Xan qızı Natəvanın şəxsi taleyi sanki Qarabağın taleyi ilə paralelləşdirilib. Natəvan Şimali və Cənubi Azərbaycanın bir-birindən ayrı düşməsi dərdi ilə yaşayır. Fitnə-fəsad, min cür hiylə və bəhanələrlə ikiyə parçalanmış Azərbaycanı bütov görmək istəyir: "Tarix bir-iki nəslin ömründən ibarət deyil. O böyük azadlığı biz görməsək də, damarlarında bizim qanımız axan gələcək nəsillər görəcək" [1, s.474]. Natəvan qırılmaz tellərlə öz xalqına bağlıdır. O, bütün həyatını xalqının rifahına, sadə zəhmət adamlarını vəziyyətinin yüngülləşdirilməsinə, millətinin övladlarının maarifləndirilməsinə həsr edir. Natəvan altruist obrazdır. O, öz şəxsi hisslərini arxa planda buraxaraq, xalqının ehtiyaclarını, mənafeyini ön plana keçirir. Knyaz Xasay: "İndiyə qədər Qarabağda yaşamışıq, qoy bundan sonrakı ömrümüz də Dağıstanda keçsin" – dedikdə Xan qızının: "Yox, Xasay! Öl desən, ölərəm, amma bu faciəli vətənimi atıb getmərəm" [1, s.467] – deməsi buna bariz nümunədir.

Pyesin ən diqqətçəkən hissələrindən biri Natəvanın Qafqaz canişini ilə görüş səhnəsidir. Xan qızı varisi-yekta olaraq bütün mülklərinin geri qaytarılmasını tələb edir. Canişin bu qədər mal-mülkün tək bir qızın nəyinə gərək olduğunu soruşduqda Natəvanın verdiyi cavab onun nə dərəcədə vətənpərvər bir vətəndaş olduğunu bir daha sübut edir: "Mən tək deyiləm, knyaz həzrətləri! Mənim yaşadığım Şuşa şəhərinin əhalisi hələ də şor su içir. Kəndlilərimizin uşaqları məktəbsiz, elmsiz, kitabsız böyüyürlər" [1, s.438]. Natəvan üçün bölünmüş Azərbaycan yoxdur, vahid Azərbaycan var. Məmləkətimizin ağrılı-acılı bir dönəmində yaşayıb yaratsa da və şahid olduqları bir təəsübkeş vətəndaş olaraq onun ruhunda təlatümlər yaratsa da, vətəninin bir gün yadellilərdən azad olacağı ümidi onu tərk etmir: "Bu uçurumlu yolların sonunda bizi öz milli birliyini və azadlığını tapmış azad Azərbaycan gözləyir!" [1, s.506].

"Torpaq bizə əmanətdir, onu gözümüz kimi qorumalıyıq" deyən yazıçı öz əsərləri ilə bütün varlığı ilə bağlı olduğunu xalqını vətənpərvərliyə, mübarizəyə səsləyir. Bu aspektdə yazılan digər bir əsər müəllifin sonuncu dram əsəri olan "Hökmdar və qızı" pyesidir. Əsər İbrahim xanın həyatına, ictimai, diplomatik fəaliyyətinə həsr olunub. Hadisələr xanlıqlar dönəmini əhatə edir. Rusiya ilə İran arasında Azərbaycana sahib çıxma uğrunda amansız müharibə gedir və bu müharibə Rusiyanın xeyrinə yekunlaşır. İbrahim xan nə qədər cəhd göstərsə də, düşmənə qarşı bir olmaq üçün xanlıqları bir araya gətirə bilmir, milli bütövlük naminə mübarizə reallaşmır: "Mənim həmişə ən yüksək amalım bu xanlıqları birləşdirib Azərbaycan türklərinin yenilməz, qüdrətli dövlətini yaratmaq olmuşdur. Mən böyük Şah İsmayılın əkdiyi toxumları göyərtmək istəyirəm" [3, s.585].

Hər bir insanın vətəni uşaqlığıdır deyiminin həqiqətinə görə, insan uşaqlığı keçən, beşiyi yellənən yerləri heç vaxt unuda bilmir. İ.Əfəndiyevin uşaqlığı isə acılı-şirinli xatirələrlə daima onun içində idi, hekayələrə, dramlara, romanlara köçürülürdü, ucu-bucağı görünmürdü. O əsərləri oxuyarkən biz də ədiblə birlikdə onun uşaqlıq illərinə səfər edirik, vaxtilə onun gəzib dolaşdığı Ağdam bağlarının, İsa bulağının, Topxana meşəsinin, Ağa körpüsünün çiçəklərinin ətrini duyuruq, sanki Xarı Bülbülün həzin avazı qulaqlarımızdadır, Cıdır düzünün kəklikotusunun qoxusu burnumuzdadır, Üçmıxın gözəlliyi gözlərimizin önündədir. "Ədibin əsərlərindən alınan təəssürata görə, Qarabağ canlı bir varlıqdır; onun düşünən beyni Füzuli, vuran əli Ağdam, döyünən ürəyi Şuşadır " [5, s.170].

İlyas Əfəndiyevin "Dağlar arxasında üç dost" romanında da millilik xüsusiyyətlərinə, adət-ənənələrə xüsusi həssaslıqla yanaşılmışdır. Əzəli və əbədi yurdumuz olan Qarabağ torpaqlarımızın ən nadir incisi, qəhrəmanlıq rəmzi olan Qarabağ atları və onların igidliyi, cəsurluğunu böyük ədib belə təsvir edir: "Hələ yüz illər bundan əvvəl Paris cıdırlarında ad almış Qarabağ atlarında izzəti-nəfs heyrətli dərəcədə güclüdür. Onlar çatlayıb ölər, amma yorulub yolda qalmazlar. Onlarda həqiqi igidlərə məxsusbir qürur və nəciblik vardır. Bu atlar həm gözəl, həm də cəsurdurlar. Onlar yəhəri qanla dolmuş çox igidləri düşmən əlindən qaçıraraq öz yurduna yetirmişlər" [4, s.12].

Humanizm, vətəndaşlıq qayəsi, yüksək bəşəri ideyalar İlyas Əfəndiyev yaradıcılığının ana xəttini təşkil edir. Hansı səmtdən, hansı prizmadan baxırsaq baxaq, Qarabağ mövzusu, Qarabağ sevdası onun yaradıcılığının hər zərrəsindən keçərək onu yaşadır. Müəllifin "Geriyə baxma, qoca" romanında Qarabağ əhalisinin həyatı, məişəti, etnoqrafik cizgiləri, maddi və mənəvi dirçəliş naminə insanların mücadiləsi və bu yolda çəkdiyi iztirablar böyük ustalıqla əks olunub. Hadisələr XX əsrin əvvəllərində Qarabağda cərəyan edir. Romanda milli ruha, milli düşüncəyə malik bir şəxsiyyət olan Bayram kişi bu milləti iki yerə parçalayan baiskarları lənətləyir, el-obaları əmin-amanlıq içində yaşamağa səsləyir: "Əl çəkin bu işlərdən! Arazın o tayındakılarına İran şahı divan tutur, bu tayında da siz çarın əlindən dünən qurtarmısınız. Didməyin bir-birinizi!" [2, s.137].

"Mənim Azərbaycanın gələcəyinə ümidlərim böyükdür. Çünki Azərbaycan xalqının vətəninə, torpağına bağlılığı, sevgisi əbədidir" deyən xalq yazıçısının Azərbaycanın gələcəyinə ümidləri sonsuz idi və mən əminəm ki, düşmən pəncəsi altında inləyən torpaqlarımız artıq azad nəfəs aldığı və işıqlı sabahlara doğru yelkən açdığı üçün İlyas Əfəndiyevin ruhu şaddır. Sevimli yazıçımızın qələm məhsulu olan bütün əsərləri gələcək nəsillərə vətənə, xalqa, milli-mənəvi dəyərlərə, əxlaqi köklərə bağlılıq və sadiqlik aşılayır. Görkəmli sənətkarın milli azadlıq ideyalarını durmadan təbliğ və tərənnüm edən əsərləri isə ədəbiyyat tariximizin şanlı səhifəsidir.

ƏDƏBİYYAT

1. Əfəndiyev, İ. Seçilmiş əsərləri. 4 cilddə, c.1. Bakı: Təhsil, 2014. —704 s.
2. Əfəndiyev İ. Seçilmiş əsərləri. 6 cilddə, c.5. Bakı: Yazıçı, 1985. — 343 s.
3. Əfəndiyev İ. Seçilmiş əsərləri. 7 cilddə, c.3. Bakı: Çinar-Çap Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002. — 624 s.
4. Əfəndiyev İ. Seçilmiş əsərləri. 7 cilddə. c.5. Bakı: Çinar-Çap Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2002. — 616 s.

5. İsrafilov, İ. Gələcəyin adamı. Bakı: Aspoliqraf, 2014. — 272 s.

SUMMARY

THE THEME OF KARABAKH IN THE WORKS OF ILYAS EFENDIYEV

Zeynallı G.F.

Patriotism arises when a citizen treats his people and homeland. There is no "beautiful life" for a true citizen, isolated from the happiness of his homeland and people. Prominent writer and playwright Ilyas Efendiyev is one of such personalities. The chronicle of courage, humanism, high human ideas, heroism and patriotism of our history is reflected in the works of the writer, whose main line is the Karabakh theme. From this point of view, the author's plays "Song remained in the mountains", "Khurshudbanu Natavan", "The king and his daughter", "Three friends behind the mountains", "Don't look back, old man" are of special interest.

Keywords: *writer, novel, drama, Karabakh, historical, nationality*

РЕЗЮМЕ

ТЕМА КАРАБАХА В ТВОРЧЕСТВЕ ИЛЬЯСА ЭФЕНДИЕВА

Зейналлы Г. Ф.

Патриотизм возникает тогда, когда гражданин относится к своему народу и Родине. Нет «красивой жизни» для настоящего гражданина, оторванного от счастья своей родины и народа. Одной из таких личностей является выдающийся писатель и драматург Ильяс Эфендиев. Все произведения нашего любимого писателя прививают будущим поколениям приверженность и преданность Родине, народу, национальным и духовным ценностям, нравственным корням. Летопись мужества, героизма и патриотизма нашей истории отражена в произведениях писателя, главной линией которого является карабахская тема. С этой точки зрения особенно ценны авторские пьесы «Песня осталась в горах», «Хуршудбану Натаван», «Король и его дочь», «Три друга за горами», «Не оглядывайся, старик».

Ключевые слова*: писатель, роман, драма, Карабах, исторический, национальность*

ШУША – КУЛЬТУРНАЯ СТОЛИЦА АЗЕРБАЙДЖАНА

Вагабова Э.Р.
Института истории, им. А.А. Бакиханова НАНА , Баку, Азербайджан
esmira.vahabova@mail.ru

Ключевые Слова**:** *культурное наследие, театр, спектакль, мечеть, изобразительное искусство, литературно-музыкальные меджлисы, ханенде, азербайджанский мугам, фестиваль «Хары-бюльбюль»*

Город Шуша или Панахабад формировался как типичный азербайджанский город. Этнический и историко-архитектурный облик города Шуша-Панахабад составляли караван-сараи, 17 мечетей, бани, крепости, ханский дворец [11]. Стремительно развиваться город Шуша стал со второй половины 18 – начала19 вв., превратившись в важный торговый и культурный центр Азербайджана.

В 1848 году на страницах газеты «Кавказ» мы встречаем первое упоминание о существовании театра в Шуше, когда уездным начальником был князь К.Д. Тархан-Моуравов, «Прекрасные декорации, со вкусом отделанные ложи, роли, отчетливо исполняемые благородными любителями драматического искусства, очень привлекают зрителей» [9]. Но в заметке не указывается, какой спектакль был поставлен, на каком языке и по произведению какого автора. С целью показа театральных спектаклей и проведения литературных меджлисов, интеллигенцией Шуши в 1854г. были организованы клубы для показа спектаклей. В 1891 г. в Шуше было построено специальное здание для театра – театр Хандамирова, что украсило облик города новым архитектурным сооружением и вызвало у населения интерес к театру. В 1896 году здесь впервые была поставлена трагедия «Отелло» У. Шекспира [13, с. 277].

Определенную роль в создании местных театров играли выпускники азербайджанского отделения Горийской семинарии. Понимая огромное воспитательное значение театра на народные массы, представители азербайджанской интеллигенции начали создавать театральные труппы, организовывать спектакли во многих городах Северного Азербайджан, включая Шушу. Так, по инициативе студента восточного отделения Петербургского университета А.Ахвердиева, любителями театра в Шуше впервые в 1897 г. была показана инсценировка из поэмы Физули «Лейли и Меджнун», доходы от которого шли в пользу нуждающихся студентов, обучающихся в Москве, Петербурге и других городах России. В нем приняли участие воспитанники музыкального меджлиса Харрата Гулу – ханенде Гаджи Хюсю и Кешгазлы Гашим, на таре играл Садых Асад оглу (Садыхджан). Газета «Каспий» писала, что «это была первая попытка выхода азербайджанских профессиональных музыкантов на театральную сцену и имела огромный успех» [10]. А в 1902 г. инсценировку из поэмы Низами «Хосров и Ширин» с участием Дж. Гарьягды оглу [10]. Вечер устроен был в пользу нуждающихся студентов, обучающихся в Москве, Петербурге и других российских городах.

Своеобразная архитектурная школа сформировалась в Гарабахе, ярким представителем которой является Кербалаи Сэфи-хан Гарабаги (1788-1910), выходец из небольшого городка Ахара близ Тебриза. Большое значение Кербалаи придавал изучению архитектурных конструкций – построению арок, куполов, сводов, характерных для восточного зодчества [8, с. 16-17]. На основе знания местных традиций и архитектурных приемов им были построены мечети, как в самом Гарабахе - в Барде (1860 г.), Агдаме (1868-1870 гг.), в Шуше – Ашагы-мечеть (1874-75 гг.) и Говхар-аги, в Физули (1889 г.), в селении Горадиз, так и в Ашхабаде (1880-е гг.), в Одессе (1870 г.). К слову отметим, что в результате оккупации азербайджанских земель в Карабахе из 67 мечетей 64 были разрушены, повреждены, осквернены армянскими граффити и использовались для содержания в них свиней и коров, о чем сообщалось в СМИ, в ежедневных сводках.

Свой вклад в развитие изобразительного искусства внес Мир Мохсун Навваб (1829-1918), получивший начальное образование в школе при мечети в азербайджанском городе Шуше. Для своего времени М.М. Навваб был всесторонне образованным и разносторонне одаренным человеком - и каллиграфом, и художником-орнаменталистом, и музыкантом, и поэтом [20]. Свои работы М.М. Навваб не только подписывал, но и датировал. Дошедшие до нас картины: «Шабех» (1873 г.), «Портрет эмира Тимура», (1902 г.) хранятся в Национальном Музее искусств Азербайджана им. Р. Мустафаева в Баку. Известны его несколько натюрмортов и пейзажей из знаменитой «Цветочной тетради» Хуршудбану Натаван, написанные под впечатлением стихов поэтессы и свидетельствовавшие о возникновении пейзажа в азербайджанской живописи XIX века. В настоящее время хранятся в Институте рукописей им. М. Физули НАН Азербайджана, в восточном фонде Азербайджанской Национальной библиотеки им. М.Ф. Ахундова и до оккупации азербайджанских земель в Карабахе - в Доме-музее Навваба в Шуше (где сейчас – неизвестно! - Э.В.).

К числу известных азербайджанских художников-орнаменталистов принадлежит и уста Гамбар Карабаги (1830-е -1905 гг.), в творчестве которого отразились национальные традиции стенной росписи. Он автор ярких декоративных росписей яичной темперой (растительные и зооморфные мотивы) в интерьере Дворца Шекинских ханов, в домах Рустамова и Мехмандарова (панно с изображением оленей и гранатового дерева) в Шуше и др., отразив национальные традиции стенной росписи.

В плеяду известных азербайджанских художников входит и азербайджанская поэтесса Хуршудбану Натаван (1832-1897 гг.). В ее альбоме – рукописи стихов с более 30 рисунками. Это иллюстрации к ее стихам – «Соловьи на розах», «Мотылек и свеча», а также исполненные ею пейзажи «Вид города», «Морской пейзаж». Побывавший в 1858 году в Азербайджане А. Дюма познакомился с Натаван и высоко оценил ее работы. В художественно оформленном в 1886 году самой Натаван альбоме [2] кроме стихов поэтов Азербайджана на азербайджанском языке оставлены были автографы поэтессы, написанные каллиграфическом почерком (она занималась художественной вышивкой, каллиграфией). В зависимости от тематики стиха в альбоме были рисунки цветов, птиц, животных, пейзажа.

Азербайджанский исследователь А. Джафарзаде в своей статье «Хуршид Бану – поэтесса и художница Азербайджана XIX века» указывает на то, что якобы «до установления советской власти в Азербайджане женщины полностью были лишены гражданских прав - они не имели возможности учиться и работать, находились в полной зависимости от мужа» и поэтому они изливали свое горе в своих стихах и напевах [21, с.43]. С таким высказыванием, которое идет вразрез с историческими фактами, конечно, согласиться нельзя. В рассматриваемый период в Северном Азербайджане девочки получали образование в мектебах, в частных женских школах на дому, участвовали в литературно-музыкальных меджлисах, чему свидетельствуют архивные материалы и периодическая печать изучаемого времени. А те из них, кто обладал поэтическим даром, излагали свои эмоции, ощущения в стихах, песнях и т.п.

В общественной и культурной жизни городов Северного Азербайджана широко распространены меджлисы разного рода. Слово «меджлис» переводится как собрание, место для собраний. Практика меджлисов берет свое начало в средние века и получает в XIX веке широкое распространение [1, с. 43-45]. В них принимали участие ученые, писатели, поэты, музыканты и певцы, исполнители и создатели мугама – певцы-ханенде, устраивались поэтические состязания, обсуждались новые произведения, происходил обмен мнениями [1, с.156]. Каждая из известных ашыгских школ (Газах-Гянджин-ская, Гёйчинская, Борчалинская, Таузская, Ширванская, Карабахская, Шамкирская, Лянкяранская и др.) заметно отличается друг от друга своим репертуаром, манерой исполнения напевов, диалектными особенностями местного говора, степенью владения инструментом (сазом), вокальной техникой и т.д. (23). Несмотря на отличительные характеристики местных стилей ашыгского искусства, их объединяли традиционные напевы, прошедшие испытание временем [23].

В 1827-28гг. в Шуше возник литературный кружок, возглавляемый поэтессой Ашыг-Пери, в котором принимали участие поэты Джафар Кули-Ага, Мирзаджан Мадатов [19, с. 89]. Большую роль в создании и развитии Карабахской школы ханенде, представителями которой были Гаджи Хюсю, Мешади Иси, Абдулбаги Зюлалов, Дели Исмаил, тарист Садыхджан и многие другие, сыграл музыкальный меджлис Харратагулу Мухаммед оглу [17, с. 208], где молодых людей обучали искусству мугама для траурного обряда в месяц «махеррам». Следует заметить, что торжества, связанные с религиозными обрядами, имели в жизни азербайджанских городов исключительное значение. И хотя данный меджлис был основан с религиозной целью, он сыграл значительную роль в развитии вокальной и исполнительской школы Северного Азербайджана. Из этой школы вышли выдающиеся ханенде – Гаджи Хюсю, Джаббар Гарьягды оглу (18), Мамед Кечачи оглу, тарист Садых Асад оглу (Садыхджан) [7, с.19]. После смерти Харратагулу, популярной стала школа Кёр Халифа, обучающего пению мугамов, игре на таре и кеманче.

Особый след в истории азербайджанской литературы и в культурной жизни Шуши оставили два известных литературно-музыкальных меджлиса. Это - «Меджлис-и унс» («Собрание друзей-единомышленников») и «Меджлис-и фарамушан» («Собрание забытых») [4, с.15]. «Меджлис-и унс» - один из крупных карабахских мугамных меджлисов был организован в 1864 г. в доме поэта Х.А. Агяха. Исследователь поэтических меджлисов Насреддин Гараев отмечал, что первый меджлис был организован в медресе шушинского ученого Мирзы Абудкасума в 1864 году [1, с.157; 5, с.148]. В течение 1872-1897 гг. меджлисом руководила поэтесса Хуршидбану Натаван (1832-1897 гг., где не только обменивались мнениями о развитии поэзии и искусства, но и стремились распространить литературное наследие среди широких масс. Здесь собирались талантливые литераторы, карабахские певцы-ханенде и музыканты [14, с. 101, 103]. Активными участниками меджлиса были поэты Мирза Рагим Фена (1841-1931), Мирза Алескер Новрес (1836-1912), Мирза Хасан Али Юзбашев (1824-1904), Мохаммед бек Мемаи (1842-1918 гг.) и многие другие [1, с.157; 5, с.153-154; 6, с.166].

Возникший в 1872 г. в Шуше «Меджлис-и фарамушан» («Собрание забытых») и руководимый Мир Мохсуном Наввабом (1833-1919) просуществовал до начала XX века (1910 г.) [1, с.177; 5, с.238; 6, с.198-264; 16, с. 4, 7-8, 16-17]. Как объясняют авторы книги «Азербайджанская литература», название меджлиса вызвано тем обстоятельством, что не входившие в литературный салон видные шушинские поэты – Абдуллабек Аси, Фатьма ханум Кемине, Мирза-Абдул Шахин, Молла Салех Бюль-Бюль, Бехрам бек Федаи и другие сочли себя позабытыми (около 40 литераторов). Всего салон посещали свыше 70 чел. [15, с. 286]. Любовь к поэзии объединяла людей разных профессий и положения. Это были поэты XIX-начала XX вв. - Абдуллабек Аси, Фатьма ханум Кемине, Мешади Эйюб Баки, Абулла Гасан Шахид, Бахыш бек Сабур, Бахрам бек Федаи, Мирза Махоммед Катиб, Мирза Садыг Асад оглу (Садыхджан), Гаджи Хюсю, Мешади Иси, Джаббар Гарьягды оглу и др., обсуждавшие вопросы классической поэзии, философии, изучения языков, проблемы школ и всеобщего образования [1, с. 177; 6, с.200]. Члены данного общества вели переписку как между собой, так и с другими литературными кружками того времени – «Бейт ус-Сафа» и «Меджме уш-шуара» (80-е гг. 19 в. -1915г.) [17, с.182-183; 5, с. 346].

Из «Общества музыкантов» или «Меджлис певцов и ханенде», открытого М.М. Наввабом в 80-х годах XIX века в Шуше вышло много прославленных музыкантов, ханенде, например: Джамиль Мешади Амиров, Исмаил Абдуллаев, Сеид Шушинский, Дж. Гарьягды оглу. После двух лет обучения в школе Навваба Исмаилу Абдуллаеву было «дозволено в праздниках и музыкальных вечерах» [17, с.187-188] самостоятельно выступал он как ханенде на свадьбе сына известного в то время тариста Садыхджана [17, с.188; 22, с.117, 125]. Для пропаганды передовых педагогических идей М.М. Навваб выписывал издающиеся в различных городах мира газеты – «Экинчи» (Баку), «Ахтар» (Стамбул), «Хабль уль-Матин» (Калькутта) и отдавал их в распоряжение членам литературного кружка «Меджлис-и фарамушан» [3, с. 242].

Имевшее место исполнение различных, религиозных обрядов оказывало отрицательное влияние на музыку и всячески подогревалось царскими властями и господствующими клас-сами Баку, Шемахе, Шуше. Но деятели музыкального искусства со своей стороны заботились о совершенствовании как народных мугамов, так и музыкальных инструментов.

В начале XX века большой интерес стала приобретать организация фольклорных, так называемых восточных концертов, сыгравших особую роль в пропаганде азербайджанской народной музыки. В 1901 г. А.А. Ахвердиев провел в г. Шуше так называемый восточный концерт. Накануне этого концерта газета «Каспий» на своих страницах рассказывала об искусстве ашыгов [11; 12].

Подытоживая, отметим, что литературно-музыкальные меджлисы способствовали активизации общественной деятельности видных представителей азербайджанской литературы и играли важную роль в культурной жизни Азербайджана. Значение литературно-музыкальных меджлисов, как главной формы публичного исполнения мугамов в XIX-XX вв., заключается в том, что, обсуждая вопросы искусства, философии, литературы, ведя литературно-музыкальный обмен, они выполняли важную роль в приобщении слушателей к поэзии и музыке и обеспечивали высокий уровень мугамного исполнительства и его профессионализации. Наряду с признанными мастерами, в меджлисах принимали участие и молодые исполнители мугама, для которых меджлисы XIX - начала XX вв. стали своего рода школой мастерства и сильнейшим стимулом к профессиональному совершенствованию. Значение и роль литературных меджлисов заключалась также и в том, что они способствовали сохранению и распространению классического наследия азербайджанской культуры, на котором воспитывается подрастающее поколение.

В результате победы Азербайджана во второй Карабахской войне достоянием мировой общественности стали разрушенные армянскими оккупантами исторические архитектурные памятники, оскверненные мусульманские святыни, арменизированные христианские храмы Кавказской Албании. Сегодня руководство Азербайджана прилагает колоссальные усилия по восстановлению разрушенного армянскими оккупантами культурного наследия на территории Карабаха. И, конечно, самым знаменательным событием после сокрушительной Победы в Отечественной войне стало возрождение международного музыкального фестиваля «Хары-бюльбюль», посвященный памяти наших шехидов. Фестиваль прошел после 10-летнего перерыва в городе Шуше в мае 2021 года, и на Джыдыр дюзю вновь прозвучал Азербайджанский мугам.

ЛИТЕРАТУРА

1. Агаева С.Х. Энциклопедия азербайджанского мугам. Баку, изд. Фонд Гейдара Алиева, Союз композиторов Азербайджана. Научный центр «Азербайджанская национальная энциклопедия», 2012. -264с.
2. Альбом Х. Натаван // Институт рукописей им. М.Физули НАН Азербайджана. М-117/3289. - 228с.
3. Антология азербайджанской поэзии в 3-х тоах.т.2 Под ред. Антокольского П., Гусейнова Ч. М.: Госиздат худ.лит., 1960, 382с.
4. Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüqəti. Baki: Elm, 1969. – 248 s.
5. Qarayev N. Poetik məclislər (XIX əsr Azərbaycan ədəbi məclisləri nümayəndələrinin yaradıcılığından seçmələr). Bakı: Yaziçı, 1987. – 525s.
6. Qarayev.N. XİX əsrdə Azərbaycanda ədəbiyyat məçlisi. Bakı: Nurlan, 2010. -264 s.
7. История азербайджанской музыки. Ч. 1. Баку: Маариф, 1992. – 335с.
8. Жуковский А. Неизданные древности Баку. // Архитектурный вестник. Т. 2. М., 1859,
9. Кавказ, 1848, 23 окт., № 43
10. Каспий, 1897, 9 мая, № 103
11. Каспий, 1901, 6 февр., № 29
12. Каспий, 1901, 23 марта, № 67
13. Керимов И.С. История Азербайджанского театра в 3-х томах. Т. 1. Баку: Элм, 2008. – 689с.
14. Махмудов Я., Дж. Мустафаев. Шуша-Панахабад. Баку: Тэхсил, 2012. – 151с.
15. Рустамова А. Набиев Б. Азербайджанская литература. Баку: Элм, 2005. – 465с.
16. Сафарова З.Ю. Мир Мохсун Навваб. Баку: Язычы, 1983. – 42с.
17. Сафарова З.Ю. Музыкальная наука Азербайджана (13-20вв.). Баку: Азернешр, 2013. – 432с.
18. Сафарова З.Ю. Пророк восточной музыки: жизнь и творчество Джаббар Гарягдыоглу. Баку: Шарг-Гарб, 2011. - 216с.
19. Сеид-заде А.А. Мирза Шафи Вазех. Баку: Азернешр, 1969. – 325с.

20. См. Миклашевская Н.М. Художники 19 века (Мирза Кадым Иревани и Мир Мохсун Навваб) // Сб. Искусство Азербайджана. Вып. 4. Баку: Изд-во АН Азерб. ССР, 1954.
21. Труды Республиканского Рукописного фонда АН Азерб. ССР. Т. 1. Баку, 1961.
22. Шушинский С. Народные певцы и музыканты Азербайджана. М.: Советский композитор, 1979. – 200с.
23. Эльдарова Э. Искусство ашыгов Азербайджана. Баку: Ишыг, 1984. – 119с.

XÜLASƏ

ŞUŞA - AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI

Vahabova E.R.

XXI əsrin əvvəllərində Azərbaycan torpaqlarının 20%-nin 30 ilə yaxındır davam edən işğalının başa çatmasının şahidi olduq. Bu, zəfərli Vətən Müharibəsi başa çatdıqdan sonra baş verdi. Təbii ki, 44 günlük ikinci Qarabağ müharibəsindən sonra hələ də bütün ərazilər Azərbaycanın yurisdiksiyasında olmayıb və bunun nə vaxt baş verəcəyi hələlik məlum deyil. Lakin xalqın tarixi yaddaşı elədir ki, bütün Azərbaycan xalqının, xüsusən də Qarabağın mədəni həyatında əldə edilmiş bütün nailiyyətləri silmək mümkün deyil. 19-cu əsr - 19-cu əsrin əvvəlləri. XX əsr. Dövri mətbuat materialları və əlavə ədəbiyyat əsasında məqalədə Şuşada teatrın inkişafı qısa şəkildə işıqlandırılır, təsviri incəsənət və ədəbi-musiqi məclisləri nəzərdən keçirilir.

Açar Sözlər: *mədəni irs, teatr, tamaşa, təsviri sənət, ədəbi-musiqi məclisləri, xanəndə, Azərbaycan muğamı, "Xarı-Bülbül" festivalı*

SUMMARY

SHUSHA - THE CULTURAL CAPITAL OF AZERBAIJAN

Vagabova E.R.

At the beginning of the 21st century, all of us, and the whole world with us, witnessed the end of almost 30 years of occupation of 20% of Azerbaijani lands. This happened after the end of the victorious Patriotic War. Of course, not all territories have yet been under the jurisdiction of Azerbaijan after the 44-day second Karabakh war, and when this will happen is still unknown. The world learned and saw with its own eyes the vandalism and barbarism against the cultural heritage of Azerbaijan, committed by the Armenian occupiers, about their "cultural cleansing". But the historical memory of the people is such that it is impossible to erase all the achievements that took place in the cultural life of the Azerbaijani people of all of Azerbaijan, and of Karabakh, in particular, the revival of which was observed at the turn of the 19th - early 19th century. XX centuries Based on materials from periodicals and additional literature, the article briefly highlights the development of theater in Shusha, considers fine arts and literary and musical majlises.

Key Words**:** *cultural heritage, theatre, performance, visual arts, literary and musical majlises, khanende, Azerbaijani Mugham, festival «Khari-bulbul»*

О НЕКОТОРЫХ ПАМЯТНИКАХ ЭПОХИ СРЕДНЕЙ БРОНЗЫ КАРАБАХА

Валиева Г.
Институт Археологии, Этнографии и Антропологии НАНА, Баку, Азербайджан
g.aliyeva19@mail.ru

Узерликтепе является первым археологически исследованным поселением городского типа периода средней бронзы. Памятник был обнаружен в ходе масштабных полевых исследований в 50-х годахXXвека комплексной археологической экспедицией Института Археологии Академии Наук СССР совместно с сотрудниками Института Истории Академии Наук Азербайджанской СССР. Здесь велись археологические раскопки под руководством А.Иессена, К.Кушнаревой и другими археологами. Это поселение находится на востоке города Агдам, по правую сторону дороги Агдам-Агджабеди. Общая площадь раскопа на время первых исследований достигала 484 кв м. Поселение расположено на естесственном холме высотой 3-3,5м.

Во время исследований здесь было обнаружено три, отличающихся друг от друга культурных слоя. Глубина первого, нижнего культурного слоя поселения 60-80 см. В этом слое не было обнаружено оборонительной стены. Характерной чертой этого слоя являются многочисленные хозяйственные ямы. В этом слое также часто встречались останки костров. Некоторые кострища были обрамлены речными камнями. В первом слое были так же обнаружены остатки постройки, разрушенной во время пожара. Одним из самых интересных находок являются факты, связанные с металлообработкой. Глубина второго слоя достигает 1,5 метра. Здесь были найдены глиняные очаги, стена из сырцового кирпича. Во втором слое была обнаружена оборонительная стена общей длиной 35м. Ширина стены 2м, высота – 1м. Стена была возведена из сырцового кирпича. В этом слое было обнаружено больше культурно-материальных предметов. Третий культурный слой лежит над оборонительной стеной. В этом культурном слое выявлены строительные остатки ямы, остатки стен жилища. Около стен был обнаружен очаг. Внутри очага найдены глиняная женская фигура, глиняная лепешка и обгорелые зерна. У остатков стены находится очажное сооружение из глиняных жгутов цилиндрической формы, рядом – вырыта яма для золы. По мнению Г.Ф. Джафарова среднебронзовое поселение узерликтепе существовало с начала по середину IIтыс. до н.э..

Датировка поселения Узерликтепе была определена радиоуглеродным методом, позволившим установить возраст среднего слоя и отнести его к 3000 – 3260, т.е. 1340 – 260 гг. до н.э.. А.А. Иессен, определив стратиграфию Узерликтепе, датировал ее нижний горизонт началомIIтысячелетия до н.э., средний горизонт – XVII – XVвв., верхний горизонт – XV – XIVвв. до н.э..

XÜLASƏ

QARABAĞIN ORTA TUNC DÖVRÜNÜN BƏZİ ABİDƏLƏRİNDƏ

Vəliyeva Q.

Üzərliktəpə Orta Tunc dövrünə aid arxeoloji cəhətdən tədqiq edilmiş ilk şəhər tipli yaşayış məskənidir. Abidə XX əsrin 50-ci illərində SSRİ Elmlər Akademiyasının Arxeologiya İnstitutunun kompleks arxeoloji ekspedisiyası Azərbaycan SSR EA Tarix İnstitutunun əməkdaşları ilə birgə genişmiqyaslı çöl tədqiqatları zamanı aşkar edilmişdir. . Burada A.Jessenin, K.Kuşnarevanın və başqa arxeoloqların rəhbərliyi ilə arxeoloji qazıntılar aparılmışdır. Bu qəsəbə Ağdam şəhərinin şərqində, Ağdam-Ağcabədi yolunun sağ tərəfində yerləşir. İlk tədqiqatlar zamanı qazıntının ümumi sahəsi 484 kv.m-ə çatmışdır.Yaşayış məntəqəsi 3-3,5 m hündürlüyündə təbii təpədə yerləşir.

Tədqiqat zamanı burada üç fərqli mədəni təbəqə aşkar edilmişdir. Yaşayış məntəqəsinin birinci, aşağı mədəni təbəqəsinin dərinliyi 60-80 sm-dir. Bu təbəqədə müdafiə divarına rast gəlinməmişdir. Bu təbəqənin xarakterik xüsusiyyəti çoxsaylı təsarrüfat quyularının olmasıdır. Bu təbəqədə ocaq qalıqlarına da tez-tez rast gəlinirdi. Ən maraqlı tapıntılardan biri metal emalı ilə bağlı faktlardır. İkinci təbəqənin dərinliyi 1,5 metrə çatır. Burada çiy kərpicdən hörülmüş divar aşkar edilmişdir. İkinci təbəqədə müdafiə divarı aşkar edilmişdir. Burada yaşayış yeri, ocaq qalıqları tapılmış, birinci və orta təbəqəyə aid çoxsaylı arxeoloji materiallar bir-birindən çox da fərqlənmirdi. Üçüncü mədəni təbəqə müdafiə divarının üstündə yerləşir. Bu mədəni təbəqədə tikinti qalıqları, yaşayış evinin divarlarının qalıqları aşkar edilmişdir. Divarların yaxınlığında ocaq tapılıb. Ocağın içərisindən gil qadın fiquru, gil məişət məmulatı və yanmış taxıl qalıqları aşkar edilmişdir. G.F. Cəfərova görə Üzərliktəpə Orta Tunc yaşayış yeri e. ə. II minilliyin əvvəlindən ortalarına qədər mövcud olmuşdur.

Üzərliktəpə yaşayış məntəqəsinin dövrü radiokarbon üsulu ilə müəyyən edilmişdir ki, bu da orta təbəqənin yaşını təyin etməyə və onu 3000 - 3260-a aid etməyə imkan vermişdir, yəni e.ə. 1340 – 260. A.A. Yessen Üzərliktəpənin stratiqrafiyasını müəyyən edərək onun aşağı üfüqünü e. ə. II minilliyin əvvəllərinə, orta üfüqünü 17-15-ci əsrlərə, yuxarı üfüqünü isə e.ə. XV-XIV əsrlərə aid etmişdir

SUMMARY

ON SOME MONUMENTS OF THE MIDDLE BRONZE AGE IN KARABAKH

Valieva G.

Uzerliktepe is the first archaeologically explored urban-type settlement of the Middle Bronze Age. The monument was discovered during large-scale field research in the 50s of the XX century by a complex archaeological expedition of the Institute of Archeology of the USSR Academy of Sciences together with employees of the Institute of History of the Academy of Sciences of the Azerbaijan USSR. Archaeological excavations were carried out here under the leadership of A. Jessen, K. Kushnareva and other archaeologists. This settlement is located

in the east of the city of Agdam, on the right side of the Agdam-Agjabadi road. The total area of the excavation at the time of the first studies reached 484 sq. m. The settlement is located on a natural hill 3-3.5 m high.

During the research, three distinct cultural layers were found here. The depth of the first, lower cultural layer of the settlement is 60-80 cm. No defensive wall was found in this layer. A characteristic feature of this layer are numerous utility pits. The remains of bonfires were also often found in this layer. One of the most interesting findings are facts related to metalworking. The depth of the second layer reaches 1.5 meters. Clay hearths and a wall made of raw bricks were found here. A defensive wall was found in the second layer. Here were found the remains of a dwelling, a hearth, numerous archaeological materials from the first and middle layers did not differ much from each other. The third cultural layer lies above the defensive wall. In this cultural layer, the construction remains of a pit, the remains of the walls of a dwelling, were found. A hearth was found near the walls. A clay female figure, a clay cake and burnt grains were found inside the hearth. According to G.F. Jafarov, the Middle Bronze settlement of Uzerliktepe existed from the beginning to the middle of the 2nd millennium BC.

The dating of the Uzerliktepe settlement was determined by the radiocarbon method, which made it possible to establish the age of the middle layer and attribute it to 3000 - 3260, i.e. 1340 - 260 BC. A.A. Jessen, having determined the stratigraphy of Uzerliktepe, dated its lower horizon to the beginning of the 2nd millennium BC, the middle horizon to the 17th-15th centuries, and the upper horizon to the 15th-14th centuries BC.

ГОРОД ШУША - КОЛЫБЕЛЬ АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКИ

Гасанова А.А.
Сумгаитский Государственный Университет, Сумгаит, Азербайджан
amina.gasanova5@mail.ru

Ключевые слова: *искусство, жанры, баяты, ашугская музыка театральные представления.*

В литературном памятнике дастане «Китаби-Деде-Коркут» имеются ряд отрывков, связанные с музыкой и здесь же перечисляются название различных музыкальных инструментов. И это все говорит о том, что наша музыка является самой древней музыкой в истории Востока. История музыки Карабаха занимает важное место. Имеются много жанров искусства. Среди них: ашугский жанр, баяты, отличающиеся своей древностью. Историческим краем Азербайджанских ашугов является Карабахская ашугская среда**.** Исполнение ашугской музыки вступило в своей «цветущий» период в эпоху Ашуга Валеха. Он был большим мастером слова, исполнял песени: «Карабах Шикестеси», «Кясме Шикесте», « Баш Сарытель»,» Орта Сарытель». Своими баяты, известен Сары Ашуг. В исторических документах говорится, что Сары Ашуг бросил вызов тем, кто говорил, что слагать баяты это женское дело. Творчество ашугов Молла Джума, Ашуг Алескер, Ашуг Али, Ашуг Гусейн, Ашуг Мохаммед оказало благоприятное влияние на развитие ашугского искусства в Карабахе. Среди ашугов были и женщины. Среди них можно назвать Ашуга Пери, которая родилась в Карабахе.

Это все происходило в эпоху слияния письменной литературы с фольклором. Даже в период колониальной политики царизма в средине XIX века, наш народ находил возможность, чтобы сблизиться с культурой России и Запада. И это говорить о том, что в Азербайджане возникали новые культурные связи. Город Шуша, который прославился на весь Азербайджан, как великий литературный центр уже со времен Вагифа. В Шуше были цирковые представления, театры, проводились Восточные и Европейские концерты, существовали библиотеки, типографии, семинарии и очень много культурно-просветительных учреждений. А уже начиная с 40-х годов XIX века в Шуше развиваются и другие области искусства. Любители театра демонстрировали различные театральные представления. Следует отметить, что в 1845 году в истории Кавказа были продемонстрированы первые театральные представления. Жители Шушы выражали свой интерес к театральным представлениям, а здание для театра было построено в 1891 году. Даже известная трагедия Шекспира «Отелло» была впервые поставлена на театральной сцене в Шуше. С другими областями искусства начиная с первой половины XIX века берет свое начало исполнительное искусство. Исполнительное искусство было широко развито в Карабахском крае, особенно в городе Шуша. Здесь проживало очень много музыкантов, певцов, танцоров, чем в других районах Азербайджана [1.стр.98-131]. *Занимающийся изучением истории музыки Карабахского народа,* известный *музыковед В.Виноградов писал о музыкальной жизни Шуши и* о *музыкантах. Он писал »панорама города Шуши характеризуется своей красотой, окутанных зеленым покровом, которым восхищаются путешественники. Но на том красота Шуши не заканчивается, дело в том, что тут очень много музыки. Здесь можно услышать народные*

песни, певцов, музыкантов, посмотреть танцы». Музыканты Шуши» создали историю музыки Азербайджана и представили ее не только на своей родине, но и в других странах Востока» [2.стр.9].

В 70-80-х годах прошлого века в Шуше были созданы музыкальные школы, кружки, собрания, музыкальные салоны. В создании музыкальных школ в Шуше сыграли Харрат Гулу и Молла Ибрагим. Уроками музыки в школе Моллы Ибрагима занимались студенты до 13-14 лет, а чуть старше в школе Харрата Гулу. Известным музыкантом того времени следует отметить Харрат гулу Мохаммеда. Он прекрасно знал Восточную классическую музыку, писал прекрасные стихи. Известный исполнитель Гаджи Гюсю и музыковед Мир Мохсун Навваб создали в Шуше собрание «Мусигишунаслар меджлиси» это все было организовано после смерти Харрата Гулу. На таких собраниях шло обсуждение музыки, стихов и искусства и очень внимательно относились на правильное исполнение со стороны исполнителей. Исполнители обычно выступали уже начиная с 80-90-х годов XIX века между перерывами, когда шли театральные представления. Первое такое выступление было в Тифлисе и в Шуше.

В 1901 году в Азербайджане состоялся первый Восточный концерт, под руководством драматурга Абдуррахим бея Хагвердиева в городе Шуше. В «Театре Хандемирова» состоялся этот концерт и на этом концерте выступили Джаббар Гарьягдыоглу, Мешеди Дадаш, из таристов Садыхджан. Мешади Зейнал, Ага Багдагюльоглу, из ашугов Аббасгулу и т.д. Ахмед бей Агаев, который был учителем французского языка Реального училища, присутствующий на этом концерте, который в последствии стал известным журналистом писал: «Зрители с большим воодушевлением послушали оригинальную тюркскую музыку и народные песни» [3 стр.5].

В 90-х годах XIX века в Шуше были организованны литературные и музыкальные собрания искусства (собрание Музыковедов, собрание Каллиграфов, собрание Исполнителей, собрание Фармацевтов, собрание Архитекторов и т.д.). Шуша постепенно стал центром музыки и искусства. Интересные театральные представление, которые можно было посмотреть в Шуше, звуки музыки, которые доносились почти изо всех домов, не переставали восхищать путников и путешественников. И поэтому Шушу называли «Консерваторией Кавказа». Шуша прославился на весь мир своей красотой природы, пейзажами. Уже начиная с начала XX века город Шуша стала консерваторией Кавказа, колыбелью Азербайджанской музыки и городом талантов. Узеир Гаджибейли автор гимна Азербайджана, великий драматург, автор первого либеретто, основатель жанра музыкальной комедии был родом из Шуши. В Шуше было очень много музыкальных талантов – Гаджи Гюсю, Хуршудбану Натаван, Рашид Бехбутов и т.д. Следует отметить один факт, что Шушинская Вокальная Школа занимает такое же положение в истории музыки Востока, как и Итальянская Вокальная школа в истории Европейской музыки[4].

ЛИТЕРАТУРА

1. Фируддин Шушинский, книга » Шуша» Баку,1968 г. стр.9**А**8-131
2. В.Виноградов « Узеир Гаджибеков и Азербайджанская музыка» М.,1938., стр.9
3. Газета «Каспий», 11 января 1902 г., №9
4. (https:// www.vitualkarabah.az/ru/post-item/25/40/muzıka-karabaha.htmt/

XÜLASƏ

ŞUŞA ŞƏHƏRİ - AZƏRBAYCAN MUSİQİSİNİN BEŞİYİ

Həsənova Ə.A.

Təqdim olunan məqalə müasir dövrün ən aktual və maraqlı sahələrindən biri olan Qarabağ müsiqisnin tarixi inkişafına həsr olunur. Qeyd etmək lazımdır ki, hələ" Kitabi-Dədə-Qorqud"dastanında musiqi alətləri barədə məlumatlar verilir, bu da ondan irəli gəlir ki, Azərbaycan musiqisi ən qədim musiqilərdən biridir. Tarixi sənədlərdən məlum olunur ki, aşıq musiqisi, bayatılar qədim incəsənət növlərindən biri hesab olunur. Hələ XIX əsrin ortalarından başlıyaraq Azərbaycan xalqı Rus və Avropa mədəniyyətinə maraq göstərməyə başlıyır. Mədəniyyətin ocağı Şuşa şəhərinın qədim tarixi musiqisi mövcudur.

Açar sözlər: *bədii, janrlar, bayatılar, aşıq musiqisi teatr tamaşaları.*

SUMMARY

SHUSHA CITY - THE CRADlE OF AZERBAIJANI MUSIC

Gasanova A.A.

The presented article is dedicated to the historical development of Karabakh music, one of the most relevant and interesting areas of modern times. It should be noted that the epos "Kitabi-Dada-Gorgud" still provides information about musical instruments, which is due to the fact that Azerbaijani music is one of the oldest. It is known from historical documents that ashug music and bayats are one of the ancient arts. Beginning in the middle of the 19th century, the Azerbaijani people began to show interest in Russian and European culture. The center of culture Shusha has ancient historical music

***Key words**: art, genres, bayats, ashug music theatrical performances.*

КРАТКИЕ СВЕДЕНИЯ ОБ АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ В НЕКРОПОЛЕ «ПАЛЫДЛЫ» В 2009-2014 ГГ.

Джафарова Д.
Институт Археологии, Этнографии и Антропологии НАНА
di.jafaroff@gmail.com

***Ключевые слова**: Азербайджан, Карабах, Агдам, «Палыдлы», грунтовые погребения, артефакты*

После двадцатилетнего перерыва Гарабахская археологическая экспедиция Института Археологии и Этнографии Национальной Академии Наук Азербайджанской Республики под руководством проф. Гидаята Джафарова, при непосредственном участие автора данной статьи в 2009г. возобновила полевые археологические исследования на территории Агдамского района и прилегающей зоне.

Основным объектом исследования экспедиции был некрополь эпохи поздней бронзы и раннего железа «Палыдлы».

Некрополь «Палыдлы» является одним из уникальных памятников эпохи поздней бронзы и раннего железа. Памятник расположен в Гарабахской низменности между селениями Мирашелли и Юзбашылы Агдамского района Азербайджанской Республики. Здесь стационарные исследования проводятся с 2009 года. В некрополе наземные признаки в виде холма, кромлеха, менгира или же каменного скопления отсутствуют. На глубине 80 см - 1,3 м. выявлены простые грунтовые погребения. За более чем столетний период археологических исследований на территории Гарабаха подобный тип погребальных памятников выявлен впервые.

В 2009-2010 г.г. на площади 300м^2 исследованы остатки восьми грунтовых погребений. Размеры погребения различные (2,5х1,5х0,8; 3х1,7х1м; 3,5х2,5х1,2м). Обряд захоронения: на левом или на правом боку, головой на северо-запад (№ 1, 2, 7), на восток (№3), или же без захоронения покойника (№4).

Археологические материалы в основном состоят из керамических сосудов различного типа, назначения и размеров. Это хозяйственные кюпы, одноручные и без ручек кувшины, чайниковидные сосуды с двумя ручками, снабженными слив-носиками, маслобойка, широкогорлые с глубоким дном блюда, кухонные горшки, миски, миниатюрные узкогорлые кувшинчики и т.д. Цветовые гаммы колеблются от серого, блестящего черного до красного. Некоторые сосуды покрыты сетчатыми, желобчатыми, спиралевидными, нарезными или же лощенными линиями, насечками, каннелюрами.

Другие археологические находки представлены железным кинжалом с бронзовой наверший, бронзовыми браслетами, серьгами, кольцами, медальоном. Среди многочисленных украшений выделяются крупные шаровидные и рубленые бусы из красного сердолика, а также пастовые, бирюзовые, перламутровые бусины, изделия из раковина крупных морских моллюсков.

В 2013 г. исследована -9, а в 2014г. – 7 погребений. Шесть из исследованных погребений были ограблены в древности (№17, 18, 22, 23, 24, 26). Поэтому, восстановить первоначальный погребальный обряд и точнее число артефактов не удалось.

Другие погребения (№14, 15, 16, 19, 20, 21, 25,27,28,29) сохранились в целостности. Размеры могильной ямы различные (2,5х2,5х0,8; 3,5х4,5х1,2); 2х1,8х1 м и т.д.). Обряд захоронения на правом или на левом боку, головой на северо-запад, на запад, ногами на восток.

Археологические материалы в основном состоят из керамических сосудов различного типа, назначения и размеров. Это хозяйственные и парадные кувшины, в основном с одной или двумя ручками, горшки, блюда, миски, кухонные горшки, миниатюрные узкогорлые кувшинчики, маслобойки. Цветовые гаммы колеблются от серого, блестящего черного, до красного. Некоторые сосуды покрыты сетчатыми, желобчатыми, спиралевидными, нарезными или лощеными линиями, насечками, выпуклыми орнаментами.

В числе артефактов также имеются бронзовые браслеты, серьги, кольца, бронзовые и железные кинжалы. Среди многочисленных украшений выделяются крупные шаровидные и рубленые бусы из красного сердолика, а также пастовые, бирюзовые, перламутровые бусины, изделия из раковины морских моллюсков.

Артефакты из некрополя «Палыдлы» находят близкие аналогии из других синхронных памятников Азербайджана и прилегающих территории[1; 2; 3; 4; 5]

На основе анализа всего археологического комплекса грунтовые погребения некрополя «Палыдлы» предварительно датируются XII-XI в.в. до н.э. Весь комплекс хорошо вписывается во второй этап развития этап развития Ходжалы-Гедабекской археологической культуры.

ЛИТЕРАТУРА

1. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, Изд.АН Азерб.ССР, 1959, стр. 121 и др., tabl.XXIII, 11-12; tabl.XXVIII, 7, 10, 11; tabl.XXXIII, 2, 3, 9, 11;tabl. XLII, 3,4.

2. Ивановский А.А. По Закавказью. МАК, М., 1911, вып. VI, с.145-146.

3. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тиблиси, Изд.АН Груз. ССР, 1940, с.55.

4. Hüseyinov M.Goranboyda Muncuqlutepe nekropolu. Azərbaycanda Arxeoloji Tedqiqatlar. (2009).Bakı,"Xəzər Universitetının" nəşriyyatı, 2010, s. 134-135.

5. Cəfərov H.F. Qədim Qarabağ. Bakı, Elm, 2020, Tablo 44,46, 49,50

SUMMARY

BRIEF INFORMATION ABOUT ARCHAEOLOGICAL RESEARCH IN THE PALYDLY NECROPOLIS IN 2009-2014

Jafarova D.

The "Palydly" necropolis is one of the uncommon of the later bronze and early iron. This monument is located in Karabakh lowland between villages Mirashelli and Yuzbashili of the Aghdam region of the Republic of Azerbaijan. Stationary research have been operating here since 2009. In necropolis ground sings in the form of hill, cromlech, menhir, otherwise stone clusters is absent. At a depth of 80 sm-1,3 m identified simple groundwater cellar.

For more than a hundred years archeological research on the territory of Karabakh similar type groundwater monument identified for the first time, until including 2014 with excavations identified 29 groundwater, ones 9 (nine) in 2013 and 7 in 2014. Three of the studied cellar were stolen in antiquity. (No 17, No 18, No 22). For that reason initial cellar rite established and extract number of artifact failed. Other cellar preserved in the integrity. Dimensions of the pit is different 2,5 x 2,5 x 0,8; 3,5 x 4,5 x 1,2) (2 x 1,8 x 1 B.C) burial ceremony on the right or on the left side head to the northwest, west, feet to the last. Archeological research basically comprises from various type purpose and size of ceramic vessel. These household and parade pitchers, mainly with one or two handless, pot, dishes, bowls, cooking pot, miniature narrow-necked jugs, churn, gamma lightning vibrating from grey, brilliant, black to red one. Some vessels coating with mesh, grooved, spiraling, rifled or polished, lines and notches.

Among artifacts also bracelets, ring, earrings, bronze and daggers. Among the numerous jewelry allocated large, spherical chopped bead from red carnelian as well as turquoise, nacreous beads, ware from sink calms.

On a clear analysis all archeological complex groundwater cellar necropolis "Palydly" preliminarily dated XII-XI B.C. All complex well discharged to the second stage of development Khodjali-Gedebey archeological culture.

Keywords: *Azerbaijan, Karabakh, Aghdam, "Palydly", ground burials, artifacts*

MÜNDƏRİCAT

PLENAR İCLAS
ПЛЕНАРНОЕ ЗАСЕДАНИЕ
PLENARY SESSION

1. **İbrahim E.A.** General analysis of Turkey-Azerbaijan relations from the caucasian islamic army to the Karabakh victory (TNDU)..... 3
2. **Əhmədov E.İ.** Azərbaycanın ikinci Qarabağ müharibəsində tarixi qələbəsini şərtləndirən amillər və diplomatik uğurları (ARPDİA)..... 3
3. **Гурам Мархулия Рожденович.** Освободительная война Азербайджанского народа и синтетический характер Российской геополитики в регионе (УГНТУ) 11
4. **Вильданов Р.Р.** История Карабаха в период средневековья и раннего нового времени (СГУ)..... 12
5. **Baxşəliyev A.B.** İkinci Qarabağ müharibəsində xalq-iqtidar birliyi (SDU)..... 15

I BÖLMƏ. QARABAĞIN SİYASİ TARİXİ

I СЕКЦИЯ. ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ КАРАБАХА

I SECTION. POLITICAL HISTORY OF KARABAKH

1. **Abbaszadə N.M.** Azərbaycan Respublikasının xarici siyasətində Dağlıq Qarabağ problemi (2003-2017-ci illər) (SDU) 20
2. **Abdullayev İ. H.** Kürəkçay müqaviləsi və onun nəticələri (MLK).....23
3. **Abdullayev N.M.** Budapeşt sammitində Dağlıq Qarabağ məsələsi (SDU) 26
4. **Ayten Can.** İkinci Qarabağ savaşının Alman basınına yansımaları (AAMU, Türkiyə) 28
5. **Babayev B.H.** Ömər Faiq Nemanzadə erməni düşmənçiliyi haqqında (NDU) 34
6. **Babayeva G.F.** Heydər Əliyev 1970-80-ci illərdə Dağlıq Qarabağda mədəni siyasətə dair (SDU) 37
7. **Baxşəliyev E.F.** Zəfər Müharibəsi: sosial, iqtisadi, siyasi yekunlar və perspektivlər (AMEA HİHİ).....40
8. **Baxşəliyev F.E.** 44 Günlük Zəfər müharibəsinin əsas nəticələri haqqında (BDU) 44
9. **Baxşəliyev S.F.** Cənubi Qafqaz Zəfər müharibəsindən sonra (ADPU) 47
10. **Balayev A.** Heydər Əliyevin Dağlıq Qarabağ konsepsiyası (AMEA Tİ).....50
11. **Behbudova T. G.** XIX əsrin I yarısında Şimali Azərbaycanda inzibati ərazi bölgüsü (GDU) 54
12. **Bəşirova G.İ.** İkinci Qarabağ müharibəsində Türkiyə-Azərbaycan qardaşlığı (AAHM) 59
13. **Bünyadov Z.V.** Vətən Müharibəsinin tarixi-siyasi əhəmiyyəti (SDU).....62
14. **Cəbrayılova F.S.** Sumqayıt - 1988: "Erməni qətliamı", ya "Böyük Ermənistan" naminə məkrli təxribat? (SDU).....64
15. **Cəfərov H.** Şuşa və ona yaxın bölgədə aparılmış ilkin arxeoloji tədqiqatlar haqqında (ADİU).....67
6. **Cəlalzadə B. M.** Qarabağ Zəfərinə gedən yol Heydər Əliyev irsinin təntənəsidir (SDU) 70
7. **Əhmədov R.V.** Xaçın knyazlığı və məlikliyi (SDU) 74
8. **Əhmədova N.Ə.** Azərbaycanın müstəqillik dövrü tarixşünaslığında erməni-azərbaycanlı münasibətləri məsələsi (ADPU).....76
9. **Əhmədova Ş.M.** Qarabağın siyasi tarixi Qarabağnamələrdə (SDU) 80
10. **Ələsgərov B.İ., Səmədov Y.A.** Qarabağ Bəylərbəyliyinin Azərbaycan tarixində rolu (ADPU-nun Ağcabədi filial) 83
11. **Əlişanova A.A.** Münaqişələrin tənzimlənməsində beynəlxlaq təşkilatların iştirakının tarixi və hüquqi-siyasi əsasları (ARPDİA).....86

12. **Əliyev M.C.** Qədim dövrlərdən XIX əsrə qədər Şuşa şəhərinin tarixi. (AMEA Tİ, ADPU-nun Quba filialı) 88
13. **Əliyeva L.E.** Kürəkçay müqaviləsi və onun nəticələri (SDU) 92
14. **Əliyeva P.İ.** Müstəqillik uğrunda mübarizə və 20 Yanvar hadisələri romanda (ADPU, Şəki filialı) 95
15. **Əlizadə S.Q**. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı soyqırım siyasəti və Qarabağa erməni iddiaları (ADAU) 98
16. **Əmirova Y.F.** İkinci Qarabağ müharibəsində Azərbaycan Türkiyə qardaşlığı (AMEA Tİ) 102
17. **Əsgərova X.İ.** Qarabağ xanlığının ləğv edilməsi (GDU) 104
18. **Əsgərova Z.M.** Qarabağ zəfəri:Azərbaycan-Türk Diaspor Təşkilatlarının birgə fəaliyyəti kontekstində (AMEA Tİ) 107
19. **Əzizova R.Y.** Dağlıq Qarabağ konflikti və xalq hərəkatının başlanması (SDU) 109
20. **Hacıyev O.Y.** Dağlıq Qarabağ probleminin tarixi kökləri (SDU) 114
21. **Hacıyeva H.T**. Qarabağ münaqişəsinin tənzimlənməsində Türkiyənin rolu (ADU) 116
22. **Hacıyeva M.C.** Ermənilərin Azərbaycan ərazisinə köçürülmələri və nəticələri (SDU) 119
23. **Həsənov H.N., Niftəliyev R.Y.** XIX yüzilliyin əvvəllərində Qarabağ Alban kilsəsinin tarixindən (AMEATİ) 121
24. **Həsənov M.H.** Ermənilərin 30 illik Qarabağ təcavüzü (XX əsrin 80-ci illərinin sonu XXI əsrin əvvəlləri) (NDU) 126
25. **Həsənov Y.L.** Qərb dövlətlərinin II Qarabağ savaşına münasibəti (SDU) 129
26. **Həsənova D.** Gülüstan və Türkmənçay sülhü:erməni köçürmələri və onun nəticələri (ADAU) 132
27. **Hüseynov R.S., Salmanov E. İ.** Rusiyanın Cənubi Qafqaz Siyasəti: postmüharibə dövründə hərbi-syasi davranışları (AAHM) 134
28. **Hüseynova S.B.** İkinci Qarabağ müharibəsi və beynəlxalq reaksiyalar. (BDU) 137
29. **Xəlilov E.Ş.** İkinci Qarabağ müharibəsi şanlı tariximizdir (SDU) 140
30. **Xəlilova F.Z.** Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və onun tarixi nəticələri (ARPDİA) 142
31. **İsgəndərov V.Q.** Çarizmin Qafqaz siaysəti və Qarabağ xanlığının işğalı (GDU) 146
32. **İsmailov D.Y.** The role of the people's-army-state union in the glorious patriotic war 2020 (AACU) 148
33. **İsmayılov Ş.** 44 günlük müharibə - şanlı qələbə (SDU) 152
34. **Kəlbiyev H., Kəlbizadə E.H.** Ermənilərin Qarabağa köçürülməsi: səbəblər, nəticələr və mövcud vəziyyət (LDU, AMEA Qİ) 156
35. **Kərimli S.S.** Slavyanların Bərdə şəhərinə hücumu (SDU) 161
36. **Kərimova S.Ə.** II Qarabağ müharibəsində Azərbaycan – Türkiyə qardaşlığı.(SDU) 164
37. **Khudaverdiyeva E.M., Kerimova. A.M.** Azerbaijan's Karabakh victory: restoration of historical (GSU) 166
38. **Qafarova Z. A., Məhərrəmov E.Ə., Həsənov H.N.** Bir daha İbrahimxəlil Xan-Sisianov münasibətlərinə dair (Gəncənin işğalından Kürəkçay müqaviləsinədək)(AMEA Tİ) 169
39. **Qarayev E.T.** Qarabağ bəylərbəyliyinin ərazisi, sərhədləri, inzibati-ərazi bölgüsü və əhalisi (XVI-XVIII əsrin əvvəlləri) (AMEA Tİ) 173
40. **Qasımov Ş.M.** Xocalı Soyqırımı Türklərə qarşı ermənilərin mərhələ-mərhələ gerçəkləşdirilən düşmənçilik siyasətinin təzahürüdür (ATU) 177
41. **Qasımova S.Ə.** Qan yaddaşımız Xocalı faciəsindən 30 il ötür (ADAU) 182
42. **Qocayev S.M.** Xalq-Ordu birliyi (SDU) 185
43. **Quliyeva Ş.R.** Regionda təhlükəsizliyin təmin olunmasında Şuşa Bəyannaməsinin rolu (MDU) 187
44. **Quliyeva T.Ə.** Erməni terroru dünya üçün təhlükədir. (MDU) 190
45. **Qurbanova S.A.** Heydər Əliyevin yeni neft strategiyasının Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə təsiri (GDU) 192
46. **Mammadova S.İ., Azizli Kh.A., Rzayeva N.Sh.** Realities of Karabagh wars:historical background (SSU) 195
47. **Manafov N., Manafova M.** Qarabağ general- qubernatorluğu alman tarixçinin tədqiqatlarında (MDU) 197
48. **Mədədzadə K. M.** Azərbaycanın Qarabağ zəfəri: tarixi ədalətin bərpası (SDU) 199
49. **Məhərrəmov S. Q.** Kürəkçay müqaviləsi və onun nəticələri (SDU) 201

50. **Məhərrəmova S.S.** Azərbaycan türklərinin indiki Ermənistan adlanan tarixi torpaqlarından üçüncü deportasiyası (SDU) 203
51. **Məmmədov Ə.F.** 1920-ci il Qarabağ üsyanı (SDU)....206
52. **Məmmədov F.N., Məmmədov F.F.** Heydər Əliyevin daxili və xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yeri (ATU)....210
53. **Məmmədov N.R.** Azərbaycanın Qarabağ bölgəsindən azərbaycanlıların deportasiyası (1948-1952-ci illər) (AMEA Tİ)....212
54. **Musayev E.A**. Qarabağda erməni işğalı və demoqrafik problem (GDU) 216
55. **Mustafayeva S.M.** Şuşa bəy komissiyasının müvafiq təlimata uyğun yaradılması və fəaliyyəti (AMEA Tİ)....219
56. **Namazova L.V.** Silahlı münaqişələr dövründə qadınlara qarşı zorakılıq. (AMEA HİHİ) 222
57. **Nejla Günay.** XX. Yüzyıl başlarında Kafkasya'da etnik çatışmalar. (QU) 225
58. **Nəsirova N. M.** Azərbaycanın Qarabağ zəfəri tarixi ədalətin bərpası (SDU) 229
59. **Pərvin Ahənçi** Şuşalı məcburi köçkünlər:Dağlıq Qarabağ münaqişəsi, məkan, kollektiv yaddaş (AMEA AEAİ) 232
60. **Rüstəmov M.A.** Qərb dövlətlərinin II Qarabağ savaşına münasibəti (NDU)....235
61. **Rzaxanov R.N.** Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi səbəbləri və həll edilməsi aspektində miqrasiya amilinin yeri və rolu (BDU)....239
62. **Rzayeva G.Ş.** Qarabağda işğal izləri (SDU)....242
63. **Səfərova Ç.Q.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Qarabağda təxribatları (ADAU).... 245
64. **Səfərova G.R.** İkinci Qarabağ müharibəsində İsrailin mövqeyi (ADU) 248
65. **Səlimov Ş.D. II** Qarabağ müharibəsi zamanı Azərbaycana qarşı beynəlxalq reaksiyalar (SDU) 250
66. **Səlimova R. D.**Azərbaycanda ordu quruculuğu və II Qarabağ müharibəsində qələbəyə aparan yol (ADPU).... 254
67. **Süleymanov N.M.** XX əsrin əvvəllərində Cənubi Qafqazda "Erməni məsələsi" (ADİU) 256
68. **Süleymanova N.M.** Erməni təcavüzünün və terrorunun formalaşması tarixindən (ARPDİA) 258
69. **Şamilova A.M.** Ərazimizin bütövlüyünün bərpası-tarixi ədalətin bərpasıdır! (SDU) 263
70. **Toksoy A.O., Şeyda B.A.** Türkmençay antlaşması ve Ermenilerin Azerbaycan'a Göçü. (AAMÜ) 265
71. **Vəliyeva X.T.** Qarabağ kolanıları (AMEA Tİ)....272
72. **Алиева Ф.Б.** Освобождение Шуши (АГАУ)....273
73. **Исмаилова А.М.** Русские и Советские историки об истории Карабахского ханства (ДГУ, РФ) 275
74. **Набиева Э.И.** Вторая Карабахская Война (АГАУ)....279
75. **Сафаров П.Ш.** Армянская фальсификация законов СССР И международных принципов в Нагорном Карабахе в конце 80-Х – в начале 90-Х Гг. XX Века (АГПУ) 281
76. **Юсифова М. Р.** Ходжалинская трагедия-это международное преступление (МГУ) 284

II BÖLMƏ. QARABAĞIN SOSİAL-İQTİSADİ HƏYATI

II СЕКЦИЯ. SOCIO-ECONOMIC LIFE OF KARABAKH

II SECTION. СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ КАРАБАХА

1. **Abayev Y.Q.** İşğaldan azad olunmuş ərazilərdə IV sənaye inqilabi islahatları (ADPU-nun Quba filialı).... 288
2. **Abdullayeva Z.H.** Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur layihələri (SDU) 291
3. **Abdulov K.Ş.** Ermənistanin Qarabağda Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorun fəsadları (SDU).... 293
4. **Abduyev M.A.** Qarabağ çaylarının kimyəvi axım sıralarının bərpası və ion axımı (ADPU, AMEA, Cİ) 296

5. **Adıgözəlova G.R.** İşğaldan azad edilmiş regionların əhalisininin sosial-mədəni problemlərinə dövlət qayğısı (2004-2014) (SDU) 299
6. **Ağamməmmədov N.T.** Qarabağ coğrafi-iqtisadi rayonunun inkişaf perspektivləri və "Böyük Qayıdış"ın həyata keçirilməsi (AMEA Cİ) 301
7. **Ağayev T.D.** Azərbaycanın iqtisadi rayonlarının yeni bölgüsü və onun Qarabağ regionunun bərpası və iqtisdai inkişafında əhəmiyyəti. (SDU) 305
8. **Almənmədli M.G.** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafında sosial-iqtisadi və ekoloji amillər. (SDU) 307
9. **Babaşova Ə.A.** İşğaldan azad edilmiş ərazilərimizdə turizm və rekreasiya potensilaının inkişaf istiqamətləri (SDU) 309
10. **Eldarov N.Ş.** Ekoloji terror (SDU) 311
11. **Əhmədova G.B.** Qarabağ və ətraf ərazilərin pleystosen yaşlı çöküntülərinin stratiqrafiyası (BDU) 313
12. **Əhmədova N.M.** İkinci Qarabağ müharibəsindən sonra Qarabağ iqtisadi rayonunun inkişafı (SDU) 316
13. **Əhmədova T.Y.** Qarabağın tarixi-coğrafiyası və etnik tərkibi (ADAU) 318
14. **Əliyeva E.K**. XIX əsrin 20-30-cu illərində Şuşa şəhərinin sosial-iqtisadi həyatı ("Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı"nın materialları əsasında) (AMEA Tİ) 321
15. **Əmiraslanova D.Ə.** Qarabağ coğrafi- iqtisadi rayonunun inkişaf perspektivləri (SDU) 323
16. **Gurbanova L.İ.** Information telecommunication technologies in the territories liberated from occupation (SSU) 326
17. **Hacıyeva A.Z., Cəfərova F.M.** Şərqi Zəngəzur İR-nin torpaq-bitki örütüyünün müasir ekolojvəziyyəti, onların optimallaşdırılması və perspektiv inkişaf istiqamətləri (ADİU) 329
18. **Həşimova A.Ç.** İşğaldan azad olmuş ərazilərdə fəaliyyət göstərəcək müəssisələrin sosial öhdəlikləri (DGKA) 332
19. **İsayev Ə.İ.** Azərbaycannın sosial-iqtisadi inkişafında Qarabağ bölgəsinin rolu (2003-2021). (SDU) 335
20. **Qasımlı H.H.** İşğaldan azad edilmiş ərazilərimizdə yaradılmış yeni kitabxana-informasiya müəssisələrinin turizmin inkişafında rolu (BDU) 339
21. **Qasımova N.Z.** Qarabağ və Şərqi Zəngəzurun mədəni, sosial- iqtisadi inkişafının yeni təkamül dövrü (SDU) 342
22. **Qasımova T.M.** Postmüharibə dövründə Azərbaycanda yenidənqurma prosesində vətəndaş cəmiyyətinin yeri və rolu (AMEA, FSİ) 345
23. **Quliyev İ.Ə., Rüstəmova A.M.** Kiçik Qafqazın cənub-şərq hissəsinin quru çöl və yarımsəhra landşafı fonunda kənd təsərrüfatı torpaqlarının su eroziyasından qorunması 348 (AMEA Cİ).....
24. **Məmiyev C.M**. Böyük qayıdış və Azərbaycan Respublikasının özünəməşğulluq siyasəti (SDU) 351
25. **Mərdanov İ.İ.** Şərqi Zəngəzurun ərazisinin landşaft-ekoloji xüsusiyyətlərinin təhlili (1:100000 Miqyasli topoxəritə əsasında) (SDU) 354
26. **Mirzəyev Q.E**. Zəngəzur dəhlizinin aparıcı mövqeyi və siyasi-iqtisadi perespektivləri 358 (BDU) .....
27. **Musayeva M.A.** Ermənistanın Qarabağ ərazisində törətdiyi eko terrorizim (SDU) 362
28. **Musayeva Ş.X.** Tarixi Şuşa qəzası və onun Yelizavetpol (Gəncə) quberniyasının sosial-iqtisadi və ictimai həyatinda oynadığı rolu və yeri (ADAU) 366
29. **Niftiyev F.Q., Babaşova L.M.** Qarabağ iqtisadi rayonunda təhsil müəssisələrinin inkişafi və ərazi təşkilinin iqtisadi-coğrafi problemləri (TETİ) 369
30. **Rzaquliyeva S.D.** Böyük Qayıdış-işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturların yaradılması (SDU) 372
31. **Sadıxova G.N.** XIX yüzillikdə Şuşada nəqliyyat və rabitənin durumu haqqında (AMEA Tİ).....373
32. **Səlimova N.B.** Postmüharibə dövründə Qarabağda sosial-iqtisadi problemlərin həlli istiqamətləri (BBU) 375
33. **Süleymanova T.Ə.** "Böyük Qayıdış" - İnsan kapitalının demoqrafik məsələləri (MDU) 378
34. **Vəliyev A.C.** Azərbaycanda iqtisadi-coğrafi rayonlaşmanın tarixi və yeni rayonlaşmanını əhəmiyyəti (SDU) 380
35. **Yusifova N.Ə.** İşğaldan azad edilmiş ərazilərdə gənclərlə sosial iş və gənclərin işsizlik probleminin həlli (SDU) 383

III BÖLMƏ. QARABAĞIN MƏDƏNİYYƏT TARİXİ

III СЕКЦИЯ. КУЛЬТУРНАЯ ИСТОРИЯ КАРАБАХА

III SECTION. CULTURAL HISTORY OF KARABAKH

1. **Allahquliyeva C.M.** XXI əsr Qarabağ şairi Xurşidbanu Natəvanın Azərbaycan ədəbiyyatında rolu (SDU, SDTK) 385
2. **Babayeva A.N.** Mustafa Çəmənli yaradıcılığında Qarabağ mövzusu. (SDU) 387
3. **Babayeva K.Ş.** Qarabağın dini- tarixi abidələri və erməni vandalizmi. (SDU)....390
4. **Bağırzadə C.V.** Qarabağ bölgəsinin ilk orta əsr şəhərlərinin arxeoloji və nəzəri tədqiqinə dair (GDU).... 393
5. **Baxışova R.R.** Azərbaycanın Qarabağ bölgəsi məktəblərinin dərsliklərlə təmin olunması barəsində (XIX əsrin sonu – XX əsrin əvvəlləri). (AMEA, Tİ) 397
6. **Bədəlova N.S.** Mədəniyyət beşiyi ŞUŞA (SDU).... 400
7. **Bülent Nuri Kılavuz. Azerbaycan bölgesinde türk kültür dönemleri ve Karabağ eserleri** (AAMÜ)…….. 402
8. **Cabarova M.A.** XIX əsrin II yarısında Şuşa ədəbi mühiti (SDU) 406
9. **Çağlayan Y.H., Çağlayan E.H.** IX-X əsr ərəb mənbələrində Bərdənin tarixinin təsvirinə dair (MAÜ, Türkiyə), (AMEA Tİ) 409
10. **Cəfərov P.T.** İlk orta əsr müəllifləri Bərdə şəhəri haqqında (SDU) 413
11. **Əbiyev Q.Ş., Muxtarlı E.A.** Azərbaycan mədəniyyətinin beşiyi Qarabağ (ADBTİA) 415
12. **Əhmədova G.R.** Qarabağın orta əsr bədii şüşə məmulatı (AMEA, AEAİ) 418
13. **Əhmədova V.Ş.** Qarabağ Azərbaycan arxeologiyası və etnoqrafiyasının nadir incisidir (AZMİU)....421
14. **Ələsova A.F.** Qarabağ: erkən oturaq əkinçilik mədəniyyətinin formalaşdığı bölgə kimi (GDU) 425
15. **Əliyeva G.S.** Qarabağın uca zirvəsi–füsünkar Şuşa (AMEA HİHİ) 427
16. **Əliyeva T.Y.** Şuşa qalasının salınma tarixi **(**Şabran Heydər Əliyev Mərkəzi) 431
17. **Əsədova A.V.** Xankəndinin arxeoloji abidələri (SDU) 433
18. **Əsgərov R.H., Babayev B.H., Həsənova N.H., Hüseynov S.N.** Cəlil Məmmədquluzadənin "Kamança" pyesi ermənilərin türk-müsəlman düşmənçiliyinə cavabdır (AMEA FSİ, NDU, NDU, NDU) 436
19. **Fərhadova J.F.** İşğaldan azad edilmiş ərazilərdə təhsil infrastrukturu (SDU) 440
20. **Gazıyeva G.F., Guliyeva V.N.** Shusha - the pearl of Karabakh (GSU) 442
21. **Həsənov S.H.** Mir Mehdi Xəzaninin "Kitabi-Tarixi Qarabağ" əsərində Qarabağın xanlıqlar dövrü memarlığı (DGKA) 444
22. **Həsənov E.L.** Qarabağın mədəni irsinin tədqiqində mərasim ənənələrinin əhəmiyyəti (AMEA Gəncə bölməsi) 449
23. **Həsənova C.V.** Mil-Qarabağ bölgəsinin arxeoloji abidələrinin öyrənilməsi tarixi (DGKA)....452
24. **Həsənova L.T.** Müasir tariximizin təcəssüm olunduğu əsər (Əyyub Qiyas "Sonuncu büt") (AMEA, Əİ)…….. 455
25. **Hüseynova A.H.** Müasir Azərbaycan ədəbiyyatında Qarabağ mövzusu (SDU) 457
26. **İbrahimova N.N.** Qarabağ Azərbaycan mədəniyyətinin beşiyidir (GDU) 460
27. **İsmayılova Ə.Ş.** Mirzə Həsən Qarabaği məsnəvilərində Qarabağ ictimai mühiti (SDU) 463
28. **Muradova K.V.** İşğal zamanı və sonra Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkilər (SDU) 465
29. **Nadirova H. T.** Zəfər müharibəsinin qadın qəhrəmanı. (ADPU) 468
30. **Nəcəfov Ş.N.** Xocalı-Gədəbəy mədəniyyətinin Qarabağ qrupu keramikası. (Etnoarxeoloji tədqiqat) (AMEA, AEAİ) 470
31. **Nəsibli S.A.** Ədəbiyyat dərslərində Qarabağ mövzusu və erməni vəhşiliyinin ifşasına həsr olunmuş əsərlərin tədrisinin əhəmiyyəti (MDU) 474
32. **Qəniyeva A.A.** Qarabağın musiqi mədəniyyəti (SDU) 477
33. **Qasımbəyli C.Q.** Azərbaycan mədəniyyətinin və azərbaycançılığının beşiyi Qarabağ (SDU)....479
34. **Qəniyev T.X.** Qarabağ xanəndəlik sənəti-Seyid Şuşinski (AMK)....482
35. **Quliyev Ə.F., Səmədov Y.A., Səmədova Z.Y.** Şuşa şəhəri Azərbaycan mədəniyyətinin beşiyidir (ADPU) 484

36. **Tağıyeva R.İ.** Zəngəzur toponimi haqqında bəzi qeydlər (SDU) 487
37. **Vəliyeva D.M.** Şuşa: Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi (SDU).....489
38. **Zeynallı G.F.** İlyas Əfəndiyevin yaradıcılığında Qarabağ mövzusu (SDU) 491
39. **Вагабова Э.Р.** Шуша – Культурная Столица Азербайджана (НАНА) 493
40. **Валиева Г.О.** Некоторых памятниках эпохи средней бронзы Карабаха (НАНА).....497
41. **Гасанова А.А.** Город Шуша - Колыбель Азербайджанской музыки (СГУ).....499
42. **Джафарова Д.Г.** Краткие сведения об археологических исследованиях в некрополе «Палыдлы» в 2009-2014 гг (НАНА).....501

Kompüter yığımı *S.Kərimova*
Texniki redaktor *E.Həsrətova*
Dil dəstəyi *Linqvistik Mərkəz*
Məsul katib *prof. Səlimov Şirxan*

Çapa imzalanmışdır: 13.05.2022-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu. Həcmi: 23,18 ş.ç.v.
Sifariş 60. Tiraj 250 nüsxə.
Qiyməti müqavilə yolu ilə.

Sumqayıt Dövlət Universiteti
Redaksiya və nəşr işləri şöbəsi

Müxbir ünvan:

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-88-10
Faks: (0-18) 642-02-70

Web: https://www.ssu-conferenceproceedings.edu.az/

KONFRANS MATERİALLARI

2022 № 1

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
SDU
Redaksiya və nəşr işləri şöbəsi